HEYDƏR ƏLİYEV

MÜSTƏQİLLİYİMİZ

ƏBƏDİDİR

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

HEYDƏR ƏLİYEV

çıxışlar
nitqlər
bəyanatlar
məktublar
müsahibələr

AZƏRNƏŞR
BAKI-1997

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

HEYDƏR ƏLİYEV

MÜSTƏQİLLİYİMİZ ƏBƏDİDİR

birinci kitab

iyun, 1993 - may, 1994

AZƏRNƏŞR
BAKI-1997

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BBK 32
Ə 56

Buraxılışına məsul

RAMİZ MEHDİYEV

HİDAYƏT ORUCOV

Ə 56 ƏLİYEV HEYDƏR
Müstəqilliyimiz əbədidir. - B,: Azərnəşr, 1997. 608 səh.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyevin çoxcildlik əsərlərinin birinci cildinə bu dahi şəxsiyyətin xalqın istəyi və xahişi ilə yenidən ölkə rəhbərliyinə gəldiyi 1993-cü ilin iyunundan 1994-cü ilin may ayına qədər dövrdəki çıxışları, nitqləri, bəyanatları, müraciətləri, müsahibələri və s. toplanmışdır. Bu materiallarda ölkəmizin həmin dövrünün ictimai-siyasi həyatında baş vermiş mürəkkəb proseslər müdrikliklə, obyektiv şəkildə təhlil olunur. Böyük siyasi-tarixi və elmi-nəzəri əhəmiyyət kəsb edən kitabda müstəqilliyin qorunub saxlanılmasının, inkişaf etdirilməsinin dahiyanə praktiki təcrübəsi əksini tapmış, milli dövlət quruculuğu prosesinin başlıca istiqamətləri dəqiqliklə və uzaqgörənliklə müəyyənləşdirilmişdir.

Ə $\frac{0801000000}{M-651(07)-97}$ elansız **BBK 32**

ISBN 5-552-01677-7 ©Azərnəşr, 1997

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

NƏŞRİYYATDAN

XX əsrdə Azərbaycan xalqı iki dəfə müstəqillik qazanaraq milli dövlətçiliyini qurmaq imkanı əldə etmişdir. 1918-20-ci illərdə mövcud olmuş Azərbaycan Demokratik Cümhuriyyəti məlum səbəblərdən süquta uğrasa da, əsrin sonlarında - 1991-ci ildə tarixi ədalət yenidən bərpa edildi. SSRİ imperiyası dağıldı və Azərbaycan xalqı öz tarixi haqqına - milli müstəqilliyə nail oldu. Lakin müstəqillik digər keçmiş sovet respublikaları ilə müqayisədə Azərbaycana böyük qurbanlar və çətinliklər bahasına başa gəldi. Xalqımızın uğrunda əsrlərlə ardıcıl mübarizə apardığı milli azadlığına, dövlət müstəqilliyinə mane olmaq, onun mübarizə əzmini qırmaq üçün ən məkrli siyasi təxribatlar mexanizmi işə salındı. Ermənistanın Azərbaycan torpaqlarının işğalı, respublikamızı daxildən parçalamaq və xalqımızı vətəndaş müharibəsi girdabına sürükləmək cəhdləri, daxili və xarici düşmən qüvvələrin gənc, müstəqil respublikamıza qarşı ideoloji-siyasi və hərbi təxribatları son 7-8 ildə Azərbaycanın hansı çətinliklər və tarixi sınaqlarla üz-üzə gəldiyini göstərir. Lakin bütün bunlar xalqımızın mübarizliyini, gələcəyə inamını, milli-mənəvi mətanətini sarsıda bilmədi. Azərbaycan xalqı qədim və şərəfli tarixinin bu keşməkeşli və ziddiyyətli dönəminə də mərdliklə sinə gərdi, azadlıq, demokratiya yolundan dönmədi.

1993-cü ilin iyun hadisələri, AXC - Müsavat iqtidarının siyasi səriştəsizliyi nəticəsində qardaş qanı axıdılması, ölkənin real parçalanma və vətəndaş müharibəsi həddinə çatdırılması yuxarıda qeyd etdiyimiz təxribatlar zəncirinin xüsusilə təhlükəli bir həlqəsi idi. Məhz xalqın belə bir ağır məqamında dünya şöhrətli siyasətçi Heydər Əliyevin öz müqəddəs xilaskar

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

missiyasıyla böyük siyasətə qayıdışı, xalqın istəyi və arzusu ilə yenidən ölkə rəhbərliyinə gəlişi Azərbaycanda illərlə davam edən anarxiyaya, başıpozuqluğa, siyasi hakimiyyətsizliyə, etnik separatçılığa, iddialı siyasətbazların naşı eksperimentlərinə, hərbiləşmiş cinayətkar dəstələrin qətl və qarətlərinə, özbaşınalıq və dərəbəylik əməllərinə son qoydu. Böyük şəxsiyyətin siyasi müdrikliyi, uzaqgörən siyasəti sayəsində artıq əldən getməkdə olan dövlət müstəqilliyimiz, milli azadlığımız qorunub saxlandı. Heydər Əliyev yorulmaz və gərgin siyasi-diplomatik fəaliyyəti, dövlətçilik təcrübəsi, Azərbaycan xalqının milli maraq və ideallarına bağlılığı ilə ümummilli rəhbər olduğunu bütün dünyaya, eyni zamanda, daxili-xarici bədxahlara bir daha sübut etdi. Ümumxalq sevgisi, inamı və dəstəyi ilə, qanuni demokratik yolla hakimiyyətə gələn Heydər Əliyevin Azərbaycanda daxili ictimai-siyasi sabitliyin yaradılması, tarazlı və uğurlu xarici siyasət yeridilməsi, cəmiyyətdə demokratik prinsiplərin bərqərar olması, dövlət müstəqilliyinin qorunub saxlanması və möhkəmləndirilməsi, hüquqi və dünyəvi dövlət quruculuğu uğrunda yorulmaz fəaliyyəti son dövr tariximizin ən şərəfli səhifələridir. Azərbaycan dövlətçiliyinin, milli müstəqilliyin daimi və dönməz xarakter alması, müstəqil və uğurlu daxili-xarici siyasət, respublikamızın beynəlxalq aləmdə nüfuzunun artması və dünya birliyində sivil ölkə kimi tanınması məhz Heydər Əliyevin böyük zəhmətlərinin nəticəsidir.

Azərbaycan Respublikasının beynəlxalq aləmdə get-gedə artan nüfuzu, daxili sabitliyə nail olunması, yürüdülən müstəqil daxili, xarici siyasət, ölkədə aparılan demokratik islahatlar düşmən dairələri xalqımıza və respublikamıza qarşı növbəti təxribatlara əl atmağa sövq etdi. 1994-cü ilin oktyabr, 1995-ci ilin mart dövlət çevrilişi cəhdləri, xalqımızın və dövlətçiliyimizin əvəzedilməz lideri prezident Heydər Əliyevin həyatına sui-qəsd təşəbbüsləri artıq ən yeni tariximizin qara ləkələri kimi keçmişə gömülmüşdür. Bu təxribatlar müdrik dövlət başçımızın son dərəcə tədbirli, təmkinli, səbatlı və uzaqgörən siyasəti sayəsində baş tutmadı. Həmin gərgin və narahat hadisələr zamanı bütün Azərbaycan xalqı bir nəfər kimi öz dövlətçiliyi və qanuni Prezidenti ətrafında səfərbər oldu və düşmənin məkrli niyyətlərinin qarşısı alındı. Milli dövlətçiliyimizin və ümumən xalqımızın bu parlaq tarixi qələbələri də məhz böyük siyasətçi, müdrik şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

XX əsr dünya siyasət tarixinə adı əbədi həkk olunmuş Prezidentimizin dövlət quruculuğunun hər bir sahəsindəki - siyasi, iqtisadi, hərbi, elmi-mədəni sahədəki qaynar, səmərəli və məhsuldar fəaliyyəti fundamental tədqiqat obyektidir. Buna görə də bu qısa qeydlərdə məqsəd möhtərəm H.Ə.Əliyevin zəngin, çoxcəhətli fədakar fəaliyyətini tam əhatə etmək deyil, bu çoxcildliyin strukturu, tərtibi haqqında ümumi təsəvvür oyatmaqdır.

Oxuculara təqdim edilən çoxcildlik, Prezident Heydər Əliyevin şərəfli ictimai-siyasi həyatının 1993-cü ilin iyunundan sonrakı illərini əhatə edir. Göründüyü kimi, dahi şəxsiyyətin həyatının bu illəri sakitlik və rahatlıq içində keçməmiş, son dərəcə gərgin və coşğun siyasi fəaliyyətlə zəngin olmuşdur. Dövlət başçımızın böyük siyasətə yenidən qayıdışından sonrakı illərin hər günü, hər saatı, hər dəqiqəsi tamamilə xalqımızın bu gününə və sabahına, dövlət müstəqilliyimizin zərrə-zərrə qorunub saxlanmasına, qüdrətli Azərbaycan dövlətinin yaradılmasına həsr edilmişdir. Kitabı oxuduqca hörmətli oxucular bunun bir daha şahidi olacaqlar. Çoxcildlik tərtib olunarkən çıxışların, nitqlərin, məruzələrin, müraciətlərin və s. xronoloji ardıcıllığının gözlənilməsi prezident Heydər Əliyevin nəhəng ictimai-siyasi fəaliyyəti, gərgin iş rejiminin dinamizmi haqqında da tam təsəvvür yaradır.

Çoxcildliyə daxil edilmiş materiallarda Azərbaycanda son 7-8 ildə baş vermiş ictimai-siyasi proseslər, mürəkkəb, çoxşaxəli hadisələr, milli dövlət quruculuğunun ayrı-ayrı mərhələləri və əsasları, bu işdə mövcud ziddiyyət və problemlər, daxili, xarici siyasətin başlıca istiqamətləri dərindən təhlil edilir və sözügedən dövr tarixi-siyasi baxımdan tam obyektivlik və həqiqət meyarları ilə qiymətləndirilir. Məlumdur ki, möhtərəm Prezidentimiz xüsusi mütəxəssis qrupu tərəfindən hazırlanaraq yazılmış heç bir materialdan istifadə etməyib və etmir. Bu dahi şəxsiyyətin hər bir çıxışı, nitqi, müraciəti ulu Tanrının vergi kimi ona bəxş etdiyi müdrikliyin, qeyri-adi istedadın, həsəd aparılacaq ensiklopedik savadın, heyrətamiz yaddaşın məhsuludur. Dövlət başçısı tərəfindən birbaşa edilmiş çıxış, nitq və müraciətlərin hər birində Heydər Əliyev şəxsiyyəti, müdrikliyi, doğma dilin zənginliyindən profesionallıqla istifadə etmək bacarığı qabarıq görünür.

Zəmanəmizin böyük tarixi şəxsiyyəti, dünya səviyyəli siyasi xadim, müdrik xalq rəhbəri Heydər Əliyevin 1993-cü ilin iyunundan

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sonrakı siyasi fəaliyyətinin salnaməsi olan bu çoxcildlik (dövlət başçısının qəbullarındakı materiallar çoxcildliyə daxil edilməyib) müstəqil tariximizin son dərəcə ağır və məsuliyyətli bir dövrünü öyrənən alimlər, politoloqlar, siyasətşünaslar üçün dəyərli mənbə olacaqdır.

İnanırıq ki, bu kitabı incəliklərinə qədər öyrənərək mənimsəyən Azərbaycan vətəndaşları qətiyyətlə və məsuliyyətlə deyəcəklər: Heydər Əliyevin hər bir əsəri dərslikdir - vətəndaşlıq, dövlətçilik və Vətənə sevgi dərsliyi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN İCLASINDA ÇIXIŞ

15 iyun 1993-cü il

Hörmətli millət vəkilləri, hörmətli prezident!

Mənə bu gün böyük etimad göstərdiyinə görə Milli Məclisin üzvlərinə, Azərbaycanın Ali Sovetinə minnətdarlığımı bildirirəm və sizi əmin edirəm ki, bütün imkanlardan istifadə edib bu böyük vəzifəni, ağır bir yükü aparmağa çalışacağam və bu vəzifənin ləyaqətlə yerinə yetirilməsinə səy edəcəyəm. Bildirmək istəyirəm ki, Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Bu vəzifəni üzərimə götürərək öz məsuliyyətimi anlayıram və bunların hamısını rəhbər tutaraq əlimdən gələni edəcəyəm. Mən burada böyük bir nitq söyləmək niyyətində deyiləm. Yalnız bir neçə kəlmə mütləq deməliyəm. Ali Sovetin sədri kimi Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm. Azərbaycan Respublikasının dövlət müstəqilliyi 1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Respublikasının ənənələri əsasında, müasir tələblərlə, dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır. Bu sahədə mən daim çalışacağam və heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harda olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm. Bununla əlaqədar olaraq bildirmək istəyirəm ki, mənim fikrimcə, Azərbaycan Respublikası bundan sonra onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir başqa dövlətin əsarəti altına düşməyəcək. Keçmiş Sovetlər İttifaqının bərpa olunması, Azərbaycan Respublikasının da ora daxil olması ehtimalı haqqında bəzi şayiələr, fikirlər gəzir. Bunlar xülyadır. Mən bu fikirləri rədd edirəm və bütün Azərbaycan vətəndaşlarını bu fikirləri rədd etməyə dəvət edirəm.

Respublikanın qarşısında çox böyük və ağır vəzifələr durur. Müstəqilliyi, suverenliyi təmin etmək üçün Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş torpaqları geriyə qaytarılmalıdır. Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin olunmalıdır, müharibə qurtarmalıdır, sülh yaranmalıdır. Azərbaycan Respublikasının vətəndaşları sülh və əmin-amanlıq şəraitində yaşayıb öz dövlətini özü istədiyi kimi qurmalıdır. Ona görə də bu məsələ əsas məsələlərdən biridir. Bundan sonra da bu məsələlər Ali Məclisin diqqət mərkəzində olmalıdır. Sizi bu barədə tam əmin edirəm.

Dünən elan olunan Amerika Birləşmiş Ştatlarının, Rusiya-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

nın və Türkiyənin təşəbbüsü nəticəsində imzalanmış sənəd bizim müharibə şəraitindən tədricən çıxmağımız üçün ilk addımdır. Yəqin ki, bu sahədə gələcəkdə daha da güclü tədbirlər görülməlidir ki, Azərbaycan Respublikası bütün ərazisinin sahibi olsun və bizim xalqımız müharibə şəraitindən çıxa bilsin.

Beləliklə, Azərbaycan Respublikasının dövlət müstəqilliyi ən əsas məsələdir. Müstəqil Azərbaycanda demokratiya inkişaf etdirilməlidir. Siyasi plüralizmə geniş yol verilməlidir. Azərbaycan Respublikasında Konstitusiyanın pozulmasına, qanun pozulmasına yol verilməməlidir. Dövlət quruculuğu və cəmiyyətin formalaşması məhz demokratik prinsiplər əsasında olmalıdır. Siyasətdə və iqtisadiyyatda sərbəstlik, hürriyyət, insan azadlığı, insan haqlarının qorunması və sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı prinsipləri bərqərar olmalıdır. Yəni bizim respublikamız bir sənə bundan öncə başladığı yola davam etməlidir. Bu düzgün yoldur, doğru yoldur, bu yolla bizim respublika daha qətiyyətlə getməlidir. Əmin olmalısınız ki, mən bu yola həmişə sadiq olacağam.

İndi bizim respublikanıi gərgin vəziyyətdə olmasının əsas səbəblərindən biri iyun ayının 4-də Gəncədə baş vermiş hadisələrdir. Hadisələr dəhşətlidir, qan tökülüb, cinayət edilib. Bunlar araşdırılmalıdır və bütün qanunu pozmuş adamlar, cinayətdə iştirak etmiş adamlar, cinayəti təşkil etmişlər hansı tərəfdən asılı olmasına baxmayaraq, qanun qarşısında məsuliyyət daşımalıdır. Bu məsələ ilə deputat-istintaq komissiyası məşğul olur. Biz isə gərək tezliklə yaranmış gərginliyi aradan qaldıraq. Dünən prezident Əbülfəz Elçibəylə danışıqlarımız olub, Gəncədə də mən danışıqlar aparmışam, mənimlə gedən şəxslərlə və təkbətək. Ona görə mən güman edirəm ki, bizim bütün səylərimiz bu gərginliyi aradan götürməyi, bu qarşıdurmanı aradan götürməyi təmin edə biləcəkdir. Ancaq demişəm, bir də deyirəm: heç vəchlə silah işlədilməsinin tərəfdarı ola bilmərəm. Bu gərginlik, qarşıdurma ancaq sülh yolu ilə, barışıq yolu ilə, qarşılıqlı anlaşma yolu ilə, danışıqlar yolu ilə həll olunmalıdır. Güman edirəm ki, bizim xalqımızın müdrikliyi, nüfuzlu adamların, Azərbaycanın ziyalılarının, Azərbaycanın ağcaqqallarının hamısının bir yerdə səyi və bizim hamımızın bir yerdə çalışmamız şübhəsiz ki, bunları təmin edə biləcək.

Biz Azərbaycanda demokratik müstəqil respublika quraraq sivilizasiyalı cəmiyyət uğrunda mübarizə aparapaq, ümumi dünyəvi bəşəri dəyərlərin hamısından istifadə etməliyik. Biz çalışmalıyıq ki, Azərbaycan uzun illərdən, əsrlərdən sonra, ilk dəfə müstəqilliyini aldıqdan sonra bütün dünyaya öz tarixi nailiyyətlərini, öz milli ənənələrini nümayiş etdirə bilsin. Güman edirəm ki, Azərbaycan xalqının bu barədə həm tarixi, həm müasir potensialı olduqca böyükdür. Bunların hamısından səmərəli istifadə olunarsa, Azərbaycan həm tam müstəqil demokratik (bir dövlət olacaq, həm də bizim cəmiyyətimiz tam demokratik hüquqi, ümumbəşəri dəyərlərin əsasında qurulan demokratik bir cəmiyyət olacaq. Bunun üçün bizim həm elmimiz, həm mədəniyyətimiz, həm tarixi

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ənənələrimiz, həm dini mənbəyimiz olan İslam dini - hamısı birlikdə çox böyük əsas yaradır. Vəzifəmiz bundan ibarətdir ki, bunlardan səmərəli istifadə edək.

Azərbaycanda gərginlik bir tək Qarabağ problemi ilə, jəni Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar olan səbəblərdən deyil. İndi Gəncə hadisələri baş verdi. Təəssüf ki, gərginliyi yaradan səbəblərdən biri də Azərbaycanda uzun illər bir yerdə yaşayan millətlər, etnik qruplar arasındakı münasibətlərin bir qədər pozulmasıdır. Azərbaycan on illərlə, yüz illərlə bu torpaqda yaşayan bütün insanların Vətəni olub, bundan sonra da Vətəni olmalıdır. Azərbaycan Respublikasının ərazisində olan hər bir vətəndaş milliyyətindən, dinindən, siyasi mənsubiyyətindən asılı olmayaraq, eyni hüquqa malik olmalıdır. Əgər biz bu məfhumları rəhbər tuta bilsək və bunu əməli surətdə həyata keçirə bilsək, biz Azərbaycan Respublikasında olan bütün xalqların, bütün millətlərin tam birləşməsini təmin edə bilərik. Bu bizim əsas vəzifələrimizdən biridir. Güman edirəm ki, biz buna nail olacağıq.

Xarici siyasət sahəsində keçən bir il müddətində çox iş görülüb. Ancaq görüləsi işlər daha da çoxdur. Güman edirəm ki, Azərbaycan Respublikası demokratik dövlət kimi bütün dövlətlərlə bərabərhüquqlu münasibətlər yaratmalıdır. Hansı dövlətin daxili quruluşu, daxili siyasəti hansı istiqamətlə getməsindən asılı olmayaraq, biz normal münasibətlər yaratmalıyıq. Birinci növbədə, bizim yaxın qonşularımızla lazımi mədəni, iqtisadi, dövlət münasibətləri yaradılmalıdır. Bu baxımdan Türkiyə Cümhuriyyəti ilə olan əlaqələr, şübhəsiz ki, respublikanın əhalisi tərəfindən bəyənilir. Qonşu İran İslam Respublikası ilə bizim münasibətlərimiz yaxşılaşdırılmalıdır, inkişaf etdirilməlidir. Rusiya çox böyük dövlətdir, bizim şimalda olan qonşumuzdur. Şübhəsiz ki, Rusiya ilə Azərbaycan arasında müstəqil prinsiplər əsasında münasibətlər bundan sonra daha da yaxşı, daha da geniş, səmərəli olmalıdır. Keçmiş Sovetlər İttifaqına daxil olan, indi müstəqil dövlət olan bütün dövlətlərlə - Ukrayna, Belarus, Gürcüstan, Orta Asiya dövlətləri, Qazaxıstan, Pribaltika dövlətləri, Moldova ilə biz daha geniş qarşılıqlı əlaqələr yaratmalıyıq. Bizim üçün bu çox lazımdır. Çünki bu dövlətlərlə bizim iqtisadi əlaqələrimiz, mədəni əlaqələrimiz, insani əlaqələrimiz uzun illər, yüz illiklərlə çox yaxın olub. Bunları qırmaq olmaz, əksinə, inkişaf etdirmək lazımdır. Şübhə etmirəm ki, məhz belə siyasət Azərbaycan Respublikasının müstəqil dövlət kimi formalaşmasına və inkişaf etməsinə kömək edəcəkdir.

Azərbaycan Respublikası artıq ümumi dünya miqyasına çıxıbdır. Azərbaycan Respublikasına Amerika Birləşmiş Ştatları tərəfindən son zamanlar müsbət münasibətlər hamımızı sevindirir və güman edirəm ki, bu münasibətlər daha da genişlənib inkişaf etdirilməlidir. Bütün Avropa ölkələri ilə bizim əlaqələrimiz genişlənməlidir. Xüsusən İngiltərə, Fransa, Almaniya və başqa Avropa ölkələri ilə. Bütün müsəlman ölkələri ilə, ərəb ölkələri ilə, türkdilli ölkələrlə bizim əlaqələrimiz daha da

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sürətlə inkişaf etməlidir. Bir sözlə, sadəcə olaraq xarici siyasət sahəsində öz mövqeyimi bildirmək istəyirəm. Ali Sovetin sədri kimi bu istiqamətdə fəaliyyət göstərəcəm, bizim prezidentimizin fəaliyyətinin, Ali Sovetin, hökumətin fəaliyyətinin uğurlu olması yolunda çalışacağam.

Ancaq bunların hamısından ümdə indi Gəncədə baş vermiş hadisələri, bununla əmələ gəlmiş gərginliyi aradan götürməkdən ibarətdir. Mən burada Milli Məclisin iclasında, bu tribunadan üzümü bütün Azərbaycan vətəndaşlarına tuturam, bizim qardaşlarımıza, bacılarımıza, övladlarımıza tuturam və müraciət edirəm və bildirirəm ki, bizim respublika indi ağır vəziyyətdədir. Bizim ən böyük çətinliyimiz, bir də deyirəm, işğal olunan torpaqlarımızı geri qaytarıb Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini təmin etməkdən ibarətdir. Ona görə bütün daxili iğtişaşlar, daxili didişmələr kənara qoyulmalıdır. Mən müraciət edirəm bütün Azərbaycan xalqına, mən Gəncə əhalisinə, Azərbaycan Respublikasının deputatı Surət Hüseynova müraciət edirəm, onun silahdaşlarına müraciət edirəm və onların hamısını müdrikliyə, insani münasibətlərə dəvət edirəm. Bizim respublikamızın indi buna çox böyük ehtiyacı var və onlar da bilməlidir, bütün xalq da bilməlidir ki, indi biz hamımız bir olmalıyıq. Azərbaycanın bu faciəli dövründə biz böyük fəlakət qarşısındayıq. Bu dövrdə bütün qüvvələr birləşməlidir, bütün siyasi partiyalar, bütün siyasi qurumlar, bütün siyasi və ya ictimai təşkilatlar, bütün insanlar hamısı birləşməlidir. Hamı kin-küdurəti kənara qoymalıdır, hamımız birləşib Azərbaycanı bu ağır vəziyyətdən çıxarmalıyıq. Güman edirəm ki, Gəncə əhalisi, Gəncənin ətrafındakı rayonlarda yaşayan insanlar mənim bu səsimi eşidəcəklər, buna səs verəcəklər. Surət Hüseynov mənim bu səsimi eşidəcək, özünü müdrik aparacaq və biz bu bəladan tamamilə qurtara biləcəyik. Mən sizin hamınızı da bu sahədə fəaliyyət göstərməyə, birləşməyə dəvət edirəm. Mən rica edirəm, kiçik hissiyyatı kənara qoymaq lazımdır, xırda dedi-qodunu kənara qoymaq lazımdır, bunların vaxtı gələr. Kimin kiminlə nə haqq-hesabı var, sonra edər. Indi bunun vaxtı deyil.

Bununla əlaqədar olaraq bir məsələyə də toxunmaq istəyirəm. Bəzi dairələrdə mənim haqqımda belə söhbətlər gedir ki, Heydər Əliyev əgər yenidən Azərbaycanda bir vəzifəyə gələrsə, kimdənsə qısas alacaq. Kimsə onun əleyhinə vaxtilə olub, yaxud kimsə ona pis münasibət göstərib, ona qarşı pis münasibət göstərəcək. Mən sizin qarşınızda tam məsuliyyətlə deyirəm və bütün Azərbaycan xalqına elan edirəm ki, ümumiyyətlə, mənim təbiətimdə qısasçılıq hissiyyatı yoxdur. Bunu sadəcə olaraq ayrı-ayrı adamlar süni surətdə yaradıblar və görsənir ki, bir mənə ləkə vurmaq üçün yox, ümumiyyətlə, bizi parçalamaq üçün. Sizə söz verirəm ki, heç vaxt qısasçılıq hissiyyatına qapılmayacağam. Əgər kimsə, nə vaxtsa mənə qarşı düzgün münasibət bəsləməyibsə, nəsə edibsə, inanın ki, mən onların hamısını çoxdan bağışlamışam. Mən özümü o hisslərin səviyyəsinə heç vaxt salmamışam və salmayacağam. Ona görə yox ki, siz mənə indi etimad göstərdiniz, mən belə bir vəzi-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

fəyə gəldim. Yox. Mən sadəcə bir vətəndaş kimi də heç vaxt heç kəslə ədavət aparmaq, qısas almaq, yaxud da ki, kiməsə pislik etmək istəməmişəm və istəməyəcəyəm. Ancaq vəzifə çərçivəsində, şübhəsiz ki, biz hamımız nizam-intizama tabe olmalıyıq, biz hamımız qanuna tabe olmalıyıq, biz hamımız qanuna riayət etməliyik, qanunun aliliyini təmin etməliyik və bu yolla şübhəsiz ki, mən öz əqidəmdən dönməyəcəyəm.

Güman edirəm ki, Ali Sovetlə, Azərbaycan prezidenti Əbülfəz Elçibəylə birlikdə, hamımız birlikdə biz bu vəziyyətdən çıxa biləcəyik. Sizin hamınızı bu yolla birliyə dəvət edirəm. Sağ olun.

İ.İbrahimov: Heydər bəy, ... Sizin Ali Sovetin sədri olmağınız vəziyyətdən çıxmaq üçün bizə - mən bir millət vəkili kimi mənə və mənim yoldaşlarıma, bütünlüklə Azərbaycan xalqına qarant verə bilərsiniz, yoxsa yox?

H.Ə l i y e v: Mən qeyd etdim, bir də bildirmək istəyirəm ki, Gəncədə vəziyyət həddindən artıq gərgindir. Bu məsələlərin həll olunması böyük səylər tələb edir. Ona görə də mən indi Gəncədəki vəziyyət haqqında, apardığım danışıqların məzmunu haqqında məlumat verməyi məsləhət görmürəm. Mən Gəncədən qayıdan kimi dərhal Azərbaycan prezidenti Əbülfəz Elçibəyin yanında olmuşam, bir neçə saat bütün məlumatları Əbülfəz Elçibəyə vermişəm. Əgər mən bu işə, bir də qeyd edirəm, öz vicdanımın tələbi ilə və ən çox Azərbaycan Respublikasının əhalisinin cürbəcür təbəqələrinin nümayəndələrinin təkidi və tələbi ilə, Azərbaycan prezidenti Əbülfəz Elçibəyin xahişi ilə cəlb olunmuşamsa, demək mən burda, bu işlərin həll olunması üçün bütün imkanlarımdan istifadə edəcəyəm. Bu barədə heç kəsin şübhəsi olmasın. Burada bu məsələnin müzakirəsində cürbəcür sözlər deyib. By məsələnin ayrı-ayrı istiqamətlərə yönəldilməsi məndə çox ciddi narazılıq doğurur. Mən Naxçıvandan bura özüm gəlməmişəm. Məni bura dəvət eləyiblər, məndən dəfələrlə İsa Qəmbər, Pənah Hüseynov və Azərbaycanın prezidenti Əbülfəz Elçibəy xahiş eləyiblər ki, gəlim burda bir vəzifə tutum, bərabər bu məsələlərin həll olunmasında iştirak edim. Neçə gündür ki, mənimlə danışıqlar gedir. Mən bu vəzifələrdən imtina etmişəm. Bu gün də imtina edirəm. Ona görə də mən hiddətlənirəm ki, bəzi adamlar, on gündür ki, Azərbaycan bərbad vəziyyətdədir, barmaq-barmağa vurmayıblar, Azərbaycandan kənarda gəzirlər, kabinetlərdə cürbəcür işlərlə məşğul olurlar, indi də başlayıblar işarə verməyə ki, kimsə kreslo tutmaq istəyir. Mən heç bir kreslo tutmaq istəmirəm, heç bir vəzifə tutmaq istəmirəm. 1991-ci ilin fevral ayında bu salonda, bu tribunadan çıxış edərkən demişdim. Mən Azərbaycana xalqımla bir yerdə olmaq və xalqımı bu ağır günündə ona kömək olmaq üçün respublikaya qayıtmışam. Onda məni qəbul etmədilər. Ondan sonra da dəfələrlə demişəm. Mən heç bir vəzifə tutmaq iddiasında deyiləm. Bu gün də deyirəm. Bu dəqiqə burdan çıxıb gedə bilərəm. Ancaq bəzi adamların heç bir iş görmədən zalda oturub bu ağır vəziyyətdə məsələni mürəkkəbləşdirməsi məni hiddətləndirir. Mən heç kəsə heç bir qarantiya vermirəm, mən özümü peyğəmbər hesab etmirəm. Fəqət bu ağır vəziyyətdən çıxmaq üçün, vətəndaş kimi, Ali Sovetin deputatı kimi, Ali Sovetin sədrinin müa-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

vini kimi, əgər etimad göstərsəniz, baxmayaraq ki, mən bunu istəmirəm, Ali Sovetin sədri kimi fəaliyyət göstərməyə hazıram. Mən bu yola ancaq xalqın ağır vəziyyətdən çıxmasında müəyyən fəaliyyət göstərmək üçün gedirəm, başqa məqsədim yoxdur. Burda danışan adamların bəziləri ancaq məqsəd üçün bura gəliblər. Ona görə də mən heç kəsə heç bir qarantiya vermirəm. Ancaq hesab edirəm ki, Azərbaycan xalqı müdrik xalqdır. Millətimizdə böyük potensial var, hamını birləşdirib, bu vəziyyətdən çıxmaq olar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏLAHİYYƏTLƏRİNİ HƏYATA KEÇİRƏN AZƏRBAYCAN RESPUBLİKASI ALİ SOVETİNİN SƏDRİ HEYDƏR ƏLİYEVİN BƏYANATI

1993-cü il iyunun 24-də Azərbaycan Respublikasının Milli Məclisinin qərarı ilə Azərbaycan Respublikası prezidentinin səlahiyyətləri Azərbaycan Respublikası Ali Sovetinin sədrinə verilmişdir.

Azərbaycan Respublikası adından bəyan edirəm ki, Azərbaycan dövlətinin daxili və xarici siyasətində heç bir dəyişiklik baş verməyəcəkdir. Bildirirəm ki, Azərbaycan demokratiya, siyasi plüralizm və azad İqtisadiyyat yoluna davam edəcəkdir. Azərbaycan dövləti insan hüquqlarına və bütün beynəlxalq hüquq normalarına riayət edəcək, respublikamızda başlanmış demokratik islahatlar bundan sonra daha geniş və sürətlə həyata keçiriləcəkdir. Dünya dövlətləri ilə bərabərhüquqlu və qarşılıqlı faydalanma prinsipləri əsasında başlanmış iqtisadi əməkdaşlıq davam etdiriləcək, ayrı-ayrı xarici şirkətlərlə imzalanması nəzərdə tutulmuş bütün müqavilələrlə bağlı götürülmüş öhdəliklər sivilizasiya normaları çərçivəsində yerinə yetiriləcəkdir. Ölkəmizin daxili ictimai-siyasi vəziyyəti sabitləşdikcə, həmin məsələlərlə daha fəal məşğul olmağa imkan yaranacaqdır.

Son günlər görülən tədbirlər nəticəsində xalqımız üçün çox təhlükəli olan vətəndaş müharibəsinin qarşısı alınmış və ölkəmizdə daxili siyasi gərginlik müəyyən qədər azalmışdır. Lakin Ermənistan tərəfdən Azərbaycan Respublikasına qarşı aparılan müharibə və xüsusən də son günlərlə həmsərhəd rayonlara edilən hərbi hücumlar daxili siyasi iqlimə güclü təsir göstərir.

Respublikanın daxilində dövlət böhranının mövcud olduğu və bu səbəbdən Azərbaycanın Silahlı Qüvvələrinin parçalandığı, həmin məsələlərə Azərbaycanın dövlət orqanları tərəfindən lazımi nəzarətin olmadığı bir şəraitlə Ermənistan fürsətdən istifadə edib Azərbaycan ərazilərinə yeni hücumlar etmişdir.

İyunun 12-dən etibarən Ermənistan hərbi qüvvələri Ağdam və Ağdərə istiqamətlərində hücum edərək Ağdərə rayon mərkəzini və bir neçə kəndimizi ələ keçiriblər. Qarabağ bölgəsinə daxil olmayan Gədəbəy rayonu da intensiv hərbi hücumlara məruz qalıb. Görülən müdafiə tədbirləri nəticəsində həmin hücumların qarşısı alındı və iki-üç gün bundan qabaq atəş müəyyən qədər dayandırıldı. Lakin iyulun 1-də Ermənistan hərbi qüvvələri Azərbaycanın

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

başqa bir bölməsinə - Füzuli və Cəbrayıl rayonlarına güclü hücum etdilər. Nəticədə bir neçə kəndimiz ələ keçirilmiş, bəziləri vəhşicəsinə yandırılmışdır, dinc sakinlər arasında həlak olanlar var. Azərbaycanda olan 500 mindən çox qaçqına son hücumlar nəticəsində ev-eşiyindən məhrum olmuş daha minlərlə soydaşımız əlavə olunmuşdur. ABŞ, Rusiya və Türkiyənin münaqişəyə dinc vasitələrlə son qoyulmasına dair təşəbbüsünün, BMT Təhlükəsizlik Şurasının 822 nömrəli qətnaməsinin elan olunduğu və ümumiyyətlə, bu qanlı savaşın qarşısının alınmasına müəyyən ümidlər yarandığı bir vaxtla Ermənistanın bu təcavüzkar hərəkətləri vəziyyətin xeyli kəskinləşməsinə səbəb olmuşdur. Güman edirəm ki, beynəlxalq ictimaiyyət və bütün dövlətlər bu təcavüzü qətiyyətlə pisləməlidir. Azərbaycan dövləti adından bir daha bəyan etmək istəyirəm ki, Amerika Birləşmiş Ştatlarının, Rusiyanın və Türkiyənin təşəbbüsü ilə ATƏM çərçivəsində göstərilən bütün cəhdlərin və qəbul olunmuş qərarların tərəfdarıyıq. Azərbaycan Respublikası ATƏM Minsk konfransının sədri cənab M.Raffaellinin başçılığı ilə göstərilən sülh məramlı cəhdləri alqışlayır və bunun həyata keçirilməsi üçün hər cür şərait yaradılacağına təminat verir, ümid edir ki, cənab Raffaellinin iyulun 5-də regiona səfəri "doqquzların" təşəbbüsünün reallaşmasına təkan verəcəkdir.

Münaqişənin sülh yolu ilə nizama salınmasının tərəfdarı olan Azərbaycan hökuməti dünya dövlətləri rəhbərlərini, BMT, ATƏM və digər nüfuzlu beynəlxalq təşkilatları Ermənistanın 5 ildən artıq davam edən və son günlər daha da şidlətlənən təcavüzünü qətiyyətlə pisləməyə, təcavüzkarı cilovlamaq məqsədilə təcili, təsirli və qəti tədbirlər görməyə çağırır.

Biz həm də dünya dövlətlərini və beynəlxalq təşkilatları indiki ağır şəraitlə Azərbaycan Respublikasına çox zəruri olan humanitar yardım göstərməyə çağırırıq.

Bakı şəhəri,

2 iyul 1993-cü il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ƏLAHƏZRƏT BİLL KLİNTON CƏNABLARINA

Hörmətli cənab prezident!

Böyük ölkənizin istiqlaliyyətinin 217-ci ildönümü münasibətilə sizi ürəkdən təbrik edir, sizə və bütün Amerika xalqına səadət, əmin-amanlıq və tərəqqi arzulayıram.

Fürsətdən istifadə edib sizi əmin etmək istəyirəm ki, Azərbaycan - Amerika münasibətlərinin bundan sonra da müvəffəqiyyətlə inkişaf etməsi üçün əlimdən gələni əsirgəməyəcəyəm. Demokratiya, insan hüquqlarına və milli azlıqların hüquqlarına, BMT Nizamnaməsinə, bütün beynəlxalq hüquq normalarına hörmət prinsipləri Azərbaycan Respublikasının dövlət siyasətinin əsasını təşkil edəcəkdir.

Zənnimcə, sizin ölkənizlə əməkdaşlıq, Qərb ölkələri barəsində açıqlıq bizə demokratik islahatlar keçirməkdə, bazar İqtisadiyyatı yaratmaqda kömək edəcək. Azərbaycan xalqının əsl mənada azad və müstəqil xalqlar cərgəsinə inamla qoşulmasına imkan verəcəkdir.

Səmimiyyətlə, sizin

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikası prezidentinin
səlahiyyətlərini həyata keçirən
Azərbaycan Respublikası Ali Sovetinin sədri

Bakı şəhəri,
2 iyul 1993-cü il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İSTANBULDA İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ 2-ci GÖRÜŞÜNÜN İŞTİRAKÇILARINA

Zati-aliləri, hörmətli dostlar!

İcazə verin, mötəbər məclisinizi salamlayım, sizin hamınıza uğurlu və səmərəli iş arzulayım. Əminəm ki, keçirilən bu məclisin həsr olunduğu iqtisadi əməkdaşlığın inkişafı regionlarımızın və xalqlarımızın yaxınlığına xidmət edəcək, onlara dinclik, səadət və firavanlıq bəxş edəcəkdir.

İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələrinin - Türkiyənin, İranın, Pakistanın, Əfqanıstanın, Qazaxıstanın, Özbəkistanın, Türkmənistanın, Qırğızıstanın, Tacikistanın, Azərbaycanın istifadə edilməmiş zəngin təbii sərvətləri, material ehtiyatları vardır. Onlardan birgə istifadə olunması əsl müsəlman intibahına çevriləcək, bütün bəşəriyyətin inkişafına töhfə verəcəkdir.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikası prezidentinin
səlahiyyətlərini həyata keçirən
Azərbaycan Respublikası Ali Sovetinin sədri

5 iyul 1993-cü il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏLAHİYYƏTLƏRİNİ HƏYATA KEÇİRƏN AZƏRBAYCAN RESPUBLİKASI ALİ SOVETİNİN SƏDRİ HEYDƏR ƏLİYEVİN BƏYANATI

1993-cü il 2 iyul tarixli bəyanatımla mən ABŞ, Rusiya, Türkiyə dövlətlərinin, BMT, ATƏM və dünya ictimaiyyətinin diqqətini Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisinə intensiv hücumları ilə yaranmış vəziyyətə cəlb edərək onları təcavüzün dayandırılması üçün lazımi tədbirlər görməyə çağırmışdım. Qarabağ məsələsinin sülh yolu ilə həll olunması üçün təşəbbüskar olduqlarına görə bu dövlətlərin səyi ilə BMT Təhlükəsizlik Şurasıiın 822 nömrəli qətnaməsinin həyata keçirilməsinin zəruriliyi bildirilmişdi.

Məlum olduğu kimi, ATƏM-in Minsk konfransının sədri cənab M.Raffaelli iyulun 5-də Azərbaycana gəlməli idi. Respublikanın rəhbərliyi cənab M.Raffaellini qarşılamağa hazırlaşaraq lazımi tədbirləri həyata keçirmiş və onun proqramını qəbul etmişdi. Çox böyük təəssüf və təəccüb hissilə qeyd edirəm ki, buraya dəvət olunmuş dövlətlərin səfirləri, yəni onların təmsil etdikləri dövlətlər lazımi tədbirlər görməyiblər. Bunu bəyan edərək ona əsaslanıram ki, iyulun 2-dən sonra Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisinə təcavüzkarlığı nəinki dayandırılmadı, hətta iyulun 3-4-dən daha da genişləndi.

Ona görə də bizə məlum deyil, ABŞ, Rusiya, Türkiyə dövlətlərinin bu istiqamətdə fəaliyyətləri nədən ibarət olub? Bununla bərabər biz c-b M.Raffaellinin Azərbaycana gəlməsinə çox böyük ümid bəsləyirdik. İnanırdıq ki, c-b Raffaellinin səfəri və nəzərdə tutulmuş proqramın həyata keçirilməsi Ermənistan silahlı qüvvələrinin hücumunu dayandıra biləcəkdir. Təəssüf ki, bu gün səhər bizə məlumat çatıb ki, c-b M.Raffaelli Bakıya gəlməyəcəkdir və ümumiyyətlə səfərini təxirə salıbdır. C-b M.Raffaellinin qəbul etdiyi qərarın səbəbləri bizə məlum deyildir. Onun bu addımını biz başa düşə bilmprik, belə qərardan narazılığımızı və narahatlığımızı bildiririk. Sonradan məlum oldu ki, cənab M.Raffaelli bu qərarını xarici agentliklərin ermənilərin guya Ağdamı tutması haqqında yaydığı məlumat əsasında qəbul edib. Əgər böyük siyasi, diplomatik addımlar ayrı-ayrı agentliklərin yaydığı qeyri-mötəbər və yoxlanılmamış informasiyalar əsasında qəbul olunursa bu, sadəcə olaraq, bizdə təəccüb doğurur və bunu anlaya bilmirik. Beləliklə, c-b M.Raffaellinin öz planından geri çəkilməsi və regiona nəzərdə tutulan çox əhəmiyyət-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

li səfərini təxirə salması o deməkdir ki, Azərbaycanın ümid bəslədiyi ATƏM artıq özünü münaqişənin nizama salınması prosesindən kənara çəkərək təcrid edir və bizi Ermənistanla təkbətək vuruşmağa məcbur edir. Bu isə problemin dinc vasitələrlə həlli perspektivlərinə ciddi zərbə vurur və regionda müharibənin daha da şiddətlənməsi deməkdir. Belə bir vəziyyətlə barışmaq isə qətiyyən mümkün deyildir. Bunun qarşısını almaq üçün ABŞ, Rusiya, Türkiyə üzərlərinə götürdükləri missiyanı yerinə yetirməlidirlər və verdikləri vədlərə sadiq olmalıdırlar. Bu ölkələrin səfirlərinin iyul ayının 2-dən sonrakı vaxtda bu işə bəslədikləri münasibət bizi heç cür razı sala bilməz. Əgər böyük dövlətlər təşəbbüsü öz üzərlərinə götürüblərsə və onlar Azərbaycan hökumətini Qarabağ məsələsinin sülh yolu ilə həll olunmasına daim dəvət ediblərsə, onlar da öz öhdəliklərini yerinə yetirməlidirlər. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasından xahiş edirik ki, bu məsələyə qarışsın, öz imkanlarından və səlahiyyətlərindən istifadə edib lazımi tədbirlər görsün.

İyul ayının 2-dən indiyədək Ermənistan silahlı qüvvələri tərəfindən aparılan hücumlar nəticəsində bir çox kəndlər və yaşayış yerləri əldən gedib, dağıdılıb, yandırılıbdır. Xeyli insan həlak olub, çoxları öz yaşayış yerlərini tərk ediblər və hazırda çöllərdə çox ağır vəziyyətdə yaşayırlar. Bunların hamısı, şübhəsiz, Ermənistanın məhz indi, bu günlərlə çox qəti təcavüzkar mövqedən çıxış etdiyini sübut edir. Bildirmək istəyirik ki, biz yenə də Ermənistan tərəfindən edilən hərbi təcavüzün qarşısını dinc yolla almaq üçün bütün imkanlardan istifadə etməyə çalışmışıq. Şəxsən mən bilavasitə Ermənistan Respublikasının rəhbərləri ilə, Rusiyanın xüsusi tapşırıqlar üzrə səfiri V.Kazimirovla, ABŞ və Türkiyənin Azərbaycandakı səfirləri ilə telefon danışıqları aparmışam, təcavüzün dərhal dayandırılmasını xahiş etmişəm, məsələnin asudə, sülh yolu ilə həllinə dəvət etmişəm. Təəssüf ki, bunlar nəticə verməyibdir və Ağdam, Füzuli, Cəbrayıl rayonları istiqamətində indi də qanlı döyüşlər davam etməkdədir.

Biz xahiş edirik ki, bu ağır vəziyyətdə hərə öz üzərinə düşən vəzifəni layiqincə yerinə yetirsin. Heç kəs, o cümlədən burada iştirak edən xarici ölkələrin nümayəndələri də şübhə etməməlidirlər ki, bunların hamısı Ermənistan silahlı qüvvələrinin təcavüzüdür və başqa cür qiymətləndirilə bilməz. Güman edirik ki, belə bir faciəli vəziyyətdə bu böyük dövlətlər gərək öz qəti tədbirlərini görsünlər. Bəyanatı bitirərək bir daha qeyd etmək istəyirik ki, biz cənab M.Raffaellinin təcili gəlməsini gözləyirik və Azərbaycan tərəfindən cənab Raffaellinin missiyasının

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

həyata keçirilməsinə tam zəmanət veririk. Ancaq bu zəmanət ikitərəfli olmalıdır. Əgər doğrudan da Ermənistan Respublikası və onun Dağlıq Qarabağda olan qüvvələri münaqişənin sülh yolu ilə həllini istəyirlərsə, onlar da buna zəmanət verməlidirlər. Üç böyük dövlət - Amerika Birləşmiş Ştatları, Rusiya, Türkiyə və Birləşmiş Millətlər Təşkilatı bu zəmanətin cənab M.Raffaelliyə verilməsi üçün Ermənistan Respublikasına lazımi təsir göstərməlidirlər. Biz cənab M.Raffaellinin tezliklə gəlib işə başlamasını gözləyirik.

Bakı şəhəri,
5 iyul 1993-cü il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"OSTANKİNO" DÖVLƏTLƏRARASI TELEVİZİYA ŞİRKƏTİNƏ MÜSAHİBƏ

- Heydər Əliyeviç, gün aydın. Sizi salamlamağımıza şadıq və icazənizlə birbaşa suallara keçək, suallar isə televiziya tamaşaçılarından kifayət qədər alınmışdır. Telefon zənglərinin xeylisində əsasən bir məsələyə toxunulur.: Bu gün Azərbaycandakı ictimai siyasi vəziyyəti necə qiymətləndirirsiniz və sizcə, ən yaxın zamanda nə etmək lazımdır?

- İndi Azərbaycanda ictimai-siyasi vəziyyət son dərəcə mürəkkəbdir. O, həmişə mürəkkəb olmuşdur, lakin bu il iyunun 4-dən sonra, Gəncə şəhərindəki məlum qanlı hadisələrdən sonra xüsusilə kəskinləşmişdir və o vaxtdan gərgin olaraq qalır. Baxmayaraq ki, sonralar görülmüş tədbirlər və bəzi təşkilati tədbirlər, jəni Respublika rəhbərliyindəki dəyişikliklər bu gərginliyi müəyyən dərəcədə aradan qaldırmışdır. Ən başlıcası isə, zənnimcə, Respublikamızı ciddi şəkildə hədələyən vətəndaş müharibəsinin qarşısını ala bilmişik, qarşıdurma müəyyən qədər zəifləmişdir. Bununla belə, vəziyyət hələ də mürəkkəb olaraq qalır, lakin Ermənistan silahlı qüvvələrinin son üç gündə Azərbaycan ərazisinə başladıqları hücum bu çətinlikləri artırır.

- Heydər Əliyeviç, Siz necə təsəvvür edirsiniz, vəziyyəti müəyyən dərəcədə sabitləşdirmək üçün bu gün Azərbaycanda hansı tədbirləri görmək lazımdır?

- Başlıcası budur ki, biz gərək milli barışığa, bütün siyasi qüvvələrin sıx birliyinə nail olaq. Biz gərək qarşıdurma amilini, vətəndaş müharibəsinin baş verməsi imkanını tamamilə aradan qaldıraq. Əlbəttə, Respublikanın özündə ictimai-siyasi vəziyyəti sabitləşdirmək üçün səylərimizi də birləşdirməliyik. Təbiidir ki, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan ərazisinə müdaxilə ilə bağlı məsələləri də həll etmək gərəkdir.

- Cənab Əliyev, bir çox müşahidəçilər Sizin hakimiyyətə gəlməyinizi "konstitusiyaya zidd" hal kimi qiymətləndirmişlər. Xahiş edirik, deyəsiniz, sizcə, siyasətdə elə məqsədlər varmı ki, onların naminə qanunu pozmaq olar? Bununla bağlı ikinci sual: prezident Əbülfəz Elçibəyin taleyi necədir, bu gün onun vəziyyəti və perspektivləri necədir, o, öz istefası ilə razılaşıbmı?

- Əvvəla, deməliyəm ki, daşıdığım vəzifəyə gəlişimi konstitusiyaya zidd hesab etmirəm. İyunun 15-də parlamentin bir çox deputatlarının, habelə prezident Əbülfəz Elçibəyin özünün tövsiyələri ilə mən Azərbaycan Ali Sovetinin sədri seçilmişəm. Bu, konstitusiyaya tam uyğun olan qərardır. Bildiyiniz kimi, bundan bir neçə gün əvvəl Ali Sovetin sədri İsa Qəmbərov istefa vermişdi. Buna görə də mən Azərbaycan Ali Sovetinin sədriyəm. İkincisi, mən hakimiyyətə özüm gəlməmişəm, məni dəvət etmiş-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lər. Məni təkidlə dilə tutmuşlar. Gəncə hadisələrindən sonra bir neçə gün ərzində Azərbaycan əhalisinin müxtəlif qruplarının, ziyalıların nümayəndələri, nüfuzlu aqsaqqallar mənə müraciət etmişlər. Azərbaycan prezidenti Əbülfəz Elçibəy də mənə təkidlə müraciət etmişdir. O, üç dəfə - ajın 7-də, 8-də, 9-da Naxçıvana xüsusi təyyarə göndərmişdi və telefon söhbətlərində israrla xahiş edirdi ki, mən Bakıya gəlim. Mən 7-də də, 8-də də imtina etdim. Nəhayət, vəziyyətin getdikcə kəskinləşdiyini duyaraq, iyunun 9-da bu dəvəti qəbul etdim və Bakıya gəldim.

Vəziyyətin gərginliyini zəiflətmək üçün burada mən Əbülfəz Elçibəylə, digər siyasi xadimlərlə birlikdə çalışırdım, iyunun 15-də, təkrar edirəm, parlamentin sədri seçildim. Burada konstitusiyaya zidd, hüquqa zidd heç nə yoxdur. İyunun 24-dən başlayaraq, prezidentin vəzifələrinin yerinə yetirilməsinin mənə həvalə edilməsinə gəldikdə isə, bunu izah etmək olar.

Prezident Əbülfəz Elçibəy İyunun 17-dən 18-nə keçən gecə xəlvəti, heç kəsə, o cümlədən də mənə xəbər vermədən təyyarə ilə Bakıdan çıxıb getmişdir. Halbuki təyyarə Bakıdan uçmazdan bir saat əvvəl biz bir yerdə idik. Yalnız səhər bizə məlum oldu ki, onun təyyarəsi Naxçıvana enmişdir, buradan prezidenti Xalq Cəhbəsinin üzvləri dağ kəndi Kələkiyə aparmışlar. O, indiyədək oradadır. Mən İyunun 18-dən 24-dək Əbülfəz Elçibəylə telefonla daim danışıqlar aparmışam, Azərbaycan Elmlər Akademiyasının prezidenti başda olmaqla ziyalıların nümayəndələrinin böyük bir qrupu - akademiklər, professorlar, yazıçılar, aqsaqqallar mənim təşəbbüsümlə oraya getmişlər. Onlar prezidentlə görüşmüşlər, onu onlar da dilə tutmuşlar ki, o, Bakıya qayıtsın. Mən onu israrla dəvət edirdim. O, dəvətimizi qəbul etməli, onunla razılaşmalı və indiyədək Kələki kəndində qalır. Prezidentin, demək olar ki, bütün vəzifələrinin Ali Sovetinin sədrinə həvalə edilməsi haqqında fərmanı da elə onun özü imzalamış, öz fərmanıyla yalnız vətəndaşlığa qəbul və qanunların imzalanması hüquqlarını özündə saxlamışdır. Qalan hər şeyi o, Azərbaycan Ali Sovetinin sədrinə həvalə etmişdir.

Eyni zamanda bu vəziyyət Azərbaycan parlamentinin iclasında dalbadal bir neçə gün müzakirə olunmuşdur, elə parlamentin üzvləri də təkidlə təklif edirdilər ki, mən bu vəzifələri öz üzərimə götürüm. Mən razılaşmırdım, yalnız Əbülfəz Elçibəyin özü belə fərman verdikdən sonra razılaşdım. Açığını desək, respublika, demək olar, idarəedilməz olmuşdu, çünki prezident yoxdur; baş nazir yox idi - o, artıq çoxdan istefa vermişdi, tək mən qalmışdım, bir çox məsələlər isə prezidentin səlahiyyətindən istifadə edərək həll olunmalı idi. Bax, belə bir vəziyyətdə mən həmin vəzifələri öz üzərimə götürdüm. Təkrar edirəm, mən buna can atmırdım, mən bunu istəmirəm. Əgər günü bu gün Əbülfəz Elçibəy buraya qayıdarsa, o, öz prezident vəzifələrini yerinə yetirə bilər.

O ki qaldı Əbülfəz Elçibəyin taleyi barədə ikinci suala, o, Kələki kəndində yaşamaqda davam edir, onu Xalq Cəbhəsindən olan bir dəstə silahlı adam qoruyur. O, indi də oradadır, məncə, heç nə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ilə məşğul olmur. Bəlkə istirahat edir, bəlkə də bir iş görür. Bu, mənə məlum deyildir.

- Heydər Əliyeviç, xahiş edirəm, belə bir suala cavab verəsiniz. Siz həm Elçibəyin komandasına qarşı, həm də onun özünə və onun xəttinə qarşı sərt müxalifətdə olmusunuz. Elçibəy Sizi respublika Ali Sovetinin sədri olmağa dəvət edərkən nəyə ümid bəsləyirdi və Sizi bu dəvətə razılıq verməyə sövq edən nə idi?

- Siz sualı o qədər də düz qoymursunuz. Mən Əbülfəz Elçibəyə qarşı sərt müxalifətlə olmamışam, ümumiyyətlə, müxalifətdə deyildim. Mən sadəcə olaraq Naxçıvanda yaşayır, Ali Məclisin sədri vəzifələrini yerinə yetirirdim. Mənim Əbülfəz Elçibəylə nadir hallarda telefon söhbətlərim olurdu. Əlbəttə, prezident kimi, Əbülfəz Elçibəy Naxçıvan Muxtar Respublikasına da lazımınca diqqət yetirmirdi, halbuki Naxçıvan blokada ilə əlaqədar ağır vəziyyətdə idi və bu gün də ağır vəziyyətdədir. Əlbəttə, o, Ali Məclisin sədri kimi mənə lazımi diqqət yetirmirdi. Odur ki, münasibətlərimiz, əslinə qalsa, hansısa sərt qarşıdurma ilə deyil, məhz bu cür xarakterizə edilirdi.

Mənim Əbülfəz Elçibəylə ilk görüşüm bu ilin fevralında olmuşdur, bunadək onunla heç vaxt görüşməmişdim və şəxsən tanış deyidim. Mən Bakıya böyük qardaşımın vəfatı ilə əlaqədar gəlmişdim, biz prezidentlə görüşdük, olduqca çoxlu məsələ müzakirə etdik, bir çox məsələlərlə sanki bir-birimizi başa düşdük. Mən ona öz məsləhətlərimi də, arzularımı da , tövsiyələrimi də dedim. Bunlardan onun, istifadə edib-etməməsi öz işidir. Bizim münasibətlərimiz bundan sonra da normal olmuşdur. Əbülfəz Elçibəy məni dəvət edərkən nəyə ümid bəsləyirdi? Sualın birinci hissəsi ilə əlaqədar, yəni guya aramızda kəskin qarşıdurma olması ilə əlaqədar onu deməliyəm ki, belə şey olmamışdır. Azərbaycanda vəziyyət son dərəcə kəskinləşdikdə, bayaq dediyim kimi, bir çox bölgələrdən və əhalinin bir çox təbəqələrinin nümayəndələri arasında səslər eşidilirdi ki, Əliyevi dəvət etmək lazımdır, Əbülfəz Elçibəy, görünür, bu fikrə gəlmişdi ki, burada, belə çətin şəraitlə mənim köməyim gərəkdir. O, telefonla mənə zəng vurduqda belə də izah etdi: Vəziyyət mürəkkəbdir, xahiş edirəm, Bakıya gələsiniz, vəziyyəti, gəlin, birlikdə müzakirə edək və bu vəziyyətdən çıxış yolu tapaq. Bax, onun dəvəti əslinə qalsa, məhz bununla izah edilir.

- Heydər Əliyeviç, mənim, daha doğrusu, mənim yox, bizim televiziya tamaşaçılarının Sizə belə bir sualı var. Son vaxtlar mətbuatda, xüsusən xarici mətbuatda, belə ifadə edək, kifayət qədər çoxlu fərziyyə irəli sürülmüşdür ki, Sizinlə Surət Hüseynov arasındakı qarşılıqlı münasibətlər sistemi, necə deyərlər, dostluq xarakteri, müəyyən saziş xarakteri daşıyır. Azərbaycanda baş vermiş bütün bu hadisələr barəsində Sizinlə Azərbaycanın baş naziri arasında qabaqcadan hansısa sazişin olması fikrinə necə baxırsınız?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Mən bu məsələni aydınlaşdıra bilərəm, özü də bu vacibdir. Əvvəla, mən Surət Hüseynovu tanımırdım, heç vaxt onun hətta üzünü də görməmişdim. Yeri gəlmişkən, baxmayaraq ki, mənə indi məlum olduğu kimi, Surət Hüseynov Azərbaycanın Milli Qəhrəmanıdır, respublika baş nazirinin müavini, Azərbaycan prezidentinin Qarabağ üzrə səlahiyyətli nümayəndəsi idi. O, mən bilən, televiziya ilə, demək olar, heç vaxt çıxış etməmişdi. Mən Naxçıanda yaşayırdım və həmin dövr ərzində onu hətta televiziya ekranında bir dəfə də olsun görməmişdim. Mənim onunla heç vaxt heç bir əlaqəm olmayıb. İyunun 4-də bu hadisələr baş verdikdə mənə yenə də aydın deyildi və bilmirdim ki, orada nə olmuşdu. İyunun 9-da Bakıya gəldikdə mənə onun haqqında danışmağa başladılar. Mən onu yenə də tanımırdım. Sonra, İyunun 13-də Gəncəyə getməzdən əvvəl mən ona zəng vurdum, biz söhbət etdik. İyunun 13-də Gəncəyə gəldim və onunla ilk dəfə olaraq görüşdüm. Deməli, aramızda hansısa bir sazişin və ya hansısa dostluq münasibətlərinin olmasından söhbət belə gedə bilməz. Bütün gecə mən onunla danışıqlar apardım və iyunun 14-də Bakıya qayıtdım. Bundan sonra isə o, ta Bakıya gələnə qədər onunla telefon əlaqəsi saxladım. Aramızda heç bir saziş, heç bir dostluq əlaqəsi olmamışdır.

- Əgər olarsa, mən Sizin Hüseynovla qarşılıqlı münasibətlərinizə aid mövzunu davam etdirərdim. Surət Hüseynov müəyyən ultimativ tələblər irəli sürürdü və əslində, Bakı ilə güc mövqeyindən danışırdı. Siz onun tələbini yerinə yetirdiniz, o, baş nazir vəzifəsi aldı və qüvvə nazirlikləri üzərində kuratorluq aldı. Xahiş edirəm, deyəsiniz, Sizə elə gəlmirmi ki, bu nümunə Azərbaycanın gələcək siyasəti üçün təhlükəlidir. Hər halda güc mövqeyindən danışmaq, görünür, siyasi qarşılıqlı münasibətlərin heç də ən konstruktiv metodu deyildir, heç də ən təhlükəsiz metod deyildir?

- Bəli, əlbəttə, Surət Hüseynov müəyyən dərəcədə güc mövqeyindən çıxış edirdi. Lakin bu, onun prezident Əbülfəz Elçibəylə və onun komandası ilə qarşılıqlı münasibətləri ilə bağlı idi. Surət Hüseynov hesab edirdi ki, İyunun 4-də hərbi hissəyə qarşı və onun özünə qarşı təcavüzkar əməllər törədilmişdir və buna görə də o, həmin vaxtdan təkid edirdi və indi də təkid edir ki, prezident Elçibəy və onun bütün komandası istefa verməlidir. Yeri gəlmişkən, Azərbaycan prezidenti onun bəzi tələblərini, əslində, yerinə yetirmişdir: baş nazir istefa vermiş, parlamentin sədri istefa vermiş, üç nazir - müdafiə, daxili işlər və milli təhlükəsizlik nazirləri istefa vermişlər. Bir sözlə, Surət Hüseynovun bu tələbləri Əbülfəz Elçibəy tərəfindən yerinə yetirilmişdir. Əgər o, hesab etsəydi ki, bu tələblər hüquqa ziddir, qanuna ziddir, onda gərək bunu etməyəydi, amma etmişdir. Buna görə də iyunun 15-də, mən Azərbaycan parlamentinin sədri seçilən günü bu istefaların hamısı Əbülfəz Elçibəy tərəfindən qəbul olunmuşdu.

Qaldı Surət Hüseynovun iddialarına, əlbəttə, belə iddialar var idi. Lakin baş nazir vəzifəsinə təyin edilməsi onun tələblə-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ri və ya iddiaları ilə bağlı deyildir. Mən artıq dedim və xatırlatmaq istəyirəm ki, Surət Hüseynov hələ bir il bundan əvvəl prezident Əbülfəz Elçibəyin özü tərəfindən Azərbaycan baş nazirinin müavini təyin edilmişdi. Bir daha təkrar edirəm. O, Azərbaycan prezidentinin bütün Qarabağda səlahiyyətli nümayəndəsi təyin olunmuşdu. Belə ki, Surət Hüseynovun çoxlu vəzifəsi var idi və bütün bu vəzifələri ona Azərbaycan prezidenti Elçibəy vermişdi. O ki, qaldı indi onun baş nazir olmasına, burada nə var ki, o, sadəcə olaraq daha bir pillə yuxarı qalxmışdır.

- Heydər Əliyeviç, Siz Surət Hüseynovla görüşübsünüz, bir insan kimi və bir siyasətçi kimi onun haqqında nə deyə bilərsiniz?

- Surət Hüseynov, əlbəttə, olduqca cavandır və özünün dediyinə görə, onu yaxından tanıyan adamların dediklərinə görə, Qarabağ zonasında müharibədə Azərbaycan torpaqlarının müdafiəsi üçün müəyyən iş görmüşdür, onu tanıyır və ona hörmət edirlər. Bundan əvvəl, o, Yevlax rayonunda iri sənaye müəssisəsinin direktoru olmuşdur.

- Sağ olun. Bu gün biz Azərbaycan Xalq Cəbhəsi haqqında çox danışırıq və il ərzində də danışmışıq. Sizcə, bu gün Azərbaycanda Xalq Cəhbəsinin rolu necədir, o, nə kimi siyasi və sosial bazaya malikdir?

- Bilirsinizmi, Xalq Cəhbəsinin sosial bazası heç vaxt geniş olmamışdır. Milli azadlıq uğrunda, Azərbaycanın milli istiqlaliyyəti uğrunda mübarizə aparan xalq hərəkatı kimi, AXC 1988-ci ildə meydana gəlmişdir. Bu müddət ərzində o, əlbəttə, qüvvə toplamış və həmin illərlə, kommunist hakimiyyəti illərində Xalq Cəbhəsi kommunist rejiminə qarşı fəal çıxış edirdi və əlbəttə, respublika rəhbərliyinin Qarabağ problemini həll etməyə qadir olmamısı ilə əlaqədar rəhbərliyə qarşı xüsusilə fəal çıxış edirdi. Əslinə qalsa, Xalq Cəhbəsinin özü ən əvvəl Qarabağ problemi ilə və orada başlanmış hərbi əməliyyatlarla əlaqədar yaranmışdır. 92-ci ilin mayında, yaxud bundan bir qədər əvvəl, Xalq Cəbhəsindən ayrı-ayrı şəxslər rəhbər vəzifələr tutmağa başladıqda AXC-nin çoxlu tərəfdarı var idi, bu ona görə deyildi ki, onların hamısı Xalq Cəhbəsinin üzvü idi, məhz ona görə idi ki, o vaxtlar rejimdən, Azərbaycan rəhbərliyindən ümumi narazılıq vardı. Xalq Cəhbəsi isə mənafelərin fəal ifadəçisi kimi çıxış edir, bu narazılığı nümayiş etdirirdi. Buna görə də AXC ətrafına olduqca çoxlu adam toplaşmışdı və onlar xalq tərəfindən geniş müdafiə edilirdilər.

Məhz bununla əlaqədar ötən ilin may ayında, daha doğrusu, martında hadisələr baş verdi, prezident Mütəllibov istefaya çıxdı. Sonra üç ay, demək olar, hakimiyyətsizlik oldu, may ayında Mütəllibov bir daha prezident vəzifəsinə qayıtmağa cəhd göstərdi, lakin bu cəhd uğursuz oldu. Bax, onda həmin rejimdən və Mütəllibovun atdığı düşünülməmiş həmin addımdan narazılıq dalğası xalqı, əslində, Xalq Cəbhəsi ətrafında birləşdirdi. AXC-nin bəzi liderləri məsul vəzifələr tutdular, ötən ilin İyununda prezident seçkilərində isə Əbülfəz Elçibəy Azərbaycanın prezidenti seçildi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yeri gəlmişkən, deməliyəm ki, Xalq Cəhbəsi hakimiyyətə siyasi partiya kimi normal demokratik mübarizədə gəlməmişdir. Sonra isə rəhbər vəzifələrə bütün təyinatlar Əbülfəz Elçibəy tərəfindən həyata keçirilirdi. O hesab edirdi ki, Xalq Cəhbəsinin sədridirsə, prezident seçilmişdirsə, deməli, bütün rəhbər vəzifələrə AXC üzvlərini təyin edə bilər. Onunla Naxçıvandan telefon söhbətləri zamanı və fevralda mən onunla görüşərkən və sonralar, artıq İyun ayında, bizim yeni görüşümüz zamanı, mən ona demişdim ki, o, çox böyük siyasi səhvə yol verir. O, gərək prezident seçilən kimi Xalq Cəhbəsinin sədri vəzifəsindən gedəydi, çünki onu Xalq Cəhbəsi deyil, məhz Azərbaycan xalqı prezident seçmişdir. Lakin, təəssüflər olsun, o, AXC-yə nəinki üstünlük verir, həm də büsbütün və tamamilə yalnız AXC-yə arxalanırdı. Halbuki AXC öz sosial bazasını gündən-günə itirirdi.

4 İyun hadisələrinin səbəbi və Surət Hüseynov fonomeni təkcə bunda deyildir ki, Gəncəyə qoşun göndərilmişdi, Surət Hüseynovun komandanlığı altında olan hissəni mühasirəyə almaq və ona nə isə etmək istəyirdilər. Səbəb bu idi ki, xalqın narazılığı artıq neçə aydı getdikcə güclənirdi. Əbülfəz Elçibəy və Xalq Cəbhəsinin rəhbər vəzifələr tutan digər liderləri bunu İyun hadisələrindən xeyli əvvəl başa düşmüşdülər. Hiss edirdilər ki, onların nüfuzu gündən-günə aşağı düşür, xalq onlara olan etibarı itirir və onlar respublikanı idarə edə bilmirlər. İndi mən müəyyən qiymət vermək istəməzdim. Əvvəla, mən bunu etmək arzusunda deyiləm. İkincisi isə, sadəcə olaraq vaxt yoxdur - axı bu bir ildə Azərbaycanın həyatında müsbət dəyişikliklər baş verməmişdir, əksinə, bütün sahələrdə vəziyyət olduqca ciddi şəkildə pisləşmişdir. Xalq bunu görürdü və Xalq Cəbhəsinə olan əvvəlki hörmət indi yoxdur, eləcə də Xalq Cəbhəsinin sosial bazası yoxdur. AXC Azərbaycanın keçmiş rəhbərliyinə qarşı çıxış etdiyi vaxtlarda Azadlıq meydanında mitinqlərə 200-300-400 min adam toplayırdı. İndi isə, Azərbaycan prezidenti Elçibəyin özünün tətbiq etdiyi fövqəladə vəziyyət şəraitində Xalq Cəbhəsinin fəal köməyilə yenə də mitinqlər keçirilir. Amma bu mitinqlərə min beş yüz, iki min adam gəlir, qoy lap üç min olsun. Bu da sizə AXC-nin sosial bazasının xarakteristikası.

- Cavab üçün təşəkkür edirəm. İcazə versəniz, bir neçə sual oxuyardım. Onlar bu gün bizim televiziya suallarının, necə deyərlər, leytmotividir. Çelyabinskdən Cəfərov Zakir: Siz Qarabağ müharibəsinə necə baxırsınız və bu müharibə nə vaxt qurtaracaq? Tambovdan keçmiş bakılı Melkumyan Boris: Bir rəhbər kimi, siz Qarabağ məsələsinin həllini nədə görürsünüz? Movsesyan, Peterburq: İki il bundan əvvəl Əliyev müsahibəsində demişdi ki, o, Qarabağ məsələsini ikicə günün içində həll edər. Soruşmaq istərdim. Siz bunu necə etmək fikrindəsiz? Qarabağ münaqişəsinin həllinin nə kimi yolları var və nə kimi variantlar ola bilər? – və Qarabağla bağlı digər suallar.

- Cavab verim. Əvvəla, mən heç vaxt deməmişəm ki, Qarabağ məsələsini ikicə günün içində həll etmək olar. Görünür, bu, nə isə səhvdir. Qarabağ məsələsi mürəkkəb məsələdir, lakin bu məsələ məhz ona görə mürəkkəbləşmişdir ki, vaxtında lazımınca həll

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

edilməmişdir. Mən tarixə qayıtmaq istəmirəm, bu, artıq beşillik bir tarixdir. İndi məsələ son dərəcə kəskinləşmişdir, buna görə də bu qarşıdurmanı heç olmasa dayandırmaq, atəşi dayandırmaq cəhdləri baş tutmur.

Sizə məlumdur ki, son aylarda silahlı erməni birləşmələri olduqca çoxlu yaşayış məntəqəsini, Azərbaycanın Kəlbəcər rayonunu bütövlüklə ələ keçirmişlər, bir çox yaşayış məntəqələri nəinki keçmiş Dağlıq Qarabağ vilayətinin ərazisindədir, həm də bu keçmiş muxtar vilayətin hüdullarından kənardadır. Güclü hücum isə davam edir.

Mən srağagün xarici dövlətlərin Azərbaycandakı səfirlərini dəvət etməli və bəyanat verməli oldum, ona görə ki, İyunun 12-dən 28-dək fəal döyüş əməliyyatları gedirdi. Bu əməliyyatlar nəticəsində erməni silahlı birləşmələri Azərbaycanın bir sıra kəndlərini qəsb etmişlər, bəzi kəndlərə od vurulub yandırılmışdır, olduqca çoxlu adam qırılmışdır. Ayın 28-də həm bizim, həm Ermənistan rəhbərliyinin, həm də digər qüvvələrin səyləri ilə bir növ razılıq əldə edilmişdi ki, atəş dayandırılsın. Lakin, təəssüflər olsun, iyulun 2-də Füzuli, Cəbrayıl rayonlarına hücuma başlanmışdır. Mən iyulun 3-də bəyanat verməli oldum, dünən isə Yerevanla, Ermənistan rəhbərləri ilə də danışıqlar apardım, çox xahiş etdim ki, atəşi dayandırsınlar. Axı, məlum olduğu kimi Amerika Birləşmiş Ştatları, Rusiya və Türkiyə Qarabağ problemini bütünlüklə olmasa da, heç olmasa bəzi problemləri BMT Təhlükəsizlik Şurasının 822 nömrəli qətnaməsi əsasında müəyyən dərəcədə dincliklə həll etmək təşəbbüsünü irəli sürmüşlər. Bu məsələ ilə ATƏM də fəal məşğul olur, cənab Raffaelli başda olmaqla ATƏM-in Minsk konfransı problemin tənzimlənməsi planını müəyyənləşdirmişdi və bu planın, nəzərdə tutulmuş təqvimin həyata keçirilməsinə başlamaq lazım idi. Lakin hərbi əməliyyatlar buna imkan vermir.

Bir neçə gün bundan əvvəl cənab Raffaelli bu bölgəyə öz səfərinin proqramını Azərbaycan və Ermənistan rəhbərliyinə göndərmişdir. O, sabah 14 diplomatla Bakıya gəlməli, buradan Yerevana getməli, sonra Ağdamda, Xankəndidə olmalı və ATƏM çərçivəsində müəyyən edilmiş planın yerinə yetirilməsinə başlamalıdır. Lakin cənab Raffaelli həm bizim tərəfimizdən, həm Ermənistan Respublikası tərəfindən, həm də Dağlıq Qarabağda olan silahlı qüvvələr tərəfindən təminatlar tələb etmişdir ki, bu danışıqları aparsın və öz vəzifəsini həyata keçirsin. Biz cənab Raffaellinin yolunu səbirsizliklə gözləyirik. O, sabah Bakıya gəlməlidir.

Mən dünən də, bu gün də Yerevanla, rəhbərlərlə intensiv danışıqlar aparmışam, vəziyyəti onlara izah etmişəm və atəşi dayandırmağı, hərənin öz əvvəlki mövqeyində qalmasını təklif etmişəm, hərçənd ki, son günlər Ermənistan silahlı birləşmələri Azərbaycanın yaşayış məntəqələrini ələ keçirmişlər, bu gün səhərdən isə onların Ağdam istiqamətində fəal hücumu başlanmışdır. Studiyaya gəlməzdən əvvəl mənə dedilər ki, Ağdam rayonundakı Boyəhmədli kəndi Ermənistan silahlı qüvvələri tərə-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

findən işğal olunmuşdur. Vəziyyət indi bax, belədir. Yaxşı, atəş dayandırılmadığı halda, ATƏM-in missiyası BMT Təhlükəsizlik Şurasının 822-ci qətnaməsinə müvafiq surətdə həyata keçirilməliyi halda, Qarabağ problemini necə həll etmək olar?!

Hesab edirəm ki, biz bu yolla addım-addım irəliləməliyik. Birinci şərt atəşi dayandırmaq, bundan sonra qarşıdurmaya yol verməməkdir. Problemi tədricən həll etmək lazımdır. Beş il ərzində yığılıb qalmış olan bu problemi bir günün içində həll edə bilməzsən. Lakin ümid bəsləyirəm ki, həm Ermənistan Respublikasının rəhbərliyi və əlbəttə, Dağlıq Qarabağdakı silahlı birləşmələr, həm də öz üzərlərinə bu cür təşəbbüs və bununla yanaşı, mən bəyan edirəm, çox böyük məsuliyyət götürmüş olan böyük ölkələr - Amerika Birləşmiş Ştatları, Rusiya və Türkiyə bu məsələlərlə fəal məşğul olacaqlar. Biz bu problemi ümumi səylərlə həll etməliyik.

- Heydər Əliyeviç, məlum olduğu kimi, Rusiya rəhbərliyi Sizin Bakıya qayıtmağınızı alqışlamışdır. Xahiş edirəm deyəsiniz, son vaxtlar Siz Rusiya prezidenti Boris Yeltsinlə heç olmasa telefonla danışmısınızmı? Başqa bir sual. Necə bilirsiniz, Zaqafqaziyadakı vəziyyəti bu gün Rusiya siyasətçilərindən kim daha realistcəsinə qiymətləndirir?

- Rusiya prezidenti Boris Nikolayeviç Yeltsinlə mən telefonla danışmamışam. Parlamentin sədri seçilərkən Rusiya Federasiyası parlamentinin sədri Ruslan Xasbulatovdan rəsmi təbrik almışam. Başa düşürəm ki, bu rəsmi təbrikdir, bir çox ölkələrin parlamantlərinin sədrlərindən də belə təbriklər almışam. Mənim Qarabağ problemi ilə məşğul olan xüsusi tapşırıqlar üzrə səfir Vladimir Nikolayeviç Kazimirovla telefon əlaqəm olmuşdur. Dünən mən bir neçə dəfə onunla telefonla danışmışam. Mənim başqa əlaqələrim olmamışdır. Əlbəttə, belə əlaqələr olmalıdır. Lakin, zənnimcə, Rusiya Felerasiyasının rəhbərliyi bu cəhətdən Azərbaycana müvafiq maraq göstərməlidir.

Siz bilirsiniz, indi Azərbaycanın mürəkkəb problemləri ilə başım o qədər qarışmışdır ki, Rusiyanın siyasi həyatını təhlil etməyə imkanım yoxdur. Orada da vəziyyət son dərəcə mürəkkəbdir. Rusiya Federasiyasının bəzi regionlarında da silahlı münaqişələr gedir, Rusiyada ictimai-siyasi, iqtisadi vəziyyət də olduqca mürəkkəbdir. Lakin mən Rusiyanın xalq tərəfindən seçilmiş prezidenti Boris Yeltsinə böyük hörmət bəsləyirəm və hesab edirəm ki, Rusiya prezidenti Boris Yeltsin Rusiyanın bütün qüvvələrini, bütün siyasi qüvvələrini birləşdirə, Rusiya dövlətinin qarşısında duran çətinlikləri aradan qaldıra biləcəkdir.

- Heydər Əliyeviç, Siz Rusiya - Azərbaycan münasibətlərinin indiki vəziyyətindən razısınızmı, iqtisadi və siyasi baxımdan bu əlaqələrin gələcəyini necə görürsünüz?

- Azərbaycan parlamentinin sədri seçilərkən mən parlamentin iclasında çıxış etdim və bəyanat verdim. Sizin sualınızın cavabında da deyə bilərəm: mən belə hesab edirəm ki, Azərbaycan müs-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

təqil dövlətdir və indən belə heç vaxt hər hansı başqa dövlətin tərkibinə daxil olmamalı, kiminsə vassalı, yaxud müstəmləkəsi olmamalıdır. İndi başqa zəmanədir. Mən Azərbaycanı gələcəkdə azad, müstəqil dövlət kimi görürəm.

Lakin demokratikləşdirmə, siyasi plüralizm yolu ilə, bazar İqtisadiyyatı yolu ilə, bütün ölkələr - həm Qərb, həm də Şərq ölkələri açıq olmaq yolu ilə getməli olan azad müstəqil dövlət kimi Azərbaycan, şübhəsiz bütün ölkələrlə bərabərhüquqlu, qarşılıqlı surətlə faydalı münasibətlər saxlamalıdır. O cümlədən də, əlbəttə, qonşularla. Təbii ki, Rusiya böyük ölkədir. Azərbaycanın şimal qonşusudur. Üstəlik onu da yaddan çıxarmaq olmaz ki, Rusiya və Azərbaycanı bir-biri ilə az qala iki yüz illik tarix bağlayır. Bütün bu dövr ərzində həm mədəniyyətdə, həm elmdə, həm təhsildə, həm İqtisadiyyatda, həm də adamların şəxsi həyatında mövcud olan qarşılıqlı münasibətlər mühitini əslində elə bu əlaqələr yaratmışdır. Belə hesab edirəm ki, Azərbaycan ilə Rusiya arasında münasibətlərin indiyədək mövcud olan səviyyəsi qənaətbəxş deyildir. Tarixi əlaqələri, qarşılıqlı iqtisadi mənafeləri, hamımızın birlikdə yaşadığı regionun mənafelərini əsas tutaraq bu səviyyəni qaldırmaq lazımdır. Mən əməli fəaliyyətimlə bu yolla gedəcəyəm.

- Heydər Əliyeviç, ənənəyə uyğun olarağ, bugünkü proqramda Sizin yekun sözü söyləməyiniz üçün bizim bir dəqiqə vaxtımız var.

- Əvvəla, mən bugünkü televiziya görüşü üçün sizə təşəkkürümü bildirirəm, ikincisi isə, bu imkandan istifadə edərək, bütün televiziya tamaşaçılarını Azərbaycanın vəziyyətini başa düşməyə çağırıram. Əlbəttə, Rusiyada, keçmiş Sovet İttifaqının digər respublikalarında, uzaq xarici ölkələrlə yaşayan bütün azərbaycanlılara, təkcə azərbaycanlılara deyil, Azərbaycanın bütün sabiq vətəndaşlarına üz tutaraq, onları qayıtmağa, bu çətin dövrdə Azərbaycanın həyatına fəal qoşulmağa çağırıram.

Bir vaxtlar ali təhsil almaq üçün Azərbaycandan Rusiyaya, Ukraynaya, Belarusa, başqa respublikalara olduqca çoxlu adam göndərilmişdi, onların bir çoxu böyük alim, mütəxəssis, biznesmen olmuş və indi hər biri öz bölgəsində layiqli yer tutur. Mən istərdim ki, onlar - istər azərbaycanlılar, istərsə də Azərbaycanın sabiq və ya indiki vətəndaşları onun həyatına böyük maraq göstərsinlər. Mən hazırda Rusiya ordusunda, Ukrayna ordusunda, Belarus ordusunda xidmət edən hərbi qulluqçulara da müraciət edirəm. Bir vaxtlar biz ali hərbi məktəblərə oxumağa xeyli azərbaycanlı göndərmişdik, onların bir çoxu həmin ordularda xidmət edir. İndi onların Azərbaycana qayıtmasına lüzum, böyük tələbat var, biz gərək bu ağır vəziyyətdən birlikdə çıxaq. Mən bütün televiziya tamaşaçılarına və bu çıxışın təşkili üçün "Ostankino" şirkətinə özlərin minnətdarlığımı bildirirəm və bütün xeyirxah adamların bu ağır vaxtda Azərbaycan xalqına mənəvi kömək edəcəklərinə ümid bəsləyirəm.

"Azərbaycan",

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

FRANSA RESPUBLİKASININ PREZİDENTİ ƏLAHƏZRƏT FRANSUA MİTTERAN CƏNABLARINA

Hörmətli cənab prezident!

Milli bayramınız olan Bastiliyanın alınması günü münasibətilə Sizi ürəkdən təbrik edir, Sizə və bütün fransız xalqına səadət və tərəqqi arzulayıram.

Demokratik cəmiyyət, bazar İqtisadiyyatı yaratmaq yolunu seçmiş Azərbaycan xalqı öz suveren dövlətini qurur və bütün dünyada demokratiyanın və azadlığın əsl dayağı və mücəssəməsi olan Sizin böyük ölkənizə böyük ümidlə baxır.

Fürsətdən istifadə edərək, Sizi əmin edirəm ki, Azərbaycan və Fransa arasında münasibətlərin xalqlarımızın rifahı naminə daha yaxşı inkişaf etməsi üçün öz tərəfimdən hər şeyi edəcəyəm.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikası prezidentinin
səlahiyyətlərini həyata keçirən
Azərbaycan Respublikası Ali Sovetinin sədri

13 iyul 1993-cü il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏLAHİYYƏTLƏRİNİ HƏYATA KEÇİRƏN AZƏRBAYCAN RESPUBLİKASI ALİ SOVETİNİN SƏDRİ HEYDƏR ƏLİYEVİN VƏ ATƏM-in DAĞLIQ QARABAĞA DAİR MİNSK KONFRANSININ SƏDRİ MARİO RAFFAELLİNİN BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATI

14 iyul 1993-cü il

Salam, hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri. Bugünkü mətbuat konfransımız ATƏM-in Dağlıq Qarabağa dair Minsk konfransı nümayəndələrinin son günlər bölgəmizə, Azərbaycana, Ermənistana səfərinin yekunlarına həsr olunmuşdur. Rus dilinə tərcümə olunduğundan ümidvaram ki, cavablarımızın rus dilində olmasına etiraz etməyəcəksiniz, lakin, şübhəsiz suallar həm Azərbaycan dilində, həm də rus dilində, eləcə də başqa dillərlə verilə bilər.

Mən sizi danışıqlarımız haqqında və əldə olunmuş nəticələr haqqında qısaca hali edəcəyəm, sonra sizə ATƏM-in Minsk konfransının sədri cənab Raffaelli məlumat verəcək və bundan sonra biz suallarınıza cavab verməyə hazır olacağıq. Zənnimcə, üzrlü hesab edərsiniz ki, dünənə təyin edilmiş mətbuat konfransı keçirilməmişdir. Bu onunla əlaqədardır ki, birgə, yəni bizim cənab Raffaelli ilə birlikdə hazırladığımız və cənab Raffaellinin Dağlıq Qarabağdan, Xankəndidən axşam saat 6-da Bakıya qayıtmasını nəzərdə tutan cədvəl, cənab Raffaellinin dediyi kimi, bəzi texniki səbəblər üzündən və hava şəraiti ilə bağlı səbəblər üzündən pozulmuşdur. Buna görə də onlar bu gün gəlib çıxmışlar.

Biz görüşdükdə cənab Raffaelli Xankəndidə apardığı danışıqların yekunları haqqında məlumat verdi. Biz fikir mübadiləsi keçirərək, görüşlərimizə ümumən yekun vurduq və budur, sizin görüşünüzə gəlmişik. Bilirsiniz ki, ATƏM çərçivəsində Minsk konfransı öz fəaliyyətinə 1992-ci ilin əvvəllərində başlamışdır və istər bu konfrans, istərsə də bütövlüklə ATƏM Dağlıq Qarabağ hadisələri ilə əlaqədar Ermənistanla Azərbaycan arasında yaranmış münaqişəni dincliklə aradan qaldırmaq məsələləri ilə məşğul olur. Cənab Raffaelli və onun başçılıq etdiyi nümayəndə heyəti ilə görüş zamanı bizim ötən dövrdə Minsk konfransının fəaliyyətini, əlbəttə, təfsilata varmadan, qısaca təhlil etməyə imkanımız oldu. Odur ki, bu məsələ üzərində indi də dayanmağa lüzum yoxdur.

Biz, sadəcə olaraq qeyd etdik ki, Minsk konfransının, hörmətli beynəlxalq təşkilat olan ATƏM-in və Birləşmiş Millətlər

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Təşkilatının nüfuzu böyük olsa da, Dağlıq Qarabağla bağlı münaqişənin dincliklə aradan qaldırılması sahəsində istər ATƏM-in, istərsə də Minsk konfransının ötən dövrdə gördüyü iş, göstərdiyi səylər, təəssüflər olsun, heç cür bir nəticə verməmişdir. Biz böyük təəssüflə qeyd edirik ki, bir tərəfdən həmin dövrdə həm Minsk konfransı, həm də ATƏM münaqişənin dincliklə aradan qaldırılması istiqamətində fəaliyyət göstərmişdir, digər tərəfdən, bu dövrdə müharibə getmiş, qan tökülmüşdür, erməni silahlı birləşmələri Azərbaycan ərazisinə dəfələrlə təcavüzkar basqınlar etmişlər və bu müddət ərzində Azərbaycan ərazisinin bir hissəsini erməni silahlı birləşmələri işğal etmiş, ələ keçirmişlər.

Xatırlatmağa dəyər ki, bu müddət ərzində Azərbaycan Respublikası Şuşa kimi bir şəhəri itirmişdir, yəni erməni silahlı birləşmələri Şuşanı və Şuşa rayonunu işğal etmişlər. Laçın rayonu da işğal olunmuşdur. Bu, ötən ilin mayında və cari il martın axırlarında - aprelin əvvəllərində baş vermişdir.

Erməni silahlı birləşmələri Kəlbəcər rayonunu tamamilə zəbt etmiş və keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisini tamamilə ələ keçirərək, onun hüdudlarından kənara çıxmış, Ağdam, Füzuli, Zəngilan rayonlarında yaşayış məntəqədərini, hətta Azərbaycanın Qərb hissəsində bəzi əraziləri tutmuşlar. Bundan belə qənaətə gəlmək olar ki, bu müddət ərzində beynəlxalq təşkilatların, o cümlədən ATƏM-in və Minsk konfransının səyləri bir nəticə verməmişdir. Mən bütün bunları sadəcə ötəri xülasə kimi xatırladıram ki, indi beynəlxalq təşkilatların - Birləşmiş Millətlər Təşkilatının və ATƏM-in xətti ilə daha səmərəli tədbirlər görülməsinin lüzumunu nəzərə çarpdırım. Bununla yanaşı qeyd etmək lazımdır ki, Kəlbəcər rayonu erməni silahlı birləşmələri tərəfindən işğal olunduqdan sonra BMT Təhlükəsizlik Şurasının 822 nömrəli qətnaməsi qəbul edilmiş və bundan sonra ATƏM-in və Minsk konfransının fəaliyyəti xeyli güclənmişdir. Bizə məlumdur ki, üçtərəfli sənəd imzalanmışdır, onu Azərbaycan Respublikası, Ermənistan Respublikası və Dağlıq Qarabağ icmalarının nümayəndələri imzalamışlar və bu sənəd əsasında ATƏM-in Minsk konfransı erməni silahlı birləşmələrinin Kəlbəcər rayonu ərazisindən çıxarılmasından başlayaraq münaqişənin artıq əməli surətlə, dincliklə aradan qaldırılmasına dair plan təklif etmişdir.

Bu planın, ATƏM-in və Minsk konfransının cədvəlinin iyun ayında həyata keçirilməsi nəzərdə tutulmuşdu, lakin həmin ayda baş vermiş məlum hadisələrlə əlaqədar planın həyata keçirilməsi təxminən bir aylığa təxirə salınmışdır. Bildiyiniz kimi, biz Minsk konfransının sədri cənab Raffaellinin və onun nümayəndə heyətinin iyulun 5-də Azərbaycana gəlmək niyyətində olduğu barədə xəbər almışdıq və nümayəndə heyətini qarşılamağa hazır idik. Amma indi müəyyənləşdirildiyi kimi, cənab Raffaelli öz səfərini yenə də hansısa bir anlaşılmazlığa görə, səhih informasiya olmadığına görə, iyulun 9-dək təxirə salmışdır. Biz bu-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

nunla da razılaşdıq, çünki ATƏM-in, Minsk konfransının fəaliyyətinə böyük ümidlər bəsləyirdik və indi də bəsləyirik.

Biz ikinci proqramı iyulun 9-da aldıq, lakin proqramın elə həmin gündə də həyata keçirilməsi ümumən baş tutmadı. Nəhayət, iyulun 9-dan 10-na keçən gecə cənab Raffaelli öz nümayəndə heyəti ilə birlikdə Bakıya gəldi və iyulun 10-da danışıqlarımız başladı.

Deməliyəm ki, danışıqlarımız qarşılıqlı anlaşma, açıqlıq ruhunda, əməli ruhda gedirdi və biz, əlbəttə, gördük ki, cənab Raffaellinin nümayəndə heyəti nəzərdə tutulmuş proqramın və hazırlanmış cədvəlin əməli surətdə yerinə yetirilməsini təmin etmək arzusundadır. Cənab Raffaelli buraya öz səfərinin ıpoqpamını Bakıya gəlməzdən əvvəl göndərmişdi, o mənada ki, ayın 9-da gəlməlidir. Lakin sonra hər şey bir gün sonraya keçirildi. Bakıda Azərbaycan rəhbərliyi ilə görüş, sonra Yerevana səfər, Ermənistan rəhbərliyi ilə görüş, oradan da Bakıya qayıtmaq və Ağdamda olmaq, Ağdamdan Xankəndiyə getmək. Xankəndilə olmaq, Ağdamdan keçib Bakıya qayıtmaq və bu arada nümayəndə heyətinin fəaliyyətinə yekun vurmaq planlaşdırılırdı.

Lakin biz bu proqramı minnətdarlıqla qəbul etdik və onu həyata keçirməyə başladıq. İyulun 10-da ətraflı söhbətimiz oldu, biz bütün məsələlərlə qarşılıqlı anlaşma olduğunu gördük. İyulun 11-də cənab Raffaelli öz nümayəndə heyəti ilə birlikdə Yerevanda oldu və axşam tərəfi Bakıya qayıtdı, iyulun 11-də axşam biz yenidən görüşdük. Cənab Raffaelli bizə Ermənistan rəhbərliyi ilə, prezident Levon Ter-Petrosyanla, başqa şəxslərlə danışıqlarının nəticələri barəsində məlumat verdi və qarşıya iyulun 12-də Ağdama, habelə Xankəndiyə səfər məsələsi çıxdı.

Lakin bu zaman qarşıya problem çıxdı. Onu Ermənistan tərəfi, ələlxüsus, cənab Raffaellinin dediyi kimi, indi Qarabağı idarə edən şəxslər irəli sürmüşdülər. Onlar bildirmişdilər ki, Ağdamdan Xankəndiyə getmək mümkün deyildir, çünki guya orada erməni silahlı birləşmələrinin tutduqları mövqelərdə bütün sərhəd minalanmışdır, buna görə də Xankəndiyə Ermənistandan keçib getmək lazımdır. Bu məsələ cənab Raffaelli hələ Yerevanda olarkən onun qarşısına qoyulmuşdu. Yerevandan Laçın dəhlizi vasitəsilə Xankəndiyə getmək variantı təklif olunmuşdu. Əlbəttə, cənab Raffaelli və onun başçılıq etdiyi bütün nümayəndə heyəti bununla razılaşmamışdı, o, hələ Bakıda olarkən bunu bizə bildirmişdi və Yerevandan qayıtdıqdan sonra da demişdir.

Əlbəttə, biz buna heç cür razı ola bilməzdik. Ona görə də iyulun 11-də axşam çox böyük vaxt sərf etdik ki, gərək Xankəndiyə Ağdamdan keçməklə necə getmək olar, çünki nümayəndə heyəti ayın 12-də Ağdamda olmalı idi. Lakin erməni tərəfi məsələni qəti qoyanda ki, orada ərazi minalandığına görə təhlükəsizliyə təminat vermir, Xankəndiyə Azərbaycanın Füzuli rayonundan keçərək getmək variantı təklif edildi. Lakin Ermənistan tərəfdən cavab alındı ki, orada da hər yer minalanmışdır. Əlbəttə, biz buna inanmadıq və indi də inanmırıq. Zənnimcə, cənab Raffaelli də deyəcək ki, o özü də buna inanmırdı. Bununla belə, bəyanat verilmişdi ki, erməni tərəfi təhlükəsizliyi təmin etmir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Buna görə də, necə olursa-olsun, cənab Raffaellinin missiyasının başa çatması, Minsk konfransının öz proqramının və qoşunların Kəlbəcər rayonundan çıxarılmasının nəzərdə tutulmuş cədvəlinin yerinə yetirilməsinə başlaya bilməsi üçün biz güzəştli variant tapdıq: cənab Raffaelli özünün nümayəndə heyəti ilə Bakıdan Tbilisiyə uçur, Tbilisidən hərbi vertolyotlarla Xankəndiyə yollanır, Xankəndidən geriyə, Tbilisiyə və oradan da Bakıya qayıdır.

Cənab Raffaelli və onun bütün nümayəndə heyəti iyulun 12-də Ağdamda olarkən orada baş vermiş dağıntıları, Ermənistan birləşmələrinin təcavüzkar hərəkətləri üzündən Ağdam rayonunda yaranmış çətin vəziyyətin nəticələrini öz gözləri ilə görmüşlər.

Yəqin ki, bu barədə cənab Raffaelli özü də danışacaq, mən bunu ona görə deyirəm ki, o yaddan çıxarmasın. O demişdir ki, bir il əvvəl Ağdamda olmuşdu və əlbəttə, ötən dövrdə burada çox mühüm, çox ciddi dəyişikliklər baş verməsindən olduqca təəssüflənir. Bunu deyərkən o, erməni silahlı birləşmələrinin hərbi əməliyyatları, hücumları, atəşləri nəticəsində şəhərin dağılmasını nəzərdə tutur. Iyulun 12-də biz axşam cənab Raffaelli ilə görüşərkən o, əlbəttə, dedi ki, orada heç bir mina yox idi və ümumiyyətlə, erməni tərəfinin irəli sürdüyü tələblərin nə ilə bağlı olduğu aydındır.

Buna görə də biz Xankəndiyə Tbilisidən getmək variantına razılaşdıq və cənab Raffaelli dünən səhər təyyarə ilə Tbilisiyə, sonra isə, indi məlum olduğu kimi, vertolyotlarla Xankəndiyə uçmuşdur. Biz dünən onun Tbilisidən Bakıya qayıdacağını gözləyirdik. Lakin artıq sizə dediyim kimi, axşamdan xeyli keçmiş biz mətbuat konfransını günün axırına təyin etdik, sonra isə saat 23-ə keçirdik. Lakin sonradan məlum oldu ki, orada hansısa texniki səbəblər olmuşdur və hava şəraiti imkan verməmişdir. Bir sözlə, nümayəndə heyətinin üzvləri Xankəndidə gecələməli olmuş və bu gün səhər vertolyotlarla Yerevana yola düşmüş, oradan təyyarə ilə buraya, Bakıya gəlmişlər.

Bir az əvvəl yekun danışıqlarımız oldu və biz sizin yanınıza, mətbuat konfransına gəldik. Əlbəttə, mən təfsilata varmayacağam, lakin biz çox təəssüflənirik ki, Minsk konfransı, cənab Raffaellinin nümayəndə heyəti tərəfindən təklif olunmuş və bizim də qəbul etdiyimiz, habelə, cənab Raffaellinin dediyinə görə, Ermənistan Respublikasının rəhbərliyi tərəfindən də qəbul olunmuş cədvəl Dağlıq Qarabağda qəbul edilməmişdir. Cənab Raffaellinin bu gün bizə dediyi kimi, orada bəzi mülahizələr irəli sürülmüşdür. Bu mülahizələr razılığa gəlməyə imkan verməmişdir ki, onlar bu sənədi yenə də imzalasınlar və bundan sonra cədvəlin həyata keçirilməsinə başlansın. Halbüki hələ srağagün axşam biz cənab Raffaelli ilə məsələni müzakirə edərkən o demişdi ki, onlar bacardıqca tez qayıtmalıdırlar. Buna görə də dünən axşam nümayəndə heyətinin üzvləri bizimlə danışıqlardan sonra Romaya yola düşməli idilər ki, orada nəzərdə tutulmuş təqvimin əməli surətdə həyata keçirilməsinə başlasın-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lar. Təqvimdə isə iyulun 16-da müşahidəçilərin Kəlbəcər rayonuna gəlməsi, iyulun 18-də onların yerləşdirilməsi və iyulun təxminən 20-21-də erməni silahlı birləşmələrinin Kəlbəcər rayonundan çıxarılması nəzərdə tutulur.

Bunun bizim üçün çox mühüm məsələ olduğunu nəzərə alaraq, təkrar edirəm, cənab Raffaelli ilə danışıqlara əməli şəkildə yanaşmaq yollarını biz həmişə axtarıb-aramışıq. Hətta müəyyən dərəcədə güzəştə də getmişik, məsələn, Xankəndiyə necə gedib çıxmaq problemində, habelə digər hallarda da. Bunların hamısı ona görədir ki, cədvəlin yerinə yetirilməsinə daha tez başlansın.

Lakin indi, mənim başa düşdüyüm kimi, daha doğrusu, cənab Raffaellinin özü bu barədə konkret olaraq demişdir ki, bu cədvəl, onların nəzərdə tutduqları kimi, ayın 16-də yerinə yetirilməyəcək, çünki cənab Raffaelli və onun nümayəndə heyəti indi Dağlıq Qarabağın rəhbərliyindən bəzi məsələlər barəsində rəsmən məlumat istəməli və onlardan rəsmi cavab almalıdırlar. Cənab Raffaellinin dediyinə görə, onlar orada üç bənddən ibarət bəzi mülahizələrini bildirmişlər. Onun dediyinə görə, ilk iki bəndi əsassız sayır, üçüncü bənd isə, cənab Raffaellinin bildirdiyi kimi, bir sıra məsələlərlə bağlıdır və mən də elə hesab edirəm ki, bunlar çox asanlıqla həll oluna bilər. Misal üçün, söhbət ondan gedir ki, erməni silahlı birləşmələrinin Kəlbəcərdən çıxarılmasına başlanır, oraya müşahidəçilər daxil olacaqlar, Azərbaycan tərəfinin nümayəndələri daxil olacaqlar, hansı silah növü olacaq... Belə bir variant nəzərdə tutulur ki, orada yüngül silah olacaq. Bəs yüngül silah nə olan şeydir, yüngül silah dedikdə nə nəzərdə tutulur, yaxud müşahidəçilərin nə kimi mandatı olacaqdır...

Mən cənab Raffaellinin məlumatından belə başa düşdüm ki, bütün bu məsələlər sırf texniki və asan həll edilə bilən məsələlərdir. Hər halda nümayəndə heyətinin başçısı hesab edir ki, bu səbəbləri aradan qaldırmaq üçün onlar Dağlıq Qarabağın rəhbərlərinə rəsmi sorğu verməli, rəsmi cavab almalı və öz təqvimini yalnız bundan sonra, bir neçə gün keçdikdən sonra, həyata keçirməyə başlamalıdırlar.

Cənab Raffaelli bu gün bizə məlumat verdi ki, iyulun 16-da Vyanada Minsk konfransı, ATƏM-in 9 iştirakçısı bu məsələ üzrə yenidən toplaşacaqdır. Həmin məsələ orada müzakirə ediləcəkdir. Cənab Raffaellinin bu məlumatından belə başa düşmək olardı ki, söhbət məsələnin bir qədər təxirə salınmasından gedir, hərçənd Dağlıq Qarabağ rəhbərlərinin və ya hazırda Dağlıq Qarabağı idarə edən adamların mövqeyi kifayət qədər aydın deyil, hətta şübhəlidir.

Məsələn, şəxsən məndə bu, böyük təəccüb doğurdu. Dünən Moskvadan gecə saat 12-də "Novosti" proqramında belə bir xəbər verildi ki, Dağlıq Qarabağda Minsk konfransının, cənab Raffaellinin nümayəndə heyətinin təklifləri ilə razılaşmayıblar və məsələlərin həllini guya Azərbaycanda daxili siyasi vəziyyətin sabit olmaması ilə əlaqədar bir aylığa təxirə salıblar. Bu cür

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

xəbərdən cənab Raffaelli də təəccüblənmişdir. O dedi ki, söhbət təqvimin yalnız bir neçə günlüyə təxirə salınmasından gedir.

Bununla bərabər, mən cənab Raffaelliyə də demişəm, bu gün burada bildirirəm ki, hamının xəbəri olsun: əlbəttə, iyulun 4-də Gəncədə baş vermiş hadisələrdən sonra Azərbaycanda daxili siyasi vəziyyət mürəkkəbləşmişdir, amma heç vəchlə demək olmaz ki, sabitlik yoxdur, buna görə də problemi həll etmək olmaz, yaxud bu məsələlərin həlli üçün şərait yoxdur. Çünki biz Azərbaycanda vəziyyətə tamamilə nəzarət edirik.

Azərbaycan ictimaiyyətinə məlum olduğu kimi, biz Dağlıq Qarabağ bölgəsində hərbi əməliyyatlarla bağlı məsələlərlə də fəal məşğul oluruq. Buna görə də bunların hamısı məsələni uzatmaq üçün, yaxud da onun həllini ümumən pozmaq üçün sadəcə olaraq hiylə-kələkdir, nə isə məharətlə düşünülmüş bəhanələrdir.

Qısa məlumatı bitirərək bildirmək istəyirəm ki, bu gün yekun söhbətimiz əməli şəkildə və qarşılıqlı anlaşma ruhunda keçmişdir. Biz hiss etdik ki, Minsk konfransı, cənab Raffaelli, onun nümayəndə heyətinin üzvləri nəzərdə tutulmuş planın və hazırlanmış cədvəlin yerinə yetirilməsinin təmin olunmasını ürəkdən istəyirlər. Biz hər halda, ümid edirik - danışıqları da məhz belə, böyük ümidlə başa çatdırdıq ki, iyulun 16-da Vyanada bu məsələ çox ciddi şəkildə- müzakirə olunacaqdır. Mən də belə düşünürəm ki, cənab Raffaelli və ümumən ATƏM Ermənistan Respublikasının rəhbərliyi ilə əlavə danışıqlar aparacaqlar ki, biz Minsk konfransının məramının bu arada yerinə yetirilməsinə nail ola bilək, çünki il yarımdan çox işləyən nümayəndə heyətinin fəaliyyətinin hələlik bir nəticəsi yoxdur.

Respublikamız üçün isə çox vacibdir ki, bu nəticələr olsun. Zənnimcə, bu, ATƏM-in, Minsk konfransının və Birləşmiş Millətlər Təşkilatının nüfuzu üçün də eyni dərəcədə əhəmiyyətlidir.

Srağagün Ermənistan prezidenti Levon Ter-Petrosyanla telefon söhbətim zamanı – söhbət cənab Raffaellinin yanında gedirdi - o da əmin etdi ki, Minsk konfransının məramının həyata keçirilməsi üçün hər cür səy göstərir. Biz buna ümid edirik. Mən bununla da öz məlumatımı bitirirəm.

İndi buyurun, suallarınızı verin.

Fərid Qəhrəmanov, "Азербайджан" qəzeti: - Cənab Raffaelli, Sizə müraciət edirəm. Sizcə, Bakı - Yerevan - Bakı -Ağdam - Xankəndi və geriyə - Bakıya səfərinizin ATƏM tərəfindən təsdiq olunmuş planını erməni tərəfinin pozmasına necə baxmaq olar?

M.Raffaelli: Dağlıq Qarabağ nümayəndələrinin irəli sürdükləri müddəaları, dəlilləri, təbii ki, nəzərə aldıq, lakin, bunu prezident Əliyev də bilir. Azərbaycan tərəfindən məqbul sayıla bilməyəcək heç bir alternativ addım atmadıq. Əlbəttə, biz hər hansı yoldan istifadə etməyə hazır olmalıyıq, lakin elə etməliyik ki, bu, Azərbaycan hökumətinin razılığı ilə olsun. Bu həqiqətdir, Ağdamda olarkən gördüm ki, orada mina problemi ümumiy-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yətlə yoxdur. Əlbəttə, mən digər tərəfdə nə olduğunu deyə bilmərəm, orada olmamışam. Yalnız öz qeydlərimi deyə bilərəm. Mühüm olanı budur ki, siyasi məzmun kəsb etmək qorxusu olan problem - necə ki, yaxın keçmişdə baş vermişdi - Azərbaycan hökumətinin çevikliyi və digər tərəfdən Ermənistan hökumətinin buna hazır olması sayəsində aradan qaldırıldı. Başqa sözlə, çeviklik çox zaman irəlini görmək bacarığı, yəni üzdən getmək yox, problemin mahiyyətinə varmaqdır.

Ə l i s ə f t ə r H ü s e y n o v, "Azərbaycan Ordusu" qəzeti: Sualım cənab Raffaelliyədir. Cənab Raffaelli, bundan əvvəl dediniz ki, indiki müharibədən çıxmağın yeganə vasitəsini sülh yolunla görürsünüz. Lakin bir problem də var: Əgər iki dövlət müharibə aparırsa, həqiqi sülhdən o zaman danışmaq olar ki, məsuliyyət dəqiq müəyyənləşdirilmiş olsun, həmin müharibədəki təcavüzkar tərəf və təcavüzə məruz qalan tərəf müəyyən edilsin. Bu müharibə beş ildən artıqdır ki, davam edir və dünyanın heç bir nüfuzlu dövləti, nüfuzlu beynəlxalq təşkilatlar, o cümlədən də sizin təmsil etdiyiniz ATƏM Ermənistanı təcavüzkar kimi tanımaq üçün heç bir səy göstərməmişdir. İndiki səfəriniz zamanı cəbhə bölgələrinə getmiş və ermənilərin Azərbaycana qarşı törətdikləri vəhşilikləri görmüsünüz. Qarşıdakı görüşlərinizdə, gələcək beynəlxalq müşavirələrlə Ermənistanın təcavüzkar tərəf kimi tanınması üçün, heç olmasa bundan sonra, hansısa bir təşəbbüs göstərəcəksinizmi?

M.R a f f a e l l i: Əgər kim isə vasitəçi rolunu yerinə yetirirsə, bu zaman kimin birinci, kiminsə ikinci başlaması barədə siyasi xarakterli qiymət verilmir. Çünki burada siyasi diskussiyadan, qarşılıqlı ittihamlardan söhbət gedir və o zaman ki, faktları təkzib etmək olmaz, onda müvafiq təşkilatların qətnamələri mövcuddur. 822 nömrəli qətnamə bu tipli qətnamələrə misaldır. Mənim roluma gəldikdə isə, bu, Təhlükəsizlik Şurasının üzvünün rolu deyil, mövqeləri yaxınlaşdırmaq, cari problemlərin həllini tabe etmək məqsədi daşıyan konfransın sədri roludur. O ki qaldı erməni birləşmələrinin Kəlbəcərdən çıxarılmasının zəruriliyinə, bu məsələlə iki mövqe yoxdur. 822 nömrəli qətnamədə aydın deyilir ki, qoşunlar bu rayondan çıxarılmalıdır. Bizim planımız qoşunların çıxarılmasını birinci addım kimi təsdiq edir və biz bu mövqedə qalırıq.

Tomas Qolts, "N y u - Y o r k t a y m s" qəzeti: Azərbaycan parlamentinin başçısı Heydər Əliyev Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərini işğal etdiyini öz çıxışlarında dəfələrlə demişdir, Siz bu ifadə ilə razısınızmı?

M.R a f f a e l l i: Sualın cavabı çox sadədir. Bu ifadəyə mənim münasibətim belədir: Hazırda bu fikri təsdiq etmək qeyri-mümkündür. Bizim belə bir planımız var: Müşahidəçilərin əsas işi ondan ibarət olacaq ki, əgər onlar Azərbaycan ərazisində xarici orduların olduğunu təsdiq edərlərsə, onda bu xarici ordular həmin ərazini tərk etməlidirlər. Lakin xarici ordular ümumi ifadədir. Biz buraya həm xarici ölkələrin ordularını, Həm də muzdluları aid edirik.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

E.A x u n d o v a, "Azadlıq" radiostansiyası: Mənim birinci sualım cənab Raffaelliyə, ikincisi isə Heydər Əliyevədir. Cənab Raffaelli, Siz Qarabağ məsələsinə dair sülh danışıqlarının növbəti dövrəsini keçirdiniz. Sizcə, bu problemin dincliklə həlli üçün kim və hansı tərəf hər halda daha böyük çeviklik və daha böyük siyasi iradə göstərdi? Dediniz ki, Dağlıq Qarabağ rəhbərlərinin Sizə verdikləri sənəd üç bənddən ibarətdir. İlk iki bəndi siz özünüz əsassız hesab etdiniz. Üçüncü bənd isə, fikrinizcə, asanlıqla həll edilə bilər və bu, sırf texniki məsələdir. Əgər belədirsə, həmin sənəd erməni tərəfinin yalnız bu vəziyyəti davam etdirməyə və problemin dincliklə həllini uzatmağa, Heydər Əliyev demişkən, hətta tamam pozmağa can atması demək deyilmi? Belə bir amil yoxdurmu?

M.R a f f a e l l i: Ümidvaram ki, belə deyildir. Buna görə də hamı səy göstərməli, lazımi səy göstərməlidir ki, dialoq meylli mövqelər üstünlük təşkil etsin. Yəni, mən nəzərə almalıyam ki. izahat üçün sorğular verilmişdir. Biz də bu suallara müvafiq cavablar vermək istəyirik. Təbiidir ki, rədd cavabı alınarsa, dediyiniz problem ortaya çıxacaqdır.

E.A x u n d o v a: Heydər Əliyeviç, sualım sizədir. Siz Ermənistan prezidenti Levon Ter-Petrosyanla tez-tez ünsiyyətdə olmusunuz və indi də əlaqə saxlayırsınız. Bir vaxtlar hər ikiniz gələrək məsələsini həll etməyə və bu münaqişənin güclənməsinə yol verməməyə müvəffəq olmusunuz. Təəssüratınız necədir: onunla razılığa gəlmək olarmı? Qarabağ problemini hazırda Ermənistanda hakimiyyətlə olan liderlərin iştirakı ilə həll etmək mümkündürmü? Yoxsa Ter-Petrosyan bu siyasi oyunla hər halda sıravi fiqurdur?

H.Ə l i y e v: Əvvəla, mən Ter-Petrosyanla tez-tez ünsiyyətlə olmuram, onunla yalnız son dərəcə zəruri hallarda telefon danışıqları aparıram. İkincisi, indi, cənab Rafaellinin burada olduğu dövrdə, cənab Raffaellinin nümayəndə heyətinin Xankəndiyə necə gedib çıxması məsələsində yaranmış çətinliklərlə əlaqədar telefon söhbətlərimiz olmuşdur, bu söhbətlər dünən axşam, cənab Raffaelli Bakıya gec qayıtdıqda da olmuşdur. Ermənistan prezidenti Levon Ter-Petrosyan telefon danışıqlarında əmin edir ki, o, hazırla hər cür səy göstərir ki, ATƏM-in, indiki konkret halda Minsk konfransının missiyası yerinə yetirilsin. Yeri gəlmişkən, o, mənə xatırlatdı ki, birinci dəfə sənədi Azərbaycan tərəfi və Ermənistan Respublikasının rəhbərliyi imzaladıqdan sonra onu Dağlıq Qarabağın erməni icmasının rəhbərliyi imzalamamışdır, lakin onun səyləri və ya təzyiqi nəticəsində bu sənəd imzalanmışdır. Mən bu söz ləri nəzərə alıram. Əminəm ki, müharibə heç vaxt heç bir xalqa xoşbəxtlik gətirməmişdir, bunu Ermənistandakı təcavüzkar əhvali-ruhiyyəli adamlar da başa düşməlidirlər. Zənnimcə, bunu Levon Ter-Petrosyan da başa düşür.

N a i l ə Y a q u b o v a, "Yeni Müsavat": Cənab Raffaelli, mənim birinci sualım sizədir. Siz qrupunuzun işinin nəticələrini müsbət hesab etdiniz. Bununla bərabər BMT-nin 822 nömrəli

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qətnaməsinin həyata keçirilməsində fasiləni LQR rəhbərliyinin rəsmi təklifinin olmasının zəruriliyi ilə izah etdiniz. Bu, Azərbaycanın həmin respublikanı tanımadığı halda, onun rəsmən tanınması demək deyilmi? Bu nə ilə bağlıdır? Bu, dövlətimizin, yoxsa sizin missiyanızın zəifliyidir?

M.R a f f a e l l i: Mən belə düşünmürəm ki, bu cür danışıqların aparılması yeni dövlətlərin və ya yeni qurumların tanınması deməkdir. Danışıqlar o kəslərlə aparıdır ki, onlar bilavasitə yerlərdədir. Dağlıq Qarabağın statusu problemi isə müharibənin əsasını təşkil edən siyasi problemdir, bu mövzu Minsk konfransının mövzusudur. Rəhbər tutduğumuz əsas prinsip belədir: dövlətin bütövlüyünü və onun sərhədlərini dəyişdirmək qeyri-mümkündür. Bunu yalnız dinc yolla, danışıqların gedişində etmək olar.

H.Əl i y e v: Mən buna onu əlavə edə bilərəm ki, bu, Azərbaycan tərəfinin zəifliyi deyildir. Cənab Raffaelli dedi ki, birinci sənəd həm Azərbaycan rəhbərliyi, həm də Ermənistan rəhbərliyi tərəfindən imzalanmışdır. Azərbaycan rəhbərliyi bu sənədi imzalayarkən, əlbəttə, onu əsas tuturdu ki, sənədi hazırda Dağlıq Qarabağda hakimiyyətdə olanlar da imzalamalıdırlar.

N.Y a q u b o v a: Heydər bəy, ikinci sualım sizədir. Elçibəy hökumətinin səriştəsizliyini sübut etmək istəyənlər birinci dəlil kimi bu hökumətin müharibədəki məğlubiyyətlərini göstərirlər. Lakin bizə o da məlumdur ki, müharibə təkcə Ermənistan ilə Azərbaycan arasında getmir, onun miqyası genişdir. İstərdim deyəsiniz, yeni hakimiyyət gəldikdən sonra Azərbaycanın nə qədər torpağı işğal edilmiş, nə qədər adam həlak olmuş və əsir düşmüşdür? Bunun günahını kimin ayağına yazmaq olar? Yəni, bu faciələrdə beynəlxalq qüvvələrin və indiki hakimiyyətin rolu necədir?

H.Ə l i y e v: Yeni hökumət? Hansını deyirsiniz?

N.Y a q u b o v a: Bu gün hakimiyyətdə olanı.

H.Ə l i y e v: Bu gün hakimiyyətdə olanlar işə yenicə başlamışlar. Siz əvvəlcə aydınlaşdırın ki, bundan qabaq hakimiyyətlə və hökumətdə olanların vaxtında nə qədər torpaq işğal edilmiş, nə qədər insan həlak olmuş və nə qədər adam qaçqına çevrilmişdir. Sonra bunların hamısını aydınlaşdırarıq.

N.Y a q u b o v a: Heydər bəy, mən dedim ki, Ermənistan ilə Azərbaycan arasında müharibə təkcə iki respublikanın apardığı müharibə deyil. Bugünkü məğlubiyyətlərlə, yəni Sizin hakimiyyətə gəlişinizdən sonrakı məğlubiyyətlərlə beynəlxalq qüvvələrin və indiki hakimiyyətin rolu necədir? Mənim sualım budur.

H.Ə l i y e v: Bu günlərdə baş verən hadisələr barədə əvvəlki mətbuat konfransında danışmışam. İyunun 12-dən 28-dək erməni silahlı qüvvələri müxtəlif istiqamətlərlə Azərbaycan torpaqlarına hücuma keçmişdi. O zaman hansı hakimiyyətin olduğunu və hakimiyyətdə kimin olduğunu bilirsiniz. Prezident Əbülfəz Elçibəy iyunun 17-dən 18-nə gecən gecə buradan getmişdir. O, indi də prezident vəzifəsində qalır, elə deyilmi? Lakin iyunun 28-də atəş dayandırıldı. Amma sonra, sizə məlum olduğu k

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

2-si və 4-də Ağdama hücum başlandı, bəzi kəndlər işğal olundu. Sonra biz onları geri aldıq. Zənnimcə, indi bütün bunları təhlil etməyin mənası yoxdur. Belə qısa müddətdə beynəlxalq qüvvələrin və ayrı-ayrı dövlətlərin müdaxiləsini təhlil etməyə də indi heç bir zərurət yoxdur. Sizə məsləhət görərdim ki, bütün 5 ildə, axırıncı il, yeni hökumət hakimiyyətdə olan zaman ötən ildən başlayaraq, Azərbaycanda yeni prezident olan dövrdə nə baş verdiyini, nə qədər torpaq itirildiyini, nə qədər adamın həlak olduğunu, neçə kəndin işğal edildiyini, nə qədər adamın qaçqına çevrildiyini və həmin dövrdə xarici dövlətlərin, beynəlxalq ictimai təşkilatların bu hadisələrə necə təsir göstərdiklərini təhlil edəsiniz. Bunu nə vaxt aydınlaşdırsanız, onda sualınıza cavab verərəm.

Nejla Sammakia, **"Assoşieytedpress" agentliyi:** Mənim birinci sualım cənab Raffaelliyədir. Sizin Dağlıq Qarabağ və Ağdama səfəriniz zamanı hər iki tərəf atəşin müvəqqəti olaraq dayandırılmasına tam riayət edirdimi?

İkinci sual: izah edə bilərsinizmi ki, qoşunların çıxarılması cədvəli və sizin təklif etdiyiniz üçtərəfli təşəbbüs barəsində Dağlıq Qarabağ nümayəndələrinin etirazı nədən ibarət idi?

M.R a f f a e l l i: Cavabım ümumi səciyyə daşıyacaq. Dağlıq Qarabağın etirazı əslində cədvəl, hadisələrin xronologiyası və bu cədvəldə göstərilən müddətlər barəsində deyildi, cədvəldəki konkret müddəalarla bağlı idi. Məsələn, müqavilədə belə bir müddəa var: azərbaycanlılar Kəlbəcərə qayıdarkən özləri ilə yalnız yüngül silah götürə bilərlər. Soruşmaq istəyirəm: ermənilərin etirazından danışarkən siz nəyi nəzərdə tutursunuz? Ermənilərin (Dağlıq Qarabağ ermənilərinin) fikrincə, bu müddəa ikimənalı xarakter daşıyır. Onun izahatı bundan ibarətdir ki, hansı silah növlərinin ağır silah növlərinə aid olduğu ATƏM-in sənədlərində göstərilir. Bizim cədvəldə bu müddəa o deməkdir ki, azərbaycanlılar Kəlbəcərə qayıdarkən onlar, ATƏM-in sənədlərində göstərildiyi kimi, özləri ilə ağır silah götürmək hüquna malik deyildirlər. Bu, orada tam aydın şəkildə izah edildi.

Erməni tərəfinin ikinci etirazı belədir: minaların olması və ya olmaması üçün kim cavabdehdir? Axı hər yer minalanmışdır. Erməni tərəfi sual verir: Yaxşı, bəs minalar partlasa və bədbəxt hadisə baş versə, onda necə? Biz cavab verdik ki, minalar Kəlbəcər rayonu ərazisindədir. Lakin izah etdik: minalardan danışarkən ermənilərin Kəlbəcər rayonu ərazisində qoyduqları minaları nəzərdə tuturuq. Mən nümayəndə heyətinin üzvü cənab Bekmanın terminologiyasından istifadə edirəm, erməni tərəfi minalanmış yerlərin xəritəsini verməli və minaların zərərsizləşdirilməsinə kömək etməlidir.

Dağlıq Qarabağın axırıncı etirazı belə bir müddəaya aiddir: ATƏM-in müşahidəçilərində hadisələrin mahiyyətini izah edən sənəd olmadığı halda, onlar bu cür şəraitlə necə səmərəli iş apara bilərlər? Nümayəndə heyətimizin üzvlərindən birinin

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dediyi kimi, bunun cavabı belədir ki, bu təlimat sənədi tezliklə göndəriləcəkdir. Hazırda ATƏM bu işlə məşğuldur. İş başlayan kimi, ermənilər həmin sənədi cədvələ uyğun olaraq alacaqlar.

Beləliklə, deyə bilərəm ki, Dağlıq Qarabağın bütün etirazlarını asanlıqla aradan qaldırmaq mümkündür.

N.S a m m a k i a: Sualımın birinci hissəsinə cavab vermədiniz. Hər iki tərəf atəşin dayandırılmasına əməl edirdimi? Qoşunların çıxarılması nə vaxt həyata keçiriləcək?

M.R a f f a e l l i: Cədvəlin həyata keçirilməsindən əvvəlki cavabımda danışdım. Biz öz məktubumuzda dəqiq tarixi göstərmişik. Bununla əlaqədar Dağlıq Qarabağ öz razılığını bildirməlidir.

H.Ə l i y e v: Vaxtımız bitdi. Cənab Raffaellidən xahiş etmək istəyirəm ki, o, öz missiyasını hökmən axıra çatdırsın. Biz çox gözləmişik - tam bir il. ATƏM son vaxtlar ərzində hələlik nəticələr əldə etməmişdir. Biz gözləyirik, daha 5-b gün də gözləməyə hazırıq. Ümidvaram ki, biz ATƏM-in və Minsk konfransı nümayəndə heyətinin təqvimini yerinə yetirməyə başlayacağıq. Diqqətinizə görə sağ olun.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ƏLAHƏZRƏT MƏHƏMMƏD HÜSNÜ MÜBARƏK CƏNABLARINA

Hörmətli cənab prezident!

Sizi və bütün Misir xalqını öz adımdan və Azərbaycan xalqı adından milli bayram - İnqilab gününün ildönümü münasibətilə səmim-qəlbdən təbrik edir, şəxsən Sizə və qardaş Misir xalqına sülh, əmin-amanlıq və xoşbəxtlik arzulayıram.

Mən uzun illər boyu Azərbaycan və Misir xalqları arasında mövcud olan dostluq və əməkdaşlıq əlaqələrinə böyük əhəmiyyət verirəm. İnanıram ki, xalqlarımız arasındakı hərtərəfli və faydalı münasibətlər daha da inkişaf edəcək və genişlənəcəkdir.

Fürsətdən istifadə edib Sizə, ailənizə və Misir xalqına öz dərin ehtiramımı bildirirəm.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikası prezidentinin
səlahiyyətlərini həyata keçirən
Azərbaycan Respublikası Ali Sovetinin sədri

21 iyul 1993-cü il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BMT TƏHLÜKƏSİZLİK ŞURASININ SƏDRİNƏ
SURƏTİ: BMT-nin BAŞ KATİBİNƏ

Hörmətli cənab sədr!

Suveren Azərbaycan dövlətinin ərazicə parçalanmasına yönəldilmiş erməni təcavüzünün davam etdirilməsi və gücləndirilməsi nəticəsində ölkəmdə yaranmış gərgin vəziyyət məni bu məktubla Sizə müraciət etməyə vadar edir.

Beynəlxalq hüququn prinsiplərinə və normalarına sadiq olan Azərbaycan ona Ermənistan Respublikası tərəfindən zorla qəbul etdirilmiş qanlı münaqişənin dincliklə aradan qaldırılmasında ATƏM-in vasitəçiliyinə, beynəlxalq təhlükəsizlik və əməkdaşlıq ideyalarını əsas tutaraq və bu beynəlxalq təşkilatın üzvlərinin hüquqlarına və vəzifələrinə arxalanaraq razılıq vermişdir. Uzun və çətin nizamasalma prosesi gedişində Azərbaycan hökuməti münaqişənin dincliklə aradan qaldırılmasına çalışaraq və maksimum çeviklik və konstruktivizm nümayiş etdirərək, qan tökülməsini dayandırmaq və danışıqların möhkəm əsasını yaratmaq yollarının gərgin axtarışını aparmışdır. Lakin Ermənistanın dünya birliyi və Azərbaycan qarşısında öz öhdəliklərini kobudcasına pozması sülh səylərimizi boşa çıxarır.

Minsk konfransı haqqında ATƏM-in Nazirlər Şurasının qərar qəbul etdiyi gündən bir ildən çox keçmişdir, lakin bu ideya reallıqdan indi həmişəkindən daha uzaqdır. Əgər bir il bundan əvvəl biz Nazirlər Şurasının qərarının qəbul edildiyi vaxtdakı vəziyyəti bərpa etməyin və bununla da Minsk konfransına çıxmağın yeganə mümkün yolu kimi Şuşa və Laçının azad olunmasının zəruriliyindən danışırdıqsa, indi Azərbaycan ərazisinin 17 faizindən çoxu erməni təcavüzkarı tərəfindən qəsb edilmişdir. Qarabağın bütün dağlıq hissəsi, Azərbaycanın Laçın rayonu (onun cənub hissəsi 1992-ci ilin mayında, şimal hissəsi isə 1993-cü ilin aprelində tutulmuşdur), Kəlbəcər rayonu, Naxçıvan Muxtar Respublikasının, Qazax, Füzuli, Zəngilan, Ağdam rayonlarının kəndləri işğal olunmuşlar. Cəmi 503 yaşayış məntəqəsi qəsb edilmişdir, qaçqınların və köçkünlərin ümumi sayı 567 min nəfərdir.

Dağlıq Qarabağı öz ərazisinə birləşdirmək haqqında xəyanətkar qərarlar qəbul edilməsində ifadəsini tapan siyasi təcavüzdən başlayan və sonra emissarlar, terrorçular və silahlar göndərilməsinə keçən Ermənistan bu gün Azərbaycan torpağında genişmiqyaslı hərbi əməliyyatlar aparır, ATƏM-in və BMT-nin çağırış və qərarlarına, o cümlədən də işğal qüvvələrini Azərbaycandan çıxarmağı birmənalı tələb edən Təhlükəsizlik Şurasının 822 nömrəli qətnaməsinə məhəl qoymur. Erməni tərəfinin va-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sitəçinin qanuni tələblərinin yerinə yetirilməsindən tamamilə imtina etməsi, üstəlik, qeyri-məqbul şərtlər irəli sürməsi nəticəsində ATƏM-in həmin qətnamənin həyata keçirilməsinə yönəldilmiş səylərinə əngəl törədilmişdir. Ermənistan Respublikasının bu əməlləri nəticəsində Mario Raffaellinin bölgəyə əvvəlki səfərləri kimi, axırıncı səfəri də BMT Təhlükəsizlik Şurası qətnaməsinin tezliklə həyata keçiriləcəyinə və qan tökülməsinin çoxdan gözlənilən dayandırılmasına bəslənilən ümidlər üçün heç bir əsas verməmişdir.

Dağlıq Qarabağda fəaliyyət göstərən erməni silahlı birləşmələrinin Ermənistan Respublikasına tabe olmadıqları barədə erməni tərəfinin dedikləri tamamilə əsassızdır. Bütün ağır silahların, döyüş sursatının, canlı qüvvənin göndərilməsini, habelə hərbi əməliyyatlara bilavasitə rəhbərlik edilməsini Ermənistan Respublikası ilhaq olunmuş Laçın rayonu vasitəsi ilə həyata keçirir.

Ermənistan yaranmış fasilədən istifadə edərək, Raffaellinin missiyası getdikdən sonra yeni güclü hücuma başlamışdır. Həmin hücum zamanı Ermənistanın silahlı qüvvələri Ağdam şəhərini işğal etmişlər. Bu xəyanətkar hərəkət hələ heç başlanmamış olan sülh prosesinə sarsıdıcı zərbə endirmişdir. Bundan əvvəl Azərbaycan hökuməti Təhlükəsizlik Şurasına xəbərdarlıq etmişdi ki, prosesin uzadılması daha böyük fəlakətə gətirib çıxara biləcək təhlükəli vəziyyət yaradır.

İndiki şərait BMT nizamnaməsinə uyğun olaraq Təhlükəsizlik Şurasına verilmiş səlahiyyətlər əsasında onun işə qarışmasını təkidlə tələb edir.

Təcavüzkarın cilovlanmasına, qan tökülməsinin dayandırılmasına və işğal olunmuş Azərbaycan ərazilərinin azad edilməsinə yönəldilmiş təxirəsalınmaz tədbirlər gərəkdir.

Deyilənlərlə əlaqədar Təhlükəsizlik Şurasının dərhal çağırılmasını xahiş edirəm.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikası prezidentinin
səlahiyyətlərini həyata keçirən
Azərbaycan Respublikası Ali Sovetinin sədri

26 iyul 1993-cü il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"MƏN XALQA MİNNƏTDARAM"

"ROSSİYSKİ FERMER" QƏZETİNİN MÜXBİRİ İLƏ SÖHBƏT

- Heydər Əliyeviç, güman ki, Siz hələ bizim qəzeti görməmisiniz?

- Xeyr, təəssüflər olsun, "Rossiyski fermer" qəzetini ilk dəfə görürəm. Sağ olun, asudə vaxtımda oxuyaram.

- Görüşümüzün vaxt-vədəsindən belə başa düşürük ki, Sizin üçün asudə vaxt olduqca şərti anlayışdır...

- Həqiqətən belədir. Gördüyünüz kimi, indi gecədən xeyli keçib, saat ikinin yarısıdır. Biz isə işləyirik. Özü də təkcə bu gün yox, hər gün belədir, gecəni gündüzə qatıb çalışırıq. İşə səhər tezdən başlayıram, onu, bir qayda olaraq, gecə saat dörd radələrində qurtarıram. Əlbəttə, ölkədə vəziyyət elədir ki, gərək istirahət barəsində düşünməyəsən. Bir də ki, mən həmişə bu qayda ilə işləməyə öyrəşmişəm. Bu iş rejimi mənim üçün adi bir rejimdir.

- Sirr deyilsə, Siz bu qüvvəni haradan alırsınız, axı bu yaxınlarda yetmiş yaşınız tamam oldu, yoxsa Sizə yoq kömək edir? Hər halda belə şayiələr gəzir.

- Xeyr, mən yoqla məşğul olmamışam və məşğul olmuram. Görünür, təbiətin özü mənə hansısa bir qüvvə verib. Xarakterim isə qüvvə və bacarığımı səfərbərliyə almağa vadar edir. Daha nə deyim? Ömrümdə heç vaxt siqaret çəkməmişəm. İçkini də rəmzi olaraq dilimə vurmuşam – sağlıq deyiləndə badəni ancaq qaldırmaqla kifayətlənmişəm.

- Azərbaycanın axırıncı prezidenti by məsələdə, deyəsən, başqa yolla gedir...

- Deyəsən, elə belədir. O, yəni Elçibəy iş-güclə məşğul olmaqdansa, indi öz kəndində, deyilənlərə görə, oturub araq-çaxır içir. Nəticə etibarilə əsas məsələ heç də bunda deyildir. Ölkə üçün, belə rəhbərliyin ucbatından zillət-zülm çəkən xalq üçün, inanın, adamın ürəyi ağrıyır.

- Sizin gəlişinizdən sonra vəziyyət dəyişirmi?

- Bu qədər dağıntı, viranəlik olduğu bir şəraitlə işə başlamaq, iş görmək çox çətindir.

- İşin öhdəsindən gələcəksinizmi?

- Əlimdən gələni edəcəyəm. Mən heç kəsə söz verməmişəm və vəd etmək fikrində də deyiləm. Parlamentdə söhbət mənim seçilməyimdən gedərkən mənə belə bir sual verdilər: mən nə vaxt və nə etmək niyyətindəyəm? Cavab verib dedim: Heç nə vəd edən deyiləm. Bu hakimiyyət mənə gərək deyil, mən ona can atmamışam, elə bu dəqiqəcə çıxıb gedə bilərəm. Getdim də. Amma məni saxladılar və yekdilliklə seçdilər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Yəqin, hər halda ürəklərinə dammışdı ki, qələbə sizinlədir. Amma aralarında elələri də vardı ki, Sizin gözdən salındığınız illərdə dalınızca danışır, ayağınızın altına qazır, Sizi ləkələməyə çalışırdı.

- Əlbəttə, belələri az deyildir. Mən həyatda çox böyük sarsıntılar keçirməli oldum. Onlara yalnız möhkəm əsəblər və güclü xarakter sayəsində dözmək mümkün idi. Yüksək vəzifələrə irəli çəkdiyim, təyin etdiyim, inandığım adamlar mən istefa verdikdən sonra birdən məndən üz döndərdilər, mənə xəyanət etdilər.

- Belələri çoxmu idi?

- Əksəriyyəti belə idi. Onlar öz yerlərində qalmağa, vəzifələrindən bərk-bərk yapışıb onu əldən verməməyə və öz ailələrinin yağ-bal içində üzməsini təmin etməyə var qüvvələri ilə çalışırılar.

- Vəzifələrinin itirilməsi təqdirində ailələri, qohum-əqrəbaları üçün narahat olmağa onların əsasları var idimi?

- Başıma gələnlərin, praktikamın göstərdiyi kimi, əfsuslar olsun var idi. Əvvəlki sistem bu mənada yaman amansız və qəddar idi. Eybi yoxdur, mən özüm çox təqiblərə, böhtanlara məruz qalmışam, mənə çox şər atıblar. Lakin hər şeyə dözmüşəm. Bəs qohum-əqrəbamın nə günahı? Təəssüflər olsun ki, onlar da az əziyyət çəkməmişlər. Oğlum İngiltərə üzrə mütəxəssisdir. Oraya işləməyə getməli idi, özü də bütün rəylərə və obyektiv göstəricilərə görə buna tamamilə layiq idi. Halbuki o, İngiltərəyə getsəydi, bunun işə xeyri olardı. Amma mən istefaya çıxan kimi, onun karyerasının üstündən çalın-çarpaz xətt çəkdilər. Gözəl bir mütəxəssis olan oğlum öz çörək pulunu kommersiya strukturlarında qazanmaq məcburiyyətində qaldı. Kürəkənim əks-kəşfiyyatda xidmət edirdi, o da əla perspektivli mütəxəssis idi. Amma mənim gözdən salınıb qəzəbə düçar olmağım onun da karyerasının üstündən xətt çəkdi.

- **Necə bilirsiniz, Sizə xain çıxan adamları başa düşmək olarmı?**

- Bilirsinizmi, həyatda şərəflə şərəfsizliyi, şəxsi rifahla ictimai borcu, tamahkarlıqla vicdanlılığı hər bir kəs özü seçir. Mənim üçün burada suallar yoxdur. O ki qaldı bu adamlara - Allah özü hər şeyi görür. Mən kinli adam deyiləm, heç kəsi də gözümçıxdıya salmaq, təqib etmək fikrim yoxdur.

- Deyəsən, Siz artıq ateist deyilsiniz, dindarsınız?

- Bəli, mən Allaha inanmağa başlamışam. Məni bu inama həyatda qarşılaşdığım sınaqlar, ictimai şüurla baş vermiş köklü və böyük dəyişikliklər, digər sırf şəxsi səbəblər gətirib çaxarmışdır.

- O cümlədən də inanıb etibar etdiyiniz adamlardan məyusluq, insanların vəfasından, xeyirxahlığından məyusluq?

- Yox, nə deyirsiniz? Əksinə, bu illər ərzində neçə-neçə gözəl, cəsarətli, prinsipial adamlar gördüm, onlarla tanış oldum. Başqa məsələdir ki, əvvəllər onlar mənə tanış deyildilər. Bu adamlar məni axtarıb tapır, mənə ürək-dirək verir, gözdən salınmış xadimlə ünsiyyət üstündə özlərinin də rüsvay ediləcəyindən qorx-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

murdular. Bu, adamın qəlbini riqqətə gətirir və unudulmazdır. Xalqa isə elə minnətdaram ki, bunu ifadə etməyə söz tapmıram! Axı mən Naxçıvana gəldikdə on minlərlə adam meydana axışdı və bütün günü bir ağızdan mənim familiyamı ucadan çəkib tələb edirdilər ki, mən əməli dövlət fəaliyyətinə qayıdım. Məgər mən imtina edə bilərdimmi? Əlbəttə, mən çox böyük bir ölkənin - SSRİ-nin rəhbərlərindən biri olduqdan sonra Naxçıvanın rəhbəri olmaq sanki elə bir iş deyildi... Amma məsələ əsla miqyasda deyildi. Əgər mən insanlara lazımamsa, əgər onlar mənə ümid edirlərsə, deməli, mənim borcum sırada durmaqdır, fəaliyyət göstərməkdir.

- Lakin hər halda, rəhbər vəzifə...

- Bu illər ərzində Naxçıvana rəhbərlik etməyin nə demək olduğunu yalnız o kəslər qiymətləndirə bilərlər ki, bunu özləri görmüş olsun. Biz blokada şəraitində yaşayırdıq. Digər tərəfdən, Xalq Cəbhəsi hökuməti bu blokadanın aradan götürülməsi üçün tamamilə mümkün olan tədbirləri qəsdən görmürdü. Onlar məndən qorxur və riyakarlığa bax ki, ümid edirdilər - Naxçıvanın müsibəti məni hörmətdən salacaq və yenə də hakimiyyətdən uzaqlaşdıracaqdır. Halbuki, Elçibəyin özü əslən Naxçıvandandır. Görün, siyasət nə olan şeydir! Amma əllərindən bir iş gəlmədi. İstədiklərinə nail olmadılar. Hərçənd dolanmaq, özü də şaxtalı-boranlı qışda dolanmaq bizim üçün asan olmadı. Ev-eşikləri isitmək üçün meşələrin 70 faizə qədərinə balta çalındı - yenə də kifayət etmədi. Hamı kimi, mən də soyuqdan, suyun yoxluğundan əzab-əziyyət çəkdim. Amma nə edəsən? Mən həmyerlilərimə elə bəri başdan dedim: Əgər soyuqdan və ya aclıqdan ölmək lazım gəlsə, onda hamımız birlikdə öləcəyik. Lakin əminəm ki, bu faciə baş verməyəcəkdir. Belə də oldu. Mən öz köhnə şəxsi əlaqələrimdən istifadə edərək, Türkiyə və İran rəhbərliyi ilə yardım haqqında, kredit, humanitar kömək, elektrik enerjisi ilə təchizat və digər məsələlər haqqında razılığa gəlməyə müvəffəq oldum... Sülh rejimi haqqında Ermənistan rəhbərləri ilə də razılığa gələ bildim. Öz adıma artıq heç bir şey çıxmayaraq, deyə bilərəm və həyatda fəxr etməyə həqiqətən dəyər ki, mən həmin müddət ərzində Naxçıvanı müharibədən qorudum.

- Bəlkə, indi sülhü Azərbaycana qaytara biləcəksiniz?

- Təkrar edirəm, mən heç nə boyun olmuram. Lakin münaqişəni aradan qaldırmaq üçün imkanlar var.

- Bəs İqtisadiyyatı sağlamlaşdırmaq üçün necə?

- Daha doğrusu, İqtisadiyyatı dirçəltmək üçün. Axı o qədər dağıtmış, o qədər soyub-talamışlar ki, heç deyiləsi deyildir. Sənayedə də, kənd təsərrüfatında da vəziyyət son dərəcə bərbaddır. Camaat özünə bir tikə çörək pulu qazana bilmir, cəmiyyətə lazım olan məhsulu istehsal edə bilmir. Başlıca səbəblərdən biri budur ki, bütün səviyyələrdə rəhbər vəzifələrdə peşəkarlar naşılarla ucdantutma əvəz edilmişdi. Əgər kənd müəllimi, deyək ki, iri bir üzümçülük təsərrüfatına rəhbərlik edirsə (nə var ki, o, Xalq cəbhəsinin üzvüdür), dünənki bazar alverçisi isə bütöv bir sahənin başında durursa, buna nə ad verəsən, burada nədən danışasan?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Deməli, kadrlar kütləvi surətdə təzələnəcəklər?

- Bu, çox mürəkkəb və kifayət qədər ağrılı sualdır. Çünki elə köhnə kadrlar arasında da hamı öz yerində deyildir. Bəlkə də, yeni kadrlar arasında da öz vəzifələrinə layiq olanlar var. Yaxşı məlum olan bir meyar var - praktika. Yeri gəlmişkən, mənim bu barədə ayrı heç bir fikrim yoxdur. Söz düşmüşkən, onu da deyim ki, mən Naxçıvanın rəhbəri olarkən xalq cəbhəçilərini rəhbər vəzifələrə respublikada birinci olaraq təyin etmişdim. Başqa məsələdir ki, bir müddətdən sonra onların paxırı, fırıldaqçı olduqları üzə çıxdı və buna görə də belələrini vəzifədən uzaqlaşdırmaq lazım gəldi. Məhz bundan sonra Xalq Cəbhəsi mənim əleyhimə qalxdı. Onlar elə düşünürdülər ki, əgər kimsə onların adamıdırsa, deməli, o hər şey elə bilər.

- Problemləriniz doğrudan da başdan aşır. Hər şeydən göründüyü kimi, Siz asudə vaxtı ancaq arzulaya bilərsiniz. Əgər asudə vaxtınız olsa, Siz onu necə keçirərdiniz? Nə kimi məşğuliyyətiniz var?

- Məşğuliyyət barəsində yalnız keçmiş zamanda danışmaq olar. Həyat sevimli əyləncə və qalan məşğuliyyət üçün imkan vermirdi. Halbuki mən uşaqlıq illərində şer də yazır, şəkil də çəkirdim. Başlıca arzum arxitektor olmaq idi. Həmin ixtİsas üzrə hətta bir az oxumuşdum da, lakin sonra bu arzumdan əl çəkməli oldum. Hərçənd o, qəlbimdə qalır. Yeri gəlmişkən, Azərbaycanın rəhbəri olarkən şəhərsalma sahəsində az iş görmədim. Ümumiyyətlə, geridə qalmamağa, arxitekturada baş verən hadisələri izləməyə çalışırdım. Qoy sizə həyatımdan maraqlı bir əhvalatı danışım. Bir dəfə ölkənin görkəmli ustaları Moskvaya, Arxitektor evinə toplaşmışdılar. Mənə söz verdilər. Sonra da başıma toplaşıb təəccüblə soruşdular: Siz arxitekturanı haradan belə dərindən bilirsiniz? Özünü tərifləmək olmasın, arxitekturadan, gözümdə qalan arzumdan söhbət getdikdə belə hallar mənim üçün son dərəcə xoşdur.

- Bəs indi başlıca arzunuz hansıdır?

- Xalqım üçün firavanlıq və əmin-amanlıqdan başqa ayrı bir arzum yoxdur. Bügün varlığımı, bütün qüvvə və bacarığımı mən bu amala həsr etmişəm.

- Allah eləsin ki, bu arzunuz tez bir zamanda həyata keçsin.

"Rossiyski fermer"

Söhbəti
Vasif Səmədov
aparmışdır

3 avqust 1993-cü il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"MƏN SİZƏ HEÇ NƏ BƏD ETMİRƏM"

"SOBESEDNİK"İN MÜXBİRİNƏ MÜSAHİBƏ

- Heydər Əliyeviç, doğru deyirlərmi ki, Siz yoqa ilə məşğul olursunuz? Ona görə də bu qədər işləyirsiniz?

- Mənim haqqımda çox şey deyirlər. Lakin hamısına inanmaq lazım deyil... O ki, qaldı gündə 14-16 saat işləməyimə, gənclik illərindən özümü buna alışdırmışam. İndi yaşımın o vaxtı deyil ki, vərdişlərimi dəyişim.

- Belə işləmək üçün necə də sağlam olmaq lazımdır! Üstündən iki ay keçsə də, hər halda yetmiş illiyiniz münasibətilə Sizi təbrik edirik. Yəqin heç vaxt papiros çəkməmisiniz, içkiyə meyl etməmisiniz?

- Təbrik üçün sağ olun. Papirosa gəldikdə, çəkməmişəm. Spirtli içkilərə də meylim olmayıb.

- İsteriya vəziyyətində olan dövləti necə idarə etmək olar?

- İndi Azərbaycanda vəziyyət belədir: İqtisadiyyat büsbütün dağılmışdır. O ki qaldı ictimai-siyasi vəziyyətə, bundan pisini ağla gətirmək olmaz. Suveren dövlətin ərazisinin 17 faizi işğal olunmuşdur. Yarım milyondan çox qaçqın var.. Sənaye və kənd təsərrüfatı istehsalı, tikinti sıfır həddindədir. Adamlar harada işləsin, nə ilə dolansın, ailələrini necə saxlasınlar? Axı keçmiş SSRİ-nin heç bir Respublikasında belə vəziyyət yoxdur. Əlbəttə, Elçibəyin başçılıq etdiyi əvvəlki rəhbərlik də öz işini görmüşdür. Onların bir "müqəddəs" prinsipləri vardı: pəhbər vəzifəni yalnız Xalq Cəbhəsindən olan tuta bilərdi: dövlət işi səriştəsiz adamlara, ali aşpaza belə etibar olunurdu. Bunun tək bircə nəticəsini deyim: 35 nəfərin ölümü ilə qurtaran Gəncədəki iyun hadisələri zamanı şəhərə 23 milyard rubl zərər dəymişdir. Bütün bunlar üçün keçmiş rəhbərlik ciddi cavab verməli olacaq.

- Çoxları artıq həbs olunmuşdur. Ali Sovetin keçmiş sədri İsa Qəmbər, keçmiş baş nazir Pənah Hüseynov. Əbülfəz Əliyev isə doğma Kələki kəndində məskən salmışdır. Yeri gəlmişkən, by kənd Naxçıvandadır. Sizin Vətəninizdə...

- Beş barmağın beşi də bir olmur.

- Onun sonuncu (bəyanatından xəbəriniz varmı? Azərbaycan ərazilərini, o cümlədən də Laçını qaytarmaq təklifi ilə Ermənistana müraciət etmiş və bildirmişdir ki, təklif qəbul olunarsa, o zaman Dağlıq Qarabağ Respublikasını tanıyar.

- Mən bunu birinci dəfədir eşidirəm. Amma belə demək istərdim: indən belə onun hansısa sərxoş hərəkətlərinə fikir vermək istəmirəm. Mən bir neçə dəfə onunla telefonla danışmış və Bakıya qayıtmasına çalışmışam. Şəxsi təhlükəsizliyinə təminat vermişəm. Ancaq...

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Kişiyə yaraşan sifət deyil. Bir də ki, sərxoşluq etmək məgər kişilikdəndir?

- Doğma kəndində indi də içməyinə ara vermir.

- İndi prezidentin səlahiyyəti Sizin əlinizdədir. Yeni komandanı necə təşkil edəcəksiniz?

- İndiyədək bir neçə təyinat olmuşdur. Yüksək vəzifəli şəxslərdən yeni komanda yaratmaq indi xüsusilə çətindir: hər şej, o cümlədən adamların qəlbləri də o dərəcədə dağılmışdır ki... Bir də ki, Ali Sovetin sədri vəzifəsinə təyin edilməyim məndən ötrü gözlənilməz oldu. Mən heç öz komandamı da hazırlamağa macal tapmadım.

- Heydər Əliyeviç, Siz son illər necə yaşamısınız? Biz ucundan-qulağından eşidirik. Dedi-qodu çoxdur, həqiqəti isə bilmirik...

- 87-ci ildə, məni Sov.İKP MK Siyasi Bürosundan istefaya "göndərəndə", özümə söz verdim ki, dövlət fəaliyyətinə bir daha qayıtmayacağam. Uzun müddət buna əməl etdim, hətta siyasətlə də məşğul olmadım. 1990-cı il yanvarın 19-da gözlənilmədən Qorbaçov zəng etdi. Məni qəbul etmək, dinləmək barədə təkidlə etdiyim xahişlərə üç il məhəl qoymamışdı. Xahişlərim isə şəxsi məsələlərlə bağlı deyildi - məni Qarabağdakı hadisələr narahat edirdi... Yox, keçmiş "yoldaş" məni qəbul etmirdi ki, etmirdi. İndi isə, budur... deyir: Bakıda vəziyyət pisdir, Azərbaycana nə isə bir əlac tapmaq lazımdır. Axı siz onun həyəcanlı-hamar nitqini eşitmisiniz. Buna görə də başa düşə bilmədim: Ona görə pisdir ki, mən günahkaram, yaxud məndən kömək istəyir? Sonra söhbət kəskin şəkil aldı, mən təfərrüata varmaq istəmirəm, lakin biz yenə acılı-ağrılı fikirlərlə ayrıldıq. Ən başlıcası isə, heç cür təsəvvürümə gətirə bilmirdim ki, o, Bakıya qoşun yeritmək və oradakı iqtişaşları güc işlətməklə yatırtmaq barədə artıq rəpap qəbul etdikdən sonra mənə zəng etmişdir. Faciə baş verdi. Bundan sonra bütün gecəni yata bilmədim. Hey fikirləşirdim. Həhajət, başa düşdüm ki, adamlar fəlakətə düçar olanda kənarda qala bilmərəm.

- Partiyadan da buna görəmi çıxdınız?

- Bir il sonra. Azərbaycan partiya MK-sının birinci katibi Mütəllibov... partiyadan çıxmağımla əlaqədar dərhal mənim fəaliyyətimi yoxlamaq üçün komissiya təşkil etmişdi. Mənim isə bundan xəbərim yox idi. Bu əsnada xarici jurnalistlərdən biri zəng edib həmin məsələni şərh etməyimi xahiş edir. Mən də cavab verdim: axmaq adamdan nə gözləyirsiniz? Mən bəziləri kimi, qorxaq deyiləm, həm də yenidən Azərbaycanın xalq deputatı idim. Məsələnin nə yerdə olduğunu öyrənmək üçün Bakıya gəldim. Bir neçə gün sonra isə Moskvada qiyam baş verdi. Mütəllibov da onu dərhal müdafiə etdi. Ali Sovetin sessiyası toplandı. Mən orada çıxış edərək qiyamçıları, ən başlıcası, onların Azərbaycandakı əlaltılarını ittiham etdim. Mütəllibovun bəzi çirkin əməllərindən xəbər tutdum və onu prezident seçməkdən qəti şəkildə çəkindirdim. Məni iclası qəsdən pozmaqda təqsirləndirdilər. Amma sessiyanın ikinci günü yenə çıxış etdim. Gecə isə...

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qardaşımın evində qalırdım. Gecənin bir vədəsi xeyirxah bir adam qapını döydü və mənə dedi ki, ciddi tədbir hazırlanmışdır, evə atəş açа bilərlər. Buradan gedin. Səhər saat beşdə qardaşımla aeroporta yollandıq. Hara getməli? Moskvaya qayıtmaq istəmirdim. Buna görə də Naxçıvana uçdum. Hər halda Vətənimdir... Orada isə mitinq gedirdi. Nə qədər qaçırdım olmadı, adamlar məni Naxçıvan Ali Sovetinin sədri vəzifəsini tutmağa razı sala bildilər. Adamlar isə az deyildi - 60 min nəfər idi. Qışqırırdılar: "Ə-li-yev!" Bütün günü, mən razılıq verənə qədər, dağılışmadılar.

- Beləliklə də özünüzə verdiyiniz sözdən geri çəkildiniz...

- İnanın, bu, müstəsna haldır. Mən özüm-özümə söz vermişdim... Bilirdim ki, Naxçıvanda vəziyyət mürəkkəbdir. Muxtar Respublika Azərbaycanın əsas ərazisindən aralı düşmüşdür. Ermənistanla böyük bir ərazidə sərhədi var. Əvvəllər Mütəllibov təzyiq edirdi: Bizim parlament prezident seçkilərində iştirak etməməyi qərara almışdı. Sonra Elçibəy müxalifət bloku yaratdı. Axı ilk vaxtlar mənim müavinlərim Xalq Cəbhəsinin adamları idi. Baş nazir də həmçinin. Günlərin birində məlum oldu ki, onlar ən adi fırıldaqçılar imiş. Qovmaqdan başqa çarəsi yox idi. Onlar güman edirdilər ki, cəbhəçilərin nümayəndələridirlərsə, deməli, istədiklərini edə bilərlər. Lakin mən tələbkar adamam. Boyunlarının ardından vurub yola saldım.

- Rüşvətxorlardan yaxanız qurtardı, amma yanacaqsız və çörəksiz qaldınız...

- Lakin əvəzində Türkiyə və İran rəhbərləri ilə olan köhnə şəxsi əlaqələr kara gəldi. Axı biz onlarla qonşuyuq.

Türkiyədən elektrik xətti çəkdik. Ərzaq üçün 10 milyon dollar kredit, cürbəcür humanitar yardım da aldıq. Qışda şaxta otuz dərəcəni keçirdi. Ağacların 70 faizi kəsilib yandırıldı. Yada salmalı deyil, səhərlər əl-üz yumaq olmurdu, üz qırxmaq üçün su qızdırmağa belə bir şey tapılmırdı...

- Mən Sizi saqqallı təsəvvür edə bilmirəm.

- Nə deyirsiniz, belə hallar olmuşdur. Xalq Cöbhəsi həmyerlilərimə diz çökdürmək istəyirdi: fikirləşirdi ki, xalq boğaza yığılacaq və özü Əliyevi kənar edəcək. Adamlara dedim: Mən sizinləyəm, acından ölsək də, birlikdə öləcəyik. Lakin inanırdım ki, qışdan çıxacağıq.

- Bəs necə oldu ki, Ermənistanla silahlı münaqişədən yaxa qurtara bildiniz?

- Bizim ümumi sərhədimizin uzunluğu 300 kilometrə çatır. Mən Ermənistan rəhbərliyi ilə müntəzəm əlaqə saxlayırdım. Onlarla dil tapa bildim. Naxçıvanlılar elə belə də deyirdilər: hər cür şaxtaya-aclığa dözərik, təki vuruşmayaq.

- Bu gün bütün Azərbaycanın taleyi Sizin əlinizdədir. Çox ağır yük deyilmi?

- Bir daha demək istəyirəm ki, bugünku vəzifəni tutmaq arzucunda deyildim. Hakimiyyətin ləzzətini görmüşəm - düşünüldüyü qədər şirin deyil. Bəzilərinə elə gəlir ki, yenidən bu ləzzəti

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dadmaq istəmişəm. İstəmirəm. Hakimiyyətdən çəkilməyə də hazıram.

Lakin bu gün adamlar mənə baxırlar. Özü də ümidlə baxırlar. Hərçənd mən o adamlardan deyiləm ki, deyəm: Siz məni seçin, dərhal müharibəni qurtarım və yarım ildən sonra yağ-bal içində yaşayacaqsınız, - yox! Mən Elçibəy deyiləm. Milli Məclisin - bizim Ali Sovetin deputatları məndən soruşurlar ki, bizə nə vəd edirsiniz? Birmənalı cavab verdim: heç nə! Mən peyğəmbər deyiləm və sabah nə olacağını da bilmirəm. Bəlkə daha da pis olacaq. Lakin bir şeyi bilirəm: bu dəhşətli anda hər şeyi atıb getmək - adamlara xəyanət etmək deməkdir.

- Sizin ən ağır yükünüz müharibədir. Necə bilirsiniz, onu tezliklə qurtarmaq üçün real imkan varmı?

- Burada olduğum ilk dəqiqələrdən başlayaraq ancaq münaqişənin dinc yolla aradan qaldırılması barədə düşünürəm. İndi qarabağlılar strateji baxımdan əhəmiyyətli bir sıra yüksəklikləri ələ keçirmişlər və danışıqlar sanki onlara lazım deyildir. Ermənistan rəhbərliyi isə özünü elə aparır ki, guya Dağlıq Qarabağ xadimlərinə təsir göstərə bilmir. Lakin nə qədər müharibə aparmaq olar? Adamlar mənasız yerə həlak olurlar. Bu barədə daha danışa bilmirəm...

- Deyəsən, Azərbaycanın əvvəlki rəhbərliyi Türkiyədən başqa heç kimi sevmirdi. Hər halda Türkiyədə istehsal edilən məhsulların, açıq deyim ki, heç də yüksək keyfiyyətli olmayan məhsulların axını məhz bunu təsdiq edir. Bəs lap deyək ki, keçmiş SSRİ-nin "qardaş" respublikalarının dostluğu necə oldu?

- Mən bu barədə demişəm, özü də tamamilə rəsmi şəkildə: Azərbaycan keçmiş SSRİ-nin istisnasız olaraq bütün respublikaları ilə yaxşı münasibətlər saxlamalıdır.

- Ermənistanla da ?

- Hamı ilə.

- Rusiya prezidenti ilə şəxsi münasibətləriniz necədir?

- Hələlik şəxsi əlaqəmiz olmayıb. Boris Nikolayeviç həmişə səfərlərdə olur. Lakin, hesab edirəm ki, hər şey normal olacaqdır. Yeltsinə böyük hörmətim var. Onun da problemləri başından aşır. Özü də çox ağır problemlərdir. Lakin deməliyəm ki, o, zəif adam deyil. Siyasətçi üçün isə bu, mühüm keyfiyyətdir.

- Heydər Əliyeviç, haradasa on il əvvəl Siz bazar münasibətləri haqqında bəlkə də eşitmək belə istəməzdiniz. Əslində, hamımıza ağlasığmaz görünürdü - bu, faktdır. "Qərbin bu törəməsinə" Sizin münasibətinizi bilmək maraqlı olardı.

- Prinsip etibarilə hesab edirəm ki, iqtisadiyyatın başqa yolu yoxdur. İndiyədək mövcud olan və bizim yeganə düzgün sistem hesab etdiyimiz sistem özünü doğrultmadı. Əlbəttə, biz bazarı qaydaya salmalıyıq. Lakin bunu ağılla və... ehtiyatla etmək lazımdır.

- Tabeliyindəkilərin rüşvətxorluğa qurşanmaları barədə verilən məlumatlara Elçibəyin necə yanaşdığını mənə danışıblar, deyirmiş ki, qorxmaq lazım deyil. Doyandan sonra dayanacaqlar. Bu da reallıqdır. Belə məlumatlara Siz necə yanaşmaq niyyətindəsiniz?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Onu deyim ki, keçmiş prezidentin baş prokuroru həbsxanada oturur. İndi həmin vəzifəyə təyin etdiyimiz adama bu barədə ən ciddi göstərişlər verilmişdir.

- Sizinlə Bakıda söhbət edib neft barədə soruşmamaq mümkün deyil. Küveytin şöhrətini kölgədə qoyacağınız gün nə vaxt gələcək?

- Bu sual çoxlarını maraqlandırır.

İyun ayında keçmiş baş nazirin səyləri sayəsində bir çox xarici şirkətlərlə respublikamız arasında neftə dair bəyannamə hazırlanıb imzalanmışdı. Mən Ali Sovetin sədri seçildikdən sonra Nazirlər Kabinetindən bir neçə nəfər yanıma gələrək dedilər ki, bu məsələdə qaranlıq qalan çox şey var. Xaricdə hay-küy qaldırdılar, guya əsrin sövdələşməsi pozulur. Biz izah etdik ki, heç nəyi pozmaq niyyətində deyilik, sadəcə olaraq məsələni araşdırmaq istəyirik. Axı bəyannamədən sonra növbə müqavilələrindir və əgəp hər şey qaydasındadırsa, onda həmin müqavilələr imzalanacaqdır. Lakin məni şübhəyə salan o idi ki, bütün bunlar, necə deyərlər, üstüörtülü, tələm-tələsik edilmişdi. Axı neft Azərbaycanın sərvətidir, təkcə bizim deyil, həm də nəvələrimizin və onlardan sonra gələnlərin sərvətidir. Gələcək nəsillərimiz barədə düşünməmək olarmı?

- Sizə kələk gəlmək olmaz?

- Heç cəhd göstərmək də lazım deyil.

- Sizin barənizdə çox şey məlumdur. Həm də heç nə məlum deyil. Siz kommunist ideallarına inanırdınız. Bu gün nəyə inanırsınız?

- Haqq-ədalətə. Mən ki, qayıtmışam, deməli, təcrübəm, zəkam, biliyim adamlara lazım olmuşdur. Deməli, dünya xali deyil, haqq və ədalət var. Axı, məni istefaya göndərməklə insafsızlıq etmişdilər. Sevdiyim, inandığım adamların 95 faizi birdən-birə mənə arxa çevirdi. Çünki başqa adam gəlmişdi və fərdi maşının, bağın əldən çıxmamasının, uşaqların yerbəyer edilməsinin və i.a. qayğısına qalmaq lazım idi. Onlar vicdanlarını bu şeylərə satdılar.

- Belə şeyi bağışlamaq olar?

- Mən onların hamısının günahından keçmişəm.

- Bəs Siz adamlara hansı keyfiyyətlərinə görə hörmət edirsiniz?

- Ağlına, elminə, ziyalılığına görə.

- Bəs uşaqlıqda kim olmağı arzulayırdınız?

- Şer yazırdım. Şəkil çəkirdim. Rəssam olmaq arzusunda idim, lakin sonra fikrimdən daşındım və memarlıq fakültəsinə daxil oldum. Müharibə başlandı, dərslər kəsildi. Halbuki mən tikmək istəyirdim. Özü də gözəl binalar tikmək istəyirdim!

- Deməli, Siz xarakter etibarilə yaradıcı adamsınız? Həyatınız boyu heç nə dağıtmamısınız?

- Bakıdakı uçuq-sökük daxmaları dağıtmışam. Adamlar həmin daxmalarda yaşamır - zillət çəkirdilər. Biz həmin adamları abad mənzillərə köçürdük. Həyatım boyu yaxşı çox şey tikmişəm. Uçurduqlarım isə adamlara mane olanlar idi... Adamlar bunu unutmamışlar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Əgər belədirsə, əvəzini görəcəksiniz. Yeri gəlmişkən, yəqin Siz Allaha inanmırsınız...

- Əvvəllər bu barədə sadəcə olaraq düşünmürdüm. İndi inanıram.

- Nə vadar etmişdir?

- Yəqin ki, yaş. Bundan əlavə, son vaxtlar mənə əziz olan çox adamı itirmişəm. Həyat yoldaşım Zərifə Əzizovna 85-ci ildə vəfat etmişdir. Moskvada Novodeviçye qəbiristanında dəfn olunmuşdur. Tanınmış oftolmoloq idi. Üstəlik, musiqi də bəstələyir, gözəl piano çalır, oxuyurdu. Biz otuz il birlikdə ömür sürmüşdük... Bu yaxınlarda böyük qardaşlarım və bacım dünyalarını dəyişmişlər. Ailədə səkkiz uşaq idik. Atam dəmir yolunda fəhlə idi, gecə-gündüz işləyirdi. Bizi anamız boya-başa çatdırmışdır. Məndən böyük qardaşlarımdan biri akademik idi, Azərbaycanda Elmlər Akademiyasını yaratmışdı, o biri rəssam idi. Məni də ki, tanıyırsınız. Kiçik qardaşlarım və bacılarım sağdırlar. İndi Bakıda onlardan birinin mənzilində yaşayıram. Uşaqlarından birinin çox da böyük olmayan otağını məndən ötrü ayırmışlar. Orada taxt var. Mənə bəs edir.

- Bəs uşaqlarınız nə ilə məşğuldurlar?

- İki uşağım var. Qızım Sevil Şərqşünaslıq İnstitutunun aspiranturasını bitirmişdir. Oğlum İlham isə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu qurtarmışdır. İki dil bilir, İngiltərəyə getməyə hazırlaşırdı, lakin buraxmadılar. Bax, budur, bizim keçmiş sistemin yaramazlığı: atasını vəzifədən götürdülər, oğluna da mane oldular. İndi hansısa bir şirkətdə məsləhətçi işləyir. Kürəkənim əks-kəşfiyyatla işləyirdi. Polkovnik idi, adı da yaxşılığa çəkilirdi. Məni vəzifədən çıxaran kimi, onu da işdən uzaqlaşdırdılar.

- Sizin ailə həyatınızın sevinc içində keçdiyini demək çətindir. Bütün müdrikliyinizi səfərbər edib məsləhət verin: bu çətin dövrdən necə salamat çıxaq?

- Düşünəcəyəm.

Söhbəti
Mixail Serlyukov
aparmışdır

"Azərbaycan",
10 avqust 1993-cü il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BOLİVİYANIN PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB
XAYME PAS SAMORAYA

Hörmətli cənab prezident!

Sizi və Boliviya xalqını milli bayram - Müstəqillik gününün elan edilməsi münasibətilə səmim-qəlbdən təbrik edirəm. Şəxsən Sizə və bütün Boliviya xalqına sülh, xoşbəxtlik, ölkənizə tərəqqi və əmin-amanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikası prezidentinin
səlahiyyətlərini həyata keçirən
Azərbaycan Respublikası
Ali Sovetinin sədri

10 avqust 1993-cü il

SİNQAPUR RESPUBLİKASININ
PREZİDENTİ
ZATI-ALİLƏRİ CƏNAB Vİ KİM VİYƏ

Hörmətli cənab prezident!

Sinqapur Respublikasının milli bayramı - Milli İnqilab günü münasibətilə Sizi və bütün Sinqapur xalqını səmim-qəlbdən təbrik edirəm. Fürsətdən istifadə edərək bütün Sinqapur xalqına çiçəklənmə, sülh və əmin-amanlıq arzu edirəm.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikası prezidentinin
səlahiyyətlərini həyata keçirən
Azərbaycan Respublikası Ali Sovetinin sədri

10 avqust 1993-cü il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

EKVADORUN PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB RODRİQO BORXA SEVALOSA

Hörmətli cənab prezident!

Sizi və bütün Ekvador xalqını milli bayram - Müstəqillik günü münasibətilə səmim-qəlbdən təbrik edirəm.

Fürsətdən istifadə edib şəxsən Sizə və Ekvador xalqına sülh, əmin-amanlıq və xoşbəxtlik arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikası prezidentinin
səlahiyyətlərini həyata keçirən
Azərbaycan Respublikası Ali Sovetinin sədri

10 avqust 1993-cü il

KONQO RESPUBLİKASININ PREZİDENTİ
ƏLAHƏZRƏT GENERAL DANİEL SASSU
NQESSO CƏNABLARINA

Hörmətli cənab prezident!

Konqo Respublikasının milli bayramı - İnqilab günü münasibətilə şəxsən sizi və bütün Konqo xalqını böyük məmnuniyyətlə səmim-qəlbdən təbrik edir, sizə və xalqınıza ən xoş arzularımı yetirir, ölkənizə sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikası prezidentinin
səlahiyyətlərini həyata keçirən
Azərbaycan Respublikası Ali Sovetinin sədri

12 avqust 1993-cü il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

YAZIÇI ALEKSANDR PROXANOVLA MÜSAHİBƏ

A.P.: - Heydər Əliyeviç, indi aydındır ki, Azərbaycanın ən yeni tarixində daha bir dövr başa çatır. Xalq Cəbhəsinin il yarımlıq "hökmranlığı" sanki bir saatın içində qurtardı. Bu "hökmranlıq" elə bil tüstü kimi çəkilib getdi. Siz bunu nə ilə izah edirsiniz? Bu dövr Azərbaycan üçün nə demək idi?

H.Ə.: - Bu, respublikanın qara günə qoyulması, dağıdılması demək idi. Onlar hər şeyi - təsərrüfatı da, mənəviyyatı da , psixologiyanı da viran qoymuşlar. Ən dəhşətlisi bu idi ki, adamlar daha əlini ağdan qaraya vurmur, işləmirdilər. Elə işləmək imkanının özü də yox olub getmişdi. Bilirsinizmi, biz Lənkəranda boş yerlərdə, çöllü-biyabanlıqda misilsiz, barlı-bərəkətli tərəvəz plantasiyaları yaratmışdıq. O yerləri "Ümumittifaq bostanı" adlandırırdılar. Orada əla faraş pomidor, xiyar, digər bostan məhsulları əkilib-becərilir və bütün bu nemətin hamısı Norilskə, Upala, Moskvaya göndərilirdi. Respublika olduqca böyük məbləğdə gəlir götürür, Rusiyanın sənaye mərkəzləri isə dadlı-ləzzətli tərəvəz alırdılar. Yadımdadır, Finlandiya prezidenti Urxo Kekkonen bu yerlərə istirahətə gəlmişdi və plantasiyalara heyran qalmışdı. Bəs hanı indi bu plantasiyalar? Hər şey başlı-başına buraxılmış, bərbad hala salınmışdır - yenə əvvəlki düzəngahlığa, çöllü-biyabanlığa çevrilmişdir. Camaat işsizdir.

Yaxud götürək üzümü. Aleksey Nikolayeviç Kosıgin üzümçülərə çox kömək edirdi. Biz üzüm istehsalını ildə 2 milyon tona çatdırmışdıq. Abşeron üzümü mənim görüb daddığım bütün sortlar içərisində ən dadlı üzümdür. Abşeron torpaqları quru, isti, qumsal torpaqlardır, üzüm bu isti torpaqlara uzanaraq onların hərarətini, şirəsini-şəkərini canına çəkir. Hər şey məhv olub getdi! Bu il biz olsa-olsa 400 min ton üzüm yığa biləcəyik...

Camaat daha işləmir, dolanmaq üçün xırda ticarətə girişmişdir. İran qulaqlarının dibində, Türkiyə də lap yaxındır. Vecsiz malları qalaq-qalaq alıb alverlə dolanırlar. Amma di gəl ki, bir şey istehsal etmirlər! Sumqayıtın kimya müəssisələrinin yarısı dayanmışdır! Neft hasilatı kəskin şəkildə azalmışdır!.. Hakimiyyətə gələnlərin nə təsərrüfat, nə idarəetmə işlərindən, nə də siyasətdən başları çıxırdı! Kiçik elmi işçi, yazıçı olan bu adamlar dövlətin nə demək olduğunu başa düşmürlər. Halbuki özləri azadlıqdan, hürriyyətdən və haqq-ədalətdən dəm vurur, bunlardan ağızdolusu danışırlar, axırı nə oldu - hamılıqla oğurluğa qurşandılar! Xalq bütün bunları görürdü və buna görə də çox məyus olmuşdu! İş-gücləri küçələrə düşüb "Mersedes"lərdə ora-bura çapmaq və boşboğazlıq etmək idi. Elə hey danışır, dil boğaza qoymurdular! Mənəviyyatsızlar, əxlaqsızlar, açıq-aşkar oğrular çox idi, lap çox!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bəs Qarabağ? Onlar bu müharibədə qalib gəlmədilər, münaqişəni siyasi yollarla söndürmədilər! Çox kəndlərimizi, çox torpaqlarımızı itirdik! Dünən yanıma bir kolxoz sədri gəlmişdi. Deyirdi: "Əlbəttə, dəhşətdir ki, orada minlərlə baş mal-qara, minlərlə hektar torpaq itirdik, amma ən böyük rüsvayçılıq budur ki, biz ata-babalarımızın müqəddəs saydığımız məzarlarını itirdik. İndi düşmən bu məzarları murdarlayır, onların üstündə öz qələbələrini bayram edir!".

Fevral ayında mən Elçibəylə görüşdüm. Səkkiz saat danışdıq. Mən ona dedim: "Belə siyasət uğursuzluğa məhkumdur". O, çox düşüncəsiz cavab verdi: "Biz idarə etməyi öyrənirik. Qoy təcrübəsizlər təcrübə toplasınlar. Toplamazlar, biz onları işdən çıxarar və yerlərinə başqalarını qoyarıq". Dedim: "Harda görünüb ki, xalqın başında dəlləklik öyrənəsiniz. Onun üzərində eksperimentlər aparırsınız?" Bu, Gəncədə birbaşa cinayətlə nəticələndi, qanla qurtardı. Buna görə də xalq onları rədd etdi!..

A.P.: - Bilirəm ki, Naxçıvanda, balaca bir respublikada siz qayda-qanun yaratmağa, layiqli həyat səviyyəsini qoruyub saxlamağa müvəffəq oldunuz. Sizin üçün, əgər belə demək caizsə, "Naxçıvana sürgünlük" nə demək idi?

H.Ə.: - Xalq Cəbhəsinin yeni peyda olmuş başçılarının biri televiziyaya çıxıb, lovğa-lovğa bildirmişdi: "Əgər lazım gələrsə, mən Naxçıvana gedib Əliyevin başına güllə çaxaram!" Mənə qarşı iki dəfə qəsd təşkil etdilər, iki dəfə məni öldürmək istədilər. Amma oxları daşa dəydi, niyyətləri baş tutmadı. Onlar Əliyevə divan tutmaq üçün Naxçıvanı blokadaya aldırdılar. Bizi ərzaqdan, neftdən məhrum etdilər. Elektrik enerjisini büsbütün kəsdilər. Bizdə soyuqlar və aclıq başlandı. Südəmər körpələr xəstəxanalarda soyuqdan donub ölürdülər. Camaat bağ-bağatı qırıb od qalayırdı. Ev-eşiyi isitmək üçün meyvə ağaclarının 70 faizini kəsib doğradılar. Nə qədər meşə qırıldı. Lakin mən də sağ qaldım, xalq da.

İran və Türkiyə rəhbərləri ilə aramızda şəxsi dostluq münasibətləri yarandı. İran prezidenti öz təyyarəsini Naxçıvana göndərdi. Mən onunla Tehrana gedib, yardım barəsində razılığa gəldim. Biz elektrik xətti çəkdik və İrandan enerji almağa başladıq. Eləcə də yanacaq və ərzaq... Türkiyə prezidenti Dəmirəlin özü mənə 100 milyon dollar kredit təklif etdi. O da öz prezident təyyarəsini göndərdi və mən onun yanına, Ankaraya uçdum. Mən Türkiyəyə yol çəkdirdim, Araz çayı üstündən körpü saldırdım və mal təchizatını təşkil etdim. Lakin başlıca nailiyyətim budur ki, mən Ermənistanla silahlı münaqişəyə yol vermədim. Vəziyyət çox gərgin idi, ciddi hadisələr baş verirdi, lakin mən çıxış yolu tapdım, nəticədə torpağımız al-qana boyanmadı. Mən çox sadə yaşayır, aza qane olurdum, məişət şəraitimiz ağır idi. Bu sözlərim xalqıma da aiddir. Lakin biz sağ qaldıq və əmin-amanlığımızı qoruyub saxladıq. Bakıdan yanıma tez-tez adamlar gəlir, dilə tuturdular ki, siyasətə qayıdım. Lakin mən istəmirdim. Xalq Cəbhəsinin siyasətinə qoşulmaq istəmirdim. Çünki bu siyasət fəlakətə doğru apar

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

A.P.: - Siz indi "Yeni Azərbaycan" Partiyasının liderisiniz. Mən bilən, onun artıq 100 min nəfər üzvü var. Siz hər halda Bakıya qayıtmısınız, siyasətə qoşulmusunuz, sizinlə birlikdə partiyanız da siyasət meydanına atılıbmı?

H.Ə.: - Mən buraya heç də partiyanın lideri kimi gəlməmişəm. Mən buraya tamam könülsüz, tez-tələsik yox, adamların təzyiqindən çox, yaranmış vəziyyətə görə gəldim. Başa düşəndə ki, xalqım vətəndaş müharibəsi həddindədir, onda mən buraya gəldim. Vətəndaş müharibəsi isə xalqın məhv olması, dövlətin sonu deməkdir! Odur ki, gəlməyə bilməzdim. Təkrar edirəm: Mən buraya partiya ilə birlikdə yox, tək, ürəyimin hökmü ilə gəldim ki, xalqıma ən dəhşətli fəlakətdən yaxa qurtarmaqda kömək edim.

A.P.: - Mən bilirəm, sizi şəxsən Elçibəy çağırıb, sizi Xalq Cəbhəsi dəvət edib. İndi isə siz onu siyasətdən uzaqlaşdırmısınız. Burada ziddiyyət yoxdurmu?

H.Ə.: - ... Xalq Cəbhəsi gördü ki, işlər fənadır, sonları çatmaqdadır və xalq onları sadəcə olaraq didib-dağıdacaqdır. Buna görə də Elçibəy məni çağırmağı qərara aldı ki, vəziyyəti xilas edim. O, Naxçıvana mənə zəng vururdu, lakin mən dəstəyi götürmürdüm. O, yenə zəng vurdu. Mən dəstəyi yenə də götürmədim. İyunun 7-də onlar Bakıdan mənə təyyarə göndərdilər. Mən təyyarəni geri qaytartdırdım. İyunun 8-də onlar təzədən təyyarə göndərdilər. Mən Elçibəylə telefonla danışdım və Bakıya getməkdən imtina etdim. İyunun 9-da Surətin qoşunları Bakının 100 kilometrliyində idi. Elçibəy yenidən mənə təyyarə göndərdi. Yalvarıb-yaxardı ki, Bakıya gəlim, mən razılaşdım.

Nə gizlədim, oraya gedib fəlakətli vəziyyəti görməyə qorxurdum, buna baxmayaraq, başa düşürdüm ki, hökmən getməliyəm, çünki xalqın taleyi həll olunurdu. Xülasə, mən Bakıya gəldim və biz Elçibəylə bir neçə saat danışdıq. O, mənə baş nazir vəzifəsini təklif etdi. Onun silahdaşları Pənah Hüseynov hələ də həmin vəzifədə qalmaqda idi. Mən imtina etdim. Onların hamısı Elçibəyin yanına toplaşdılar və məni dinlədilər. Mən onların cinayətkar idarəetmə üsulu barəsində nə düşünürdümsə, hamısını üzlərinə dedim. İsa Qənbərov dözməyib dilləndi: "Biz elə düşünürdük ki, siz bizə məsləhət verəcəksiniz, siz isə bizə ittihamnamə oxuyursunuz!" Bəli, məhz belə idi.

İyunun 11-də İsa Qəmbərov Ali Sovetin sədri vəzifəsindən istefa verdi, deputatlar mənə bu vəzifəni tutmağı təklif etdilər. Mən boyun qaçırdım. Onlar məni dilə tutmaqda davam etdilər.

Mən dedim: "Gəlin sessiyanı bir neçə günlüyə təxirə salaq. Mən Surət Hüseynovla görüşmək istəyirəm". Mən onunla tanış deyildim və təyyarə ilə Gəncəyə, onun yanına getdim. Biz Surətlə, yalan olmasın, bütün gecəni danışdıq. Səhərisi o, məni şəhərə apardı. Mən döyüşlərin izlərini, dağıdılmış tikililəri, yanıb külə dönmüş mənzilləri gördüm, cinayətin izlərini gördüm. Bakıya qayıdıb Ali Sovetin təklifini qəbul etdim və iyunun 15-də sədr vəzifəsinə seçildim. Mən bunu yalnız bir məqsədlə - vətəndaş müharibəsi təhlükəsini sovuşdurmaq məqsədi ilə etdim.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İyunun 16-da Surətin qoşunları Xalq Cəbhəsinin hərbi birləşmələri ilə qarşılaşdı. Döyüş getdi, ölənlər oldu. Təbii ki, mən qardaş qırğınına yol verə bilməzdim. Axı onsuz da bu illər ərzində xalqın qanı çox tökülmüşdü. Mən Surətlə razılığa gəldim ki, onun qoşunları Bakıya girməyəcək, paytaxtda döyüş-qırğın olmayacaqdır. Sonrasını özünüz bilirsiniz. Gəncə hadisələrini təhqiq etmək üçün komissiya yaradıldı və komissiya belə bir qənaətə gəldi: Xalq Cəbhəsi özünün liderləri simasında cinayət törətmişdir. Sonra Milli Məclisin sessiyası çağırıldı. Əsas müqəssirlər deputat toxunulmazlığından məhrum edildi və həbsə alındılar. Mən Bakıya bax, belə qayıtmışam.

A.P.: - Bəs bundan sonra nə etməli? Ölkə çapılıb-talanmış, cəmiyyət parçalanmış, ona təfriqə salınmış, o, ruhdan düşmüşdür. İndi xalqı hansı ideya birləşdirəcək? Əzab verilmiş, haldan düşmüş cəmiyyəti hansı fəlsəfə, hansı ideologiya birləşdirəcək? Siz özünüz yaxın keçmişdə kommunist ideyasının təbliğçisi olmuşsunuz, lakin indi bu ideya daha yoxdur. Xalq Cəbhəsinin ikiəlli yapışdığı liberal ideya bir az əvvəl puça çıxmışdır. Adamlar hansı ideyanı qəbul edəcəklər?

H.Ə.: - Yalnız milli barışıq ideyasını, ayrı heç bir ideyanı yox! Bunun daha mənası yoxdur – sən hansı partiyaya mənsubsan, neçə yaşın var, hal-əhvalın necədir. Bizi dəhşətli həddən yalnız ümummilli barışıq uzaqlaşdıra bilər. Bunu xalq başa düşür, hərbçilər, kommersantlar, müəssisə direktorları başa düşürlər. Biz heç kəsi təqib etməyəcək, gözümçıxdıya salmayacağıq. Əgər sən liberalsansa, əgər sən Xalq Cəbhəsinin üzvüsənsə, səni heç kəs təqib etməyəcək, sənə gözün üstə qaşın var, deməyəcəklər. Xalqa xidmət elə, xalqın yolunda özünü fəda elə. Bax, budur ideya, budur fəlsəfə! Belə düşünürəm ki, bu ideologiyanı ədəbiyyat və incəsənət xadimləri, din xadimləri formalaşdıracaqlar!

A.P.: - Bəs rəsmi Rusiya Bakıda baş vermiş hadisələrə, sizin siyasətə qayıtmağınıza necə münasibət göstərdi?

H.Ə.: - Hələlik heç cür. Təkcə Ruslan Xasbulatov məni Ali Sovetin sədri vəzifəsinə seçilməyim münasibətilə təbrik edib. Rəsmi Moskva susur. Xalq Cəbhəsi Rusiya əleyhinə siyasət aparır, hər şey edirdi ki, Rusiya ilə Azərbaycan yaxınlaşmasınlar. Deyəsən, bu Moskvanı da qane edirdi, Siz Rusiyaya olan münasibətimi bilirsiniz. Azərbaycan Rusiya ilə iqtisadi, mədəni, coğrafi-siyasi cəhətdən bağlıdır. Biz sadəcə qonşu deyilik, bizim bir tariximiz var. Təkrar edirəm: Rusiya ilə bugünkü münasibətlər məni razı salmır, lakin mən qəti əminəm ki, münasibətlərimiz hökmən inkişaf etdiriləcəkdir.

A.P.: - Dağıdılmış xalq təsərrüfatı necə olacaq? Siz hansı iqtisadi modeli irəli sürmək niyyətindəsiniz? Məsələ burasındadır ki, Azərbaycanın tərəqqisini məhz sosialist modeli təmin edirdi.

H.Ə.: - Bizim xalq təsərrüfatının dirçəlişini mən bazar münasibətlərində görürəm. Sivilizasiyalı bazarın bütün formalarında, sahibkarlıqda, kommersiya banklarında, xarici kapitalın cəlb edilməsində, o cümlədən MDB ölkələrində toplanmış

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

müsbət cəhətlərdə görürəm. Azərbaycan bazarının qapıları bizimlə qarşılıqlı surətdə faydalı əməkdaşlıq etmək istəyənlərin hamısının üzünə açıqdır. Xalq Cəbhəsi Azərbaycanın sərvətlərini - qızılını, neftini, var-yoxunu xalq üçün qətiyyən sərfəli olmayan şərtlərlə, dəyər-dəyməzinə satırdı. Görünür, yaxşı rüşvət almışdılar.

Mən əmr verdim ki, dünyanın ən iri neft şirkətləri ilə bağlaşmalar dayandırılsın, çünki onlar mənə şübhəli görünürdü. Bununla əlaqədar, dünya mətbuatında böyük hay-küy qopdu. Mən şirkətlərin nümayəndələrini qəbul edib bildirdim: "Bu, bağlaşmaların kəsilməsi demək deyil. Biz ekspertiza keçirəcəyik, əgər ekspertiza bağlaşmaların qarşılıqlı surətdə faydalı olduğunu aşkara çıxararsa, onda bağlaşmalar inkişaf etdiriləcəkdir".

A.P.: - Heydər Əliyeviç, sizin 70 yaşınız var. Siz həyat məktəbi keçmiş siyasətçisiniz, zəngin təcrübəyə maliksiniz. Həyatın hər üzünü görmüsünüz. Surət Hüseynov 34 yaşındadır. O siyasətdə təzədir. Onu ölkədə yüksək vəzifələrə milli faciə, müharibə gətirib çıxarmışdır. Siz necə birgə fəaliyyət göstərirsiniz? Sizin psixoloji qarşılıqlı fəaliyyətiniz, birgə siyasi praktikanız necə təşəkkül tapmışdır?

H.Ə.: - Surət Hüseynov Yevlaxda iri bir zavod direktoru olub, deməli istehsalatçıdır. İqtisadiyyatın problemlərini bilir. Mən ona baş nazir vəzifəsini təklif etdim və əminəm ki, əl-ələ verib işləyəcəyik. Mən bütün təcrübəmi onunla bölüşəcəyəm. Əlbəttə ki, bizim üçün başlıca problem təcrübəli işçilər, ağıllı və vicdanlı mütəxəssislər yığmaqdır.

"Azərbaycan",
12 avqust 1993-cü il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BİLƏSUVAR, CƏLİLABAD, MASALLI, LƏNKƏRAN, ASTARA, YARDIMLI VƏ LERİK RAYONLARINDAN SEÇİLMİŞ XALQ DEPUTATLARI VƏ HƏMİN RAYONLARDAN OLAN RƏHBƏR İŞÇİLƏR VƏ ZİYALILARLA GÖRÜŞDƏ GİRİŞ SÖZÜ

13 avqust 1993-cü il

Bu axşam biz bir neçə mühüm məsələ ilə əlaqədar məsləhətləşmək və fikirlərimizi bölüşmək məqsədilə sizi narahat etmişik, buraya dəvət etmişik. Düzdür, indi iş vaxtı deyil, gecdir, ancaq by gün Azərbaycanın həyatı elədir ki, səhər-axşam, gecə-gündüz yoxdur. Hər halda biz bu rejimlə işləyirik, ona görə də mən güman edirəm ki, məhz by gec vaxtda bu toplantını yığmağımızı siz qanuni hesab edərsiniz.

Məsələ bundan ibarətdir. Artıq bəllidir ki, son aylar Azərbaycan Respublikasının cənub zonasında olan rayonlarda, yəni Astara, Lənkəran, Lerik, Masallı, Yardımlı, Cəlilabad, Biləsuvar rayonlarında bəzi proseslər gedir. Bu proseslər həm o rayonların əhalisini, həm də Azərbaycanın ictimaiyyətini narahat edir, çünki bu proseslər neqativ xarakter daşıyır. Bu proseslər qanun pozuntuları ilə əlaqədardır, bəzi insanların hüquqlarını pozur və ümumiyyətlə, Azərbaycanda gərgin olan ictimai-siyasi vəziyyəti daha da gərginləşdirir.

Bunların nə vaxt başlandığını mən sizə dəqiq deyə bilmərəm, ola bilsin ki, burda iştirak edən şəxslər bunu məndən yaxşı bilirlər, çünki bildiyiniz kimi, mən buraya İyun ayının ortasında gəlmişəm. O vaxta qədər Naxçıvanda yaşamışam və Azərbaycanın ayrı-ayrı regionlarında gedən proseslər barəsində o qədər də məlumatım olmayıbdır. Bura gəlib işə başlayandan sonra bu barədə Ali Sovetdə məlumat almışam. Mən Ali Sovetin sədri kimi, işə başlayandan sonra Ali Sovetə bu məlumatlar vaxtaşırı gəlirdi, ancaq bilirsiniz ki, o vaxtlar bizim başımız həddindən artıq qarışıq idi.

İyun ayının 4-də Gəncədə baş vermiş qanlı hadisələr, demək olar ki, bizim vaxtımızı aldı, o hadisələrin müəyyənləşdirilməsi, təhlil, müzakirə olunması, bildiyiniz kimi, iyul ayının 16-na qədər çəkdi. İyul ayının 15-16-da biz Gəncədə baş vermiş qanlı hadisələri Milli Məclisin iclasında müzakirə etdik, iyul ayının 16-da qərar qəbul etdik. Eyni zamanda, bildiyiniz kimi, o günlərdə Azərbaycan Respublikasının daxili vəziyyətində sabitlik pozulduğuna görə, cürbəcür qüvvələrin qarşıdurmasının mövcud olduğu bir dövrdə, Ermənistanda gedən müharibədə də uğur-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

suzluqlar oldu. Ermənistanın silahlı qüvvələri bu fürsətdən istifadə edib bizim Qarabağda bir neçə yaşayış məntəqəsini, kəndləri işğal etdilər, yandırdılar, ən nəhayət, iyul ayının 23-də Ağdam şəhəri də işğal olundu.

Ona görə bu məsələlər də bizim başımızı çox qatmışdı, biz güman edirdik ki, Lənkəranda, bir Lənkəranda yox, bu zonada, adlarını çəkdiyim rayonlarda yerli əhali özü, bu rayonların ağsaqqalları, ziyalıları, nüfuzlu adamları, işbilən adamları, bilikli adamları, hörmətli adamları özləri bu məsələləri yəqin ki, dərk edəcəklər, bu məsələləri öz yoluna qoyacaqlar və bəlkə də bu məsələlərə dövlət tərəfindən müdaxilə olunmasına ehtiyac yoxdur. Bir tərəfdən başımız çox qarışıq olduğuna görə bu məsələlərlə məşğul ola bilmədik, ikinci tərəfdən də biz belə fikirdəydik ki, yerli əhali özü, hər bir rayonun qabaqcıl adamları bu məsələləri özləri həll edəcəklər.

Belə bir qənaət ondan irəli gəlirdi ki, bildiyimiz kimi, o rayonlarda, bizim Azərbaycan Respublikasının o rayonlarında tarixən çox ziyalı adamlar yaşayıb, mötəbər adamlar yaşayıb. Bu rayonlar, xüsusən Lənkəran və onun ətrafında olan rayonlar ağayana bölgələr olublar Azərbaycanda. Orada həmişə qanun-qayda, nizam-intizam olubdur və həm orada, həm də Azərbaycanın başqa yerlərində, xüsusən respublikanın paytaxtı Bakıda bu rayonlardan çox mötəbər adamlar yaşayır, yüksək dövlət vəzifələri tuturlar, elmdə, təhsildə, mədəniyyətdə böyük rol oynayırlar, onların da böyük nüfuzu var, hətta Azərbaycanın indi artıq tək Azərbaycanın deyil, bütün, Qafqazın müsəlmanlarının dini rəhbəri, böyük din xadimi, bizim hörmətli şeyximiz Allahşükür Paşazadə də bu bölgədəndir. Ancaq bir Paşazadə deyil, burada bizim hörmətli akademiklərimiz var, professorlarımız var, böyük ad-sanı olan elm xadimlərimiz var, mədəniyyət xadimlərimiz var. Belə güman etdik ki, hamı birləşib bu məsələləri müəyyən qədər özləri həll edərlər.

Ancaq sonrakı dövr və bu proseslərin davamı göstərdi ki, bizim arzularımız çin olmadı, yerinə yetmədi və biz bu işlərlə məşğul olmaq məcburiyyətində qaldıq... Bu məsələlər haqqında biz - baş nazir Surət Hüseynov və mən vaxtaşırı fikir mübadiləsi aparmışıq. Dəfələrlə həmin məsələlərin yoluna qoyulması haqqında eyni fikirdə olmuşuq və baş nazir Surət Hüseynov bu bölgədə özünün böyük imkanları olduğunu bildirərək demişdir ki, bu məsələlərin hamısını həll etmək mümkündür. Ən nəhayət, bu söhbətlərimizin nəticəsində biz belə qərara gəldik ki, baş nazir Surət Hüseynov bu bölgəni ziyarət edəcəkdir. Oraya gedib vəziyyətlə yerində tanış olacaq, bu məsələlər həll ediləcək və problemlər aradan götürüləcəkdir.

Biz bunu da nəzərə alırdıq ki, orada gedən prosesləri bəzi şəxslər bu faktorla əlaqələndirirlər ki, o zonanın, o rayonların sosial-iqtisadi vəziyyəti çox ağırdır, son illərlə o zonaya respublikanın dövlət dairələri tərəfindən lazımi qədər diqqət yetirilməyib, qayğı göstərilməyib, əhalinin bəzi hallarda yaşayışı çox ağırdır, bəzi təbii dəyişikliklər, iqlim dəyişiklikləri, eyni zamanda bu bölgəyə, bu rayonlara diqqətsizlik orada sosial-iqtisadi vəziyyəti gərginləşdirib və guya bu proseslər sosial-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

iqtisadi vəziyyətin gərginləşməsi nəticəsində meydana çıxıb. Ona görə də biz - baş nazir Surət Hüseynov və mən bu məsələləri müzakirə edərkən belə fikrə gəldik ki, doğrudan da belə bir səfər səmərəli ola bilər; sosial-iqtisadi problemlərə yerində baxılar, lazımi tədbirlər görülərdi və beləliklə də, əhali də, xalq da və bu işlərdə marağı olan şəxslər də bilərdilər ki, bu bölgəyə lazımi qədər diqqət yetirilməyibsə də, indən belə bunların hamısı olacaqdır, lazımi zəmanət veriləcəkdir. Ona görə də baş nazir ora getməzdən bir gün qabaq Azərbaycan Respublikasının bir qrup nazirləri, yüksək vəzifəli şəxsləri ora göndərildi ki, orada vəziyyəti araşdırsınlar, aydınlaşdırsınlar və sonra baş nazir bu məsələlərə yerində baxa bilsin.

Bildiyiniz kimi, belə bir tədbir avqust ayının 2-3-də keçirildi. Biz güman edirdik ki, həmin tədbirdən sonra bu proseslərə son qoyulacaq və bölgədə sabitlik yaranacaqdır. Təəssüf, ondan sonra keçən dövr göstərdi ki, biz burada da gözlədiyimiz nəticəyə gəlib çata bilmədik. Orada bu proseslərin müəyyən qədər aparıcısı sizə məlum olan Əlikram Hümbətovdur. Əlikram Hümbətov - mən bilmirəm, əvvəllər o nə vəzifədə olub, ancaq indi də nə vəzifədə olduğunu başa düşmürəm, - özünü orada ali baş komandan elan eləyib, o mahalın başçısı elan eləyib. Hər halda heç bir əsası olmadan özünə cürbəcür hüquqlar götürüb.

Təəssüf ki, bizim yerli dövlət orqanları, inzibati orqanlar, hüquq-mühafizə orqanları da bir növ istər-istəməz qeyri-qanuni hərəkətlərə ya tabe olurlar, ya biganə qalırlar, ya da ki, diqqət vermək istəmirlər, ona görə də o şəxs orada istədiyini edir. Ona görə də biz bu proseslərlə maraqlanarkən bir neçə dəfə bizim Azərbaycanın bu bölgəsindən olan hörmətli adamlar ilə söhbətlər apardıq. Birinci növbədə bizim hörmətli din xadimimiz şeyx Allahşükür Paşazadə, sonra bir neçə şəxslər, bəzi şəxslər öz təşəbbüsləri ilə bizimlə, o cümlədən mənimlə gəlib görüşüb öz fikirlərini demişdilər və bildirmişdilər ki, onlar gedib bu məsələlərin düz yolda, düz istiqamətdə getməsini təmin edəcəklər. Mən də şübhəsiz ki, sizə bildirdiyim kimi, belə hesab edirdim ki, elə bizim bu hörmətli adamlarımız bu məsələləri həll edərlər, ona görə hər dəfə xeyir-dua verirdim, deyirdim ki, gedin, işləri görün, aparın, məsləhətləşin, hər halda hər şey doğru olmalıdır, düzgün olmalıdır.

Bir dəfə şeyx Allahşükür Paşazadə mənə telefon etdi və bildirdi ki, biz Lənkəranda olduq, orada bir toplantıda iştirak etdik, orada bizi - bir 5 nəfəri nümayəndə heyəti müəyyən ediblər və istəyirlər ki, sizinlə görüşək və orada olan təklifləri sizə təqdim edək. Ondan əvvəl mən bir dəfə həmin Əlikram Hümbətova telefon etdim və maraqlandım ki, o nə edir, nə üçün belə işlər görür, o mənə dedi ki, gəlib mənimlə Bakıda görüşəcək və mənə məlumat verəcək. Ancaq sonra vaxt keçdi, gəlmədi. Bir dəfə mənə məlumat çatdı ki, o gəlib Bakıya, baş nazir Surət Hüseynovla görüşüb, qayıdıb gedib. Mən yenə də, şübhəsiz ki, səbirlə gözlədim

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

və nəhayət, həmin 5 nəfərdən ibarət nümayəndə heyəti mənim yanıma gəldi - şeyx, Hüseynağa Qəniyev, bağışlasınlar, o birilərinin ad-familiyaları yadımdan çıxıb, - söhbət elədik, bir neçə təkliflər yazılı surətdə mənə verildi, mən qəbul etdiyimiz şəxslərin yanında Lənkərana telefon etdim, Əlikram Hümbətovla danışdım və onu dəvət etdim. Dedim ki, mən nümayəndələri qəbul etmişəm, söhbət etmişəm, ancaq lazımdır ki, siz özünüz gələsiniz burada danışaq, o söz verdi ki, gələcək, bir müddətdən sonra gəldi. Gəldi, görüşdük, təkbətək təxminən 4 saat söhbət elədik.

Söhbətimizin bir qismi, demək, söhbətin əsas mövzusu Əlikram Hümbətov tərəfindən yönəldilirdi, mən də sərbəstlik verdim ki, Əlikram Hümbətov bütün fikirlərini açsın, desin, mən də onlara münasibət bildirə bilim, söhbətin bir 30 faizi, əgər vaxt etibarilə götürsək, Azərbaycanda olan vəziyyətə, qanunsuzluğa, özbaşınalığa, keçmiş iqtidarın günahlarına, səhvlərinə həsr olunmuşdu. Təxminən 35 faizi də həsr olunmuşdu bizim Qarabağda gedən müharibəyə və bununla əlaqədar ordumuzda olan bərbad vəziyyətə, ordunun pis şəraitdə olmasına, başqa məsələlərə.

Ən nəhayət, söhbətin son mövzusunu Əlikram Hümbətov həsr etdi belə bir mövzuya ki, Azərbaycanda inzibati ərazi bölgüsünə baxılmalıdır, inzibati ərazi bölgüsü müəyyən olunmalıdır. Mən çalışdım aydınlaşdıram ki, inzibati ərazi bölgüsü nə deməkdir, nə istəyir. Azərbaycanın ərazisi müəyyən rayonlara, şəhərlərə bölünüb və bu tarixən artıq məlumdur. On illərlə, bəlkə də 50-60-70 ildir ki, belə bir inzibati ərazi bölgüsü var və ola bilər ki, həyat bəzən bu inzibati ərazi bölgüsünün müəyyən yerlərdə dəyişdirilməsini tələb edir, bunlara baxıla bilər, amma ümumən Azərbaycanda inzibati ərazi bölgüsünə baxılmasını və bunun yenidən təyin olunmasını, şübhəsiz ki, nə anladım, nə də qəbul edə bildim və dedim ki, mən bunu başa düşmədim. Axırda gətirib çıxartdı "Talış-Muğan Respublikası" mövzusuna. Mən istəmədim bu barədə söhbət aparım, - mən olan şeylərin hamısını açıb sizə səmimi deyirəm ki, bu prosesləri nə cür apardığımızı biləsiniz, - mən istəmədim bu söhbəti davam etdirim, dedim ki, bu mövzu hüquqi bir mövzu deyil, bu barədə mən danışmaq istəmirəm, ancaq bir halda ki, siz bu mövzuya toxunursunuz, bizim baş nazir Surət Hüseynovla şərtimiz var, mən də şərtə sadiq bir adamam.

Şərtimiz də ondan ibarətdir ki, Surət Hüseynovla Heydər Əliyev belə qərara gəliblər ki, ikisi birlikdə Əlikram Hümbətovla həmin bu mövzu haqqında söhbət aparsınlar. O gün də baş nazir Surət Hüseynov Bakıda deyildi, Gəncədəydi, ona görə də mən dedim ki, gəlin, söhbətimizi bununla tamamlayaq, siz qayıdın öz yerinizə, bir neçə gündən sonra baş nazir Surət Hüseynov Gəncədən Bakıya qayıdacaq, mən onunla danışaram, müvafiq vaxt təyin edərik, sizi dəvət edərik, gələrsiniz bu barədə birlikdə söhbət edərik. Mən bu məsələ barəsində sizinlə tək söhbət eləmək istəmirəm.

Bununla da bizim söhbətimiz tamamlandı. Mən bizim bu görüş haqqında mətbuat orqanlarına heç bir məlumat vermədim, çünki bunun əhəmiyyəti də yox idi, bu, sadəcə işgüzar bir görüş idi, bö-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yük əhəmiyyət kəsb edən bir şey deyildi, ancaq sonra eşitdik ki, Əlikram Hümbətov bəzi mətbuat orqanlarına, informasiya orqanlarına məlumat verib ki, Heydər Əliyevlə görüşüb, 4 saat söhbət eləyib, filan mövzulara baxılıb, bəzi şeylərdə fikir birliyi olub, bəzi şeylərdə fikir ayrılığı olub, - öz işidir.

Beləliklə, mən yenə deyirəm, görüşümüz bununla da bitdi. Sonra nümayəndə heyəti mənim yanımda olanda - Allahşükür Paşazadə, Hüseynağa Qəniyev və başqa şəxslər, - mən danışdım Hümbətovla və danışdıq ki, gələcək, ancaq sonra gəlmədi, bu məsələlər də elə müəyyən qədər közərən bir səviyyədə qaldı.

Ona görə də mən artıq sizə məlumat verdim ki, biz baş nazir Surət Hüseynovla birlikdə qərar qəbul etdik ki, baş nazir bu işlərlə məşğul olacaq və bu proseslərin tamamlanmasına və bunlara son qoyulmasına təminat verəcək. Dediyim kimi, avqust ayının 2-də nazirlər, avqust ayının 3-də baş nazir orada müşavirə keçirdi. Avqust ayının 4-də Surət Hüseynov mənə məlumat verdi ki, orada məsələlərin hamısı haqqında qarşılıqlı anlaşma olub və iki gün içərisində oradan bəyanat veriləcəkdir ki, bu proseslər əsassızdır və beləliklə də bu məsələlər bitir. Ancaq iki gün keçdi, heç bir şey olmadı.

Sonra avqust ayının 5-də axşam bizə məlumat gəldi ki, Əlikram Hümbətov öz silahlı qüvvələri ilə Cəlilabad rayonunun prokurorluq işçilərini həbs edib Lənkərana aparıb. Bu, böyük həyəcan doğurdu. Təəssüf ki, mən qeyd edirəm, Əlikram Hümbətovda silahlı qüvvələr var, şübhəsiz ki, qanunsuz silahlı qüvvələrdir və o, silahlı qüvvələrdən də istədiyi kimi istifadə edir. İstədiyi adamı həbs edir, istədiyi adamı buraxır, bu da inzibati orqanlar tərəfindən laqeydliklə qəbul olunur. Belə bir hadisə də baş vermişdi və axşam bu siqnallar bizə böyük həyəcanla gəldi çatdı. Biz yığışdıq - baş nazir Surət Hüseynov, mən, daxili işlər naziri, milli təhlükəsizlik naziri, respublikanın baş prokuroru, - bir az müzakirə elədik məsələni, biz elə bu məsələni müzakirə eləyərkən yenə də siqnallar gəldi ki, orada Cəlilabadda qarşıdurma var, əgər onlar buraxılmasa, ola bilər qan tökülsün, filan olsun. Hətta sonra axşam belə bir şayiə gəldi ki, Allahşükür Paşazadəyə sui-qəsd hazırlanır, ya nə olur. Mən telefonla şeyxi axtardım, tapdım, onunla danışdım, dedi ki, mən Lənkəranla əlaqəyə girmək istəyirəm, girə bilmirəm və biz təşkil elədik ki, şeyx Lənkəranla əlaqəyə girsin, sonra mənə telefon eləyib dedi ki, yaxşı ki, mən danışdım, çünki orada kimsə deyib ki, şeyxi burada həbs eləyiblər, onun qohum-əqrabası tökülüb gəlib, bu məsələ burada yat-yut oldu.

Ancaq bu axşam bizə bir belə məlumat gəldi ki, ondan bir gün öncə Əlikram Hümbətov Azərbaycanda, xüsusən Bakıda yaşayan, o bölgədən olan bir 50 nəfər adama dəvətnamə göndərib, avqust ayının 6-da orada "Talış-Muğan Respublikası"nın yaradılması ilə əlaqədar təsis konfransı, ya qurultayı, adı nədir onun bilmirəm, keçirir. Biz xəbərdarlıq elədik ki, elə şeylərə yol verilməsin. Avqust ayının 6-da prokurorların tutulması ilə əlaqədar olaraq

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ali Sovetdə, mənim iş yerimdə görüşdük: baş nazir Surət Hüseynov, daxili işlər naziri Vaqif Novruzov, baş prokuror Əli Ömərov və mən. Müzakirə etdik, aydınlaşdırmaq lazım idi ki, kim günahkardır, kim kimə nə deyib, kim kimə deməyib, kim kimi incidib, yaxud kim kimi təhqir edib. Bu zaman məlum oldu ki, artıq Lənkəranda belə bir qurultay gedir, belə bir müzakirə gedir. Baş nazir Surət Hüseynov mənim iş otağımdan Lənkəranla əlaqəyə girdi, Əlikram Hümbətovla danışdı və prokurorların həbsi ilə əlaqədar ona bir neçə söz dedi, biz hesab etdik ki, orada elə bir problem yoxdur. Ancaq axşam bizə belə məlumat gəldi ki, artıq orada bu tədbir həyata keçirilir, orada "Talış-Muğan Respublikası"nın yaranması haqqında, guya, qərar qəbul edilib.

Kimin səlahiyyəti var bu qərarı qəbul etməyə? Orada Əlikram Hümbətov "Talış-Muğan Respublikası"nın prezidenti seçilib, baş nazir təyin olunub. Ali Sovetin sədri təyin olunub - filan. Bəzi məsələlər təyin olunub. Mən yenə müraciət etdim Azərbaycanın baş naziri Surət Hüseynova ki, bu məsələləri aydınlaşdırmaq lazımdır: nədir, nə təhərdir, nə cürədir. Sonra belə bir fikir meydana çıxdı ki, Azərbaycanın baş naziri Surət Hüseynovun nümayəndəsi bir də Lənkərana gedəcək, orada Əlikram Hümbətovla danışıqlar aparacaq və Əlikram Hümbətov Bakıya gəlib bizimlə danışıqlar aparacaqdır.

Nümayəndə getdi, qayıtdı və Surət Hüseynova məlumat verdi ki, Əlikram Hümbətov üçüncü gün bu gün beşinci gündür, - yəni srağagün - Bakıya gələcək və biz üçümüz - yəni Surət Hüseynov, Əlikram Hümbətov və mən, üçümüz görüşüb danışacağıq və bu məsələlərə son qoyulacaq, üçüncü gün o gəlmədi, dördüncü gün məlumat aldıq ki, Əlikram Hümbətov gəlib günün birinci yarısında baş nazirin yanında olub.

Dünən, yəqin televiziyadan məlumatınız var. Moskvanın baş naziri, meri Yuri Mixayloviç Lujkov Bakıya gəlmişdi, biz onunla məşğul idik, mən də, dövlət katibi də, baş nazir də və Nazirlər Kabinetinin bir çox rəhbər işçiləri də bununla məşğul idi. Ona görə belə sözləşdik ki, bu tədbirləri qurtarandan sonra axşamtərəfi biz görüşəcəyik. Belə də oldu. Tədbirlər qurtarandan sonra təqribən axşam saat səkkizin yarısında biz Ali Sovetdə görüşməli olduq, əvvəldən də danışmışdıq Surət Hüseynovla. Surət Hüseynov mənə məlumat vermişdi ki, görüşdə biz üçümüz olacağıq, yəni üç nəfər - Əlikram Hümbətov, Surət Hüseynov və Heydər Əliyev. Fəqət, mənim yanıma görüşə gələndə iş otağına Rəhim Qazıyev də daxil oldu. Mən Rəhim Qazıyevin bu məsələylə əlaqədar ora gəlməsinə təəccüb etdim, çünki biz əvvəldən nəzərdə tutmamışdıq ki, Rəhim Qazıyev bu söhbətdə iştirak etməlidir, ancaq, şübhəsiz, mənə məlumdur ki, Rəhim Qazıyev dəfələrlə Lənkəranda olub, dəfələrlə Əlikram Hümbətovla görüşüb, onunla danışıqlar aparıb və hətta məlum idi ki, baş nazir öz nümayəndəsini iki gün ondan öncə bir daha Lənkərana, Əlikram Hümbətovla görüşməyə göndərərkən Rəhim Qazıyev bunu bilmiş və dərhal ora getmiş, cəhd etmiş, nəticədə Əlikram Hümbətovla Azərbaycanın

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

baş naziri Surət Hüseynovun nümayəndəsi arasında aparılan söhbətlərin iştirakçısı olmuşdur.

Bunlar bizə məlumdur. Ancaq bunlara baxmayaraq, mən hesab etmirdim ki, bu işlərdə Rəhim Qazıyev iştirak etməlidir, çünki əgər Rəhim Qazıyev indiyə qədər dəfələrlə Lənkəranda olubsa, cürbəcür görüşlər aparıbsa, yəqin ki, bu görüşlər orada gedən proseslərin düzgün istiqamətə yönəldilməsini təmin etməliydi və həmin prosesləri bu dərəcəyə gətirib çıxarmayaydı. Əgər bu proseslər bu dərəcəyə gəlib çıxıbsa, onda Rəhim Qazıyevin burada fəaliyyəti nədən ibarətdir, müsbət xarakter daşıyır, ya mənfi xarakter daşıyır, bunu həyat göstərəcək. Ona görə mən hər şeyi açıq deyirəm və izahat vermək istəyirəm. Mən bizim dünənki söhbətimizdə Rəhim Qazıyevin iştirakını lazım bilmədim və ondan rica etdim ki, bizə mane olmasın, biz üçümüz söhbətimizi aparaq.

Təəssüf ki, bu söhbət istədiyimiz nəticəni vermədi. Mən Əlikram Hümbətovla ikinci dəfədir görüşürdüm. Birinci dəfə, dediyim kimi, 4 saat söhbətimiz olmuşdu. O sakit bir şəraitdə keçmişdi. Ancaq dünən o, həyəcanlı, həddindən artıq iddialı bir vəziyyətdə idi. Mən söhbəti başlayanda ki, biz bu bölgədə, cənub rayonlarında, mərkəzdə Lənkəran olmaq şərtilə gedən bu proseslər haqqında söhbət aparmaq istəyirik, o dedi ki, mən buraya bundan ötrü gəlməmişəm, siz səhv eləyirsiniz, mən buraya gəlmişəm Azərbaycanda olan məsələləri müzakirə etmək üçün, Azərbaycanın rəhbərliyində olan vəziyyəti müzakirə etmək üçün və başqa şeylər üçün. Mən ona dedim ki, sizi bundan ötrü dəvət etməmişik, bunu yəqin ki, Azərbaycanın səlahiyyətli orqanları, Ali Soveti, Nazirlər Kabineti özləri müzakirə edərlər və edəcəklər. Əgər əlavə adamların bu işə cəlb olunması lazımdırsa, biz bunu edəcəyik, o cümlədən əgər Əlikram Hümbətov da bu işə cəlb olunacaqsa, biz cəlb edəcəyik. Amma sizin bura gəlib burada bu söhbətin mövzusunu hökm etməyə heç bir hüququnuz yoxdur, ona görə söhbət ancaq bu rayonlarda, cənub rayonlarında - Lənkəranda, Astarada, Yardımlıda, Lerikdə, Masallıda, Cəlilabadda,- Biləsuvarda olan proseslərdən gedir: bu proseslər nə proseslərdir, nə üçün baş verib, nə üçün qanunsuzluqlar var, nə üçün silahlı qüvvələr orada qeyri-qanuni hərəkət eləyir, filan.

Bu mümkün olmadı, Əlikram, dəfələrlə, - biz 3 saata yaxın söhbət etdik, - dəfələrlə mənim təkidimdən imtina etdi, başladı ultimatumlar verməyə, hətta sizə deyim ki, mənə qarşı təhqiramiz sözlər də, kobud, bəhtançı sözlər də işlətdi. Şübhəsiz ki, mən bunların hamısına dözdüm, çünki istəyirəm ki, məsələlər hamısı qarşılıqlı anlaşma səviyyəsində getsin. Ancaq bu adam, görünür ki, bu səviyyəyə malik adamdır. Ona görə mən əvvəl təəccübləndim, amma sonra hesab etdim ki, təəccüblənmək lazım deyil. O, axırda da, əvvəldə də eyni şeyləri təkrar edir ki, bu məsələlər kənarda olmalıdır, - mən dediyim məsələlər, - yəni ultimatum qoyub ki, onlar həll edilməsə, "Talış-Muğan Respublikası" da olacaq, ancaq bunlar həll edilsə, "Talış-Muğan Respublikası" ləğv olunacaq, demək, hər şey bir adamdan asılıdır, nə istəyir, onu eləyir.

Məsələlər də ondan ibarətdir ki, Ali Sovet çağırılmalıdır,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Milli Məclis hüquqsuz bir orqandır, Ali Sovet var, Ali Sovet yoxdur, Ali Sovetin sədri Heydər Əliyev hüquqsuz bir adamdır, gəlib bura, qeyri-qanunidir. Burada qanun pozulduğuna görə, guya Lənkəranda, o biri bölgələrdə qanunların pozulması təbii bir haldır. Ona görə Ali Sovet çağırılmalıdır.

Dedim axı, siz Ali Sovetin deputatı deyilsiniz, Ali Sovetin deputatları bunu çağırmalıdır, Ali Sovetin deputatları da əgər bunu təklif edirsə, Ali Sovet çağırılar, burada bir problem yoxdur, siz bununla nəyi bağlayırsınız, mən başa düşə bilmirəm.

Ancaq məlumdur, onun məqsədləri məlumdur, mən güman edirəm, siz də bunu anlayırsınız.

İkincisi, Nazirlər Kabinetinin də, baş nazirin də səlahiyyətləri çatmır, ona səlahiyyətlər vermək lazımdır. Referendum ki, siz təyin eləmisiniz, bu referendum olmayacaq, mən bunu pozacağam, - mən onun sözlərini deyirəm, - bizə belə referendum lazım deyil. Bəs nə lazımdır? Referendumda bir sual qoyulmalıdır, prezident üsul-idarəsi lazımdır, yoxsa yox və camaat da deməlidir ki, yox. Beləliklə, prezident üsul-idarəsi tamamilə pozulmalıdır, bütün səlahiyyətlər Nazirlər Kabinetinə verilməlidir, referendum da olmamalıdır. Belə iki prezident var, bundan sonra prezident lazım deyil.

Mən dedim ki, iki prezident lazım deyil, iki prezident yoxdur, bir prezident var, o da Əbülfəz Elçibəydir və demokratik ölkələrin təcrübəsi üzrə, demokratik prinsiplər əsasında biz Məclisdə bir neçə dəfə bu məsələni müzakirə etdik. Konstitusiyanın müvafiq maddəsini, 121-7-ci maddəsini tətbiq edib, Əbülfəz Elçibəyi artıq öz vəzifəsini yerinə yetirmədiyinə görə işdən kənar edə bilərdik. Amma çox məsləhətləşdik, həm hüquqçularla, həm siyasətçilərlə, həm də xarici ölkələrin demokratik idarələri ilə məsləhətləşdik. Ümumi fikir belə oldu ki, bir halda ki, prezidenti xalq seçib, xalq da öz fikrini deməlidir. Ona görə prezidentə etimad məsələsi referenduma qoyulmalıdır. Biz də referendum təyin etmişik, bu da Milli Məclisin qərarı ilə olub. Buna, demək olar ki, etiraz edən olmayıb, ya da bir-iki nəfər olub, amma ümumi rəpap əksəriyyət tərəfindən qəbul olunub. Ona görə də indi Əlikram Hümbətov Ali Sovetin deputatı olmadığı halda ultimatum verir ki, referendum pozulmalıdır, referendumun istiqaməti dəyişilməlidir - filan. Əgər bunlar olmasa demək "Talış Muğan respublikası", belə bir şey. Deyəndə ki, bu barədə söhbət ola bilməz, hətta o məni hədələməyə də keçdi. Mən deyəndə ki, axı sizin səlahiyyətiniz nədir, siz səlahiyyətsiz bir adamsınız, nə üçün qanunu pozursunuz?

O dedi ki, mənim səlahiyyətim avtomatdır, yəni ki, Heydər Əliyevi avtomatla məcbur eləmək olar, yaxud da ki, öldürmək olar, yaxud filan. Mən ona da dedim, sizə də deyirəm, Heydər Əliyevin bir ömrü var, onun da çoxu gedib, azı qalıb, nə vaxt kəsiləcək o vaxt da kəsiləcək. Mən demişəm və bir də deyirəm, ömrümün bundan qalan hissəsini xalqıma bağışlamışam. Xalqım da bundan nə qədər istifadə edəcək, o qədər də istifadə edəcək. Ola bilər 5 gün olsun,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ola bilər bir ay olsun, ola bilər ondan çox olsun, ondan da artıq olsun. Ona görə Əlikram kimi adamların məni hədələməyi, bir onun yox, ümumiyyətlə, məni hədələyən adamların hamısına deyirəm, heç birisi güman etməsin ki, bu hədələr məni bir şeydən çəkindirə bilər, xalqın yolunda mən özümü qurban verməyə hazıram, bu harada baş verəcək, mənim üçün fərqi yoxdur. Ancaq bu cür tərbiyəsizlik, bu cür ədəbsizlik şübhəsiz ki, məni narahat edir. Ona görə də bunların hamısını sizə çatdırıram.

Beləliklə, söhbətimiz tutmadı. Ancaq bu söhbətdə bir çox iddialar irəli sürərək, bir çox ittihamlar edərək, dedi ki, siz burada hüquqsuzsunuz. Milli Məclisdə neçə adam var o bölgədən? Dedim hansı bölgəni deyirsiniz? Biləsuvardan bu tərəfi o, bölgə hesab edir. Bu bölgədən 41 deputat var, niyə bu deputatları çağırmırsınız. Milli Məclisdə bu bölgədən cəmi 8 deputat var, onlar bu bölgəni təmin eləyə bilməz. Siz o deputatları çağırın.

Dedim ki, bilirsiniz, baxmayaraq ki, sizin heç bir iddia eləməyə hüququnuz yoxdur və heç bir səlahiyyətiniz yoxdur, amma bir halda ki, siz müəyyən bir prosesləri aparırsınız, mən sizin verdiyiniz bütün təklifləri müzakirə etməyə hazıram və verdiyiniz təkliflərin hamısına da lazımi səviyyədə baxmağa hazıram, o cümlədən Ali Soveti siz təklif edirsiniz, mən bunu qəbul eləyə bilmərəm, ancaq əgər Ali Sovetin deputatları təklif eləyirlərsə, mən Ali Sovetin sədri kimi istənilən vaxt Ali Sovetin sessiyasını çağıra bilərəm və heç kəs də bununla məni qorxutmasın və heç kəs də güman eləməsin ki, mən qorxuram ki, Ali Sovetin sessiyası çağırılanda, Əlikram Moskvadan Mütəllibovu gətirib burada prezident qoyacaq. Heç kəs də məni qorxutmasın.

Yəni deyirəm bu problem yoxdur, ancaq bu Əlikram Hümbətovun da səlahiyyəti deyil, bu, Ali Sovetin deputatlarının səlahiyyətidir və Ali Sovetin rəhbərliyinin səlahiyyətidir. Ona görə də dedim, başqa təklifiniz nədir, Nazirlər Kabinetinin səlahiyyəti, dedim, bunun sizə dəxli yoxdur, bu məsələni biz həll edirik və hansı səlahiyyət harada olmalıdır, bu bizim işimizdir, yəni Ali Sovetin işidir, Nazirlər Kabinetinin işidir və hər bir adamın buna müdaxilə etməyə ixtiyarı yoxdur. Lazım olarsa, buna Milli Məclisdə baxılacaq, lazım olarsa bu, geniş xalq müzakirəsinə verilə bilər, amma bir adamın iddiası ilə, bir adamın tələbi ilə, bir adamın ultimatumu ilə biz bu işə baxa bilmərik. O ki qaldı siz deyirsiniz 41 deputat, mən bilmirəm nə qədər deputat var o bölgədə, amma mən dərhal, bu söhbətimiz qurtaran kimi, saat təxminən 12 idi, göstəriş verdim ki, tez eləyin bu deputatların siyahısını çıxarın və sabah bu deputatları dəvət eləyək, Əlikram bunu tələb eləyir. Ona görə də mən bəlkə də sizin vaxtınızı çox aldım, ancaq hər şeyi təfsilatı ilə sizə çatdırmaq istəyirəm. Ancaq bu tələblə, bu tələbə riayət eləyərək, bu bölgədən seçilmiş, o rayonlardan seçilmiş Azərbaycan Respublikasının xalq deputatları ilə bu gün görüşməyi lazım bildim. Həm Ali Sovetin rəhbərliyi, həm Nazirlər Kabinetinin rəhbərliyi, həm də Prezident Aparatının rəhbərliyi bu görüşdə iştirak edir və həmin

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

görüşü hazırlayarkən, bəzi adamlar təklif verdi ki, bu deputatlar olmasın, ancaq Bakıda yaşayan, bu zonadan bizim çox mötəbər adamlarımız var, - həm alimlər, elm xadimləri, həm də bizim dövlət orqanlarında yüksək vəzifələrdə işləyənlər, nazirlər, başqa şəxslər, - ona görə də mən belə hesab etdim ki, geniş müzakirə, fikir mübadiləsi aparmaq üçün bu adamlardan da kim istəyirsə, buraya dəvət etmək lazımdır. Mən sizə bu məlumatları verərək, bu məsələni sizin müzakirənizə verirəm, birinci növbədə deputatların müzakirəsinə verirəm, sizə müraciət edirəm ki, öz münasibətlərinizi bildirəsiniz. Açıq-aydın.

Burada televiziya kameraları var, narahat olmayın, onlar qoyulub ki, burada danışılan şeylərin hamısı əks olunsun, ancaq onların heç birisi verilməyəcək. Bunun da səbəblərindən biri ondan ibarətdir ki, avqust ayının 6-da mənim iş otağımdan baş nazir Surət Hüseynov Əlikram Hümbətovla danışdı. Sonra bizə məlum oldu ki, o danışan vaxt orada həmin o təsis qurultayı keçirilirmiş. Axşam bizə məlum oldu ki, Surət Hüseynov mənim yanımdan danışdı və o danışığın hər kəlməsi mənə məlumdur, - bizə məlum oldu ki, Əlikram bu danışıqdan sonra gedib orada məlumat verib ki, mən indicə Ali Sovetin sədri Heydər Əliyevlə danışdım, baş nazir Surət Hüseynovla danışdım, onlar da bizim bu tədbiri bəyənirlər və deyirlər ki, biz etiraz etmirik, bu tədbiri keçirin.

Mən dünən bu sözləri Əlikram Hümbətova dedim. O mənə qayıtdı ki, mən belə deməmişəm, mən sadəcə olaraq demişəm ki, Heydər Əliyev də, Surət Hüseynov da demokratiya tərəfdarıdır, ona görə də bir halda ki, onlar demokratiya tərəfdarıdır, biz demokratik şəkildə bir şey keçiririksə, onlar buna etiraz eləməz.

İndi hansı düzdür, hansı əyridir, mən bilmirəm, bizə gələn məlumatlar belə idi, ancaq ona sual verəndə belə dedi. Ona görə mən hesab etdim ki, bu gün kimin nə sözü var qoy hamısı lentə yazılsın ki, sonra daha heç kəs heç nəyi dəyişdirə bilməsin, inkar eləyə bilməsin.

Ancaq bir cəhətə sizin nəzər-diqqətinizi cəlb etmək istəyirəm, o da ondan ibarətdir ki, bu müddətdə ki, həmin proseslər gedir, bir az da qızışır, bizə çox məktublar gəlib, müraciətlər olub, dəfələrlə mənə iradlar tutulub ayrı-ayrı istiqamətlərdən, ayrı-ayrı mənbələrdən ki, nə üçün Azərbaycanın dövlət orqanları Ali Sovet, şəxsən Heydər Əliyev bu məsələlərə öz münasibətini bildirmir. Bir çoxları deyirlər ki, bu qanunsuzluqları biz görürük, bunlara müəyyən qədər dözürük, ona görə ki, bunlar Azərbaycanın rəhbərliyi tərəfindən, o cümlədən Ali Sovetin sədri Heydər Əliyev tərəfindən ya bəyənilir, ya da bunlara etiraz yoxdur, ona görə də biz öz sözümüzü deyə bilmirik, bilmirik burada silahlı qüvvə olmalıdır, yoxsa olmamalıdır? Kimsə silah gücü ilə adam tutmalıdır, yoxsa tutmamalıdır? Biz bunları bilmirik. Yəni bizi ittiham edirlər, o cümlədən şəxsən məni ki, nə üçün siz susursunuz, nə üçün siz öz mövqeyinizi bildirmirsiniz? Mən artıq sizə izah etdim hansı səbəblərə görə biz indiyə qədər bu məsələyə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

müdaxilə etməmişik və bu məsələ barədə heç bir yerdə heç bir müzakirə açmamışıq.

Hətta siz bilirsiniz, iyul ayının 15-də Milli Məclisin gündəliyi tərtib olunanda, Ali Sovetin sabiq sədri İsa Qəmbərov təklif elədi ki, "Talış-Muğan Respublikası" haqqında məsələni də gündəliyə salaq. Mən bu məsələni gündəliyə salmadım və dedim ki, İsa Qəmbərov, əgər bu məsələ indiyə qədər müzakirə olunmayıbsa, indiyə qədər bu məsələ baş verib və indiyə qədər Ali Sovet buna laqeyd qalıbsa, İsa Qəmbərov özü günahkardır, indi isə İsa Qəmbərov vəzifədən istefa verəndən sonra, bu gün biz mühüm məsələləri müzakirə etdiyimiz bir vaxtda bu məsələləri ortalığa atıb gündəliyə salmaq təklifi verəndə ara qarışdırmaq istəyir. Ona görə də mən qoymadım bu, gündəliyə düşsün, hesab etdim ki, düz də etdim. Çünki bu, ara qarışdırmaq məqsədi daşıyır.

Bir də qayıdıram, bu səbəblərə görə indiyə qədər fikrimizi açıq deməmişik ki, bu məsələ öz-özünə həll olunsun, çünki biz hesab etmirdik ki, bu elə böyük bir problemdir ki, biz buna müdaxilə etməliyik. Ancaq bunlar həll olunmadığına görə və Əlikram Hümbətovla söhbətimiz nəticəsiz qaldığına görə və Əlikram Hümbətov təklif etdiyinə görə ki, nə üçün bu deputatlar, burada seçilən deputatların hamısı ilə biz hesablaşmırıq, ona görə də mən bu görüşü lazımlı hesab etdim və ona görə də bu görüşdə biz bu gün varıq.

Mən sözlərimi dedim. Təsvir etdim, təfsilatı ilə dedim, istərdim ki, birinci növbədə deputatlar və onlarla yanaşı iştirak edən, bu bölgə ilə əlaqədar olan şəxslər öz fikirlərini desinlər, kimin nə sözü var, buyursun. Mən birinci növbədə deputatlara müraciət edirəm.

...Mən Əhməd[1] müəllimin çıxışı ilə əlaqədar bir neçə söz demək istəyirəm. Şübhəsiz ki, son illərdə Azərbaycanın ictimai-siyasi həyatında böyük səhvlərə yol verilib. Əgər Azərbaycan xalqı özündə qüdrət və imkan taparsa, əgər Azərbaycan xalqı bizə imkan verərsə, mən sizə, bütün azərbaycanlılara söz verirəm ki, bu səhvlərin hamısını aradan qaldıracağıq, amma bizə imkan vermək lazımdır.

Münasibət barədə. Bilirsiniz, respublikanın yüksək vəzifələrinə heç bir təcrübəsi, heç bir biliyi, heç bir mənəvi haqqı olmayan adamlar gəldiyi halda, dərəbəylik, özbaşınalıq, şübhəsiz ki, təbii bir hala çevrilmişdir. Məsələn, bir nazir, daxili işlər naziri kimi istəyir tutur, kimi istəyir döyür, kimi istəyir asır-kəsir. Əlbəttə, çox pis, sirayətedici xəstəlik əmələ gəlir. Bu xəstəlik başlayır dövlət orqanlarının bəzi nümayəndələri tərəfindən və dövlət orqanları tərəfindən buraxılan səhvlər nəticəsində.

Ancaq gəlin tarixə nəzər salaq, mən də azərbaycanlıyam, Azərbaycanda yaşamışam, həyatımın əksər hissəsi Azərbaycanda keçib. Siz bilirsiniz ki, 14 ilə yaxın Azərbaycana rəhbərlik eləmişəm.

---

[1] N.Tusi adına Az rbaycan Dövl t Pedaqoji Universitetinin dosenti hm d hm dov.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Azərbaycanda rəhbər işlədiyim dövrdə Azərbaycanın ən hörmətli bölgəsi Lənkəran zonası idi. Lənkəran zonasının adı Amerikadan gəlirdi, İngiltərədən gəlirdi, Fransadan gəlirdi. Lənkəran zonasının, - mən zona deyəndə bütün o rayonları deyirəm, - oranın folkloru, onun mədəniyyəti, oranın ayrı-ayrı mədəniyyət nümunələri dünyanın böyük-böyük ölkələrində nümayiş etdirilirdi.

O dövrdə biz Lənkəran teatrı yaratdıq. Bu təsadüfi deyildi. Lənkəran teatrı tək Lənkəran şəhərinin, yaxud rayonunun yox, o bölgənin əhalisinin mənəvi yüksəlməsində, mədəni tərbiyəsində, mədəniyyətinin qalxmasında çox böyük rol oynayır. Teatrın nə qədər böyük əhəmiyyəti var, bunu biz hamımız bilirik, hamımız bundan bəhrələnmişik. Mən özüm, məsələn, gənc vaxtlarımda ən gözəl mənəvi qidanı teatrdan almışam.

Lənkəranda nə qədər tikintilər getdi, bir Lənkərandamı, Astaradamı, Masallıdamı, Lerik, Yardımlı rayonları xatirinizdədir ki, ağır vəziyyətdə idi. Lerik, Yardımlı rayonlarında üzümçülük tətbiq etdik. Yadınızdadırmı, adamlar ondan nə qədər mənfəət götürdülər. Mənim yadımdadır. O vaxtlar təklif olunanda ki, Lerikdə, Yardımlıda üzümçülük tətbiq olunsun, çox adam deyirdi orada üzüm bitməz, yetişməz. Ancaq, bizim alimlərin bir çoxu, o cümlədən mənim böyük qardaşım Həsən Əliyev mənim yanıma gəldi, o rayonlarda, dedi mən olmuşam. Onun torpağını, iqlimini öyrənmişik, o rayonlarda maldarlıq yaxşı inkişaf etmir, buğda əkilir, məhsul alınmır, bağçılıq o qədər bəhrə vermir. Üzüm salın.

Belə də oldu. İndi burada çıxış eləyən natiq dedi ki, orada 5 min ton üzüm olmuşdu, amma orada 5000 tondan da artıq üzüm olmuşdu. Mən 82-ci ildə Azərbaycandan gedəndə, ondan sonra 83-84-cü illərdə Lerik rayonunda, səhv etmirəmsə, 20 min tona qədər üzüm istehsal olunurdu. 17 min ton, bağışlayın. Kiçik bir rayon üçün 17 min ton üzüm bilirsiniz nədir? Bunlar hamısı diqqət deyilmi?

Xanbulançay dəryaçası tikilib. O tikinti bütün bölgənin İqtisadiyyatının, xüsusən kənd təsərrüfatının inkişafına nə qədər təsir elədi. Masallıda Viləşçay dəryaçası. Axı bu dəryaçaların tikilməsi üçün dövlətdən, Sovetlər ölkəsindən nə qədər vəsait alındı, nə qədər adamlar bu bölgədə işlədi, hamısı bu bölgədən ötrü idi. Çay fabrikləri tikildi, Lənkəranda ilk dəfə aeroport tikdik, Lənkərana təyyarələr uçdu. Moskvadan, Rusiyanın başqa yerlərindən gələn qonaqlar Lənkərana təyyarə ilə gedib-gəlirdilər.

Çox şeylər saya bilərəm, Lənkəranda böyük bir konserv kombinatı, başqa obyektlər tikildi, bunların hamısı həmin bölgəyə olan diqqətdi, bu da təbiidir, heç kim heç kimə minnət qoymur, çünki Azərbaycanın hər yerinə, hər bölgəsinə diqqət verilməlidir. Ancaq gəlin etiraf edək ki, o dövrdə bu zonaya olan diqqət başqalarından qat-qat yüksək olub. Axı bunu da unutmaq lazım deyil.

Ancaq sonrakı dövrdə, xüsusən son illərdə təəssüf ki, belə olmayıb. Mən söhbət edirdim ordan gələn nümayəndələrlə, mənə deyirlər ki, Heydər Əliyev, axırıncı dəfə respublikanın başçısı

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

kimi Siz orada olmusunuz. Sizdən sonra bir respublika başçısının ayağı ora dəyməyib. Əlbəttə ki, bu təəccüblüdür. Mən orada son dəfə 82-ci ildə olmuşam. 82-ci ilin sonunda mən, bilirsiniz ki, Azərbaycandan getmişəm, indi gəlmişəm. Ancaq bu müddətdə bir nəfər respublikanın birinci şəxsi ora getməyib, bu təəccüblüdür. Ona görə məsləhət bildik ki, baş nazir Surət Hüseynov getsin ora. Yəni demək istəyirəm ki, ora diqqət də çox olub, ancaq son vaxtlar səhvlər də buraxılıb. Ümumi səhvlər, ola bilər bu bölgə barəsində də səhvlər olub, ancaq bu səhvlərin heç birisi belə bir prosesin meydana çıxmasına və belə bir əcaib halın mövcud olmasına əsas vermir. Mən xahiş edirəm, bunu nəzərə alasınız.

Burada Əhməd müəllim də dedi, bizim başqa natiqlər də dedi ki, bunlar hamısı Azərbaycanı dağıtmaq, parçalamaqdır. Onsuz da Azərbaycan son 5 ildə faciə içində yaşayır. Torpaqlarımızın 17 faizi erməni işğalçıları tərəfindən işğal olunub, indi də gəlin bu tərəfdən onu parçalayaq, gəlin onu dağıdaq. Bu dövlət dağılır, respublika dağılır, mən dəfələrlə demişəm.

Bu mənim bir vətəndaş kimi fikrimdir, amma eyni zamanda mən indi Azərbaycanın dövlət başçısıyam, Ali Sovetin sədriyəm, Ali Sovetin sədri kimi deyirəm: Azərbaycanda bütün vətəndaşlar eyni hüquqa malik olmalıdır. Siz əgər televiziya ilə izlədiniz, gördünüz, Moskvanın meri ilə görüşdə də mətbuat konfransında o sualı mənə verdilər, mən dedim: "Milliyyətindən, dilindən, irqindən və sairədən asılı olmayaraq hamı eyni hüquqa, hamı bərabər hüquqa malik olmalıdır".

Dünən mənə sual verdilər, ruslar haqqında - 500 minə qədər rus var, ruslar sıxılıb indi, nə üçün? Axı bunlar əsrlərlə burada yaşayan adamlardır, bunlar, Azərbaycanın vətəndaşıdırlar. Rus üçün, burada yaşayan, burada doğulmuş, dədəsi, babası burada doğulmuş, qəbri burada olan rus üçün bura vətəndir axı. Nə üçün indi hesab eləyək ki, bura kimin üçünsə vətəndir, kimin üçünsə vətən deyil? Azərbaycan bir respublika kimi, indi bir müstəqil dövlət kimi, öz ərazisində yaşayan hər bir şəxs üçün vətəndir. Hər bir şəxs bərabərhüquqlu vətəndaşdır. Burada şübhə olmasın və bu barədə olan əyintiləri, bu barədə olan qanunsuzluqları, ədalətsizlikləri biz aradan götürəcəyik, ancaq yenə də bir şey qanunsuz olursa, o biri qanunsuz işlə qanunsuzluğu aradan götürmək olmaz. Bir şey ədalətsizliklə olubsa, ədalətsizliklə ədaləti bərpa etmək olmaz. Ədaləti bərpa etmək lazımdır. Qanunsuzluğu aradan qaldırmaq lazımdır. Qanunsuzluğa qanunsuzluqla cavab vermək lazım deyil. Bu, düzgün deyil, burada məntiq yoxdur. Ona görə də mən sadəcə olaraq Əhməd müəllimin çıxışından sonra bir balaca izahat vermək istədim və bəzi cəhətlərə sizin nəzər-diqqətinizi cəlb etdim biləsiniz ki, bizim o vaxtımız deyil.

Bir də ola bilməz ki, bir adamın, iki adamın, üç adamın iradəsi ilə nə isə yaransın. İstəyir onun əlində nə qədər silah olursa-olsun. Bir də araşdırmalıyıq ki, bu silahlar ayrı-ayrı adamların əlinə nə cür düşür? Biri gedib xəlvət tapanca alır, bu indi adi hala çevri-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lib. Biri xəlvət avtomat alır və bu da adi hala çevrilib. Amma tank, BMP, zirehli maşın, başqa şeylər bu adamın əlinə necə düşüb? Kim bunu eləyib? Kimsə dövlət adamları bunu eləyib.

Gəlin bu gün səmimi olaq, gəlin bu gün açıq olaq, heç kəs heç kəsdən çəkinməsin, kimin nə sözü var desin, kimin ürəyində nə var desin, hamısını çıxaraq, ataq ortaya, danışaq. Azərbaycanlı kimi hamımız bu məsələni bərabər həll edək. Biz hamımız azərbaycanlıyıq, hamımızın dilimiz var, hamımız da bu azərbaycanlılığı anadangəlmə qəbul etmişik, indi ayrı-seçkilik salmağa nə əsas var? Kimsə bunu eləyib, hansısa bunu eləyib. Bir qrup adamlar, məclis üzvləri də buna səs veriblər. Amma bunlar hamısı düzələcək, haqq-ədalət yerini alacaq, bunu indi biz eləyə bilməsək, bizdən sonra edəcəklər, ədalətsizlik uzun ömür sürə bilməz. Ədalət həmişə ədalətsizliyə qalib gəlir.

YEKUN SÖZÜ

Beləliklə, müzakirədə 26 nəfər çıxış etdi. Və demək olar ki, hamı eyni fikirdədir. Natiqlər düzgün qiymət verirlər bu hadisələrə. Qeyd edim ki, müşavirəni başlayarkən mən bu proseslərin gedişi haqqında və qarşımıza çıxan məsələlərə baxışımız haqqında geniş məlumat verdim. Ancaq qiymət verməkdən çəkindim və istədim ki, bura dəvət olunmuş şəxslərin və xüsusən Əlikram Hümbətovun dünənki tələbi əsasında çağırılmış deputatların fikirlərini öyrənim. Deputatlar öz sözlərini desinlər. Bu bölgədən, yəni 7 rayondan deputat seçilənlərin əksəriyyəti buradadır və onların da çox hissəsi çıxış etdi. Mən qəsdən Məclis üzvlərinə söz vermədim. Deyəsən 2 nəfərdən savayı. Çünki onların Məclisdə həmişə çıxış etməyə imkanları var. Ancaq mən yenə deyirəm. Dünən Əlikram Hümbətov bir söz işlətdi ki. Məclisdə olan adamlar heç nədir. Siz deputatlarla danışın. İndi budur, biz də deputatlarla danışırıq. Özü də, tək deputatlarla yox, o bölgənin burada, bu salonda olan nümayəndələri ilə, ziyalılarla, alimlərlə, müəllimlərlə, həkimlərlə də danışırıq. Burada 150-170 nəfərə qədər adam var. Və mən burada başqa bir fikir duymadım, başqa bir fikir meydana çıxmadı, ona görə də hesab edirəm ki, Hümbətov Əlikramın bu təklifi yerinə yetirildi, bu tələbi yerinə yetirildi. Biz fikir mübadiləsi apardıq. Özümüz üçün hər şeyi aydınlaşdırdıq. Çıxış edənlərin əksəriyyəti bizə irad tutdular ki, indiyə qədər biz bu məsələyə öz münasibətimizi bildirməmişik. Camaat, əhali, xüsusən o bölgədən olan əhali çaş-baş qalıbdır. Bəzi hallarda fikirləşiblər ki, bəlkə Azərbaycanın rəhbərliyi də belə bir quruma tərəfdardır. Tamamilə ədalətli olaraq bizə irad tutdular ki, mətbuatda bu barədə heç bir şey deyilməyibdir. Bunlar əsaslı iradlardır. Ancaq səbəbini mən aydınlaşdırmışdım və bir də qeyd etmək istəyirəm. Biz sadəcə olaraq istəmirdik ki, bu məsələ geniş yayılsın. Güman edirdik ki, bu məsələni birinci növbədə onu başlayanlar özləri həll edəcəklər, özləri bu işdən əl çəkəcəklər. Ikinci növbədə bu bölgədən olan deputatlar, nüfuzlu adamlar, ziyalılar, hörmətli adamlar məsələni yoluna qoyacaqlar. Üçüncü də mən sizə dedim ki, bizim baş nazir Surət Hüseynovla danışıqlarımız olmuşdu və baş nazir də ümidvar

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

etmişdi ki, bu məsələ yoluna qoyulacaq. Baş nazirin, nazirlərin avqust ayının 2-3-də həmin bölgəyə səfərindən sonra biz güman edirdik ki, bu məsələlərə son qoyulacaq. Bu səbəbdən də biz indiyə qədər məsələnin üstünü açmamışıq, yəni ona öz münasibətimizi bildirməmişik, mətbuatda, televiziyada bu məsələnin işıqlanmasına yol verməmişik. Ancaq indi məsələlərin hamısı açıldı və aydın oldu. Hamı danışandan sonra mən də, öz fikrimi deyə bilərəm. Bəli, Azərbaycanı parçalamaq Azərbaycanın daxilində və xaricində olan düşmənlərin uzun illərdən, bəlkə də əsrlərdən bəri ən bəd niyyəti, istəyi, arzusu olmuşdur. Dağlıq Qarabağda 5 il bundan öncə başlanan proseslər Azərbaycanı parçalamaq yolunda atılan ilk addım idi. Təəssüf ki, Azərbaycanın rəhbərləri, Azərbaycanın ağıllı adamları, Azərbaycanın ziyalıları bu proseslər başlayan kimi onların qarşısını almadılar və bu, bir müharibəyə çevrildi. Müharibə getdikcə genişləndi, Azərbaycanı idarə edən adamlar bu müharibəni apara bilmədilər və çox vaxt satqınlıqlara yol verdilər. Və beləliklə də indi Azərbaycan torpaqlarının 17 faizi Ermənistanın silahlı qüvvələri tərəfindən işğal olunub. Bu, Azərbaycanın parçalanması prosesinin bir cinahıdır. O biri cinahı həmin bu gördüyümüz məsələdir. Başqa cəhətlər burada bəzi natiqlərin söylədikləri fikirlə bağlıdır. Ona görə də bu məsələyə belə sadə yanaşmaq olmaz ki, guya Əlikram Hümbətov bir sərsəm adamdır, yaxud da anlaşılmaz adamdır, bunu özbaşına eləyir. Xeyr. Bu böyük bir planın Azərbaycanı dağıtmaq, Azərbaycanı məhv etmək, Azərbaycan xalqını yox etmək planının tərkib hissəsidir. Təəssüf olsun ki, keçmiş dövrlərdə olduğu kimi, əsrlər boyu olduğu kimi, indi də Azərbaycanın öz içində xəyanətkarlar az deyil. Bu xəyanətkarlar Əlikram kimi adamları ortaya salır və Azərbaycanı parçalamaq istəyirlər. Öz şəxsi mənsəblərinə çatmaq üçün, öz şəxsi məqsədlərinə nail olmaq üçün, vəzifə tutmaq üçün, hakimiyyətə gəlmək üçün. Bəli, Lənkərana tez-tez gedib gələn adamların, yaxud Lənkəranla heç əlaqəsi olmayan, lakin iki gündən bir Lənkərana baş çəkən adamların məqsədi budur. İstəyirlər ki, bu faktordan istifadə eləyib vəzifə tutsunlar. Bir faktor alınmadı, ikincisindən istifadə etsinlər, o da alınmadı, üçüncüsündən istifadə etsinlər. İki gün bundan öncə Moskvadan bura gəlmiş böyük bir hərbçi generalla görüşdüm. Rusiyanın Ali Sovetinin üzvüdür, general-polkovnikdir, keçmişdə müdafiə nazirinin müavini olub, desant qoşunlarının rəhbəri olub. Deyir mən yaxşı tanıyıram Azərbaycanı da, Ermənistanı da. Deyir ki, vaxtı ilə öz torpaqlarınızı qorumadınız. Mən deyirəm görürsünüz də, biz necə məğlub olduq. Deyir, məğlub olmadınız, sizin torpaqlarınızı öz adamlarınız satdılar. Xəyanət etdilər. Həmin xəyanət bu gün də davam eləyir. Orda da davam eləyir, başqa yerdə də davam eləyir. Və bu xəyanəti eləyən adamlar o qədər alçaq, o qədər ləyaqətsiz adamlardır ki, öz şəxsi mənafeləri üçün, öz şəxsi məqsədləri üçün bu xalqı ağır vəziyyətə gətirib çıxardılar. Mənim fikrim budur. Kim başqa fikirdədirsə, öz işidir. Mən ötən müddətdə çox cəhdlər etdim. Burada bəzi natiqlər deyirlər ki, danışıq aparmaq lazımdır, filan eləmək lazımdır. Bəli, mən də belə fikirdəyəm. Və mən indiyədək

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bu yol ilə getmişəm. İyul ayının 15-dən mən Ali Sovetin sədriyəm. Artıq avqustun 13-dən keçdi 14-nə. Bu günlərdə iki ay tamam olur. Mən bu müddətdə məsələyə səbrlə, təmkinlə, hörmətlə yanaşmışam və bütün qüvvələrə etibar eləmişəm, ətrafımda olan, respublikanın rəhbərliyində olan, Ali Məclisin tərkibində olan adamlara etibar eləmişəm, ümid bəsləmişəm ki, bu məsələni həll edəcəyik. Sülh yolu ilə, danışıq yolu ilə, başqa dinc vasitələrlə. Burada çıxış edənlərin bəziləri dedi ki, niyə Heydər Əliyev onunla danışıb, niyə qəbul eləyib, niyə görüşüb? Mən razı deyiləm bu fikirlə. Danışmaq da lazım idi. Bəli bir dəfə də danışmışdıq, dünən ikinci dəfə də danışdıq. Çünki bu imkanlardan istifadə etmək lazımdır.

Ancaq bu imkanlardan istifadə etdikdən sonra mən dünən gecə bu fikrə gəldim ki, artıq bu məsələni açmaq lazımdır, danışmaq lazımdır. Yəni istəyirəm biləsiniz ki, şəxsən Ali Sovetin sədri kimi, bir vətəndaş kimi mənim vicdanım təmizdir. Mən bütün imkanlardan istifadə eləmişəm. Bütün ətrafımda olan adamların imkanını bu məsələyə cəlb etməyə çalışmışam. Və hamını sövq etmişəm ki, bu məsələni əlbir həll etsinlər. Ancaq bunlar heç bir nəticə verməyib.

Biz bundan sonra da şübhəsiz ki, lazımi tədbirlər görməliyik. Ancaq bir şey aydındır: Əlikram Hümbətovun hərəkətləri Azərbaycanın Konstitusiyasını, qanunlarını pozan hərəkətlərdir. Əlikram Hümbətovun ixtiyarında olan silahlı dəstələr qeyri-qanuni silahlı dəstələrdir. O silahlı dəstələri Əlikram Hümbətova verən adamlar Azərbaycan xalqına xəyanət ediblər. Ona görə də belə bir gərgin vəziyyət yaranıb. Bunların hamısına son qoyulmalıdır. Bunlara siyasi qiymət verilməlidir. Bunların yolları, şübhəsiz ki, cürbəcür ola bilər. Ancaq fikir başqa cür ola bilməz. Mənim fikrim belədir. Bu hərəkətlər qanuna zidd hərəkətlərdir. Hər hansı bir adamın qanunsuz tutulması üstündə cəza verilir. Amma görün burada nələr danışdılar. Görün nə qədər adamı, vəzifəli adamları qanunsuz-filansız tutublar, aparıblar, dustaq saxlayıblar, gizlədiblər. Bu nə dəhşətli şeydir?! Biz buna necə laqeyd qala bilərik? Yaxud necə deyə bilərik ki, burada təəccüblü heç nə yoxdur? Necə ola bilər bu?

Mənim fikrim belədir. Qiymətim də budur. Burada dedilər, mən yenə də qeyd edirəm: Bəli, həmin zonada, həmin bölgədə sosial-iqtisadi problemlər var. Ancaq gəlin fikirləşək: Azərbaycanın hansı zonasında sosial-iqtisadi problemlər yoxdur? Dedilər Lənkəranda işsizlər var. Azərbaycanın hansı zonasında işsizlər yoxdur?

Burada çıxış edənlər qeyd etdilər ki, 600 minə qədər qaçqın var. Evi yox, eşiyi yox, çöllərdə yaşayır. Biz getdik Qarabağa. Ağcabədidə olduq. Bərdədə olduq. İnsanlar çöllərə tökülüb. İndi hələ ki, hava istidir, yaşamaq odur. Ağac altında, çadır altında yaşayırlar. İlan vurur onları. Bəs onlar insan deyildirlərmi? Onlara sosial-iqtisadi təminat lazım deyilmi? Belə çıxır ki, onlar da respublika yaratmalıdırlarmı? Onlar da silahlı dəstələr qurub cürbəcür cinayət etməlidirlərmi? Demək istəyirəm ki,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Lənkəran rayonunun, Lənkəran zonasının, bu cənub zonasının sosial-iqtisadi problemləri tamamilə şəksizdir. Bu məsələ ilə biz məşğul olmuşuq. Nazirlər Kabineti müvafiq qərarlar qəbul edib və edəcəkdir. Məsələlər həll olunacaqdır. Ancaq bu da həqiqətdir ki, Lənkəranın və bu zonanın bugünkü sosial-iqtisadi vəziyyəti başqa zonaların vəziyyətindən üstündür. Bunu da tamamilə açıq demək lazımdır.

Orada hansı işlərin görüldüyünü burada dedilər. Bəli, qaz da çəkilib. Yaxşı yadıma saldılar. 1970-72-ci illərdə İrandan Sovet İttifaqına qaz kəməri çəkildi, Astaradan, Lənkərandan keçən qaz kəməri. Mən o qaz kəmərinin çəkilməsində və açılışında iştirak etmişəm. Sovetlər İttifaqının Ali Sovetinin sədri Podqornı, İran şahı Məhəmməd Rza Pəhləvi və mən bu mərasimin iştirakçısı olmuşuq. Sonralar fikirləşdim ki, qaz kəməri İrandan gəlir Azərbaycana, buradan da Rusiyaya. O vaxt həmin qaz kəməri ilə üç milyard kubmetr qaz gəlirdi, indi az gəlir. O vaxt Lənkəran bölgəsində qaz yox idi. Bəli, o dövrdə, məhz o dövrdə, məhz Azərbaycan rəhbərliyinin qayğısı nəticəsində bu bölgəyə qaz çəkildi. Ancaq indi deyirlər ki, ora qaz heç kifayət etmir. Mən bunu bu yaxın günlərdə bilmişəm. İranın səfiri Əli Əsğər Nəhavəndian ilə danışarkən o dedi ki, İrandan biz qazı az alırıq, aldığımızın pulu da verilməyib. İndiyə qədər biz borcluyuq İrana. Mən xahiş etdim ki, siz qazı verin, gərək sonra haqqını ödəmək üçün pulu haradan tapırıq. Birinci növbədə düşündüm ki, qazı oradan artırsınlar, biz də Lənkəran bölgəsinə qazı artırarıq. Mən bu işlə məşğulam. Mən bunu düşünürəm. Ancaq bilin ki, Azərbaycanın başqa bir bölgəsi, Naxçıvan il yarımdır qazsızdır. Beş ay elektrik enerjisi olmadı, yollar kəsildi, adamlar soyuqdan dondu orda, uşaqlar öldü, ağacların 70 faizi kəsildi. Camaat adicə gerosin tapa bilmirdi ki, lampasını yandırsın. O şəraitdə yaşayırdılar, indi də yaşayırlar. Mən özüm o şəraitdə yaşamışam. Ancaq orda, Naxçıvanda böyük bir diviziya var idi. Rusiyanın diviziyası. Lənkərandakı diviziyadan da böyük idi. Mən şəxsən o diviziyanın silahlarının hamısını təhvil aldım, özünü də oradan çıxartdım. Ancaq mən bir dənə də silah götürmədim. Bir dənə tapanca götürmədim. Və o hərbi hissənin sahibi olmadım. Çağırdım müdafiə nazirini, dedim, gəlin təhvil alın. Diviziyanın düşərgəsi indi bizim Müdafiə Nazirliyinin hərbi hissəsidir. Bəs nə təhər ola bilər ki, birisi hardasa hansısa hissəni alıb və əmlakını, sursatını mənimsəyib. Bu nə məsələdir? Sözü ona gətirirəm ki, Naxçıvan Muxtar Respublikasında da sosial problemlər var, 70 minə qədər işsiz var. Bir zavod işləmir. Bir fabrik işləmir. Heç bir tikinti getmir? Niyə? Çünki dəmir yolu bağlıdır, avtomobil yolu bağlı, təyyarə ilə nə daş gətirmək olar, nə sement, nə taxta, nə də dəmir. Heç bir şey gətirmək mümkün deyil. Sadəcə olaraq orada insanların yaşamasını təmin etmək haqqında söhbət gedir.

Yenə də deyirəm: Lənkəran bölgəsinin sosial problemləri, şübhəsiz ki, mövcuddur və onlar həll olunacaq. Ancaq bunların heç birisi belə qeyri-qanuni hərəkətlərin törədilməsinə, belə proseslərin getməsinə əsas vermir. Mən güman eləyirəm ki, bugünkü söh-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bətdən sonra biz artıq məsələni açmalıyıq, ictimaiyyət bunu bilməlidir. Mən görüş başlanarkən dedim ki, burada kameralar yazır, lakin heç yerə verilməyəcək. Ancaq mən öz dediyim sözlərin ağasıyam. İstəyirəm mənim çıxışlarım verilsin. Əgər etiraz eləmirsinizsə, qoy sizinkilər də verilsin. Çıxış eləyənlərin etirazı yoxdur ki, verilsin. Mən deyirəm, verilsin, qoy camaat bilsin. Düzü əvvəlcə fikirləşirdim ki, məsləhətləşəcəyik, amma söhbət çox geniş alındı. Heç mən belə gözləmirdim. Ona görə də bir halda ki, mənə burada dedilər camaat rəhbərliyin sözünü gözləyir, qoy verilsin. Burada rəhbərliyin hamısı danışdı. Qoy camaat bilsin. Rəhbərliyin də sözünü bilsin, deputatların da sözünü bilsin.

İkinci tərəfdən biz güman edirik ki, bugünkü danışığımız, bugünkü müzakirəmiz yəqin Əlikrama və onun ətrafında olan qüvvələrə öz təsirini göstərəcəkdir. Arzu edirik ki, onlar bugünkü bu müşavirədən özləri üçün nəticə çıxarsınlar və qeyri-qanuni hərəkətlərdən əl çəksinlər. Onların niyyətlərinin heç birisi baş tutası deyil. Bunlara biz yol verməyəcəyik. Ancaq yaxşı olar ki, bu prosesi şəxsən özləri dayandırsınlar. Eyni zamanda mən bu cənub zonasının buraya toplaşan nümayəndələrinə müraciət edirəm. Həm o yerlərdən gələnlərə, həm də Bakıda yaşayanlara. Mən xahiş edirəm, deputat da, Məclis üzvü də, nazir də, idarə rəisi də bu istiqamətdə öz fəaliyyətini göstərsin. Və hamı bilsin ki, başqa yol yoxdur. Bu məsələ həll olunmalıdır. Bu prosesə son qoyulmalıdır və beləliklə Azərbaycanda baş vermiş bu qeyri-qanuni proseslər tamamilə ləğv olunmalıdır. Mən sizdən xahiş edirəm ki, hərə öz sahəsində öz fəaliyyətini göstərsin. Neytral mövqe tutmaq, bitərəf qalmaq, laqeydlik göstərmək, yaxud yaxanı kənara çəkmək indi yaramaz. Və heç kəs də gərək belə mövqedə olmasın. Hərə öz sahəsində çalışmalıdır. Bizə lənkəranlıların müraciəti göndərilib. Onu böyük bir qrup imzalayıb. Mən hesab edirəm ki, bu müraciət də mətbuatda verilməlidir. Bundan sonra sizlərdən kim bu barədə mətbuatda, televiziyada söz deyib bu proseslərin tezliklə dayanmasına kömək etmək istəsə, hamısına imkan verəcəyik. Biz televiziya şirkətinə göstəriş verərik ki, belə çıxışlar hazırlasın, belə söhbətlər aparsın, müzakirələr keçirsin. Sizdən və başqalarından xahiş edirəm bu çıxışlarda iştirak edəsiniz ki, sözlə, məntiqlə, qarşılıqlı hörmət tərzində bu adamlara bir də çatdıraq ki, qeyri-qanuni hərəkətlərdən əl çəkmək lazımdır. Əgər başqa bir təklif yoxdursa, gəlin bununla qurtaraq. Ancaq mənim fikrimcə, bir halda ki, bu məsələ açılıbdır, Milli Məclisdə müzakirə olunmalıdır. Buna dövlət tərəfindən münasibət göstərilməlidir. Biz indi söhbəti apardıq, ayrı-ayrı şəxslərin münasibəti bildirildi. Amma buna dövlət orqanları öz münasibətini bildirməlidir. Bu məsələ yaxın günlərdə Milli Məclisdə müzakirə olunmalıdır. Bəli, daxili işlər naziri Vaqif Novruzova göstəriş verilir şərait yaratsın ki, bura dəvət olunan şəxslərin hamısı öz evlərinə, yerlərinə gedə bilsinlər, çünki komendant saatıdır. Saat ikini keçib, üçə az qalır. Xahiş eləyirəm, bunu təmin eləyəsiniz. Bir də bu şəxslərin təhlükəsizliyini təmin eləyəsiniz. Sağ olun.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"ENERGİYA, EKOLOGİYA, İQTİSADİYYAT" İKİNCİ BEYNƏLXALQ SİMPOZİUMUN İŞTİRAKÇILARINA

Beynəlxalq məclisin iştirakçılarını səmərəli nəticələr əldə ediləcəyinə səmimi ümidlərlə salamlayıram. Onun mürəkkəb dövrümüzdə keçirilməsi, məclisdə bir çox ölkələrdən olan geniş profilli tədqiqatçı alimlərin iştirakı sübut edir ki, XXI əsrin astanasında bütün dünya birliyi qarşısında duran problemlərin həlli kollektiv və gərgin iş tələb edir. Bunun dərin rəmzi mənası var ki, beynəlxalq simpozium haqlı olaraq dünya elmi və sənayesinin beşiklərindən biri sayılan Bakı şəhərində toplaşmışdır. Onun bütün iştirakçılarını salamlayaraq, ümidvar olduğumu bir daha bildirmək istəyirəm ki, fundamental elmlər sahəsində Azərbaycanda olan nəzəri və praktiki potensial, Azərbaycan alimlərinin bir çox ölkələrdəki həmkarları ilə geniş yaradıcılıq əlaqələri simpoziumun səmərəli işi üçün bütün lazımi şəraiti yaradacaqdır. Bəşər birliyinin müasir inkişafının bütün istiqamətlərinə dair optimal qərarlar axtarılması, gələcəyə doğru irəliləyişi təmin edəcək qeyri-standart yolların axtarışı buna imkan yaradacaqdır ki, biz ekoloji dövr adlanan yeni dövrün sınaqlarından layiqincə çıxacağıq.

Sizə uğurlar və ümumi tərəqqiyə nail olmağa yönəldilmiş bütün planların həyata keçirilməsini arzulayıram.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikası prezidentinin
səlahiyyətlərini həyata keçirən
Azərbaycan Respublikası Ali Sovetinin sədri

17 avqust 1993-cü il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

APARICI NEFT ŞİRKƏTLƏRİNİN VƏ KORPORASİYALARININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

17 avqust 1993-cü il

Hörmətli qonaqlar! Hörmətli neftçilər, alimlər və mətbuat işçiləri! Hamınızı səmimi-qəlbdən salamlayır və bu gün başladığınız böyük və çox mühüm əhəmiyyət kəsb edən işinizdə sizə uğurlar arzulayıram. Bugünkü toplantı müstəqil Azərbaycan Respublikasının neft yataqlarının bundan sonra istifadə olunması problemləri ilə əlaqədardır. Bildiyiniz kimi, Azərbaycan qədim neft diyarıdır və Bakıda neft çıxarılmasına hələ ötən əsrdən başlanmışdır. Tarixə nəzər salsaq böyük iftixar hissi ilə qeyd edə bilərik ki, Azərbaycan dünyada ilk dəfə neft hasil edən və dünyanın bir çox ölkələrinə neft məhsulları göndərən bir ölkə olmuşdur. İcazə verin, qısa da olsa, neft sənayesinin inkişaf mərhələləri haqqında bir neçə kəlmə söyləyim.

Azərbaycanda neft çıxarılmasına və emal olunmasına başlanan kimi Bakı dünyanın inkişaf etmiş ölkələrinin saysız-hesabsız neft şirkətlərinin diqqətinn cəlb etmişdir. Məlumdur ki, Azərbaycanda neft çıxarılması, onun emalı ilk dövrdən həm Azərbaycanın iş adamlarının, həm də xarici şirkətlərin fəaliyyəti ilə bağlı olmuşdur. Bu dövrdə Bakı dünyada bir neft məkanı kimi şöhrət tapmışdı. Sonrakı dövrü götürsək, 1920-ci ildən sonra Azərbaycan nefti keçmiş sovetlər ölkəsinin inkişafında müstəsna rol oynamışdır. O dövrün nailiyyətləri də, çatışmazlıqları da sizin hamınıza yaxşı məlumdur. Biz indi Azərbaycanın neft sərvətlərindən istifadə olunmasının, necə deyərlər, üçüncü mərhələsinə keçmişik.

Əgər 1920-ci ilə qədərki dövrə nəzər salsaq, görərik ki, Azərbaycan nefti xarici ölkələrin iri şirkətləri tərəfindən istismar olunaraq daşınıb və xalq neftdən çox az mənfəət götürüb.

Əgər son 70 ildəki dövr haqqında danışsaq, yenə də fikirlər müxtəlifdir. Azərbaycanın neft sərvətləri bütün Sovet İttifaqını təmin edir və eyni zamanda, Azərbaycan Respublikasına, Azərbaycan xalqına böyük mənfəət gətirirdi. Burada həqiqət var və mənə elə gəlir ki, bunu inkar etməyə və bu barədə əsassız fikirlər söyləməyə lüzum yoxdur. Tarix hər şeyi öz yerinə qoyacaqdır. Ancaq məlumdur ki, bu dövrdə Azərbaycan keçmiş Sovet İttifaqında, bütün dünyada neft akademiyası kimi məşhur idi, Azərbaycanda dünya şöhrətli neftçilər - istehsalatçılar, neft ustaları, neft və geologiya sahəsində çalışan alimlər yetişmişlər. Onlar keçmiş Sovet İttifaqının digər regionlarında da fəaliyyət göstərərək neft yataqlarının kəşfiyyatında, istismarında və hasilatının təşkilində mühüm rol oynamışlar. Biz

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

həmin illərdə daim böyük iftixar hissi ilə qeyd etmişik ki, Azərbaycanın neftçiləri - həm alimləri, həm də neft sənayesində çalışanlar böyük sovetlər ölkəsinin hər yerində fəaliyyət göstəriblər və öz təcrübələrini, bilik və bacarıqlarını yeni-yeni neft yataqlarının aşkara çıxarılmasına sərf ediblər və bununla da, Azərbaycan neftçilərinin şan-şöhrətini aləmə yayıblar.

Bütün dünyaya məlumdur ki, ilk dəfə dənizdə qara qızıl çıxarılması Azərbaycan neftçilərinin fəaliyyəti nəticəsində həyata keçmişdir. 1949-cu ildə Neft daşlarında ilk quyunun fontanından sonra dənizdə neft çıxarılması təcrübəsindən bütün dünya istifadə etmişdir. Bu sahədə Azərbaycan neftçilərinin xarici ölkələrdə fəaliyyəti tarixdən heç vaxt silinməyəcəkdir.

Sirr deyildir ki, Sovet İttifaqı 1920-1940-cı illərdə yeni bir dövlət kimi öz sənayesini məhz Azərbaycan, Bakı neftinin sayəsində inkişaf etdirə bilib. İkinci dünya müharibəsində Sovet İttifaqının döyüş qüdrətini təmin etmək üçün neft və neft məhsulları strateji rol oynayırdı və o vaxt ölkənin bu məhsullara olan ehtiyacının 75 faizdən çoxunu Bakı verirdi.

Bütün bunlar tarixi həqiqətdir. Ancaq illər ötdükcə tarixi daha düzgün anlayır, ona daha real qiymət veririk. Bir daha təkrar edirəm, əgər 1920-ci ilə qədərki dövrü biz xarici ölkələrin Azərbaycan neftini istismar etdiyi bir dövr kimi qəbul etmişiksə, əgər son 70 illik dövrü yaxın illərin mətbuatında belə qələmə verməyə çalışıblar ki, guya bu dövrdə Azərbaycan nefti vəhşicəsinə talan olunub, Azərbaycan xalqına, dövlətinə heç nə çatmayıbsa, indi biz yeni bir mərhələdəyik. Bu tarixi dövrlərə düzgün qiymət verərək lazımi nəticə çıxarmalı, ibrət dərsi alaraq işi düzgün təşkil etməliyik.

Mən bu sözlərlə heç də indi Azərbaycanda neft çıxarılmasının, bu sahədə elmi tədqiqatların inkişafına təsir göstərmək fikrində deyiləm. Mən, sadəcə olaraq, bir neçə məqamları yala salıram və məqsədim ondan ibarətdir ki, bu gündən işimizi daha da səmərəli quraq.

Bir həqiqət də ondan ibarətdir ki, son dövrdə, xüsusən 60-70-ci illərdə Azərbaycanın neft sənayesinin potensialı çox güclü inkişaf etmişdir. Neft sənayesi indi iri həcmli əsas fondlara malikdir, alimlərimiz, geoloqlarımız, neftçilərimiz quruda və dənizdə yeni-yeni zəngin neft yataqları aşkar ediblər. Bu sərvətlərdən istifadə olunması, şübhəsiz ki, birinci növbədə, Azərbaycan xalqının, müstəqil Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafını təmin etmək üçün çox mühüm amildir.

Neft yataqları torpağın təkində olan ən zəngin sərvətlərdəndir. Azərbaycanın neft yataqları, dediyim kimi, bir əsrdən çoxdur ki, istifadə olunur, dünyanın bir çox ölkələrinə göndərilir. Ancaq yerin təkində neft sərvətləri hələ çoxdur və ondan səmərəli istifadə olunması indiki və gələcək nəsillərin müqədləs borcudur. Neft sərvətimiz, ilk növbədə, müstəqil Azərbaycan Respublikasının inkişafı, xalqının sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması, vətəndaşların maddi rifahının yüksəldilməsi üçün istifadə olunmalıdır. Məhz buna görə də bugünkü top-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lantıda mən bu sözləri deməyi özümə borc bilirəm. Biz əgər bu gün bir sıra xarici ölkələrin şirkətləri ilə yeni əlaqələr qurub respublikanın neft yataqlarından daha səmərəli istifadə olunması mərhələsinə qədəm qoyuruqsa, deməli, hər addımımızı ölçüb-biçməliyik. Allahın, taleyin xalqa bəxş etdiyi bu zənginlikdən ağılla, düşüncə ilə istifadə olunmalıdır.

Şübhəsiz ki, neft yataqlarının istismarında iqtisadi marağı olan xarici ölkə şirkətlərinin mənafeyi təmin edilməlidir. Mən açıq deyirəm, Azərbaycan dövlətinin bu sahədə mövqeyi tam aydın, mənfəətlər isə qarşılıqlı olmalıdır. İlk növbədə, dövlətin, xalqın mənafeyinə üstünlük verilməlidir, eyni zamanda, xarici şirkətlərin iqtisadi mənafeyi ödənilməli və bu işlər qarşılıqlı fayda, qarşılıqlı anlaşma zəminində təşkil olunmalıdır.

Son illərdə Azərbaycanda baş verən proseslərdə, mətbuat səhifələrində, ayrı-ayrı ictimai-siyasi xadimlərin çıxışlarında belə fikirlər söylənilib ki, əsrlər boyu Azərbaycanın sərvətləri yabançı dövlətlər tərəfindən vəhşicəsinə, insafsızcasına dağıdılıb, Azərbaycan xalqına bu sərvətlərindən heç nə çatmayıb. Yəqin ki, belə hallar olub və bundan sonra biz buna yol verə bilmərik. Təəssüf ki, son dövrdə Azərbaycanın neft sənayesi səriştəsiz rəhbərlərin əlinə keçib və bu işlərdə dərin məsuliyyət duya bilməyən həmin adamların fəaliyyəti nəticəsində bəzi müqavilələrin hazırlanmasında səhvlərə yol verilib.

Məhz buna görə də biz iyun ayının 24-də xarici şirkətlərlə demək olar ki, bağlanmaq ərəfəsində olan müqavilələrin müvəqqəti olaraq dayandırılması qərarını qəbul etdik. Bu heç də o demək deyil ki, biz bu şirkətlərlə müqavilə bağlamaqdan imtina edirik, yaxud bu şirkətlərin Azərbaycanda fəaliyyət göstərməsinin qarşısını alırıq. Yox. Sadəcə olaraq, biz bu məsələləri daha dərindən araşdırmaq istəyirik. Təkrar edirəm, Azərbaycanın ən böyük sərvəti olan neft yataqlarının bundan sonra xalqın inkişafı naminə istifadə olunmasının daha səmərəli təşkilinə çalışırıq. Başqa heç bir məqsədimiz yoxdur və ola da bilməz. Ona görə də 24 iyun tarixli qərarımızdan sonra xarici mətbuatda cürbəcür yazılar və ayrı-ayrı şirkətlər tərəfindən narazılıqlar bizim üçün anlaşılmaz oldu. Çalışdıq ki, onların hamısına izahat verək və belə güman edirik ki, anlaşılmazlığı aradan qaldıra bildik.

İndi biz bu məsələnin yeni mərhələsini başlayırıq. Qarşımızda mühüm məsələlər durur. Təəssüf ki, neft və qaz hasilatı son illər kəskin surətdə azadıb. Bunun müəyyən obyektiv səbəbləri var. Ancaq əsas səbəb işin yarıtmaz təşkili, neft sənayesinə lazımi diqqət verilməməsi, neft sənayesində potensial imkanlardan səmərəli istifadə olunmamasıdır. İndi Azərbaycanda ildə 10 milyon ton neft, 6 milyard kubmetr qaz çıxarıdır. Şübhəsiz, vəziyyət bizi narahat etməyə bilməz. On il əvvəl Azərbaycanda 14-15 milyon ton neft və təxminən 14-15 milyard kubmetr qaz çıxarılırdı. Mənim bildiyimə görə, 70-ci, 80-ci illərdə neftçilərimizin, geoloqlarımızın, alimlərimizin, elmi institutlarımı-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

zın birgə fəaliyyəti nəticəsində 20 böyük neft yatağı aşkar edilibdir. Bu neft yataqlarının zəngin potensialı var. Əgər onlardan səmərəli istifadə olunsaydı, indi Azərbaycanda neft və qaz çıxarılması üzrə göstəricilər nəinki azalmazdı, hətta artardı da.

Ancaq son dövrdə bir xoşagəlməz meyl meydana çıxıbdır. Tam məsuliyyət hissi ilə deyə bilərəm ki, bu meyl ondan ibarətdir ki, neftdən xəbəri olmayan, neft terminini bilməyən, neft sənayesindən bixəbər, meydanlarda qışqıran, çayxanada vaxt keçirən adamlar neftin taleyini həll edirlər. Bu adamlar neftdən necə istifadə olunmasını, neft sənayesini hansı yollarla inkişaf etdirməyi anlamırlar. Ona görə də neft sənayesi özbaşına buraxılıbdır. Təxirəsalınmaz əsas vəzifəmiz mövcud imkanlardan, bugünkü neft sənayesi potensialından istifadə edib neft və qaz çıxarılmasını artırmaq, neft sənayesini inkişaf etdirməkdir.

Təxminən son 2-3 ildə bəziləri belə fikir yayırlar ki, bizim neft ehtiyatlarımız çox zəngindir, biz xarici şirkətlərlə əlaqə yaradacağıq ki, onlar gəlib neftin çıxarılmasında, emalında və onun nəql olunub dünya bazarında satılmasında bizə köməklik göstərəcək və bununla da, Azərbaycan çətin vəziyyətdən çıxacaqdır. Şübhəsiz, biz bu yolu inkar etmirik və bu yol neft sənayemizin inkişafı üçün müasir dövrdə əsas yollardan biridir. Ancaq neft istehsalını günbəgün, aybaay, ilbəil aşağı salıb gözləsək ki, 2-3 ildən sonra neft şirkətləri ilə bağlanan kontraktlar nəticəsində neftin istehsalı artacaq, sonra nefti satıb valyuta alacağıq, Azərbaycanı inkişaf etdirəcəyik, onda bəs bu iki-üç il ərzində xalqın vəziyyəti nə cür olacaq?

Ona görə də mən neft sənayesinin burada iştirak edən nümayəndələrinə, alimlərimizə və ümumiyyətlə, bütün neftçilərə demək istəyirəm ki, Azərbaycan neftçiləri öz əməyi, bacarığı, sənətinə sadiqliyi ilə bütün dünyada şöhrət tapıblar. Neftçilərimizin bugünkü nəsli tarixi nailiyyətlərdən, sələflərinin təcrübəsindən faydalanaraq, mövcud şəraitdə neft sənayesini qaldırmalı, neftçıxarma prosesini inkişaf etdirməli, neft və qaz hasilatını artırmalıdırlar. Açıq demək lazımdır, neft bəzi rəhbərlərin əlində yalnız kommersiya vasitəsinə çevrilib, belələri ancaq öz mənfəətlərini güdür. Bu, Azərbaycan xalqına xəyanətdir. Biz buna dözə bilmərik.

Mən salonda hörmətli alimlərimizi, Azərbaycanın adlı-sanlı neftçilərini görürəm. Bu adamların ömrü Azərbaycanın neft sənayesinin inkişafı ilə bağlıdır. Onların ömür yolları bizim hamımızın gözünün qabağındadır. 1950-60-cı illərlə, hətta 70-ci illərdə neft sənayesinə dövlət tərəfindən, bütün ictimaiyyət tərəfindən böyük diqqət vardı. Neftçilərin adı hörmətlə, şərəflə çəkilirdi və onlar böyük qayğı ilə əhatə olunmuşdular. Bəs indi? Hanı o şöhrət, hanı o qayğı? Naşı adamlar belə böyük sahəyə, böyük bir elmə, böyük bir sənayeyə rəhbərlik edə bilməzdilər. Məhz onlar bizi belə bir vəziyyətə gətirib çıxarıblar.

Mənim bu fikirlərimi Azərbaycan neftçiləri, alimləri, istehsalçıları və neftlə əlaqəli bütün adamlar düzgün qəbul elə-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dilər və razılaşdılar ki, indi neft sənayesinin potensialından səmərəli istifadə olunmalıdır.

Qeyd etdim ki, neft sənayemizdə yeni bir mərhələ yaranıbdır. Təxminən XIX əsrin ikinci yarısında, XX əsrin əvvəllərində Azərbaycanın neft yataqları əsasən Avropa şirkətləri tərəfindən istismar olunurdusa, sonrakı dövrdə neft dövlət sektoruna keçdi və indi də dövlətin əlindədir. Ancaq üçüncü mərhələdə biz yenidən xarici şirkətlərlə əlaqə qurub neft sənayesini inkişaf etdirməyə başlayırıq. Çalışmalıyıq ki, bu mərhələ müstəqil Azərbaycan Respublikası üçün faydalı olsun.

Unutmamalıyıq ki, neft Azərbaycanın tükənməz sərvətidir, amma bu heç də o demək deyil ki, neft tükənməzdir. Yox. Neft yataqlarının da müəyyən bir səddi var. Əgər biz neft yataqlarından elmi əsaslarla, ağılla, qənaətlə istifadə edə bilməsək, gələcək nəsillər bizi bağışlamaz. Ona görə də qısa bir mərhələdə böyük gəlir götürmək arzusuna uyan adamlar dərindən düşünməlidirlər. Elə etmək lazımdır ki, gələcək nəsillər də Azərbaycanın bu nadir sərvətindən kifayət qədər istifadə edə bilsinlər.

Ona görə də biz yeni mərhələdə xarici neft şirkətləri ilə əlaqə qurarkən bu əsas məsələni unutmamalıyıq. Ayrı-ayrı adamların bu proseslərdə öz şəxsi mənafelərini güdməsi bütün Azərbaycan xalqına, müstəqil Azərbaycan dövlətinin həm İqtisadiyyatına, həm milli qüdrətinə, həm də dövlətçiliyinə böyük zərbədir. Buna yol vermək olmaz və mən sizi əmin edirəm ki, bu vəzifəni tutduğum dövrdən belə bir mövqedəyəm və buna yol verməyəcəyəm.

Azərbaycanın dənizdə zəngin neft yataqları var: "Azəri", "28 Aprel" və s. Bu yataqların hamısı burada əyləşmiş alimlərimizin, geoloqlarımızın, neftçilərimizin böyük əməyi sayəsində kəşf olunub. İndi imkan vermək olarmı ki, yüz minlərlə adamın illər boyu çəkdiyi zəhmətin nəticəsindən ayrı-ayrı üzdəniraq işbazlar istifadə etsinlər? Buna yol vermək olmaz! Mən buna heç vaxt yol verməyəcəyəm.

Bu məsələlərə, bilirsiniz ki, 70-ci illərdə çox ciddi fikir verilib. 70-ci illərin sonunda Xəzərin dərin yerlərində neft yataqlarını kəşf edəndən sonra biz oradan neftin çıxarılması və nəqli işi ilə məşğul olduq. Məhz o vaxtlar, hələ Sovet İttifaqının tərkibində ikən, Azərbaycanda dərin özüllər zavodunun tikintisinə başladıq.

Yəqin burada oturanların çoxu bilmir, ancaq həmin zavodun məhz Azərbaycanda tikilməsi asan problem deyildi. Belə ki, biz SSRİ-nin təsərrüfat potensialına daxil idik, fəaliyyətimizdə sərbəst deyildik. Ancaq mən sizə çatdırmaq istəyirəm ki, o zaman bizim çox böyük və ardıcıl tədbirlərimiz nəticəsində Moskvadan bu zavodun məhz Azərbaycanda tikilməsi qərara alındı. Azərbaycanda, ümumiyyətlə, sovetlər ölkəsində zavodu tikmək üçün avadanlıq yox idi. Avadanlıq almaq üçün SSRİ-nin valyuta fondundan 400 milyon dollar xərcləndi. Amerikadan avadanlıq və texnologiya alındı. Mənə belə məlumat verdilər ki, hətta hazırlanmış yeni müqavilələrdə zavodun istehsal etdiyi dərin özüllərdən

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

istifadə etmək problemi qoyulmayıb, müəssisənin məhsulları kənarda qalıb.

Bu müqavilələr, gərək çox dolğun və düzgün yazılsın. Heç kəs heç kəsi aldatmağa çalışmasın, hərə gərək öz tərəfinin mənafeyini qorusun. Qarşılıqlı münasibətlər, qarşılıqlı iqtisadi əlaqələr ən yüksək səviyyədə olmalıdır. Güman edirəm ki, xarici ölkələrin neft şirkətlərinin burada iştirak edən nümayəndələri, mənim bu sözlərimi düzgün anlayacaq və düzgün qəbul edəcəklər. Bir daha deyirəm ki, Azərbaycan Respublikasının ən zəngin sərvəti olan neft yataqlarının xarici şirkətlərlə birgə istismarına müsbət yanaşıram. Ancaq bu münasibətlər və bu bağlaşmalar gərək ağıllı və səliqəli olsun. Müqavilələrin bu əsasda olmasını biz təmin edəcəyik, mən sizə dövlət tərəfindən zəmanət verə bilərəm.

Eyni zamanda qeyd etmək istəyirəm ki, əgər dünyanın böyük ölkələrinin neft şirkətləri Azərbaycanın neft yataqlarına maraq göstərirlərsə, güman edirəm ki, o ölkələrin dövlət dairələrini Azərbaycan Respublikasının bugünkü ictimai-siyasi vəziyyəti də maraqlandırmalıdır. Güman edirəm ki, neft şirkətlərinin əksəriyyəti təmsil olunduqları dövlət dairələri ilə sıx bağlıdırlar. Onların burada fəaliyyət göstərməsi bu dövlətlərin Azərbaycana olan münasibətinin daha da yaxşılaşacağına ümid verir.

Bu sözləri sizə çatdıraraq əlavə etmək istəyirəm ki, Azərbaycan Respublikası, müstəqil Azərbaycan dövləti bütün ölkələrlə qarşılıqlı faydalı əlaqələr qurmağı bundan sonra da davam etdirəcəkdir. Azərbaycan demokratik respublika kimi, sivilizasiyalı dövlət kimi bundan sonra inkişaf edəcəkdir. Azərbaycan Respublikasında bütün beynəlxalq hüquq normaları, beynəlxalq qanunlar tətbiq olunacaqdır. Azərbaycan Respublikasında insan hüquqları bundan sonra da qorunacaqdır, bu işlərə daha ciddi fikir veriləcəkdir. Heç kəsin şübhəsi olmasın ki, Azərbaycanın bir demokratik respublika kimi, bundan sonra inkişaf etməsinə kimsə mane ola bilər. Azərbaycan dünya demokratik ölkələri birliyinə daxil olmuş bir dövlətdir və siyasi plüralizmin və insan hüquqlarının qorunması prinsipləri əsasında bundan sonra da inkişaf edəcəkdir.

Güman edirəm ki, bu şərtlər Azərbaycan Respublikası neft şirkətinin xarici ölkələrin neft şirkətləri ilə əlaqələrinin qurulmasının əsas amillərindən biri olacaq.

Biz xarici ölkələrin burada təmsil olunan şirkətləri ilə iqtisadi əlaqələrimizin davam etməsinin tərəfdarıyıq və buna kömək edəcəyik. Bütün məsələlərə lazımi səviyyələ, yüksək elmi səviyyədə baxılmasına şərait yaradacağıq.

Sizin hamınıza işlərinizdə müvəffəqiyyət arzu edirəm və bugünkü toplantıdan sonra Azərbaycan Respublikasının neft şirkəti ilə xarici şirkətlərin əlaqələrinin daha da düzgün istiqamətdə inkişaf etməsinə əmin olduğumu bildirmək istəyirəm.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

QABON RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ ƏL-HƏCİ ÖMƏR BONQO CƏNABLARINA

Hörmətli cənab prezident!

Sizi və bütün Qabon xalqını öz adımdan və Azərbaycan xalqı adından milli bayram - Müstəqillik günü münasibətilə səmimi-qəlbdən təbrik edir, şəxsən sizə və hər bir Qabon ailəsinə sülh, əmin-amanlıq və xoşbəxtlik arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikası prezidentinin
səlahiyyətlərini həyata keçirən
Azərbaycan Respublikası Ali Sovetinin sədri

17 avqust 1993-cü il

İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ƏLAHƏZRƏT GENERAL SUXARTO CƏNABLARINA

Hörmətli cənab prezident!

Sizi və İndoneziya xalqını milli bayramınız - Müstəqillik günü münasibətilə səmimi-qəlbdən təbrik edir, şəxsən sizə və bütün İndoneziya xalqına sülh, əmin-amanlıq və xoşbəxtlik arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikası prezidentinin
səlahiyyətlərini həyata keçirən
Azərbaycan Respublikası Ali Sovetinin sədri

17 avqust 1993-cü il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BMT TƏHLÜKƏSİZLİK ŞURASININ SƏDRİNƏ
SURƏTİ: BMT-nin BAŞ KATİBİNƏ

Hörmətli cənab sədr!

Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası tərəfindən 822 və 853 nömrəli qətnamələr qəbul edilməsindən artıq kifayət qədər vaxt keçmişdir. Lakin indiyədək heç bir əsər-əlamət yoxdur ki, Ermənistan Respublikası, Dağlıq Qarabağ ermənilərinin uydurma rəhbərliyi belə yüksək hörmətli beynəlxalq təşkilatın qərarını yerinə yetirmək niyyətindədirlər.

Tamamilə aydındır ki, nəinki işğal olunmuş, yandırılmış və talan edilmiş Kəlbəcər və Ağdam rayonları, həm də digər Azərbaycan əraziləri tərk edilməmişdir. BMT Təhlükəsizlik Şurasının qərarlarına və bütün beynəlxalq hüquq normalarına təcavüzkar həyasızcasına məhəl qoymur. Füzuli rayonunda azərbaycanlılar yaşayan dinc kəndləri zəbt etməkdə və yandırmaqdadır, Füzuli şəhəri üzərinə güclü hücum əməliyyatı aparır, Cəbrayıl, Qubadlı istiqamətində ərazimizin içərilərinə doğru hücumu genişləndirir. Bərdə şəhərini və başqa yaşayış məntəqədərini ələ keçirməyə çalışır.

Açıq təcavüz faktı o dərəcədə aşkardır ki, hər hansı əlavə faktlar gətirmək lüzumsuzdur, əminəm ki, onlar sizə BMT-nin Bakıdakı nümayəndəsi, bu yaxınlarda Füzulidə olmuş cənab Mahmud əl-Səidin məruzələrindən məlumdur.

İzah olunanlarla əlaqədar xahiş edirəm, Təhlükəsizlik Şurası dərhal çağırılsın və təcavüzkarı dayandırmaq, qan tökülməsinə son qoymaq, Azərbaycan Respublikasının yüz minlərlə müdafiəsiz dinc sakinini qorumaq üçün, nəhayət, kəsərli və təxirəsalınmaz tədbirlər görülsün.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikası prezidentinin
səlahiyyətlərini həyata keçirən
Azərbaycan Respublikası Ali Sovetinin sədri

18 avqust 1993-cü il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AZƏRBAYCAN MİLLİ TELEVİZİYASI İLƏ XALQA MÜRACİƏT

23 avqust 1993-cü il

Hörmətli həmvətənlər! Bacılar və qardaşlar! Bu gün mən sizə müraciət etmək məqsədilə televiziya studiyasına gəlmişəm və bəzi məsələlər haqqında mülahizələrimi, fikirlərimi sizə çatdırmaq istəyirəm.

Azərbaycan xalqı, Azərbaycan Respublikasının vətəndaşları ağır günlər keçirirlər, həyatımız son dərəcə gərgin vəziyyətdədir. Bu gərginlik iyul ayının əvvəlindən başlamış proseslərlə müəyyən qədər bağlıdır və ondan sonra həmin prosesləri normal hala salmaq üçün mühüm tədbirlər görülməsinə baxmayaraq, bu proseslər hələ də tamamilə ləğv olunmayıbdır və gərginlik davam edir.

Azərbaycan Respublikası beş ildən artıqdır ki, Ermənistanın silahlı qüvvələri tərəfindən təcavüzə məruz qalıbdır. Azərbaycan xalqı öz torpağını, öz Vətənini qorumaq üçün müharibə aparır, vuruşur, döyüşür. Təəssüf ki, sizə məlum olan səbəblərdən bu döyüşlərdə bizim qələbəmiz hələ ki, yoxdur və Azərbaycan Respublikasının torpaqlarının bir qismi işğal olunubdur. Son vaxtlarda bəzi yaşayış məntəqələrimizi, qəsəbələrimizi itirmişik, yeni-yeni ailələr qaçqın düşüb, insanlar qaçqın düşüb və bu da respublikada olan gərgin ictimai-siyasi vəziyyəti daha da gərginləşdiribdir.

Mən bu çıxışımda heç də cəbhədə vəziyyət, yəni Ermənistanla Azərbaycan arasında olan müharibə vəziyyəti haqqında geniş danışmaq istəmirəm, ona təhlil vermək istəmirəm, bu barədə əvvəlki çıxışlarımızda və Milli Məclisin iclaslarında bəzi sözlər deyilibdir. Təəssüflər olsun ki, son vaxtlar bizim ordu hissələri torpağımızı layiqincə qoruya bilmirlər və cürbəcür təxribatçı qrupların xalqa, millətə, dövlətə xəyanəti nəticəsində bəzi yaşayış məntəqələrimiz əldən getmişdir. Təkrar edirəm, bu məsələni təhlil etmək istəmirəm. Sadəcə olaraq, bir-iki kəlmə ilə sizə bildirmək istəyirəm ki, son dövrdə torpaqlarımızın müdafiəsindəki məğlubiyyətlər heç də Azərbaycan xalqının acizliyindən, yaxud da ki, bizim döyüşçülərin vuruşmaq qabiliyyətinin olmamasından irəli gəlmir. Bunun daha dərin səbəbləri var.

Bir neçə gün bundan öncə, Füzuli və Cəbrayıl rayonlarında təhlükəli vəziyyət yarandığı zaman, ümumiyyətlə, o bölgədə əhali arasında böyük həyəcan hissi olduğunu bilərək biz müşavirə keçirdik. O bölgəyə Azərbaycan Respublikasının rəhbər vəzifəli şəxslərini göndərdik. Baş nazirin birinci müavini Vahid Əhmədov, baş nazirin müavini Abbas Abbasov, nazirlər, xalq deputatları, başqa məsul işçilər, inzibati orqanların işçiləri

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yerdə vəziyyətlə tanış olandan sonra aydın oldu ki, bizim bu məğlubiyyətlərimiz, bu bölgədə yaranan ağır vəziyyət birinci növbədə daxildəki təxribatların nəticəsidir.

Məsələn, biz dünən müşavirə keçirirdik. Elə bu gecə oradan gələn bizim vəzifəli şəxslər məlumat verdilər ki, Cəbrayıl rayonunda camaatı haya-küyə salıb qorxudub qaçırdan, təxribat edən yalnız və yalnız oranın icra başçısı və onun ətrafında olan layiqsiz adamlardır. Onlar şəxsi məqsədlərinə nail olmaq üçün, öz şəxsi çirkin mənafelərini həyata keçirmək üçün xalqı da bədbəxt eləməyə, torpağı da, yaşadıqları dədə-baba yurdunu da dağıtmağa hazır olan adamlardır. Oradan mənə xəbər verirlər ki, bir batalyon döyüşdən çıxır, çünki bu, hansısa Əlisoyun batalyonudu. Xalq Cəhbəsinin; bir batalyon çıxır, deyirlər ki, bu, Rəhim Qazıyevin batalyonudur, müharibə eləmək istəmir; bir batalyon çıxır, deyir bu, nə bilim filankəsin batalyonudur, müharibə eləmək istəmir. Hərəsi bir tərəfə qaçır və bu əli silahsız, müharibəyə hazır olmayan sakinlər isə, əlbəttə ki, vətənindən ayrılmaq istəmir, torpağından, evindən-eşiyindən ayrılmaq istəmirlər, amma rəhbərlərin bu təxribatı nəticəsində haya-küyə düşürlər, qorxurlar, qaçırlar.

Belə hadisə Füzuli rayonunda da olmuşdur. Oranın əvvəlki icra hakimi getmiş, sonra bu proseslər vaxtı kimin tərəfindən, hansı qüvvələr tərəfindən, guya ki, hansı hərbi hissələr tərəfindənsə gətirilib ora icra hakimi qoyulmuş, o da çox çirkin işlər görmüş və bunlar da Füzuli və Cəbrayıl rayonlarında vəziyyəti həddindən artıq gərginləşdirmişdir. Dünən xəbər verdilər ki, guya Füzuli rayonu Ermənistan qoşunları tərəfindən işğal olunubdur. Ondan bir gün qabaq belə məlumat gəlirdi ki, Ermənistanın silahlı qüvvələri ora daxil olurlar.

Mən sizə açıq bildirmək istəyirəm ki, son vaxtlar daxilimizdə olan bu təxribatlar nəticəsində, orduda olan bəzi pozğunluqlar nəticəsində kəndlərimizin, şəhərlərimizin əldən getməsi ilə, yaxud bunun təhlükəsi ilə əlaqədar olaraq biz Ermənistanın rəhbərliyi ilə bilavasitə əlaqə saxlamışıq və ayın 23-nə qədər, yəni bax, bu günə qədər atəşin kəsilməsi və danışıqlar aparılması məsələsini irəli sürmüşük. Bəli, biz bu yola getmişik və mən hesab edirəm ki, düzgün eləmişik. Çünki insanlarımız qırılır, kəndlərimiz dağılır, içimizdə olan təxribatçılar öz çirkin niyyətlərini həyata keçirmək üçün xalqa, millətə, torpağa xəyanət edirlər. Biz danışıqlar aparıb müəyyən bir sazişə gəlməyi qərara almışıq. Ancaq bu dövrdə yenə də içimizdə təxribatlar baş verir.

Dünən mən Ermənistanın prezidenti Levon Ter-Petrosyanla telefonla daha iki dəfə danışmışam. Təəssüf ki, onun verdiyi və bizim sonra yoxlatdığımız məlumata görə, biz atəşin dayandırılması, sülh danışıqları aparılması haqqında saziş əldə etdiyimiz halda Ağcabədi tərəfdən bir batalyon - Lənkəranda peyda olmuş, özbaşına özünü hərbi komandan təyin etmiş Əlikram tərəfindən oraya göndərilmiş bir batalyon - heç kəsin göstərişi olmadan o tərəfə hücum edib, əldə olunmuş sazişi pozubdu

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

cum nəticəsində bir neçə nəfər həlak olub və 50-yə qədər adam əsir düşüb və heç bir müsbət nəticə əldə olunmamışdır. Əksinə, məğlubiyyət olub, nəticədə o tərəfə əsas verilib ki, bizi günahlandırsın ki, biz əldə olunan sazişi pozmuşuq - özümüz atəşin dayandırılmasını istəmişik, özümüz də atəşi davam etdiririk.

Bax, belə özbaşınalıq bizim ən böyük bəlalarımızdan biridir. Ona görə də respublikada vəziyyət həddindən artıq gərgindir və gərginləşməkdədir. Ancaq bu gərginliyin səbəbi təkcə cəbhədə olan vəziyyət deyil. Orada böyük təxribatlar gedib və bu məsələlər şübhəsiz ki, Milli Məclisdə müzakirə olunacaq, açılacaqdır. Mən xalqa söz vermişəm və bu gün də xalqın qarşısında deyirəm ki, heç bir şey xalqdan gizlədilməyəcəkdir. Çünki indiyə qədər, bu beş ilin ərzində hər bir siyasi qüvvə, hər bir hakim öz fəaliyyətsizliyini, necə deyərlər, ört-basdır etmək üçün, öz cinayətlərini ört-basdır etmək üçün xalqdan çox şeyi gizlədiblər. Mən hər şeyi açacağam. Qoy xalq hər şeyi bilsin. Əgər xalqın mənə inamı varsa - mən minlərlə teleqramlar alıram, on minlərlə teleqramlar və məktublar alıram ki, xalq mənə ümid bəsləyir - əgər doğrudan da belə inam varsa, bu gün mən bir daha sizin qarşınızda çıxış edib deyirəm - xalq hər şeyi bilməlidir və biləcəkdir. Hamısı bilinəcəkdir.

Milli Məclisin avqust ayının 16-17-də keçirilmiş iclaslarında xalq çox şeyi bildi. Biz canlı yayım vasitəsilə xalqa bilavasitə bildirdik nə var, nə yox, fikirlərimiz nədir, nə edirik. Ancaq məni bu gün bu televiziya studiyasına gəlməyə məcbur edən təkcə bu deyil və hətta tamamilə bu deyil. Son vaxtlar Azərbaycanın Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı, Cəlilabad, Biləsuvar rayonlarında baş verən qanuna zidd, konstitusiyaya zidd hərəkətlərdir və onların çox ağır nəticələridir. Bu barədə geniş danışmağın əhəmiyyəti yoxdur. Çünki avqust ayının 16-da və 17-də Milli Məclisin iclaslarında bu məsələ artıq müzakirə olundu və əhali, xalq, Azərbaycanın bütün vətəndaşları bu məsələnin nədən başlandığını, bu proseslərin nə cür şişib yoğunladığını və nə üçün bu dərəcəyə gəldiyini bildilər və bunun günahkarlarını da bildilər.

Bu məsələlərə qayıtmaq, vaxtınızı almaq istəmirəm. Ancaq biz bu məsələni ətraflı müzakirə etdik. Yadınıza salmaq istəyirəm ki, Milli Məclisin iclasında və ondan bir gün qabaq Ali Sovetdə keçirilən geniş müşavirədə Lənkəran və onun ətrafındakı rayonlardan olan nümayəndələr, Azərbaycan ziyalıları, məclis üzvləri, xalq deputatları bizə və o cümlədən şəxsən mənə irad tutdular ki, nə üçün bu nalayiq hərəkətlərə, Azərbaycanı parçalamaq, dağıtmaq cəhdlərinə indiyə qədər lazımı qiymət verilməyib, laqeyd münasibət göstərilib və bunların qarşısı vaxtında alınmayıbdır. Mən o vaxt izah etdim və indi bir daha demək istəmirəm: biz sadəcə olaraq bir tərəfdən məsələyə səbrlə yanaşdıq, təmkinlə yanaşdıq, hesab etdik ki, bu rayonlarda olan hörmətli adamlarımız, ağsaqqallarımız, ziyalılarımız bu qeyri-qanuni, çirkin hallara yol verməyəcəklər, məsələləri özləri həll edəcəklər. Bizim problemlərimiz, xüsusən Qarabağ bölgəsində, Ermənistan-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

la həmsərhəd olan yerlərdə Azərbaycanın torpaqlarını müdafiə etmək problemləri və başqa problemlərimiz onsuz da bizim üçün bəsdir. Hesab etdik ki, o problemlər yerində həll olunar. Eyni zamanda o vaxtlar baş nazir Surət Hüseynov söz verdi ki, bu məsələləri həll eləyəcək. Biz də ona ümid bəslədik və çox səbr etdik, çox təmkinlə yanaşdıq.

Ancaq bunların heç biri nəticə vermədiyindən avqust ayının 16-da və 17-də bu məsələni Milli Məclisin iclasında ətraflı, müfəssəl müzakirə etdik və müvafiq qərar qəbul etdik. Bizdə olan məlumatlara görə, bizə gələn məktublara və teleqramlara görə, ictimai rəyin öyrənilməsinə görə bu qərar xalq tərəfindən tam yüksək dərəcədə bəyənilib, müdafiə olunur, o cümlədən Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı, Cəlilabad, Biləsuvar rayonları əhalisinin demək olar ki, 99 faizi bu qərarımıza tərəfdar çıxıb, müdafiə edib və hətta bunu gecikmiş bir qərar kimi qəbul edibdir. Ancaq gecikmiş olsa da, belə bir qərarın qəbul olunması bu rayonlarda əhalidə böyük bir siyasi fəallığa səbəb olub və əhali doğrudan da görüb ki, dövlət, Azərbaycanın rəhbər dövlət orqanları belə cinayətkar, qeyri-qanuni, konstitusiyaya zidd olan hərəkətlərə yol vermək fikrində deyil və bundan sonra da yol verməyəcəklər.

Biz belə güman etdik ki, bu, qərar qəbul ediləndən sonra həyata keçirilməlidir. Sizə çatdıra bilərəm ki, o rayonlardan bizə gələn məlumatlar bunu tam aydınlığı ilə göstərir ki, bu qərar bir tərəfdən böyük ruh yüksəkliyi ilə qarşılanıb, ikinci tərəfdən o rayonların əhalisində böyük siyasi-ictimai fəallıq mövqeyi yaradıbdır. Eyni zamanda Əlikram Hümbətov və onun ətrafında olan bir qrup quldur dəstəsi bizim bu qərardan çox qorxub, çəkinib və müəyyən qədər öz fəaliyyətini dayandırıb.

Təəssüflər olsun ki, bir müddətdən sonra orada vəziyyət yenə də dəyişməyə başladı. Bu dəyişmənin də səbəbi ondan ibarət olmuşdur ki, avqust ayının 18-dən 19-na keçən gecə baş nazir Surət Hüseynov Gəncədə bir müşavirə aparmış, orada bir çox rayonların icra hakimiyyəti başçıları, nazirlər, respublikanın başqa rəhbər şəxsləri iştirak etmiş və ora Əlikram da dəvət olunmuşdur. Milli Məclisin qərarının həyata keçirilməsi Surət Hüseynova tapşırılmışdı və özü təklif vermişdi ki, bunu mənə həvalə edin, mən həyata keçirərəm. Mən güman etdim ki, Gəncədə Surət Hüseynovla Əlikram arasında görüşlərdən sonra bu qərarın həyata keçirilməsi təmin olunacaqdır və ola bilər ki, biz bu problemlə qurtaraq və bu problem artıq bizi narahat etməsin. Təəssüflər olsun ki, Gəncədə keçirilən müşavirədən sonra Əlikram Hümbətov Lənkərana qayıdıb yenidən bu çirkin fəaliyyətini davam etdirməyə başlayıbdır. Yerli televiziya ilə Milli Məclisin qərarının əleyhinə çıxış edib, onun ləğv olunmasını tələb edib və guya Gəncənin və bir neçə başqa regionların onlarla həmrəy oduğunu, onun bu hərəkətlərinə bəraət qazandırdığını bildirib və deyib ki, biz bu işimizi davam etdirəcəyik, Talış-Muğan Respublikası yaranacaqdır. Biz Məclisi saymırıq, onun qərarlarını qəbul etmirik və Milli Məclisin qərarları ləğv olunmalıdır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu, yerli əhalini hiddətə gətirir. Yerli əhali tərəfindən Milli Məclisə, Azərbaycanın rəhbərliyinə müraciətlər olmuşdur. Ona görə də srağagün gecə bu məsələni müzakirə etdik və belə fikrə gəldik ki, baş nazir Surət Hüseynova tapşırılsın, - o indi Gəncədədir, - bu işə ciddi yanaşsın və Milli Məclisin verdiyi tapşırığı yerinə yetirsin, nəhayət, Əlikramın və onun quldur dəstəsinin bu cinayətkar hərəkətlərinin qarşısını alsın. Eyni zamanda biz o bölgədən olan deputatların, vəzifəli adamların bir qrupuna göstəriş verdik ki, bu rayonlara getsinlər. Həmin rayonlarda camaat artıq ayağa qalxmışdır. Adamlar Əlikram Hümbətovun bu çirkin hərəkətlərinə dözə bilmirlər. Həmin deputatlara və vəzifəli adamlara tapşırdıq ki, oraya gedib xalqla bir yerdə olsunlar ki, iğtişaşa, toqquşmaya yol verilməsin. Eyni zamanda öz imkanlarından istifadə edib Əlikram Hümbətovu bir daha qanuna dəvət etsinlər, onun ətrafında olan adamlara bir daha başa salsınlar ki, bu qanunsuz hərəkətlərdən əl çəkmək lazımdır, xalqı parçalamasınlar.

Əlikram Hümbətovun bu qeyri-qanuni hərəkətləri təkcə həmin rayonlarda sakitliyin pozulması demək deyil. Təəssüf ki, Milli Məclisin qərarında qeyd edildiyi kimi, bir müddət bundan əvvöl keçmiş müdafiə naziri Rəhim Qazıyevin çirkin və satqın hərəkətləri nəticəsində Azərbaycan Silahlı Qüvvələrinin böyük bir hissəsi heç bir hərbi səlahiyyəti, hərbi hazırlığı olmayan Əlikram Hümbətovun ixtiyarına verilmişdir. O indi bu hərbi hissələrin hakimi olmuşdur.

Biz bəzi vəzifəli şəxslərlə, o cümlədən baş nazir Surət Hüseynovla da danışanda deyirlər ki, filan yerdə Hümbətovun briqadası vuruşur, filan yerə Hümbətovun briqadası getdi. Mən soruşuram, əcəba, bu Hümbətov kimdir, hansı sərkərdədir? Məgər bu hərbi hissələr Hümbətova babasından, yaxud ulu babasından qalmışdır? Müharibə getdiyi bir vaxtda Azərbaycanın hərbi hissələri parçalanmışdır, ayrı-ayrı quldur dəstələrinə, o cümlədən ən böyük bir hissəsi Əlikram kimi quldura, caniyə verilmişdir. indi onun nazı ilə oynamaq lazımdır? Bəziləri kimi, onun o tərəfinə-bu tərəfinə keçmək lazımdır ki, Əlikram Hümbətov istəsə hissəsinin birini Ermənistanla döyüş bölgəsinə göndərəcəkdir, istəməsə göndərməyəcəkdir? Əlikram Hümbətova bir söz deyilsə, o bu hissələri saxlayacaqdır? Bu ki, dövlətçilik olmadı. Bu, qanun olmadı.

Demək, burada ayrı-ayrı quldur dəstələri hərəkət edirlər. Mən isə dövlət adamı kimi, xalq tərəfindən, Milli Məclis tərəfindən mənə verilən səlahiyyətə görə, indi Azərbaycanın dövlət başçısı vəzifəsini yerinə yetirən adam kimi, belə şeylərə, şübhəsiz, dözə bilmərəm. Ona görə də mən prinsipial mövqeyimi Milli Məclisə də bildirmişəm, sonra ayrı-ayrı müşavirələrdə də demişəm. Baş nazir Surət Hüseynovla danışıqlarımda da dəfələrlə bildirmişəm və ondan tələb etmişəm ki, Milli Məclisin qərarını yerinə yetirsin, bu məsələlərə düzgün münasibət bəsləsin.

Ona görə də biz son nəticəyə gəlib çıxdıq ki, Milli Məclisin qərarı yerinə yetirilməlidir. Ancaq yerlərdə buna imkan ver-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mirlər. Xalq ayağa qalxmışdır, öz etirazını bildirir. Bu da təbiidir. Onlar əliyalın, silahsız, dinclik, əmin-amanlıq istəyən adamlardır. Lakin Əlikram Hümbətov dövlətə, xalqa məxsus olan silahlı dəstələri əlinə keçirmişdir, bir qrup adamı əlində oyuncağa çevirmişdir, xalqa qarşı təcavüz edir, kimi istəyir tutur, kimi istəyir atır. Onun adamları qanunsuz olaraq tutması, onlara təzyiq göstərməsi Milli Məclisin qərarında əksini tapmışdır.

Son günlər o, nə etmişdir? İki gün bundan əvvəl xəbər gəlir ki, Əlikram Hümbətov öz dəstəsi ilə İrana səfər etmək istəyir. Hansı səlahiyyətlə, nə üçün? Kim onu dəvət etmişdir? Mən dünən İran hökumətinə xəbərdarlıq etdim ki, belə bir quldurun sərhədi keçib İrana getməyə ixtiyarı yoxdur. Onlar bildirdilər ki, buna heç vaxt yol verməzlər. Ancaq Əlikram Hümbətov buna nail olmaq üçün Lənkəran rayonunun polis rəisini həbs edir ki, sərhədi keçmək üçün ona sənəd versin. Başqa adamları da həbs etmişdir.

Bütün bunlar xalqın nifrətinə, etirazına səbəb odur. Dünən Lənkəran şəhərində izdihamlı mitinq olmuşdur. Lənkəran sakinləri Əlikramın bu çirkin hərəkətlərinə etirazlarını bildirmiş və tələb etmişlər ki, onlardan əl çəksin. Astarada və Cəlilabadda da mitinqlər olmuşdur. Əhali mitinqlərdə öz sözünü demək istəyir. Bəs Əlikram nə etmişdir? Bir tərəfdən silah işlətməyə çalışmış, o biri tərəfdən dünən lənkəranlıları bir daha təhqir etmiş, onları aldatmaq üçün, guya içərisində cənazə olan tabut gətirmişdir ki, camaat dəfn mərasiminə getsin. Lakin xalq bunu duymuş, onun arxasınca getməmişdir. Adamlar mitinqi davam etdirərək çıxışlarda Əlikramı satqın, xəyanətkar adlandırmışlar. Lakin Əlikram Hümbətov yenə də öz əməllərini davam etdirir.

Məni buraya, studiyaya gəlməyə Lənkərandan alınmış həyəcanlı məlumatlar vadar etmişdir. Məlumat isə belədir: xalq tələb edir ki, Əlikram Hümbətov nəinki öz çirkin hərəkətlərindən əl çəksin, hətta dövlət orqanları tərəfindən təcrid olunsun. O isə meydana toplaşmış silahsız adamlara, ali vətəndaşlara qarşı silah işlətmişdir, atəş açmışdır. Beləliklə də camaatı qorxutmaq istəmişdir.

Ancaq o, xalqın iradəsi, xalqın gücü qarşısında dura bilməmişdir, qaçıb başqa yerlərlə öz dəstəsini düzəltmişdir və yenə də xalqa hücum etmək istəyir. Lakin xalq öz iradəsini bildirmişdir və indi Lənkəran icra hakimiyyətində xalqın nümayəndələri oturur, xalq tərəfindən irəli çəkilmiş və bizim təsdiq etdiyimiz Dilruba Camalova bu gün mənim fərmanımla Lənkəran rayon icra hakimiyyətinin başçısı təyin edilmişdir. O, iş yerində oturmuşdur, xalq onun ətrafındadır və onu müdafiə edir.

Lakin çox gərgin vəziyyət yaranmışdır. Bizə gələn məlumatlara görə, Əlikram Hümbətovun yalan vədlərinə, fırıldaqlarına, avantürasına uyan və onun dəstələrində olan adamların əksəriyyəti ondan imtina etmişdir, onun əmr verməsinə baxmayaraq, əsgərlərin və zabitlərin əksəriyyəti atəş açmaqdan boyun qaçırmış və onu tərk etmişdir. Onun Prişibdə, Lənkəranda olan hissələri onu tərk etmişlər. Mənə indi verilən məlun

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hümbətov göstəriş verib ki, Ağcabədi tərəfdə guya onun tabeliyində olan hissələr geri çəkilsinlər. Beləliklə, onlar mənə təzyiq göstərmək istəyirlər: görürsünüz, belə hallar bu işə gətirib çıxarır. Mən o adamlara dedim və bu gün xalqın qarşısında da bildirirəm: vətənimizi Əlikram Hümbətov kimi canilərin, quldurların yolu ilə müdafiə etməməliyik. Mən belə hesab edirəm ki, bölgələrdə vuruşan əsgərlərin, zabitlərin hamısı Azərbaycan xalqının mətin oğullarıdır. Onlar Azərbaycan Ordusunun əsgər və zabitləridir. Azərbaycan dövlətini müdafiə edirlər, Azərbaycan Respublikasının torpaqlarını qoruyurlar.

Ona görə də bu bəhanələri gətirib yenə də Əlikram Hümbətova bəzi şəraitlər yaratmaq istəyən adamlara bu gün xalq qarşısında cavab verirəm. Güman edirəm və tam əminəm ki, Əlikram Hümbətovun fikirlərini ola bilsin ki, ancaq onun ətrafındakı mafioz qruplar bölüşdürür. Heç kəs bu fikirlərlə həmrəy ola, onun arxasınca gedə bilməz. Heç bir ağıllı adam o cür avantürist, cani, vətəninə xəyanət edən adamın arxasınca gedə bilməz. Rəhim Qazıyev kimi adamlar və başqa havadarlar onu əllərində adət etmişlər. Mən bunu Milli Məclisdə dedim. Azərbaycanı parçalamaq istəyən xarici və daxili düşmənlərimiz Əlikram Hümbətovu alətə çevirmişlər. O, bunun icraçısıdır. Ancaq onun ətrafında olan adamların tam əksəriyyəti sağlam adamlardır, Azərbaycan vətəndaşlarıdır. Azərbaycana sədaqətlə xidmət etməlidirlər və bu, onların borcudur.

Mən birinci növbədə hərbi hissədə qulluq edən əsgərlərə müraciət edirəm: milliyyətindən, siyasi mənsubiyyətindən, dilindən asılı olmayaraq siz, Azərbaycanın vətəndaşlarısınız. Əlikram Hümbətov Azərbaycan xalqına xəyanət etmiş adamdır. Güman edirəm ki, orduda olan bütün əsgərlərimiz, zabitlərimiz, könüllülərimiz mənim sözlərimi eşidirlər və onlar, şübhəsiz ki, belə avantüradan, bu cür fırıldaqçılardan uzaq olacaqlar. Cəbhədə komandanlıq edən, Lənkəran bölgəsindən olan general Zaur Rzayev dünən də, bu gün də telefonla zəng edib şəxsən bildirmişdir ki, o özü və tabeliyindəki bütün qoşunlar, o cümlədən Lənkəran bölgəsində olan əsgərlər Əlikram Hümbətovun bu xəyanətkar hərəkətlərini pisləyirlər, etirazlarını bildirirlər və bəyan edirlər ki, onlar cəbhədə Azərbaycan torpağını, Azərbaycanı qoruyurlar və bundan sonra da mətanətlə qoruyacaqlar. Mən həm Zaur Rzayevə, həm də cəbhədəki bütün əsgərlərimizə, zabitlərimizə minnətdarlığımı bildirirəm və əminəm ki, onlar heç vaxt Əlikram Hümbətov kimi avantüristlərin hərəkətlərinə uymayacaqlar.

Bayaq dediyim kimi, onun ətrafında olan, indi Lənkəranda, Cəlilabadda, Astaradakı hərbi hissələrlə qulluq edən adamların əksəriyyəti ondan imtina etmişdir. Mən həmin zabitlərə, əsgərlərə müraciət etmək istəyirəm. Onlara bildirmək istəyirəm ki, gözlərini açsınlar, ayılsınlar, ağı qaradan seçə bilsinlər. Bilsinlər ki, onlar üçün, birinci növbədə vətən, əziz torpaq, Azərbaycanın dövlətçiliyi, milli birliyimiz lazımdır. Əlikram Hümbətov isə bütün bu məfhumların əleyhinə çıxan adamdır. Ona

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

havadarlıq edən, onu dəstəkləyən adamlar da təəssüf ki, bu yola düşmüşlər.

Ona görə də mən həmin bölgədə olan bütün əsgərlərə və zabitlərə müraciət edirəm və elə bilirəm ki, onlar bu gün mənim səsimi eşidirlər. Onlara atalıq qayğısı ilə müraciət edirəm, Azərbaycan dövlətinin başçısı kimi müraciət edirəm ki, Əlikram Hümbətovun bu avantürist, fırıldaqçı hərəkətlərindən əl çəksinlər. Biz onların hamısını doğma övladımız kimi qəbul edirik. Onların hamısını bağrıma basıram. Hamısı Azərbaycanın bayrağı altında, müstəqil Azərbaycan dövlətinin yaşaması və möhkəmlənməsi uğrunda çalışmalıdır, döyüşməlidir, öz cəsarətlərinin göstərməlidir.

Əlikram Hümbətov və onun ətrafındakı mafioz dəstələr öz çirkin niyyətlərini həyata keçirmək üçün bir məsələ ortaya atmışlar: guya "Talış Respublikası" yaratmaq istəyirlər. Bilirsiniz, bizim Azərbaycan vahid Azərbaycandır. Onun vətəndaşlarının hamısı eyni hüquqlara malikdir. İndiyədək Azərbaycanda heç vaxt talış-azərbaycanlı, türk və sair söhbəti olmamışdır. Bu, süni surətdə ortaya atılmış şeydir. Talış köklü olan adamların hamısı azərbaycanlı kimi, Azərbaycanın ləyaqətli vətəndaşları kimi yüz illərlə Azərbaycanın vahid ailəsində yaşamışlar, birləşmişlər, bir-birinə qovuşmuşlar. Onları bir-birindən ayırmaq olmaz. Bu, əti dırnaqdan ayırmağa bərabərdir. Ayrı-ayrı avantüristlərdən savayı buna heç kəs yol verməz. Ona görə də bizim, şəxsən mənim talış köklü adamların hamısına həmişə böyük hörmətim olub, o bölgənin adamlarına şəxsən mən, nəinki mən, bütün Azərbaycan rəhbərliyi böyük hörmət və rəğbətlə, qayğı ilə yanaşmışıq və bundan sonra da bu, davam edəcəkdir.

Bizim birliyimizi heç kəs poza bilməz, bizi bir-birimizdən heç kəs ayıra bilməz. Əlikram kimi şəxslər talış köklü adamlar üçün təhqirdir və kim onu özünə bir rəhbər kimi, yaxud lider kimi qəbul edirsə, o, özünü mənəvi cəhətdən, siyasi, milli cəhətdən təhqir edir. Belələri varsa, onlar da ayılmalıdırlar və məsələləri özləri araşdıraraq bütün bu çirkin işlərdən uzaqlaşmalıdırlar. Nəinki uzaqlaşmalı, həm də etiraz səslərini ucaltmalıdırlar, həmin adamları təcrid etməlidirlər, Azərbaycanın birliyinə kömək etməlidirlər.

İndi Lənkəranda gərgin vəziyyət yaranmışdır, həm də təkcə Lənkəranla yox, ətraf rayonlarda da. Sizə məlumat verdim ki, orada xalq ayağa qalxıb. Əlikram Hümbətov atəş açsa da, silah işlətsə də xalqın gücü qarşısında dayana bilməmişdir, qaçıb kənarda qüvvə toplayır. Yəni yenə xalqa təcavüz etmək istəyir.

Mən ən əvvəl Əlikram Hümbətovu və onun ətrafında olan adamları xəbərdar edirəm: əgər onlar belə cinayətkar hərəkətlərini bundan sonra da davam etdirsələr, gələcəkdə daha böyük cəzaya məhkum ediləcəklər. Əgər onlar bu hərəkətlərindən əl çəksələr, bizim bağışlamaq üçün böyük ürəyimiz var. Mən bunu bildirirəm.

Eyni zamanda Lənkəran, Astara, Lerik, Yardımlı, Masallı, Cəlilabad, Biləsuvar rayonlarının əhalisinə müraciət edirəm: ayağa qalxın, öz insanlıq mənliyinizi göstərin, vətəndaşlıq mənliyi-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

nizi göstərin, namusunuzu, şərəfinizi qoruyun, Azərbaycanın bütövlüyünü qoruyun, Azərbaycan dövlətini qoruyun. Mən həyatım boyu çox imtahanlardan çıxmış adamam. Bu gün tam qətiyyətlə deyirəm ki, xalqın gücü qarşısında heç bir silah üstün gələ bilməz. Xalqın iradəsini heç vaxt, heç bir silahla qırmaq olmaz.

Ona görə mən də xalqa müraciət edirəm, həmin rayonların əhalisinə, onların ağsaqqallarına, ziyalılarına müraciət edirəm. Demək istəyirəm ki, ayağa qalxın, belə cinayətkarlara, belə xainlərə, xalqı, dövləti parçalamaq istəyən adamlara qarşı öz qüdrətinizi göstərin, cəsarətinizi göstərin və bölgədə əmin-amanlıq yaradın.

Eyni zamanda Azərbaycan Respublikasının bütün vətəndaşlarına müraciət edirəm: bizimlə həmrəy olduqlarını bildirsinlər, respublika rəhbərliyinin bu qanuni, ədalətli hərəkətlərinə qoşulsunlar. Şübhəsiz ki, mən heç kimi bir-biri ilə davaya, toqquşmaya, vuruşmaya dəvət etmirəm. Mən həmişə sülh tərəfdarı olmuşam. Bu gün də sülh tərəfdarıyam. Hətta Ermənistanla gedən bu ağır müharibəni də indi sülhlə qurtarmaq tərəfdarıyam. Ona görə də mən sizi vuruşmağa, toqquşmağa deyil, sadəcə olaraq vətəndaşlıq mövqeyinizi bildirməyə dəvət edirəm. İnsanlıq mənəviyyatını, insanlıq şərəfini bildirməyə dəvət edirəm. Güman edirəm ki, xalqımızın əksəriyyətində bu keyfiyyətlər itməmişdir, qalır və xalq bunu göstərəcəkdir.

Fürsətdən istifadə edib bir-iki məsələyə də toxunmaq istəyirəm. Son vaxtlar Azərbaycanda cürbəcür şayiələr yayıdır. Bu barədə öz fikrimi avqustun 16-17-də Milli Məclisin iclaslarında demişəm. Şayiə yayırlar ki, guya burada təxribatlar hazırlanır, dövlət çevrilişi olacaq. Gah deyirlər ki, Əlikram, Mütəllibovla və Mütəllibovun Bakıda olan silahlı qüvvələri ilə çevriliş edəcəklər. Gah deyirlər ki, bu yaxınlarda naməlum səbəblərə görə buraya bir çox hərbi hissələr gəlib dolmuşdur, onlar hərbi çevriliş edəcəklər. Guya Xalq Cəbhəsi yenidən çevriliş edəcək və sairə. Mən xəbərdarlıq etmək istəyirəm, xalqı agah etmək istəyirəm. Bəli, Azərbaycanın bu ağır dövründə, daxili sabitliyin pozulduğu bir dövrdə öz şəxsi məqsədlərini güdən Rəhim Qazıyev kimi və ona bənzər ayrı-ayrı adamlar, şübhəsiz ki, cürbəcür çirkin hərəkətlərə əl atmaq cəhdindədirlər və bunu edə bilərlər. Ayrı-ayrı qruplar öz şəxsi məqsədlərinə nail olmaq üçün belə hərəkətlər edə bilərlər.

Ancaq mən belə hesab edirəm ki, Azərbaycan xalqı, Bakının əhalisi bütün bu hərəkətlərə qarşı öz etirazını, nifrətini bildirəcək və Azərbaycan dövlətçiliyini qoruyacaq, belə hərəkətlər baş verərsə, ona layiqli cavab verəcəkdir.

Mən bəzi adamlara demişəm. Şəxsən mənim heç bir silahım yoxdur: nə topum, nə tapancam, nə də avtomatım var. Mənim idrakım var, iradəm var və xalq mənə ümid bəsləyirsə, xalq mənə bu səlahiyyəti vermişdirsə, xalqı bu ağır vəziyyətdən çıxarmağı öz öhdəmə götürmüşəmsə, güman edirəm ki, xalq məni müdafiə edəcəkdir. Ona görə də nə çevrilişdən qorxuram, nə mənə qarşı terror aktları hazırlayan qüvvələrdən qorxuram. Heç bir şey

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Demişəm və indi də deyirəm: həyatımın bundan sonrakı hissəsini xalqa bağışlamışam. Xalq onu harada kəsərsə, orada da kəsiləcəkdir. Mən həyatımı xalqın sərəncamına vermişəm. Hər dəqiqə, hər saat, gecə-gündüz xalqa xidmət edirəm. Heç bir qüvvəyə xidmət etmirəm. Heç bir qüvvə də mənə təzyiq edə bilməz.

Həmin o "Lənkəran amilini" saxlayan adamlar açıqca deyiblər ki, bunu Heydər Əliyevə təzyiq göstərmək üçün saxlamışıq. Başqa qüvvələr açıqca deyirlər ki, bunu Heydər Əliyevə təzyiq göstərmək üçün etmişik. Nə bilim Mütəllibov haqqında şayiə yayanlar, onun orada-buradakı silahlı dəstələri, Mütəllibovu hakimiyyətə gətirmək istəyənlər Heydər Əliyevə təzyiq etmək üçün, onu devirmək üçün etmişlər. Heç kim məni devirə bilməz. Mən bunu xalqım qarşısında deyirəm. Mən xalqın iradəsini yerinə yetirirəm. Azərbaycan Respublikasının dövlətçiliyini müdafiə edirəm, onun bütövlüyünü müdafiə edirəm. Bu yolda heç kəs məni sındıra bilməz, çəkindirə bilməz, heç kəs də qorxuda bilməz.

Ancaq söhbət təkcə məndən getmir. Mən bir şəxsəm, bir insanam. Ola bilər ki, mən olmayım. İndi söhbət Azərbaycan Respublikasının dövlətçiliyindən, Azərbaycanın müqəddaratından gedir. Lakin ayrı-ayrı qruplar Azərbaycan Respublikasının müqəddaratını hərraca qoymuşlarsa, həm də bir neçə ildir ki, qoymuşlarsa və bundan sonra da qoymaq istəyirlərsə, mən buna yol verməyəcəm. Bundan ötrü imkanlarım var. Ona görə də bütün həmvətələrə müraciət edirəm, Azərbaycanın bütün vətəndaşlarına, bütün siyasi qüvvələrinə, siyasi partiyalara müraciət edirəm.

İndi Azərbaycan Respublikası üçün, Azərbaycanın dövlətçiliyi üçün birlik, milli həmrəylik, milli birlik, vətəndaş birliyi hava, su kimi lazımdır. Biz gərək torpaqlarımızı müdafiə edək, gərək işğal olunmuş torpaqlarımızı geri qaytaraq, Azərbaycanın ərazi bütövlüyünü təmin edək, Azərbaycanın müstəqilliyini qoruyub saxlayaq. Ona görə də aramızda olan, ayrı-ayrı şəxsi mənafe güdən qüvvələrə xəbərdarlıq edirəm: bütün bu işlərindən əl çəksinlər, bunların heç bir nəticəsi olmayacaq, onlar heç nəyə nail ola bilməyəcəklər. Çünki xalq artıq ayılmışdır, ayaqa qalxmışdır. Xalqın gücünün qarşısında heç bir qüvvə dayana bilməz. Mən də xalqın gücünə arxalanıram. Əgər xalq məni bu gün lazım bilməsə, sabah getməyə hazıram. Ancaq mənə gələn məlumatlara görə, xalq mənə ümid bəsləyir. Mən də bu ümidi doğrultmaq üçün həyatımın qalan hissəsini xalqa bağışlamışam və ona qurban verməyə hazıram.

Mən bu sözləri sizə çatdırmağı özümə borc bildim. Lənkəranın və onun ətrafında olan rayonların əhalisinə bir daha müraciət edirəm, onları mətin olmağa, cəsur olmağa, vətəndaş mövqelərini müdafiə etməyə və Əlikram kimi cinayətkarları təcrid etməyə çağırıram. Öz hakimiyyətlərini özləri qursunlar. Bayaq dediyim kimi, Lənkəranda icra hakimiyyətinin başçısı təyin olunmuşdur. Lənkəran camaatını onu müdafiə etməyə, işləmək üçün ona şərait yaratmağa çağırıram. Bu gün bütün başc

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

icra hakimiyyətinin başçıları təyin olunacaqdır. Onları da müdafiə etməyə, işləmək üçün şərait yaratmağa çağırıram.

Bir daha bütün xalqa müraciət edərək bu ağır günümüzdə ondan səbr, təmkin və ağıllı addımlar gözləyirəm. Azərbaycan xalqına bu ağır günlərdə səbr arzulayıram, Azərbaycan vətəndaşlarına sevgimi, məhəbbətimi bildirirəm. Bir daha demək istəyirəm ki, mənə göstərilən etimadı doğrultmağa çalışacağam. Sizinlə birlikdəyəm. Azərbaycan Respublikası yaşayacaq, müstəqil dövlət kimi inkişaf edəcək. Azərbaycanın ərazi bütövlüyü təmin olunacaq, onun daxilində milli həmrəylik, qardaşlıq təmin olunacaqdır.

Sağ olun, diqqətinizə görə minnətdaram.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

MÜSTƏQİL AZƏRBAYCANIN DÖVLƏTÇİLİYİNİ VƏ ƏRAZİ BÜTÖVLÜYÜNÜ QORUMAQ HƏR BİRİMİZİN BORCUDUR

BAKIDA ÜMUMRESPUBLİKA MÜŞAVİRƏSİNDƏ ÇIXIŞ

24 avqust 1993-cü il

Azərbaycan Respublikası, xalq, Azərbaycan vətəndaşları ağır günlər keçirirlər. Bunun səbəbləri məlumdur. Azərbaycan müharibə vəziyyətindədir. Müharibədə buraxılan səhvlər, günahlar nəticəsində biz bəzi yerlərdə məğlubiyyətə uğrayırıq, insanlar həlak olur, didərgin düşür, kəndlərimiz əldən gedir və bu, son illərdə Azərbaycanın həyatının adi bir amili olmuşdur. Bəziləri buna biganədir, bəziləri belə vəziyyətə sanki öyrəşmişlər, ancaq bütünlükdə xalq isə, şübhəsiz ki, bundan əziyyət çəkir, çox böyük çətinliklərə məruz qalır.

Bu sahədə görülən tədbirlər və aparılan işlər hələlik öz nəticəsini vermir. Bunun əsas səbəblərindən biri son illərdə Azərbaycanın müdafiə qüdrətinin yaradılmaması, ordunun lazımi səviyyədə olmaması, son bir il-ilyarım ərzində isə yox dərəcəsində olması və eyni zamanda respublikanın daxilində ayrı-ayrı qüvvələrin olmasıdır. Onların bəziləri özlərini siyasi qüvvə adlandırır, bəziləri isə adicə mafioz qruplar, qüvvələrdir. Hər biri öz şəxsi niyyətlərinə, məqsədlərinə nail olmaq üçün, şəxsi mənfəət naminə Azərbaycanın ağır şəraitini daha da ağırlaşdırır, təxribatlar aparır.

Mən indi bu məsələləri təhlil etmək fikrində deyiləm. Tam həqiqətdir ki, Azərbaycanda əvvəlki dövrlərdə olduğu kimi, indii də cəbhə bölgələrində böyük təxribat işləri aparılır. Xüsusən son vaxtlarda Azərbaycanın daxilində siyasi gərginlik artdığına görə, ayrı-ayrı qüvvələr bir-birinə qarşı durduğuna görə və bəzi şəxslər, bəzi qruplar xalq qarşısında tamamilə ifşa olunduqlarına görə təxribat əməllərini daha da genişləndirmişlər. Onlar həmin əməlləri gizlətmək üçün, çirkin niyyətlərinə nail olmaqdan ötrü xalqı, milləti, torpağı qana bulamağa, torpağı satmağa, xalqa xəyanət etməyə nəinki hazırdırlar, hətta bunu həyata keçirirlər.

Güman edirəm ki, bugünkü həyatımız, gələcək günlər, illər xalqın indiki dövrdə olan vəziyyətinə tam qiymət verəcək və hər bir şəxs tutduğu vəzifədən, yaxud siyasi mənsubiyyətində asılı olmayaraq, xalqın qarşısında cavab verəcəkdir. Birbaşa olmasa da, tarix hərənin qiymətini özünə verəcəkdir. Eyni zamanda sizə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bildirmək istəyirəm ki, Azərbaycan xalqının qüdrəti də var, imkanı da var. Azərbaycan xalqı və onun qabaqcıl, işıqlı fikirli adamları, xalqa sədaqətli övladları, xalq üçün ürəyi yanan şəxsləri birləşərək Azərbaycanı bu ağır vəziyyətdən çıxaracaqlar.

Təxribatçılar, Azərbaycanın bu ağır günündən öz şəxsi mənafeləri üçün istifadə edənlər heç də düşünməsinlər ki, öz məqsədlərinə nail olacaqlar. Xeyr, belə olmayacaq. Mən dəfələrlə qeyd etmişəm və yenə təkrar edə bilərəm ki, Azərbaycan xalqı öz tarixində çox ağır dövrlər yaşamışdır. Lakin bütün sınaqlardan çıxaraq mənliyini, xəlqiliyini, azərbaycanlılığını, müsəlmanlığını itirməmişdir və heç vaxt da itirməyəcəkdir.

Güman edirəm ki, qara günün ömrü az olacaq, xalqımız ağ günlərə çıxacaq. İnanıram ki, xalqımızda bu qüdrət, bu imkan, bu potensial var, sadəcə olaraq hamımız birləşib bunlardan istifadə etməliyik, bunları hərəkətə gətirməliyik.

Son dövrün ən əcaib hadisələrindən və Azərbaycanda gərginliyi ağırlaşdıran hallardan biri də Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı, Cəlilabad, Biləsuvar rayonlarında bir neçə aydan bəri baş vermiş proseslər və orada Əlikram Hümbətovun, onun ətrafında olan quldur, cinayətkar, xəyanətkar adamların - Azərbaycanın ayrı-ayrı dairələrindən, təkcə Azərbaycanda yox, ondan kənarda olan, ona xəyanət edən şəxslər tərəfindən dəstəklənən bu qrupların, bu dəstənin həmin bölgədə apardıqları cinayətkar işlər, qanunsuz hərəkətlərdir.

Əgər bu, sadəcə olaraq, o bölgədə cinayətkarlıqla, qanunsuzluqla bitmiş olsaydı, bəlkə də Azərbaycanın ümumi həyatına və bu gününə o qədər də mənfi təsir göstərə bilməzdi. Ancaq iş burasındadır ki, həmin bu cinayətkar dəstələr, qruplar - Əlikram Hümbətov və onu dəstəkləyən adamlar orada Azərbaycanın ordu hissəsinin bir qismini əlində saxlayaraq onların cəbhəyə göndərilməsinin qarşısını alırlar. Ordumuzun hərbi texnikasının, silahlarının böyük bir qismi onların əlindədir. Həmin hərbi hissələrdən ayrı-ayrı bölmələr, dəstələr döyüş bölgələrində vuruşurlarsa, onları Əlikram Hümbətovun dəstəsi, onun batalyonu adlandırırlar. Belə çıxır ki, həmin qüvvələr onun göstərişi ilə geri çəkilməli, irəli getməli, cəbhə bölgəsini tərk etməlidirlər.

Belə hallar adətə çevrilmişdir və bəzi adamlar, xüsusən indi respublikanın rəhbərliyində olan adamlar da hesab edirlər ki, belə də olar. Çünki təəssüf ki, son illərdə Azərbaycanın müdafiəsi ordunun əlində olmamışdır, ayrı-ayrı silahlı dəstələrin, qrupların, ayrı-ayrı mafioz qruplara mənsub olan silahlı dəstələrin əlində olmuşdur. Biri bunlara könüllü dəstəsi deyir, biri Xalq Cəbhəsinin batalyonu deyir, biri, nə bilim, kiminsə şəxsi dəstəsi deyir. Bu cür dəstələr Vətəni, torpağı müdafiə etmək əvəzinə öz şəxsi mənafelərini güdmüşlər. Onlar Azərbaycanı nə günə salmışlar, nə dəhşətli vəziyyətə salmışlar - indi hamıya aydındır, hamının gözü qarşısındadır.

Ona görə də Lənkəranda və onun ətrafındakı rayonlarda gedən proseslər Azərbaycan ictimaiyyətini, respublikanın dövlət orqanlarını - həm Ali Soveti, həm də bütün başqa dövlət orqanlarını

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

narahat etməyə bilməzdi. Ancaq bu məsələnin bəzi adamların təklifi ilə guya sülh, danışıq yolu ilə həll olunması fikrini qəbul edərək çox vaxt itirdik. Bu müddətdə bəzi adamlar bizə vəd edirdilər ki, məsələ sülh yolu ilə, danışıqlar vasitəsilə həll olunacaqdır. Həmin dövrdə isə bu adamlara imkan yaranırdı, bəlkə də bu adamların özləri də imkan yaratdılar ki, Əlikram və onun ətrafındakı cinayətkar adamlar daha da quduzlaşsınlar, cinayətkar hərəkətlərini yerinə yetirə bilsinlər və eyni zamanda siyasi pərdə altında - "Talış - Muğan Respublikası" yaratmaq, beləliklə Azərbaycanı parçalamaq, talış köklü Azərbaycan vətəndaşlarını respublikanın başqa hissəsinə qarşı qoymaq kimi hallara əl atdılar. Bu məsələlərin hamısı sizə məlumdur.

Nəhayət, avqustun 16-17-də bu salonda Milli Məclisin iclasında həmin məsələlər geniş müzakirə olunaraq qərar qəbul edilmişdir. Ona görə də bu proseslərin mənbəyi, başlanğıcı və necə deyərlər, aparıcı qüvvələri, onları dəstəkləyənlər, ilham verənlər, bu xəyanətkar, cinayətkar yola sövq edən adamlar artıq məlumdurlar. Bir neçəsinin adı çəkilib, bəzilərinin adları ola bilər, sonra çəkiləcəkdir. Onların adları məlumdur, ona görə də sizin vaxtınızı almaq istəmirəm. Ancaq onu bildirmək istəyirəm ki, avqustun 17-də Milli Məclis iki günlük müzakirədən sonra Lənkəranda və onun ətrafındakı rayonlarda baş verən hadisələrə, Əlikram Hümbətovun özünün və onun silahlı dəstələrinin cinayətkarlıqlarına, ümumiyyətlə, orada gedən proseslərə öz münasibətini bildirərək bu barədə qəti qərar qəbul etdi. Qərar artıq məlumdur. Baş nazir Surət Hüseynova tapşırıldı ki, bu qərarın üç gün müddətində həyata keçirilməsi təmin olunsun.

Təəssüf ki, bu qərarın yerinə yetirilməsi təmin olunmadı. Qərar qəbul edildikdən sonra Lənkəranda və onun ətrafındakı rayonlarda əhali, xalq Azərbaycanın dövlət orqanlarının bu hadisələrə, proseslərə münasibətini tam bildikdən sonra ayağa qalxdı, öz hüquqlarını müdafiə etməyə çalışdı, cinayətkar, qanunsuz hərəkətlərə qarşı etirazını bildirməyə başladı. Beləliklə də, bu qərarımızın ilk təsiri çox müsbət oldu. Əlikram Hümbətov və onun ətrafında olan adamlar müəyyən qədər anladılar ki, dövlətlə, xalqla mübarizə aparmaları, yaxud da dövlətə qarşı təcavüz etmələri artıq mümkün deyildir. Onlar özlərinin fəaliyyət çərçivəsini yavaş-yavaş dağıtdılar və güman etmək olardı ki, əgər bizim qərarımız qətiyyətlə yerinə yetirilsəydi və lazımi şəxslər, tapşırılmış şəxslər bununla məşğul olsaydılar, bəlkə də qərar tezliklə həyata keçirilər, cinayətkarlıq, qanunsuzluq hallarına son qoyar və bu bölgədə sabitliyi təmin edə bilərdik.

Lakin təəssüf ki, belə olmadı. Avqustun 19-da Gəncədə baş nazir Surət Hüseynov bir müşavirə keçirdi. Əlikram Hümbətov da oraya dəvət olundu, təmtəraqla qəbul edildi. Bundan conpa isə Əlikram Hümbətov Lənkərana qayıdaraq orada televiziya ilə böyük təbliğat apardı - həm özü, həm də ətrafında olan adamlar çıxış etdilər. Gəncədə onların dəstəkləndiklərini, onlarla həmrəy olduqlarını bildirdilər. Beləliklə də, onlarda

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

başlandı. Xalqa qarşı təcavüzü nəinki davam etdirməyə, hətta gücləndirməyə başladılar.

Biz yenə də bu məsələlərə təmkinli, səbrli yanaşdıq. Çalışdıq adamları başa salaq ki, belə qanunsuz hərəkətlərin, xalqa, konstitusiyaya zidd hərəkətlərin axırı yoxdur. Ancaq buna nail ola bilmədik. Fəqət, Lənkəran şəhəri və rayonunun, Astara, Masallı, Cəlilabad, Yardımlı, Biləsuvar, Lerik rayonlarının əhalisi ayağa qalxdı, öz hüquqlarını müdafiə etməyə çalışdı. Adamlar Əlikram Hümbətovun bu çirkin əməllərinə qarşı etirazlarını açıq, cəsarətlə bildirdilər və bu, orada mitinqlər keçirilməsi ilə başlandı. Srağagün Lənkəran şəhərində böyük mitinq oldu. Bu barədə mən dünən xalqa müraciətimdə məlumat vermişəm, vaxtınızı alıb təkrar etmək istəmirəm. Həmin mitinqdə minlərlə lənkəranlı Əlikram Hümbətovu xəyanətkar, cinayətkar, satqın adam kimi qiymətləndirdi. Onu aradan təcrid etməyə çalışdılar. O, silah işlətmək istədi, lakin bunu edə bilmədi. Beləliklə də, xalq müəyyən qədər öz təzyiqini göstərərək, Əlikram Hümbətova sübut etdi ki, onun əlində nə qədər çox silah olsa da, ətrafında cinayətkar, quldur dəstə olsa da, xalqın qarşısında dura bilməz. Həm Əlikram, həm də onu dəstəkləyən adamlar yəqin ki, bunu hiss etdilər. Ancaq Əlikram və onun dəstələri xalqa təcavüz etmək, ona qarşı silah işlətmək yoluna düşdülər.

Biz əhalinin bu hərəkətini şübhəsiz ki, bəyəndik və bildirdik ki, siz düzgün hərəkət etmisiniz. Bizim başqa yolumuz yoxdur. Bu proseslər bir neçə aydır ki, davam edir. Təəssüf ki, əvvəllər, yəni İyun ayına qədər Azərbaycana rəhbərlik etmiş şəxslər -Azərbaycan prezidenti Əbülfəz Elçibəy, respublika parlamenti, Milli Məclis və onun rəhbərləri, Nazirlər Kabineti Əlikram Hümbətovun, onu dəstəkləyən Rəhim Qazıyevin və başqalarının hərəkətlərinə qiymət verməmişdilər, bu məsələdə barışdırıcı, yaxud da passiv mövqe tutmuşdular.

Sonrakı dövrdə isə, - mən bunu açıq demək istəyirəm, - xüsusən iyun ayının sonundan başlayan dövrdə baş nazir Surət Hüseynov bu məsələni öz üzərinə götürmüşdür və Əlikram Hümbətovla yaxın əlaqələri olduğuna görə bu məsələnin sülh yolu ilə həll olunmasını boyunna almışdır. Biz ona inanaraq belə hesab etmişdik ki, onsuz da daxilimizdə ağır proseslər çoxdur, sərhəd bölgələrində müharibə gedir, qan tökülür. Ona görə də burada güc işlətmək, silah tətbiq etmək, qan tökmək lazım deyil. Baş nazir bu məsələni həll etməyə söz vermişdir və qoy həll etsin. Lakin bilirsiniz ki, baş nazirin avqustun 3-də Lənkərana getməsi də bir nəticə vermədi. Sizə bildirdiyim kimi, avqustun 12-də Əlikram Hümbətovla, baş nazir Surət Hüseynovla birlikdə bizim apardığımız danışıqların da nəticəsi olmadı. Avqustun 13-də geniş müşavirə keçirdik. Ondən da bir nəticə hasil olmadı. Nəhayət, avqustun 16-da bu məsələni Milli Məclisin müzakirəsinə çıxardıq.

Sizə bildirmək istəyirəm ki, əgər iyun ayına qədər Azərbaycanın dövlət başçıları bu məsələyə nədənsə, - səbəbini özləri izah edərlər, - toxunmayıblarsa, biganə qalıblarsa və o bölgədə xalqın, əhalinin hüquqlarının pozulmasına lazımi qiymət ver-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

məyiblərsə, əgər biz də iyun ayının axırlarından son vaxtlara qədər bu işlərdə müəyyən dərəcədə barışdırıcı mövqedə olmuşuqsa, - baş nazir Surət Hüseynovun verdiyi vədlərə görə, - beləliklə biz, ümumiyyətlə, vaxt itirmişik, bu dövrdə isə Əlikram Hümbətov və onun tərəfdarları bu vaxtdan, bu fürsətdən istifadə edib, həm öz cinayətkar hərəkətlərinin dairəsini genişləndiriblər, həm də bu məsələni cinayətkarlıq, quldurluq, mafiozluq istiqamətindən və məzmunundan artıq müəyyən qədər millətlərarası münaqişə həddinə, yaxud da ki, qondarma "Talış-Muğan Respublikası" yaratmaq həddinə gətirib çıxarıblar.

Həm Milli Məclisdə, həm də avqust ayının 13-də keçirdiyimiz müşavirədə bəzi iradlar tutublar ki, Azərbaycan Respublikası rəhbərlərinin dövlət orqanlarının mövqeyi məlum olmadığına görə, xalq da çaş-baş qalmışdır. Bəli, bu iradlar haqlıdır, ola bilər bu, bizim də müəyyən qədər günahımızdır. Biz günahımızı boynmuza almağa hazırıq. Ancaq mən sizə proseslərin gedişini, mərhələlərini izah edərkən, yəqin ki, siz və bizi eşidənlərin hamısı bu günahlarımızın o qədər də böyük olmadığını dərk edərlər.

Qeyd etdiyim kimi, biz Milli Məclisdə bu məsələni iki gün ciddi müzakirə etdik, ciddi qərar qəbul etdik. Lakin sonra fikir belə oldu ki, bu qərarın elan olunması hələ dayandırılsın, çünki Əlikram Hümbətovla əlavə danışıqlar aparılacaqdır. Bu danışıqlar Gəncədə aparıldı, ancaq nəinki müsbət nəticə vermədi, hətta daha mənfi hallara gətirib çıxardı və belə bir halda, srağagün Lənkəranda xalq ayağa qalxdığı dövrdə Əlikram Hümbətov yenə silahdan, gücdən istifadə etməyə çalışdı. Xalq isə öz iradəsini göstərdi və srağagün Lənkəranda və onun ətrafında olan rayonlarda Əlikram Hümbətova bildirdi ki, xalq, əhali bu qanunsuz hərəkətlərə, cinayətkar hallara daha yol verməyəcəkdir.

Dünən səhərdən vəziyyət daha da gərginləşdi. Dünən səhər bizə məlumat gəldi ki, Lənkəranın əhalisi toplaşıb Əlikram Hümbətova öz etirazını bildirir, ondan tələb edir ki, bütün bu əməllərindən əl çəksin, silahları yerə qoysun. Əhali, yəni oraya toplaşan minlərlə adam bizim icra hakimi təyin etdiyimiz Dilruba Camalovanı icra hakimiyyətinin binasına gətirmişdir. Əlikram Hümbətov isə xalqın təzyiqinə dözə bilməyib qaçmış, ancaq yenə də öz cinayətkar, quduz hərəkətlərini davam etdirmişdir.

O, meydanda dinc əhaliyə, əliyalın silahsız adamlara atəş açmış, onları qorxutmağa çalışmış, əhali isə bundan qorxmamış və çəkinməmişdir.

Dünən vəziyyət böhran halına gəlib çatdı. Ona görə də biz milli təhlükəsizlik naziri Nəriman İmranovu, daxili işlər naziri Vaqif Novruzovu, daxili işlər və milli təhlükəsizlik orqanlarının bir qrup işçisini vertolyotlarla Lənkərana göndərdik.

Orada vəziyyət çox gərgin olduğuna görə mən dünən Azərbaycan televiziyası ilə xalqa müraciət etməyə məcbur oldum. Bu müraciət də sizə məlumdur. Dünən bizə gələn məlumatlardan, telefon zəng

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lərindən, teleqramlardan və ümumi ictimai rəydən məlum olur ki, bu müraciəti xalq çoxdan gözləyirmiş. Müraciət ümumən bəyənilir, xalq tərəfindən rəğbətlə qarşılanıb, xalqda canlanma və böyük ümid yaradıbdır ki, Azərbaycanda daha hakimiyyətsizlik yoxdur, dövlət orqanları fəaliyyətdədir və respublikanın bu ağır dövründə Azərbaycan dövlətçiliyini qoruyub saxlamağa iqtidarı var və bundan sonra da olacaqdır. Mən dünəndən indiyə qədər bu müraciətimizə müsbət əks-səda verən bütün şəxslərə, kollektivlərə, bütün əhaliyə minnətdarlığımızı bildirirəm. Onların bizimlə həmrəy olması gücümüzü artırır, bizə daha da ürək-dirək verir, iradəmizi daha da möhkəmləndirir. Hamını əmin etmək istəyirəm ki, biz bu yoldan çəkinməyəcəyik, Azərbaycanın dövlətçiliyini, müstəqilliyini qoruyacağıq və respublikanın parçalanmasına yol verməyəcəyik.

Dünən Lənkəranda gedən proseslər faciə ilə qurtarmışdır. Əhali, xalq Əlikram Hümbətovun və onun cinayətkar dəstəsinin əleyhinə qalxdığı vaxtda Əlikram Hümbətov qaçıb gizləndi. Onu axtardılar. Bir məlumat gəldi ki, o, meşələrə qaçıb; bir məlumat gəldi ki, başqa yerlərə qaçıb. Sonra isə ora gedən nümayəndələrimiz məlumat verdilər ki, orada keçmiş Sovet Ordusu diviziyasının qərargahı Əlikram Hümbətovun əlindədir. Bu, xəyanətkar Azərbaycan rəhbərlərinin, keçmiş müdafiə naziri Rəhim Qazıyevin fəaliyyəti nəticəsində olub. Əlikram orada gizlənib. O qərargah böyük hasarla əhatəyə alınmışdır. Silahlı adamlar heç kimi yaxına buraxmırlar, orada gizlənirlər. Əhali qərargahı mühasirəyə almışdır. Dünən bütün gecə səhərə qədər qərargah mühasirədə olmuşdur.

Bir məsələni də sizə çatdırmaq, müdafiə nazirinin müavini Vahid Musayev haqqında məlumat vermək istəyirəm. Sizə danışdım ki, Rəhim Qazıyev mənim burada işlədiyim ilk günlərdə onun müdafiə naziri təyin olunmasını təkidlə təklif etmişdir. Sizə bildirdim ki, sonra Əlikram Hümbətov mənimlə görüşlərinin ikisində də məhz onun müdafiə naziri təyin olunması barədə öz fikrini söyləmişdir. Əlikram Hümbətovla görüşdüyümüz günün sabahısı baş nazir Surət Hüseynov heç bir səlahiyyəti olmadan, özbaşına gedib Müdafiə Nazirliyində Vahid Musayevi nazir kimi təqdim etmişdir. Biz bunu təkzib etməyə məcbur olduq. Sonra isə Surət Hüseynov mənə belə izahat verdi ki, guya Vahid Musayev Əlikramla çox yaxın adamdır və onun müdafiə naziri kimi təqdim olunmasının əsas səbəbi budur ki, o, Əlikram Hümbətovu tərksilah edəcək və həmin silahlı dəstələri Azərbaycanın Müdafiə Nazirliyinə tabe edəcəkdir.

Şübhəsiz ki, mən belə səbatsız hərəkətlərlə razılaşa bilməzdim. Mən buna yol vermədim. Ancaq sonra Vahid Musayev bir neçə şəxsə müraciət etmişdir ki, Heydər Əliyev məni qəbul etsin. Mən onu qəbul edəndə söhbətimiz zamanı həm Rəhim Qazıyevin, həm də Surət Hüseynovun haqqında mənfi sözlər danışdı və bildirdi ki, guya çox saf niyyətli bir adamdır. Ancaq mən dedim ki, bunlar məni maraqlandırmır. Mən sizi bundan ötrü qəbul etməmişəm. Xahiş etmisiniz ki, sizi qəbul edim, deyin görü

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mənə bildirirlər ki, siz Əlikram Hümbətovla yaxın adamsınız. Siz müdafiə nazirinin müavinisiniz. Görürsünüz ki, neçə aydır bu hərbi hissə Müdafiə Nazirliyinə tabe olmur və cinayətkar işlər görür. Əgər siz həqiqətən onunla yaxın adamsınızsa, gedin ora, bu işləri qurtarın. Bilirsinizmi, iğtişaşı, bu münaqişəni dərinləşdirmək bizə lazım deyil. Biz bunların üstündən keçib getməliyik ki, ümumi işimizi təmin edək. Gedin, bu məsələni həll edin.

O mənə dedi ki, anladım, gedib məsələni həll edəcəyəm. Mən isə bundan sonra heç nə demədim. Dünən Vahid Musayev Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən ora göndərilibmiş. Təəssüf ki, o gedib ora gec çatıbdır. Çünki bizim iki nazirimiz - daxili işlər naziri və milli təhlükəsizlik naziri vertolyotlarla gedib ora çatanda bir neçə saat onu arayıb tapa bilməmişlər. Sonra məlum olmuşdur ki, o, Əlikram Hümbətovun yuvasına, gizləndiyi yerə girib, orada olmuşdur. Axşam mənə məlumat verdilər ki, orada Əlikram Hümbətovla danışıqlar aparıb, guya onu yola gətirməyə çalışıb. Ancaq bunların heç birisi nəticə vermədi.

Beləliklə, gecə səhərə qədər bu proseslər davam edib. Əhali dünən bütün günü, axşam, gecə ayaq üstə meydanlarda, o hərbi hissənin ətrafında olub. Bunların hamısı da istənilən nəticəni verməyib. Ancaq bir faciəli nəticə: bu da ondan ibarətdir ki, Əlikram Hümbətovun dəstələri onun göstərişi ilə əliyalın Lənkəran vətəndaşlarına atəş açmışlar. Üç adam həlak olmuş, beş adam yaralanmışdır. Şübhəsiz ki, cani, cinayətkar, xain adamdan başqa şey gözləmək mümkün deyildi. Ancaq bu, təkcə Əlikram Hümbətovun işi deyil. Onu dəstəkləyən Rəhim Qazıyevin, Əlikram Hümbətovla əlaqə saxlayıb onun yanına emissarlar göndərən Ayaz Mütəllibovun, Ayaz Mütəllibovu Azərbaycana hakimiyyətə gətirmək istəyən Əlikram Hümbətovun və onunla əlaqədar olan başqa adamların fəaliyyətinin cinayətkar nəticəsidir. Bu, dəhşətli bir şeydir.

Azərbaycan xalqı beş ildir müharibə içərisindədir, şəhidlər verir. 1990-cı il yanvarın 20-də xalqımıza qarşı hərbi təcavüz olub. Azərbaycan ilk şəhidlərini onda verib. İndi Şəhidlər xiyabanı Azərbaycanın həm faciə meydanına, həm də müqəddəs bir meydana dönüb. Ondan sonra Azərbaycanın ərazisinə Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində hər gün, hər ay, hər il şəhidlər verilir. Bəli, hər bir adamın tələf olması bizim üçün böyük ürək ağrısıdır, matəmdir. Bu, bizim üçün faciədir, ancaq bir tərəfdən yanvarın 20-də xalqımıza qarşı kommunist partiyasının rəhbərliyi tərəfindən hərbi təcavüz olmuşdur, ikinci tərəfdən Ermənistanın silahlı qüvvələri Azərbaycana hərbi təcavüz edirlər. Xalqımız yanvarın 20-də öz milli qüdrətini, milli şərəfini, namusunu qoruyaraq şəhidlər verdi. Cəbhələrlə Azərbaycan xalqı az torpaqlarını, öz ərazisini, öz müstəqilliyini qoruyaraq şəhidlər verir. İndi isə Lənkəranla bu xəyanətkar adamların - onların adlarını çəkdim və bir çoxlarının da adları çəkiləcək, - bunların fəaliyyəti nəticəsində böyük bir

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

cinayət, faciə baş vermişdir. Bizim öz azərbaycanlılarımız sülh şəraitində yaşayan, müharibə bölgəsində olmayan azərbaycanlılarımıza atəş açıblar. Bunu öz cinayətkar niyyətlərini həyata keçirmək üçün ediblər. Üç nəfər həlak olub.

Bu, dəhşətli bir haldır. Əlikram Hümbətovun, Rəhim Qazıyevin, Ayaz Mütəllibovun və onları dəstəkləyən adamların əli Azərbaycan xalqının oğullarının həlak olması ilə əlaqədar qana batıb. Bu gün mən onları Azərbaycan xalqı qarşısında xəyanətkar elan edirəm. Şübhəsiz ki, bunlara ədalət məhkəməsi öz qiymətini verəcəkdir. Ancaq mən bir vətəndaş kimi, bir insan kimi, ürəyi qan içində olan bir insan kimi və Azərbaycan dövlətinin başçısı vəzifəsini ifa edən adam kimi buna öz mənəvi-siyasi qiymətimi verirəm. Mən hesab edirəm ki, həlak olanlar Azərbaycan Respublikasının dövlətçiliyini müdafiə etmək, onun suverenliyini qorumaq, Azərbaycan Respublikasının müstəqilliyini, bütövlüyünü müdafiə etmək yolunda cinayətkar adamlar tərəfindən, Azərbaycana təcavüz edən adamlar tərəfindən həlak edilmişlər. Onlar millət yolunda, Azərbaycan xalqının gələcək səadəti yolunda həlak olmuşlar.

Həlak olanlar - Bayramov Sultan Nemət oğlu, 1936-cı ildə anadan olmuş, Lənkəran şəhərinin sakinidir, ailəsi var, uşaqları var, hərbi qospitalda rentgen texniki işləmişdir; Əliyev Etibar Böyükağa oğlu, 1953-cü ildə anadan olmuş, dülgərdir, Lənkəran şəhərinin sakinidir, üç ovladı var; Təhməzov Paşa Qurban oğlu, 1946-cı ildə anadan olmuş, əhaliyə məişət xidməti idarəsinin işçisidir, Lənkəran şəhərinin sakinidir, ailəsi var, uşaqları var.

Mən rica edirəm, Azərbaycanın bütövlüyü yolunda, müstəqilliyi yolunda həlak olanların xatirəsini yad etmək üçün bir dəqiqə ayağa qalxıb sükut edək. Allah onlara rəhmət eləsin, qəbirləri nurla dolsun.

Bu gün Lənkəran şəhərində Azərbaycanın bütövlüyü yolunda, müstəqilliyi yolunda həlak olanların dəfn mərasimi keçiriləcəkdir. Biz oraya nümayəndə heyəti göndərmişik və nümayəndələrimiz Azərbaycan Respublikasının dövləti adından dəfn mərasimində iştirak edəcəklər. Dünən bu barədə məsləhətləşib belə bir qərara gəlmişik ki, həlak olmuş adamların şücaətini, qəhrəmanlığını yüksək səviyyədə qeyd edək. Mən elan edirəm ki, Azərbaycanın prezidenti səlahiyyətlərini ifa edən şəxs kimi fərmanımla Bayramov Sultan Nemət oğlu, Əliyev Etibar Böyükağa oğlu və Təhməzov Paşa Qurban oğlu Milli Qəhrəman elan olunurlar. Şübhəsiz ki, Azərbaycan dövləti həlak olanların ailələrinə hər cür qayğı və hörmət göstərəcəkdir və güman edirəm ki, Azərbaycan xalqı bu sadə azərbaycanlıların böyük şücaətini heç vaxt unutmayacaqdır. Onların xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır.

Orada beş nəfər yaralanıbdır. Onlar müalicə olunurlar. Şübhəsiz ki, indi onların müalicəsi üçün lazımi tədbirlər görülür. Yaralıların özlərinə və ailələrinə qayğı göstəriləcək və lazımi tədbirlər görüləcəkdir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Siz, bütün Azərbaycan əhalisi əmin ola bilər ki, biz Vətən yolunda, xalq yolunda, Azərbaycanın suverenliyi, bütövlüyü yolunda həlak olan, canını qurban verən, şəhid olan adamların hər birinin şücaətini, qəhrəmanlığını heç vaxt unutmayacağıq. Onlar həmişə, daim xalqın yaddaşında yaşayacaqlar.

Lakin bu faciəyə baxmayaraq, orada səhərə qədər fəaliyyət göstərən inzibati orqanlarımız təəssüf ki, lazımi nəticəyə gələ bilməmişlər. Bizə verilən məlumatlardan belə aydın olur ki, Vahid Musayev guya Əlikramın o quldur yuvasında olaraq, sonra bizim nazirlərlə əlaqə saxlayaraq onun oradan çıxmasını, yəni qan tökülmədən, əlavə hərbi əməliyyat aparılmadan çıxmasını təmin etməyə söz vermiş, əhali qərargahı əhatəyə alıb səhərə qədər mühasirədə saxlamışdır. Guya belə məlum olmuşdur ki, Əlikram Hümbətov gəlib təslim olacaqdır. Lakin bizə verilən məlumatlara görə o, hamını aldadıb. Səhərə yaxın oradan üç maşın çıxıbdır. Guya bu maşınlar nəzarət altında imiş. Onların birində Əlikram və onun bir-iki nəfər adamı çıxıb qaçıbdır və aldığımız məlumatlara görə, Lənkəranın meşələrində gizlənir. İndi orada axtarışlar gedir.

Əlikram Hümbətov guya ona daim tabe olan silahlı qüvvələri, -məsələn, Prişibdə onun bir polku var, onu deyə bilmərəm, ancaq bəzi adamlar bunu bizim beynimizə yeridiblər, - həmin o silahlı qüvvələrin hamısı ondan imtina edibdir. Onun qərargahında, o quldur yuvasında olan əsgərlərin çoxu silahlarını təhvil verib çıxıb, ətrafında olan başqa adamların çoxu ondan imtina edib, uzaqlaşıbdır. Ancaq bir qrup, sayca az da olsa, silahlı adamlar, onunla bilavasitə cinayət etmiş adamlar Əlikramla bərabər qaçıblar (düzdür, onun şəxsi qoruyucuları da, başqaları da tutulubdur). Onlar qaçıblar, indi axtarışlar gedir və güman edirəm ki, oradakı inzibati orqanlarımız və buradan gedən qüvvələr onu axtarıb tapacaqlar və o, ədalət məhkəməsi qarşısında cavab verəcəkdir. Nəinki o, həm də ona havadarlıq edənlər, ona istiqamət verənlər - ya Ayaz Mütəllibov olsun, Rəhim Qazıyev olsun, yaxud da ki, başqaları olsun - onun başını sığallayan adamların hamısı cavab verəcəkdir. Buna heç kəsin şübhəsi olmasın.

Dünən bizi qorxudurdular ki, guya Ağcabədi zonasında həmin o hissədən olan batalyonlar var, onlar guya Əlikram Hümbətovun göstərişi ilə döyüş bölgələrini tərk edib çıxırlar. Ancaq bu yalandır. Orada olan döyüşçülər, əsgərlər, Azərbaycanın övladları öz yerlərindədirlər, fəaliyyət göstərirlər və onların da hamısı Əlikram Hümbətovdan imtina edibdir.

Bunların hamısı onu göstərir ki, Əlikram Hümbətov heç bir kəsdir. Biz bunu dəfələrlə demişik ki, o, ayrı-ayrı qrupların əlində bir alətdi, bir silahdır. Dünən televiziya ilə müraciətimdə bildirdim ni, o hətta İrana keçmək niyyətində olmuşdur. Mən İran hökumətinə, İranın səfirliyinə xəbərdarlıq elədim. Onlar dedilər ki, siz narahat olmayın, İranda onu heç kəs qəbul edə bilməz. Ancaq belə şayiələr yaranır ki, guya bir tərəfdən onu Moskva dəstəkləyir, nə bilim, kiminsə, haranınsa, agentidir, bir tərəfdən İran dəstəkləyir. Bunların hamısı yalandır. Mən demi-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

şəm - nə Rusiya dövləti, nə İran dövləti belə bir quldur adamla təmasda ola bilməzlər.

Ancaq Rəhim Qazıyev kimi, Ayaz Mütəllibov kimi adamlara və onlarla birgə olanlara lazım idi ki, belə bir mif, belə bir əhval-ruhiyyə, camaatda vahimə yaratsınlar, əhalini qorxutsunlar və beləliklə, bizə təzyiq etsinlər. Mən dünən televiziya ilə müraciətimdə dedim. Bir də deyirəm ki, bunların hamısı indi Azərbaycanda vəziyyəti düzəltmək üçün, daxili sabitlik yaratmaq üçün, cəbhələrdə vəziyyəti düzəltmək üçün apardığımız tədbirlərə mane olmaq və şəxsən mənə, Heydər Əliyevə təzyiq göstərmək məqsədi güdür.

Mən dəfələrlə demişəm, bu gün bir daha bəyan edirəm ki, heç bir kəs mənə təzyiq edə bilməz. Mən öz iradəmdən, - bu isə xalqın iradəsidir, bir namuslu vətəndaş kimi mənim şəxsi iradəmdir, istifadə edərək Azərbaycanın bu vəziyyətdən çıxması üçün son damla qanıma qədər çalışacağam və heç kəs də məni qorxuda bilməz.

Görürsünüz, iki aydır bizim başımızı aldadırlar ki, Əlikram Hümbətov belə olsa, elə olsa, nə bilim, dünya dağılacaqdır. Heç bir şey olmadı. Düzdür, üç adam canını qurban verdi, şəhid oldu. Ancaq lazımdır ki, o qan Vətəni qoruyarkən tökülsün. Düzdür, bu Azərbaycan övladları Vətəni ermənilərdən, başqa düşmənlərdən qorumaq üçün yox, daxili düşmənlərimizdən qorumaq üçün, Azərbaycanın dövlətçiliyini saxlamaq üçün həlak olublar, şəhid olublar. Bu, Vətənin Vətən olmasını bir daha sübut edir.

Bir daha qeyd edirəm ki, biz qəbul etdiyimiz qərarı həyata keçirəcəyik. İradəmiz möhkəmdir və Azərbaycanda sabitliyi təmin edəcəyik, Azərbaycanı bu ağır vəziyyətdən çıxaracağıq. Kim ki, bu yolda bizə mane olacaq, o bizim düşmənimizdir, xalqımızın düşmənidir. Güman edirəm ki, bu gün bu proseslər başa çatacaqdır. Bir daha qeyd edirəm ki, Əlikram Hümbətov kimi quldurun ətrafında yaranmış mif artıq dağıldı, xalq ona öz münasibətini göstərdi. Lənkəran rayonunun İcra hakimi Dilruba Camalova fəaliyyətdədir. Qadın bir çox kişilərdən, minlərlə kişidən qeyrətli çıxdı. Başqa rayonlara - Astara rayonuna da, Cəlilabad rayonuna da, Biləsuvar rayonuna da icra hakimləri artıq təyin olunubdur. Digər rayonlara da təyin ediləcək. Bu rayonlarda Azərbaycanın qanuni hakimiyyəti dünən, bu gün bərpa olunub və bərpa olunacaqdır. Azərbaycan dövlətini, dövlətçiliyini bütün bölgələrdə təmin etməyə heç kəs mane ola bilməz.

Düzdür, biz heç də belə fikirdə deyilik ki, bunlar asan yolla gedəcək. Müqavimətlər də olacaq. Son vaxtlar yaranmış cürbəcür quldur dəstələri Azərbaycanın bəzi regionlarında cinayətkar işlər görürlər. Məsələn, Yevlaxda bir banda yaranıb, iki dəfə gedib Balakən rayonuna, orada insanlara təcavüz edib və süni olaraq azərbaycanlılarla avarlar arasında qarışıqlıqlar yaradıbdır. O dəstə kimin tərəfindən idarə olunur - adamlar bunu da bilirlər. Ancaq orada nə avar, nə də azərbaycanlı bir-birinə qarşı durmayacaqdır. Və heç bir yerdə durmayacaqdır. Azərbaycanda millətlər arasında, etnik qruplar arasında heç kəs münaqişə, yaxud

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qarşıdurma yarada bilməz. Kimin daxilində belə niyyəti varsa, mən xəbərdarlıq edirəm, çəkilsinlər kənara. Heç kəs münaqişə yarada bilməz. Azərbaycan bütövdür. Azərbaycan xalqı birdir və bu birliklə də biz bu ağır vəziyyətdən çıxacağıq.

Füzuli, Cəbrayıl bölgələrində son günlər vəziyyət çox ağırdır. Bu barədə mən dünən xalqa müraciətimdə qısaca dedim. Biz demək olar ki, gecə-gündüz bu işlərlə məşğuluq, əlimizdən gələn tədbirləri görürük. Mən indi bu məsələləri geniş açmaq istəmirəm. Ancaq təəssüflər olsun ki, dünən də, ondan bir gün qabaq da Füzulidən, Cəbrayıldan gələn məlumatlar göstərir ki, bu torpaqları satan, birinci növbədə, oranın ayrı-ayrı mafioz qüvvələri və həm də Cəbrayılda, həm də Füzulidə icra hakimləri olmuşlar. Onlar və onlarla əlaqədar adamlar, bəzən ordu hissəsindən olan adamlar Ermənistanın silahlı dəstələri tərəfindən heç bir hücum olmadan gəlib xalqı qorxudurlar, qaçırdırlar, var-dövlətini qarət edirlər, özləri də çıxıb qaçırlar.

Mən dünən də Ermənistanın rəhbərləri ilə danışıqlar aparmışam. Məcbur olmuşuq, Dağlıq Qarabağın rəhbərləri ilə bizim adamlar danışıqlar aparıblar. Moskva ilə danışıqlar aparmışam. Vəziyyət çox ağırdır, çox böhranlıdır. Ona görə də bu gün biz xüsusi təyyarə göndərmişik. Rusiya Xarici İşlər Nazirliyinin məsul işçisi, xüsusi tapşırıqlar üzrə səfir Vladimir Nikolayeviç Kazimirovu dəvət eləmişəm. Bu gün o, bizim nümayəndələrlə bərabər Füzuli və Cəbrayıl bölgələrinə gedəcək, orada olan vəziyyəti araşdıracaqlar. Demişəm ora jurnalistlər də getsin, başqa nümayəndələr də gedəcəklər. Güman edirəm ki, biz bu vəziyyətdən də çıxacağıq.

Ancaq təəssüf doğuran budur ki, bizim hissələr o yerlərdən pərakəndə vəziyyətdə çıxırlar, vuruşmurlar, döyüşmürlər. Məsələn, dünən həm Moskva ilə, həm Yerevanla əlaqəyə girmişik, həm də bizim adamlar Xankəndi ilə əlaqəyə giriblər. Deyirlər ki, oradan həm hərbi hissə, həm də camaat qoyub qaçıbdır. Qaraxanbəyli deyilən bir yerdə ermənilərin kəşfiyyat qrupu gəlib görüb ki, bir dənə sağ-salamat tankı, iki dənə zirehli texnikanı, iki-üç maşını başlı-başına buraxıb çıxıb gediblər. Ermənilər də görürlər ki, burada heç kəs yoxdur, bütün bu texnikanı dartıcı maşınlara qoşub öz ərazilərinə aparmaq istəyirlər.

Bax, görün, mən bir fakt deyirəm. Bunları açıb demək istəmirdim. Çünki əhali, zənnimcə, bunların hamısını bilməməlidir. Ancaq biz bu faktların çoxunu bilirik. Dəhşətli vəziyyətdir və bunların hamısını mən dünən də dedim. Biri Rəhim Qazıyevə qulluq edir, biri, nə bilim, Əlisoy batalyonudur, biri Xalq Cəbhəsinə qulluq edir, biri də bilim, həmin o Əlikram Hümbətova qulluq edir, biri o birisinə qulluq edir. Təxribat təxribatın içərisindədir.

Bizim Azərbaycan xalqı, tarix boyunca yüksək mənəvi keyfiyyətlərə malik xalq olub. Indi də belədir. Mən təxribatları xalqa aid edə bilmərəm. Ancaq bizim ayrı-ayrı azərbaycanlıların bu qədər satqın, bu qədər xəyanətkar, bu qədər ləyaqətsiz olması insanın ürəyini partladır, insanı dəhşətə gətirir. Görün, biz nə qə-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dər ləkələndik. Təkcə ona görə jox ki, torpaqlarımız əldən gedibdir. Ona görə ki, torpağımıza təcavüz edən ermənilər deyirlər ki, sizin adamlarınız heç biz gəlməmiş çıxıb qaçırlar. Bunu onlar deyirlər.

Fuzuli, Cəbrayıl gedib. Neçə nəfər adam ölüb orada, neçə nəfər həlak olub, desinlər. Yoxdur. Ona görə də mən bu məsələni geniş açmağı lazım bilmirəm. Biz gecə yarıya qədər, ola bilsin, səhər saat 4-ə qədər bu məsələlərlə məşğul olmuşuq, müzakirə aparmışıq. Qaçqınlara lazımi yardım göstərmək və o rayonların geri qaytarılmasını, adamların yenidən oraya dönməsini təmin etmək istəyirik. Bu gün nümayəndə heyətimiz Moskvanın nümayəndəsi ilə birlikdə oraya gedəcəkdir. Xarici dövlətlərin Azərbaycandakı səfirliklərinin nümayəndələrini dəvət etmişəm, jurnalistləri də dəvət etmişəm. Vertolyotlarla oraya gedəcəklər. Güman edirəm ki, bir neçə günə bu bölgədə vəziyyəti müəyyən qədər sabitləşdirəcəyik.

Ən nəhayət, bir məsələyə də toxunmaq istəyirəm. Bu gün buraya Məclis üzvləri, xalq deputatları, respublikanın nazirləri və komitə sədrləri, rəhbər işçiləri, rayonların icra başçıları dəvət olunublar. İcra hakimiyyəti başçılarının bəziləri əvvəldən həmin vəzifədə olanlardır. Bəzisi bu qarışıqlıq vaxtı kimlər tərəfindənsə, naməlum adamlar tərəfindən gətirilib qoyulmuş İcra başçılarıdır. Bəziləri şəxsən mənim fərmanımla təyin olunmuşlar. Ancaq onların hamısı əgər azərbaycanlıdırsa, hamısında azərbaycanlı qanı vardırsa, fərqi yoxdur, beş ay bundan qabaq təyin olunmuşdur, kimsə onu özbaşına gətirib qoyub, yaxud indi biz onu təyin etmişik - fərqi yoxdur. Əgər doğrudan da, onlar öz xalqını, vətənini azacıq da olsa sevirlərsə, dədə-babalarının qəbirlərinə hörmət edirlərsə, özlərinin bu gününü, övladlarının gələcəyini düşünürlərsə, gərək namuslu olsunlar. Mən onlara müraciət edirəm. Onlar bu gün gərək mənəviyyatca yüksəlsinlər, gərək bütün çirkin əməllərindən əl çəksinlər, bu gün gərək ümumxalq mənafeyindən çıxış etsinlər. Rica edirəm sizdən, şəxsi ambisiyalarınızı kənara qoyun, şəxsi instinktlərinizi, şəxsi mənafelərinizi, şəxsi məqsədlərinizi kənara qoyun, düşünün, Azərbaycan Respublikasının dövlətçiliyi təhlükə altındadır. Uzun illərdən, əsrlərdən bəri Azərbaycan dünyada müstəqil dövlət kimi tanınmışdır. İndi bu, təhlükə altındadır. Azərbaycanın ərazi bütövlüyü təhlükə altındadır. Düşünün bunu, fikirləşin və anlayın ki, hər biriniz məsuliyyət daşıyırsınız. Mən hamınızı deyirəm. Birinci növbədə xalqın qarşısında, öz ailəniz, qohum-əqrəbanız, övladlarınız, ata-babalarınızın ruhu qarşısında məsuliyyət daşıyırsınız. Müstəqil Azərbaycan dövləti qarşısında məsuliyyət daşıyırsınız. Ona görə də bu gün hər biriniz öz iş yerinizdə bu məsuliyyət hissi ilə işləməlisiniz, çalışmalısınız.

İndi bizim qarşımızda iki vəzifə durur. Birincisi, erməni təcavüzünün qarşısını almaq, işğal olunmuş torpaqlarımızı geri qaytarmaq, xalqı bu qırğından qurtarmaq. İkincisi isə, Azərbaycanın daxilində sabitliyi təmin etmək, bu çəkişmədən

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qurtarmaq, xalqı bu çəkişmədən yaranan əziyyətdən xilas etmək lazımdır. Bu vəzifələri yerinə yetirmək üçün sizin hamınıza müraciət edirəm, bütün Azərbaycan xalqına müraciət edirəm: Düşünün, anlayın, ayılın. Bilin ki, Azərbaycan xalqı bir xalq kimi bundan sonra nəinki yaşamalıdır, daha da qüdrətlənməli, daha da inkişaf etməlidir. Müstəqil Azərbaycan Respublikası hələ tutmamış qatıqdır. O gərək bərkisin, möhkəmlənsin, gərək öz qüdrətini toplayaraq daxili potensialından öz xalqının rifahı üçün istifadə edib müstəqil dövlət kimi gələcək nəsillərə bizdən yadikar olsun. Gələcək nəsillərimiz daim azad, müstəqil, öz milli ənənələrinə, tarixi ənənələrinə sədaqətli olaraq yaşaya bilsinlər. Xahiş edirəm, düşünün, fikirləşin. Bütün sahələrdə hər şey sizin fəaliyyətinizdən asılıdır. Əgər bundan sonra müvəffəqiyyətlərimiz də olsa, bunlar hamımızın - sizin və bizim müvəffəqiyyətlərimiz olacaqdır. Uğursuzluqlarımız da olsa, heç kəs özünü kənara çəkə bilməz. Ona görə də sizə müracət edirəm, bütün Azərbaycan xalqına müraciət edirəm və güman edirəm ki, xalq, insan daxili gücünü, iradəsini həmişə ağır dövrlərdə büruzə verir.

Biz, yəni Azərbaycan xalqı böyük imtahan içindəyik və bu imtahandan ləyaqətlə çıxmalıyıq. Həp bir azərbaycanlı, əgər onun qəlbində doğrudan da azərbaycanlı hissiyyatı varsa, nəbzi Azərbaycan xalqının ümumi nəbzi ilə həmahəng vururs, bu yolla getməlidir. Ümid edirəm ki, xalqımızın, buraya toplaşmış rəhbər işçilərimizin əksəriyyəti məhz belə düşünürlər, məhz bu istiqamətdə hərəkət edirlər və belə də hərəkət edəcəklər.

Bu baxımdan qarşımızda bir siyasi problem də durur. Ayın 29-da Azərbaycanın prezidenti Əbülfəz Elçibəyə münasibət barədə ümumxalq referendumu keçiriləcək. Siz bilirsinz, artıq hamıya aydındır ki, iyunun 17-dən 18-nə keçən gecə Azərbaycanın prezidenti Əbülfəz Elçibəy Bakını tərk edib və iki aydan artıqdır ki, Naxçıvan Muxtar Respublikası Ordubad rayonunun Kələki kəndində yaşayır. Şübhəsiz ki, bu, Əbülfəz Elçibəyin öz işidir. Əlbəttə, indi onun hərəkətlərinə qiymət vermək olar, lakin biz cavabdeh deyilik. Ancaq xalq tərəfindən seçilmiş adam öz eqoizmini gərək xalqın mənafeyindən yüksək tutmayaydı. Mən Əbülfəz Elçibəyə o vaxt telefonla da dedim ki, əgər siz xalqın təəssübünü çəkirsinizsə, xalqın içində olmalısınız. Əgər həlak olsaydınız da, bir qəhrəman kimi həlak olacaqdınız. Ancaq gedib kənddə gizlənməklə və deməklə ki, mən hələ prezidentəm, prezident olaraq qalacağam, - bundan sonra prezident olmaq mümkün deyil.

Mən bununla demək istəmirəm ki, xalq öz iradəsini istədiyi kimi bildirməsin. Ancaq xalq da başa düşməlidir: əgər prezident iki aydan artıqdır ki, Azərbaycandan uzaqlaşıbsa, deməli, xalq bilməlidir ki, onun dövründə buraxılan səhvlər, günahlar, Azərbaycanın bu vəziyyətə düşməsi, ordumuzun belə bərbad vəziyyətdə olması, - bunun əsas günahkarı Rəhim Qazıyevdirsə, onunla yanaşı həm də Azərbaycanın rəhbərləri, o cümlədən Azərbaycan prezidenti günahkardır. Təkcə bu prezident deyil, ondan əvvəlki

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

prezident də günahkardır. Bunlar hamısı məlum şeylərdir. Ona görə də güman edirəm ki, bu referendum layiqli səviyyədə keçməlidir.

Bilirsiniz ki, bu salonda Milli Məclisin üzvlərinin bir çoxu, bəlkə də əksəriyyəti bu məsələ müzakirə olunarkən dəfələrlə təklif edib ki, Azərbaycan Konstitusiyasının 121-çi maddəsinin 6-7-çi bəndlərinə əsasən, Əbülfəz Elçibəy prezidentlik vəzifəsini həyata keçirə bilmədiyinə görə parlamentin onu bu vəzifədən kənar etməyə ixtiyarı var. Bu həqiqətdir, parlamentin belə hüququ var. Bu təkliflər əsaslı təkliflər olmuşdur. Fəqət bilirsiniz ki, mən bu təklifin qəbul olunmasına yol vermədim. Təkcə ona görə ki, istədim hər şey demokratik şəkildə olsun, xalqın iradəsi ilə olsun. Yada salmaq istəyirəm ki, 1992-ci il iyunun 7-də Əbülfəz Elçibəy xalq tərəfindən prezident seçilmişdir. 1992-çi il iyunun 17-də Əbülfəz Elçibəy bu salonda Qurana, Azərbaycanın Konstitusiyasına and içib ki, prezident vəzifəsini ləyaqətlə yerinə yetirəcəkdir. 1993-cü il iyun ayının 17-də düz bir il sonra, Əbülfəz Elçibəy bu vəzifəni ataraq qaçıb Kələki kəndində gizlənmişdir.

İndi xalq qoy özü desin: Nə olmalıdır, nə etməliyik? Əgər xalq yenə də bu vəziyyətdə yaşamaq istəyirsə, öz fikrini bildirsin. Yaxud başqa vəziyyətdə yaşamaq istəyirsə, yenə də fikrini bildirsin. Mən bu sözlərimlə nə xalqa, nə də ayrı-ayrı seçicilərə heç bir təsir və təzyiq göstərmək istəmirəm. Mən ancaq vəziyyəti danışıram və demək istəyirəm ki, iki aydan artıqdır prezident yoxdur, mən həm Azərbaycan parlamentinin sədri vəzifəsindəyəm, həm də Azərbaycan prezidentinin səlahiyyətini həyata keçirirəm. Bu iki vəzifəni eyni vaxtda aparmaq mənə nə qədər ağır da olsa, mən bunu aparıram və nə qədər ki, xalq mənə etimad göstərir, o vaxtadək aparacağam. Ancaq Azərbaycan xalqını, bu böyüklükdə Azərbaycan Respublikasını, müstəqil Azərbaycan dövlətini şəxsi ambisiyalara görə, eqoizm əhval-ruhiyyəsindən irəli gələn fikirlərə görə artıq bu vəziyyətdə saxlamaq olmaz. Əgər xalqa Əbülfəz Elçibəy lazımdırsa, desinlər, gəlsin otursun burada. Əgər lazım deyilsə, - yəqin ki, bunu əksəriyyət hiss etmişdir, mən də bu fikirdəyəm, Əbülfəz Elçibəy bir il müddətində də sübut etmişdir ki, o prezidentlik edə bilmir və Azərbaycanın bu ağır vəziyyətində də kənddə oturmaqla prezidentlik etmək olmaz, - öz münasibətini bildirsin.

Ancaq mən yenə deyirəm, bütün işlər demokratik əsaslarla getməlidir. Biz xarici ölkələrdən müşahidəçilər dəvət etmişik. Seçki komissiyaları düzgün işləməlidir. Buraya İcra hakimiyyətinin başçıları, şəhər və rayon seçki komissiyalarının sədrləri, bir çox rayonların ictimai təşkilatlarının rəhbərləri, siyasi partiyaların, təşkilatların, inzibati orqanların nümayəndələri dəvət olunublar. Tam demokratik şəkildə, tam aşkarlıq şəraitində ölçün-biçin. Eyni zamanda bir şey hamı üçün hər şeydən üstün olmalıdır: Azərbaycanın bugünkü ağır vəziyyəti, bu günü və gələcəyi, onun müqəddəratı, Azərbaycan xalqının bu ağır

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

vəziyyətdən çıxması. Ona görə də bütün icra hakimiyyəti başçılarından, rayon, şəhər sovetlərinin sədrlərindən, Azərbaycanın rəhbər işçilərindən, seçki komissiyaları üzvlərinin hamısından xahiş edirik, - vaxt azdır, baş qarışıqdır, qarşıya hər gün yeni məsələlər çıxır, adi məsələləri həll etməyimizə imkan vermir, - qalan günlərdə bu işi daha yaxşı təşkil etmək lazımdır. Avqustun 29-da referendum keçirilməlidir. Azərbaycan xalqı gərək öz gələcək müqəddəratını həll etsin. Onun müqəddəratı öz əlindədir, öz sözündən asılıdır. Mənim sizə müraciətim ondan ibarətdir ki, bu günlərdə referendumun hazırlanmasını, keçirilməsini lazımi, layiqli səviyyədə təşkil edəsiniz, demokratik prinsiplər əsasında düzgün aparasınız və düşünəsiniz ki, ayın 29-da Azərbaycan üçün yeni bir mərhələ açılır. Biz bu iki aydan artıq dövrü çox ağır vəziyyətdə, həddindən artıq ağır vəziyyətdə keçirmişik. Ancaq əgər ayın 29-da biz bu məsələni düzgün, doğru, demokratik şəkildə həll edə bilməsək daha da ağır ola bilər.

Mən yenə də deyirəm: baxmayaraq ki, referenduma yarım milyard rubl pul xərclənmişdir, baxmayaraq ki, bu ağır vəziyyətimizdə həm mərkəzdə, həm də yerlərdə olduqca çox adamlar bu işə cəlb olunublar, yəni belə vəziyyətimizdə adamlar daha zəruri işlərlə məşğul olmaq əvəzinə referenduma hazırlaşırlar, seçki komissiyalarında işləyirlər, bülletenlər hazırlayırlar, yazırlar, pozurlar, vətəndaşlara dəvətnamələr göndərirlər və sairə, - təsəvvür edin ki, bu Azərbaycana nə qədər zərər vurur, - ancaq biz bunların hamısına dözürük, xalq da dözür. Şəxsən mən də parlamentin sədri kimi buna razı olmuşam ki, heç kəs deməsin burada demokratiyaya zidd bir şey olub. Ancaq indi o Kələki kəndində Əbülfəz Elçibəyin özünün qəlbində, doğrudan da, Azərbaycan xalqının dərdi olsaydı, o imkan verməzdi ki, biz bu vəziyyətə düşək. O, birillik fəaliyyəti ilə xalqı gətirib bu vəziyyətə saldı. Indi də iki aydan artıqdır ki, qaçıb Kələki kəndində gizlənib, Azərbaycan xalqını bu vəziyyətə gətirib. Təsəvvür edin, axı bir adam nədir ki, ondan ötrü xalq bu vəziyyətə düşsün. Ola bilər, mənim bu sözlərimi indi Əbülfəz Elçibəy də eşidir, yaxşı olardı ki, eşitsin. Mən ona bir insan kimi həmişə hörmət etmişəm, hörmət edirəm. Ancaq o bilməlidir ki, öz şəxsi ambisiyası ilə xalqı bu vəziyyətə salmamalıdır.

Referendum keçirilməlidir. Yolun çox hissəsini keçmişik, azı qalıb. Bu gün ayın 24-dür, dörd gündən sonra, avqustun 29-da referendumdur. Xalq öz sözünü deməlidir. Xalq necə yaşamaq istəyirsə, qoy desin, əgər indiyə qədərki kimi, bundan da pis yaşamaq istəyirsə, qoy desin. Əgər xalq doğrudan da ağır vəziyyətdən xilas olmaq istəyirsə, qoy onu da desin.

Nəhayət, bütün bu məlumatları sizə verərək, öz fikirlərimlə sizi tanış edərək, sizində bölüşərək bir daha bildirmək istəyirəm: Azərbaycanın bu vəziyyətdən çıxmağa imkanı var, Azərbaycan dövlətçiliyi qorunacaqdır, Azərbaycan xalqının hüquqları qorunacaqdır. Biz, - mən öz adımdan deyirəm, Həm Azərbaycan parlamentinin sədri, həm də prezidentin səlahiyyətini həyata keçirən adam kimi deyirəm ki, ətrafımda olan adamlarla birlikdə biz

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Azərbaycanı bu vəziyyətdən çıxarmağa qadirik. Bilin ki, qəti, ciddi addımlar atacağıq, Azərbaycanda - həm Bakıda, həm də bütün başqa bölgələrdə - şəhərlərdə, rayonlarda, qəsəbələrdə, kəndlərdə sabitlik yaratmağa çalışacağıq, cinayətkarlarla mübarizəni gücləndirəcəyik, Azərbaycanı bu ağır vəziyyətdən çıxarmağa qadirik və çıxaracağıq. Buna əmin ola bilərsiniz. Mənim dünənki müraciətimdən sonra əhalidən, xalqdan aldığım həmrəylik hissləri mənə daha çox güc verir. İnanın ki, mənim gücüm daha da artıb və bilin ki, mən bunun hamısını Azərbaycanı bu vəziyyətdən çıxarmağa sərf edəcəyəm. Buna heç kimin şübhəsi olmasın. Mən xalqa müraciət edərək sizin qarşınızda deyirəm ki, bəli, biz xalqı bu ağır vəziyyətdən çıxaracaq, sabitlik yaradacağıq.

Lənkəranda yaranmış həmin o mif haqqındakı fikir dünən, bu gün pozuldu və gördünüz ki, bizi qəti aldımlar atmağa qoymurdular. Qəti addım atan kimi bu, öz nəticəsini verdi. Düzdür, şəhidlər də verdik, ancaq Azərbaycanın müstəqilliyi yolunda biz çox şəhidlər vermişik. Ola bilər, bundan sonra da verək, Azərbaycanın müstəqilliyi, dövlətçiliyi, Azərbaycan Respublikasının bütövlüyü hər bir adamın həyatından qat-qat yüksəkdir, mənim də həyatımdan yüksəkdir. Mən də müstəqil Azərbaycanın dövlətçiliyini, suverenliyini, bütövlüyünü qorumaq üçün həyatımı qurban verməyə hazıram. Sizə söz verirəm və güman edirəm ki, hamımız birlikdə bu vəziyyətdən çıxa biləcəyik.

Sizə çatdırmaq istədiyim sözləri dedim. Bilmirəm, müzakirəyə, çıxışlara ehtiyac varmı? (**Salondan səslər: Yoxdur**): Əgər məsələ aydındırsa, vəzifələr aydındırsa, onda bəlkə vaxt itirməyək. Nəriman İmranov Lənkərandan səhər tezdən çıxıb. Mən müşavirəni bir qədər ləngitdim ki, dedim bəlkə o, daha geniş məlumat verə bilər. Ancaq mən oradan aldığım məlumatlar əsasında ümumi vəziyyəti sizə çatdırdım.

Bu gün canlı yayım gedir, bütün xalq bunu eşidir. Əlavə məlumatlar televiziya ilə verilər. Ona görə də gəlin bununla görüşümüzü qurtaraq. Mən indi dövlət başçısı vəzifəsini icra edən adam kimi sizin hamınıza ümid bəsləyirəm. Xalq gözünü bu salona dikib, bizə dikib və gələcək günlərimizin müqəddəratı bizim hamımızın birliyindən, ümumi iradəmizdən asılıdır. Hamınıza cansağlığı, işinizdə müvəffəqiyyət, uğurlar arzulayıram. Sağ olun.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"NEZAVİSİMAYA QAZETA"NIN MÜXBİRİNƏ MÜSAHİBƏ

- Heydər Əliyeviç, prezident Elçibəyə etimad haqqında referendum keçirilməsinə dair qərar qəbul edilib. Görünür, hadisələrin inkişafının iki variantı mümkündür. Ona etimad göstərilməsə, üç aydan sonra jeni prezident seçkiləri keçiriləcək. Bəs cənab Elçibəy referendumda qalib gəlsə, onda bu, nəyə gətirib çıxaracaq?

- Bildiyiniz kimi, mən Bakıya onunla əlaqədar qayıtmışam ki, Gəncədə törədilmiş qanlı hadisələrdən sonra Azərbaycanın o vaxtkı rəhbərlərinin hamısı, Elçibəyin özü də mənə müraciət etdilər. Mən bir neçə gün razılıq vermədim, lakin nəhayət, qərara aldım ki, respublika olduqca ağır vəziyyətdədir, artıq söhbət vətəndaş müharibəsindən gedir. Əbülfəz Elçibəyin son vaxtlar tutduğu əməllər nəticəsində Ali Sovetin iclaslarında dəfələrlə məsələ qaldırıldı ki, prezident Konstitusiyanı pozmuşdur, parlamentin onu hakimiyyətdən uzaqlaşdırmaq hüququ var. O, səlahiyyətə malik deyildir, amma öz prezident vəzifəsindən istifadə edir. Mən bu məsələnin səsə qoyulmasından hər dəfə yayınmışam.

Məni düz başa düşün, axı, prezident Elçibəy xalq tərəfindən seçilib. Hərçənd indi daha sübuta yetirilib ki, seçkilər saxtalaşdırılmışdı... Daha olan olub, keçən keçib. Buna görə də real vəziyyəti nəzərə alaraq və demokratik prinsipləri əsas tutaraq, onun taleyini xalq özü həll etməlidir. Mən məsələ qaldırdım ki, referendum keçirilsin. Çünki əgər o, xalq tərəfindən seçilibsə, onda qoy xalq da ona öz münasibətini bildirsin. Bəs bu münasibət necə ola bilər? Bütün son vaxtlar Azərbaycanda nələr baş verdiyini nəzərə alsaq, onda görərik ki, bu münasibətin necə olacağı bəri başdan məlumdur.

- Deməli, yaxın vaxtlarda Azərbaycanda yeni prezident seçkiləri keçiriləcək?

- Konstitusiyaya görə, əgər Azərbaycan prezidentinin səlahiyyətləri Ali Sovetin sədrinə verilibsə, bu halda o, həmin səlahiyyətləri üç aydan artıq icra edə bilməz. Deməli, seçkilər keçirilə bilər.

- Amma Azərbaycan prezidenti vəzifəsini tamam ləğv etmək təklifi də var?

- Bəli, belə əhval-ruhiyyə var. Mən hesab edirəm ki, bu, qeyri-məqbuldur. Azərbaycanda prezident də olmalıdır, prezident idarə formaları da. Bu fikri söyləyənlərin özləri prezident vəzifəsinin ləğv edilməsinin bütün nəticələrini başa düşmürlər. Biz parlament idarə formasına hələlik hazır deyilik.

Parlament idarə forması üçün gərək sabit ənənələr olsun. Bu ənənələr isə öz-özünə meydana gəlmir. Dəqiq fəaliyyət proqramları olan güclü, qanuniləşdirilmiş partiyalar gərəkdir, onların

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

proqramlarında zamanın şərtləri ilə səsləşən konkret məqsəd və vəzifələr nəzərdə tutulmalıdır.

Keçmişə, parlamentli respublikaların tarixinə ötəri nəzər salsaq, onda yəqin edərik ki, bu proses bir neçə onillik ərzində yol keçmişdir. Siyasi mübarizənin keşməkeşlərində, qaynaqlarında müxtəlif qüvvələr peyda olmuş, nurlu şəxsiyyətlər, zəkalı siyasi istedadlar meydana çıxmışlar... Lakin tam dəyərli siyasi partiyaların təşəkkül tapması üçün xeyli vaxt gərək idi. Biz isə çoxpartiyalılıq mərhələsinə yenicə yaxınlaşmışıq, madam ki, söhbət siyasi mənzərədən gedir, onda kəmiyyət göstəriciləri yalnız kənar, qeyri-peşəkar müşahidəçiləri razı sala bilər. Qeyd edim ki, indi bizdə onlarca partiya var. Onların proqramları oxşardır, bu partiyaların başında elə adamlar dururlar ki, onlar öz əqidə və baxışlarına görə bir-birindən çox az fərqlənirlər. Parlaq liderlər yoxdur. Hər halda hələlik yoxdur. Bu partiyalar lazımi sosial bazaya malik deyildirlər və əslində, hamısı da ibtidai siyasi modelə yaxındır. Buna görə də bu gün bizim şəraitdə əsl parlament idarə forması barədə düşünmək özünü aldatmağa bərabərdir. Bu, siyasətin ən adi əsaslarını faktik olaraq bilməmək deməkdir.

Nəzərdən keçirdiyimiz məsələyə dair öz axırıncı dəlilimi gətirim: siyasi partiyalar geniş təbəqələrin mənafelərini əks etdirməli, onların fəaliyyətinin strategiya və taktikasının mahiyyətini, heç olmasa, yaxın perspektivi təmin etməlidir. Bunu isə bizim partiyaların timsalında, təəssüflər olsun, müşahidə etmirik...

- Siz son dövrün Azərbaycan rəhbərlərindən birinci olaraq təhlükəli siyasi addım ataraq, Dağlıq Qarabağ Respublikasının hakimiyyət orqanları ilə birbaşa dialoqa başladınız. Hesab edirsinizmi ki, bu, erməni - azərbaycanlı münaqişəsini dincliklə aradan qaldırmaq üçün son imkandır?

- Mən Bakıya qayıdan kimi, hərbi əməliyyatların real vəziyyətini obyektiv şəkildə araşdıraraq, bu məsələnin həllinin dinc yollarını axtarıb tapmağa çalışdım. ABŞ, Rusiya və Türkiyə sülh təşəbbüsü irəli sürmüşdülər, işğal edilmiş Azərbaycan ərazilərindən erməni silahlı birləşmələrinin çıxarılması haqqında BMT Təhlükəsizlik Şurasının 822 nömrəli qətnaməsi qəbul olunmuşdu. 1992-ci ilin martından ATƏM-in Dağlıq Qarabağ münaqişəsinə dair Minsk konfransı fəaliyyət göstərir, lakin bu təşkilatın imkanlarından istifadə etmək məsələsi ilə Azərbaycanda heç vaxt indiki kimi belə fəal məşğul olmamışlar.

Mən Minsk konfransının sədri cənab Mario Raffaelli ilə görüşdüm. O, Azərbaycanda olmuş və konkret surətdə yəqin etmişdir ki, indiki Azərbaycan rəhbərliyi bu məsələnin dincliklə həllinə dair planı qətiyyətlə həyata keçirir. Qoşunların münaqişə zonasından çıxarılması üçün ATƏM-in nümayəndə heyətinin nəzərdə tutduğu plan və təqvimi həm Azərbaycan, həm də Ermənistan rəhbərliyi bəyənmişdir. Amma bilirsinizmi, Dağlıq Qarabağdakı qüvvələr bu plan və təqvimin əleyhinə çıxdılar və Mario Raffaelli də kimlərin əngəl tərətdiyini, əslində aydınlaşdırdı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ATƏM nümayəndələri qayıtdıqdan sonra nəticə çıxarıb, məsələyə yekun vurdular. Mən bu nümayəndə heyətinin obyektivliyindən razıyam. O, BMT-yə geniş məruzə təqdim etmişdir.

Erməni birləşmələri tərəfindən işğal olunmuş Ağdamdan erməni qoşunlarının təxirə salınmadan çıxarılması haqqında Təhlükəsizlik Şurasının qəbul etdiyi qərar ağıllı qərar idi. Lakin sonradan məlum oldu ki, Dağlıq Qarabağdakı qüvvələr idarəedilməzdir və Ermənistan rəhbərliyinə tabe olmurlar. Bunu bizə Yerevandan dedilər. Əlbəttə, mən belə uydurmalarla razılaşa bilmərəm. Dağlıq Qarabağ kiçicik bir vilayətdir. Təbiidir ki, o, kənardan kömək edilməsəydi, 7 milyonluq respublikaya müqavimət göstərmək iqtidarında olmazdı. Lakin bütün dünya bilməlidir ki, biz bundan sonra müharibə etmək istəmirik, buna görə də Azərbaycan tərəfindən hərbi rəhbərlik erməni birləşmələrinin komandanlığı ilə əlaqə yaratdı. Üç gün müddətinə barışıq haqqında razılığa gəldik. Sonra təkrarən danışıqlar apardıq və barışığı daha 7 gün uzatmağı qərara aldıq. Biz bəlkə bundan sonra da bu yolla getdik.

- Siz inanırsınızmı ki, bu problemi yaxın gələcəkdə, ümumiyyətlə, həll etmək olar? Bunu ona görə soruşuram ki, təxminən bir il əvvəl prezident Elçibəylə görüş zamanı mən bu sözləri ondan da eşitmişdim. Demişdi ki, uzağı bir ildən sonra münaqişə aradan qaldırılacaq...

- Əbülfəz Elçibəyin hansı mülahizələri əsas tutduğunu söyləmək mənim üçün çətindir. O, belə bəyanatları bir neçə dəfə vermiş və hər dəfə də qəti surətdə əmin edirdi ki, üçcə ayın içində qələbə qazanılacaq. Mən onu qınamıram. Çünki onun nə dövlət fəaliyyəti, nə də siyasi fəaliyyət sahəsində azca belə təcrübəsi yox idi. Odur ki, özünün ölçüb-biçilməmiş, götür-qoy edilməmiş əməllərinin bəhrəsini görməli olur.

Parlamentin iclasında mənim seçilməyim məsələsi həll edilərkən soruşurlar ki, mən Qarabağ münaqişəsinin aradan qaldırılmasına nə kimi təminat verə bilərəm. Aydın cavab verib dedim: mən peyğəmbər deyiləm və heç bir təminat vermirəm və heç nə vəd etmirəm. Məsələ olduqca mürəkkəbdir və əgər onu beş il ərzində nəinki həll edə bilməmiş, əksinə, son həddədək ağırlaşdırmışlarsa, indi onun həllinin qeyri-adi yollarından danışmaq ən azı sadəlövhlükdür. Bununla yanaşı qeyd edim ki, hərbi əməliyyatların bundan sonra da aparılması münaqişədə iştirak edən tərəflərin hamısı üçün daha dəhşətli faciəyə gətirib çıxaracaqdır. Buna görə də inanıram ki, xalqların müdrikliyi, nəhayət, öz bəhrəsini verəcəkdir.

- Belə düşünürəm ki, hətta Naxçıvanda olduqda da, siz bu münaqişədə Rusiyanın rolunu izləyirdiniz. Rusiyanın hərəkətləri sizi qane edirmi?

- Mən Naxçıvanda da heç bir konkret bəyanat vermirdim. Demişəm və deyirəm ki, bu strateji məsələdir: Azərbaycanın Rusiya ilə normal, dostluq əlaqələri olmalıdır. Amma son vaxtlar bu münasibətlər şəxsən məni razı salmır. Bu, böyük bir siyasi səhvdir ki, hər şeydə günahı Rusiyanın, əvvəlcə sovet Rusiyasının, sonra da

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

indiki Rusiyanın üstünə yıxırdılar. Heç də həmişə hər şey normal olmamışdı, eləcə də Dağlıq Qarabağ ətrafında baş vepən hadisələrdə Rusiyanın tutduğu mövqe də. Lakin mən bunu bütünlüklə Rusiyaya aid etməzdim. Zənnimcə, burada ayrı-ayrı adamların və ya müəyyən strukturların münasibətindən danışmaq olar. Buna görə də əlbəttə, problemlər var, ola bilsin, iddialar da var. Buna baxmayaraq, ümidvaram ki, Rusiya indi ABŞ və Türkiyə ilə birlikdə Qarabağ probleminin dincliklə həllinə ürəkdən çalışır. Burada, Azərbaycanda belə bir fikir yayılıb ki, Rusiya birtərəfli mövqe tutur. Mən isə, dövlət məsuliyyəti daşıyan bir şəxs kimi deyirəm: biz köhnə anlaşılmazlıqları xatırlayıb üzə vurmaqdansa, mehriban qarşılıqlı münasibətlər üçün imkanlar aramalıyıq.

- Siz artıq neçə dəfə təəssüflə söyləmisiniz ki, Azərbaycandan çoxlu rus gedib və gedir...

- Ömrümün əsas hissəsi Azərbaycanda keçib, Azərbaycan öz çoxmillətliliyi ilə səciyyəvidir. Bugünkü Azərbaycan isə XIX əsrdə təşəkkül tapmış Azərbaycana oxşayır, yəni, son illərdə milli tərkibdə güclü dəyişikliklər baş vermişdir. Xüsusən 1990-cı ilin yanvar hadisələrindən sonra. Rusdilli əhalinin köçhaköçü də məhz onda başladı. Mən bunu normal hal saymıram. Bütün sivilizasiyalı ölkələr çoxmillətlidir. Rusdilli əhalinin olması Azərbaycan üçün və onun gələcəyi üçün olduqca mühüm amildir.

Bir çox azərbaycanlılar rus dilində təhsil almış, öz övladlarına bu dildə oxumağa imkan yaratmışlar. Mən öz millətimi və öz xalqımı sevirəm, amma bir çox xalqların nümayəndələri ilə ünsiyyət zamanı rus dilindən istifadə etmişəm. Bu isə mənə yalnız fayda gətirmişdir.

Mən çalışacağam ki, ruslar, ukraynalılar, yəhudilər və başqa millətlərin nümayəndələri buradan köçüb getməsinlər, adamlar özlərini azad və rahat hiss etsinlər. Azərbaycanın bütün vətəndaşları bərabər hüquqlara malik olmalıdır. Yoxsa, elə düşünürsünüz ki, son illərin hadisələri ilə əlaqədar köçüb getməyə məcbur olmuş şəxslərin Azərbaycana qayıtması problemi məni narahat etmir? Biz bunun üzərində fikirləşirik. Çətinlik ondadır ki, bizdə çoxlu qaçqın var - ermənilər Ağdamı işğal etdikdən sonra qaçqınların sayı daha 200 min nəfər artmışdır. Lakin mənə elə gəlir ki, əgər biz müharibəni qurtarsaq, əgər adamlar daimi yaşayış yerlərinə qayıtmağa başlasalar, onda rahat nəfəs alarıq və çox dərd-sərimizi, vaxtı çatmış problemlərimizi həll edə bilərik. Çoxları öz torpağına qayıtmaq həsrətindədir, nisgillidir, adamlar qurub-yaratmaq eşqiylə yanırlar.

- Rusiyada, Ukraynada, Qazaxıstanda çoxları indiki dövlətlər birliyinə nisbətən daha möhkəm ittifaq yaradılmasına tərəfdardırlar. Siz bu problemə necə baxırsınız?

- Suveren respublikaların yaranması obyektiv tarixi prosesdir. Yalnız Xalq Cəbhəsi adamların beyninə yeritməyə çalışırdı ki, Azərbaycanın müstəqilliyinə məhz o, nail olmuşdur. Bu, doğru deyildir. Bu prosesi dayandırmaq çətin ki, mümkün idi. Lakin bunların hamısını, əlbəttə, ağrısız-acısız, sivilizasiya-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lı yolla - münaqişələrsiz, qan tökülmədən həyata keçirmək olardı. Hər hansı yeni ittifaq haqqında ideya həmçinin köhnəlməyibdir. Biz, məsələn, əgər keçmiş Sovet İttifaqından danışırıqsa, o, bolşeviklərin iradəsi ilə yaranmışdı. Həmin İttifaqın əsas təşəbbüscüsü Rusiya olmuşdur. Amma Ukrayna, Belorusiya və tərkibində üç respublika, o cümlədən də Azərbaycan olan Zaqafqaziya fəal rol oynamışdılar. Bununla əlaqədar mən belə bir nöqteyi-nəzərə tərəfdaram: hər cür ittifaqlar, bloklar barəsində az düşünmək, az danışmaq lazımdır. Gərək bacardığın qədər çalışıb qonşularla itirilmiş əlaqələrin bərpa edilməsinə nail olasan. Tam müstəqillik, əsl suverenlik barədə heç bir şüar, bəyannamə istər böyük, istərsə də kiçik xalqların real tələbatını əvəz edə bilməz. Harada ki, tamhüquqlu, qarşılıqlı münasibətlər yaradılmasına cəhd göstərilir, orada hər şey çox sadə bir model - mehriban qonşuluq münasibətləri əsasında həll edilir.

- Rusiyada, elə burada, Bakıda da eşitdim ki, son vaxtlar Azərbaycan İrana və Türkiyəyə güclü meyl göstərir, din birliyi amili az qala milli birlik amili kimi qəbul edilmişdir...

- Hər dövlətin öz xarici siyasəti var. Milli xüsusiyyətlər, din - bunlar da əhəmiyyətli amillərdir. Şəxsən mən milli hisslərlə dini hissləri qarışdırmazdım. Bu kateqoriyalar heç də hər cəhətdən oxşar deyildir, hərçənd əksər hallarda onları bəziləri az qala eyniləşdirməyə çalışırlar.

Bir vaxtlar bütün Qərb elə Şərq də sovet xalqlarının hamısına ən böyük şər kimi baxırdılar, səbəb də onların, Allaha "inanmaması" idi. Bəs indi, adamlar, xalqlar Allaha, dinə üz tutduqları vaxtla necədir, onlar yenə də günahkardırlar?... Sonra, təməlçilik niyyətləri və sair təhlükəli meyllər barəsində söhbətlərin əksəriyyəti mənə uydurma kimi görünür... O ki qaldı milli xüsusiyyətlərə, burada hətta səthi etnoqrafik bilik, zənnimcə, hər şeyi ətraflı şəkildə izah edir. Türk və Azərbaycan dilləri qohum dillərdir, elə bunun özü də yaxınlığın labüdlüyünü qabaqcadan müəyyənləşdirir. İranda on milyonlarla azərbaycanlı yaşayır. Məgər bu amillər iki böyük ölkə ilə yaxınlığın olmasını zərurətə çevirmirmi?

Daha bir məsələ barəsində... Yetmiş ildən artıq bir müddətdə biz öz cənub qonşularımızdan, demək olar, tamamilə ayrı düşmüşdük, indi, birləşmə, inteqrasiya əhval-ruhiyyəsi bütün dünyaya hakim kəsildiyi bir vaxtda nəyə görə də bizim qonşularla normal münasibətlərimiz olmasın? (Axı, bu münasibətlər başqa dövlətlərə heç bir ziyan gətirə bilməz). Mən bizim münasibətlərimizi nəzərdə tuturam... Azərbaycanı Türkiyə və İranla qədim tarix birləşdirir. Lakin təxminən 200 il Azərbaycan Rusiyanın tərkibində olmuşdur. Bu isə dərin iz buraxmışdır. Azərbaycanın həm Rusiya, həm Türkiyə, həm də digər dövlətlərlə yaxşı dostluq münasibətləri olmalıdır. Misal üçün, Qazaxıstanda, Özbəkistanda, Türkmənistanda çoxlu azərbaycanlı yaşayır. Rusiyada onlar təqribən 2 milyon nəfərdir. Onların sayı Şimali Qafqazla xüsusilə daha çoxdur. Bütün bunlar ona dəlalətdir ki, son dərəcədə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ağıllı xarici siyasət yeritmək lazımdır. Rusiyanın Qafqaz bölgəsində həmişə mənafeyi olmuşdur. Azərbaycan Rusiya ilə sıx əlaqələr saxladığı dövrlərdə çox şey qazanmışdır. Rusiyanın mədəni təsiri ilə milli mədəniyyətimizin vəhdəti Azərbaycanda çox maraqlı sintez əmələ gətirmişdir. Rusiya ilə normal münasibətlər bərpa edilməlidir. Əlbəttə, bütün dünyaya olduqca güclü təsir göstərən ABŞ və digər böyük ölkələrlə də normal münasibətlər yaradılmalıdır. Əgər Rusiya kimi böyük bir dövlət ABŞ-ın mənafeləri ilə hesablaşırsa, onda Azərbaycan kimi kiçik ölkələr bu mənafeləri, sözsüz, nəzərə almalıdırlar. Dünya siyasəti sadə bir iş deyildir...

- Müsahibəni qurtararaq, bir daha Azərbaycanın daxili siyasətinə qayıdıram. Müxalifət, Xalq Cəbhəsi hadisələrin inkişafından razı deyildirlər. Bəs təyin edilmiş referendum nəticəsində və ya referendumdan sonra onlar Konstitusiyaya zidd hər hansı tədbirlərə əl atsalar, onda necə?

- Mən bunu istisna etmirəm.

- Belə isə, onda necə hərəkət edəcəksiniz?

- Yeri gəlmişkən, onlar artıq buna əl atmışlar. Əbülfəz Elçibəy apreldə fövqəladə vəziyyət elan etmişdir. Sonra onu yenidən iki ay müddətinə uzatmışdır. Bu cəbhədə şəraitlə və daxili siyasi vəziyyətlə bağlı idi. Lakin Gəncə hadisələri başladıqda, Xalq Cəbhəsinin özü qanunu pozmağa və mitinqlər toplamağa başladı, doğrudur, mitinqlərə az adam gəlirdi - onlara, bir qayda olaraq, ən çox iki-üç min adam toplaşırdı.

Elçibəy qaçıb aradan çıxdıqdan sonra Xalq Cəbhəsi tərəfdarlarını öz iqamətgahının qarşısına toplayaraq mitinq keçirdi. Hüquq-mühafizə orqanlarımız fövqəladə vəziyyət haqqında qanunu əsas tutaraq asayişi pozanlara qarşı sərt tədbirlər görülməsinə təkidlə çalışırdılar. Amma mən buna mane oldum. Hətta televiziya icazəsiz keçirilən mitinqdən reportaj göstərdi. AXC əvvəlki şöhrətə malik deyil və məsələ də əsla mitinqlərdə deyildir. Onun üzvlərində çoxlu silah var. Onlar bax, bununla vəziyyəti mürəkkəbləşdirə bilərlər.

- Yaxın vaxtlarda Azərbaycanda iqtisadi vəziyyət necə olacaq, daha doğrusu, hökumət necə hərəkət edəcək?

- İqtisadiyyat son dərəcə bərbad vəziyyətdədir. Zavod və fabriklərin əksəriyyəti boş dayanır. Bütöv sahələr böhran içərisindədir, idarəetmə kadrlarının, texniki kadrların kəskin şəkildə çatışmadığı aydın nəzərə çarpır. Halbuki vaxt var idi, Respublikanın yüksəlişini məhz onlar təmin etmişdilər. İqtİsadi əlaqələr qırılmışdır. Biz, əslində, bütün istiqamətlərdə iş görməliyik. İqtİsadi islahatlar mümkün olan yerlərdə həyata keçirilməlidir, onlar lap köklü olsa da . Lakin sağlam haqq-hesab əsasında əvvəlki iqtisadi potensialdan da istifadə etmək vacibdir. Bəd əməllər az tutulubmuş kimi hələ bəziləri müxtəlif sıçrayış və sürətli irəliləyişdən dəm vurur. Mən bunun əleyhinəyəm: böhranın kor düyününü yavaş-yavaş açmaq, inkişafın İnqilabi yoluna deyil, təkamül yoluna, transformasiya metodikasına keçmək lazımdır... Biz çox tez-tez belə çağırışlar eşidirik ki, ba-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

zar yaradılması sahəsində fəaliyyəti gücləndirmək gərəkdir. Çoxları isə bizim artıq bazar şəraitində olduğumuzdan danışaraq özlərini də, ətrafdakıları da çaş-baş salırlar. Mən belə hesab edirəm ki, biz iqtisadi mənada bazara deyil, olsa-olsa adi bazara malikik, o da ki, çox bəsitdir. Bəs bu adi bazarı iqtisadi bazara necə çevirməli? Bax, məsələ də bundadır. Bax, burada yada salmaq lazımdır ki, bazar İqtisadiyyatının və əmək bazarlarının infrastrukturlarını, texnologiyaları, vergi sistemlərini ardıcıl surətdə yaratmaq və bir çox digər məsələləri yoluna qoymaq lazımdır. Biz intellektual ehtiyatlar olmadığı təqdirdə də işin öhdəsindən gələ bilməyəcəyik.

- Sizin bu vəzifədə hər hansı səfəriniz nəzərdə tutulurmu?

- Mən hələ heç nəyi nəzərdə tutmamışam. Yalnız daxili problemlərlə məşğulam. Bir tərəfdən, müharibə davam edir, təxminən bir milyon adam öz torpağında qaçqına çevrilmişdir, digər tərəfdən, hüquqi özbaşınalıq baş alıb gedir, qanunsuz yaradılmış silahlı dəstələr var. Bu problemlərin hamısı ilə hesablaşmaq və onların üzərində işləmək gərəkdir. Lakin xalq mənə inanır. Bu isə ən başlıca məsələdir. Buna görə də belə düşünürəm ki, həmvətənlərimin etimadını doğruldacaq və ölkəni sabitliyə gətirib çıxaracağam.

Söhbəti
Vitali Tretyakov
aparmışdır.

"Nezavisimaya qazeta"

24 avqust 1993-cü il.

Azərbaycan",
30 avqust 1993-cü il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

MÜHARİBƏ QURBANLARININ MÜDAFİƏSI ÜZRƏ BEYNƏLXALQ KONFRANS (Cenevrə, 30 avqust –1 sentyabr 1993-cü il) İŞTİRAKÇILARINA MÜRACİƏT

Müharibə qurbanlarının hüquqlarının müdafiəsi işində göstərdiyiniz xeyirxah cəhdlərə görə Sizə dərin təşəkkürümü bildirərək hamı tərəfindən qəbul olunmuş, tanınmış beynəlxalq hüquq normalarına bizim sadiqliyimizi bir daha təsdiq edirəm. Bütün dünyaya məlumdur ki, Azərbaycan Respublikası artıq beş ildən çoxdur ki, Ermənistan Respublikası tərəfindən təcavüzə məruz qalmışdır. Problem heç də yalnız onda deyil ki, Azərbaycan Respublikasının dövlət müstəqilliyi və ərazi bütövlüyü ciddi təhlükə altına düşmüşdür. Bizim yüz minlərlə dinc vətəndaşımız doğma Vətənində qaçqın olmuş, minlərlə adam bu gün də ermənilərin əlində girov kimi saxlanmaqdadır.

Biz ilk gündən Ermənistanın Azərbaycana qarşı apardığı ədalətsiz müharibəni pisləyirik. Biz bu müharibənin doğurduğu zülm və dəhşətləri lənətləyirik. Uşaqların çəkdiyi əzab, anaların göz yaşları, minlərlə adamın şikəst olmuş taleyi bizi çox kədərləndirir. Lakin təəssüflər olsun ki, hələ də qan tökülür və insanların çəkdiyi əziyyətlərin sonu görünmür.

Sizə müraciət edərək, bu yaxınlarda mən Azərbaycan Respublikasının imzaladığı müharibə qurbanlarının müdafiəsi haqqında 1949-cu il Cenevrə Konvensiyasının əvəzsiz qiymətini bir daha qeyd etmək istərdim.

Səmim-qəlbdən əmin olduğumu bildirirəm ki, Sizin konfrans müharibə burulğanına salınmış günahsız adamların çəkdiyi əziyyətləri qismən də olsa azaldacaq, qəbul edəcəyiniz qərarlar isə bu mühüm işlərin həyata keçirilməsi üçün səmərəli mexanizmə çevriləcək.

Öz tərəfimdən hamınıza səbir, dözüm və xeyirxah əməllərinizdə yorulmadan işləməyi arzulayır və əmin edirəm ki, Azərbaycan xalqı özgə torpaqlarına heç vaxt qəsd etməyəcək, xalqlar arasında dostluq və qarşılıqlı anlaşmanın daha da möhkəmlənməsinə çalışacaqdır.

Dərin hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikası prezidentinin
səlahiyyətlərini həyata keçirən
Azərbaycan Respublikası Ali Sovetinin sədri

31 avqust 1993-cü il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ BİLL KLİNTON CƏNABLARINA AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ VİTSE-PREZİDENTİ ALBERT QOR CƏNABLARINA AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI KONQRESİNİN SPİKERİ TOMAS FOLİ CƏNABLARINA

Hörmətli cənablar!

Sizə 1992-ci ilin dekabrında ABŞ konqresi tərəfindən qəbul olunmuş azadlığı müdafiə haqqında məlum aktla əlaqədar müraciət edirəm. Həmin akta uyğun olaraq keçmiş Sovet İttifaqı respublikalarına yardım göstərilir və bu akt Azərbaycan Respublikasına belə yardım göstərilməsini qadağan edir.

Azərbaycan xalqı, habelə erməni - azərbaycanlı münaqişəsi haqqında həqiqəti bilənlərin hamısı bunu çox böyük ədalətsizlik və ya yolverilməz anlaşılmazlıq kimi qarşılamışlar. Mənə məlum olduğuna görə, Azərbaycan barəsində bu ayrı-seçkilik tədbiri Azərbaycan tərəfindən Ermənistanın uydurma "blokadası" ilə əlaqədar nəzərdə tutulmuşdur. Həmin tədbir Qərbin kütləvi informasiya vasitələrində Ermənistan tərəfindən aparılan yaxşı təşkil olunmuş təbliğat kampaniyasının bəhrəsidir və onun gerçəkliklə heç bir əlaqəsi yoxdur.

Əvvəla, Ermənistan Respublikasının digər dövlətlər (Türkiyə, İran, Gürcüstan) ilə sərhədləri var və bu sərhədləri Azərbaycan blokadaya almaq iqtidarında deyildir. İkincisi, söhbət Azərbaycan ilə Ermənistan arasında nəqliyyat kommunikasiyalarından gedir ki, onlar da beş ildən çoxdur. Ermənistanın Azərbaycana qarşı apardığı müharibə nəticəsində dağılmışdır. Bundan nəinki Ermənistan, həm də Naxçıvan Muxtar Respublikasında yaşayan azərbaycanlılar böyük əziyyət çəkirlər. Biz bu kommunikasiyaların bərpası üçün öz tərəfimizdən hər şeyi etməyə hazırıq. Lakin bundan ötrü atəşi dayandırmaq və sülh danışıqlarına başlamaq lazımdır.

Azərbaycan münaqişənin dincliklə aradan qaldırılmasına, ATƏM-in Minsk prosesinə öz sadiqliyini dəfələrlə təsdiq etmişdir. Ancaq hər dəfə ATƏM-in Minsk qrupu çərçivəsində müvəffəqiyyətlər nəzərə çarpmağa başladıqda, onlar Ermənistan tərəfindən təcavüzkar əməllərlə alt-üst olunmuşdur.

Ermənistanın Azərbaycana qarşı təcavüzü, Azərbaycanın geniş ərazilərinin işğalı BMT Təhlükəsizlik Şurasının 822 və 853 nömrəli məlum qətnamələrində öz təsdiqini tapmışdır. Bu qətnamələr yerinə yetirilməmiş qalmışdır. Üstəlik, Ermənistan beynəlxalq birliyə meydan oxuyaraq, BMT nizamnaməsinə, Helsinki yekun aktına, ATƏM-ə məhəl qoymayaraq, öz təcavüzünü davam etdirir. Onun təcavüzü genişlənərək, Azərbaycan xalqına qarşı əsl

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

genosidə çevrilmişdir. Azərbaycan ərazisinin 20 faizi işğal olunmuş, öz torpağında qaçqınların sayı bir milyon nəfərə çatmışdır və artmaqda davam edir.

Azərbaycan xalqı öz müasir tarixinin ağır dövrünü keçirir. Bütün çətinliklərə baxmayaraq, biz müstəqil demokratik dövlət yaratmaq, bazar İqtisadiyyatına keçmək, totalitarizmdən və kommunist keçmişindən həmişəlik xilas olmaq arzusundayıq. Bizə bu işdə sizin böyük ölkənizlə sıx əməkdaşlıq, sizin köməyiniz labüddür. Göstərilənlərlə əlaqədar olaraq sizdən xahiş edirəm ki, azadlığı müdafiə aktının yenidən nəzərdən keçirilməsi və Azərbaycan barəsində ayrı-seçkilik bəndinin ləğv olunması üçün hər şey edəsiniz. Bu, həm keçmiş SSRİ ölkələri barəsində sizi siyasətinizə uyğun olardı, həm də ədalət və demokratiya prinsiplərinə cavab verərdi.

Bu məktubla sizə müraciət etdiyim anda erməni silahlı qüvvələri Azərbaycanın yeni rayonlarının - Cəbrayıl və Qubadlı rayonlarının işğal olunması üçün öz hücumlarını davam etdirir, yeni-yeni yaşayış məntəqələri ələ keçirilir, yandırılır və vəhşicəsinə soyulub talan edilir.

Demokratiya və azadlıq idealları, insan hüquqlarına və insanın əsas hüququ olan yaşamaq hüququna hörmət naminə sizdən xahiş edirəm ki, qan tökülməsinin dayandırılması və vəhşi təcavüz qarşısında öz günahı olmadan müdafiəsiz qalan Azərbaycan xalqının müdafiəsi üçün hər şey edəsiniz.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikası prezidentinin
səlahiyyətlərini həyata keçirən
Azərbaycan Respublikası Ali Sovetinin sədri

2 sentyabr 1993-cü il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

TACİKİSTAN RESPUBLİKASI
ALİ SOVETİNİN SƏDRİ
İMAMƏLİ RƏHMANOV CƏNABLARINA

Azərbaycan xalqı adından və şəxsən öz adımdan sizi və bütün qardaş Tacikistan xalqını istiqlaliyyət günü münasibətilə təbrik edirəm. Əminəm ki, ölkələrimizin suverenliyi kimi tarixi nailiyyət Azərbaycan - Tacikistan münasibətlərini keyfiyyətcə daha yüksək səviyyəyə qaldıracaq, bu münasibətləri daha səmərəli və zəngin edəcəkdir. Bunun üçün əsas xalqlarımızın çoxəsrlik qardaşlıq telləridir, mədəni və dini ənənələrinin yaxınlığıdır.

Bu gün dövlətlərimizin ərazi bütövlüyü, dinc inkişafı və əmin-amanlığı ciddi təhlükəyə məruz qalmaqdadır. Lakin şübhəm yoxdur ki, Azərbaycan və tacik xalqlarının müdrikliyi və iradəsi ölkələrimizə nəinki zamanın sınaqlarına layiqincə cavab verməyə, müstəqil və mütərəqqi inkişaf yoluna çıxmağa, həm də bütün Avrasiya məkanında sülhün və təhlükəsizliyin etibarlı təminatçıları olmağa kömək edəcəkdir.

Fürsətdən istifadə edib, sizə uğurlar və möhkəm cansağlığı, tacik xalqına tərəqqi və əmin-amanlıq arzulayıram.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikası prezidentinin
səlahiyyətlərini həyata keçirən
Azərbaycan Respublikası Ali Sovetinin sədri

9 sentyabr 1993-cü il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏLAHİYYƏTLƏRİNİ HƏYATA KEÇİRƏN RESPUBLİKA ALİ SOVETİNİN SƏDRİ HEYDƏP ƏLİYEVİN MƏTBUAT KONFRANSINDA BƏYANATI

10 sentyabr 1993-cü il

Hörmətli qonaqlar! Xanımlar və cənablar!

Bu mətbuat konfransının keçirilməsinə ilk növbədə Avroviziya, habelə respublika kütləvi informasiya vasitələri nümayəndələrinin xahişi ilə razılaşmışam.

Buraya gəlmiş xarici müxbirləri konkret olaraq nə maraqlandırması barədə məlumatım yoxdur, lakin təxminən güman edirəm ki, onlarda əsasən respublikanın özündəki və onun ətrafındakı vəziyyət, habelə son vaxtlar Azərbaycanda baş verən proseslər maraq doğrurur.

Bu proseslər artıq hamıya kifayət qədər geniş şəkildə məlumdur. Son aylar Azərbaycan dünyanın, xüsusən də qonşu ölkələrin informasiya orqanlarının diqqət mərkəzindədir, hər halda, biz belə hiss edirik. Lakin mən Avroviziya nümayəndələrinin və başqa jurnalistlərin indiyədək əldə edə bilmədikləri informasiyanı ilk mənbədən almaq istəmələrini başa düşürəm. Ola bilsin indi deyəcəklərim əvvəllər deyilənlərin təkrarı olacaq, lakin bununla belə, həm respublikadakı vəziyyət, həm də onun ətrafında baş verən hadisələr haqqında qısaca məlumat verməliyəm.

Respublikadakı vəziyyət barədə qısaca onu demək olar ki, son dövrdə bir tərəfdən müxtəlif siyasi, ictimai qüvvələrin, qrupların fəaliyyəti nəticəsində, digər tərəfdən respublika rəhbərliyinin buraxdığı ciddi nöqsanlar və səhvlər nəticəsində, üçüncü tərəfdən isə Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı beş ildən artıq davam edən hərbi təcavüzü üzündən Azərbaycanda coşğun proseslər baş vermişdir və indi də baş verir. Lakin bu ilin təxminən may-iyun aylarında həmin proseslər xüsusilə kəskin xarakter almış və bəlkə də hətta özünün ən yüksək nöqtəsinə çatmışdı. Azərbaycanı vətəndaş müharibəsi həddinə gətirib çıxaran hadisələr baş vermişdi və bu, müəyyən dərəcədə özünü əməli şəkildə göstərirdi. Bilirsiniz ki, iyunun 4-də Gəncə şəhərində faciəli hadisələr baş vermiş, sonra bunun davamı olmuş, hökumət qüvvələri ilə hakimiyyətə qarşı çıxan qüvvələr arasında təkcə Gəncədə deyil, Bakı yaxınlığında da toqquşmalar baş vermişdi. Bütün bunlar Azərbaycanda dövlət böhranına, siyasi böhrana gətirib çıxarmışdır.

Əslində, respublika artıq çoxdandır ki, dərin iqtisadi, sosial-siyasi böhran keçirir. Bu böhran ilk növbədə Azərbaycanın

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ərazilərini işğal etmək məqsədi ilə Ermənistan silahlı birləşmələrinin apardığı müharibə ilə bağlıdır. Digər tərəfdən isə bu böhran artıq son bir neçə il ərzində Azərbaycanda mövcud olan siyasi qeyri-sabitliklə bağlıdır. Hakimiyyət dəyişirdi, lakin nə əvvəlki, nə də sonrakı hakimiyyət ölkəni idarə edə bilmirdi. Bu böhran həm də iqtisadiyyat və sosial həyat sahəsində yol verilmiş səhvlərlə, nöqsanlarla bağlıdır.

iqtisadi, sosial böhrandan danışarkən deyə bilərik ki, görünür, bu, vaxtilə Azərbaycanın da daxil olduğu keçmiş Sovet İttifaqının başqa regionları üçün də müəyyən dərəcədə xarakterikdir. Lakin respublikada gedən, Azərbaycanın həyatını səciyyələndirən daxili ziddiyyətlər, siyasi, sosial və ictimai proseslər bu böhranı dərinləşdirir.

Azərbaycan müstəqil dövlətdir və öz müstəqil daxili və xarici siyasətini yeridir. Bu müstəqillik nisbətən yaxınlarda qazanılmışdır və əlbəttə, həmin dövr ərzində Azərbaycanın dövlət istiqlaliyyətinin atributlarını lazımi səviyyədə yaratmaq mümkün olmamışdır. Bu da hazırda respublikanın keçirdiyi çətinliklərin səbəblərindən biridir. Buna baxmayaraq, Azərbaycan müstəqil bir dövlət kimi dünya birliyi tərəfindən tanınmış, Birləşmiş Millətlər Təşkilatına qəbul olunmuş, bir çox beynəlxalq təşkilatlarda təmsil edilmiş və şübhə yoxdur ki, Azərbaycanın dövlət müstəqilliyi, milli istiqlaliyyəti artıq dönməz haldır. Görünür, söhbət yalnız ondan gedir ki, respublika öz dövlət siyasətini yeritmək və çox mürəkkəb daxili problemlərini beynəlxalq miqyasda həll etmək üçün öz dövlət və iqtisadi strukturlarını, təsisatlarını nə dərəcədə tezliklə yarada biləcəkdir.

Müharibə Azərbaycan üçün ən çətin problemdir. Qeyd etdiyim kimi, bu müharibə respublikamıza qarşı qonşu Ermənistan tərəfindən beş ildən çoxdur aparılır. Məlumdur ki, artıq müharibəyə çevrilən bu hərbi münaqişənin baisi Azərbaycan tərəfi deyildir. Əgər qarşıdurma əvvəlcə millətlərarası münaqişə səciyyəsi daşıyırdısa, sonra silahlı münaqişəyə çevrilmiş, indi isə, bayaq dediyim kimi, genişlənib qanlı müharibə halını almışdır. Təəssüf ki, bu müharibədə Ermənistan silahlı birləşmələri son iki-üç ildə Azərbaycan Respublikasına həm mənəvi, həm də maddi cəhətdən olduqca böyük ziyan vura bilmişlər.

Bu gün üçün vəziyyət belədir ki, Ermənistan silahlı birləşmələri keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisini tamamilə ələ keçirmiş, onun hüdudlarından xeyli kənara çıxaraq bir neçə rayonu, o cümlədən Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl və Qubadlı rayonlarını işğal etmişlər. Hərbi müdaxilə, fəal, hətta deyərdim, amansız hərbi əməliyyatlar nəticəsində bu rayonların milliyyətcə tamamilə azərbaycanlılardan ibarət olan əhalisi daimi yaşayış yerlərini tərk etmək məcburiyyətində qalmışdır və indi qaçqınların sayı təxminən bir milyon nəfərdir. Minlərlə dinc sakin qurban getmişdir. İstər keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində, istərsə də sadaladığım işğal edilmiş rayonlarda adamlar öz ev-eşiyindən, əmlakından məhrum olmuşlar, hər bir ailədə öldürülənlər, yaralılar, şik

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lər var, yəni fəlakət əslində, bütün Azərbaycan Respublikasını, onun bütün əhalisini əhatə etmişdir.

Bu illər ərzində, hərbi münaqişənin təkcə Azərbaycan, Ermənistan və bütün bölgə üçün deyil, həm də, zənnimcə, bütün dünya birliyi üçün mərhələ-mərhələ təhlükəli surətdə inkişaf etdiyi dövrdə onun aradan qaldırılması məqsədilə məqbul qərar tapmaq üçün ümumən müəyyən tədbirlər görülmüşdür. Amma bu tədbirlər heç bir nəticə verməmişdir. Üstəlik, müharibənin miqyasları zaman-zaman genişlənmişdir.

Bu məsələ ilə məşğul olmağa başladığımız son aylar ərzində onun həllinin ağıllı yolunu tapmaq üçün fəal tədbirlər görürük. Sülh danışıqları və məsələnin daha düzgün həlli üçün, əlbəttə, Azərbaycanın tam ərazi bütövlüyü, dövlət suverenliyi və dövlət müstəqilliyi prinsiplərinə əməl edilməklə, şərait yaratmaqdan ötrü biz atəşin dayandırılması, barışıq əldə olunması mövqeyində dururuq. Lakin bu da bir nəticə vermir. Atəşi dayandırmaq və sülh danışıqlarına başlamaq üçün göstərdiyimiz sülhsevər xarakterli cəhdlər hələlik nəticəsiz qalır, təəssüf ki, beynəlxalq təşkilatlar - Birləşmiş Millətlər Təşkilatı, onun Təhlükəsizlik Şurası, ATƏM və xüsusi olaraq Dağlıq Qarabağ probleminə dair ATƏM çərçivəsində yaradılmış Minsk qrupu mühüm nəticələrə nail ola bilməmişlər. Əslində, bu məsələnin həllində ümumiyyətlə, heç bir nəticə əldə edilməmişdir. Halbuki ümumən vəziyyət kifayət qədər aydındır, hamıya aydındır ki, Ermənistan silahlı birləşmələrinin Azərbaycana qarşı hərbi təcavüzündən söhbət gedir və nə isə xüsusi dəlil-sübutlar axtarmağa ehtiyac yoxdur. Bu fikri təsdiq edən ən inandırıcı sübut odur ki, Azərbaycan ərazisinin xeyli hissəsi Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunmuşdur, bu rayonların sakinləri - bir neçə yüz min nəfər adam qaçqına çevrilmişdir və faciəli vəziyyətdədir. Lakin, bununla belə, təəssüf ki, beynəlxalq təşkilatlar, dünya birliyi problemin həlli yollarını tapa, cərəyan edən proseslərə təsir göstərə, qan tökülməsini dayandıra bilməmişlər, atəşin kəsilməsinə və bu məsələnin beynəlxalq təşkilatlar çərçivəsində sülh yolu ilə həllinə nail ola bilməmişlər.

Yalnız bir şey edilmişdir: Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının iki qətnaməsi - Ermənistan silahlı birləşmələri Kəlbəcər rayonunu işğal etdikdən sonra, bu il aprelin 30-da 822 nömrəli qətnamə, Azərbaycanın böyük rayonu olan Ağdam rayonunun işğalından azacıq sonra, bu il iyulun 30-da 853 nömrəli qətnamə qəbul olunmuşdur. Lakin bu qətnamələr kağız üzərində qalmışdır, təəssüf ki, BMT kimi nüfuzlu beynəlxalq təşkilat, onun Təhlükəsizlik Şurası, həqta ATƏM-in imkanlarından istifadə etməklə, həmin qətnamələrin yerinə yetirilməsinə nail ola bilmirlər.

Bu qətnamələrdə isə Ermənistan silahlı birləşmələrinin Kəlbəcər və Ağdam rayonlarından qeyd-şərtsiz, dərhal çıxarılması nəzərdə tutulur. Lakin ATƏM həmin qətnamələr əsasında və

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Amerika Birləşmiş Ştatları, Rusiya və Türkiyənin təşəbbüsünə uyğun olaraq Minsk Konfransı çərçivəsində münaqişənin sülh yolu ilə aradan qaldırılması məsələsi ilə məşğul olan müddətdə Ermənistan silahlı birləşmələri heç bir beynəlxalq təşkilata, heç bir beynəlxalq hüquq normalarına tabe olmayaraq öz işini görməkdədir. Füzuli, Cəbrayıl və Qubadlı rayonları məhz həmin dövrdə işğal olunmuşdur.

Son vaxtlar Azərbaycan Respublikasının müvafiq orqanlarının Dağlıq Qarabağda hakim qüvvələrlə bilavasitə görüşləri olmuşdur. Atəşin dayandırılması haqqında bu görüşlər əsasında saziş əldə edilmişdir. Bu, avqustun 31-də olmuşdur. Sazişi Ermənistan Respublikasının rəhbərliyi də bəyənmişdir. Mən belə düşünürəm ki, saziş nəinki bəyənilmişdir, ümumiyyətlə, onların iştirakı ilə qəbul edilmişdir. Ona görə ki, belə fikirləşmək sadəlövhlük olardı: kiçik, özü də Azərbaycan ərazisində yerləşən bir vilayət - Dağlıq Qarabağ Muxtar Vilayəti bu cür genişmiqyaslı hərbi əməliyyatları, guya müstəqil surətdə apara bilər. Buna baxmayaraq, biz Ermənistan Respublikasının prezidenti cənab Levon Ter-Petrosyanın sentyabrın 1-də verdiyi bəyanatı razılıq hissi ilə qarşıladıq. O bildirmişdir ki, atəş dayandırılır və Ermənistan silahlı birləşmələri Azərbaycanın işğal edilmiş rayonlarından çıxarılacaqdır. Amma bundan sonra Azərbaycanın Qubadlı rayonu Ermənistan silahlı birləşmələri tərəfindən tutulmuş və tamamilə işğal edilmişdir.

Buna baxmayaraq, biz sülh mövqelərində möhkəm dayanmışıq. Azərbaycan tərəfi heç bir hücum əməliyyatı keçirmir. Əksinə, yalnız müdafiə, öz ərazilərini qorumaq prinsiplərinə əməl edir. Buna görə də biz bu məsələnin dincliklə həllinə, sülh danışıqlarına daha çox diqqət yetiririk. Son vaxtlar bu danışıqlar beynəlxalq təşkilatların səyləri ilə yanaşı, Rusiya Federasiyasının və Rusiya Federasiyası prezidentinin nümayəndəsi, xüsusi tapşırıqlar üzrə səfir Vladimir Kazimirovun vasitəçiliyi ilə aparılır. O, bölgəmizdə, Azərbaycanda, Ermənistanda, Dağlıq Qarabağda dəfələrlə olmuşdur. Həmin məsələ son vaxtlarda da, mən Moskvada Rusiya rəhbərləri ilə görüşəndə də danışıqlar və söhbətlərimizin diqqət mərkəzində olmuşdur. Atəşin tamamilə dayandırılmasına nail olmaq və sülh danışıqlarından ötrü imkan yaratmaq üçün sentyabrın 11-də Moskvada Azərbaycan nümayəndələri və Dağlıq Qarabağ ermənilər görüşəcəklər.

Dünən sentyabrın 9-da Moskvada ATƏM-in Minsk konfransının növbəti iclası işinə başlamışdır. Lakin hələlik, təəssüf ki, konkret əməli nəticələr yoxdur. Əlbəttə, biz beynəlxalq təşkilatların, o cümlədən ATƏM-in Minsk konfransının fəaliyyətinin nəticələrindən razı qala bilmərik. Lakin, buna baxmayaraq, biz Birləşmiş Millətlər Təşkilatı kimi çox mötəbər beynəlxalq təşkilatın və BMT Təhlükəsizlik Şurasının şübhəsiz, ATƏM-in və ATƏM çərçivəsində işləyən Minsk konfransının da fəaliyyətinə böyük hörmət və böyük ümidlə yanaşırıq. Hərçənd narazılıq bildirmək üçün bizdə əsaslar var ki, onların qərarları əslində həyata keçirilmir. Bununla belə, biz beynəlxalq təşkilatların və adlarını çəkdiyim təşkilatların qüvvə və imkan-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

larına inanır və ümid edirik ki, onların köməyi ilə bölgəmizdə sülhə nail olacağıq.

O ki qaldı daxili siyasi vəziyyətə, artıq qeyd etdiyim kimi, bu vəziyyət Azərbaycanda son illər, o cümlədən də Azərbaycan rəhbərliyində dəyişikliklərlə başa çatan ildə heç vaxt sabit olmamışdır. Elə bu gün də biz hələlik tam sabitlikdən danışa bilmərik, çünki bəzi qüvvələr suveren və müstəqil Azərbaycan Respublikasının ümumdövlət, ümumxalq mənafelərini o qədər də dəqiq və aydın təsəvvür etmir, öz şəxsi mənafelərini, siyasi iddialarını, tamahkarlıq məqsədlərini daha üstün tuturlar. Azərbaycanda qanunsuz silahlı dəstələr yaranmışdır. Bu dəstələr respublikada bir ildən artıq hakimiyyətdə olmuş Azərbaycan Xalq Cəbhəsinə də mənsubdur. Belə silahlı dəstələr bəzi qeyri-leqal, lakin daha çox mafioz qruplarda da var. Şübhəsiz, bütün bunlar Azərbaycanda daxili siyasi vəziyyəti tamamilə sabitləşdirməyə imkan vermir, lakin biz əminik: son aylarda həyata keçirdiyimiz konkret tədbirləri xalqın müdafiə etməsi, cəmiyyətin, Azərbaycan əhalisinin böyük əksəriyyətinin ümumən bəyənməsi buna təminat verir ki, biz respublikada daxili siyasi vəziyyətin sabitləşməsinə, milli həmrəyliyə və hazırda bütün respublikanın, bütün əhalinin həyatını çətinləşdirən problemləri mərhələ-mərhələ həll etməyə müvəffəq olacağıq.

Azərbaycanda elə Azərbaycanın öz sakinlərindən qaçqınlar olması vəziyyəti mürəkkəbləşdirən amildir. Biz qaçqınların vəziyyəti ilə, onların həyatı ilə bağlı problemlərlə fəal məşğul oluruq və inanırıq ki, bu çətinlikləri də aradan qaldıra biləcəyik. Lakin bütün bunlar Azərbaycanın dövlət orqanlarının fəaliyyətini, əlbəttə, qat-qat çətinləşdirmişdir.

Sizə bütün bunlar barəsində məlumat verərək demək istəyirəm: biz əminik ki, Azərbaycanın dövlət rəhbərliyinin həyata keçirdiyi tədbirlər müsbət dəyişikliklərə gətirib çıxaracaq, suveren dövlət kimi Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsinə, daxili siyasi vəziyyətin sabitləşməsinə və əlbəttə, respublikanın ərazi bütövlüyünün təmin olunmasına xidmət edəcəkdir. Şübhə yoxdur ki, Azərbaycanın işğal olunmuş bütün torpaqları qaytarılmalıdır. Biz onların işğalı ilə heç vaxt razılaşa bilmərik. Zənnimcə, dünya birliyi və beynəlxalq təşkilatlar heç vaxt imkan verməzlər ki, indi, biz XXI əsrin astanasında olduğumuz bir vaxtda, dünya sivilizasiya və demokratiya yolu ilə getdiyi bir vaxtda zor gücünə dövlətdə dəyişikliklər və ya bir dövlətin bütövlüyündə dəyişikliklər edilməsi mümkün olsun. Əlbəttə, biz buna yol verməyəcəyik və öz sərhədləri daxilində vahid, bütöv dövlət kimi Azərbaycan öz ərazisinin və öz müqəddəratının tam sahibi olacaqdır. Biz bu məsələləri tamamilə həll etmək əzmindəyik. Sizə vermək istədiyim məlumat bundan ibarətdir. İndi suallarınıza cavab verməyə hazıram.

S u a l: Cənab Əliyev, Rusiya qoşunları Azərbaycana qayıdırsa, Qarabağ probleminin həllində onların rolu necə ola bilər? Siz Türkiyənin belə bir bəyanatını necə qiymətləndirirs

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ölkə təkcə Naxçıvanın deyil, həm də bütövlükdə Azərbaycanın ərazi bütövlüyü üçün təminatçı olmağa hazırdır?

C a v a b: Rusiya qoşunlarının Azərbaycana qayıtması məsələsi gündəlikdə yoxdur və bu məsələ mən Moskvada olarkən müzakirə edilmədi. Biz Rusiya rəhbərliyinə belə bir müraciətlə xahiş etdik ki, atəşin dayandırılması probleminin həllində, münaqişənin dincliklə aradan qaldırılmasında vasitəçilik köməyi göstərsin. Biz bunu əsas tuturduq ki, Rusiya həm Azərbaycanın, həm də Ermənistanın şimal qonşusudur, bizi onilliklərdən bəri sıx əməkdaşlıq telləri bağlayır. Rusiya Qafqaz bölgəsində, o cümlədən Zaqafqaziyada - Ermənistanda da, Azərbaycanda da kifayət qədər nüfuza malikdir. Buna görə də biz bu mürəkkəb problemin həllində Rusiyanın yaxından iştirakını, bu ölkənin obyektiv mövqeyini mühüm amil sayırıq. Razılıq hissi ilə deyə bilərəm ki, Rusiya rəhbərliyi xahişimizə müsbət cavab verdi.

O ki qaldı Türkiyənin baş naziri Tansu Çillərin belə bir bəyanatına ki, Türkiyə Azərbaycanın ərazi bütövlüyü üçün təminatçı ola bilər, deyə bilərəm ki, biz Azərbaycana hər hansı köməyi, kimin tərəfindən təklif edilməsindən asılı olmayaraq, razılıq hissi ilə qarşılayırıq. Ona görə ki, Azərbaycan təcavüzə məruz qalan ölkədir. Onun ərazisinin xeyli hissəsi Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunmuşdur. Biz bu münaqişənin aradan qaldırılması naminə bütün ölkələrlə, o cümlədən də Türkiyə ilə əməkdaşlıq etməyə hazırıq.

S u a l: Münaqişənin aradan qaldırılmasında beynəlxalq təşkilatların, xüsusən BMT-nin rolu, sizcə, nədən ibarətdir? Daha bir sual, bu, bir növ şəxsi sualdır. Siz "siyasətdə uzunömürlülər"dən birisiniz və hazırda onlar keçmiş SSRİ respublikalarında az deyildir. Fikrinizcə, Şevardnadze, Kravçuk, Nazarbayev sizin kimi xadimlərin müvəffəqiyyətini necə izah etmək olar?

C a v a b: Mən mövqeyimizi qədərincə aydın izah etdim. Mövqeyimiz bundan ibarətdir ki, biz Qarabağ münaqişəsinin həllində Birləşmiş Millətlər Təşkilatının, Təhlükəsizlik Şurasının və ATƏM-in daha yaxından iştirak etməsini istəyirik. Bu münaqişə kifayət qədər sanballı tarixə malikdir və obrazlı desək, "uzun saqqallı" münaqişədir. Ciddi qətnamələr qəbul edilmişdir. Azərbaycan ictimaiyyəti onları hər dəfə də böyük sevinclə və böyük ümidlə qarşılamışdır. Bundan əlavə, son vaxtlar ABŞ dövlət departamenti, Türkiyə rəhbərliyi, Rusiya Federasiyasının Xarici İşlər Nazirliyi bəyanatlar vermişlər. Bir halda ki, konkret nəticələr əldə edilməmişdir, deməli, dünya birliyində çox sanballı nüfuzu olan bu təşkilatlar və ölkələr daha təsirli tədbirlərə keçməyin lübüdlüyü barədə düşünməlidirlər. O ki qaldı münaqişə zonasında BMT qüvvələrinin yerləşdirilməsinə, mən belə düşünürəm ki, əvvəlcə bu məsələni necə həll etməyi müəyyənləşdirmək, sonra isə xırda məsələlər və mexanizm barəsində fikirləşmək lazımdır. Hər hansı qüvvələrin yerləşdirilməsi məsələnin həlli mexanizmidir. Əvvəlcə gərək onun həyata keçirilməsi üçün siyasi şərait yaradılmasına nail olasan.

Sizin ikinci sualınız barəsində: sizin dediyiniz o "uzun

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ömürlülük" barəsində təəccüb və şübhənizi başa düşmədim. Son vaxtlar siyasi meydanda peyda olmuş xadimlərdən onların nəyi pisdir? Məsələn, mən hesab edirəm ki, sadaladığınız adamlar kifayət qədər böyük əməli fəaliyyət təcrübəsinə, çox böyük bilik ehtiyatına malikdirlər. Onlar istiqlaliyyət qazanmış öz xalqlarına, öz ölkələrinə nə üçün faydalı ola bilməzlər? Axı hər hansı əlamətə görə məhdudiyyət qoymaq olmaz. Siyasi plüralizm, demokratik prinsiplər siyasi əqidəsindən, milli mənsubiyyətindən, dini etiqadından asılı olmayaraq, hər bir adama ictimai-siyasi həyatda fəal iştirak etməyə imkan verir. Əgər həmin xadimlər - mən belə başa düşdüm ki, siz məni də onların sırasına aid edirsiniz - bu gün öz ölkələrinin ictimai-siyasi həyatına fəal təsir göstərmək imkanına malikdirsə və əgər onları öz xalqları çağırmışlarsa, buna kim etiraz edə bilər?

S u a l: İran barəsində - müharibə ilə əlaqədar nə kimi danışıqlar aparılmışdır? Siz İrandan hərbi kömək tələb etmisinizmi?

C a v a b: İran rəhbərliyi ilə danışıqlarımıza səbəb Azərbaycanın bu ölkə ilə yaxın və ya həmsərhəd olan rayonlarında hərbi əməliyyatların güclənməsi ilə əlaqədar indiki halda ən əvvəl İran tərəfinin fəallığı olmuşdur. Danışıqlar bununla bağlı idi ki, hərbi əməliyyatlar artıq İranla həmsərhəd ərazidə az qala onun ərazisində gedirdi. Yaşayış məntəqədərinə yağdırılan mərmilər İran ərazisinə düşürdü. Siz bilirsiniz ki, Füzuli, Cəbrayıl, Qubadlı rayonlarımız İranla həmsərhəddir, özü də ərazimizi Araz çayı ayırır. Son vaxtlar adamlar öz aralarında ünsiyyət üçün imkana malikdirlər, çünki Araz çayının hər iki tərəfində azərbaycanlılar yaşayırlar. Onları qohumluq telləri, eyni millətə ümumi mənsubiyyət, tarixi əlaqələr və digər əlaqələr bağlayır. Buna görə də tamamilə qanunauyğundur ki, İran, xüsusən onun sərhədyanı vilayətləri Ermənistan silahlı birləşmələrinin apardıqları fəal hərbi əməliyyatlardan narahat idilər.

Bizə məlum olduğuna görə, bu, orada yerli əhali arasında hiddət, təşviş, narahatlıq doğrurmuşdur. Çoxları ərazimizə keçib öz qardaşlarına kömək etmək istəyirdi. Bu, tamamilə qanunauyğun haldır: lap yaxınlıqda xalq məhv edildikdə, başqaları buna etinasız və ya biganə qala bilməzlər. Odur ki, bu qədər böyük miqdarda qaçqın görən İran hökuməti təşəbbüs irəli sürərək bildirmişdir ki, onlar işğal edilmiş həmin rayonlardan olan təxminən 100 min qaçqını öz öhdələrinə götürə bilərlər. Əgər indi sizin burada təmsil etdiyiniz Avropa ölkələri belə təşəbbüs irəli sürərlərsə, biz onu yalnız minnətdarlıq hissi ilə qəbul edərik. Fərqi yoxdur, istər Amerika, İngiltərə olsun, istərsə də Fransa və ya Almaniya.

İran bizdən xahiş etdi ki, yüz min qaçqın üçün müvəqqəti çadır şəhərciyi salınmasına yer ayıraq. Biz onlara yer ayırdıq. Buyurun, indi siz də öz ölkələrinizə müraciət edin, qoy onlar bizə kömək göstərsinlər. Biz İrana ayrılmış sahənin yaxınlığında digər hər hansı ölkəyə də yer ayırarıq, təki bizə kömək etsinlər. Bu məsələnin mahiyyəti əslində bundan ibarətdir. O ki qaldı İran hökumətinin planlarına, mən dəfələrlə demişəm ki, Er

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

nistan silahlı birləşmələrinin bu cür son dərəcə təhlükəli, avantürist, təcavüzkar hərəkətləri münaqişəni beynəlmiləlləşdirməyə doğru aparır. Buna nə İran, nə də Türkiyə biganə qala bilməz.

S u a l: Elçibəyin vaxtında Qərbin aparıcı firmaları ilə bağlanmış neft sazişlərinin taleyi necədir? Azərbaycan üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyə hazırdırmı?

C a v a b: Görünür, sizin düzgün məlumatınız yoxdur. Əbülfəz Elçibəyin vaxtında heç bir saziş imzalanmamışdır. ABŞ-ın, İngiltərənin və başqa ölkələrin neft şirkətləri ilə danışıqların özü də uzun müddət, bir ildən çox və hətta iki il davam etmişdir. Əlimizdə olan yeganə sənəd Azərbaycan tərəfdən bir şəxsin - Azərbaycan Neft Şirkəti prezidentinin imzaladığı bəyannamədir. Həmin bəyannamədə Qərbin neft şirkətləri ilə heç bir konkret razılaşma nəzərdə tutulmamışdır. Lakin, bununla belə, biz neft yataqlarının birlikdə işlənməsi haqqında sazişlərin layihələrində ciddi səhvlər və çatışmazlıqlar aşkar etmişik. Bunlara bir tərəfdən, ola bilsin, işi bilmədiklərinə görə, yaxud qəsdən, Azərbaycan tərəfi, o biri tərəfdən isə Qərbin neft şirkətləri yol vermişlər. Həmin şirkətlər danışıqları daha sivilizasiyalı şəkildə, hər iki tərəfin mənafeyini nəzərə almaqla aparmalı idilər. Buna görə də biz sadəcə olaraq həmin sazişlərin layihələrinin hazırlanmasına dair işi dayandıraraq müstəqil ekspertlər dəvət etmişik. Yeri gəlmişkən, əilaran arasında İngiltərənin, ABŞ-ın nümayəndələri də var. Hazırlanmış bütün layihələri onların iştirakı ilə təhlil etmişik.

Zənnimcə, sazişlərin dayandırılması haqqında söhbətlər bilərəkdən, Azərbaycanın yeni rəhbərliyi haqqında xaricdə yanlış pəj yaratmaq, atdığımız düzgün addımı gözdən salmaq məqsədi ilə aparıdırdı. İndi hamıya aydındır ki, biz heç bir sazişi dayandırmamışıq, çünki belə sazişlər, ümumiyyətlə, olmamışdır.

Neft - Azərbaycanın ən böyük sərvəti olub, xalqa, özü də təkcə indiki nəslə deyil, həm də gələcək nəsillərə məxsusdur. Dövlət adamları kimi bizim vəzifəmiz milli sərvətimizə son dərəcə qənaətlə və qayğı ilə yanaşmaqdır. Elə bilirəm ki, öz xalqının, öz Dövlətinin mənafeyini müdafiə edən bütün ölkələrin rəhbərləri də belə hərəkət edərdilər. Bu proses indi davam edir, əminəm ki, həmin məsələnin ən düzgün həllini tapacağıq. Hər halda demək istəyirəm ki, ilkin hesablamalara görə, əvvəllər nəzərdə tutulanlarla müqayisədə indiki layihələrdə xarici neft şirkətləri ilə birgə fəaliyyət nəticəsində Azərbaycanın əldə edəcəyi mənfəət təqribən 17 milyard dollar artacaqdır. İndi siz özünüz üçün nəticə çıxara bilərsiniz.

S u a l: Bu gün atəşkəsin son günüdür. Azərbaycanın bölgədəki son rayonu da ermənilərin əlinə keçərsə və İran Azərbaycan torpaqlarına daxil olarsa, onda nə olacaq? İkinci sualım belədir: Beyləqan və İmişli şəhərlərində 200 mindən çox qaçqın var. Oktyabrın 3-də isə seçkilər keçiriləcək. Bu adamlar neçə səs verəcəklər? Artıq qış yaxınlaşır, çadırlardan başqa onların heç nəyi yoxdur. Qışı neçə k

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

C a v a b: Bu gün atəşkəsin son günüdür, ancaq biz danışmışıq, atəşkəs davam edəcəkdir. Mən sizə məlumat verdim ki, sabah, yəni sentyabrın 11-də Moskvada bizim nümayəndələr görüşəcəklər və atəşkəsin davam etməsi üçün danışıqlar aparacaqlar. Ümidvaram ki, bu danışıqlar müsbət nəticə verəcək və atəşkəsin müddətini davam etdirə biləcəyik. Ona görə də narahat olmaq lazım deyil. Əgər atəşkəs dayansa, yəni atəş yenidən başlansa, sərhədləri qoruyan İran əsgərlərinin nə edəcəklərinə gəldikdə isə, narahatlığa ehtiyac yoxdur. O ki qaldı qaçqınlara, onlar təkcə Beyləqanda deyildirlər. Mən sizə dedim ki, bir milyona yaxın qaçqın var. Ancaq onların yerləri, yurdları var, yəni onlar bir yerdə yaşayırlar, bir yerdə otururlar və onlara qayğı göstəririk. Avqustun 29-da keçmiş prezident Əbülfəz Elçibəyə etimad göstərilməsi haqqında referendum keçirilərkən həmin qaçqınlar səs verdilər. Buna tam əmin ola bilərsiniz. Ona görə də oktyabrın 3-dəki prezident seçkilərində də onlar səs verəcəklər. Mən sizə məsləhət görürəm ki, o gün həmin yerlərdə də olun, öz gözünüzlə görün ki, necə olacaq. İranlıların oraya gəlib qaçqınlara qayğı göstərməsi haqqında isə dedim, lakin rus dilində olduğundan bəlkə də yaxşı tərcümə edilmədiyi üçün siz yaxşı başa düşmədiniz. Biz hər bir dövlətin Azərbaycan torpağında qaçqınlara qayğı göstərməsini, kömək etməsini çox minnətdarlıqla qəbul edərik. O cümlədən də Türkiyənin köməyini. Buyurun, gəlin.

S u a l: Hörmətli sədr, Moskva danışıqlarının yekunları Azərbaycan - Ermənistan münaqişəsinin uğurla aradan qaldırılması üçün ümidverici perspektivlər açır. Mümkünsə deyin, ölkə daxilində sabitliyə nail olmaqdan ötrü hansı tədbirlər nəzərdə tutulur? Sağ olun.

C a v a b: Bilirsiniz, ölkə daxilində sabitliyi təmin etməkdən ötrü tədbirlərimiz çoxdur. Ancaq çox yaxşı olardı ki, sabitliyi pozmağa çalışan qüvvələr anlasınlar ki, öz şəxsi mənafelərini, məqsədlərini, bəzən millətin, xalqın, dövlətin, ölkənin mənafeyinə zidd olan məqsədlərini kənara qoymalıdırlar. Əgər buna nail ola bilsələr, mənə belə gəlir ki, sabitliyi təmin etmək üçün xüsusi tədbirlərin görülməsinə ehtiyac olmayacaq. Siz Azərbaycanda yaşayırsınız, yaxşı bilirsiniz ki, sərhəd bölgələrində nə qədər təxribatçı qruplar işləyir, onların təxribatı nəticəsində biz nə qədər böyük zərər çəkirik. Yəqin eşitmisiniz, son vaxtlarda Qubadlı rayonunda, ondan sonra Sumqayıtda, Bakıda onların bir hissəsi həbs olunmuşdur. Bu cinayətkar qrupun üzvləri həbs olunarkən bəziləri özlərini öldürmüşlər. Belə quldur dəstələrini, belə qrupları ayrı-ayrı adamlar öz şəxsi məqsədlərini həyata keçirmək üçün yaratmışlar. Təəssüf ki, bəzən adamlar adını siyasətçi qoyub hakimiyyət uğrunda mübarizə apararkən siyasi, yaxud ictimai imkanlarının məhdud olduğunu bilərək, məqsədlərinə ancaq bir yolla - silahla, təxribatla nail olmağa çalışırlar.Deməli, vəzifə tutmaq istəyirdilər. Lakin gərək biləydilər ki, bacarığına, səriştəsinə görə vəzifə tutmaq, yaxud iş başına gəlmək olar. Ancaq özünə silahlı dəstə, quldur dəstəsi düzəldən, onun vasitəsilə terrorçuluqla məşğul olan, xalqı əzib-incidən, beləliklə də vəzifə tutaraq öz şəxsi, çirkin mənafelərini həyata

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

keçirmək istəyənlər, şübhəsiz, Azərbaycanın daxili sabitliyini pozan adamlardır. Biz onlara qarşı ciddi mübarizə aparacağıq, Azərbaycanda qayda-qanunun möhkəmlənməsini təmin edəcəyik və belə adamlara Azərbaycanda yer olmayacaq.

S u a l: Cənab sədr, Moskvada Rusiya və Azərbaycan baş nazirlərinin müavinləri Aleksandr Şoxin və Abbas Abbasovun imzaladıqları müqavilədən Azərbaycan nə qazanır və nə itirir? Bu müqavilə hansı tərəfin xeyrinədir? Çox sağ olun.

Ca v a b: Bu müqavilə həm Azərbaycanın, həm də Rusiyanın xeyrinədir. Birinci növbədə Azərbaycanın xeyrinədir.

S u a l: Yoldaş Əliyev, indi belə bir fikir var ki, regionun gələcək taleyi slavyan və türk amilindən asılıdır. Sizin fikrinizcə, həmrəylik hansı ideologiyada mümkündür və tarixi keçmişə əsaslanaraq sizə elə gəlmirmi ki, indiki reallıq slavyan-türk alyansının yaranmasına imkan verəcək? Çox sağ olun.

C a v a b: Ola bilsin ki, bu sual sizin öz fikrinizdir, lakin əgər bizim region haqqında danışırsınızsa, şübhəsiz ki, Rusiya ilə Türkiyə arasında münasibətlərin yaxşı olması Azərbaycan ilə Ermənistan arasındakı hərbi münaqişənin həllinə çox kömək edəcəkdir. Ancaq bu regiondakı bütün məsələləri bu iki ölkənin alyansı ilə bağlamaq o qədər də doğru olmazdı. Ola bilər, bu sizin şəxsi fikrinizdir, mən buna etiraz etmirəm. Amma yenə də deyirəm, Türkiyə ilə Rusiya arasında münasibətlərin yaxşılaşması ümumən Qafqazda mövcud olan problemlərin, xüsusilə hərbi münaqişələrin aradan qaldırılmasına kömək edəcəkdir.

S u a l: Cənab Heydər Əliyev, sizin Moskvaya səfəriniz təsadüfənmi, yaxud nədənsə Türkiyə baş nazirinin oraya səfəri ilə üst-üstə düşmüşdür. Bu səfərləri Rusiya - Azərbaycan münasibətlərinin nizama salınmasında Azərbaycan və Türkiyənin birgə səyləri kimi qiymətləndirmək olarmı? Çox sağ olun.

C a v a b: Bu səfərlər təsadüfən eyni vaxta düşmüşdür. Bunlar əvvələcədən, yəni danışıqlar əsasında planlaşdırılmış səfərlər deyil. Ancaq, şübhəsiz ki, bu imkandan istifadə edərək Türkiyənin baş naziri Tansu Çillərlə orada, Moskvada görüşdüm və biz lazımi çərçivədə fikir mübadiləsi apardıq. Mənə belə gəlir ki, bu, həm Rusiya - Türkiyə münasibətləri üçün, həm də Azərbaycan-Rusiya və Azərbaycan-Türkiyə münasibətləri üçün faydalıdır.

S u a l: Sizcə Avropa dövlətlərinin, Avropa Birliyinin qaçqınlara göstərdiyi yardım nə dərəcədə hiss edilir? Sizin fikrinizcə, belə yardıma ehtiyac varmı?

C a v a b: Mən dedim ki, həmin dövlətlər tərəfindən belə yardım, belə təşəbbüs yoxdur. Hər halda biz başqa ölkələrdən hələ belə yardım almamışıq. Lakin əgər belə təşəbbüs olarsa, biz onu məmnuniyyətlə qəbul edərik.

Diqqətinizə görə sağ olun.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BƏSTƏKAR ARİF MƏLİKOVA

Hörmətli Arif Cahangir oğlu!

Sizi anadan olmağınızın 60 illiyi münasibətilə səmim-qəlbdən təbrik edirəm.

Qırx ildən çoxdur ki, çoxşaxəli yaradıcılığınız çağdaş Azərbaycan musiqi mədəniyyətini zənginləşdirməkdədir. Böyük fitri istedadın məhsulu olan "Məhəbbət əfsanəsi" baletiniz xalqımızın milli musiqisini dünyaya tanıdan şah əsərlərdəndir. Sizin yaradıcılığınız ulu mədəniyyətimizi bütün əzəməti ilə aləmdə təmsil edir.

Əmin olduğumu bildirmək istəyirəm ki, xalqımızın mənəvi təkamülündə, gənclərimizin estetik tərbiyəsində indən sonra da mühüm xidmətlər göstərəcək, qədim və zəngin ənənələri olan milli musiqi mədəniyyətimizə parlaq səhifələr yazacaqsınız. Sizə xoş anlar, xoş günlər, xoş illər arzulayıram.

Dərin hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikası prezidentinin
səlahiyyətlərini həyata keçirən
Azərbaycan Respublikası Ali Sovetinin sədri

14 sentyabr 1993-cü il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNDƏ KEÇİRİLMİŞ MÜŞAVİRƏDƏ ÇIXIŞ

20 sentyabr 1993-cü il

Hörmətli zabitlər, Daxili İşlər Nazirliyinin əməkdaşları, polis işçiləri! Azərbaycan Respublikası öz tarixinin ağır mərhələsini keçirir. Bu mərhələnin nə qədər ağır, məsuliyyətli, çətin olduğu aydındır və əsas səbəbləri də məlumdur. Bildiyiniz kimi, beş ildən artıqdır ki, Azərbaycan Respublikası Ermənistanın silahlı qüvvələri tərəfindən hərbi təcavüzə məruz qalmış və nəticədə torpaqlarımızın bir qismi işğal olunmuş, şəhərlərimiz, qəsəbələrimiz, kəndlərimiz dağılıb viran olunmuş, yüz minlərlə həmvətənimiz, vətəndaşımız qaçqın düşmüşdür.

Son dövrdə Azərbaycan böyük sosial-iqtisadi, ictimai-siyasi böhran içərisindədir. Şübhəsiz ki, bu böhranın əsas səbəblərindən biri Azərbaycanın beş ildən artıq bir müddətdə müharibə vəziyyətində olması, eyni zamanda, son illərdə onun həm ictimai-siyasi, həm də sosial-iqtisadi həyatında özündən asılı olan və olmayan mütəmadi dəyişikliklərdir. Bunların hamısı Azərbaycan Respublikasını çox ağır vəziyyətə salmışdır. Şübhəsiz ki, bu ağır vəziyyət respublika vətəndaşlarının həyat tərzini gərginləşdirmiş, çətinləşdirmiş və respublikada ümumi gərgin bir vəziyyət yaratmışdır.

Eyni zamanda, son dövrün ən əlamətdar hadisəsi ondan ibarətdir ki, Azərbaycan Respublikası müstəqil dövlət olmuşdur. Azərbaycan xalqı indi artıq öz həyatını müstəqil dövlət çərçivəsində, öz arzu və niyyətləri əsasında qurmaq imkanına malik olmuşdur. Beləliklə, bir tərəfdən Azərbaycan müstəqil dövlət kimi böyük imkanlar əldə edibsə, ikinci tərəfdən bu imkanlardan istifadə etmək həddindən artıq çətinləşmiş və ağırlaşmışdır. Ona görə də indi Azərbaycan Respublikasının hər bir vətəndaşı qarşısında, Vətənini sevən, ona xidmət etmək istəyən hər kəs qarşısında böyük və məsuliyyətli vəzifələr durur.

Azərbaycan Respublikasının müstəqil dövlət olması tarixi bir hadisədir. Biz, Azərbaycanın indiki nəsli, bu imkanlardan bütün sahələrdə səmərəli istifadə etməliyik. Bunun üçün çox iş görülməlidir. Təəssüf ki, Azərbaycan öz müstəqilliyini əldə edəndən sonra - əslində bu, az vaxt deyil, - müstəqilliyi möhkəmləndirmək, daimi etmək, müstəqillik əsasında respublikada həm siyasi-iqtisadi sistemi, həm cəmiyyəti tənzimləmək məsələləri çox axsayıb, hətta demək olar ki, həyata keçirilməyib və bu dövr Azərbaycan xalqı üçun daha da ağır, əziyyətli dövr olmuşdur.

Azərbaycan Respublikasının dövlət atributlarından biri də, Azərbaycanın Ordusu ilə yanaşı, Daxili İşlər Nazirliyidir, bu nazirliyin sistemində olan idarələr və qoşun hissələridir, polis orqanlarıdır. Məlumdur ki, hər bir müstəqil dövlət bir neçə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

böyük sütun üstündə fəaliyyət göstərə bilir. Hər bir dövlət üçün, o cümlədən müstəqil Azərbaycan dövləti üçün bu sütunlardan biri Daxili İşlər Nazirliyi, polis orqanlarıdır.

Daxili İşlər Nazirliyinin, polis orqanlarının vəzifəsi sizin üçün aydındır. Ancaq mən bir də qeyd etmək istəyirəm ki, Azərbaycanın müstəqilliyini təmin etmək üçün, Azərbaycanda müstəqil dövlət prinsiplərini həyata keçirmək üçün, müstəqil dövlətin bütün imkanlarından respublika vətəndaşlarının istənilən səviyyədə bəhrələnməsi üçün daxili işlər orqanlarının, polis orqanlarının fəaliyyətindən çox şey asılıdır. Ona görə də biz Azərbaycan dövlətinin müstəqilliyini təmin etmək, bu müstəqillikdən günü-gündən səmərəli istifadə etmək üçün daxili işlər orqanlarının, polis orqanlarının işinə xüsusi fikir veririk. Güman edirik ki, daxili işlər orqanlarında çalışan əməkdaşlar bunu hiss edirlər və hiss etməlidirlər, öz məsuliyyətlərini dərk edərək bu tələblər səviyyəsində fəaliyyət göstərməlidirlər.

Azərbaycanın iqtisadi, elmi, mədəni, intellektual potensialı ilə yanaşı, daxili işlər orqanları sistemi sahəsində də böyük potensialı vardır. Qeyd etdim ki, müstəqilliyi təmin etmək üçün bir neçə dövlət atributu mövcuddur. Əgər onlardan biri ordudursa, digəri müstəqil xarici siyasətdirsə, o birisi də Daxili İşlər Nazirliyi orqanları, polis orqanlarıdır. Əgər keçmiş dövrdə, Azərbaycan Sovetlər İttifaqının tərkibində olduğu, müstəqil olmadığı bir dövrdə onun müstəqil ordusu yox idisə, müstəqil xarici siyasət yeritmirdisə, Azərbaycanın Daxili İşlər Nazirliyi daim fəaliyyət göstərib, polis orqanları (o vaxt buna milis orqanları deyirdik) daim fəaliyyətdə olub. Keçmiş dövrə nəzər salsaq, 70 il ərzində sovetlər birliyinin daxilində yaşayan Azərbaycan Respublikası bu müddətdə bacarıqlı, yüksək imkanlı daxili işlər orqanları yaradıb inkişaf etdirə bilmişdir. Yəni bu sahədə bizim işimiz tam sıfırdan başlamır, boş yerdən başlamır. Bu sahədə bizim böyük potensialımız var, mühüm təməl qoyulubdur. Nəinki təməl, böyük bir orqan vardır.

Bəziləri belə hesab edirlər ki, Sovet İttifaqı vaxtında mövcud olan bütün orqanlar indi yaramır və təzədən yeni orqanlar, yeni strukturlar yaranmalıdır. Mən bu fikirlə heç cür razı ola bilmərəm. Bu, nəinki yanlış fikirdir, həm də Azərbaycan Respublikasının milli mənafeyinə, onun müstəqilliyinə zidd fikirdir. Bu fikir bir tərəfdən təəccüb, bir tərəfdən də təəssüf doğrurur. Amma eyni zamanda, təəccüblənməli də deyil, çünki bu fikri söyləyənlər, bu iddiada olanlar həm siyasi, həm də dövlət təcrübəsi olmayan adamlardır. Onlar heç bir dövlət sistemində işləməmişlər, heç bir siyasi fəaliyyəti, heç bir təcrübəsi olmadan böyük vəzifələrə gələrkən hesab edirdilər ki, hər yerdə belə adamlar işləyə bilərlər. Xeyr.

Əgər biz indi Azərbaycanın qüdrətli ordusunu yaratmaq istəyiriksə, bu ordu yalnız və yalnız təcrübəli, bilikli, səriştəli, hərbi təhsilə malik olan zabitlər, hərbi qulluqçular tərəfindən yarana bilər. Hərbi işi bilməyən, hərbi təhsili olmayan, hərbi

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qulluqda olmayan adamlar qüdrətli, layiqli ordu yarada bilməzlər. Eləcə də polis orqanları. Polis xüsusi bir peşədir. Dünyanın bütün ölkələrində belədir. Adamlar polis peşəsinə anadangəlmə malik olmurlar. Yəni heç kim anadan polis kimi doğulmur. Bunun üçün xüsusi təhsil almaq, pillə-pillə keçib təcrübə toplamaq lazımdır. İş prosesində cürbəcür vəziyyətlərə düşüb, bu vəziyyətlərdən çıxış yolları axtarmaq, vərdiş qazanmaq lazımdır.

Polis peşəsi ağır peşədir. O, bir tərəfdən cəsarət, şəxsi mətanət, ikinci tərəfdən bilik, dərrakə, elm, təhsil, töcrübə tələb edir. Bunların hamısı bir yerdə cəmləşməsə, biz layiqli polis nəfərlərinə, zabitlərinə, işçilərinə malik ola bilmərik. Bunlar da olmasa, polis orqanları Azərbaycanın müstəqilliyini təmin edən böyük bir orqan kimi lazımi səviyyədə fəaliyyət göstərə bilməz.

Bir sözlə demək istəyirəm, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin böyük kadr potensialı, maddi-texniki bazası vardır, xüsusi əməliyyatlar aparmaq üçün lazımi səviyyədə təchizatı vardır. Bunların hamısı illər, on illər ərzində yaranan imkanlardır və daxili işlər orqanlarının ümumi potensialıdır. Təəssüf ki, bu potensialı qoruyub saxlamaq, ondan səmərəli istifadə etmək əvəzinə, müstəqillik qazananlan sonra onu dünyanın başqa ölkələrində olan təcrübə ilə zənginləşdirmək əvəzinə, son illərdə cürbəcür polis orqanlarının başçıları və onları dəstəkləyən Azərbaycan Respublikasının rəhbərləri bu potensialı dağıtmaq, polis orqanlarını, daxili işlər orqanlarını, loru dillə desək, bazara çevirmək fikrində olublar. Çox təəssüf ki, buna müəyyən qədər nail olublar.

Ancaq mən güman edirəm ki, bizim daxili işlər orqanlarında, polis orqanlarında illər boyu yaradılmış potensial o qədər möhkəmdir ki, belə adamlar onu dağıla bilməzdilər. Düzdür, zərər vurublar - həm mənəvi, həm də maddi zərər vurublar. Düzdür, insanların bir hissəsinin beyinlərini zəhərləyiblər, onların psixologiyasını korlayıblar - bunların hamısı göz qabağındadır, - ancaq yaranmış potensialı dağıda bilməyiblər və bunu dağıtmağa onların heç gücü də çatmazdı.

Ona görə də mən sizin qarşınızda çıxış edərək bildirmək istəyirəm ki, Azərbaycanın dövlət orqanları, rəhbərlik Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, polis orqanlarının, onun qoşun hissələrinin illər boyu yaratdığı böyük potensialı yüksək qiymətləndirirlər. Bu potensialın əsasını peşə hazırlığı olan bilikli kadrlarımız təşkil edir. Biz onların biliyini, bacarığını, peşə hazırlığı keyfiyyətlərini yüksək qiymətləndiririk. Biz Daxili İşlər Nazirliyinin bütün şəxsi heyətinə, onun kadr, maddi-texniki, həm də xüsusi işlər üçün mövcud olan potensialına güvənirik, bel bağlayırıq və güman edirik ki, bunların hamısından Azərbaycanın müstəqilliyini təmin etmək, respublika daxilində ictimai-siyasi vəziyyəti tənzimləmək və normallaşdırmaq üçün səmərəli istifadə olunacaqdır.

Son illərlə daxili işlər orqanlarına çox böyük zərbələr vurulub. Bu zərbələrdən ən ağırı odur ki, daxili işlər orqanlarının tərkibi müəyyən qədər - bu söz nə qədər kəskin olsa da, mən onu

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

işlətməliyəm-zibillənibdir. Daxili işlər orqanları, polis orqanları ayrı-ayrı səriştəsiz, ləyaqətsiz adamlar, böyük vəzifələr tutmuş adamlar tərəfindən siyasətə cəlb olunub, burada əcaib proseslər meydana çıxıb, hətta inkişaf tapıb.

Dünyanın heç bir ölkəsində, o cümlədən demokratiya nöqteyi-nəzərindən, dövlətçilik baxımından ən inkişaf etmiş ölkələrdə polis orqanları siyasətə qoşulmur, siyasətdən kənarda durur, heç bir siyasi tədbirdə, siyasi proseslərdə iştirak edə bilməz. Onlar dövlətə xidmət edir, dövlətin möhkəmlənməsinə, dövlət orqanlarının fəaliyyətinin təmin olunmasına xidmət edirlər. Bu, Amerikada da belədir. İngiltərədə də, Fransada da, Türkiyədə də, İranda da və başqa ölkələrdə də belədir.

Lakin yadınıza salın, bu binanın divarları içərisində nə kimi çirkin əhval-ruhiyyə, hallar meydana çıxdı. Buraya gəlmiş, polis işini bilməyən adam, peşə hazırlığı olmayan adam və mənəviyyatca pozğun mövqelərdə duran adamlar burada cürbəcür təşkilatlar yaradıb - "Boz qurd" təşkilatı, "Boz qurd" fəxri adı... Bu bina, bu orqan Azərbaycanda dövləti qorumaq əvəzinə, dövlətə xidmət etmək, ictimai asayişi qorumaq, cinayətkarlığa qarşı mübarizə aparmaq əvəzinə bəzən cinayətkarlar yuvasına döndü, burada cürbəcür siyasi proseslər və sizə deyə bilərəm ki, çox primitiv səviyyədə, mədəniyyətdən kənar səviyyədə siyasi proseslər meydana çıxdı. Təəssüf ki, Azərbaycanın o vaxt ümumi mühiti elə idi ki, onlar bizim informasiya orqanları tərəfindən təbliğ edilirdi, hətta bəzi adamlar tərəfindən böyük ruh yüksəkliyi ilə qəbul olunurdu. Şübhəsiz ki, onlar da elə o səviyyədə olan adamlar idi.

Mən Türkiyənin dövlət rəhbərləri ilə dəfələrlə söhbət aparmışam. "Boz qurd" ümumiyyətlə Türkiyədə meydana gəlmiş bir hərəkatdır. Şübhəsiz ki, biz demokratik prinsiplərə riayət edərək heç bir ictimai-siyasi hərəkatın meydana gəlməsinə etiraz etməmişik və etiraz etmirik. Ancaq "Boz qurd"un məkanı, vətəni olan Türkiyədə heç vaxt polis "Boz qurd"a qoşulmayıbdır. Polis orqanlarında "Boz qurd" heç bir fəaliyyət göstərməyibdir. İndi görün nə qədər iyrənc, dəhşətli və gülməli haldır ki, burada daxili işlər naziri özbaşına belə bir fəxri ad müəyyənləşdirib. Yaxşı polis işçisinin ən yüksək fəxri adı "Boz qurd" adı idi. Bu, nə qədər əcaibdir!

Yaxud Azərbaycanda ən yüksək poliqrafik səviyyədə cürbəcür qəzetlər çıxırdı. Ancaq mənaca, məzmunca yox, şəkillərinə görə, poliqrafiya icrasına görə yüksək səviyyədə. Bu da, şübhəsiz, xüsusi məsrəf, yəni xüsusi vəsait tələb edir. Belə bir qəzet, "Boz qurd" qəzeti bu binada çıxırdı. Əgər polisin işinə, Daxili İşlər Nazirliyinin fəaliyyətinə aid problemləri işıqlandırmaq lazım idisə, nazirlik daxili qəzet də çıxara bilər. Vaxtı ilə Daxili İşlər Nazirliyində belə qəzet çıxırdı, indi, şübhəsiz ki, ondan da yüksək səviyyədə qəzet buraxmaq olar. Amma "Boz qurd" qəzet çıxarıblar, bir nömrədə beş yerdə daxili işlər nazirinin şəklini verib, yaxud da cürbəcür belə iyrənc işlərlə məşğul olublar. Peşəkar polis işçilərini dağılıb, polisdən heç bir məlumatı olmayan cürbəcür adamları buraya toplayıb insanlara əziyy

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mək, adamları incitmək, vətəndaşları, cəmiyyəti belə ağır vəziyyətə salmaq nəyə yarayar! Ola bilərmi ki, daxili işlər naziri həm nazir vəzifəsini yerinə yetirsin, həm də gedib mitinqlərdə çıxış etsin? Bu, hansı demokratiya qanunlarına uyğundur, hansı dövlət qanunlarına uyğundur? Bunların hamısı yaramaz hallardır.

Mən bu məsələlərin üzərində çox dayanmaq istəmirəm. Çünki bunlar nə qədər böyük zərbə, öz mahiyyətinə görə nə qədər çirkin olsa da, polis orqanlarına, daxili işlər orqanlarına nə qədər ləkə vurmuş olsa da, inda bu barədə çox danışmağa layiq məsələlər deyildir. Mən bunları deməklə münasibətimizi bildirmək və qeyd etmək istəyirəm ki, Azərbaycanın müstəqilliyi və Azərbaycan dövlətinin özü güclü Daxili İşlər Nazirliyi, güclü polis orqanları ilə təmin olunmalıdır. Azərbaycanın dövlət röhbərliyi belə bir orqanın yaranması və inkişaf etməsi üçün səy göstərəcəkdir. Bu sizdən də çox asılı olacaqdır. Şübhəsiz ki, biz Daxili İşlər Nazirliyinin, polis orqanlarının qanun çərçivəsində tam fəaliyyət göstərməsi üçün şərait və imkanlar yaradacağıq. Ancaq Daxili İşlər Nazirliyi orqanları, onun qoşun hissələri, polis orqanları bu imkanlardan qanun çərçivəsində, dövlət mənafeyinə, Azərbaycanın milli mənafeyinə, Azərbaycan vətəndaşlarının hüquqlarının qorunması mənafeyinə uyğun surətdə səmərəli istifadə etməlidirlər.

Ona görə də siz özünüz son illərdə sizin orqanlarda gedən prosesləri obyektiv, doğru-düzgün təhlil etməlisiniz, sizi ləkələyən, işinizə maneçilik törədən, peşə sahənizə zərər vuran bütün hallardan xilas olmalısınız, onları kənarlaşdırmalısınız. Daxili İşlər Nazirliyinin tərkibində, onun şəxsi heyətinin tərkibində, birinci növbədə rəhbər işçilərin fəaliyyətində mənəvi dəyərləri möhkəmləndirməlisiniz, inkişaf etdirməlisiniz və beləliklə də, Daxili İşlər Nazirliyinin bütün sistemlərində, yuxarıdan aşağıya qədər - nazirliyin rəhbərliyindən polis nəfərinə qədər sağlam əhval-ruhiyyə, sağlam mənəviyyat yaratmalısınız.

Polis orqanlarının fəaliyyəti bir tərəfdən polis işçilərinin, Daxili İşlər Nazirliyi işçilərinin biliyindən, bacarığından, peşə səviyyəsindən asılıdırsa, digər tərəfdən bu orqanlarda möhkəm, dəmir nizam-intizamdan asılıdır. Bu nizam-intizam nə qədər möhkəm olsa, nə qədər sağlam olsa, nə qədər qanunlara istinad etsə, eyni zamanda nə qədər ədalətli olsa, sizin işiniz də bir o qədər səmərəli olacaqdır. Bunlarla yanaşı polis orqanları işçilərinin hər biri yüksək mənəviyyat nümunəsi olmalıdır. Siz bilməlisiniz ki, polis orqanlarına, Daxili İşlər Nazirliyinin işçilərinə xüsusi səlahiyyətlər verilir. Qanun onlara öz fəaliyyətini həyata keçirmək üçün xüsusi səlahiyyətlər verir.

Ancaq bu səlahiyyətlərdən ədalətlə, qanun çərçivəsində, cəmiyyətin, dövlətin, vətəndaşların mənafeyini qorumaq naminə istifadə etmək lazımdır. Təəssüf ki, indi mövcud olan hal on il, iyirmi il bundan qabaq da olub, amma son dövrlərdə bu, çox ifrat səviyyəyə gəlib çatıb: polis orqanları işçilərinin öz vəzifələ-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

rindən şəxsi məqsədlər üçün, şəxsi mənafelər üçün istifadə etməsi halları geniş yayılıbdır. Polis orqanı gərək xalq tərəfindən hörmət edilən bir orqan olsun, polis işçisi gərək xalq tərəfindən, kütlə tərəfindən, ictimaiyyət tərəfindən sevilsin, ona hörmət edilsin. Bu da o halda ola bilər ki, polis işçisi, Daxili İşlər Nazirliyinin hər bir nümayəndəsi, nazirliyi təmsil edən şəxs əvvələn qanuna riayət etsin; ikincisi, qanunçuluğun nümunəsi olsun; üçüncüsü, yüksək mənəviyyat nümunəsi olsun; dördüncüsü, hər bir vətəndaş hiss etsin ki, polis işçisinin simasında, onun şəxsiyyətində dövlətin qanunçuluğunu, dövlətin yüksəkliyini görür. Çünki polis işçisi, daxili İşlər Nazirliyinin işçisi dövləti təmsil edən bir şəxsdir.

Ona görə də siz bu mənfi halları, ümumiyyətlə, bizim cəmiyyəti, o cümlədən polis orqanlarını hörmətdən salan, xalq arasında tamamilə əsaslı olaraq polis orqanları barəsində mənfi fikir yaradan halları içərinizdən çıxarıb atmalısınız. Rüşvətxorluq, vəzifədən sui-istifadə etmək, insanlara qanunsuz təzyiq göstərmək, zor işlətmək və yaxud başqa hallar polis orqanlarının iş praktikasından, yəni əməli fəaliyyətindən tamamilə kənar olunmalıdır. Siz bu hallarla mübarizə aparmalısınız. Bir daha qeyd edirəm, sizin fəaliyyətinizin səmərəli olması üçün, böyük bir dövlət orqanı kimi yüksək hörmətə layiq olmağınız üçün və dövlətə sədaqətlə xidmət etmək üçün bunlar əsas amillərdir. Siz gərək bunları biləsiniz və düşünəsiniz. Əlbəttə, bu mənfi halların mövcud olması, sirayət etməsi və necə deyərlər, bir xəstəlik kimi yayılmasıiın obyektiv və subyektiv səbəbləri var. Obyektiv səbəblər şübhəsiz ki, son dövrlərlə Azərbaycanda gedən ictimai-siyasi proseslər, İqtisadiyyatın dağılması, qanunçuluğun pozulması və yüksək dövlət orqanlarının özünün qanuna zidd hərəkətləri, vəzifədən sui-istifadə etmək hallarıdır. Bu da polis orqanlarında belə hallar yaranmasına səbəb olmuşdur. Subyektiv səbəblər isə ayrı-ayrı polis orqanları, daxili işlər orqanları işçilərinin xalqa, öz dövlətinə, vətəninə, torpağına xidmət etmək üçün yox, ancaq şəxsi məqsədlərini, şəxsi mənafeyini təmin etmək üçün bu peşəyə, bu vəzifələrə gəlməsindən ibarətdir. Mən rica edirəm ki, bu məsələlər üzərində düşünəsiniz, başa düşəsiniz ki, polis orqanlarının, daxili işlər orqanlarının işçiləri üçün dövlət tərəfindən bütün maddi və mənəvi şərait yaradılıb və bundan sonra da yaradılacaqdır. Ancaq hər bir insan üçün yüksək mənəviyyat ən ali amil olmalıdır. O cümlədən və xüsusən dövlət işçiləri üçün, polis orqanlarının işçiləri üçün.

Biz sizin işinizi, bu ağır vəziyyətdə fəaliyyətinizi görürük, izləyirik və qiymətləndiririk. Son müddətdə biz, yəni dövlət rəhbərləri Daxili İşlər Nazirliyi ilə, xüsusən onun rəhbərliyi ilə sıx əlaqədəyik, sizin işinizi yüksək səviyyəyə qaldırmağa çalışırıq və bundan sonra da bu istiqamətdə hərəkət edəcəyik. Biz yaxşı bilirik ki, beş ildən artıq davam edən müharibədə Daxili İşlər Nazirliyinin yüzlərlə əməkdaşı - zabitlər, polis nəfərləri torpağımızı qoruyarkən şəhid olmuşlar, qəhrəmanlıq gös-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

tərmişlər, Azərbaycan Respublikasının tarixinə milli qəhrəman kimi daxil olmuşlar. Bunların hamısı yüksək qiymətləndirilir. İndi də torpaqlarımızı qorumaqda, Ermənistanın təcavüzünün qarşısını almaqda Daxili İşlər Nazirliyi əməkdaşlarının, zabitlərinin fəaliyyəti gözümüzün qabağındadır. Biz həm qoşun hissələrinin, həm də sahələrlə işləyən əməkdaşlarınızın fəaliyyətini yüksək qiymətləndiririk. Əmin ola bilərsiniz ki, əhali də, vətəndaşlar da, bütün Azərbaycan ictimaiyyəti də bunu indən belə daha yüksək qiymətləndirəcəkdir.

Biz Daxili İşlər Nazirliyinin rəhbərliyinə, nazir Vaqif Novruzova, onun müavinlərinə, kollegiyaya tam etimadla yanaşırıq, güvənirik, sizin hamınıza etimad göstəririk, güvənirik və güman edirik ki, hamınız birlikdə bu etimadı doğrultmağa çalışacaqsınız. Bunun üçün sizə əlavə kömək göstərəcək, əlavə imkanlar da yaradacağıq.

Ancaq biz sizdən daha fəal iş gözləyirik, daha səmərəli iş, cinayətkarlığa qarşı daha kəskin mübarizə gözləyirik və hesab edirik ki, Daxili İşlər Nazirliyinin imkanlarından, potensialından hələ lazımi səviyyədə istifadə olunmayıb. İndi Azərbaycanda ayrı-ayrı gizli silahlı dəstələr mövcuddursa və bizim böyük potensiala malik olan Daxili İşlər Nazirliyinin orqanları bu dəstələri meydana çıxarıb tərksilah edə bilmirlərsə, qanunu pozan, gizli silah saxlayan adamları məsuliyyətə cəlb elə bilmirlərsə, şübhəsiz ki, bu, fəaliyyətsizliyi göstərir, yaxud da ki, bəzi orqanların, bəzi şəxslərin bu məsələlərə həmrəy olduğunu göstərir. Mən bunu başqa cür qiymətləndirə bilmərəm.

Ayrı-ayrı bandalar var, biri Azərbaycanın o bölgəsində, biri bu bölgəsində. Onların adları da sizə məlumdur. Nə cür ola bilər ki, böyük bir dövlətə güvənən, arxalanan daxili işlər orqanları, polis orqanları ayrı-ayrı bandalardan gücsüz olsun, yaxud onlara üstün gələ bilməsin? Buna inanmaq olmaz. Demək, burada nə isə var. Ayrı-ayrı cinayətkarlar sizin tərəfinizdən uzun müddət axtarılır, ancaq tapılmır. Mən özüm-özümə sual verirəm. Axtarılırmı? Lazımi əməliyyatlar keçirilirmi, yoxsa yox? Suallara yəqin ki, siz cavab verməlisiniz. Daxili İşlər Nazirliyindən, onun rəhbərliyindən, bir nazir kimi Vaqif Novruzovdan bu məsələləri çox ciddi tələb edirik və bir neçə dəfə Milli Məclisdə də, ayrı-ayrı müşavirələrimizdə də nazirin qarşısında çox böyük tələblər qoymuşuq. Ancaq nazir təkbaşına bir şey elə bilməz. Əgər biz nazirliyin rəhbərliyinə, sizə arxalanırıqsa, nazirliyin rəhbərliyi də gərək bütün şəxsi heyətə, zabitlər heyətinə, bütün polis heyətinə arxalansın. Hamınız birlikdə çalışıb bu cinayətkarları meydana çıxarmalısınız.

Vətəndaşlar Azərbaycanda cinayətkarlığın geniş yayıldığından çox narazıdırlar, çox narahatdırlar. Bu da təbii haldır. Biz də narahatıq. Nə üçün biz gərək orada-burada silahlı qoruyucu qüvvələr saxlayaq? İndi biz Azərbaycanda tam əmin-amanlıq yaratmalıyıq ki, insanlar rahat yaşaya bilsinlər, bütün təbii tələblərini həyata keçirməyə imkan tapsınlar. Bunları siz təmin

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

etməlisiniz. Ona görə də sizə belə yüksək etimad göstərilir, ona görə də siz xüsusi statusa malik olan, xüsusi rütbələri və xüsusi geyimi olan, silah gəzdirmək hüququ və başqa səlahiyyətləri olan adamlarsınız. Bunları sizə elə-belə vermirlər ki, başqa vətəndaşlardan fərqlənəsiniz. Ona görə verirlər ki, siz qalan bütün vətəndaşların hüquqlarını, rahat yaşayışını, əmin-amanlığını qoruyasınız. Bunun üçün də cinayətkarlarla mübarizə aparmaq, istintaq işini, axtarış işlərini, bütün tədbirləri gücləndirmək lazımdır. Bunların hamısı sizdən tələb olunur və bilməlisiniz ki, əgər kimsə bu tələblər səviyyəsində deyilsə, o, şəxsiyyətindən, keçmiş xidmətiidən asılı olmayaraq, kənara çəkilməlidir. Yenə də deyirik: biz polis orqanlarında, Daxili İşlər Nazirliyində xüsusi peşə hazırlığı olan, bilikli, təcrübəli, təhsilli, eyni zamanda yüksək mənəvi keyfiyyətlərə malik adamlara güvənirik. Əgər kimsə bu keyfiyyətlər səviyyəsinə qalxa bilmirsə, bu tələblərə cavab verə bilmirsə, şübhəsiz ki, onlar kənara çəkilməlidir və rəhbərlik onları öz sıralarından çıxarmalıdır.

Daxili İşlər Nazirliyi, polis orqanları gərək həm güclü, həm mənəviyyatca sağlam, həm də dəmir nizam-intizamlı bir təşkilat olsun. Belə bir təşkilat Azərbaycan Respublikasının müstəqilliyini, müstəqil dövlət kimi inkişafını təmin etməlidir. Biz dəfələrlə demişik ki, Azərbaycanda demokratik prinsiplər əsasında dövlət qurulur, demokratiyanın inkişafına tam şərait yaradılıb, bundan sonra da yaradılacaq, Azərbaycanda siyasi plüralizm, çoxpartiyalı sistem əsasında demokratik dövlət qurmaq niyyətindəyik. Eyni zamanda, Azərbaycanın İqtisadiyyatı bazar iqtisadiyyatı istiqamətində inkişaf etməlidir.

Hazırda iqtisadiyyat dağılıb, bərbad haldadır. Bizim sənaye, kənd təsərrüfatı potensialından demək olar ki, heç 20 faizi səviyyəsində istifadə olunmur. Bunun bir səbəbi də ondan ibarətdir ki, dövlətə, yaxud xalqa, yaxud da ayrı-ayrı şəxslərə mənsub olan əmlakın oğurlanması, dağıdılması halları mövcuddur. Siz bunların qabağını almalısınız. Biz demokratiyanı inkişaf etdirərək, siyasi plüralizmə şərait yaradaraq, demokratik dövlət qurmaq əzmində olaraq, eyni zamanda həm cəmiyyətdə, həm də dövlətdə nizam-intizamı möhkəmlətməliyik. Demokratiya hərc-mərclik deyildir, özbaşınalıq deyildir, xaos deyildir. Demokratiya yüksək mədəniyyət, yüksək nizam-intizam, vətəndaş həmrəyliyi, vətəndaşların bir-birinə hörməti, dövlət orqanlarına hörməti, dövlətin vətəndaşlara hörməti, sayğısı və qayğısıdır. Bunların əsasında biz Azərbaycanda demokratik dövlət qurmaq yolu ilə gedirik və demokratik cəmiyyət təşkil olunmasını istəyirik.

Bu sahədə Daxili İşlər Nazirliyi orqanlarının, polis orqanlarının çox böyük vəzifələri var, sizin üzərinizə çox böyük məsuliyyət düşür və siz qanun çərçivəsində hərəkət edərək bu prin-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

siplərin həyata keçirilməsini təmin etməlisiniz. Amma heç kəsin də qanunu pozmasına, özbaşınalıq etməsinə, hərc-mərclik yaratmasına, vətəndaşların hüququnu pozmasına yol verməməlisiniz.

Güman edirəm ki, siz və sizinlə birlikdə Azərbaycan Respublikasının bütün polis işçiləri, Daxili İşlər Nazirliyinin əməkdaşları öz məsuliyyətinizi yaxşı dərk edirsiniz. Ümidvar olduğumuzu bildirmək istəyirəm ki, öz vəzifənizi namusla, şərəflə yerinə yetirəcəksiniz. Hamınıza, sizin şəxsinizdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin bütün əməkdaşlarına, polis işçilərinə ağır, şərəfli və müstəqil Azərbaycan üçün çox mühüm olan işinizdə uğurlar arzulayıram.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AZƏRBAYCAN RESPUBLİKASI ELMLƏR AKADEMİYASINDA ZİYALILARLA GÖRÜŞDƏ ÇIXIŞ

21 sentyabr 1993-cü il

Hörmətli ziyalılar, əziz dostlar və həmvətənlər! Uzun fasilədən sonra Azərbaycan ziyalıları ilə görüşmək mənə nəsib olduğu üçün məmnun olduğumu bildirmək istəyirəm və görüşdə iştirak etdiyinizə görə, burada çıxış edən natiqlərin mənim haqqımda dediyi sözlərə görə hamınıza ürəkdən təşəkkür edirəm.

Ziyalılarla görüşmək həmişə böyük bir bayram təsəvvürü yaradır. Mən həyatım boyu belə düşünmüşəm, belə fikirləşmişəm. Ona görə, bəlkə görüş sizin üçün də əhəmiyyətlidir, ancaq mənim üçün həddindən artıq dəyərlidir. Çünki uzun müddət belə bir imkandan məhrum olmuşdum. Yalnız qəlbim, ürəyim həmişə Vətəndə, xalqımla və xalqımızın qabaqcıl dəstəsi olan ziyalılarla, onların yaradıcılığı, işləri ilə bağlı olmuşdur. Ancaq indi yanyanayıq, üz-üzə durmuşuq. Bu mənim üçün böyük hadisədir. Təşəkkür edirəm.

Bu gün, şübhəsiz ki, hər bir kəsi, o cümlədən ziyalıları ən çox maraqlandıran və eyni zamanda ən çox narahat edən Azərbaycan Respublikasının indiki vəziyyətidir. Bu hər bir Azərbaycan vətəndaşını düşündürür, narahat edir və ən çox, şübhəsiz ki, ziyalıları, intellektual səviyyəli adamları düşündürür. Bizi də, sizi də düşündürür. Azərbaycan öz həyatının çətin və ağır bir dövrünü yaşayır, böyük imtahanlardan keçir. Bu imtahanlar müəyyən mənada bizim əsrin əvvəlində başlayıbsa, XX əsrin sonunda daha ciddi bir xarakter alıb. Bu imtahanların çox ağır dövrü indiki mərhələdir. Bizim belə əzab-əziyyətə düşməyimizin səbəbləri çoxdur. Bunun obyektiv səbəbləri də, subyektiv səbəbləri də var.

Mən bu səbəbləri xarakterizə etmək məqsədində deyiləm, buna imkan da yoxdur. Şübhəsiz ki, bunlarla siz də, biz də bərabər məşğul olmalıyıq. Bu, çox vacibdir. Ancaq bir neçə kəlmə deməyə ehtiyac duyuram. Birincisi, şübhəsiz ki, bizim respublikanı bu ağır vəziyyətə salan Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycana qarşı beş ildən artıq davam edən hərbi təcavüzdür və bu təcavüzün nəticəsində Azərbaycan torpaqlarının bir qisminin işğal olunması, Azərbaycan vətəndaşlarının, sakinlərinin bir qisminin yurdunu-yuvasını itirməsi, qaçqın düşməsidir. Bu müddətdə Azərbaycanın nəinki torpaqları işğal edilib, əsrlər boyu yaranan şəhərlər, kəndlər, qəsəbələr, binalar, insanların yaşayışı üçün lazım olan qurğular dağılıb viran olur, yandırılır. Bir çox insanlar ağır həyat şəraiti keçirir.

Azərbaycan Respublikası, Azərbaycan xalqı qəsbkarlıq etmir, başqa respublikanın, başqa xalqın, başqa dövlətin torpaqlarına göz dikmir, hücum etmir, yalnız müdafiə olunur. Ancaq bəzi sə-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bəblərə görə biz məğlubiyyətlərə uğrayırıq. Dediyim kimi, torpağımızın bir hissəsi əlimizdən gedib, lakin bu gün şəksiz-şübhəsizdir ki, Azərbaycan xalqı əsrlər boyu torpağını qoruduğu kimi, indi də Azərbaycanın qeyrətli, namuslu, cəsarətli oğulları Vətəni qoruyaraq şəhid olurlar, canlarını qurban verirlər. Bu müddətdə minlərlə həmvətənimiz həlak olub. Onların çoxu döyüşərək, cəsarət, qəhrəmanlıq göstərərək, xalqına, torpağına sədaqətli olaraq dünyasını tərk edib. Bu, bizim üçün bir tərəfdən faciədirsə, digər tərəfdən Azərbaycan xalqının qüdrətini, mətanətini, cəsarətini bir daha nümayiş etdirən amildir. Azərbaycan torpaqlarını müdafiə edərək həyatlarını qurban vermiş, şəhid olmuş həmvətənlərimizin ruhunu bir dəqiqəlik sükutla yad edək. Allah onlara rəhmət eləsin, qəbirləri nurla dolsun.

Bu gün biz müdafiə vəziyyətindəyik, ancaq xalq ümidlərini itirmir. Azərbaycan xalqı öz torpaqlarını geri qaytarmalıdır, ərazi bütövlüyünü bərpa etməlidir. Xalqımız öz suverenliyini, öz müstəqilliyini qorumağa qadir xalqdır. Təəssüf ki, Azərbaycan xalqının içində, mənəviyyatında olan imkanlardan bu dövrdə istifadə olunmayıbdır. Aparıcı adamlar, siyasi rəhbərlər, dövlət adamları, yaxud özlərini sərkərdə adlandıranlar da olubdur, ancaq onlar xalqın böyük qüdrətindən, böyük imkanlarından istifadə edə bilməyiblər. Lakin bunların hamısı müvəqqəti xarakter daşıyır. Bir də deyirəm, xalqımız qüdrətli xalqdır, əsrlər boyu ciddi imtahanlardan keçmişdir, bu imtahandan da çıxacaqdır və mən buna şübhə etmirəm ki, Azərbaycan bir müstəqil dövlət kimi öz taleyinin sahibi, öz torpaqlarının sahibi, öz hüquqlarının sahibi olacaq və gələcək firavan həyatını özü quracaqdır.

Ancaq bu o qədər də asan iş deyil. Bunun üçün hamı birləşməli, Azərbaycan xalqının gücü bir yerə toplanmalı, hamı bir hədəfə vurmalıdır. İndi gərək hər kəs Vətən, torpaq, namus yolunda öz payını versin, öz borcunu versin. Hamı borcludur. Heç kəs deyə bilməz ki, borclu deyil. Xalqın övladları bu torpaqla doğulub dünyaya gəliblərsə, atalarımızın, babalarımızın ruhu bizim üçün müqədləs və əzizdirsə, öz borcumuzu verməliyik. Bu, hamının borcudur. Təəssüf ki, bəzi adamlar belə hesab edirlər ki, kimsə qoy gedib torpağı müdafiə etsin, amma o birisi öz şəxsi işi ilə məşğul olsun. Kimsə vuruşsun, o birisi isə kənarda dursun, gözləsin görək nə olur.

Son illərin ən əcaib hadisəsi ondan ibarətdir ki, Azərbaycanın bu ağır dövründə birləşib torpaqlarımızı qorumaq, millətimizin, xalqımızın şərəfini qorumaq, tariximizi qorumaq əvəzinə ayrı-ayrı qruplar, ayrı-ayrı şəxslər bu fürsətdən istifadə ediblər, vəzifə, məqam hərisliyinə düşüblər, öz şəxsi mənafelərinə, şəxsi məqsədlərinə nail olmağa çalışıblar. Meydana gündə bir siyasətçi çıxıb, ancaq sonra iç üzləri açılıbdır. Təəssüf. Ancaq yəqin ki, xalqımız bunları da görməlidir. Yəqin ki, cəmiyyətin içində olan bu ünsürlər də meydana çıxmalı idilər.

Heç də bu fikirdə deyiləm ki, Azərbaycanı bürümüş bulanıq su indi artıq durulub, yox bu su hələ çox bulanıqdır. Biz bulanıq göl içindəyik. Bəli, hamımızın gücü ilə gərək bu palçıqdan, bu-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lanıq sudan çıxaq, təmizlənək. Gərək hər kəs birinci növbədə xalqın ümumi mənəviyyatına sədaqət göstərərək öz mənəviyyatını nümayiş etdirsin və xalqı bu vəziyyətdən çıxarmağa kömək etsin.

Bu sahədə biz çox tədbirlər görməliyik. Qarşımızda vəzifələr çoxdur. Ancaq şübhəsiz ki, tək mən, yaxud da ki, mənimlə bərabər bir neçə adam bunların hamısının öhdəsindən gələ bilməz. Xalq birləşməlidir. Xalqın ağlı, zəkası, biliyi birləşməlidir. Elə etməliyik ki, bu ağır müharibə vəziyyətindən çıxaq. Mən indi bunun çıxış yolları haqqında danışmaq istəmirəm. Biz həm siyasi fəaliyyəti gücləndirməliyik, həm respublikamızın müdafiə qüdrətini möhkəmlətməliyik, həm də ordu sıralarında, yaxud da ayrı-ayrı yığma batalyonlarda olan quldurları kənarlaşdırıb sağlam qüvvələri toplamalıyıq.

Ancaq hamımız gərək bilək ki, indi Azərbaycan Respublikası qan içindədir. Respublikamız öz müstəqilliyini qorumaq üçün çox işlər görməlidir. Müstəqillik təkcə siyasi xarakter daşımır. Müstəqillik tək ondan ibarət deyildir ki, bizi beynəlxalq təşkilatlar tanıyıblar. Müstəqillik birinci növbədə odur ki, işğal olunmuş torpaqlarımız geri qaytarılsın. Ona görə də hamı birləşməlidir. Hamı ayağa qalxmalıdır. Hamı səfərbər olmalıdır. Rəhmətlik Səməd Vurğunun dahiyanə sözləri daim yadıma gəlir. O vaxt, 41-ci, ya da 42-ci ildə o dedi ki, müsəlləh əsgərəm mən də bu gündən. O vaxt biz ümumi sovet vətənini qoruyurduq. İndi biz öz doğma torpağımızı, müstəqil Azərbaycan dövlətini qoruyuruq, ona görə də peşəsindən, vəzifəsindən asılı olmayaraq indi hər kəsdə, hər vətəndaşda bu hissiyyat daha güclü olmalıdır, Güman edirəm ki, biz buna nail ola biləcəyik, hamımız birləşib bu ağır müharibə vəziyyətindən çıxa biləcəyik.

İndi Azərbaycan müstəqil dövlətdir. Müstəqillik Azərbaycan üçün böyük tarixi bir hadisədir, taleyin xalqımıza verdiyi böyük bir fürsətdir. Şübhəsiz ki, biz bununla fəxr etməliyik. Eyni zamanda bu tarixi nailiyyəti qiymətləndirməliyik, əlimizdə möhkəm saxlamalıyıq. Bu müstəqillik dünyada, o cümlədən keçmiş sovetlər birliyində əsrin ikinci yarısında, xüsusən 70-ci, 80-ci illərdən başlayaraq gedən ictimai-siyasi proseslərin məntiqi nəticəsidir.

Biz müstəqilliyi silahla, dava ilə, üsyanla əldə etməmişik. Bu müstəqillik tarixi prosesdir, onu ictimai-siyasi proseslər əsasında əldə etmişik. Qoy heç kəs deməsin ki, kimsə bir qəhrəman kimi bu müstəqilliyin sərkərdəsidir, yaxud müstəqilliyi əldə edən bir siyasi xadimdir. Müstəqillik heç kəsə, heç bir təşkilata mənsub deyildir. Müstəqillik xalqa mənsubdur Bu, tarixin, taleyin xalqa bəxş etdiyi böyük bir nemətdir. Biz bunu qiymətləndirməliyik.

Ancaq müstəqilliyi əldə etmək siyasi nöqteyi-nəzərdən o demək deyil ki, müstəqillik tamamdır və dönülməzdir. Müstəqilliyi inkişaf etdirmək, möhkəm saxlamaq, bütün sahələrdə tətbiq etmək lazımdır. Bu sahədə çox iş görməliyik. Təəssüf ki, müstəqillik əldə ediləndən indiyə qədər iş görülməyibdir. "Müstəqillik, müstəqillik" deyə bağıran adamlar belə hesab edirlər ki, onlar bu

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

müstəqilliyin qəhrəmanıdırlar və müstəqillik Azərbaycan üçün artıq bütün şəraitləri yaradıbdır. Bax buna görə də Azərbaycan belə vəziyyətə düşübdür. Son illər Azərbaycanda gedən proseslər təəssüf ki, respublikanın iqtisadiyyatına, sosial həyatına, elminə, mədəniyyətinə çox böyük zərər vurub.

Burada çıxış edən natiqlər bəzi fikirlər söylədilər. Mən onlarla razıyam. Lakin bu fikirlər də Azərbaycan Respublikasının həyatına həmin proseslərin vurduğu zərərlərin hamısını əks etdirə bilmir. İndi biz müstəqillik şəraitindən istifadə edərək, Azərbaycan Respublikasının iqtisadi, sosial, intellektual, elmi, mədəni potensialından səmərəli istifadə edərək nəinki vurulan zərərləri aradan götürməli, həm də daha yüksək səviyyəyə qalxmalıyıq. Biz müstəqillik şəraitində həyatımızın bütün sahələrini vətəndaşlarımızın tələbatına uyğun olaraq inkişaf etdirməli, qurub-yaratmalıyıq.

Azərbaycan bundan sonra hansı yolla gedəcək, hansı iqtisadi-siyasi sistemi seçib inkişaf edəcək? İndi bu sual qarşıda durur. Bu yolun eniş-yoxuşlarını, çətinliklərini dərk etməyən adamlar, sadəcə olaraq, şüarlarla yaşamışlar. Buna görə də onlar bu yolun daha da genişlənməsi, yəni müstəqillik yolunun çoxşaxəli olması lüzumu, daha da müvəffəqiyyətlə irəliyə getmək lüzumu meydana çıxan kimi öz cılız fikirlərini ortaya atır, başqalarını günahlandırmağa çalışırlar ki, yox, siz bizim müstəqilliyimizi əldən vermək, geri qaytarmaq istəyirsiniz.

Mən Milli Məclisin iclaslarında da öz fikrimi bildirmişəm, sizin qarşınızda da bunu deməyi özümə borc bilirəm ki, Azərbaycan müstəqillik yolundan dönməməlidir. Azərbaycan ilk dəfə əldə etliyi bu tarixi fürsəti əldən verməməlidir, nəyin bahasına olursa-olsun müstəqilliyini qoruyub saxlamalı və müstəqil dövlət kimi inkişaf etməlidir. Buna Azərbaycan Respublikasının təbii sərvətləri, iqtisadi, elmi-mədəni, intellektual potensialı imkan verir. Lakin bu potensialların bəziləri qurumuş vəziyyətdədir, bəziləri durğun haldadır. Bunları canlandırmaq, hərəkətə gətirmək, inkişaf etdirmək, bunlardan səmərəli istifadə etmək lazımdır. Təəssüf ki, müstəqillik haqqında çox bağıran adamlar bu milli sərvətlərimizi həm görməyiblər, həm də onlardan istifadə etməyi bacarmayıblar, yaxud da ki, istifadə etmək istəməyiblər.

Dediyim kimi, çox vacibdir ki, respublikamız müstəqil bir dövlət kimi hansı siyasi, ictimai, iqtisadi sistem üzrə gedəcəkdir. Bizim yolumuz demokratiya yoludur, biz demokratiya yolundan dönməməliyik. Bizim yolumuz siyasi plüralizm yoludur, biz bu yoldan dönməməliyik. Biz Azərbaycanda çoxpartiyalı sistem, çoxpartiyalı cəmiyyət üçün şərait yaratmalıyıq. Əmin olun ki, mən bu mövqeyimdən dönməyəcəyəm. Azərbaycanda insan azadlığı, təşəbbüs azadlığı, din azadlığı, dil azadlığı, sahibkarlıq azadlığı - bütün azadlıqlar təmin olunub. İnsan hüquqları, insan haqları qorunmalıdır. Azərbaycan müstəqil dövlət kimi öz vətəndaşlarının hüquqlarını qorumağı əsas vəzifələrindən biri hesab etməlidir. Azərbaycan keçmiş kommunist rejiminə, sosialist siste-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

minə, keçmiş iqtisadi-siyasi sistemə qayıtmamalıdır. Mən Azərbaycanda yenidən fəaliyyətə başlamışam, bu mövqedə dururam və güman edirəm ki, Azərbaycan vətəndaşlarının əksəriyyəti belə fikirdədir və ziyalılar da yəqin ki, bu fikirləri qəbul edərlər. Bilirəm ki, ziyalıların əksəriyyəti bu fikirlərlə yaşayır.

Ancaq bu prinsiplərin gerçəkliyini təbliğ etmək, onları həyatımızın bütün sahələrində tətbiq etmək asan məsələ deyil. Çünki bəzən ayrı-ayrı qüvvələr, ayrı-ayrı şəxslər öz şəxsi məqsədlərinə nail olmaq üçün bu prinsiplərdən sui-istifadə edirlər. Bəzən də, siz bunun şahidi olmusunuz, demokratiyanı özbaşınalıq kimi, qanunsuzluq kimi, xaos kimi anlayan adamlar, hətta dövlət başında olan adamlar Azərbaycanı gətirib bu ağır vəziyyətə salıblar.

Lakin bu prinsipləri həyata keçirmək üçün xalqın, millətin qabaqcıl qüvvələri, ağıllı, zəkalı, elmli adamları, ziyalı adamları siyasi meydana çıxıblar, siyasi, ictimai fəaliyyətdə olublar. Son illəri, yəni təkcə bu bir ili, Xalq Cəbhəsinin hakimiyyətdə olduğu dövrü yox, 90-cı ili, 89-cu, 88-ci, ondan qabaqkı illəri götürün. Bu dövrlərdə böyük bir qarmaqarışıqlıq içərisində doğrudan da milli azadlıq uğrunda mübarizə aparan qüvvələrlə, şəxslərlə yanaşı, bu şəraitdən öz şəxsi məqsədləri üçün sui-istifadə edən adamlar da meydana çıxdılar. Bəzi hallarda onlar üstün gəldilər. Mən Moskvada yaşayırdım. 88-ci ildə Bakının Azadlıq meydanında yüz minlərlə adamın iştirakı ilə keçirilən mitinqlərin sədası bəzən oraya da gəlib çatırdı...

Sonra bu meydan bizim ziyalıları da cəlb etdi. Ancaq təəssüf ki, bundan sonra həmin proseslərdən ayrı-ayrı adamların şəxsi məqsədləri üçün istifadə olundu. Ona görə də xalq hərəkatdan müəyyən qədər uzaqlaşdı, soyudu.

Mən demirəm ki, daim gərginlik olmalı idi. Ancaq bu, xalq azadlıq hərəkatı idi. Torpaqları qorumaq əzmi ilə yaşayan Azərbaycan xalqının öz təzahürünü meydanlarda tapan coşğunluğu, həyəcanı, narahatlığı bundan sonra ayrı-ayrı qüvvələr tərəfindən bir yandan söndürüldü, bir yandan da təzyiq altına alındı. Digər tərəfdən də meydana elə adamlar çıxdılar ki, bu hərəkatdan öz mənfur məqsədləri üçün istifadə etməyə çalışdılar və təəssüf ki, bir çoxları buna nail oldular.

Azərbaycanda demokratiya prinsiplərini bərqərar etmək, tətbiq etmək üçün respublikamızın və dövlət orqanlarının ziyalılara çox böyük ehtiyacı var. Burada bəzi natiqlər Azərbaycan parlamentinin tərkibi haqqında öz fikirlərini söylədilər. Doğrudur, kiminsə dediyi kimi, vaxtilə norma qoyulurdu - neçə nəfər kolxozçu, neçə nəfər fəhlə olmalıdır. Bunlar artıq tarixə keçmiş hallardır. Şübhəsiz ki, həqiqi demokratiya bu yolla təmin edilə bilməzdi. Lakin sonrakı parlament seçkilərində (mənim xatirimdədir. O vaxtlar Moskvada idim, sonra Naxçıvana gəldim) bəzi qəzetlərlə oxuyurdum ki, səkkiz nəfərin namizədliyi irəli sürülüb. Onların arasında professor da , akademik də var idi. Məsələn, Ziya Bünyadov kimi məşhur akademik də var idi. Amma seçicilər nədənsə bir nəfər tanınmayan və Azərbaycan xalqı qarşı-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sında heç bir xidməti olmayan adama səs verdilər. Şübhəsiz ki, bu, təbii hal deyildi. Ancaq o adam kiməsə lazım idi, Azərbaycanın o vaxtkı kommunist rəhbərliyinə lazım idi. Buna görə də imkan vermədilər ki, məsələn, alim seçilsin, ya da böyük bir dövlət xadimi, mədəniyyət xadimi seçilsin, yaxud yaxşı bir hüquqçu seçilsin ki, gəlib burada sözünü desin. Elə adamlar seçildilər ki, onlar da, şübhəsiz, Azərbaycan parlamentində Azərbaycanın ictimai-siyasi intellektual mənzərəsini, məzmununu təmsil edə bilmədilər.

Ona görə də biz (mən şəxsən öz tərəfimdən deyirəm) demokratiyaya geniş yol açacağıq. Azərbaycan bundan sonra öz dövlətini demokratik prinsiplər əsasında qurmalıdır və dövlət orqanları cəmiyyətdə demokratik prinsiplərin bərqərar olması üçün təminat yaratmalıdırlar. Ancaq gərək alimlərimiz də, ziyalılarımız da kənarda qalmasınlar, çalışsınlar, çarpışsınlar, həyatımızın bu ağır dövründə biganəlik etməsinlər. Əgər onların sözü bir dəfə qəbul olunmayıbsa, ikinci dəfə gəlsinlər, ikinci dəfə qəbul olunmayıbsa, üçüncü dəfə gəlsinlər. Anar burada şikayətləndi, mən onun şikayətləri ilə razıyam. Çünki doğrudan da belədir - bu, həqiqətdir. Ancaq bu da o demək deyil ki, inciyib kənara çəkilsin. Heç birimizin inciməyə ixtiyarımız yoxdur.

Burada mən bir çıxışdan belə başa düşdüm ki, mən kimdənsə inciməliyəm. Bilirsinizmi xalqdan heç kəs inciyə bilməz. Ola bilər, ayrı-ayrı adamlardan inciyəsən. Ancaq incikliyi saxlamaq lazım deyil, kinli olmaq da lazım deyil. Çünki xalqımızın bu ağır dövründə gərək bu hisslər kənara atılsın. Labüdlük hissiyyatı var. Hamımızın şüurunda bu hissiyyat gərək hakim mövqe tutsun. Biz bu ülvi hissiyyatla yaşamalıyıq.

Güman edirəm ki, mən fikirlərimi sizə çatdıra bildim. Azərbaycan Respublikası bundan sonra bütün demokratik prinsiplərə sadiq qalacaq, onların həyata keçirilməsini təmin edəcəkdir və hamımız birlikdə Azərbaycanı böyük bir demokratik respublika kimi dünya demokratiyasına uyğun səviyyəyə çatdıraraq dünya mədəniyyətinə, dünya ictimaiyyətinə tanıtdıra biləcəyik.

Azərbaycanda 1918-ci ildə ilk demokratik respublika yaradıldı. Bu, şübhəsiz ki, tarixi bir hadisədir. Azərbaycanın müstəqilliyi uğrunda son dövrlərdə gedən proseslərlə - həm mətbuatda, həm də ictimai-siyasi proseslərdə ilk Azərbaycan Demokratik Respublikası böyük bir nailiyyət kimi qeyd olunub və onun gördüyü işlər yüksək qiymətləndirilibdir. Bu, təbii bir haldır, tariximizin böyük və parlaq bir mərhələsidir. Bu mərhələni biz layiqincə qiymətləndirməliyik və mən də bu gün sizin qarşınızda bunu bildirmək istəyirəm. Bəli, 1918-ci il may ayının 28-də Azərbaycan Demokratik Respublikasının yaranması Azərbaycan tarixində böyük siyasi-ictimai hadisədir. Belə bir demokratik dövlətin mövcud olması və müəyyən qədər fəaliyyət göstərməsi Azərbaycanın sonrakı dövrlərinə təsir edibdir.

Düzdür, bu demokratik respublika çəmi 23 ay fəaliyyət göstərdi, sonra isə təslim oldu. Mən bu fikrə yenə qayıdacağam. Biz tariximizi həmişə obyektiv təhlil etməliyik və bugünkü nəslə, gələcək nəsillərə düzgün çatdırmalıyıq. Təəssüf ki, əvvəlki dövrlərə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

aid tariximizdə çox faktlar təhrif olunubdur, indi də təhrif edilir. Əgər o vaxt bir istiqamətdə təhrif olunurdusa, indi başqa bir istiqamətdə təhrif edilir. Tarixçilərimizin borcudur ki, bu qüsuru aradan götürsünlər. Ancaq biz deməliyik ki, demokratik respublika, onun liderləri Məmmədəmin Rəsulzadə, Fətəlixan Xoyski, Nəsib bəy Yusifbəyov, Məmmədhəsən Hacınski və başqaları çox böyük işlər görüblər. Onlar Azərbaycanı müstəqil bir dövlət kimi dünyanın bir qisminə tanıtdılar, bir neçə tədbir gördülər. Eyni zamanda onların fəaliyyətinin, ümumiyyətlə, uğursuzluğu təkcə ondan ibarət deyil ki, Azərbaycan 20-ci il aprel ayının 28-də qızıl ordu tərəfindən işğal olundu. Hələ həmin işğala qədər bu demokratik dövlət, demək olar, öz süqutuna gəlib çatmışdı. Tarixçilər yaxşı bilirlər ki, 23 ay ərzində bu dövlətin tərkibi beş dəfə dəyişib, bu dövlətdə, bu parlamentdə beş partiya iştirak edib: Müsavat Partiyası, İttihad Partiyası, Əhrar Partiyası, Sosialist Partiyası, hətta Daşnaksütyun Partiyası. Bu parlament sistemi dövlətin yaşamasına imkan vermədi və ayrı-ayrı qruplar, partiyalar arasında gedən çəkişmələr, çarpışmalar, intriqalar özü-özlüyündə bu dövlətin adına ləkə vurdu. Mən bunu nə üçün deyirəm? Ona görə ki, biz bundan ibrət dərsi almalıyıq. Biz o dövrü, o demokratik hökumətin fəaliyyətini qiymətləndiririksə və belə bir mərhələnin tariximizdə olması ilə fəxr ediriksə, həmin proseslərin qüsurlarını da bilməliyik ki, o səhvləri daha buraxmayaq.

Bununla əlaqədar olaraq mən tarixçilər haqqında bir neçə kəlmə demək istəyirəm. Tarixçilərimizin xatirində olmalıdır ki, mən Azərbaycanda işləyən dövrdə - 70-ci illərdə və 80-ci illərin əvvəllərində dəfələrlə onlara müraciət etmişdim ki, bizim tariximiz - həm qədim tariximiz, həm orta əsrlər tariximiz, həm də son dövrlərin, yəni XVIII, XIX, XX əsrlərin tarixi istənilən səviyyədə yazılmayıb. Tarixçilərin yadındadır ki, mən alimlərlə dəfələrlə görüşmüşdüm, hər dəfə də öz narahatlığımı bildirirdim. O vaxtlar Sovetlər İttifaqının çərçivəsində başqa respublikalarla öz işimizi müqayisə edirdik. Həmin respublikaların tarixçilərinin işləri ilə tanış olarkən daha da narahat olurduq ki, nə üçün onlar öz tarixlərini yaxşı yaza bilirlər, biz isə yaza bilmirik.

Düzdür, bunun müəyyən obyektiv səbəbləri var idi. Məsələn, bəzi xalqların əsrlər boyu yaxşı tarixçiləri olub. Onlar tarixi yazıblar, sonrakı nəsillər üçün böyük tarixi abidələr qoyublar. Bunlar bizdə də var. Məsələn, bizim Əlyazmalar Fondunda çox dəyərli, zəngin məlumat verən kitablar var. Amma məsələ tək bunda deyildir. Dünyanın ən böyük kitabxanalarında, muzeylərində tariximizi əks etdirən çox zəngin kitablar, əlyazmaları, tarixi sənədlər var. Ancaq bizim tarixçilərimiz onlardan səmərəli istifadə edə bilmirlər. Ola bilər ki, Sovetlər İttifaqında yaranmış şərait də buna imkan vermirdi. Lakin yadınızdadır ki, bizim Ali Sovetin binası (mən təzə binanı nəzərdə tuturam) hazır olanda köhnə bina haqqında cürbəcür müraciətlər olmuşdu. Bir nazirlik istəyirdi ki, bu binanı ona verək, deyirdilər ki, bu bina rəhmətlik hacı Zeynalabdin Tağıyevdən bizə yadigar qalıb,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

başqa təşkilatlar da istəyirdi. Çox düşündük, nəhayət, mən o binanın akademiyanın Əlyazmalar Fonduna verilməsi haqqında qərar qəbul etdim. Nə üçün? Çünki Əlyazmalar Fondu, əsrlərdən bəri qalmış o kitablar bizim üçün böyük bir sərvətdir. Onlar burada bu binanın zirzəmilərində pis vəziyyətdə idi. Onları çıxarıb bir muzey nümunəsi kimi yaxşı saxlayıb istifadə etmək üçün bu binanı Əlyazmalar Fonduna verdik və onun əsasında elmi institut yaratmaq haqqında qərar qəbul etdik. Tarixçilərimiz üçün böyük imkan açdıq, şərait yaratdıq ki, bunlardan istifadə olunsun.

Təəssüf ki, bunlardan lazımi qədər istifadə edilməyib. Bu gün nə üçün bu mövzuya toxunuram? Əgər biz Azərbaycanı müstəqil bir dövlət kimi dünyaya yaxşı tanıtmaq istəyiriksə, Azərbaycanın qədim tarixini, əsrlər boyu keçdiyi yolu gərək həm öz vətəndaşlarımıza, həm də bütün ölkələrdə olan elm adamlarına, respublikamıza maraq göstərən adamlara tanıdaq. Bu sahədə də tarixçilərimizin qarşısında çox böyük vəzifələr durur, onların üzərinə böyük məsuliyyət düşür. Mən o vaxtlar - Azərbaycanda işlədiyim dövrdə də deyirdim, indi də bu sözlərin üstündə dururam ki, tarixçilərimiz üçün bütün şəraiti yaratmağa hazıram. Bir şərtlə ki, bu şəraitin əvəzində biz tarixçilərimizdən Azərbaycan tarixini bu gün üçün, gələcək nəsillər üçün və bütün gələcək üçün yaxşı əks etdirən əsərlər ala bilək. Odur ki, bu baxımdan bir məsələyə də toxunmaq istəyirik: tarixi təhrif etmək olmaz. Bu 70 illik sovet dövründə tarix, ümumiyyətlə dünya tarixi, o cümlədən Azərbaycan tarixi, habelə keçmiş Sovetlər İttifaqının ərazisində yaşayan digər millətlərin tarixi təhrif edilib. Nə üçün təhrif edilib? Çünki o vaxt vəziyyət belə idi və bu, çox adi bir hal idi.

Bunu deməklə biz heç də özümüz-özümüzü ləkələmirik. Bu, bizdən asılı olmayan bir şeydir. Çünki marksizm-leninizi ideologiyası vardı. Hər bir sistemin ideologiyası olmalıdır. Məsələn, o zaman tarixçilər bir şəxsin fəlsəfi görüşlərini araşdırarkən, bir əsər yazarkən çalışırdılar ki, bunu marksizm-leninizm ideologiyasına uyğunlaşdırsınlar. Çalışırdılar bir sənəd tapsınlar ki, guya Nizami Gəncəvi də marksist-leninçi olmaq istəyirmiş. Axı bu belə deyildir. Düzdür, məsələn, əgər axtarıb tapsaydılar və layiqincə göstərə bilsəydilər ki, dünyanın böyük filosofu Höte özünün bəzi fəlsəfi müddəalarını Nizami Gəncəvinin fəlsəfi fikirləri əsasında izah etmişdir - bu isə tarixi həqiqətdir - əgər bunu sübut etsəydilər, əlbəttə ki, obyektivlik olardı. Ancaq bu, bizim tarixçiləri o qədər də maraqlandırmırdı. Bu da onların günahı deyildir, mən heç kimi təqsirləndirmək istəmirəm. Bu, o zamankı quruluşumuzun, dövrün ümumi bəlaları idi

Bu fikri tamamlayaraq demək istəyirəm ki, ötən 70 illik dövrdə tariximiz təhrif edilmişdir, həm XX əsrin, həm XIX əsrin tarixi, həm də ondan əvvəlki dövrlərin tarixi təhrif olunmuşdur. Demirəm ki, tamam təhrif edilmişdir, amma tarixə dair əsərlərimizdə təhrif ünsürləri var. İndi isə bir qütbdən o biri qütbə keçmək meyli görünür. O nədən ibarətdir? Ondan ibarətdir ki, deyirlər bütün bu 70 ildə olanların hamısı yaramazdır, pisdir, Azərbaycan xalqı üçün bəladır, xalqımızın ən parlaq dövrü yal-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

nız 1918-ci ildən 1920-çi ilədək olan dövrdür. Heç ondan əvvəlki dövrlərə də fikir verilmir. Əlbəttə ki, "Bir dəfə qalxan bayraq bir daha enməz" fikri dəyərli sözlərdir. Amma bu sözləri dəfələrlə təkrar etməklə Azərbaycanın müstəqilliyini təmin etmək mümkün deyildir. Azərbaycanın həqiqi tarixini bu gün xalqımıza, vətəndaşlarımıza və respublikadan kənarda olub ona maraq göstərən adamlara çatdırmaq mümkün deyildir.

Ona görə də heç bir dövrü, heç bir şəxsi ideallaşdırmaq lazım deyildir. Təəssüf ki, bu ideallaşdırma xəstəliyi 70 illir beynimizə kirmişdir. Bundan xilas olmaq lazımdır. Əgər 70 il müddətində bütün ideoloji sistemimiz marksizm-leninizm elmini, onun prinsiplərini, Marksı, Lenini ideallaşdırmışdırsa, indi də ancaq Məmmədəmin Rəsulzadəni ideallaşdırırlar. Mən yenə də deyirəm: Məmmədəmin Rəsulzadə və onunla bərabər Azərbaycan Respublikasının böyük şəxsiyyətləri XX əsrin əvvəlində və xüsusən 1918-ci ildə, Azərbaycan Demokratik Respublikası qurarkən böyük şücaət göstərmişlər, böyük iş görmüşlər. Bu, şəksiz-şübhəsizdir. Ancaq gəlin açıq danışaq: belə çıxır ki, bir vaxtlar deyirdilər, tariximizdə Kommunist Partiyasının, Sovet hökumətinin tarixindən savayı heç nə yoxdur. Bir müddət də deyirdilər ki, Stalindən, sonra isə Lenindən savayı heç kəs yoxdur. Burada da deyirlər ki, Məmmədəmin Rəsulzadədən başqa heç kim yoxdur. Bəs Fətəlixan Xoyski, Nəsib bəy Yusifbəyov, Hacınski, Əlimərdan bəy Topçubaşov, Behbud bəy Şahtaxtinski və başqaları? Mən bu adların hamısını saymaq fikrində deyiləm, bəlkə də siz bu adları məndən də çox bilirsiniz. Ancaq bir adamı bütləşdirmək, ideallaşdırmaq lazım deyildir. Bu xəstəlikdən yaxa qurtarıb tarixin hər bir dövrünü olduğu kimi yazmaq lazımdır. Bu tarixçilərimizin əsas vəzifəsidir. Azərbaycan müstəqil dövlət kimi, şübhəsiz ki, öz tarixi, adət-ənənələri ilə və əsrlər boyu xalqın yaratdığı mədəniyyət əsərləri ilə fəxr edir. Xalqımız qədim xalqdır, böyük tarixə, böyük mədəniyyətə malik olan xalqdır. Bu mədəniyyətimizi, onun qədimliyini, dünya miqyasında böyük şöhrətə malik olduğunu xalqımıza nə qədər dərindən çatdıra bilsək, bir o qədər də xalqımızda vətənpərvərlik hissini, həqiqi vətəndaşlıq hissini, azərbaycanlılıq hissini yüksəldərik. Müstəqillik dövründə torpaqlarımızı müdafiə etmək, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün bu, çox gərəklidir, lazımdır.

Tariximizin böyük səhifələrini, intibah dövrünü - XI-XII əsrlərdə Nizamini, Xaqanini, Fələkini, Məhsətini götürsək, onların hamısının yaradıcılığı geniş yayılmışdır. Ancaq təkcə bir cəhəti xatırlatmaq istəyirəm. Nizami Gəncəvinin 800 illiyi 1948-ci ildə keçirilmişdir. 1981-ci ildə biz Nizaminin ədəbi irsinin öyrənilməsi haqqında böyük bir qərar qəbul etdik. Nizami Gəncəvinin 840 illiyini böyük bir yubiley kimi qeyd edəndə bizə çox yerdə irad tuturdular ki, 840 il yuvarlaq tarix deyildir. Ancaq biz sübut etdik ki, Nizami Gəncəvi elə bir şəxsiyyətdir, tarixdə, dünya mədəniyyətində elə bir iz qoyub getmişdir ki, onun yubileyi hər il keçirilə bilər.

Təsəvvür edin, əgər biz Nizami Gəncəvini yaxşı tanıyırıqsa,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yaxud da Qərb ölkələrinin, o cümlədən İngiltərənin kitabxanalarında, muzeylərində vaxtilə onun yaradıcılığını təhlil edən alimlər müəyyən əsərlər yazmışlarsa, Azərbaycanda 1948-ci ildən sonra dahi şairimizin əsərləri lazımi səviyyədə çap olunmamışdır. Nizami Gəncəvinin əsərlərinin Moskvada rus dilində nəşr olunması barədə qərar qəbul edilmişdir. Lakin sonra öyrəndik ki, "Xudojestvennaya literatura" nəşriyyatında bu əsərlər çap olunmamışdır. Böyük bir nailiyyət kimi yox, sadəcə olaraq xalqıma xidmət kimi deyə bilərəm ki, Moskvada işlədiyim dövrdə Nizami Gəncəvinin "Xəmsə"sinə daxil olan əsərlərin rus dilində -ayrı-ayrılıqda nəşr olunmasına nəzarət etdim. Lakin Moskvada mənə dedilər ki, Nizaminin əsərlərinin rus dilinə tərcüməsi istənilən səviyyədə deyildir. O zaman Mirzə İbrahimovdan və başqalarından xahiş etdim ki, mən artıq Azərbaycanda deyiləm, görün nə etmək olar ki, Nizami Gəncəvinin əsərləri rus dilinə yenidən tərcümə edilsin. Bəzi adamlar isə buna etiraz edirdilər. Axı rus dili böyük dildir, Rusiya böyük dövlətdir. Rusiyadan kənarda, başqa dövlətlərdə də rus dilində oxuyurlar. Əgər məktəblilərimiz ingilis, fransız, alman dillərində dərs keçirlərsə, bu, böyük nailiyyətdir, əgər rus dilində də təhsil alırlarsa, bu da böyük nailiyyətdir.

Nizaminin əsərlərini böyük çətinliklə Moskvada nəşr etdirdik. Sonra mən Bakıya gələrkən Nizami muzeyinə getdim və gördüm ki, şairin beş əsərinin hamısı orada nümayiş etdirilir.

Nizami Gəncəvinin 850 illiyi qeyd edilmişdir. Hansı səviyyədə qeyd edildiyini deyə bilmərəm. Ona görə yox ki, bu yubiley böyük bayram kimi keçirilməlidir. Bu, Azərbaycanı, onun tarixini bir daha dünyaya tanıtmaq üçün imkandır. Nizami Gəncəvinin əsərləri təkcə ədəbi cəhətdən deyil, fəlsəfi baxımdan da əvəzsizdir. Lakin 1948-ci ildən ötən 50 ilə yaxın vaxtda biz onların istənilən səviyyədə tətbiq edilib yayılmasına nail ola bilməmişik.

Demək istəyirəm ki, bizim mədəniyyətimiz, elmimiz çox zəngindir. Biz Nizamidən, Füzulidən danışarkən onları təkcə şair kimi deyil, böyük filosoflar kimi, dünyaya, dünya mədəniyyətinə, elminə böyük töhfələr vermiş mütəfəkkirlər kimi tanıtmalıyıq. Gələn il Füzulinin 500 illiyi tamam olacaq. Biz bu yubileyə yaxşı hazırlaşmalıyıq. Biz Füzulini təkcə "Leyli və Məcnun" poemasının müəllifi kimi yox, dünya miqyaslı filosof kimi, böyük alim kimi dünyaya tanıtmalıyıq. Təkcə ədəbiyyatçılar və yaxud Yazıçılar Birliyi deyil, bütün elm xadimlərimiz bu sahədə işləməlidirlər.

Yenə də qeyd edirəm, tariximiz çox zəngindir və biz bunu vaxtaşırı xalqa çatdırmalıyıq. Xatirinizdədirmi, Nəsiminin 600 illik yubileyini qeyd etdiyimiz zaman bu, dünyada nə qədər əks-səda doğrurdu, Azərbaycanı nə qədər tanıtdı! Nəhayət, 600 ildən sonra biz Nəsiminin Hələb şəhərindəki məzarını tapdıq. İndi oııyıı məzarı oraya gedən adamlar üçün bir ziyarətgahdır. Məhz Azərbaycan xalqına mənsub olan Nəsimi kimi nadir bir şəxsiyyəti dünya ictimaiyyətinə, elminə, dünya mədəniyyətinə tanıtmaq, şübhəsiz ki, xalqımızın hörmətini qaldırmaq deməkdir. Mən təkcə şair-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lər haqqında danışmaq istəmirəm. Nəsimi də yalnız şair deyil, həm də alim, filosofdur. Eyni zamanda böyük alimlərimiz - Bəhmənyar, Nəsirəddin Tusi və başqalarını qeyd etmək istəyirəm.

Müstəqil dövlət olmaq üçün xalqın gərək mentalitet səviyyəsi olsun. Xalqın mentalitetini qaldırmaq isə bir-iki günün işi deyil. Bir çox nəsillərin işidir, bununla məşğul olmaq lazımdır. Xalqımızın böyük şəxsiyyətlərinin həm yaradıcılığını, həm də Azərbaycan xalqı qarşısındakı xidmətlərini daim tədqiq etmək, şübhəsiz ki, mühüm vəzifələrdən biridir. Məsələn, Mirzə Fətəli Axundov kimi şəxsiyyətlərin. Gələn il Abbasqulu Ağa Bakıxanovun 200 illiyi, bu il Abbas Mirzə Şərifzadənin 100 illiyi, Ülvi Rəcəbin 90 illiyi, Əlağa Vahidin 100 illiyi tamam olur. Bunlar Azərbaycanın böyük şəxsiyyətləridir. Mən böyük şəxsiyyətlərimizin hamısını yada salmaq fikrində deyiləm. Yalnız bəzilərinin adlarını çəkərək öz fikirlərimi ifadə etmək istəyirəm.

Tariximizdə hər bir şəxsiyyətin öz yeri var. Bu fikrə bir də qayıtmaq istəyirəm ki, tarixi təhrif etmək lazım deyil. 1920-ci ildən başlayaraq müstəqillik əldə etdiyimiz vaxtadək Azərbaycan xalqı böyük bir tarixi yol keçmişdir. Bu dövrdə xalqımız yüksəlmiş, onun mentaliteti, təhsil səviyyəsi qalxmışdır. Azərbaycanda böyük elm, mədəniyyət yaranmışdır. Ölkənin sənayesi, kənd təsərrüfatı inkişaf etmişdir. Bu dövrü tarixdən silmək olarmı? Hansı siyasi-iqtisadi sistemin, ideologiyanın olmasının fərqi yoxdur. Şübhəsiz, bu dövrün çox qaranlıq səhifələri də var -37-38-çi illər, elə 20-ci illərin əvvəlləri, 30-cu illər, repressiya illəri, qanunsuzluq, insan hüquqlarının pozulması, Azərbaycan xalqına böyük zərbələr vurulması. Bunlar həqiqətdir. Eyni zamanda o da həqiqətdir ki, bu dövrdə əzab-əziyyətlərlə, çətinliklərlə yanaşı, Azərbaycan xalqı öz iqtisadiyyatını yaratmışdır. Əgər 70 il ərzində yaranmış bu iqtisadiyyat olmasaydı, indi Azərbaycan Respublikası müstəqil dövlət kimi yaşaya bilərdimi?

Azərbaycanda savadsız adam tapmaq çətindir. Ətrafdakı Şərq ölkələrinə baxın, orada nə qədər savadsız adam var. Azərbaycanda ali təhsil səviyyəsi çox yüksəyə qalxmışdır. Dünənə qədər ali məktəblərimizi bəyənmirdilər. Düzdür, ali məktəblərin işində çoxlu nöqsan var, xüsusən rüşvətxorluq və sair kimi çirkin hallap var. Bu, həqiqətdir. Ancaq bütün bunlarla yanaşı, ali məktəblərimizin yaranması və inkişaf etməsi bu gün üçün nə qədər böyük nailiyyətdir! İndi siz başqa ölkələrin ali məktəbləri ilə müqayisə etdikdə görə bilərsiniz ki, biz ötən dövrdə böyük nailiyyətlər əldə etmişik. Bunları itirmək olmaz.

Eləcə də şəxsiyyətləri itirmək olmaz. Bizdən ötrü Mirzə Fətəli Axundov da, Əhməd bəy Ağayev də, Məmmədəmin Rəsulzadə də böyük şəxsiyyətlərdir, Nəriman Nərimanov da. Ancaq son zamanlar Nəriman Nərimanovdan başlayaraq Azərbaycanda bütün siyasi xadimlərin Azərbaycana düşmən olmaları barədə deyilən fikirlərlə heç cür razılaşmaq olmaz. Bunu deyən adamların Nəriman Nərimanov səviyyəsinə qalxmaları üçün bəlkə də on illərlə siyasi fəaliyyət göstərmələri lazımdır. Nəriman Nərimanov öz dövrü-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

nün, yaşadığı mühitin çərçivəsində böyümüş görkəmli simadır, böyük siyasi xadimdir. Amma onu da bilin ki, Nəriman Nərimanov müstəqil demokratik dövlətin xadimlərinin hamısını qoruyub saxlayan adamlardan olmuşdur. Məmmədəmin Rəsulzadəni də o qoruyub saxlamışdır. Məşhur generallar Mehmandarovu və Şıxlinskini həbs etmək istəyirdilər. O zaman Nərimanov Leninə məktub yazaraq bildirmişdir ki, əvvəllər çar ordusunda, sonra isə müstəqil dövlətin ordusunda xidmət etmiş bu adamlar dəyərli şəxsiyyətlərdir və onlardan istifadə etmək lazımdır. Bütün bunlarla mən öz fikrimi açıq demək istəyirəm: tarixi təhrif etmək olmaz. Tarixi təhrif edənlər xalqa xəyanət edir, onu çaşdırırlar. Buna son qoymaq lazımdır. Gələcəkdə buna yol vermək olmaz. Biz Bakıda Nəriman Nərimanovun ev-muzeyini yaratmışıq, özü də böyük bir çətinliklə düzəltmişik. Eşidirəm ki, sonra vəzifəyə gələn adamlardan kim isə gözünü bu evə dikib. Muzeyi dağıdaraq özləri üçün mənzil edirlər. Bəs bu hansı mənəviyyata sığışar? Nəriman Nərimanov elm, mədəniyyət xadimi kimi Azərbaycan tarixində olan bir adamdırsa, böyük bir ədəbi irs qoyub gedibsə, belə etmək olarmı? Şübhəsiz ki, belə hallara yol verilməməlidir.

Tariximizdə olan şəxsiyyətlərin hamısı bizim üçün qiymətlidir. Onların heç birinə toxunmaq olmaz. Dahi bəstəkarımız Üzeyir Hacıbəyovu götürək. O, əsrin əvvəlində Azərbaycanda klassik musiqinin yaradıcısı, opera sənətinin banisidir, Müsavat Partiyasının üzvü, Azərbaycan Demokratik Respublikası himninin müəllifi olmuşdur. Sonrakı dövrdə "Koroğlu" operası və başqa əsərlər yaradaraq sovet dövründə Azərbaycanın mədəniyyətini zənginləşdirmiş bir adamdır. İndi gərək Üzeyir Hacıbəyovu iki yerə bölək? Müsavat dövründəki və sovet quruluşundakı fəaliyyətinə bölək? Ola bilməz axı! Üzeyir Hacıbəyəv həddən artıq dəyərli şəxsiyyətdir. Onu günahlandıraq ki, 1938-ci ildə Moskvada böyük iftixar hissi ilə Stalinlə görüşmüş, Kalinin ona Lenin ordeni təqdim etmişdir?

Cəfər Cabbarlını götürək. Böyük yazıçımız, böyük dramaturqumuz, Azərbaycan mədəniyyətinə böyük töhfə vermiş bir adamdır. Axı o da Müsavat Partiyasının üzvü olmuşdur. Bunu yaxşı bilirsiniz. Cəfər Cabbarlı sovet dövründə ən böyük əsərlər yazmış adamdır. Bizim nəslin əksəriyyəti onun əsərləri ilə tərbiyə olunmuşdur. "Od gəlini", "Yaşar", "Almas", "1905-ci il-də", "Oqtay Eloğlu", "Solğun çiçəklər", "Firuzə" və s. nə qədər gözəl əsərlərdir! Sonralar mən eşidirdim, deyirdilər yaxşı ki, Cəfər Cabbarlı 1934-cü ildə vəfat etdi, yoxsa həbs olunacaqdı. Axı bunlar bizə yaraşan sözlər deyildir.

Ola bilər həbs edərdilər. Məsələn, böyük filosof şairimiz, dramaturqumuz Hüseyn Cavid həbs olundu, uzun illər əsərləri qadağan edildi. Ancaq tarix hər şeyi öz yerinə qoydu. Hüseyn Cavidin çənazəsi də Sibirdən öz vətəninə gətirildi, onun adı da yüksəldi. Ancaq təəssüf edirəm ki, 1981-ci ildə Hüseyn Cavidin 100 illiyi haqqında Kommunist Partiyasının qəbul etdiyi qərarı Azərbaycanda on il ərzində həyata keçirmədilər. O zaman Bakıda Hüseyn Cavidin böyük abidəsini ucaltmaq haqqında qərar qəbul etmişdik. Tanınmış heykəltaraş Ömər Eldarov bu abidəni yaratdı,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mən emalatxanada onu gördüm. Amma abidə neçə illər elə emalatxanada qaldı. Deyəsən, son vaxtlar abidə qoyulmuşdur. Təəssüf ki, mən vaxt tapıb onu ziyarət edə bilməmişəm. İndi Hüseyn Cavidin əsərləri xalqa hava-su kimi lazımdır. Təkcə ədəbi baxımdan deyil, höm də fəlsəfi, elmi baxımdan lazımdır. Lakin bu əsərlər lazımi səviyyədə nəşr olunmuşdurmu? Hüseyn Cavidi Şərqin Şekspiri adlandırırdılar. Ancaq onu, bəlkə də, Höte ilə müqayisə etmək düzgün olardı. Əsərlərindəki fəlsəfi fikirlərinə görə, ola bilsin, Cavid Şekspirdən də yüksək səviyyəyə qalxmış bir adamdır. Hüseyn Cavidin "İblis" əsəri heç də Hötenin "Faust"undan geri qalmır. Ancaq biz belə inciləri lazımi qədər qiymətləndirə bilmirik.

Güman edirəm ki, bunların hamısını Azərbaycanın müstəqilliyi dövründə təmin edə biləcəyik. Azərbaycan Respublikasının həm elmi, həm də mədəni potensialı böyükdür. Keçmişdə yaşayıb-yaratmış alimlərimiz, yazıçılarımız, şairlərimiz, bəstəkarlarımız böyük irs qoyub getmişdir. Indiki nəslin borcudur ki, bunların əsasında elmimizi, mədəniyyətimizi inkişaf etdirsin. Ancaq bir tərəfdön biz müstəqillik əldə edərək böyük iftixar hissi ilə yaşayırıq, digər tərəfdən isə təəssüf ki, elmi dağıdır, mədəniyyətə biganə yanaşırıq. Bazar İqtisadiyyatına keçmək o demək deyildir ki, elmə, mədəniyyətə ayrılan vəsait azaldılmalı, bu sahələr ağır maddi vəziyyətə salınmalıdır.

Məsələn, buna necə dözmək olar ki, Azərbaycan Dram Teatrının binası dörd ildir təmir olunur? Halbuki biz o zaman iki il ərzində, 1971-ci ilin əvvəlindən 1972-ci ilin sonunadək saray tikdik - o vaxtlar Lenin adına saray adlanırdı, indi Respublika sarayı deyilir. Həmin saray Bakıda indiyədək tikilmiş mədəniyyət binalarından ən böyüyüdür və Allaha şükür, iyirmi ildən artıqdır ki, Azərbaycan xalqına, Bakı əhalisinə xidmət edir. Təkrar edirəm ki, biz onu iki il müddətində tikmişdik. Bəs nə üçün dörd il ərzində Dram Teatrını təmir edə bilmirlər? Bu, nə çətin işdir? Əgər bu dörd il ərzində Azərbaycanın rəhbərləri mədəniyyətə bir balaca qayğı göstərsəydilər, ayrı-ayrı silahlı dəstələr (məsələn, biri Xalq Cəbhəsinin, biri "Qardaşlığ"ın, biri Mütəllibovun, biri, nə bilim, Rəhim Qazıyevin, biri başqasının) yaratmaq əvəzinə həmin teatrın binasını təmir etsəydilər, bu, Azərbaycan xalqı üçün daha yaxşı olmazdımı?

1873-cü ildə Nəcəf bəy Vəzirov və başqa böyük şəxsiyyətlərimiz ilk Azərbaycan teatrını, Şərqdə ilk teatrı yaratdılar, özü də o şəraitdə, dini təzyiqin mədəniyyətimizə böyük məhdudiyyətlər qoyduğu bir vaxtda. 1973-cü ildə biz bütün dünyaya car çəkdik və böyük iftixar hissi ilə Şərqdə ilk müsəlman teatrının yüz illiyini qeyd etdik. Bu yubileyin necə təmtəraqla, hörmətlə keçirildiyi, yəqin ki, xatirinizdədir. İndi o teatrı xatırlamırlar. Məgər bu, Mirzə Fətəli Axundovun, Nəcəfbəy Vəzirovun, Abbas Mirzə Şərifzadənin, Ülvi Rəcəbin, Mirzağa Əliyevin, Sidqi Ruhullanın, Ələsgər Ələkbərovun ruhuna hörmətdirmi? Heç olmasa, onların ruhu qarşısında məsuliyyətinizi hiss edin. Əgər Hüseyn Ərəb-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

linski o dövrdə böyük teatr, mədəniyyət xadimi kimi fəaliyyət göstərərək bu yolda öz həyatını qurban vermişsə, indi mədəniyyət xadimləri nə üçün həyəcan təbili çalmırlar ki, mədəniyyətimiz batır, dağılır.

Deyirlər ki, sağ olsun filankəslər mədəniyyətə kömək edirlər. Lakin mən bunu bu şəkildə qəbul edə bilmirəm. Necə yəni, dövlətin teatrı təmir etməyə imkanı yoxdur? Bu, nə məsələdir? Mən hələ görməmişəm, deyirlər ki, ayrı-ayrı adamlar özlərinə üçmərtəbəli bağ evləri, binalar tikdirmişlər. Allah sağlıqlarına qismət eləsin, heç kəsə paxıllığım yoxdur. Ancaq birinci növbədə teatr tikmək lazımdır. Xalq üçün, onun mədəniyyətinin inkişafı üçün teatrın nə qədər əhəmiyyətli olduğunu yaxşı bilirsiniz. Bir daha deyirəm, o dövrdə, ötən əsrin sonunda və XX əsrin əvvəlində qabaqcıl fikirli, xalqın mədəniyyəti haqqında düşünən, həm də imkansız adamlar teatrın qayğısına qalırdılarsa, indi dövlətin bizim əlimizdə olduğu bir vaxtda nə üçün qayğını hiss etmirik.

Hacı Zeynalabdin Tağıyevə Allah rəhmət eləsin, vaxtilə teatr binası qoyub getmişdir. Sonra isə o bina dağıldı. İndi yenidən tikinti işləri yaxşı gedir, ancaq binanın memarlığına baxanda narahat oldum. Axı Azərbaycanın böyük memarlıq, rəssamlıq məktəbi var. 800-900 il bundan əvvəl Azərbaycan memarları bütün Şərqdə məşhur olan abidələr yaratmışlar. Əcəmi Naxçıvaninin yaratdığı abidələr təkcə Naxçıvanda deyil, Şərq ölkələrinin bir neçəsində indi də qalmaqdadır. Şirvanşahlar sarayını tikən memarlar öz işlərinə əsl milli təfəkkürlə yanaşmışlar. Bəs indikilər? Yeni tikilməkdə olan teatr binasında Azərbaycan memarlığının bir nümunəsini də görə bilmədim. Həmin binanın hansı üslubda tikildiyini başa düşmədim. Musa Nağıyevə Allah rəhmət eləsin, bu binanı qoyub getmişdir. Gözəl binadır. Azərbaycan xalqı ondan istifadə edir. Memarlıq baxımından burada da qarmaqarışıqlıq çoxdur, mən bunu təhlil etmək istəmirəm. Ancaq Azərbaycan xalqının memarlıq, incəsənət nümunələri burada çoxdur. Səhv etmirəmsə, bu bina 1913-cü ildə tikilmişdir. Əgər Musa Nağıyev, binanı tikdirərkən bu məsələyə fikir vermişsə, indi 1992-1993-cü illərdə tikilən yeni bina niyə milli memarlıq üslubunda olmasın?

Güman edirəm ki, dediklərimi düzgün qəbul edəcəksiniz. Tənqidi fikirlər çox oldu, lakin bu, ünvansız tənqiddir. Eyni zamanda, sizə də, mənə də, başqalarına da aiddir. Bəlkə də mən özümə bəraət qazandıra bilərəm ki, on ildən çox müddətdə burada olmamışam, ancaq fikrən burada olmuşam. Bir sözlə, elmimiz, mədəniyyətimiz yaşamalı, inkişaf etməlidir.

Mənə sədalar gəlir ki, Elmlər Akademiyasını, institutları dağıtmaq istəyirlər, elm ocaqlarına biganə münasibət var. Biz bunların hamısına son qoyacağıq. Nəyin bahasına olursa-olsun, son qoyacağıq. Hansı İqtisadiyyat olursa-olsun, elm inkişaf etməlidir. Elmlər Akademiyası Azərbaycan xalqının tarixi nailiyyətidir. 1945-ci ildə bu akademiyanı yaradan adamlar, Azərbaycanın böyük alimləri çox böyük şücaət göstərmişlər. Ötən dövrdə bu akademiyanın çərçivəsində Azərbaycan elmi çox inkişaf etmişdir. Akademiyanın fəaliyyətini tənqid etmək də olar, naqis cəh

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lər də var. Ancaq ümumən götürüldükdə şübhəsiz ki, elmin keçdiyi inkişaf yoluna yüksək qiymət verməli, onu əldə saxlamalı, itirməməliyik. Dağıtmaq asandır, qurmaq, yaratmaq çətindir. 1945-ci ildə Elmlər Akademiyasını yaratmaq, sonra isə onu inkişaf etdirmək, yeni-yeni institutlar təşkil etmək asan iş idimi? Əlbəttə, yox.

Son bir il ərzində akademiya haqqında fikir söyləyənlər özləri əvvəllər akademiyada işləmiş adamlar idi. İki gün əvvəl Ziya Bünyadovla söhbət edirdim. Dedim ki, günahlar hamısı səndədir. Çünki kimdən söz düşürsə, deyir ki, o mənim aspirantım, laborantım olub. Dedim ki, yaxşı, o adamları sən belə öyrətmişdin, nədir? (Salonda gülüşmə) Yeganə bir şeylə təsəlli tapır: Əbülfəz Elçibəy deyib ki, Ziya Bünyadova dəyməyin, o mənim müəllimim olub. (Salonda gülüşmə).

Bir daha deyirəm ki, dağıtmaq asan işdir, amma yaratmaq çox çətindir. Tarix, insanlar isə həmişə quranları, yaradanları qiymətləndirir. Dağıdanlar həmişə tarixdən silinmişlər, yaxud da tarixə mənfi rol oynamış adamlar kimi daxil olmuşlar. Əmin ola bilərsiniz ki, Elmlər Akademiyası da, institutlar da fəaliyyət göstərəcəklər və biz buna imkan yaradacağıq. Azərbaycanın elmi inkişaf etməlidir. Universitetlər, ali məktəblər də inkişaf etməlidir. Ancaq bunlarda qayda-qanun olmalıdır. Əgər biz xalqımızda mənəvi dəyərləri inkişaf etdirmək istəyiriksə, birinci növbədə ziyalılarımızın mənəviyyatı yüksək olmalıdır və onlar xalqın başqa təbəqələrinə nümunə göstərməlidirlər. Biz isə bu sahəyə hər cür kömək edəcəyik və mədəniyyətimiz, elmimiz, təhsilimiz, o cümlədən ali təhsilimiz, sosial sahənin bütün başqa istiqamətləri inkişaf edəcəkdir. Şübhəsiz ki, bazar iqtisadiyyatına keçdiyimiz indiki şəraitdə burada müəyyən çətinliklərlə rastlaşacağıq. Ancaq güman edirəm ki, bunların öhdəsindən gələ bilərik.

Bu gün buraya, sadəcə olaraq, sizinlə görüşmək üçün gəlmişəm. Lakin mən belə başa düşdüm ki, siz buraya prezident seçkiləri ilə əlaqədar toplaşmısınız. Mən sizə açıq demək istəyirəm, buna inanın, dəfələrlə də demişəm, - Azərbaycanda yenidən böyük bir vəzifə tutmaq arzusunda olmamışam. Bilirsiniz ki, 1982-ci ilin dekabrında Azərbaycandan getmişdim. 1987-ci ilin oktyabrın sonunda tutduğum vəzifələrdən - Siyasi Büronun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrindən azad edilmişdim. Ondan sonrakı illər məndən ötrü ağır, çətin dövr olmuşdur. Ancaq bu ağır, çətin dövrdən, imtahanlardan da çıxdım, iradəm qırılmadı, əqidəmdən dönmədim.

Mənə qarşı böhtançılıq kampaniyası başlayanda bu işə qoşulanlar az idi, xalq isə Azərbaycanda işlədiyim dövrdəki fəaliyyətimə lazımınca qiymət verirdi. Buna görə də mən Azərbaycan xalqına minnətdaram. Düzdür, xalqın belə nümayəndələrinin bəzən sösi çıxmırdı, bəzən onlara imkan vermirdilər. Ancaq mən bunu qəlbən hiss edirdim. Azərbaycan xalqı məni böyüdüb, geniş ictimai-siyasi fəaliyyətlə məşğul olmağım üçün yol açmış, uzun illər mənə böyük etimad göstərmişdir. Həyatımın ağır dövründə də daim Azərbaycan xalqının mənə olan müsbət münasibətini, hörmətini, uzaqda olsam da, duymuşam, hiss etmişəm. Bu tellər heç

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

vaxt qırılmayıb, məni ağır imtahanlardan, əzab-əziyyətlərdən və hətta təqiblərə məruz qaldığım ağır dövrdən də çıxarmışdır.

Mən yenidən siyasi fəaliyyətə başlamaq fikrində olmamışam, sadəcə olaraq, Moskvada və Bakıda yaşamağım üçün şərait olmadığına görə, doğulduğum Naxçıvan şəhərinə sığındım, orada bir müddət yaşadım. Heç bir başqa iddiam olmadı. Orada yaşadığım dövrdən çox razıyam. Həyat şəraitim çətin olsa da, ictimai mənəvi mühit məndən ötrü çox yaxşı idi. Çünki sadə insanların arasında yaşayırdım, sadə, çox kasıb həyat sürən adamlarla bir yerdə idim. Əgər belə şəraitdə yaşadığım gənclik dövrünü nəzərə almasam, bəlkə də bu, həyatımın mənəvi baxımdan ən zəngin dövrü olmuşdur. Ona görə də heç vaxt yenidən Azərbaycanda dövlət vəzifəsi tutmaq fikrində və arzusunda olmamışam.

Ancaq tale belə gətirdi ki, özümdən asılı olmayaraq yenidən Bakıya gəlməli oldum. Xalqın mənə ehtiyacı olduğunu duyarkən bu fikirdən boyun qaçırmadım. Mən nə vəzifə tutmaq üçün, nə də Azərbaycanın dövlət başçısı olmaq üçün mübarizə aparmamışam, indi də aparmıram. Ancaq doğrudan da, əgər indi Azərbaycan xalqının, respublikanın mənə ehtiyacı varsa, özümü kənara çəkə bilmərəm. Baxmayaraq ki, indi respublika dağılmış vəziyyətdədir. Təsəvvür edin ki, dənizdə qasırğanın dağıtdığı gəmini dalğalar sahilə atmışdır. Həmin gəmini yenidən tikmək, elə vəziyyətə salmaq lazımdır ki, bir daha dənizə çıxa bilsin. Bəlkə də mən səhv edirəm, lakin Azərbaycan indi təxminən belə vəziyyətdədir. Belə bir vəziyyətdə gəlib bütün məsuliyyəti öz üzərimə götürmək, şübhəsiz ki, şəxsi nöqteyi-nəzərdən yanaşılsa, lazımlı şey deyildi.

Amma məsələyə bütünlükdə xalqın, respublikanın mənafeyi baxımından yanaşaraq Ali Sovetin sədri vəzifəsini aparmağa etiraz etməmişəm. Indi də prezidentliyə namizəd göstərilməyimə etiraz etmədim. Ancaq bu vəzifə üçün mübarizə aparmıram. Mənə dedilər ki, qaydaya görə, prezidentliyə namizədliyi göstərilən adamın vəkilləri olmalıdır. Dedim ki, mənə lazım deyil. Elə hesab edirəm ki, əgər xalqa lazımamsa, mənim vəkilim bütünlükdə xalqdır. Yox, əgər lazım deyiləmsə, nə ehtiyac var ki, 15-20 nəfər məni təbliğ etsin, desinlər ki, Heydər Əliyev yaxşı adamdır, bunu edəcək, onu edəcəkdir. Bu, mənə lazım deyildir.

Mən sizə səmimi deyirəm. İndi heç kimə heç bir vəd vermək istəmirəm. Ali Sovetin sədri seçiləndə də məndən soruşdular ki, nə vəd edirəm? Cavab verdim ki, mən peyğəmbər deyiləm. Azərbaycanın bu vəziyyətdən necə çıxacağını deyə bilmərəm. Ancaq əgər mən bu vəzifəni öz üzərimə götürürəmsə, deməli, Azərbaycanı bu vəziyyətdən çıxarmağın yollarını (əlbəttə, xalqla, onun ağıllı, düşünən adamları ilə birlikdə) arayıb-axtarmağı bacararam. İndi də təkrar edirəm ki, mən heç bir vəd vermirəm. Yalnız bir şeyi vəd edə bilərəm: Azərbaycan xalqına, millətimə, torpağıma sadiq olmuşam və ömrüm boyu da sadiq olacağam. Həyatımın son dəqiqəsinədək xalqıma xidmət edəcəyəm və ömrümün bundan sonrakı illərini də xalqıma bəxş edirəm. Bu sözlərlə də çıxışımı bitirirəm. Sağ olun.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

RESPUBLİKA ALİ SOVETİNDƏ GƏNCLƏRİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

22 sentyabr 1993-cü il

Əziz dostlar, əziz gənclər, mən sizə müraciət edirəm, bütün Azərbaycan gənclərinə müraciət edirəm. Azərbaycan torpaqlarını müdafiə edən, qoruyan gənc əsgərlərə müraciət edirəm. Azərbaycanın doğma övladlarına müraciət edirəm. Sizin hamınızı və sizin simanızda bütün Azərbaycan gənclərini səmim-qəlbdən salamlayıram və bu əlamətdar görüşümüzə görə sizə öz minnətdarlığımı bildirirəm.

Hər bir xalqın, hər bir millətin, hər bir ölkənin gəncləri onun həm bu günüdür, həm də sabahıdır, ümididir. Siz, Azərbaycan xalqının gənc nəsli, bu gün də müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi həyatında böyük rol oynayırsınız. Eyni zamanda, müstəqillik yoluna düşmüş Azərbaycan dövlətinin gələcəyinin, xalqımızın daha firavan yaşamasının təməlini qoymaqda iştirak edirsiniz. Buna görə də sizə ümid bəsləyirik. Həm də üzərinizə böyük məsuliyyət düşdüyünü sizə bildirmək istəyirəm.

İndi Azərbaycan Respublikası müstəqil dövlət kimi öz dövlətçiliyinin bütün sahələrində çox iş görməlidir. Dünya miqyasında bir müstəqil dövlət kimi yaşamaq, beynəlxalq aləmdə layiqli yer tutmaq üçün Azərbaycan xalqı həm bugünkü potensialından səmərəli istifadə etməli, həm də öz gələcəyi haqqında düşünməlidir. Əgər indi dövlət müstəqilliyimiz, milli azadlığımız körpə uşağın ilk aldımlarına bənzəyirsə, bir neçə ildən sonra dövlətimiz, ölkəmiz, xalqımız güclü, iradəli addımlarla irəliləməli, böyük inamla hərəkət etməlidir. Bu isə həm bizdən, həm də ən çox sizdən - Azərbaycanın gənclərindən asılıdır. Ona görə də indi biz müstəqil Azərbaycanın dövlət orqanlarını formalaşdıraraq, müstəqillik prinsiplərini həyata keçirərək həm tarixi ənənələrimizdən istifadə edir, həm dünya təcrübəsindən bəhrələnir, həm də gənclərimizə çox istinad edirik, güvənirik. Gənclərimizin həm güclü enerjisinə, həm gələcəyə olan böyük ümidlərinə, həm də müstəqilliyin bu günümüz, gələcəyimiz üçün dəyərli olduğunu anlamasına istinad edirik. Ona görə də mən bugünkü görüşə çox böyük əhəmiyyət verirəm.

Bu salonda gənclərin nümayəndələri toplaşıblar. Güman edirəm ki, dediyim sözlər tək sizə yox, bütün Azərbaycan gənclərinə çatacaq və öz əks-sədasını verəcək, Azərbaycanın gəncləri ilə dövlət orqanları, bu orqanların başçıları və yaşlı nəsil birləşib respublikamızı indiki ağır böhran vəziyyətindən çıxaracaqlar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Respublikamızın ictimai-siyasi, sosial-iqtisadi vəziyyəti sizə məlumdur. Yaxşı bilirsiniz ki, Azərbaycan beş ildən artıqdır müharibə şəraitində yaşayır. Bu müddətdə Ermənistan silahlı qüvvələri tərəfindən respublikamıza qarşı hərbi təcavüz davam edir. Torpaqlarımızın bir qismi düşmən tərəfindən işğal olunmuş, ərazi bütövlüyümüz pozulmuş, müstəqilliyimizə zərbə vurulmuşdur. Bunların nəticəsində respublikamızın əhalisinin bir qismi öz evindən-eşiyindən, yerindən-yurdundan, doğma torpağından, kəndindən, obasından, şəhərindən məhrum olmuş, qaçqın düşmüş və ağır şəraitdə yaşayır. Ümumiyyətlə, respublikanın əhalisi ağır sosial-iqtisadi, ictimai-siyasi şəraitdə yaşayır.

Bunların hamısı bizim qarşımızda çox böyük vəzifələr qoyur, Azərbaycan Respublikasının dövlət rəhbərliyindən çox şey tələb edir. Güman edirəm ki, biz məsuliyyətimizi dərindən dərk edərək üzərimizə düşən vəzifələrin ağırlığını, eyni zamanda xalqımız üçün son dərəcə gərəkli olduğunu başa düşərək əlimizdən gələni etməliyik və hamımız birləşib respublikamızı bu ağır vəziyyətdən çıxarmalıyıq.

Şübhəsiz ki, əsas vəzifəmiz müharibəyə son qoymaq, işğal olunmuş torpaqlarımızı geriyə qaytarmaq, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək, yerlərindən didərgin düşmüş, qaçqın olmuş Azərbaycan vətəndaşlarını öz evlərinə, öz yurdlarına qaytarmaqdır. Xalqın sosial-iqtisadi vəziyyətində azacıq da olsa müsbət dəyişikliklər yaratmaq, İqtisadiyyatdakı dağıntıların qarşısını almaq, zəngin təbii sərvətlərimizdən, böyük iqtisadi, intellektual potensialımızdan səmərəli istifadə etmək - bunlar hamısı qarşımızda duran əsas vəzifələrdir. Yəni həm dövlət orqanları, həm də cəmiyyət qarşısında, hər bir vətəndaş qarşısında duran vəzifələrdir.

Düzdür, müharibəni Azərbaycan xalqı başlamayıbdır. Müharibə bizim respublikanı dağıtmaq, onun torpaqlarının bir hissəsini qəsbkarlıqla ələ keçirmək niyyəti ilə qonşu Ermənistan dövləti tərəfindən başlanmışdır. Ancaq eyni zamanda bu elə bir böyük müharibə deyildir ki, beş il müddətində ona əncam, çarə tapılmasın, son qoyulmasın. Demək istəmirəm ki, bu, asan məsələdir. Bu müharibə təkcə Ermənistanda Azərbaycan arasında gedən müharibə deyil. Bu müharibəyə böyük xarici qüvvələr qoşulmuşdur. O, böyük siyasi proseslərlə bağlıdır. Bu müharibə başıbəlalı Azərbaycanı parçalamaq, yenidən dağıtmaq məqsədi güdən böyük siyasi qüvvələr tərəfindən başlanıb. Ancaq eyni zamanda bu məsələlərin həllinə ağılla, səriştə ilə yanaşılsaydı, şübhəsiz ki, biz belə fəlakətli, faciəli nəticələrə gəlib çıxmazdıq. Nə etməli, görünür, taleyimiz belə imiş. Amma bu, təkcə tale ilə bağlı deyil. Bütün bunlar, şübhəsiz, obyektiv səbəblərdən çox, subyektiv səbəblərlə bağlıdır, Azərbaycanda rəhbər dairələrin dövlət, millət, xalq haqqında düşünməmələrinin nəticəsi olmuşdur və indi biz bunların əzab-əziyyətini çəkirik, Azərbaycanı bu vəziyyətdən çıxarmağın yollarını arayırıq.

Güman edirəm ki, vəziyyətimiz nə qədər ağır olsa da, nə qədər

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

faciəli bir şəraitdə yaşasaq da bədbindiyə uymamalıyıq. Azərbaycan xalqını əsrlər boyu yaşadan, bu günə qədər gətirib çıxaran onun gələcəyə həmişə nikbinliklə baxması olmuşdur. Nikbinlik əhval-ruhiyyəsi, özündə olan gücü, qüdrəti yeri gələndə son həddə qədər toplayıb hərəkətə gətirmək imkanları - bunlar Azərbaycan xalqını həmişə ağır vəziyyətlərdən çıxarmışdır, güman edirəm ki, indi də çıxaracaqdır. Bir sözlə, mən istəyirəm siz gənclərdə həm düşdüyümüz vəziyyət haqqında düzgün təsəvvür olsun, həm də inam olsun, ümid olsun, nikbinlik olsun. İnam, iradə, güc, qüdrət, daxili mənəviyyat - bunlar bizim xalqa xas olan keyfiyyətlərdir. Buna görə də mən xalqımızın qüdrətinə də, cəsarətinə də, mətanətinə də inanıram.

Xalqımızın gücünü bir yerə toplasaq, onun daxili mənəviyyat hissini oyatsaq, tarixi ənənələrini və tarix boyu göstərdiyi qəhrəmanlıq nümunələrini bu gün xalqımıza, xüsusən gənclərimizə bir daha çatdıra bilsək, şübhəsiz ki, xalqımız birləşəcək, səfərbər olacaq, ayağa qalxacaq, birinci növbədə öz namusunu, şərəfini qoruyacaq, öz atasının, babasının yurdunu qoruyacaq, torpağını qoruyacaq, özünün bugünkü həyatını, gələcəyini, övladlarının, nəvələrinin, nəticələrinin həyatını qoruyacaqdır. Mən buna inanıram. Mənim bu fikirlərim bizim gənclərin gücünə, zəkasına, fitri istedadına və vətənpərvərlik hisslərinə əsaslanır.

Bizim məğlubiyyətlərimizin və düşdüyümüz ağır vəziyyətin əsas səbəblərindən biri Azərbaycanda son illər gedən ictimai-siyasi proseslər nəticəsində gənclərimizdə (şübhəsiz ki, bir qismində) vətənpərvərlik hissinin müəyyən qədər itməsi, ümumi milli məfhumlara biganəlik və başqa mənfi keyfiyyətlərin meydana çıxması, bəzən geniş sirayət etməsi ilə əlaqədardır. Bu da gənclərin özündən asılı deyil. Gənclər həmişə valideynlərinin, onları tərbiyə edənlərin yaşadıqları mühitin təsiri altında təhsil alıblar, böyüyüblər, tərbiyələniblər və həyat fəaliyyətinə qoşulublar. Təəssüf ki, son illərdə bu işlərdə çox pozuntular olmuş, təhsil ocaqlarımızda da işlər yaxşı getməmişdir. Gənclərimizin tərbiyəsi işi də zəifləmişdir. Bəzi şəxslər gənclərimizə müsbət nümunələr vermək əvəzinə, mənfi nümunələr təbliğ ediblər. Buna görə də gənclərdə bəzən çaşbaşlıq əmələ gəlmişdir.

Güman edirəm ki, son illərlə biz hər şeyi gördük. Gənclərimiz də çox şeyi - bəzi "yenilikləri", bəzi yeni fikirləri, əhval-ruhiyyəni daddılar. Loru dildə desək, biz çox şeyi dişimizə vurduq və nəyin nə olduğunu artıq anlamağa başladıq. Mənə belə gəlir ki, bu ağır dövrdən düzgün nəticələr çıxarmağın vaxtı gəlib çatmışdır. O cümlədən gənclərin təhsili, tərbiyəsi işində, onların mənəviyyatca formalaşmasında, həyat fəaliyyəti üçün hazırlanmasında buraxılan səhvlərə gərək daha yol verməyək, gənclər doğru yolla getsinlər, həyatda öz yerlərini düzgün tapa bilsinlər, həm özləri üçün, həm onları böyüdən, yetişdirən valideynləri üçün, həm də cəmiyyət üçün, xalq üçün, dövlət üçün faydalı ola bilsinlər.

Bu baxımdan təhsil məsələləri, şübhəsiz, çox mühüm yer tutur. Burada çıxış edən gənclərin nümayəndələri bir çox təkliflər

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

irəli sürdülər. Doğrudur, problemlər çoxdur, bunları həll etmək lazımdır. Iş burasındadır ki, bizim həyatımız son 70 ildə formalaşmış müəyyən ideologiya, ictimai-siyasi, sosial-iqtisadi sistem əsasında qurulmuşdur. Təhsil sistemi də bu əsasda formalaşmışdır. Gənclərin tərbiyə olunması, həyata hazırlanması sistemi də bu əsasda qurulmuşdur. Bu sistemin, yaşadığımız o dövrün çox müsbət cəhətləri də, müsbət nəticələri də olmuşdur. Bunları unutmaq olmaz. Bu 70 ildə ideologiyadan asılı olmayaraq, ictimai-siyasi, iqtisadi sistemdən asılı olmayaraq Azərbaycan xalqının bir neçə nəsli təhsil almış, böyümüş, yüksək səviyyələrə çatmış, böyük elm və mədəniyyətə sahib olmuşdur. Bunların hamısı xalqımızın milli nailiyyətləridir və indi bizim Azərbaycan Respublikasının intellektual potensialını təşkil edir.

Əgər son illərlə anlaşıldığı kimi, bu sistemdə nəsə yaramırsa, ondan yaxşısını yaratmaq lazımdır, ondan üstün bir formaya keçmək lazımdır. Təəssüf ki, hazırkı keçid dövründə uzun illər ərzində yaranmış, mövcud olmuş formalar, sistemlər tədricən dağıdılmış, ancaq bunun yerində onlardan yaxşısı, səmərəlisi, üstünü qurulmamışdır. Ona görə də bu dövr xüsusən gənclər üçün çox ağır bir dövr olmuşdur. Əgər biz gənclik dövrümüzdə cəmiyyət tərəfindən tamamilə qəbul olunmuş bir sistem əsasında oxuyub böyümüşüksə və bunun nəticəsində də gəlib cəmiyyətdə öz yerimizi tuta bilmişiksə, bax bu son 5-6 il ərzində təhsil alan, həddi-büluğa çatıb təhsilini davam etdirən gənclər üçün çox çətinliklər yaranmışdır.

Burada çıxış edən natiqlərdən biri haqlı olaraq dedi ki, indi kitablar da tapılmır. Əvvəlki kitabların bir çoxundan biz imtina etmişik. Bu, təbii haldır. Ola bilsin ki, məsələn, fizika, kimya, riyaziyyat elmi üzrə heç bir şey dəyişilməyib, təbabət elmi üzrə də bir şey dəyişməyibdir. Ancaq ictimai-siyasi elmlər sahəsində çox şeylər dəyişmişdir. İndi o kitablardan, o ehkamlardan, o qanunlardan, o ideyalardan, o ideologiyadan imtina etmişik. Bu tamamilə təbiidir və biz onlara qayıtmayacağıq. Ancaq yenilərini yaratmamışıq. Burada deyildiyi kimi, xüsusən gənclər üçün kitablar da yoxdur, onları almaq üçün vəsait də yoxdur. Müəllimlərin oxuduğu mühazirələrlə, tələbələrə çatdırdıqları biliklə isə kifayətlənmək olmaz.

Problemlər təkcə bunlardan ibarət deyil, çoxdur. Bunların hamısını birdən həll etmək çətindir. Ancaq bunlar həll olunmalıdır. Biz özümüzü bunlardan kənara çəkə bilmərik. Əgər dövlət orqanları son illərdə bu məsələlərdən kənara çəkiliblərsə, hər şeyi özbaşına buraxıblarsa, bununla da gəncliyi yolayrıcında bax beləcə çaşbaş qoyublarsa, şübhəsiz ki, bu ümumxalq mənafeyimizə ən böyük zərbədir.

Burada doğru deyildi, çox haqlı sözdür ki, gənclik bizim gələcəyimizdir. Hər bir millətin, hər bir xalqın gələcəyidir. Indi gənclik bizim üçün daha böyük əhəmiyyət kəsb edir. Çünki qeyd etdiyim kimi, biz müstəqillik yolu ilə gedirik, respublikamız müstəqil bir dövlətdir. Əgər bu çətinliklərin öhdəsindən bu gün birtəhər gəliriksə, gərək elə edək ki, müstəqil dövlətimiz gələ-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

cəkdə hamar yolla, düz yolla gedə bilsin, gənclərimizin qarşısında daşlar-qayalar olmasın. Ona görə də bu məsələləri təcili həll etməliyik.

Mən, şübhəsiz, illüziyaya qapılmıram və sizi də aldatmaq niyyətində deyiləm ki, bu ağır problemlər qısa müddətdə dərhal həll oluna bilər. Ancaq bir var ki, bu problemlərdən özünü kənara çəkəsən, onları görmək istəməyəsən, o problemləri yaxına buraxmayasan, bir də var ki, bunları görəsən, biləsən, onların vacibliyini dərk edəsən və bu problemlərin həlli üçün çarə tapasan, çıxış yolları axtarasan, tədbirlər görəsən. Mən bildirmək istəyirəm ki, biz bu yolla gedəcəyik və bu problemlərin həll olunması üçün bütün imkanlardan istifadə edəcəyik.

Çıxış edənlərdən biri dedi ki, indi müxtəlif təhsil formaları mövcuddur. Biz, şübhəsiz ki, burada da dünya təcrübəsindən geniş istifadə etməliyik. Əgər Azərbaycan əvvəllər Sovetlər İttifaqı tərkibində dünya təcrübəsindən demək olar ki, tamamilə təcrid olunmuşdusa, biz ancaq özümüzün icad etdiyimiz formalardan istifadə edirdiksə, indi dünya təcrübəsindən istifadə etməliyik. Aicaq dünya təcrübəsini də götürüb kor-koranə tətbiq etmək, inanın ki, istənilən nəticəni verməz. Indi litsey yaratmaq, kollec yaratmaq modaya çevrilib. Bu adlar cazibədardır. Belə təsəvvür yaranır ki, orada hər şey var, çünki əvvəllər bizdə olmayıb. Bizdə olub orta məktəb, texniki peşə məktəbi, texnikum, institut.

Doğrudur, inkişaf etmiş ölkələrdə belə təhsil formaları çox yüksək təhsil verir. Lakin bunlardan necə istifadə edib, necə tətbiq edə biləriksə, gəlin onları edək. Mənasını, məzmununu dərk etməyib, nəticəsini bilmədən moda dalınca qaçmaqla bir çox böyük səhvlər buraxa bilərik. Çox təəssüf ki, Azərbaycanda artıq belə səhvlər buraxılmışdır. Təhsilin bir hissəsi kommersiya əsasına keçirilmişdir.

İndi biz azad bazar iqtisadiyyatı yolu ilə gedirik. Bu formaların hamısı Azərbaycanda öz yerini tuta bilər. Biz bunların heç birinə mane olmayacağıq. Ancaq hansı formalar ümummilli mənafedən Azərbaycan gənclərinin təhsil səviyyəsini qaldıra biləcəksə, yaxşı nəticələr verəcəksə, biz bunlar haqqında düşünməliyik.

Mübaliğəsiz demək olar ki, indiyədək mövcud olan təhsil sistemi Azərbaycan xalqına çox böyük nailiyyətlər gətirmişdir. Azərbaycanda indi hamı savadlıdır, savadı olmayanlar təktəkdir. Orta məktəbdə təhsil almaq hamı üçün açıq olub və heç kəs ondan məhrum edilməyib. Bunun özü böyük bir nailiyyətdir. Azərbaycan heç də böyük respublika deyil. Amma mənim xatirimə gəlir, burada 16 ali məktəb fəaliyyət göstərirdi. Təsəvvür edin, 1919-cu ildə Azərbaycanda ilk dəfə Bakı Dövlət Universiteti yaranıb. Azərbaycan Demokratik Respublikası bu universiteti yaratmaq üçün professorları, müəllimləri Rusiyadan dəvət etmişdi. Bakı Universitetində elmi təhsilin əsasını da bu adamlar qoydular. İndi siz fikir verin, 1920-ci ildən sonrakı dövrdə Azərbaycanda 16 ali məktəb yaranmışdır. Doğrudur, onla-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

rın çoxu institut idi. İndi onlara universitet, akademiya adı veriblər. Ancaq adı dəyişdirməklə məzmun dəyişmir. Əgər adlar kimi məzmun da dəyişsəydi, təhsil səviyyəsi qalxsaydı, elm səviyyəsi qalxsaydı, mən bu dəyişikliklərin hamısına afərin deyərdim. İndi də etiraz etmirəm. Ad nə olur-olsun, əsas məzmundur. Əsas məsələ təhsilin səviyyəsidir, nəticəsidir, o təhsil ocaqlarında elmin səviyyəsidir, elmin nailiyyətidir. Təəssüf ki, indi bunlarla o qədər də fəxr edə bilmərik.

Son illər təhsil, elm sistemində nəinki irəliləyiş yoxdur, hətta çox hallarda geridə qalmışıq, geriləmişik. Gənclərin təhsil alması əsas məsələdir. Çünki biz müstəqil Azərbaycan Respublikasında bundan sonra da xalqımızın ümumi təhsil səviyyəsinin yüksəlməsini qarşımıza əsas vəzifə kimi qoymuşuq. Ümumi təhsil məsələsi xalqın mentalitetidir, dünya xalqları ilə müqayisə olunacağı səviyyədir. Bu isə gənclərin təhsili ilə - həm orta təhsili, həm də ali təhsili ilə sıx bağlıdır. Ona görə də biz bu sahəyə çox fikir verməliyik. Güman edirəm ki, gənclərimiz özləri də çalışacaqlar ki, bütün imkanlardan istifadə edib yaxşı təhsil alsınlar.

Gənclər arasında son vaxtlar elə bir təbəqə yaranıb ki, təhsil onları o qədər də maraqlandırmır, mədəniyyət də maraqlandırmır. Nədənsə, çox əcaib adət-ənənələr meydana çıxıb ki, nə qədər mədəniyyətsiz olsan, ədəbsiz olsan, kobud danışsan, bəzən hətta ədəbsiz sözlər də işlətsən, o qədər də qəhrəman görünərsən, başqalarından seçilərsən. Bunlar dövrün bəlalarıdır keçib gedən hallardır. Bu adətlər, belə hallar uzun sürə bilməz, yaşaya bilməz.

Əsrlər boyu inkişaf etmiş dünya sivilizasiyası möhkəm təhsil və elm üzərində qurulmuşdur, yüksək tərbiyə üzərində qurulmuşdur. Mən bizim gənclərimizi də bu yola dəvət edirəm. Güman edirəm ki, müstəqil Azərbaycan Respublikası gənclərinin yolu da bu yoldur, onlar bu yolla getməlidirlər. Biz də bu yolla getməkdə sizə kömək edəcək, şərait yaradacağıq.

Təhsil haqqında danışarkən istərdim ki, həm orta məktəblə, həm də ali məktəbdə təhsil alan gənclərimiz dünya elminin, dünya mədəniyyətinin əldə etdiyi dəyərlərlə nəinki tanış olsunlar, habelə onu mənimsəməyə şərait yaradılsın, Azərbaycanda milli azadlıq hərəkatı meydana çıxandan sonra, müstəqillik meylləri artandan sonra hakim vəzifələrlə olan adamların siyasəti bir müddət bundan ibarət olub ki, Azərbaycan elə tək Azərbaycandır, Azərbaycan üçün hər şey Azərbaycanın içində olmalıdır. Azərbaycanlılıq bir ondan ibarət olub ki, kim elə Azərbaycan dilini bilirsə-hətta o qədər də yaxşı bilmirsə, öz kəndinin, şəhərinin mahnısını bilirsə, bu, elə əsl azərbaycanlıdır. Ancaq azərbaycanlı əgər öz ölkəsini, öz xalqını bilirsə, öz mədəniyyətini bilirsə, eyni zamanda dünya mədəniyyətini bilirsə, bəziləri bunu mənfi bir şey kimi qəbul ediblər. Mən belə hallarla rastlaşmışam.

Siz bilməlisiniz ki, bu XX əsrdə Azərbaycanın inkişafı Rusiya ilə bağlı olmuşdur. Avropa elmi, Avropa mədəniyyəti Rusiyadan Azərbaycana gəlmişdir. Mən XX əsri deyirəm, elə XIX əsrdə də belə idi. Müstəqillik haqqında çox cılız çıxışlar edib,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

müstəqilliyi yalnız milli məhdudiyyətdə görən adamlar belə hesab edirlər ki, hər şey elə təkcə Azərbaycan miqyasında olmalıdır. Ancaq onlar unudurlar ki, müstəqil Azərbaycan dövlətinin ilk yaradıcılarının (1918-ci ildə Azərbaycan Demokratik Respublikasını yaradanların) hamısı Rusiyada təhsil almış adamlar idi. Bizim böyük yazıçılarımızın, şairlərimizin, bəstəkarlarımızın əksəriyyəti Rusiyada, Avropada təhsil almış adamlar idi. Böyük bəstəkarımız Üzeyir Hacıbəyəv Sankt-Peterburq Konservatoriyasını bitirməsəydi, ola bilərdi ki, o klassik musiqinin Azərbaycan, Şərq musiqisi ilə sintezini yaradıb dünyaya belə gözəl, klassik milli əsaslar üzərində bəstələnmiş musiqi nümunələri, operalar, simfoniyalar təqdim edə bilməzdi və xalqımızı ucalda bilməzdi. həm elm sahəsində, həm təhsil sahəsində, ədəbiyyat, mədəniyyət sahəsində və bizim mənəvi mənbəyimiz olan din sahəsində, İslam dini sahəsində tarixi ənənələrimizdən istifadə edərək gənclərimiz üçün bütün dünyaya geniş yol açmaq lazımdır. "Dünya" deyəndə isə bütün dövlətlər nəzərdə tutulur. Orada Rusiya da var, Ukrayna da var, Almaniya, Fransa, Amerika da var, Şərq ölkələri - İran, Türkiyə, ərəb ölkələri də var, Hindistan, Çin də var.

XX əsrdə - yaşadığımız bu dövrdə bunlardan məhrum olmağımız şübhəsiz ki, bizim üçün böyük itkidir. Eyni zamanda bu dövrdə bizim üçün nəinki cığır, hətta geniş yol olubdur. Biz dünya mədəniyyətinə, dünya elminə Rusiya vasitəsilə, rus dili vasitəsilə, rus mədəniyyəti vasitəsilə çıxmışıq. İndi bunlardan imtina etmək lazım deyil. İndi biz eyni istiqamətdə həm Fransada, həm İngiltərədə, həm Amerikada olan elm, təhsil ocaqları ilə əlaqəyə kirməliyik. Türkiyə ilə əlaqələrimiz çox genişlənibdir. Bundan istifadə etməliyik.

Şərq aləmini bilmək üçün İranla da çox böyük imkanlar var, bunlardan istifadə etməliyik. Ərəb ölkələrindən də istifadə etməliyik. Lakin bu o demək deyildir ki, Rusiya kimi böyük dövlətin imkanlarından, iki əsr boyu Azərbaycanın mədəniyyətini zənginləşdirən böyük yollan imtina etməliyik. Bu, düzgün olmazdı. Ona görə də indi gərək bu məsələlərə həqiqət, gerçəklik baxımından yanaşaq. Bu da ondan ibarətdir ki, milli ənənələrimizi əsas götürərək, ümumbəşəri dəyərləri gənclərimizə çatdırmalıyıq.

Yaxın keçmişdə bu sahədə az iş görməmişdik. Xatirinizlə olmalıdır, Azərbaycanda ali təhsilin inkişafı üçün 70-ci illərlə çox işlər gördük. Həmin müddətdə beş yeni ali məktəb yaradıldı. Ali məktəblərin maddi-texniki bazasının inkişafı üçün çox işlər görüldü: universitet, neft-kimya institutu, tibb institutu və başqa instiqutlar üçün binalar tikdik. Gəncədə Texnologiya İnstitutu açıldı. Həmin institut Azərbaycan Respublikasında bir çox sahələr üçün mütəxəssislər hazırlamaqdan ötrü nə qədər böyük imkanlar yaratdı. Tələbələr üçün yataqxanalar tikildi, universitet, başqa ali məktəblər üçün cihazlar, başqa müxtəlif ləvazimat alınıb gətirildi. Bütün bunlar Azərbaycanda ali təhsilin səviyyəsini yüksəltməyə imkan verdi.

Düzdür, ali məktəblərimizdə mənfi hallar, bizi narahat

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

hallar da olmuşdur. İndi bunlar daha çox yayılmışdır. Bunlar bizim bəlalarımız, bizi çox narahat edən hallardır. Ancaq bununla yanaşı ümumi nəticəni götürsək deyə bilərik ki, Azərbaycan Respublikasının gəncləri üçün geniş miqyasda ali təhsil almaq imkanı yaranmışdır. Eyni zamanda, xatirinizdədir, o zaman - 1972-1973-cü illərdə Azərbaycandan gənclər böyük çətinliklə Moskva, Leninqrad, Kiyev şəhərlərinin, Rusiyanın, Ukraynanın, Belarusiyanın, Baltikyanı respublikaların, Orta Asiya respublikalarının ali məktəblərinə göndərilirdi. Bəlkə siz gənclər bunu bilmirsiniz, lakin mən bunu sizə çatdırmalıyam ki, ildə 400-500-600 tələbəni - sonra isə biz bunu 800-900-ə qaldırdıq -keçmiş Sovet İttifaqının ali məktəblərinə müsabiqədənkənar göndərmək hüququ almaq respublikanın rəhbəri kimi mənə nə qədər böyük çətinliklər törədirdi.

Bilirsiniz ki, müsabiqədənkənar qəbul Azərbaycan gənclərinə böyük güzəştlər verirdi. Sübut etmək lazım idi ki, bəzi obyektiv səbəblərə görə azərbaycanlı gənclər ümumi müsabiqə yolu ilə Moskva Universitetinin istənilən fakültəsinə daxil ola bilmirlər. Bunu sübut etmək, buna nail olmaq lazım idi. Biz bunu etdik. Xatirimdədir, Moskva Universitetinə ildə təxminən 150 nəfər, Leninqrad Universitetinə 100 nəfər azərbaycanlı tələbə göndərirdik. Böyük tarixi olan Bauman adına ali məktəb var, yüksək səviyyəli mühəndislər hazırlayan məktəbdir, - oraya, başqa institutlara tələbə göndərirdik. Təkcə Moskvada 30-dək ali məktəbə tələbələr yollayırdıq. Keçmiş SSRİ-nin 46-dək şəhərinin 50-yə qədər ali məktəbində bizim tələbələr təhsil alırdılar. Bütün bunlar Azərbaycan gənclərinin təhsil səviyyəsinin diapazonunu, yəni onun üfüqlərini nə qədər genişləndirirdi!

Moskvada işləyərkən Baykal-Amur magistralına on günlük səfərə çıxmışdım. Xabarovsk diyarının Komsomolsk-Amur şəhərində olarkən böyük bir mağazaya girmişdim. Oradan çıxanda mənimlə görüşmək üçün çoxlu adam toplaşmışdı. Mənə bir neçə azərbaycanlı gənc də yaxınlaşdı. Bu, məndən ötrü çox gözəl hadisə oldu. Onları doğma övladlarım kimi qucaqlayıb öpdüm. Onlar da çox sevindilər və görürdüm ki, mənimlə görüşməyi necə sevinclə gözləyirdilər. Soruşdum ki, burada nə edirsiniz, haradan gəlib çıxmısınız. Dedilər ki, siz bizi göndərmisiniz, burada politexnik institutunda təhsil alırdıq. Bilirsiniz, bu mənim üçün böyük hadisə idi. Təsəvvür edin, Uzaq Şərq, Xabarovsk diyarı, Komsomolsk-Amur şəhəri, Azərbaycanın kənd yerlərindən getmiş gənclər orada təhsil alırdılar. Mən buna çox sevindim. Bəlkə də oranın politexnik institutunun səviyyəsi elə bizim institutun səviyyəsindədir. Ancaq gedib başqa bir şəhərdə, uzaq vilayətdə oxumaq, oranın mühiti, mədəniyyəti, adət-ənənələri ilə tanış olmaq məgər Azərbaycan gəncləri üçün zərərlidirmi? Yox.

Xatirimdədir. Moskvada təhsil alan azərbaycanlı gənclərlə bir neçə dəfə görüş keçirmişdik. Belə görüşlərdən biri MXAT-ın binasında olmuşdu. O vaxtkı ali təhsil naziri, şəhərin rəhbərləri, Moskvadakı bütün institutların rektorları, tanınmış professorlar oraya toplaşmışdı. Salon a

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lu idi. Orada Cəbrayıl rayonunun dağ kəndindən olan bir gənc - adı yadımda deyil, Moskva Universitetinin humanitar fakültələrindən birinin 4-cü kursunun əlaçı tələbəsi idi, - rus dilində çıxış edəndə ürəyim dağa döndü. Biz bu yoldan da istifadə etmişik və güman edirəm ki, düz etmişik. Bundan sonra da bu yollardan istifadə etmək lazımdır. Amma indi, təsəvvür edin, Moskvada universitetdə tələbə oxutmaq üçün nə qədər pul vermək lazımdır. Sankt-Peterburq Universitetində də həmçinin. Bunu bilirsinizmi? Amma o vaxtlar pul vermək söhbəti yox idi, əksinə, təhsil almağa göndərilən azərbaycanlı tələbələr təqaüd alırdılar. Bundan əlavə, onlara maddi yardım da göstərilirdi. Bu mütəxəssislər bizim üçün dəyərli mütəxəssislərdir. Təəssüf ki, həmin ali məktəblərdə təhsil almış mütəxəssislərdən son illərdə səmərəli istifadə olunmadı, onlar dağılıb hərə bir tərəfə getdi, qoyduğumuz ənənə də müəyyən qədər pozuldu.

Biz indi başqa şəraitdə yaşayırıq. Gənclərimizi xaricə - Londona da, Amerikaya da, Türkiyəyə də, Şərq ölkələrinə, Moskvaya, Sankt-Peterburqa da göndərməliyik. Beləliklə də gənclərimizin təhsil diapazonunu, müxtəlif sahələrdə mütəxəssislər hazırlanmasının diapazonunu genişləndirəcəyik və müstəqil Azərbaycan üçün yeni intellektual nəsil yetişdirəcəyik. Bunu etməliyik, bu bizim vəzifəmizdir. Bu sizin, bugünkü gənclərin üzərinə düşmüşdür, siz bu proseslərin iştirakçısısınız. Ona görə də mən güman edirəm ki, siz birinci növbədə təhsilə fikir verəcəksiniz.

Mən təhsil məsələsi üzərində çox dayandım. Çünki təhsili olmayan gənc, şübhəsiz, həyatda lazımi yer tuta bilməz. İndi dünya mədəniyyət dünyasıdır, intellektual dünyadır, elmi-texniki tərəqqi dünyasıdır. Azərbaycanı elmi-texniki tərəqqi səviyyəsində inkişaf etdirmək üçün şübhəsiz ki, yüksək təhsilə, elmə nail olmalıyıq.

Bununla yanaşı istərdik ki, gənclərimiz həm milli ənənələrimiz əsasında, həm də bəşəri mənəvi dəyərlər əsasında əxlaq, mənəviyyat məsələlərinə çox fikir versinlər.

Azərbaycanda gənclər arasında cinayətkarlığın artması, əxlaq pozqunluğunun olması, sərxoşluğa, narkomaniyaya meylin çoxalması haqqında məlumatları ürək ağrısı ilə qarşılayırıq. Spirtli içkilərə, narkotik maddələrə aludəlik gənclərin fiziki sağlamlığına mənfi təsir göstərir, onların mənəviyyatını korlayır, cəmiyyətin sağlamlığını zəhərləyir. Gənclər bizim gələcəyimizdir. Azərbaycanın gen fondu gənclərdir. Biz onları hərtərəfli qorumalıyıq. Onlar özləri də, özlərini valideynləri də onları qorumalıdırlar. Şübhəsiz ki, dövlət orqanları da bu mənfi halların gənclərə sirayət etməsinin qarşısını almaq üçün lazımi tədbirlər görməlidirlər. Ancaq bunlar təkcə cəza tədbirləri olmamalıdır. Birinci növbədə profilaktik tədbirlər görülməli, təlim-tərbiyə işləri aparılmalı, valideynlər tərəfindən, təhsil ocaqlarında gənclərin tərbiyəsinə ciddi fikir verilməlidir. Bunların hamısı birlikdə şərait yaratmalıdır ki, gənclərin arasında belə mənfi proseslər yayılmasın, onların kökü kəsilsin. Bunlar çox təhlükəli hallardır. Əgər hər bir k

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

hər bir gənc öz həyatının timsalında bunu hiss etmirsə bütünlükdə cəmiyyət, xalq nöqteyi-nəzərindən bu bizi ən çox narahat edən məsələdir. Biz Azərbaycanın müstəqilliyini böyük bir nailiyyət kimi əldə saxlamaq istəyiriksə, - bu isə bizim borcumuzdur, gənclərimizin borcudur, - buna ciddi fikir verməliyik. Gənclərimizin borcudur ki, Azərbaycan daim müstəqil dövlət olsun, Azərbaycan xalqı bir millət kimi dünyada öz yerini tuta bilsin, gələcəyə daha da uğurla gələ bilsin, dünya millətləri, xalqları arasında aşağı səviyyədə durmasın, ümumdünya səviyyəsində olsun.

Bundan ötrü biz gen fondu haqqında düşünməliyik. Gen fondu isə gənclərin həm mənəvi, həm də fiziki sağlamlığıdır. Mənəvi və fiziki sağlamlıq bir-biri ilə qarşılıqlı əlaqədədir. Çünki mənəviyyat pozulanda gənclərin fiziki sağlamlığını da pozur. Əgər gənclər sərxoşluğa qurşanırlarsa, şübhəsiz ki, bu, onların əxlaqsız hərəkət etmələrinə şərait yaradır, mənəviyyat pozulur. Eyni zamanda bu, gənclərin sağlamlığını pozur. Yaxşı bilirsiniz ki, sərxoşluğa qurşanmış gənclərdən gələcəkdə sağlam övlad törəyə bilməz, onlar bizim nəslimizin davamçısı ola bilməz. Narkomaniyaya qurşanmış gənclər əgər ondan müvəqqəti zövq alırlarsa belə, düşünməlidirlər ki, onlar öz nəsillərini zəhərləyir, itirirlər. Bütün bunlar cəmiyyətimizdə ümumi kriminogen vəziyyəti pisləşdirir.

Ona görə də həm valileynlər, həm də təhsil işi ilə məşğul olan şəxslər bu məsələlərə ciddi fikir verməlidirlər. Ən çox isə gənclər özləri fikir verməlidirlər. Dünya təcrübəsi, tarix əsrlər boyu göstərmişdir ki, mənəvi və fiziki sağlamlıq xalqın ümumi sağlamlığı, ümumi saflığı, millətin bu günü və gələcəyidir. Gen fondu haqqında düşünərkən bax, bu məsələlər bizi narhat edir və ona görə də bunu sizin nəzərinizə çatdırmaq istəyirəm.

Bu gün mən kiçik bir statistik məlumatla tanış oldum. 1992-ci ildə cinayət törətdiklərinə görə məhkum olunmuş şəxslərin 60 faizi 30 yaşınadək olan gənclərdir. Deməli, gənclərin arasında cinayətkarlığın artması bütünlükdə cəmiyyətimizlə kriminogen vəziyyəti pisləşdirən amildir. 1991-ci ilə nisbətən ötən il gənclər arasında cinayətkarlıq 15 faiz artmışdır. Kördüyünüz kimi, dinamika təhlükəli və dəhşətlidir. Güman edirəm ki, bugünkü söhbətimiz həm sizdən ötrü, həm də dövlət orqanları, gənclərlə məşğul olan təşkilatlar, təhsil müəssisələri üçün çox böyük xəbərlarlıqdır və arzu edərdim ki, bunları nəzərə alaraq nəticə çıxarasınız.

Son illər, təxminən 1988-ci ildən bəri Azərbaycanda milli azadlıq hərəkatı geniş yayılmışdır və bunun aparıcı qüvvəsi gənclər olmuşdur. Yadımdadır, mən Moskvada yaşayarkən, 1988-ci ildə, Qarabağ problemi, Ermənistan silahlı qüvvələrinin Dağlıq Qarabağa təcavüzü ilə əlaqədar olaraq təkcə Bakıda deyil, Azərbaycanın şəhər və rayonlarının çoxunda güclü mitinqlər keçirilirdi. Bakıda, Azadlıq meydanına yüz minlərlə adam toplaşırdı. Mənim fikrimcə, bunlar çox müsbət hal idi ki, Azərbaycan xalqı özünün milli cəsarətini, qüdrətini, iradəsini hakimiyyət orqan-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

larına - kommunist partiyasına da, o vaxtkı Sovet İttifaqının rəhbərliyinə də bildirirdi. Bildirirdi ki, Azərbaycan xalqı öz namusunu, şərəfini qoruya bilən, milli azadlığa nail olmaq, torpaqlarını qorumaq istəyən xalqdır. Xalq bütün bunları həmin mitinqlərdə nümayiş etdirirdi. Mən bunları o zaman da müsbət qiymətləndirmişəm, indi də müsbət qiymətləndirirəm.

Yadımdadır, o vaxt Nemət Pənahov kimi gənc bir adam, - mən onu görməmişdim, Moskvada televiziya verilişlərindən eşidirdim, qəzetlərlə yazırdılar, - beş yüz-altı yüz min adamı milli ruhu, vətənpərvərlik ruhunu qaldırmaq əhval-ruhiyyəsi ilə meydana toplayırdı. Bunlar tariximizin gözəl səhifələridir. Meydanlara toplaşanların əksəriyyəti gənclər idi. Onların arasında savadlısı da, fəhləsi də vardı. Gənclərin hamısı yekdil idi. Sonra isə, təəssüf ki, bu proseslər müəyyən qədər mənfi xarakter daşıdı. Məlum oldu ki, bu mitinqlərə, proseslərə qoşulan adamların bəziləri bunu şəxsi məqsədlər üçün etmişlər. Bəziləri isə hətta cinayətkar ünsürlərə çevrildilər, gizli silah saxlamaq, silah gücünə xalqı qorxutmaq yolu tutdular.

Onu da qeyd etmək lazımdır ki, meydanlarda, mitinqlərdə fəal iştirak edən adamların çoxu Qarabağa döyüşə gedir, torpağımızı qoruyur, bu yolda şəhid olurdu. Onların hamısı xalqımızın gəncləri, qəhrəman, vətənpərvər oğulları idi. Tariximizdə də belə qalacaqlar.

Xalq Cəbhəsi də bu mitinqlər əsasında yarandı. Onun yaranması Azərbaycan Respublikasının tarixinə müsbət hadisə kimi həkk olundu. Şübhəsiz ki, bu da pozulmayacaq. Ancaq sonra bu proseslər şəxsi mənafe güdməyə başlayanda savadlı, bilikli gənclər hərəkatdan kənarlaşdılar və təəssüf ki, ümumi milli birliyimiz nozuldu. Ortada isə qanunsuz silah saxlayanlar, ayrı-ayrı quldur dəstələrinə qoşulanlar, mənfi fikirlərlə yaşayanlar qaldılar. Ancaq indi də, bunu bildirmək istəyirəm, Xalq Cəbhəsinin ətrafında toplaşmış gənclərin arasında çox sağlam fikirli adamlar var.

Ona görə də mən bütün bu gənclərə heç də qara yaxmaq istəmirəm. Bu gün həmin gənclərə müraciət edirəm: azadlıq, müstəqillik ideyası bizim, xalqımızın ideyasıdır. Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması bütün xalqımızın arzusudur. Ancaq bu ideyalar, arzular, sağlam fikirlər, sağlam əhval-ruhiyyə əsasında birləşməlidir. İndi isə təəssüf ki, cəmiyyətimizdə gəncləri, bütünlükdə xalqı istiqamətləndirmək işində, nədənsə, müəyyən qədər ideya çaşbaşlığı var.

Biz 70 il marksizm-leninizm ideyalarının təsiri altında yaşamışıq. Yadınızdadır, pioner var idi, komsomol var idi, bu təşkilatlar çərçivəsində böyük işlər görülürdü. İndi bunlardan imtina etmişik, bu isə tamamilə təbiidir. Hesab edirəm ki, müstəqil Azərbaycan Respublikası marksizm-leninizm ideyasına bir daha qayıtmamalıdır. Ancaq eyni zamanda biz mənəviyyatsız, ideyasız yaşaya bilmərik. İndiki ideyamız isə milli, tarixi ənənələrimiz, millətimizin keçdiyi tarixi yol, ulu babalarımızın yaratdığı ümumbəşəri dəyərlər əsasında - Nizami Gəncəvinin,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xaqaninin, Fələkinin, Nəsirəddin Tusinin, Bəhmənyarın, Nəsiminin, Füzulinin, Vaqifin, Seyid Əzim Şirvaninin, Mirzə Ələkbər Sabirin, Üzeyir Hacıbəyovun, Cəlil Məmmədquluzadənin, Hüseyn Cavidin, Cəfər Cabbarlının, Səməd Vurğunun, Mirəsədulla Mirqasımovun, Yusif Məmmədəliyevin, Mustafa bəy Topçubaşovun və tarix boyu bir çox digər alimlərimizin, ədəbiyyatçılarımızın, filosoflarımızın yaratdıqları mənəvi dəyərlər əsasında formalaşdırılmalı və inkişaf etdirilməlidir. Əgər biz bu tarixi yaxşı təhlil edə bilsək, gənclərimiz onunla yaxşı tanış olsalar, adlarını çəkdiyim şəxslərin və yüzlərlə başqalarının əsərlərindən mənəviyyata dair fikirləri mənimsəsələr, həyatlarında rəhbər tutsalar, Azərbaycan xalqı düz yolla gedəcəkdi.

Eyni zamanda, milli məhdudluq çərçivəsində yaşamaq olmaz. Azərbaycanın həmin o dahi şəxsiyyətləri də bu zirvəyə qalxmaq üçün bəşəri dəyərlərdən istifadə etmişlər. Əgər belə olmasaydı, Nizami Gəncəvi "İsgəndərnamə" kimi böyük bir poema yazmazdı. Bu poema Homerin "İliada" poemasından heç də geri qalmır. "İsgəndərnamə" bir tərəfdən tarixi əsərdirsə, digər tərəfdən dərin fəlsəfi fikirlərlə zəngindir. Ancaq gənclərimiz bunları bilirlərmi, oxuyurlarmı, bunlardan bəhrələniblərmi? Təəssüf ki, son illərdə bizim guya, milli azadlıq uğrunda çalışan, o cümlədən Xalq Cəbhəsi ətrafında toplaşan adamlar, onun aparıcı qüvvələri gənclərimizi bu elmi, fəlsəfi nailiyyətlərimizdən bəhrələndirmək əvəzinə, onları cılız küçə sözləri ilə tərbiyələndirmək yoluna düşmüşlər. Biz həm milli tariximizdən aldığımız mənəvi sərvətlərdən istifadə etməli, həm də bəşəriyyətin yaratdığı mənəvi dəyərlərə yiyələnməliyik, o cümlədən, Avropa mədəniyyətindən, Rusiya mədəniyyətindən, Şərq mədəniyyətindən istifadə etməliyik. Məsələn, böyük İran tarixini götürün. Bizim qonşu dövlət dünyaya nə qədər dahilər bəxş etmişdir. Əgər biz bu mənəvi dəyərlərə yiyələnsək, şübhəsiz ki, xalqımızın bugünkü yolunu təyin etməyimizə köməyi olar. Güman edirəm ki, gənclər bu məsələlərlə də yaxından məşğul olacaqlar, gənclərlə işləyən təşkilatlar, idarələr də buna ciddi fikir verəcəklər.

Əsas vəzifələrdən biri də gənclərimiz arasında vətənpərvərlik hissini geniş təbliğ etməkdir. Bu, təkcə ona görə deyil ki, biz indi müharibə aparırıq. Hər bir vətəndaş vətənpərvər olmalıdır. Əgör öz vətənini, torpağını, xalqını sevməsən, öz xalqının mənəvi dəyərlərinə sadiq olmasan, şübhəsiz ki, dünyada başqa şeyləri də qiymətləndirə bilməzsən. Indiki dövrümüzdə vətənpərvərlik ən aktual məsələdir. Torpaqlarımızın bir qismi işğal olunmuşdur, müharibədə məğlubiyyətlərə uğramışıq. Nə üçün? Məgər Azərbaycan xalqı bu qədər asizdirmi? Məgər Azərbaycan gəncləri bizə təcavüz edən qüvvələrdən həm fiziki, həm mənəviyyat, həm vətənpərvərlik cəhətdən zəifdirlərmi? Hesab edirəm ki, yox.

Demək, burada nə isə var. Bu da ondan ibarətdir ki, böyük səhvlər buraxılmışdır. Azərbaycanın hakim dairələri, dövlət orqanları, ordu yaratmaqla məşğul olan orqanlar, şəxslər Azərbaycan

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

xalqının, onun gənclərinin daxili imkanlarından təəssüf ki, səmərəli istifadə etməmişlər. Gəlin açıq danışaq. Azərbaycanda siyasi özbaşınalıqlar olduğuna görə gənclərin bir hissəsi ölkənin bu fəlakətli vəziyyətində özünü kənara çəkmişdir. Bəzi valideynlər şəxsi hisslərini ümummilli hisslərdən üstün tutaraq balalarını Azərbaycandan kənara çıxarmışlar, yaxud da orada-burada kizlətmişlər, orduya getməyə qoymamışlar. Ona görə də belə çıxır ki, 7 milyonluq xalq öz torpaqlarını Ermənistan silahlı qüvvələrinin təcavüzündən qoruya bilmir. Buna dözmək olmaz, bunu anlamaq mümkün deyil, bununla razılaşmaq olmaz.

İndi bizim əsas vəzifəmiz gənclərdə vətənpərvərlik ruhunu, milli ruhu, döyüş ruhunu qaldırmaqdır. Vətəni, torpağı müdafiə etmək, hər bir gənc üçün müqəddəs vəzifə olmalıdır. Biz xalqımızı, gənclərimizi ədalətsiz müharibəyə dəvət etmirik, başqa ölkələrin torpaqlarına göz dikmirik, Ermənistan torpaqlarından heç nə ələ keçirmək istəmirik. Ancaq eyni zamanda torpaqlarımızın zəbt olunmasına dözməməliyik. Millətini, torpağını sevən hər bir namuslu adam buna razı olmamalıdır. Ona görə də gənclər gərək hərbi xidmətə getsinlər. Hərbi xidmət etməyən gənc gələcək həyatında sınaqlardan çıxa bilməz. Bu, tarixən belə olmuşdur: hərbi xidmət insanları daha da mətinləşdirir, daha cəsarətli, dözümlü edir, çətinlikləri aradan qaldırmaq keyfiyyəti aşılayır. İndi isə hərbi xidmət həm də vətənimizi, torpağımızı qorumaq deməkdir.

Fərarilik haqqında çox danışırlar. Bilirsiniz, adam dəhşətə gəlir. Son illər bu salonda bu barədə nə qədər söhbətlər gedib: fərarilik, fərarilik, fərarilik. Axı nə üçün Azərbaycan oğulları fərari olsunlar? Fərarilik edən hər bir gənc gərək cəmiyyətin içinə çıxa bilməsin, fərarilik xalqa düşmən olmaq deməkdir. Ancaq mən bu məsələdə təkcə gəncləri günahlandırmaq fikrində deyiləm. Xahiş edirəm məni düzgün başa düşəsiniz. Təəssüf ki, son illərdə, elə 1988-ci ildən etibarən, torpaqlarımıza təcavüz başlandığı vaxtdan Azərbaycanın ordu potensialı lazımınca toplanaraq istifadə edilməmişdir. Gənclərimiz orduya cəlb olunmamışlar, ordu yaranmamışdır. Ona görə də respublikamız bu məğlubiyyətlərə uğramışdır. Yəni günahların çoxu siz gənclərdə deyil, dövlət başçılarında, ordunu guya, yaratmaq istəyən adamlarda olmuşdur.

Bu dövrdə, 1988-ci ildən sonra cürbəcür dəstələr, batalyonlar yaranmışdır. Heç bir hərbi təhsili, səriştəsi, biliyi olmayan adamlar ayrı-ayrı şəxsi məqsədlər naminə bu işə qoşulmuşlar. Onlardan bəzilərinin iç üzü açılmışdır, bəzilərininki də, şübhəsiz, açılacaqdır. Tarix onların hamısını ifşa edəcəkdir. Buna şübhə yoxdur.

Bu səbəbdən ordumuz da istənilən səviyyədə olmamışdır. Bir daha deyirəm, buna görə də Azərbaycan Respublikası öz torpaqlarının müdafiəsində məğlubiyyətlərə uğramışdır. Bəzən belə fikirlər səslənir (burada müəyyən həqiqət də var), bu gün burada da deyildi ki, Azərbaycan gəncləri döyüşdən qaçmırlar. Doğrudur, ancaq qaçanlar da var. Bəlkə də ona görə qaçırlar ki, heç bir hər-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bi təlim keçməmiş, silahdan istifadə etməyi öyrənməmiş, onları küçədən tutub zorla döyüşə aparırlar. Onlar isə döyüşə bilmirlər. Əlbəttə, döyüşə bilməyən, döyüş səriştəsi olmayan adamın canını qurtarıb qaçmaqdan savayı başqa yolu olmur. Döyüşərək özünü şəhid verən adamın həlak olması torpaq uğrunda, xalq yolunda həlak olmaq deməkdir. Ancaq döyüş qabiliyyəti, heç bir hərbi hazırlığı olmayan, zorla döyüş meydanına göndərilən adamın həlak olmasının günahı komandirlərin, yaxud hərbi rəhbərlərin üzərinə düşür.

Güman edirəm ki, biz indi sizində birlikdə ordunun yaradılması ilə ciddi məşğul olacağıq. Zənnimcə, gənclərimiz nizami ordu yaradılacağına inanaraq, onun doğrudan da Azərbaycanı qorumaq üçün yaradılacağına inanaraq ordu sıralarında xidmət etməyi özlərinin şərəfli vəzifəsi sayacaqlar.

Bilirsiniz ki, İkinci dünya müharibəsi zamanı çox ciddi hərbi rejim var idi. Ordudan, cəbhədən qaçan hər bir adam ən ağır cəzaya məhkum edilirdi. İndi respublikamız da müharibə vəziyyətindədir. Mən gəncləri cəza ilə qorxutmaq istəmirəm, onu demək istəyirəm ki, biz nizami ordu yaradaraq gəncləri ona cəlb etməyə çalışacağıq. Gənclərin isə vəzifəsidir ki, bu orduda xidmət edərək öz vətəndaşlıq borclarını yerinə yetirsinlər. Əgər vətəni, torpağı müdafiə etmək lazım gələrsə, bu işdən geri çəkilməsinlər.

Ordu ilə bağlı belə vəziyyətin səbəblərindən biri də olur ki., Azərbaycanda hərbi kadrlar hazırlanması ilə lazımınca məşğul olunmur. Bu gün burada Naxçıvanski adına İxtisaslaşdırılmış İnternat-Məktəbin şagirdi çıxış etdi. Mən ona çox böyük sevinc hissi ilə qulaq asdım. O, çox həyəcan keçirirdi, ürək sözlərini də həyəcanla deyirdi. Onun həyəcanla danışması təbii idi və məni də həyəcanlandırdı.

Doğrudur, 22 il bundan öncə, 1971-ci ildə biz heç bilmirdik ki, Azərbaycan müstəqil respublika olacaqdır. Lakin mən o vaxt Azərbaycanın müstəqilliyi fikri ilə yaşayırdım. Amma çoxları bunu bilmirdi. O vaxtlar mən düşünürdüm ki, gərək Azərbaycanın milli hərbi kadrları olsun. Məni belə bir məsələ narahat edirdi: nə üçün əzəmətli sovet ordusunda Azərbaycanın zabitləri çox azdır? Nə üçün respublikamızda azərbaycanlılardan generallar yoxdur, yaxud da çox azdır? Nə üçün azərbaycanlılardan sovet ordusunda marşal rütbəsinə çatanlar olmayıb? Bax, bunlar məni çox düşündürür, çox incidirdi.

Eyni zamanda, tarixi vərəqlədiklə görürdüm ki, vaxtilə, hələ çar Rusiyası dövründə azərbaycanlılardan rus ordusunla böyük sərkərdələr, böyük generallar olubdur: Əlağa Şıxlinski, Səmədağa Mehmandarov, Cəmşid Naxçıvanski. Bir tək Naxçıvanski deyil, Naxçıvan xanlarının övladlarından altı nəfər çar Rusiyasının ordusunda general rütbəsində çalışıbdır. Bir çoxları da Birinci dünya müharibəsində iştirak ediblər. Azərbaycanın başqa bölgələrindən də o vaxtlar rus ordusunda generallar olublar. Düşünürdüm ki, indi biz böyük bir sovet ölkəsində yaşayırıq, ümumi sovet ordusu var. Azərbaycan sovet ordusuna ildə təxminən

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

altmış min nəfər əsgər göndərir. Bəs nə üçün hərbi kadrlarımız yoxdur? Bu, məni düşündürürdü. Bununla məşğul olarkən çətinliklərlə də rastlaşdım. Gördüm ki, bəziləri hərbi qulluğa getmək istəmirlər. Bəziləri getmək istəyirlər, lakin rus dilini bilmirlər. Hərbi məktəblər isə rus dilindədir. Hərbi məktəbə getmək istəyən bəzi gənclərin də fiziki hazırlığı buna imkan vermirdi.

Təsəvvür edin, o vaxtlar Bakıda iki ali hərbi məktəb vardı: biri Ali Ümumqoşun Komandirləri Məktəbi, o birisi isə Hərbi Dəniz Donanmasının Ali Hərbi Dənizçilik Məktəbi idi. İkisi də yüksək səviyyəli ali məktəb idi. Mən orada təhsil alan kursantlarla maraqlananda gördüm ki, ildə hər biri 350 nəfər qəbul edir, onların arasında Ali Ümumqoşun Komandirləri Məktəbində cəmi beş-altı nəfər, o birisində isə bir-iki nəfər azərbaycanlı var. Mən dəhşətə gəldim: bu məktəblər Azərbaycanda, Bakıda yerləşir, amma onlara Rusiyadan, Ukraynadan, Belorusiyadan, hətta Ermənistandan, Gürcüstandan gəlib qəbul edilirlər, Azərbaycanda isə azərbaycanlılar daxil olmurlar.

Bax, bu çətinlikləri aradan qaldırmaq üçün mən o vaxtlar bu ideyanı irəli sürdüm və biz Naxçıvanski adına (adını sonralar qoyduq) ixtİsaslaşdırılmış hərbi internat-məktəb yaratdıq ki, yeddinci sinfi bitirən gənclər orada orta təhsilini davam etdirməklə yanaşı, hərbi təhsil alsın, fiziki cəhətdən mətinləşsin, rus dilini öyrənsin və bundan sonra ali hərbi məktəblərə asanlıqla daxil olmaq imkanı əldə etsinlər. Biz buna nail olduq. Yadımdadır, 76-77-ci illərdən başlayaraq, biz Sovet İttifaqının ali hərbi məktəblərinə hər il 800-900 nəfər gənc göndərirdik. Qoy təhsil zamanı onların bir hissəsi oxuya bilməsin, bir qismi xəstələnsin və i. a., təxminən 10-15 faizi çıxa bilərdi. Lakin hər halda ildə 700 nəfər zabit hazırlamağa imkanımız vardı.

İndi Rusiya ordusunda, Ukrayna ordusunda, Belarus ordusunda çoxlu azərbaycanlı zabit var, orada qulluq edirlər. O vaxtlar mən bunu edirdim ki, Azərbaycan üçün zabitlər hazırlayaq. Təəssüf ki, bu potensialdan da istifadə etməyiblər. Məni düz başa düşsünlər, mən Azərbaycandan gedəndən sonra bu məktəbə də diqqət çox azaldılmışdır, hətta deyirdilər ki, bu nəyə lazımdır. Qoy kim istəyir, getsin oxusun, kim istəmir, oxumasın. Lakin bu, məcburi bir şey deyildi.

Halbuki mən bunu ona görə edirdim ki, gənclərimizi hərbi təhsilə, hərb elminə cəlb edim. Məktəbdə çox şey dağıdılsa da, mən sevinirəm ki, bu məktəb fəaliyyətini davam etdirir və bizə hərbi kadrlar hazırlamaq üçün lazımi işlər görür.

Amma bunlar azdır. Azərbaycanın müdafiə qüdrətini yaratmaq üçün, müstəqilliyini qorumaq üçün və respublikanın müharibə vəziyyətindən çıxması üçün ona nizami ordu lazımdır. Bu ordunun dəyərli, bilikli, savadlı zabit heyəti olmalıdır, hərbi mütəxəssisləri olmalıdır, hərbi texnikadan istifadə etməyi bacaran mütəxəssislər, əsgərlər, zabitlər olmalıdır. Biz bunlara nail olacağıq. Onların hamısı isə gənclərdən olmalıdır. Ordu gənclərdən yaradılmalıdır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gənclərimiz bu beş illik müharibə dövründə Azərbaycan torpaqlarının müdafiəsində fəal iştirak edirlər. Sizə məlumdur ki, müharibədə həlak olanların 95 faizi gənclərdir, yəni 30 yaşına çatmayan, 30 yaşına qədər olan gənclərdir. Lakin təəssüflər olsun ki, gənclərdən Milli Qəhrəmanlar azdır. Milli Qəhrəmanlarımızdan yeddi nəfəri gənclərdir, hamısı da bu adı ölümündən sonra alıb. Əgər həlak olanların 95 faizindən çoxu gənclərdirsə, deməli, döyüşənlər, torpaqlarımızı müdafiə edənlər də gənclərdir. İtkin düşənlərin də təxminən bir o qədəri gənclərdir.

Odur ki indi bu müharibənin hansı vəziyyətdə olmasına baxmayaraq Azərbaycan xalqı gənclərə minnətdar olmalıdır. Gənclər bizim cəbhə bölgələrində əsas qüvvədir, gənclər döyüşürlər, torpaqlarımızı müdafiə edirlər, canlarını şəhid edirlər. Gəlin, torpaqlarımızı, vətənimizi qoruyaraq şəhid olmuş, canlarından keçmiş, həyatlarını qurban vermiş həmvətənlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad edək.

Allah şəhidlərə, vətən yolunda həlak olanların hamısına rəhmət eləsin, qəbirləri nurla dolsun.

Şəhidlərimizin ruhu, qəhrəmanlığı hamımızı və birinci növbədə gənclərimizi torpaqlarımızı daha cəsarətlə, daha qəhrəmanlıqla qorumağa səsləyir. Mən güman edirəm ki, gənclərimiz son illərin ağır nəticələrindən ibrət alaraq, özlərində vətənpərvərlik hisslərini daha da gücləndirəcəklər, vətəndaşlıq borclarını ödəməyi özlərinə müqəddəs vəzifə kimi qəbul edəcəklər və biz birlikdə xalqımızın müdafiə qüdrətini möhkəmləndirəcəyik, müstəqil Azərbaycan dövlətini qoruyub saxlayaçağıq, Azərbaycanın ərazi bütövlüyünü təmin edəcəyik.

Bunun üçün çox iş görmək lazımdır. Biz müdafiə imkanlarımızı gücləndirərək, eyni zamanda geniş siyasi imkanlardan, diplomatik imkanlardan istifadə etmişik və bundan sonra da edəcəyik. Azərbaycanın müstəqilliyini daha da möhkəmlətmək üçün, işğal olunmuş torpaqlarımızı geri qaytarmaq üçün bütün dövlətlərlə, bütün ölkələrlə qarşılıqlı surətdə faydalı əlaqələr yaratmaq yolu ilə gedirik və bu yoldan dönməyəcəyik. Biz bəyan etmişik və bu gün bir daha bildirirəm ki, bütün dövlətlərlə əlaqələrimiz - həm iqtisadi əlaqələr, həm insani əlaqələr, həm də elmi-texniki əlaqələr normal olmalıdır. Bütün bu əlaqələrdən Azərbaycan Respublikası İqtisadiyyatının inkişafı üçün və müstəqilliyinin təmin olunması üçün səmərəli istifadə etməliyik.

Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında dostluq əlaqələri var, bu əlaqələr bundan sonra daha sürətlə inkişaf etdiriləcək. İran İslam Respublikası ilə respublikamız arasında əvvəlki anlaşılmazlıq aradan götürülüb, indi əlaqələr sürətlə inkişaf edir. Başqa dövlətlərlə də əlaqələrimiz yaxşılaşıb və yaxşı olacaqdır. Avropa ölkələri ilə, ABŞ ilə Azərbaycan Respublikası arasında sıx əlaqələr var. Ermənistanın təcavüzünün qarşısını almaq üçün, işğal olunmuş torpaqlardan Ermənistan silahlı qüvvələrini çıxarmaq üçün biz Birləşmiş Millətlər təşkilatının imkanlarına çox güvənirik və həmin təşkilatdan bundan sonra da istifadə etməyə çalışacağıq.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ATƏM-in imkanlarına çox bel bağlayırıq, güvənirik, ATƏM-in Minsk qrupunun fəaliyyətinə çox etibar edirik. Bu gün Parisdə Minsk qrupunun konfransı keçirilir. Orada bizim nümayəndə heyəti də iştirak edir. Biz bu imkanlardan da istifadə edərik.

Bildiyiniz kimi, Kəlbəcər rayonu işğal olunduqdan sonra, aprel ayının axırlarında BMT Təhlükəsizlik Şurasi 822 nömrəli qətnamə qəbul edibdir. Amma təəssüf ki, onu indiyədək yerinə yetirməyiblər. Ağdam şəhəri işğal edildikdən sonra, iyulun 30-da BMT Təhlükəsizlik Şurasının 853 nömrəli qətnaməsi olubdur. Bu qətnamə də həyata keçirilməyibdir. Bunların hamısının yerinə yetirilməsi üçün biz BMT-nin, Təhlükəsizlik Şurasının və ATƏM-in, onun Minsk qrupunun imkanlarından bundan sonra da istifadə edəcəyik. Biz ABŞ-ın, Rusiyanın və Türkiyənin irəli sürdükləri təşəbbüsdən bundan sonra da istifadə edib, Dağlıq Qarabağ probleminin həll olunması üçün sülh yolları axtarırıq və axtaracağıq.

Bu baxımdan Azərbaycanın Rusiya ilə əlaqələri də yüksək səviyyədə olmalıdır. Bildiyiniz kimi, sentyabrın 5-8-də bizim nümayəndə heyəti, mən və mənimlə birlikdə başqa şəxslər Moskvada olduq, Rusiyanın rəhbərləri ilə görüşdük. Birgə rəsmi məlumat qəbul edildi. Bu sənəddə Rusiya ilə əlaqələrimizin bundan sonra genişləndirilməsi nəzərdə tutulur. Moskvada fikir mübadiləsi aparıldı, razılaşmalar əldə edildi. Biz məhz bu istiqamətdə irəliləyəcəyik.

Bilirsiniz ki, sentyabrın 3-də, 13-də, 14-də və nəhayət, 20-də Milli Məclisin iclaslarında, bax, bu salonda Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinə daxil olması haqqında məsələ müzakirə etdik. Müzakirə çox geniş oldu - həm bizim parlamentdə keçirildi, həm də parlamentin iclaslarına fasilə verərək imkan yaratdıq ki, bunu ictimaiyyət də müzakirə etsin, bizim elm, təhsil ocaqları, alimlər, əmək kollektivləri müzakirə etsinlər. Bu müzakirələr nəticəsində əhalinin böyük əksəriyyəti belə fikrə gəldi ki, Azərbaycan MDB-yə daxil olmalıdır. Düzdür, bunun əleyhinə çıxan qüvvələr də var, müxalif olan qüvvələr də var - həm əhali arasında, həm də bizim parlamentdə. Lakin biz əksəriyyətin iradəsinə tabeyik. Böyük əksəriyyət isə respublikanın MDB-yə daxil olmasının tərəfdarıdır. Biz bu barədə qərar qəbul etmişik.

Bu məsələlər haqqında sizə qısa məlumat verməklə demək istəyirəm ki, hər bir müstəqil dövlət, əgər müstəqil siyasət aparırsa və müstəqil xarici siyasət yeritmək istəyirsə, o, şübhəsiz, dünyanın bütün dövlətləri ilə qarşılıqlı əlaqələr yaratmalıdır. Eyni zamanda cürbəcür bloklara, müxtəlif qruplara da girməlidir. Müxtəlif blok və qruplarda iştirak etmək heç də o dövlətin müstəqilliyinə zərər gətirən amil deyildir. Biz yenə də tariximizə nəzər salmalıyıq. Məsələn, XV əsrdə yaşamış böyük dövlət xadimi Uzun Həsən hələ o vaxt Azərbaycanın Avropa ölkələri ilə diplomatik əlaqələrinin qurulması üçün addımlar atmış, oraya səfirlər göndərmiş və əlaqələr yaratmışdı. 1918-ci ildə yaranmış müstəqil Azərbaycan dövlətinin hökuməti bir çox ölkələrlə, o cümlədən Rusiya ilə diplomatik əlaqələr yaratmışdı. Şübhəsiz

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ki, əgər ADR yaşamış olsaydı, bu əlaqələr daha da genişləndirilərdi. İndi Azərbaycan Respublikası da bir müstəqil dövlət kimi öz müstəqilliyini təmin etmək üçün həm ikitərəfli müqavilələr bağlamalıdır, həm də ayrı-ayrı bloklara, ayrı-ayrı qruplara daxil ola bilər. Odur ki, Azərbaycanın MDB-yə girməsi, şübhəsiz, Azərbaycanın tam xeyrinə olan addımdır və güman edirəm ki, əhalinin və parlament üzvlərinin əksəriyyətinin bu barədə fikri Azərbaycanın gələcəyi üçün əhəmiyyətlidir.

Biz parlamentin son iclasında, yəni ayın 20-də Azərbaycanda fövqəladə vəziyyət rejiminin götürülməsi haqqında qərar qəbul etdik. Bu gündən respublikada fövqəladə vəziyyət rejimi götürülübdür. Biz bu qərarı ona görə qəbul etdik ki, son aylarda görülmüş tədbirlər nəticəsində Azərbaycan Respublikasında daxili sabitliyin təmin olunmasına şərait yarandığına inanırıq. Bu qərarı qəbul etməklə, adamların həyatındakı bu məhdudiyyəti götürməklə yanaşı, cəmiyyətimizdə nizam-intizamın möhkəmlənəcəyinə ümid bəsləyirik. Bunun üçün hər bir vətəndaşın qanun-qaydaya riayət edəcəyinə inanırıq. Fövqəladə vəziyyət rejiminin götürülməsi hüquq-mühafizə orqanlarının işinin bundan sonra daha da möhkəmlənməsini tələb edir. Lakin yaxşı olardı ki, vətəndaşların özləri hüquq normalarına, dövlətin qayda-qanunlarına, dövlət intizamına riayət etsinlər. Onlar elə etsinlər ki, biz bir daha fövqəladə vəziyyət rejiminə dönməyək.

Düzdür, müharibə aparan respublika üçün, dövlət üçün fövqəladə vəziyyət adi bir haldır. Bəziləri bizdən tələb edirlər ki, respublikada hərbi vəziyyət elan edək, bir çox şeylərə məhdudiyyət qoyaq. Lakin biz demokratik prinsiplər yolu ilə getdiyimizə görə və bunu əsas yol hesab etdiyimizə görə respublikada nəinki hərbi vəziyyət rejimi tətbiq etmək istəmirik, hətta fövqəladə vəziyyət rejimini götürməyi qərara aldıq.

Məlumdur ki, qanun pozuntularında, cürbəcür mitinqlər keçirilməsində əsasən gənclər iştirak edirlər. Mən güman edirəm ki, sağlam düşüncəli, sağlam fikirli, sağlam əxlaqlı, sağlam əhvali-ruhiyyəli gənclər Azərbaycan Respublikası gənclərinin böyük əksəriyyətini təşkil edirlər. Buna görə də sağlam düşüncəli, sağlam fikirli gənclər öz yolundan sapmış gəncləri düz yola çəkməli, düz yola çağırmalı, ayrı-ayrı qanunsuz hərəkətlərdən uzaqlaşdırmalı və respublikada, o cümlədən Bakı şəhərində əmin-amanlıq yaranmasına çalışmalıdırlar. Arzu edirəm ki, gənclər, eləcə də bu salona toplaşan gənclər bu işimizdə bizə kömək etsinlər.

Çıxışımın sonunda bir daha bildirirəm ki, sizinlə görüşdən məmnunam. Siz burada prezident seçkilərindən danışdınız. Əgər məni Azərbaycan Prezidenti seçmək istəsəniz, mən bu vəzifəni üzərimə götürməyə məcburam. Lakin mən dünən ziyalılar qar-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

şısında çıxışımda da demişəm, sizə, gənclərə də, - hamınıza öz övladlarım kimi baxıram və hər birinizi şəxsən özümə övlad bilirəm - sizə də deyirəm ki, mən vəzifə hərisi deyiləm, Azərbaycana, Bakıya bir daha vəzifə tutmaq üçün gəlməmişəm. Mənim qəlbim əvvəllər də, indi - xalqın bu ağır vəziyyətə düşdüyü vaxtda da xalqla olubdur. İndi isə xalqın iradəsi ilə bu vəzifəni üzərimə götürmüşəm. Əgər mənim üzərimə yeni bir vəzifə də qoymaq istəsəniz, əgər bu, sizin istəyiniz, sizin iradəniz olsa, mən sizin iradənizə tabe olacağam.

Sizin hamınıza həyatınızda səadət, xoşbəxtlik, gələcək işlərinizdə uğurlar, yaxşı təhsil və yeni-yeni nailiyyətlər arzulayıram. Sağ olun.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AKADEMİK AZAD MİRZƏCANZADƏYƏ

Hörmətli Azad Xəlil oğlu!

Sizi 65 illiyiniz münasibətilə səmim-qəlbdən təbrik edirəm!

Sizi Azərbaycanın elm, təhsil və iqtisadiyyatının, xüsusən də neft sənayesinin inkişafında elmi istiqamətlərin əvəzsiz banilərindən biri kimi tanıyır və bu sahədə Azərbaycanın dünya şöhrəti qazanmasında misilsiz xidmətlərinizi yüksək qiymətləndirirəm. Ümidvaram ki, Azərbaycan elminin inkişafında xalqın rifahı naminə atdığınız addımlar bundan sonra da səmərəli və uğurlu olacaq və siz vətənimizin tərəqqisi yolunda istedadınızı, zəkanızı, bacarığınızı əsirgəməyəcəksiniz.

Ömrünüzün kamillik çağında sizə xoş diləklərimi bildirirəm.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikası prezidentinin
səlahiyyətlərini həyata keçirən
Azərbaycan Respublikası Ali Sovetinin sədri

28 sentyabr 1993-cü il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BAKI KONDİSİONER ZAVODUNDA PAYTAXTIN SƏNAYE MÜƏSSİSƏLƏRİ ƏMƏK KOLLEKTİVLƏRİ NÜMAYƏNDƏLƏRİNİN MİTİNQİNDƏ ÇIXIŞ

28 sentyabr 1993-cü il

Hörmətli həmvətənlər, əziz bacılar, qardaşlar, möhtərəm dostlar! Uzun fasilədən sonra sizində görüşdüyüm üçün çox sevinirəm. Bu görüşə toplaşdığınız üçün hamınıza minnətdarlığımı bildirirəm. Burada mənim haqqımda deyilən xeyirxah ifadələr üçün təşəkkür edirəm. Mənim üçün bu zavodda olmaq, bu binada olmaq çox əzizdir. Bura mənim doğma yerimdir.

İyirmi il bundan əvvəl, ondan da bir neçə il əvvəl burada, tamamilə boş bir yerdə bu zavodun tikintisinə başladıq. İki il ərzində bu zavod tikildi və nəinki Azərbaycanda, o vaxtlar Sovetlər İttifaqında, bütün dünya miqyasında ən böyük, ən nümunəvi, müasir texnologiyayaya malik olan istehsal müəssisələrindən biri kimi meydana çıxdı və qısa müddətdə dünya şöhrəti qazandı.

Çox sevinirəm ki, uzun fasilədən sonra bir daha buraya gəlmək mənə nəsib oldu və burada o vaxtdan çalışan, ondan sonrakı dövrdə gəlib bu zavodda işləyən, həyatını bu müəssisə ilə bağlayan adamlarla görüşə bildim. Bu, həyatımın ən xoşbəxt anlarından biridir, mənim üçün əlamətdar hadisədir. Bir də deyirəm, ona görə ki, burada hər bir yer mənim üçün doğmadır. Hətta yaxınlıqdakı Moskva prospektindən zavoda dönərkən müəssisənin ərazisindəki yaşıllıqları, artıq böyümüş ağacları da görəndə sevindim. Çünki vaxtilə burada heç bir ağac, heç bir yaşıllıq yox idi. Ancaq indi bura bağ-bağata dönüb, gözəl bir yerdir və siz də burada çalışırsınız, öz həyatınızı bu zavodla, bu müəssisə ilə bağlamısınız. Çox sağ olun, təşəkkür edirəm.

Buraya Bakı şəhərinin bir çox sənaye müəssisələrinin - zavodların, fabriklərin nümayəndələri də toplaşmışlar. Ona görə də mən bu görüşü Bakı şəhərinin sənaye əməkçiləri ilə - mütəxəssislərlə, mühəndislərlə, iqtisadçılarla, texniklərlə, fəhlələrlə, sənaye sahəsində çalışan bütün adamlarla, paytaxtın vətəndaşları ilə görüş kimi qəbul edirəm və zəhmət çəkib, əziyyət çəkib buraya gələnlərə öz minnətdarlığımı bildirirəm. Çox şadam ki, Azərbaycanın paytaxtı Bakı şəhəri qədimdən sənaye mərkəzi kimi tanınmış və indi də böyük bir sənaye mərkəzi kimi yaşayır, yaradır, bu böhranlı dövrdə sənayenin inkişafını təmin etməyə qadir olan mühəndislərə, texniklərə, iqtisadçılara, fəhlələrə, qabaqcıl işçilərə malikdir. Bu, Azərbaycan Respublikasının milli sərvətidir. Bu, hamımız üçün böyük bir nailiyyətdir. Hamınızı, buraya toplaşanları səmim-qəlbdən salamlayıram, hamınıza öz hörmətimi, sevgimi bildirirəm və hamınıza cansağlığı, bütün işlərinizdə uğurlar diləyirəm.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İndi Azərbaycan müstəqil bir dövlətdir. Müstəqil dövlət kimi Azərbaycan, onun vətəndaşları, Azərbaycan xalqı öz həyatını özü qurmağa, özü yaratmağa, özü istədiyi kimi təşkil etməyə imkan əldə edibdir. Bunun üçün çox iş görülməlidir. Müstəqillik qazanmaq, özünü dünyada müstəqil dövlət elan etmək bu işin başlanğıcıdır. Ancaq qarşıda uzun, böyük və çox enişli-yoxuşlu yol var. Güman edirəm ki, Azərbaycan xalqı bu yolla məharətlə, sürətlə gedəcəkdir. Azərbaycan xalqı, bütün Azərbaycan vətəndaşları müstəqillik yolunda günü-gündən yaxşı küzəran yaradacaq, öz rifah halını yaxşılaşdıracaq, bu ağır böhran vəziyyətindən tezliklə xilas olacaqlar.

Azərbaycanın müstəqil dövlət kimi yaşaması, inkişaf etməsi, onun vətəndaşlarının güzəranının, həyat tərzinin yaxşılaşması üçün əsas şərtlərdən biri də, şübhəsiz ki, respublikanın iqtisadi potensialıdır. Bu gün biz böyük iftixar hissi ilə qeyd edə bilərik ki, Azərbaycan Respublikasının müstəqil dövlət kimi yaşaması üçün yaxşı, gərəkli və etibarlı iqtisadi potensialı var və onun əsasını sənaye təşkil edir.

Ata-babalarımızdan, nəsillərdən-nəsillərə keçən və müasir dövrdə Azərbaycanın zəhmət adamlarının gücü ilə, əməyi ilə, ağlı ilə yaranan zavodlar, fabriklər, digər sənaye müəssisələri respublikanın iqtisadi potensialının əsasını təşkil edir və mən yaxşı bilirəm ki, bu, çox güclü potensialdır. Əgər ondan səmərəli, tam gücü ilə istifadə edə bilsək, iqtisadiyyatımız çox sürətlə inkişaf edəcək və Azərbaycan vətəndaşlarının həyat tərzini yaxşılaşdırmaq üçün yaxşı şərait yaranacaqdır. Mən buna əminəm.

Başqa respublikalarla müqayisədə Azərbaycanın sənaye potensialı respublikanın müstəqil dövlət kimi inkişaf etməsinə böyük şərait yaradan bir potensialdır. Siz isə, yəni sənaye sahəsində çalışan adamlar - bu zavodları, fabrikləri, digər sənaye müəssisələrini yaradan, onları işlədən adamlar böyük iş görürsünüz. Siz Azərbaycanın müstəqilliyini təmin etmək üçün böyük fəaliyyət göstərirsiniz. Bu fəaliyyətinizə, indiki böhran vəziyyətində zavodları, fabrikləri tam gücü ilə olmasa da, işlətdiyinizə görə və öz peşənizdən, sənətinizdən uzaqlaşmadığınıza görə, öz işinizə, əməyinizə sədaqətli olduğunuza görə hamınıza minnətdarlığımı bildirirəm. Hamınızı bu əmək fədakarlığına görə ürəkdən təbrik edirəm.

Biz Bakı kondisioner zavodunu yaradanda çox böyük çətinliklərə rast gəldik. Belə bir zavodu yaratmaq üçün böyük şərtlər tələb olunurdu. Biz bunların hamısını ancaq Azərbaycan Respublikası çərçivəsində edə bilməzdik. Bilirsiniz ki, bu zavodu tikmək, yaratmaq üçün xarici ölkələrdən müasir texnologiyalı avadanlıq almaq lazım idi, böyük vəsait lazım idi. O vaxtlar biz çətinliklərin öhdəsindən gələ-gələ bunların hamısını etdik. Bu zavodun tikintisinə 1973-cü ildə başladıq. Ondan qabaqkı dövrdə böyük müqavimətlərə sinə gərdik, öz mülahizələrimizin üstündə durub zavodun məhz Bakıda tikilməsinin vacibliyini sübut etdik. Bu müəssisəni iki ildə tikib başa çatdırmağa dair verdiyimiz sözə sizində birlikdə hamımız - Azərbaycanın o vaxtkı fəhlələri, in-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

şaatçıları, mühəndisləri, mütəxəssisləri birlikdə əməl etdik, nəhəng müössisənin inşasını vaxtında başa çatdırdıq və beləliklə bütün dünyaya (mən bunu tam məsuliyyət hissi ilə deyirəm) sübut etdik ki, Azərbaycan xalqı böyük xariqələr yaratmağa qadirdir və Azərbaycan xalqının daxilində böyük istedad, böyük elmi-texniki potensial var.

İki il müddətində yaranmış zavod indi iyirmi ildir ki, fəaliyyət göstərir, həmin müddətdən Azərbaycanın iqtisadiyyatına öz töhfəsini verir. İyirmi ildir ki, bu zavodun vasitəsilə minlərlə adam öz həyatını qurur, yaşayır, ailəsini saxlayır. Ona görə də bu gün mən çox böyük həyəcan içərisindəyəm, gözəl hisslər keçirirəm. O vaxtlar çəkdiyimiz zəhmət bu gün öz bəhrəsini verir. Zavodu belə gözəl görərkən və buraya gəlməzdən qabaq son vaxtlar müəssisədə əldə olunmuş nailiyyətlərlə, yeni-yeni məhsul növlərinin nümunələri ilə tanış olarkən inandım ki, əgər indi bu zavodun iyirmi yaşı varsa, yüz illərlə də bundan sonra ömrü var. Mən bu zavodda çalışanlara, gələcək nəsillərə də uzun ömür arzu edir, böyük müvəffəqiyyətlər diləyirəm.

Bakı kondisioner zavodu Azərbaycanda sənayenin, xüsusən müasir texnologiyayalı maşınqayırma istiqamətli sənayenin inkişafına böyük təsir etdi. Bundan sonra bir neçə böyük zavod - həm elektrotexnika, həm radiotexnika, həm də elektronika zavodları, maşınqayırma və başqa sahələrdə zavodlar yarandı. O cümlədən Bakıda dərin özüllər zavodu tikildi və bu da o dövrdə sənayenin inkişafına az təsir etmədi. Bütün bunlar isə həm sənayenin inkişafı, həm də müasir texnologiyanın, özü də gələcəyi təmin edən texnologiyayanın tətbiq edildiyi sənaye müəssisələrinin yaradılması istiqamətində apardığımız siyasətin nəticəsi idi. Bunların hamısı indi Azərbaycanda iqtisadi potensialı çox yüksəldibdir.Bir də qeyd edirəm: indi biz bir müstəqil dövlət kimi, bu sənaye potensialından çox səmərəli istifadə etməliyik. Əmin ola bilərsiniz ki, biz bundan sonra sizində birlikdə işləməli olsaq, bütün imkanlarımızı buna sərf edəcək, zavodların, fabriklərin tam istehsal gücü ilə işləməsinə nail olacağıq. Beləliklə də həm istehsal artacaq, həm də bu zavodlarda, fabriklərdə, bütün sənaye müəssisələrində çalışan adamlar öz əməyinin bəhrəsini görə biləcəklər.

İndi Azərbaycan Respublikası ağır iqtisadi-sosial böhran içindədir. Siyasi və ictimai böhran da davam edir və bunun əsas səbəblərindən biri Azərbaycan Respublikasına qarşı Ermənistanın uzun müddətdən bəri apardığı müharibədir. Bu müharibəni biz başlamamışıq. Azərbaycana Ermənistan tərəfindən hərbi təcavüz beş il bundan qabaq edilibdir. Təəssüf ki, bu təcavüzün nəticəsində - bir neçə il ərzində gedən bu müharibə nəticəsində Azərbaycan torpaqlarının bir qismi işğal olunub, o torpaqlarda yaşayan bacı-qardaşlarımız - Azərbaycan vətəndaşları qaçqın vəziyyətinə düşüblər, ağır həyat şəraitindö, çox əzab-əziyyət içindədirlər. Həm də təkcə onlar yox, bu müharibəyə görə, verdiyimiz qurbanlara görə, şəhidlərə görə, Azərbaycan torpaqlarının bir qisminin əldən getməsinə görə hamımız əzab-əziyyət çəkirik. Biz böyük sıxıntı içərisindəyik, ağır dövr keçiririk.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onu da qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının mərd və igid oğulları, qəhrəman döyüşçüləri torpaqlarımızın müdafiə olunmasında şücaət nümunələri göstəriblər, canlarını fəda ediblər, şəhid olublar. Biz çox qurbanlar vermişik. Düzdür, məğlubiyyətə də uğramışıq, torpaqlarımız da əldən gedibdir. Hər bir Azərbaycan vətəndaşını itirməyimiz bizim üçün ağır bir yaradır. Ona görə də bu gün biz burada toplaşıb, Azərbaycan Respublikasının bugünkü vəziyyəti haqqında söhbət apararkən, danışarkən, şübhəsiz, Azərbaycan Respublikasının müstəqilliyi, ərazi bütövlüyü, torpaqlarımızın müdafiə olunması, qorunması uğrunda canlarını fəda etmiş, şəhid olmuş adamları yada salmalıyıq. Onların xatirəsi qəlbimizdə əbədi olaraq yaşamalıdır. Odur ki, xahiş edirəm, gəlin, şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad edək. Allah bütün şəhidlərimizə rəhmət eləsin, qəbirləri nurla dolsun.

Biz faciəli bir dövrdə yaşayırıq. Lakin bu faciə, uğursuzluqlar Azərbaycan xalqının iradəsini qırmayıb. Xalqımızın gücü və iradəsi var və əmin ola bilərsiniz ki, xalq gücünü toplayacaq, birləşəcək, öz torpaqlarını qaytaracaq, işğal olunmuş torpaqlardan erməni silahlı qüvvələri qovulacaq və Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin ediləcəkdir. Biz nəyin bahasına olursa-olsun, bu məqsədə çatmalıyıq. Əmin olun ki, həyatımıı son dəqiqəsinə qədər, son nəfəsimədək bu yoldan dönməyəcəyəm.

Son illər Respublikamızla gedən ictimai-siyasi proseslər, torpaqlarımızın müdafiəsində uğursuzluqlar bəzi adamlarla inamsızlıq yaradıb, bəzilərində ruh düşgünlüyü əmələ gətirib və ən dəhşətli hal bundan ibarətdir ki, təəssüflər olsun, xalqımız arasında parçalanma gedib, xalqımız birləşmək əvəzinə bəzi qüvvələr tərəfindən müəyyən qarşıdurma həddinə gəlib çıxıbdır. Ona görə də bu ağır iqtisadi-sosial böhrandan, ictimai-siyasi böhrandan çıxmaq üçün, Azərbaycanın suverenliyini, müstəqilliyini qorumaq üçün, işğal olunmuş torpaqlarımızı geri qaytarmaq üçün, Azərbaycan Respublikasını bundan sonra etibarlı müdafiə etmək üçün xalqımız birləşməlidir. Bütün siyasi qüvvələr, bütün şəxslər, hörmətli adamların hamısı gücünü, biliyini, zəkasını birləşdirib, öz fəaliyyətini xalqın bu ağır vəziyyətdən çıxmasına yönəltməlidir.

Biz də indi bizə göstərilən etimadı doğrultmağa, siyasi mənsubiyyətindən, dünyagörüşündən, başqa səbəblərdən asılı olmayaraq, xalqın bütün qüvvələ-rini birləşdirib Azərbaycanı bu ağır vəziyyətdən çıxarmağa çalışacağıq. Buna əmin ola bilərsiniz!

Bu imkandan istifadə edərək üzümü bütün Azərbaycan vətəndaşlarına tutub bir söz demək istəyirəm: gəlin çalışaq ki, xalq birləşsin, xalq öz gücünü bir yerə cəmləşdirsin, bütün vətəndaşlar bir olsun, ağır vəziyyətdən əl-ələ verib birlikdə çıxaq və bundan sonra müstəqil Azərbaycan Respublikasının gələcək işləri ilə məşğul olaq.

Biz Azərbaycanda müxtəlif siyasi partiyaların, siyasi təşkilatların fəaliyyətinin bundan sonra da davam etməsinə şərait yaradacağıq. Mən xalqın birləşməsi haqqında öz fikirlərimi sizə çatdırarkən bunu xüsusi qeyd etmək istəyirəm. Çünki indi Azərbay-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

canda bir çox partiyalar, ayrı-ayrı siyasi qruplar, ayrı-ayrı ictimai təşkilatlar var. Şübhəsiz ki, hər bir partiyanın, hər bir təşkilatın özünə aid, özünə məxsus proqramı var, istiqaməti var. Lakin hamı üçün bir istiqamət olmalıdır: Azərbaycanın müstəqilliyini qorumaq, Azərbaycanın ərazi bütövlüyünü qorumaq, Azərbaycan Respublikasında siyasi sabitlik yaratmaq, qanun-qayda yaratmaq və Azərbaycan Respublikası vətəndaşlarının rahat yaşaması üçün şərait yaratmaq.

Bu sahədə görüləsi işlər çoxdur. Özünüz də hiss edirsiniz ki, son dövrdə respublikamızda qanun pozğunluğu, cinayətkarlıq, ayrı-ayrı mafioz qrupların cinayətkar fəaliyyəti həm ictimai-siyasi sabitliyi pozmuş, həm də Azərbaycan Respublikasının müdafiə qüvvələrini zəiflətmişdir.

Ona görə də bütün siyasi qüvvələr, siyasi partiyalar, ictimai təşkilatlar öz proqramları, öz yolu ilə gedərkən bir məqsədi unutmamalıdırlar. Bu da ondan ibarətdir ki, indi Azərbaycanda siyasi sabitlik, ictimai sabitlik yaratmaq, cinayətkarlara qarşı mübarizə aparmaq, əmin-amanlıq şəraiti yaratmaq lazımdır, Azərbaycan Respublikasının müdafiə qüvvələrini, müdafiə imkanlarını möhkəmlətmək gərəkdir. Hər bir azərbaycanlı, hər bir Azərbaycan gənci gərək torpaqlarımızı qorumağa hazır olsun, özünü bunun üçün hazırlasın. Biz işğal olunmuş torpaqlarımızı geri qaytarmalıyıq. Müstəqil dövlət kimi öz dövlətimizin hüdudlarını qorumalıyıq, öz müstəqilliyimizi qorumalıyıq. Əgər bunları biz özümüz qorumasaq, heç kəs bizim üçün qorumayacaqdır. Bu, bizim üçün ən şərəfli və ən ümdə vəzifələrdən biridir.

Bu baxımdan son vaxtlar respublikamızda gedən bir proses haqqında da sizə məlumat vermək istəyirəm. O da bundan ibarətdir ki, son bir ay ərzində müstəqil Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinə daxil olub-olmaması məsələsi geniş müzakirə olunmuşdur. Bildiyiniz kimi, bu, böyük məsələdir. Respublikada son dövrdə son bir ildə bu barədə eyni fikir olmamışdır, bəzi qüvvələr belə hesab edirdilər ki, Müstəqil Dövlətlər Birliyinə daxil olmaq lazımdır. Bəzi qüvvələr bunun əksinə çıxmışdır. Ancaq biz keçmiş dövrü geniş təhlil edib araşdırandan sonra belə fikrə gəldik ki, Azərbaycan Müstəqil Dövlətlər Birliyinə daxil olmalıdır. Elə təkcə sizin zavodun timsalında yox, Bakıda, bütün Azərbaycanda olan sənaye müəssisələrinin işinin timsalında da Azərbaycanın MDB-dən kənarda olmasına görə, başqa respublikalarla iqtisadi əlaqələrin kəsilməsinə və ya məhdullaşmasına görə nə qədər zərər çəkdiyimiz göz qabağındadır. Bunu siz məndən də yaxşı bilirsiniz. Ancaq bizim MDB-yə daxil olmağımız təkcə iqtisadi inteqrasiya məqsədi daşımır, bunun başqa böyük səbəbləri də var. Zənnimizcə, bunların hamısı birlikdə Azərbaycan Respublikasının gələcək inkişafı üçün faydalı olacaqdır.

Sentyabrın 24-də Azərbaycanın nümayəndə heyəti respublikamızın MDB-yə daxil olması haqqında sənədlər imzalamışdır. İndi Azərbaycan Respublikası artıq MDB-nin üzvüdür. Güman edirəm ki, siz bu addımımızı müdafiə edəcəksiniz. Çünki bilin və inanın ki, bu addım Azərbaycan Respublikasının müstəqilliyinə heç

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bir zərər gətirməyəcəkdir. Bu addım Azərbaycan Respublikasının yenidən başqa bir dövlətin təsiri altına düşməsinə, yaxud başqa bir dövlətin tərkibinə daxil olmasına şərait yaratmır. Əksinə, bu addım Azərbaycan Respublikasının bir müstəqil dövlət kimi ərazi nöqteyi-nəzərindən və tarixi ənənələrə görə başqa müstəqil dövlətlərlə yaxın iqtisadi, elmi, texniki, insani əlaqədər saxlaması üçün şərait yaradır. Güman edirəm ki, siz bu fikirlərlə razısınız və bizim bu mövqeyimizi müdafiə edəcəksiniz.

Burada çıxış edən natiqlər və buraya toplaşan dostlarımız, bacılarımız, qardaşlarımız böyük ümidlərlə yaşayırlar. İnanırlar ki, Azərbaycan bu ağır vəziyyətdən çıxacaqdır. İstəyirlər ki, Azərbaycan bu böhran vəziyyətindən çıxsın. Hamının ürəyində böyük arzular var. Ən böyük ümid, ən böyük arzu ondan ibarətdir ki, Azərbaycan müharibə vəziyyətindən çıxsın. Biz bunun üçün lazımi tədbirlər görürük. Bilirsiniz ki, bəzi diplomatik tədbirlərimiz nəticəsində son vaxtlar döyüş bölgələrində atəşin dayandırılmasına nail olmuşuq. Moskvada apardığımız danışıqlar nəticəsində atəşin dayandırılması müddətinin daha bir ay uzadılmasına müvəffəq olmuşuq. Bunun üçün indən sonra da lazımi tədbirlər görüləcəkdir. Biz də bu ümidlərlə yaşayırıq ki, Azərbaycan bu ağır vəziyyətdən tezliklə çıxsın, böhran vəziyyətindən, müharibə vəziyyətindən çıxsın, xalq rahat yaşasın, özü üçün yaxşı gələcək qura bilsin.

Əlbəttə, biz çalışacağıq ki, sizin bu ümidləriniz çin olsun. Biz çalışacağıq ki, bu arzularınız həyata keçsin. Əmin olun ki, şəxsən mən bundan ötrü bütün imkanlarımdan istifadə edəcəyəm. Dəfələrlə demişəm və bir daha qeyd edirəm: mənim həyatım xalqa məxsusdur, xalqın ixtiyarındadır və bundan sonra da bütün həyatımı xalqa həsr etməyə hazıram, həyatımın qalan hissəsini də sizə və bütün Azərbaycan xalqına bəxş edirəm.

Mən Ali Sovetin sədri kimi, belə bir məsuliyyəti öz üzərimə götürmüşəm. İndi isə siz məni Azərbaycan prezidenti vəzifəsinə namizəd göstərmisiniz. Belə bir məsuliyyəti üzərimə götürərkən sizə güvənirəm. Şübhəsiz ki, mənim biliyim, təcrübəm Azərbaycan xalqı üçün gərəklidir. Lakin mən biliyimdən, təcrübəmdən səmərəli istifadə etmək üçün xalqa güvənirəm, hər bir Azərbaycan vətəndaşına güvənirəm. Əmin olun ki, indiyədək olduğu kimi, bundan sonra da ana torpağıma, vətənimə, doğma Azərbaycana, Azərbaycan Respublikasının xoşbəxt gələcəyinə sadiq olacağam.

Eyni zamanda əmin etmək istəyirəm ki, sizin köməyinizlə, sizinlə birlikdə, birləşərək bu etimadınızı doğrulda bilərəm. Çalışacağam ki, doğruldum. Yenə də deyirəm, mən sizə güvənirəm, sizə arxalanıram, mən sizinlə bərabərəm və sizinlə də bərabər bütün çətinliklərdən çıxıb xoşbəxt gələcəyə getməyə hazıram.

Mənə göstərdiyiniz etimad üçün minnətdaram və sizi əmin edirəm ki, bu etimadınıza daim sadiq olacağam. Sağ olun.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN İCLASINDA RESPUBLİKADA QANUNSUZ HƏBSLƏR OLUB-OLMAMASI HAQQINDA MƏSƏLƏNİN MÜZAKİRƏSİ İLƏ BAĞLI ÇIXIŞ

29 sentyabr 1993-cü il

Bu məsələni Milli Məclisin səviyyəsinə qaldırmaq və daxili işlər nazirinin, milli təhlükəsizlik nazirinin, baş prokurorun birinci müavininin məlumatlarını burada dinləməyin özü demokratiyanın çox güclü təzahürüdür. Təsəvvür edin, başqa bir yerdə deməyə imkanınız olmayan sözləri burada deyirsiniz. Bu imkanı da sizə mən yaradıram. Bunu bütün respublika eşidir. Siz orada mətbuat konfransı keçirmisiniz və öz fikrinizi 30-40 jurnalistə demisiniz, xarici ölkələrə məlumat vermisiniz. İndi isə bunu bütün dünya eşidir, respublika eşidir. Əgər mən başqa fikirdə olsaydım, onda bu məsələni heç müzakirəyə çıxarmazdım. Srağagün biz nazirin məlumatını dindədik. Sonra mən daxili işlər nazirini də, milli təhlükəsizlik nazirini də, baş prokurorun birinci müavinini də çağırmışdım. Onlar yazılı məlumat verdilər. Həmin məlumatlar buradadır. Bunlarla kifayətlənib, müəyyən göstərişlər vermək olardı. Əgər biz bu məsələni belə geniş miqyasda müzakirəyə çıxarırıqsa və bütün əhaliyə imkan yaradırıqsa ki, bu məsələyə münasibətimizi bilsin, elə bunun özü sözün əsl mənasında ən geniş və əyani demokratiyadır.

Amma bəla burasındadır ki, bizim məclisin üzvü İbrahim bəy kimi adamlar, - bu, Xalq Cəbhəsinin ən böyük bəlasıdır, - belə hesab edirlər ki, onlar Azərbaycanda demokratiyanın Allahıdırlar, dedikləri Quran ayəsidir, yalnız və yalnız onlar demokratik adam ola bilərlər, başqaları əsla ola bilməz və onların gördüyü bütün işlər demokratik işlərdir. Bu, sizin bədbəxtliyinizdir, İbrahim bəy. Mən sizə dəfələrlə demişəm, bəzən mənim sizə yazığım gəlir. Ona görə ki, siz özünüz haqqında elə fikirdəsiniz ki, guya siz böyük hünər göstərib, dağı-dağ üstə qoymusunuz. Axı belə deyil! Yoxsa, yeddi milyon əhalisi olan Azərbaycanda təkcə siz demokratsınız, qalan hamımız antidemokratıq? Qanun tərəfdarları tək bir siz oldunuz, qalanların hamısı konstitusiyanın əleyhinə çıxan adamlardır? Axı belə olmaz! Bu iddialardan əl çəkin.

Mən Ali Sovetin sədri kimi Milli Məclisin iclasını apararkən şərait yaradıram ki, burada hərə öz fikrini desin. Amma bu o demək deyil ki, burada böhtanlar atasınız, başqa adamlar haqqında hökmlər verəsiniz. Daxili işlər naziri çıxış edib öz fikrini deyir ki, Xalq Cəbhəsi bağlanmalıdır. Siz də sübut edin ki, yox, bağlanmamalıdır. Bax budur, fikir müxtəlifliyi. O deyir ki, İbrahim İbrahimov məclis üzvlüyündən çıxarılmalıdır. Bunu deməyə onun haqqı var. Siz isə özünüzü müdafiə edin. Yoxsa du-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

rub deyirsiniz ki, heç kəs məni Milli Məclisin üzvlüyündən çıxara bilməz. Bu nə deməkdir, siz nəyə arxayınsınız? Mən başa düşə bilmirəm. Əgər məclisin üzvləri səs versələr, siz çıxacaqsınız. Amma siz deyirsiniz ki, heç kəs məni çıxara bilməz. Mən bunları ona görə deyirəm ki, siz bu ifadələri işlədəndə düşünmürsünüz axı! Odur ki, sizə yazığım gəlir. Düşünsəydiniz, belə sözlər deməzdiniz.

Bax, bunu sizə də, başqalarına da deyirəm. Siz dediniz ki, burada antikonstitusion yol ilə hakimiyyət dəyişildi. Bu böhtançılıqla nə vaxtadək, nə qədər məşğul olacaqsınız? Deyirsiniz ki, gedən proseslərə siyasi qiymət verilməyibdir. Bu böhtançılıqla nə qədər məşğul olacaqsınız? Əl çəkin bunlardan! Mən bu məsələni müzakirəyə çıxartmışam ki, burada həqiqətən, sözün əsl mənasında milli barışıq elan edim. Gördünüz ki, öz səlahiyyətimdən istifadə edib, burada çıxış edən iki adama göstəriş verdim. Amma siz görün nə iddialar irəli sürürsünüz. Nə qədər danışmaq olar?

74 il ərzində buranı dağıdıblar? Yoxsa buranı siz düzəltmisiniz? Yaşadığınız torpaq da, ev-eşik də, oxuduğunuz, işlədiyiniz məktəb də, bu bina da - hamısı 74 il ərzində yaradılıbdır. Bəs siz nə yaratmısınız? Hər şeyə düzgün qiymət vermək lazımdır. 74 il Azərbaycan xalqının tarixidir, bizim tariximizdir. 74 ildə bir neçə nəsil yaşayıb, qurub-yaradıb. Indi sizin nə haqqınız var ki, bu 74 ilin üstündən qara xətt çəkirsiniz? Nə haqqınız var? Hansı xidmətlərinizə görə? Sizin də, sizin başçınız Elçibəyin də, deyin görək, hansı xidmətləri olub? Göstərin görək, hansı ağacı əkmisiniz? Hansı arxa su çəkmisiniz? Hansı evi tikmisiniz, hansı binanı ucaltmısınız? Belə olmaz axı!

Sözünüzü deyin, amma bu iddialardan əl çəkin. Özünüzü elə rələmə verməyin ki, Allah tərəfindən yaradılmış xüsusi bir təbəqəsiniz. Siz də bu xalqın içərisindən çıxmış, bu xalqın arasında yaşamış adamlarsınız. Sizin fikriniz belədir, başqalarının fikri ayrı cürdür. Mən gərək hər dəfə sübut edəm ki, İbrahim İbrahimov demokratik adam deyil, antidemokratik adamdır? Mən demokratiya ilə məşğul olanda sən hələ kənddə, necə deyərlər, ayaqyalın gəzirdin. Mən məhz demokratiya ilə məşğulam. İndi sən gəlib Azərbaycanda demokratiyanın banisi olmusan, demokratiyanın hakimi olmusan? Hələ bir qiymət verirsən ki, kim demokratiyanın tərəfdarıdır, kim əleyhinədir? Belə şeylər yaramaz axı, qardaş! Belə olmaz, milli barışığa bu cür getmək olmaz.

Nə haqla deyirsiniz ki, hakimiyyət antikonstitusion yol ilə dəyişib? Bu, böhtandır. Mən bunu rədd edirəm. Belə düşünürəm ki, bunu bütün məclis rədd edir. Məsələ xeyli vaxtdır ki, müzakirə edilir. Gəncədə baş vermiş hadisələr burada iyulun 15-16-da müzakirə olunub, ona siyasi qiymət verilib və Milli Məclis qərar rəbul edib. Siz o qərarın əleyhinə səs vermisiniz. Əgər demokratik adamsınızsa, bilməlisiniz ki, siz Milli Məclisin qəbul etdiyi qərara tabesiniz, müxalifətdə ola bilərsiniz, o qərarın əleyhinə səs verə bilərsiniz. Ancaq qərar Milli Məclisin qərarıdır. Bu Milli Məclisi isə mən yox, siz yaratmısınız, Xalq Cəbhəsi yaradıb. Bu, sizin təşkilatdır. Bax, sizin bu təşkilatınız iyulun

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

16-da Gəncə hadisələri haqqında qərar qəbul edibdir. Deyirsiniz ki, referendumu boykot edirdiniz, buna görə də mitinq çağırmışdınız. Bu, demokratik hərəkətdir? Nə ixtiyarınız var idi ki, referendumu boykot edəsiniz, bir halda ki, Milli Məclis referendum haqqında qərar çıxarmışdı? Siz referenduma gedib öz səsinizi verə bilərdiniz, təbliğat apara bilərdiniz. Amma boykot etməyə ixtiyarınız yoxdur. Siz özünüz qanunları pozursunuz, insan hüquqlarını pozursunuz, konstitusiyanı pozursunuz - hamısını pozursunuz. Özünüz də deyirsiniz ki, siz demokratiya tərəfdarısınız, bəs vaxt gələcək ki, bunlar hamısı dağılacaq və siz burada demokratiyanı yenidən bərpa edəcəksiniz...

Referendum dünya təcrübəsində müəyyən, mühüm məsələləri dövlət səviyyəsində həll etmək üçün, xalqın rəyini öyrənmək üçün ən demokratik yoldur, ən demokratik tədbirdir. Bundan da demokratik tədbir yoxdur. Bu referenduma da biz birdən-birə getmədik. Azərbaycanın prezidenti Əbülfəz Elçibəy öz iş yerini qoyub qaçdı. Bunları mən dəfələrlə demişəm. Bu sözləri deməkdən yoruldum, amma siz məni təkrar deməyə məcbur edirsiniz. Əgər o çıxıb gedibsə, respublikanı başsız qoyubsa, deməli nə isə etmək, bir iş görmək lazımdır. Yoxsa, Əbülfəz Elçibəy peyğəmbər idi ki, biz onsuz yaşaya bilmirdik? Ya gəlib prezidentliyini etməliyli, ya da ki, xalqı bu vəziyyətdə qoymamalıylıq. İyunun 17-də qaçıb getdi, avqustun 29-da isə referendum keçirildi. Bir təsəvvür edin, iki ay yarım xalq bu vəziyyətdə qaldı. İndi də deyirsiniz ki, antikonstitusion yol ilə hakimiyyətə gəliblər. Burada heç kəs konstitusiyaya zidd yolla hakimiyyətə gəlməyib. Əgər məni deyirsinizsə, məni siz özünüz gətirmisiniz.

İndi deyin görüm, məndən nə istəyirsiniz? Bu sözləri nə qədər təkrar etmək olar? Mən var qüvvəmlə çalışdım ki, Əbülfəz Elçibəy qayıdıb gəlsin. Amma gəlmədi. Biz bütün dünyanın təcrübəsindən istifadə etdik. Hamı dedi ki, referendum olmalıdır. Referendum da keçirdik. Referendumdan sonra prezident seçkiləri təyin etdik. Mən Xalq Cəbhəsinə müraciət etdim. Əbülfəz Elçibəyə televiziya ilə müraciət etdim ki, prezident seçkilərində yenə də iştirak etsin. Siz də, İbrahim bəy iştirak edin. Ədalət Rəhimov da iştirak eləsin, başqaları da . Kimi istəyirsinizsə, iştirak etsinlər. Bəs niyə iştirak etmirsiniz? İndi də başlamısınız ki, bəli, biz prezident seçkilərini pozmaq istəyirik. Ayıb deyilmi sizə?

Buna görə də mən Ali Sovetin sədri kimi, vətəndaş kimi, bir daha qeyd edirəm ki, demokratiyanın bərqərar olması üçün bundan sonra da əlimdən gələni edəcəyəm. Lakin demokratiyanı təhrif etmək, özünü demokratik adam kimi qələmə vermək, qalanlarına pis gözlə baxmaq demokratiya prinsiplərinə ziddir. Qanun pozuntuları da, insan hüquqlarının pozulması da demokratiya prinsiplərinə ziddir. Fövqəladə vəziyyət rejimi tətbiq edildiyi dövrdə mitinq keçirilməməlidir. Amma siz, ailədə ərköyün böyüdülmüş uşaq kimi belə hesab edirsiniz ki, nə istəsəniz edə bilərsiniz. Bax, siz belə bir vəziyyətdəsiniz. Bu vəziyyətdən çıxın. Siz özünüzü ərköyün uşaq kimi aparırsınız, yəni biz nə istəyirik, onu da edirik: "fövqəladə vəziyyət rejimi dövründə mitinq də keçirə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bilərik, qanunu da poza bilərik, bir sözlə, hər şey edə bilərik".

Məclisin bəzi üzvləri çıxış edib dedilər ki, Xalq Cəbhəsinin üzvləri bu salonda adamları döyüblər, söyüblər, təhqir də ediblər, qanunsuz olaraq həbsə də alıblar. İndi siz siyahı çıxarıb deyirsiniz ki, min nəfər adam işdən qovulub. Mən bilmirəm, bu, düzdür, ya yox. İnanmıram buna, Xalq Cəbhəsi adamlarının əksəriyyəti iş başındadır. Bəziləri vəzifələrini, özləri demişkən, dondurdular. Bu, onların öz işidir. Elə dondurublar ki, hələ indiyədək bunun içərisindədirlər. Yenə deyirəm, bu, onların öz işidir, amma əksəriyyəti iş başındadır, işləyir.

Bəs siz hakimiyyət başına gəldikdə nə işlər gördünüz? Adamların başına nə işlər gətirdiniz; nə oyunlar açdınız? İşdən də çıxartdınız, həbs də elədiniz, döydünüz də, söydünüz də. Mən demirəm ki, indi onları təkrar etmək lazımdır, yaxud da kimsə təkrar edirsə, mən ona bəraət qazandırıram, - xeyr, belə deyildir. Mən ona da nifrət edirəm, indi qanunları pozanlara da . Onun da əleyhinəyəm, bunun da . Amma siz elə bilirsiniz ki, tutduğunuz əməllərin hamısı qanunidir, sizin buna haqqınız vardı. Lakin indi sizin qeyri-qanuni hərəkətlərinizi bir balaca qanun çərçivəsinə qoymaq istədikdə dünyaya car çəkirsiniz ki, burada qanun pozulur, insan hüquqları, demokratiya pozulur..

Siz nə desəniz də, nə etsəniz də, bilin ki, mən qanunun və insan hüquqlarının pozulmasının əleyhinəyəm. Amma siz də bilin ki, qanun nə deməkdir, qanunun hüdudu haradadır, insan hüquqlarının həddi haradadır. Bunları bilin və özünüzü ərköyün uşaq kimi aparmayın, özünüzə istisna səlahiyyət tələb etməyin, bunlar doğru deyildir.

O ki qaldı Xalq Cəbhəsinin bağlanmasına, İbrahim İbrahimovun Milli Məclis üzvlüyündən çıxarılmasına, Xalq Cəbhəsinin iqamətgahına dair burada irəli sürülən təkliflərə, yenə deyirəm, hər adamın öz təklifini verməyə haqqı var. Məsələn, mən belə təkliflərin müzakirəyə qoyulmasına tərəfdar deyiləm. Ona görə yox ki, İbrahim İbrahiməv deyir: "Məni heç kəs məclis üzvlüyündən çıxara bilməz". Hamını çıxara bilərlər. Buradan məni də çıxara bilərlər, sizi də çıxara bilərlər. Məclis istəsə, deməli, çıxarılmalıdır. Bu, məclisin səlahiyyətinə daxildir. Ancaq mən belə hesab edirəm ki, bu məsələləri müzakirəyə qoymağa ehtiyac yoxdur. Çünki bunlar bizim məclisin ab-havasına, ictimai ab-havaya xeyir gətirməz. Biz bir-birimizlə fikir mübadiləsi aparmalıyıq. Əgər istəyirsinizsə, lap fikir mübarizəsi aparaq. Amma zorla, qol gücünə mübarizə yox. İfadəmə görə üzr istəyirəm, həyasızlıq mübarizəsi yox. Amma təəssüflər olsun ki, qanun pozğunluğu, insanları təhqir etmək, onlara təzyiq göstərmək, hər cür nalayiq sözlər demək Xalq Cəbhəsinin "Cəbbəxanasında", onun adət-ənənələrində möhkəm yer tutub. Mən bunu tam cəsarətlə deyirəm. Bunların hamısını Naxçıvanda görmüşəm. Bəli, hamısını. İbrahim bəy, siz də bilirsiniz ki, bunların hamısını sizində birlikdə görmüşük. Mən hələ burada olan şeyləri demirəm - bunları televiziya ilə görmüşəm. Ona görə də belə hesab edirəm ki, bu məsələləri müzakirəyə qoymağa ehtiyac yoxdur.

Lakin burada deyilən bir fikirdə müəyyən qədər məntiq var. O da

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bundan ibarətdir ki, biz çoxpartiyalılıq tərəfdarıyıq. Partiyalar çoxdur, 40 partiya var. Qoy lap 45 olsun. Əgər Xalq Cəbhəsi, doğrudan da , istəyirsə ki, Azərbaycanın siyasi həyatında yer tutsun, qoy onda partiyaya çevrilsin. Mən bir neçə dəfə demişəm ki, Xalq Cəbhəsi yarandığı dövrdən onun fəaliyyətinə və Azərbaycan Respublikasının tarixində tutduğu yerə, Azərbaycanda azadlıq hərəkatında iştirakına hörmətlə yanaşıram. Əvvəllər dediyim kimi, bu, mənim fikrimdir. O dövrdə Nemət Pənahovun başçılığı ilə Azadlıq meydanında keçirilən izdihamlı mitinqlər xalqın iradəsini ifadə edirdi. Bu, Xalq Cəbhəsi deyildi. Xalq Cəbhəsi ondan sonra yarandı. Bunların hamısı xalqın özündən, onun ürəyindən gələn duyğular idi, fikirlər idi, istəklər idi. Onda xalq oyanırdı, ayağa qalxırdı. Qarabağ hadisəsi ilə əlaqədar olaraq, torpaqlarımızın qorunması, Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar olaraq baş qaldİran duyğular, niyyətlər idi. Yaxud, 1990-cı ilin yanvar hadisələrini götürək. Xalqın o vaxtkı rejimə nifrəti, etirazı adamları bu meydanlara toplayırdı. Burada Xalq Cəbhəsinin də rolu vardı, onun da xidməti vardı. Bunlar inkarolunmazdır. Amma siz özünüz-özünüzü içinizdən yediniz. Xalqı ayaqa qaldıran Nemət Pənahov kimi adamı özünüzə düşmən etdiniz. Nə var ki, o, sizin bəzi fikirlərinizlə razı deyildi. Bu, demokratiya idi? Axı demokratiya deyildi.

Mən öz fikrimi deyirəm. Məclis üzvlərinin bəzilərinin başqa fikri ola bilər. Əlbəttə, hərənin öz fikri var. Mən bütün bunları Azərbaycan tarixində böyük hadisələr kimi qiymətləndirirəm. Bir Azərbaycan vətəndaşı kimi, belə hesab edirəm ki, bunlar inkarolunmaz faktlardır. Lakin bunlar nə təkcə Əbülfəz Elçibəyin, nə İbrahim İbrahimovun, nə də başqasının fəaliyyəti deyildir. Bu, xalqın Milli-azadlıq hərəkatının təzahürü idi və Azərbaycan xalqının tarixində qalacaqdır. Buna şübhə yoxdur.

Lakin iş burasındadır ki, Xalq Cəbhəsini yaradan adamlar dağılıblar. Bir hissəsi özünə partiya yaralıb. Məsələn, Etibar Məmmədov da Xalq Cəbhəsinin yaradıcılarındandır, bu gün isə Milli İstiqlal Partiyasının başçısıdır. Rəhim Qazıyev də Xalq Cəbhəsini yaradan adamlardandır, indi qaçıb orda-burda gizlənir. Qəhrəman adı alıb, gecə-gündüz şərəfdən, namusdan, qeyrətdən danışır, hamını da qorxudurdu. Əgər günahın yoxdursa, niyə qaçıb gizlənirsən, gəl ədalət mühakiməsi qarşısında cavab ver. Amma qaçıb gizlənir. Bəzi adamlar da ona havadarlıq edib gizlədirlər. Amma bunun sonu yoxdur. O da Xalq Cəbhəsini quran adamlardandır. Nemət Pənahov da, Əbülfəz Elçibəy də Xalq Cəbhəsini yaradan adamlardandır. İbrahim İbrahimov və başqaları sonradan meydana gəldilər. Mən bunun tarixini müəyyən qədər bilirəm. O mitinqlərdə Sabir Rüstəmxanlı da çıxış edirdi, onun da xidmətləri vardı. Nə isə, indi hərə bir partiya yaradır. Elə Sabir Rüstəmxanlının da partiyası var. Sizin də bir partiyanız olsun, heç kəs etiraz etmir. Amma Xalq Cəbhəsi öz tarixi mərhələsini keçib gedibdir. Siz bunu anlamalısınız.

Siz ya bir siyasi partiya formasında olmalısınız, ya da özünüz düşünməlisiniz ki, nə etmək lazımdır. Xalq Cəbhəsi daha əvvəlkitək fəaliyyət göstərə bilmir. Mən Xalq Cəbhəsinin nə bağlanma-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sının, nə də ləğv olunmasının tərəfdarıyam. Demokratik bir adam kimi, bütün demokratik təşkilatların fəaliyyət göstərməsinin tərəfdarıyam və buna şərait yaradacağam. Amma Xalq Cəbhəsi düşünməlidir - o, özünü ləkələyib. Ona görə ki, bir ictimai-siyasi təşkilat olduğu halda, özünə böyük silahlı dəstələr düzəllib. Bu isə Xalq Cəbhəsi üçün ən böyük ləkədir. Çünki ictimai-siyasi təşkilatın silahlı dəstəsi ola bilməz. Tarixdə heç bir partiyanın silahlı dəstəsi olmayıb. Yalnız faşist partiyasının silahlı dəstəsi vardı. Əgər siz faşist partiyası olmaq istəyirsinizsə, bu, öz işinizdir. Özünüz bilərsiniz. Amma mən bunu sizə məsləhət bilməzdim. Buna görə də fikirləşin.

Şübhəsiz ki, mən bu təkliflərin heç birinə tərəfdar deyiləm və bunları müzakirəyə qoymaq fikrim də yoxdur. Siz hər halda bir fikirləşin. Lakin bilin ki, qanun hamı üçün qanundur. Xalq Cəbhəsi də, hər bir partiya da , mən də, sən də, bir sözlə, hamı qanuna tabe olmalıdır. Heç kəsə müstəsna şərait yaradılmayacaqdır. Heç kəsə! Heç kəs bundan sonra özünü ailənin ərköyün oğlu bilməyəcəkdir. Heç kəs ailənin şıltaq uşağı iddiasında olmayacaqdır. Hamı bərabər hüquqdadır, - bizim təşkilatlar da, o cümlədən siz də.

Odur ki, siz gəlin bu bərabər hüquqlar şəraitində, konstitusiya çərçivəsində hərəkət edin. Böhtanlar da atmayın. Rəqəmlər gətirib, onları şişirtməkdən, fikir yaratmaqdan heç bir şey çıxmaz. Bununla siz özünüz-özünüzü ləkələyirsiniz.

Burada məlumat verildi. Daxili işlər nazirinin də, prokurorun müavininin də, milli təhlükəsizlik nazirinin də məlumatı dinlənildi. Mən belə fikirdəyəm: fövqəladə vəziyyət rejimi dövründə mitinqlər keçirmək üstündə inzibati qaydada 15-20 gün, bir ay tutulub saxlanılmış şəxslərin hamısı bu gün buraxılsın. Məsələ araşdırılmadan buraxılsınlar. Bir nəfər də qalmasın. Mənim belə bir səlahiyyətim var, ya yox? Əgər varsa, onda deyirəm, qoy hamısı buraxılsın. Heç nəyi araşdırmaq lazım deyildir. Lakin bu sözlərim məsuliyyətə cəlb edilən, haqqında istintaq işi aparılan şəxslərə ail deyildir. Qanun-qaydanı pozduqlarına görə, fövqəladə vəziyyət rejimini pozduqlarına görə, qanunsuz mitinqlər keçirliklərinə görə tutulan Xalisbəyli, Arif Rəhimov və başqaları bu mün buraxılsınlar. Mənim belə bir hüququm, səlahiyyətim varsa, ondan istifadə edib, bu cür qərar çıxarıram və xahiş edirəm, onu elə bu gün həyata keçirəsiniz. İbrahim İbrahimovdan, Xalq Cəbhəsinin digər fəallarından xahiş edirəm ki, bilsinlər: qanuna riayət etmək lazımdır!

İndi, xüsusən prezident seçkiləri ərəfəsində kimsə qanunu pozmuş olsa, şübhəsiz, onun barəsində qanuni tədbirlər görüləcəkdir. Mən sizi xəbərdar edirəm, bilin ki, heç kəs qanunu pozmamalıdır. Təşkilat işidir, təbliğat işidir - görün. Siyasi plüralizm var və olacaqdır. Milli Məclisin üzvlərindən biri çıxış edib, mən burada Ali Sovetin sədri seçilərkən bildirdiyim mövqeyimi xatırlatdı. Bəli, mən həmin mövqeyimin üzərində dayanıram. Prezident seçkiləri ərəfəsində də deyirəm: mövqeyim bundan ibarətdir ki, Azərbaycan Respublikasında demokratik dövlət qurulmalıdar, hüquqi dövlət yaradılmalıdır. Azərbaycan Respub-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

likası demokratiya yolu ilə getməlidir və heç vaxt totalitar sistemə, kommunist rejiminə qayıtmamalıdır. Azərbaycan Respublikasında siyasi partiyaların fəaliyyət göstərməsinə şərait yaranmalıdır və siyasi plüralizm hökm sürməlidir. Demokratiyaya imkan yaradılmalıdır və insan azadlığı, söz azadlığı, din azadlığı, dil azadlığı - bunların hamısı bərqərar edilməlidir. Hürriyyət insan üçün ən əsas şərtlərdən biridir. Insan hüquqlarının qorunması bizim əsas məqsədlərimizdən biri, dövlət orqanlarının, hüquq mühafizə orqanlarının əsas vəzifələrindən biri olmalıdır. Dövlətin hüquqları da qorunmalıdır. Biz ancaq və ancaq bu yolla getməliyik.

Biz iqtisadiyyatda köklü islahatlar aparıb, bazar İqtisadiyyatına keçməliyik. Şübhəsiz ki, gələcəkdə müstəqil Azərbaycan Respublikasının iqtisadiyyatını yalnız bazar İqtisadiyyatı yolu ilə, azad İqtisadiyyat yolu ilə qaldıra bilərik. Lakin indiyədək yol verilmiş pozuntular, dağıntılar, Azərbaycanın iqtisadi potensialının qara günə qoyulması bir ildə olmayıb. Bunlar son dörd-beş ildə olub. Bu möhkəm potensial son dörd-beş ildə dağıdılıb. Mən dünən kondisioner zavoduna getmişdim. Sevindim ki, heç olmasa bu zavod dağıdılmayıb, qalıbdır. Heç bilirsinizmi biz o zavodu nə qədər çətinliklərlə tikmişik. Sizin indi daim söydüyünüz o sovet imperiyasının büdcəsindən yüz milyon dolları ayırtdırıb, dünyanın ən məşhur firmalarından birindən texnologiyayalar alıb gətirdik. Azərbaycan üçün belə bir müəssisə yaratdıq. O zamanın yüz milyon dolları isə indikindən bir on dəfə qiymətlidir. O zavod ilk vaxtlar min kondisioner istehsal edirdi. Zavod iki ilin içində tikildi və bir ildə tam istehsal gücünə çatdırıldı. İldə 450 min kondisioner istehsal olunurdu.

Mən sonrakı illərdə Moskvada işlədiyim dövrdə Afrikanın cənubunda məsələn, Mozambikdə, Anqolada, yaxud Cənubi Asiyada-Laosda, Vyetnamda, Şimali Koreyada olarkən orada Bakı kondisionerlərini görəndə ürəyim dağa dönürdü. Sevinirdim ki, nəhayət, Azərbaycan Respublikasının, Azərbaycan xalqının da istehsal etdiyi məhsullar dünya miqyasına çıxıb. Amma indi o zavod öz gücünün heç 50 faizi qədər də işləmir. Yaxşı ki, heç olmasa onu saxlayıblar, dağıtmayıblar. O vaxtlar kondisionerlərin birini 400 manata satırdılar. Onu da hər adam ala bilmirdi. Amma indi soruşuram ki, onun qiyməti neçəyədir deyirlər ki, 180 min rubldur. Budur, son illərin nəticəsi.

Odur ki, biz bazar İqtisadiyyatına keçərkən, şübhəsiz, yaranmış iqtisadi potensialı dağıtmaq, onu oğruların, əliəyri adamların ixtiyarına vermək, xalqın əməyi ilə, əziyyəti ilə, dövlətin pulu ilə yaradılmış nə varsa, hamısını bu oğruların şəxsi malına çevirmək olmaz. Biz bunlara yol verməyəcəyik. Bu, mümkün olan iş deyildir. Lakin bunların hamısını siz etdiniz, dağıtdınız,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bir şey tikib-qurmadınız. Amma İsgəndər Həmidov kimisi nə pulun, nə malın, daha nə bilim nəyin, heç miqyasını, həcmini bilmədi, haradan nə istədisə götürdü. Rəhim Qazıyev kimisi və sizin vəzifələrə qoyduğunuz başqa adamlar o zavodları, fabrikləri, binaları dağıtdılar. Yox, təkcə siz dağıtmadınız, qabaq da dağıdırdılar.

Beləliklə, iqtisadiyyatda yolumuz bazar iqtisadiyyatı yoludur, demokratik islahatlar yoludur. Biz bu yolla getməliyik və gedəcəyik. Bir sözlə, mən, Ali Sovetin sədri kimi, bir Azərbaycan vətəndaşı kimi, müəyyən hüquqlara malik bir şəxs kimi bu yolu seçmişəm və bütün imkanlarımdan istifadə edib bu yolla gedəcəyəm. Kim bu yola maneçilik edəcəksə, şübhəsiz, mən onunla bərabər gedə bilməyəcəyəm.

Lakin, indi bəzilərinin dediyi kimi, əgər kimlərsə iddia etsə ki, bu yolun sahibləri ancaq onlardır, başqa adamlar bu yolla gedə bilməzlər - onlar çox böyük səhv edirlər. Buna görə də xahiş edirəm ki, onlar bu səhv yoldan çəkilsinlər.

Bizim borcumuz bütün Azərbaycanın simasını dəyişdirməkdir. Azəbaycanı inkişaf etmiş, sivilizasiyalı, demokratik prinsiplərlə yaşayan bir dövlətə, cəmiyyətə çevirməkdir. Azərbaycan vətəndaşlarının gələcək həyatını bu hürriyyət yolu ilə, azadlıq yolu ilə, demokratiya yolu ilə təmin etməkdir. Biz bu yolun yolçusuyuq, bu yolla da gedəcəyik. Bu yol nə Əbülfəz Elçibəyin, nə İbrahim İbrahimovun, nə Məmmədəmin Rəsulzadənin yoludur. Bu yol dünya demokratiyasının açdığı yoldur. Biz bu yolla gedirik və gedəcəyik də.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BEYNƏLXALQ "AHILLAR GÜNÜ" MÜNASİBƏTİLƏ MÜRACİƏT

Hörmətli ağsaqqallar, ağbirçəklər!

Dünyanın bütün mütərəqqi və sivilizasiyalı dövlətləri oktyabrın 1-ni "Ahıllar günü" kimi qeyd edirlər.

Respublikamızda vəziyyətin ağır olmasına baxmayaraq, demokratiya yolunda ilk addımlar atan dövlət kimi, biz də böyük qayqıya ehtiyacı olan ahıllarımıza diqqətlə yanaşırıq.

Bu həm də xalqımızın yüz illər boyu formalaşdırdığı adət və ənənələrdən irəli gəlir. Ağsaqqal və ağbirçəyə hörmət bizim mənəvi-əxlaqi keyfiyyətimizdir. Babalarımızın tarixin süzgəcindən keçən belə bir müdrik kəlamı var: "Qibləsiz yerdə otur, böyüksüz yerdə oturma".

Yaşadığımız çətin dövrdə hamımızın ağsaqqal-ağbirçək məsləhətinə və nəsihətinə ehtiyacımız var. Onlar öz nüfuzlarından ümummilli məqsədlərimiz üçün istifadə etməli, gənc nəslə əsl həqiqətləri deməkdən çəkinməməlidirlər. Nəsillər arasında sağlam varislik prinsipinin formalaşması və ona əməl olunması respublikamızda əmin-amanlığın, siyasi sabitliyin möhkəmlənməsini təmin edən vacib amillərdəndir.

İstəkli ağbirçəklər və ağsaqqallar, ömrünüzün kamillik vaxtında hamınıza xoş duyğularımı bildirir, ən səmimi arzularımı çatdırıram.

Sizi əmin edirəm ki, müstəqil və demokratik Azərbaycan dövləti öz qayğısını sizdən əsirgəməyəcəkdir.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikası prezidentinin
səlahiyyətlərini həyata keçirən
Azərbaycan Respublikası Ali Sovetinin sədri

1 oktyabr 1993-cü il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ÜMUMÇİN XALQ NÜMAYƏNDƏLƏRİ MƏCLİSİ DAİMİ KOMİTƏSİNİN SƏDRİ TSYAO Şİ CƏNABLARINA

Hörmətli cənab Tsyao Şi!

Azərbaycan xalqı və rəhbərliyi adından Sizi və Sizin şəxsinizdə dost Çin xalqını ÇXR-in təşkil olunması günü münasibətilə təbrik edirəm.

Ötən illər ərzində Çin çətin, lakin heyrətamiz tərəqqi yolu keçmiş, sosial və iqtisadi həyatın yenidən qurulmasında, elm və mədəniyyətin inkişafında nəzərəçarpacaq müvəffəqiyyətlər qazanmışdır. Bütün bu müvəffəqiyyətlər Çin xalqına xas müdriklik və əməksevərlik, ənənələrlə modernizmin, milli-dini xüsusiyyətlərin və müasir dövrün tələblərinin ahəngdar sintezinə nail olmaq üçün göstərilmiş hörmətəlayiq səylər sayəsində mümkün olmuşdur.

Fürsətdən istifadə edib, bildirmək istəyirəm ki, Azərbaycan ölkələrimiz arasında əməkdaşlığın genişlənməsinə və dərinləşməsinə, bu əməkdaşlığın daha yüksək keyfiyyət səviyyəsinə qaldırılmasına çalışacaqdır. Sizin dost ölkənizlə öz münasibətlərimizdə biz onun suverenliyinə və ərazi bütövlüyünə, Çin xalqının öz sosial-iqtisadi, siyasi və ideoloji istiqamətlərini sərbəst seçməsinə hörmət etməyi əsas tutmaq niyyətindəyik.

Ümidvaram ki, Sizin dövlətiniz tərəfindən müdafiə edilən səmimi niyyətlərimiz Azərbaycanla Çin arasında uzunmüddətli səmərəli qarşılıqlı fəaliyyət üçün əsas olacaqdır.

Sizə uğurlar, bütün Çin xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikası prezidentinin
səlahiyyətlərini həyata keçirən
Azərbaycan Respublikası Ali Sovetinin sədri

1 oktyabr 1993-cü il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

XALQ ŞAİRİ MƏMMƏD ARAZA

Hörmətli Məmməd Araz!

Sizi anadan olmağınızın 60 illiyi münasibətilə səmim-qəlbdən təbrik edirəm.

Qırx ildən çoxdur ki, dərin fəlsəfi lirikanız çağdaş Azərbaycan poeziyasını zənginləşdirməkdədir. Məmməd Araz istedadının, təfəkkürünün məhsulu olan yüzlərlə şeriniz milyonların qəlbinə yol taparaq özünə və sizə əbədi yaşamaq hüququ qazandırıb.

Əmin olduğumu bildirmək istəyirəm ki, xalqımızın mənəvi təkamülündə, gənclərimizin estetik tərbiyəsi yolunda bundan belə də yorulmadan çalışacaq, qədim və zəngin ənənələri olan milli poeziyamıza yeni töhfələr bəxş edəcəksiniz.

Sizə uğurlar, xoş günlər arzulayıram!

Dərin hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikası prezidentinin
səlahiyyətlərini həyata keçirən
Azərbaycan Respublikası Ali Sovetinin sədri

6 oktyabr 1993-cü il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİİN ANDİÇMƏ MƏRASİMİNDƏ NİTQ

10 oktyabr 1993-cü il
BAKI RESPUBLIKA SARAYI

Əziz həmvətənlər!
Hörmətli xanımlar və cənablar!

Müstəqil Azərbaycan Respublikasının Prezidenti seçilməyimi yüksək qiymətləndirirəm və bu münasibətlə Azərbaycan xalqına, Azərbaycan Respublikasının bütün vətəndaşlarına öz hörmət və ehtiramımı, dərin minnətdarlığımı bildirirəm.

Azərbaycan xalqı öz tarixinin ən mürəkkəb, faciəli dövrünü yaşayır. Məhz bu dövrdə mənim üzərimə qoyulan bu vəzifənin məsuliyyətini dərindən dərk edirəm və əmin etmək istəyirəm ki, bütün fəaliyyətimi, bütün həyatımı bu etibarı doğrultmaq, xalqın ümidlərini doğrultmaq işinə həsr edəcəyəm.

Belə bir yüksək və məsuliyyətli vəzifəni öz üzərimə götürərkən, birinci növbədə, Azərbaycan xalqının zəkasına, müdrikliyinə, qüdrətinə güvənirəm, arxalanıram. Azərbaycan xalqının mənə bəslədiyi ümidlər məni bu vəzifəni üzərimə götürməyə məcbur edibdir. Əmin etmək istəyirəm ki, bu ümidləri doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm.

XX əsrin sonu dünyada köklü dəyişikliklərə səbəb olmuş siyasi proseslərlə əlamətdardır. Azərbaycan xalqı da bu proseslərdən kənarda qalmamış, nəhayət, əsrlərdən bəri bəslədiyi ümidlərinə, arzularına çatmış, öz müstəqilliyinə nail olmuşdur. Azərbaycan Respublikasının dövlət müstəqilliyi əldə etməsi dünyada, keçmiş Sovetlər İttifaqında gedən ictimai-siyasi proseslərin məntiqi nəticəsidir. Azərbaycan Respublikasının müstəqilliyi tarixi bir hadisədir. Bu, Azərbaycan xalqının milli sərvəti, milli nailiyyətidir və bu müstəqilliyin əldə olunmasında hər hansı qrupun, hərəkatın, qüvvənin müstəsna xidmətləri olduğunu heç vəchlə qəbul etmək olmaz. Eyni zamanda Azərbaycanın müstəqilliyi respublika qarşısında, onun vətəndaşları qarşısında çox böyük və mürəkkəb vəzifələr qoyubdur. Dövlət müstəqilliyini möhkəmləndirmək, müstəqil dövlət quruluşu yaratmaq, dövlət atributlarını yaratmaq və inkişaf etdirmək, Azərbaycan Respublikasının ərazi bütövlüyünü, tam suverenliyini təmin etmək, ölkəmizi müharibə şəraitindən çıxarmaq, respublikanın vətəndaşlarının rifahını yaxşılaşdırmaq, onların yaşaması üçün lazımi şərait yaratmaq - bu vəzifələr mənim Prezident fəaliyyətimdə əsas istiqamətlər olacaqdır və mən bunların həyata keçirilməsinə çalışaçağam.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Azərbaycan Respublikası qədim tarixə, zəngin mədəniyyətə, böyük təbii sərvətlərə malikdir. Dövlət müstəqilliyi bunların hamısından Azərbaycan Respublikasının gələcək inkişafı üçün səmərəli istifadə etməyə şərait yaradır. Bunlar bizim əsas vəzifələrimizdir. Azərbaycan Respublikası öz müstəqilliyini ağır və çətin bir şəraitdə əldə etmişdir. Respublika üçün ən ağır məsələ beş ildən artıq müddətdə Azərbaycanın müharibə şəraitində olması, erməni silahlı qüvvələri tərəfindən ərazimizə təcavü edilməsi və bunun nəticəsində də Azərbaycan xalqının böyük bəlalara düçar olmasıdır. Ona görə də Azərbaycan Respublikasınıi müharibə şəraitindən çıxması və vətəndaşlar üçün rahat, sakit, əmin-amanlıq şəraiti yaradılması qarşımızda duran əsas vəzifədir. Azərbaycanın ağır müharibə şəraitinə düşməsi, bu problem, yəni Qarabağ problemi başlanan dövrdən respublika rəhbərliyinin, keçmiş Sovetlər İttifaqı rəhbərliyinin buraxdığı səhvlərin nəticəsidir. Lakin təəssüf ki, ötən dövrdə respublikanın bu vəziyyətdən çıxması üçün lazımi tədbirlər görülməmişdir. Respublikanın düşdüyü ağır iqtisadi, sosial, siyasi-ictimai və mənəvi böhran axır zamanlar daha da dərinləşmiş və 1993-cü ildə, demək olar son həddə çatmışdır. Bu ilin İyun ayında Azərbaycanda daxili sabitlik tam pozulmuş, respublikada ayrı-ayrı qüvvələrin qarşıdurması, bəzi cinayətkar qrupların, separatçı qüvvələrin respublikanı parçalamaq meyllərini həyata keçirmək istəməsi və başqa səbəblər daxili böhranı daha da dərinləşdirmişdir.

Azərbaycanın dövlət rəhbərliyinin buraxdığı kobud səhvlər nəticəsində iyun ayında respublikamız vətəndaş müharibəsi həddinə gəlib çatmış və onun bəzi bölgələrinin parçalanması real bir hal kimi meydana çıxmışdı. Allaha şükürlər olsun ki, bunların qarşısı alındı, bəzi cinayətkar qruplar aradan götürüldü və respublikanın daxilində ictimai-siyasi sabitliyin təmin edilməsi üçün şərait yaradıldı. Son dörd ay bizim respublika üçün ağır və çətin bir dövr oldu. Bu müddətdə respublikamız, onun vətəndaşları böyük imtahanlardan çıxdılar və bir daha sübut etdilər ki, xalqın müdrikliyi, milli birlik və həmrəylik, vətəndaş birliyi bütün bu çətinliklərin qarşısını ala bilər və respublikanı bu ağır vəziyyətdən çıxarmaq üçün imkan yarana bilər.

Respublikanın daxilində nisbi sakitlik və sabitlik yaransa da, biz hələ böyük təhlükə altındayıq. Ermənistan silahlı qüvvələrinin beş ildən bəri davam edən təcavüzü nəticəsində Azərbaycan torpaqlarının bir qismi - təxminən 20 faizi işğalçıların əlinə keçibdir. Keçmiş Dağlıq Qarabağ vilayəti tamamilə işğal olunub, Azərbaycan xalqı üçün əziz və mötəbər olan Şuşa şəhəri artıq il yarımdır ki, əlimizdən gedibdir. Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı rayonlarımız da erməni silahlı qüvvələri tərəfindən işğal olunubdur. Bunların nəticəsində yüzlərlə kəndlər, qəsəbələr, yaşayış məntəqələri dağılıb, evlər viran olub. Bu ərazilərdə yaşayan soylaşlarımız - bir milyona qədər vətəndaş doğma yerlərini tərk edib, qaçqın olub, ağır vəziyyətdə yaşayırlar. Bütün bunlar respublikanın ictimai-siyasi, mə-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

nəvi vəziyyətini gərginləşdirmişdir. Bizim ən əsas vəzifəmiz respublikanı müharibə vəziyyətindən çıxarmaq, işğal olunmuş torpaqların hamısını geri qaytarmaq, Azərbaycanın ərazi bütövlüyünü, müstəqil respublikanın sərhədlərinin təhlükəsizliyini təmin etmək, yurd-yuvasından didərgin düşmüş soydaşlarımızı - bacılarımızı, qardaşlarımızı öz doğma yerlərinə qaytarmaqdır.

Əmin ola bilərsiniz ki, bir Prezident kimi, mən bu vəzifəni özümün əsas vəzifəm hesab edirəm və bunu yerinə yetirmək üçün bütün Azərbaycan xalqının qüvvələrini səfərbər edib, bütün imkanlardan istifadə edib, bütün səylərimi sərf edib Azərbaycan xalqının istəyinə nail olacağam.

Beş ildən artıq davam edən müharibədən çıxmaq, işğal olunmuş torpaqları geri qaytarmaq, şübhəsiz, asan məsələ deyildir. Cəmiyyətimizdə cürbəcür fikirlər var: buna hansı yollarla nail olmaq mümkündür? Biz, ümumiyyətlə, sülhsevər mövqe tutaraq, bu vəzifəni birinci növbədə sülh yolu ilə, danışıqlar yolu ilə həll etməyə üstünlük veririk. Bu baxımdan müstəqil Azərbaycan Respublikası diplomatik vasitələrdən səmərəli istifadə etməli, sülh danışıqlarını Azərbaycan Respublikasının mənafelərini təmin etmək yolu ilə aparmalı və bu danışıqlar nəticəsində məqsədimizə nail olmalıyıq. Biz Birləşmiş Millətlər Təşkilatının, ATƏM-in, BMT Təhlükəsizlik Şurasının, bu münaqişənin aradan qaldırılmasında iştirak edən böyük dövlətlərin və bütün beynəlxalq təşkilatların imkanlarından səmərəli istifadə edərək, Azərbaycanı müharibə şəraitindən çıxarmaq, işğal olunmuş torpaqlarımızı geri qaytarmaq üçün bundan sonra da səy göstərəcəyik.

Ancaq bununla yanaşı, Azərbaycan Respublikası bir müstəqil dövlət kimi özünü müdafiə etməyə qadir orduya malik olmalıdır. Təəssüf ki, müstəqillik əldə ediləndən sonra keçən dövrdə bu sahədə az iş görülübdür. Lazım gələrsə, sülh yolunda addımlarımız nəticə verməsə, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün, respublikanı müdafiə etmək üçün qüdrətli bir ordunun yaradılması bizim əsas vəzifəmizdir.

Qeyd etmək lazımdır ki, beş il ərzində gedən müharibə nəticəsində Azərbaycan xalqı böyük sınaqlardan çıxıb, qələbənin də, uğursuzluğun da nəticələrini görübdür. Bu müharibə bizim üçün böyük faciədir. Eyni zamanda, bu müharibədə Azərbaycan xalqının gücü, qüdrəti, qəhrəmanlığı, müdrikliyi bir daha bütün dünyaya nümayiş etdirildi. Bu müharibədə xalqımız böyük qurbanlar vermişdir. İgid oğullarımız torpaqlarımızı müdafiə edərək qəhrəmancasına həlak olmuş, şəhid olmuşlar. Bu gün, bu təntənəli mərasimdə, Azərbaycan torpaqlarını müdafiə edərək, Azərbaycanın suverenliyini qoruyaraq həlak olmuş şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad etməyi rica edirəm. Allah onlara rəhmət eləsin, qəbirləri nurla dolsun.

Mən bu gün bəyan edirəm ki, şəhidlərimizin qanı yerdə qalmayacaq, onların xatirəsi qəlbimizdə əbədi yaşayacaq, gənclərimiz və gələcək nəsillər onların qəhrəmanlıqlarından nümunə götürəcəklər. Azərbaycan xalqı öz qamətini düzəldəcək, ayağa qalxacaq,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

gücünü birləşdirəcək, müasir ordusunu yaradacaq və müstəqil dövlətini, öz ərazisini bundan sonra göz bəbəyi kimi qoruyacaqdır.

Müstəqil Azərbaycan Respublikasının qarşısında duran əsas vəzifələrdən biri respublikanın dövlət quruculuğunu təşkil etməkdir. Bizim yolumuz aydındır, bunu dəfələrlə bəyan etmişik. Yolumuz demokratiya yoludur. Müstəqil Azərbaycanda demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi ənənələrindən, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir. Bizim yolumuz bu yoldur və mən sizə bir daha söz verirəm ki, biz məhz bu yolla gedəcəyik.

Bu yol ilə getmək həm tarixi keçmişimizə uyğundur, həm də bir müstəqil dövlət kimi dünya sivilizasiyasına daha yaxından qovuşmaq üçün lazımi şərtdir. Bunun üçün Azərbaycanda bütün imkanlar yaranıb və bundan sonra da yaranacaqdır. Azərbaycanda insan azadlığı, söz azadlığı, din azadlığı, dil azadlığı, vicdan azadlığı - bunların hamısı demokratik, sivilizasiyalı cəmiyyətin yaranmasına imkan verən şərtlərdir. Biz bu şərtlərin bərqərar olmasını təmin edəcəyik. Azərbaycanda çoxpartiyalı cəmiyyət yaranmaqdadır, bir çox partiyalar yaranıb və bundan sonra da yaranacaqdır. Bunların yaranması və inkişaf etməsi üçün Azərbaycan dövləti bütün imkanları təmin edəcəkdir və çoxpartiyalı cəmiyyət, demokratik prinsiplərin bərqərar olduğu cəmiyyət, şübhəsiz, Azərbaycanın müstəqil bir dövlət kimi inkişafına kömək edəcəkdir.

Çoxpartiyalı cəmiyyətdə müxalifətin də böyük rolu var. Biz müxalifətə bundan sonra da böyük hörmətlə münasibət göstərəcəyik və əmin olduğumu bildirmək istəyirəm ki, Azərbaycan cəmiyyətində müxalifət mövqeyində olan partiyalar, siyasi qüvvələr konstruktiv əməkdaşlıq mövqeyindən çıxış edəcəklər və bu da Azərbaycanda həqiqi demokratiyanın inkişafı üçün daha geniş imkanlar yaradacaqdır. Bir sözlə, biz Azərbaycanda müxalif qüvvələr olmasını təbii bir hal hesab edirik, eyni zamanda dövlət müxalif qüvvələrlə konstruktiv əməkdaşlığa həmişə hazır olduğunu bildirir.

Ancaq müxalifətdə olan qruplar, ayrı-ayrı siyasi təşkilatlar son illərdə istifadə etdikləri qeyri-qanuni, əcaib, demokratiyaya zidd üsullardan, metodlardan əl çəkməlidirlər. Siyasi partiyalar, hərəkatlar Azərbaycanda sərbəst fəaliyyət göstərə bilərlər. Lakin heç bir siyasi partiyanın və ya hərəkatın, ictimai-siyasi təşkilatın silahlı dəstələri, silahlı qüvvələri ola bilməz! Bu gün mən bunu bütün Azərbaycan vətəndaşları qarşısında tam qətiyyətlə bəyan edirəm. Vaxtilə Azərbaycan Respublikasının ictimai-siyasi həyatında müsbət rol oynamış Xalq Cəbhəsinin bu sahədə çox mənfi təcrübəsi təəssüf ki, Azərbaycanda ayrı-ayrı qeyri-qanuni silahlı dəstələrin yaranmasına və fəaliyyət göstərməsinə səbəb olmuşdur. Güman edirik ki, bütün partiyalar, hərəkatlar, ictimai-siyasi təşkilatlar öz silahlı dəstələrindən imtina edəcəklər. Cəmiyyətimizdə bir silahlı dəstə ola bilər, o da dövlətin silahlı qüvvələridir. Biz hamımız birlikdə qeyri-qanuni silahlı dəs-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

tələrin ləğv olunmasına çalışmalıyıq və bu da respublikamızda daxili ictimai-siyasi sabitlik yaranması üçün əsas şərtdir.

Demokratik sivilizasiyalı cəmiyyətdə insan hüquqlarının qorunması dövlətin əsas vəzifələrindən biridir. Əmin ola bilərsiniz ki, bu yüksək vəzifədə mən həmin sahəni daim diqqət mərkəzində saxlayacağam və insan Hüquqlarının qorunması üçün bütün təminatları yaradacağam. Bir sözlə, cəmiyyətimizdə insanın tam azad olması üçün şərait yaradılacaqdır. Bu baxımdan həyatımızın indiki mərhələsində vicdan azadlığı məsələsi də mühüm yer tutur. Xalqımız öz dininə qayıtdı. İslam dini dünyada öz tarixi yerini tutmuşdur. Xalqımızın mənəviyyatına, elminə, qüdrətinə, zəkasına İslam dininin böyük təsiri olmuşdur. Milli ənənələrimiz, mədəniyyətimiz bir çox hallarda İslam dini vasitəsilə nəsildən-nəslə keçib, indi böyük milli sərvətimiz kimi bugünkü nəsillərə çatmışdır. Azərbaycanda İslam dininə insanların sərbəst etiqad etməsi üçün bütün şərait yaradılmış və bundan sonra da yaradılacaqdır. Güman edirik ki, bizim dinimiz respublikanın bu ağır dövründə vətəndaş həmrəyliyinin, vətəndaş birliyinin yaranması üçün çox böyük fəaliyyət göstərəcəkdir.

Azərbaycan çoxmillətli respublikadır. Bu, respublikanın səciyyəvi cəhətidir. Bunun böyük tarixi var və bu tarixlə, respublikanın bu ictimai-siyasi mənzərəsi ilə biz fəxr edirik. Respublikamızda bütün vətəndaşlar dini və milli mənsubiyyətindən asılı olmayaraq, eyni hüquqa malikdirlər və bundan sonra da bütün vətəndaşların bərabər hüquqla Azərbaycan Respublikasının ictimai-siyasi həyatında iştirak etməsi üçün imkanlar yaradılacaqdır.

Bu gün bizim İslam dininin, Qafqaz müsəlmanlarının rəhbəri, xristian dininin, yəhudi dininin nümayəndələri məni bu vəzifəyə gəlmək münasibətilə təbrik etdilər. Mən onlara öz minnətdarlığımı bildirirəm və əmin etmək istəyirəm ki, Azərbaycanda bütün millətlərin, bütün dinlərin bərabər hüquqla yaşaması üçün bütün şərait yaradılacaqdır.

Respublikamızın müstəqilliyini möhkəmlətmək üçün əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin olmasıdır. Müstəqillik əldə edildikdən sonra xarici siyasət sahəsində təəssüf ki, az iş görülmüşdür. Qarşıda böyük vəzifələr durur. Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də respublikanın İqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir. Bizim xarici siyasətimiz sülhsevər siyasətdir, biz heç bir dövlətin suverenliyinə, ərazi bütövlüyünə toxunmaq məqsədi güdmürük. Lakin eyni zamanda nəyin bahasına olursa-olsun respublikanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü xarici siyasət

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

vasitəsilə təmin etməyə çalışacağıq. Güman edirəm ki, bundan sonra görüləsi işlər Azərbaycanın daha geniş tanınmasına şərait yaradacaqdır və respublikamız dünya dövlətləri birliyində öz layiqli yerini tutacaqdır.

Mənim Prezident seçilməyimlə əlaqədar olaraq dünyanın bir çox dövlətlərinin başçıları təbrik məktubları göndərmişlər. Bunları, birinci növbədə, Azərbaycan Respublikasının müstəqilliyinə, dünya birliyində tutduğu yerə verilən qiymət kimi qəbul edirəm. Təbrik məktubları göndərmiş dövlət başçılarına, xarici ölkələrin bu salonda olan təmsilçilərinə minnətdarlığımı bildirirəm və onları əmin etmək istəyirəm ki, Azərbaycan Respublikası bir müstəqil dövlət kimi gələcəkdə bütün bu dövlətlərlə və başqa ölkələrdə səmərəli əlaqədər yaratmağa və respublikamızı bu ağır vəziyyətdən çıxarmaq üçün onların imkanlarından istifadə etməyə çalışacaqdır. Çox sağ olun, təşəkkür edirəm və eyni zamanda dövlətlərinizin başçılarına və xalqlarınıza səadət, xoşbəxtlik və bütün işlərinizdə müvəffəqiyyətlər diləyirəm.

Azərbaycan Respublikasının ağır böhran vəziyyətindən çıxması üçün sosial-iqtisadi sahədə böyük işlər görülməlidir. Təsəvvür edin ki, müstəqilliyimizin əldə edilməsi bizim üçün tarixi bir hadisədirsə, iqtisadiyyatımızın belə vəziyyətdə olması ağır və çətin bir haldır. Təəssüf ki, son illərlə respublikanın böhran vəziyyətində olması iqtisadiyyatın bütün sahələrinə mənfi təsir göstərmişdir. İqtisadiyyat, demək olar, tamamilə dağılmış və bu da respublika vətəndaşlarının rifahının aşağı düşməsinə gətirib çıxarmışdır. Eyni zamanda qeyd etmək istəyirəm ki, respublikanın böyük iqtisadi-sosial, elmi-texniki potensialı vardır. Azərbaycanın coğrafi-siyasi vəziyyəti, onun təbii sərvətləri, uzun illər boyu yaranmış əsas fondları respublikanı bu ağır böhrandan çıxarmağa imkan verir. Bu baxımdan biz gələcək işimizdə bir tərəfdən yaranmış potensialdan səmərəli istifadə etmək, digər tərəfdən isə yeni iqtisadi islahatlar aparmaq yolu ilə bazar İqtisadiyyatına keçmək istiqamətində hərəkət etməliyik.

Bu yol çətin, ağır yoldur. On illər boyu yaranmış iqtisadi-sosial sistemdən sərbəst iqtisadiyyat sisteminə keçmək böyük çətinliklərlə bağlıdır. Bu sahədə son illərdə buraxılan səhvlər vəziyyəti daha da gərginləşdirmişdir. Ancaq biz bu yolla getməliyik, başqa yol yoxdur. Bu iş Azərbaycan Respublikasının iqtisadiyyatına, ənənələrinə uyğun olaraq təşkil edilməlidir. Bu yola keçərkən əlimizdə olan iqtisadi potensialdan səmərəli istifadə etməliyik, onun bundan sonra dağılmasına yol verməməliyik. Çalışmalıyıq ki, bu potensial bütün Azərbaycan xalqının sərvəti kimi bundan sonra da respublikamızın bütün vətəndaşlarının,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bütün təbəqələrin həyat tərzinin yaxşılaşması üçün şərait yaratsın.

Bu sahədə demokratik islahatlar keçirmək, ağıllı hərəkət etmək bizim borcumuzdur və əmin ola bilərsiniz ki, biz bu yolla gedəcəyik. Bununla əlaqədar olaraq mən Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinə daxil olmasını xüsusi qeyd etmək istəyirəm. Respublikada uzun müddət bu barədə müzakirələr getmiş və nəhayət, Azərbaycan Müstəqil Dövlətlər Birliyinə daxil olmuşdur. Biz əminik ki, Azərbaycanın MDB-yə daxil olması respublikanın iqtisadiyyatının inkişaf etməsi üçün yaxşı şərait yaradacaq və biz bu imkanlardan səmərəli istifadə etməliyik.

Onu da qeyd etmək istəyirəm ki, bəzi dairələr Azərbaycanın MDB-yə daxil olmasını təhlükəli bir hal kimi qələmə verməyə çalışırlar. Bu, səhv fikirdir. Azərbaycan MDB-də öz müstəqilliyini daim qoruyacaq və MDB-də iştirak etmək Azərbaycanın müstəqilliyinə qətiyyən xələl gətirməyəcəkdir. Azərbaycan müstəqil bir dövlət kimi demokratik yolla gedəcək, beynəlxalq demokratiya normalarına riayət edəcəkdir. Azərbaycanda kommunist ideologiyası, kommunist rejimi bir daha bərpa olmayacaqdır. Güman edirəm ki, Azərbaycan vətəndaşlarının əksəriyyətinin də fikri belədir. Azərbaycan Respublikası bundan sonra heç vaxt başqa bir dövlətin tərkibinə daxil olmayacaq, başqa bir dövlətin tabeliyinə düşməyəcək, öz müstəqilliyini daim qoruyacaqdır.

Bizim daxili siyasətimiz, xarici siyasətimiz dünya demokratiyasının açdığı yolla demokratik prinsiplər əsasında gedəcəkdir. Biz Azərbaycanın daxilində demokratik prinsipləri bərqərar edərək respublikanın xarici siyasətində Azərbaycanın müstəqilliyini daim qoruyacağıq. Mən bir Prezident kimi, xalqın qarşısında öz fikirlərimi açıq bəyan edir və əmin etmək istəyirəm ki, bu fikirlərə, bu prinsiplərə daim sadiq olacağam.

Əziz və hörmətli həmvətənlər!

Bu gün mənim üçün tarixi, əlamətdar bir gündür. Mənə göstərilən bu böyük etimada görə Azərbaycan vətəndaşlarına, Azərbaycan xalqına bir daha dərin minnətlarlığımı, hörmətimi, məhəbbətimi bildirir və əmin etmək istəyirəm ki, həyatımın sonuna qədər xalqıma sədaqətlə xidmət edəcək və bütün fəaliyyətimi Azərbaycan Respublikasının gələcək inkişafına sərf edəcəyəm. Əlimi Azərbaycan Respublikasının Konstitusiyasına basaraq and içirəm ki, biliyimi, təcrübəmi, qüvvəmi Azərbaycan xalqının, Azərbaycan Respublikasının rifahına həsr edəcəyəm.

And içirəm ki, Prezident vəzifəsini ali məqsədlər, amallar naminə yerinə yetirəcək, Azərbaycan Respublikasının tam müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü təmin etmək üçün əlimdən gələni əsirgəməyəcəyəm.

And içirəm ki, Azərbaycan Respublikasının Konstitusiyası və

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qanunlarının həyata keçirilməsinin təminatçısı olacaq, milliyyətindən, dini etiqadından və siyasi əqidəsindən asılı olmayaraq Azərbaycan vətəndaşlarının hüquqlarının və azadlıqlarının qorunmasının, müdafiə edilməsinin təminatçısı olacağam. Azərbaycan Respublikasında azadlığın, demokratik dəyişikliklərin, Azərbaycan Respublikasının demokratik hüquqi dövlət kimi inkişaf etdirilməsinin təminatçısı olacağam.

And içirəm ki, Azərbaycan Respublikasına, Azərbaycan xalqına ləyaqətlə xidmət edəcəyəm, müstəqil dövlətimizin sivilizasiyalı dünya dövlətləri arasında, dünya birliyində ləyaqətli yer tutmasına çalışacağam.

Əlimi Qurani-Şərifə basaraq and içirəm ki, Azərbaycan xalqının milli və mənəvi ənənələrinə daim sadiq olacaq və bu ənənələrin müstəqil dövlətimizdə bərqərar olmasını, yaşamasını və inkişaf etməsini təmin edəcəyəm.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AZƏRBAYCANIN MÜSTƏQİLLİK GÜNÜ MÜNASİBƏTİLƏ XALQA TƏBRİK

18 oktyabr 1993-cü il

Hörmətli həmvətənlər! Bu gün Azərbaycanın həyatında əlamətdar gündür - Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktının qəbul olunmasının ikinci ildönümüdür. Azərbaycan Respublikasının Dövlət müstəqilliyi əldə etməsi tarixi hadisədir, bizim böyük bayramımızdır. Bu bayram münasibətilə Azərbaycan xalqını, Azərbaycan Respublikasının bütün vətəndaşlarını ürəkdən təbrik edirəm, müstəqillik yolunda hamıya uğurlar diləyirəm.

Azərbaycan xalqının əsrlər boyu qəlbində olan, həsrət çəkdiyi günlər gəlib çatmışdır. Azərbaycan xalqı öz müstəqilliyinə nail olmuşdur. Müstəqilliyi əldə etmək, dövlətin tam müstəqil olmasına nail olmaq üçün xalqımız çətin yollardan keçmişdir. Ancaq müstəqilliyi əldə saxlamaq, onu möhkəmləndirmək, dövlətin tam müstəqilliyinə nail olmaq və bütün vətəndaşlara müstəqil dövlət şəraitində layiqli həyat tərzi təmin etmək daha çətindir. Bunun üçün biz çox iş görməliyik. Qarşımızda böyük vəzifələr durur. Bu vəzifələri həm Azərbaycanın dövlət orqanları, həm hökumət, həm respublikanın mövcud siyasi-ictimai qüvvələri, həm də hər bir vətəndaş yerinə yetirməyə çalışmalıdır.

Ona görə də mən bu əlamətdar gündə, bizim üçün böyük bayram günündə Azərbaycan xalqına, respublikamızın bütün vətəndaşlarına müraciət edirəm, Azərbaycan Respublikasının ictimai-siyasi xadimlərinə, ziyalılarına, dövlət orqanlarında vəzifə daşıyan şəxslərə, hər bir vətəndaşa müraciət edirəm və hər bir kəsi Azərbaycan Respublikasının müstəqilliyini möhkəmləndirmək üçün, bu müstəqilliyi daimi etmək üçün fədakar əməyə dəvət edirəm.

Mən bu gün Azərbaycan Respublikasının müstəqilliyini mühafizə edən Azərbaycan Silahlı Qüvvələrinə, sərhədlərimizi qoruyan döyüşçülərə, əsgərlərə, zabitlərə müraciət edirəm, Vətənini əziz sayan, onu sevən hər bir vətəndaşa müraciət edirəm. Bizim gələcək taleyimiz öz əlimizdədir. İndi biz vətənimizin, torpağımızın, ölkəmizin sahibiyik, öz taleyimizi özümüz həll etmək imkanı qazanmışıq. Ancaq bu imkanları əldə saxlamaq, müstəqilliyi daimi etmək və ölkəmizi inkişaf etmiş ölkələr səviyyəsinə çatdırmaq, Dünya Birliyində layiqli yer tutmaq qarşımızda duran əsas vəzifələrdir. Bir dövlət başçısı kimi mən bu vəzifələri özümün ümdə vəzifələrim hesab edirəm. Güman edirəm ki, hər bir vətənpərvər azərbaycanlı, bu yurdun vətəni sevən hər bir sakini bunları özünün şəxsi vəzifələri hesab edəcəkdir.

Bu ümidlərlə, bu arzularla sizi bir daha təbrik edir, sizə cansağlığı, həyatınızın bütün sahələrində uğurlar diləyirəm. Azərbaycan Respublikasının müstəqilliyi naminə sizin hər birinizə müvəffəqiyyətlər arzulayıram. Sağ olun, bayramınız mübarək olsun. Yeni bayramlara doğru irəliləyək! Sağ olun.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ATƏM-in SƏDRİ İSVEÇİN XARİCİ İŞLƏR NAZİRİ MARQARETA AF UQLAS İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

26 oktyabr 1993-cü il.

Hörmətli qonaqlar!

Məni xəbərdar etdilər ki, rus dilində danışmaq lazımdır, baxmayaraq ki, bizdə dövlət dili Azərbaycan dilidir. Lakin xanım Uqlas və nümayəndə heyətinin üzvləri üçün rus dilindən tərcümə etməyin asan olduğunu nəzərə alaraq, mən rus dilində danışacağam. Bir də ki, bu dili hamı başa düşür.

Mən ATƏM-in sədri, İsveçin xarici işlər naziri xanım Marqareta af Uqlası və nümayəndə heyətinin üzvlərini salamlayır, Azərbaycanda olduqları müddətdə onlara səmərəli fəaliyyət və bizdən ötrü mühüm və çox zəruri olan bu missiyaya uğurlu nəticələr arzulayıram.

Respublikamız elə vəziyyətdədir ki, beynəlxalq təşkilatların, o cümlədən də ATƏM kimi nüfuzlu və geniş beynəlxalq təşkilatın köməyinə və dəstəkləməsinə xüsusilə ehtiyacı var. Biz son vaxtlar ATƏM-də intensiv əlaqə saxlayırıq, burada müxtəlif tərkibli nümayəndə heyətləri ilə, o cümlədən Minsk konfransının sədri Mario Raffaelli başda olmaqla Minsk qrupunun nümayəndə heyəti ilə görüşmək imkanımız olmuşdur. Biz Azərbaycan Respublikasının taleyi ilə bağlı çox mürəkkəb problemlərin həllində ATƏM-in fəaliyyətinə həmişə böyük ümid bəsləmişik. Bu gün isə ATƏM-in nümayəndə heyətini ən nüfuzlu tərkibdə, xüsusən də ATƏM-in sədri xanım Uqlas başda olmaqla qəbul edirik.

Biz son günlər sizin bəzi ölkələrə səfərinizi diqqətlə izləyir və nəzərdə tutduğunuz cədvələ uyğun olaraq buraya gəlişinizi səbirsizliklə gözləyirdik. Təəssüf edirəm ki, siz Azərbaycana səfəriniz üçün belə az vaxt ayırırsınız. Zənnimcə, Azərbaycanın düşdüyü mürəkkəb vəziyyəti nəzərə alaraq, başqa ölkələrlə müqayisədə bir qədər çox vaxt ayırmaq lazım idi. Lakin biz təvazökarlıq edib bununla da kifayətlənirik.

Sizə yaxşı məlumdur ki, Azərbaycan üçün indi başlıca problem dövlətimizin ərazisində döyüş əməliyyatlarının dayandırılması, Azərbaycanın müharibə vəziyyətindən çıxması və Azərbaycan Respublikasının suveren hüquqlarının təmin edilməsidir. Bununla əlaqədar biz ATƏM-in fəaliyyətinə çox böyük ümid bəsləmişik və indi də bəsləyirik.

Azərbaycan xalqının, Azərbaycan Respublikasının həyatı ilə bağlı problemlərin həlli sahəsində ATƏM-in bu vaxta qədərki fəaliyyətindən danışsaq, əlbəttə, burada müsbət məqamların olduğunu da deyə bilərik. Lakin bununla belə, bu gün bizim əsasımız var deyək ki, qəti nəticələr baxımından belə deyildir. İndi res-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

publikamızda böhranlı vəziyyət yaranmışdır. Mən bilmirəm, bu, sadəcə təsadüfdür, yoxsa sizin gəlişinizlə əlaqədar xüsusi olaraq yaradılmış şəraitdir, lakin hər bir halda, bizdən ötrü nə qədər böhranlı və faciəli olursa-olsun, indiki vəziyyət - real faktdır. Sizin Azərbaycan üçün məhz belə ağır dövrdə buraya səfərinizi respublikamızın bütün vətəndaşları diqqətlə izləyirlər. Buna görə də biz çox istəyirik ik, sizin buraya səfəriniz ATƏM-də bağlı olduğumuz problemlərin həllində konkret əməli nəticələrlə başa çatsın...

Xanım Uqlas, erməni silahlı birləşmələrinin təcavüzkar hərbi əməliyyatını pisləyən bəyanat verdiyinizə görə ilk növbədə sizə təşəkkür etmək istəyirəm. Həmin təcavüz nəticəsində son günlər Azərbaycanda vəziyyət olduqca mürəkkəbləşmiş və on minlərlə adam daimi yaşayış yerlərini tərk etmişdir və indi ağır müsibət içərisindədir. Zənnimcə, ATƏM-in sədri kimi, sizin bəyanatınızın çox mühüm siyasi əhəmiyyəti var və ümid edirəm ki, həmin bəyanat vəziyyətin dəyişməsinə təsir göstərəcək. Buna görə, sizə təşəkkür edirəm.

Əlbəttə, biz çox istəyirik ki, dövlət müstəqilliyi əldə etmiş Azərbaycan Respublikasının qarşısında duran bütün problemlərin həllində ATƏM-in imkanlarından istifadə edək. Lakin hazırda bizdən ötrü ən kəskin, mühüm problem Azərbaycanın ərazi bütövlüyünü, dövlət suverenliyini, sərhədlərinin toxunulmazlığını, respublikamızın hərbi təcavüzə məruz qalan, həlak olan, daimi yaşayış yerlərini itirən vətəndaşlarının, sakinlərinin həyatının qorunmasını təmin etmək problemidir. Bütün bu vəziyyət böyük faciəyə gətirib çıxarır. Biz bazar iqtisadiyyatı, demokratiyanın inkişafı, insan hüquqlarının müdafiəsi və demokratik inkişaf yolu tutmuş gənc müstəqil dövlət kimi Azərbaycanın qarşısında duran bütün başqa məsələlərlə bağlı problemlərin həllində ATƏM-in imkanlarından istifadə etmək barədə sizin təkliflərinizi məmnuniyyətlə qəbul edirik. Lakin bir daha qeyd edirəm ki, bizdən ötrü son dərəcə mühüm problem hərbi əməliyyatların dayandırılması və Azərbaycan ərazisinin xeyli hissəsini işğal etmiş qoşunların respublika ərazisindən çıxarılmasıdır.

Son aylar ərzində Azərbaycan Respublikası rəhbərliyinin və şəxsən mənim bu problemin sülh yolu ilə həllinə qəti şəkildə tərəfdar olduğumuzu sübut etməyə ehtiyac yoxdur. Çünki atəşin dayandırılması haqqında dəfələrlə imzalanmış sazişlər lə, sonuncu belə saziş də məhz Azərbaycan tərəfinin təşəbbüsü və cəsarət edib deyim ki, şəxsən mənim təşəbbüsümlə mümkün olmuşdur.

Biz bilirik ki, ATƏM siyasi təşkilatdır, onun müvafiq silahlı birləşmələri yoxdur. Eyni zamanda belə hesab edirik ki ATƏM kifayət qədər nüfuzlu beynəlxalq təşkilatdır və bir halda ki, biz müharibə vəziyyətindən çıxmaqla bağlı problemlərimizin bu məsələnin məhz siyasi yolla həll ediləcəyinə ümid bəsləyirik, deməli, əlbəttə ki, ATƏM-in fəaliyyətindən çox şey gözləyirik.

Gizlətmirəm, respublikanın vətəndaşları da, müxtəlif siyasi xadimlər, o cümlədən müxalifətdə olan xadimlər lə, xarici müxbirlər də mənə tez-tez sual verirlər: istər BMT Təhlükəsizlik

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şurasının, istər ATƏM-in Minsk qrupunun, istərsə lə, ümumiyyətlə, ATƏM-in dəfələrlə qəbul etdiyi qərarların həyata keçirilməyərək qaldığını bilə-bilə, siz doğrudanmı inanırsınız ki, bu məsələni ATƏM-in qüvvəsi ilə, ATƏM-in, Birləşmiş Millətlər Təşkilatının, onun Təhlükəsizlik Şurasının imkanları ilə həll etmək olar?

Həqiqətən də bu bir faktdır ki, vaxt gedir. BMT-nin Təhlükəsizlik Şurası üç dəfə çox mühüm qətnamə qəbul etmişdir, ATƏM-in Minsk qrupu işğal qoşunlarının Azərbaycan ərazisindən çıxarılması haqqında bir neçə dəfə cədvəl tərtib etmişdir, gah Romada, gah Vyanada, gah da Cenevrədə və daha haradasa dəfələrlə iclaslar keçirmişdir. Özü də dünyanın ən böyük, nüfuzlu beynəlxalq təşkilatlarından - BMT və ATƏM-dən, Qarabağ münaqişəsi deyilən məsələnin həlli üçün ATƏM çərçivəsində xüsusi olaraq yaradılmış Minsk qrupundan söhbət gedir. Lakin onların bütün qərarları yalnız bir tərəfin - Dağlıq Qarabağın ortaya atdığı maneələrlə qarşılaşır. Buna görə də adamlarda istər-istəməz bədbinlik yaranır.

Siz qeyd etdiniz ki, ATƏM-in cənab Mozberq, cənab Sika və cənab Kazimirov kimi nüfuzlu xadimləri də respublikamızın problemləri və atəşin dayandırılması, işğal qoşunlarının ərazimizdən çıxarılması məsələləri ilə ATƏM tərkibində fəal və geniş iş aparırlar. Mən onlara şəxsən hörmət bəsləyirəm, dəfələrlə onlarla görüşmüşəm və fəaliyyətlərinə böyük ehtiramla yanaşıram, şadam ki, onlar bu gün burada bizimlə birlikdədirlər. Lakin bütün bunlar nəticə vermir. Təkrar edirəm, BMT Təhlükəsizlik Şurasının qətnamələri nəticəsiz qaldıqda, həmin bədbinlik istər-istəməz mənə də sirayət edir. Lakin bununla belə əminəm ki, ATƏM-in imkanlarından və əlbəttə, ATƏM vasitəsi ilə Təhlükəsizlik Şurasının imkanlarından indiyədək kifayət qədər istifadə edilməmişdir. Çox istəyirəm ki, bizim sizində görüşümüz bu son dərəcə mürəkkəb problemin həllində ATƏM-in daha müvəffəqiyyətli fəaliyyəti üçün ciddi başlanğıc nöqtəsi olsun...

Başa düşürəm, ATƏM-in baş katibi vəzifəsi nə deməkdir, onun çox böyük əhəmiyyəti var. Mən baş katibi tanıyıram, onunla Naxçıvanda əvvəlki işimdən tanışam. Lakin indiki halda ATƏM-in sədri ilə ilk dəfə görüşdüyümdən istifadə edərək sizə, sizin bütün nümayəndə heyətinizə, o cümlədən də baş katibə üz tuturam. Siz baş katibə söz verməzdən əvvəl icazənizlə daha bir neçə kəlmə deyəcəyəm, sonra isə baş katibi məmnuniyyətlə dindəyərik. Söylədiyiniz fikirlərlə əlaqədar bir neçə qeydimi bildirmək istəyirəm.

Siz dediniz ki, beynəlxalq təşkilatların imkanları da var, nöqsanları da. Lakin bu zaman siz müvafiq tərəflər arasında bilavasitə əlaqənin zəruri olduğunu da xatırlatdınız. Siz haqlısınız ki, əvvəlki Azərbaycan rəhbərliyində bu cəhət çatışmırdı. Mən bunu yüksək qiymətləndirirəm ki, siz bu məsələyə Azərbaycan rəhbərliyinin münasibətində dəyişiklikləri, o cümlədən mənim şəxsi münasibətimi qeyd etdiniz. Amma siz razılaşmaya bil-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

məzsiniz ki, Azərbaycan tərəfindən münasibətin dəyişməsi bu məsələnin həlli üçün daha əlverişli şərait yaratmalı idi. Bir neçə ay bundan əvvəl Azərbaycan rəhbərliyi Dağlıq Qarabağla heç bir əlaqəni qəbul etmir və yaxın qoymurdu. Odur ki, mən bu əlaqələrlə bağlı addımlar atmağa başladıqda Azərbaycanın müxalifəti və Azərbaycanda bəzi dairələr tərəfindən çox böyük tənqidə məruz qaldım. Mən bunu məhz sizin dediyiniz prinsipləri əsas tutaraq edirdim. Lakin indi mən həmçinin bununla əlaqədar tənqidə məruz qalıram ki, atdığım adlımlar müsbət nəticələr verməkdənsə, əksinə, vəziyyətimizi daha çox pisləşdirmişdir. Bir diqqət yetirin, İyunda Mario Raffaelli başda olmaqla nümayəndə heyəti buraya gəllikdə biz onunla görüşdük, o, Bakıda, Ağdam rayonunda, Qarabağda, Yerevanda oldu. Biz əvvəllər ermənilər tərəfindən işğal olunmuş Kəlbəcər rayonundan qoşunların çıxarılması cədvəli ilə tamamilə razı idik, lakin Mario Raffaelli Azərbaycandan getdikdən bir neçə gün sonra Ermənistan silahlı birləşmələri Ağdam rayonunu işğal etdilər. Buna baxmayaraq, biz bundan sonra da Ermənistanla əlaqələr saxladıq, şəxsən mənim Levon Ter-Petrosyanla əlaqələrim oldu, sonra bizim rəhbərlərin Dağlıq Qarabağ rəhbərləri ilə, o cümlədən parlament sədrinin müavini Afiyəddin Cəlilovun, baş nazirin müavini Abbas Abbasovun, ordumuzun baş qərargahının rəisi Səfər Əbiyevin əlaqələri oldu. Bu şəraitdə də respublikamıza qarşı təcavüz davam etdi, həm Ağdam, həm Füzuli, həm Cəbrayıl, həm də Qubadlı rayonları işğal olundu. Biz barışıq haqqında saziş bağladıq. O da pozuldu. Sağ olun ki, sazişin Ermənistan tərəfindən pozulduğu barədə bəyanat verdiniz. Son günlər hərbi əməliyyatlar nəticəsində on minlərlə adam acınacaqlı vəziyyətə düşmüşdür. Dünən onların bir qismi İmişli rayonunun ərazisinə qayıtmışdır. ATƏM-in nümayəndələri də oraya getmişlər. Onlar qaçqınların nə vəziyyətdə olduqlarını öz gözləri ilə görəcəklər. Budur mənim əlaqələrimin nəticəsi.

Gərək ki, dünən sizə Azərbaycanın xəritəsini göstərdilər. İndi vəziyyətin necə olduğu göz qabağındadır. Zəhmət olmasa, bir baxın. Budur, daha aydın xəritə. Dağlıq Qarabağa tamamilə ermənilər nəzarət edirlər. Sonralar Laçın rayonu işğal olunmuşdur. Bir baxın, il yarım bundan əvvəl bu, necə bir ərazi idi. Bu ilin aprel ayının əvvəllərində Kəlbəcər rayonu, sonra 150 min nəfərdən çox əhalisi olan Ağdam rayonu, Füzuli, Cəbrayıl, Qubadlı rayonları işğal olundu.

Zəngilan rayonu mühasirədədir. Dünən çox çətinliklə nail olduq ki, bu rayon işğal edilməsin. Bu məsələ ilə gecədən keçənədək məşğul olduq. Ermənistanın işğalçı qoşunları artıq İranla sərhədə çıxmış, Azərbaycan-İran sərhədinin əksər hissəsinə nə-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

zarət edirlər. Əslində münaqişə beynəlmiləlləşmişdir. Bayaq dedim ki, on minlərlə adamımız İran ərazisindədir.

Bəs nə üçün belə odur? Axı biz danışmışdıq ki, atəş dayandırılsın, Dağlıq Qarabağla bağlı məsələyə baxılsın. Amma yeni-yeni rayonlar işğal olunur, Ermənistan tərəfi güc mövqeyindən hərəkət edir və öz şərtlərini qəbul etdirir.

Bütün bu günlər ərzində biz məhz Dağlıq Qarabağla, təbii ki, həmçinin Ermənistan rəhbərliyi ilə intensiv əlaqələr saxlamışıq. Lakin bu əlaqələr bir nəticə vermir. Bax, siz insan hüquqlarının müdafiəsində ATƏM-in mühüm vəzifəsindən danışdınız. Bəs respublikanın bütün ərazisində ağır vəziyyətdə olan bir milyon nəfərdən çox qaçqının hüquqları tapdanmırmı, pozulmurmu? Zəngilanda təxminən altmış min adam mühasirədədir. Bayaq dedim ki, on minlərlə adam İran ərazisindədir. Onların bir qismi Arazdan keçərək İmişliyə qayıtmışdır. Dünən bütün gecə biz bu məsələ ilə məşğul olmuşuq. Dövlət katibi Lalə xanım Hacıyeva sizə bu barədə danışmışdır. Biz bütün şərtlərlə razılaşmışıq. Əgər bu da kömək etməsə, beynəlxalq təşkilatlar - istər BMT, istərsə də ATƏM bir şey edə bilməsələr, onda yalnız Allaha müraciət etməli və ya elliklə səfərbərliyə başlamalı, ya şəhid olmaq, ya da hadisələrin inkişafını dayandırmaq üçün döyüşə atılmalı olacağıq. Yeri gəlmişkən, son günlərin həyəcanlı hadisələri ona gətirib çıxarmışdır ki, xalq məndən bunu tələb edir. Mən bir tərəfdən, bu əlaqələrə razılıq verdiyimə görə tənqidə məruz qalıram, digər tərəfdən isə, tələblər irəli sürürlər ki, biz belə vəziyyətdə olmaqdansa ölməyə, şərəflə, şöhrətlə ölməyə hazırıq. Buna görə də vəziyyət nəinki sadəcə faciəli, hətta ondan da betərdir. Belə hesab edirəm ki beynəlxalq təşkilatlar bu problemin həllində kömək göstərməlidirlər. Düşünürəm ki, sizin baş katib buna daha konkret cavab verəcəkdir...

Mən sizinlə tamamilə razıyam, bu məsələdə aramızda ziddiyyət yoxdur. Mən artıq bildirdim ki, biz Minsk qrupuna və bütünlükdə ATƏM təşkilatına böyük hörmətlə yanaşır, ona böyük ümid bəsləyirik. Biz bundan sonra da əməkdaşlıq edəcəyik və ATƏM-in Minsk qrupunun səmərəli fəaliyyətinə çox ümid edirik. Lakin mən söhbətimizin əvvəlində dedim ki, xanım Uqlasın bu gün verdiyi bəyanat erməni silahlı birləşmələrinin təcavüzkar hərəkətlərini pisləyən siyasi bəyanatdır. Bunun özünün çox böyük əhəmiyyəti var. Yaxud götürək dünən bu məsələ barədə Rusiya Federasiyasının Xarici İşlər Nazirliyində verilmiş bəyanatı. Həmin bəyanatda erməni silahlı birləşmələrinin son günlər işğal etdikləri ərazidən dərhal çıxarılması tələb olunmuşdur. Bundan əlavə, bizimlə çox fəal əməkdaşlıq edən və bu məsələ ilə geniş məşğul olan cənab Kazimirov dünəndən, Bakıya gəldiyi andan etibarən bu prosesə ciddi şəkildə qoşulmuş, hərbi birləşmələrin son gün-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lər tutduğu ərazidən çıxarılmasına nail olmaq üçün Qarabağla, Yerevanla və bizimlə əlaqə saxlamışdır. Biz gələcəkdə də belə siyasi fəaliyyətə bel bağlayacağıq. Lakin siz bilirsiniz ki, vəziyyət bizdən daha konkret, daha qəti tədbirlər görməyi tələb edir. Adamlar sərhədi keçib İrana getmiş və gecə, demək olar, çılpaq halda, çox çətin vəziyyətdə Azərbaycan ərazisinə qayıtmışlar. Biz onlardan ötrü sığınacaq yeri, əyin-baş tapa bilmirik. Mən hələ onların bütün var-dövlətini, yaxın adamlarını itirmələrini demirəm. Belə şəraitdə biz bütün təcavüzkar hərəkətlərə son qoymalıyıq.

Mən sizin imkanlarınızı realistcəsinə qiymətləndirirəm. Lakin siz də yaranmış vəziyyəti beləcə qiymətləndirməli və görülə biləcək tədbirlərə, ola bilsin, ən qəti tədbirlərə, realistcəsinə yanaşmalısınız. Axı, səbrin də sonu var. Buna görə də mən bir daha bu məsələnin siyasi yolla həllinə tərəfdar olduğumu bildirirəm. Məsələnin siyasi yolla həlli isə yalnız sizin iştirakınızla, sizin geniş fəaliyyətiniz nəticəsində mümkündür...

Bu fikirlə qalmaq istəyirəm: biz inanırıq, ümid edirik və belə hesab edirik ki, ATƏM-in ehtiyatlarından və imkanlarından daha dolğun istifadə olunmalıdır!

Cağ olun.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

MARQARETA AF UQLAS İLƏ DANIŞIQLAR BAŞA ÇATDIQDAN SONRA BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

26 oktyabr 1993-cü il

Biz ATƏM-in indiki sədri xanım Uqlas başda olmaqla bu təşkilatın nüfuzlu nümayəndə heyətinin respublikamıza gəlişini böyük razılıqla qarşılamışıq. ATƏM-in fəaliyyəti baxımından Azərbaycan Respublikasını maraqlandıran bütün məsələlər barədə bu gün bizim kifayət qədər səmərəli danışıqlarımız olmuşdur. Biz keçmiş Sovet İttifaqı ərazisində yaranmış müstəqil dövlətlərin taleyi və fəaliyyəti ilə bağlı ATƏM-in mövqeyi ilə tamamilə razıyıq, xüsusən də ona görə ki, bu beynəlxalq təşkilat planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçilməsi, demokratiyanın inkişafı, insan hüquqlarının müdafiəsi problemlərinə, həmin dövlətlərin inkişafı üçün daha sivilizasiyalı şərait yaradılmasına böyük maraq göstərir.

Bugünkü danışıqlar zamanı biz bəyan etdik ki, mən bunu bir daha təkrar etmək istəyirəm, Azərbaycanın bu problemlərlə əlaqədar heç bir çətinliyi olmayacaqdır. Azərbaycan Respublikası demokratik inkişaf, sərbəst bazar iqtisadiyyatına keçmək yolu tutmuşdur, insan hüquqlarına və insan azadlıqlarına əməl olunması prinsiplərinə daim tərəfdardır. Bununla belə biz, əlbəttə, həmin islahatların həyata keçirilməsini dəstəklədiyinə və bu sahədə köməyinə görə ATƏM-ə minnətdar olacağıq.

Respublikamız üçün ən mürəkkəb, ən vacib problem onun ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını, suverenliyini və bununla əlaqədar olaraq ölkənin ərazisində gedən müharibənin dayandırılmasını, işğal edilmiş Azərbaycan torpaqlarından erməni silahlı birləşmələrinin çıxarılmasını təmin etməkdir.

Azərbaycanın Füzuli və Cəbrayıl rayonlarında yeni zonalar işğal edən Ermənistan silahlı birləşmələrinin sonuncu təcavüzkar hücumları ilə əlaqədar xanım Uqlasın bu gün səhər verdiyi bəyanata görə mən ona minnətdaram. Ermənistan silahlı birləşmələrinin yeni zonalar işğal etməsi faciəli nəticələrə gətirib çıxarmışdır. Ümidvaram ki, ATƏM-in sədrinin bu siyasi bəyanatı işğalçı qoşunların son vaxtlar tutduqları əraziləri onların dərhal tərk etməsində öz rolunu oynayacaqdır.

Mən bir daha təsdiq edirəm ki, Azərbaycanla Ermənistan silahlı birləşmələri arasında müharibə ilə bağlı məsələni biz dinc yolla aradan qaldırmağa çalışırıq. Biz sülh prosesinə, dialoqa, atəşin dayandırılmasına tərəfdar olaraq qalır və ATƏM-in fəal havadarlığına və köməyinə ümid bəsləyirik.

Biz həmçinin ümidvarıq ki, ATƏM və xanım Uqlas başda olmaqla bu təşkilatın mötəbər nümayəndə heyəti dincliklə niza-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

masalma prosesinin normal məcraya düşməsi üçün əlavə tədbirlər görəcəklər. Bununla bərabər, biz işğalçı qoşunların son vaxtlar tutduqları ərazilərdən dərhal çıxarılmasını və Azərbaycan torpaqlarının işğalçılardan təmizlənməsi üçün ardıcıl tədbirlər görülməsini tələb etmişik və edirik. Ümidvarıq ki, bugünkü danışıqlarımız həmin problemin həlli məqsədilə ATƏM-in yorulmaz fəaliyyətinin yeni mərhələsi üçün başlanğıc nöqtəsi olacaqdır.

S u a l: İstər Birləşmiş Millətlər Təşkilatı, istərsə də ATƏM dəfələrlə qətnamələr qəbul etmiş və bu qətnamədərdə Ermənistan silahlı qüvvələrindən tələb olunmuşdur ki, ələ keçirdikləri Azərbaycan ərazilərindən çıxsınlar. Lakin qəribə bir vəziyyət yaranır: nə qədər çox bəyanatlar verilirsə, bir o qədər çox Azərbaycan torpaqları ilhaq edilir. Təcavüzkara təsir göstərmək üçün ATƏM-in hər hansı vasitələri - siyasi, iqtisadi vasitələri varmı?

Marqareta af Uqlas: Zənnimcə, biz hamımız başa düşürük ki, beynəlxalq təşkilatların imkanları barədə təsəvvürümüz olmalıdır. Yeri gəlmişkən, bu, təkcə həmin münaqişəyə aid deyildir, bir çox digər elə misallar, münaqişələr var ki, burada bu hal rol oynayır. Lakin buna baxmayaraq, bu əsla o demək deyildir ki, biz ATƏM çərçivəsində, xüsusən də Minsk qrupu çərçivəsində səylərimizi davam etdirməməliyik. Əksinə, Minsk qrupu siyasi dialoqu gücləndirmək üçün çox mühüm məclisdir. Mən əminəm ki, bu sahədə fəaliyyətimizi davam etdirmək və gücləndirmək lazımdır. Ümidvaram ki, mənim səfərim nəticəsində bu istiqamətdə səylər davam etdiriləcəkdir. Siz çox yaxşı başa düşürsünüz ki, ATƏM-in öz silahlı qüvvələri yoxdur, ATƏM siyasi dialoqun gücləndirilməsinə kömək edə biləcək siyasi təşkilatdır.

Bizim beynəlxalq təşkilat onun üzvlərinin istədikləri dərəcədə güclüdür. Buna görə də ATƏM-in sədri kimi, mən ürəkdə istərdim ki, ATƏM-in üzvü olan ölkələr Minsk prosesinin və Minsk qrupunun dialoq üçün səmərəli məclisə çevrilməsinə çalışsınlar.

S u a l: Hazırda Azərbaycanda bir milyon qaçqın var. Onlara yardım göstərilməsi məsələsi ATƏM çərçivəsində müzakirə edilibmi?

Xanım Uqlas: Mən qaçqınların nümayəndələri ilə görüşəcəyəm. Onlarla rəhbərlik etdiyim nümayəndə heyətinin üzvləri də görüşürlər. Nümayəndə heyətinin tərkibinə İsveçin yardım agentliyinin nümayəndəsi də daxildir.

S u a l: ATƏM-in üzvü kimi Ermənistan bu təşkilatın üzvü olan Dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət etməlidir. Lakin məlumdur ki, Ermənistan parlamenti Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında, habelə Qarabağa hərbi yardım göstərilməsi haqqında qərarlar və dövlətlərin ərazi bütövlüyünün Helsinki aktında qeydə alınmış prinsipini pozan bir sıra digər sənədlər qəbul etmişdir. Bu prinsipə əməl edilməsi barədə ATƏM-in müəyyən öhdəlikləri var. Bununla əlaqədar olaraq Siz ATƏM-in tərkibində Azərbaycanın gələcəyini necə görürsünüz?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Marqareta af Uqlas: Deməliyəm ki, tarix problemlərinə hörmətim olmaqla bərabər, mən ATƏM-in sədri kimi bu günün və gələcəyin məsələləri ilə məşğulam. Odur ki, bu problemə Ermənistanın münasibətilə bağlı məsələlərə sabah Yerevanda olanda da toxunacağam.

S u a l: Xanım Uqlas, azərbaycanlıları bir məsələ maraqlandırır - nə üçün dünya birliyi bu qədər vaxtla Qarabağ problemini tənzimləyə bilmir? Bu nə deməkdir - güclü dövlətlər balaca Ermənistan qarşısında acizdir, yoxsa Ermənistan Respublikası tərəfindən Azərbaycana qarşı təcavüz faktının təsdiq edilməsini istəmirlər?

Marqareta af Uqlas: Belə düşünürəm ki, başlıca problem hər iki tərəfin bu müharibəyə son qoymaq üçün kifayət qədər iradəsinin olmamasındadır. Gəncə, nəticə etibarilə ən başlıca məsuliyyət o kəslərin üzərinə düşür ki, onlar bilavasitə müharibə aparır, onlar silaha sarılıblar.

S u a l: Xanım Uqlas, Siz ATƏM-in ilk nümayəndəsi deyilsiniz ki, münaqişə zonasına gedir, bu problemin tənzimlənməsi üçün zəmanət verirsiniz, lakin nəticədə bunun üçün konkret olaraq heç nə edilmir. Bu gün Siz bəyanat verərək, zorakılığı pislədiniz. Necə bilirsiniz, gələcəkdə zorakılığa yol vermədən vəziyyəti sabitləşdirmək və münaqişəni nizama salmaq üçün hər hansı əməli tədbirlər görmək mümkündürmü? Axı insanlar, əsasən də uşaqlar və qadınlar əzab-əziyyət çəkirlər. Bu isə gərək ki, Sizi daha çox narahat edir və Sizə daha aydındır...

Marqareta af Uqlas: Mən sizin hisslərinizi, Azərbaycan xalqının keçirdiyi hissləri başa düşürəm və dinc əhalinin halına yanıram. Siz Minsk prosesi çərçivəsində ATƏM-in göstərdiyi səylərin hələlik heç bir nəticəsini görmürsünüz, buna baxmayaraq, mən belə düşünürəm ki, əgər dünya birliyi münaqişəyə arxasını çevirsəydi və onu tamamilə qulaqardına vursaydı, onda bu, vəziyyəti yaxşılığa doğru dəyişdirməzdi. Zənnimcə, ATƏM bundan sonra da bu məsələ ilə məşğul olmalı və hətta imkanlarımız məhdud olsa da , öz üzərinə müəyyən məsuliyyət götürməlidir. Lakin mən bir daha nəzərə çarpdırıram: bundan ötrü hər iki tərəf siyasi danışıqlar prosesində iştirak etmək niyyətində olduğunu göstərməlidir.

S u a l: Xanım Uqlas, hərbi əməliyyatlar yenidən gücləndirildikdən sonra yaxın vaxtlarda Minsk konfransının keçirilməsini mümkün hesab edirsinizmi və şəxsən siz cənab Raffaelli tərəfindən təklif olunan təzələnmiş cədvələ necə baxırsınız? Bildiyiniz kimi, həmin cədvəldə BMT Təhlükəsizlik Şurasının 822 və 853 nömrəli qətnamələrinin ziddinə olaraq, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş ərazilərdən çıxarılması dəmir yollarının blokadasının götürülməsi ilə əlaqələndirilir.

Marqareta af Uqlas: Demək istəyirəm ki, mənim nümayəndə heyətimə səfirlər Seka, Mozberq və Kazimirov, yəni elə şəxslər daxildirlər ki, onlar Minsk prosesinin məsələləri ilə bilavasitə məşğul olurlar. Mən əminəm ki, onlar əvvəl-axır konkret nəticələrə gəlmək üçün öz səylərindən əl çəkmək niyyətində deyildirlər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O ki qaldı sualın ikinci hissəsinə, sözü ATƏM-in baş katibi səfir Xolka vermək istərdim.

Səfir X o l k: Bildiyiniz kimi, bu cədvəl danışıqların çox mürəkkəb prosesindən sonra meydana gəlmişdir. Bu cədvəl çərçivəsində olduqca çox mühüm və mürəkkəb məsələləri nəzərə almaq lazım gəlmişdir. Məhz buna görə də cədvəlin yalnız bir tərkib hissəsini götürmək olmaz, onları vahid bir paket kimi əlaqəli şəkildə nəzərdən keçirmək gərəkdir. Təəssüflər olsun ki, indi təfsilata varmağa vaxtımız yoxdur.

S u a l: Heydər Əliyeviç, necə bilirsiniz, hərbi əməliyyatların yenidən gücləndirilməsi Azərbaycanı Minsk qrupunun onun tərəfindən rədd olunan təzələnmiş cədvəlini qəbul etmək və Azərbaycan rəhbərliyini Azərbaycan-İran sərhədində Rusiyanın hərbi qüvvələr saxlaması ilə razılaşmaq məcburiyyətində qoymaq məqsədilə ətraflı düşünülmüş və planlaşdırılmış tədbir deyilmi?

Heydər Əliyev: Mən bu variantı istisna etmirəm, çünki Rusiya Federasiyasının vasiqəçiliyi ilə Azərbaycanda Dağlıq Qarabağ arasında əldə olunmuş saziş əsasında atəşin dayandırılmasına çox sabit surətdə əməl edildiyi bir vaxtda hərbi əməliyyatların gücləndirilməsini başqa heç nə ilə izah etmək olmaz.

S u a l: Heydər Əliyeviç, Azərbaycan hökuməti Qarabağ münaqişəsinin nizama salınması məsələsində İran İslam Respublikasının hər hansı təşəbbüsünü qəbul etməyə hazırdırmı?

Heydər Əliyev: Biz İran İslam Respublikası tərəfindən hələlik heç bir təşəbbüs almamışıq. İran prezidenti cənab Haşimi-Rəfsəncani bu gün Bakıya gəlir. Baxaq, gərək o nə kimi təkliflər irəli sürəcəkdir. İndi bu suala cavab vermək mümkün deyildir.

S u a l: Xanım Uqlas, münaqişənin nizama salınmasında Rusiya Federasiyasının rolu, sizcə, necədir?

Marqareta af Uqlas: Mən Rusiya Federasiyasına ATƏM-in çox mühüm üzvü kimi baxıram. Buna görə də ümidvaram, hətta bilirəm ki, Rusiya Federasiyası bu münaqişənin aradan qaldırılması üçün ATƏM çərçivəsində səmərəli və əməli işləməyi çox istəyir.

S u a l: Xanım Uqlas, BMT Təhlükəsizlik Şurası tərəfindən 874 nömrəli qətnamə qəbul olunmasını Mario Raffaellinin Azərbaycan üçün bir çox cəhətdən məqbul olmayan təkliflərini Azərbaycana qəbul etdirmək məqsədilə ona təzyiq vasitəsi saymaq olarmı?

Marqareta af Uqlas: Xeyr.

S u a l: Cənab Əliyev, bunu mümkün hesab edirsinizmi ki, öz ərazilərinizi qorumaq, ölkənin birliyini saxlamaq üçün nə vaxtsa hərbi yardım üçün Rusiya və İran kimi xarici ölkələrə müraciət etmək lazım gələcəkdir?

Heydər Əliyev: Hələlik ki, bu gün biz beynəlxalq təşkilatlara - BMT-yə, Təhlükəsizlik Şurasına, ATƏM-ə, Minsk qrupuna böyük ümidlər bəsləyirik və əlbəttə, öz respublikamızın qüvvələrinə və imkanlarına bel bağlayırıq. Əgər bütün bunlar heç bir nəticə verməsə, bu halda Azərbaycan Respublikası öz ərazi bütövlüyünü qorumaq və öz vətəndaşlarının təhlükəsizliyini təmin etmək üçün lazımi qərarlar qəbul etmək hüququnu özündə saxlayır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"TÜRKİYƏ CÜMHURİYYƏTİ- 70" ELMİ-PRAKTİK KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Qardaş Türkiyə Cümhuriyyətinin yaranmasının 70 illiyi oktyabr ayının 29-da tamam olur.

Soykökümüzün, adət və ənənələrimizin, bir çox müqəddəs mənəvi sərvətlərimizin ayrılmaz tellərlə bir-birinə bağlı olduğu türk xalqının bu böyük bayramı eyni zamanda Azərbaycan üçün də əziz gündür.

Türkiyə Cümhuriyyətinin banisi, iyirminci əsrin bəşəriyyətə verdiyi böyük dühalardan Mustafa Kamal Atatürkün azadlıq və demokratiya ideallarına sonsuz məhəbbəti, sərkərdəlik və dövlətçilik məharəti sayəsində türk xalqı tarixin çətin sınaqlarından çıxıb qurtuluş tapdı. Dünya Türkiyə Cümhuriyyəti adlı azad və məğrur bir məmləkəti tanımalı oldu.

Türkiyə hazırda dünyanın siyasi durumunda nüfuzlu təsir qüvvəsinə malik, ümumbəşəri dəyərləri qorumaq əzmində olan, iqtisadi və mədəni səviyyəsi etibarilə inkişaf etmiş qüdrətli dövlətlərdən birinə çevrilmişdir. Atatürkün məşhur "Yurdda sülh, cahanda sülh" ideyasından doğan işığa doğru irəliləyən müasir Türkiyə dövlətinin yeritdiyi daxili və xarici siyasətin, sosial-iqtisadi və mədəni tərəqqi təcrübəsinin elmi-nəzəri tədqiqat obyektinə çevrilməsi, öyrənilməsi böyük əhəmiyyət kəsb edir. Hazırkı elmi-praktik konfransın işinin bu baxımdan səmərəli olacağa, qardaş ölkə ilə hərtərəfli əməkdaşlığımızın yeni mərhələyə ucalmasına xidmət edəcəyinə inanırıq.

Mən bu xeyirxah tədbirin iştirakçılarını Azərbaycan dövləti adından və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edir, hamınıza cansağlığı, səadət, elmi yaradıcılıq fəaliyyətinizdə uğurlar diləyirəm.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının prezidenti

Bakı, 26 oktyabr 1993-cü il

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ƏLAHƏZRƏT SÜLEYMAN DƏMİRƏL CƏNABLARINA

Əziz və hörmətli Süleyman bəy!

Milli bayram - Respublika elan edilməsi gününün 70 illiyi münasibətilə sizi ürəkdən təbrik edir, sizə möhkəm cansağlığı,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

səadət, bütün Türkiyə xalqının tərəqqisi naminə yorulmadan göstərdiyiniz fəaliyyətdə müvəffəqiyyətlər arzulayıram.

Azərbaycanlıların qəlbində Türkiyənin xüsusi yeri var. Sizin müdrikliyiniz sayəsində Azərbaycan və Türkiyə bir-birinə daha yaxın olacaq, daha da doğmalaşacaqlar.

Fürsətdən istifadə edib bütün dost Türkiyə xalqına səmim-qəlbdən dinclik, firavanlıq, tərəqqi arzuladığımı bildirmək istəyirəm.

Sizi qucaqlayır və öpürəm.

HEYDƏR ƏLİYEV

28 oktyabr 1993-cü il

TÜRKİYƏ RESPUBLİKASININ
BAŞ NAZİRİ
ƏLAHƏZRƏT XANIM TANSU ÇİLLƏRƏ

Hörmətli xanım T.Çillər!

Milli bayram - Respublika elan edilməsi gününün 70 illiyi münasibətilə sizi ürəkdən təbrik edir, sizə və bütün Türkiyə xalqına dinclik, səadət və müvəffəqiyyətlər arzulayıram.

Ümidvaram ki, ölkələrimiz arasında dostluq və sıx əməkdaşlıq sülh işinə, xalqlarımızın tərəqqisinə və əmin-amanlığına xidmət edəcəkdir.

Hörmətlə,

HEYDƏR ƏLİYEV

28 oktyabr 1993-cü il

TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN
SƏDRİ ƏLAHƏZRƏT HÜSAMƏDDİN
CİNDORUQ CƏNABLARINA

Hörmətli cənab H.Cindoruq!

Milli bayram - Respublika elan edilməsi gününün 70 illiyi münasibətilə sizi və bütün Türkiyə xalqını Azərbaycan xalqı adından və şəxsən öz adımdan təbrik edir, sizə möhkəm cansağlığı, səadət və fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.

Əminəm ki, ölkələrimiz arasında dostluq və sıx əməkdaşlıq əlaqələri xalqlarımızın tərəqqisi işinə xidmət edəcək, onların hər ikisi üçün faydalı olacaqdır.

Hörmətlə

HEYDƏR ƏLİYEV

28 oktyabr 1993-cü il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AZƏRBAYCAN VƏ İRAN PREZİDENTLƏRİ ARASINDA DANIŞIQLARIN YEKUNLARINA HƏSR OLUNMUŞ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

28 oktyabr 1993-cü il

Hörmətli prezident, hörmətli xanımlar və cənablar!

İran İslam Cümhuriyyətinin prezidenti hörmətli ağayi Haşimi-Rəfsəncani və onu müşayiət edən yüksək vəzifəli dövlət nümayəndələri bizim dəvətimizlə üç gündür ki, Azərbaycanda səfərdədirlər. Qeyd etmək istərdim ki, Azərbaycan Respublikası özünü müstəqil dövlət elan etdikdən sonra bu, İran İslam Cümhuriyyətinin bizə gələn yüksək səviyyəli ilk nümayəndə heyətidir. Bu danışıqların nəticəsində Azərbaycan Respublikası ilə İran İslam Cümhuriyyəti arasında imzalanmış sənədlər də müstəqil Azərbaycan dövlətinin İran İslam Cümhuriyyəti ilə yüksək səviyyədə imzaladığı ilk sənədlərdir. Biz bu səfərdən, görüşlərdən, aparılan danışıqlardan çox məmnunuq və güman edirəm ki, bu gün imzalanan sənədlər İran İslam Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında olan dostluq və əməkdaşlıq əlaqələrinin yeni mərhələsinin başlanğıcıdır.

İran İslam Cümhuriyyəti prezidentinin və onu müşayiət edən şəxslərin Azərbaycanda olduğu vaxt Azərbaycan Respublikası üçün yeni bir çətinliyə təsadüf etmişdir. Bu günlərlə erməni silahlı dəstələri Azərbaycan Respublikasının bir neçə məntəqəsinə yeni hücumlar etmişlər. Zəngilan rayonu iki-üç gündür ki, mühasirə şəraitində yaşayır. Biz Azərbaycanın müharibə şəraitində olması və Ermənistan silahlı qüvvələrinin Azərbaycana təcavüzü ilə əlaqədar bu danışıqlarımızda çox geniş fikir mübadiləsi apardıq. Cənab Haşimi-Rəfsəncanii bu sahədə də müəyyən səylər göstərdi və bölgədə dünəndən atəşin dayandırılması üçün Ermənistan tərəfi ilə bir neçə dəfə danışıqlar apardı. Güman edirik ki, İran İslam Cümhuriyyəti rəhbərliyinin və şəxsən cənab Haşimi-Rəfsəncaninin bu sahədə fəaliyyəti davam edəcək və o öz imkanlarından istifadə edib Azərbaycan Respublikasının təcavüzdən xilas olması üçün lazımi fəaliyyət göstərəcəkdir.

Cənab Haşimi-Rəfsəncani kimi mən də qeyd etmək istəyirəm ki, aparılan danışaqlardan, görüşlərdən və bu gün imzalanmış sənədlərdən biz çox razıyıq. Belə hesab edirik ki, bu səfər çox səmərəli oldu və güman edirəm ki, dostluq və əməkdaşlıq əlaqələrimiz bundan sonra sürətlə inkişaf edəcəkdir. Cənab Haşimi-Rəfsəncaninin Azərbaycana təşrif gətirməsi münasibətilə bir daha təşəkkür edirəm və İran İslam Cümhuriyyətindən burada olan bütün qonaqlarımıza işlərində müvəffəqiyyətlər diləyirəm. Təşəkkür edirəm.

S u a l: Ağayi Haşimi-Rəfsəncani, Siz üç gündür ki, Azərbaycandasınız, bir sıra görüşlər keçirmisiniz. Mən bilmək istərdim, yalnız İran İslam Cümhuriyyətinin prezidenti kimi yox, həm

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

də İran dövlətinin bir vətəndaşı kimi, burada keçirdiyiniz görüşlərdən hansı uzun müddət yadınızda qalacaqdır?

Ə.Haşimi-Rəfsəncani: Verdiyiniz suala, yəni hansı günlərin daha yaddaqalan olduğuna cavab vermək mənim üçün çətindir. Çünki hamısı mənim üçün yaxşı keçmişdir. Buraya qədəm basdığım andan hörmətli prezident cənab Əliyev və Azərbaycan Respublikasının digər hökumət və dövlət xadimləri tərəfindən çox mehriban və xoş qarşılandım. Elə hiss edirəm ki, öz evimizə gəlmişəm. Olduğumuz bütün yerlər - istər mədəniyyət mərkəzləri, istərsə də müəssisələr bizim üçün çox maraqlı idi. Hərbi qospitalda müalicə olunan yaralı əsgərlərin yanında, istərsə də Şəhidlər xiyabanında olmaq mənim yaddaşımda silinməz izlər buraxmışdır. Mənim üçün ən əhəmiyyətlisi və ən əməli cəhət budur ki, bizim aramızda tam qarşılıqlı anlaşma və mehriban ünsiyyət hökm sürür ki, bu da gələcək əlaqələrimiz üçün ən böyük təminatdır. Ən əhəmiyyətli cəhət budur ki, burada adamlar, azərbaycanlılar bizi çox yüksək əhval-ruhiyyə ilə qarşıladılar. Bu isə gələcəkdə hər şeyin inkişaf edəcəyinə ümid verir.

S u a l: Möhtərəm prezidentlər, gələcəkdə Aralıq dənizinə qədər uzanan neft kəmərinin keçəcəyi təxmini marşrut kimi İran ərazisi müzakirə obyektinə çevrilibmi və əgər Azərbaycan ərazisində gedən müharibə daha geniş miqyas alarsa, Azərbaycan rəhbərliyi hərbi yardım üçün Rusiyaya, İrana yaxud başqa dövlətə müraciət edəcəkmi?

Ə.Haşimi-Rəfsəncani: Sizin sualınızın birinci hissəsini dəqiqləşdirəkmi? Aralıq dənizinə gedən neft kəmərinin İran ərazisindən keçməsini deyirəm. Bu sualı kimə vermisiniz?

Jurnalist: Hər iki prezidentin cavab verməsini xahiş edərdim.

Ə.Haşimi-Rəfsəncani: Neft kəmərinin İran ərazisindən keçməsi məsələsi protokollaşdırma və yaxud qarşılıqlı anlaşma sənədi səviyyəsinə gəlib çatmamışdır. O ki qaldı Azərbaycandan çəkiləcək neft kəmərinin İran ərazisindən keçib-keçməyəcəyinə, İran öz ərazimizdir, öz vətənimizdir və istənilən vaxt bu barədə danışa bilərik.

H.Ə l i y e v: Mən də bu fikirdəyəm ki, bu neft kəmərlərinin hansının haradan kecməsi hələ heç də məlum deyil, bu məsələləri qabaqlamağa ehtiyac yoxdur. Bu məsələlər bir neçə dövlətin danışıqları və razılığı nəticəsində ola bilər. Bu danışıqlar, bu sazişlər nə nəticə verəcəksə, elə də olacaqdır. Mən cənab prezidentə təşəkkür edirəm ki, İran ərazisindən Azərbaycan üçün hər bir kəmərin, hər bir borunun keçməsinə elə indi razılıq verir. Sualın ikinci hissəsinə gəldikdə isə, mən belə hesab edirəm ki, indi biz çox gərgin şəraitdə, müharibə şəraitindəyik. Şübhəsiz ki, öz torpaqlarımızı özümüz qorumalıyıq, öz gücümüzə güvənməliyik və öz xalqımızın gücü ilə də öz torpaqlarımızı işğalçılardan təmizləməliyik. Bu yolda başqa hansı vasitələrdən istifadə ediləcəyi hələ məlum deyildir.

S u a l: Birinci sualım hörmətli İran prezidentinədir. Azərbaycan Respublikasının Zəngilan rayonundakı son hadisələrlə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

əlaqədar İran sərhədində vəziyyət çox gərginləşmişdir. Bununla əlaqədar İran tərəfi bu yaxınlarda hər hansı tədbir görəcək, ya yox?

Ə.Haşimn-Rəfsəncani: Biz dünən mənim adımdan Ermənistan prezidentinə müraciət göndərmişik. Ona xatırlatdıq ki, bizə vəd etmişdiniz ki, hazırda olduğunuz yerdən bir qarış da olsa irəli getməyəcəksiniz. Ona dedim ki, verdiyiniz vədə əməl etməlisiniz. Hətta ona xatırlatdım ki, yeni həmlələrlə əlaqədar çoxlu qaçqınlar yaranmışdır ki, bu da yeni problemlər törədir. Günortadan sonra mənə xəbər çatdırdılar ki, atəş kəsilmişdir. Cənab Heydər Əliyev də belə bir məlumat aldı ki, Zəngilan rayonunda atəş kəsilmişdir. Bununla belə, əlbəttə, biz heç vaxt öz sərhədlərimizdə təhlükəli vəziyyət yaranmasına dözməyəcəyik. Ümidvaram ki, vəziyyət yaxşılığa doğru dəyişir.

S u a l: İkinci sualım Azərbaycan Respublikasının prezidentinədir. Hörmətli Heydər bəy, çoxlu müqavilə imzalandı, lakin onların arasında müdafiə haqqında, yaxud hərbi müqavilə imzalanmadı. Belə müqavilələr nəzərdə tutulubmu?

H.Ə l i y e v: Əgər nəzərdə tutulmuş olsaydı, imzalanardı.

S u a l: Hörmətli Heydər bəy, müşahidəçilərin fikrincə, Zəngilanda yaranmış vəziyyət Rusiyanın təkliflərini Azərbaycanın qəbul etməməsi ilə bağlıdır. Söhbət Rusiya ordusunun Azərbaycana qayıtmasından və Xəzər dənizinin statusu barədə Rusiyanın təklifinin qəbul edilməməsindən gedir. Bu barədə Sizin fikrinizi bilmək istərdim.

H.Ə l i y e v: Ola bilər, bu sizin şəxsi fikrinizdir, Bizdə belə məlumat yoxdur. Çünki rus qoşunlarının Azərbaycana qayıtması haqqında bizə heç bir təklif edilməmişdir. Bu, sizin fikriniz ola bilər.

S u a l: Birinci sualım Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev cənablarınadır. Cənab prezident, havaların soyuması, iqlimin bir az da sərtləşməsi Azərbaycanda hərbi və siyasi iqlimin kəskindəşməsi ilə üst-üstə düşdüyü bir məqamda Sizin fikrinizi bilmək istəyirəm: cənab Əkbər Haşimi-Rəfsəncani ilə qaçqınların bundan sonrakı axınının yerləşdirilməsi ilə bağlı hər hansı söhbətiniz oldumu və İran tərəfi Sizə söz verdimi ki, belə bir addım atacaq?

H.Ə l i y e v: Bəli, cənab Haşimi-Rəfsəncanii ilə bizim aramızda bu barədə çoxlu söhbətlər olmuşdur və biz ümidvarıq ki, İran İslam Cümhuriyyəti və şəxsən cənab Haşimi-Rəfsəncanii bizim qaçqınlara köməyi bundan sonra da davam etdirəcəklər.

Ə.Haşimi-Rəfsəncani: Mən müzakirə zamanı cənab Heydər Əliyevə belə bir fikrimi bildirdim ki, sizin qaçqınlarınız bizim üçün, müharibə apardığımız dövrdəki qaçqınlarımız timsalındadır. İstədikləri vaxt İran torpağının sakinləri ola, burada yaşaya bilərlər. Lakin biz belə bir cəhəti üstün tuturuq ki, daha yaxşı olar, öz doğma torpaqlarına, ev-eşiklərinə qayıdıb yaşasınlar. Qaçqın olmaq, əlbəttə, çox pis vəziyyətdir. Və biz istərdik ki, onlar hələlik olduqları yerdə qalsınlar. Biz apardığımız müharibənin təcrübəsindən belə bir yəqinlik hasil etmişik ki, adamlar öz yerlərini tərk etməyəndə istədiklərinə d-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ha tez nail ola bilirlər. Fələstinin təcrübəsinə nəzər salın: öz torpaqlarından getmiş, qoyub qaçmış, tərk etmiş fələstinlilər bir daha öz yerlərinə qayıda bilmirlər. Əksinə, öz torpaqlarında, ev-eşiklərində qalanlar İsrail işğalçılarına qarşı uğurla mübarizə aparırlar. Bosniyada da eyni vəziyyətdir. Biz kömək edirik, lakin camaatı, xalqı qaçqın düşməyə təşviq etmirik. Qadınlar, uşaqlar məcburiyyət üzündən qaçqın vəziyyətinə düşsələr də, cavanlar bunu özlərinə heç cür rəva görməməlidirlər, kişi kimi, mərdliklə vuruşmalıdırlar. Təşəkkür edirəm.

S u a l: İranın Azərbaycanda, Əfqanıstanda və Bosniya-Hersoqovinada baş verən hadisələrə münasibətindən bütün dünya belə bir nəticəyə gəlmişdir ki, doğrudan da İran sülhpərvər ölkədir. Biz istərdik Tacikistan hadisələrinə də öz prizmamızdan baxaq və deyək ki, Tacikistanda sülhün və əmin-amanlığın bərpa olunması sahəsində İran tərəfindən nə kimi tədbirlər gözlənilir və edilir?

Ə.Haşimi-Rəfsəncani: Biz Orta Asiya respublikalarında - Tacikistanla qonşu ölkələrdə səfərdə olarkən onların dövlət xadimləri və başçıları ilə belə qərara gəldik ki, Tacikistanda vəziyyət nizama salınanadək müştərək tədbirlər görülsün. İlk tədbir kimi qərara alındı ki, Tacikistanın və İranın xarici işlər nazirləri İranda görüşsünlər və sülhün, əminamanlığın bərpası yollarını müzakirə etsinlər. İnşallah, Tehrana qayıdandan sonra görəcəyimiz ilk tədbir bu olacaq.

S u a l: Mənim sualım cənab Heydər Əliyevədir. Azərbaycan MDB-yə daxil olduqdan sonra Azərbaycanda baş verən hadisələrə həmin birliyin üzvü olan ölkələrin münasibəti necədir və nə kimi tədbirlər görülmüşdür?

H.Ə l i y e v: Azərbaycan Müstəqil Dövlətlər Birliyinə daxil olarkən qarşıya belə bir məqsəd qoyulmamışdır ki, Azərbaycanın Ermənistanla gedən müharibəsində yeni bir tədbir olacaqdır. Ancaq məlumdur ki, Ermənistan silahlı qüvvələrinin ərazimizə təcavüzü ilə əlaqədar biz son vaxtlar Rusiya Xarici İşlər Nazirliyinin vasitəçiliyi ilə bir sıra danışıqlar aparırıq və Rusiya da bu danışıqlarda iştirak edir. Müstəqil Dövlətlər Birliyinin üzvü olan başqa dövlətlər isə hələlik bu məsələyə qarışmamışlar.

S u a l: Sualım İran İslam Respublikasının prezidenti ağayi Haşimi-Rəfsəncaniyədir. Möhtərəm prezident, İranın Dağlıq Qarabağ ətrafında apardığı danışıqlardan, verdiyi bəyanatlardan konkret əməli tədbirlərə keçməsi mümkündürmü? Əgər mümkündürsə, bu, hansı halda baş verə bilər?

Ə.Haşimi-Rəfsəncani: Ümidvaram ki, hələlik əməli işlər görməyə ehtiyac yoxdur. Görürəm ki, siz hərbi köməyi nəzərdə tutursunuz. Əlbəttə, biz çalışacağıq mümkün olan bütün səyləri göstərək ki, iş gəlib bu yerə çatmasın.

S u a l: Cənab Haşimi-Rəfsəncani, cənab Heydər Əliyev, bilmək istərdim ki, bu münaqişənin aradan qaldırılmasında beynəlxalq təşkilatların göstərə biləcəyi kömək axıra qədər heç bir nəticə vermədən davam edərsə, onların bu fəaliyyətinə ümid bəsləmək nə dərəcədə doğru olardı?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

H.Ə l i y e v: Biz beynəlxalq təşkilatların fəaliyyətinə ümid bəsləmişik və indi də bəsləyirik. Birləşmiş Millətlər Təşkilatına, ATƏM-ə ümid bəsləyirik. Münaqişənin aradan qaldırılması üçün onların fəaliyyətinin indiyədək müsbət nəticə verməməsi göz qabağındadır. Ancaq dünya birliyi tərəfindən tanınmış və dünya birliyini təmsil edən bu nüfuzlu təşkilatlardan biz imtina edə bilmərik. Əksinə, çalışmışıq və bundan sonra da çalışacağıq ki, bu təşkilatların imkanlarından maksimum istifadə etməyə nail olaq. Ermənistan silahlı qüvvələrinin təcavüzü ilə əlaqədar olaraq dünən mən Birləşmiş Millətlər Təşkilatına və onun Təhlükəsizlik Şurasına müraciət etmişəm. Xahiş etmişəm ki, Təhlükəsizlik Şurası təcili olaraq bu məsələni müzakirə etsin.

Ə.Haşimi-Rəfsəncani: Mən də o fikirdəyəm ki, beynəlxalq təşkilatların fəaliyyəti faydalı ola bilər və onları rədd etmək lazım deyil. Əlbəttə, bununla belə, iki tərəf özü öz taleyi haqqında fikirləşməlidir. Çünki yalnız iki tərəf bir-birinə ürək yandıra bilər, başqası onların halına o qədər də can yandıra bilməz.

S u a l: Mənim sualım hörmətli prezident Haşimi-Rəfsəncaniyədir. İranın və Türkiyənin Azərbaycana olan tarixi, sosial, mədəni yaxınlığını nəzərə alan xüsusən Qərb mətbuatı belə bir iddia ortaya atır ki, Türkiyə və İran Azərbaycanla münasibətlərini genişləndirmək baxımından son dərəcə böyük bir rəqabət içərisindədirlər. Bu iddiaya münasibətsiz necədir?

Ə.Haşimi-Rəfsəncani: Əlbəttə, imperialist dairələrin mətbuatında həmişə belə şeytani əməllər özünü göstərmişdir. Hətta mən öz mətbuatımızdan da gileylənirəm ki, bəzən belə fikirlər onların da səhifələrində özünə yer tapır. Mən istərdim ki, hər iki dövlət Azərbaycanla əməkdaşlıq sahəsində öz aralarında əməkdaşlıq etsin. Əlbəttə, bəzi əlaqələr, məsələn, iqtisadi əlaqələr yaratmaq sahəsində rəqabət ola bilər. Hətta ölkənin özündə də bəzi sahələrdə müxtəlif təşkilatlar, birliklər bir-biri ilə rəqabətdə olurlar. Bu, təbii haldır. Əlbəttə, bizim Azərbaycanla iqtisadi əlaqələr yaratmağımız o demək deyildir ki, biz buraya nüfuz dalınca gəlirik. Yalnız əməkdaşlıq etmək istəyirik. Ümidvaram ki, Türkiyənin mövqeyi də belə olacaq.

Sual: Cənab Rəfsəncani, sualım sizədir. Azərbaycanın cənub-qərbinin Ermənistan tərəfindən işğal olunması, son məlumata görə Azərbaycan-İran sərhədinin 70 kilometrinə Ermənistan silahlı qüvvələrinin nəzarət etməsi İran dövləti üçün, İran İslam Respublikası üçün qaçqınlardan əlavə, daha nə kimi problemlər yaradır?

Ə.Haşimi-Rəfsəncani: Mən bu barədə əvvəlki cavabımda dedim ki, bununla əlaqədar Ermənistan prezidentinə müraciət göndərmişəm və bildirmişəm ki, hazırkı vəziyyətə biz heç cür dözə bilmərik.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ERMƏNİSTAN SİLAHLI QÜVVƏLƏRİNİN AZƏRBAYCAN RESPUBLİKASININ ƏRAZİSİNƏ YENİ HÜCUMLARI VƏ TƏCAVÜZÜ İLƏ BAĞLI MİLLİ TELEVİZİYA VƏ RADİO İLƏ XALQA MÜRACİƏT

2 noyabr 1993-cü il

Əziz həmvətənlər, hörmətli bacılar və qardaşlar!

Son vaxtlar erməni silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə yeni hücumları və təcavüzü nəticəsində respublikada yaranmış vəziyyətlə əlaqədar mən bu gün televiziya studiyasına gəlib, bəzi fikirlərim və mülahizələrim haqqında sizinlə söhbət aparmaq, öz rəyimi bildirmək istəyirəm.

Azərbaycan Respublikası, onun vətəndaşları beş ildən çoxdur ki, müharibə şəraitindədirlər. Bu müddətdə erməni silahlı qüvvələrinin Azərbaycana qarşı təcavüzü mütəmadi olaraq davam edib, respublikamızın ərazi bütövlüyü aybaay, ilbəil pozularaq, onun torpaqları təcavüzkar tərəfindən işğal olunubdur, indi isə böyük bir qismi işğal altındadır.

Son həftələr Azərbaycanda, respublikanın Ermənistanla həmsərhəd bölgə və rayonlarında vəziyyət daha da gərginləşmiş, erməni silahlı qüvvələrinin təcavüzkar hücumları şiddətlənmiş və bunun nəticəsində Füzuli, Cəbrayıl rayonlarının cənub hissəsində olan yaşayış məntəqələri - kəndlər, qəsəbələr dağıdılıb viran edilmişdir. Bu rayonlar tamamilə erməni silahlı qüvvələrinin işğalı altına keçmişdir. Sonra Zəngilan rayonuna hücumlar olmuş və nəticədə bu rayon da işğal edilmişdir. Beləliklə, respublikamızın vətəndaşlarına, həyatına, Azərbaycanın ərazi bütövlüyünə yeni zərbələr endirilmiş, insanlar tələf olmuş, yaralanmış, on minlərlə vətəndaşımız yerlərindən didərgin düşüb, qaçqına çevrilmişdir. Onların çox hissəsi başqa yol olmadığına görə Araz çayı vasitəsilə İran ərazisinə keçmiş və oradan respublikamızın digər rayonlarına, məntəqələrinə gəlib çıxa bilmişdir.Müharibə dövründə, yəni beş ildən artıq bir müddətdə Azərbaycan Respublikası vətəndaşlarının bir qismi tələf, şəhid olmuşdur. Son hadisələr zamanı da həlak və şəhid olanlar var. Ümumiyyətlə, Ermənistanın təcavüzü başlanandan indiyə qədər təxminən 16 min azərbaycanlı şəhid, tələf olmuş, 22 minə qədər adam yaralanmış, yüz minlərlə adam qaçqın düşmüşdür. İndi qaçqınların sayı 1 milyon nəfərdən artıqdır. Kəndlərimiz, şəhərlərimiz, qəsəbələrimiz viran olmuşdur.

Mən bu gün sizin önünüzdə çıxış edərək şəhid olmuş azərbaycanlıların ruhu qarşısında baş əyirəm, onların ailələrinə, qohum-əqrəbalarına başsağlığı verirəm.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bəli, Azərbaycan indi ağır vəziyyətdədir. Son həftələr vəziyyət daha da ağırlaşmış və gərginləşmişdir. Mən bu gün həmin vəziyyətə geniş təhlil vermək fikrində deyiləm. Sadəcə olaraq bəzi məsələlərə toxunub, öz fikirlərimizi sizə çatdırmaq, eyni zamanda bəzi məsələləri aydınlaşdırmaq istəyirəm.

Azərbaycan vətəndaşlarına məlumdur ki, mən Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilən gündən indiyə qədər, indi isə prezident vəzifəsində olduğum zaman Ermənistanla Azərbaycan arasında gedən müharibəyə son qoyulması, işğal edilmiş torpaqlarımızın geri qaytarılması və ümumiyyətlə, bu hərbi münaqişənin kəsilməsi tərəfdarı olmuşam. Münaqişənin həll edilməsində sülh yoluna üstünlük vermişəm və bu məsələlərin danışıqlar yolu ilə həll olunmasını daha lüzumlu bilmişəm. Milli Məclisin iclaslarında bu barədə dəfələrlə fikir mübadiləsi olubdur və Milli Məclis, Azərbaycan ictimaiyyəti bu siyasəti bəyənmişdir. Biz bu yolla getməyə çalışmışıq.

Məlumdur ki, biz bu siyasəti həyata keçirərək, bu yolla gedərək, birinci növbədə beynəlxalq təşkilatların imkanlarından istifadə etməyə çalışmışıq. Cəsarətlə deyə bilərəm ki, bu sahədə çox səmərəli və çox fəal tədbirlər görmüşük. Birləşmiş Millətlər Təşkilatının, onun Təhlükəsizlik Şurasının, ATƏM-in, onun çərçivəsində olan Minsk qrupunun imkanlarından maksimum istifadə etməyə çalışmışıq. Bununla yanaşı, böyük dövlətlərin təşəbbüslərindən və vasitəçilik imkanlarından da istifadə etməyə səy göstərmişik. ABŞ-ın, Rusiyanın, Türkiyənin bu barədə təşəbbüslərindən və imkanlarından istifadə etməyə çalışmışıq. Həmişə də hesab etmişik ki, bu yolla getsək, müvəffəqiyyət qazanarıq. Təəssüf ki, bu görülən tədbirlər indiyə qədər lazımi nəticə verməyib. Lakin bu o demək deyildir ki, biz həmin yoldan çəkinirik.

Bu məqsədlərə nail olmaq üçün biz, şəxsən mən və mənim məsləkdaşlarım Ermənistan Respublikasının rəhbərliyi ilə danışıqlar aparılmasını da lüzumlu hesab etmişik. Dağlıq Qarabağda olan qüvvələrlə bilavasitə əlaqəyə girib, onlarla danışıqlar aparıb, məsələlərin sülh yolu ilə həll olunmasına da səy göstərmişik və bu barədə də sizə məlum olan danışıqlar aparılmışdır. Bunların nəticəsində atəşin kəsilməsi və atəş kəsildiyi dövrdə müəyyən danışıqlar aparılması, məsələnin sülh yolu ilə həll olunması, erməni silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş torpaqlarından çıxması məsələlərini qəti surətdə qoymuşuq.

Sizə məlumdur ki, uzun müddət atəş kəsilmişdi və biz bu vaxt danışıqlar aparırdıq. Sazişə görə, atəşin kəsilməsi noyabrın 5-nə qədər davam etməli idi. Təəssüf ki, atəşin kəsilməsi pozulmuşdur. Bu, ilk dəfə oktyabrın 10-da, yəni mən Azərbaycan Respublikasının prezidenti vəzifəsinə başladığım gün olmuşdur. Cəbrayıl rayonu ərazisində erməni silahlı qüvvələri tərəfindən, bizim silahlı qüvvələrimiz tərəfindən hərbi əməliyyatlar aparılmışdır. Bundan sonra danışıqlar nəticəsində atəşin yenə də kəsilməsinə nail olmuşduq. Fəqət, oktyabrın 21-dən bu saziş yenə də pozulmuş, erməni silahlı qüvvələri şiddətli hücumlara keçmiş və əvvəllər Füzuli, Cəbrayıl rayonlarının şimal hissə-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ləri işğal olunmuşdusa, cənub bölgəsindəki qəsəbələr və kəndlər, o cümlədən İranla həmsərhəd olan hissə Azərbaycan Respublikasının nəzarəti altında olduğu halda, indi bunlar da əldən getmişdir.

Daha sonra Zəngilan rayonuna hücumlar olmuşdur. Bu hücumları dayandırmaq və Zəngilan rayonunu müdafiə etmək üçün lazımi tədbirlər görmüşdük. O vaxt İran İslam Cümhuriyyətinin prezidenti ağayi Haşimi-Rəfsəncani də burada idi. İran rəhbərliyi də bu işə qoşuldu. Ermənistan rəhbərliyi ilə danışıqlar aparıldı, atəşin kəsilməsi və Zəngilana hücumların dayandırılması haqqında təkliflər verildi. Eyni zamanda Zəngilanın müdafiə olunması üçün lazımi tədbirlər görüldü. Lakin bunlar da nəticə vermədi. Zəngilan rayonundan da həm əhali, həm də ordu çıxdı.

Bunlar hamısı, şübhəsiz ki, bizdə çox böyük narahatlıq hissi doğrurubdur Birinci növbədə ona görə ki, torpaqlarımızın bir qismi də işğal edilib, bu ərazidə olan yaşayış məntəqələrimiz dağıdılıbdır. Respublikaya yenə də böyük zərbə vurulubdur On minlərlə adam qaçqın düşübdür. Şübhəsiz ki, bunlar həm bizi, həm də Azərbaycan Respublikasının ictimaiyyətini narahat edir. Biz bunların heç birinə biganə qalmamışıq və biganə deyilik.

Bu dövrdə biz gecə-gündüz həmin işlərlə məşğul olmuşuq, lazımi tədbirlər görməyə, mövcud imkanların hamısından istifadə etməyə çalışmışıq. Lakin bu, gözlənilən nəticələri verməyib. Bunun səbəblərini indi sizin qarşınızda tam təhlil etmək fikrində deyiləm. Ancaq onu qeyd etmək lazımdır ki, bizim məğlubiyyətlərimiz bir tərəfdən Azərbaycan Ordusunun döyüşən hissələrinin bir çox yerlərdə gücsüzlüyü nəticəsində, döyüş qabiliyyətinin olmaması nəticəsində baş vermiş, digər tərəfdən, bu ərazidə yaşayan vətəndaşların, bizim soydaşlarımızın öz torpaqların qorumaq, saxlamaq əvəzinə dərhal qaçmaq, yurdlarını qoyub didərgin düşmək əhval-ruhiyyəsi ilə əlaqədar olmuşdur.

Bu heç də sirr deyildir ki, son hadisələr zamanı Cəbrayıl rayonunun ərazisində, Horadizdə və başqa məntəqədərdə əsgərlərimiz, döyüşçülərimiz öz mövqelərini vuruşmadan, yerli əhalidən qabaq tərk etmişlər. Zəngilandakı vəziyyətə nəzarət edərək, orada olan silahlı qüvvələrimizin rayonu müdafiə etməsi üçün dəfələrlə tədbirlər görərək müşahidə etdik ki, həmin döyüşçülərin də çox hissəsi müdafiə edəcəyi yerləri döyüşsüz, müqavimətsiz, heç bir atəş açmadan tərk edib geriyə, İran ərazisinə qaçmağa üstünlük vermişdir.

Bunların hamısı bizi böyük dərdə salan hallardır. Bunları etiraf etmək bizdən ötrü ağırdır, çətindir. Ancaq nə qədər acı olsa da, bu, həqiqətdir.

Son vaxtlar torpaqlarımızın bir qisminin işğal olunması bəzi adamlar tərəfindən belə qiymətləndirilir ki, bu, yəqin ki, Azərbaycanın müdafiə qabiliyyətinin olmamasının, yaxud bu işdə respublika rəhbərliyinin lazımi tədbirlər görməməsinin nəticəsidir. Lakin bu, belə deyildir. Uğursuzluqlar, məğlubiyyətlər beş ildən artıq müddətdə Azərbaycanda gedən proseslərin məntiqi nəticəsidir. Ermənistan tərəfindən, erməni silahlı qüvvələri tərəfindən Azərbaycana təcavüzlər 1988-ci ilin fevralından eti-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

barən başlanmışdır. Altı ilə yaxındır ki, biz bu vəziyyətdəyik. Təəssüf ki, bu müddətdə Azərbaycan Respublikasını idarə edən şəxslər, orqanlar dövlətimizi qorumaq, saxlamaq, onun ərazi bütövlüyünü təmin etmək üçün lazımi tədbirlər görməmiş, nəticədə təcavüzkar qüvvələr dalbadal irəliləmiş, respublikamızın mövqeləri itirilmiş və bütün bunlar indi bizi bu faciəli vəziyyətə gətirib çıxarmışdır.

Bunun bir hissəsi Azərbaycan Respublikası Sovetlər İttifaqının tərkibində ikən olmuşdur. Ancaq iki ildən artıqdır ki, Azərbaycan Respublikası müstəqil bir dövlətdir. Bu iki il müddətində müstəqil dövlətimiz öz müdafiə qüvvələrini, öz ordusunu yaratmalı idi. Bundan ötrü Azərbaycan Respublikasının bütün imkanları vardı. Ordunu bir gündə, beş gündə, bir ayda, üç ayda yaratmaq mümkün deyil. Ancaq iki il, üç il müddətində ordu da yaratmaq, Azərbaycanın etibarlı müdafiəsini təşkil etmək və ərazi bütövlüyünü də təmin etmək mümkün idi. Lakin bu fürsətlər əldən verilib və Azərbaycanın müdafiə imkanları get-gedə möhkəmlənmək əvəzinə zəifləmişdir. Ayrı-ayrı dəstələr, qruplar, yaxud batalyonlar tərəfindən aparılan ayrı-ayrı döyüşlərin hamısı pərakəndə şəkildə olmuş, müxtəlif qüvvələrə, məqsədlərə xidmət etmiş, böyük bir hərbi strategiya, müdafiə strategiyası əsasında, hərbi nizam-intizam əsasında görülən tədbirlər olmamışdır. Belə hallar bəzən Azərbaycan ictimaiyyəti arasında cürbəcür əsassız təbliğatların yayılmasına gətirib çıxarmışdır. Əslində isə Azərbaycanın müdafiə qüvvələri, dediyim kimi, günbəgün, aybaay zəifləmişdir.

Mən indi bütün bunlara qiymət vermək istəmirəm. Ancaq bir neçə sözlə Azərbaycan vətəndaşlarını, xalqımızı agah etmək istəyirəm ki, haradan başlamışıq, nə üçün bu günə gəlib düşmüşük, böyük potensialı, imkanları, 7 milyon əhalisi olan Azərbaycan Respublikası nə üçün indi ağır vəziyyətə düşmüşdür.

Təəssüf ki, bütün bu dövrdə Dağlıq Qarabağ məsələsindən Azərbaycanda bir çox qruplar tərəfindən hakimiyyət uğrunda mübarizə üçün istifadə edilmişdir. Ayrı-ayrı qüvvələr, siyasi qruplar, ayrı-ayrı şəxslər Azərbaycanın bu faciəli, vəziyyətində biri o birinə üstün gəlib, üstün gəlməyə cəhd göstərib, biri digərini yıxaraq onun yerinə keçmək istəmişdir. Belə bir şəraitdə Azərbaycanın aqibəti, xalqımın ümumi vəziyyəti unudulub, müxtəlif qüvvələrdən hər biri baş verən proseslərdən istifadə edərək hakimiyyətə gəlmək istəmişdir. 1992-ci ildə hakimiyyətə gələn qüvvələr də elə Qarabağ problemindən istifadə etmişdilər. İndi də ayrı-ayrı siyasi qüvvələr yaranmış fürsətdən öz məqsədləri, siyasi hikkələri üçün istifadə etməyə çalışırlar.

Əgər son dövrə nəzər salsaq, bu ilin əvvəlindən götürsək, Azərbaycan müdafiə imkanlarının böhranı, dövlət rəhbərliyinin böhranı o vaxtdan başlanmışdır. Xatırlayın, bu ilin fevralında Azərbaycanda dərin böhran əmələ gəldi, respublikanın rəhbərliyində toqquşmalar, ayrı-ayrı qrupların qarşıdurması və bir-biri ilə mübarizəsi, Xalq Cəbhəsinin verdiyi bəyanatlar və cürbəcür rəqabətlər Azərbaycan Respublikasıiın müdafiə qüvvələrini çox zəiflətdi. Bu qüvvələr birləşmək, respublikanı qorumaq əvə-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

zinə, bir-biri ilə toqquşmağa başladılar. Nəticədə martın axırında Kəlbəcər rayonu əldən getdi.

Bu ilin İyun ayını yada salın. Respublika dərin hakimiyyət böhranı keçirirdi. Azərbaycanı bürümüş ictimai-siyasi, iqtisadi böhranlara yenisi də əlavə olundu - dövlət rəhbərliyi böhranı baş verdi. Bəzi qüvvələr öz şəxsi məqsədlərinə nail olmaq üçün respublikanı parçalamaq səviyyəsinə gətirib çıxardılar. Ordu parçalandı. Bunları unutmaq lazım deyil, Silahlı qüvvələrin bir hissəsi Gəncə tərəfdə, bir hissəsi Qarabağda, bir hissəsi Lənkəran zonasında qaldı. O vaxt Lənkəran zonasında milli-etnik problemlər qabarıq şəkildə üzə çıxdı. Azərbaycan vətəndaş müharibəsi səviyyəsinə gəlib çatdı. Bir tərəfdən "Talış-Muğan Respublikası" yaratmaq istəyən quldur dəstələri, ikinci tərəfdən süni surətdə "ləzgi problemini" ortaya atan adamlar, üçüncü tərəfdən guya başqa etnik qrupların mənafeyini müdafiə edənlər - bunların hamısı dövlət rəhbərliyinin siyasətində böyük səhvlərin nəticəsipdə, eyni zamanda həmin rəhbərliyin daxilində gedən çəkişmələrin nəticəsində, yenə də hakimiyyət uğrunda mübarizə nəticəsində meydana çıxdı. Bu da, şübhəsiz, Azərbaycanda ordunun yaradılmasına və möhkəmlənməsinə mane oldu, hətta mövcud qüvvələrin dağılmasına, parçalanmasına gətirib çıxardı.

İyun hadisələri dövründə Gəncədə, Bakının yaxınlığında qardaş qanı töküldü, adamlar bir-birinə atəş açdılar, tələf oldular. Nə üçün? Hakimiyyət uğrunda mübarizə üçün, ayrı-ayrı qüvvələrin öz şəxsi məqsədlərinə nail olması üçün. Bir daha qeyd edirəm ki, o zaman Azərbaycan vətəndaş müharibəsi ərəfəsinə gəlib çatmışdı.

Bu gün deyə bilərik ki, biz Azərbaycanı həmin təhlükədən qurtara bildik. Məhz həmin dövrdə mən böyük təkidli dəvətlər nəticəsində Naxçıvandan Bakıya gəldim. Mən heç vaxt hakimiyyət üçün, vəzifə üçün mübarizə aparmamışam, bu niyyətdə də olmamışam. Ancaq Azərbaycanın belə ağır dövründə dəvət olundum və gəldim. Azərbaycan xalqının iradəsi bir yerə toplandı, vətəndaş müharibəsi təhlükəsinip qarşısı alındı, lazımi tədbirlər görüldü. Lakin ayrı-ayrı qüvvələr yenə də respublikanı parçalamaq, ölkədəki ictimai-siyasi qrupları bir-birinə qarşı qoymaq, beləliklə də Azərbaycanın müdafiə imkanlarını zəiflətmək istədilər. Onlar bu əməlləri indi də davam etdirirlər.

Əgər son iki il ərzində, Azərbaycaın müstəqil dövlət olduğu dövrdə respublikanı etibarlı müdafiə etmək üçün lazımi silahlı qüvvələr yaransaydı, daxili sabitlik olsaydı və bütün qüvvələr torpaqlarımızı qorumağa, ərazi bütövlüyümüzü təmin etməyə yönəldilsəydi, indi bu günə düşməzdik. Son aylarda cəbhə bölgələrindəki uğursuzluqlar, bəzi rayonların erməni silahlı qüvvələri tərəfindən işğal olunması bu böhran proseslərinin, daxildəki çəkişmələrin, toqquşmaların, rəqabətin nəticəsində baş vermiş böhranın məntiqi yekunudur.

Bu qısa müddətdə istənilən səviyyədə ordu yaratmaq, Azərbaycanı müdafiə etmək çox çətin vəzifədir. Çünki çox şey pozulduğu kimi, müdafiə qüvvələri də pozulmuşdur. Əgər son həftələrlə bizim minlərlə döyüşçümüz öz mövqelərini vuruşmadan qoyub qaçıb-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sa, bunu necə qiymətləndirmək olar? Demək, orduda nizam-intizam, tələbkarlıq, qanun-qayda olmamışdır. Eyni zamanda, bizdə olan məlumata görə, ordu hissələrinin bəzilərinin döyüşsüz, müqavimətsiz geri çəkilməsi, bəzən isə yerli əhalini vahiməyə salaraq, qorxudaraq vaxtından əvvəl öz yerlərindən çıxarılması ayrı-ayrı cinayətkar dəstələrin, müxtəlif siyasi qrupların yenə də şəxsi mənafelərinə, məqsədlərinə nail olmaq üçün apardıqları təxribatların nəticəsidir. Bunu demək üçün əlimizdə çox əsaslı dəlillər var.

Ona görə vəziyyətə düzgün qiymət verilməlidir və heç kəs belə düşünməməlidir ki, guya bu vəziyyət ancaq son vaxtlarda yaranmışdır. Yox. Bu, Azərbaycanda gedən proseslərin, həm ordu içərisində, həm siyasi qüvvələr arasında gedən proseslərin məntiqi nəticəsidir, indiyə qədər Azərbaycanda silahlı qüvvələrin təşkil olunmamasının, Müdafiə Nazirliyində, ordu hissələrində yol verilən kobud səhvlərin, bəzən isə cinayət hallarının, xəyanətlərin nəticəsidir. Belə hesab edirəm ki, biz bu məsələlərə doğru-düzgün, obyektiv münasibət bəsləməliyik və heç kəs yaranmış vəziyyətdən öz şəxsi məqsədlərinə nail olmaq üçün istifadə etməməlidir. Bir daha qeyd edirəm, bu münlərlə biz gecə-gündüz bu məsələlərlə məşğul olmuşuq. Ola bilər, başqa məsələlərlə məşğul olmağa vaxt tapmamışıq.

Dünən biz yaranmış vəziyyəti Müdafiə Şurasında müzakirə etdik, ciddi tədbirlər gördük. Müdafiə nazirinin birinci müavini, sərhəd bölgələrində hərbi hissələrə rəhbərlik edən general-mayor Z.Rzayev vəzifəsindən kənarlaşdırıldı. Onun general rütbəsindən məhrum edilməsi məsələsi də müzakirə olundu. Ancaq keçmiş xidmətlərini nəzərə alaraq, bu qərarı qəbul etmədik, yalnız onu vəzifəsindən götürdük. Eyni zamanda tapşırıq verdik ki, bu məsələlər daha dərindən təhlil olunsun.

Eyni zamanda qeyd olundu ki, Nazirlər Kabineti, onun rəhbərliyi son aylarda müdafiə məsələlərinin təşkilini öz üzərinə götürsə də, lazımi tədbirlər görməmiş, ordunun təchizatı məsələləri ilə yaxından məşğul olmamış, ordunun təşkili işində səhvlərə yol vermişdir. Bununla əlaqədar onlara xəbərdarlıq edilmişdir. General Nəcməddin Sadıqov baş qərargahın rəisi təyin olunmuşdur. Başqa tədbirlər də görülür.

Ancaq güman etmirəm ki, son hadisələrə qiymət verməyimiz bu tədbirlərlə qurtarır. Xeyr. Hüquq-mühafizə orqanlarına, prokurorluq orqanlarına göstəriş vermişik ki, ordu hissələrində xəyanətkar, cinayətkar hərəkət etmiş adamlar haqqında lazımi tədbirlər görülsün. Bu şəxslərin hamısı həm qanun qarşısında, həm də xalq qarşısında cavab verməlidir.

Dünənki müzakirənin gəlişində məlum olan bir məsələni də qeyd etmək istəyirəm. Son günlərdə işğal olunan ərazilərdəki ordu hissələrində xidmət edən adamların əksəriyyəti həmin rayonların vətəndaşlarıdır. Məsələn, Zəngilan rayonundan çıxan hərbi hissədə əsgərlərin, zabitlərin əksəriyyəti yerli adamlardır. Onlar döyüşmək əvəzinə, öz torpaqlarını müdafiə etmək əvəzinə, atəş səsi eşidən kimi tez-tələsik ailələrini çıxarmaqla və başqa işlərlə məşğul olmuşlar. Şübhəsiz ki, dinc əhali döyüş böl-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

gələrindən çıxarılmalıdır, bunun üçün lazımi tədbirlər görülməlidir. Lakin bu o demək deyildir ki, döyüşçü öz mövqeyini tərk edərək yalnız özü və ailəsi haqqında düşünsün, qaçmağa çalışsın. Qeyd etmək istəyirəm ki, bu rayonların ərazisində bizim vətəndaşlarımız, öz torpaqlarını müdafiə etməyə qadir olan cavanlar da var idi. Onların da çoxu vaxtından əvvəl qaçıb getmişdir. Əgər adam öz evini, öz ocağını, öz torpağını, yaşayış yerini qorumursa, onun əvəzinə kim gəlib qoruyacaqdır?

Bəli, Azərbaycan xalqı qəhrəman xalqdır. Onun tarixində igidlik ənənələri həmişə güclü olmuşdur. Xalqımız öz qəhrəmanları ilə daim fəxr etmişdir. Azərbaycan xalqının qüdrəti bu gün də itməmişdir. Ancaq qeyd etdiyim kimi, son illərdə gedən mənfi proseslər insanların bir çoxunun mənəviyyatını pozmuş, onların bəzilərində vətənpərvərlik hissini tamamilə kütləşdirmişdir. Vətəni qorumaq, torpağa bağlı olmaq hissini, "ölsəm də, öz torpağımda şəhid olum" hissini çoxları itirmişdir. Bu, onların günahı deyil, onlara rəhbərlik edən adamların təqsiridir.

Ordumuzda narahatlıq doğuran, adamı dəhşətə gətirən başqa hallar da var. Mən bunu sizə çox böyük təəssüflə, həyəcan hissi ilə deyirəm, lakin bu həqiqəti etiraf etməyə məcburam. Bütün bu proseslər, bir neçə il ərzində yığılmış bu günahlar, nöqsanlar, çatışmazlıqlar, ayrı-ayrı yerlərdə mənəviyyat pozğunluğu, cinayətkarlığın artması, cinayətkar ünsürlərin üstün mövqe tutması - bunların hamısı bütövlükdə qəhrəman, mərd, mətanətli, cəsarətli Azərbaycan xalqını belə ağır, çətin vəziyyətə salmışdır.

Ancaq bu o demək deyildir ki, biz çıxılmaz vəziyyətdəyik. Xeyr. Bu vəziyyətdən çıxmaq üçün Azərbaycan xalqının qüdrəti və imkanları var. Lakin bundan ötrü gərək xalq bir məqsədə xidmət etsin. Torpağımızı, Azərbaycanın ərazi bütövlüyünü qorumaq, onun suverenliyini, müstəqilliyini qorumaq hər bir vətəndaş üçün, hər bir azərbaycanlı üçün ən ümdə, ən ülvi, ən başlıca vəzifə olmalıdır. Qalan hisslər, duyğular, qalan cəhdlər hamısı bir kənara qoyulmalıdır. Ancaq indiyə qədər biz bunu etməmişik.

Yəqin indi hamı başa düşür ki, Azərbaycan çox gərgin vəziyyətdədir. Ona görə də, bir daha qeyd edirəm, bu barədə lazımi tədbirlər görüləcəkdir. Müdafiə Nazirliyinin rəhbərliyində aparılmış dəyişikliklər və başqa tədbirlərimiz şübhəsiz ki, öz nəticəsini verməlidir. Biz müdafiə qüvvələrimizi hər cəhətdən gücləndirməliyik.

Hətta belə ağır vəziyyətdə də mən yenə atəşin dayandırılması, sülh danışıqları aparılması, məsələnin sülh yolu ilə həll olunması və işğal edilmiş torpaqlarımızın bu yolla geri qaytarılması tərəfdarıyam. Mənim mövqeyim belədir və ona əsaslanaraq ayrı-ayrı dövlətlərlə əlaqə saxlayıram. Ermənistanla bəzi danışıqlar aparırıq. Bu mövqeni gələcəkdə də davam etdirəcəyik. Eyni zamanda biz təkcə buna ümid bəsləmirik. Azərbaycanın gərək etibarlı müdafiəsi olsun. Biz işğalçılıq, qəsbkarlıq siyasəti yeritmirik. Biz sadəcə olaraq torpaqlarımızı özümüzə qaytarmalıyıq, işğal edilmiş ərazilərimizi geri almalıyıq, Azərbayca-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

nın ərazi bütövlüyünü təmin etməliyik. Bu, haqq işidir. Biz bu haqq yolda bütün imkanlardan istifadə etməliyik.

Müdafiə qüvvələrini möhkəmləndirmək üçün Azərbaycanda bütün mənəvi-psixoloji vəziyyət dəyişməlidir. İndiki əhval-ruhiyyə ilə Azərbaycanın bütövlüyünü təmin etmək mümkün olmayacaqdır. Bir tərəfdə torpaqlarımız əldən gedib, yüz minlərlə adam qaçqın düşüb, ağır vəziyyətdə, yersiz-yurdsuz, çadırlarda (bəzən bunlar da çatışmır) yaşayır, o biri tərəfdə isə Azərbaycan torpağında yaşayan, onun çörəyini yeyib suyunu içən, havası ilə nəfəs alan, sərvətlərindən istifadə edən adamlar eyş-işrət içərisindədirlər. Hələlik onlarda Azərbaycanı qorumaq, müdafiə etmək əhval-ruhiyyəsi yoxdur. Şübhəsiz ki, belə vəziyyətdə biz bu uğursuzluqların təbii olduğunu qeyd etməliyik. Ona görə də gərək bütün qüvvələrimizi toplayaq.

İndi Müdafiə Nazirliyi lazımi tədbirlər görür, səfərbərlik aparıdır. Bu, ümumi səfərbərlik deyil, adi söfərbərlikdir. Sizə xatırlatmaq istəyirəm ki, Azərbaycan Sovetlər İttifaqının tərkibində olanda hər il Sovet Ordusuna 60 min nəfər çağırışçı yola salınırdı. İndi, Azərbaycan müstəqil bir dövlət olanda nə üçün bunu etmək mümkün olmasın? Nə üçün gənclərin bir hissəsi çağırışdan boyun qaçırır, orduda xidmət etmək istəmir, valideynləri isə cürbəcür vasitələrlə onları hərbi xidmətdən azad etdirirlər? Bəziləri orduda xidmət etməli olan oğlanlarını Azərbaycandan kənara, başqa ölkələrə göndərmişlər. Bəs onda Azərbaycanı kim qoruyacaq, onun müstəqilliyini kim təmin edəcəkdir? İndi adamları ayağa qaldırmaq, milli-vətənpərvərlik hissini yüksəltmək, xalqı səfərbər etmək əsas vəzifələrimizdən biridir.

Mən bu gün televiziya ilə verilən kiçik bir xəbəri dinlədim. 1941-ci ildə Böyük Vətən müharibəsinin ilk günündə Azərbaycandan 18 min nəfər könüllü yazılaraq cəbhəyə getmişdi. O vaxt Azərbaycanın əhalisi cəmi üç milyon nəfər idi. İndi nə üçün bunu elə bilmirik? O zaman Sovetlər İttifaqını qorumaq üçün cəbhəyə gedirdilər. İndi isə doğma torpağımızı, öz dövlətimizi, müstəqil Azərbaycanı qorumaq üçün adamları səfərbər edə bilmirik.

Doğrudur, son günlər bizə məlumatlar gəlmişdir ki, bəzi yerlərdə hərbi komissarlıqlar, polis idarələri bu işdə də əyintilərə yol vermişlər. Bu əyintilər nədən ibarətdir? Bir tərəfdən onlar adamları qanunsuz toplayaraq çağırış məntəqələrinə aparır və orada qeyri-qanuni hallara yol verirlər. Bu isə xalqın narazılığına səbəb olub. Biz dünən Müdafiə Şurasında müzakirə zamanı belə halları pislədik. İkinci tərəfdən isə xəbər verirlər ki, adamları yığıb çağırış məntəqəsinə aparırlar, səhəri gün burada həmin adamların cəmi 20 faizi qalır, 80 faizi yox odur. Bu, nə təhər odur? Rüşvət alıb buraxırlar.

Azərbaycanda rüşvətxorluq indi ən dəhşətli bir haldır. Həyatın hər sahəsində rüşvətxorluq baş alıb gedir. Azərbaycan vətəndaşları, xüsusilə 70-ci illərdə fəaliyyət göstərən adamlar bilirlər ki, mən o dövrdə respublikaya rəhbərlik edəndə rüşvətxorluqla mübarizəni fəaliyyətimin əsas istiqaməti kimi qəbul et-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mişdim. Azərbaycana rəhbərlik etdiyim 14 il ərzində fəaliyyətimin çox hissəsini rüşvətxorluqla mübarizəyə sərf etmişdim. Doğrudur, mən Azərbaycandan gedəndən sonra, xüsusən də istefaya çıxandan sonra bəzi adamlar həmin rüşvətxorları, oğruları milli qəhrəman səviyyəsinə qaldırdılar, onları 70-ci illərin guya qurbanları hesab etdilər. Nəticədə nə oldu? Azərbaycanda rüşvətxorluq on qat, iyirmi qat, yüz qat artdı. İndi bu vəziyyət bütün xalqı dəhşətə gətirir. Elə bu səfərbərlik hadisəsində də. Hərbi komissarlıqların əksəriyyətində rüşvətxorluq halları var.

Kim məndən inciyirsə, qoy incisin, həqiqəti demək lazımdır. Heç belə iş olarmı? Rüşvət verən, öz oğlunu çağırışdan azad edən adam Vətən haqqında, torpaq haqqında düşünürmü? Yaxud da ki, rüşvət alıb, cinayət yolu ilə cibini pulla dolduran adam Vətən haqqında, torpaq haqqında, Azərbaycanın müstəqilliyi haqqında düşünürmü? Bunların hamısı aradan götürülməlidir. Biz bu sahədə ciddi tədbirlər görəcəyik. Mən hamıya xəbərlarlıq edirəm və bildirmək istəyirəm ki, biz bu hallara dözməyəcəyik. Lakin biz nə qədər mübarizə aparsaq da, - mən bunu öz həyat təcrübəmə əsasən deyirəm, - əgər insanların mənəviyyatında dəyişiklik olmasa, pozulmuş mənəviyyat bərpa edilməsə, insanlarda vətənpərvərlik, namus, şərəf, qeyrət hissi baş qaldırmasa, biz heç nə edə bilmərik.

Buna görə də sizə müraciət edirəm. İndi bizim ordumuz yaranmalı və qurulmalıdır. Bir də qeyd edirəm, ordumuz ancaq Azərbaycanı müdafiə etmək məqsədi daşıyır. İşğalçılıq məqsədi daşımır. Bizim işimiz haqq işidir, gərək hər bir vətəndaş bunu özünün şərəfli borcu kimi qəbul etsin. Kim özü orduda qulluq edə bilirsə, qoy könüllü surətdə getsin. Kim özü qulluq edə bilmirsə, yanındakıları başa salsın ki, gedib orduda xidmət etmək lazımdır. Yaxud əgər özü orduda qulluq edə bilmirsə, fikirləşsin ki, orduya necə kömək etmək lazımdır. İndi bunların hamısı ən zəruri vəzifələrdir. Bütün xalqa, Azərbaycan vətəndaşlarına müraciət edirəm ki, bu tədbirlərin həyata keçirilməsində fəal iştirak etsinlər.

Azərbaycan böyük təhlükə altındadır. Lakin biz bu təhlükənin qarşısını ala bilərik, almalıyıq da. Hər kəs öz vəzifəsini başa düşməlidir. Polis orqanları, hərbi komissarlıqlar, başqa hüquq-mühafizə orqanları, prokurorluq orqanları qanun-qayda yaradılması üçün, adamların qanuna riayət etməsi üçün lazımi tədbirlər görməlidirlər. Amma bunun üçün gərək həm polis, həm prokurorluq orqanlarında, həm hərbi komissarlıqlarda, həm də başqa sahələrdə, ordumuzun zabit heyətində, yüksək təbəqələrində mənəviyyatca saf adamlar olsunlar. Əgər belə olmasa, onlar öz vətəndaşlıq, azərbaycanlılıq, vətənpərvərlik məsuliyyətini hiss etməsələr, bu vəzifələri yerinə yetirə bilməyəcəklər.

Bəli polis, prokurorluq orqanlarına, hərbi komissarlıqlara böyük səlahiyyətlər verilib. Ancaq bu səlahiyyətlərdən yalnız və yalnız dövləti möhkəmləndirmək, nizam-intizamı gücləndirmək, ordunu qurmaq, müdafiə qüvvələrini möhkəmləndirmək, ərazi bütövlüyümüzü təmin etmək üçün istifadə etmək lazımdır. Şəxsi məqsədlər bir yana atılmalıdır. İndi hər şey cəbhə üçün, müda-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

fiə üçün olmalıdır. 1941-45-ci illər müharibəsi dövrünü bir daha yadınıza salın. O dövrü yaşayan adamlardan biri də mənəm. O vaxt insanlar ac da, çılpaq da qalırdılar, çox şeydən məhrum idilər. Lakin bir şey hamı üçün ümdə idi, əsas vəzifə idi: cəbhəyə, orduya kömək etmək, Vətənin müdafiəsini təşkil etmək. İndi də hamı belə etməlidir, indi də belə olmalıdır.

İndi biz respublikamızda iqtisadiyyat sahəsində islahatlar keçiririk. Bazar iqtisadiyyatı əsas yolumuzdur, sərbəst İqtisadiyyata böyük meydan vermişik və bu yolla da gedəcəyik. Lakin bu o demək deyildir ki, bəzi adamların çıxışlarında, bizə gələn məktublarda deyildiyi kimi, Bakıda cavan oğlanlar alver eləsin, kommersiya mağazalarında otursun, eyş-işrətlə məşğul olsun, xalqımızın bir hissəsi - onsuz da ağır vəziyyətdə, kənd rayonlarında yaşayan hissəsi isə gedib torpaqları müdafiə etsin. Bu torpaq hamımızındır - təkcə orada yaşayan adamların, təcavüzə məruz qalanların deyil, bütün Azərbaycanın torpağıdır. Hesab edirəm ki, bizim vətəndaşlarımız, ictimai-siyasi təşkilatlarımız məni düzgün başa düşərlər. Bir tərəfdə restoranlarda çalğı, həddindən artıq pullu adamların cürbəcür kef məclisləri, digər tərəfdə isə şəhidlər, cəbhədə vuruşanlar, qaçqın düşüb ağır vəziyyətdə yaşayanlar. Yox, hamı bərabər yaşamalıdır. O adamların hamısı bu işlərini qoyub cəbhəyə getməlidir. Ümumiyyətlə, indi Azərbaycanda hamıda Vətəni müdafiə əhval-ruhiyyəsi olmalıdır. Mən bütün vətəndaşları bu yola dəvət edirəm. Kim bu yolla gedəcəksə, o, xalqını sevən, Vətəninə sədaqətli olan adamdır. Kim bizim əxlaqımıza, mənəviyyatımıza, milli ənənələrimizə zidd olan yollarla gedəcəksə, o cür həyat tərzi ilə yaşayacaqsa, onların Azərbaycanda yaşamaq hüququ yoxdur.

Hətta bəzi hərbçilər də mənə deyirlər ki, bu ağır vəziyyətdə Azərbaycanı atıb başqa ölkələrə gedən, vəziyyət dəyişdikdən sonra geri qayıtmaq istəyən adamları respublikanın vətəndaşlığından məhrum etmək lazımdır, onların Azərbaycana qayıtmasına imkan verilməməlidir. Bu təkliflərdə həqiqət var. Həmin təklifləri irəli sürənlər Azərbaycana canı yanan adamlardır. Güman edirəm ki, mənim bu sözlərimi düzgün başa düşəcəksiniz.

Biz çoxlu məktub alırdıq, bizə xeyli müraciətlər də odur. Əhalinin əksər hissəsi qanun-qaydanı möhkəmlətməyi, tələbkarlığı artırmağı, adamları nizam-intizama tabe etməyi, qanunları ciddiləşdirməyi istəyir. Bunların hamısı təbiidir. Ürəyi Vətən üçün, xalq üçün, torpaq üçün yanan adam belə düşünür və belə də düşünməlidir. Biz bu sahədə də lazımi tədbirlər görəcəyik.

Qeyd etdim ki, Azərbaycanda 1 milyon nəfərdən çox qaçqın var. Son vaxtlar onların sayı artıb. Qaçqınların bir hissəsi İmişli rayonunun ərazisində yerləşdirilib, İran İslam Cümhuriyyətindən oraya yardım, çadırlar və sair şeylər göndərilib. Qaçqınların bir hissəsi başqa rayonlarda yerləşdirilib, bir hissəsi də Bakıya gəlib, onların hamısına mütləq qayğı göstərilməlidir. Lakin lazımi qayğı yoxdur. Mən yenə də əlli il bundan əvvəlki müharibəni yada salıram. O vaxtlar Sovetlər İttifaqı ərazisinin xeyli hissəsi faşist qoşunları tərəfindən zəbt edilmişdi. Çox adam öz yerlərini tərk etmiş, qaçqın vəziyyətinə düşmüşdü. An-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

caq o vaxtlar həmin adamları ayrı-ayrı ailələr öz himayəsinə götürürdülər. Mən hesab edirəm ki, Bakı şəhərində də, başqa şəhər və rayonlarımızda da hər ailə bir qaçqın ailəsini qəbul etmək imkanına malikdir. Bu, böyük bir xeyirxah iş olardı. Indi bizim rayonlarda, qəsəbələrdə, kəndlərdə və şəhərlərdə bəzi adamların iri evləri, bir neçə otaqlı mənzili vardır. Nə olar ki, qoy onların hərəsi bir qaçqın ailəsini götürüb saxlasın. Bunu etmək lazımdır. Biz qaçqınları yağışın, qarın altında qoya bilmərik. Bununla yanaşı, dünən biz ciddi tədbirlər görmüşük, Nazirlər Kabinetinə göstəriş vermişik. Qaçqınların məskunlaşdığı yerlərdə əlavə tədbirlər görmək niyyətindəyik.

Eyni zamanda belə bir fikir də meydana çıxıb və mən onu sizə çatdırmaq, müraciət etmək istəyirəm. İndi Azərbaycan Respublikasının, məsələn, Bakı, Gəncə, Sumqayıt və başqa şəhərlərində, digər yerlərində həm dövlət müəssisələrimiz var, həm də çoxlu şirkət, iş adamları, kommersiya ilə məşğul olan təşkilatlar var. Bunların bir çoxu son illər müvəffəqiyyətlə fəaliyyət göstərir, xeyli vəsait toplaya bilib. Bəs onlar nə iş görürlər? Onların gördüyü işlərə etirazımız yoxdur. Qeyd etdiyim kimi, biz bazar İqtisadiyyatı, sərbəst İqtisadiyyat yolu ilə gedirik və bunların hamısına imkan verilib və veriləcəkdir. Lakin bununla yanaşı, bax, həmin strukturlar - həm dövlət müəssisələri, həm də xüsusi bölmə, şirkətlər, firmalar, assosiasiyalar, iş adamları qaçqınlara kömək etməlidirlər. Şübhəsiz ki, bu işlər pərakəndə halda ola bilməz. Biz Nazirlər Kabinetinə göstəriş vermişik ki, bu işi mütəşəkkil hala salsınlar.

Lakin elə olmasın ki, kimsə balaca bir iş görməklə, qaçqınlara aparıb yemək verməklə öz vəzifəsini bitmiş hesab etsin. Yaxşı olar ki, qaçqınların müəyyən bir hissəsini ayrı-ayrı şirkətlər, iş adamları və başqaları öz öhdəsinə götürsün, qaçqınların yerləşdirilməsi, maddi cəhətdən təmin edilməsi qeydinə qalsınlar. Ta qaçqınlar öz torpaqlarına qayıdana qədər. Əlbəttə, onlara bundan sonra da kömək edilməlidir. Çünki qaçqınlar öz yurdlarına qayıtdıqdan sonra çətinlikləri çox olacaqdır. Axı onların evləri dağıdılmışdır, bu adamlar var-dövlətlərini. itirmişlər. Bu sahədə lazımi işlər görmək lazımdır. Bizdə Qaçqınlar Komitəsi var. Mən onun fəaliyyətini qənaətbəxş hesab etmirəm. O, öz işini genişləndirməlidir. Biz bu sahədə də lazımi tədbirlər görəcəyik.

Mən bütün rayonların, bütün şəhərlərin İcra hakimiyyəti başçılarına, bütün nazirliklərin rəhbərlərinə, bütün iş adamlarına, firma rəhbərlərinə, - hamıya müraciət edirəm ki, gücümüzü, imkanlarımızı toplayıb qaçqınlara lazımi kömək göstərməliyik.

Son vaxtlar baş vermiş hadisələrdən bəzi qüvvələr Azərbaycanda daxili sabitliyi pozmaq üçün istifadə edirlər. Biz bunu görürük. Həmin qüvvələr, birinci növbədə Xalq Cəbhəsinin qüvvələri və başqa qüvvələr orduda təxribatla məşğul olmuş, cəbhəyanı rayonlara gedərək əhalini yalandan qorxudub geri çəkilməyə məcbur etmişlər. Bu qüvvələrin bəziləri rayonların işğal olunmasına qəsdən imkan yaratmağa cəhd göstərmişlər və fürsətdən istifadə edərək öz fəaliyyətini davam etdirməyə can atırlar. Bun-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ların hamısı xəyanətdir. Xalqına xəyanət edən, torpağa xəyanət edən adam əsl xəyanətkardır. Lakin bu, bir adamın işi deyildir, bunlar qruplardır, təşkilatlardır. Bizdə belə məlumatlar var. Azərbaycanın bu vəziyyətə düşməsinin əcac günahkarları olan bu adamlar fürsəti əldən verməyib, itirilmiş mövqelərini geri qaytarmaq, qısas almaq məqsədi güdürlər. Bunun üçün onlar çox çirkin yollara gedirlər və çirkin işlər görürlər. Adamlar arasında cürbəcür təbliğat aparmağa, xalqı çaşdırmağa, ictimai-siyasi sabitliyi pozmağa cəhdlər göstərirlər.

Son günlər alınan məlumatlar göstərir ki, Xalq Cəbhəsinin bəzi dəstələri, bəzi təşkilatlar yerlərdə adamlara silah paylayırlar və silahlı üsyan qaldırmaq fikrinə düşüblər, hakimiyyəti ələ keçirmək niyyətindədirlər. Halbuki hakimiyyət onlarda idi. Amma siz onu saxlaya bilmədiniz. Heç kəs hakimiyyətinizin əldən getməsinə çalışmırdı. Əgər siz bu hakimiyyəti saxlaya bilmədinizsə, özünüz qaçdınızsa, geri çəkildinizsə, buna kim təqsirkardır? Bəs indi nə istəyirsiniz?

Götürək elə həmin iyun hadisələrini. Bu hadisələrin nə üçün və nədən baş verdiyini təhlil etmək istəmirəm. Bu barədə Milli Məclisin qərarı var. Ancaq baş nazir Pənah Hüseynov iyunun 6-da istefa verib, qaçıb, indiyə qədər tapılmır. Ali Sovetin sədri İsa Qəmbərov iyunun 13-də istefa verib. Azərbaycan prezidenti Əbülfəz Elçibəy iyunun 17-də Bakını tərk edərək gedib və indiyədək Kələki kəndində yaşayır. Əgər onlar günahkar deyildilərsə, hakimiyyəti özlərində saxlamaq fikrində idilərsə, nə üçün istefa verdilər, nə üçün qaçdılar? Halbuki hakimiyyət də, dövlət də onların əlində idi. Onlar hakimiyyətdən də, dövlətdən də, bütün imkanlardan istifadə edib Azərbaycanda sabitlik yaratmalı, vətəndaş müharibəsinin qarşısını almalı və silahlı qüvvələri gücləndirib Azərbaycanın müdafiəsini təmin etməli idilər. Ancaq bunu etmədilər. Ona görə etmədilər ki, onlar hakimiyyətə gələn gündən daxildə bir-biri ilə mübarizə aparmaq, bir-birini yıxmaq, bir-birinin vəzifəsini əlindən almaq niyyətləri ilə yaşayır, cürbəcür qanunsuz hərəkətlərə yol verir, xalqda narazılıq yaradırdılar. Ona görə də bu hakimiyyət öz-özünə yıxılıb getmişdir.

Bir sözlə, bu hakimiyyəti onların özləri təhvil verib, özləri çıxıb gediblər, onları heç kəs yıxmayıbdır. Indi bu vəziyyətdə torpağı, Vətəni qorumaq əvəzinə Xalq Cəbhəsinin fürsətdən istifadə edib ara qızışdırması, insanları çaşbaş salması, qaçqın vəziyyətinə düşən adamlardan öz çirkin məqsədləri üçün istifadə edib təxribatlar törətməsi, dövlət orqanlarına qarşı təbliğat aparması nəyə lazımdır? Halbuki Xalq Cəbhəsi torpağı qorumaq, Vətəni qorumaq məqsədilə yaradılmışdı. Demək belə çıxır ki, beş ildən bəri gedən proseslər indi də davam edir. Bunlara son qoymaq lazımdır.

Buna görə də oktyabrın 10-da prezident vəzifəsinin icrasına başlayarkən xalqa müraciətimdə də bildirdim ki, mən prezident kimi Azərbaycan Respublikasında siyasi dünyabaxışından asılı olmayaraq bütün qüvvələri əl-ələ verib Azərbaycanı bu ağır vəziyyətdən çıxarmağa dəvət edirəm. Ola bilsin ki, kiminsə kimdən xo-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

şu gəlmir, birinin bir cür, başqasının ayrı cür dünyagörüşü var, bunların hamısı kənara qoyulmalıdır. Ola bilər ki, tarixi biri bir cür, başqası ayrı cür təhlil etsin, - bunlara son qoyulmalıdır. Indi Azərbaycan üçün bir amal, bir məqsəd var: Azərbaycanı bu ağır vəziyyətdən xilas etmək, onun ərazi bütövlüyünün müdafiəsini təmin etmək. Kimin əlindən nə gəlirsə, bu amal, bu məqsəd naminə etməlidir.

Hamımız üçün bir böyük məfhum var: Azərbaycan Respublikası, Azərbaycan xalqı. Bu məfhumun ətrafında hamı sıx birləşməlidir.

Azərbaycanın müstəqilliyi, müdafiəsi, ərazi bütövlüyü təmin edildikdən sonra kim hansı vəzifəni istəyirsə, gəlib götürsün. Ancaq indi durub vəzifə davası döymək, bu fürsətdən, bu yazıq, məzlum adamlardan, onsuz da ağır bəlaya düçar olmuş insanlardan, qaçqınlardan istifadə edib təbliğat aparmaq, qısas əhval-ruhiyyəsi ilə yaşamaq - bunların hamısı xalqımıza xəyanətdir. Mən başa düşmürəm, nədən ötrü qısas almaq istəyirlər. Ona görə də mən Xalq Cəbhəsinə və başqa siyasi qüvvələrə xəbərdarlıq edirəm ki, bu əməllərindən əl çəksinlər. Azərbaycanın dövlət qanunları qorunacaqdır, Azərbaycan dövləti özünü və respublikanı qorumağa qadirdir. Hesab edirəm ki, bundan hərə özü üçün nəticə çıxarmalıdır. Biz belə hallara yol verməyəcəyik! Bununla əlaqədar mən xalqa, hamıya - bütün siyasi partiyalara, siyasi qüvvələrə, Azərbaycanı sevən, vətəninə hörmət bəsləyən bütün adamlara bir daha müraciət edirəm: hamı qüvvələri toplayıb bir hədəfə vurmalıdır, Azərbaycanı müdafiə etmək, bu ağır vəziyyətdən çıxarmaq lazımdır.

Azərbaycanın İqtisadiyyatında da dağıntılar çoxdur. Mən bunu dəfələrlə demişəm. Hazırda sənayemiz də, kənd təsərrüfatımız da ağır vəziyyətdədir. Bir tərəfdən torpaqların bir hissəsi işğal edilib, digər tərəfdən kənd rayonlarında lazımi işlər görülmədi, məhsul yığılmadı. Əlaqədar nazirliklər üzərlərinə düşən vəzifələri yerinə yetirmədilər, rayon rəhbərləri lazımi işləri görmədilər. İqtisadiyyatda da çətinliklərimiz çoxdur. Ancaq həm sənayedə, kənd təsərrüfatında, həm də adamların təchizatı sahəsində olan çətinlikləri aradan qaldırmaq mümkündür. Xalqımız dözümlü xalqdır, bu ağır vəziyyətə dözəcəkdir. Ola bilər az yesin, ola bilər nəyi isə çatmasın, ola bilər lazımi paltarı olmasın. Lakin torpağı itirmək olmaz. Ona görə də indi bütün qüvvələr cəlb olunmalıdır ki, hamımız birləşək və hamımız Azərbaycanın müdafiəsini təmin edək, yaranmış vəziyyətdən birlikdə çıxaq.

Bu baxımdan hesab edirəm ki, işğal olunmuş rayonların əhalisi də fəaliyyət göstərməlidir. Həmin rayonlarda çox qəhrəman, cəsur adamlar, hörmətli adamlar olubdur Laçın rayonundan da, Kəlbəcər rayonundan da, Dağlıq Qarabağın ərazisindən, Şuşadan, Ağdamdan, Füzulidən, Cəbrayıldan, Qubadlıdan, Zəngilandan olan hörmətli, nüfuzlu şəxslər, bu rayonların əhalisi müdafiə üçün imkanlara malik adamların səfərbər edilməsində bizə kömək etməlidirlər. Bu rayonların əhalisi arasından bizim orduda xidmət etmək imkanı olan adamları gətirib özləri təqdim etməlidirlər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Belə etsələr, səfərbərlikdə buraxılmış səhvlər də yəqin ki, olmaz, yaxud da az olar.

Ona görə də həmin rayonların hörmətli adamlarına, vətəndaşlarına müraciət edirəm. Mən bu rayonların səlahiyyətli nümayəndələri ilə, - özü də beş-on nəfərlə yox, böyük tərkibdə, hər rayondan 500, 600, 700 nəfərlik tərkibdə, - ayrı-ayrılıqda görüşməyə hazıram. Onlarla görüşüb, bu rayonların geri qaytarılması üçün hansı tədbirləri görmək barədə məsləhətləşmək əzmindəyəm və dəvət edirəm ki, bu görüşlər yaxın günlərdə təşkil olunsun. Mən buna hazıram. Eyni zamanda bütün başqa nüfuzlu şəxslərin hamısı ilə, bu işdə iştirak etməyə imkanı olan hər bir adamla görüşməyə hazıram. Bu gün mənə xəbər verdilər ki, böyük bir dəstə - Əfqanıstanda vuruşmuş azərbaycanlı döyüşçülər, təxminən min nəfər adam mənimlə görüşmək üçün müraciət ediblər. Mən onlarla görüşməyə razılıq vermişəm. Onlar Azərbaycanın müdafiəsi üçün vuruşmağa hazırdırlar. Bu, yaxşı təşəbbüsdür. Arzu edərdim ki, belə təşəbbüslər davam etsin. Beləliklə biz müdafiə qüvvələrimizi möhkəmləndirər, Azərbaycanda milli həmrəyliyi, milli birliyi təmin edərik. Ancaq bunlarla yanaşı, bizə gələn məktubların, təkliflərin hamısında bizdən bir şey tələb olunur: qanun-qaydanı möhkəmlətmək, tələbkarlığı gücləndirmək, cinayətkarlığa qarşı mübarizəni ciddiləşdirmək, hüquq-mühafizə orqanlarında qanun-qayda yaratmaq, ordunu möhkəmlətmək, orduya qayğı göstərmək.

Baxmayaraq ki, bəzi səbəblərdən, ya qorxaqlığa görə, yaxud pis niyyətlərə görə ordunun ayrı-ayrı hissələrindən qaçıb gedən adamlar var, biz ordumuza, əsgərlikdə olan adamlara hörmət etməliyik, ordumuzu hörmətlə, qayğı ilə əhatə etməliyik. Mən xalqı buna dəvət edirəm. Bəzi qəzetlər belə məlumat verirlər ki, guya bizim uğursuzluqlarımıza səbəb budur ki, ayrı-ayrı batalyonlar vardı, onlar ləğv edildi. Bunlar hamısı yalan sözdür. Onların necə batalyonlar olduğu məlumdur, çoxusu cinayətkar batalyondur. Onlar cəbhə bölgələriidə yerli əhalini qarət etməklə məşğul olublar. Erməni silahlı qüvvələri ilə əlaqəyə girib, var-dövlətimizi onlara satmaqla məşğul olublar. Onların adları da məlumdur. Mən bu adları çəkməyə ehtiyac görmürəm.

Onların çoxu Xalq Cəbhəsi ilə, bəziləri başqa qüvvələrlə bağlı olubdur. Bədbəxtlik də burasındadır ki, biz bu ikiillik müstəqillik dövründə Azərbaycanda dövlət strukturu əsasında nizami ordu yaratmaq əvəzinə, ayrı-ayrı adamlar, ayrı-ayrı qüvvələr hərəsi özünə bir batalyon yaradıb, gedib haradasa balaca bir kəndi guya alıb, guya böyük bir şücaət göstəribdir. Əslində isə bunlar heç bir nəticə verməyib, bizi gətirib bax, bu dağıntı vəziyyətinə çıxarıb.

Ona görə də mən cürbəcür ittihamları tamamilə rədd edirəm.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kim istəyirsə bizim müdafiə qüvvələrimiz möhkəmlənsin, hamı bir mərkəzdə - Müdafiə Nazirliyində, ordumuzda cəmlənməlidir. Kim orada qulluq etmək istəyirsə, gəlib qulluq etsin.

Qanun-qaydanı, nizam-intizamı möhkəmləndirmək üçün bizə təkliflər gəlir ki, Azərbaycan müharibə şəraitindədir, buna görə də hərbi vəziyyət elan etmək lazımdır. Yaxud bəziləri təklif edirlər ki, fövqəladə vəziyyət elan olunmalıdır. Bu təkliflərdə əsas var. Mən bunlara da müəyyən dərəcədə bəraət qazandırıram. Biz bu barədə düşünürük. Ancaq güman edirəm ki, hər bir şəxs öz vətəndaşlıq borcunu layiqincə yerinə yetirərsə, hər bir azərbaycanlı öz torpağına, vətəninə, öz elinə, əbasına sadiq qalarsa və vətənini, torpağını hər şeydən üstün tutarsa, belə tədbirlərə əl atmağa ehtiyac olmayacaqdır. İndi bütün siyasi qüvvələr bir məqsədə qulluq etsələr, dövlətin ətrafında toplaşıb, dövlətçilik yolu ilə, qanun-qayda yolu ilə Azərbaycanı bu ağır vəziyyətdən xilas etmək əzmində olsalar, onda bu tədbirlərə əl atmaq lazım gəlməyəcəkdir. Ancaq ola bilər ki, vəziyyət bizi belə tədbirlərə də əl atmaq məcburiyyətinə gətirib çıxarsın. Güman edirəm ki, əgər biz milli həmrəyliyə, vətəndaş birliyinə, vətəndaş həmrəyliyinə nail ola bilsək, bu tədbirlərin hamısından, şübhəsiz imtina edə bilərik və onlara ehtiyac olmaz.

Bu fikirlərimi sizə çatdıraraq qeyd etmək istəyirəm ki, biz öz diplomatik, siyasi fəaliyyətimizi də davam etdiririk və davam etdirəcəyik. Danışıqlar yolu ilə atəşkəsin davam etdirilməsinə nail olmağa çalışacağıq. Məsələlərin sülh yolu ilə həll edilməsinə bundan sonra da üstünlük verəcəyik. Ancaq hər bir vətəndaş, hər bir azərbaycanlı hiss etməlidir ki, indi vətəni qorumaq üçün hərə öz payını verməlidir, hərə öz yerini tapmalıdır. İndi hər kəs müsəlləh əsgər olmalıdır. Bundan artıq vəzifə yoxdur. Bütün qalan problemlər sonra həll ediləcəkdir. Bütün digər problemlər ikinci, üçüncü sıraya keçməlidir. Ön cərgədə birinci növbədə bu problem durmalıdır. Hamı onun ətrafında birləşməlidir.

Mən bəzi acı həqiqətləri sizə çatdıraraq, eyni zamanda bildirmək istəyirəm ki, doğrudan da, Azərbaycan xalqının potensialı - həm qəhrəmanlıq, həm döyüşkənlik, həm də intellektual potensialı böyükdür. Biz bu potensiallan səmərəli istifadə etməliyik. Bu sahədə ziyalılarımız daha fəal çalışmalıdırlar. Onlar sərhəd bölgələrində, qaçqınların arasında, ordu hissələrində olmalıdırlar.

Burada oturub ah-vay etməkdən, yaxud qeybətlə məşğul olmaqdansa, ayrı-ayrı məsələlərə cürbəcür qiymət verməkdənsə gedib Hərə bir cəbhə bölgəsində, ordu hissəsində adamların əhval-ruhiyyəsini, vətənpərvərlik hissini qaldırsa müdafiə qüvvələrinin möhkəmlənməsində iştirak etdiklərini göstərə bilərlər.

Mən yenə də əlli il bundan əvvəlki müharibə dövrünə qayıdı-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ram. O zaman bizim ziyalılarımız - yazıçılar, mədəniyyət xadimləri, alimlər bu məsələlərdə çox fəal iştirak edirdilər. İndi də ziyalılarımızı dəvət edirəm, çox xahiş edirəm ki, bu işə qoşulsunlar. Ancaq bir məqsədlə - adamların fikrini, mənəviyyatını düzgün istiqamətə yönəltmək üçün qoşulsunlar, onları çaşdırmaq, ayrı-ayrı təxribat işləri aparmaq üçün yox. Güman edirəm ki, bu yolda hamımız bir olmalıyıq. Belə hesab edirəm ki, din xadimləri də bu sahədə öz işlərini görməlidirlər. Azərbaycan xalqının zəngin milli ənənələri var. Torpaqlarımızın etibarlı müdafiəsi üçün bu ənənələrdən istifadə olunmalıdır.

Bir sözlə, vəziyyət ağırdır, gərgindir. Ancaq bu o demək deyil ki, biz vəziyyəti çıxılmaz hesab edirik. Xeyr. Yenə də deyirəm, bu gün Azərbaycanın böyük gücü, potensialı, xalqımızın zəngin qəhrəmanlıq ənənələri - bunların hamısı birləşdirilməlidir. Bütün imkanlardan istifadə edərək Azərbaycanın işğal olunmuş torpaqlarını geri qaytarmağa bizim imkanımız var.

Sizə bu fikirlərimlə, bu arzularımla müraciət edərək, hamınızı bu yolda fədakar mübarizəyə, Azərbaycanın müdafiəsinə qalxmağa dəvət edirəm və hamınızdan təşəbbüs, əməli fəaliyyət gözləyirəm. Diqqətinizə görə sağ olun, gecəniz xeyrə qalsın. Azərbaycan xalqına həyatın bu ağır dövründə uğurlar diləyirəm.

Sağ olun.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

KEÇMİŞ BEYNƏLMİLƏLÇİ DÖYÜŞÇÜLƏRLƏ GÖRÜŞDƏ ÇIXIŞ

4 noyabr 1993-cü il

Əfqanıstan müharibəsinin iştirakçısı olan hörmətli veteranlar! Azərbaycanın müdafiəsi ilə əlaqədar çağırışa cavab verərək belə bir təşəbbüs qaldırdığınıza görə sizə öz təşəkkürümü bildirirəm. Noyabr ayının 2-də televiziya və radio vasitəsilə xalqa müraciət edərkən mən Azərbaycan Respublikasının bütün vətəndaşlarını həmrəyliyə, birliyə dəvət etdim və bütün Azərbaycan xalqını Vətənin müdafiəsi işində iştirak etməyə çağırdım. Siz bu çağırışa cavab olaraq mənə müraciət etmisiniz. Öz xidmətlərinizi göstərmək, vətənin, torpağımızın müdafiəsində iştirak etmək istəyirsiniz. Bu, əsl vətənpərvərlik təşəbbüsüdür. Bu, sizin torpağımıza, Vətənimizə, müstəqil Azərbaycana qəlbən bağlı olduğunuzu bir daha nümayiş etdirir. Eyni zamanda bu təşəbbüs bütün Azərbaycan xalqı üçün, Azərbaycan vətəndaşları üçün gözəl bir nümunədir. Güman edirəm ki, sizin təşəbbüsünüz öz davamını tapacaqdır. Azərbaycanın indiki ağır vaxtında onun müdafiəsində iştirak etmək üçün minlərlə qəhrəman oğullar ordu sıralarına gələcək və hamımız birləşib Vətənimizin müdafiəsini təmin edə biləcəyik.

Noyabrın 2-dəki müraciətimdə qeyd etdim və bir daha bildirmək istəyirəm ki, Azərbaycan Respublikasının öz torpaqlarını müdafiə etmək üçün böyük potensialı var. Ən böyük potensial bizim insanların Vətənə, torpağa bağlılığı, Vətəni, torpağı sevməsi və onu qorumaq hissidir. Bu, xalqımızın tarixi ənənələrindən irəli gələn hissdir. Güman edirəm ki, xalqımız tarixi ənənələrimizi, keçmişimizi yada salaraq, Azərbaycanın bu ağır vəziyyətdən çıxması üçün bundan sonra səmərəli tədbirlər görəcəkdir. Ordumuz, müdafiə qüvvələrimiz möhkəmləndirilməlidir. Bunu da xalq etməlidir. Bu, bütün vətəndaşların işidir. Bunu ordunun özü, ordunun rəhbərləri etməlidirlər. Nəhayət, bunu biz etməliyik. Bu, bizim borcumuzdur Ancaq hamımız birlikdə, sizində bərabər etməliyik.

Bu günlərdə bir çox yerlərdən məktublar alırdıq, bizə təşəbbüslərlə müraciət edirlər, Azərbaycan vətəndaşları bizim çağırışımıza cavab verirlər, Vətənin müdafiəsində iştirak etmək istəyirlər. Güman edirəm ki, bütün bunlar Azərbaycan xalqında yeni əhval-ruhiyyə, vətənpərvərlik hissləri, vətənpərvərlik əhval-ruhiyyəsi yaradacaqdır. Bəzi adamlar indiyədək olan biganəlikdən əl çəkəcək və başa düşəcəklər ki, Azərbaycandan başqa Vətənimiz yoxdur. Azərbaycan torpaqlarını biz özümüz qorumalıyıq, özümüz saxlamalıyıq. Azərbaycanın müstəqilliyini biz özümüz qorumalıyıq, özümüz saxlamalıyıq.

Mən bu gün sizin qarşınızda bir daha qeyd edirəm: Bütün və-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

təndaşlarımız Azərbaycan Respublikasında beş ildən artıq müddətdə gedən müharibəyə, nəhayət, son qoyulmasını istəyirlər. Biz də müharibəyə son qoyulmasını istəyirik. Ancaq Azərbaycanın ərazi bütövlüyünü, müstəqilliyini təmin etmək yolu ilə. Buna sülh yolu ilə nail olmaq tərəfdarıyıq. Lakin danışıqlar aparmaq üçün, barışıq əldə etmək üçün, yəni məsələnin həllini sülh vasitəsilə tapmaq üçün biz gərək müdafiə qüvvələrimizi möhkəmləndirək. Biz müdafiə olunuruq. Beş ildən artıqdır ki, Azərbaycan Respublikasına qarşı hərbi təcavüz davam edir. Torpaqlarımızın bir qismi işğal olunubdur Buna baxmayaraq, indiyədək etibarlı surətdə müdafiə olunmamışıq. Bunun nəticəsində də ərazimizin bir hissəsi düşmən tərəfindən işğal edilmişdir.

Bir daha qeyd edirəm ki, bizim imkanlarımız böyükdür. Burada verilən məlumata görə vaxtilə Əfqanıstanda gedən müharibədə iştirak etmiş minlərlə Azərbaycan vətəndaşı indi respublikamızda yaşayır. Əgər Azərbaycanın oğulları, Azərbaycanın yetirmələri başqa bir ölkədə Sovet Ordusunun tərkibində vuruşa bilirdilərsə, qəhrəmanlıq nümunələri göstərə bilirdilərsə, deməli, onlar öz torpaqlarını daha cəsarətlə, ürəklə qoruya bilər və torpaqlarımız uğrunda döyüşə bilərlər. Əfqanıstan müharibəsinin veteranları böyük qüvvədir. Onlar hərbi xidmətdə olmuş, müharibəni görmüş, döyüşün nə olduğunu hiss etmiş adamlardır.

Respublikamızın malik olduğu böyük imkanlardan, təəssüf ki, indiyədək istifadə edilməyibdir. Bəzən deyirlər ki, biz ordu yarada bilmirik. Ola bilsin ki, bu veteranların təxminən 10-15 faizi hərbi xidmət üçün yaramır. Lakin onların əksər hissəsinin hərbi xidmət etmək imkanı var. Bax, bu döyüşçülərdən indiyədək istifadə edilməyibdir. Burada verilən məlumatlar da bunu göstərir. Həmin məlumatlarla yanaşı, sizin mənə müraciətiniz də göstərir ki, siz Azərbaycanın indiki vəziyyətində respublikanı müdafiə etmək üçün, onu bu ağır vəziyyətdən qurtarmaq üçün doğrudan da çox iş görə bilərsiniz. Bunun üçün biz sizə lazımi şərait yaratmalıyıq. Bu məqsədlə biz sizin xahişinizlə buraya, sizində görüşə gəlmişik.

İnanırıq ki, sizin müraciətiniz, nümayəndələrinizin burada verdiyi vədlər, dedikləri sözlər həqiqətdir, qəlbinizi bürüyən hisslərin ifadəsidir. Biz bunu belə qəbul edirik. Odur ki, sizə minnətdarlığımı bildirir və eyni zamanda əmin olduğumu demək istəyirəm ki, siz bu təşəbbüsünüzü davam etdirəcəksiniz, İttifaqınızda, yəni Əfqanıstan Müharibəsi Veteranları İttifaqında olan döyüş qabiliyyətli, hərbi xidmətə qadir adamların hamısını toplayacaqsınız, Azərbaycanın Silahlı Qüvvələri tərkibində layiqli yer tutacaqsınız və Vətənin müdafiəsində qəhrəmancasına iştirak edəcəksiniz.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Tam əminəm ki, siz öz sözünüzün və vədlərinizin sahibisiniz. Mən sizə inanıram. Ona görə ki, siz döyüşlərdən, tufanlardan, sınaqlardan keçmiş adamlarsınız. Ona görə inanıram ki, siz o ağır müharibədən keçib öz Vətəninizə qayıtmısınız. Ona görə inanıram ki, siz Vətəninizi sevən adamlarsınız. Əgər sizdə Vətən sevgisi, Vətən məhəbbəti olmasaydı, öz təşəbbüsünüzlə buraya toplaşmazdınız. Əgər sizdə Vətən eşqi olmasaydı, belə narahatlıq keçirməzdiniz.

Mən bunları yüksək qiymətləndirirəm. Bir daha sizə öz minnətdarlığımı bildirirəm. Müdafiə Nazirliyinin rəhbərliyi qarşınızdadır. Mən onlara əmr vermişəm ki, bu təşəbbüsünüzlə əlaqədar lazımi təşkilati tədbirlər görsünlər və sizin qüvvələrinizdən respublikanın müdafiəsinin təmin olunması üçün istifadə etsinlər.

Bir də qeyd edirəm: Biz Vətənimizi müdafiə edirik, torpağımızı müdafiə edirik, dövlətimizi müdafiə edirik. Ona görə də bizim işimiz haqq işidir və Vətənini sevən hər bir adam bu işə qoşulmalıdır, dövlət qarşısında, xalq qarşısında öz vətəndaşlıq borcunu ödəməlidir.

Sizə bir daha təşəkkür edir və cansağlığı, xoşbəxtlik arzulayıram. Tutduğunuz bu yolda, Vətənin müdafiəsində sizə uğurlar arzulayıram.

Sağ olun.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN İCLASINDA ÇIXIŞ

5 noyabr 1993-cü il

Hörmətli Məclis üzvləri, deputatlar, qonaqlar! Mən respublikanın prezidenti seçildiyimə görə Ali Məclisin iclası bu müddətdə toplaşa bilməmişdir. Elə bilirəm ki, bu gün Ali Sovetin sədri kimi son dəfə bu iclası başlamağa imkanım var.

Burada bir neçə ay müddətində birlikdə fəaliyyət göstərdiyimizə, işlədiyimizə görə və bu müddətdə Ali Sovetin sədri kimi mənə göstərilən yardıma, etimada görə, Ali Sovet sədrinin vəzifəsini aparmaqda mənimlə Məclisin həmrəy olduğuna görə Milli Məclisə, onun üzvlərinə təşəkkürümü bildirirəm. Qeyd etmək istəyirəm ki, bu dövrdə mənim əvvəlki həyatım boyu keçdiyim iş təcrübəsinin üzərinə böyük bir təcrübə də gəldi. Milli Məclisə bir neçə ay müddətində rəhbərlik etmək, onun iclaslarını aparmaq, mürəkkəb məsələlərin həllində Məclis üzvlərinin rəylərini toplayıb daha düzgün qərarlar qəbul olunmasını təmin etmək - bunların hamısı mənim üçün bir təcrübə məktəbi oldu və mən bu təcrübəyə görə və bu salonda bərabər çalışdığımıza görə Milli Məclisə minnətdarlığımı bildirmək istəyirəm.

Bu dövrdə Məclisin iclaslarında daim demokratiya prinsiplərinə riayət olunubdur. Mən çalışırdım ki, burada fikir müxtəlifliyi daim təmin edilsin, hər bir Məclis üzvünün fikri nəzərə alınsın. Bəzən iclaslarımız çox vaxt alıbdır, bəzən ayrı-ayrı Məclis üzvlərinin çıxışları reqlamentdən də xeyli artıq olubdur, bəzən mənim də çıxışlarım, danışıqlarım reqlamentdən artıq olubdur. Ancaq bunların hamısı zərurətdən doğan hallar idi, yalnız və yalnız geniş fikir mübadiləsi aparıb, məsələləri təhlil və müzakirə edib daha düzgün, daha doğru qərarlar qəbul olunmasına çalışmaq məqsədi daşıyıbdır. Ona görə də mən hesab edirəm ki, həmin aylarda bu salonda Məclisin işində daim demokratik prinsiplər, parlament etikası, parlament təcrübəsi hökm sürübdür və əmin olduğumu bildirmək istəyirəm ki, bundan sonra da hökm sürəcəkdir.

Bir daha sizin hamınıza təşəkkür edirəm, Məclisə, onun üzvlərinə bundan sonrakı fəaliyyətində uğurlar diləyirəm. Mənim prezident vəzifəsinə seçilməyimdə də Milli Məclisin, xalq deputatlarının böyük fəaliyyəti olubdur Azərbaycanda iyun ayının 4-dən başlanmış gərgin vəziyyət, qarşıdurma halları yalnız və yalnız Milli Məclisin qərarları ilə aradan qaldırılıbdır, vətəndaş müharibəsinin, indiki ağır müharibə dövründə ayrı-ayrı qüvvələr tərəfindən respublikanın parçalanması meyllərinin qarşısı bu qərarların sayəsində alınıbdır. Bunların hamısı Milli Məclisin fəaliyyətinin, xidmətinin nəticəsidir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ötən dövrdə Milli Məclis daim axtarışlar yolunda olub, bu vəziyyətdən çıxmaq yollarını arayıb və bu məqsədlə çox səbrlə, təmkinlə öz işini aparıb, əmələ gəlmiş gərgin vəziyyətdən çıxmaq üçün referendum keçirilməsi, keçmiş prezident haqqında, sonra prezident seçkiləri keçirilməsi haqqında qərarlar qəbul edibdir. Xalq, Azərbaycanın seçiciləri də Milli Məclisin qərarlarına hörmət, ehtiram göstərərək öz rəyini bildiriblər və bunların nəticəsində mən prezident seçilmişəm.

Oktyabrın 10-da mən prezident vəzifəsinə başlayarkən bu barədə öz fikirlərimi demişəm. Bir daha qeyd etmək istəyirəm ki, belə yüksək vəzifə mənim üzərimə eyni zamanda çox böyük məsuliyyət, mənim qarşımda dövlət başçısı kimi çox böyük və çətin problemlər qoyubdur Son həftələrdə respublikamızın Ermənistanla həmsərhəd bölgələrində baş vermiş hadisələr nəticəsində bu problemlərin həll olunması daha da çətinləşib, daha da ağırlaşıbdır. Mən bütün bu çətin, ağır işləri görmək üçün üzərimə düşən məsuliyyəti hiss edərək, qarşımda duran vəzifələri həyata keçirmək üçün, məni bu vəzifəyə seçən seçicilərin etimadını doğrultmaq üçün Ali Sovetin, Milli Məclisin fəaliyyətinə daim güvənəcəyəm və Ali Sovetlə, Milli Məclislə birlikdə işlərin aparılmasını təmin edəcəyəm. Bundan sonra da öz işimi bəyan etdiyimiz demokratik prinsiplər əsasında quracağam.

İndi respublikanın böhran vəziyyətində - iqtisadi böhran, ictimai-siyasi böhran, eyni zamanda ağır müharibə vəziyyətində hamımız birgə çalışmalı, birgə fəaliyyət göstərməli, həmrəylik - vətəndaş həmrəyliyi, milli həmrəylik nümayiş etdirməliyik. Mən bu həmrəyliyin yaranması üçün əlimdən gələni əsirgəməyəcəyəm və bu sahədə də Milli Məclislə bərabər çalışmağa söz verirəm.

Bilirəm ki, son vaxtlar sərhəd bölgələrində, döyüş bölgələrində yaranmış vəziyyətlə əlaqədar məsələlərin Milli Məclisdə müzakirə olunması haqqında təkliflər var. Şübhəsiz ki, bu məsələlər müzakirə edilməlidir. Ancaq eyni zamanda Məclisin üzvlərinə məlumdur ki, biz bu məsələlərlə daim məşğul oluruq. Yaranmış vəziyyət Müdafiə Şurasının iclasında ətraflı təhlil olunub, lazımi tədbirlər görülübdür. Müdafiə Nazirliyinin və hərbi hissələrin rəhbərliyində ciddi dəyişikliklər aparmaq haqqında qərarlar qəbul olunubdur. Lazımi tədbirlər görülür və bunların hamısı Azərbaycan Respublikasının müdafiə imkanlarını möhkəmləndirməyə, torpaqlarımızı etibarlı müdafiə etməyə və eyni zamanda diplomatik, siyasi yollarla sülh danışıqları aparıb bu problemin tamamilə həll edilməsinə nail olmağa yönəldilib.

Eyni zamanda mən tam razıyam ki, bu məsələlərə Milli Məclisdə də baxılmalıdır, müzakirə olunmalıdır və təkcə Milli Məclisdə yox, respublikamızın bütün siyasi, ictimai qüvvələri ilə müzakirə edilməlidir. Respublikanın bu ağır günündə hamı öz səyini göstərməlidir, biz birlikdə lazımi tədbirlər görməli və onları həyata keçirməliyik.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AZƏRBAYCANIN SİYASİ PARTİYALARININ VƏ İCTİMAİ HƏRƏKATLARININ RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

17 noyabr 1993-cü il

Bu görüş gecikmiş olsa da, yenə də faydalıdır. Beş saat ərzində biz geniş fikir mübaliləsi etdik, siyasi partiyaların, təşkilatların, hərəkatların nümayəndələri bəzi təkliflərini, fikirlərini bildirdilər. Bunların içərisində şübhəsiz ki, əhəmiyyətli fikirlər də, görüşümüzün əsas mövzusundan kənar olan fikirlər də vardır. Lakin mən hər bir təklifə, fikrə hörmətlə, diqqətlə yanaşıram və güman edirəm ki, bunlar gələcək üçün faydalı olacaqdır.

Görüşümüzün əvvəlində izah etdim ki, əsas söhbət, əsas müzakirə bir məsələ - Azərbaycanın müharibə vəziyyətindən çıxması, işğal olunmuş torpaqlarımızın geri qaytarılması və Qarabağ probleminin həlli məsələsi ətrafında getməlidir. Təəssüf ki, bu barədə istənilən qədər konkret təkliflər olmadı. Ancaq mən çox şey gözləyirlim. Bilirsiniz, indi bu barədə ittiham mövqeyindən çıxış edən bəzi qəzetlər, onların sahibləri belə bir ictimai pəj yaratmaq istəyirlər ki, guya onlar bu məsələlərin həlli yolunu bilirlər, indi dövlətə rəhbərlik edən adamlar guya düzgün siyasət yeritmirlər, düz yolda deyillər, bu məsələlərin nə cür həll edilməli olduğunu bilmirlər. Ancaq bugünkü görüş göstərdi ki, belə sözlərin, şayiələrin, belə böhtançı məqadələrin arxasında heç bir konkret təklif, konkret söz yoxdur.

Mən tamamilə bu fikirdəyəm ki, hərbi təcavüzə məruz qalmış respublikamızla qarşıdurmaya son qoymaq lazımdır. Bəsdir. Bu beş-altı ildə Azərbaycanda qarşıdurma ən yüksək səviyyəyə qalxmışdır. Bunun xalqa, respublikaya, müstəqil Azərbaycan dövlətinə heç bir xeyri olmamış, ilbəil ancaq və ancaq zərəri dəymişdir. Bu zərərlər üst-üstə yığılaraq indi respublikamızın iqtisadiyyatını da ağır vəziyyətə salmış, xüsusən onun hərbi təcavüzün qarşısını almaq imkanlarını zəiflətmiş və məhdullaşdırmışdır. Nəticədə respublikanın bir hissəsi işğal olunmuşdur. Ona görə də bu qarşıdurmaya son qoyulmasa, Qarabağ problemindən istifadə edərək hakimiyyət uğrunda mübarizə davam edərsə, dünən hakimiyyətdə olarkən respublikanı bu günə salan adamlar indi gündə qəzetlərə müsahibələr verərək cürbəcür fikirlər söyləməkdə davam etsələr respublikanı saxlamaq mümkün olmayacaq və o dağılacaqdır. Dünən vəzifə başında olan adamlar indi vəzifədən gediblərsə və vəzifədə olarkən bu işləri görə bilməyiblərsə, bu gün onların danışmağa, müsahibələr verməyə mənəvi haqqı yoxdur. Onlar səhnədən getmişlər. Əgər səhvlərini başa düşüblərsə, elə fəaliyyət göstərməlidirlər ki, xalqı doğrudan da bu vəziyyətdən çıxarmağa yardım etsinlər. Ya da kənara çəkilməli və deməlidir-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lər ki, bəli, biz bu işin öhdəsindən gələ bilməmişik, görək axırı nə olur. Ancaq yenidən qarşıdurmanı gücləndirmək, yenə də respublikanı dağıtmaq xalqa xəyanətdir. Bu, ölkənin onsuz da ağır olan vəziyyətini daha da ağırlaşdırır və onun iqtisadi potensialına, hərbi qüdrətinə böyük zərbə endirir.

Natiqlərin bir çoxunun qeyd etdiyi kimi, bəzi şəxslərin "Filan kənd əldən getdi", "Filan rayon işğal olundu" deyərək buna sevinməsi, bayram etməsi və camaatı birləşdirmək əvəzinə onu coşdurması, cəmiyyətdə parçalanma meyllərini artırması düşmənlərimizin bizə vurduğu zərbələrdən daha güclü zərbədir. Ona görə də görüşümüzdə ilk növbədə bu barədə bir daha xəbərdarlıq etmək və bildirmək istəyirəm ki, mən prezident kimi öz üzərimə məsuliyyət götürmüşəm və bu məsuliyyətin nə qədər ağır olduğunu dərk və hiss edirəm. Arzu edirəm ki, Vətənini, torpağını, xalqını, müstəqil Azərbaycan Respublikasını istəyən, sevən adamlar mənim bu vəzifəni, bu missiyanı axıradək yerinə yetirməyimə kömək etsinlər. Kim kömək etməyəcəksə, yenə də müxalifət mövqeyində dayanaraq ancaq iddialarla məşğul olacaqsa, şübhəsiz ki, bunlara son qoyulmalıdır. Nemət Pənahlının bu fikri ilə razıyam ki, iqtidar - müxalifət nə deməkdir? Bir dövlət ki, beş ildir müharibə şəraitindədir, beş ildir torpaqları əldən gedir, orada iqtidar - müxalifət söhbətləri nə vaxta qədər olacaq?

İqtidar - müxalifət məsələsi adətən iki prinsip əsasında olur. Birincisi, ideoloji prinsip əsasında: müxalifətdəki qüvvələr iqtidarda olan qüvvələrə ideoloji prinsip əsasında müxalif mövqe tutaraq iqtidarın ideologiyası ilə razılaşmır, onu hakimiyyətdən salır və öz ideologiyasını şəyata keçirirlər. İndi bizdə ideoloji müxtəliflik yoxdur. Hamımız Azərbaycanın müstəqilliyi tərəfdarıyıq və bu müstəqilliyi qorumalıyıq. Başqa fikir yoxdur. Etibar Məmmədov dünənki görüşümüzdə dedi ki, Azərbaycanın Müstəqil Dövlətlər Birliyinə daxil olması guya onun müstəqilliyini zəiflədir, yaxud məhdullaşdırır. Mən bu fikirlə razı deyiləm. Əlbəttə, bu barədə mənim öz fikrim var. Etibar Məmmədov da bilir ki, məsələ onun dediyi kimi deyildir. Ancaq fikrini deyir, çünki müxalifətdə olmalıdır. Məsələ niyə belə deyildir? Çünki keçmiş Sovetlər İttifaqının müstəqillik qazanmış on beş respublikasından on ikisi Müstəqil Dövlətlər Birliyinə daxildir. Yalnız Baltikyanı dövlətlər həmin birliyə daxil olmamışlar. Məgər həmin birliyə daxil olan dövlətlər öz müstəqilliklərini itirmişlər? Qazaxıstan, Özbəkistan, yaxud bizim qonşumuz və deyilənə görə, iqtisadi cəhətdən yaxşı vəziyyətdə olan Türkmənistan öz müstəqilliyini itirmişdirmi?

Burada kim isə dedi ki, bir il əvvəl Türkiyə Azərbaycana 250 milyon dollar kredit versə də, onun bir milyon dollarından belə istifadə olunmamışdır. Ancaq Türkmənistan istifadə etmişdir. Bizdə olan məlumata görə, bir çox dövlətlər oraya böyük investisiyalar qoyur və buna heç kim heç nə demir. Türkmənistan Müstəqil Dövlətlər Birliyinə daxil olsa da, onun bir neçə sənədini imzalamamışdır. Biz həmin birliyə daxil olub ondan hələ heç nə görməmiş nə üçün deyirik ki, müstəqilliyimizi itirdik və ya məhdudlaşdırdıq?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir daha demək istəyirəm ki, hamımız Azərbaycanın müstəqil dövlət olmasının tərəfdarıyıq və şəxsən mən, dəfələrlə qeyd etdiyim kimi, harada olmağımdan asılı olmayaraq bütün fəaliyyətimdə və həyatımın son dəqiqəsinədək Azərbaycanın müstəqil dövlətçiliyini qoruyacağam. Əgər müxalifətdə olan qüvvələr Azərbaycanın müstəqilliyini qorumağa tərəfdardırlarsa, deməli, burada fikir müxtəlifliyi yoxdur. Bizim ideologiyamızın əsası budur.

Keçmişdə ideologiyamız marksizm-leninizm ideologiyası idi və indi biz ondan imtina etmişik. Partiyalardan birinin nümayəndəsi burada qeyd etdi ki, o, sosializm tərəfdarıdır və bazar iqtisadiyyatının əleyhinədir. Bu onun öz işidir. Lakin Azərbaycan cəmiyyətinin əksəriyyəti kommunist ideologiyasından, sosializm quruluşundan imtina etmişdir və Azərbaycanın müstəqil, dünyəvi dövlət kimi, ümumbəşəri dəyərlər əsasında, eyni zamanda milli ənənələr əsasında hüquqi dövlət qurmaq yolu ilə getməsinin tərəfdarıdır.

Deməli, bizim ideologiyamız bundan ibarətdir. Həmin ideologiyanın bir hissəsini mənəvi dəyərlərimiz, milli ənənələrimiz təşkil edir. Biz bunların hamısına - mədəniyyətimizə, dinimizə, milli əxlaqımıza, bütün milli ənənələrimizə, tariximizə sadiqik. Mənə elə gəlir ki, səhv etmirəm. O ki qaldı dinimizə, bir misal deyim: İslam dini bizim əsrlər boyu itaət etdiyimiz dindir. 70 il idi Sovetlər İttifaqında təkcə İslam dini deyil, bütün dinlər qadağan olunmuşdu. İndi azadlıq verilmişdir, dinimizə qayıtmışıq, hər bir adamın vicdan azadlığı təmin edilmişdir. Buraya başqa bir din gətirib təbliğ etmək istəyən adam görmürəm.

Belə bir halda, əgər iqtidarla müxalifət arasında ideoloji fərq yoxdursa, burada ikinci bir iddia var: "Sən vəzifədəsən, mən yox, mən səninlə mübarizə aparacağam ki, sənin vəzifəni əldə edəm". Ay qardaş, gəlin müharibəni qurtaraq, bütün vəzifələri götür özünə. Hansı vəzifəni istəyirənsə, gəl otur. Amma o qatı müxalifətdə olan qüvvələr dünənədək vəzifələrdə idi, həmin vəzifələri onların əlindən heç kim almadı, özləri getdilər. Mən bunu dəfələrlə demişəm.

Ona görə də burada, müharibə gedən ölkəmizdə iqtidar - müxalifət söhbəti salmağın əsası yoxdur və olmamalıdır. Əlbəttə, dövlətin, dövlət orqanlarının, görülən işlərin qüsurları tənqid edilməlidir. Qoy bilsinlər ki, səhv buraxmışlar və gələcəkdə buna yol verməsinlər. Ancaq bu o demək deyildir ki, düşmənçilik, xəyanət, terrorçuluq mövqeyində durasan. İndi müxalifətdə olan bu adamların arasında terrorçuluq əhval-ruhiyəsi ilə yaşayan, terrorçuluq məqsədi daşıyan şəxslər də var. İstintaqda sübut olunmuşdur ki, Heydər Əliyevi fiziki cəhətdən məhv etmək üçün buraya müəyyən adamlar tutulub gətirilmişdir, müəyyən məqamda onun fiziki cəhətdən məhv edilməsi üçün tədbirlər görülmüşdür. Bu, hansı müxalifətdir? O, hansı məzhəbə qulluq edir?

Bu terrorçu təşkilatlar Azərbaycanı erməni işğalından, qəsbkarlığındanmı xilas etmək istəyirlər, yoxsa öz şəxsi məqsədlərinə nail olmaq üçün bu yolu tutmuşlar? Terrorçuluq ən alçaq, ən çirkin yoldur. Tarix boyu bütün dövrlərdə bu belə olmuşdur. Bütün bunlara son qoymaq lazımdır. Mən Ali Sovetin sədri olarkən

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bu işlərə çox dözümlə yanaşmışam və indi də dözümlə yanaşıram. Ancaq bu o demək deyil ki, bu dözümün həddi yoxdur.

Belə hesab edirəm ki, Azərbaycanı müharibə vəziyyətindən çıxarmaq üçün indi bütün qüvvələr birləşməlidir. Bu barədə irəli sürülən bütün konkret təkliflər qiymətləndiriləcək, onlardan istifadə olunacaqdır. Mən bu gün konkret təkliflər eşitmədim. Bir təklif oldu ki, Məsləhət Şurası yaratmaq lazımdır. Şəxsən mən bununla razıyam. Dövlət katibi bu işlə məşğul olacaqdır. Məsləhət Şurası yəqin ki, Qarabağ problemi ilə əlaqədar yaradılmalıdır. Ümumi Məsləhət Şurası bizi çox şeylərə aparar. Şura konkret olaraq Qarabağ məsələsi ilə əlaqədar yaradılmalıdır ki, kimin nə təklifi, hansı imkanı varsa məsləhət Şurası çərçivəsində bunlardan istifadə edilsin, bu problem həll olunsun.

Əgər dövləti idarə etmək üçün Məsləhət Şurası yaratmaq istəyirsinizsə, mənə belə gəlir ki, indi buna ehtiyac yoxdur. Xalq prezident seçmişdirsə, o, dövlətin idarə olunması üçün lazımi tədbirlər görəcəkdir. Bizdən ötrü əsas məsələ Qarabağ problemidir. Şübhəsiz ki, Azərbaycanı müharibədən çıxarmaq problemi ilə yanaşı, başqa problemlər də var və onlar da diqqətdən kənarda qalmayacaq. Ancaq Məsləhət Şurası məhz Qarabağ probleminin həlli üçündür. Əgər bu problem həll edilə bilərsə, Məsləhət Şurası doğrudan da fəaliyyət göstərəcəksə, bu böyük bir hadisə olacaqdır. Çünki altı ildir ki, biz bunu həll edə bilmirik.

Bu, çox böyük problem olduğuna görə, müharibə vəziyyətindən çıxmaq üçün konkret danışıqlar aparmaq indiki görüşdö, ola bilsin, bəzi şəxslərdən ötrü münasib olmadığına görə, burada iştirak edən və iştirak etməyən bütün partiyalardan xahiş edirəm ki, Qarabağ məsələsi, müharibədən çıxmaq barədə beş gün ərzində yazılı surətdə konkret təkliflərini versinlər. Bunlara Məsləhət Şurasında baxacağıq, mən prezident kimi də baxacağam.

Bilməlisiniz ki, mən Ali Sovetin sədri vəzifəsində çalışdığım gündən indiyə qədər bütün iş günümün - yəqin xəbəriniz var ki, iş günüm çox uzundur - səksən faizini ancaq bu məsələyə sərf edirəm. Başqa əlac yoxdur. Şəxsən mən çox yollar axtarmışam və indi də axtarıram. Bəzi məsələlər haqqında ətrafımda olan şəxslərlə, o cümlədən Müdafiə Şurasının üzvləri ilə məsləhətləşmişəm. Qarabağ probleminin həllində Rusiyanın vasitəçilik missiyası ilə əlaqədar xüsusi tapşırıqlar üzrə səfir Vladimir Kazimirovla görüşlərimiz, danışıqlarımız olmuşdur. Bilirsiniz ki, mən bir sıra addımlar atmışam. Ola bilər, kim isə bunları bəyənsin, kim isə bəyənməsin. Ancaq bunlar - Ermənistan rəhbərliyi ilə danışıqlar aparmaq, Dağlıq Qarabağın rəhbərləri ilə bizim bəzi vəzifəli şəxslərimizin danışıqlar aparması zərurətdən doğan addımlar idi. Mən Rusiyanın, Türkiyənin, İranın rəhbərliyi ilə, Amerikanın, başqa ölkələrin nümayəndələri ilə danışıqlar aparmışam. Mənə belə gəlir ki, bunları sizə deməyə ehtiyac da yoxdur. Ancaq bütün imkanlardan istifadə etməyə çalışıram və bundan sonra da çalışacağam. Bəlkə də sizin bu sahədə imkanlarınız daha çoxdur. Buyurun, təkliflərinizi yazıb verin. Sözlə, ittihamlarla, dava və qalmaqalla yox, konkret təkliflə çıxış edin.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Burada bəzi natiqlər atəşin kəsilməsinə nail olmağımızı bəyəndilər. Mən bundan sonra da çalışacağam ki, indiki mövqelərdə belə, yenidən atəş başlanmasın. Mənim şəxsi mövqeyim belədir və bu istiqamətdə yenə fəaliyyət göstərəcəyəm. Nə dərəcədə müvəffəq olub-olmayacağımı bilmirəm. Atəşkəsin pozulmasının nə kimi bəlalara gətirib çıxardığını gördünüz. Bu sahədə də müəyyən tədbirlər görürəm. Noyabrın 2-dəki çıxışımda da demişəm, indi də deyirəm ki, mən Azərbaycanın müharibədən çıxması və torpaqların geriyə qaytarılması imkanını sülh yolunda görürəm. Bu istiqamətdə kimin köməyi varsa, təkliflərini versin. Əks istiqamətdə təklifləri olanlar da versinlər.

Eyni zamanda, şübhəsiz, biz müdafiə qüvvələrimizi möhkəmləndirməliyik. Burada qeyd olundu, - məğlubiyyətlərimizin səbəbləri çoxdur. Ancaq bunlardan biri də daxili sabitliyin olmaması, hakimiyyət dairələrinin zəifliyi, müstəqillik qazandığımız vaxtdan ötən dövrdən səmərəli istifadə edilməməsi ilə yanaşı, Azərbaycanın özünü müdafiə edəcək ordu yarada bilməməsidir. Burada mafioz qruplar, rüşvətxorluq haqqında danışdılar, - bunlar hamısı düzdür. Lakin mafioz qruplar ən çox bizim ordu sisteminə daxil olmuşdur. Cəbhədə qan töküldüyü halda, burada ayrı-ayrı adamlar pul-para mənimsəmişlər. Adamlar həlak olduğu, ev-eşiklərini itirdiyi, didərgin düşdüyü halda bəziləri bu fürsətdən istifadə edərək qanunsuz yollarla özlərinə həddindən artıq var-dövlət yığmışlar. Bizim dərdimiz, bəlamız budur. Ona görə də ordumuz yaradılmamışdır.

Belə söhbətlər gedir ki, - dünən Etibar Məmmədovla söhbətimizdə də bu mövzuya toxunuldu - guya bəzi batalyonlar qanunsuz ləğv olundu və bəzi məğlubiyyətlərimizin səbəbi budur. Mən açıq danışmağı sevirəm. Bunlar həqiqətdən kənar söhbətlərdir. Gəlin açıq danışaq, burada şərtləşək. Müharibə məsələsi təklikdə müzakirə olunmur. Hər bir partiyanın imkanı var ki, dövlət orqanına yazılı müraciət etsin və yazılı cavab alsın. Amma qəzetdə yazmasın ki, filan batalyon belə etdi, filan batalyon başqa cür etdi və s.

Dünən mən Etibar Məmmədovun yanında baş qərargahın rəisinə zəng etdim ki, deyirlər 8 batalyon ləğv olunmuşdur və buna görə də biz məğlubiyyətə uğramışıq. Öyrəndim ki, xeyr, arayışlar var, batalyonlarda 400-500 adam əvəzinə 15-18 nəfər var idi. Adı batalyondur, 400 nəfər üçün pul, ərzaq və sairə alınır. Hərbçilər mənə dəhşətli faktlar danışırlar. Bəzi hərbi hissələrdə keçmişdə də, indi də komandirlər məvacib veriləndən beş gün əvvəl əsgərlərin 70-80 faizini evlərinə buraxır, onların pullarını alıb ciblərinə qoyurlar. Üstəlik, onları evlərinə buraxmaq üçün də rüşvət alırlar. Bu həqiqəti söyləyəndə və televiziya ilə camaata çatdıranda bəziləri deyirlər ki, ordu barədə belə danışmaq olmaz. Bəs nə edək? Bunlar həqiqətdir və bu həqiqəti açmadan bir nəticə çıxara bilməyəcəyik.

Bütün bu səbəblərə görə ordunun indiyədək yaradılmaması, onun sıralarına çox mənfi ünsürlərin sirayət etməsi, ordu daxilində ayrı-ayrı mafioz qrupların fəaliyyət göstərməsi, ondan öz şəxsi məqsədləri üçün istifadə etməsi - bəli, həmin

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

kimi adamların, neçələri mənə deyirdi ki, o, belə qəhrəmandır, elə qəhrəmandır, halbuki o, böyük bir silahlı hissəni ələ keçirərək bütöv bir bölgənin başına nə işlər gətirdi - bütün bunlar məğlubiyyətlərimizin ən başlıca səbəbidir.

Bizim birinci yolumuz məsələni sülh yolu ilə həll etmək üçün müxtəlif istiqamətlərdə danışıqlar aparmaqdır. Eyni zamanda ordunu lazımi səviyyədə təşkil etmək, möhkəmləndirmək, hissələri yüksək peşəkar səviyyədə qurmaq lazımdır ki, Azərbaycan bu gün də, sabah da, bundan beş il də, on il də sonra müdafiə oluna bilsin. Azərbaycan müstəqil dövlətdirsə, deməli o, daim müdafiə oluna bilməlidir. Ona görə də həm bu barədə, həm bizim sülh danışıqlarımız, həm digər dövlətlərin imkanlarından istifadə olunması barədə kimin konkret nə təklifi varsa, qoy desin. Hansı yolu nəzərdə tuturlar, bəlkə bundan kənarda da kim isə hansısa bir iş görə bilər, - gəlsin desin, mən yalnız minnətdar olaram.

Ordunun yaradılmasına gəldikdə isə, gəlin belə danışaq. Burada bəzi təkliflər oldu ki, orduda siyasi rəhbərlər lazımdır. Düz deyirlər, qırx partiya var, hərəsindən bir nümayəndə göndərilsə, bunun nə faydası olar? Keçmişdə bir partiya - Kommunist Partiyası var idi və orduda vzvoddan başlamış hər bölmədə partiya təşkilatı və komandirin siyasi işlər üzrə müavini var idi. Deyirlər ki, bəzi yerlərdə başqa amillərdən istifadə olunur. Ancaq mənə belə gəlir ki, əgər biz bütün qüvvələrimizi toplasaq, ziyalılardan, din xadimlərindən, alimlərdən, hörmətli adamlardan istifadə etsək, onlar bu işi mütəşəkkil anapä bilsələr, hərbi hissələrdə lazımi iş görərək tərbiyə, əxlaq, mənəviyyat məsələlərini döyüşçülərə aşılaya bilsələr, onların mənəviyyatını, iradəsini möhkəmləndirə bilsələr bu bizim həm siyasi, həm də ideoloji işimiz olacaqdır. Lakin bu iş pərakəndə şəkildə deyil, mütəşəkkil aparılmalıdır.

Burada başqa məsələlərə də toxunuldu. Mən bu barədə danışmaq istəmirəm. Biz İqtisadiyyat sahəsində və başqa sahələrdə işlər görəcəyik. İndi İqtisadiyyatla əlaqədar böyük müşavirə hazırlayırıq, yəqin ki, onu cümə günü keçirəcəyik. Bəzi məlumatlar toplamışıq. Burada doğru deyildi ki, son ildə istehsal ardıcıl olaraq aşağı düşür, həm sənayedə, həm də kənd təsərrüfatvşda çox aşağı səviyyədədir. İstehsal olunan məhsul isə istifadə edilmək əvəzinə dağıdılır. Məsələn, bizə məlumdur ki, ixracla ilxal arasında böyük fərq var. Bir çox sahələrdə ixrac olunmuş malların dəyərinin heç 10 faizi də Respublikaya qayıtmamış, haradasa qalmışdır, ayrı-ayrı adamların əlinə keçmişdir. Bir tərəfdən Respublikanın torpaqları əldən gedir, digər tərəfdən isə onsuz da məhdud iqtisadi imkanlarımız ayrı-ayrı adamlar tərəfindən dağılıdır. Biz bu məsələlərlə məşğul oluruq.

Burada İqtisadiyyat sahəsi ilə bağlı bəzi adamlar çıxış etdilər. Xahiş edirəm partiyalar bu barədə də təkliflərini təqdim etsinlər. Bu, bizə kömək olacaq, biz onlara baxacaq və istifadə edəcəyik. Bu barədə mən geniş müzakirə açmaq istəmirəm.

Bayaq dediyim kimi, əsas məsələ müharibə məsələsidir. Bu məsələni yekunlaşdıraraq bir şeyi də qeyd etmək istəyirəm. Gəlin belə danışaq: Qəzetlər müharibə mövzusunu artıq mübarizə tribunası-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

na çevirməsinlər. Əgər bu, davam edərsə, mən səlahiyyətimdən istifadə edərək lazımi tədbirlər görəcəyəm. Burada respublikanı müharibə şəraitinə, yaxud fövqəladə vəziyyətə keçirmək, partiyaların, qəzetlərin fəaliyyətini dayandırmaq barədə təkliflər oldu. Bu təkliflərin əsası var. Mən sizə açıq demək istəyirəm ki, prezident kimi bu təklifləri dəyərləndirirəm, bu barədə düşünürəm. Ancaq mən istəmirdim ki, belə ciddi tədbirlər görək. Lakin həyatımız tələb edirsə, yəqin ki, xalqı, respublikanı, Azərbaycanı xilas etmək naminə bu ciddi addımları atmağa məcbur olacağıq. Burada doğru dedilər, Azərbaycanı bu vəziyyətdən qurtarmaq naminə hər bir addım gələcəkdə bağışlana bilər.

Ancaq mən istəyirəm ki, bu məsələlər qarşılıqlı anlaşma, milli həmrəylik, vətəndaş birliyi yolu ilə həll edilsin. Bu, bizim yüksək mədəniyyətimizi göstərərdi, doğrudan da demokratik prinsiplərə sadiq olduğumuzu göstərərdi. Amma eyni zamanda görsək ki, hər şey dağılır, onda hər bir vasitə yararlı olacaq, ondan istifadə zəruri olacaqdır. Ona görə də qəzetlərə xəbərdarlıq edirəm: Prezidentə, Prezident Aparatına, dövlət katibinə və başqa vəzifəli şəxslərə qarşı böhtan kampaniyasına son qoysun. Tənqidlə təhqir arasında fərq var, bu birincisi. İkincisi, tənqidin özü də ədalətli olmalıdır.

Burada kadr siyasəti ilə bağlı bəzi çıxışlar oldu. Biz hələ yatmamışıq ki, yuxu gərək. Hansı kadr siyasətindən danışmaq olar ki, hələ elə bir böyük kadr təyinatları aparılmamışdır. Belə söhbətlər uzun müddətdir ki, davam edir. Eyni zamanda bilin, kadr siyasəti ən çətin sahədir. Təəssüf ki, bu keçid dövründə, bu dağınıqlıq dövründə adamların bir çoxunun mənəviyyatı pozulub. Bəli, biri deyir ki, məni işdən çıxardarsan, gedib kommersiya strukturu yaradıb bundan da yaxşı yaşayaram. Bu da həqiqətdir.

Burada deyirlər ki, rüşvətxorluq indi ən yüksək zirvəsinə çatıb. Mən buna razı deyiləm. Mən bu respublikaya 14 il rəhbərlik etmişəm və fəaliyyətə başladığım vaxtdan son günədək, hətta 1982-ci ildə buradan gedib Moskvada işlədikdən 1987-ci ilin sonunda istefaya çıxana qədər rüşvətxorluqla mübarizə aparmışam. O dövrdə də rüşvətxorluq var idi və ona qarşı ən ciddi mübarizəni mən aparmışam. O vaxt cəza nə idi? İşdən çıxarırdıq, partiyadan kənar edirdik (o vaxt bu, çox böyük cəza idi. İndi partiya yoxdur və partiyadan çıxıb getmək elə bir şey deyil). Bəli, bu tədbirləri mən görmüşəm. Həbs cəzasına məhkum edilənlər də oldu. Amma o vaxt rüşvətxorluq üstündə tutulan adamların hamısı sonralar durğunluq dövrünün qurbanları adı ilə ən yüksək vəzifələrə qaldırıldı. Bizim həyatımızın gercəkliyi budurmu? Budurmu ötən iyirmi illik tariximiz? Mən bu tarixin iştirakçısıyam. Mən rüşvətxorluğa qarşı amansız olmuşam. Rüşvət alan adam da, verən adam da cinayət məsuliyyəti daşıyır. O, rüşvəti nə üçün verir? Çünki rüşvət verməyə öyrənib. Mən o vaxt işləyəndə deyirdilər ki, bəzi adamlar rüşvət verməsə, özünü rüşvət alana yaxın hesab etmir. Əgər rüşvət verirsə, demək, o adamla bağlı olur.

İstefaya gedəndən sonra mənim ətrafımda bir adam da qalmadı. Bəziləri deyirdilər ki, bu onunla əlaqədardır ki, Siz heç kəslə bağlı olmamısınız, təkcə ideologiyaya bağlı olmusunuz və bu

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ideologiya da dağılıb getdi. Amma Sizdən sonra gələnlərin ətrafında adamlar var. Bəziləri Moskvada və ya başqa yerdə yaşayır və onların ətrafında bağlı olduqları adamlar var. Amma mən bağlı olmayacağam. Mən bu gün də adamlara mənəviyyatla bağlıyam və mənəviyyatla da yaşayacağam.

Siz elə düşünməyin ki, rüşvətxorluqla bir tək mən mübarizə aparmalıyam. Hamınız mübarizə aparmalısınız. Amma gəlin görək, bu siyasi partiyaların hansı biri rüşvətxorluğa qarşı mübarizə aparır? Hansı biri mafioz qruplarla mübarizə aparır? İndi sponsorluq dəb düşüb, hərənin bir sponsoru var. Qəzetlər nə ilə çıxır? Bu yaxınlarda mən Ali Sovetdə işləyəndə "Azərbaycan" qəzetini çıxarmaq mümkün olmurdu, dayanmışdı, dövlətin pulu yox idi. Amma "Cümhuriyyət" qəzeti həftədə üç dəfə çıxır. "Azadlıq" qəzeti ondan da yaxşı çıxır. "Müsavat" qəzeti "Azərbaycan"dan da böyük çıxır. Onlar bu pulları hardan alırlar? Bunlar qan-tərlə qazanılmış pullardırmı? Bu pullar haradan gəlir? Bu qəzetlər hansı vəsaitlə çıxır? Bu, mafioz qrupların vəsaiti deyilmi? Bəlkə bu qəzetləri babalarından qalmış pullarla çıxarırlar?

Gəlin, açıq danışaq. Mən bütün həyatım boyu rüşvətxorluğa qarşı mübarizə aparmışam və bundan sonra da aparacağam. O vaxt o sistemdə, ətrafımdakı adamlar mane olsalar da, mən tək mübarizə aparırdım. Elə vaxt olurdu ki, rayonun birinci katibinin işini yoxlamaq üçün beş defə komissiya göndərmişdim, üstünü ört-basdır etmişdilər. Altıncı dəfə elə bir komissiya düzəltdim ki, gedib hər şeyi üzə çıxartdı. Həmin adam həm partiyadan çıxarıldı, həm də həbs olundu. Sonra Vəzirov gəldi və bunların hamısını qaldırdı, qəzetlər də yazdılar ki, əgər 1937-1938-ci illərdə Stalində Bağırov repressiyalar edibsə, 1970-ci illərdə də bu repressiyanı Heydər Əliyev etmişdir. Mən hansı repressiyanı etmişəm? Mən rüşvətxora qarşı amansız olmuşam və yenə də olacağam. Oğruya-əyriyə qarşı amansız olmuşam və yenə də olacağam. Mən heç vaxt şəxsi mənafe dalınca getməmişəm, bundan sonra da getməyəcəyəm. Ancaq siz də belə olmalısınız, bütün xalq da belə olmalıdır. İndi hərə bir söz danışır - "rüşvətxorluq, dünyanı götürüb". Yaxşı, bu rüşvətxoru niyə tutub gətirmirsən? Sən onu tut gətir, mənə ver. Əgər cəzasını verməsəm, onda deyərsən ki, cəzasız qaldı.

Mən tamamilə razıyam ki, indi yox, dünən də, on il, iyirmi il bundan qabaq da bizim mənəviyyatımızı pozan rüşvətxorluq olub və ilbəil inkişaf edibdir. Nizam-intizam pozulduğuna görə, hüquq-mühafizə orqanlarının özündə rüşvətxorluq geniş yayıldığına görə bu, get-gedə artıb və ona qarşı mübarizə aparmaq bizim borcumuzdur. Bununla hamı, həm də hərə öz sahəsində mübarizə aparmalıdır. Əgər siyasi partiyaların bu barədə konsepsiyaları

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

varsa, konkret fikri varsa, yaxud konkret bir yerdə rüşvətxorluq haqqında məlumatı varsa, biz onlardan istifadə etməyə hazırıq.

Kadr siyasətini də kənara qoyun. Kadr siyasətində səhv ola bilər. Hələ bizim tərəfimizdən kadr siyasətinə başlanılmayıb. Deyirlər ki, Heydər Əliyevin ətrafında adamlar var. Mənim ətrafımda kim var? Onlar üç-dörd nəfərdir. Mən hesab edirəm ki, onlar da xalqa sədaqətlə xidmət edirlər. Şayiə yaymaqla ictimai fikir formalaşdırmaq lazım deyil.

Burada ali hərbi inspeksiya yaratmaq təklifi də irəli sürüldü, hesab edirəm ki, dəyərli təklifdir, bundan da istifadə edə bilərik.

Güman edirəm ki, bu görüşümüz bütün işlərin başlanğıcı olacaqdır. Biz burada deyilən Məsləhət Şurası və digər təkliflər barədə yaxın vaxtlarda qərar qəbul edərik. Bir daha xahiş edirəm ki, siyasi partiyalar beş gün ərzində öz təkliflərini versinlər: həm danışıqlar aparmaq, həm hərbi yoldan istifadə etmək üçün nə etmək olar. Bu təklifləri verənlərin hamısına əvvəlcədən minnətdarlığımı bildirirəm.

Belə hesab edirəm ki, vaxt çox getsə də, səmərəli söhbət apardıq. Əgər sizin etirazınız olmasa, siz də maraq göstərsəniz, mən çalışacağam ki, görüşlərimiz davam etsin. Güman edirəm ki, bu görüşlərin də faydası olacaq.

Verdiyiniz təkliflərə, məsləhətlərə görə bir daha hamınıza təşəkkür edirəm və arzu edirəm ki, bügünkü görüşümüz Azərbaycanda vətəndaş birliyinin, vətəndaş həmrəyliyinin əsasını qoyan amillərdən biri olsun.

Sağ olun.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

PREZİDENT SARAYINDA BANK-MALİYYƏ, TƏDİYƏ SİSTEMLƏRİNİN VƏ İDXAL-İXRAC ƏMƏLİYYATLARININ VƏZİYYƏTİNƏ VƏ ONU YAXŞILAŞDIRMAQ SAHƏSİNDƏ VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ ÜMUMRESPUBLİKA MÜŞAVİRƏSİNDƏ ÇIXIŞ

19 noyabr 1993-cü il

Respublikamız ağır iqtisadi böhran vəziyyətindədir. 1993-cü il sona çatır. Ölkədə gedən müharibə İqtisadiyyatın vəziyyətinə də ciddi təsir göstərir. Bütün bunlar isə bir sıra ciddi, əsaslı tədbirlər görülməsini tələb edir. Çalışmalıyıq ki, bu tədbirlər İqtisadiyyatda böhran prosesinin qarşısını alsın, iqtisadi potensialdan səmərəli istifadə olunmasına lazımi şərait yaratsın. Müşavirənin də keçirilməsi məhz bu zərurətlə bağlıdır.

İqtisadiyyatın çox sahəsi var, əsas sahəsi isə istehsaldır. Təəssüf ki, bizdə bu sahə son illər get-gedə zəifləyir, istehsalın həcmi aşağı düşür. Bütün bunların əsas səbəbi isə İqtisadiyyatın böhran vəziyyətində olmasıdır. Respublikanın maliyyə imkanları zəifləmiş və bu sahədə ciddi gərginlik yaranmışdır.

İndi Azərbaycan müstəqil dövlət kimi, bir çox ölkələrlə iqtisadi əlaqələr qurmağa başlamışdır. Ancaq bu əlaqələrin respublika İqtisadiyyatına nə qədər mənfəət gətirdiyi hələ məlum deyil. İqtİsadi əlaqələrimizin təşkilində, qurulmasında qüsurlar, səhvlər vardır. Bütün bunlar isə respublikada sosial gərginliyi artırır, adamların həyat səviyyəsinin aşağı düşməsinə səbəb olur və iqtisadi, maliyyə imkanlarımızı çox məhdudlaşdırır.

Bu gün əsasən respublikamızın maliyyə vəziyyəti, istehsal edilən mallardan istifadə, eyni zamanda idxal-ixrac əməliyyatlarının səviyyəsi məsələlərini aydınlaşdırmaq lazımdır. Respublikada istehsal olunan bir sıra məhsulların xaricə satılması, əvəzində lazımi mallar alınması və ölkəmizin ehtiyaclarının təmin olunması əsas məsələlərdən biridir. Ancaq bu sahədə də qarışıqlıq, qanun pozuntuları vardır. Bəzən ayrı-ayrı qrupların, dairələrin mənafeyi ümumrespublika, ümumxalq mənafeyindən üstün tutulur. Ona görə də biz bu sahələrdə istənilən nəticəni əldə edə bilmirik.

Mən istərdim ki, müzakirə zamanı fikirlər açıq-aydın bildirilsin, mövcud vəziyyətə obyektiv qiymət verilsin və lazımi yollar axtarılıb tapılsın.

...Biz bu məsələnin müzakirəsinə çox vaxt sərf etdik, amma, zənnimcə, bu vaxt hədər getmədi. Biz İqtisadiyyatımızın vəziyyətini birgə təhlil etdik. Çıxışların hamısı onu göstərdi ki, Azərbaycanın iqtisadiyyatı, maliyyə-kredit vəziyyəti çox ağır haldadır və əgər ciddi tədbirlər, konkret əməli iş görülməsə, ciddi

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

addımlar atılmasa, iqtisadi-sosial böhran dərinləşəcək və bizdən ötrü daha ağır problemlər yaradacaqdır. Gündən-günə artan inflyasiya, emissiyanın daim davam etməsi maliyyə sistemimizi ağırlaşdırır. Bu da İqtisadiyyatımızın zəifləməsi ilə əlaqədardır. Müşavirə başlanarkən qeyd etdim və indi bir daha təkrar edirəm: həm sənayedə, həm də kənd təsərrüfatında istehsal aşağı düşmüşdür. Maliyyə vəziyyətimizin pisləşməsi və istehsalın azalması bir-biri ilə bağlı problemlərdir.

Müstəqil dövlət kimi sərbəst şəkillə xarici iqtisadi əlaqələr saxladığımıza görə xarici ölkələrlə mal mübaliləsinin və maliyyə əlaqələrinin düzgün qurulmasının iqtisadiyyatımız üçün böyük əhəmiyyəti var. Ona görə də müşavirəni əsasən bu mövzudan başladıq. Çünki iqtisadiyyatımız belə ağır vəziyyətlə olduğu halda, istehsalın aşağı düşdüyü bir şəraitdə həm sənaye, həm də kənd təsərrüfatı məhsullarımızın bir hissəsi başqa ölkələrə, xüsusən keçmiş Sovetlər İttifaqından ayrılan müstəqil dövlətlərə göndərilmiş, lakin haqqı ödənilməmişdir. Bu borc milyardlarla hesablanır. Həm də görünür ki, bu, təsadüfi hal deyildir, əksinə, ayrı-ayrı adamların belə vəziyyətdən istifadə edərək dövlətin, xalqın vəsaitini cürbəcür yollarla mənimsəməsinə yönəldilmiş hallardır.

Bir halda ki, biz müşavirəni respublikadan göndərilmiş malların dəyərinin qaytarılmaması, debitor borclarının yüksək olması mövzusundan başladıq, demək istəyirəm ki, bu çox mühüm məsələdir və bütün başqa məsələlər nəzərdən keçirilərkən unudulmamalıdır.

Baş nazir məlumat verdi ki, görülmüş tədbirlər nəticəsində 8 milyard rubl debitor borcu qaytarılmışdır. Lakin bu azdır. Nazirliklər, o cümlədən maliyyə və İqtisadiyyat nazirlikləri, banklar, ümumən Nazirlər Kabineti həm keçən il, həm də bu il həmin məsələyə fikir verməmiş, onunla məşqul olmamışlar. Bunun nəticəsidir ki, çətin vəziyyətdə olan İqtisadiyyatımızın buraxdığı məhsulların dəyəri respublikaya qaytarılmamışdır. Son günlər Nazirlər Kabinetinin bu sahədə müəyyən tədbirlər görməsi yaxşıdır. Lakin mən kənara məhsul göndərən və bunların dəyəri geri qaytarılmayan nazirliklərə, müəssisələrə, bütün təşkilatlara və onların rəhbərlərinə tapşırıram ki, üç gün müddətində mənə yazılı məlumat versinlər: keçən il və bu il nə vaxt və nə qədər mal göndərilmişdir, nə üçün onların dəyəri qaytarılmamışdır, nə vaxt qaytarılacaq və bundan ötrü hansı tədbirlər görülür.

Çıxış edənlərin bəziləri məlumat verdilər ki, guya həmin mallar klirinq hesablaşmaları üçün göndərilmişdir. Kənd təsərrüfatı naziri də dedi ki, guya Rusiyada hansı bankdasa hesab açılmış və onların göndərdiyi malların dəyəri həmin hesaba geçirilmişdir. Bütün bunların maliyyə baxımından bizim üçün nə qədər zərərli olması barədə deyildi, mən onları təkrar etmək istəmirəm. Əgər bizə məxsus vəsait geri qayıtmayaraq başqa ölkənin bankında bir-iki ay qalırsa, həmin ölkələrdə və respublikamızda inflyasiyanın artması nəticəsində dəyərini itirir, ikinci tə-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

rəfdən isə həmin vəsaitin verə biləcəyi bank faizləri o ölkələrə qalır. Ona görə də mən belə vəziyyəti, bununla əlaqədar heç bir izahatı qəbul edə bilmirəm. Bir daha deyirəm ki, üç gün ərzində müvafiq məlumatlar təqdim edilməli, Prezident Aparatında təhlil olunduqdan sonra mənə məlumat verilməlidir. Bilinməlidir ki, bu borclar nə vaxt qayıdacaq, əgər qayıtmayıbsa, hansı məqsədlər üçün - müxtəlif mallar, ehtiyat hissələri və s. almaqdan ötrü istifadə olunacaqdır. Bu birincisi.

İkincisi, biz gərək ümumiyyətlə, maliyyə işlərimizlə ciddi dəyişiklik edək. Burada bir çox təkliflər verildi. Banklarımız - həm Milli Bank, həm beynəlxalq bank, həm də sahələr üzrə olan banklar öz işlərini əsaslı surətdə yenidən qurmalıdırlar. Onların fəaliyyətində çox böyük qüsurlar var. Son günlərlə dövlət katibinin keçirdiyi müşavirələrlə bu nöqsanlar onların nəzərinə çatdırılmışdır və təcili qaydada aradan qaldırılmalıdır. Banklarımız gərək elə işləsinlər ki, respublikanın maliyyə vəziyyətinin sağlamlaşmasına, maliyyə-kredit məsələlərinin səmərəli şəkildə aparılmasına şərait yaratsınlar. Şübhəsiz ki, bu, ilk növbədə Maliyyə Nazirliyindən tələb edilir. Maliyyə Nazirliyi nəzarətçi kimi yox, bu proseslərin mərkəzində duran dövlət strukturu kimi fəaliyyət göstərməlidir. Bundan sonra Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrlə iqtisadi əlaqələrimiz bank vasitəsilə olmalı, barter əməliyyatları məhdudlaşdırılmalı, yalnız konkret məqsədlər üçün aparılmalıdır. Həmin məsələlər bu gün burada aydınlaşdırıldı və belə hesab edirəm ki, əgər bundan ötrü müvafiq fərman lazımdırsa, o hazırlanıb mənə təqdim olunmalı və biz bu sahədə qayda-qanun yaratmalıyıq. İndən belə bu məsələləri özbaşına buraxmaq olmaz.

Başqa məsələlər də qaldırıldı. Bu söhbətlər həm rublla, həm də valyuta ilə aparılan əməliyyatlara aiddir. Maliyyə işimizin, ümumiyyətlə, iqtisadiyyatımızın sağlamlaşması üçün əsas şərtlərdən biri vergi sistemimizdə qayda yaradılmasıdır. Vergi müfəttişliyi nümayəndəsinin çıxışından göründü ki, bu sahədə qüsurlar çoxdur. Yerdən replikalar da verildi ki, guya onlar hətta müəyyənləşdirilmiş planları da yerinə yetirməmişlər. Belə məlumat verildi ki, inflyasiya nəzərə alınmaqla, həmin planlar 29 faiz ödənilmişdir. Əgər biz sərbəst iqtisadiyyata yol veririksə, müvafiq qanunlar qəbul etməklə vergi sistemini məhkəmləndirməliyik. Mənə elə gəlir ki, bu, iqtisadiyyatımız üçün, maliyyə vəziyyətimizin yaxşılaşması üçün əsas yollardan biridir.

Vergi haqqında qanun qəbul edilmişdir. Ancaq əgər o, bugünkü tələblərə uyğun deyildirsə, ona yenidən baxılmalıdır. Eyni zamanda, vergi ilə bağlı təlimata da yenidən baxmaq lazımdır. Bunlar elə səviyyəyə çatdırılmalıdır ki, qısa müddətdə geniş tətbiq edilsin. Vergi sistemi bütün sahələrdə elə rurulmalıdır ki, dövlət büdcəsinin formalaşmasında əsas yer tutsun. Burada yoxlamalar barədə çox söhbət getdi və mənə elə gəlir ki, bunlar əsaslı söhbət idi. Çıxışlardan belə məlum oldu ki, vergi müfəttişliyinin özü də qanunsuzluqlara yol verir. Əgər vergi müfəttişliyinin işini yaxşı qura bilsək, bu sahədə müvəffəqiyyət qazanarıq.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu, əcac vəzifələrimizdən biri olmalıdır.

Maliyyə işlərimizi lazımi səviyyəyə qaldırmaq üçün, zənnimcə, bank kreditlərinin faizini artırmaq lazımdır. Kreditlərin faizində nə üçün belə fərq olduğunu başa düşə bilmirəm. Burada dedilər ki, Rusiyada bank kreditlərinin faizi təqribən 200 faiz, Azərbaycanda isə 50 faizdir. ona görə də banklara tapşırıram ki, beş gün ərzində bu barədə öz təkliflərini versinlər. Həmin təkliflər nəzərdən keçirilməli və müvafiq tədbirlər görülməlidir. Çünki indi əsas məqsədimiz istehsalı artırmaqdır. Bundan ötrü isə müəyyən vasitələrdən istifadə edilməlidir. Həmin vasitələrdən biri vergi sistemidirsə, digəri bank krediti faizlərinin qaldırılmasıdır. Rusiya ilə müqayisədə kredit faizlərində belə yüksək fərqin olması sui-istifadə üçün geniş imkan açır. Bu imkanı özümüz yaradaraq həmin adamlara vermişik, indi isə deyirik ki, maliyyə vəziyyətimiz nə üçün belə ağırdır. Bir daha təkrar edirəm, bu məsələ ilə bağlı təkliflərinizi beş gün ərzində yazılı şəkildə təqdim etməlisiniz.

Burada belə bir təklif də səsləndi ki, prezidentin yanında vergi siyasəti ilə məşğul olacaq xüsusi orqan yaradılsın. Bu barədə də düşünmək lazımdır. Güman edirəm ki, dövlət katibi, müvafiq müşavir Maliyyə Nazirliyi, banklar və s. ilə razılaşdıraraq öz təkliflərini verməlidirlər.

Bugünkü müşavirədə iqtisadiyyatın sərbəstləşdirilməsi, bazar iqtisadiyyatına geniş yer verilməsi haqqında da geniş söhbət getdi. Bununla əlaqədar mənim mövqeyim aydındır. Bir şeyi başa düşə bilmirəm. Bazar iqtisadiyyatı ümumiyyətlə, sosialist iqtisadiyyatına zidd olan iqtisadiyyatdır. Sosializmə və onun iqtisadiyyatına zidd olan qüvvələr son il yarımda Azərbaycana rəhbərlik etmişlər, həm Milli Məclisin, həm nazirliklərin əksəriyyətinin, həm də ki, dövlətin rəhbərliyində olmuşlar. Əgər mühafizəkar qüvvələr bazar iqtisadiyyatının tətbiqinə mane olurdularsa, bəs sərbəst iqtisadiyyat tərəfdarı olan adamlar nə üçün onu həyata keçirməmişlər? Əgər bacarmırdılarsa, heç olmasa, lazımi qərarlar verib ona yol açmaq mümkün idi. Bu yolda bəzi səhvlər də ola bilərdi. Hər halda buna yol açmaq lazım idi.

Lakin kommunist ideologiyasını, sosialist iqtisadiyyatını daim tənqid edən qüvvələr hakimiyyəti ələ aldıqdan sonra yeni bir iqtisadiyyat tətbiq etmək istəmirdilər. Demək olmaz ki, ümumiyyətlə, bacarmırdılar, tətbiq etmək istəmirdilər. Mən belə başa düşürəm. Əgər doğrudan da istəsəydilər, onun yollarını tapa bilərdilər.

Mən birmənalı deyirəm: biz sərbəst İqtisadiyyata keçməliyik və bu yolda cürbəcür bəhanələr axtarmamalıyıq. Ola bilər ki, bu yolda itkilərimiz, çətinliklərimiz olsun. Ancaq bu yolu keçməliyik. Nemət Pənahovun narahatlığını başa düşürəm ki, 70 il bundan qabaq Sovet hakimiyyəti qurulanda xalqın malını əlindən alaraq ümumxalq mülkiyyəti adı altında birləşdirib dövlətin ixtiyarına verdilər. Bu, müəyyən bir vaxtda cəmiyyətin müxtəlif

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

təbəqələrini bərabərləşdirdi. Lakin bu bərabərləşdirmə bir nəticə vermədi. Beş-altı il əvvəl həmin bərabərləşdirmədən imtina olundu və yavaş-yavaş sərbəst iqtisadiyyata keçilməyə başlandı.

Lakin sərbəst İqtisadiyyata keçməyin yolu hamar deyil. Elə ölkələr var ki, onlar daim sərbəst İqtisadiyyat yolu ilə getmişlər. Bu yolun bir neçə pilləsi olmuşdur. Avropanın inkişaf etmiş ölkələrinin, Amerikanın, Yaponiyanın başqa yolu olmamışdır. Onlar mərhələ-mərhələ bu yolla getmişlər. Bizdə isə 1917-1920-ci illərlə bu yol qırılmış, yeni bir iqtisadi xətt götürülmüşdür. 70 il ərzində bu yeni iqtisadiyyat müəyyən müsbət nəticələr də vermiş, lakin ümumdünya miqyasında qəbul olunmamışdır.

İndi nə edək? Yenə də bənd-bərəni bağlayaq və deyək ki, həmin iqtisadiyyatı saxlamaq lazımdır? Nə vaxtadək saxlayaq? Sizinlə fikir mübadiləsi edirəm. Bəli, bəzi mafioz qruplar qeyri-qanuni yollarla sərvət toplamışlar. Bəzi yerlərdə ola bilər, fabriklərdə, zavodlarda istehsalı aşağı salmışlar ki, sonradan bunları özəlləşdirsinlər. Bəli, belə hallar var. Lakin biz yenidən bunları sosializm sisteminə qaytarmayacağıq ki! Ona görə də sərbəstləşdirmə, özəlləşdirmə getməlidir.

Belə hesab edirəm ki, Milli Məclis özəlləşdirmə haqqında tezliklə yeni qanun qəbul etməlidir. Yanvarda bu barədə qanun qəbul olunmuşdur, lakin o işləmir, çünki bu günün tələblərinə uyğun deyildir.

Bir şeyə təəccüb edirəm. Milli Məclis 1992-ci ilin ortalarından 1993-cü ilin iyununadək mütəmadi fəaliyyət göstərmiş, çoxlu qanun qəbul etmişdir: əlifba haqqında, din haqqında və s. Məncə, bunlar da lazım idi. Ancaq əsas məsələlər barədə qanunlar ya qəbul edilməmiş, əgər qəbul olunubsa, həyata keçirilməmişdir. Bu, təəssüfləndirici haldır.

Əsas məsələlərdən biri özəlləşdirmədir. Bu, asan npocec deyildir. Gəlin bir-birimizi qorxutmayaq. Bu işdə risk etmək lazımdır. Bunsuz bir şeyə nail ola bilmərik. Mənim fikrim belədir ki, gərək riskə gedək, təsirli tədbirlər gərək. Hər şeydən çəkinə-çəkinə dayanıb gözləməyin faydası olmaz. Belə naməlum vəziyyətdə yaşaya bilmərik. Biz keçmiş sistemdən çıxmışıq, başqa sistemə isə girməmişik. Deyirik ki, keçid dövründəyik. Keçid dövrü nə qədər olar? Gəlin bütün gücümüzü, imkanlarımızı cəmləşdirək. Başqa çarə yoxdur. Dayanıb vaxt itirmək olmaz.

Güman edirəm ki, burada fikirlər eypidir. Milli Məclis qısa müddətdə özəlləşdirmə haqqında yararlı, bu günün tələblərinə uyğun gələn qanun qəbul etməli və biz onu həyata keçirməliyik. Gərək ki, Vahid Axundov dedi ki, özəlləşdirmə haqqında qəbul edilmiş əvvəlki qanun ancaq ticarət və xidmət sahələrinə aiddir. Belə olan halda da əgər səkkiz ay bundan əvvəl həmin sahələr özəlləşdirilsəydi, yəqin ki, indi bunun nəticəsi olardı.

Şübhəsiz ki, özəlləşdirmə mərhələ-mərhələ getməlidir. Hər şeyi birdən-birə özəlləşdirmək olmaz. Bəli, doğru deyirsiniz ki, səhmdar müəssisələrin yaradılması özəlləşdirmənin əsas yollarından biridir. Lakin bunu etmək üçün gəlin konkret addımlar

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ataq. Bunun üçün isə qanun qəbul etmək, onun həyata keçirilməsi mexanizmini işləyib hazırlamaq və həyata keçirmək lazımdır.

Baş nazir bildirdi ki, bu barədə iqtisadiyyat Nazirliyinə, iqtisadçılara tapşırıq verilmişdir və onlar həmin məsələ ilə məşğul olurlar. Bu, çox yaxşıdır. Ancaq güman edirəm ki, özəlləşdirmə haqqında bütün qanunlar Milli Məclisə prezidentin adından verilməlidir. Belə ola bilməz ki, Nazirlər Kabineti hansı bir proqramla isə Milli Məclisdə çıxış etsin. Nazirlər Kabineti prezident strukturunun bir hissəsidir. Ona görə də bu məsələlər hazırlanıb prezidentə verilməli və prezident onları Milli Məclisə təqdim etməlidir. Yaxud Milli Məclisin komissiyaları - iqtisadiyyat komissiyası və s. bu məsələləri hazırlayaraq prezidentə verməli, prezident isə Milli Məclisə təqdim etməlidir. Bunun mexanizmi belə olmalıdır.

İxrac-idxal məsələləri haqqında. Mən uzun müddətdir ki, bu barədə düşünürəm və indi də fikrimi bir qədər açıqladım. Gömrük Komitəsinin sədrinə suallar verməyim də təsadüfi deyildir. O, mənim suallarımı dərhal tutmadı. Bir də deyirəm, əgər bu fikrim qəbul olunursa, onu həyata keçirək. Xaricdən daxil olan malların ola bilər ki, bir qisminə mütləq müəyyən vergi qoyulsun, bir qismi isə vergilərdən tamamilə azad olsun. Xahiş edirəm, bu barədə həm Gömrük Komitəsi, həm də xarici iqtisadi əlaqələr və iqtisadiyyat nazirlikləri təkliflərini hazırlayıb bizə təqdim etsinlər. Maliyyə Nazirliyi də bu işlə məşğul olsun.

İxrac olunan mallara qoyulan vergilərə baxmaq lazımdır. Ümumiyyətlə isə bizim gömrük siyasətimiz olmalıdır. Əgər Gömrük Komitəsi bacarırsa, gömrük siyasəti haqqında layihə hazırlayıb qısa müddətdə təqdim etsin. Bu iş də İqtisadiyyat, xarici iqtisadi əlaqələr və maliyyə nazirlikləri ilə birgə aparılmalıdır. Gömrük siyasəti İqtisadiyyatımızın yüksəlməsini təmin edən əsas amillərdən biridir. İndiyədək biz bundan lazımınca istifadə etməmişik. Gömrük idarələrində qanun pozuntuları var, öz vəzifələrindən sui-istifadə edirlər, gömrük işçilərinin rüşvətxorluqla məşğul olması barədə çoxlu siqnal alınır. Rüşvət almamış mal buraxmırlar. Ona görə də biz gərək bir tərəfdən gömrük siyasətimizi tənzimləyək, digər tərəfdən elə edək ki, gömrük qanunları günün tələblərinə uyğun olsun, üçüncü tərəfdən isə Gömrük Komitəsinin sədri Tahir Əliyevə tapşırıram ki, əməkdaşlar arasında geniş iş aparsın, onları rüşvətxorluqdan çəkindirsin.

Bu məsələləri müzakirə edərkən düşündüm ki, bəlkə, üç ay müddətinə kommersiya strukturlarının, cürbəcür şirkətlərin yoxlanmasına moratorium qoyaq. Mən həm Gömrük Komitəsinin sədrinə, həm daxili işlər nazirinə və həm də respublika prokuroruna sual verdim ki, sizin apardığınız bu yoxlamaların iqtisadiyyatımıza nə kimi xeyri olmuşdur? Məni maraqlandıran budur. 1400 cinayət işinin qaldırılması və s. məni o qədər də maraqlandırmır. Gəlin açıq danışaq, ictimaiyyət arasında geniş söhbət gedir ki, bu yoxlamaların hamısında rüşvətxorluq halları olur. Kim bunu inkar edirsə desin ki, belə deyildir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Təklif edirlər ki, vergi polisi yaradaq. Polis elə polisdir. Əgər vergi müfəttişi ciddi işləsə, sağlam təşkilat olsa, çox iş görə bilər. Bir tərəfdən Daxili İşlər Nazirliyi, digər tərəfdən prokurorluq, vergi müfəttişliyi yoxlayır. Bir belə yoxlama gedir. Mən yenə deyirəm, əgər bu yoxlamaların konkret nəticəsini, xeyrini-zərərini bilsəydim, onda razılaşardım ki, xeyri var və yoxlamaları davam etdirmək lazımdır. Yoxlamaların ümumiyyətlə, dayandırılması da düz olmaz. Ona görə də mən bunların üç ay müddətinə dayandırılmasını irəli sürdüm.

SƏDM orqanları vaxtı ilə ləğv olunmuşdu, sonradan onu bərpa etdilər. Indi Vaqif Novruzov deyir ki, onların işçilərinin sayı cəmi 20 nəfər artmışdır. Məsələ heç də işçilərin nə qədər artmasında, onu hansı strukturun hesabına təşkil etməyinizdə deyildir. Məsələ ondadır ki, bu strukturun İqtisadiyyatımıza xeyri nədən ibarətdir. Sosialist iqtisadiyyatı dövründə bu strukturun müəyyən mənası vardı. Baxmayaraq ki, o zaman da bu sahədə işləyənlərin çoxu rüşvətxorluqla məşğul olurdu. Mən bunu açıq deyirəm. İndi ki, biz sərbəst iqtisadiyyata keçirik, belə şəraitlə buna ehtiyac varmı?

Əgər biz vergi haqqında qanun qəbul edərkən onun təlimatında vergi verməyən təşkilatların bağlanması, ciddi iqtisadi sanksiyalar tətbiq olunması kimi müəyyən cəza tədbirləri nəzərdə tutsaq, bələləri haqqında cinayət işi qaldırmağa və bu işə prokurorluğun qarışmasına heç bir ehtiyac qalmaz. Vergini verməyən təşkilatların fəaliyyəti dayandırılsa, iqtisadi yolla onları vergi verməyə məcbur etsək, prokurorluğun müəyyən tədbir görməsinə də lüzum olmayacaqdır. Əslində prokurorluq iki-üç ay bələlərini get-gələ salacaq, sonra işi məhkəməyə verəcək və iş burada da xitam olunacaq. Bunun heç bir xeyri olmayacaq. Bu barədə mən bir neçə aydır ki, düşünürəm. Doğrudur, bu, riskli addım olacaq. Amma hər halda müəyyən eksperimentlərə getməliyik. Məgər bu düzgündürmü ki, neçə ildir özəlləşdirmə keçirmək barədə oturub fikirləşirlər, amma heç bir iş görmürlər? Mənə elə gəlir ki, bu barədə təcili surətdə müəyyən sənədləri hazırlamaq, fərman vermək lazımdır. Amma mən çox istərdim ki, kommersiya strukturlarımızla çalışan adamlar, bank işçiləri, işgüzar dairələr həqiqi iş adamları olsunlar, bu fürsətdən istifadə edib mənfi yollara getməsinlər.

Bir daha qeyd etmək istəyirəm ki, biz iş adamları, biznes, sahibkarlıq üçün şərait yaradacağıq. Bu şəraiti ona görə yaradırıq ki, iqtisadiyyatımız inkişaf etsin. Bu şəraiti ona görə yaratmırıq ki, bir çoxları daha da varlansınlar. Əksinə, biz istəyirik ki, kasıb adamların şəraiti yaxşılaşsın. Bəlkə bu barədə də düşünməyə dəyər, elə bir qanun və yaxud da təlimat hazırlansın, iş adamlarının özləri də bu təşəbbüsə qoşulsunlar ki, biznesin sərbəstliyi həm iqtisadiyyatın inkişafına, həm də xalqın bütün təbəqələrinin həyat səviyyəsinin yüksəlməsinə kömək etsin.

Valyuta birjası, valyuta bazarı yaradılması barədə burada söhbət getdi. Mənə elə gəlir ki, bu təkliflər dəyərlidir və onlara yol açmaq lazımdır. Ancaq bunları hərəkətə gətirmək üçün lazımi şərait yaratmaq, müvafiq qərarlar qəbul etmək, tədbirlər gör-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mək vacibdir. İqtisadiyyat, maliyyə, xarici iqtisadi əlaqələr nazirlikləri, banklar və Prezident Aparatı bunun üçün müvafiq sənədlər hazırlayıb bizə təqdim etməlidirlər.

Burada qiymətlərin qaldırılmasından da söhbət getdi. Şübhəsiz ki, bu çox mühüm məsələdir. Nazirlər Kabineti bu barədə mənə müəyyən təkliflər verib. Güman edirəm ki, bu təkliflərə yaxın günlərdə baxılmalı, müzakirə olunmalı və bu sahədə prinsip etibar ilə ciddi addımlar atılmalıdır.

Mən bu fikirlə razıyam ki, görülən tədbirlər manatın möhkəmlənməsini təmin etməli, onun dönərliyini artırmalıdır. Biz öz manatımızın qiymətini qaldırmalıyıq. Qoy maliyyə, İqtisadiyyat nazirlikləri, banklar bu barədə öz təkliflərini bildirsinlər, nə etmək lazım olduğunu aydınlaşdırsınlar. Bu işdə də qorxub-çəkinmək, lazımi addım atmamaq, heç bir tədbir görməmək daha çox zərərlidir.

Biz xarici investisiyalardan hərtərəfli istifadə etməliyik. Uzun müddət bu sahədə lazımi işlər görülməyib. Srağagün siyasi partiyalarla görüşdə də deyildi, Türkiyədən Azərbaycana 250 milyon dollar kredit ayrılıb. Bu kreditdən indiyədək istifadə olunmayıb. Nə üçün? Gərək Maliyyə Nazirliyi bu barədə vaxtında təkliflər verəydi. Şayiələr gəzir ki, kimlərsə bu krediti bölüb müxtəlif sahələrə ayırmışlar. Bu məsələlərdən mənim xəbərim yoxdur. Belə hesab edirəm ki, bu krediti heç kəs bölə bilməz. Nazirlər Kabineti, Prezident Aparatı, İqtisadiyyat, maliyyə nazirlikləri bu kreditdən istifadə olunması haqqında beş gün ərzində qoy mənə təkliflər versinlər. Biz bu kreditdən dərhal istifadə etməyə başlamalıyıq. Bu kreditin bölünməsi və hansı sahəyə yönəldilməsi məsələləri prezident tərəfindən həll olunacaqdır. Ancaq mən təkliflər gözləyirəm. Bu barədə danışıqları qurtarmaq lazımdır.

Burada malların ixracı məsələsindən də söhbət getdi. Strateji malların ixracı məsələsi ancaq və ancaq prezidentin səlahiyyətində olmalıdır. Təkliflər verilməli və prezident tərəfindən müəyyənləşdirilməlidir. Gəlin belə danışaq ki, bu barədə lazımdırsa, fərman da verilsin, strateji məhsulların ayrı-ayrı təşkilatlar tərəfindən satılmasına son qoyulsun. Mən bu barədə də təkliflər gözləyirəm. Bu məsələ qanuniləşdirilməlidir. Müəyyən olunmalıdır ki, bizim valyutamız nə qədər gələcək və nə qədər gedəcək, hansı malı satıb nə qədər valyuta alacağıq, bu valyutadan necə istifadə olunacaqdır. İxraca gedən strateji məhsullar bir mərkəzdə toplanmalıdır. Mən bunun üçün komissiya yaratmaq fikrindəyəm.

Eyni zamanda vahid valyuta fondu yaradılmalıdır. Bundan sonra valyutamızın bir dollarından da prezidentsiz istifadə olunmayacaq. Vahid valyuta fondunun yaradılması barədə layihə də var,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bu layihə yenidən işləndikdən sonra mən həmin fərmanı imzalayacağam. Valyuta imkanlarımız mərkəzləşdirilməlidir. Valyutadan istifadə olunması, valyuta gətirən malların ixracı mərkəzləşdirilməlidir və bunların hamısı ümumi iqtisadiyyatımızın inkişafına, respublikamızın ağır vəziyyətdən çıxmasına yönəldilməlidir.

Müzakirə olunan məsələlər barədə öz fikirlərimi bildirdim, tapşırıqlarımı verdim. Toxunulmayan məsələlər qalmadı. Güman edirəm ki, bu görüşümüzdən sonra hər bir vəzifəli şəxs iqtisadiyyatımızın bundan sonrakı vəziyyəti haqqında öz məsuliyyətini hiss etməlidir. Azərbaycanın iqtisadi potensialı böyükdür. Biz gərək bu potensialdan səmərəli istifadə edək.

Diqqətinizə görə sağ olun.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

PREZİDENT SARAYINDA RESPUBLİKANIN SOSİAL-İQTİSADİ PROBLEMLƏRİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ ÇIXIŞ

24 noyabr 1993-cü il

Hörmətli müşavirə iştirakçıları!

Hamınıza məlum olduğu kimi, iki gün bundan əvvəl Azərbaycanda çörəyin və çörək məmulatının, yanacağın satış qiymətləri artırılmışdır. Bununla bağlı müəyyən problemlər meydana çıxmış, əhalinin həyat tərzində dəyişikliklər və gərginliklər yaranmışdır.

Hazırda respublika əhalisinin elektrik enerjisi, qaz, istilik və su ilə təminatı, zəhmətkeşlərin yaşayışı ilə bağlı olan digər sahələr qeyri-qənaətbəxş vəziyyətdədir. Nəqliyyat yarıtmaz işləyir. Məhz buna görə belə bir müşavirənin keçirilməsi lazım bilinmişdir. Biz yaranmış vəziyyətdən çıxış yolları axtarıb tapmaq, fikir mübadiləsi keçirmək və qərarlar qəbul etmək istəyirik.

İqtisadiyyatı böhran vəziyyətinə düşən respublikada əhalinin təchizatı üçün zəruri olan məhsulların qiymətləri vaxtında tənzimlənməli idi. Müstəqil Azərbaycan Respublikası başqa ölkələrlə qonşuluqda yaşayır. İqtisadi və insani əlaqələr geniş və hərtərəfli olduğuna görə bu ölkələrdə əhalinin təchizatı üçün lazımi məhsulların qiymətlərinin bir səviyyələ olmaması mənfi hallar yaranmasına səbəb olur, iqtisadiyyatımızın vəziyyətinə təsir edir.

Respublikada maliyyə-kredit vəziyyətinin ağırlaşmasını, inflyasiyanın kəskinləşməsini nəzərə alaraq, bəzi məhsulların qiymətləri, şübhəsiz ki, hələ xeyli əvvəl tənzimlənməli, əhalinin bu məhsullarla təchizatı üçün lazımi tədbirlər görülməli idi. Çörəyin və çörək məmulatının qiymətlərinin artırılması ilin əvvəlində meydana çıxmış problemdir. Ancaq bəzi subyektiv səbəblər üzündən bu məsələ həll olunmamışdır. Sonrakı dövrdə bu problem dəfələrlə qaldırılsa da, müəyyən səbəblərə görə həllini tapmamışdır. Bu səbəblər də aydındır: müharibə şəraitində olan respublikamızda qaçqınların sayı həddən çoxdur, onların vəziyyəti ağırdır. Rayonların bir qismi işğal olunduğuna görə iqtisadiyyata böyük zərbə dəymişdir. Bu da adamların həyat səviyyəsinin aşağı düşməsi ilə nəticələnmişdir.

Yaşayış üçün ən zəruri olan çörəyin və çörək məmulatının qiymətlərini artırmağın məqsədəuyğunluğu həmişə çox böyük şübhə yaratmış, tərəddüdlərə səbəb olmuşdur. Ancaq bizim maliyyə vəziyyətimiz getdikcə ağırlaşdığına və maliyyə-kredit prosesləri çətinləşdiyinə görə bu məsələləri noyabrın 19-da geniş müza-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

kirə etdik. Müşavirədə ciddi təkliflər verildi, qiymətlərin qaldırılmasının zəruriliyi qeyd edildi. Ona görə də iki gün bundan əvvəl bu məsələ öz həllini tapdı.

Yanacaq məhsullarının qiymətlərinin qaldırılması da zərurətdən doğan haldır. Yanacaq məhsulları istehsalı ilə məşğul olan təşkilatlar bu barədə dəfələrlə təkliflər vermişlər.

Biz bu addımları atarkən bilirdik ki, müəyyən çətinliklər yaranacaq. Ancaq iqtisadçılar, bütün rəhbər təşkilatlar bu barədə eyni fikirdə olublar. Bu addım Azərbaycanın İqtisadiyyatının, maliyyə-kredit vəziyyətinin müəyyən qədər sağlamlaşmasına kömək edəcəkdir.

Qiymətlərin artırılması ilə əlaqədar müəyyən kompensasiyalar verilməsi, minimum əmək haqqının artırılması barədə qərar qəbul olunmuşdur. Bütün bunlar əhalinin güzəranının müəyyən dərəcədə yaxşılaşmasına kömək edəcəkdir.

Hazırda respublikanın maliyyə-kredit vəziyyəti çox ağır olduğuna görə zəhmətkeşlərin əmək haqqının, kompensasiyaların verilməsi, minimum əmək haqqının artırılması müəyyən çətinliklər doğurur. Lazımi tədbirlər görülməlidir ki, bu proses normal şəraitdə keçsin və heç bir ciddi mənfi hala gətirib çıxarmasın.

Çörək məhsullarının keyfiyyəti çox aşağıdır. Bu barədə rəhbər orqanlara çoxlu məlumat gəlir. Əhalinin sosial ehtiyaclarını təmin edən sahələr də çətin vəziyyətdədir.

Qiymətlərin artması ilə əlaqədar yaranmış vəziyyət barədə Milli Bankın nümayəndəsi, maliyyə naziri öz təkliflərini verməlidirlər. Nə etmək lazımdır? Gərginliyi necə aradan götürmək mümkündür? Nazirlər Kabineti bu barədə gərək öz fikrini desin. Burada iştirak edən başqa şəxslər də öz mülahizələrini və təkliflərini deməlidirlər ki, biz onları həyata keçirə bilək.

Burada toxunulan bütün məsələlər haqqında fikirlər söylənildi. Müşavirənin keçirilməsi əsasən çörəyin və çörək məhsullarının, neft məhsullarının qiymətlərinin iki gün bundan əvvəl artırılmasının nəticələri ilə əlaqədardır. Bu, eyni zamanda əhalinin istilik, elektrik enerjisi, qaz, su ilə təmin olunması, nəqliyyat xidmətinin yaxşılaşdırılması və digər zəruri sahələrin işi ilə bağlıdır. İstər bir neçə gün bundan əvvəl keçirdiyimiz müşavirədən, istərsə də bugünkü çıxışlardan bir şey aydın olur ki, respublikanın iqtisadiyyatı, maliyyə vəziyyəti dərin böhran keçirir. Təəssüf ki, bu böhran get-gedə dərinləşmiş, onun aradan qaldırılması üçün lazımi tədbirlər görülməmişdir. Bu müşavirəni bir neçə gün əvvəl keçirdiyimiz müşavirənin davamı da hesab etmək olar.

Bu böhrandan çıxmaq üçün respublikada bir sıra konkret addımlar atdıqdan sonra biz əhalinin sosial vəziyyətinə bir daha nəzər salmalıyıq. Yaranmış ağır şərait bir daha göstərir ki, respublikada çox il bundan qabaq və son illərlə bu sahələrə fikir verilməyib, məsələlər başlı-başına buraxılıb, özbaşınalıq baş alıb gedib, planlaşdırma olmayıb, lazımi tədbirlər görül-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

məyib, iqtisadi islahatlar keçirilməyib. İqtisadiyyatın ayrı-ayrı sahələri kimi, sosial sahə də dağılmış vəziyyətdədir.

Energetikanın vəziyyəti barədə çıxış edən M.İmanov belə izah etdi ki, elektrik stansiyalarının avadanlığı, ehtiyat hissələri, elektrik ötürücüləri çatışmır, sifarişlər verilib, amma hələlik heç nə yoxdur. Qaza gəldikdə isə, ölkədə il ərzində cəmi 6 milyard kubmetr qaz çıxarılır, bu da respublikanı təmin etmir. Respublikanı təmin etmək üçün 15 milyard kubmetr qaz lazımdır. Suya gəldikdə, on il bundan qabaq çəkilən kəmərdən başqa şəhərə heç bir su kəməri çəkilməyib. Olan kəmərlərdə isə itki baş alıb gedir. Qazanxanaların işinə gəldikdə, qaz çatışmır, elektrik enerjisi və s. çatmır.

İndi gəlin açıq danışaq. Belə çıxır ki, Azərbaycanda daim tənqid olunmuş, bəzən söyülmüş Sovet İttifaqının, imperiyanın yaratdığı təsərrüfat ondan sonrakı dövrdə dağılıb, üstünə də bir şey gəlməyibdir. Əgər biz müstəqilliyi bundan ötrü əldə etmişiksə ki, olan-qalanı da dağıdaq, özümüz bir şey yaratmayaq, qurmayaq, - axı belə getsə, müəyyən bir vaxtdan sonra hər şey dağılacaq və biz boş yerdə qalacağıq.

Bəli, elektrik stansiyalarımız son illərdə nə təmir olunub, nə yeni avadanlıq alınıb, nə də bir iş görülüb - əlbəttə ki, bunlar dağılıb gedəcəkdir. Nəqliyyat haqqında da burada danışdılar. Mən bu fikirlə razıyam ki, nəqliyyat idarəsinip rəisi lazımi tədbirlər görməyibdir. Ancaq əgər avtobus parkı, başqa nəqliyyat parkları ilbəil təzələnməyibsə və lazımi tədbirlər görülməyibsə, əlbəttə, elə bir gün gələcək ki, bunların hamısı dağılacaqdır.

Mən bu günlərdə metropolitenin rəisi ilə söhbət etdim. O, indi dəmir yol idarəsinin rəisi vəzifəsinə təyin olunub. Metropolitenin işi ilə də mən yaxından tanışam. Xatirimdədir ki, vaxtilə metropoliten tikiləndə biz nə qədər vaqon alırdıq, onun üçün nə qədər avadanlıq, relslər, şpallar gətirilirdi. İndi bunların heç biri alınmır, Azərbaycanda da istehsal olunmur. Əgər başqa yerdən almaq lazımdırsa, bunun üçün pul, vəsait qazanmaq lazımdır. Əvvəllər alınanlar dağılıb gedir. Axı texnikanın, avadanlığın istismar müddəti başa çatdıqdan sonra ondan istifadə etmək mümkün olmayacaq.

Mən dünən axşam hörmətli neftçilərimiz Qurban Abbasov, Xoşbəxt Yusifzadə ilə, neft şirkətinin prezidenti Natiq Əliyevlə geniş söhbət etdim. Xatırladıq ki, 1982-ci illə Azərbaycan 15 milyard kubmetr qaz çıxarırdı. O vaxt qaza tələbatımız bu qədər deyildi. Sovet İttifaqı İrandan da 3 milyard kubmetr qaz alırdı. 18 milyard kubmetr qazın 10-11 milyard kubmetri Azərbaycanda istifadə olunurdu, qalanı isə Sovetlər İttifaqının bu regionda olan respublikalarına verilirdi. İndi 15 milyard kubmetrdən düşmüşük 6 milyarda. Bu qədər qaz, əlbəttə ki, çatmayacaq. İndicə Tariyel Hüseynov dedi ki, tələbat 15 milyard kubmetrdir. Belə getsə, hasilat daha da aşağı düşəcək.

Gəlin bu həqiqəti etiraf edək ki, Respublikamızın iqtisadiyyatına uzun müddət ərzində vurulmuş zərbələr, buraxılmış kobud səhvlər və təsərrüfatsızlıq nəticəsində iqtisadiyyatımız

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

da, xalqın tələbatını ödəməli olan sosial sahə də belə bərbad hala düşmüşdür. Bu vəziyyətdən çıxmaq lazımdır. İndi respublika başqa bir dövlətin tərkibində deyil ki, desin ki, mənə kredit ver, yaxud metal ver, filan qədər qazım çatmır - indi bunlar yoxdur. Bunları ancaq respublikanın daxili imkanları hesabına əldə etmək mümkündür. Əgər respublikanın daxili imkanlarından səmərəli istifadə edilməsə, gəlin etiraf edək ki, bir neçə müddətdən sonra iqtisadiyyatımız bundan da bərbad vəziyyətə düşəcəkdir.

Keçən dəfə bu barədə geniş danışdıq, indi təkrar etməyə ehtiyac yoxdur ki, biz təcili olaraq iqtisadi islahatlar aparmalı, özəlləşdirmə keçirməli, mövcud təsərrüfatı etibarlı əllərə tapşırmalı və ondan səmərəli istifadə olunmasını təmin etməliyik. Çalışmalıyıq ki, istehsal tezliklə artsın.

Maliyyə vəziyyətimiz ağır olduğuna görə, - bunu bir neçə gün bundan qabaq araşdırdıq, - biz qiymətləri artırmağa məcburuq. İndi qiymətlərin artması ilə əlaqədar gərginlik, çətinliklər yaranıbdır. Ancaq bu addım atılmalı idi, biz bu aldımı atmışıq. Burada deyildi, mən bir də qeyd etmək istəyirəm ki, bu qiymətlər ilin əvvəlində, bəlkə də keçən ilin axırında artırılmalı və aybaay indeksləşdirmədən istifadə olunmalı idi. Onda ola bilər ki, birdən-birə belə sərt fərq hiss olunmazdı. Bu fürsət əldən gedibdir. İlin əvvəlindən bu işi görməli olan adamlar ya təcrübəsizlikdən, ya da qəsdən bu işlərlə məşğul olmayıblar. Mən qeyd etdim ki, biz burada işə başladığımız dövrdə bu məsələlər meydana çıxarkən respublikanın həm müharibə şəraitini, həm daxili ictimai-siyasi şəraitini nəzərə alaraq həmin məsələlərin həllinə hələ hazır deyildik. İndi isə bu məsələlərin həyata keçirilməsi zəruridir. Bu, labüd bir qərardır və qəbul olunubdur

Bir fikir də tam həqiqətdir ki, bu tədbirləri hazırlayarkən, verərkən gərək onların həyata keçirilməsinin təminatı qabaqcadan müəyyən olunaydı. Ancaq belə olmayıb və mən də bu fikirdəyəm ki, Nazirlər Kabinetində bu təklifləri hazırlayarkən və bir neçə dəfə mənim qarşımda bunların zəruriliyi barədə məsələ qaldırarkən, qiymətlərin qaldırılmasını tələb edərkən, şübhəsiz ki, bunların həyata keçirilməsi mexanizmini də gərək hazırlayıb mənə təqdim edəydilər. Qiymətlərin qalxması ilə əlaqədar yarana biləcək çətinlikləri aradan götürmək yollarını da gərək qabaqcadan araşdıraydılar, təkliflərini təqdim edəydilər və aydın olaydı ki, çörək məhsullarının, yanacağın qiymətləri qalxarkən əhalinin sosial vəziyyəti nə cür olacaqdır, hansı tədbirlər görülməlidir. Bu tədbirlər təkcə kompensasiyadan ibarət deyil. Kompensasiyanı müəyyən etmişik. Ancaq aydın olur ki, onu ödəmək üçün banklarımızda nağd pul yoxdur. Demək, aydınlaşdırmalı idik ki, bizdə məhz pul çatışmır.

Aydın olur ki, bir çox sahələrdə avqust ayından indiyədək məvaciblər də verilməyibdir. Demək, maaşların verilməsi təmin olunmalı idi. Əgər bunun üçün ölavə pul lazım idisə, vaxtında gətirilməli idi. Şübhəsiz ki, bununla gərək Nazirlər Kabineti məşğul olaydı. Yaxud bu gün maliyyə naziri təklif etdi ki, istiqraz vərəqələrindən istifadə olunsun. Bəs maliyyə naziri 2-3 gün

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qabaq bu məsələnin müzakirəsi vaxtı, bu qərar layihəsini hazırlayarkən deyə bilməzdi ki, biz belə vəziyyətə düşəcəyik, nağd pulumuz yoxdur? Deyə bilməzdi ki, mən bir maliyyəçi kimi belə təklif edirəm və gəlin əvvəlcədən bunu nəzərdə tutaq? Amma bu təklifi yarım saat bundan qabaq, yəni iclasımız başlanmazdan əvvəl verir. Mən toplamışdım bəzi vəzifəli adamları, dedim, gəlin çıxış yolu axtaraq. Orada bu təklif verildi ki, istiqraz vərəqələrindən pul vahidi kimi istifadə etmək olar. Bunların hamısı gərək qabaqcadan hazırlanaydı. Mən şəxsən bu fikirdəyəm ki, belə hazırlıqsız işə getdiyimizə görə çətinliklərlə qarşılaşırıq.

Bir sözlə, zəruri tədbirlər vaxtında həyata keçirilməyibdir. Biz bu işi indi görmüşük və davam etdirməliyik. Hamımız əl-ələ verib bu tədbirlərin həyata keçirilməsini təmin etməliyik. Ona görə də burada verilən təkliflər haqqında təcili qərarlar qəbul olunmalıdır. Bu qərarlardan bir neçəsi haqqında noyabrın 19-da burada keçirdiyimiz müşavirədə demişdim. Məsələn, bank kreditlərinin faizini artırıb 200 faizə çatdırmalıyıq.

İndiyə qədər bu barədə qərar, sənəd yoxdur. Neçə gün keçibdir, bu gün təklif verilir ki, əmanət banklarında əmanət faizlərini artırmaq lazımdır. Ola bilər ki, bu, yararlı təklifdir. Ancaq bunları eyni vaxtda eləmək lazım idi. Burada da gecikirik.

İstiqraz vərəqələrindən istifadə etməyin müəyyən mənfi cəhətləri olsa da , biz buna məcburuq. Ancaq bu barədə təcili qərar qəbul etmək və izahat işi aparmaq lazımdır. Əhali başa düşməlidir ki, əgər manat əvəzinə ona istiqraz vərəqəsi verilirsə, bu istiqraz müəyyən pul vahidinin bərabəridir. Ticarət təşkilatları bilməlidirlər ki, onlar istiqrazı qəbul etməlidirlər və əhalidə bu baxımdan çətinliklər yaranmamalıdır. Bunların hamısı təcili olmalıdır. Bütün bunlar barədə qəbul olunmuş qərarlar həyata keçirilməlidir və bunun üçün Nazirlər Kabineti, nazirliklər, şəhər, rayon İcra orqanları lazımi tədbirlər görməlidirlər. Burada qəbul edilmiş təkliflər əsasında Nazirlər Kabineti təcili olaraq qərarlar qəbul etməlidir və onlar elan olunmalıdır. Bununla yanaşı, hamımız birlikdə - informasiya orqanları, televiziya, nazirlər, İcra hakimiyyəti başçıları, nazirliklərin əməkdaşları, maliyyə işçiləri qəbul olunmuş qərarların mahiyyətini və zəruriliyini izah etməli, xalqa çatdırmalıdırlar.

İndi əsas problemlərimizdən biri ondan ibarətdir ki, banklarımızda nağd pul çatmır. Eyni zamanda dövriyyədə istənilən qədər manat var. Ona görə də dövriyyədə olan pulun banklara - həm Milli banka, həm də başqa banklara, o cümlədən əmanət bankına qayıtmasını təmin etmək lazımdır. Bunun üçün ciddi iş görülməlidir. Burada verilən təkliflərə mən razıyam.

Buraya İcra hakimiyyəti başçıları, nazirlər və nazirliklərin rəhbərləri dəvət olunublar. Bakı şəhəri İcra hakimiyyətinin başçısı, onun müavinləri, Bakı şəhəri rayonlarının, respublikanın bütün rayon və şəhərlərinin icra hakimiyyəti başçıları, icra orqanları gərək bu tədbirlərin həyata keçirilməsi üçün

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ciddi fəaliyyət göstərsinlər. Ticarət orqanlarının hamısının üzərində nəzarət olmalıdır, satılan bütün malların pulu banklara getməlidir.

Bakı Şəhəri Baş Polis İdarəsinin rəhbərliyi, rayon polis şöbələrinin rəisləri bu müşavirəyə təsadüfi dəvət edilməyiblər. Onlar bizim bu göstərişlərimizin həyata keçirilməsi ilə bilavasitə məşğul olmalıdırlar. Ümumiyyətlə, hüquq-mühafizə orqanları - həm polis, həm prokurorluq, həm də milli təhlükəsizlik orqanları bu tədbirlərin, - bunlar isə həm iqtisadi xarakter, həm də öz nəticələrinə görə çox böyük sosial-siyasi məzmun daşıyır, - həyata keçirilməsini təmin etməlidirlər. Gecə-gündüz çalışmalıyıq ki, tezliklə ticarət qaydaya düşsün, ticarətdən əldə olunan pullar mütləq birbaşa dövlət banklarına getsin, beləliklə həmin banklarda nağd vəsait yığılsın və bu vəsaitlə də vaxtı keçmiş məvaciblərin və kompensasiyaların ödənilməsi təmin olunsun.

Burada qeyd olundu ki, bizim kommersiya strukturları, ümumiyyətlə, şirkətlər, kommersiya bankları çox böyük, geniş maliyyə əməliyyatları aparırlar. Bu, həqiqətən belədir. Mən bu gün bütün kommersiya strukturlarına, kommersiya banklarına, özəl şirkətlərin hamısına müraciət edirəm ki, Azərbaycan Respublikasının maliyyə vəziyyətini tənzimləmək üçün, bu tədbirlərlə əlaqədar mənfi nəticələri aradan qaldırmaq üçün bütün fəaliyyətlərini nağd pulların banklara keçirilməsinə yönəltsinlər. Mən bunu sərbəst iqtisadiyyatla tam sağlam təmasda olduğumuza görə müraciət şəklində elan edirəm. Eyni zamanda, Milli Banka, Maliyyə Nazirliyinə və Nazirlər Kabinetinə tapşırıram ki, kommersiya strukturları tərəfindən bu tədbirlərin həyata keçirilməsini təşkil etsinlər, ona nəzarət etsinlər. Nazirlər Kabineti bu barədə lazımi tədbirlər görsün, bütün bu sahələrə nəzarət etsin.

Çörəyin bişirilməsi və vaxtlı-vaxtında satılması, əhalinin bütün təbəqələrinə çatdırılması haqqında da burada söhbət getdi. Təkcə Bakı şəhərində deyil, respublikanın bütün ərazisində, o cümlədən qaçqınların məskunlaşdığı yerlərdə bu məsələlərlə həm Nazirlər Kabineti, həm əlaqədar nazirliklər, həm də müvafiq rayonların icra orqanlarının başçıları ciddi məşğul olmalıdırlar, elə etməlidirlər ki, indi, qiymətlərin qalxdığı bir vaxtda əhalinin bütün təbəqələri öz təminatları üçün çörək ala bilsinlər. Çörək məhsullarının keyfiyyətinə ciddi fikir vermək lazımdır. Güman edirəm ki, Taxıl Məhsulları Dövlət Şirkətində olan nöqsanlar aradan qaldırılmalıdır. Orada buraxılmış səhvlərə və cinayət xarakterli hərəkətlərə görə baş prokurorun dediyi kimi, lazımi tədbirlər görülməlidir. Bir sözlə, hesab edirəm ki, qəbul olunmuş qərarlar həyata keçirilməlidir. Bu sahədə bir tərəfdən zəruri tədbirlər görülməlidir, ikinci tərəfdən informasiya orqanlarımız, iqtisadi, maliyyə orqanlarımız, nazirliklər, İcra orqanları lazımi izahat işləri aparmalıdırlar.

Əhalinin elektrik enerjisi ilə, qazla, su və istiliklə təchizatı məsələlərinə də toxunduq. Həmin idarələrin rəhbərlərinin

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

buradakı çıxışlarını mən qənaətbəxş hesab etmirəm və onlardan tələb edirəm ki, qərarlarla, yaxud da ki, ayrı-ayrı tədbirlərlə, müşavirələrlə öz vaxtlarını keçirməsinlər, əməli işlə məşğul olsunlar və respublikanın bu qış dövründəki ağır vəziyyətində əhalinin, sənayenin, iqtisadiyyatın bütün sahələrinin təchiz olunmasını təmin etsinlər. Bu işlərin hamısını Nazirlər Kabineti öz üzərinə götürməlidir. Nazirlər Kabinetində də müşavirə ola bilər, qərar ola bilər, ancaq əməli iş olmalıdır. Bu gün biz belə qərarlaşdırdıq ki, Nazirlər Kabinetində müəyyən adamlar ayrılacaqdır, onlar bu işə nəzarət edəcəklər və işin təşkilini təmin edəcəklər.

Eyni zamanda, Prezident Aparatının müvafiq rəhbər işçiləri bu məsələlərin bütün sahələrdə həyata keçirilməsinə - həm Nazirlər Kabineti tərəfindön, həm icra orqanları tərəfindən, həm nazirlər tərəfindən həyata keçirilməsinə nəzarət edəcəklər və vaxtlı-vaxtında mənə məlumat verəcəklər. Gərgin vəziyyəti aradan qaldırmaq üçün bu vəzifələrin hamısını təcili həyata keçirməliyik. Ancaq bizim strateji yolumuz ondan ibarətdir ki, ayın 19-da danışdığımız kimi, tezliklə iqtisadi islahatlar keçirməli və iqtisadiyyatda ciddi dönüş yaratmalıyıq. İqtisadiyyat formalarını dəyişdirməklə, insanları həvəsləndirməklə iqtisadiyyatın inkişafını təmin etməliyik.

Güman edirəm ki, fikirlər aydındır. Buraya dəvət olunmuş şəxslərin hamısı bu tədbirlərin yerinə yetirilməsinə məsuliyyət daşıyır və mən tələb edirəm ki, hər bir kəs öz məsuliyyətini dərk edərək, bu tədbirlərin həyata keçirilməsi ilə ciddi məşğul olsun. Gecə-gündüz çalışmaq, bu tədbirləri xalqa izah etmək, eyni zamanda xalqın vəziyyətinin yüngülləşməsi üçün zəruri iş görmək lazımdır.

Sağ olun. Diqqətinizə görə minnətdaram.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

PREZİDENT SARAYINDA MALİYYƏ SİSTEMİNDƏ VƏ ƏHALİNİN TAXIL MƏHSULLARI İLƏ TƏCHİZATINDA OLAN CİDDİ NÖQSANLARIN ARADAN QALDIRILMASINA HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ ÇIXIŞ

8 dekabr 1993-cü il

Hörmətli müşavirə iştirakçıları! Biz noyabrın 19-da respublikanın maliyyə vəziyyətinə, maliyyə-kredit sistemində olan nöqsanlara və bu nöqsanları aradan qaldırmaq tədbirlərinə dair müşavirə keçirdik. Bundan sonra müəyyən tədbirlər görülmüşdür. Müşavirədə və ondan sonrakı dövrdə daha da aşkar oldu ki, respublika İqtisadiyyatının böhran vəziyyətinə düşməsinin əsas səbəblərindən biri də maliyyə vəziyyətinin, maliyyə kredit sisteminin son illərlə ağır halda olması ilə əlaqədardır və eyni zamanda bu sahədə buraxılan səhvlərlə və hətta qeyri-qanuni işlərlə, hərəkətlərlə, pozuntularla bağlıdır. İndi vəziyyətimiz nə qədər çətin, nə qədər ağır olsa da , gərək elə addımlar ataq ki, respublikanı iqtisadi böhranlan çıxarmaq və maliyyə sistemindəki nöqsanları aradan qaldırmaq üçün lazımi əməli tədbirlər görə bilək. Bu sahədə bir hal meydana çıxmışdır. Zənnimcə, bu məsələ çox mühüm xarakter daşıyır və indi mən onu müşavirəmizdə müzakirəyə verib aydınlaşdırmaq istəyirəm. Müşavirəmiz də məhz buna görə çağırılmışdır.

Bununla yanaşı, biz noyabrın 19-da və sonra keçirdiyimiz görüşlərlə respublika əhalisinin taxıl məhsulları ilə təchizatında olan çatışmazlıqlar və bu sahədə yaranmış gərginlik barədə də danışdıq. Həmin sahədə müəyyən işlər görülmüşdür. Lakin onlar lazımi nəticə verməmişdir. Biz bu məsələni dünən də müzakirə etmişik. Ancaq bu gün onu daha geniş tərkibdə müzakirə etməyi, görüləcək tədbirləri müəyyənləşdirməyi lazım bilirəm. Ola bilər ki, müşavirə iştirakçıları bu məsələ ilə, yaxud İqtisadiyyatla əlaqədar başqa təkliflər də irəli sürsünlər. Əlbəttə, bu təklifləri də nəzərdən keçirmək olar.

Maliyyə işində dolaşıq məsələlərin həlli ilə əlaqədar müraciət etməli olduğumuz adamlar dövlətin maliyyə işinin keşiyində durmalı olan şəxslərdir. Əgər maliyyə naziri və yaxud Beynəlxalq Bankın prezidenti vəzifələrindən sui-istifadə edib qanunsuz işlər görürlərsə, onda biz kimə müraciət edək? Bəs bu məsələləri kim araşdırsın? Axı bunlardan yuxarı vəzifəli maliyyəçilərimiz yoxdur. Nazirlər Kabinetinin rəhbərliyi də bu işə qarışırsa (mən baş nazirin birinci müavinini nəzərdə tuturam) onda biz lazım olan adamları haradan tapıb çağıraq?

Mən bu məsələnin çox vacibliyini nəzərə alaraq onu müşavirəyə çıxardım. Müzakirənin gedişi bir daha göstərir ki, respublikanın maliyyə işində pozuntular çoxdur. Qeyri-qanuni çoxlu əməliyyat aparılmışdır. Respublikanın iqtisadiyyatının və maliyyə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

işinin belə böhran vəziyyətində olması da xüsusən bu amillərlə bağlıdır.

Respublikamız ağır bir dövr keçirir, iqtisadiyyat böhran vəziyyətindədir. Maliyyə bizim üçün əsaslı bir sahədir. Əgər bu sahədə işləyən şəxslər ayrı-ayrı kooperativlərin, assosiasiyaların, şirkətlərin mənafeyini, yaxud da onlarla əlaqəli olaraq öz şəxsi mənafelərini ölkənin, xalqın, dövlətin mənafeyindən üstün tuturlarsa və cürbəcür qeyri-qanuni yollara gedirlərsə, bütün bunlar dəhşət doğurur və bir daha sübut edir ki, son illərlə respublika İqtisadiyyatının, çox mühüm sahə olan maliyyənin dağılmasının, böhran halına düşməsinin səbəbləri də birinci növbədə buradadır. Müzakirə etdiyimiz məsələ də buna əyani sübutdur.

Müzakirəyə çıxarılmış bu məsələ, şübhəsiz, istintaq orqanları, xüsusən prokurorluq tərəfindən daha dərindən araşdırılacaq və baş vermiş cinayət halları aydınlaşdırılacaqdır. Biz bu gün cinayətin olub-olmaması barədə hökm vermək və kimlərisə cinayətkarlıqda təqsirləndirmək, məhkum etmək məqsədi daşımırıq. Bu, hüquq mühafizə orqanlarının işidir və onlar bu işlə məşğul olacaqlar. Ancaq biz bu məsələyə qanun mövqeyindən, hüquqi və iqtisadi nöqteyi-nəzərdən baxırığ.

Müzakirə olunan məsələyə bu baxımdan qiymət versək, şübhəsiz, aydın olur ki, Azərbaycanın sabiq prezidenti Əbülfəz Elçibəy, görünür, bizim üçün məlum olmayan səbəblərə görə (ancaq bunun hansı səbəblərə görə olduğunu müəyyən qədər mülahizə etmək mümkündür) "Aran" korperasiyasına xüsusi maliyyə şəraiti yaratmaq üçün birbaşa qeyri-qanuni sərəncam vermiş, qeyri-qanuni iş görmüşdür. Respublika baş nazirinin birinci müavini Vahid Əhmədov və maliyyə naziri Saleh Məmmədov Əbülfəz Elçibəyin verdiyi sərəncamdan da daha dərinə gediblər. Mən o sərəncamı sizə çatdırdım. Orada ancaq "Aran" korperasiyasına 50 milyon ABŞ dolları məbləğində kredit verilməsi və bunun Azərbaycanın ərzaq tələbatını ödəmək məqsədi daşıdığı göstərilsə də, baş nazirin birinci müavini Vahid Əhmədov və maliyyə naziri Saleh Məmmədov onu vekselə çevirərək həyata keçirməyə cəhd göstərmişlər. İndi nəticəsi necə olub - bu veksellər doğrudanmı satılmayıb, yaxud biz bu işin üstünə düşdüyümüzə görə onlar vekselləri kedib dərhal geri gətirməyə məcbur olublar? Həftənin altıncı günü mənə bu məlumat çatan kimi Vahid Əhmədovu və Saleh Məmmədovu dəvət etdim, bu veksellər haqqında söhbət apardım. Onlar mənə çox dolaşıq məlumatlar, izahatlar verdilər. Dedilər ki, guya eşidiblər ki, veksellər satılmır, "Aran" korperasiyasının prezidenti gedib, bəlkə də onları geri gətirəcəkdir.

Ancaq həftənin birinci günü prezident Aparatında yazılı izahat tələb olunarkən Vahid Əhmədov bildirir ki, keçən həftənin dördüncü günü Nazirlər Kabinetinin işçisi onun tərəfindən İsvsçrəyə göndərilmişdir. Həmin adam dövlətin vəsaiti hesabına on gün bundan qabaq İsveçrəyə gedib və guya vekselləri geri gətirəcəkdir.

Mənə elə gəlir ki, Vahid Əhmədov və Saleh Məmmədov bu qeyri-qanuni maliyyə əməliyyatlarının keçirilməsində günahkardırlar. Bu əməliyyatlar respublikanın iqtisadiyyatına, maliyyə vəziyyətinə zərbə vura bilərdi, Azərbaycan hökuməti, Azərbaycan dövləti bundan zərər çəkə bilərdi - bu, belə qiymətləndirilməlidir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Keçmiş prezident Əbülfəz Elçibəyin səhvi və yaxud günahı burada qeyd oluna bilər, ancaq Ə.Elçibəy indi prezident vəzifəsində deyil. Burada Vahid Əhmədov və Saleh Məmmədov bildirdilər ki, keçmiş dövlət katibi və sonra baş nazir olan Pənah Hüseynov onlara təzyiq göstərib və onlar belə qeyri-qanuni hərəkətlərə bu təzyiq nəticəsində yol veriblər. Əgər onlar istintaq vaxtı bunu sübut elə bilsələr, yəqin ki, burada Pənah Hüseynov da günahkardır və o da bunun üçün məsuliyyət daşımalıdır. Ancaq Vahid Əhmədovun və Saleh Məmmədovun günahı artıq aydındır. Mən hesab edirəm ki, Vahid Əhmədov və Saleh Məmmədov tutduğu vəzifələrdə daha qala bilməzlər. Prezident kimi, onları buraxdıqları bu kobud səhvlərə görə vəzifələrindən kənar edirəm. Baş prokuror Əli Ömərova həvalə edirəm ki, bu məsələlər barəsində istintaq aparsınlar, əgər cinayət halları varsa, lazımi tədbirlər görsünlər.

Respublikanın valyuta vəsaitinin əcnəbi banklarda yerləşdirilməsi məsələsi mübahisəli olduğu üçün onun barəsində fikir söyləmirəm. Lakin yenə də sözümün üstünə qayıdıram. Bizim maliyyə işimizdə dolaşıqlıq olanda bunu yəqin ki, yüksək vəzifəli şəxslər həll etməlidirlər. Əgər onlar özləri dolaşıq işlərlə məşğul olurlarsa, qoy onda Milli Məclis və onun iqtisadi siyasət komissiyası xüsusi komissiya təşkil edib, bu məsələni yoxlayıb aydınlaşdırsınlar ki, burada günahkar kimdir.

Bu məsələnin də müzakirəsi bir daha göstərir ki, respublikanın iqtisadiyyatı doğrudan da dağıntı vəziyyətindədir və İqtisadiyyatımızın əsas sahələrindən biri - əhalinin çörəklə və taxıl məhsulları ilə təchizatı bərbad haldadır. Bu sahəni bərbad hala salan adamlar son illərdə həm ona başçılıq edənlər, həm də Respublikanın rəhbərləri olmuşlar. İndi belə bir bərbad vəziyyətlə xalqı çörək və taxıl məhsulları ilə təmin etmək lazımdır. Mal-qara da yemlə təmin olunmalıdır. Bu isə Respublikalan kənardan alınıb gətirilən ehtiyatlar hesabına təmin edilməlidir. Burada Abbas Abbasovun, Feyruz Mustafayevin məlumatlarından aydın oldu ki, bu iş sahələri ilə məşğul olan adamlar, Nazirlər Kabineti və ümumiyyətlə, respublikanın rəhbərliyi son dövrlərlə həmin sahələrin inkişafına nəinki fikir verməyiblər, hətta onların dağılmasına, onlardan hərə öz şəxsi mənafeləri üçün sui-istifadə etməyə çalışıblar. Bunların nəticəsində də cürbəcür bağlaşmalar imzalanıb, Azərbaycanın maliyyə vəziyyəti belə ağır olduğu halda, milyonlarla dollar məbləğində vəsait xarici şirkətlərin hesablarına keçirilib. Lakin bunun əvəzində nə taxıl, nə də qaxıl məhsulları gətirilibdir. Odur ki, indi Respublika böhran vəziyyətindədir.

Güman edirəm ki, belə hallara son qoyulmalıdır. Bunu hamımız qəti şəkildə deməliyik. Bu işlə Nazirlər Kabineti ciddi məşğul olmalıdır. Mən heç cür başa düşə bilmirəm ki, baş nazirin kənd təsərrüfatı üzrə müavini Abbas Abbasov Respublikanın taxıl təchizatı məsələsindən nə üçün kənarda qalıb. Bu işdə kimsə başqaları məşğul olublar. Özü də həm keçmişdə, həm də indi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dövlət Taxıl Məhsulları Şirkəti bərbad vəziyyətdədir. Biz Feyruz Mustafayevi şirkətə prezident təyin etmişik. Orada vəziyyəti tez bir zamanda normallaşdırmaq lazımdır. Eyni zamanda bütün bu bağlaşmaları yoxlamaq, hansı bağlaşma ilə nə kimi məhsullar alındığını aydınlaşdırmaq gərəkdir. Yoxsa bağlaşmanı, dediyiniz kimi, Əli Məmmədov imzalayıb, çıxıb gedib. Beynəlxalq Banka məlumat verib ki, taxıl məhsulları gətirilib. Beynəlxalq Bankın borcu idi ki, taxıl məhsullarının həqiqətən gətirilib-gətirilmədiyini yoxlasın. Əslində isə bu adam 8 milyon dolları götürüb aradan çıxmışdır.

Bax bunların hamısı dövləti dağıdanların, indi müxalifətə keçərək qəzetlərdə haray-həşir salanların Azərbaycan xalqına, Azərbaycan Respublikasına, Azərbaycan dövlətçiliyinə vurduqları zərbədir. Burada onların adları çəkildi, indi mən bu adları heç yada salmaq istəmirəm. Onların bir qismi qaçıb ya Azərbaycanda, ya da xarici ölkələrdə gizlənir, bir qismi isə burada müxalifət qəzetlərində ədalətsiz, böhtançı çıxışlarla məşğuldur Respublikanı bu vəziyyətə salanlar mənəvi əzab çəkmək əvəzinə, məsuliyyət daşımaq əvəzinə cürbəcür böhtanlar atmaqla məşğul olurlar. Təəssüf ki, indi vəzifədə olan şəxslər, Nazirlər Kabineti, nazirlər, Prezident Aparatının bəzi məsul şəxsləri bu işlərlə lazımi səviyyədə məşğul olmur, zəruri tədbirlər görmürlər. Beləliklə də vəziyyətimiz getdikcə pisləşir. Bütün bu hallara son qoyulmalıdır.

Taxıl məhsulları ilə əlaqədar dünən müşavirə keçirdik. Mən Nazirlər Kabinetinə bir daha tapşırıram: Baş nazirin şəxsi məsuliyyəti ilə onun müavini Abbas Abbasov bu məsələlərlə şəxsən məşğul olmalıdır. Taxıl Məhsulları Şirkətinin prezidenti Feyruz Mustafayev də bu işlə məşğul olmalıdır. Tezliklə həmin bağlaşmalar, yaxud digər bağlaşmalar əsasında respublikanın taxıl ehtiyatlarını artırmaq lazımdır. Respublika əhalisinin taxıl məhsulları ilə etibarlı surətlə təmin olunması təşkil edilməlidir. Bu, Nazirlər Kabinetinin əsas vəzifəsidir.

Məhz Nazirlər Kabineti İqtisadiyyat Nazirliyini, Xarici İqtisadi Əlaqədər Nazirliyini və digər əlaqədar nazirlikləri cəlb edib, indiyədək imzalanmış bağlaşmaların hamısını yoxlamalı, onların hansı əsaslarla imzalandığını, nə kimi xeyir gətirliyini, nə kimi ziyan vurduğunu araşdırmalıdır. Nazirlər Kabineti bu işlə ciddi məşğul olmalıdır. Prokurorluq, hüquq-mühafizə orqanları bu faktları ətraflı yoxlamalı və cinayətkarları məsuliyyətə cəlb etməlidirlər.

Bu gün fürsətdən istifadə edərək demək istəyirəm ki, çörəyin və taxıl məhsullarının keyfiyyəti ilə əlaqədar əhalidən yenə də çoxlu şikayət gəlir, narazılıqlar eşididir. Əhalinin çörəklə təchizatının normal səviyyədə olmaması haqqında Bakı şəhərində və respublikanın başqa bölgələrində narazılıqlar var və bu barədə məlumatlar gəlir. Ona görə də İcra hakimiyyəti başçılarına, müvafiq nazirliklərə tapşırılır ki, bu işlərlə ciddi məşğul olsunlar. Bir daha təkrar edirəm ki, tapşırıqlar Nazirlər Kabinetinə, baş nazirə, onun müavinlərinə, hüquq-mühafizə orqanlarına, müvafiq nazirliklərə və onların rəhbərlərinə verilir. Bu işlərlə ciddi məşğul olmaq lazımdır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

CƏBHƏYANI BÖLGƏDƏ - İMİŞLİ, FÜZULİ BEYLƏQAN, ŞƏMKİR, AĞCABƏDİ RAYONLARINDA VƏ GƏNCƏ ŞƏHƏRİNDƏ GÖRÜŞLƏR ZAMANI ÇIXIŞLAR

11-12 dekabr 1993-cü il

Bu gün hamı, ən əvvəl, əli silah tuta bilən kişilər Vətənin müdafiəsinə qalxmalıdırlar. Adını kişi qoyan kəs qaçqın ola bilməz və olmamalıdır, üstəlik buna dözməməlidir ki, düşmən onun doğma torpağını arxayınca tapdalayır, onun xalqının namusuna toxunur. Vətənin müdafiəsi hər bir kəsin müqəddəs borcudur..

C.Naxçıvanski adına ixtisaslaşdırılmış internat məktəbin heç də bütün məzunları Vətənə qayıtmamışlar, halbuki Vətən istiqlaliyyət əldə etdikdən sonra onun başı üstünü dövlətçiliyin itirilməsi təhlükəsi almışdır.

Azərbaycan öz oğullarına - təcrübəli hərbi mütəxəssislərə bu gün həmişəkindən daha çox möhtacdır. Elə mütəxəssislərə ki, həmvətənlərini öz arxasınca aparmağa, düşmənin qarşısında igidliklə durmağa, onu pərən-pərən salıb doğma torpaqdan qovmağa qadirdirlər. Milli Ordunun problemlərinin əksəriyyətinə səbəb son illər bir sıra rəhbər işçilərin öz vəzifələrinə məsuliyyətsiz münasibəti olmuşdur. Bu gün biz hərbi quruculuğa mane olan nöqsanların aradan qaldırılması üçün hər şey edirik. Vaxt gözləmir, onsuz da çox vaxt itirilmişdir. Lakin nə qədər çətin olsa da, biz özümüzü düşmən üzərində qələbəyə hazırlamalıyıq, hərb işinə mükəmməl yiyələnməliyik. İndi bir addım da geri çəkilmək olmaz. Xalq öz ordusuna inanır. Ordu düşmənə layiqli cavab verməlidir.

* * *

Mən qələbəmizə inanıram. Qələbəni biz birlikdə təmin etməliyik. Bu nurlu günün yaxınlaşmasında ordumuza hər kəs əlindən gələn köməyi göstərməlidir. Mən sizi Azərbaycan tarixinin şanlı döyüş ənənələrini və bir çox nəsillərin qəhrəmanlığını xatırlamağa, hamımız üçün rüsvayçı olan məğlubiyyətçilik əhvalı ilə barışmamağa və təcavüzkara qarşı elliklə mübarizəyə qalxmağa, öz doğma diyarını, dövlətin ərazi bütövlüyünü və müstəqilliyini, lazım gələrsə, həyatını qurban verərək qorumağa çağırıram.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

* * *

Müstəqil Azərbaycanın Milli Ordusu ölkə üçün çətin bir zamanda yaralıdır. Çətinliklər əsasən onunla bağlıdır ki, ordu quruculuğu işi onun bölmələrinin erməni təcavüzkarlara qarşı döyüşlərlə iştirakı ilə eyni zamanda həyata keçirilir. İtkilər də var, lakin bu itkilər xalqın iradəsini qırmamışdır. Vətən qeyrəti, onun müqədləs sərhədlərini qorumaq əzmi bu gün arxa cəbhəni ön cəbhə ilə birləşdirmişdir. Bunun sayəsində Azərbaycan ordusu işğal olunmuş əraziləri tezliklə azad edə biləcəkdir.

Eyni zamanda Azərbaycan əvvəlkitək atəşin dayandırılması və münaqişənin dincliklə nizama salınması uğrunda çıxış edir, bunun üçün siyasi və diplomatik səylər göstərir, nüfuzlu beynəlxalq təşkilatların və ölkələrin təsir və imkanlarından istifadə etməyə çalışır. Sülhün başlıca şərti bundan əvvəl işğal olunmuş torpaqların tamamilə azad edilməsidir. Təcavüzkarı cilovlamağa qadir döyüş qabiliyyətli ordu yaradılması sülhə doğru yolla eyni dərəcədə mühüm vəzifədir.

* * *

Səfərdən əsas məqsədim yerlərdə vəziyyətlə tanış olmaq, respublikamız üçün mühüm problemlərin həlli ilə əlaqədar bəzi tədbirlər görməkdir. İlk növbədə respublikanın müdafiəsi ilə bağlı məsələlər, erməni silahlı qüvvələri tərəfindən işğal olunmuş rayonlardan qaçqın düşmüş vətəndaşlarımızın yaşayışının təmin edilməsi və bir neçə başqa məsələ ilə əlaqədar müzakirə keçirmək niyyətindəyəm.

Məlumdur ki, indi respublikamız özünün ağır, demək olar, faciəli dövrünü yaşayır. Ölkə ağır sosial-iqtisadi böhran içərisindədir. Erməni silahlı qüvvələrinin təcavüzü nəticəsində qərpaqlarımızın bir qismi işğal olunmuş, bir milyondan çox vətəndaşımız qaçqın vəziyyətindədir. Belə bir dövrdə daha ciddi, cəpt tədbirlər görmək lazımdır ki, respublika bu ağır vəziyyətdən çıxa bilsin.

İndi əsas vəzifə respublikanın etibarlı müdafiə edilməsi və qaçqın düşmüş vətəndaşlarımızın yaşayışının lazımi səviyyədə təmin olunmasıdır. Bunlar bu günün vəzifələridir. Gələcəkdə isə Respublikamızın işğal edilmiş torpaqları geri qaytarılmalı, Azərbaycanın ərazi bütövlüyü təmin edilməli, Azərbaycan dövləti bütün torpaqlarının, bütün sərvətlərinin sahibi olmalıdır. Həmin vəzifələri yerinə yetirmək sizinlə birlikdə bizim öhdəmizə düşmüşdür. Bu baxımdan yerli hakimiyyət orqanlarının rolu çox böyükdür. Həmin vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi onların işindən çox asılıdır. Ona görə də bu səfərə çıxarkən ətraf rayonların rəhbərlərinin dəvət olunmasını məsləhət gördüm. Qeyd etdiyim kimi, yerlərdə vəziyyəti öyrənmək istəyirəm. Əgər operativ məsələlərin həllinə imkan olarsa, bunu da təmin edə bilərik. İcra başçıları öz rayonla-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

rındakı vəziyyət haqqında, xüsusən qaçqınların yerləşdirilməsi və onların yaşayışının təmin edilməsi, orduya səfərbərliyin gəlişi və rayonların orduya köməyi haqqında məlumat versinlər. Bir daha nəzərinizə çatdırıram ki, indi başlıca vəzifəmiz ordunu möhkəmləndirmək, onun müdafiə, döyüş imkanlarını artırmaq və Azərbaycanı erməni təcavüzündən etibarlı şəkildə qorumaq, sonra isə işğal olunmuş torpaqlarımızı geri qaytarmaqdır.

Bildiyiniz kimi, son vaxtlar Ermənistanla Azərbaycan arasında gedən müharibənin dayandırılması üçün bir neçə tədbir görmüş, atəşin kəsilməsinə müəyyən qədər nail olmuşuq, məsələnin sülh danışıqları yolu ilə həllinə üstünlük vermişik. Siyasi tədbirlər, diplomatik tədbirlər çox görülmüş, beynəlxalq təşkilatların - BMT-nin, ATƏM-in, onun Minsk qrupunun imkanlarından faydalı istifadə etməyə çalışmışıq. Lakin bunlar hələlik istənilən nəticəni verməmişdir. Ermənistan rəhbərliyi ilə də danışıqlar aparılmışdır və indi də aparılır. Rusiyanın vasitəçilik imkanlarından da istifadə etməyə çalışmışıq. Hətta Dağlıq Qarabağı idarə edən müəyyən qüvvələrlə də danışıqlar aparılmışdır. Atəşi dayandırmaq üçün sazişlər bağlanmışdır. Lakin bu danışıqlar işğal olunmuş torpaqların sülh yolu ilə geri qaytarılmasını hələ ki, təmin elə bilməmişdir. Buna baxmayaraq, biz gələcəkdə də bu vasitələrdən istifadə edəcəyik. İctimaiyyət, siz bunu bilməlisiniz. Hesab edirik ki, bu vasitələrin imkanları hələ tükənməmişdir və onlardan daha səmərəli istifadə etməyə çalışacağıq.

Ancaq bəzi hallarda atəşkəs barədə razılıq pozulur. Dünən Beyləqan istiqamətində də belə olmuşdur. Ona görə də məsələnin sülh yolu ilə həllinə səy göstərməklə yanaşı, müdafiə imkanlarımızı da gücləndirməliyik.

Sizə məlumdur ki, noyabrın 2-də mən Azərbaycan televiziyası və radiosu ilə xalqımıza, respublikanın bütün vətəndaşlarına müraciət etmişəm. Həmin müraciətdən sonra respublikada ciddi dəyişikliklər müşahidə olunur. Lakin bunlar hələ müdafiə imkanlarımızı, ordumuzun döyüş qabiliyyətini lazımi səviyyəyə çatdırmamışdır. Yerli hakimiyyət orqanları bu mühüm məsələnin həllində çox böyük rol oynamalıdırlar. Ona görə də İcra başçılarının çıxışlarında bu məsələyə mütləq toxunulmalı və görülən işlər barədə məlumat verilməlidir. Bir daha nəzərinizə çatdırıram ki, məlumatlar çox qısa, yığcam olmalıdır, çünki vaxtımız məhduddur və hər bir kəs öz iş yerində olmalıdır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

CƏBHƏYANI RAYONLARDA YARANMIŞ VƏZİYYƏTLƏ ƏLAQƏDAR AĞCABƏDİ VƏ GƏNCƏDƏ KEÇİRİLMİŞ MÜŞAVİRƏLƏRDƏ YEKUN ÇIXIŞI

Bizim problemlərimiz çoxdur. Müşavirəyə isə yalnız iki-üç məsələ ilə əlaqədar toplaşmışıq. Burada verilən məlumatlardan aydın oldu ki, işğal edilmiş torpaqlardan köçməyə məcbur olan vətəndaşlar respublikanın bir çox rayonlarında məskunlaşmışlar. Onların bəziləri ailələrlə, müxtəlif binalarda yerləşdirilmişdir, bir hissəsi isə çadırlarda yaşayır.

Noyabrın 2-də xalqa müraciət edərkən demişdim ki, respublika əhalisinin əksəriyyəti, xüsusən kənd rayonlarının sakinləri yaxşı evlərdə yaşayırlar. Hər ailə bir qaçqın ailəsinə öz evində yer versə, ola bilsin, bizim bu problemimiz aradan qaldırılacaqdır. Keçmişdə belə bir təcrübə olmuşdur. 1941-1945-ci illər müharibəsi zamanı Rusiyanın qərb vilayətlərindən, Ukraynadan, Belarusiyadan Azərbaycana köçüb gəlmiş qaçqınlar qonaqpərvərliklə qarşılanmış, onların bir çoxunu adamlarımız öz ailələrində qəbul etmişdilər. Müharibə qurtardıqdan sonra isə onlar öz yerlərinə qayıtdılar.

İndi bizim doğma bacı və qardaşlarımızı, müstəqil Azərbaycanın vətəndaşlarını imkanı olan adamlar - belələri isə çoxdur - öz evlərində saxlasalar, çörəklərini onlarla bölüşdürsələr, bu problemin həlli çox asanlaşar. Şübhəsiz, bu mənim arzumdur. Bu arzumu bildirir və güman edirəm ki, çoxları buna səs vermişdir. Burada verilən məlumatlardan aydın oldu ki, ayrı-ayrı ailələr təkcə qohum və tanışlarını deyil, başqalarını da gətirib saxlayırlar. Bir də ki, axı biz hamımız azərbaycanlıyıq, hamımız qohumuq. Qohumluq yalnız qan qohumluğu demək deyildir, Azərbaycan xalqının soykökü birdir. Ona görə də hər bir qaçqını qəbul edib sığınacaq vermək, şərait yaratmaq bizim tarixi, milli, mənəvi ənənələrimizə tam uyğun olardı. Güman edirəm ki, gələcəkdə də bu istiqamətdə iş görüləcəkdir.

Eyni zamanda qaçqınların, köçkünlərin yerləşdirildiyi rayonların rəhbərləri onlara daha yaxşı qayğı göstərməlidirlər. Bu, sizin vəzifənizdir və onun layiqincə yerinə yetirilməsini tələb edirəm. Rayon rəhbərləri dedikdə mən həm İcra orqanlarının, təsərrüfat orqanlarının, həm də sovetlərin, hüquq-mühafizə orqanlarının başçılarını nəzərdə tuturam. Onların hamısı çalışmalıdır ki, ev-eşiklərini tərk etmiş bacı-qardaşlarımız, vətəndaşlarımız ağır vəziyyətə düşməsinlər, müvəqqəti yaşayış yerlərində lazımi səviyyədə dolana bilsinlər. Güman edirəm ki, bu vəzifənin yerinə yetirilməsi üçün bundan sonra daha böyük səy göstərəcəksiniz.

Respublika nazirlikləri, komitələri, baş idarələri rəhbərlə-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

rinin bir qismi məhz bu məqsədlə müşavirəyə dəvət edilmişdir. Onlar öz imkanlarından istifadə ederək qaçqınların problemləri ilə məşğul olmalıdırlar. Bu, onların ümdə vəzifəsidir.

Çıxış edənlər qaçqınlara yardım göstərilməsi sahəsində yaranmış vəziyyətdən də danışdılar. Doğrudan da, bu məsələdə çox pərakəndəlik var. Xarici ölkələrdən də çoxlu humanitar yardım göndərilir. Lakin mən indiyədək bu yardımların necə, hansı xətlə qaçqınlara çatdırıldığını araşdıra bilməmişəm. Düzdür, Nazirlər Kabinetində bu işlə məşğul olan adamlar var, o cümlədən də baş nazirin müavini Əsgər Məmmədov. Ancaq çıxışlardan belə başa düşdüm ki, bu iş lazımi səviyyədə qurulmamışdır. Ona görə də Nazirlər Kabinetinə, şəxsən Əsgər Məmmədova tapşırıram ki, Dövlət Qaçqınlar Komitəsi ilə birlikdə xaricdən göndərilən humanitar yardımın tənzimlənməsi, ədalətli şəkildə bölüşdürülməsi, həqiqətən ehtiyacı olan adamlara çatdırılması ilə ciddi məşğul olsunlar. Təəssüf ki, humanitar yardım kimi göndərilən malların dağıdılması, mənimsənilməsi, ehtiyacı olan qaçqınlara - çatdırılmaması halları vardır. Hətta ehtiyacı olmayan adamlar bu yardımdan istifadə edirlər. Buna nəinki yol vermək olmaz, həm də bu, cinayət xarakterli hallardır və hökmən qarşısı alınmalıdır.

Noyabrın 2-də mən Azərbaycanın bizneslə məşğul olan iş adamlarına, imkanlı adamlara da müraciət etmişdim ki, şəxsi yardım göstərsinlər. Sonra televiziyada, mətbuatda xəbər verildi ki, bu çağırışa qoşulan adamlar var və onlar öz imkanlarından istifadə edərək ehtiyacı olan qaçqınlara, köçkünlərə kömək göstərmək istəyirlər, bir çox ailələrin təminatını öz öhdələrinə götürmüşlər. Lakin mənə elə gəlir ki, bu, müəyyən qədər kampaniya xarakteri daşımışdır və indi bir qədər zəifləmişdir. Eyni zamanda bu iş də pərakəndə haldadır. Ona görə də burada irəli sürülən təklifləri düzgün hesab edir və Nazirlər Kabinetinə, şəxsən Əsgər Məmmədova tapşırıram ki, bu məsələlər də mərkəzləşdirilsin.

Şübhəsiz ki, hər bir biznesmenin, iş adamının təşəbbüsü bəyənilməlidir. Ancaq aydınlaşdırmaq lazımdır ki, bu yardım haraya göndərilir, kimə çatır. Məsələn, çıxışlarda deyildi ki, maşınlarla rayon mərkəzinə gətirilən yardım bir neçə yerə paylanır, bəzən isə heç yarısı da paylanmır. Belə tədbirlər reklam xarakteri daşıyır. Bizə isə reklam yox, həqiqətən ehtiyacı olan adamlara kömək göstərilməsi lazımdır. Bu işdə lazımi qayda yaratmaq üçün Əsgər Məmmədov xüsusi tədbirlər görməli, bu barədə mənə müntəzəm məlumat verməlidir. Başqa sözlə, bu işlər mərkəzləşdirilməli və normal qaydada, intizamlı şəkildə həyata keçirilməlidir. Mən qaçqınların bütün problemləri üzərində dayanmaq istəmirəm. Güman edirəm ki, bu deyilənlər yerlərlə, nazirliklərdə həmin problemlərlə daha ciddi məşğul olmaq üçün tapşırıqdır və ona əməl olunmalıdır.

Respublikanın müdafiə qabiliyyətini möhkəmləndirmək sahəsində görülən işləri müsbət qiymətləndiririk. Ancaq bu sahədə-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ki vəziyyət bizi hələ qane etmir. Ordumuz daha da güclənməli, səfərbərlik işi davam etdirilməlidir. Müşavirənin gəlişində qeyd etdim ki, elə bu səfər zamanı biz orduda xidmət etməyə qadir olan xeyli cavan adamlar gördük. Rayon İcra hakimiyyətlərinin başçıları, hərbi komissarlıqlar, hüquq-mühafizə orqanları, Müdafiə Nazirliyi bu işlə ciddi məşğul olmalıdırlar. Güclü orduya malik olmağımız müharibə vəziyyətindən sülh yolu ilə çıxmağımız üçün də böyük zəmin yaradacaqdır. Ona görə də güclü ordu yaradaraq respublikanın etibarlı müdafiəsini təşkil etmək, eyni zamanda sülh danışıqlarını qüvvəmizə arxalanaraq aparmaq istəyirik.

Səfərbərlik zamanı qarşıya çıxan hər kəsi orduya göndərmək lazım deyildir. Bizim imkanlarımız genişdir. Səfərbərliyə alınaraq orduya göndərilənlər layiqli adamlar olmalıdırlar. Onlar yaxşı seçilməli, hərbi xidmət keçmiş adamlar, mütəxəssislər olmalıdırlar. İndi ordumuza hərbi peşələrin sirlərinə bələd olan adamlar lazımdır. Belələri qısa müddətdə ordu sıralarında öz yerlərini tapa, layiqli xidmət edə, ordunu gücləndirə bilərlər. Adamları məcburi surətdə, zorla tutub orduya göndərmək lazım deyildir. Çünki indi bizim öz xalqına, Vətəninə həqiqətən sədaqətli olan, torpağını can-başla, ürəkdən müdafiə etmək istəyən adamlarımız çoxdur, onları cəlb etməliyik. O adamlar ki, hələ öz vətəndaşlıq borcunu başa düşmürlər, qoy bir qədər də gözləsinlər.

Məsələn, bu gün bizə məlumat verdilər ki, dünən bu yaxınlıqda erməni silahlı qüvvələri bir neçə tankla hücuma keçmişlər. Həmin hücum vaxtı Bakının Binəqədi rayonunda təşkil edilmiş batalyonun şəxsi heyətinin əksəriyyəti (mən batalyonun komandiri ilə qospitalda görüşdüm. O, yaralanmışdır) tankların səsini eşidən kimi qaçmışdır. Bəziləri silahını da qoymuş, bəziləri isə silahla qaçmışlar. Həm də nəinki döyüş mövqeyini tərk etmiş, hətta Bakıya doğru qaçmışlar.

Ağcabədi rayonunun ərazisində başqa bir batalyonda görüşdük. O, Göytəpədən (Prişibdən) gəlmişdir və "Göytəpə batalyonu" adlandırılır. Bu batalyon döyüş mövqeyini tərk edən batalyonun əvəzinə göndərilmiş, həmin mövqeni müdafiə etmiş, erməni silahlı qüvvələrinin hücumunun qarşısını alaraq geri oturtmuşdur.

Görürsünüz, bu batalyonların hər ikisində xidmət edənlər bizim övladlarımızdır, hamısı Azərbaycanın vətəndaşıdır. Lakin bir dəstə qorxaqlıq, mən deyərdim ki, satqınlıq etmiş, tankın səsini eşidən kimi döyüş mövqeyini qoyub qaçmış, digər dəstə isə, əksinə, cəsarət göstərərək düşmənin hücumunun qarşısını almışdır. Mən sonuncuların bir hissəsi ilə görüşdüm. Onlar bildirdilər ki, biz ölərik, lakin geri dönmərik. Xalqımıza sədaqətlə xidmət edəcəyimizə, torpağımızı müdafiə edəcəyimizə əmin ola bilərsiniz.

Onların bu qətiyyəti məni çox sevindirdi. Belə hallar çoxdur. Xalqımızın əksəriyyəti bu əhval-ruhiyyə ilə yaşayır. Burada doğru dedilər ki, belə cavanlar əsasən zəhmətlə böyümüş adamlardır. Onlar xalqımızı ürəkdən sevirlər. Xalqın, ölkənin sərvətlərin-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dən gen-bol istifadə edərək qeyri-qanuni yolla varlanmış ailələrdən olan adamlarla isə hələ Vətən, torpaq hissi yoxdur və bəlkə də olmayacaqdır. Biz həqiqi, vətənpərvər azərbaycanlılara güvənirik. Belələri əksəriyyət təşkil edir. Güman edirəm ki, əgər siz - İcra başçıları, hərbi komissarlar, hüquq-mühafizə orqanlarının rəhbərləri, hərbi hissələrin komandirləri, Müdafiə Nazirliyinin rəhbərliyi belə cəsarətli, qeyrətli gənclərin qüvvəsindən səmərəli istifadə etsəniz, müdafiə imkanlarımız qısa bir müddətdə artacaq və respublikanın etibarlı müdafiəsini təmin edərək işğal olunmuş torpaqlarımızı geri qaytaracağıq. Son üç gün ərzində erməni silahlı qüvvələri Beyləqan, Ağcabədi istiqamətində müntəzəm olaraq hücum edirlər. Ancaq məmnuniyyət hissi ilə qeyd edirəm ki, bu hücumların qarşısı alınmışdır. Biz tərəfdən atəşkəs pozulmamış və heç bir hücum olmamışdır. Lakin qanlı döyüşlər zamanı erməni silahlı qüvvələrinin hücumlarının qarşısı alınmış, onlar öz məqsədlərinə nail ola bilməmişlər. Bizim də itkilərimiz var. Ancaq Ermənistanın verdiyi itkilər daha çoxdur. Son hücumlar göstərir ki, erməni işğalçıları danışıqlarla barışığa gəlmək təklifi irəli sürsələr lə, öz çirkin niyyətlərindən əl çəkmirlər. Digər tərəfdən, onlar bu hücumları ilə istədiklərinə nail ola bilmirlər, layiqli cavab alaraq geri çəkilirlər.

Ordu hissələrimizin həmin mövqelərdə ciddi döyüşlər aparması vəziyyətin müəyyən qədər dəyişdiyini, onların lazımınca idarə olunduğunu göstərir. Əgər son dövrlərə nəzər salsaq, bu dediklərim kiçik də olsa, əlamətdar haldır. Bu onu göstərir ki, gücümüzü toplaya bilsək, adamlarda vətənpərvərlik hissini gücləndirə bilsək, inamı artıra bilsək, daha doğrusu, inam yarada bilsək, torpaqlarımızı müdafiə edə biləcəyik. Artıq geriyə yol yoxdur. İndi müdafiə mövqelərimizdən bir addım da geri çəkinmək olmaz. Ordu da, xalq da, siz də bilməlisiniz ki, bundan sonra heç bir məğlubiyyətə yol vermək və ona dözmək olmaz.

Son günlər şəhid olmuş döyüşçülərimizin ailələrinə başsağlığı verirəm və bir daha bildirirəm ki, Vətən yolunda həyatını qurban verənlərin xatirəsi qəlbimizlə əbədi yaşayacaqdır.

Ordumuz xalqın qayğısı ilə əhatə olunmalıdır, çünki o, xalqın bir hissəsidir. Hər bir vətəndaş orduya hörmətlə yanaşmalı, hər bir gənc hərbi xidməti özünə şərəf saymalıdır. Bunu mətbuatda da geniş təbliğ etmək lazımdır. Orduda xidmət edən adamlar bilməlidirlər ki, xalq onların bu işini yüksək qiymətləndirir. Ermənistanla həmsərhəd rayonların rəhbərləri öz çıxışlarında əmin etdilər ki, ordu hissələri ilə birlikdə, onlarla sıx əlaqədə ərazimizin müdafiəsini təmin edəcəklər. Mən bu bəyanatları qəbul edirəm və əmin olduğumu bildirmək istəyirəm ki, bu sözlər əməli işlərlə tamamlanacaq. Biz həmin bölgədə bir addım da olsun geri çəkilməyəcəyik. Ordu öz vəzifəsini layiqincə yerinə yetirməlidir. Ancaq rayon rəhbərləri bilməlidirlər ki, haradasa azacıq da olsa, geri çəkilməyə yol versələr, bundan ötrü başları ilə cavabdehdirlər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ermənistanla həmsərhəd rayonların rəhbərlərinə bir daha deyirəm: Siz rayonun ərazi bütövlüyünə cavabdehsiniz. Əgər geri çəkilsəniz, hər hansı mövqeyi təhvil versəniz, buna heç bir vəchlə bəraət qazandıra bilməyəcəksiniz, əksinə, mühakimə olunacaqsınız. Mən xəbərdarlıq edirəm, bundan sonra belə hallar bağışlanmayacaqdır. Hər birimiz, sizinlə birlikdə mən də Vətən yolunda, xalqımızın gələcəyi naminə özümüzü qurban verməyə hazır olmalıyıq. Eyni zamanda imkanlarımızdan səmərəli istifadə etməliyik ki, Vətəni müdafiə edək, itkilərimiz də az olsun.

İşğal olunmuş rayonların rəhbərləri, hörmətli, adlı-sanlı adamları harada yaşamalarından asılı olmayaraq, həmin rayonların geri qaytarılması barədə düşünməlidirlər. Kəlbəcər rayonunun başçısı çıxış edərkən mən təsadüfən demədim ki, siz artıq Kəlbəcəri unutdunuzmu? İnsanlar belədir ki, bir müddət keçdikdən, özlərinə, necə deyərlər, yuva düzəltdikdən sonra əvvəllər yaşadığı yeri az qala tamam unudurlar. Güman edirəm ki, kəlbəcərlilər belə edə bilməzlər. Təkcə onlar yox, ağdamlılar, laçınlılar, cəbrayıllılar, füzulililər, qubadlılılar, zəngilanlılar, şuşalılar, keçmiş Dağlıq Qarabağla yaşayan azərbaycanlılar da - bir sözlə, hamı bu torpaqları necə geri qaytarmaq barədə düşünməlidir.

Siyasi, diplomatik işləri görürük. Bu işdə kənardan köməyə ehtiyacımız yoxdur. Lakin bu işləri aparmaq üçün və bunlar nəticə verməsə, ən son məqamda torpaqlarımızı qanımızın, canımızın bahasına olsa da, geri qaytarmaq üçün işləməli, çalışmalı, qüvvələrimizi toplamalıyıq. İşğal olunmuş rayonların cavanlarının hamısı olmasa da bir hissəsi gəlib orduda xidmət etsə ordumuz da güclənər, biz də arxayın olarıq ki, nəyin bahasına olur-olsun, torpaqlarımızı geri qaytaracağıq. Bu barədə düşünmək lazımdır. Başqa rayonlarda da səfərbərlik işinə ciddi fikir verilməlidir.

Mən bir neçə hərbi hissədə əsgərlərlə, zabitlərlə görüşmüşəm. Onlarda Vətənə, xalqa xidmət etmək əhval-ruhiyyəsi yüksədir. Lakin çox iş görməliyik ki, orduda daimi xidmət edən hərbçilər olsun, onlar öz peşələrinin sirlərinə yiyələnsinlər və cəbhənin istənilən yerində torpaqlarımızı müdafiə edə bilsinlər.

Şübhəsiz ki, orduya təsadüfi adamlar da gəlir. Çıxışlarda qeyd edildi ki, həm Füzuli, həm Cəbrayıl, həm də Zəngilan rayonlarında hərbi xidmətdən şəxsi məqsədləri üçün istifadə edərək ordunu dağıdan adamlar da çox olmuşdur. Son məğlubiyyətlərimiz də ordu yaradılandan bəri onun daxilində xəyanətkar, cinayətkar ünsürlərin çox olmasının nəticəsidir. Təəssüf ki, bələləri orduda yüksək vəzifələr də tutmuşdur. Təsadüfi deyil ki, Müdafiə Nazirliyinin keçmiş rəhbərləri cinayət məsuliyyətinə cəlb edilmişlər və indi həbsxanadadırlar.

Yaxud ordunun bir qismini parçalayaraq Azərbaycanın müdafiə imkanlarını xeyli zəiflətmiş Əlikram Hümbətov kimi quldur indi həbs edilmişdir. Ancaq təəssüf ki, vaxtı ilə yüksək vəzifəli şəxslərin havadarlığı nəticəsində o, Azərbaycana böyük zərbə vurdu, ordunun bir hissəsini cəbhə bölgələrindən uzaqlaşdıra-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

raq Lənkəranda özünün şəxsi niyyətlərinə, cinayətkar məqsədlərinə nail olmaq üçün istifadə etdi. Avqustun 23-də xalq onun əleyhinə çıxdı. Lakin o zaman da xəyanətkarlıq oldu. O, qaçıb gizlənə bildi. Bu yaxınlarda polis orqanları onu həbs etdilər. Bu, onu göstərir ki, cinayətkarlar gec-tez aşkar ediləcək, xalq qarşısında məsuliyyət daşıyacaqlar. Lakin onların son illərdə Azərbaycan xalqına vurduğu zərbələrin ağır nəticələri olmuşdur. Bir daha təkrar edirəm ki, son vaxtlarda Ermənistan silahlı qüvvələri tərəfindən rayonlarımızın işğal edilməsi məhz ordunun yarandığı vaxtdan onun daxilində təxribatçı qüvvələrin olmasının, onun dağıdıcı istiqamətdə idarə edilməsinin nəticəsidir.

Bizim bu bəlalarımızın səbəblərindən biri də odur ki, torpaqlarımızın əldən getməsində günahkar olan şəxslər nə cəzalandırılmamış nə də xalq tərəfindən pislənilməmişlər.

Axırıncı döyüşlərdə 20-30 nəfərədək adam həlak olmuşdur. Bu məlumatı eşidəndə bir tərəfdən ürəyim ağrıyır. Lakin gəlin reallığı nəzərə alaq. Müharibə gedir, biz torpaqlarımızı müdafiə edirik. Ola bilərmi ki, bu, qurbansız olsun? Əlbəttə, yox. Vətəni qorumaq şəhidlik, qurbanlar tələb edir. Ona görə də Zəngilanın İcra başçısı çıxış edərkən ona qarşı narazılığımı bildirdim və dedim ki, hətta erməni silahlı qüvvələri rayona daxil olmamış nə üçün oranı tərk etdiniz? Deyir ki, biz vuruşduq. Əgər doğrudan da belədirsə, işğal olunmuş rayonların rəhbərlərindən nə üçün heç kim şəhid olmamışdır? Şəhid olanlar yalnız sadə adamlar, yaxud ordunun bəzi zabitləridir. Əgər həmin rəhbər işçilər döyüşlə şəhid olsaydılar, xalqın qəlbində böyük məhəbbət qazanardılar.

Əlbəttə, tarix bunların hamısına qiymət verəcəkdir: nə üçün Dağlıq Qarabağ əldən getdi, müqəddəs şəhərimiz Şuşanı itirdik? Nə üçün Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan əldən getdi? Təsəvvür edin, nə qədər sərvətlərimizi itirdik, nə qədər qurban verdik. Lakin çox hallarda döyüş getməmiş, şəhid də olmamışdır. Bu, ordu hissələrinə də aiddir. Cəbrayıldakı 2 min nəfərlik briqadadan 1.950 nəfəri mövqeləri tərk edərək Arazın o biri sahilinə - İrana keçmişdir.

Neçə ildir Azərbaycan təcavüzə məruz qalmışdır, lakin ordusunu yarada bilməmişdir. Müstəqilliyini elan etdikdən sonra da yarada bilməmişdir. Çünki ordunu yaratmaq istəməmişlər. Ondan ayrı-ayrı məqsədlər üçün istifadə etmişlər. Ona görə də orduda mənəviyyat ilk vaxtlardan başlayaraq pozulmuşdur. Buna son qoymalıyıq. Bizim ordumuz sağlam mənəviyyata malik adamlardan ibarət olmalıdır. Bu, əsgərlərə, zabitlərə və həmçinin Müdafiə Nazirliyinin rəhbərlərinə aiddir.

Hərbi komissarlıqların işindən çox böyük narazılıqlar var. Orada rüşvətxorluğun baş alıb getməsi dillərə düşmüşdür. Camaat arasında belə söhbətlər gedir ki, hərbi komissarlıqlar səfərbərlikdən istifadə edərək dörd-beş dəfə artıq adam çağırır, bir qismini orduya göndərir, qalanlardan isə rüşvət alaraq buraxırlar. Yəqin ki, bu sözlərdə həqiqət var. Hərbi komissarlar buraya dəvət olunmuşlar, mən bunu onların üzünə deyirəm. Bəsdir, bu

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

çirkin işlərdən əl çəkin. Son günlərlə neçə nəfər həlak olmuşdur, siz onların, bütün şəhidlərin qarşısında cinayət edirsiniz.

Çalışmalıyıq ki, bütün bu mənfi halların qarşısını alaq və ordunu möhkəmləndirək. Müdafiə Nazirliyinin rəhbərliyi öz vəzifələrini layiqincə yerinə yetirməlidir.

Ziyalılarımızın müntəzəm olaraq hərbi hissələrə gedərək döyüşçülərlə, xidmətə yeni çağırılmış gənclərlə söhbətlər aparması, onlarda vətənpərvərlik ruhunun yüksəlməsinə kömək etməsi çox lazımdır. Mən ziyalılara bir daha müraciət edərək onları belə tədbirlərdə geniş iştirak etməyə çağırıram.

Rayonlarda, şəhərlərdə, bütün respublikada ictimai-siyasi vəziyyəti sabitləşdirməliyik. Bu ilin əvvəlindən bəzi rayonlarda, şəhərlərdə sabitlik pozulmuş, bəziləri özbaşına vəzifələr tutmuş, hərc-mərclik yaranmışdı. Biz bunların qarşısını almışıq və bundan sonra da alacağıq. Lakin belə halların qarşısını yerlərdə İcra hakimiyyəti orqanları, hüquq-mühafizə orqanları almalıdırlar. Bizə məlumat verdilər ki, son günlər Gəncə şəhərində də ayrı-ayrı cinayətkar qruplar müxtəlif əməllər törətmişlər. Onların bəziləri yaxalanmış, bəziləri axtarışdadır. Lakin belə hallar təkcə Gəncə şəhərində baş verməmişdir. Təsadüfi deyil ki, mən bu barədə Balakən rayonunun icra başçısına da sual verdim və o bildirdi ki, guya indi vəziyyət sabitdir. Respublikada sabitliyi pozmağa çalışan qüvvələr hələ də var. Bəziləri müəyyən qədər gözləmə mövqeyi tutmuşdur. Lakin biz onların heç birinə özbaşınalıq əməlləri törətməyə imkan verməyəcəyik. Bunu isə siz təmin etməlisiniz.

İcra hakimiyyəti orqanları hüquq-mühafizə orqanlarının işinə ciddi nəzarət, rəhbərlik etməlidirlər. Təəssüf ki, alınan siqnallara görə, hüquq-mühafizə orqanlarının işçiləri bəzən özləri cinayət törədir, cinayətkarlara havadarlıq edir, böyük iddialarla yaşayır, bəzi hallarda icra hakimiyyəti orqanlarına tabe olmadıqlarını bildirirlər. Nəzərə çatdırmaq istəyirəm ki, biz belə hallara yol verməyəcəyik. İcra başçıları dövlətin, prezidentin yerlərdəki nümayəndələridir. Onlar bu şərəfli ada layiq işləməlidirlər. Bunu hamınızdan tələb edirəm.

Ümumiyyətlə, rayonlarla, şəhərlərlə cinayətkarlıqla mübarizə gücləndirilməlidir. Hüquq-mühafizə orqanları bir-biri ilə sıx əlaqədə, icra başçıları ilə birlikdə fəaliyyət göstərməlidir.

Mən demirəm ki, siz birləşərək qanun pozuntusuna yol verəsiniz. Yox. Hamınızın qanun keşiyində durmasını, Azərbaycan dövlətinin möhkəmlənməsinə birgə xidmət göstərməyinizi və bu istiqamətdə öz işlərinizi qarşılıqlı surətdə əlaqələndirməyinizi tələb edirəm. Arzu edirəm ki, bu görüşdən hər kəs özü üçün lazımi nəticə çıxarsın və biz respublikanı bu ağır vəziyyətdən qurtarmaq üçün xalqın bütün təbəqələrini birləşdirə bilək.

Müşavirələrlə respublika nazirliklərinin, komitələrinin, baş idarələrinin bir qrupunun rəhbərləri və nümayəndələri də iştirak etmişlər. Onların buraya dəvət olunması rayonlara, şəhərlərə lazımi kömək göstərmək zərurəti ilə bağlıdır. Onlar öz

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

vəzifələrini bilməli və bu müşavirələrdə qarşıya çıxan məsələlərin həlli ilə ciddi məşğul olmalıdırlar. Verilmiş təkliflərə, edilən xahişlərə diqqətlə yanaşılmalı, müvafiq kömək göstərmək üçün lazımi tədbirlər görülməlidir. Respublikamızın iqtisadiyyatı ağır vəziyyətdədir. Bilirsiniz ki, noyabrın 19-da biz iqtisadiyyatın bəzi sahələrində yaranmış vəziyyəti müzakirə etmişik, bəzi malların qiymətlərinin qaldırılması ilə əlaqədar tədbirlər görmüşük. İndi respublikada maliyyə-kredit sahəsində vəziyyət gərgindir. Ona görə də rayonların, şəhərlərin müvafiq orqanları dövlət büdcəsinə vəsait daxil olması məsələlərinə xüsusi diqqət yetirməlidirlər. Çünki bazar iqtisadiyyatı şəraitində kommersiya strukturlarının geniş yayılması ilə əlaqədar olaraq dövriyyəyə buraxılan nağd pul çox vaxt banklara qayıtmır və respublikanın maliyyə vəziyyətində gərginlik artır. Bu işlə məşğul olmağı rayon, şəhər icra orqanlarının başçıları qarşısında əsas vəzifə kimi irəli sürürəm.

Respublikanın iqtisadiyyatında vəziyyətin ağırlaşması əhalinin həyat səviyyəsinin aşağı düşməsinə səbəb olmuşdur. Çıxış edən rayon rəhbərlərindən bəziləri iqtisadiyyatın bərbad vəziyyətlə olması barədə danışdılar. Onların dediklərini qəbul edirəm, lakin iqtisadiyyatı qaldırmaq üçün həm respublika miqyasında, həm də şəhərlər və rayonlar miqyasında lazımi tədbirlər həyata keçirilməlidir. Yerlərdə daxili imkanlar çoxdur, bunlardan səmərəli istifadə edilməlidir. Bildiyiniz kimi, indi keçmiş sistem yoxdur. Təşəbbüskarlığı geniş yaymaq, çox işləri şəhərin, rayonun öz imkanları ilə görmək olar. Sənayenin, kənd təsərrüfatının, tikintinin və iqtisadiyyatın başqa sahələrinin inkişafı üçün sizdən konkret təkliflər gözləyirik.

Gələn ilin kənd təsərrüfatı işlərini müvəffəqiyyətlə aparmaq üçün bu gün çox iş görülməlidir. Bu işlər sizə məlumdur. Əgər onlar görülməsə, İqtisadiyyatımız daha da zəifləyəcəkdir.

Sənayedə isə mövcud istehsal potensialından səmərəli istifadə etməliyik. İqtisadiyyatımız nə qədər böhran keçirsə də, əhalinin başlıca tələbatının ödənilməsi ilə ciddi məşğul olmalıyıq. Əhalini ilk növbədə çörəklə, başqa ərzaq məhsulları ilə, qaz, elektrik enerjisi, istiliklə təmin etmək məsələsinə şəhər və rayonların rəhbərləri xüsusi diqqət yetirməlidirlər. Nəqliyyat sahəsində çox çətinliklər var. Bu, həm şəhər nəqliyyatına, həm də şəhərətrafı, şəhərlərarası nəqliyyata aiddir. Bu məsələ ilə də ciddi məşğul olmaq lazımdır.

Bir sözlə, elə sahə yoxdur ki, orada vəziyyət normal olsun. Belə ağır vəziyyətdən çıxmaq, respublikanın etibarlı müdafiəsini təmin etmək üçün, işğal olunmuş torpaqlarımızı geri qaytarmaq üçün cəmiyyətimizlə sağlam mühit, sağlam əhval-ruhiyyə, milli birlik, vətəndaş həmrəyliyi yaratmaq lazımdır. Son illərdə ayrı-ayrı qrupların, ayrı-ayrı şəxslərin bu çətinliklərdən istifadə edərək hakimiyyət, vəzifə uğrunda mübarizə aparması yetər. Təəssüflər olsun ki, bu mübarizə həm rayon, şəhər səviyyəsində, həm də respublika səviyyəsində gedir. Dünən bir daha xatırlatdım ki, erməni silahlı qüvvələri Ağdam rayonunu güclü atəşə tutduğu bir

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

vaxtda Ağdam şəhərində ayrı-ayrı qruplar vəzifə uğrunda mübarizə aparırdılar. Yaxud, dünən Füzuli rayonunun İcra başçısı çıxışında açıq etiraf etdi ki, Füzuli rayonu verilməli idi, onu ayrı-ayrı qruplar qəsdən verdilər. Çünki o qədər cinayət törətmişdilər ki, bunları ört-basdır etmək, özlərini xilas etmək istəyirdilər. Təəssüf ki, indi də belə cəhdlər göstərən qruplar, siyasi və ya ictimai qüvvələr var. Bunlara son qoymaq, respublikada ictimai-siyasi sabitliyi təmin etmək lazımdır. Mən partiyaların rəhbərləri ilə görüşdüm, onlara da bildirdim ki, biz çoxpartiyalı sistemə tərəfdarıq, buna mane olmayacağıq. Lakin bu o demək deyildir ki, hər partiya hakimiyyətə gəlmək üçün mübarizə aparmaqla respublikaya zərbə vursun. Bunlardan əl çəkmək lazımdır. Belə hərəkətlərin son illərdə Azərbaycana nə kimi zərbələr vurması hamınıza məlumdur. Xalq da bunu bilir. Hamı birləşməlidir.

Bəli, indi Azərbaycanda milli birliyə, vətəndaş həmrəyliyinə daha çox ehtiyac var. Təəssüf ki, bəzi qüvvələr özlərini müxalifətlə hesab edərək, respublikanın ağır müharibə şəraitində olduğunu nəzərə almayaraq, cürbəcür təxribatçı hərəkətlər edir və ümumi birliyi pozmaq istəyirlər. Biz buna yol verməyəcəyik. Biz qanunun keşiyindəyik və onun çərçivəsində hərəkət edəcəyik. Heç kəsə imkan verməyəcəyik ki, əvvəlki dövrlərdə olduğu kimi, respublikada yaranmış ağır vəziyyətdən istifadə edərək yenə də hakimiyyət, vəzifə uğrunda mübarizə aparsınlar. Kim belə fikirlərlə yaşayırsa, ondan əl çəksin. Bunların hamısının qarşısı alınacaqdır. Son illərlə Azərbaycanın kimlər tərəfindən belə hala salındığını xalq yaxşı başa düşür və bilir ki, yalnız düz yolla, qanuni yolla gedərək respublikanı bu vəziyyətdən çıxara bilərik.

Bizim bir məqsədimiz olmalıdır: Respublikanın etibarlı müdafiəsini təmin etmək, işğal olunmuş torpaqlarımızı geri qaytarmaq. Bundan sonra münasibətləri də aydınlaşdırmaq olar. Vəzifə hərisləri, hakimiyyət uğrunla mübarizə aparanlar, lakin hakimiyyətə gəlməyə əsla ləyaqəti olmayanlar əmin-amanlıq yarandıqdan sonra qoy mübarizələrini aparsınlar.

Lakin bəla burasındadır ki, xalq üçün hələ indiyədək heç bir iş görməmiş adamlar son illər siyasi meydana atılaraq hakimiyyət davası edirlər. Hakimiyyət uğrunda mübarizə aparmaq üçün gərək ilk növbədə xalqa göstərəsən ki, ondan ötrü nə etmisən, ona nə vermisən. Sonra isə deyəsən ki, mən mübarizə aparıram. Mən belələrinə xəbərdarlıq edirəm ki, prezident kimi öz səlahiyyətimdən istifadə edərək Respublikala ictimai-siyasi sabitliyin pozulmasına yənəldilmiş hallara yol verməyəcək, Azərbaycanda qanunçuluğu, dövlətçiliyi möhkəmləndirmək üçün bütün imkanlarımdan istifadə edəcəyəm.

Azərbaycan müstəqil dövlətdir və biz birinci növbədə ərazi bütövlüyümüzü təmin etməliyik. Müstəqil dövlət öz ərazisinin sahibi olmalıdır. Biz buna nail olmalıyıq. Müstəqillik uğrunla mübarizə aparan adamlar öz səylərini, qüvvələrini bu istiqamətə yönəltməlidirlər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Azərbaycan bazar iqtisadiyyatı, sərbəst İqtisadiyyat yolu ilə gələcəkdir. Lakin bu yolu da sivilizasiyalı qaydada keçmək lazımdır. Bu yol o demək deyildir ki, oğurluq edəsən, cürbəcür fırıllaqlarla dövlətin, xalqın sərvətini mənimsəyəsən. Bu günlərdə biz respublikanın 50 milyon dollar vəsaitinin heç bir iqtisadi imkanı olmayan "Aran" korperasiyasına verildiyini öyrəndik. Biz bunun qarşısını aldıq. Lakin ola bilər ki, gələcəkdə belə hallar yenə qarşıya çıxsın. Bazar iqtisadiyyatı qanunların çərçivəsində, onlara əməl etməklə fəaliyyət göstərməlidir...

Mən bu müşavirəyə gələrkən gəncəlilərlə görüşdüm və onlara müraciətlə öz sözümü dedim. İndi müşavirədə bir daha demək istəyirəm ki, Azərbaycanda Gəncə şəhərinin xüsusi yeri var. Gəncə böyük intellektual və iqtisadi potensiala malikdir. Şəxsən mən bundan sonra da Gəncə şəhərinin inkişafı üçün bütün tədbirlərin görülməsini təmin edəcəyəm. Bu fürsətdən istifadə edərək gəncəlilərə bir daha hörmət və məhəbbətimi bildirirəm. Əminəm ki, gəncəlilər Azərbaycanın bu ağır vəziyyətdən çıxması üçün çox iş görə bilərlər və görəcəklər.

Güman edirəm ki, dünənki və bugünkü görüşlərimiz, aparılan söhbətlər, müzakirələr hamımız üçün faydalıdır və qarşıda duran vəzifələrin yerinə yetirilməsinə kömək edəcəkdir. Bu işlə hamınıza uğurlar diləyirəm.

Mən xalqın müdrikliyinə, zəkasına inanıram və bir daha Azərbaycan xalqına, bütün vətəndaşlara müraciət edərək bildirmək istəyirəm ki, mənə göstərilən etimaddan tam istifadə edəcək, Azərbaycanın bu ağır vəziyyətdən çıxması üçün bundan sonra da əlimdən gələni əsirgəməyəcəyəm.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

XALQ RƏSSAMI TAHİR SALAHOVA

Hörmətli Tahir Teymur oğlu!

Sizi anadan olmağınızın 65 illiyi ilə əlaqədar ürəkdən təbrik edirəm!

Əmin olduğumu bildirmək istəyirəm ki, Siz bundan sonra da xalqımızın mədəniyyətinin dünya miqyasında təbliğ edilməsi, onun mənəviyyatının, bədii-estetik zövqünün zənginləşdirilməsi, gənc rəssamlarımızın böyük sənətə cəlb olunması naminə səylərinizi əsirgəməyərək, ənənələrlə zəngin olan Azərbaycan təsviri sənətinə yeni töhfələr verəcəksiniz.

Dərin hörmətlə,

HEYDƏR ƏLİYEV

15 dekabr 1993-cü il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AZƏRBAYCAN RESPUBLİKASI ELMLƏR AKADEMİYASININ VİTSE-PREZİDENTİ, AKADEMİK ZİYA BÜNYADOVA

Hörmətli Ziya müəllim!

Anadan olmağınızın yetmiş illiyi münasibətilə Sizi ürəkdən təbrik edirəm, müdriklik yaşınızda möhkəm cansağlığı və yeni-yeni uğurlar arzulayıram.

Siz uzun illər boyu tarix elmimizin inkişafı yolunla gərgin axtarışlar aparmağı ömrünüzün mənasına çevirmisiniz. Orta əsrlər Azərbaycanının açılmamış səhifələrinin araşdırılmasına, öyrənilməsinə həsr edilən onlarca kitabınızla, yüzlərcə məqalənizlə şərqşünaslıq və tarix elmimizə beynəlxalq nüfuz qazandırmağa çalışmısınız. Alim səbriniz və işgüzarlığınız sayəsində Şərq tarixinin əvəzsiz örnəkləri dilimizə tərcümə edilmişdir. Müqəddəs "Qurani-Kərim"i son yetmiş ildə yenidən tərcümə edənlərdən və nəşrə hazırlayanlardan biri kimi böyük savab iş görmüsünüz.

Azərbaycan Respublikası Elmlər Akademiyasının vitse-prezidenti, akademik kimi siz indi də elmi fəaliyyətinizi davam etdirərək xalqımızın tarixi sınağa çəkildiyi bir zamanda əlinizdən gələni əsirgəmirsiniz.

Ümidvaram ki, müstəqil Azərbaycanımız naminə bundan sonra da yorulmadan çalışacaq, bizi elm cəbhəsindəki uğurlarınızla sevindirəcəksiniz.

Hörmətlə,

HEYDƏR ƏLİYEV

20 dekabr 1993-cü il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

FRANSAYA RƏSMİ SƏFƏR ZAMANI PARİSDƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

21 dekabr 1993-cü il

Hörmətli xanımlar və cənablar, mən artıq üçüncü gündür ki, Fransada, Parisdəyəm. Mən səfərin gedişindən və nəticələrindən son dərəcə məmnunam və şadam ki, bu günlərdə Parisə, onun diqqqətəlayiq yerlərinə, misilsiz memarlıq abidələrinə yenidən baxmaq, müasir Fransanın, müasir Parisin coşqun həyatı ilə tanış olmaq üçün kiçik də olsa, imkana malik oldum. Lakin başlıcası, əlbəttə, budur ki, bu müddət ərzində çox faydalı və səmərəli görüşlər keçirdim, danışıqlar apardım. Fransa prezidenti cənab Fransua Mitteran ilə görüşün, habelə onun yekunlarına əsasən imzalanmış müqavilənin - Fransa ilə Azərbaycan Respublikası arasında dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında müqavilənin xüsusi əhəmiyyəti var.

Bu gün mən Fransanın xarici işlər naziri cənab Alen Jüppe ilə görüşdüm. Aramızda çox səmərəli söhbət oldu. Biz prezidentdə də, xarici işlər naziri ilə də Fransa ilə Azərbaycan arasında qarşılıqlı münasibətlərin daha da genişləndirilməsi, bölgəmizdəki münaqişəli vəziyyətin aradan qaldırılması məsələlərini, xüsusən Ermənistan silahlı birləşmələrinin Azərbaycanda təcavüzü və bununla əlaqədar Azərbaycan Respublikasının vəziyyəti ilə bağlı məsələləri müzakirə etdik. Biz razılığa gəldik ki, Fransa, o cümlədən prezident Fransua Mitteran cənabları və xarici işlər naziri cənab Alen Jüppe öz imkanlarından istifadə edərək, bu münaqişənin dinc vasitələrlə aradan qaldırılmasına kömək göstərəcəklər.

Biz Azərbaycana qarşı hərbi təcavüzün dayandırılması məsələsinin dincliklə həlli prinsipinə tərəfdarıq, lakin Ermənistan silahlı birləşmələrinin işğal edilmiş Azərbaycan ərazilərindən çıxarılması, respublikanın sərhədlərinin, ərazi bütövlüyünün pozulmazlığı şərtilə. Bununla bərabər, biz Dağlıq Qarabağ məsələsinə baxılmasının labüdlüyündən yayınmırıq. Qeyd etmək çox vacibdir ki, həm Fransa prezidenti, həm də xarici işlər naziri sərhədlərin pozulmazlığı, zorakılığın və hərbi yolla özgə ərazilərinin işğalının yolverilməzliyi, hər bir dövlətin, o cümlədən də Azərbaycan Respublikasının ərazi bütövlüyünün gözlənilməsi barədə beynəlxalq prinsipləri bir daha təsdiq etmişlər.

Bu gün mən Fransanın işgüzar aləminin nümayəndələri ilə görüşdüm. Mən onlara, habelə bu ölkənin prezidentinə də, xarici işlər nazirinə də bildirdim ki, bütün sahələrdə, ən əvvəl iqtisadiyyat, ticarət, elm, texnika, mədəniyyət sahələrində qarşılıqlı surətdə faydalı əməkdaşlıq işində Azərbaycan bütün dünya

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

üçün, o cümlədən də Fransa üçün açıqdır. Əslinə qalsa, bu, dünən imzaladığımız müqavilədə qeyd edilmişdir. Mən işgüzar aləmin nümayəndələri ilə görüşlə Azərbaycanın iqtisadi potensialı, respublikanın təbii sərvətləri, onun sənaye potensialı barəsində ətraflı məlumat verdim. Bunlar Fransa ilə əməkdaşlıq üçün, Azərbaycan iqtisadiyyatına Fransanın qarşılıqlı surətlə faydalı əsasla investisiya qoyması üçün imkan yaradır.

Bu gün mən Diplomatiya Akalemiyasında görüş keçirdim, dünən diplomatik mətbuatın nümayəndələri ilə görüşdüm. Mən bu görüşlərə böyük əhəmiyyət verirəm, çünki onlar mənə Azərbaycan, onun müasir vəziyyəti, Azərbaycan dövləti və cəmiyyətinin gələcək inkişaf yolları haqqında, respublikanın necə ağır vəziyyətlə olduğu barədə Fransa ictimaiyyətini məlumatlandırmağa imkan verdi.

Mən burada olarkən daha çox yəqin etdim ki, Azərbaycan ilə Fransa arasında əlaqələr son dərəcə zəif olmuşdur, Fransada Azərbaycan barəsində məlumat olduqca azdır. Bəzən qeyri-obyektiv məlumat ölkəmiz, Azərbaycan dövlətinin tədbirləri barədə yalan-yanlış təsəvvür yaradır. Buna görə də hesab edirəm ki, Fransaya səfər iki ölkənin rəhbərləri arasında sıx qarşılıqlı əlaqələr, ikitərəfli münasibətlərin gələcək inkişafı üçün bünövrə yaratmaqla yanaşı, Fransada Azərbaycanın daha yaxşı təsəvvür olunması mənasında böyük əhəmiyyətə malikdir. Mən belə düşünmürəm ki, bu günlər ərzində biz bunu etməyə müvəffəq olduq. Lakin özümüz üçün çox zəruri saydığımız bu işin görünür, bünövrəsini qoya bildik.

Bu gün, sabah görüşlər keçiriləcəkdir. Məsələn, sabah mən Fransa senatının sədri ilə görüşəcəyəm. Sonra biz Vətənə dönəcəyik. Lakin əminəm ki, bu günlər ərzində burada gördüyümüz bütün işlər öz nəticələrini verəcəkdir. Biz Azərbaycan ilə Fransa arasında çoxsahəli əməkdaşlığın inkişafı üçün, Azərbaycanın Fransada daha yaxşı təmsil olunması üçün indi yaradılmış imkanlardan maksimum səmərə ilə istifadə olunmasından ötrü gələcəkdə də hər şey edəcəyik.

S u a l: Cənab prezident, siz həmin adamsınız ki, ölkənizdə hakimiyyətə Azərbaycan ilə Qarabağ arasında münaqişə beş ildən bəri davam etdiyi bir vaxtda gəlmişsiniz, siz həmçinin həmin adamsınız ki, bütün əlaqədar tərəflərlə, o cümlədən də Dağlıq Qarabağdakı tərəflərlə dialoqa razılıq vermişsiniz. Sentyabrda Sizin Ter-Petrosyanla görüşünüz oldu. Bəzi erməni siyasi xadimlər öz aramızda mənə demişdilər ki, onlar Ter-Petrosyanla bu görüşü alqışlayırlar. Onlar mənə həmçinin demişdilər ki, müharibə iki aydan sonra qurtaracaq. Onların dediyinə görə, bu, həm iqtisadi səbəblərə, həm də siyasi səbəblərə görə baş verəcəkdir. Çünki müharibəyə məruz qalan hər hansı ölkə iqtisadi baxımdan zillət çəkir və sosial böhran keçirir. Sülh müqaviləsinin imzalanması Azərbaycanın xeyrinə idi. Lakin sizin Ter-Petrosyanla oktyabrda keçirilməli olan görüşünüz Moskvada qiyamdan sonra təxirə salındı. İndi elə təsəvvür yaranır ki, Ermənistanın siyasi hakimiyyət dairələri tərəfindən nikbinlik görünmür. Bilmək

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

istərdim, siz hesab edirsinizmi ki, hazırda sülh müqaviləsinin imzalanması Azərbaycanın daha xeyrinə deyildir?

H.Ə l i y e v: Mən sualın axırıncı hissəsi ilə razı deyiləm. Çünki Ermənistan prezidenti Levon Ter-Petrosyanla görüş təxirə salınmayıb. Mən dialoqun tərəfdarı olmuşam. Mən Azərbaycan ilə Dağlıq Qarabağdakı hakim qüvvələr arasında əlaqə və dialoq yaradılmasına həqiqətən qol qoymuşam. Sentyabrda prezident Levon Ter-Petrosyanla görüşmüşəm və onunla sonralar da görüşməyə hazır idim. Lakin bu görüş məndən asılı olmayan səbəblərə görə baş tutmadı, bu bir yana, oktyabrda Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü daha geniş miqyas aldı. Erməni silahlı birləşmələri Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarına hücuma keçdi, onları işğal etdilər. Bu hücumlar zamanı mənim Levon Ter-Petrosyanla bir neçə dəfə telefon söhbətim oldu. O, hücumun dayandırılmasını vəd etdi. Lakin onun vədləri vəd olaraq qaldı. Bilmirəm, ya ona görə ki, bunu edə bilmədi, ya da bunun hansısa digər səbəbləri var idi. Buna görə də dialoqumuz davam edir.

Mən həmin mövqelərdən çəkilməmişəm. Amma danışıqlar aparılarkən, atəşin dayandırılması haqqında Azərbaycan ilə Dağlıq Qarabağ arasında saziş imzalandıqdan sonra növbəti hücum başlandı və bu hücum Zəngilan rayonunun işğalı ilə başa çatdı. Bu rayonun sakinləri qışın bu çağında Araz çayını üzə-üzə keçib İran ərazisinə addamalı oldular. Təsəvvür edirsinizmi, Zəngilan rayonunun təxminən 60 min əhalisi Arazdan keçib İrana addamış, onun ərazisindən keçərək Azərbaycana qayıtmış və indi respublikanın müxtəlif rayonlarındadır. Onların əksəriyyəti çadırlarda yaşayır. Mərək belə olmayaydı. Buna görə də mən həmin mövqelərdən geri çəkilmədim. Lakin, təkrar edirəm, biz atəşin dayandırılması haqqında danışıqlar apararkən və saziş artıq əldə edildikdən sonra yeni hücumlar başlandı. Bu hücumlar vəziyyəti, əlbəttə, çətinləşdirdi.

S u a l: İcazə verin, özümü təqdim edim: universitetin tarix fakültəsinin keçmiş aspirantı, indi Sorbonna Universitetinin aspirantı Avil Kərimov. Mən sizə iki sual vermək istərdim. Birinci sual siyasi xarakterlidir. Azərbaycanın Fransada indiyədək siyasi nümayəndəliyi yoxdur ki, Azərbaycan Respublikasının mənafelərinə qarşı yönəldilmiş iddiaların qarşısı alınsın. Odur ki, əməli tədbirlər görülməsi, xüsusən Fransada siyasi nümayəndəliyimizin açılması yaxşı olardı. Bu məsələlər sizin cənab Mitteran ilə görüşünüz zamanı müzakirə edildimi? İkinci sual - bu, mədəni xarakterlidir. Mən bilən, siz Fransa Respublikası ilə mədəni əlaqələr, mədəniyyət sahəsində mübadilələr haqqında da müqavilə imzalamısınız. Məni tələbə mübadilələri ilə bağlı məsələ maraqlandırır. Bu mübadilələr nə dərəcədə əməli surətlə həyata keçirələcək? Çünki, mənə məlum olduğu kimi, mən Azərbaycandan yeganə tələbəyəm ki, Fransa hökumətinin təqaüdünə layiq görülmüşəm. Mən ötən il müsahibədən keçdim, burada, Fransada ikinci ildir qalıram və ölkəmizlə, demək olar, heç bir əlaqəm yoxdur. Hazırda "Azərbaycan 18-20-ci illərdə müharibədən sonrakı

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dinc nizamasalma sistemində" mövzusunda dissertasiya üzərində işləyirəm.

H.Ə l i y e v: Azərbaycanın Fransada səfirliyinin açılması məsələsi həll edilmiş məsələdir. Azərbaycanda Fransanın səfirliyi fəaliyyət göstərir. Burada, Parisdə də səfirlik fəaliyyət göstərməlidir, lakin qarşılıqlı əsasla. Bu, artıq bizim nöqsanımızdır ki, səfirlik indiyədək açılmayıb. Belə düşünürəm ki, bu məsələ yaxın vaxtlarda həll ediləcəkdir. Odur ki, bunu Fransa prezidenti ilə müzakirə etməyə lüzum yox idi. O ki qaldı mədəni mübadiləyə, tələbə mübadilələrinə, bəli, biz iqtisadi, elmi-texniki, mədəni əməkdaşlıq haqqında müqavilə imzalamışıq. Müqavilədə, əlbəttə, tələbə mübadilələri də nəzərdə tutulur. Zənnimcə bu müqavilə əsasında müvafiq nazirliklərimiz və baş idarələrimiz həmin məsələlərlə yaxından məşğul olacaqlar. İndiyələk belə müqavilə yox idi. Görünür, bu səbəbdən də onlarla məşğul olmağa imkan yox idi. Səfirlik açıldıqdan sonra və biz müqavilənin müddəalarını həyata keçirməyə başladıqda bu məsələlər həll ediləcəkdir.

S u a l: "İzvestiya" qəzeti. Cənab prezident, siz Rusiyanı çox gözəl tanıyırsınız, xüsusən də əvvəlki fəaliyyətinizdən, buna görə də məni Rusiyada bu yaxınlarda keçirilmiş seçkilərin nəticələri, Jirinovskinin müvəffəqiyyəti barədə sizin təhlil və fikriniz maraqlandırır. Bu seçkilərin nəticəsi Rusiya ilə Azərbaycan arasında münasibətlərə təsir göstəribmi? Siz bu seçkilərin nəticələrindən hansısa bir dərs almısınızmı, Azərbaycanın siyasi meydanında elə siyasi xadimlər varmı ki, onlar nədəsə öz baxışlarında Jirinovskinin baxışlarına yaxın olsunlar? Sağ olun.

H.Ə l i y e v: Mən indi Rusiyada seçkilərin yekunlarını qiymətləndirmək və ya bu yekunları təhlil etmək istəməzdim, çünki hələ Rusiyanın özü onları təhlil etməli və buna qiymət verməlidir. O ki qaldı bu seçkilərdən sonra Azərbaycan ilə Rusiya arasında münasibətlərin dəyişib-dəyişməməsi sualına, mən ona belə cavab verirəm: Xeyr, dəyişməmişdir, münasibətlər əvvəlki səviyyədə qalır. Indi isə Azərbaycanda öz baxışlarına görə Rusiya Liberal-Demokrat Partiyası liderinin baxışları ilə yaxın olan şəxslərin olub-olmaması sualı barədə. Hazırda Azərbaycanda 40-dək partiya qeydə alınmışdır. Çoxlarının baxışları mənə məlum deyildir. Buna görə də belə şəxslərin olub-olmadığını deyə bilmərəm. Bu barədə danışmaq mənim üçün çətindir.

S u a l: Cənab prezident, mən Parisdə insan hüquqlarının və azərbaycanlıların müdafiəsi üzrə Azərbaycan təşkilatını təmsil edirəm. Sizələrə sualım var. Cənab prezident, siz xaricdə yaşayan azərbaycanlılar barəsində düşünübsünüzmu, onlara Azərbaycan vətəndaşlığı verilməsinin mümkünlüyü barədə fikirləşibsinizmi? İkinci sual - siz bilirsiniz ki, Dağlıq Qarabağda bütün vəziyyət Fransada daim müzakirə edilir, lakin gecə-gündüz erməni təbliğatı aparılır, bizim verilişlərin səsi isə batırılır. Buna görə də bilmək istərdim, siz prezident Mitteranla görüşərkən

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bu verilişlərin səsinin batırılması məsələsini xatırlatdınızmı? Üçüncüsü, siz rusca danışırsınız...

H.Ə l i y e v: Mən axırıncı sualınıza dərhal cavab verəcəyəm, nə üçün rusca danışıram. Bizim doğrudan da gözəl dilimiz var və mən Azərbaycan dilini sevirəm. Bu, Azərbaycanın dövlət dilidir, ölkədə mən yalnız Azərbaycan dilində çıxış edir və danışıram. Lakin burada, Fransada, əvvəla, görüşdüyüm adamlar arasında, hiss etdiyim kimi, rus dilini bilən çoxlu adam var. Deməli, onlar məndən informasiyanı artıq bilavasitə alırlar. İkincisi, cənab Mitteranın tərcüməçisi ancaq fransız dilindən rus dilinə və rus dilindən fransız dilinə tərcümə edir. Buna görə də mən burada mövcud olan qaydanı pozmaq istəmədim. Bundan əlavə, ingilis, fransız dilləri kimi, rus dili də dünyada tanınmış dillərdən biridir. Bax, elə indi qəşəng xanım fransız dilində çıxış etdi, mən də ondan soruşa bilərdim ki, o, mənə nə üçün azərbaycanca müraciət etmədi.

İndi də ikinci suala - Azərbaycanın hüdudlarından kənarda yaşayan azərbaycanlılar barəsində suala cavab verim. Məsələ burasındadır ki, ölkənin hüdudlarından kənarda yaşayan azərbaycanlılar az deyildir. Onların çoxu hazırda müstəqil dövlət olan Azərbaycanın ərazisində ümumiyyətlə heç vaxt yaşamayıb. Buna baxmayaraq, ölkəmizin hüdudlarından kənarda yaşayan azərbaycanlı əgər Azərbaycan vətəndaşlığı almaq istəyirsə, zənnimcə, burada heç bir maneə olmayacaqdır.

Dağlıq Qarabağla əlaqədar ermənilərin tərəfdarlarının burada olduqca çoxlu veriliş apardıqları, azərbaycanlıların aparmaq istədikləri verilişlərin səsinin batırılması barədə suala gəlincə, bu, elə məsələ deyildir ki, mən onu cənab Mitteranla müzakirə etməliydim. Məlumdur ki, Fransada azərbaycanlılar olduqca azdır, ermənilər çoxdur, özü də onların bir çoxu biznesdə də, dövlət orqanlarında da, kütləvi informasiya vasitələrində də kifayət qədər sanballı vəzifə tuturlar. Görünür, ermənilər bu vəziyyətdən istifadə edirlər. Odur ki, Fransada yaşayan azərbaycanlılar Fransanın ictimai-siyasi həyatında daha böyük təsir göstərməlidirlər. Belə olarsa, azərbaycanlıların burada verilişlərinin səsi batırılmaz. Mən bu verilişlərin aparılmasına hər vasitə ilə kömək edəcəyəm.

Azərbaycan qaçqınlarına göndərmək istədiyiniz humanitar yardım barəsində mən xarici işlər nazirinə göstəriş vermişəm. Bu gün ona bir daha xatırlatmışam ki, o, sizinlə hökmən əlaqə saxlasın və siz bu yardımı göndərə biləsiniz.

Bu gün mən xarici iqtisadi əlaqələr naziri ilə görüşməliyəm. Diqqətinizə görə təşəkkür edirəm. Belə düşünürəm ki, əlaqələrimiz davam edəcəkdir. Mətbuat işçilərinə hörmətimi bildirir və ümidvaram ki, milliyyətindən asılı olmayaraq, onlar obyektiv informasiya verəcəklər. Çox cağ olun.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

MDB DÖVLƏT BAŞÇILARI ŞURASININ İCLASINDA BƏYANAT

Ermənistan Respublikasının Azərbaycana qarşı təxminən 6 il davam edən təcavüzü Azərbaycan xalqına saysız-hesabsız müsibətlər gətirmişdir.

SSRİ dağıldıqdan və həm Azərbaycan, həm də Ermənistan müstəqillik qazandıqdan sonra münaqişə dövlətlərarası hərbi münaqişəyə çevrilmişdir.

Ermənistan Respublikasının silahlı qüvvələri Azərbaycan ərazisinin 14,0 min kvadrat kilometrə qədərini işğal etmişdir. Bunun 9,0 min kvadrat kilometri Dağlıq Qarabağ bölgəsinin hüdudlarından kənardadır. Onu da qeyd etmək lazımdır ki, erməni silahlı birləşmələri Dağlıq Qarabağın ərazisini tam nəzarət altına aldıqdan sonra təcavüzkar əməllərini ardıcıl surətdə genişləndirərək onun hüdudlarından kənarda Azərbaycan Respublikasının Laçın, Kəlbəcər Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarını və Qazax rayonunun bir hissəsini işğal etmişlər. Hərbi əməliyyatlar zamanı dinc əhali kütləvi surətdə qırılır, işğal olunmuş ərazilərdə etnik təmizləmə aparıdır və dağıntılar törədidir.

Azərbaycana qarşı təcavüz başlayandan indiyədək 18 mindən çox adam öldürülmüş, 50 minədək adam yaralanmış və ya şikəst olmuş, 4 min nəfər əsir düşmüş, yaxud girov götürülmüş, 1 milyonadək azərbaycanlı ev-eşiyini itirmiş, 100 mindən çox yaşayış tikilisi, 1 mindən çox iqtisadi obyekt, 600-dən çox məktəb və tibb müəssisəsi yandırılmış, talan edilmiş və dağıdılmışdır; yüz milyonlarla dollar dəyərində şəxsi əmlak və dövlət əmlakı, maddi sərvətlər işğal olunmuş ərazilərdən Ermənistana daşınır. Bütün bunlar Azərhaycanda böhranlı vəziyyət yaratmışdır.

Böyük təəssüf hissi ilə qeyd etmək lazım gəlir ki, 1993-cü ilin sentyabrında Azərbaycan Respublikası Müstəqil Dövlətlər Birliyinin tam hüquqlu üzvü olduqdan və Kollektiv Təhlükəsizlik haqqında müqaviləyə qoşuldqdan sonra Ermənistan Respublikası öz təcavüzünü nəinki ayandırmamış, əksinə, hərbi əməliyyatlar daha geniş miqyas almışdır. Atəşkəs haqqında əldə edilmiş razılığa baxmayaraq, əvvəllər işğal olunmuş Laçın, Kəlbəcər, Ağdam rayonlarına və Qazax rayonunun bir hissəsinə bu ilin oktyabrı-noyabrında Ermənistan Respublikası silahlı qüvvələri tərəfindən zəbt edilmiş Azərbaycanın Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonları da əlavə edilmişdir. Bununla da təcavüzkar Azərbaycanın İran İslam Respublikası ilə dövlət sərhədinə çıxaraq MDB-nin cənub hüdudlarında təhlükəli gərginlik ocağı yaratmış, münaqişənin beynəlmiləl xarakter alması qorxusu törətmişdir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

300 mindən çox əhalinin yaşadığı rayonların 1993-cü ilin oktyabrında işğal edilməsini Azərbaycan xalqı həm də ona görə çox ağır qarşılamışdır ki, bu hadisə Azərbaycan MDB-yə daxil olduqdan və Kollektiv Təhlükəsizlik haqqında müqaviləyə qoşulduqdan sonra baş vermişdir. Deməli, Ermənistan Respublikası təkcə Azərbaycan Respublikasına qarşı təcavüz etmir, həm də indi bizim birliyimizi birləşdirən prinsiplərə tam saymazlıq nümayiş etdirir.

MDB-nin üzvü və Kollektiv Təhlükəsizlik haqqında müqavilənin iştirakçısı olan Ermənistan Respublikasının başqa dövlətə, birliyin onun kimi tam hüquqlu üzvü olan dövlətə - Azərbaycan Respublikasına qarşı təcavüz etməsi yolverilməzdir.

Son günlər baş verən hadisələr Ermənistanın təcavüzkarlıq məqsədlərini bir daha təsdiq edir. Təcavüzkarın silahlı qüvvələrinin Beyləqan istimaqətində - bütün yol boyu əvvəllər işğal edilmiş rayonların dinc sakinlərinin yerləşdirildiyi istiqamətdə Azərbaycan ərazisinin içərilərinə soxulmaq cəhdi münaqişənin yeni, daha qanlı şəkildə uzanması təhlükəsi yaradır. Döyüş əməliyyatlarının genişlənməsini belə bir fakt da göstərir ki, düşmən hücum zamanı onlarca tankdan, reaktiv və ağır artilleriyadan istifadə edir.

Ermənistan Respublikası BMT Təhlükəsizlik Şurasının qətnamələrinə, ATƏM-in, Rusiyanın, Qazaxıstanın vasitəçilik səylərinə məhəl qoymayaraq, özünün həqiqi rolunu - birbaşa təcavüz edən ölkə rolunu ört-basdır etmək məqsədilə bizi Dağlıq Qarabağ ermənilərinin münaqişədə iştirak edən tərəf kimi tanımağa təhrik etməyə çalışır. Həqiqətdə isə Dağlıq Qarabağ bölgəsində yaşayan və elə bir ehtiyatı olmayan 100 mindən bir qədər çox erməni 7 milyonluq əhalisi olan ölkəyə qarşı geniş miqyaslı hərbi əməliyyatlar apara və onun ərazisinin 20 faizini işğal elə bilməz. Respublikanın Dağlıq Qarabağ bölgəsinin 50 min azərbaycanlı əhalisinin hüquqlarını inkar etməyə cəhd göstərilir. Etnik təmizləmə nəticəsində onlar Şuşa, Xocalı, Xocavənd, Hadrut və Ağdərə rayonlarından tamamilə qovulmuşlar.

Təəssüflər olsun, son dövrün təcrübəsi göstərir ki, qətiyyətsizlik, tərəddüdlük, təcavüzkarın mənafeyi ilə onun qurbanlarının mənafeyi arasında tamamilə yolverilməz olan tarazlıq yaratmaq nəinki təcavüzkara münasibətlə səhlənkarlıqdır, həm də bütün Qafqaz regionunda əminamanlığı sarsıtmaq və münaqişənin MDB sərhədlərindən kənara genişlənməsi qorxusu törədir. Bütün bunlar Kollektiv Təhlükəsizlik haqqında müqavilə imzalamış MDB ölkələrindən Ermənistanın Azərbaycana qarşı təcavüzünün əəbəblərinə və onun nəticələrinə ciddi yanaşmağı tələb edir. Bu zaman onu da nəzərə almaq lazımdır ki, baş verən hadisələr təkcə bizim regiona deyil, həm də bütün MDB məkanına aiddir.

Bu məqsədlə biz bütün MDB məkanında siyasi vəziyyətin sabitləşdirilməsinə yönəldilmiş ikitərəfli və çoxtərəfli sazişlər sisteminin ekspertlər səviyyəsində işlənib hazırlanmasını təklif edirik. Həmin düzəlişlər faktiki olaraq aşağıdakıları təmin edir:

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- MDB üzvü olan dövlətlərimizin hər birinin suverenliyinin və ərazi bütövlüyünün tanınması və bunlara hörmət edilməsi. Birinci mərhələ kimi, sərhədlərin, məsələn, Orta Asiya, Zaqafqaziya və s, qarşılıqlı surətdə tanınması haqqında regional sazişlər bağlamaq zəruridir;

- dövlətlərimizdəki milli azlıqların təhlükəsizliyini, hüquq və azadlıqlarını; bu, separatçılığa və davakar millətçiliyə qarşı möhkəm sədd çəkəcəkdir.

Ermənistan Respublikasının bu cür hərəkətlərinə qarşı etirazımı bildirərək dövlət başçılarına təkidli çağırışla müraciət edirəm:

1. Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünə siyasi qiymət versinlər;

2. Ermənistan Respublikasından Azərbaycan Respublikasına qarşı hərbi əməliyyatları dayandırmağı qətiyyətlə tələb etsinlər;

3. Ermənistan Respublikası silahlı qüvvələrinin bütün bölmələrini Azərbaycan Respublikasının ərazisindən dərhal çıxarmağa;

4. Ermənistan Respublikasından hərbi əməliyyatlara yenidən başlamamağa möhkəm siyasi təminat verməyi tələb etsinlər. Bunsuz qaçqınların və köçkünlərin öz yerlərinə təhlükəsiz qayıtmaları mümkün deyildir;

5. Maddi zərərin müəyyənləşdirilməsi və işğalçıların Azərbaycan ərazisində törətdikləri cinayətkar əməllərə qiymət verilməsi üzrə qiymətləndirilməsinə dair MDB üzvü olan dövlətlərin nümayəndələrindən ibarət xüsusi komissiya yaratsınlar.

Həmin təkliflər əməli surətdə həyata keçirilmədən sülh bərqərar olmayacaq, qarşılıqlı surətlə faydalı iqtisadi əməkdaşlıq üçün şərait yaranmayacaq, bunsuz isə nə tərəqqi, nə demokratiya, nə də hətta bizim birliyimizin yaşaması mümkün deyildir.

Biz, həmçinin Kollektiv Təhlükəsizlik haqqında müqavilənin mətninə Birliyin təhlükəsizliyi üçün qorxu törədən indiki və gələcəkdə ola biləcək vəziyyətlərə təcili surətlə münasibət bildirməyin mexanizminin yaradılmasına yönəldilmiş düzəlişlər vermişik. Bizim qəti inamımız belədir ki, Birlik dövlətlərinin təhlükəsizliyi xarici sərhədlərin təhlükəsizliyindən daha çox ümumi evimizlə sülh və sabitlik olmasından asılıdır.

HEYDƏR ƏLİYEV

24 dekabr 1993-cü il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AKADEMİK ELDAR SALAYEVƏ

Hörmətli Eldar Yunis oğlu!

Sizi - Azərbaycanın tanınmış alimi və görkəmli ictimai xadimini 60 illiyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Elmi ictimaiyyət Sizi mikrofotoelektronika sahəsinin Azərbaycan elmi məktəbinin yaradıcısı kimi tanıyır. Respublikamızda bu istiqamətlə bağlı elmi tutumlu yeni istehsal sahəsinin yaradılıb inkişaf etdirilməsində də xidmətləriniz böyükdür.

Sizin təşkilatçılıq fəaliyyətiniz respublika akademiyasının həyatında öz əksini tapmışdır. Elmi nailiyyətləriniz və təşkilatçılıq bacarığınızla yanaşı, qaynar ictimai fəaliyyətiniz də sizi xalqa daha yaxından tanıtmışdır.

İnanıram ki, rəhbərlik etdiyiniz Azərbaycan Elmlər Akademiyası öz əzəli şöhrətini qoruyub saxlayacaq, bu müqəddəs elm ocağının hər bir istedadlı və ləyaqətli əməkdaşı isə müstəqil Azərbaycanımız naminə yorulmadan çalışacaq və Azərbaycan elminə sədaqətlə xidmət edəcəkdir.

Sizi - ömrünün 60-cı baharı ilə qovuşan fədakar alimimizi bir daha təbrik edir, gələcək fəaliyyətinizdə Sizə möhkəm cansağlığı və yeni uğurlar diləyirəm.

Hörmətlə,

HEYDƏR ƏLİYEV

24 dekabr 1993-cü il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AZƏRBAYCANIN MİLLİ QƏHRƏMANLARI VƏ VƏTƏNİMİZİN AZADLIĞI UĞRUNDA ŞƏHİDLƏRİN AİLƏ ÜZVLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

27 dekabr 1993-cü il

Hörmətli Milli Qəhrəmanlar, hörmətli valideynlər, həmvətənlər, bacı və qardaşlar! Bu gün, Yeni il ərəfəsində biz bu salona Milli Qəhrəmanlarla, həlak olmuş Milli Qəhrəmanların valideynləri ilə görüşə gəlmişik. Bu görüş Azərbaycan vətəndaşlarının, Azərbaycan qəhrəmanlarının ikilliyinə hörmət əlaməti, eyni zamanda həlak olmuş, şəhid olmuş qəhrəmanların xatirəsinə ehtiram əlamətidir. Mən sizinlə görüşməyimdən çox məmnunam, sizə və Azərbaycanın bütün Milli qəhrəmanlarına, şəhid olanların valideynlərinə, hazırda cəbhədə döyüşən əsgər və zabitlərimizə səmimi qəlbdən salamımı yetirir, hamıya hörmət və məhəbbətimi bildirirəm.

Azərbaycan Respublikası altıncı ildir ki, Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalmışdır. Azərbaycan xalqı, respublikamızın vətəndaşları öz torpaqlarını müdafiə etmək üçün, öz Vətənini, müstəqilliyini və azadlığını qorumaq üçün mübarizəyə qalxmışlar. Bu illərdə xalqımızın uğurları da, məğlubiyyətləri də olmuşdur. Ən böyük nailiyyət ondan ibarətdir ki, Azərbaycan xalqı öz torpağını qorumağa qadirdir. Azərbaycan vətəndaşları bu yolda şəhid olur, xalqa çəkilən dağı dərk edirlər. Mən bütün şəhidlərin, torpaq, Vətən yolunda həlak olanların xatirəsi qarşısında baş əyirəm, onların valideynlərinə, bacı və qardaşlarına, qohum-əqrəbalarına Allahdan səbir diləyirəm.

Bəli, torpaqlarımızın bir qismi əldən getmişdirsə də, xalqımız vuruşur, canından keçir, qəhrəmanlıq nümunələri göstərir. Həmin qəhrəmanların, onların valideynlərinin bir qismi bu salondadır. Ona görə də bu görüş qəhrəmanlarla görüşdür, Azərbaycan xalqının qəhrəmanlığına həsr olunmuş görüşdür.

Təəssüf ki, bu illərdə, torpaqlarımızın qorunması etibarlı olmamış, Azərbaycan ərazisinin bir qismi erməni işğalçıları tərəfindən zəbt edilmişdir. Bir milyona qədər soydaşımız yurdlarından didərgin düşərək qaçqın vəziyyətində yaşayır. Lakin bunların heç biri Azərbaycan xalqının iradəsini sarsıtmamış, qırmamışdır. Azərbaycan xalqı, respublikanın bütün vətəndaşları torpağımızı müdafiə etmək, işğal olunmuş ərazilərin hamısını geri qaytarmaq, Azərbaycan Respublikasının ərazi bütövlüyünü təmin etmək əzmindədirlər və buna qadirdirlər. Mən tam əminəm ki, biz buna nail olacağıq.

Bu ağır və dəhşətli müharibəyə son qoymaq üçün bir çox addımlar atmışıq. Müharibəni qurtarmaq üçün sülh danışıqları

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

aparmaq təşəbbüslərimiz indiyədək nəticə verməmişdir və erməni silahlı qüvvələri indi də Azərbaycanın müdafiə olunan mövqelərinə hücum edir, öz qəsbkarlıq niyyətlərini yenə də həyata keçirmək istəyirlər. Biz məsələnin sülh yolu ilə həll olunması, yəni işğal edilmiş torpaqlarımızın hamısının boşaldılması, Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunması tələblərini irəli sürərək beynəlxalq təşkilatlara çox müraciət etmişik. Beynəlxalq təşkilatlar, böyük dövlətlər bu barədə bir neçə qətnamə qəbul etmiş, təşəbbüslər irəli sürmüşlər. Təəssüf ki, bunlar da bir nəticə verməmişdir. Erməni silahlı qüvvələri bunların heç birinə məhəl qoymayaraq yenə torpaqlarımızı işğal etməyə çalışırlar.

Ancaq son vaxtlar vəziyyət tamamilə dəyişmişdir. Biz torpaqlarımızı müdafiə edirik və indi yaranmış mövqelərdə silahlı qüvvələrimizi möhkəmləndirərək erməni hərbi birləşmələrinin hücumlarını dəf etməyə çalışırıq. Sizə məmnuniyyətlə deyə bilərəm ki, Azərbaycan Ordusu buna nail olur. Bir aydan artıqdır ki, erməni silahlı qüvvələri Azərbaycan Respublikasının Beyləqan, Ağcabədi, Ağdam, Goranboy rayonlarının və başqa rayonların ərazisində ordumuzun mövqelərinə nə qədər hücum etsələr də heç nəyə nail ola bilmirlər. Onların hücumları dəf olunur, Azərbaycan Ordusunun bölmələri düşmənə layiqli cavab verir, işğalçılar böyük itki verərək geri çəkilirlər. Düzdür, bu, torpaqlarımızın azad edilməsi yolunda hələ böyük bir hadisə deyildir. Ancaq əvvəlki dövrlə müqayisədə onu göstərir ki, Azərbaycan Silahlı Qüvvələri möhkəmlənmişdir, torpaqlarımızı qorumağa qadirdir. Bununla da düşmənə bildirir ki, o, öz qəsbkarlıq niyyətlərindən əl çəkməlidir.

Bu döyüşlərdə itkilərimiz də var. Hər gün gedən bu döyüşləri biz aparmırıq. Bunlar ancaq və ancaq erməni silahlı qüvvələrinin hücumu nəticəsində baş verir. Lakin qeyd etdiyim kimi, ordumuzun hissələri torpaqlarımızı etibarlı müdafiə edirlər. Qanlı döyüşlərdə qəhrəman oğullarımız həlak olurlar. Bu da təbii haldır: bir halda ki, müharibə gedir, biz Vətənimizi qorumağa çalışırıq və qorumalıyıq, deməli, bu yolda hər birimiz canımızdan keçməyə hazır olmalıyıq. Şəhidlərin ruhu məni ağrıdır. Həlak olan Azərbaycan vətəndaşlarının surəti hər gün gözümün qarşısına gəlir. Lakin torpağın, Vətənin müdafiəsi hər birimiz üçün ən ülvi, ən uca, ən müqəddəs vəzifədir. Bu müqəddəs vəzifənin yerinə yetirilməsində şəhid olanlar cənnətə gedirlər, onların qəhrəmanlığı xalqın xatirəsində daim yaşayacaqdır.

Bu gün biz burada qəhrəmanlarla, şəhid olmuş igidlərimizin valideynləri, qohum-əqrəbaları ilə görüşərkən onu da qeyd etmək istəyirəm ki, Azərbaycanın bütün vətəndaşları Vətənimizin müdafiəsinə qalxıblar. Bu, çox əlamətdar və təqdirəlayiq bir haldır.

Azərbaycan çoxmillətli respublikadır, çoxmillətli ölkədir. Burada əsrlər boyu bir çox millətlər birgə yaşayıblar, yaşayırlar və bundan sonra da yaşayacaqlar. Bütün millətlərə mənsub olan

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Azərbaycan vətəndaşlarının hamısı respublikamız üçün doğmadır və Azərbaycan da onlar üçün doğma Vətəndir. Onların hamısı Azərbaycanın bərabər hüquqlu vətəndaşıdır. İftixar hissi ilə qeyd etməliyəm ki, şəhid olanlar, qəhrəmanlıq nümunələri göstərənlər arasında Azərbaycanda yaşayan bütün millətlərin nümayəndələri var. Bu gün burada söz alıb danışanların, elə valideynlərin də çıxışları bunu bir daha nümayiş etdirdi. Bu, bizi daha da gücləndirir. Bəli, bu, belədir, belə də olmalıdır. Azərbaycan onun ərazisində yaşayan bütün insanların Vətənidir. Milliyyətnidən, dilindən, dinindən asılı olmayaraq, bütün insanlar eyni hüquqa malikdirlər. Odur ki, hər bir Azərbaycan vətəndaşı da Azərbaycan torpağını doğma torpaq hesab edərək, onun müdafiəsinə qalxmalıdır, onu qorumaq üçün mübarizə aparmalıdır, lazım olarsa canından keçməlidir, şəhid olmalıdır. Məhz şəhid olanlar da var.

Mən bütün Azərbaycan vətəndaşlarına göstərdikləri qəhrəmanlıq nümunələrinə görə, əl-ələ verib Vətənin müdafiəsinə qalxdıqlarına görə təşəkkür edirəm və əmin olduğumu bildirmək istəyirəm ki, bundan sonra da Azərbaycanın bütün vətəndaşları yekdil olacaq, hamı bir nəfər kimi Azərbaycan torpağını müdafiə edəcək, Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü qoruyub saxlayacaqlar.

Bugünkü görüş, buradakı çıxışlar böyük tərbiyəvi əhəmiyyətə malikdir. Mən məmnunam ki, noyabrın 2-də radio və televiziya ilə xalqa müraciətimdən sonra Azərbaycan Respublikasında hərbi vətənpərvərlik əhval-ruhiyyəsi yüksəlir, vətəndaşların öz torpağını, öz Vətənini qorumaq, öz borcunu, vəzifələrini yerinə yetirmək əzmi möhkəmlənir və bunun nəticəsində ordumuza axın artır, ordumuz güclənir, qüdrətlənir. Bu, belə də olmalıdır. Biz heç vəchlə qəbul edə bilmərik ki, Azərbaycan belə ağır vəziyyətdə olduğu halda onun vətəndaşlarının bir qismi buna biganə qalsın, özünü kənara çəksin, bu şərəfli, müqəddəs işdən boyun qaçırsın.

Ötən müddət ərzində çox iş görülüb, ordumuza könüllü olaraq çox adam gəlib. Onların arasında gənclərin sayı xüsusilə çoxdur. Bəli, ordumuz möhkəmlənmişdir. Məhz buna görə də biz erməni silahlı qüvvələrinin hücumlarının qarşısını ala bilirik və onların hələ iki-üç ay bundan qabaq qurduğu planları puça çıxarmağa müvəffəq olmuşuq. Amma bununla yanaşı, təəssüflə deməliyəm ki, elələri də var ki, ordu sıralarına getməkdən boyun qaçırır, cürbəcür bəhanələr tapır, yaxud ordudan fərarilik edir, öz vətəndaşlıq borcunu yerinə yetirmək istəmirlər. Nə gizlədəsən, bələləri də var və təəssüf ki, az deyildir.

Belə düşünürəm ki, onlar bu gün bu salona toplaşanların, bizim qəhrəmanların və onların valideynlərinin sözlərini dərk etməli və bu yoldan çəkinməlidirlər. Əminəm ki, Milli Qəhrəmanlarımızın, şəhidlərimizin həyat nümunəsi indi ordu sıralarında xidmət etməkdən boyun qaçıranlar üçün və onların valideynləri üçün bir tərəfdən örnək olmalı, digər tərəfdən onlar özləri üçün nəticə çıxarmalıdırlar. Burada şəhidlərin, qəhrəmanların ata-anaları çıxış etdilər. Onların sözləri hər bir

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

vətəndaşın ürəyində, şəxsən mənim qəlbimdə böyük həyəcan hissi, dərin ehtiram, hörmət hissi doğurur. Həm şəhid olanlar, həm də onların valideynləri nə qədər pak, nə qədər vicdanlı insanlardır!

Əsrlər boyu Azərbaycanı məhz belə insanlar, belə oğullar qoruyub saxlayıb, yaşadıb və bu günə gətirib çıxarıblar. Məhz belə insanlar Azərbaycanı bu bəladan qurtaracaq, Vətənimizin yüksəlişini təmin edəcək, Azərbaycanı xoşbəxt gələcəyə aparacaqlar. Əminəm ki, bu gözəl nümunələr bütün Azərbaycan vətəndaşları üçün örnək olacaqdır. Gənclər üçün örnək olmalıdır ki, hər bir gənc Azərbaycan vətəndaşı öz borcunu yerinə yetirməyə hazır olsun və onu layiqincə yerinə yetirsin. Valideynlər üçün örnək olmalıdır ki, onlar bilsinlər övladlarını cürbəcür yollarla, təəssüflər olsun, bəzən də rüşvət verməklə, başqa vasitələrlə ordu sıralarına çağırışdan saldırmaqla, yaxud da uzaqlaşdırmaqla onlar özlərinə, öz mənəviyyatına, Vətənə, xalqa xəyanət edirlər.

"Vətəndaş" sözü böyük sözdür, müqəddəs sözdür. "Vətəndaş" sözü o deməkdir ki, hər bir vətəndaş öz vətəninə sadiq olmalıdır, onu göz bəbəyi kimi qorumalıdır və vətəninin uğrunda, torpağının uğrunda, anasının, atasının müdafiəsi yolunda şəhid olmağa hazır olmalıdır. "Vətəndaş" sözünün mənası bax, budur! Mən istərdim ki, Azərbaycan torpağında yaşayan hər bir vətəndaş bu sözün yüksək və ülvi mənasına layiq olsun.

Bir daha deyirəm, mən bütün gənclərə müraciət edirəm onlar bu gün bu salonda olan qəhrəmanlardan, həyatlarını Vətən yolunda qurban vermiş şəhidlərdən nümunə götürsünlər. Bütün vətəndaşlara, valideynlərə müraciət edirəm - onlar burada çıxış edən valideynlərin və ümumiyyətlə, şəhid oğul və qızlarımızın valideynlərinin münasibətindən özləri üçün nəticə çıxarsınlar. Ümidvaram ki, belə də olacaqdır. Təəssüf ki, son illər bizdə vətənpərvərlik əhval-ruhiyyəsi, Vətənə sədaqət, xalqa sədaqət, Vətən yolunda döyüşmək əhval-ruhiyyəsi zəif olmuşdur. İndi isə mən bu sahədə böyük canlanma yarandığını hiss edirəm. Bu, hamımızı sevindirir, hamımıza ruh verir və bizdə böyük nikbinlik yaradır.

Mən bu salondan indi cəbhələrdə öz hərbi xidmətini layiqincə yerinə yetirən əsgərlərimizə, zabitlərimizə, döyüşçülərimizə müraciət edirəm. Sizin adınızdan, öz adımdan onları salamlayıram, üzümüzə gələn Yeni il münasibətilə təbrik edirəm və hamısına müraciətlə deyirəm ki, Vətənin, torpağın keşiyində daha cəsarətlə, daha mətinliklə durun, Vətəni qoruyun. Xalq, Vətən sizin şücaətinizi layiqincə qiymətləndirəcək və heç vaxt unutmayacaqdır.

Bu gün mən sizin hamınızı qarşıdan gələn Yeni il münasibətilə təbrik edir, hamınıza cansağlığı, xoşbəxtlik arzulayıram və əmin olduğumu bildirmək istəyirəm ki, xalqımız, gündən-günə möhkəmlənən birlik Azərbaycanı bu bəladan xilas edəcək və biz əminamanlığa çıxacağıq. Həmçinin bildirmək istəyirəm ki, bunlara nail olmaq üçün biz bütün imkanlardan, habelə diplomatik imkanlardan istifadə edirik, sülh danışıqları aparmağa, böyük dövlətlərin imkanlarından istifadə etməyə çalışırıq.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Güman edirəm ki, bunların hamısı birlikdə öz nəticəsini verəcəkdir. Fransada olarkən, bu ölkənin prezidenti Fransua Mitteranla, başqa dövlət xadimləri ilə görüşərkən Azərbaycanın vəziyyəti barədə geniş söhbətlər aparıldı. Fransa ilə Azərbaycan arasında imzalanmış dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında müqavilə, zənnimcə, beynəlxalq aləmlə respublikamızın mövqelərinin möhkəmlənməsinə çox böyük zəmin yaradır.

Dekabrın 23-24-də Aşqabatda Müstəqil Dövlətlər Birliyi dövlət başçılarının görüşü olmuşdur. Həmin görüşdə biz Azərbaycanın vəziyyəti haqqında ətraflı məlumat verdik və bildiyiniz kimi, mən orada ciddi bəyanatla çıxış etdim. Bu, Müstəqil Dövlətlər Birliyi daxilində Azərbaycan Respublikasına Ermənistanın təcavüzünə qarşı etiraz bəyanatıdır və eyni zamanda müstəqil dövlətlərin hamısını bu məsələnin sülh yolu ilə həll olunmasına çağırış bəyanatıdır. Güman edirəm ki, bütün bu addımlarımız öz nəticəsini verəcəkdir. Amma bununla bərabər, biz müdafiə imkanlarımızı möhkəmləndirir və möhkəmləndirəcəyik. Bir daha bildirirəm ki, biz öz torpaqlarımızı müdafiə edirik, başqalarının torpaqlarına göz dikməmişik, heç bir ölkənin torpağını zəbt etməmişik və etmirik. Ancaq öz torpaqlarımızı, öz ərazimizi azad etmək üçün bundan sonra da lazımi tədbirlər görəcəyik.

Mən sizi əmin edirəm ki, bütün imkanlardan istifadə edib, Azərbaycanı bu ağır vəziyyətdən çıxarmağa çalışırıq. Mən sizi əmin edirəm ki, bütün imkanlardan istifadə edib, Azərbaycanın işğal olunmuş torpaqlarını azad edəcəyik, Azərbaycanın müstəqilliyini, Azərbaycan Respublikasının ərazi bütövlüyünü təmin edəcəyik, ölkəmizdə sülh və əmin-amanlıq şəraiti yaradacağıq. Bunun üçün hamımız daha sıx birləşməliyik, hamımız əl-ələ verməliyik, Azərbaycanın bu ağır günündə, ağır dövründə hamımız bir olmalıyıq.

Bir daha sizin hamınıza bu görüş üçün təşəkkürümü bildirirəm və hamınızı, bütün Azərbaycan vətəndaşlarını birliyə, həmrəyliyə dəvət edirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, biz bu birliyə, bu həmrəyliyə nail olacağıq, biz qalib gələcəyik, müstəqil Azərbaycan gələcəkdə öz müstəqil inkişaf yolu ilə gedəcəkdir.

Sizin hamınıza cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar diləyirəm. Sağ olun!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

XALQA YENİ İL MÜRACİƏTİ

31 dekabr 1993-cü il

Hörmətli həmvətənlər, bacılar və qardaşlar! Sizi qarşımıza gələn 1994-cü il - Yeni il münasibətilə təbrik edirəm! Bu gün dünya azərbaycanlılarının həmrəylik günüdür. Bu əlamətdar gün münasibətilə bütün dünya azərbaycanlılarını təbrik edirəm, azərbaycanlılara bundan sonra daha da sıx həmrəylik arzulayıram!

Sona çatan 1993-cü il Azərbaycan xalqı üçün, respublikamız üçün ağır və çətin il olmuşdur. Bu il Azərbaycan Respublikasının həyatında mürəkkəb ictimai-siyasi proseslər baş vermiş, dəyişikliklər əmələ gəlmişdir. Bu il Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində müharibə davam etmiş, respublikamızın torpaqlarının bir qismi işğal olunmuş, həmvətənlərimiz, soydaşlarımız yaşadıqları yerlərdən didərgin düşmüş, qaçqın olmuşlar. Bu il Azərbaycan Respublikası dərin iqtisadi, sosial böhran içində olmuşdur. Tam qətiyyətlə, böyük iftixar hissi ilə demək olar ki, xalqımız, respublikamız bütün bu çətinliklərdən, sınaqlardan layiqincə çıxmış, 1994-cü ilə inamla irəliləyir.

1993-cü ildə respublikamızın ictimai-siyasi həyatında böyük qarışıqlıqlar olmuşdur. Ayrı-ayrı qruplar arasında qarşıdurma, separatçı qüvvələr tərəfindən Azərbaycanın parçalanmasına yönəldilən meyllər ictimai-siyasi sabitliyi pozmuş və ilin ortalarında respublikamız demək olar ki, son həddə - vətəndaş müharibəsi həddinə gəlib çatmışdı. Demək olar ki, vətəndaş müharibəsi artıq başlanmış, Azərbaycanın bəzi regionlarında qardaş qanı tökülmüş, bu da respublikada daxili vəziyyəti həddən artıq gərginləşdirmişdi. Lakin xalqımız öz müdrikliyini bir daha nümayiş etdirmiş, vətəndaş müharibəsinin qarşısı alınmış, yaranan qarşıdurma aradan götürülmüş, respublikamızı parçalamağa çalışan senaratçı qüvvələr zərərsizləşdirilmişdir. Artıq indi respublikamız sabit və sərbəst şəraitdə öz problemlərini həll edir.

Bu il ərzində respublikamız Ermənistan silahlı qüvvələrinin qarşısını almağa çalışmışdır. Təəssüf ki, bizim məğlubiyyətlərimiz olmuş, torpaqlarımızın bir qismi əldən getmişdir. Erməni silahlı qüvvələri tərəfindən işğal olunmuş torpaqlardan qaçqın düşmüş vətəndaşlarımız digər regionlarda yerləşmişlər. İndi Azərbaycanla bir milyondan artıq qaçqın vardır. Bu da Azərbaycanın ümumi vəziyyətini və xüsusən daxili şəraitini həddindən artıq gərginləşdirmişdir.

Ancaq qeyd etmək lazımdır ki, indi vəziyyət dəyişmişdir. Son aylarda respublikamızda ordunun qurulması, nizamlanması,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

torpaqlarımızın etibarlı müdafiə olunması sahəsində aparılan işlər nəticəsində biz böyük dəyişikliklərin şahidiyik. İndi bizim ordu hissələrimiz, qəhrəman döyüşçülərimiz torpaqlarımızın müdafiəsində etibarlı durublar, qəhrəmanlıq nümunələri göstərirlər, erməni silahlı qüvvələrinin hücumuna qarşı layiqli cavablar verirlər, onlara zərbələr endirirlər. Məmnuniyyət hissi ilə demək olar ki, son aylarda erməni silahlı qüvvələrinin bütün cəhdləri məğlubiyyətə uğrayıbdır, onların bütün hücumları dəf olunubdur. Respublikamızın silahlı qüvvələri tutduğu mövqeləri etibarlı müdafiə edirlər və erməni silahlı qüvvələrinə Azərbaycan Respublikasının gücünün və qüdrətinin nə qədər artdığını artıq sübut edirlər. İndi bütün cəbhə boyu qanlı döyüşlər gedir. Bu döyüşlərin səbəbkarları da erməni silahlı qüvvələridir. Dəfələrlə demişik, bu gün bir daha təkrar edirəm ki, dövlətimiz Azərbaycan Respublikasının başına gəlmiş bu bəladan - müharibə şəraitindən sülh yolu ilə çıxmaq tərəfdarıdır. Bu barədə biz bir neçə addım atmışıq və bu gün də həmin mövqeyimizi bəyan edirik. Güman edirəm ki, bizim bu addımlarımız nəticə verməlidir. Eyni zamanda, artıq Azərbaycan Respublikası öz hərbi qüdrətini gücləndirə bilib və xalqımız tam əmin ola bilər ki, respublikamızın etibarlı müdafiəsini təmin etmək üçün, işğal olunmuş torpaqları geri qaytarmaq üçün ordumuz bundan sonra da lazımi tədbirləri görə biləcəkdir.

Müharibə gedir, döyüşlər gedir, xalqımız itkilər verir. Təbiidir. Bu günlərdə də, ilin əvvəlindən olduğu kimi, Azərbaycan xalqının igid oğulları cəbhə bölgələrində torpaqlarımızı müdafiə edərək şəhid olurlar, həlak olurlar. Mən bu gün, bu bayram ərəfəsində bütün şəhidlərin ailələrinə, qohum-əqrəbalarına başsağlığı verirəm. Azərbaycanın qəhrəman oğullarının rəşadəti, igidliyi qarşısında baş əyirəm. Allah şəhid olanların hamısına rəhmət eləsin, qəbirləri nurla dolsun. Onların ailələrinə Allah səbr versin.

Güman edirəm ki, xalqımız bu ağır sınaqlardan çıxmağa artıq ğadirdir. Bu gün - bu bayram günü cəbhə bölgələrində mətanətlə, qəhrəmanlıqla döyüşən əsgərlərimizə, zabitlərimizə, bütün vətəndaşlarımıza bayram salamı gondərirəm. Onları Yeni il münasibətilə təbrik edirəm. Onlara cansağlığı və bu müqəddəs vəzifələrini yerinə ystirməkdə uğurlar diləyirəm.

Müharibə acı nəticələr verib və bu gün də verir. Müharibə nəticəsində, erməni silahlı qüvvələrinin təcavüzü nəticəsində qaçqınların sayı artıbdır. Mən bu gün üzümü qaçğınlara, Azərbaycanın dəyərli vətəndaşlarına tutaraq onların hamısını Yeni il münasibətilə təbrik edirəm. Bəli, xalqımızın adət-ənənəsinə görə hər bir vətəndaş Yeni il bayramını öz evində, öz ocağında qeyd edir. Təəssüf ki, vətəndaşlarımızın bir çoxu isti evlərini, yurdlarını, obalarını itirib, ayrı-ayrı bəlgələrdə yerləşib, sığınacaq tapıb. Harada olursa-olsun, bu gün qaçqınlar bilməlidirlər ki, xalqımız onlara böyük qayğı ilə yanaşır, dövlət onlara böyük qayğı göstərir. Onlar nə qədər kədərli

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

olsalar da, nə qödər çətinlik çəksələr də, bu gün onlara bayram əhval-ruhiyyəsi arzulayıram.

Respublikamız ağır böhran içindədir. İqtisadi-sosial böhran bir tərəfdən müharibənin altı ilə yaxın davam etməsi ilə əlaqədardır. İkinci tərəfdən, bəzi obyektiv və subyektiv səbəblərlə bağlıdır. Bunların hamısı xalqımızın rifah halının aşağı düşməsinə səbəb olubdur. Xalqımız çətin vəziyyətdə yaşayır. Ancaq biz bilirik ki, xalqımız dözümlü xalqdır, bu çətinliklərə dözəcək, bu ağrı-acılı 93-cü ili başa çatdıracaq və 94-cü ildə İqtisadiyyatımızın inkişafında dönüşlər olacaq, xalqımızın rifah halı günü-gündən yaxşılaşacaqdır.

Bu gün - dünya azərbaycanlılarının həmrəylik günü bütün azərbaycanlılara birlik, həmrəylik arzulayıram. Bütün azərbaycanlıların birliyi, həmrəyliyi olması üçün birinci növbədə müstəqil Azərbaycan Respublikasının ərazisində olan azərbaycanlıların həmrəyliyi lazımdır. İndi biz müstəqil Azərbaycan Respublikasının ikinci ilini başa çatdırırıq. Bu, o qədər də böyük müddət deyil. Bu iki il müddətində respublikamız ağır dövr keçiribdir. Müstəqilliyimizin üçüncü ilinə qədəm qoyuruq. Qarşımızla böyük vəzifələr var. Bu vəzifələrin həyata keçirilməsi üçün xalqımıza, Azərbaycan Respublikasının bütün vətəndaşlarına birlik, həmrəylik lazımdır. Əgər vətəndaşlarımızın hamısı, respublikamızda yaşayan azərbaycanlıların hamısı həqiqi həmrəylik yarada bilsələr, biz bütün dünya azərbaycanlılarının həmrəyliyinə nail ola bilərik.

Buna görə də mən xalqımızı birliyə, həmrəyliyə dəvət edirəm, dözümlülüyə dəvət edirəm. Xalqımızı əmin etmək istəyirəm ki, qarşıdan gələn 1994-cü il Azərbaycan Respublikası üçün böyük dəyişikliklər, böyük dönüşlər ili olacaqdır. Bir daha deyirəm: Biz indi Vətənimizi, torpağımızı etibarlı müdafiə edirik. Biz Azərbaycanın müharibə vəziyyətnidən çıxmasına, müharibəyə son qoyulmasına çalışırıq, yaranmış vəziyyətdən sülh yolu ilə çıxmağa çalışırıq. Bunun üçün bir çox addımlar atmışıq və bundan sonra da atacağıq. Dekabrın 20-də Parisdə mən Azərbaycan xalqı adından Paris Xartiyasını imzalalım. Bununla da biz Azərbaycan Respublikasının sülhə, əmin-amanlığa, təhlükəsizliyə sadiq olduğunu dünya qarşısında bir daha nümayiş etdirdik.

Biz sülh tərəfdarıyıq. Ancaq bununla yanaşı, müdafiə qüvvələrimizi gücləndiririk, torpaqlarımızı azad etməyə, işğal olunmuş ərazilərimizin geri qaytarılmasını təmin etməyə çalışırıq və çalışacağıq. Xalqımız əmin ola bilər ki, respublikamızın ərazi bütövlüyünü, sərhədlərimizin toxunulmazlığını təmin etmək üçün bütün tədbirlər görüləcəkdir.

Siz, əziz vətəndaşlar, əziz qardaşlar və bacılar, əmin ola bilərsiniz ki, işğal olunmuş torpaqlarımız nəyin bahasına

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

olursa-olsun azad ediləcəkdir. Qaçqınlar öz evlərinə, obalarına qayıdacaqlar. Azərbaycan Respublikasının ərazi bütövlüyü, dövlət suverenliyi tamamilə təmin olunacaqdır.

Bir daha sizin hamınızı Yeni il münasibətilə təbrik edirəm.

Bütün Azərbaycan vətəndaşlarına sülh, əmin-amanlıq, xoşbəxtlik, şəxsi həyatınızda səadət, bütün işlərinizdə müvəffəqiyyətlər diləyirəm.

Sağ olun! Yeni iliniz mübarək olsun!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

HƏRBİ HİSSƏLƏRİ ÖZBAŞINA TƏRK ETMİŞ VƏ YA ÇAĞIRIŞDAN YAYINMIŞ GƏNCLƏRİN BİR QRUPU, ONLARIN VALİDEYNLƏRİ VƏ YAXIN QOHUMLARI İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

2 yanvar 1994-cü il

Silahlı qüvvələrimiz son vaxtlar respublikamızın ərazisini etibarlı müdafiə etməkdə yaxşı nailiyyətlər qazanmış, möhkəm müdafiəni təmin etməklə yanaşı, erməni silahlı qüvvələrinin hücumunu dəf edərək onlara sarsıdıcı zərbələr endirir, böyük birləşmələrini dağıdaraq işğal edilmiş torpaqlarımızın bir qismini geri qaytarmışdır. Bunlar göstərir ki, son iki ay içərisində ordunun qurulması ilə respublikamızda aparılan tədbirlər öz nəticələrini verir: xalqımızda vətənpərvərlik hissi, döyüş əhval-ruhiyyəsi artır, torpağı müdafiə etmək əzmi yüksəlir. Azərbaycanın vətəndaşları, xüsusən gənclər orduda ləyaqətlə xidmət edir, qəhrəmanlıq nümunələri göstərirlər. İndi respublikamızın hərbi vəziyyətinin döyüş dövrü xalqda ruh yüksəkliyinin artmasına şərait yaratmışdır.

Bunlar, bir daha deyirəm, ordumuzun möhkəmlənməsinin, ordumuzun uğurla qurulmasının, hərbi hissələrimizdə komandirlərimizin səriştəli hərəkət etməsi, əsgər və zabitlərimizin qəhrəmancasına torpağımızı müdafiə etməsinin parlaq təzahürüdür.

Son vaxtlar cəbhələrdə qəhrəmanlıq göstərmiş, fərqlənən zabit və əsgərlərimizin böyük qrupunu Azərbaycanın orden və medalları ilə təltif etmişik. Elə dünən onların bir qismi Azərbaycanın yüksək mükafatı olan "Azərbaycan bayrağı" ordeni və "Hərbi xidmətə görə" medalı ilə təltif olunmuşdur. Dünən cəbhə bölgələri ilə əlaqə saxladım. Təltif olunan zabitlərin, komandirlərin bəzilərini şəxsən təbrik etdim. Onların döyüş raportlarını dinlədim və bir daha əmin oldum ki, torpaqlarımızın müdafiəsi indi etibarlı əllərdədir. Ordu quruculuğu prosesi normal gedir, ordumuz nizamlanır, günbəgün öz gücünü artırır. Onun qüdrəti ilə ölkəmizin müdafiəsinə və işğal edilmiş torpaqlarımızın geri qaytarılmasına nail olacağıq.

Ancaq uğurlarımızla birgə, təəssüf ki, cəbhə bölgələrindən narahatlıq doğuran məlumatlar da gəlir. Qəhrəmancasına vuruşub şəhid olanlar, həlak olanlarla yanaşı, bəziləri cəbhə mövqelərini atıb dəstə ilə qaçırlar. Belə hallar Ağdam və digər cəbhə bölgələrində əvvəllər də, son günlərdə də olmuşdur. İndi siz təsəvvür edin, bir tərəfdən bizim ordumuzda xidmət edən zabitlərimiz, əsgərlərimiz qəhrəmancasına döyüşür, qan tökür, xalqın hörmətini, məhəbbətini qazanır, respublikamızda son günlərdə gözəl əhval-ruhiyyənin yaranmasına səbəb olurlar. Bəziləri isə ordumuzun artıq qüdrətləndiyi bir vaxtda səbəbsiz olaraq qor-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

xub, yaxud da ki, bəzi təxribat işlərinin nəticəsində geri çəkilir, dəstə ilə qaçırlar. Onların qarşısı cəbhə bölgələrində alınır. Fərarilik edən, cəbhə bölgəsini qoyub qaçan adamların bir qismi, bildiyiniz kimi, həbs olunub, məhkəmə vasitəsilə cəzalanıblar. Bundan sonra da onlar haqda ciddi tədbirlər həyata keçiriləcəkdir.

Bir tərəfdən bizim ordumuz güclənir: qəhrəmanlıq nümunələri göstərən adamlar xalqın rəğbətini qazanır, dövlət tərəfindən qiymətləndirilir, təltif olunurlar. Digər tərəfdən isə, təəssüf ki, hələ də keçmişin neqativ əlamətləri öz təzahürünü göstərir: qorxanlara, qaçanlara, yaxud da xəyanət edənlərə də rast gəlinir. Belələrinə qarşı ciddi və amansız olacağıq.

Eyni zamanda, yeni bir proses də gedir. Mənim xalqa müraciətimdən sonra respublika prokurorluğu bəyanatla çıxış etmişdir: fərarilik edib hərbi hissələri qoyub qaçan adamlar əgər 94-cü il yanvar ayının 3-nə qədər gəlib təslim olsalar, günahlarını etiraf edib orduya qayıtmaq, xidmətlərini davam etdirmək əzmini bəyan etsələr, bağışlanacaqlar. Bizim bu tədbirimiz də öz səmərəsini verir. Hərbi prokuror Təhməzov dünən mənə məlumat verdi ki, fərarilik etmiş, yaxud müəyyən səbəblərdən -həmin səbəbləri biz indi araşdırmaq istəmirik - hərbi hissələri qoyub qaçan adamların böyük bir dəstəsi valideynləri ilə prokurorluğa müraciət edərək qeydiyyatdan keçiblər. Hərbi prokurorluq onların bağışlanması haqqında qərar çıxarıb və onlar hərbi hissələrə göndəriliblər. Bu gün Təhməzov məlumat verdi ki, yenə valideynləri ilə belə bir dəstə prokurorluğa gəlibdir. Bunları müsbət hal kimi qiymətləndirirəm. Deməli, vətəndaşlarımız, xalqımız, artıq hər kəs öz məsuliyyətini hiss edir və başa düşür ki, torpaqlarımızı özümüz qorumalıyıq. Artıq hamılıqla dərk edilir ki, torpaqlarımızı, vətənimizi, müstəqil Azərbaycan Respublikasının suverenliyini, ərazi bütövlüyünü qorumaq ən şərəfli vəzifədir və bu vəzifəni həyata keçirmək hər bir Azərbaycan vətəndaşının borcudur. Hərbi prokuror belə bir arzunu da bildirib xahiş etdi ki, mən buraya toplaşan, hərbi hissəni qoyub getmiş fərarilərlə, onların valideynləri ilə görüşüm. Bəlkə belə bir görüş bəziləri tərəfindən lüzumsuz hesab oluna bilər və fikirləşərlər ki, hərbi hissəni qoyub qaçmış, fərarilik etmiş adam cinayətkardır. Azərbaycan prezidenti isə onlarla görüşür. Ancaq mən belə düşünmürəm. Azərbaycanın hər bir vətəndaşı mənim üçün, Azərbaycan prezidenti üçün əzizdir. Hər bir vətəndaşın aqibəti məni bir prezident kimi düşündürür və narahat edir. Azərbaycanın hər bir vətəndaşının doğru yolla, düz yolla getməsi, düzgün mövqe tutması üçün mən buidan sonra da öz səylərimi əsirgəməyəcəyəm. Məhz buna görə belə bir görüşə razılıq vermiş, buraya gəlmişəm.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

YEKUN ÇIXIŞI

Hiss edirəm ki, bura toplaşanların hamısı - həm hərbi hissələri tərk edib qaçanlar, indi fərari vəziyyətində olanlar, həm də onların valideynləri bu gün burada danışmaq, ürək sözlərini demək, günahlarını etiraf etmək istəyirlər. Ən əsası odur ki, Vətəni qorumaq, müdafiə etmək üçün ordu sıralarına qayıtmaq, döyüşmək arzusunda, əzmindədirlər. Şübhəsiz ki, hamının burada söz deməsinə ehtiyac yoxdur. Çıxış edən valideynlər və hərbi hissələri tərk etmiş əsgərlər artıq burada toplaşanların hamısının sözlərini ifadə etdilər. Mən bu çıxışları salona toplaşanların hamısının ürəkdən gələn sözləri kimi qəbul edirəm və elan edirəm: hərbi hissələrini tərk etmiş, fərarilik etmiş, orduya qayıtmaq üçün hərbi prokurorluqda qeydiyyatdan keçmiş Azərbaycan oğullarının hamısını Azərbaycan prezidenti kimi bağışlayıram və onları cəza çəkməkdən azad edirəm. Burada verdiyiniz vədlərə inanıram. Əminəm ki, siz artıq öz vətəndaşlıq məsuliyyətinizi dərk etmisiniz və bundan sonra bu vətəndaşlıq borcunuzu, vəzifənizi axıra qədər ləyaqətlə yerinə yetirməkdən çəkinməyəcəksiniz. Vəd etdiyiniz kimi, dərhal hərbi hissələrə qayıdacaq, silah götürüb torpaqlarımızın müdafiəsində şərəflə duracaq, son nəfəsinizə qədər vuruşacaqsınız. Müdafiə naziri general Məmmədova əmr edirəm ki, bu gün burada qeydiyyatdan keçmiş, hərbi hissəni tərk etmiş gənclərin hamısının hərbi hissələrə göndərilməsini dərhal təmin etsin və onların hərbi xidmətlərinin həyata keçirilməsi üçün lazımi şərait yaratsın.

Valideynlərə, sizin simanızda bütün valideynlərə müraciət edirəm: övladlarınıza daha yaxşı tərbiyə verin. Onları vətənpərvərlik əhval-ruhiyyəsi ilə tərbiyələndirin. Uşaqlarınıza valideyn kimi öz təsirinizi göstərin və bildirin ki, Vətəni qorumaq ən yüksək, şərəfli vəzifədir. Bu vəzifəni həyata keçirmək üçün hər bir Azərbaycan vətəndaşı canını qurban verməyə hazır olmalıdır. Bizim Vətənimiz, müstəqil Azərbaycan Respublikası indi elə vəziyyətdədir ki, biz gərək qəhrəmanlıq nümunələri göstərək, hər bir vətəndaş öz vətəndaşlıq borcunu vicdanla yerinə yetirsin ki, Azərbaycanın işğal olunmuş torpaqlarını geriyə qaytara bilək. Buradakı əsgərlərin hamısına bir daha deyirəm: günahınızı bağışlayıram, sizi cəzadan azad edirəm. Əziz balalarım, övladlarım, sizə uğurlu hərbi xidmət arzulayır, sizdən qəhrəmanlıq nümunələri gözləyirəm.

Burada səslənən xahişləri nəzərə alaraq bəyan edirəm ki, Azərbaycanın prezidenti kimi, hərbi hissələri tərk etmiş, yaxud hərbi çağırışdan yayınmış fərarilərin gəlib hərbi prokurorluqda, hərbi komissarlıqlarda qeydiyyatdan keçmək müddətini yanvar ayının 10-na qədər uzadıram. Bu müddətə qədər hərbi prokurorluqda, komissarlıqlarda qeydə alınan hərbi hissələrə qayıdanların günahlarını bu gündən bağışlayıram. Hərbi prokuror Təh-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

məzova, müdafiə naziri general Məmmədəva, hərbi komissarlıqlara əmr edirəm ki, mənim bu bəyanatım əsasında lazımi tədbirləri görsünlər. Güman edirəm ki, kütləvi informasiya vasitələri mənim bu bəyanatımı Azərbaycan Respublikasının bütün vətəndaşlarına çatdıracaqlar. Bu bəyanatla bir daha Azərbaycanın gənc övladlarına müraciət edirəm: buraxdığınız səhvi etiraf eləyin, tutduğunuz yoldan, yəni etdiyiniz cinayətdən çəkinin, Vətənin, torpağın müdafiəsinə qalxın! Ordu sıralarına gəlin. Vətəni müdafiə etmək üçün əsgəri vəzifənizi şərəflə yerinə yetirin. Valideynlərə üzümü tuturam: övladlarınızı məhz bu yola dəvət eləyin. Bu, həm hərbi xidmətdə olmalı gənclər üçün, həm onların valideynləri üçün şərəfli vəzifədir. Hamınıza müstəqil Azərbaycanın müdafiəsi naminə bu şərəfli vəzifənin yerinə yetirilməsində can sağlığı, hərbi xidmətinizdə uğurlar arzu edirəm! Sağ olun! Yaxşı yol!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BÖYÜK BRİTANİYANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CON MEYCOR CƏNABLARINA

Hörmətli cənab baş nazir!

Məni lütfən hökumətinizin qonağı kimi Böyük Britaniyaya rəsmi səfərə dəvət etdiyinizə görə təşəkkürümü bildirirəm. Şadam ki, Sizinlə və hökumətinizin üzvləri ilə şəxsən görüşmək və ölkələrimiz arasında əməkdaşlığın perspektivlərini müzakirə etmək imkanına malik olacağam. Böyük Britaniya kimi, Azərbaycan Respublikası da ölkələrimiz arasında hərtərəfli dostluq əlaqələrinin və əməkdaşlığın inkişaf etməsini istəyir.

Mən də Sizi münasib bildiyiniz vaxtda Azərbaycan Respublikasının qonağı kimi rəsmi səfərə dəvət edirəm.

Hörmətlə,

HEYDƏR ƏLİYEV

3 yanvar 1994-cü il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ZAQAFQAZİYADAKI RUSİYA QOŞUNLARININ KOMANDANI GENERAL POLKOVNİK FYODOR REUTLA GÖRÜŞDƏ ÇIXIŞ

6 yanvar 1994-cü il

Belə düşünürəm ki, biz, bəlkə də, bundan əvvəl görüşməli idik. Ona görə ki, əvvəla, Zaqafqaziya bölgəsi qarşılıqlı surətdə bağlı olan bölgədir. İkincisi isə Siz Gürcüstanda və Ermənistanda yerləşdirilmiş Rusiya qoşunlarına komandanlıq edirsiniz. Lakin görüşməyimizə şərait heç cür imkan vermirdi. Respublikamızın mənafeləri ilə bağlı məsələləri aramızda yaxşı münasibət olan Gürcüstan Respublikası ilə qarşılıqlı surətdə həll etmək üçün mən Eduard Şevardnadze və bu respublikanın digər rəhbərləri ilə görüşmüşəm. Onlar buraya gəlmişdilər, iqtisadi əməkdaşlıqla əlaqədar, xüsusən enerji təchizatında Gürcüstana kömək göstərilməsinə aid bir çox məsələlər həll olunmuşdur. Biz Ermənistanla, təəssüflər olsun, müharibə vəziyyətindəyik. Sizin qoşunlar - Rusiya Federasiyasının qoşunları həm Gürcüstan ərazisində, həm də Ermənistan ərazisində yerləşdirilmişdir. Biz əlbəttə, ünsiyyətsiz keçinə bilmərik. Doğrudur, aramızda telefon söhbətləri olmuşdur, nümayəndələrimiz Sizinlə görüşmüşlər. Lakin biz, zənnimcə, daha sıx əlaqə saxlamalıyıq ki, qarşılıqlı münasibətlərimizdə hər hansı bir qüsura yol verilməsin. Ona görə ki, əlaqə olduqda, görüşlər keçirildikdə məsələləri həll etmək daha asandır, əlaqə olmadıqda isə hər hansı kiçik məsələ böyüyüb iri problemə çevrilir, halbuki, ola bilsin, onun heç o qədər də əhəmiyyəti yoxdur.

Bizim respublikanın Gürcüstanla elə bir problemi yoxdur. Bizim bu dövlətlə tarixən təşəkkül tapmış dostluq, mehriban qonşuluq münasibətləri var. Hərçənd bizi bütövlükdə Gürcüstanda vəziyyət narahat edir, ona görə ki, biz qonşu ölkədə baş verən hadisələrə biganə qala bilmərik. Lakin bizi Gürcüstanda yaşayan azərbaycanlıların vəziyyəti xüsusilə narahat edir. Onlar isə Gürcüstanda çoxdur, bizdə olan məlumata görə, orada təxminən 600 min nəfər azərbaycanlı var və bəzi rayonlarda - məsələn, Marneuli, Bolnisi, Amanisi, Qardabani rayonlarında yığcam halda yaşayırlar. Bizə olduqca həyəcanlı xəbərlər gəlir: bəzən ayrı-ayrı azərbaycanlılara qarşı zorakılıq, ədalətsizlik faktları və s. barəsində. Bu məsələ ilə əlaqədar nümayəndələrimiz oraya getmişdilər. Dövlət katibi Lalə-Şövkət Hacıyeva Gürcüstana xüsusi olaraq səfər etdi. O, Dmanisi və Marneuli rayonlarında oldu. Gürcüstan rəhbərliyi ilə görüşdü. Azərbaycanın Gürcüstanla bəzi qonşu rayonlarının nümayəndələri qonşu respublikaya gələrək, Marneuli və Dmanisi rayonlarının sakinlərinə humanitar və

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ya maddi yardım aparmışlar. Mən Eduard Amvrosiyeviç Şevardnadze ilə telefonla danışdım. O dedi ki, qayda-qanunun təmin edilməsi, bu rayonların Azərbaycan millətindən olan sakinləri üçün lazımi şərait yaradılmasından ötrü tədbirlər görülür.

Fürsət düşmüşkən, mən Sizə də xahişlə müraciət edirəm. Gürcüstan ərazisində, o cümlədən bu bölgədə sizin qoşun hissələriniz olduğuna görə istərdim Siz bu məsələyə diqqət yetirəsiniz. Azərbaycan millətindən olan bu şəxslər Gürcüstan vətəndaşlarıdır, əsrlərdən bəri orada yaşayırlar. Gürcüstan onların vətəni, doqma torpağıdır. Odur ki, onların təhlükəsizliyini, normal həyatını və əmək fəaliyyətini təmin etmək lazımdır. Bəzi əlamətlər bizi çox narahat edir. Mən bunu Eduard Amvrosiyeviç Şevardnadzeyə demişəm. Orada baş verən bəzi mənfi halların qarşısı alınmasa, bunlar daha ciddi çətinliklərə gətirib çıxara bilər. Vəziyyət mürəkkəbləşdikdə nələr baş verdiyini biz Sizinlə Qarabağ münaqişəsi deyilən münaqişənin timsalında yaxşı görürük. Bu münaqişə genişlənərək hazırda Ermənistan ilə Azərbaycan arasında aşkar hərbi əməliyyatlara çevrilmişdir. Buna görə də Sizə mənim ilk xahişim bundan ibarətdir. İstərdim ki, Siz buna diqqət yetirəsiniz. Mən Azərbaycan dövləti adından dəfələrlə bəyan etmişəm və bu gün də Sizinlə görüşümdən istifadə edərək bildirirəm: biz bu məsələnin dincliklə həll olunmasına tərəfdarıq. Biz istəyirik ki, müharibə qurtarsın, o demək olar, altı ildir ara vermir. Elə ötən illər bütün dünyaya inandırıcı şəkildə nümayiş etdirdi ki, bu müharibə istər Azərbaycan xalqına, istərsə də erməni xalqına müsibətlər gətirmişdir. Bu müharibə Ermənistandakı ekstremist qüvvələrin ümid etdikləri nəticələri verməyəcəkdir. Buna görə də mən dünya təcrübəsinə, siyasi təcrübəyə əsaslanaraq demişəm və deyirəm ki, bu məsələni sülh yolu ilə həll etmək lazımdır. Biz Ermənistanın bir metr də olsa ərazisini tutmamışıq, amma erməni silahlı birləşmələri - Siz hərbi adamsınız, bunu çox yaxşı bilirsiniz - Azərbaycan ərazisinin, o cümlədən onun keçmiş Dağlıq Qarabağ Vilayətinin hüdudlarından kənardakı ərazisinin təxminən 20 faizini işğal etmişlər. Erməni tərəfinin qələmə verməyə çalışdığı kimi, guya bu müharibənin Dağlıq Qarabağdakı erməni azlığının mənafelərinin müdafiəsi üçün aparıldığını güman etsək, onda necə başa düşmək olar ki, əvvəla, Dağlıq Qarabağın ozündən 50 min azərbaycanlı qovulmuşdur, erməni silahlı birləşmələri Dağlıq Qarabağın hüdudlarından kənarda isə yeddi rayonumuzu - Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarını işğal etmişlər, bu rayonların sakinləri ağır vəziyyətdədir, onların çoxu çadırlarda yaşayır. Onların yerləşdirildiyi rayonlarımıza gedib baxa bilərsiniz. On illər boyu, yüz illər boyu bu rayonlarda toplanmış, yaradılmış maddi sərvətlər talan edilmiş, dağıdılmışdır. Bu, erməni silahlı birləşmələri tərəfindən törədilmiş vəhşilikdir. Əlbəttə, bunu dünya, zənnimcə, heç kimə və heç vaxt bağışlamayacaqdır. Dünya təcavüzü, təcavüzkarları bağışlamır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Buna görə də mən bunu bildirmişəm və bu fürsətdən istifadə edərək bildirirəm, şəxsən Sizə deyirəm, hərçənd Azərbaycan rəhbərliyinin bəyanatı Sizə məlumdur, biz bu məsələnin dincliklə həllinə tərəfdarıq, amma bir şərtlə ki, erməni silahlı birləşmələri Azərbaycan ərazisini, ən əvvəl keçmiş Dağlıq Qarabağ Vilayətinin hüdudlarından kənarda olan rayonları qeydsiz-şərtsiz tərk etməlidirlər. Belə təkliflər verilmişdir, yenə də verilir. Lakin təcavüzkarlar müvəqqəti, təkrar edirəm, müvəqqəti hərbi üstünlükdən istifadə edərək düşünürlər ki, əbədi olaraq belə qalmaq mümkündür. Mən dekabrın 24-də Aşqabatda MDB dövlətləri başçılarının görüşündə bəyanat verməli oldum. Siz onunla tanışsınız. Bu bəyanat onunla bağlı idi ki, Azərbaycan sentyabrın 24-də MDB-nin tərkibinə daxil oldu. MDB-nin tam hüquqlu üzvü olmaq üçün Kollektiv Təhlükəsizlik haqqında müqaviləni imzaladı. Ermənistan da MDB-nin tərkibindədir. Buna görə də mən Aşqabatda bəyanat verərək bildirdim ki, əgər daxili təhlükəsizlik təmin edilməsə, xarici qüvvələrin mümkün hücumlarından bu birliyin təhlükəsizliyini təmin etməkdən söhbət gedə bilməz. MDB ölkələrinin kollektiv təhlükəsizliyi ola bilməz.

Buna görə də orada dedim, MDB-yə daxil olan müstəqil ölkələrin ayrı-ayrı rəhbərləri ilə söhbətlərdə də təkrar etdim ki, biz bu vəziyyətlə barışa bilmərik və zənnimcə, bu bəyanat öz nəticəsini verməlidir. Bunu Sizə ona görə deyirəm ki, Kollektiv Təhlükəsizlik haqqında müqaviləni imzalayarkən biz Birliyin bütün ölkələrinin, o cümlədən də Azərbaycanın və Rusiyanın, başqa dövlətlərin silahlı qüvvələrinin əməkdaşlığının məhz bu prinsipini əsas götürmüşük.

Siz Rusiyanın Gürcüstandakı və Ermənistandakı qoşunlarını təmsil edirsiniz. Ona görə də sizdən xahiş etmək istərdim ki, Ermənistandakı bəzi dairələrin bu sərsəmlikdən əl çəkmələri üçün öz imkanlarınızdan, nüfuzunuzdan istifadə edəsiniz. Bir daha təkrar edirəm, biz məsələnin sülh yolu ilə həllinə tərəfdarıq, sülh tərəfdarıyıq, müharibənin, hərbi əməliyyatların dayandırılmasına tərəfdarıq.

Son günlər şiddətli hərbi əməliyyatlar gedir. Bizim bunda təqsirimiz yoxdur, çünki bir ay-ay yarımdır ki, təcavüzkarlar Azərbaycan ərazisinin içərilərinə daha da irəliləmək, yeni-yeni rayonlarımızı işğal etmək planları hazırlayırlar. Bəlkə də əvvəllər buna nail ola bilərdilər, lakin indi bunu edə bilmirlər, kifayət qədər güclü müqavimətə rast gəlirlər. Bu da, əlbəttə, hərbi əməliyyatlara gətirib çıxarır, hər iki tərəfdən itkilər var, son vaxtlar silahlı qüvvələrimiz erməni birləşmələrinin hücumlarını layiqincə dəf edirlər. Yəqin ki, Sizə məlumdur ki, onlar həm canlı qüvvə, həm də texnika sarıdan böyük itkilər verirlər. Axı, bu nəyə lazımdır? Bu bizə lazım deyildir. Biz hücum etmirik, öz ərazimizdə müdafiə olunuruq, onlar bizim torpağımıza soxulmuşlar.

Ona görə də, sözün düzü, narazılığımı bildirmək istəyirəm. Birlik ölkələrindən olan dostlarımız, xüsusən Rusiyadan olan

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dostlarımız bu məsələlərdə kifayət qədər prinsipiallıq göstərmirlər. Aşqabatda verdiyim bəyanatda qeyd etmişdim ki, sentyabrın 24-də Azərbaycan MDB tərkibinə daxil olduqdan və Kollektiv Təhlükəsizlik haqqında müqaviləni imzaladıqdan sonra Azərbaycanın 4 rayonu işğal olunmuşdur. Belə vəziyyətdən, MDB üzrə müttəfiqlərimizin buna müəyyən dərəcədə laqeyd yanaşmalarından narazılığımızı bildirməyə əsasımız var. Lakin bununla yanaşı, Sizdən sadəcə olaraq xahiş edirəm ki, bütün bunları dayandırmaq, vəziyyəti dəyişmək üçün imkanlarınızdan, nüfuzunuzdan, Ermənistanda tutduğunuz mövqeyinizdən istifadə edəsiniz. Sizə qəti şəkildə deyirəm və lazım bildiyiniz hər kəsə bu fikri çatdıra bilərsiniz, biz hərbi əməliyyatların dayandırılmasına, bu məsələnin sülh yolu ilə həll edilməsinə tərəfdarıq.

Lakin qalan bütün məsələlər çox asanlıqla həll edilə bilər. Ən başlıca məsələ mən bu barədə dedim - hərbi əməliyyatların dayandırılması, Azərbaycanın dövlət suverenliyinin, ərazi bütövlüyünün təmin olunması məsələsidir. Bu məsələ ilə bağlı Sizə bir daha müraciət edirəm. Təkrar edirəm, Sizin qoşunlarınızın Ermənistana yardım göstərdiyini demək istəmirəm, hərçənd belə söz-söhbət lap çoxdur. Rəsmi bəyanatlar vermək üçün əsasım yoxdur. Lakin Siz Ermənistan ərazisində yerləşirsiniz, həmin ərazidə Rusiyanın hərbi bazaları var, özü də bunlar rəsmi hərbi baza statusuna malikdir. Ermənistan bizimlə müharibə aparır, biz onların yox, onlar bizim ərazimizi işğal edirlər. Ona görə də beynəlxalq hüquq normaları əsasında, hüquqi normalar əsasında Sizə belə bir xahişlə müraciət etməyə ixtiyarım var ki, Siz öz nüfuzunuzdan istifadə edəsiniz, müvafiq tədbirlər görəsiniz.

Ümidvaram, Siz bu tədbirləri görəcəksiniz. Zaqafqaziya regionundakı Rusiya qoşunlarının həyat fəaliyyətini təmin etmək üçün lazım olan yüklərin Azərbaycan ərazisindən keçirilməsi faktına gəldikdə isə, biz buna imkan yaratmışığ və gələcəkdə də yaradacağıq, çünki bizim Rusiya ilə, təbii ki, Rusiya Federasiyasının qoşunları ilə də dostluq münasibətlərimiz var və bu münasibətlər davam edəcəkdir. Mən bu münasibətlərin möhkəmlənməsi üçün bütün tədbirləri görürəm. Lakin bizə olduqca çox siqnal gəlir ki, Azərbaycan ərazisi vasitəsi ilə Rusiya qoşunlarından ötrü Gürcüstana və Ermənistana aparılan yanacaq sonradan erməni silahlı birləşmələrinin ixtiyarına keçir və bizə qarşı istifadə olunur. İndiki halda mən bu siqnallar və xəbərlər barədə danışıram. Özü də bütün bunlar şişirdilir və açığını deyim ki, Azərbaycan əhalisinin müxtəlif təbəqələri bizi hətta ittiham edir: əgər bütün bu yüklərin erməni hərbi birləşmələrinə bu və ya digər dərəcədə köməyi olursa, onları Azərbaycan ərazisindən nə üçün buraxırıq? Bunu Sizə ona görə deyirəm ki, həmin məsələlərə bir daha diqqət yetirəsiniz.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İSA PEYĞƏMBƏRİN MÖVLUD BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCANDAKI PRAVOSLAV İCMASINA TƏBRİK

Əziz pravoslav həmvətənlər!

Sizi İsa peyğəmbərin Mövlud bayramı münasibətilə təbrik edirəm! Dünyanın bütün pravoslav xristianları üçün bu işıqlı gündə sizlərə cansağlığı, səadət diləyirəm. Arzu edirəm ki, sizin bütün nəcib niyyətləriniz yerinə yetsin, bütün diləkləriniz başa gəlsin. İnanıram ki, Azərbaycandakı pravoslav icmasının firavanlığı vətənimizin tərəqqisi və çiçəklənməsi, bütün vətəndaşlarımızın xoşbəxt gələcəyi üçün etibarlı zəmin olacaqdır.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

7 yanvar 1994-cü il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AZƏRBAYCAN DÜNYANIN BÜTÜN ÖLKƏLƏRİNDƏ YAŞAYAN AZƏRBAYCANLILARIN VƏTƏNİDİR

XARİCDƏ YAŞAYAN SOYDAŞLARIMIZIN BİR QRUPU İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

9 yanvar 1994-cü il

Mən bilirəm, siz də sevinirsiniz ki, Azərbaycan Respublikası müstəqil bir dövlət kimi dünya birliyinə daxil olmuşdur, Birləşmiş Millətlər Təşkilatının və digər beynəlxalq təşkilatların üzvüdür. İndi Azərbaycan bütün dünyada müstəqil bir dövlət kimi tanınır. Ötən nəsillər, atalarımız, babalarımız uzun illər bu müstəqilliyin həsrətində olmuşlar. İndi bu fürsət, bu böyük şərait bizim nəslimizə, sizə, bizə nəsib olub. Ona görə də hamımız qürur hissi keçirir, bu sözləri iftixarla deyirik. Güman edirəm ki, müstəqil Azərbaycan dövləti günü-gündən möhkəmlənəcək, inkişaf edəcək və müstəqilliyini heç vaxt əldən verməyəcəkdir. Azərbaycanın müstəqilliyi cəmi iki ildir ki, elan olunub. Bu iki ildə Azərbaycan çox ağır bir dövr keçirib, indi də ağır şəraitdədir. Sosial-iqtisadi vəziyyət çox çətindir. Bildiyiniz kimi, Azərbaycan əvvəlcə çar Rusiyasının, sonra isə ötən 70 ildə Sovet İttifaqının təsiri altında olmuşdur. Bütün bunlar tarixdir və Azərbaycan Respublikasının, xalqımızın, Vətənimizin həyatında dərin izlər qoyub. Azərbaycan bir iqtisadi-siyasi sistemdən başqa bir sistemə keçir. Digər tərəfdən, respublikamız altı ilə yaxındır ki, Ermənistan silahlı qüvvələri tərəfindən təcavüzə məruz qalmışdır. Ancaq buna baxmayaraq, ötən iki ildə əldə olunmuş müstəqillik Azərbaycan üçün böyük xoşbəxtlikdir. Bizim vəzifəmiz isə budur ki, müstəqilliyi əlimizdə möhkəm saxlayaq və inkişaf etdirək. Dünyanın hansı ölkəsində, hansı yerində yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı hiss etməlidir ki, onun Azərbaycan kimi vətəni vardır.

... Bu, çox ağır müharibədir, altı ilə yaxındır ki, Ermənistan silahlı qüvvələri Azərbaycana təcavüz edir. Torpaqlarımızın böyük bir hissəsi işğal olunmuşdur. Təəssüf ki, bu altı il ərzində Azərbaycanın dövlət adamları torpaqlarımızı layiqincə müdafiə edə bilməyiblər. İndi Azərbaycan ərazilərinin 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Bu da bizim üçün böyük faciədir. Bir milyondan artıq azərbaycanlı evini-eşiyini, elini-obasını itirib, qaçqındır, respublikanın başqa yerlərində yaşayır. Maddi vəziyyət də, mənəvi vəziyyət də ağırdır.

Tale məni belə bir ağır vəziyyətdə gətirib Azərbaycana çıxarmışdır. Üç aydır ki, prezident vəzifəsini aparıram. Ondan

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

əvvəl bir müddət də Ali Sovetin başçısı oldum. Bu, çox ağır və çətin bir dövr idi. Həmin dövrün çətinliyi təkcə ondan ibarət deyildir ki, Ermənistan Azərbaycanın torpaqlarını işğal etmişdir. Azərbaycanın içində də vəziyyət çox ağır idi.

1993-cü ilin ortalarında - İyun ayında Azərbaycanda böyük fəlakət baş verdi, vətəndaş müharibəsi təhlükəsi meydana çıxdı. Bir tərəfdən ermənilər bizi qırırdı, digər tərəfdən azərbaycanlılar özləri bir-birini qırmağa başlamışdılar. Bəzi qruplar Azərbaycanı parçalamaq, separatçı hərəkətlər etmək istədilər. Bəzi adamlar hakimiyyət davasına qoşuldular. Halbuki onların bir çoxu hakimiyyətə layiq deyildir. Belə adamlar o ağır günlərdə respublikanın bütün qüvvələrini bir yerə toplayıb Azərbaycanı Ermənistan təcavüzündən qorumaq əvəzinə, burada, içəridə bir-biri ilə vuruşmağa başladılar. Azərbaycanın başına gələn bəlalar da elə daxildə vəzifə uğrunda, hakimiyyət uğrunda gedən mübarizədən irəli gəlirdi.

Heç bir səriştəsi, heç bir təcrübəsi olmayan ayrı-ayrı qruplar və onların başçıları vəzifəyə gəlmək, Azərbaycana başçılıq etmək istəyirdilər. Amma unudurlular ki, vəzifəyə gəlmək üçün bilik, savad, səriştə, dövlətçilik təcrübəsi lazımdır. Bunların heç biri olmadan onlar hakimiyyət istəyirdilər. Bu da Azərbaycanı dağıdırdı. Məhz belə bir vaxtda mən Bakıya gəldim, xalq məni prezident seçdi.

Ölkənin ağır vaxtında prezident seçiləndə, prezident kürsüsünə qalxanda da, and içəndə də mən təkcə Azərbaycanın ərazisində olan azərbaycanlılara yox, bütün dünyada yaşayan azərbaycanlılara müraciət etdim. Bildirdim ki, respublikanın bu ağır dövründə hər bir azərbaycanlı, damarlarından azərbaycanlı qanı axan hər bir insan gərək Vətənin bu gününə yansın, münasibətini bildirsin, kömək etsin. Çünki azərbaycanlının Azərbaycandan başqa Vətəni yoxdur. Almaniyada yaşaya bilərsiniz, həm də çox firavan yaşaya bilərsiniz, Fransada, Amerikada da yaşaya bilərsiniz, varınız da, dövlətiniz də olar. Amma o ölkələr sizin Vətəniniz ola bilməz. Bunu təkcə azərbaycanlıya aid etmək olmaz. Hər bir millətin, hər bir insanın ana torpağı onun Vətənidir. Azərbaycanlıların da Vətəni Azərbaycandır.

... İndi şükürlər olsun ki, Azərbaycan müstəqil bir dövlətdir. Nə Rusiyanın, nə Sovetlər Birliyinin, nə də başqa bir dövlətin tərkibində deyil. Hər bir azərbaycanlı da buraya ata ocağı kimi baxmalıdır. Mən müraciətlərimdə bütün dünyada Avropada, Asiyada, Amerika və s. yerlərdə yaşayan azərbaycanlıların bax, bu hissiyyatını oyatmağa çalışıram. Çalışıram ki, bu hissiyyatları oyadaraq onları Azərbaycana cəlb edib, Azərbaycana doğma münasibət bəsləmələrinə nail olum. Mən demirəm ki, dünyada yaşayan bütün azərbaycanlılar köçüb buraya gəlsinlər. Buna ehtiyac da yoxdur. Mən demokratiya tərəfdarıyam, bu yolla getmişəm və yenə də gedəcəyəm. Kimin üçün harada rahatdır, hara onun üçün münasibdir, qoy orada da yaşasın. Amma hər kəs bilməlidir ki, onun Vətəni Azərbaycandır.

Məsələn, mən sizin sözlərinizi çox dərin hissiyyatla qəbul

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

etdim. Siz istəyirsiniz ki, Almaniyanın və başqa bir dövlətin yox, məhz Azərbaycanın vətəndaşı olasınız. Bu, çox dəyərlidir və mən bu sözləri yüksək qiymətləndirirəm.

... Siz bilirsiniz ki, dekabrın 31-ni Dünya azərbaycanlılarının həmrəylik günü elan etmişik. Həmin gün mən Azərbaycan Respublikasının vətəndaşlarını Yeni il bayramı münasibətilə təbrik edərkən həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlıları həmrəylik günü münasibətilə təbrik etdim. Üzümü bütün dünya azərbaycanlılarına tutub müraciət etdim: bilin ki, sizin Vətəniniz var və hamınız öz Vətəninizlə əlaqədə olun. Xalqa bu müraciətimdən on gün keçir. Sizin bu gəlişinizi o çağırışa cavab kimi qəbul edirəm. Çox sağ olun ki, gəlmisiniz. Arzu edərdim ki, mənim səsim dünyanın hər yerində olan azərbaycanlılara çatsın. Əgər siz bunu çatdıra bilsəniz, mənə elə gəlir ki, bu həm bizim üçün, həm də başqa ölkələrdə yaşayan azərbaycanlılar üçün çox əhəmiyyətli olar.

... Bütün dünyada yaşayan azərbaycanlılar təşkilatlanmalıdır. Biz Ermənistanla müharibə aparırıq. Müharibəni biz başlamamışıq. Ermənistan Azərbaycana hücum edib. Bir halda ki, Azərbaycan torpaqlarının 20 faizi işğal olunub, bu artıq sübut edir ki, Ermənistan təcavüzkardır. Azərbaycan Ermənistan torpağının bir qarışını da işğal etməyib və işğal etmək fikri də yoxdur. Belə bir şəraitdə Azərbaycana hərtərəfli yardım lazımdır. Nəzərə almaq lazımdır ki, Ermənistana kənardan çox yardım gəlir. Bütün ölkələrdə Ermənistan lobbisi vardır. Belə lobbi Rusiyada da, Fransada, Amerikada, Almaniyada və digər ölkələrdə də, hətta ərəb ölkələrində, İranda da var. Bilirsiniz ki, İranda 200 mindən çox erməni yaşayır və şübhəsiz ki, onlar da Ermənistanı dəstəkləyirlər, yardım edirlər. Ermənistanın heç bir ölkəyə çıxışı yoxdur. Amma necə olur ki, belə bir balaca ölkə və Azərbaycanın içində olan Dağlıq Qarabağ (keçmişdə ona vilayət deyirdik, burada yüz min erməni yaşayırdı və indi o da yoxdur) gəlib Azərbaycan torpaqlarını işğal edirlər?

Bayaq da dedim ki, Azərbaycanı son illərdə idarə edən şəxslər səriştəsizlik edib Vətən haqqında düşünməyiblər. Azərbaycanı belə bərbad hala qoyublar. Digər tərəfdən isə erməni lobbisi Ermənistan silahlı qüvvələrinə kömək edib. Ermənistan üçün hər yer qapalıdır. Azərbaycandan gedən dəmir yolu bağlıdır. Gürcüstandan gedən dəmir yolunda vəziyyət çox ağırdır. Ermənistana hava yolu ilə ərzaq, silah, sursat gəlir. Bu ölkənin nə elə bir iqqısadiyyatı, nə də elə bir sənayesi yoxdur ki, Ermənistanın böyük varı olsun. Varı yoxdur, amma yaşayır, müharibə edir, müharibəyə çox böyük xərclər çəkir. Bunların isə hamısı xaricdən gəlir, hamısını xaricdəki lobbilər təmin edir.

Siz ozünüz də eşidibsiniz ki, mən bu yaxınlarda Fransaya səfərə getmişdim. Məni oraya Fransanın prezidenti Fransua Mitteran dəvət etmişdi. Çox yaxşı səfərimiz oldu. Fransa prezidenti ilə və ölkənin digər rəhbərləri ilə səmərəli danışıqlarımız oldu. Tarixdə ilk dəfə olaraq Fransa ilə Azərbaycan arasında dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq haqtında müqavilə imzalandı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Orada öyrəndik ki, Fransada 400 min erməni yaşayır. Onlar ölkənin həyatına təsir edirlər. Fransa dövlətinin rəhbərləri də etiraf edirlər ki, onlar bizim xalqın bir hissəsidir. Ermənilərin ölkədə böyük vəzifələrdə, biznesdə, informasiya orqanlarında adamları var.

Mən Fransaya gedəndə xahiş etdim ki, orada yaşayan azərbaycanlılar toplaşsın və onlarla görüşüm. Hava limanından birbaşa öz iqamətgahıma gəldim və Fransada ilk görüşüm orada yaşayan azərbaycanlılarla oldu. Az adam toplaşmışdı. Bu o demək deyil ki, Fransada azərbaycanlılar az yaşayır. Xeyr, çox yaşayır. Amma, sizin dediyiniz kimi, pərakəndə, dağınıqdırlar, bir-biri ilə əlaqələri azdır. Siz dediniz ki, Almaniyada ticarətin çoxu azərbaycanlıların əlindədir. Elə Fransada da ticarətin bir hissəsi azərbaycanlıların əlindədir. Amma onlar birləşməyiblər, bəziləri hələ də öz vətənlərini tanımır, öz vətənləri olduğunu dərk etmirlər.

Ona görə də mən belə hesab edirəm ki, siz buraya bir carçı, qaranquş kimi gəlmisiniz. Ölkəmiz yeni əlaqələr qurur. Bu əlaqələr əslində yeni deyil, amma indiyədək qurulmayıb. Biz isə istəyirik ki, onu quraq. Bir halda ki, deyirsiniz Almaniyada çoxlu azərbaycanlı iş adamları var, qoy gəlsinlər; iş adamı da, tacir də, alim də kim istəyir gəlsin. Gəlsinlər, görsünlər ki, Vətənləri var. Onlar Vətənə nə qədər çox gəlsələr, azərbaycanlıların birliyi, həmrəyliyi də möhkəmlənər.

... Mən Azərbaycanın rəhbəri seçiləndən bəri dəfələrlə bəyan etmişəm ki, biz bu müharibəni sona çatdırmaq istəyirik. Biz qan tökülməsini istəmirik. Ermənistanla Azərbaycan qonşu dövlətlərdir. Ermənilərlə azərbaycanlılar yanaşı yaşayıblar və yenə də yaşayacaqlar. Nə erməni xalqı qırılacaq, nə də Azərbaycan xalqı. Ancaq müharibəyə son qoyulmalıdır. Təcavüzkarlar cəzalanmalıdır. Biz bu məsələni sülh yolu ilə həll etməyə çalışırıq. Mən bu barədə bir neçə təklif vermişəm. Ermənistan prezidenti ilə görüşmüşəm, Rusiya prezidenti ilə, başqaları ilə də görüşmüşəm. danışmışam ki, bu savaşı dayandırmaq lazımdır. Ancaq ermənilər gücə güvənərək, Azərbaycan torpaqlarının 20 faizini işğal etdiklərinə güvənərək qarşımıza elə tələblər qoyurlar ki, biz onları qəbul edə bilmərik. Mən dəfələrlə demişəm ki, Ermənistan məsələnin sülh yolu ilə həllinə tərəfdar olmasa, gücümüzü toplayıb, nəyin bahasına olursa-olsun torpaqlarımızı işğaldan azad etməkdən başqa əlacımız qalmır.

Son illərdəki məğlubiyyətlərimizin əsas səbəblərindən biri də odur ki, Azərbaycanı müdafiə etməyə qadir olan ordu yaranmamışdı. Azərbaycan xalqı qəhrəman xalqdır. Çoxlu qəhrəman oğullarımız vardır. İndi də var, tarixən də olub. Amma ordunu qurmaq, yaratmaq, ona təlim vermək, öyrətmək lazımdır. Bunlar olmamışdır. Bir halda ki, Ermənistan tərəfi danışıqlara geqmir, mən noyabrın 2-də xalqa müraciət etdim. Xalq mənim müraciətimi çox yaxşı qəbul etdi. Orduya saf adamlar gəldi. Milli Ordumuz quruldu. Qısa müddətdə təlim keçmiş, hazırlaşmış adamlar indi torpaqlarımızın müdafiəsində möhkəm dayanmışlar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əvvəllər ermənilərin 6-7 tankı gələn kimi əsgərlər qoyub qaçır, kəndi də, şəhəri də, evləri də əldən verirdilərsə, indi belə deyildir. İki aydır ki, ermənilər nə qədər çalışırlarsa, bizim müdafiəmizi yara bilmirlər. Əksinə, son vaxtlar, 15-20 gündür ki, ermənilərə güclü zərbələr vurulub, onlar çox böyük itkilər veriblər. işğal olunmuş torpaqlarımızın bir qismi geri qaytarılıb. Ordu hissələrimiz artıq Füzuli rayonunda döyüşlər aparırlar. Bu rayonun ərazisinin çox hissəsi ordumuzun nəzarəti altındadır. İranla sərhədimizin 170 kilometri ermənilərin əlinə keçmişdi. İndi onun 40 kilometri artıq öz əlimizdədir. Ola bilsin ki, bu gün-sabah biz daha yeni nailiyyətlər əldə edəcəyik. Qoşunlarımız Ağdam istiqamətində də çox cəsarətlə vuruşur, xeyli irəliləyiblər. Ordumuz Ağdərə tərəfdə də cəsarətlə vuruşur. Kəlbəcərdə də cəsarət göstərir, irəliyə gedir. Qoşunlarımız artıq bu rayonun ərazisindədirlər.

Bu güc göydən gəlməyib. Azərbaycan xalqı həmişə güclü olub. Amma bu xalqı qaldırmaq, səfərbər etmək lazım idi. Mən cəbhə bölgəsi ilə daim əlaqə saxlayıram, hər bir komandirlə danışıram. Özüm cəbhə bölgələrində olmuşam. Bu gecə saat 3-dək zabitlərlə danışmışam. Cəsarətli oğlanlar var. Düzdür, döyüşlərdə şəhid olanlar da var. Axı, müharibə şəhidsiz ola bilməz. Bir halda ki, Vətənimizi qoruyuruq, müdafiə edirik, torpaqlarımızı geri qaytarırıq, sözsüz ki, qurbanlar da olacaq. Burada təəccüblü heç nə yoxdur.

Sizə deyə bilərəm ki, indi ermənilər çox böyük itkilər verib, qoyub qaçırlar. Hazırda əlimizə xeyli əşyayi-dəlillər keçib ki, ermənilər tək özləri vuruşmurlar. Başqa ölkələrdən tutub gətirdikləri muzdlu adamlar da vuruşurlar. Onların sənədləri əlimizə keçib. Əlimizdə başqa millətlərdən olan, başqa yerlərdən gələn əsirlər var. Yaxın günlərdə bütün bunları dünyaya çatdıracağam.

... Mən Ermənistan prezidenti Ter-Petrosyanla Aşqabatda görüşərkən o dedi ki, Ermənistan bu müharibədə iştirak etmir, döyüşləri ancaq Dağlıq Qarabağ erməniləri aparır. Lakin indi bizim əlimizə keçən sənədlər sübut edir ki, orada vuruşanların 90 faizi Ermənistandan, eləcə də başqa ölkələrdən gələn ermənilərdir. Bunların hamısını artıq sübut etmək imkanımız var. Əvvəllər əlimizdə dəyərli sübutlar yox idi. Amma indi öz torpaqlarımızı azad edəndə, əsirlər götürəndə, əlimizə əşyayi-dəlillər, sənədlər keçirəndə biz artıq tam cəsarətlə deyirik ki, Ermənistan təcavüzkardır. Bu, əvvəl də belə idi. Amma indi buna etiraz etməyə, bunu təkzib etməyə Ermənistan tərəfinin əsası yoxdur.

İndi Azərbaycan xalqı yüksək vətənpərvərlik hissi ilə yaşayır, torpaqlarımızı müdafiə edir. Düzdür, bizim içimizdə mənfi adamlar da var. Burada cürbəcür təşkilatlar, partiyalar, qurumlar var. Mən demokratiya tərəfdarıyam. Nə qədər partiya olursa-olsun, onların hamısı bir məqsədə - Azərbaycanın müstəqilliyini qorumaq, torpaqlarımızı düşməndən azad etmək işinə xidmət etməlidir. Amma qulağıma müəyyən səslər gəlir ki, dünənə qədər hakimiyyətdə olan, hakimiyyəti saxlaya bilməyib qaçıb gedənlər orda-burda gizlənib, Azərbaycanın son günlərdəki uğurlarından

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yasa batıblar, cürbəcür təxribatlar hazırlayırlar. Bunlar mənə məlumdur. Deyirəm ki, qoy hamı eşitsin. Mənə faktlar məlumdur ki, onlar ayrı-ayrı bölgələrdə cürbəcür təxribatlar hazırlayırlar. Ancaq biz bunlara yol verməyəcəyik. Onlar bilsinlər və eşitsinlər. Düşmənlərimiz təkcə torpaqlarımıza təcavüz edənlər deyil, bizim içərimizdə də xalqın düşmənləri var. Əsrlər boyu Azərbaycanın ağır günlərindən biri də bu olub ki, bu xalqın içərisində bir-birinə düşmən olan adamlar olub. Indi cəbhədə qəhrəmanlıq göstərənlərlə yanaşı, orada sadəcə, passivlik edənlər yox, təxribat aparan adamlar da var. Mən bunları bilirəm. Hər şeyə özüm nəzarət edirəm. Hər bir cəbhə komandiri ilə özüm şəxsən danışıram. Mənə hər şey məlumdur.

Yenə də deyirəm, biz bütün qüvvələrimizi səfərbər etmişik və bundan sonra da səfərbər edəcək, işğal olunmuş torpaqlarımızı geri qaytaracağıq. Sizin də kənardan olan yardımınız bizim qələbəmizi yaxınlaşdıracaq və gücləndirəcəkdir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

20 YANVAR FACİƏSİNƏ TAM SİYASİ-HÜQUQİ QİYMƏT VERİLMƏLİDİR

20 YANVAR FACİƏSİNİN DÖRDÜNCÜ İLDÖNÜMÜ İLƏ BAĞLI TƏDBİRLƏRİN HAZIRLANMASI VƏ KEÇİRİLMƏSİ ÜZRƏ DÖVLƏT KOMİSSİYASININ İCLASINDA ÇIXIŞ

12 yanvar 1994-cü il

20 Yanvar faciəsi Azərbaycan xalqının tarixinə qara bir səhifə kimi həkk olub. Bu faciədən artıq dörd il keçir. 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar lazımi tədbirlərin keçirilməsi və bu faciəyə dörd ildən sonra bir daha nəzər salınması ilə bağlı yanvarın 5-də mən xüsusi fərman vermişəm. Bu fərman iki hissədən ibarətdir. Birinci hissəsi ildönümü ilə əlaqədar lazımi tədbirlərin hazırlanması və keçirilməsi, ikinci hissəsi isə yanvar faciəsinə, yanvar hadisələrinə siyasi-hüquqi qiymət verilməsi barədədir. Fərmanda tövsiyə etmişəm ki, yanvar hadisələrinə siyasi-hüquqi qiymət verilməsi məsələsinə Milli Məclis bir də baxsın və öz qiymətini versin.

Mənim fikrimcə, indiyə qədər belə bir qiymət verilməyib, Azərbaycan xalqının başına dörd il bundan qabaq böyük bəlalar gəlib və təəssüf ki, dörd il keçəndən sonra da biz bu bəlanın baş verməsi səbəblərini və günahkarlarını indiyə qədər dəqiq aydınlaşdıra bilməmişik.

Tədbirlərin hazırlanması və keçirilməsi üçün komissiya təşkil olunubdur. Komissiyanın sədri, baş nazirin müavini Elçin Əfəndiyev mənə məlumat verib ki, komissiya toplaşıb, müəyyən tədbirlər hazırlayıbdır. Mən bu gün komissiyanın iclasını şəxsən özüm, həm də geniş tərkibdə keçirməyi qərara almışam. Əvvələn, istəyirəm ki, bu tədbirlərin keçirilməsi məsələsinə birlikdə baxaq, ikincisi isə bununla əlaqədar mənim də bəzi fikirlərim var, onları da bildirmək istəyirəm.

... Ötən dörd il müddətində Yanvar faciəsinə hüquqi-siyasi qiymət verilməyib. Bilirsiniz ki, mən bu dörd il ərzində burada olmamışam. İndi bu məsələ haqqında fərman hazırlanarkən xahiş etdim ki, Yanvar faciəsi ilə bağlı hansı qərarlar qəbul olunubsa, bu haqda nə kimi işlər görülübsə həmin sənədləri mənə təqdim etsinlər. Mənə Milli Şuranın (indi ona Milli Məclis deyirik) 1992-ci il 19 yanvar tarixli qərarı təqdim edildi. Bu, həmin faciədən iki il sonra qəbul olunmuş qərardır. Bu qərarı oxuyanda, doğrusu, çox həyəcanlandım. Düşündüm ki, Milli Şura

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

nə üçün öz millətinin, öz xalqının aqibətinə, taleyinə bu qədər biganə qalıb? Qərarı oxuyandan sonra bir daha qəti fikrə gəldim ki, bu faciəyə, bu hadisəyə indiyə qədər siyasi qiymət verilməyib. Ona görə də mən bu məsələyə Milli Məclisdə baxılmasını tövsiyə etdim. Bu barədə Milli Məclisin iclası müəyyən obyektiv səbəblərə görə indiyə qədər keçirilməyib. Ancaq güman edirəm ki, keçiriləcək, bu barədə mən öz fikirlərimi deyəcəyəm. İndi komissiya üzvləri, buraya dəvət olunmuş adamlar üçün bu məsələnin aşkar olması məqsədilə (bəlkə çoxları bunları xatirindən çıxarıb) xahiş edirəm Milli Şuranın həmin qərarı oxunsun.

... Güman edirəm ki, bu qərarın oxunması indi çox zəruri idi və buraya toplaşanlar yəqin ki, iki il öncə qəbul olunmuş qərara vaxt məsafəsinə görə daha dərindən qiymət verə bilərlər. Bir prezident kimi mənim tövsiyəm budur ki, məsələyə Milli Məclisdə baxılsın. Ancaq bir halda ki, biz bu faciənin dördüncü ildönümünü qeyd edirik, məsələ Milli Məclisdə baxılana qədər hərə öz fikrini deyə bilər. Mənim fikrim belədir ki, bu qərarın qəbul edilməsi Azərbaycan xalqına bəlkə də 20 yanvar 1990-cı ildə olan faciə kimi böyük bir xəyanətdir. İki il keçəndən sonra deputat istintaq komissiyasının ortaya heç bir şey çıxarmaması, boş-boş sözlərlə camaatı aldatması, qərarda bu komissiyanın işinin qənaətbəxş hesab edilməsi, yenə də deyirəm, xəyanətdir.

Mən çox təəssüf edirəm ki, Azərbaycanın hörmətli Milli Şurası belə bir qərar qəbul edibdir. Anlayıram, bu qərarın qəbul olunması o vaxt Azərbaycana rəhbərlik edən adamlar üçün lazım idi. İki il Azərbaycan xalqını aldadıb, o faciənin üstünü örtüb-basdırmağa çalışanlar müəyyən qədər bu işə son qoymalı idilər. Ancaq mən təəccüblənirəm ki, Milli Şuranın yarısı (Milli Şura o vaxt belə yaranmışdı) hakimiyyətə müxalifətdə duran qüvvələrdən ibarət olduğu halda, onlar belə bir qərarın qəbul edilməsinə nə cür razı olublar? Mən bilmirəm, bəlkə də səhv edirəm, əgər belədirsə, qoy bunu açıq desinlər. Mən Milli Məclisin iclasında da gəlib çıxış etməyə hazıram. Necə olur ki, xalqa hərbi təcavüz edilir, Azərbaycan Ali Sovetinin deputat-istintaq komissiyası iki il işləyir, axırda bu nəticəyə gəlir ki, neçə sorğu olunub, ballistik ekspertiza keçirilib, günahkarlar isə məlum deyil, faciənin səbəbi də məlum deyil, ona heç bir qiymət də verilməyib.

Mənim vicdanım təmizdir. Mən Naxçıvan Muxtar Respublikasında olarkən,1990-cı ilin sonunda deputat kimi muxtar respublikanın Ali Sovetində çıxış edərkən bunların hamısını demişəm. Ondan sonra da Azərbaycan Respublikasının xalq deputatı kimi Respublika Ali Sovetinin sessiyalarında çıxış edərkən öz fikirlərimi söyləmişəm. Demişəm ki, 20 Yanvar faciəsinin günahkarları aşkara çıxarılmalı və bu faciəyə siyasi qiymət verilməlidir. Bəzilərinin bəlkə də xatirindədir, mən bunu deyəndə rəhmətlik Elmira Qafarova və onun yanında oturan Tamerlan Qarayev mənə replika verdilər ki, bunlar hamısı olubdur. Mən onlara dedim ki, düz demirsiniz, olmayıb.

Faciədən iki il keçəndon sonra, hadisənin ikinci ildönümü ərəfəsində, yanvarın 19-da Milli Şura belə bir qərar qəbul edib

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ki, bu məsələnin üstü tamamilə örtülsün, basdırılsın və ləğv olunsun. Necə ola bilər ki, iki il ərzində bu deputat-istintaq komissiyası guya araşdırma, istintaq aparıb, amma heç kimin adını çəkməyib? Qərarda tapşırılır ki, istintaq gedəndə keçmiş Sovet İttifaqının və Azərbaycanın rəhbərlərindən bu məsələ üzrə günahkar olan adamların araşdırılmasına xüsusi diqqət verilsin. Bunlar məni dəhşətə gətirir.

Mənə elə gəlir ki, 20 Yanvar faciəsi Vətənini, xalqını sevən hər bir adamın bağlanmamış yarasıdır. Ona görə də mən bu məsələ barədə belə həyəcanla danışıram. Sizə, habelə bütün Azərbaycan ictimaiyyətinə nümayiş etdirmək istəyirəm ki, əgər o vaxtlar kommunist rejiminin, hakimiyyətdə olan adamların vəzifələrindən sui-istifadə etmələri nəticəsində belə bir qərarın qəbul olunmasına imkan yaranmışdİsa, indi biz gərək buna qiymət verək. Əgər biz indi buna qiymət verməsək, bizdən sonrakılar qiymət verəcəklər.

Faciədən sonra Azərbaycanda rəhbərlər dəyişdilər, bu cinayətdə iştirak edən adamlar kənarlaşdılar. Azərbaycanın rəhbərliyinə yeni adamlar gəldilər. Həmin adamların əksəriyyəti vaxtilə, 20 Yanvar faciəsi baş verən dövrdə hakimiyyətdə olanları ittiham edənlər, günahlandİranlar idi. Bəs görəsən nə üçün onlar bu məsələyə yenidən baxmadılar, bu məsələni qaldırmadılar, bu hadisəyə lazımi qiymət vermək istəmədilər? Bu da çox təəccüblüdür. Ona görə ki, həmin bu qərarı qəbul etmiş Milli Şuranın 50 faizi müxalifətdə olan adamlar idi. Bəlkə belə bir qərarın qəbul edilməsi onların özləri üçün də faydalı idi?

Mən fikrimi deyirəm. Hesab edirəm ki, bu məsələ Milli Məclisdə çox ətraflı müzakirə olunmalıdır. Mən yanvarın 5-də fərman verərkən bunu tövsiyə etmişəm.

Bilirsiniz ki, indi cəbhə bölgələrində vəziyyət çox gərgindir. Mən iş günümün tam əksəriyyətini Azərbaycanın müdafiəsi ilə bağlı məsələlərə həsr edirəm. Bəzi şəxsləri kömək üçün yerlərə göndərirəm. Ali Sovetin sədri Rəsul Quliyevi tapşırıq verib göndərmişəm. O, bir həftədən çoxdur ki, cəbhə bölgələrindədir. Başqa rəhbər işçiləri, nazirləri də göndərmişəm. Onlara tapşırıq vermişəm ki, yerli hakimiyyət orqanları ilə hərbi hissələrin əlaqələrini tənzimləsinlər. Ali Sovetin sədri burada olsaydı, bu məsələ bu günlərlə müzakirə edilərdi. Güman edirəm ki, bu məsələ ayın 20-dək müzakirə olunmalıdır.

20 Yanvar faciəsinin dördüncü ildönümü münasibətilə komissiyanın hazırladığı tədbirləri prezident kimi qəbul edirəm. Bizim vəzifəmiz həmin günü sadəcə qeyd etməklə, şəhidlərin məzarlarını ziyarət etməklə, başqa tədbirlər keçirməkdə kifayətlənmək deyil. Biz bu günlər o faciənin yaranma səbəblərini, Azərbaycan xalqına nə qədər zərbə vurduğunu bütün vasitələrlə açmalıyıq. Mən təəccüb edirəm, televiziya indiyədək bununla əlaqədar rubrika açmalı, bu barədə çıxışlar verməli idi. Bizim qəzetlər, o cümlədən müxalifət mövqeyində olan ayrı-ayrı qəzetlər yaxşı olardı ki, başqa məsələlərlə məşğul olmaq əvəzinə, bu məsələlərə xüsusi fikir versinlər. Ancaq mən bunların heç birini görmü-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

rəm. Belə çıxır ki, biz artıq hər şeyi unutduq. Belə ola bilməz. Faciənin ildönümünün qeyd olunmasını mən belə təsəvvür etmirəm. Azərbaycan xalqına vurulan zərbə, edilmiş təcavüz örtülüb basdırılmışdır. Bu, açılmalıdır və bunu gələcək nəsillər yox, biz açmalıyıq.

İndi oxunan qərar bir daha onu göstərir ki, bu qərarı qəbul edən adamlar xalqa necə böyük xəyanət ediblər. Bəs o komissiya kimlərdən ibarət idi, nə iş görmüşdü? Əgər ümumxalq mənafeyi varsa, hər bir adam öz mövqeyini də, öz həyatını da gərək qurban versin. Ola bilməz ki, bəzi adamları müdafiə edib saxlamaq, onların cinayətlərini ört-basdır etmək üçün xalqa xəyanət edəsən. Mən bununla razılaşa bilmərəm. Mənə elə gəlir ki, 20 Yanvar gününə qədər qalan müddətdə və ondan sonra bu mövzu ictimai-siyasi həyatımızda geniş təhlil olunmalıdır, bütün fəaliyyətimizdə öz əksini tapmalıdır.

Bu faciənin üstünün örtülüb basdırılması fikri bütün kütləvi informasiya vasitələrində də öz əksini tapmalıdır. Mən o vaxt Ali Sovetin sessiyasında çıxış edəndə də demişəm və bu gün də deyə bilərəm: əgər bu qoşunları Azərbaycan rəhbərlərinin razılığı olmadan Sovet İttifaqının rəhbərləri yeritmişdilərsə, Azərbaycanın rəhbərləri həmin qoşunları dərhal çıxara bilərdilər. İki il ondan sonra, 1992-ci ilin 19 yanvarında qərar qəbul olundu ki, qoşunların buradan çıxması üçün lazımi tədbirlər görülsün. Onda artıq Sovet İttifaqı dağılmışdı. Bundan sonra hansı qoşunlar çıxacaqdı ki?

Bakı şəhəri, Azərbaycanın bir neçə rayonu iki il fövqəladə vəziyyət şəraitində yaşadı. Təkcə 20 Yanvar faciəsinə gərəmi? Yox, o vaxt bu məsələnin üstünü örtüb basdırmaq, xalqı əzmək üçün Azərbaycanın paytaxtında iki il fövqəladə vəziyyət şəraiti saxlanıldı. Buna heç bir əsas yox idi. Fövqəladə vəziyyət də həmin bu 19 yanvar qərarı ilə götürüldü.

Vətənini sevən adamların hamısı o vaxt deyirdi ki, fövqəladə vəziyyət götürülməlidir. Mənim xatirimdədir ki, sessiyaların birində bir neçə deputat soruşdu, o cümlədən mən də dedim ki, axı bu fövqəladə vəziyyət nəyə lazımdır? Azərbaycanın o vaxtkı rəhbərləri isə cavab verdilər ki, fövqəladə vəziyyət götürülsə vətəndaş müharibəsi baş verəcək. Mən başa düşmürəm, niyə vətəndaş müharibəsi olmalı idi? Vətəndaş müharibəsi kimlə kim arasında olmalı idi?

Mən bu məsələyə vaxtilə bir vətəndaş kimi, Ali Sovetin deputatı kimi öz münasibətimi bildirmişəm. İndi də prezident kimi öz münasibətimi bildirirəm ki, faciənin dördüncü ildönümü sadəcə tədbirlərlə qeyd edilməməli, ictimai-siyasi həyatda geniş təhlil olunmalıdır. Məhz bununla əlaqədar öz fikirlərimi bu gün sizə çatdırıram.

* * *

Bir də qeyd etmək istəyirəm ki, bugünkü iclasdan əsas məqsəd mənim 5 yanvar tarixli fərmanımla yaralılmış komissiyanın işi haqqında hesabatı dinləmək və bu tədbirlərin həyata keçi-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

rilməsi barədə öz fikrimi bildirməkdir. Elçin Əfəndiyev bu tədbirlərdən danışdı. Hesab edirəm ki, bu tədbirlər qəbul oluna bilər və həyata keçirilməlidir. Lakin bunlar yalnız 20 Yanvar gününün qeyd edilməsi ilə bağlıdır, yəni həmin günə aid olan tədbirlərdir. Ona görə də mənə elə gəlir ki, komissiya bu işə birtərəfli baxıbdır. Gərək komissiya bu fərmanın ikinci bəndinin müddəalarına da fikir verəydi. Mən Milli Məclisə tövsiyə etmişəm ki, bu məsələyə baxılsın. Fərmanda göstərmişdim ki, bu dörd il ərzində 20 Yanvar hadisələrinə dövlət səviyyəsində lazımi siyasi-hüquqi qiymət verilməyibdir. Deməli, bunun üçün müəyyən iş görülməlidir. Təəssüf ki, komissiya bu məsələlərə toxunmayıbdır. Ona görə də mən bugünkü iclasda buraya toplaşanlar qarşısında həmin məsələni bir vəzifə kimi qoyuram.

Burada çıxışlar və fikir mübadiləsi onu göstərdi və sənədlərlə hamımız birlikdə tanış olduqdan sonra şəxsən mən belə qənaətə gəlirəm ki, 20 Yanvar faciəsi bu dörd il müddətində ört-basdır edilib, bu faciənin günahkarları ondan sonra da Azərbaycanda rəhbər vəzifələrdə olublar və həmin faciəni ört-basdır etmək üçün bir komissiya yaradıblar. Bu komissiya Azərbaycan xalqı qarşısında cavabdehdir. Zənnimcə, biz Milli Məclisdə komissiyanın üzvlərindən soruşmalıyıq ki, Azərbaycan xalqının başına gətirilmiş müsibətə nə üçün bu cür münasibət göstəriblər. Onlar buna cavab verməlidirlər.

Lakin məni ən çox təəccübləndirən bir də odur ki, bu qərar 1992-ci il yanvarın 19-da qəbul edilib, həmin ilin mart ayında rəhbərliyin bir qismi hakimiyyətdən gedibdir. 92-ci ilin ortalarında hakimiyyətə yeni şəxslər, əvvəlki hakimiyyətə müxalifətdə olan adamlar gəliblər. Yanvar faciəsinin 1993-cü ildə üçüncü ildönümü olub. Bəs nə üçün bu məsələyə, komissiyanın qərarına münasibət göstərilməyib? Onlar, o vaxtkı hakimiyyətə müxalifətdə olan qüvvələr bu məsələni nə üçün qaldırmayıblar? Mən Xalq Cəbhəsinin nümayəndələrini nəzərdə tuturam. Halbuki, onlardan biri prezident, biri Ali Sovetin sədri, biri Nazirlər Kabinetinin sədri idi, digərləri də rəhbər vəzifələrlə idilər. Tutaq ki, onlar müxalifətdə olanda Yanvar faciəsinin səbəblərini açmağa imkanları olmayıbdır, lakin istəsəydilər imkan tapardılar, çünki komissiyanın tərkibində onların üç nümayəndəsi vardı. O vaxtlar Sabir Rüstəmxanlının AXC-də olub-olmadığı yadımda deyildir. Amma iki nəfər - Xalq Cəbhəsi Məclisinin sədri Tamerlan Qarayev və AXC-nin rəhbərlərindən biri olai Tofiq Qasımov bu komissiyanın tərkibinə daxil edilmişdi. O, bəlkə elə bu komissiyada xidmətlərinə görə deputat seçilibdir. Bəlkə Tamerlan Qarayev də bu komissiyada xidmətlərinə görə Ali Sovetin sədr müavini seçilib. Bəlkə də.

Mən demirəm ki, Xalq Cəbhəsi yalnız bu adamlardan ibarətdir. Yox, AXC böyük bir təşkilatdır. Bu təşkilat 92-ci ilin martından 93-cü ilin iyun ayınadək hakimiyyətdə olmuşdur. Belə isə nə üçün onlar Azərbaycan xalqının başına gətirilmiş bu müsibətin səbəblərini açmadılar? Məgər bu məsələni heç olmasa üç ildən sonra, 93-cü ilin yanvarında açmaq olmazdımı? Bu məsələyə qa-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yıtmaq olmazdımı? Bəs nə üçün etmədilər? Bu, məni həm dəhşətə gətirir, həm də hiddətləndirir. Hətta təəccübləndirir də.

Buna görə də hesab edirəm ki, bu, adi məsələ deyildir. Axı 130-dan artıq adam həlak, şəhid olubdur. 700 nəfər yaralanıbdır, Bakıda neçə-neçə bina dağıdılıbdır, şəhərə böyük ziyan vurulubdur. Bunlar məsələnin yalnız bir tərəfidir. Amma ikinci tərəfi ondan ibarətdir ki, Azərbaycan xalqına qarşı təcavüz edilibdir. Təcavüzü də edən Sovet İttifaqının rəhbərliyi və Azərbaycanın rəhbərliyi olubdur. Bu, mənim qəti fikrimdir. Burada "Rusiyanın qoşunları", "rus qoşunları" kəlmələrini işlətmək lazım deyildir. Mən buna etiraz edirəm. O vaxtlar Sovet İttifaqı vardı, onun rəhbərliyi vardı. Sovet İttifaqının başında Qorbaçov və onun ətrafında olan adamlar dururdular. Azərbaycan Kommunist Partiyasının başında Vəzirov, Mütəllibov və onların ətrafındakı adamlar dururdular. Məhz bunlardır. Burada millətin təqsiri yoxdur. İstər rus olsun, istərsə də azərbaycandı. Bəli, o vaxtkı sovet kommunist rejiminin rəhbərliyi ilə Azərbaycandakı kommunist rejiminin rəhbərliyi Azərbaycan xalqına qarşı birlikdə təcavüz ediblər! Bu, mənim qəti fikrimdir.

Təəssüf ki, xalqın öndə gedən adamları, vəzifədə olanları onun şərəfini, namusunu, mənliyini tapdaladıqları halda, xalq bu dörə ildə buna dözmüşdür. Lakin mən dözə bilmirəm. Bir vətəndaş kimi, mən bu dörd il müddətində bu barədə dəfələrlə səsimi qaldırmışam. O vaxtlar mənim səsimə fikir vermirdilər. Amma indi imkanım var. Hesab edirəm ki, yanvarın 20-dək televiziya və radiomuzda, mətbuat orqanlarında 20 Yanvar faciəsinin səbəbləri, onun günahkarları haqqında və bu faciəni ört-basdır edənlər haqqında, indi ayrı-ayrı yerlərdə cinayət törədib Azərbaycana qarşı təxribat hazırlayanlar haqqında məlumat verilməli, fikirlər söylənilməli, söhbətlər aparılmalıdır və xalq öz sözünü deməlidir.

Burada bəziləri dedilər ki, bu barədə fikir söyləmək qadağan idi. Arif Məlikov dedi ki, nə qədər çalışırdımsa, nəinki İttifaq mətbuatında, hətta respublika mətbuatında bir şey dərc etdirə bilmirdim. İndi hər şey dərc etdirə bilərsiniz. Indi tam azadlıq var, nə istəyirsiniz dərc etdirin. Heç vaxt qorxmayın. Hər şeyi öz adı ilə demək lazımdır: kim, nə üçün, nəyə görə. Adlar da məlumdur, cinayəti edənlər də, onu ört-basdır edən komissiya üzvləri də məlumdur. Odur ki, xalq hər şeyi bilməlidir. Burada mən heç bir məqsəd güdmürəm. Məqsədim budur ki, iclasın əvvəlində dediyim kimi, bizim dövrümüzdə Azərbaycan xalqının başına gətirilmiş bu faciənin səbəblərini açmalıyıq və bunu gələcək nəsillərin üzərinə qoymamalıyıq.

Bu günlərdə Moskva televiziyası belə bir xəbər verdi ki, 21-ci ildə bolşeviklərin etdiyi faciələrin üstü indi, 94-cü ildə açılır. İndi biz gözləyək ki, bu faciənin üstü 70 ildən sonra açılsın? Bəs biz burada nəyik, kimik? Əgər bu gün biz bu məsələ ilə məşğul olmasaq, biz də günahkar olacağıq. Odur ki, qoy heç kəs heç nədən çəkinməsin. nə özü üçün qorxsun, nə də başqasından. Heç kəs günahını gizlədə bilməz. Mən onu demək istəmirəm ki, bu də-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qiqə kimsə cəzaya məhkum edilməlidir. Lakin hər şey bilinməlidir, məsələnin üstü açılmalıdır. Belə də biabırçılıq olarmı ki, Milli Şura qərar çıxarır, amma qərarda bir nəfərin belə adı yoxdur. Milli Şura qərar çıxarır ki, bu, yalnız Moskvanın işidir. O ki qaldı Azərbaycana, rəhbər vəzifələrdə olanlardan kimin günahı varsa, qoy prokurorluq aydınlaşdırsın. Məgər məlum deyilmi ki, bunu Əbdürrəhman Vəzirov edib, məlum deyilmi ki, bunu Mütəllibov edib. Məlum deyilmi ki, bunu başqa adamlar ediblər. Bu, məlumdur.

Hesab edirəm ki, ziyalılarımız çox fəaliyyət göstəriblər, xüsusən yanvarın 20-də, 21-də, 22-də. Amma sonra susublar. Çünki onların bəziləri deputatdır, bəziləri Milli Məclisin üzvüdür. Nə isə, susublar, nədən ötrü susublar? Vəzifəli adamı vəzifədən çıxarırlar, artistin artistliyini, şairin şairliyini ki, əlindən almırlar. Yaxud da ki, alimi alimlikdən məhkum etməyəcəklər ki! Qoy alsınlar, qoy məhrum etsinlər. Nə olar?! Xalqımız, nəhayət, həqiqəti bilməlidir, xalqın milli mənliyi, milli iftixarı özünü göstərməlidir! Heç elə şey ola bilərmi ki, xalqımız həmişə təpik altında qalsın! Xalqımız ayağa qalxmalı, dirçəlməlidir.

İndi özünüz gördüyünüz kimi, cəbhələrdə nə qədər cəsur adamlarımız vuruşurlar. Bir təsəvvür elin, əgər bir ay bundan qabaq fərarilik bir problem idisə, indi belə bir problem yoxdur. Hərə bir söz deyirdi: "Fərariləri asıb-kəsək, fərari ora getdi, bura qaçdı". Sizə dediyim kimi, günümün bəlkə də çox hissəsində müdafiə məsələləri ilə məşğulam. İndi müdafiə naziri, baş qərargah rəisi mənə zəng vurub deyirlər ki, qəbul məntəqələrinə, hazırlıq keçilən məntəqələrə o qədər fərarilər gəlirlər ki, onları yerləşdirməyə imkan yoxdur. Bunlar həmin adamlardır, həmin gənclərdir. Deməli, bunlar öz vətəndaşlıq borcunu anlayıblar, onların milli hissləri oyanıbdır. Halbuki bu milli hisslər boğulmuş, əzilmiş, tapdalanmışdı. Elə tapdalandığına görədir ki, ermənilər gəlib torpaqlarımızı işğal etdilər. Bu necə işdir ki, bu böyüklükdə xalqın torpağını bir ovuc erməni gəlib işğal etmişdir? Ona görə ki, milli qürur hissi, milli iftixar hissi, milli mənlik hissi boğulmuşdur. Özü də o adamlar boğmuşlular ki, öz vəzifəsi naminə, öz mənsəbi naminə, öz şəxsi mənfəəti naminə xalqı sıxma-boğmaya salmışdılar.

Mən məmnuniyyət hissi ilə deyə bilərəm ki, indi xalqımız oyanır, ayağa qalxır. Cəbhədə vuruşan gəncləri, komandirləri xüsusi qeyd etmək istəyirəm. Deməliyəm ki, çox bacarıqlı komandirlərimiz var. Mən onlarla daim telefon əlaqəsi saxlayıram. Cəbhə bölgələrində, Beyləqanda, Aqcabədidə, Gəncədə və başqa yerlərdə onlarla görüşdüm. Dəyərli adamlardır, cəsarətlə vuruşurlar. Hər gün şəhid olanlar, həlak olanlar var. Bu da təbiidir, axı müharibə gedir. İndi Azərbaycanın qəhrəman oğulları erməni silahlı qüvvələrinə layiqli müqavimət göstərirlər. Halbuki, onlar boğulmasaydılar, tapdalanmasaydılar, öz cəsarətini, öz qəhrəmanlığını bir il, iki il, üç il bundan qabaq da göstərə bilərdilər.

Buna görə də hesab edirəm ki, bu mövzu ictimaiyyət tərəfindən geniş müzakirə olunmalıdır, ətraflı fikir mübadiləsi getmə-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lidir. İnformasiya orqanlarımız ciddi iş aparmalıdır, ozü də həm yanvarın 20-nə qədər, həm də ondan sonra.

Güman edirəm ki, Milli Məclis yaxın vaxtlarda toplanmalı, orada bu məsələ, yəni 20 Yanvar faciəsi və ondan sonrakı dövr, həmin komissiyanın işi, onun verdiyi qərara qiymət və 20 Yanvar faciəsinə həqiqi qiymət müzakirə olunmalıdır. 1990-cı il yanvarın 22-də qəbul edilmiş qərar müəyyən qədər siyasi qiymət verir, amma çox məhdud xarakter daşıyır. Bu, emosional şəraitdə qəbul edilmiş bir qərardır. 92-ci ildə qəbul olunmuş qərar əvvəlki qərarı, demək olar, alt-üst edir, onun üstündən xətt çəkir. Müxtəsəri, siyasi sənəd qəbul olunmalı və günahkarlar, səbəbkarlar aşkara çıxarılmalıdır.

Mənim deyəcəyim bu qədər. Güman edirəm ki, mənim sözlərimə etiraz yoxdur. Əgər yoxdursa, onda gəlin işə başlayaq. Komissiyanın verdiyi təkliflər qəbul olunur, siz bütün tədbirlərinizi həyata keçirin. Lakin burada irəli sürülən təkliflər əlavə edilsin. sağ olun.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

SİZİN BİLİYİNİZƏ VƏ TƏCRÜBƏNİZƏ VƏTƏNİN EHTİYACI VAR

PREZİDENT APARATINDA ZABİTLƏRİN BİR QRUPU İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

13 yanvar 1994-cü il

Cənab zabitlər! Bu gün mənim əmrimə əsasən Azərbaycan Müdafiə Nazirliyi Baş Qərargahının rəisi Bakıla, hərbi komissarlıqlarda və başqa hərbi hissələrdə xidmət edən zabitlərin bir dəstəsini mənimlə görüşə dəvət etmişdir. Görüşümüzün məqsədi bundan ibarətdir: son aylarda respublikamızda Azərbaycan ordusunun quruculuğu prosesi gedir. Sizin hamınız bunun şahidisiniz ki, həmin proses indi artıq düzgün istiqamətlə aparılır, müsbət nəticələrini verir. Bu isə Azərbaycan Respublikasının müdafiəsinin, silahlı qüvvələrimizin möhkəmlənməsinə kömək edir.

İndi respublikanın müdafiə imkanlarının artmasına çox böyük ehtiyacımız var. Məlumdur ki, son illər Ermənistanın Azərbaycana hərbi təcavüz etməsi və uzun çəkən müharibə, döyüşlər nəticəsində respublikamızın ərazisinin bir qismi erməni silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. Ona görə də biz həm Azərbaycanın ərazi bütövlüyünü, torpaqlarını qorumaq məsələləri, həm də erməni silahlı qüvvələri tərəfindən işğal edilmiş ərazilərimizin geri qaytarılması məsələsi ilə məşğul oluruq. Bu vəzifələrin hamısı Azərbaycan ordusunun qurulması və möhkəmlənməsi ilə bağlıdır. Məmnuniyyətlə qeyd elə bilərəm ki, Azərbaycanla ordu quruculuğu işi sürətlə gedir, nizami hərbi hissələr formalaşır. Bu sahədə gördüyümüz tədbirlər öz nəticəsini verir. İndi mövcud olan hərbi hissələr, xüsusən döyüş bölgələrindəki hərbi hissələr artıq öz hərbi qüdrətini layiqincə nümayiş etdirir və Azərbaycan Respublikasının torpaqlarının müdafiəsində, keşiyində etibarlı dayanırlar.

Siz hamınız Azərbaycan ordusunda xidmət edən zabitlərsiniz və son aylar baş vermiş dəyişikliklər sizə məlumdur. Azərbaycan ordusunun nizami hissələri hazırda dayandıqları mövqelərdə erməni silahlı qüvvələrinin hücumlarına layiqli cavab verir, onlara çox kəsərli zərbələr endirir və respublikamızın torpaqlarını etibarlı müdafiə edirlər. Müharibə davam edir, döyüşlər gedir. Müharibəni biz aparmırıq, onu erməni silahlı qüvvələri Azərbaycan Respublikasına qarşı aparır. Onlar respublikamızın yeni ərazilərini işğal etməyə can ataraq çalışırlar ki, özlərinin istədikləri şərtlərə Azərbaycan Respublikasının tabe olmasına nail olsunlar. Lakin əvvəllər müəyyən qədər imkanları

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

var idisə, indi buna nail ola bilmirlər. Erməni silahlı qüvvələri ilə üz-üzə dayanan Azərbaycan ordusunun hərbi hissələri bütün cəbhə boyu torpaqlarımızı etibarlı müdafiə edir və qeyd etdiyim kimi, düşmənə ciddi zərbələr endirirlər.

Sizə məlumdur ki, respublikamızın işğal olunmuş ərazisinin bir qismi bu döyüşlər nəticəsində artıq Azərbaycan ordusunun nəzarəti altına keçmiş, yəni geri qaytarılmışdır. Ordumuz işğal olunmuş ərazimizin qalan hissəsini də geri qaytarmaq üçün çox cəsarətli fəaliyyət göstərir. Bu döyüşlər qanlı döyüşlərdir. Məmnuniyyət hissi ilə qeyd edirəm ki, Azərbaycan Respublikasının igid, cəsarətli, qəhrəman oğulları ordu sıralarındakı əsgərlərimiz, zabitlərimiz qəhrəmancasına döyüşür, yaralanır, həlak olurlar. Lakin indi üstünlük Azərbaycan ordusunun əlindədir. Erməni silahlı qüvvələri hər gün çoxlu canlı qüvvə, hərbi texnika itirir, məğlubiyyətə uğrayırlar.

Bütün bunlar cəbhə bölgəsində vəziyyəti kəskinləşdirmişdir. Bunun da günahkarı yenə Ermənistan tərəfidir. Sizə məlumdur ki, mən müharibənin, döyüş əməliyyatlarının dayanlırılmasına və sülh danışıqları aparılmasına tərəfdar olduğumuzu dəfələrlə bildirmişəm, təkliflər irəli sürmüşəm, bəyanatlar vermişəm. Ancaq Ermənistan tərəfi buna razı olmur və bəzən ortaya elə şərtlər atırdı ki, bunlara biz, şübhəsiz, razı ola bilmərik. Ona görə də, bir də təkrar edirəm, indi gedən müharibənin, bütün bu döyüşlərin günahkarı, səbəbkarı Ermənistan tərəfi, erməni silahlı qüvvələridir. Biz isə öz ərazimizlə öz torpaqlarımızı, vətənimizi müdafiə etmək üçün bu döyüşləri aparırıq.

Şübhəsiz ki, döyüşlər belə kəskinləşdikcə qüvvələrimizin daha da səfərbər olunması üçün tədbirlər görmək zərurəti meydana çıxır. İndi Azərbaycan Respublikasının gəncləri orduda xidmət etmək üçün çox böyük ruh yüksəkliyi ilə müraciət edirlər. Orduda xidmətdən qaçanlar, yayınanlar çox deyildir. Bildiyiniz kimi, mənim müraciətlərimdən, xüsusən noyabrın 2-dəki müraciətimdən sonra Azərbaycan Respublikasında bütün vətəndaşlarla, ələlxüsus gənclərdə, orduda xidmət etmək imkanları olan adamlarda vətənpərvərlik hissi çox yüksəlmişdir. Onlar özləri hərbi komissarlıqlara, hərbi hissələrə gələrək döyüşə getmək, hərbi xidmət etmək arzusunda olduqlarını bildirirlər.

Zənnimcə, son dövrdə həyatımızda baş verən müsbət dəyişikliklərdən biri də odur ki, əgər bir müddət bundan öncə Azərbaycan ordusundan fərarilik edənlərin sayı olduqca çox idisə və bunun qarşısını almaq mümkün olmurdusa, indi qanunlarımızın tətbiqi yolu ilə, eyni zamanda əhali arasında vətənpərvərlik tərbiyəsi sahəsində aparılan iş nəticəsində onların tam əksəriyyəti hərbi komissarlıqlara, hərbi prokurorluğa, hərbi hissələrə gəlir və cəbhəyə getmək, döyüşmək, Vətəni qorumaq əzmində olduğunu bildirir.

İndi bizim hərbi çağırış məntəqələrimizdə gənclərin sayı çoxdur və onlar hərbi xidmətə başlamalıdırlar. Onların hərbi təlimi ilə məşğul olmaq üçün zabit kadrlarına çox ehtiyacımız

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

var. Cəhbədəki zabitlərimiz özlərini layiqli göstərir, qəhrəmanlıq nümunələri nümayiş etdirirlər. Lakin indi zabit korpusumuz cəbhə bölgəsinə daha da yaxın olmalı, orada fəaliyyət göstərməli, xidmət etməlidir.

Müdafiə Nazirliyi rəhbərliyinin mənə verdiyi təqdimata görə, buraya toplaşan zabitlərin hamısı hərbi hissələrə getməlidir. Onların bir qismi, ola bilər, əksəriyyəti hərbi komissarlıqlarla işləyir, bəziləri Bakıda yerləşən ordu hissələrində xidmət edirlər. Ancaq indi siz hamınız xidmətinizi cəbhə bölgələrindəki hərbi hissələrlə davam etdirməlisiniz.

Ona görə də bu gün sizinlə görüşməyi çox lazım bildim, çünki bu gün Müdafiə Nazirliyinin əmri ilə yeni vəzifələrə təyin olunacaqsınız, hərbi hissələrdə komandir vəzifələri tutacaqsınız. Əminəm ki, bu vəzifələri layiqincə yerinə yetirəcəksiniz. Siz hərbi qulluqçu, zabitsiniz. Hərbi xidmətin bir toxunulmaz qanunu var: hərbi qulluqçu, hərbi xidmətdə olan adam Vətən, komandanlıq harada lazım bilsə, orada da xidmət etməlidir. Bu, hərbi qulluqçulara, o cümlədən sizə yaxşı məlumdur. Ona görə də bu gün alacağınız əmrlər sözsüz yerinə yetirilməlidir. Güman edirəm ki, siz cəbhə bölgələrinə gedib hərbi hissələrdə öz xidmətinizi davam etdirərək Azərbaycan Respublikasının müdafiə qüdrətini daha da möhkəmləndirəcək, həm torpaqlarımızın müdafiəsinə, həm də işğal olunmuş ərazilərimizin geri qaytarılmasına töhfənizi verəcəksiniz. Bu şərəfli işdə hamınıza uğurlar arzulayıram. .

Güman edirəm ki, mənim bu sözlərim daim yadınızda qalacaq, əmri alan kimi dərhal cəbhə bölgələrinə gedəcək, indiyədək topladığınız təcrübədən, bilikdən istifadə edərək orada hərbi hissələrin işinin daha yaxşı qurulmasında, əsgərlərimizin, xüsusən hərbi xidmətə yeni çağırılmış gənclərin hazırlanmasında, təlim-tərbiyə keçməsində fəaliyyət göstərəcək, beləliklə də Azərbaycan Respublikasının bu ağır vəziyyətdən çıxmasına töhfənizi verəcəksiniz.

Biz Vətən müharibəsi aparırıq, Vətənimizi qoruyuruq və siz də bu Vətən müharibəsinin fəal iştirakçıları olmalısınız.

Bir daha bildirirəm ki, bu gün Müdafiə Nazirliyindən aldığınız əmrlər danışıqsız yerinə yetirilməlidir. Bu işdə sizə uğurlar, cəbhədə qəhrəmanlıq nümunələri göstərməyi arzulayıram. Arzu edirəm ki, Vətənin bu tapşırığını namusla, qeyrətlə, şərəflə yerinə yetirəsiniz. Bu şərəfli işdə Allah sizə yar olsun!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

20 YANVAR FACİƏSİNİN
4-cü İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ
XALQA MÜRACİƏT

Mənim əzizlərim!

Bu gün, tariximizə qızıl qanla yazılmış 20 Yanvar faciəsinin 4-cü ildönümündə Qanlı Yanvarın günahsız qurbanlarının əziz xatirəsini ehtiramla yad edib, hələ qanı alınmamış şəhidlərimizin ruhu qarşısında baş əyirəm.

Mən azadlığımız uğrunda mübarizədə ölməzliyə qovuşmuş oğul və qızlarımızın ailələrinə, yaxınlarına və əzizlərinə, bir sözlə, Azərbaycan xalqına başsağlığı verir və bu hüznlü çağlarımızda şəhidlərimizin ruhu naminə hamını birləşməyə çağırıram.

Bu gün özümüz özümüz uğrunda, mənəvi dünyamızın paklığı uğrunda ayağa qalxmalıyıq. Faciələr burulğanından xilas olmaq üçün inamımıza sarılıb gələcəyə boylanmalıyıq.

Prezident kimi mənə müraciət edən şəhid ailələri, Azərbaycanın bütün vətəndaşları haqqın, ədalətin tezliklə bərqərar olmasını tələb edirlər. Şəhidlik zirvəsinə ucalmış övladlarımızın Vətən qorpağına bəxş etdiyi müqəddəsliyə, gözləri buludlanmış ağsaçlı ana və bacılarımızın əyilməz vüqarına and içərək deyirəm: inanın, bu gün üzərində qara buludların cövlan etdiyi ana torpağımızın düçar olduğu müsibət və fəlakətə son qoyulacaqdır. Qalx, ey müqəddəs xalqımız!

19 yanvar 1994-cü il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BAŞ VERMİŞ FACİƏLƏR XALQIMIZIN İRADƏSİNİ QIRA BİLMƏZ

BAKIDA 1990-cı İLİN FACİƏLİ YANVAR HADİSƏLƏRİ ZAMANI ŞƏHİD OLANLARIN AİLƏ ÜZVLƏRİ VƏ HƏMİN GÜNLƏRDƏ YARALANIB ƏLİL OLANLARİN BİR QRUPU İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

19 yanvar 1994-cü il

Hörmətli bacılar və qardaşlar, şəhid ailələri, 20 Yanvar faciəsi zamanı xəsarət almış və bu günədək əziyyət çəkən vətəndaşlarımız, hörmətli qonaqlar!

Bu günlər biz 20 Yanvar faciəsinin dördüncü ildönümünü qeyd edirik. 20 Yanvar faciəsi Azərbaycan xalqının tarixində ən qara səhifələrdən biridir. Həmin gün, yəni yanvarın 20-nə keçən gecə Azərbaycan xalqına qarşı hərbi, siyasi, mənəvi təcavüz edilib, onun sinəsinə süngü sancılıb, xalqımızı əzmək, tapdalamaq, onun mənliyini təhqir etmək üçün dəhşətli cinayətlər törədilib. Bu faciə Azərbaycan xalqının həyatında böyük dəyişikliklər əmələ gətiribdir. Həm də bu faciə ondan qabaqkı dövrdə Azərbaycan xalqının başına gəlmiş bəlalar və hadisələrlə sıx bağlıdır. Ondan öncə, bir neçə il əvvəl təcavüzkar qüvvələr tərəfindən Azərbaycan Respublikasını, Azərbaycanı parçalamaq, dağıtmaq, Azərbaycan torpaqlarını zəbt etmək meylləri planlaşdırılmış və həyata keçirilirdi. Bunların hamısını tamamilə həyata keçirmək üçün Azərbaycan xalqının iradəsini qırmaq, xalqımızı əzmək lazım idi. 20 Yanvar faciəsi də məhz bununla əlaqədar olaraq törədilmişdir.

O gün, o gecə bizim əziz balalarımız, qardaşlarımız, bacılarımız həlak olmuş, bir çoxları xəsarət almış, indi də yaşayır. Lakin məsələ tək bununla qurtarmır. O gün Azərbaycan xalqı təhqir edilmişdir. O gün Azərbaycan xalqına qarşı təcavüz olunmuşdur. Təəssüf ki, xalqa xəyanət etmiş olan öz içimizdəki adamlar o təcavüzü ört-basdır etməyə çalışmışlar. Artıq dörd ildir ki, bu məsələyə siyasi-hüquqi qiymət verilməmişdir.

Eyni zamanda onu qeyd etmək lazımdır ki, o Qanlı yanvar günü xalqımız öz əziz vətəndaşlarını itirsə də, öz namusunu, şərəfini qoruya bilmişdir. Xalqımız sübut etmişdir ki, onun iradəsini qırmaq olmaz. Azadlıq, müstəqillik uğrunda mübarizə davam edib və indi artıq Azərbaycan Respublikası müstəqil dövlətdir, öz azadlığına, suverenliyinə nail olmuşdur.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yenə də deyirəm, o günün mənası həyatını qurban vermiş, yaxud yaralanmış adamların sayı ilə ölçülməməlidir. O günün böyük siyasi-mənəvi mənası var. Təəssüf ki, bu dörd ildə həmin məsələyə dövlət orqanları, hakimiyyət orqanları tərəfindən lazımi münasibət göstərilməyib və ayrı-ayrı vətənpərvər adamlarımızın harayı, səsi eşidilməyib, boğulubdur. Günahkarlar da meydana çıxarılmayıb və bu məsələyə ədalətli siyasi-hüquqi qiymət verilməyibdir. Mən şəhid ailələrinin hamısına başsaqlığı verirəm. Allahdan sizə səbir diləyirəm. Sizi əmin etmək istəyirəm ki, Azərbaycan Respublikasının prezidenti kimi bu məsələlərin araşdırılmasında və 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verilməsində öz səylərimi davam etdirəcəyəm.

Burada şəhid ailələrinin, yaralanmış şəxslərin 20 Yanvar faciəsi ilə əlaqədar bir çox problemləri meydana çıxdı. Mən heç təsəvvür edə bilməzdim ki, dörd il müddətində bu problemlər həll olunmayıbdır. Odur ki, görüşümüz bu mənada mənə çox şey verdi. Dərhal sizə bildirmək istəyirəm: 5 yanvar tarixli fərmanımla yaradılmış komissiyaya tapşırıram ki, öz işini bundan sonra da davam etdirsin və 20 Yanvar faciəsi ilə bağlı bütün problemlərin araşdırılması, həll olunması üçün tədbirlər görsün. Bu məsələlər şəxsən mənim nəzarətim altında olacaqdır. Sizi əmin etmək istəyirəm ki, biz bütün məsələlərin həll edilməsinə imkan daxilində çalışacağıq və mən bir prezident kimi öz fərmanlarımla, sərəncamlarımla, qərarlarımla həmin məsələlərin həlli üçün lazımi tədbirlər görəcəyəm.

Mən bir məsələ barəsində öz fikrimi demək istəyirəm. İlk şəhidlərimiz burada, indi Şəhidlər xiyabanı adlanan yerdə (keçmişdə biz ona Dağüstü park deyirdik) dəfn ediliblər. Onlar Yanvar faciəsinin şəhidləridir. Ora müqəddəs yerdir, hər birimiz üçün ziyarətgahdır və müqəddəs yer kimi də tariximizdə qalacaqdır. Bununla bərabər hesab edirəm ki, 20 Yanvar, məhz 20 Yanvar faciəsi şəhidlərinin xatirəsini əbədiləşdirmək üçün və bu məsələnin Azərbaycan xalqının tarixində mühüm siyasi rolunu indiki və gələcək nəsillərə daim nümayiş etdirmək üçün Bakıda 20 Yanvar faciəsi şəhidlərinə həsr olunmuş abidə ucaldılmalıdır. O gün, 20 yanvar gecəsi şəhid olanların hamısının adları bu abidədə yazılmalı, həkk edilməlidir. Bu, xalqımızın tarixində qalmalıdır.

Xalqımız tarix boyu çox şəhidlər veribdir. Xalqımız isə çoxəsrlik və zəngin tarixə malikdir. Şəhidlərimiz çoxdur, lakin hər dövrdə şəhid olanların tarixdə öz yeri var və hər dövrdə baş vermiş hadisələrin öz əhəmiyyəti var, 1990-cı ilin 20 Yanvar faciəsi bu baxımdan xüsusi əhəmiyət kəsb edir. Ona görə də bu hadisə xüsusi qeyd olunmalıdır.

Bilirsiniz ki, son günlər, xüsusən yanvarın 5-də mənim verdiyim fərmanın icrasına başlanandan sonra bir çox məsələlər müəyyən qədər aşkar olmuşdur. İki gün bundan öncə "Azərbaycan" qəzetində ötən dörd ildə 20 Yanvar faciəsinə aid qəbul olunmuş qərarların və sənədlərin xronikası və müəyyən şərhlər verilmişdir. Həmin qərarların, sənədlərin mətni ilə tanış olduqda in-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

san bir daha təəccüblənir və hətta dəhşətə gəlir, hiddətlənir. Ötən dörd il ərzində birincisi - bu faciəvi hala biganə münasibət, ikincisi - ardıcıl olmayan siyasət, üçüncüsü də faciənin ört-basdır edilməsi tam aşkara çıxır.

O vaxt, faciədən sonra həmin gün hüzn günü elan olunmuşdur. Bir müddət sonra başqa bir gün elan olunmuşdur. Daha sonra həmin gün Şəhidlər günü elan edilmişdir. Mən indi bu qərarların nə qədər əsaslı və ya əsassız olub-olmaması haqqında fikrimi söyləmək, xüsusən bu qərarların 20 Yanvar faciəsinin siyasi mənasına və mahiyyətinə nə qədər uyğun olduğunu demək istəmirəm və hesab edirəm ki, uyğun da deyildir. Ancaq bunların hamısı bizi düşünməyə, bu məsələlərə kompleks şəkildə baxmağa və məsuliyyətli münasibət göstərməyə dəvət edir. Yanvar faciəsinin siyasi mahiyyətinə, mənasına uyğun qərarlar qəbul etməyə dəvət edir. Güman edirəm ki, həmin komissiya bu barədə də lazımi tədbirlər hazırlayıb təqdim edəcəkdir. Mən bu məsələlərlə şəxsən məşğul olacağam.

Bilirsiniz ki, burada 20 Yanvar faciəsi baş verən kimi, yanvarın 21-də mən Moskvada yaşayarkən o vaxt, demək olar, repressiya altında olduğum, siyasi cəhətdən çox məhdudiyyətlərə məruz qaldığım bir dövrdə Moskvada həm mitinqdə, həm də mətbuat konfranslarında çıxış edərək bu məsələyə münasibətimi bildirmişəm və həmin gün orada Azərbaycanın daimi nümayəndəliyində Azərbaycan xalqına başsağlığı göndərmişəm. Hətta çox çətinliklə bir neçə adama telefonla zəng vuraraq rica etdim ki, göndərdiyim başsağlığı Azərbaycan qəzetlərində dərc olunsun, yaxud matəm mərasimində oxunsun. Lakin sonra bildim ki, bu xahişlərin heç biri yerinə yetirilməmişdir.

O günlər mən böyük kədər içində yaşamışam. Bakıda baş verən hadisələri imkanım daxilində izləyirdim və sonra bir daha hiddətləndim ki, şəhidlərin dəfn mərasimində Azərbaycanın o vaxtkı rəhbərlərinin heç biri iştirak etməmişdi. Şəhidləri şeyxülislam Allahşükür Paşazadə, bizim ziyalılar Şəhidlər Xiyabanında dəfn etdilər. Bunu yadınıza salın. Əgər Azərbaycanın rəhbərləri o faciəli dövrdə öz xalqının şəhidlərinin dəfnində iştirak etməmişdilərsə, bunun özü sübut etdi ki, onlar özləri həmin faciənin günahkarlarıdırlar və o gündən etibarən faciənin üstünü ört-basdır etməyə çalışmışlar.

Necə ola bilər ki, bu faciənin nə təhər baş verməsi indiyədək məlum deyildir? Burada çıxış edən şəhid atası bir məsələni yadıma saldı. Bəli, o zaman araşdırma vaxtı məlum idi ki, yanvarın 16-17-də xəstəxanalarda yerlər hazırlanırdı. Bəli, geniş palatalar hazırlanmışdı, cərrahlara xəbərdarlıq edilmişdi. Çünki bu təcavüz təşkil olunmuşdu və bunu təkcə Qorbaçov, yaxud Moskvada Sovet hökumətinin, Kommunist Partiyasının digər rəhbərləri təşkil etməmişdi. Bunu birinci növbədə Azərbaycan Respublikasının o vaxtkı Kommunist Partiyasının rəhbərləri öz xalqını boğmaq, əzmək, tapdalamaq üçün, xalqın azadlıq hərəkatını yatırtmaq üçün, xalqın mənliyini təhqir etmək üçün təşkil etmişdilər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Həqiqət budur. Bu həqiqəti aşkara çıxarmaq üçün böyük məharət lazım deyildi. Təəssüf ki, onu gizlətmək üçün ötən dörd ildə çox iş görülmüşdür. Ancaq gizlədə bilməyəcəklər. Bilin, yüz il, yetmiş il bundan qabaq baş vermiş cinayətlərin üstü indi açılır iki-üç gün öncə Moskva televiziyası xəbər verdi ki, 1921-ci ildə Kronştadtda həqiqətən qiyam olub-olmaması araşdırılmış və müəyyən edilmişdir ki, orada heç bir qiyam olmamışdır və o zaman qiyamçı elan edilən adamların hamısına 73 ildən sonra bəraət qazandırılmışdır. 1937-1938-ci illərdə Azərbaycan xalqının başına gələn bəlaların ziyalılarımızın qırılmasının üstü iyirmi il sonra - 1956-57-ci illərdə açıldı və cinayətkarlar məhkum olundular.

Burada ayrı-ayrı adamların məhkum edilməsindən söhbət getmir, baxmayaraq ki, cinayətkar həqiqətən məsuliyyət daşımalıdır. Söhbət bu məsələnin siyasi cəhətindən, Azərbaycan xalqının taleyinlə doğru-düzgün əks olunmasından gedir. Ona görə də mən demişəm və bir daha deyirəm: əgər 1990-cı il yanvarın 20-də Azərbaycan xalqına qarşı hərbi-siyasi təcavüz edilmişdirsə və bu böyük cinayətdirsə, onun ört-basdır edilməsi bundan da ağır cinayətdir və xalqa qarşı böyük xəyanətdir.

Əgər siz dünən televiziya vasitəsilə canlı yayımla Azərbaycan Milli Məclisinin iclasını seyr edirdinizsə, yəqin ki, oradakı atmosferi görürdünüz. Təsəvvür edin, komissiyanın sədri, Azərbaycan Elmlər Akademiyasının vitse-prezidenti, akademik, alim adam, xalqın içərisindən çıxmış bir adam, iki il bu məsələnin üstünü ört-basdır etməyə çalışan bir adam dünən sübut etmək istəyirdi ki, elə belə də olmalı imiş. Mən məcbur oldum onunla dialoqa girəm. Yəqin ki, siz bunu eşitdiniz.

Ona görə də mən bu məsələ barədə 1990-cı il yanvarın 21-də, Moskvada ağır bir şəraitdə yaşadığım dövrdə səsimi qaldırdığım kimi, ondan sonra oradan yaxa qurtarıb gələrək Bakıda özümə yer tapa bilmədiyimdən gedib Naxçıvanda yaşadığım vaxtda səsimi qaldırdığım kimi, daha sonra - 1991-ci ildə Azərbaycan Ali Sovetinin sessiyalarında səsimi qaldırdığım kimi, indi də səsimi qaldırıram. Ona görə yox ki, burada kiminsə haqqında söhbət gedir, burada xalq haqqında söhbət gedir. Xalqın tarixi, xalqa qarşı təcavüz haqqında söhbət gedir. Əgər Azərbaycan xalqına qarşı bu təcavüzü bir tərəfdən Qorbaçov başda olmaqla Sovet İttifaqının, Sovet İttifaqı Kommunist Partiyasının rəhbərliyi etmişdirsə, ikinci tərəfdən və ən çox Azərbaycan Kommunist Partiyasının rəhbərliyi, Azərbaycan hökumətinin rəhbərliyi etmişdir və bu sonuncular bəlkə də daha çox günahkardırlar.

Siz bəlkə də bilmirsiniz, 1991-ci ilin iyununda mən Moskvada Kommunist Partiyasından çıxmaq haqqında bəyanat verdim. Mən 1943-cü ildən Kommunist Partiyasının üzvü olmuşam, ona sədaqətlə xidmət etmişəm. Ancaq 1991-ci ildə Moskvada Kreml sarayında bəyanat verdim ki, mən Kommunist Partiyası sıralarından çıxıram. Nə üçün? Mən həmin məktubu tapıb bu günlərdə xahiş edəcəyəm ki, onu dərc etsinlər. O vaxt mənim həmin bəyanatımı hər yerdə gizlətdilər. Orada partiyadan çıxmağımın səbəblə-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

rini yazmışam. Birinci səbəb Kommunist Partiyasının rəhbərliyi tərəfindən Azərbaycan xalqının başına gətirilmiş bəla və Qarabağ məsələsi ilə Azərbaycan xalqına olan təcavüzdür. İkinci səbəb 20 Yanvar faciəsi, Azərbaycan xalqına qarşı təcavüz və həmin təcavüzün üstünün açılmamasıdır. Bu səbəblərə görə mən 1991-ci ildə Kommunist Partiyasını tərk etdim.

Demək istəyirəm ki, mən bu faciəyə həmişə ürəkdən yanaraq həm də vətəndaşlıq borcumu yerinə yetirməyə çalışmışam və bu gün də həmin mövqedəyəm, sabah da həmin məvqedə olacağam. Birinci növbədə ədalət naminə, eyni zamanda Azərbaycan xalqının namusunu, şərəfini, milli mənliyini qorumaq naminə.

Ancaq dünən Milli Məclisin iclasınla mən fikir verdim ki, orada təkcə akademik Midhət Abbasov yox, başqaları da bu məsələyə nə qədər biganədirlər. Nə üçün? Çünki özləri bu işin iştirakçılarıdır. Mən hesab edirəm ki, bu faciəni törədən adamların heç birisinin Azərbaycan vətəndaşı adını daşımağa ixtiyarı yoxdur. Ayrı-ayrı adamların cəzalanlırılması xırda məsələdir. Ən başlıcası olur ki, bu hadisəyə tarixi baxımdan hüquqi-siyasi qiymət verilsin və gələcək nəsillər bilsinlər ki, Azərbaycan xalqının başına belə bəlalar gəlmişdir, lakin xalq öz iradəsini itirməmiş və bütün bu bəlaların hamısına doğru-düzgün qiymət vermişdir. Sizi əmin etmək istəyirəm ki, mən bundan sonra da bu sahədə səylərimi davam etdirəcək və öz imkanlarımdan istifadə edərək bu məsələlərin açılmasına və 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymət verilməsinə çalışacağam.

Respublikamız indi də şəhidlər verir. Biz Vətənimizi müdafiə edirik, torpaqlarımızı qoruyuruq. Ancaq 20 Yanvar faciəsi şəhidlərinin Azərbaycan tarixində xüsusi yeri var. Hörmətli şairimiz Bəxtiyar Vahabzadə tamamilə doğru dedi: onlar heç bir vuruşa girmədən öz Vəqəninin, xalqının azadlığı yolunda şəhid olmuşlar. Bəziləri deyir ki, xəbər vermək lazım idi ki, heç kəs küçəyə çıxmasın, şəhid olmasın. Bilirsiniz, bu sözlər də mənə qəribə gəlir. Məgər iş ondadır ki, kimsə gedib evində gizlənəydi və tanklar gələndə heç kimə heç nə olmayaydı? Demək, onda bu, Azərbaycan xalqı üçün rahat olacaqdı? Çox qəribə mülahizədir.

Mən şəhid olanların hamısına bir daha Allahdan rəhmət diləyirəm, şəhid ailələrinə səbr diləyirəm. Sizin hamınızı əmin etmək istəyirəm ki, 20 Yanvar faciəsi, ondan əvvəl və ondan sonra Azərbaycan xalqının başına gəlmiş bəlaların heç biri xalqımızın iradəsini qıra bilməz. Azərbaycan xalqı özünün tarixi, qəhrəmanlıq ənənələrini uca tutaraq Vətənini, torpağını, Azərbaycan Respublikasının müstəqilliyini qorumağa qadirdir. İndi cəbhə bölgələrində qəhrəman döyüşçülərimiz respublikanın ərazisini cəsarətlə, mətanətlə müdafiə edirlər və əmin ola bilərsiniz ki, bizim bu haqq işimiz, Azərbaycan torpaqlarının müdafiəsi və respublikamızın ərazi bütövlüyünün qorunması etibarlı təmin olunur və bundan sonra da təmin ediləcəkdir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mən bu günə də, sabaha da böyük nikbinliklə baxıram və sizi də bu sızıltıdan, iniltidən uzaqlaşaraq gələcəyə baxmağa dəvət edirəm. Gələcəyimiz isə Azərbaycan Respublikasının müstəqilliyinin möhkəmlənməsi, onun ərazi bütövlüyünün təmin olunmasıdır. Əmin olun ki, biz buna nail olacağıq. Sağ olun!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

VƏTƏN TORPAQLARINI İŞĞALÇILARDAN AZAD EDƏCƏYİK

"N" HƏRBİ HİSSƏSİNİN ƏSGƏR VƏ ZABİTLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

24 yanvar 1994-cü il

Əziz zabitlər və əsgərlər!

Bu gün Azərbaycan Respublikasının ordusu qurulmaqda, yaranmaqdadır. Bununla yanaşı, ordumuz müstəqil Azərbaycan Respublikasının torpaqlarının keşiyində duraraq, onu müdafiə edir, döyüşür. Siz Azərbaycan Ordusunun yeni yaranan bir hissəsinə mənsubsunuz. Müəyyən təlim-tərbiyə keçəndən, hazırlıq işlərindən sonra buraya toplaşmısınız, buradan cəbhəyə Azərbaycanın qorpaqlarını, ərazisini, respublikamızın müstəqilliyini qorumağa yola düşürsünüz.

Müdafiə nazirinin mənə verdiyi məlumata görə, sizin hazırlığınız yüksək səviyyədə keçmişdir, lazımi təlim almısınız, döyüş qabiliyyətiniz yüksəkdir. Ümidvar olduğumu bildirmək istəyirəm ki, siz hazırlıq dövründə, təlim dövründə aldığınız bilikdən, qazandığınız təcrübədən səmərəli istifadə edəcəksiniz və torpaqlarımızın keşiyində qəhrəmancasına duracaqsınız.

Siz cəbhəyə yola düşərkən indi orada vuruşan Azərbaycan əsgərlərinin qəhrəmanlıq nümunələrini gözlərinizin önünə gətirirsiniz. Bilirsiniz ki, son aylar Azərbaycan Ordusu öz gücünü toplayaraq möhkəmlənmişdir. İndi ordumuzun hissələri Azərbaycan torpaqlarını etibarlı surətdə qorumağa qadirdir və düşmənlə döyüşə girişərək qəhrəmanlıqlar göstərir, erməni silahlı qüvvələrinə güclü zərbələr endirir, Vətənimizi, xalqımızı sədaqətlə müdafiə edirlər.

Son vaxtlar Azərbaycan Ordusu hissələrinin göstərdiyi şücaət, qəhrəmanlıq nümunələri xalqımızda orduya sevgi və məhəbbəti, hörməti xeyli artırmış, bütün Azərbaycan xalqında vətənpərvərlik hisslərini daha da gücləndirmişdir. Bunların hamısı cəbhədə döyüşən qəhrəman oğullarımızın, Azərbaycan Ordusu əsgərlərinin və zabitlərinin igidliyinin nəticəsidir. Deməli, Azərbaycan xalqı öz müstəqilliyini, öz torpaqlarını qorumağa qadirdir və Azərbaycan Ordusu bu şərəfli vəzifəni indi artıq layiqincə yerinə yetirir. Son vaxtlar Füzuli, Kəlbəcər rayonları ərazisində, Ağdam, Ağdərə istiqamətində, başqa cəbhə bölgələrində Azərbaycan Ordusunun əldə etdiyi qələbələr, böyük nailiyyətlər Azərbaycanın hər bir vətəndaşını sevindirir və bir daha qeyd edirəm, hər birimizdə orduya məhəbbət və hörməti artırır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bax, siz belə bir şəraitdə hazırlıq keçmisiniz, belə bir şəraitdə cəbhədəki qardaşlarınızın yanına gedirsiniz, onlarla bərabər torpaqlarımızın müdafiəsində duracaqsınız. Şübhə etmirəm ki, siz bu vəzifəni layiqincə yerinə yetirəcəksiniz.

Dəfələrlə demişik, bu gün bir daha bildirirəm: Azərbaycan Respublikası müharibəyə son qoymağa, onu danışıqlar yolu ilə bitirməyə çalışır, bu sahədə bir çox addımlar atmış və bundan sonra da atacaqdır. Biz müharibənin davam etməsini istəmirik. Müharibəni də Azərbaycan başlamayıb. Neçə illərdir ki, erməni silahlı qüvvələrinin Azərbaycan ərazisində təcavüzü ara vermir. Biz bu təhlükənin qarşısını almaq istəyirik. Buna görə də əsas məqsədimiz müharibəyə sülh yolu ilə son qoyulmasına nail olmaqdır. Biz indiyədək təşəbbüslər irəli sürmüşük və bundan sonra da irəli sürəcəyik. Beynəlxalq təşkilatların, böyük dövlətlərin imkanlarından istifadə etməyə çalışmışıq. Ermənistan Respublikasının rəhbərliyi ilə dəfələrlə danışıqlar aparmışıq və bu danışıqları davam etdiririk. Bunların hamısını ona görə edirik ki, qan tökülməsinə son qoyulsun. Biz qan tökülməsinə tərəfdar deyilik. Biz müharibə tərəfdarı deyilik. Biz torpaqlarımızın sülh yolu ilə, danışıqlar vasitəsilə azad edilməsinə nail olmaq istəyirik.

Lakin bizim bu tədbirlərimiz, sülhsevər siyasətimiz, addımlarımız hələlik istənilən nəticəni verməmişdir. Əksinə, erməni silahlı qüvvələri cəbhə bölgələrində mövqelərimizə hücumlar edir, öz çirkin niyyətlərini daha geniş miqyasda həyata keçirməyə və öz haqsız, ədalətsiz istəklərinə nail olmağa can atırlar. Biz bununla razılaşa bilmərik. Ona görə də mən bu gün sizin qarşınızda çıxış edərək Azərbaycan Resiublikasının, onun dövlətinin sülh və əminamanlıq tərəfdarı olduğunu, müharibəyə barışıq yolu ilə, sülh yolu ilə son qoymaq istədiyini bir daha bəyan edirəm. Eyni zamanda bildirirəm ki, bu addımlarımız bir nəticə vermədiyinə görə biz torpaqlarımızın müdafiəsini bundan sonra daha da əzmlə davam etdirəcəyik. Son aylarda Azərbaycan Ordusunun qələbələri, onun öz torpaqlarımızı müdafiə etmək üçün böyük imkanlara malik olması təkcə Azərbaycanda deyil, respublikamızın hüdullarından kənarda da məlumdur. Erməni silahlı qüvvələri bunu bilməli və özləri üçün nəticə çıxarmalıdırlar.

Mən bu gün sizin qarşınızda Ermənistan tərəfini bizim torpaqları dincliklə, sülh yolu ilə tərk etməyə bir daha çağırıram. Bir daha çatdırmaq istəyirəm ki, onlar Azərbaycan ərazisindən çəkilməli, işğal etdikləri torpaqlardan çıxıb getməli, Azərbaycan Respublikasının suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərinin toxunulmazlığına hörmətlə yanaşmalıdırlar. Əgər onlar bu yolla getsələr, şübhəsiz, biz müharibəyə tezliklə son qoya bilərik. Amma onlar indiyədək apardıqları təcavüzkar siyasəti davam etdirsələr, biz onlara tutarlı zərbələr endirməyə hazırıq, işğal olunmuş torpaqlarımızı ordunun gücü ilə, bütün Azərbaycan xalqının gücü ilə azad etməyə qadirik.

Mən bu sözləri deyərkən Azərbaycan Ordusunun bugünkü qüdrətinə arxalanıram, ona güvənirəm. Bu sözləri deyərkən mən sizə,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

əziz zabitlər, əsgərlər, məhz sizə arxalanıram, sizə güvənirəm və əminəm ki, siz də, sizin kimi minlərlə Azərbaycan əsgəri, zabiti də bir nəfər tək ayağa Qalxıb Azərbaycanın ərazi bütövlüyünü müdafiə edəcəklər. İnanıram ki, siz gedib cəbhədəki qəhrəman döyüşçülərimizin sıralarına qoşulacaq, işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi üçün hünər, qəhrəmanlıq göstərəcəksiniz. Mən sizə uğurlar diləyirəm, sizi xeyir-dua ilə yola salıram və hamınıza öz hörmət və məhəbbətimi bildirirəm.

Bilin ki, sizin hər birinizin arxanızda böyük Azərbaycan ölkəsi durmuşdur. Bilin ki, hər biriniz öz doğma Vətəninizi, öz ananızı, atanızı, bacınızı, qardaşınızı müdafiə etmək üçün ordu sıralarına gəlmisiniz və indi cəbhəyə yola düşürsünüz. Bilin ki, sizin hər bir uğurlu addımınız Azərbaycan Respublikasının müstəqilliyinə və ərazi bütövlüyünə kömək edəcəkdir. Bilin ki, ümumi qələbəmiz sizin hər birinizin fəaliyyətindən, qəhrəmanlığından asılıdır. Ona görə də hər birinizə və ümumiyyətlə, hamınıza cansağlığı, səadət arzulayıram. Bu şərəfli vəzifənizi - Vətəni müdafiə etmək vəzifənizi yerinə yetirməkdə qəhrəmanlıq nümunələri göstərməyinizi arzulayıram.

Ümidvaram ki, bu deyilənlərin hamısına əməl edəcəksiniz və öz vəzifənizi igidliklə yerinə yetirəcəksiniz, Vətəninizi, ana və atalarınızı, bacı və qardaşlarınızı sevindirəcəksiniz. Sizə bir daha cansağlığı arzulayıram. Azərbaycan Ordusuna yeni-yeni uğurlar diləyirəm, sizin hər birinizə uğurlar arzulayıram.

Qəhrəman Azərbaycan əsgəri, müqəddəs Azərbaycan torpağının, müstəqil Azərbaycan Respublikasının müdafiəsi yolunda irəli!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ÖLKƏMİZİN SUVERENLİYİNİ VƏ ƏRAZİ BÜTÖVLÜYÜNÜ QORUMAQ ÜÇÜN BİZİM KİFAYƏT QƏDƏR QÜVVƏ VƏ İMKANLARIMIZ VARDIR

RUSİYA FEDERASİYASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN ƏLAHİDDƏ TAPŞIRIQLAR ÜZRƏ SƏFİRİ V.KAZİMİROVLA GÖRÜŞDƏ ÇIXIŞ

31 yanvar 1994-cü il

Ümumən danışıqlarımız, demək olar, hər gün intensiv gedir və bunlar nəinki görüşlərdir, həm də müxtəlif məlumat, telefon danışıqları mübadiləsidir. Aydınlıq üçün demək istəyirəm ki, hər halla, son beş-altı ayda Azərbaycan tərəfi atəşin, hərbi əməliyyatların dayandırılması, münaqişəyə səbəb olmuş bütün məsələlərin ədalətlə həll olunması uğrunda daim çıxış etmişdir. Mən Azərbaycan dövləti adından bu bəyanatları Sizinlə, Rusiya prezidenti Boris Nikolayeviç Yeltsinlə, xarici işlər naziri Andrey Kozırevlə görüşlərim zamanı aşkar şəkildə vermişəm, əlbəttə, bunu Ermənistan Respublikasının prezidenti Levon Ter-Petrosyanla görüşlərimdə də bildirmişəm. Onunla dekabrın 23-24-də Aşqabatda axırıncı görüşümüz zamanı mən bu təşəbbüslə bir daha çıxış etmişəm. MDB dövlətləri başçılarının görüşündə mənim bəyanatım yəqin ki, yadınızdadır - bu sənəd rəsmi şəkildə yayılmışdır. Həmin bəyanatda hərbi əməliyyatları dayandırmağı, danışıqlara başlamağı təklif etmişdik, amma bir şərtlə ki, erməni silahlı birləşmələri işğal olunmuş ərazilərdən dərhal çıxarılsın.

Təəssüf ki, bəzi informasiya orqanlarının yaydıqları birtərəfli informasiyalar ucbatından əsl vəziyyət barəsində heç də həmişə düzgün təsəvvür yaranmır. Halbuki müharibə Azərbaycan ərazisində gedir, Azərbaycan ərazisi olan Dağlıq Qarabağ tamamilə erməni silahlı birləşmələrinin nəzarəti altındadır, üstəlik, onlar Dağlıq Qarabağın hüludlarından kənarda yerləşən yeddi rayona da nəzarət edirlər.

Sizin vasitəçiliyinizlə biz barışıq haqqında dəfələrlə saziş bağlamışıq. Hər dəfə də bu sazişlər onunla nəticələnmişdir ki, erməni tərəfi sazişi pozmuş və yeni-yeni rayonları işğal etmiş, məsələni öz mənafeyi naminə zor mövqeyindən həll etmək üçün daha da irəliləməklə hədələmişdir. Bu gün mən sizə bildirmək istəyir və bunu Rusiya Felerasiyasının rəhbərliyinə çatdır-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mağı xahiş edirəm ki, biz hərbi əməliyyatların dayandırılmasına, bu qanlı müharibəyə son qoyulmasına tərəfdarıq, lakin müəyyən şərtlərlə. Bu şərtlər də şıltaqlıq deyildir, onlar real surətdə yaranmış vəziyyətdən irəli məlir.

Son vaxtlar hərbi əməliyyatların yenidən başlanmasına gəldikdə, deməliyəm ki, bu da bizim təşəbbüsümüzlə deyil, erməni silahlı birləşmələrinin təşəbbüsü ilə başlanmışdır. Onlar, hədə-qorxu gəldikləri kimi, öz planlarını həyata keçirməyə, Azərbaycanın yeni-yeni rayonlarını işğal etməyə can atırlar ki, öz şərtlərini daha sərt şəkildə irəli sürsünlər. Amma bu dəfə belə cəhdlər baş tutmamış, ermənilər Azərbaycan Silahlı Qüvvələrinin layiqli müqavimətinə rast gəlmiş, çoxlu itkilərə məruz qalmışlar. Müharibə getdiyi şəraitdə itkilər labüddür, hər iki tərəf itkilərə məruz qalır, lakin dediyiniz kimi, hücuma keçən tərəf daha böyük itkilərə məruz qalır. Bəli, hücum edən tərəf ermənilərdir. Buna görə də onlar daha böyük itkilər verirlər. Bunu siz də bilməlisiniz. Erməni mənbələri ictimaiyyəti aldadaraq iddia etməməlidir ki, guya beş min azərbaycanlı həlak olmuşdur. Görəsən, onlar bunu necə hesablamışlar? Bu, doğru deyildir. Bir halda ki, onlar hücum edir, deməli, daha çox itkilərə də onlar məruz qalırlar. Biz tərəfdən də itkilər var. Lakin bu gün mən sizə açıq bildirirəm: biz ədalətli müharibə aparırıq, ona görə ki, öz ərazimizdəyik, biz istəyirik ki, öz torpağımızı işğalçılardan, Ermənistan silahlı qüvvələrnidən dinc vasitələrlə baş tutmasa, hərbi yolla təmizləyək. adamlarımız öz vətənini müdafiə edərək həlak olur, özü də qəhrəmancasına həlak olurlar. Bəs ermənilər bizim torpağımızda - Füzuli, Ağdam, Kəlbəcər, Ağdərə rayonlarında və müharibə gedən digər rayonlarda nə üçün həlak olurlar? Mən də bilmirəm ki, bu itkilər erməni xalqının xeyrinədirmi?

Fürsətdən və kütləvi informasiya vasitələri nümayəndələrinin burada olmasından istifadə edərək, erməni xalqına müraciət etmək istəyirəm: bu müharibəyə son qoymaq lazımdır. Erməni və Azərbaycan xalqları əsrlər boyu yanaşı yaşayıblar və yanaşı yaşayacaqlar. Tale onları qonşu edib və deməli düşmənçilik həmişə davam edə bilməz. Ermənistanın müxtəlif rayonlarından erməni gəncləri zorla Azərbaycan ərazisinə göndərilir və onlar Kəlbəcərdə, Füzulidə, digər yerlərdə həlak olurlar. Məgər bu, erməni xalqına lazımdırmı? Bu barədə bizim çoxlu sübutlarımız var. Hərbi əsirlərin, hətta mötəbər adamların ifadələri var. Məsələn, onlardan biri də Ermənistanın Qukasyan rayonunun sabiq partiya komitəsinin birinci katibidir. O, vaxtilə Bakı Ali Partiya Məktəbində təhsil almışdır. Bu adamlar bildirirlər ki, onları müharibəyə zorla göndərir, onlara və ailələrinə hədə-qorxu gəlirlər. Buna görədə onların çarələri qalmır: ya orada həlak olmalıdırlar, ya da burada.

Son hərbi əməliyyatlar həqiqətən fəal surətdə aparılır, bu əməliyyatların şiddətlənməsinə səbəb isə erməni silahlı birləşmələrinin hücumudur. Lakin onlar bu dəfə yanılmışlar, çünki indi Azərbaycan Ordusu bir neçə ay bundan əvvəlki ordu deyil-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dir. İndi o, müdafiə olunmaq öz torpaqlarını qorumaq və Azərbaycanın işğal edilmiş rayonları ərazisində döyüş əməliyyatları aparan erməni silahlı birləşmələrinə layiqli cavab vermək iqtidarındadır.

Buna görə də mən erməni xalqına və Ermənistan rəhbərliyinə müharibəyə son qoymaq çağırışı ilə müraciət edirəm. Bilmək lazımdır ki, güc mövqeyindən yeridilən siyasət bir nəticə verməyəcəkdir. Biz Azərbaycan Respublikası üçün, Azərbaycan xalqı üçün hər hansı təhqiramiz sazişə heç cür yol verməyəcəyik. Öz suveren respublikamızı, onun ərazisini qorumaq üçün bizim kifayət qədər qüvvə və imkanlarımız var.

Siz fevralın 1-dən barışıq təklif edir və bunu ATƏM-in Minsk qrupunun yeni sədrinin öz vəzifəsinə başlaması ilə bağlayırsınız. Mən yeni sədri salamlayıram. Lakin bununla yanaşı, xatırlatmaq istəyirəm: Minsk qrupunun sabiq sədri cənab Raffaelli ötən ilin iyulunda Bakıda olmuşdu, biz onunla görüşdük və çox fəal əməkdaşlıq etdik. O, sonra Ağdamda oldu. Biz onun gətirdiyi sənədlə - qoşunların Kəlbəcər rayonundan çıxarılması cədvəli ilə tamamilə razılaşdıq. Lakin o, Azərbaycandan çıxıb getməmiş, erməni silahlı qüvvələri Ağdam rayonunu qəsb etdilər. Biz Minsk qrupuna, onun sabiq və indiki rəhbərlərinə hörmətimizi bildirməklə yanaşı, Minsk qrununun yeni sədri Cənab Eliassonun fəaliyyətə başlamasını yeni sülhsevər addımla əlamətdar etməyə hazırıq. Bəs erməni tərəfi buna hazırdırmı? Faktlar bunun əksini göstərir. Axı Ermənistan Minsk qrupunu da, Raffaellinin özünü də təhqir etmişdir. Zənnimcə, Ermənistan Rusiya Federasiyasının xüsusi nümayəndəsi Vladimir Nikolayeviç Kazimirovu da təhqir etmişdir. O, xoş məramla, burada beş gün ərzində üzərində işlədiyimiz sazişin layihəsi ilə Qazaxdan Ermənistana gedərkən atəşə tutulmuş və yalnız möcüzə nəticəsində sağ qalmışdır. O vaxtlar Rusiya Xarici İşlər Nazirliyi və Rusiya Federasiyasının Nazirlər Soveti layiqli bəyanat vermiş, amma erməni tərəfi heç üzr də istəməmişdir. Lakin biz bunu unuda bilmərik. Belə düşünürəm ki, bunu siz də unutmamalısınız. Hər halda, biz razılaşa bilmərik ki, Ermənistan öz hökmünü yeritsin. Bu tərəfdaşla sülh dilində danışmaq olduqca çətindir və buna siz özünüz də şahidsiniz. Siz Ermənistanda, Dağlıq Qarabağda, Xankəndidə olmusunuz, lakin bilmirəm onlar dalda-bucaqda sizdən üzr istəyiblər, ya yox. Əslində isə onlar rəsmi surətdə üzrxahlıq etməmişlər. Bu isə beynəlxalq praktikada görünməmiş faktdır.

Sizin buraya gəlişinizi və təşəbbüslərinizi böyük məmnunluqla qarşıladım. Fürsətdən istifadə edərək, erməni xalqına, Azərbaycan vətəndaşları olan Dağlıq Qarabağın erməni sakinlərinə üz tutub, onları ağıl-kamala çağırıram, çünki bu çoxillik müharibə heç nə verməmişdir. Mənə söylədilər ki, Marquni rayonundan olan əsir düşmüş bir gənc demişdir: "biz müharibə etmək istəmirik, biz burada yaşamışıq və azərbaycanlılarla dostcasına yaşamaq istəyirik, onlara qarşı heç bir iddiamız yoxdur. La-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

kin bizi məcbur edir, oraya zor gücünə göndərirlər. Elə adamlar var ki, bizi bu müharibəyə təhrik edirlər".

Mən Dağlıq Qarabağın bütün sakinlərinə müraciət edərək onları silahı yerə qoymağa çağırıram, Azərbaycan Respublikasının prezidenti kimi, Dağlıq Qarabağda yaşayan bütün ermənilərin Azərbaycanın bərabər-hüquqlu vətəndaşları tək tam təhlükəsizliyinə qəminat verirəm. Biz bu şərtlərlə hərbi əməliyyatları dayandıra bilərik, barışıq müqaviləsi bağlaya, saziş əldə edə bilərik.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BÖYÜK BRİTANİYA XARİCİ İNKİŞAF NAZİRLİYİNİN DÖVLƏT NAZİRİ ZATİ-ALİLƏRİ BARONESSA ÇALMER OF VOLESİYƏ

Hörmətli xanım dövlət naziri!

Azərbaycanın heç bir təqsiri olmayan bir milyon nəfərdən çox vətəndaşı öz doğma ərazisində qaçqın vəziyyətinə düşmüşdür. Onlara humanitar yardım göstərilməsinə Britaniya hökumətinin qayğısı və bu sahədə sizin şəxsi fəaliyyətiniz məni riqqətə gətirir.

Doğrudan da qış şəraitində palçığın içində çadrlarda yaşamağa məcbur olan dinc əhalinin - qadınların, uşaqların, ahıl adamların iztirablarını sözlə ifadə etmək çətindir. Bütün bunlar Ermənistan Respublikasının mənim xalqıma qarşı təcavüzünün, bütün beynəlxalq hüquq normalarını, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrini pozaraq ərazi ələ keçirmək arzusu ilə suveren Azərbaycanın torpaqlarının işğalını davam etdirən sərsəm siyasətçilərin siyasi təkəbbürlərinin nəticəsidir.

Mən Britaniya hökumətinə və şəxsən sizə olduqca minnətdaram ki, Azərbaycanın nahaq məhrumiyyətlərə düçar edilən günahsız vətəndaşlarına yardım göstərir və onların taleyinə acıyırsınız. Sizi əmin edirəm ki, bizə göstərilən humanitar yardımdan səmərəli istifadə olunması üçün Azərbaycan hökuməti öz tərəfindən bütün lazımi tədbirləri görəcəkdir.

Hörmətlə,

HEYDƏR ƏLİYEV

4 fevral 1994-cü il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİNİN RƏHBƏRLƏRİ, NEFTÇİ ALİM VƏ MÜTƏXƏSSİSLƏRİLƏ GÖRÜŞDƏ ÇIXIŞ

5 fevral 1994-cü il

Neft sənayesi Azərbaycan iqtisadiyyatında mühüm yer tutur. Müstəqil Azərbaycanın gələcək İqtisadiyyatını inkişafı neft sənayesindən çox asılıdır. Ona görə də dövlət bu sahəyə xüsusi fikir verir.

Azərbaycanda olan neftin çıxarılması və emalının sürətləndirilməsi üçün üç ildir ki, xarici neft şirkətləri ilə danışıqlar aparılır. Bu yaxınlarda AMOKO Neft Şirkətinin rəhbəri ilə görüşümdə o, müqavilələrin Gecikməsindən narazılığını bildirdi. Bəlkə də üç il belə danışıqların aparılması üçün çoxdur. Lakin 7 müqavilə 30 il müddətinə bağlanılır. Gələcəkdə Azərbaycan dövlətinin iqtisadi inkişafı və onun vətəndaşlarının maddi rifahı bu müqavilədən çox asılı olduğu üçün bizim səhv etməyə haqqımız yoxdur. Ona görə də biz əmin olmalıyıq ki, bu müqavilələr Azərbaycan dövlətinin və Azərbaycan xalqının mənafeyinə uyğundur. Mən bu barədəki fikirlərimi AMOKO Neft Şirkətinin prezidenti Robert Blantona da açıq şəkildə bəyan etdim. Xatirinizdədirsə, 1993-cü ilin I yarısında xarici neft şirkətləri ilə müqavilə bağlamaq üçün layihələr hazır idi. Lakin biz bu müqavilələrin Azərbaycanın mənafeyinə cavab verib-vermədiyini yoxlamağı qərara aldıq. Düzdür, bu qərarımıza heç də maraqlı olan tərəflərin hamısı birmənalı yanaşmadılar. Açıq şəkildə narazılıqlarını bildirənlər də oldu. Bunun üçün də biz müstəqil ekspertlərə və öz mütəxəssislərimizə bu layihələrin öyrənməsini təklif etdik. Məlum oldu ki, bu layihələrdə Azərbaycanım iqtisadi mənafeyi tam nəzərə alınmayıb. Söz-söhbətlərə son qoymaq uçün xarici firmaların rəhbərlərini və həmin ölkələrin səfirlərini qəbul etdim. Xatirinizdədirsə, mən onlara da bəyan etdim ki, Azərbaycan dövləti xarici neft şirkətləri ilə əməkdaşlığı davam etdirmək niyyətindədir. Bir şərtlə ki, bu əməkdaşlıq hər iki tərəfin mənafeyinə cavab versin. Bu gün mənim sizinlə görüşməyimin əsas səbəbi də budur ki, hazırlanan layihələr barədə siz öz təklif və fikirlərinizi burda açıq şəkildə bildirəsiniz.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

XALQ ARTİSTİ, KİNOREJİSSOR
TOFİQ MEHDİ OĞLU TAĞIZADƏYƏ

Hörmətli Tofiq Mehdi oğlu!

Sizi - Azərbaycanın ən görkəmli, istedadlı, işgüzar kino xadimlərindən birini 75 illik yubileyiniz münasibətilə təbrik edirəm.

Milli kino sənətimizin zəngin xəzinəsinə daxil olmuş "Uzaq sahillərdə", "Yeddi oğul istərəm", "Görüş" filmləriniz tamaşaçıların dərin rəğbətini qazanmışdır. Yüksək peşəkarlığınız, geniş dünyagörüşünüz, özünəməxsus dəstxəttiniz sizi Azərbaycan mədəniyyət və incəsənətinin ön sıralarına çıxarmışdır.

Ömrünüzün bu əzəmətli günlərində sizə - xalqımızın görkəmli sənət ustadına möhkəm cansağlığı və böyük uğurlar arzulayıram.

HEYDƏR ƏLİYEV

7 fevral 1994-cü il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İSTƏRDİK Kİ, YAXŞI MÜTƏXƏSSİS OLUB VƏTƏNİMİZƏ, XALQIMIZA, MİLLƏTİMİZƏ GƏLƏCƏKDƏ SƏDAQƏTLƏ XİDMƏT EDƏSİNİZ

TÜRKİYƏNİN ALİ MƏKTƏBLƏRİNDƏ TƏHSİL ALMAĞA YOLA DÜŞƏN AZƏRBAYCANLI TƏLƏBƏLƏRLƏ GÖRÜŞDƏ ÇIXIŞ

7 fevral 1994-cü il

Əziz tələbələr!

Öncə sizin hamınızı həyatınızda yeni böyük hadisə Türkiyə universitetlərinə qəbul olunmağınız münasibətilə təbrik edirəm, sizə gələcək həyatınızda, ali təhsil almaqda uğurlar arzulayıram.

Hər bir gənc üçün ali məktəbdə təhsil almaq böyük xoşbəxtlikdir. Şübhəsiz ki, bu, hər kəsə müyəssər olmur. Ancaq siz öz biliyinizlə, öz zəkanızla buna nail olmusunuz. Türkiyə universitetlərinə qəbul edilmisiniz və orada təhsil almağa yola düşürsünüz. Mən sizə uğurlu yol arzulayıram. İstərdim ki, siz Türkiyə universitetlərinin bütün intellektual imkanlarından səmərəli istifadə edərək mükəmməl təhsil alasınız, yaxşı mütəxəssis olasınız, vətənimizə, xalqımıza, millətimizə gələcəkdə sədaqətlə xidmət edəsiniz.

Türkiyə Azərbaycan üçün qardaş, dost ölkədir. Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin qədim və zəngin tarixi var. İndi Azərbaycan Respublikası bir müstəqil dövlət kimi Türkiyə Cümhuriyyəti ilə bütün sahələrdə əlaqələrin inkişaf etdirilməsinə çalışır. Odur ki, bu baxımdan biz təhsil sahəsinə xüsusi əhəmiyyət veririk. Elm, mədəniyyət, təhsil sahəsində Türkiyə ilə Azərbaycan arasında müştərək işlər görülməsi həm Azərbaycan üçün, həm də Türkiyə üçün çox faydalıdır. Bu barədə bizim müvafiq sazişlərimiz var. Gələcəkdə onların daha yüksək səviyyəyə qaldırılması üçün lazımi addımlar atırıq və bundan sonra da atacağıq.

Türkiyə universitetləri öz yüksək səviyyəsinə görə dünyada məşhurdur. Buna görə də həmin universitetlərdə təhsil almaq, şübhəsiz, yüksək səviyyəli mütəxəssis olmağa imkan verir. Mən çox arzulayardım ki, siz bu imkandan olduqca səmərəli istifadə edəsiniz və Türkiyədə universitetlərin bütün imkanlarından geniş faydalanasınız. Əminəm ki, məhz belə də olacaqdır. Böyük müsabiqədən keçərək Türkiyə universitetlərinin tələbəsi adını almaq sizin üçün asan olmamışdır. Ancaq siz bu sınaqlardan məharətlə çıx-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dınız və indiki mərhələyə gəlib çatdınız. Ümidvaram ki, qarşıdakı mərhələləri də müvəffəqiyyətlə keçəcəksiniz.

Siz eyni zamanda Türkiyədə Azərbaycanın təmsilçiləri olacaqsınız. Azərbaycandan Türkiyəyə gedən hər bir vətəndaş gərək müstəqil respublikamızın vətəndaşı adını uca tutsun. Azərbaycan vətəndaşı olmaq böyük şərəfdir. İstərdik ki, hər biriniz bu şərəfə layiq olasınız.

Türkiyə qardaş ölkədir. Odur ki, Türkiyədə siz özünüzü öz məmləkətinizdəki kimi hiss edəcəksiniz. Lakin bununla yanaşı, siz gərək Azərbaycanın təmsilçiləri kimi, Türkiyədə Azərbaycanın həm tarixini, həm milli ənənələrini, həm də bugünkü gerçəkliyini geniş və tam obyektiv şəkildə təbliğ edəsiniz və bunları türk ictimaiyyətinə, sizi əhatə edəcək adamlara, tələbə yoldaşlarınıza, universitetlərdə təmasda olacağınız şəxslərə çatdırasınız. Bizim dostluq, qardaşlıq əlaqələrimiz nə qədər möhkəm olsa da, bu əlaqələri genişləndirmək, dərinləşdirmək və yüksəltmək üçün görüləsi işlər də hələ çoxdur. Bu işlərin bir qismi də sizin üzərinizə düşür. Güman edirəm ki, təhsil almaqla yanaşı, bu vəzifəni də layiqincə yerinə yetirəcəksiniz.

Şübhə etmirəm ki, siz ali təhsil aldıqdan sonra ölkəmizə qayıdacaq, respublikamızın müxtəlif sahələrində çalışacaq və xalqımıza sədaqətlə xidmət edəcəksiniz. Bilməlisiniz ki, siz Azərbaycan gənclərinin bir hissəsi olaraq, eyni zamanda imtiyazlı imkanlar əldə edirsiniz. Azərbaycan gəncləri indi, ölkənin həyatının bu çətin və mürəkkəb dövründə, nə gizlədəsən, ağır həyat keçirirlər. Onların böyük bir hissəsi torpaqlarımızı erməni işğalçılarından qorumaq üçün, işğal olunmuş ərazilərimizi azad etmək üçün cəbhələrdə vuruşur, şəhid olur, müstəqil Azərbaycanın ərazi bütövlüyünü təmin etmək, müstəqilliyini möhkəmləndirmək üçün canlarından keçirlər. Onlar sizin qardaşlarınızdır. Unutmayın ki, qanı tökülən, döyüşlərlə qəhrəmanlıq göstərən o gənclər müstəqil Azərbaycanın tərəqqisi və inkişafı uğrunda vuruşur və şəhid olurlar. Siz bunu da unutmamalısınız. Bilməlisiniz ki, sizə belə bir şərait yaradıldığı halda bu şəraitdən maksimum faydalı, maksimum səmərəli istifadə etməli və məmləkətimiz üçün, ölkəmiz üçün gələcəkdə faydalı olmalısınız.

Güman edirəm ki, Türkiyə universitetlərinlə təhsiliniz dövründə sizin fəaliyyətiniz həm də Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqədərinin daha da möhkəmlənməsinə kömək göstərəcəkdir. Türkiyədə Azərbaycanı doğru-düzgün təmsil etmək lazımdır, Azərbaycanın bugünkü həyatı haqqında həqiqətləri Türkiyəyə çatdırmaq, bu barədə dost ölkədə obyektiv məlumat vermək lazımdır. İndi bunlara ehtiyac var. Çünki təəssüflər olsun ki, bəzi qüvvələr Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələrinə, xalqlarımız arasındakı mehriban və səmimi əlaqələrə öz şəxsi məqsədləri üçün müəyyən qədər zərər vurmağa çalışır və cürbəcür şayiələrlə, müxtəlif böhtanlarla bu əlaqələri ləkələməyə can atırlar. Hər bir Azərbaycan vətəndaşı, o cümlədən də siz bilməlisiniz ki, Azərbaycan Respublikası bun-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dan sonra müstəqil dövlət kimi inkişaf edəcək, onun müstəqilliyini Azərbaycan dövləti qoruyub saxlayacaqdır. Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi hər bir vətəndaş üçün, o cümlədən bizim üçün və şəxsən mənim üçün ən müqəddəs vəzifədir.

Mənə belə gəlir ki, Azərbaycanın həyatı ilə bağlı gerçəkliyi Türkiyədə hər bir vətəndaşa çatdırmaq da Türkiyə ilə Azərbaycan arasında olan dostluq əlaqələrinə kömək edəcəkdir. İstər hazırda orada oxuyan tələbələrin, istərsə də indi oxumağa gedənlərin hamısı bilməlidir ki, Azərbaycan müstəqillik, demokratiya yolu ilə irəliləyir, respublikamızda demokratik hüquqi dövlət, demokratik hüquqi cəmiyyət yaradılır, Azərbaycanın İqtisadiyyatı bundan sonra sərbəst İqtisadiyyat prinsipləri əsasında qurulacaq və xalqımız müstəqilliyini heç vaxt əldən verməyəcəkdir. Buna həm siz, həm indi Türkiyədə təhsil alan vətəndaşlarımız, həm də türk xalqı əmin olmalıdırlar.

Mən bu sözləri sizə xüsusi olaraq çatdırmaq istəyirəm, çünki indi bizim Türkiyədə təhsil alan, yaxud müəyyən sahələrdə işləyən bəzi adamlarımız Azərbaycanla Türkiyə arasında münasibətlərin pozulmasına, təəssüflər olsun ki, düşmənlərimizdən də çox çalışırlar. Siz isə, bunun əksinə olaraq, öz fəaliyyətinizi Azərbaycan Türkiyə münasibətlərinin, xalqlarımız arasında dostluğun möhkəmlənməsinə yönəltməlisiniz və əminəm ki, belə də olacaqdır.

Şübhə etmirəm ki, siz göstərilən bu etimada layiq olacaqsınız. Sizin orada təhsil almağınız üçün hər nə lazımdırsa, hamısını edəcəyik. Bu sarıdan narahat olmayın. Təhsil nazirimiz, digər əlaqədar şəxslərimiz, Prezident Aparatının müvafiq şöbəsi bu işlə məşğul olub, təkliflərini mənə çatdıracaqlar.

Sizə bir daha cansağlığı arzulayıram. Siz hələ gəncsiniz, qarşıda sizi uzun bir yol gözləyir. Arzum budur ki, bu yolu uğurla keçəsiniz. Ümidvar olduğumu bildirmək istəyirəm ki, siz Türkiyədə Azərbaycanı layiqincə təmsil edəcək, ali təhsil alacaq və qayıtdıqdan sonra vətənimizə, xalqımıza sədaqətlə, yorulmadan xidmət edəcəksiniz.

Sağ olun, yaxşı yol. Sizə uğurlar olsun.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İSTANBUL BEYNƏLXALQ "SÜLH VƏ SƏBR" KONFRANSININ İŞTİRAKÇILARINA

Möhtərəm konfrans iştirakçıları!

Ayrı-ayrı bölgələrdə millətlərarası münaqişələrin gücləndiyi, xalqların qarşı-qarşıya qoyulduğu narahat zəmanəmizdə bütün sülhsevər qüvvələrin, xüsusilə də din xadimlərinin bir araya gəlməsi, dünyada barışıq və əmin-amanlıq üçün səy göstərməsi təqdirəlayiq hadisədir. Adamları humanizmə, şəfqətə, nəcibliyə, yüksək mənəvi dəyərlərə səsləyən dinlərin bəşər tarixində rolu əvəzsizdir. Silahların danışdığı, Uca Tanrının günahsız bəndələrinin acı məhrumiyyətlərə düçar olduğu bir vaxtda insanlara dözümlülük, mərhəmət və qarşılıqlı hörmət duyğuları təlqin edən Müqəddəs Allah kəlamlarına dünyamızın böyük ehtiyacı var. Bəşəriyyət üçün sülhə, barışığa nail olmağın yolu Tanrı nuruna tapınmaqdan, mənəvi, ruhani kamillikdən keçib gedir.

Ümidvar olduğumu bildirmək istəyirəm ki, toplantınız xalqlar arasında sülhün, dinc və mehriban qonşuluq münasibətlərinin bərqərar olmasında öz təsirli sözünü deyəcəkdir.

Konfrans iştirakçılarını səmimqəlbdən salamlayır və qarşıya qoyduğunuz xeyirxah məqsəllərin gerçəkləşməsi naminə hamınıza uğurlar diləyirəm.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının prezidenti
Bakı şəhəri,

7 fevral 1994-cü il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

TÜRKİYƏ CÜMHURİYYƏTİNƏ RƏSMİ SƏFƏRƏ YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ

8 fevral 1994-cü il

- Cənab prezident, sizə uğurlu yol arzulayırıq. Siz hakimiyyətdə olduğunuz müddətdə üçüncü dəfədir ki, xarici ölkələrə rəsmi görüşə gedirsiniz. Azərbaycan xalqı sizin hər bir səfərinizə böyük ümidlər bəsləyir. Qarşıdakı səfər barəsində nə deyə bilərsiniz?

- Mən Türkiyəyə bu qardaş dövlətin prezidenti hörmətli Süleyman Dəmirəlin, Türkiyə hökumətinin dəvəti ilə gedirəm. Türkiyə Azərbaycan üçün ən yaxın, qardaş və dost ölkədir. Xalqlarımız arasında böyük tarixə malik dostluq, qardaşlıq əlaqələri var. Son illər Azərbaycan müstəqillik əldə etdikdən sonra bu əlaqələr daha da möhkəmlənmişdir. Lakin görüləsi işlər də çoxdur. Güman edirəm ki, Türkiyədə olduğumuz zaman Azərbaycan ilə Türkiyə arasındakı əlaqələrin genişlənməsi, inkişaf etməsi üçün yeni işlər görüləcəkdir. Bu isə həm Azərbaycan Respublikası üçün, həm də Türkiyə Cümhuriyyəti üçün faydalı olacaqdır. Mən Türkiyəyə çox böyük məmnunluq hissi ilə yola düşürəm. Ümidvaram ki, danışıqlarımız uğurlu olacaqdır.

- Möhtərəm prezident, siz Ermənistanla Azərbaycan arasında münaqişənin sülh yolu ilə aradan qaldırılmasına həmişə tərəfdar olmusunuz. Üstəlik, istər Rusiyanın, istərsə də Türkiyənin vasitəçiliyinin heç vaxt əleyhinə çıxmamısınız, əksinə, buna tərəfdar olmusunuz. Qarşıdakı səfəriniz zamanı Türkiyənin vasitəçiliyi məsələsi qaldırılacaqmı? Bu məsələ yüksək səviyyədə həll ediləcəkmi?

- Şübhəsiz ki, mən bu məsələnin sülh yolu ilə, barışıq yolu ilə həll edilməsinin tərəfdarıyam. Mən bu mövqeyi indi də müdafiə edirəm. Vaxtilə ABŞ, Rusiya ilə birlikdə Türkiyə də bu məsələyə dair dəyərli bir təşəbbüs irəli sürmüşdür. Amma, təəssüflər olsun ki, indiyədək bu təşəbbüs həyata keçirilməmişdir. Odur ki, qarşıdakı görüşlər, danışıqlar zamanı həmin təşəbbüsün həyata keçirilməsi üçün imkan düşərsə bu, Azərbaycan üçün çox faydalı olacaqdır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

TÜRKİYƏ CÜMHURİYYƏTİ PREZİDENTİNİN İQAMƏTGAHI "ÇANKAYA" KÖŞKÜNDƏ RƏSMİ QARŞILANMA MƏRASİMİNDƏ NİTQ

8 fevral 1994-cü il

Hörmətli prezident, əziz dostum və qardaşım Süleyman Dəmirəl!

Türkiyədəki hörmətli dostlarımız və qardaşlarımız!

Mən bu gün bir daha Türkiyə torpağına qədəm basmağıma, Türkiyə torpağında olmağıma görə özümü çox xoşbəxt hesab edirəm. Dostum və qardaşım Türkiyənin prezidenti Süleyman Dəmirəl məni Türkiyəyə rəsmi səfərə dəvət etdiyinə görə təşəkkürümü bildirirəm.

Bizim ölkələrimiz - Türkiyə Cümhuriyyəti və Azərbaycan Respublikası dost və qardaş ölkələrdir. Xalqlarımızın birliyi, qardaşlığı və dostluğu əsrlərdən əsrlərə keçərək formalaşmış və bu gün özünün yeni mərhələsinə çatmışdır.

İndi Azərbaycan Respublikası müstəqil dövlətdir və müstəqil dövlət olaraq öz ölkəsinin, xalqının, öz sərvətlərinin sahibidir. Azərbaycan Respublikasının müstəqilliyini dünya ölkələri arasında ilk dəfə Türkiyə tanımışdır. Bu isə o vaxt Azərbaycanın dünya dövlətləri, dünya birliyi tərəfindən tanınmasında çox böyük addım olmuşdur.

Türkiyə ilə Azərbaycan arasında son illər çox faydalı əməkdaşlıq mövcuddur, əlaqələr gündən-günə inkişaf edir. Yeni doğulmuş müstəqil Azərbaycan dövləti Türkiyənin köməyini, yardımını, qayğısını daim hiss edir. Fürsətdən istifadə edib, bütün bunlara görə Azərbaycan xalqı adından, Azərbaycan Respublikası adından, öz adımdan Türkiyə xalqına, Türkiyədəki qardaşlarımıza, dostlarımıza, Türkiyə Cümhuriyyətinə və Türkiyənin prezidenti hörmətli Süleyman Dəmirələ minnətdarlığımızı və təşəkkürümüzü bildirirəm.

Azərbaycan müstəqil dövlət kimi indi ilk addımlarını atır. Respublikamızın qarşısınla böyük problemlər var. Azərbaycan öz müstəqilliyini çətin yollarla qurub-yaradır. Azərbaycanda demokratik dövlət, hüquqi demokratik cəmiyyət qurmaq prosesi çox əzmlə inkişaf edir. Bu çətin və ağır dövrdə Türkiyənin köməyinə həmişə ehtiyacımız olub. Bu köməyi həmişə almışıq. Türkiyə ilə Azərbaycan arasında olan əlaqədər tam dostluq və qardaşlıq əlaqələridir və bundan sonra da qırılmazdır, sarsılmazdır.

Azərbaycan xalqının, gənc Azərbaycan Respublikasının qarşısında duran ən böyük problem Azərbaycanı erməni təcavüzündən xilas etməkdir. Bildiyiniz kimi, altı ilə yaxındır ki, Azərbaycan Respublikası Ermənistan tərəfindən təcavüzə məruz qalmışdır. Bu dövrdə Azərbaycan torpaqlarının bir qismi erməni

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. Bunun bəzi subyektiv və obyektiv cəhətləri vardır. Ancaq Azərbaycan xalqı yaxşı bilir ki, bütün bu illərdə Azərbaycanı müdafiə etmək üçün Türkiyənin səsi çox gur gəlib. Türkiyənin köməyi Azərbaycana mənəvi dayaq olub. Biz bu mənəvi yardımdan, köməkdən bu gün də istifadə edirik.

Azərbaycan Respublikası sülhsevər siyasət aparır, o cümlədən qonşuları barəsində sülhsevər siyasət yeridir. Ermənistanla olan bu müharibəyə də son qoymaq, xalqımızı bu müharibədən xilas etmək istəyirik. Ona görə də bütün addımlarımız müharibəyə birinci növbədə sülh yolu ilə, barışıq yolu ilə, danışıqlar yolu ilə son qoymağa, Azərbaycan torpaqlarını xilas etməyə xidmət edir. Bu yolda biz çox addımlar atmışıq, bu gün də atırıq. Beynəlxalq təşkilatların köməyinə ümid bəsləmişik, bu gün də ümid bəsləyirik. O cümlədən ATƏM-in Minsk qrupunun köməyinə, yardımına ümid bəsləmişik, bu gün də ümid bəsləyirik. Böyük dövlətlərin təşəbbüslərinə həmişə inanmışıq, bu gün də inanırıq. Məlumdur ki, bir neçə vaxt bundan əvvəl ABŞ, Türkiyə və Rusiya Azərbaycanla Ermənistan arasında olan müharibəni bitirmək üçün, süni surətlə yaradılmış "Qarabağ problemi"ni həll etmək üçün təşəbbüs irəli sürmüşdülər. Biz bu təşəbbüsləri də alqışlamışıq, bəyənmişik və onların həyata keçirilməsinə çalışmışıq. Biz bu gün də beynəlxalq təşkilatların köməyi ilə, böyük dövlətlərin o cümlədən bizim dostumuz və qardaşımız Türkiyə Cümhuriyyətinin köməyi ilə bu məsələlərin sülhlə həll olunması yolundayıq.

Ancaq indi Azərbaycan Respublikasının ordusu formalaşmaqdadır. Xalqımızda vətənpərvərlik ruhu yüksəlib, formalaşıb. İndi ordumuz, Azərbaycan vətəndaşları öz torpaqlarının müdafiəsi üçün qanlı döyüşlər aparırlar. Bizim başqa bir dövlətdən torpaq iddiamız yoxdur. O cümlədən Ermənistana da indi bir torpaq iddiamız yoxdur. Baxmayaraq ki, tarixən bizim torpaqlarımızın bir qismi Ermənistanın əlinə keçib. Biz indi ancaq Azərbaycan Respublikasının BMT tərəfindən qəbul olunmuş, təsdiq olunmuş hüdudları çərçivəsində onun ərazisinin bütövlüyünü təmin etmək istəyirik.

İndi müharibə Azərbaycan torpağında gedir. Erməni silahlı qüvvələri, işğalçılar Azərbaycan torpağındadırlar. Biz onların Azərbaycan ərazisindən çıxarılması, torpaqlarımızın işğalçılardan azad olunması üçün ədalətli müharibə aparırıq, döyüşlər aparırıq. Bildiyiniz kimi, artıq bu döyüşlərlə Azərbaycan xalqı, ordumuz cəsarət və qəhrəmanlıq göstərir, sizi əmin edirəm ki, bundan sonra da göstərəcəkdir. Bu məsələnin həll olunmasında biz sülh yolunu əsas tutaraq, torpaqlarımızın müdafiəsi uğrunda ədalətli müharibə aparırıq.

Dost və qardaş Türkiyə Cumhuriyyəti ilə, qardaşlarımızla görüşüb danışıqlar, məsləhətləşmələr aparmağa daim ehtiyacımız olub. Güman edirəm ki, bu səfər, ziyarət vaxtı danışıqlarımızda da Türkiyə ilə Azərbaycan arasında iqtisadi, ticarət, elmi-texniki, təhsil, humanitar və başqa sahələrdə əlaqələr yaratmaq barədə danışıqlar gedəcəkdir. Biz istərdik ki, bu əlaqələr

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

daha da genişlənsin, inkişaf etsin və dərinləşsin. Şübhəsiz ki Azərbaycan torpaqlarına erməni təcavüzü haqqında məsələni də burada müzakirə etmək fikrindəyik. Bu barədə Türkiyə Cümhuriyyəti rəhbərlərinin məsləhətlərinə, onların sözlərinə ehtiyacımız vardır.

Əziz dostum və qardaşım Süleyman bəy, məni bura dəvət etdiyinizə görə Sizə bir daha təşəkkürümü bildirirəm. Türk dostlarımızın hamısına Azərbaycan xalqından səmimi salamlar, xalqımızın məhəbbətini, hörmətini çatdırıram.

Sağ olun, bütün işlərinizdə sizə uğurlar diləyirəm.

ANKARADAKI "ANITKABIR" MƏQBƏRƏSİNDƏ TÜRKİYƏ CÜMHURİYYƏTİNİN BANİSİ, GÖRKƏMLİ SİYASI VƏ İCTİMAİ XADİM MUSTAFA KAMAL ATATÜRKÜN MƏZARINI ZİYARƏT ETDİKDƏN SONRA XATİRƏ KİTABINA YAZDIĞI ÜRƏK SÖZLƏRİ:

"*Türk dünyasının əvəzsiz şəxsiyyəti, böyük öndər, dahi Mustafa Kamal Atatürkün məzarı önündə, onun ruhu qarşısında hörmətlə baş əyirəm, ona Azərbaycan xalqının hədsiz məhəbbət və ehtiramını ifadə edirəm.*

Unudulmaz Atatürkün müqəddəs adı, solmayan siması min illərdən gələn Türkiyə və Azərbaycan dostluğunun və qardaşlığının gələcək yoluna parlaq işıq saçır.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

8 fevral 1994-cü il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ANKARADA "ÇANKAYA" KÖŞKÜNDƏ AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ ZİYAFƏTDƏ NİTQ

8 fevral 1994-cü il

Çox hörmətli prezident Süleyman Dəmirəl!

Çox hörmətli Nəzmiyyə xanım!

Hörmətli qonaqlar, dostlar!

Mənim əziz dostum, qardaşım Süleyman bəy, Sizə və bu salonda toplaşan bütün qonaqlara müraciət edirəm. Məni Türkiyəyə rəsmi dəvət etdiyinizə görə və buraya gəlməyim münasibətilə mənə göstərdiyiniz hörmət və ehtirama görə Sizə dərin təşəkkürümü bildirirəm. Çox sağ olun! Bu, uzun illər aramızda olan dostluq və qardaşlıq əlaqələrinin yeni bir nümayişidir.

Hörmətli Süleyman Dəmirəl Türk dünyasının böyük şəxsiyyətidir, bütün dünya siyasətçiləri içərisində tanınmış və çox hörmət qazanmış şəxsiyyətdir. Mən çox xoşbəxtəm ki, iyirmi beş il öncə hörmətli Süleyman Dəmirəllə ilk dəfə tanış olmuşam. Bizim aramızda dostluq və qardaşlıq əlaqələri yaranmışdır. Ötən müddətdə bu əlaqələr qırılmamış, pozulmamışdır. Nəhayət, Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra bu dostluq və qardaşlıq əlaqələrinin daha da genişlənməsi üçün çox böyük imkanlar yaranmışdır.

Mənim əziz qardaşım Süleyman Dəmirəl Türkiyə Cümhuriyyəti, Türkiyə xalqı qarşısında böyük xidmətlər göstərmiş, böyük nufuz qazanmışdır. O, eyni zamanda Azərbaycan xalqının, Azərbaycan vətəndaşlarının hörmət və ehtiramını qazanmışdır. Hörmətli Süleyman Dəmirəl Azərbaycan Respublikasının istiqlalının əldə olunduğu vaxt böyük fəaliyyət göstərmiş və demək olar ki, ilk dəfə Azərbaycan Respublikasının müstəqilliyini bütün dünyada tanıtmaq üçün onun böyük xidmətləri olmuşdur. Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq və bu, Azərbaycanın tarixinə, "müstəqil Azərbaycan dövlətinin tarixinə artıq həkk olunmuşdur.

Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin qədim tarixi var. Biz, Süleyman bəyin dediyi kimi, iki ölkəyik, ancaq bir xalqıq. Əsrlər boyu nə qədər çətinliklər, nə qədər müharibələr, mücadilələr olmuşsa da, tarixi köklərimizin birliyi heç vaxt qırılmamışdır. Bu tellər daim bir-biri ilə bağlı olmuşdur. Ancaq elə illər olmuşdur ki, insanlar bir-birini görməyə, əlaqə saxlamağa həsrət qalmışlar. Lakin yenə də ümidlərini itirməmişlər.

1992-ci ildə hörmətli Süleyman bəylə biz Türkiyə ilə Azərbaycan arasında tikilmiş körpünün açılışında iştirak etdik. Xalqlar bu körpünü ümid körpüsü, həsrət körpüsü allandırlılar. Bu, təsadüfi deyil, çünki uzun illər, 70 il ərzində azərbaycanlı-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lar Türkiyədə olan qardaşları ilə əlaqələrdən məhrum olmuşdular və Türkiyəyə həmişə böyük həsrətlə, böyük ümidlə baxırdılar. Azərbaycan müstəqillik qazandıqdan sonra bu imkanlar yarandı. Ürəkdən-ürəyə olan körpülər daha da möhkəmləndi və ölkələrimiz arasında körpü salındı. Bu körpü həqiqətən ümid körpüsü, həsrət körpüsü kimi tarixə daxil oldu.

Xalqlarımızın qardaşlıq, dostluq əlaqələri, milli ənənələrin eyni kökdən olmaları bu gün bizim üçün həm örnəkdir, həm də indimiz və gələcəyimiz üçün çox böyük təməldir, əsasdır. İstiqlaliyyət qazanmış Azərbaycan öz müstəqilliyini möhkəmləndirmək, daimi etmək, əbədi etmək üçün çalışır və çarpışır. Bu işdə biz bütün dünya birliyinin yardımına, dünyanın ədalətli insanlarının yardımına möhtacıq. Eyni zamanda bu işlə Türkiyə Cümhuriyyəti, Türkiyə xalqı ilə əlaqələrin Azərbaycan xalqı üçün, müstəqil Azərbaycan Respublikası üçün çox böyük əhəmiyyəti var və biz buna böyük ümid bəsləyirik.

Bizim indiki görüşlərimiz son illərdə Azərbaycan ilə Türkiyə arasında yaranmış əlaqələrin davamıdır. Böyük iftixar hissi ilə, böyük məmnuniyyətlə demək olar ki, 70 il bir-birindən ayrı düşmüş xalqlarımız qısa müddətdə bir-birinə qovuşdu, bir-birini qucaqladı və sanki bu 70 ildə ayrılıq heç olmamışdır. Ürəklərdən ürəklərə olan hisslər dövlətlər arasında əlaqələrə çevrildi və ötən illərdə bu sahədə çox iş görüldü. Indi bizim qarşımızda bu işləri daha sürətlə davam etdirmək, əlaqələrimizi daha da genişləndirmək, dərinləşdirmək vəzifəsi durur. Bu məqsədlə də mən hörmətli Süleyman Dəmirəlin dəvətini qəbul etdim və böyük bir heyətlə Sizin yanınıza, Türkiyəyə gəldik, Ankara torpağına endik. Böyük iftixar hissi ilə, qəlbimdəki böyük çırpıntılarla demək istəyirəm ki, mən də, mənimlə gəlmiş azərbaycanlılar da burada özümüzü öz məmləkətimizlə, öz evimizdə hiss edirik. Biz belə hesab etmirik ki, yabançı ölkəyə, xarici ölkəyə gəlmişik. Biz qardaşımızın evinə gəlmişik və bu ölkələ özümüzü tam sərbəst və son dərəcə bəxtiyar hiss edirik.

İndiyədək yaranmış əlaqələri yüksək qiymətləndirərək, eyni zamanda gələcək işlərimiz haqqında da çox düşünürük. Bu gün hörmətli prezident Süleyman Dəmirəllə, hörmətli baş nazir Tansu Çillərlə və başqa rəsmi şəxslərlə danışıqlarımızda məhz bu məsələləri müzakirə etdik və güman edirəm ki, sabah respublikalarımızın, dövlətlərimizin, xalqlarımızıı arasında əlaqələrin gələcək inkişafı üçün yeni müqavilələr, sənədlər, anlaşmalar imzalanacaq və beləliklə də əlaqələrimizin yeni morhələsi, yeni səhifəsi açılacaqdır.

İndiyədək Türkiyənin Azərbaycan xalqına, müstəqil Azərbaycan Respublikasına etdiyi yardımlara görə mən bütün Azərbaycan xalqı adından Türkiyə xalqına, Türkiyə Cümhuriyyətinə və Türkiyənin prezidenti hörmətli Süleyman Dəmirələ minnətdarlığımı, təşəkkürümü bildirirəm. Eyni zamanda, ümidvar olduğumu bildirmək istəyirəm ki, bundan sonrakı köməklər, yardımlar daha yüksək səviyyədə, daha da çox olacaqdır. Xalqlarımızın belə bir məsəli par: uman yerdən küsərlər. Yəni bir yerdən umursansa, oradan kömək

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

gözləyirsən. Ummadığın yerdən isə kömək gözləməyin də əhəmiyyəti yoxdur. Biz bu hisslərlə, bu fikirlərlə Sizin yanınıza gəlmişik və güman edirik ki, bizi düzgün başa düşəcəksiniz.

Türkiyə Cümhuriyyətinin böyük tarixi var. Böyük öndər, dahi Mustafa Kamal Atatürk 70 il bundan öncə indiki böyük, demokratik Türkiyənin əsasını qoymuş, böyük dövlət yaratmışdır. Sonra gələn nəsillər onun işini davam etdirərək Türkiyəni bütün dünyada nüfuzlu, əzəmətli bir dövlətə çevirmişlər.

Yeni Azərbaycan, yəni müstəqil Azərbaycan gənc bir dövlətdir. Şübhəsiz ki, onun öz qardaşına, dostuna böyük nailiyyətlər əldə etmiş qardaşına və dostuna böyük ehtiyacı var. Şübhə etmirəm ki, qardaş, dost bu köməyi göstərməkdən geri çəkilməyəcək. Mən bu arzularla sabah danışıqlarımızın davamını gözləyirəm, yeni müqavilələrin imzalanmasını gözləyirəm.

Eyni zamanda bilməlisiniz ki, Azərbaycan öz müstəqilliyini bundan sonra heç vaxt əldən verməyəcək, müstəqil dövlət kimi yaşayacaq və inkişaf edəcəkdir. Bu o deməkdir ki, keçmişdə qırılmış əlaqələrimiz indən belə heç vaxt qırılmayacaq, sarsılmayacaqdır. Azərbaycanın qarşısında duran əsas problem, hörmətli prezident Süleyman bəyin dediyi kimi, erməni işğalçılarının qarşısını almaq, onların qəsb etdikləri torpaqlarımızı azad etmək, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək, bütün Azərbaycan vətəndaşlarının hər birinin öz evində, obasında, kəndində yaşamasına şərait yaratmaqdır. Azərbaycanda bir milyondan artıq qaçqın var. Onlar ağır şəraitdə yaşayırlar, ancaq dözürlər. Çünki bilirlər ki, onlar indi öz torpaqlarının, öz dövlətinin sahibidirlər. Bizim isə borcumuz bunların hamısını yerinə yetirməkdir.

Əmin ola bilərsiniz ki, biz erməni işğalçılarını öz torpaqlarımızdan qovmaq üçün əlimizdən gələni əsirgəməyəcəyik. Şübhəsiz ki, biz bundan sonra da sülh, barışıq yolu ilə, danışıqlar yolu ilə məsələni həll edib erməni işğalçılarının Azərbaycan torpaqlarından çıxmasına çalışacağıq. Eyni zamanda öz gücümüzü toplayaraq, ordumuzu möhkəmləndirərək torpaqlarımızı özümüz qoruyacağıq. Azərbaycan xalqı buna qadirdir. Çünki Azərbaycan xalqının qəhrəman keçmişi var, azadlıq, müstəqillik uğrunda çoxəsrlik mübarizə tarixi var. Xalqımız ona görə əmindir ki, Türkiyə kimi yaxın dostumuz, qardaşımız, dayağımız var. Sizi əmin edirəm ki, Azərbaycan xalqı bu dostluğa, qardaşlığa daim sadiq qalacaqdır.

Əziz dostum, qardaşım Süleyman bəy! Bu hörmət və ehtirama görə Sizə bir daha təşəkkür edir və buraya toplaşan qonaqların hamısını dəvət edirəm ki, Böyük Türkiyə Cümhuriyyətinin şərəfinə, böyük türk xalqının şərəfinə, Azərbaycan - Türkiyə dostluğunun, qardaşlığının şərəfinə, əziz dostum və qardaşım, Türkiyənin prezidenti hörmətli Süleyman Dəmirəlin və onun xanımı Nəzmiyyə xanımın şərəfinə, bütün qonaqların şərəfinə, bütün türk qardaşlarımızın şərəfinə badə qaldıraq.

Sağ olun, xoşbəxt olun! Sizə bundan sonra daha da xoşbəxt günlər, xoşbəxt həyat arzulayıram. Sizin şərəfinizə!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNDƏ ÇIXIŞ

9 fevral 1994-cü il

Bu gün məni Türkiyənin Böyük Millət Məclisinə dəvət etdiyinizə görə, Məclisə müraciət etməyimə imkan yaratdığınıza görə hamınıza minnətdarlığımı və təşəkkürümü bildirirəm. Türkiyə xalqı tərəfindən seçilmiş millət vəkilləri, xalq elçiləri kimi sizə və sizin simanızda bütün Türkiyə xalqına Azərbaycan xalqından səmimi-qəlbdən gələn salamları, məhəbbəti, sevgini və hörməti bildirmək istəyirəm.

Böyük Millət Məclisinin zəngin bir tarixi var. Bu möhtəşəm salonda, sizin qarşınızda belə bir yüksək kürsüdən çıxış etmək mənim üçün tarixi bir hadisədir. Hələ gənc yaşlarımda kitablardan, qəzetlərdən Türkiyə haqqında, türk xalqı haqqında oxuyarkən Türkiyəyə həmişə həsrətlə baxır, ona böyük maraq göstərir, Böyük Millət Məclisinin işi barədə, onun qəbul etdiyi qərarlar barədə məlumatları həvəslə, diqqətlə oxuyurdum. Hər dəfə də düşünürdüm ki, bu mötəbər və nüfuzlu Böyük Millət Məclisi - türk xalqının həyatında dəyərli və diqqətəlayiq işlər görən bu məclis nə qədər də qüdrətli və nə qədər də məqsədyönlü siyasət aparan bir məclisdir. İndi mənə bu məclisə gəlmək, sizinlə görüşmək, sizin qarşınızda müraciətlə çıxış etmək xoşbəxtliyi nəsib olmuşdur. Buna görə çox böyük qürur hissi keçirirəm. Bu, mənim üçün böyük şərəfdir, böyük hörmətdir. Bu hörmətə, ehtirama görə bir daha sizə dərin minnətdarlığımı bildirirəm.

Türkiyə Cümhuriyyətinin 70 illik tarixi var. 70 il bundan öncə onun başçısı, dahi və böyük öndər Mustafa Kamal Atatürk bu Böyük Millət Məclisinin əsasını qoymuş, Türkiyə Cümhuriyyətini yaratmışdır. Onun qoyduğu təməl, bünövrə o qədər möhkəm, o qədər davamlı olmuşdur ki, 70 il ərzində türk xalqı, Türkiyə cəmiyyəti, Türkiyə dövləti bütün sınaqlardan çıxmışdır, indi də uğurla irəliləyir. Hazırda Türkiyə böyük bir dövlətdir. Türkiyənin dünya miqyasında böyük bir dövlət olmasına görə biz də iftixar hissi keçiririk.

Burada sizin qarşınızda çıxış edərək böyük insan, bütün türk dünyasının dahi şəxsiyyəti Mustafa Kamal Atatürkü bir daha ehtiramla yad edirəm, onun gördüyü işlərə, onun başladığı yola öz hörmət və ehtiramımı bildirirəm, onun xatirəsi qarşısında baş əyirəm.

Bizim üçün çox önəmli cəhət budur ki, Türkiyədə cümhuriyyətin yaranması, Türkiyənin bütün yabançı ölkələrin işğalından xilas edilməsi, istiqlal mücadiləsinin müvəffəqiyyətlə başa çatdırılması və Türkiyədə demokratik, dünyəvi bir dövlətin əsasının qoyulması 70 il bundan öncə olmuşdur. Türkiyə islam dövləti olsa

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

da, heç vaxt dünya demokratiyasından, Şərq aləmindən, islam aləmindən ayrı düşməmişdir. Bunun da əsasını, təməlini bizim öndərimiz unudulmaz Mustafa Kamal Atatürk qoymuşdur.

Biz Türkiyənin keçdiyi 70 illik yola böyük ehtiram və hörmətlə nəzər salırıq. Biz bunun da şahidiyik ki, Mustafa Kamal Atatürkün və onun silahdaşlarının qoyduqları yol 70 ildir davam etdirilir. Onlardan sonra gələn nəsillər Türkiyənin daha da inkişaf etməsi üçün, dünya miqyasında daha önəmli yer tutması üçün böyük işlər görmüşlər. Türkiyənin xüsusən son illərdə qazandığı nailiyyətlər bütün dünyanı heyran etmişdir. Bu baxımdan son illərdə, yəni bizim yaşadığımız dövrdə Türkiyənin böyük şəxsiyyəti, mərhum Turqut Özalın xidmətlərini qeyd etmək istərdim. Bu gün Türkiyənin prezidenti olan, ölkədə uzun illərdən bəri coşğun siyasi fəaliyyət göstərən hörmətli Süleyman Dəmirəlin də xüsusi xidmətlərini qeyd etmək istəyirəm.

Mən Türkiyəyə dəvət edildiyimə görə və dünəndən bəri burada çox səmərəli danışıqlar apardığımıza görə Türkiyə hökumətinə, prezident - hörmətli dostumuz, qardaşımız Süleyman Dəmirələ, Türkiyə Böyük Millət Məclisinin sədri hörmətli Hüsaməddin Cindoruqa, Türkiyənin baş naziri hörmətli Tansu Çillərə minnətdarlığımı bildirir və sizin qarşınızda demək istəyirəm ki, Türkiyənin bütün dövlət orqanları bu günlərdə Azərbaycana böyük hörmət və qayğı göstərirlər, Azərbaycanla Türkiyə arasında əlaqələrin sonra da inkişaf etməsi üçün var qüvvə ilə səy göstərirlər.

Türkiyə ilə Azərbaycan arasında əlaqələrin böyük tarixi var. Biz kökü bir olan xalqıq. Bizim tariximiz bir, dilimiz bir, dinimiz birdir. Əsrlər boyu xalqlarımız bir-birinə oxşayan, yaxud azca fərqlənən adət və ənənələrini, mədəniyyət və elmini qoruyub saxlamış və inkişaf etdirmişlər. Əsrlər boyu xalqlarımız bir olmuş, çiyin-çiyinə vermişlər, Azərbaycan ilə Türkiyə arasında əlaqələri dostluq, qardaşlıq əlaqələri adlandırmışlar. Bu əlaqələr bir xalqdan, bir kökdən gələn xalqların əlaqələridir. Bu, keçmişdə də belə olmuşdur və əlaqə saxlamağa imkanımız olmadığı vaxtlarda da qəlbimizlə məhz belə olmuşdur, indi də belə olaraq qalır. Ona görə də tariximiz, milli köklərimiz, adət və ənənələrimizin hamısı bizi bir-birimizə sıx bağlayıbdır. Əsrlər boyu tarixin bütün mərhələlərində bizi bir-birimizlən ayırmağa çox çalışsalar da, buna müvəffəq olmamışlar. Odur ki, bundan sonra da heç bir qüvvə bizi bir-birimizdən ayıra bilməyəcəkdir.

İndi Azərbaycan Respublikası müstəqil bir dövlətdir. XX əsrdə bütün dünya tarixində çox böyük dəyişikliklər baş vermişdir. O cümlədən də Azərbaycan xalqının həyatında. XX əsrin əvvəllərində Azərbaycanla bir neçə siyasi qüvvə, xüsusən Azərbaycanın milli azallığı naminə çarpışan qüvvələr olmuş, onlar Azərbaycanın müstəqilliyi, istiqlalı, milli azadlığı uğrunda mübarizə aparmışlar. O vaxtlar Azərbaycan ilə Türkiyə arasında əlaqələr sıx olmuşdur. Bütün bunların nəticəsində 1918-ci ildə Azərbaycanda ilk demokratik dövlət yaradılmışdır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Azərbaycan 200 il ərzində Rusiya imperatorluğunun tərkibində olmuşdur. Şübhəsiz ki, bu dövrdə Azərbaycanın həyatında keşməkeşli mərhələlər, hər cür çətinliklər olmuşdur. Qeyd etdiyim kimi nəhayət, 1918-ci ildə Azərbaycanla ilk demokratik cümhuriyyət yaradılmışdır. Əlbəttə, bu, tarixi proseslərin nəticəsi idi. Rusiya imperatorluğu dağılmış, Rusiya ərazisindəki xalqlar öz həyatını istədikləri kimi qurmağa çalışmışlar. Eləcə də Azərbaycan xalqı müstəqil dövlət qurmaq arzusunu həyata keçirməyə çalışmış və buna 1918-ci ildə nail olmuşdur. Bu müstəqil Azərbaycan Cümhuriyyəti iki il yaşamışdır. Həmin dövr çox ağır, zilliyyətli və çətin dövr olmuşdur. Əvəzində Azərbaycan xalqı ilk dəfə müstəqilliyin dadını görmüş, onda müstəqilliyə nail olmaq inamı yaranmışdı. Azərbaycan xalqı demokratik prinsiplər əsasınla dövlət qurmağa başlamışdı.

Həmin dövrdə, yəni xalqımız ilk demokratik dövlət qurduğu dövrdə Türkiyə Azərbaycanla bir olmuş, bərabər olmuş, Azərbaycana çox böyük kömək və yardım etmişdir. Bunu Azərbaycan xalqı heç vaxt unutmayıb və unutmayacaqdır. O vaxtlar xalqımız neçə-neçə düşmənin təcavüzünə məruz qalmışdı. Türk ordusunun Azərbaycana, Bakıya gəlməsi, Azərbaycanı daşnakların təcavüzündən xilas etməsi hər bir azərbaycanlının qəlbində yaşayır. Azərbaycan xalqı həmin ağır dövrdə türk xalqının ona göstərdiyi köməyi və yardımı heç vaxt unutmayacaqdır.

Bu dövlət süquta uğradı. O vaxtlar keçmiş Rusiya imperatorluğunun ərazisində Sovetlər İttifaqı yaradılmış, 70 il ərzində Azərbaycan bu İttifaqın tərkibində olmuşdur. Bu dövr haqqında da doğru-düzgün məlumat vermək və onu obyektiv qiymətləndirmək lazımdır. Şübhəsiz ki, Azərbaycan xalqının öz müstəqilliyini itirməsi ona böyük bir zərbə olmuşdur. Lakin tək Azərbaycan xalqı deyil, keçmiş Rusiya imperatorluğunun tərkibində olmuş bütün xalqlar Sovet İttifaqının tərkibinə daxil edilmiş, Sovetlər Birliyi tərəfindən ələ keçirilmişdi. Beləliklə, bütün keçmiş Rusiya imperatorluğunun ərazisində yeni ictimai-siyasi, iqtisadi quruluş yaranmışdı. Bu quruluşun, şübhəsiz, ziddiyyətli cəhətləri var idi. Biz bundan imtina etmişik. Onu da demək lazımdır ki, 70 il ərzində Azərbaycan xalqı öz milli mənliyini, dilini, hətta din yasaq olunsa la, dinini də itirməmişdir. Bu quruluşun imkanlarından istifadə edən Azərbaycan xalqı elmini, təhsilini, mədəniyyətini yüksək zirvələrə qaldırmışdır.

Bu da tam həqiqətdir ki, XX əsrdə Azərbaycan dünya mədəniyyətinə, dünya elminə böyük töhfələr vermişdir. Bizim böyük alimlər, yazıçılar, şairlər, memarlar, rəssamlar, bəstəkarlar, musiqiçilər Həm Azərbaycan xalqının elmini, mədəniyyətini, təhsilini zənginləşdirmiş, həm də bütün dünya mədəniyyətinə, elminə böyük töhfələr vermişlər. Bununla yanaşı, həmin dövrdə Azərbaycan Respublikasının, Azərbaycan xalqının ən böyük nailiyyətlərindən biri də bundan ibarətdir ki, onun bilik səviyyəsi yüksəlmiş, Azərbaycanda savadsızlıq ləğv edilmişdir. Respublika ərazisindəki bütün təhsil ocaqları xalqı savadlandırmaq, onun bilik sə-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

viyyəsini yüksəltmək üçün hər cür imkanlara malik olmuşdur. Bütün bunlar onu göstərir ki, hətta bizə uyğun olmayan və indi rədd etdiyimiz sosialist, kommunist quruluşu şəraitində də Azərbaycan xalqı öz tarixinə, öz milli ruhuna, öz milli ənənələrinə sadiq qalmış və bu duyğuları, bu hissləri qəlbində qoruyub saxlamışdır. Xalqımız həmin dövrdə qazandığı nailiyyətlərdən indi, müstəqilliyə nail olduğu dövrdə geniş istifadə etmək imkanına malikdir.

Biz keçmiş quruluşdan imtina edirik. Bir müstəqil dövlət kimi Azərbaycan bəşəri dəyərlər əsasında demokratik hüquqi dövlət quruculuğu, demokratik cəmiyyət quruculuğu yolu ilə gedir. Azərbaycanın iqtisadiyyatı azad iqtisadiyyat yolu ilə gedəcəkdir. Azərbaycan böyük iqtisadi-sosial islahatlar keçirmək əzmindədir. Azərbaycan dünyada sınanmış, artıq öz müsbət nəticələrini vermiş olan iqtisadi-sosial və ictimai-siyasi sistem yolu ilə gedəcəkdir.

Bu baxımdan Azərbaycanda demokratiyanın inkişafına, bütün sahələrdə bərqərar olmasına imkan yaradılmış və yaradılacaqdır. Respublikanın daxili həyatında çoxpartiyalı sistem artıq bərqərar edilmişdir. Hazırda Azərbaycanda 40-dək siyasi partiya və ictimai təşkilat fəaliyyət göstərir. Azərbaycanda vicdan azadlığı, din azadlığı, dil azadlığı tamamilə bərqərar edilmiş, qəzetlərin, jurnalların sərbəstliyi tamamilə təmin olunmuşdur. Bütün bunlar gənc, müstəqil Azərbaycan Respublikasının demokratiya, siyasi plüralizm və bazar İqtisadiyyatı sahəsində atdığı ilk addımlardır. Şübhəsiz ki, bunlar hələlik kiçik addımlardır. Onlar, əlbəttə, daha iri, daha güclü olmalıdır. Lakin siz razı olarsınız ki, bunun üçün həm şərait, həm də vaxt lazımdır.

Mən Türkiyə Cümhuriyyətinin tarixinə nəzər salarkən belə cəhətləri özüm üçün qeyd etdim ki, 1923-cü ildə Türkiyədə demokratik cümhuriyyət yaradılmışdır. Ancaq bundan sonrakı dövrdə bir neçə il vaxt lazım oldu ki, Mustafa Kamal Atatürkün rəhbərliyi altında Türkiyənin demokratik fikirli adamlarının fəaliyyəti ilə yeni-yeni islahatlar keçirərək Türkiyədə həqiqi demokratik cəmiyyət qurulsun. Yəni 1923-cü ildə Türkiyədə ilk demokratik cümhuriyyət qurulubsa, bu cümhuriyyətin bütün atributları, başqa sözlə desək, demokratik dövlətə xas olan bütün cəhətlər mərhələ-mərhələ yaradılıbdır. Bu bizim üçün təcrübə, örnəkdir. Ümumiyyətlə, Türkiyə Cümhuriyyətinin 70 illik tarixi indi müstəqil Azərbaycan Respublikası üçün örnəkdir, təcrübə məktəbidir. Biz sizin təcrübənizdən istifadə edir və bundan sonra da istifadə edəcəyik.

Sizə sadəcə olaraq xatırlatmaq istəyirəm ki, Türkiyə də lazımi səviyyəyə birdən, bir günün içində, yaxud bir ilin ərzində sıçrayışla çatmamışdır. Odur ki, biz nəzərdə tutduğumuz islahatları tədricən həyata keçiririk. Şübhəsiz ki, indi başqa zamandır, vaxt o vaxt deyildir. İndi biz islahatları gecikdirə bilmərik, onları sürətlə həyata keçirməliyik. Lakin bunu elə etməliyik

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ki, bir iqtisadi-sosial sistemdən digər iqtisadi-sosial sistemə keçid Azərbaycan xalqının həyatı, yaşayışı üçün çox da ağır olmasın.

Siz bilirsiniz ki, keçmiş Sovetlər Birliyinin indi öz müstəqilliyini əldə etmiş digər respublikaları kimi, Azərbaycan da dərin iqtisadi-sosial böhran içərisindədir. Bu böhran davam edir. Amma Azərbaycandakı böhran daha da dərinləşir. Məhz ona görə ki, Azərbaycan müharibə şəraitindədir, Ermənistanın təcavüzünə məruz qalıb. Ermənistanın silahlı qüvvələri Azərbaycan torpaqlarının bir qismini işğal edib. Azərbaycan özünün iqtisadi və maliyyə imkanlarının əksər hissəsini torpaqlarımızın müdafiəsinə yönəldib. İşğal olunmuş torpaqlardan bir milyon azərbaycanlı öz ev-eşiyindən, el-obasından qaçqın, didərgin düşmüşdür. Onların yaşamağa ev-eşiyi yoxdur. Bu adamların hamısını təmin etmək lazımdır. Bütün bunlar Azərbaycan İqtisadiyyatına çox mənfi təsir göstərir, sosial-iqtisadi böhranı daha da dərinləşdirir. Belə bir dövrdə iqtisadi islahatlar aparılması, bazar İqtisadiyyatına keçilməsi, şübhəsiz qarşıya böyük çətinliklər çıxarır.

Bunları sizə bildirməkdə məqsədim budur ki, Türkiyədə, xüsusən Böyük Millət Məclisində Azərbaycanın bugünkü real vəziyyəti haqqında, gerçəkliyi haqqında doğru-düzgün təsəvvür olsun, məlumat olsun. Bu, bizə onun üçün lazımdır ki, biz Turkiyəni özümüzə ən yaxın, dost, qardaş ölkə bilirik. Bizim vəziyyətimizə Türkiyədə nə qədər doğru bələd olsalar, Türkiyə ilə əlaqədərimiz də bir o qədər sürətlə inkişaf edər və biz Türkiyənin təcrübəsindən daha səmərəli istifadə edərik, Türkiyənin də Azərbaycana köməyi daha böyük olar.

Qeyd etdim ki, 1918-ci ildə ilk Azərbaycan Demokratik Cümhuriyyəti yaradılanda Türkiyə Azərbaycanı birinci tanıyan dövlətlərdən olmuşdur. 1992-ci ilin noyabr ayında da Türkiyə Cümhuriyyəti Azərbaycanı dünyada birinci olaraq tanıdı. Bu, Türkiyənin cəsarətli addımı və Azərbaycana qardaşlıq münasibətinin nəticəsi idi. Azərbaycanın öz müstəqilliyinə nail olması və bütün dünya dövlətlərinin Azərbaycanı tanıması üçün Türkiyənin çox böyük köməyi olmuşdur. Buna görə və ondan sonra Azərbaycanın müstəqilliyi üçün göstərdiyiniz yardıma görə mən sizə Azərbaycan xalqı adından təşəkkürümü bildirirəm.

O vaxtdan iki il keçir. İki il o qədər də böyük müddət deyildir. Bu iki ildə Azərbaycanın başına çox bəlalar gəlib. Tək bu iki ildə yox, ondan əvvəlki illərlə də. 1987-ci ilin təxminən sonundan Azərbaycanı parçalamaq, dağıtmaq niyyətində olan düşmən qüvvələr Qarabağ problemini ortaya atdılar. O vaxtdan bəri Ermənistanın Azərbaycana qarşı təcavüzü davam edir. Bu dövrdə biz Türkiyədən daim yardım almışıq, mənəvi sahədə, dövlət quruculuğu sahəsində, beynəlxalq meydanda və başqa sahələrdə kömək görmüşük. Bu gün etiraf etməliyəm ki, təəssüflər olsun, biz Türkiyənin Azərbaycana göstərdiyi qayğı və münasibətin müqabilinlə lazımi tədbirlər görə bilməmişik. Əgər fəaliyyətimiz bizə göstərilən qayğı və kömək səviyyəsində olsaydı, bu gün Azərbaycanın vəziyyəti bundan yaxşı olardı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Lakin bu da həqiqətdir ki, altı ildir Azərbaycan müharibə şəraitindədir. Elə bu müharibə şəraitində də Azərbaycanın daxilində çox böyük dəyişikliklər olmuşdur. Həmin dövrdə Azərbaycanda müxtəlif siyasi qüvvələr arasında hakimiyyət uğrunda mübarizə getmişdir. Bu mübarizə Azərbaycanın dövlətçiliyini, Azərbaycanın hələ qurulmamış, təşəkkül tapıb formalaşmamış ordusunu və müdafiə imkanlarını zəiflətmişdir. Erməni silahlı qüvvələri, erməni təcavüzkarlar da bütün bunlardan istifadə edərək Azərbaycana hücumlarını davam etdirmişlər. Nəticədə Azərbaycan torpaqlarının 20 faizi hazırda erməni işğalı altındadır.

Əgər ilk vaxtlar söhbət Dağlıq Qarabağdan gedirdisə, indi Dağlıq Qarabağ tamamilə erməni silahlı qüvvələrinin, Ermənistanın nəzarəti altındadır. Bildiyiniz kimi, bundan sonra Dağlıq Qarabağ ətrafındakı rayonlar Ermənistan tərəfindən işğal olunmuşdur. Qeyd etdiyim kimi, bir milyon azərbaycanlı öz yurd-yuvasından didərgin düşərək qaçqın vəziyyətində yaşayır. Bütün bunlar Azərbaycanın müstəqilliyinə, müstəqil dövlət kimi inkişaf etməsinə çox böyük maneçilik törədir. Lakin biz nikbinik. Biz hesab edirik ki, müstəqilliyimiz əbədidir, bu müstəqilliyi heç vaxt, heç vəchlə əldən verməyəcəyik. Azərbaycan xalqı daim müstəqillik yolu ilə gedəcək, demokratiya yolu ilə irəliləyəcək, azadlıq yolu ilə addımlayacaqdır!

Odur ki, Türkiyə indiyədək bizə göstərdiyi qardaşlıq, dostluq köməyi, qayğısı ilə bundan sonra da bizimlə olacaq və olmalıdır. Bu gün bizim sizinlə bir yerdə olmağımız buna əyani sübutdur. Burada mən Mustafa Kamal Atatürkün çox dəyərli bir fikrini yadınıza salmaq istəyirəm, çünki onun bu fikri Türkiyənin üzərinə düşən vəzifələrin çox böyük olduğuna və Mustafa Kamal Atatürkün çox uzaqgörən bir şəxsiyyət olduğuna dəlalət edir. O, Türkiyə Cümhuriyyətinin 10-cu ildönümü münasibətilə çıxışında demişdir: "Bu gün Sovet İttifaqı bizim dostumuz, qonşumuz və müttəfiqimizdir. Bu dostluğa ehtiyacımız var. Lakin sabah nə olacağını bu gün heç kim müəyyən elə bilməz. Nəinki Osmanlı kimi, Avstriya-Macarıstan kimi parçalana bilər, kiçilə bilər. Bu gün əlində bərk-bərk tutduğu millətlər qonşularından qaça bilərlər. Dünya yeni bir müvazinətə keçə bilər. O zaman Türkiyə nə edəcəyini bilməlidir. Bizim bu dostumuzun idarəçiliyi altında dili bir, dini bir, mahiyyəti bir qardaşlarımız vardır. Onlara sahib çıxmağa hazır olmalıyıq. Susaraq o günü gözləmək deyil, hazır olmaq lazımdır. Millətlər buna necə hazırlaşırlar, mənəvi körpüləri möhkəm saxlayırlarmı? Biz bir körpüyük. İnam bir körpüdür, xaric bir körpüdür. Köklərimizə qayıtmalı və hadisələri bölən tariximizin içində bütövlənməliyik. Onların, tarixi köklərin bizə yaxınlaşmasını gözləyə bilmərik. Bizim onlara yaxınlaşmağımız lazımdır".

60 il bundan öncə Mustafa Kamal Atatürk bu günləri görmüş və bu vəsiyyəti etmişdir. İndi həmin dövran gəlib çatıb və Türkiyəyə dost, qardaş olan ölkələr, millətlər öz müstəqilliyini əldə edib. O cümlədən, Türkiyəyə ən yaxın dost və qardaş olan Azər-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

baycan da müstəqil bir dövlətdir. Türkiyənin dostluq və qardaşlıq münasibətlərinə Azərbaycanın bundan sonra daha çox ehtiyacı var. Dünən apardığımız və bu gün aparacağımız danışıqlar onu göstərir ki, biz Türkiyənin Azərbaycana münasibətlərinii bundan sonra da yüksəlməsinə və genişlənməsinə tam ümid bəsləyə bilərik.

Mən sizə məlumat verdim ki, Ermənistanın təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal edilmişdir. Biz bu məsələləri sülh yolu ilə həll etmək istəyirik. Çalışırıq ki, beynəlxalq təşkilatların, ATƏM-in Minsk qrupunun, böyük dövlətlərin imkanlarından, o cümlədən vaxtilə birgə təşəbbüs irəli sürən ABŞ, Türkiyə və Rusiyanın imkanlarından istifadə edək və məsələni sülh və danışıqlar yolu ilə həll edək. Lakin, təəssüflər olsun, bunlar indiyədək bir nəticə verməmişdir. Buna baxmayaraq, biz ümidimizi kəsməmişik. Bilirik ki, bu sahədə hələ istifadə edilməmiş imkanlar var və biz gələcəkdə bu imkanlardan da istifadə edəcəyik. Yəni bizim yolumuz sülh yolu, barışıq yoludur. Biz qan tökülməsinin əsla tərəfdarı deyilik, qırğının tərəfdarı deyilik. Bununla bərabər, bütün Azərbaycan torpaqlarının Azərbaycan xalqının öz əlində olmasına nail olmağa çalışmışıq və bundan sonra da çalışacağıq.

Buna görə də biz son vaxtlar Azərbaycan Respublikasının dövlət strukturuna çox fikir veririk, ordunun yaradılmasına fikir veririk. Sizə bildirmək istəyirəm ki, son dövrdə Azərbaycan xalqında milli ruh, vətənpərvərlik ruhu, Vətəni, torpağı qorumaq ruhu, Vətənin sahibi olmaq ruhu, döyüş ruhu oyanmışdır. Azərbaycanlılar dörk etmişlər ki, torpaqlarını özləri müdafiə etməlidirlər, öz torpaqlarının sahibi özləri olmalıdırlar. Son aylarda aparılan döyüş əməliyyatları göstərir ki, Azərbaycan xalqı və onun yaranmaqda olan ordusu buna qadirdir. Axırıncı döyüşlərdə erməni silahlı qüvvələri çox böyük zərbələr almış, böyük itkilər vermişdir. İşğal olunmuş ərazilərimizin bir hissəsi geri qaytarılmışdır. Ordumuz torpaqlarımızı müdafiə etməyə, işğal olunmuş ərazilərimizin hamısını geri qaytarmağa qalirdir. Sülh yolu, eyni zamanda işğal olunmuş torpaqların öz gücümüzlo geri qaytarılması yolu bizim yolumuzdur və biz bundan sonra da həmin yolla geləcəyik.

Azərbaycan Respublikasının xarici siyasəti sizə məlumdur. Biz bütün dövlətlərlə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı əlaqələr yaratmaq istəyirik. İstər Qərb, istərsə də Şərq dövlətləri ilə, o cümlədən qonşu ölkələrlə belə əlaqələr yaratmaq üçün lazımi tədbirlər görürük və görəcəyik. Bu sahədə də Türkiyənin təcrübəsi, Türkiyə dövlətinin xarici siyasəti bizdən ötrü təcrübə məktəbidir və bundan səmərəli istifadə etməyə çalışırıq.

Ancaq bir həqiqəti bilməlisiniz. Keçən ilin sentyabrında Azərbaycan Respublikası Müstəqil Dövlətlər Birliyinə daxil olmuşdur. Bəzən xarici ölkələrin, o cümlədən Türkiyənin də mətbuatında belə yazılar gedir ki, guya Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinə daxil olması onun istiqlaliyyəti-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ni əlindən alır. Bu, yanlış fikirdir. Keçmiş Sovetlər İttifaqına daxil olan 15 respublikadan 12-si, o cümlədən Azərbaycan indi Müstəqil Dövlətlər Birliyinin üzvüdür. Biz bu birliyə daxil olmaqla nə uduzduq? Heç nə uduzmadıq, amma qazandığımız o oldu ki, biz Müstəqil Dövlətlər Birliyinə daxil olanda vaxtilə möhkəm, sıx əlaqələrimiz olan həmin respublikalarla əlaqələri saxlayaraq, həm İqtisadiyyatımızın inkişafı üçün müəyyən şərait yaradırıq, həm də Azərbaycanın müstəqilliyini təmin etmək, Ermənistanın respublikamıza qarşı təcavüzkarlığını həmin dövlətlərə sübut etmək üçün imkanımız olur.

Ötən il dekabrın 24-də Aşqabatda MDB üzvü olan ölkələrin dövlət və hökumət başçılarının toplantısı olmuşdur. Orada mən Azərbaycan dövləti adından geniş bir bəyanat verərək, Ermənistanın ölkəmizə təcavüzü, bunun nəticəsində Azərbaycan torpaqlarının işğal olunması, ərazimizdəki sərvətlərin dağıdılması və talan edilməsi məsələlərindən danışdım və bu barədə konkret faktlar göstərdim. Əgər biz həmin birliyin üzvü olmasaydıq, belə bir imkanımız da olmayacaqdı. Mənim bəyanatımdan sonra Ermənistan prezidenti bəyanat verməyə məcbur oldu. O, mənim dediklərimin həqiqət olmadığını sübut etməyə çalışdı. Ancaq orada bizim mövqeyimiz çox açıq və konkret oldu, biz Ermənistanı günahlandırdıq. Birliyin üzvü olan başqa dövlətləri də günahlandırdıq ki, nə üçün həmin birliyin çərçivəsində bir dövlət başqasına təcavüz edir. Sizə bu qəbildən başqa misallar da çəkə bilərəm. Yəni demək istəyirəm ki, Müstəqil Dövlətlər Birliyinə daxil olmaq Azərbaycanın müstəqilliyinə heç bir zərər gətirməmişdir və əmin ola bilərsiniz ki, heç vaxt da gətirməyəcəkdir. Əksinə, biz bundan Azərbaycanın müstəqilliyini daha da inkişaf etdirmək üçün səmərəli istifadə etməyə çalışacağıq və güman edirəm ki, buna nail olacağıq.

Azərbaycanın müstəqilliyi məsələsi çox mühüm məsələdir. Bilirsiniz ki, sizinlə və bizimlə qonşu olan Gürcüstanda, Ermənistanda xarici ölkələrin qoşunları, hərbi bazaları var. Azərbaycanda isə bunların heç biri yoxdur. Azərbaycan ancaq öz əsgərləri, öz ordusu ilə yaşayır və belə də yaşayacaqdır. Azərbaycanın müstəqilliyi əbədidir və mən prezident kimi sizin qarşınızda deyirəm: Türkiyədəki qardaşlarımızda, dostlarımızda heç bir şübhə olmasın, biz Azərbaycanın müstəqilliyini heç vaxt, heç vəchlə əldən verməyəcəyik.

Ola bilər, sizin vaxtınızı çox aldım. Ancaq belə fürsət əlimə ilk dəfə düşmüşdür. Şübhəsiz ki, mən də bundan mümkün qədər istifadə etməyə çalışıram. Lakin sui-istifadə etmək də istəmirəm. Sizə bildirmək istəyirəm ki, xalqlarımızın keçmiş tarixi, bu günə qədər yaşadığımız dövr bundan sonra daha yaxın, daha çox dost və qardaş olmağımız üçün böyük təməldir. Əmin ola bilərsiniz ki, biz bu təməl əsasında bundan sonra da irəli gedəcəyik, Türkiyə ilə Azərbaycan arasında iqtisadi, ticarət, elm, mədəniyyət, təhsil sahəsində, bütün başqa sahələrdə əlaqələr xüsusi xarakter daşıyacaq, başqa dövlətlərlə olan əlaqələrdən dostluq, qardaşlıq əlaqələri kimi fərqlənəcəkdir. Bizim mövqeyimiz be-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lədir. Biz bu yolla gedəcəyik və əmin olun ki, bugünkü Azərbaycan dövləti bu yola sadiqdir və sadiq qalacaqdır.

Mən bu fürsətdən istifadə edərək və indi Türkiyənin qarşısında duran böyük vəzifələri də duyaraq Türkiyə hökumətinə, Böyük Millət Məclisinə və Türkiyə xalqına gələcəkdə uğurlar diləyirəm. Sizin böyük nailiyyətləriniz var, eyni zamanda böyük problemləriniz də var. Biz də bunları diqqətlə izləyirik, qardaş kimi münasibət bəsləyirik. İstəyirik ki, siz bu problemləri həll edəsiniz, Türkiyə bundan sonra da bütün sahələrdə daha da sürətlə inkişaf edə bilsin. Çünki Türkiyənin inkişafı, güclənməsi Azərbaycan üçün dayaqdır və ona görə də qardaş kimi Türkiyə Cümhuriyyətinə, Türkiyə xalqına, sizlərə bütün gələcək fəaliyyətinizdə uğurlar diləyirəm.

Mənə göstərdiyiniz diqqətə, hörmətə görə minnətdaram, hamınıza ürəkdən sağ ol deyirəm. Yaşasın Böyük Türkiyə Cümhuriyyəti! Mustafa Kamal Atatürkün vəsiyyətlərini yerinə yetirərək irəliləyən Türkiyə xalqının gələcəyinə qardaş kimi inanırıq və ümidvarıq ki, gələcək həyatınızda yeni-yeni uğurlar olacaqdır.

Yaşasın Türkiyə - Azərbaycan dostluğu!

Yaşasın türk xalqının Azərbaycan xalqı ilə qardaşlığı və sarsılmaz dostluğu!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

TÜRKİYƏ - AZƏRBAYCAN SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİNDƏ NİTQ

9 fevral 1994-cü il

Türkiyəyə səfərimiz zamanı biz burada çox böyük qonaqpərvərlik, insanpərvərlik gördük. Bütün bunlara görə mən və mənimlə gələn nümayəndə heyətinin üzvləri Türkiyə prezidenti hörmətli Süleyman Dəmirələ, Türkiyə hökumətinə, bütün Türkiyə xalqına təşəkkürümüzü və ehtiramımızı bildiririk. Biz burada özümüzü həqiqətən öz evimizdə, Süleyman bəyin sözləri ilə desək, öz mənzilimizdə hiss edirik. Biz buraya böyük ümidlərlə gəlmişik və ümidlərimiz çin olub. Gözlədiyimizdən də artıq qonaqpərvərlik, dostluq və qardaşlıq münasibəti hiss etmişik, bu hisslərin təsiri altında yaşayırıq və uzun müddət bu hisslərin təsiri altında olacağıq. Çünki ən maraqlı cəhət bundan ibarətdir ki, Türkiyə ilə Azərbaycan arasında indiyədək yaranmış əlaqələr yeni mərhələyə keçir. Bu mərhələ əvvəldən indiyədək görülmüş işlərin üzərində qurulur. Ancaq indiki görüşlərimizin və danışıqlarımızın nəticələri bu işlərin daha da irəliləməsi, İqtisadiyyat, ticarət, mədəniyyət, elm, təhsil sahəsində əməkdaşlığın daha da genişlənməsi, daha da dərinləşmösi və xalqlarımızın, ölkələrimizin bir-birinə daha da yaxınlaşması üçün çox səmərəlidir. Bir sözlə, burada əldə olunan nəticələrdən qəlbən məmnunuq.

Burada olarkən görüşdüyümüz hər bir adam bizə çox böyük hörmət və qayğı göstərir. Xüsusən dostum və qardaşım Süleyman Dəmirəlin böyük qayğısı, xüsusi diqqəti məni heyran etmişdir. Mən bilirəm ki, biz dünən də, bu gün də harada olduqsa, harada görüşdüksə, bunlar hamısı Türkiyə prezidenti Süleyman bəyin nəzarəti altındadır, onun qayğısı ilə bağlıdır. Bunlar bizim burada olduğumuz günlərlə gördüyümüz işlərin hamısının müvəffəqiyyətlə başa çatmasına şərait yaratmışdır.

hazırlanmış sazişlər, müqavilələr, anlaşmalar tarixi sənədlərdir və bizim gələcək əlaqələrimiz üçün yeni yollar, yeni cığırlar açır. Sizi əmin etmək istəyirik ki, biz bu yolla gedəcəyik və bu yoldan dönməyəcəyik.

Bir daha qeyd edirəm ki, Azərbaycan demokratik prinsiplər əsasında dövlət quruculuğu ilə məşğuldur. Azərbaycanda demokratiya, siyasi plüralizm üçün bütün imkanlar yaranır və yaranacaqdır. Biz Türkiyənin təcrübəsindən, inkişaf etmiş demokratik dövlətlərin təcrübəsindən istifadə edərək bu tədbirlərimizi daha da genişləndirəcək və dərinləşdirəcəyik. Əmin ola bilərsiniz ki, Azərbaycan bu yolun yolçusudur və bu yoldan dönməyəcəkdir. Azərbaycan müstəqil dövlətdir və daim bu yolla gedəcəkdir. Heç

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bir qüvvə onu bu yoldan döndərə bilməz. Müstəqillik Azərbaycan xalqı üçün, Azərbaycan dövləti üçün əbədidir.

Sizi əmin edirik ki, biz dostluğa və qardaşlığa həmişə sadiq olacağıq və gələcəkdə də bu dostluğun və qardaşlığın inkişaf etdirilməsi üçün əlimizdən gələni əsirgəməyəcəyik.

Azərbaycanın qarşısında duran əsas problem öz müstəqilliyini qorumaq, ərazi bütövlüyünü təmin etmək, işğal olunmuş torpaqlardan erməni silahlı qüvvələrini çıxarmaqdır. Bu sahədə bizim siyasətimiz dəyişməzdir. Biz bu məsələlərin sülh, barışıq yolu ilə həll edilməsinə çalışacağıq. Rica edərdim ki, Türkiyə bundan sonra da beynəlxalq təşkilatarda, ATƏM-də və onun Minsk qrupunda və özünün başqa imkanlarından istifadə edərək Azərbaycanın bu probleminin sülh, barışıq yolu ilə həll olunmasına kömək etsin. Əminəm ki, Türkiyə bu köməyi bizdən əsirkəməyəcək. Eyni zamanda biz bütün gücümüzü toplayaraq, Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsi üçün döyüşəcək, vuruşacaq və Azərbaycanın dövlət müstəqilliyini və ərazi bütövlüyünü təmin edəcəyik.

Əmin ola bilərsiniz ki, bu görüşlərimiz təkcə bizə deyil, bütün Azərbaycan xalqına, bütün Azərbaycan vətəndaşlarına yeni ruh və ilham verir. Bu ilhamla, bu əhval-ruhiyyə ilə də biz sənədlərin imzalanması mərasiminə gəlmişik. Bu əhval-ruhiyyə ilə də Vətənimizə qayıdacağıq.

Hörmətli Süleyman bəy, Sizə və bütün arkadaşlarınıza bir daha təşəkkür edirəm. Sağ olun!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ANKARA HÖCƏTƏPƏ UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMUNUN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ ÇIXIŞ

9 fevral 1994-cü il

Hörmətli rektor.
Əziz rektor yardımçıları.
Dəyərli professor və müəllimlər, tələbələr.
Əziz dostlar və qardaşlar!

Bu gün Türkiyənin çox hörmətli, böyük universitetində - Höcətəpə Universitetində olduğuma görə özümü xoşbəxt hesab edirəm. Buraya dəvət olunduğuma görə universitetin rektorluğuna və bütün professor-müəllim heyətinə öz təşəkkür və minnətdarlığımı bildirirəm.

Burada siz son vaxtlar mənim Azərbaycan prezidenti kimi gördüyüm işlərdən danışdınız, keçdiyim həyat yolu barədə qısa da olsa məlumat verdiniz. Siz məni öz universitetinizin fəxri doktoru alına layiq gördünüz. Mən bütün bunlara görə sizə təşəkkür edir və hədsiz minnətlarlığımı bildirirəm. Sağ olun!

Bildiyiniz kimi, müstəqil Azərbaycan Respublikasının böyük elmi, intellektual potensialı var. Azərbaycanda böyük universitetlər fəaliyyət göstərir, professorlar, elm adamları, mədəniyyət xadimləri, görkəmli sənətkarlar var. Onların böyük bir dəstəsi mənimlə birlikdə Türkiyəyə gəlib, burada bu salondadırlar. Onların adları bütün dünyada məşhurdur, onlar Azərbaycan elmini, mədəniyyətini bütün dünyaya tanıdıblar. Azərbaycan xalqı uzun illər həsrətində olduğu müstəqilliyini əldə edib. İndi Azərbaycan müstəqil bir dövlətdir, dünya dövlətləri birliyinin üzvüdür və onların tərəfindən tanınıbdır. Bunların hamısı Azərbaycan ziyalılarının, siyasətçilərinin, gərkəmli şəxsiyyətlərinin xidmətlərinin nəticəsidir. Ona görə də sizin mənə verdiyiniz doktorluq adını bütün Azərbaycan elminin, siyasətinin, dövlətçiliyinin qazandığı nailiyyətlərə verdiyiniz yüksək qiymət hesab edirəm.

Höcətəpə Universiteti kimi təhsil ocağının doktoru adını almaq böyük iftixar hissi oyadır. Bir daha deyirəm, mən bunu bütün Azərbaycana şamil edir, bütün Azərbaycana verilən qiymət kimi qarşılayıram. Burada mənim də xidmətim, payım var. Odur ki, şəxsən öz adımdan sizə minnətdarlığımı bildirirəm və sizi əmin etmək istəyirəm ki, bugünkü görüşümüz və sizin mənə verdiyiniz yüksək ad Azərbaycan ilə Türkiyə arasındakı dostluq və qardaşlıq əlaqələrinin möhkəmlənməsi və inkişaf etməsi üçün yeni bir addımdır. Əmin ola bilərsiniz ki, müstəqil Azərbaycan dövləti, Azərbaycan xalqı, bütün azərbaycanlılar Türkiyə ilə dostluğa, qardaşlığa, əbədi birliyə daim sadiq qalacaqlar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Azərbaycan öz müstəqilliyinə nail olub, öz dövlətini qurubdur, öz ordusunu yaradır, öz ərazi bütövlüyünü qorumağa çalışır və qarşıda duran sosial-iqtisadi məsələlərin həlli ilə məşğuldur. Bunların hamısı birlikdə Azərbaycanda vəziyyəti həddindən artıq çətinləşdirir. Lakin siz bilin ki, Azərbaycan xalqı müstəqillik yolundan dönməyəcək və öz müstəqilliyini heç vaxt əlindən verməyəcəkdir.

Azərbaycan xalqı artıq öz taleyinin, öz sərvətlərinin, öz torpaqlarının və öz ölkəsinin sahibidir. Bu məsuliyyəti aydın duyan Azərbaycan xalqı bundan sonra öz həyatını, öz dövlətini demokratik prinsiplər əsasında quracaqdır. Azərbaycanda demokratik quruculuq prosesi gedir və inkişaf edir, hüquqi demokratik cəmiyyət qurulur, hər bir vətəndaşın hüquqları qorunur və qorunacaqdır. Azərbaycanda bütün vətəndaşlar bərabər hüquqa malikdirlər. Respublikamızda çoxpartiyalı sistem artıq bərqərar olmuşdur. Sözlərim eləcə də fikir müxtəlifliyinə, siyasi plüralizm prinsiplərinə aiddir. Bu prinsiplər gələcəkdə daha da güclənəcəkdir. Yəni Azərbaycan dövləti, Azərbaycan hökuməti tam demokratiya yolu ilə, hüquqi dövlət quruculuğu yolu ilə gedəcək və beləliklə də, Azərbaycan dünya demokratik dövlətlər birliyinin üzvü kimi bu yoldan dönməyəcəkdir.

Azərbaycanın xarici siyasəti sülhsevər siyasətdir. Ölkəmiz bütün dövlətlərlə sülh və əminamanlıq əlaqələri yaratmaq istəyir. Azərbaycan dövləti öz xarici siyasətini məhz bu istiqamətdə yeridəcəkdir. Buna görə də Azərbaycan qonşu dövlətlərlə daha sıx əlaqələr yaratmağı xüsusilə önəmli hesab edir. Lakin burada bizim Türkiyə ilə əlaqələrimiz xüsusi yer tutur. Çünki Türkiyə ilə Azərbaycanın birgə tarixi keçmişi var. Xalqlarımız bir kökdəndir. Bizim mədəniyyətimiz də, tariximiz də, ənənələrimiz də birdir, dilimiz, dinimiz də birdir. Bütün bunlar əsrlər boyu bizi birləşdirmişdir. Hətta son dövrdə ayrı düşməyimiz də bu birliyimizi əlimizdən almamışdır. Indi biz bu birliyi davam etdirmək üçün bütün imkanlara malikik və Azərbaycan ilə Türkiyə arasında əlaqələr dostluq, qardaşlıq əlaqələri olmaqla yanaşı, həm də iş əlaqələridir. Biz bu əlaqələri də sürətlə davam etdirəcəyik.

İndi Azərbaycan Respublikasının ən çətin, ağır problemi onun Ermənistan tərəfindən məruz qaldığı təcavüzdən qurtarması və müharibəyə son qoyulmasıdır. Bildiyiniz kimi, Ermənistan tərəfindən altı ildir Azərbaycan torpaqlarına təcavüz edilir, torpaqlarımızın bir qismi erməni silahlı qüvvələri tərəfindən işğal olunubdur. Bunun nəticəsində Azərbaycan Respublikası vətəndaşlarının bir milyondan çoxu öz ölkəsində qaçqın vəziyyətinə düşüb, köçgün vəziyyətinlə yaşayır, öz el-obasından, ev-eşiyindən didərgin salınıbdır. Onlar ağır şəraitdə yaşayırlar. Bütün bunlar ölkəmizin daxili vəziyyətini olduqca gərginləşdirmiş və Azərbaycan xalqının, Azərbaycan dövlətinin üzərinə böyük və məsuliyyətli vəzifələr qoymuşdur.

Biz öz torpaqlarımızı qorumağa, Vətənimizi müdafiə etməyə alışırıq. Azərbaycan Respublikasının ərazi bütövlüyünü, müs-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

təqilliyini, suverenliyini qoruyub saxlamağa çalışırıq. Buna görə də apardığımız müharibə ədalətli müharibədir. Biz hücum etmirik, torpaqlarımızı müdafiə edirik. Biz hücum etmirik, bizə hücum edən erməni silahlı qüvvələrini torpaqlarımızdan qovub çıxarmağa çalışırıq. Biz işğal olunmuş torpaqlarımızı azad etmək istəyirik. Bu, ədalətli işdir və biz onu davam etdirəcəyik. Bu sahədə Türkiyə dövlətinin, türk xalqının bizə mənəvi dayaq olması, bizimlə birlikdə olması bizə daha böyük qüvvət verir. Odur ki, bu müddətlə Türkiyə tərəfindən, türk xalqı tərəfindən, hər bir Türkiyə vətəndaşı tərəfindən Azərbaycana göstərilmiş kömək və yardıma görə minnətdarlığımı və təşəkkürümü bildirirəm.

Son illər Azərbaycan Respublikası erməni təcavüzünə məruz qalmaqla yanaşı, ölkəmizin daxilində də ictimai-siyasi vəziyyət çox gərgin olmuşdur. Bildiyiniz kimi, ayrı-ayrı qruplar hakimiyyət uğrunda mübarizə apararaq, Azərbaycanın daxili vəziyyətini mürəkkəbləşdirmiş və ağırlaşdırmışlar. Bunlar isə erməni silahlı qüvvələrinə Azərbaycan torpaqlarını işğal etmək üçün çox əlverişli imkanlar yaratmış və 1993-cü ildə ölkəmizdə olduqca ağır bir vəziyyətə gətirib çıxarmışdır. Hətta vəziyyət vətəndaş müharibəsi həddinə gəlib çatmışdı. Mən sizə böyük iftixar hissilə deyə bilərəm ki, biz bu çətinliklərin də öhdəsnidən gəldik. Indi Azərbaycanın daxilində ictimai-siyasi vəziyyət, demək olar, sabitdir, gərginlik aradan götürülüb. Ayrı-ayrı siyasi qüvvələrin, ayrı-ayrı siyasi partiyaların fəaliyyətinə tam şərait yaradılıbdır, Lakin onların hamısınıi fəaliyyəti Azərbaycanın bütövlüyünə, birliyinə və müdafiə olunmasına yönəldilməlidir. Elə Azərbaycan dövləti, mən də bir prezident kimi çalışıram ki, bu qüvvələrin hamısını birləşdirib, bir yerə cəmləşdirib, Azərbaycanda, milli həmrəyliyi, vətəndaş həmrəyliyini gücləndirib respublikamızı bu ağır vəziyyətdən çıxaraq.

Azərbaycan iqtisadi-sosial böhran içərisindədir. Bu böhrandan da çıxmaq üçün biz bütün qüvvələrimizi birləşdirməliyik. Mən sizi əmin etmək istəyirəm ki, Azərbaycan hökuməti, Azərbaycan dövləti və şəxsən mən bir prezident kimi bu sahədə daim fəaliyyət göstəririk və bundan sonra da fəaliyyətdə olacağıq. Ölkəmizdəki bütün siyasi qüvvələri, siyasi partiyaları birləşdirərək Azərbaycanın müstəqilliyini qoruyub saxlamağa, onun ərazi bütövlüyünü təmin etməyə çalışacağıq. Əmin olun ki, biz buna nail olacağıq, çünki bizim işimiz haqq işidir, bizim işimiz ədalət işidir və bizim Türkiyə kimi, türk xalqı kimi yaxın dostumuz və qardaşımız vardır.

Bu gün mənim üçün unudulmaz bir gündür. Mən Türkiyənin böyük bir təhsil ocağında - Höcətəpə Universitetindəyəm. Burada

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

fəaliyyət göstərən professor-müəllim heyəti ilə, türk ziyalıları ilə görüşürəm. Mən bununda fəxr edirəm. Əmin ola bilərsiniz ki, mən bu görüşləri öz həyatımda əlamətdar bir hadisə kimi qəbul edərək, eyni zamanda Azərbaycan ilə Türkiyə arasında elmi, mədəni əlaqələrin bundan sonra daha da möhkəmlənməsinə və inkişaf etməsinə çalışacağam, Azərbaycan və Türkiyə universitetləri arasındakı əlaqələrin inkişaf etməsinə səy göstərəcəyəm. Azərbaycan gənclərinin burada, sizin universitetdə və başqa universitetlərdə təhsil almalarını bundan sonra da davam etdirəcəyik. Professor və müəllimlərimiz arasında əlaqələr xalqlarımız arasında əlaqələrin inkişafına daha da kömək edəcək və bizi daha da yaxınlaşdırıb qovuşduracaq, daha möhkəm birləşdirəcəkdir.

Mən sizə bir daha öz minnətdarlığımı və təşəkkürümü bildirir və sizi əmin etmək istəyirəm ki, Höcətəpə Universitetinin fəxri doktoru adını ləyaqətlə daşıyacağam.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BİLKƏND UNİVERSİTETİ İDARƏ HEYƏTİNİN SƏDRİ İHSAN DOĞRAMAÇI İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

9 fevral 1994-cü il

Mən İhsan Doğramaçı haqqında çox məlumat almışam. Onu dünyanın hər yerində, edəcə də Azərbaycanla böyük, nadir bir şəxs kimi tanıyırlar. Onun böyük bir şəxsiyyət olması bundan ibarətdir ki, nəinki Türkiyədə, ümumiyyətlə, bütün türk diyarında, türk dünyasında elm və təhsil sahəsində illərdən bəri coşqun fəaliyyət göstərir, xalq, millət qarşısında, türk xalqlarının birləşməsi sahəsində böyük xidmətləri var. O, xalqın elm və təhsilinin yüksəlməsinə çalışır və bütün həyatını buna həsr etmişdir. Allah ona böyük bir vergi vermişdir. O, Allahdan, Tanrıdan aldığı bu vergini bütün həyatı boyu xalqa xidmətə sərf edib. Bu gün burada, onun evində çox yüksək mədəni səviyyədə keçən indiki mərasim də bunu bir daha sübut edir. Bura mədəniyyət ocağıdır, elm, təhsil ocağıdır. Ona görə də biz burada xalqlarımız, ölkələrimiz haqqında danışarkən onların qədim tarixində elmin, mədəniyyətin, incəsənətin, təhsilin nə qədər böyük rol oynadığını qeyd etməliyik.

Əgər xalqlarımız əsrlər boyu yaşayıblarsa, mübarizə apararaq öz mənliyini qoruya biliblərsə, öz milli xüsusiyyətlərini itirməyiblərsə, böyük mərhələlərdən keçərək indi müstəqil xalq kimi, dövlət kimi yaşayırlarsa, bütün bunlara görə xalqlarımız öz içərisindən çıxan mütəfəkkirlərə, yazıçı və şairlərə, bəstəkarlara, rəssamlara, memarlara, alimlərə minnətdardırlar. Böyük iftixar hissilə demək olar ki, xalqlarımız bu sahədə çox zəngindirlər. Bu zənginlik xalqlarımızla milli ruhu, milliliyi, milli ənənələri yaşadıb, nəsildən-nəsilə keçirib, bu günə gətirib çıxarmışdır.

Azərbaycan xalqı bütün türk dünyasının bir hissəsi olaraq böyük və zəngin elm, mədəniyyət tarixinə malikdir. Bu gün burada məmnunluqla qeyd edirəm ki, Azərbaycanın incəsənət ustaları, alimləri, bəstəkarları, mədəniyyət xadimləri Türkiyənin bir çox elm və mədəniyyət ocaqlarında, o cümlədən də İhsan bəyin himayədarlığı ilə fəaliyyət göstərirlər. Onlar bu gün burada da Azərbaycan musiqisinin kiçik bir parçası ilə bizi sevindirdilər.

Tarix böyükdür. Biz öz tariximizlə fəxr edirik. O, bizim birgə tariximizdir, xalqlarımızın vahid tarixidir. Nizami də, Füzuli lə, Mirzə Fətəli Axundov da, Vaqif də, Yunus İmrə də, bu gün burada şeri səslənən Səməd Vurğun da, Türkiyə torpağında, İstanbulda təhsil almış, böyük əsərlər qoyub getmiş Hüseyn Cavid də, sözlərinə mahnı, şərqi bəstələnmiş şerin müəllifi Əhməd Cavad da və bizim aramızda olan böyük mədəniyyət xadimləri də -

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Arif Məlikov da, Bəxtiyar Vahabzadə də, habelə digər mədəniyyət xadimləri də bizim zəngin mədəni sərvətimizdir. Xalqlarımız bu sərvətlə fəxr edir və fəxr etməyə də haqları var.

Biz uzun illər ərzində, 70 il bir-birimizdən ayrı düşmüşlük. Əvvəllər də birliyimizə maneçilik törədən amillər olmuşdur. Lakin elm, mədəniyyət, ədəbiyyat adamlarımız bizim həmişə birgə olmağımızı təmin etmişlər. Biz bir-birimizdən məsafəcə uzaq olsaq da, ərazicə ayrı düşsək də, bir-birimizi görə bilməsək də, ulu babalarımızın bizə verdikləri nəsihətlərlə yaşamış olan xalqlarımızın mütəfəkkirləri, milliyyətimizi, milli ənənələrimizi, milli mədəniyyətimizi, dilimizi, tariximizi unutmağa qoymayıblar və heç vaxt da unutmamışıq.

İndi isə biz bir-birimizə qovuşmuşuq, bir-birimizi qucaqlamışıq, bir yerdəyik. Burada, bu salonda kimin türkiyəli, kimin azərbaycanlı olduğunu ayırmaq mümkün deyildir, heç ayırmaq da lazım deyildir. Biz bir-birimizə qaynayıb-qarışmışıq və bu proses davam edəcəkdir. Şübhəsiz ki, hamımız bu prosesin davam etməsi üçün səylərimizi əsirgəməyəcəyik. Türkiyə böyük dövlətdir, onun tarixi çox zəngindir. Dahi Mustafa Kamal Atatürk Türkiyənin böyük bir dövlət olması üçün çox işlər görmüşdür. Böyük məmnuniyyətlə demək olar ki, ondan sonra gələn nəsillər onun yolu ilə getmiş, Türkiyəni qabaqcıl dövlətlər sırasına çıxarmışlar. Türkiyə öz iqtisadiyyatına, mədəniyyətinə görə, habelə dünyada mövqeyinə görə böyük, inkişaf etmiş dövlətlər sırasındadır.

Azərbaycanın böyük tarixi var. Bu tarix çox ağır mərhələlərdən keçmişdir. Lakin bunlar Azərbaycanın nə mədəniyyətini, nə elmini, nə də ənənələrini heç vaxt sarsıla bilməmişdir. Bir təsəvvür elin, 70 il ərzində Azərbaycan Sovetlər Birliyinin tərkibində olmuş, kommunist ideologiyası ilə yaşamış, sosializm qurmağa çalışmışdır. Buna baxmayaraq, bütün bu illər ərzində Azərbaycan xalqının dili nəinki yaşamış, hətta inkişaf edib zənginləşmişdir. Mədəniyyətimiz yüksək zirvələrə qalxmışdır. Əsrin əvvəlindən bu günədək olan müddəti götürsək görərik ki, həmin dövrdə Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Cövdət Hacıyev, Arif Məlikov, Tofiq Quliyev, Rauf Hacıyev kimi görkəmli bəstəkarlar yetişmişdir. Şərqdə ilk opera Üzeyir Hacıbəyovun dühası ilə yaranmışdır. Bir sözlə, Azərbaycanla professional musiqi mədəniyyəti təşəkkül tapmışdır. Demək istəyirəm ki, bu ictimai-siyasi quruluş, iqtisadi sistem xalqın mədəniyyətinə nəinki zərər vura bilməmiş, əksinə, bu sistemdə mədəniyyətimiz çox inkişaf etmiş və irəliləmişdir. Azərbaycan elmi çox irəliyə getmiş və özünün nə qədər qüdrətli və güclü olduğunu bütün dünyaya göstərmişdir.

Azərbaycanda ilk universitet 1919-cu ildə yaradılmışdır. Bu gün tarixə nəzər salaraq qeyd etməliyik ki, ilk universitetimizin yaradılmasında da Türkiyənin yardımı olmuşdur. Türkiyədən gəlmiş ilk 50 müəllim və alim universitetin yaranması və inkişaf etməsi naminə çox işlər görmüşdür. İndi Azərbaycanda 18-dən çox universitet var. Halbuki Azərbaycan kiçik bir ölkədir. Azərbaycanda ən böyük nailiyyət ondan ibarətdir ki, bizdə savadsız

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

adam yoxdur. Ölkəmizdə hansı bir kəndə, hətta hansı bir dağ kəndinə getsəniz, orada savadsız adam tapa bilməzsiniz. Azərbaycanda xalqın ümumi təhsil səviyyəsinin, mədəni səviyyənin yüksəlməsi XX əsrdə özünü çox bariz şəkildə göstərmişdir.

Bunların hamısı yenə də bizim köklərimizlə bağlıdır, hamısı milli mədəniyyətimizin, milli təfəkkürümüzün, dilimizin nə qədər sarsılmaz olduğuna və nə qədər əyilməz olduğuna dəlalət edir. Heç bir rejim, heç bir vaxt bizi bunlardan məhrum edə bilməz. Əksinə, vəziyyət nə qədər ağır olubsa, elm, mədəniyyət, musiqi də bir o qədər çox inkişaf etmişdir. Bizim Azərbaycan dili, ana dilimiz cari əsrdə çox zənginləşmiş, çox inkişaf etmişdir. Türk ləhcəsi ilə Azərbaycan ləhcəsi arasında bəzi fərqlər var. Bu fərqləri siz bilirsiniz. Bir tərəfdən siz öz dilinizi modernləşdirmisiniz, digər tərəfdən isə bizim dilimiz müəyyən dərəcədə təkmilləşmişdir. Fərqlər də buradan irəli gəlir. Ola bilsin ki, 60-70 il öncə bu fərqlər az idi. Lakin elə indi də türk xalqlarından heç birinin dili Azərbaycan və türk dilləri qədər bir-birinə yaxın deyildir. Bütün bunlar onu göstərir ki, dostum İhsan bəyin qeyd etdiyi kimi, ölkələrimiz ayrı olsalar da, xalqlarımız birdir və bir olacaqlar. Buna heç bir şübhə ola bilməz.

İndi bunun üçün daha böyük imkanlar açılmışdır. Mən sizə açıq demək istəyirəm, əgər Ermənistanın Azərbaycana təcavüzü olmasaydı, əgər Azərbaycan müharibə şəraitində olmasaydı, bu qısa müddətdə, yəni Azərbaycan öz istiqlalını əldə etdiyi vaxtdan bəri ölkəmizdə daha çox işlər görmək olardı. Bir iqtisadi-sosial, siyasi sistemdən başqa bir sistemə keçmək asan məsələ deyildir. 1923-cü ildə Türkiyə Cümhuriyyəti qurulduqdan sonra keçirilən islahatların hər birinə 3-4, hətta 5 il vaxt lazım olmuşdur. Lakin biz illərlə gözləyə bilmərik. Biz qarşımıza qoyduğumuz məqsədləri qısa müddətdə həyata keçirməliyik. Nəzərdə tutulan bütün islahatların və niyyətlərin həyata keçirilməsi üçün tam təminat, əsas var. Buna isə Azərbaycan Respublikasının malik olduğu böyük intellektual potensial, böyük iqtisadi imkanlar əsas verir...

Mən bir daha bizim dostluğumuza və qardaşlığımıza, yəni Türkiyə ilə Azərbaycan arasında olan dostluğa və qardaşlığa güvənirəm. Dünəndən bəri keçirdiyimiz görüşlər, apardığımız danışıqlar, bizi burada səmimi və qardaşcasına qarşılamağınız bir daha göstərir ki, bu dostluğumuz və qardaşlığımız qırılmazdır, sarsılmazdır və gündən-günə daha da möhkəmlənəcək, qüvvətlənəcəkdir. Türkiyə böyük bir dövlət kimi, inkişaf etmiş ölkə kimi Azərbaycanla həmişə təmasda olacaq və Azərbaycanın bütün ehtiyaclarını nəzərə alaraq öz imkanlarını bölüşəcəkdir. Beləliklə də, biz birlikdə bu ağır vəziyyətdən çıxacağıq.

Mən Bilkənd Universitetinə, bütün Türkiyə universitetlərinə gələcək fəaliyyətlərinlə uğurlar diləyirəm. Türkiyənin elm, təhsil adamlarına öz hörmətimi, sevgimi və məhəbbətimi bildirirəm. Gələcəkdə tarixi abidəyə çevriləcək bu gözəl guşədə olduğuma görə özümü çox xoşbəxt hiss edirəm. İhsan bəy, Sizə və Sizin burada olan qonaqlarınızın hamısına öz təşəkkürümü bildirirəm. Çox sağ olun!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ANKARADA DÜNYA ÖLKƏLƏRİNİN TÜRKİYƏDƏKİ SƏFİRLƏRİ VƏ DİPLOMATİK HEYƏTLƏRİNİN ÜZVLƏRI İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

9 fevral 1994-cü il

Azərbaycan haqqında yəqin ki, məlumatınız var. Ancaq bəzi fikirləri mənim dilimdən eşitmək sizin üçün əhəmiyyətli olardı.

İndi Azərbaycanın daxili həyatında ictimai-siyasi sabitlik var. Bir neçə ay öncə Azərbaycanın daxilinlə olan qarışıqlıq aradan götürülmüşdür. Xarici siyasətə gəldikdə isə, Azərbaycan bütün ölkələrlə qarşılıqlı surətdə faydalı, bərabər hüquqlu əlaqələr saxlamaq prinsipini rəhbər tutur və biz öz xarici siyasətimizi bu istiqamətdə aparırıq. Azərbaycan bütün beynəlxalq təşkilatlarda imkan daxilində fəaliyyət göstərməyə çalışır və beynəlxalq aləmdə müstəqil bir dövlət kimi fəaliyyət göstərir. Respublikamız bütün dövlətlərlə müstəqil ikitərəfli əlaqələr yaradır, eyni zamanda qonşu ölkələrlə münasibətlərə daha çox fikir verir. Azərbaycanın Türkiyə ilə əlaqələri xüsusi əhəmiyyət kəsb edir. Bildiyiniz kimi, Azərbaycanı Türkiyə ilə çoxəsrlik tarix bağlayır. Azərbaycan Respublikasının müstəqilliyini dünyada ilk dəfə Türkiyə Cümhuriyyəti tanımışdır. Azərbaycan xalqını və Türkiyə xalqını birləşlirən milli köklər, adət və ənənələr, dil və mədəniyyətin yaxınlığı iki dövlət arasındakı münasibətləri daha da əhəmiyyətli edir.

Azərbaycan Müstəqil Dövlətlər Birliyinə daxil olmuşdur. Keçmiş SSRİ-nin indi həmin birliyin üzvü olan on iki respublikasından biri kimi, Azərbaycan bu dövlətlərlə tarixən yaranmış iqtisadi, mədəni, elmi-texniki əlaqələri daha da möhkəmləndirmək yolu ilə gedir.

Ermənistan ilə Azərbaycan arasındakı münaqişə son altı ildə Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlıdır. "Qarabağ problemi" kimi meydana çıxmış məsələ indi artıq Ermənistanla Azərbaycan arasında qanlı müharibəyə çevrilmişdir. Bu müharibə nəticəsində Ermənistan silahlı qüvvələri müəyyən imkanlardan istifadə edərək Azərbaycan torpaqlarının 20 faizini işğal etmişdir. Keçmiş Dağlıq Qarabağ Vilayəti indi tamamilə Ermənistan silahlı qüvvələrinin nəzarəti altındadır. Bundan əlavə keçmiş Dağlıq Qarabağ Vilayətinin ətrafında olan bir neçə rayon da Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. Azərbaycan - İran sərhədinin bir hissəsinə də Ermənistan silahlı qüvvələri nəzarət edir. Bütün bunların. nəticəsində bir milyondan artıq azərbaycanlı ev-eşiyindən, obasından qaçqın düşmüşdür və çox ağır şəraitdə yaşayır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Azərbaycan bu müharibəyə son qoymaq istəyir, bütün imkanlardan istifadə edərək bu problemi sülh yolu ilə həll etməyə çalışır. Bunun üçün Azərbaycan ilk növbədə Birləşmiş Millətlər Təşkilatının, onun Təhlükəsizlik Şurasının imkanlarına çox ümid bəsləyir, ATƏM-in, onun Minsk qrupunun imkanlarından, böyük dövlətlərin, o cümlədən Amerika Birləşmiş Ştatlarının, Türkiyənin, Rusiyanın vasitəçilik imkanlarından istifadə etməyə çalışır və bu istiqamətdə bir çox diplomatik addımlar atmışdır. Təəssüf ki, bütün bu tədbirlərimiz indiyədək nəticə verməmişdir. Müharibə gedir, döyüşlər davam edir, yenə də qan tökülür.

Onu da bilmək lazımdır ki, müharibə Azərbaycan torpağında gedir. Ermənistanla Azərbaycan arasında gedən bu müharibədə Ermənistan öz torpağının bir qarışını da itirməmişdir.

Biz bu müharibəyə son qoymağa çalışırıq. Bir daha qeyd edirəm ki, biz bu istiqamətdə üstünlüyü yenə də yalnız və yalnız sülh məramına, sülh yoluna, sülh danışıqlarına veririk. Güman edirəm ki, dünya dövlətlər birliyi bu məsələnin sülh yolu ilə həll olunması üçün gərək daha çox səy göstərsin və Azərbaycanla Ermənistan arasında müharibəyə son qoyulsun, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü tamamilə təmin olunsun.

Təəssüf ki, Ermənistan tərəfi məsələni güc yolu ilə, zor yolu ilə həll etmək istəyir, işğal olunmuş torpaqları əlində saxlamağa və Azərbaycanın yeni ərazilərini qəsb etməyə çalışır. Beləliklə də çalışır ki, öz iddialarını Azərbaycana qəbul etdirsin. Biz isə, şübhəsiz ki, buna heç vəchlə razı ola bilmərik.

Biz sülh danışıqlarına üstünlük verməklə yanaşı, eyni zamanda Azərbaycan torpaqlarının müdafiəsi üçün lazımi tədbirlər görürük. Son aylarda bu sahədə görülmüş tədbirlər nəticəsində Azərbaycan torpaqlarının etibarlı müdafiə edilməsinə imkan yaranmışdır və güman edirəm ki, bu imkanlar daha da genişlənəcəkdir. Lakin siz diplomatlar xarici siyasət adamları olduğunuza görə bir daha bildirirəm ki, Azərbaycan müharibə istəmir, ona son qoymağa çalışır. Bunun da şərti ondan ibarətdir ki, erməni silahlı qüvvələri işğal olunmuş torpaqlarımızdan çıxmalıdır. Azərbaycanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı təmin edilməlidir, Ermənistanla Azərbaycan arasında sülh yaratmaq üçün danışıqlar aparılmalıdır.

Çıxışımın əvvəlində qeyd etdim ki, indi Azərbaycanın daxilində sabitlik yaranmışdır. Eyni zamanda sizə bildirmək istəyirəm ki, Azərbaycan bütün dövlət quruculuğunu, cəmiyyətdə dəyişiklikləri yalnız və yalnız demokratik prinsiplər əsasında həyata keçirmək əzmindədir. Biz Azərbaycanı hüquqi demokratik dövlət kimi formalaşdırıb inkişaf etdirmək yolu ilə gedirik. Azər-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

baycan dünya demokratiyasının bütün imkanlarından istifadə edərək bundan sonra da demokratiya yolu ilə gedəcəkdir. Azərbaycanda hüquqi, dünyəvi, sivilizasiyalı cəmiyyət qurmaq fikrindəyik. Respublikada çoxpartiyalı sistem bərqərar olmuş, bütün partiyalara tamamilə sərbəst fəaliyyət göstərmək imkanı verilmişdir. Milli mənsubiyyətindən, dinindən, dilindən asılı olmayaraq butün vətəndaşlar eyni hüquqlara malikdirlər. Azərbaycanda insan hüquqlarının qorunması üçün təminat yaranmışdır və bu sahədə bütün tədbirlər görüləcəkdir. Bir sözlə, Azərbaycan Respublikası demokratiya yolu ilə gedir.

İqtisadiyyat sahəsində bizim yolumuz sərbəst iqtisadiyyat yoludur, iqtisadi islahatlar keçirməklə Azərbaycanı dünyanın inkişaf etmiş ölkələrinin İqtisadiyyatına yaxınlaşdırmaq yolulur.

Güman edirəm ki, mənim bu qısa məlumatım sizdə Azərbaycan haqqında müəyyən təsəvvür yaradır. Ona görə də vaxtınızı çox almaq istəmirəm.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İSTANBULDA "SÜLH VƏ SƏBR" BEYNƏLXALQ DİNİ KONFRANS NÜMAYƏNDƏLƏRİ QARŞISINDA ÇIXIŞ

10 fevral 1994-cü il

Bu gün sizinlə görüşməyimdən çox məmnunam. Hamınıza səmimi salamlarımı yetirir, hörmət və ehtiramımı bildirirəm.

Bildiyiniz kimi, Türkiyə prezidenti hörmətli Süleyman Dəmirəlin dəvəti ilə mən burada rəsmi səfərdəyəm. İki gün ərzində Ankarada bizim çox səmərəli, əhəmiyyətli görüşlərimiz, danışıqlarımız oldu. Türkiyə ilə Azərbaycan arasında ikitərəfli əməkdaşlığı təmin etmək üçün müqavilələr, o cümlədən dostluq və əməkdaşlıq haqqında müqavilə imzalandı. Dünən axşam İstanbula gəldim və burada sizinlə görüşmək imkanı olduğunu mənə bildirdilər. Belə bir görüşün mümkünlüyündən çox məmnun oldum və bir daha bildirirəm ki, sizinlə görüşə böyük məmnuniyyətlə gəlmişəm.

Hələ Bakıda ikən sizin konfrans haqqında mənə məlumatlar gəldi. Bu konfransın işinə çox böyük əhəmiyyət verərək və indiki dövrdə onun bütün insanlar üçün faydalı olduğunu nəzərə alaraq sizin konfransa xüsusi məktub göndərdim. Məmnunam ki, məktubum sizə çatmış və onunla tanış olmusunuz. Fikrimcə, konfransın başlıca əhəmiyyəti ondan ibarətdir ki, siz vicdana çağırış, sülh və barışıq məsələlərini diqqət mərkəzinə çəkmisiniz. İndi bu, dünya üçün, bütün xalqlar üçün çox vacib, mühüm məsələdir. Təəssüf ki, son illərdə, iyirminci əsrin son mərhələsində dünyanın müxtəlif regionlarında sülh pozulmuş, insanlar arasında, dövlətlər arasında, ayrı-ayrı qruplar arasında toqquşmalar, vuruşmalar, müharibə gedir və bunların hamısı insanların rahat yaşamasına mane olur. Əsrimizin sonunda dünyada gedən ictimai-siyasi prosesləri təbii hesab edərək, heç vəchlə razılaşmaq olmaz ki, bu proseslər müharibə yolu ilə, toqquşmalar yolu ilə, qan tökmək yolu ilə getsin.

Yer üzərində yaşayan insanlara Allahın ən böyük tövsiyəsi ondan ibarətdir ki, onlar bir-biri ilə xoş məramda, sülh şəraitində, bir-birinə qarşılıqlı hörmət, qarşılıqlı ehtiram şəraitində yaşasınlar. Ona görə də din xadimlərinin vicdana çağırış, səbir, sülhün təmin olunması ilə bağlı təşəbbüsləri həm Allahın göstərdiyi yolla getmək deməkdir, həm də yer üzərinlə insanların sülh şəraitində yaşamalarına böyük köməkdir. Müharibənin, ayrı-ayrı dövlətlərin bir-biri ilə vuruşmasının, müxtəlif siyasi-ictimai qrupların bir-biri ilə savaşmasının əsas səbəbləri, şübhəsiz ki, siyasi xarakter, etnik xarakter daşıyır, birinin digərinin torpağını zorla əlindən almaq məqsədi daşıyır. Bunlar, şübhösiz ki, dini xarakter daşıya bilməz.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İnsanların mənəvi sərvətlərinin hamısından dinin fərqi ondadır ki, o, dini mənsubiyyətindən asılı olmayaraq həmişə insanları dostluğa, həmrəyliyə, birliyə dəvət etmişdir. Biz indi də bunun şahidiyik. Sizin bu konfransınız, müxtəlif dinləri təmsil edən xadimlərin toplaşaraq bir məsələni, bütün dünya xalqlarını narahat edən məsələni - vicdana çağırış, sülh, səbir məsələlərini müzakirə etməsi buna canlı sübutdur. Mən sizin bu təşəbbüsünüzü və belə fədakar fəaliyyətinizi alqışlayır, ürəkdən bəyənirəm. Sizə göndərdiyim məktubda da bununla bağlı öz fikirlərimi bildirmişəm və çox məmnunam ki, indi üzbəüz, şəxsən görüşüb bu sözləri sizə çatdırmaq mənə nəsib olmuşdur. Sizin bir yerə toplaşmağınız, həmrəyliyiniz, bir-birinizlə mehriban əlaqələriniz onu göstərir ki, insanlar dini, irqi mənsubiyyətdən asılı olmayaraq birlikdə yaşaya bilərlər, bir-biri ilə mehriban, dost ola bilərlər və öz həyatlarını qura bilərlər.

Bizim Azərbaycan Respublikası üçün sizin fəaliyyətiniz xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan çoxmillətli dövlətdir. Respublikamızda bir çox millətlər əsrlər boyu birlikdə yaşayırlar. Bildiyiniz kimi Azərbaycanda islam dini ilə yanaşı, xristianlıq və iudaizm dinləri də var və onlar bir-biri ilə çox mehriban şəraitdə fəaliyyət göstərirlər. Biz bunu bəyan etmişik. Azərbaycanın prezidenti kimi, mən dəfələrlə qeyd etmişəm ki, ölkəmizin vətəndaşları dini, irqi mənsubiyyətindən, siyasi baxışlarından asılı olmayaraq eyni hüquqlara malikdirlər və onların hüquqları Azərbaycan dövləti tərəfindən qorunur. Əmin ola bilərsiniz ki, biz bu prinsiplərimizə daim sadiq qalacağıq və Azərbaycan vətəndaşlarının din, dil mənsubiyyətnidən və siyasi baxışlarından asılı olaraq bir-biri ilə münaqişəyə girməsinə gələcəkdə də yol verməyəcəyik.

Böyük təəssüf hissilə qeyd elə bilərəm ki, bizim regionla, yəni Zaqafqaziyada -Azərbaycanda, Ermənistanda və Gürcüstanda etnik səbəblərə görə, etnik zəmin əsasında çox böyük gərginlik, toqquşmalar var, hətta müharibə gedir, qan tökülür. Bütün bunlar bizi həddindən artıq narahat edir. Əmin ola bilərsiniz ki, Azərbaycan dövləti və prezident kimi şəxsən mən çalışırıq və bundan sonra da çalışacağıq ki, regionumuzda etnik prinsiplər əsasında olan münaqişələrə son qoyulsun.

Bizi - Azərbaycan Respublikasını çox ağır vəziyyətə salan, şübhəsiz ki, erməni silahlı qüvvələrinin Azərbaycan Respublikasına qarşı hərbi təcavüzüdür. Siz bilməlisiniz ki, Azərbaycan ilə Ermənistan arasında altı il bundan öncə, "Qarabağ problemi" əsasında meydana gəlmiş münaqişə indi artıq böyük müharibəyə çevrilmişdir. Güman edirəm, bizim xalqlarımız - həm Azərbaycan xalqı, həm də erməni xalqı belə bir münaqişəni istəmir. Təəssüf ki, ayrı-ayrı ekstremist, millətçi, avantürist qruplar, şəxsi məqsədlərinə nail olmağa çalışan qruplar xalqlarımızı bu münaqişəyə cəlb etmişlər və dediyim kimi, həmin münaqişə böyük bir müharibə şəklini almışdır.

Müharibənin də nəticəsi bu gün ondan ibarətdir ki, erməni

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

silahlı qüvvələri Azərbaycana qarşı təcavüz edərək ərazimizin 20 faizini işğal etmişdir. Azərbaycanın işğal olunmuş ərazisindən bir milyondan artıq vətəndaşımız ev-eşiklərini, el-obalarını itirərək qaçqın düşmüşdür və onlar indi çox ağır şəraitdə yaşayırlar. Biz müharibə istəmirik, ona son qoymağa çalışırıq, Ermənistanla Azərbaycan arasında sülh yaratmaq istəyirik. Çünki erməni xalqı ilə Azərbaycan xalqı əsrlər boyu qonşu olmuşdur və gələcəkdə də yan-yana yaşayacaqlar. Başqa yol yoxdur. Ona görə də bu müharibənin gələcəyi yoxdur, onun nəticəsi ancaq sülh olmalıdır. Sülh isə bir şərtlə ola bilər: iki dövlətin, iki respublikanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı təmin edilsin, yəni Azərbaycanın ərazi bütövlüyü təmin edilsin, erməni işğalçıları Azərbaycan ərazisindən çıxsınlar və azərbaycanlılar öz torpaqlarında yaşaya bilsinlər. Ermənistanın ərazi bütövlüyünə də heç kim qəsd etmək istəmir, onun da sərhədlərinin toxunulmazlığı təmin olunsun. Bu, sadə formula, sadə prinsipdir. Ancaq bunu həyata keçirmək üçün böyük maneələr var və bunlardan biri də olur ki, bayaq dediyim kimi, altı ilə yaxındır müharibə gedir.

Biz Ermənistana torpaq iddiası etmirik. Ancaq öz torpaqlarımızı da, şübhəsiz ki, Ermənistana verə bilmərik.

Bizim sülh təşəbbüslərimiz təəssüf ki, bir nəticə verməmişdir. Beynəlxalq təşkilatların - Birləşmiş Millətlər Təşkilatının, ATƏM-in bu məsələ üzrə yaradılmış xüsusi Minsk qrupunun fəaliyyəti də bir nəticə verməmişdir. Hətta din xadimləri də şeyxülislam Hacı Allahşükür Paşazadə və erməni kilsəsinin rəhbəri də bir neçə dəfə görüşmüşlər. Təəssüf ki, bu görüşlərin də nəticəsi olmamışdır. Ancaq biz yenə də sülhsevər siyasətimizi davam etdiririk, bu məsələnin sülh yolu ilə həll olunmasına çalışacağıq. Eyni zamanda bildirmək istəyirəm ki, Azərbaycan gücsüz də deyildir. Əgər bizim sülhsevər təşəbbüslərimiz nəticə verməsə, biz məcburuq öz torpaqlarımızı güclə azad edək, erməni işğalçılarını torpaqlarımızdan çıxaraq. Şübhəsiz ki, biz sülh yoluna üstünlük veririk və bu yolla gedəcəyik. Ancaq kimsə müharibəni davam etdirmək istəyirsə, biz bunu da edəcəyik. Başqa yolumuz yoxdur. Sizin diqqətinizə bir məsələni də çatdırmaq istəyirəm. Bu münaqişə yalnız ərazi xarakteri daşıyır, yəni erməni silahlı qüvvələri Azərbaycan ərazisinin bir hissəsini tutmuşdur, biz onları oradan çıxarmaq istəyirik. Ermənistanın güclü təbliğatı nəticəsində dünyanın bəzi dairələrində belə bir fikir yaranmışdır ki, guya Azərbaycan dövləti, Azərbaycan hökuməti Dağlıq Qarabağda yaşayan erməniləri qırmaq, o ərazidən qovmaq istəyir. Bunların hamısı yalandır. Belə iddiaların heç bir əsası yoxdur. Mən bir həqiqəti sizin qarşınızda məsuliyyətlə bəyan edirəm: Azərbaycan hökumətinin, Azərbaycan xalqının respublikada yaşayan ermənilərə qarşı heç bir zorakılıq niyyəti, yaxud onları zorla buradan çıxarmaq məqsədi yoxdur. Onlar öz yerlərində rahat yaşaya bilərlər və Azərbaycan döv-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ləti, şəxsən bir prezident kimi mən onların tamamilə təhlükəsiz, sərbəst yaşamasına, öz milli ənənələrindən, mədəniyyətlərindən, dinindən, dilindən azad surətdə istifadə etməklə həyatlarını qurmasına təminat veririk.

Əvvəllər də belə olmuşdur. Dağlıq Qarabağda münaqişə başlayanadək əhalinin 70 faizi ermənilər, 30 faizi azərbaycanlılar idi. Ancaq bu münaqişə nəticəsində, sonra isə başlanmış bu böyük müharibə nəticəsində orada yaşayan 50 min nəfər azərbaycanlı öz ölkəsində, öz dövlətində qaçqın düşmüşdür və Dağlıq Qarabağa qayıtmaq imkanları yoxdur. Ona görə də əgər biz insan hüquqlarının qorunmasından danışırıqsa, şübhəsiz ki, ermənilərin də, azərbaycanlıların da hüquqları qorunmalıdır. Çünki o ərazidə həm ermənilər, həm də azərbaycanlılar yaşamışlar. Orada ermənilərin və azərbaycanlıların yanyana, dostcasına, mehriban yaşamaları üçün şərait yaratmağa imkanımız var. Belə şərait illər boyu olmuşdur və bundan sonra da olacaqdır.

Son vaxtlar Ermənistan - Azərbaycan münaqişəsi, müharibəsi ilə əlaqədar ayrı-ayrı mətbuat orqanlarında təhlükəli şayiələr də yayılmışdır. Bu da ondan ibarətdir ki, bəzi adamlar qəsdən belə fikir yaymağa çalışırlar ki, guya bu müharibə xristian-müsəlman müharibəsinə çevrilə bilər. Bunlar əsassızdır, əvvəlcədən düşünülmüş, fitnəkar xarakter daşıyan təbliğatdır. Mən belə fikirlərə etirazımızı bildirir və onları rədd edirəm. Sizi əmin etmək istəyirəm ki, bizim fəaliyyətimiz ancaq Azərbaycan Respublikasının beynəlxalq təşkilatlar tərəfindən tanınmış və qəbul olunmuş ərazi bütövlüyünü təmin etməyə, sərhədlərimizin toxunulmazlığını təmin etməyə yönəldilmişdir.

Azərbaycanda tarixən çox millətlər yaşamışdır. Burada azərbaycanlılarla yanaşı ruslar, ermənilər, yəhudilər, gürcülər, ukraynalılar və başqaları da yaşamış və gələcəkdə də yaşayacaqlar. Azərbaycan Respublikasının çoxmillətli dövlət olmasını ölkəmiz üçün böyük üstünlük hesab edirik.

Bu fikirlərimi sizə çatdırarkən istədim ki, Azərbaycanın bugünkü vəziyyəti haqqında daha geniş məlumatınız olsun. Eyni zamanda sizin müştərək fəaliyyətinizə müəyyən qədər kömək etmək istəyirəm. Bir daha qeyd edirəm ki, siz çox xeyirxah, dəyərli iş görürsünüz. Bu fəaliyyətinizdə sizə böyük uğurlar arzulayıram. Sizin hamınızı Azərbaycana dəvət edirəm. Çox şad olaram ki, hamınızla Azərbaycanda görüşüm. Əgər birlikdə gələ bilməsəniz, hər birinizi ayrılıqda qəbul etməyə hazıram. Ümidvar olduğumu bildirmək istəyirəm ki, sizinlə əməkdaşlığımız davam edəcəkdir. İnsanlar üçün, bəşəriyyət üçün, dünya üçün bu xeyirxah fəaliyyətinizdə sizə müvəffəqiyyətlər diləyirəm.

Türkiyə Cümhuriyyətinin sizdən ötrü belə bir şərait yaratmasından görünür ki, bizim üçün dost və qardaş olan ölkə, doğrudan da, bütün millətlərin sülh yolu ilə birlikdə getməsinə çalışır. Güman edirəm ki, Türkiyə Cümhuriyyətinin dini işlər naziri də bu təşəbbüsünə görə böyük hörmətə layiqdir.

Mən sizinlə görüşməyimdən məmnun olduğumu bir daha bildirirəm. Diqqətinizə görə təşəkkür edirəm.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

TÜRKİYƏNİN İŞ ADAMLARININ BÖYÜK BİR QRUPU İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

10 fevral 1994-cü il

Hörmətli dostlar, hörmətli arkadaşlar!

Biz buraya, bu salona Türkiyənin mötəbər iş adamları ilə görüşə gəlmişik. Türkiyənin məşhur iş adamlarının Azərbaycana maraq göstərməsini onların burada olmasından görürük. Bildiyiniz kimi, üçüncü gündür ki, mən və Azərbaycan Respublikasının rəsmi nümayəndə heyəti Türkiyədəyik. Biz buraya Türkiyə prezidenti hörmətli Süleyman Dəmirəlin dəvəti ilə gəlmişik və bu üç gün müddətində Azərbaycan ilə Türkiyə arasında dostluq, qardaşlıq əlaqələrinin inkişaf etdirilməsi üçün danışıqlar aparmışıq. Nəhayət, dünən bir çox müqavilələr, protokollar imzalamışıq. Bunların hamısı Azərbaycan ilə Türkiyə arasında əməkdaşlığın keyfiyyətcə yeni bir mərhələyə qalxdığına sübutdur, münasibətlərimizdə yeni bir səhifə açır.

Fürsətdən istifadə edərək, bu günlərdə Azərbaycanın nümayəndə heyətinə, şəxsən mənə göstərilən qayğı və hörmət üçün Türkiyədəki qardaşlarımıza, o cümlədən dövlət rəhbərlərinə, sadə adamlara öz minnətdarlığımı bildirirəm. Bu gün buraya, bu görüşə toplaşdığınıza görə sizə təşəkkür edirəm.

Apardığımız danışıqlar və bu danışıqlar nəticəsində əldə edilən müqavilələr ən əvvəl Azərbaycan ilə Türkiyə arasında iqtisadi əlaqələrin genişləndirilməsinə yönəldilmişdir. Bu sənədlərdə iqtisadi əlaqələr geniş səpkidə nəzərdə tutulur. O mənada ki, bütün sahələrdə əməkdaşlıq olmalıdır. Biz istəyirik ki, əməkdaşlığımız bütün sahələri əhatə etsin və Azərbaycan ilə Türkiyənin İqtisadiyyatı bir-birinə daha da yaxınlaşsın, daha da çulğalaşsın. Çünki bu, həm iqtisadi nöqteyi-nəzərdən Azərbaycan üçün çox əhəmiyyətlidir, həm də tarixi dostluğumuzu, qardaşlığımızı davam etdirmək üçün vacibdir. Bu əlaqələr istər ticarətdən, istərsə də Türkiyənin ayrı-ayrı şirkətlərinin Azərbaycan şirkətləri, müəssisələri, sənayesi, kənd təsərrüfatı ilə görəcəyi işlərdən ibarətdir.

Mən istərdim ki, bu gün biz bu barədə geniş söhbət aparaq, sizi də dinləyək, təkliflərinizi bilək. Lakin ümumilikdə götürdükdə mən öz fikrimi söyləmək üçün bir neçə kəlmə demək istəyirəm. Güman edirəm ki, söhbətimiz baş tutacaqdır.

Qeyd etmək istəyirəm ki, Türkiyə ilə Azərbaycan arasında iqtisadi əlaqələrin, ümumiyyətlə, aramızdakı əlaqələrin 3-4 illik tarixi var. Yəni Azərbaycan öz müstəqilliyini hədə əldə etməzdən əvvəl Türkiyənin firmaları, iş adamları, şirkətləri Azərbaycana maraq göstərmişlər. Bunun nəticəsində müəyyən əlaqələr yaradılmışdır. Amma bu əlaqələr heç də istənilən səviyyədə inki-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

şaf etməmişdir. Açığını desək, onlar əsasən ticarət sahəsində olmuşdur. O da doğrudur ki, bu əlaqələr iqtisadi əlaqələrin böyük bir hissəsini təşkil etmişdir. Amma bizim iqtisadiyyatlarımızı bir-birinə sıx bağlayan müştərək müəssisələr, iş yerləri yaradılması məsələsi bu müddətdə təəssüf ki, çox zəif, aşağı səviyyədə olmuşdur. Halbuki əlaqələr çoxsahəli olmalıdır.

Biz ticarət əlaqələrinin davam etdirilməsinə yol açmışıq və bundan sonra da açacağıq. Çünki Azərbaycan öz iqtisadiyyatını sərbəst iqtisadiyyat prinsipləri əsasında qurmaq və inkişaf etdirmək məramındadır. Bununla yanaşı olaraq, biz çox istərdik ki, Türkiyənin iş adamları, xüsusən sənaye, kənd təsərrüfatı sahəsində, sosial sahədə mükəmməl texnologiyalara malik böyük şirkətləri, firmaları Azərbaycanın şirkətləri, iş adamları ilə, o cümlədən bizim böyük müəssisələrimizlə əməkdaşlıq etsinlər. Belə ki, bizim bu müəssisələrin böyük imkanları var, ona görə də mən sizi bu imkanlardan səmərəli istifadə etməyə çağırıram.

Türkiyə prezidenti ilə, başqa yüksək vəzifəli şəxslərlə dünən imzaladığımız müqavilələrin, protokolların əksər hissəsi iqtisadi əlaqələrə aiddir. Biz belə hesab edirik ki, iqtisadi əlaqələri ən əvvəl Türkiyənin böyük təcrübəsi, böyük iqtisadi potensialı, texniki potensialı olan şirkətləri ilə qurmaq lazımdır. Biz bu şirkətləri Azərbaycana dəvət edirik və ölkəmizdə onların fəaliyyət göstərməsi üçün hər cür şərait, hər cür imkan yaratmağa hazırıq.

Bəzən də ayrı-ayrı şirkətlər Azərbaycanda bir iş görmək istəmədiklərini onunla izah edirlər ki, ölkəmizdə müharibə gedir və guya bu müharibənin nə ilə qurtaracağı məlum deyildir, daxildə sabitlik təmin olunmayıbdır, Azərbaycanda əsla istiqlal yoxdur. Odur ki, bəzi şirkətlər Azərbaycanda kapital qoymaqdan, əsaslı, iri müştərək müəssisələr yaratmaqdan ehtiyat edir, bundan çəkinirlər.

Mən sizə bildirmək istəyirəm ki, bundan ehtiyat etməyin, belə fikirlərə düşməyin heç bir əsası yoxdur. Azərbaycanın böyük iqtisadi potensialı var, bununla yanaşı çox böyük elmi potensialımız mövcuddur. Biz yaxşı mühəndislərə, təcrübəli sənayeçilərə malikik. Odur ki, çəkinmədən işə Girişmək olar. O ki qaldı Azərbaycanın müharibə şəraitində olmasına, bilin ki, müharibə daim davam edə bilməz, Azərbaycan Respublikası öz ərazi bütövlüyünü, müstəqilliyini təmin edəcəkdir. Azərbaycan xalqı vz sərvətlərinin sahibidir və sahibi olacaqdır. Bir sözlə, ehtiyat edib çəkinmək lazım deyildir.

Azərbaycanda ictimai-siyasi sabitliyə gəlincə, əmin ola bilərsiniz ki, bunlar xırda məsələlərdir. Ümumiyyətlə, bütövlükdə Azərbaycanda daxili ictimai-siyasi vəziyyət sabitdir və bundan

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sonra daha da sabitləşəcəkdir. Sizi tamamilə əmin edə bilərəm ki, bu sabitlik getdikcə, gündən-günə daha da möhkəmlənəcəkdir. Sözün qısası, Türkiyənin iş adamları gecikməməli, fürsəti əldən verməməli, Azərbaycan kimi zəngin bir ölkədə öz işlərinin bünövrəsini qoymalıdırlar. Mən sizi bu işə dəvət edirəm. Ən əvvəl ona görə ki, bir daha təkrar edirəm, məqsədimiz Azərbaycan İqtisadiyyatının Türkiyə ilə daha sıx əlaqədə olmasından ibarətdir. Bunun həm iqtisadi, həm də mənəvi, siyasi əhəmiyyəti var. İkincisi də ona görə dəvət edirəm ki, siz iş adamlarısınız, qol qoyduğunuz hər bir işin bəhrəsini görmək istəyirsiniz. Əmin ola bilərsiniz ki, Azərbaycanda belə iş görmək və ondan yaxşı nəticə hasil etmək imkanı var. Mən sizin hamınıza bu yolda uğurlar arzulayır və güman edirəm ki, gələcək əməkdaşlığımız səmərəli olacaqdır.

Buraya toplaşdığınıza görə sizə bir daha təşəkkürümü bildirirəm. Ümidvaram ki, müəyyən müddətdən sonra işgüzar danışıqlarımıza yenidən qayıdacaq və bu zaman ayrı-ayrı konkret məsələləri müzakirə edəcəyik.

Diqqətinizə görə təşəkkür edirəm. Sağ olun!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

TÜRKİYƏDƏ RƏSMİ SƏFƏRDƏ OLARKƏN ORADA YAŞAYAN AZƏRBAYCANLILARLA GÖRÜŞDƏ ÇIXIŞ

10 fevral 1994-cü il

Hörmətli həmvətənlərimiz, qardaşlarımız, dostlarımız!

Mən sizinlə görüşdüyümə görə özümü xoşbəxt hesab edirəm. Türkiyədə biz özümüzü öz evimizdə, öz vətənimizdə olduğu kimi hiss edirik. Burada yaşayan Azərbaycan köklü qardaşlarımızla, həmvətənlərimizlə görüş bizim üçün böyük şərəfdir.

Tarixə nəzər salsaq, bir daha görərik ki, Türkiyə ilə Azərbaycan bir xalq, bir millət kimi qəbul olunub. Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr əsrlərdən-əsrlərə keçərək bu iki ölkənin qabaqcıl, bilikli adamları, siyasətçiləri, sərkərdələri vasitəsilə formalaşıb, inkişaf edib, bu günümüzə gəlib çatmışdır.

Doğrudur, arada fasilə də olmuşdur. Ötən 70 ildə Azərbaycan sovetlər birliyinin tərkibində olduğu zaman Türkiyə ilə Azərbaycan arasında münasibətlər qırılmış və minlərlə, on minlərlə ailələr, insanlar öz qohum-əqrəbalarını, qardaşlarını, bacılarını görmək həsrətində olmuşlar. Bir çoxları isə bu ümidləri yerinə yetmədən həyatdan köçmüşdür. Ancaq son illərdə böyük fürsət əldə olunmuş, Azərbaycan müstəqil dövlət kimi dünyada tanınmış və Azərbaycanla Türkiyə arasındakı sədlər, sərhədlər, qadağalar, yasaqlar götürülmüşdür. İndi bu iki qardaş ölkə arasındakı əlaqələr çox genişdir. Türkiyədə yaşayan hər bir azərbaycanlı öz vətənini ziyarət etmək imkanına malikdir. Eyni zamanda hər bir azərbaycanlı da böyük həvəslə, məhəbbətlə gəlib, Türkiyəni ziyarət edə bilir, öz qardaşlarına hörmətini, ehtiramını bildirir.

Bunlar son illərdə bizim həyatımızın ən önəmli, gözəl bir mərhələsidir. Xalqlarımızın birləşməsi, qovuşması, birgə yaşaması üçün şərait yaranmışdır. Bundan sonra heç bir qüvvə bu birliyi poza bilməyəcəkdir.

Türkiyə Cümhuriyyəti, onun rəhbərləri Azərbaycan müstəqillik yolunda ilk addımlarını atarkən, respublikamız müstəqillik qazanarkən onu dünya dövlətləri içərisində birinci tanıdı. Türkiyənin bu addımı Azərbaycanın bütün dünya dövlətləri, dünya birliyi tərəfindən tanınmasına çox böyük kömək oldu və geniş yol açdı.

İndi Azərbaycan müstəqil dövlətdir, Birləşmiş Millətlər Təşkilatının üzvüdür, dünya dövlətləri tərəfindən tanınıb, müstəqil dövlət kimi fəaliyyət göstərir.

Azərbaycanın müstəqilliyi barədə Türkiyədə müxtəlif fikirlər var. Bir çoxları fikirləşir ki, bu müstəqillik daimidir, Yoxsa yox. Bunun şübhəsiz ki, müəyyən qədər əsası var. Tarixə nəzər

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

salanda belə qorxu hissi təbiidir. Ancaq mən sizi əmin etmək istəyirəm ki, sovetlər birliyinin dağılması təbii bir haldır, sovetlər birliyi artıq bir də yarana bilməz. Bunu mən həyat təcrübəsi, siyasi təcrübəsi olan bir adam kimi deyirəm. Eləcə də Azərbaycanın müstəqilliyinin əldən getməsi heç vaxt ola bilməz.

Birincisi ona görə ki, Azərbaycan xalqı bu müstəqillik arzusu ilə uzun illər yaşayıb, on illərlə, yüz illərlə müstəqillik həsrətində olub. Bir dəfə 1918-ci ildə müstəqillik əldə edilib, lakin bəzi səbəblərə görə sonradan itirilib. Sonrakı 70 il ərzində başqa bir ideoloji sistem çərçivəsində yaşayan Azərbaycan xalqının içində onun qabaqcıl adamları, ziyalıları, uzaqgörən siyasətçiləri həmişə bu müstəqilliyin arzusunda olmuşlar. Xalqın içində isə bu müstəqillik arzusu daim yaşayıb. Ona görə də xalqın bu iradəsini sındırmaq artıq mümkün deyil. Dünya dəyişib, dünyada gedən dəyişikliklər nəticəsində Azərbaycan xalqının milli oyanış, milli yüksəliş dövrü gəlib çatıb. Ona görə də Azərbaycan xalqının bu iradəsini sındırmaq mümkün deyildir və əmin olun ki, bu belə də olacaq.

İkincisi də ona görə ki, mən Azərbaycan xalqının etimadı ilə prezident kimi fəaliyyətə başlayarkən əlimi Azərbaycanın Konstitusiyasına, ana yasasına və Qurani-Kərimə basıb demişəm ki, mən prezident kimi Azərbaycanın daimi müstəqilliyinin təminatçısı olaraq bu vəzifəni öz üzərimə götürürəm. Azərbaycanın prezidenti, ziyalıları, siyasətçiləri hamısı birləşib bu müstəqilliyi saxlayacaqlar. Buna tam əmin ola bilərsiniz. Mən prezident kimi söz verirəm ki, həyatımın son dəqiqəsinə qədər, nəfəsimin son anına qədər Azərbaycanın müstəqilliyini qoruyub saxlayacağam.

Ancaq bir həqiqəti də bilmək lazımdır ki, Azərbaycan 200 il Rusiya imperatorluğunun tərkibində, 70 il sovet imperiyası tərkibində olub. İndi keçmiş Sovetlər İttifaqında, Qafqazda gedən proseslər Azərbaycanın müstəqil yaşaması üçün çox böyük çətinliklər yaradır. Siz təsəvvür edin, Qafqaz dağlarından cənub tərəfə üç cümhuriyyət var - Ermənistan, Gürcüstan və Azərbaycan. Altı ildir ki, Ermənistan Azərbaycanla müharibə aparır.

Azərbaycanın müstəqilliyini saxlamaq asan bir iş deyil. Bunun üçün xalqımız, millətimiz - siyasi dünyagörüşündən asılı olmayaraq bütün Azərbaycan xalqı bu gün bir məqsədə - Azərbaycanın müstəqilliyini qoruyub saxlamağa xidmət etməlidir.

Çətinlik yaradan digər səbəb isə odur ki, Azərbaycan altı ildir Ermənistanla müharibə şəraitindədir. Altı ildir ki, Ermənistan Azərbaycan ərazilərinə, torpaqlarına təcavüz edir. Təəssüf ki, bu müddət ərzində Azərbaycanda gedən bəzi proseslər nəticəsində, xalqın yox, xalqın etimal etdiyi dairələrin, şəxslərin bacarıqsızlığı nəticəsində erməni silahlı qüvvələri öz iddialarını həyata keçirmək üçün müəyyən sahələrdə müvəffəqiyyət qazanıblar, Azərbaycan torpaqlarının bir qismini işğal ediblər. Dağlıq Qarabağ artıq tamamilə erməni silahlı qüvvələrinin işğalı altındadır. Dağlıq Qarabağdan kənarda da Azərbaycan torpaqlarının bir qismi erməni işğalçılarının əlin-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dədir. Ona görə də indi, müharibə getdiyi bir dövrdə Azərbaycanın müstəqilliyini əldə saxlamaq asan bir iş deyildir.

Bir həqiqəti də bilmək lazımdır ki, ötən altı ildə Azərbaycana xaricdən təcavüz - bu təcavüz isə ancaq tək Ermənistanın təcavüzü deyil, - Azərbaycanı parçalamaq, dağıtmaq, onun güclü bir dövlət olmasına imkan verməmək məqsədi daşıyan qüvvələrin hamısının birlikdə təcavüzüdür. Belə təcavüzə məruz qaldığı bir dövrdə Azərbaycan, qüvvələrini toplayıb özünü müdafiə etmək əvəzinə respublikanın daxilində parçalanma getmişdir. Bundan istifadə edən ayrı-ayrı qruplar, siyasi qüvvələr hakimiyyət davası etmişlər. Ölkənin içərisində gedən hakimiyyət davası dövründə Ermənistan bu imkanlardan istifadə edərək Azərbaycan torpaqlarını zaman-zaman, bir-birinin ardınca işğal etməyə nail olmuşdur.

İndi işğal olunmuş torpaqları azad etmək, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək asan məsələ deyil. Biz Ermənistan silahlı qüvvələri ilə üz-üzə durub vuruşuruq. Siz bunu da bilirsiniz ki, dünyada Ermənistanı dəstəkləyən qüvvələr nə qədər çoxdur. Ermənistanı o tərəfdən də, bu tərəfdən də, Şərqdən də, Qərbdən də, Şimaldan da, Cənubdan da dəstəkləyirlər. Belə bir dövrdə müharibəni aparmaq, torpaqlarımızı azad etmək üçün, şübhəsiz ki, bizim hamımızın birgə gücü lazımdır.

Bu baxımdan biz Türkiyənin köməyinə, dəstəyinə həmişə arxalanmışıq və bundan sonra da arxalanacağıq. Şübhə etməyin ki, Azərbaycan xalqı bu ağır sınaqdan da çıxacaq, öz torpaqlarını azad edəcək, öz müstəqilliyini qoruyub saxlayacaq, xalqımız özünün bütün ərazisində öz taleyinin sahibi olacaqdır.

1993-cü il Azərbaycan üçün daha da ağır il oldu. Bilirsiniz ki, müharibə getdiyi bir dövrdə Azərbaycanın içində vətəndaş müharibəsi təhlükəsi meydana çıxdı. Məncədə, Bakının ətrafında qardaş qanı töküldü. Ayrı-ayrı qüvvələr hakimiyyət uğrunda bir-biri ilə mübarizəyə başladılar. Bundan istifadə edən düşmənlərimiz, Ermənistan ərazisindən isqiqamətlənən düşmənlərimiz Azərbaycanı parçalanmaq həddinə gətirib çıxarmışdılar. Bunları siz yaxşı bilirsiniz.

Bunların qarşısını almaq o qədər də asan məsələ deyildi. Biz bu işlərlə məşğul olduq və siz şahidsiniz ki, son aylarda Azərbaycan ordusu öz gücünü toplayıb, xalqımızda milli vətənpərvərlik hissi güclənib, döyüş ruhu yüksəlib. Xalq artıq dərk edib ki, öz torpağını o özü qorumalıdır. Kənardan heç kəs gəlib onun torpağını qorumayacaqdır. Bu heç mümkün olası iş də deyil. Əgər sən bir yerdə yaşayırsansa, sənin bir evin, koman varsa, onun sahibisənsə, onu qorumalısan. Əgər qoruya bilirsənsə, demək, sən namuslu, şərəfli adamsan, həm də doğrudan da vətənpərvər insansan. Əgər qoruya bilmirsənsə, sənin heç yaşamaq haqqın da yoxdur.

Azərbaycanda xalqın əksəriyyətinin içində artıq belə bir əhval-ruhiyyə yaranıb. Mən sizə deyim ki, bir sıra rayonlarımız, orada döyüşlər getmədən, qurbanlar verilmədən, düşmənə layiqli müqavimət göstərilmədən işğal olundu. Adicə bir hay-küy nəticəsində, xırda biratışma nəticəsində, daxildə olan bəzi təxribatçı

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qüvvələrin düşmənçilik hərəkətləri nəticəsində böyük-böyük bölgələrdən əhali kütləvi surətdə çıxıb qaçdı. Ermənilər isə davasız-şavasız, müqavimətsiz gəlib bu torpaqlarda oturdular. Onlar buraya asanlıqla gəldilər. Amma onları bu torpaqlardan çıxarmaq, geriyə oturtmaq, həmin torpaqları azad etmək çox çətindir. Təsəvvür edin, işğal olunmuş həmin bölgələrdən, torpaqlardan bir milyondan artıq qaçqın var. Bir milyon Azərbaycan vətəndaşı öz evini, obasını, elini itirib, ulu babasından qalan varını-dövlətini itirib, qaçqın vəziyyətində, çadır altında, ağır şəraitdə yaşayır, işləməyə yeri yoxdur, yeməyə çörəyi yoxdur. Bunların hamısını təmin etmək lazımdır. Bəlkə də məhz bütün bunlar Azərbaycan xalqında milli oyanış, milli dirçəliş, milli vətənpərvərlik ruhu, özünü müdafiə etmək cəsarəti yaradıbdır.

Bu ruh artıq özünü göstərir. Son vaxtlar Azərbaycan ordusu formalaşır, qəhrəmancasına döyüşərək torpaqlarımızı qoruyur, onun bir hissəsini artıq geriyə qaytarır. Ötən tarixə bir daha nəzər salmaqla belə bir fikrə gəlirik ki, indiki dövrdə Azərbaycan xalqının birləşməsi, həmrəy olması hava, su kimi lazımdır. Bunu xüsusi qeyd edirəm, ona görə ki, xalqımızda məhz son illər bu xüsusiyyətlər çatmayıb. Ona görə də Azərbaycan belə ağır vəziyyətə düşmüşdür.

Bu baxımdan Türkiyədə yaşayan azərbaycanlıların respublikamıza göstərdikləri kömək, qayğı, mənəvi dayaq çox önəmli və əhəmiyyətlidir. Türkiyə Cümhuriyyətinin və onun rəhbərlərinin son illərdə Azərbaycana göstərdikləri kömək çox böyükdür və biz bunu yüksək qiymətləndiririk. Ancaq onu da deyə bilərəm ki, Azərbaycanda Türkiyənin bu qardaşlıq yardımına bərabər səviyyədə işlər görülməyibdir. Bəlkə də görülsəydi, Azərbaycanda belə ağır vəziyyət yaranmazdı.

Harada olursa-olsun, azərbaycanlıların birlikdə, bərabər olması əsas şərtlərdən biridir. Biz çalışırıq ki, Azərbaycanın daxilində bütün qüvvələri toplayaq. Eyni zamanda respublikadan kənarda yaşayan azərbaycanlılar da öz qüvvələrini toplamalıdırlar. Ayrı-ayrı qüvvələrin, qrupların arasında fikir müxtəlifliyi ola bilər. Bu, təbii haldır. Ancaq Azərbaycanın müstəqilliyini qorumaq, ərazi bütövlüyünü saxlamaq üçün hamı bütün başqa fikirləri kənara qoyub birləşməli, bir hədəfə vurmalı, bir məqsədə xidmət etməlidir.

Yeri gəlmişkən, onu da deyim ki, Azərbaycan keçmiş iqtisadi-siyasi sistemə dönə bilməz. Buna da siz tam əmin olun. Azərbaycan dünyanın artıq təcrübədən keçmiş siyasi-iqtisadi sistemləri yolu ilə gedəcəkdir. Azərbaycanda hüquqi demokratik dövlət, cəmiyyət qurulur, fikir, söz, din, dil azadlığı tamamilə bərqərar olur. Azərbaycanın bütün vətəndaşları dilindən, dinindən, irqindən asılı olmayaraq eyni hüquqlara malikdirlər. İndi respublikamızda qırxa yaxın partiya fəaliyyətdədir. Bunların hamısı üçün lazımi şərait yaradılır və yenə də yaradılacaqdır. Azərbaycanda demokratiya günü-gündən inkişaf edəcəkdir. Siz bilməlisiniz ki, 70 il ərzində bir rejim altında yaşayan bir ölkədə bu dəyişiklikləri etmək o qədər də asan deyil. Bunu təkcə İnqilab yolu

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ilə etmək mümkün deyil. Bütün bunlar tədrici yolla getməlidir. İnsanlar yeni sistemə, yeni quruluşa, yeni psixologiyaya uyğunlaşmalıdırlar Ancaq demokratiya mədəniyyət deməkdir, demokratiya sivilizasiya deməkdir. Demokratiya o deməkdir ki, hər kəs öz sözünü dostluq, qardaşlıq münasibəti ilə desin. Bütün bunları düşmənçiliklə, təxribat törətməklə etmək düzgün deyildir. Çox təəssüf ki, Azərbaycanın bu keçid dövründə biz belə hallara hələ də rast gəlirik.

Siz əmin ola bilərsiniz ki, Azərbaycanda demokratik prinsiplərə əməl olunacaq, ölkəmiz sərbəst bazar İqtisadiyyatı yolu ilə gedəcək, ümumdünya bəşəri dəyərlərdən istifadə edərək öz dövlətini quracaqdır. Azərbaycan sivilizasiyalı, demokratik dövlət kimi dünya birliyinin layiqli üzvü olacaqdır.

Türkiyə bizim üçün qardaş ölkədir. Ona görə də bütün bu məsələlərin həllində Türkiyənin yardımına güvənirik, onun mənəvi dayağına küvənirik. Eyni zananda Türkiyədə yaşayan azərbaycanlıların köməyinə güvənirik. İstəyirik ki, azərbaycanlılar nə Azərbaycanda, nə Türkiyədə, nə də Avropada yaşadıqları yerlərdə parçalanmasınlar, bir-birindən ayrılmasınlar, xırda hisslərə qapılmasınlar, bir-birinə qarşı qruplar düzəltməsinlər. Hamı bir fikirdə olsun ki, biz Azərbaycanı sivilizasiya, dünya mədəniyyəti yolu ilə, dünya demokratiyası yolu ilə aparmalıyıq.

Bildiyimiz kimi Türkiyədə Azərbaycan Kültür Dərnəyi var. Mən onun rəhbərləri ilə bir neçə dəfə görüşmüşəm. Lap bu yaxınlarda onlar Bakıya gəldilər və biz oturub söhbət etdik. Mən buraya gələrkən xahiş etdim ki, səfər proqramına salsınlar və mən bu Kültür Dərnəyini də ziyarət edim. Yəni bir dərnək varsa və orada azərbaycanlılar toplanırsa, mən oranı ziyarət etməyi özümə borc bildim. Sonra bəzi səbəblərə görə bu dərnəyi ziyarət etmək bizə nəsib olmadı. Ancaq bu heç də böyük itki deyildir.

Mən belə hesab etmirəm ki, Kültür Dərnəyi Türkiyədə yaşayan bütün azərbaycanlıları təmsil edir. Burada çıxış edənlərin biri dedi ki, Türkiyədə bir milyon köklü azərbaycanlı yaşayır. Bunların hamısını Azərbaycan Kültür Dərnəyi idarə etmir və edə də bilməz.

1992-ci ildə hörmətli dostum və qardaşım Süleyman Dəmirəl məni İzmirə dəvət etmişdi. Hava limanına gələndə məni qarşılayıb dedilər ki, burada Azərbaycan dərnəyi var və biz sizinlə görüşmək istəyirik. Mən də razılaşdım. Onların heç birini tanımırdım. Məni gəlib apardılar, gedib orada görüşəndə azərbaycanlıların daha bir qrupu gəldi və dedilər ki, siz buraya düz gəlməmisiniz, azərbaycanlılar başqa yerdədir. Mən dedim ki, əcəba, mən bilmirəm axı, haradadırlar, məni buraya gətiriblər. Mən o vaxt mərhum Turqut Özalla görüşə getmək ərəfəsində olsam da, onlar deyən yerə də getdim və gördüm ki, buraya da xeyli azərbaycan-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lı yığışıb. Amma bəs nə üçün ayrılıblar? Bir dərnək orada, bir dərnək buradadır. Axı, bunlar hamısı bir yerdə olmalıdır, bir-biri ilə rəqabət aparmamalıdır. Mən bunun canlı şahidi oldum.

Biz dünya azərbaycanlılarının həmrəylik, birlik gününü elan etmişik. Biz istərdik ki, dünya azərbaycanlıları həmrəy olsunlar, daha da bir olsunlar. Azərbaycanlıların ən çox yaşadığı ölkələrdən biri də Türkiyədir. Biz istəyirik ki, burada da, Azərbaycanda da, bütün dünyada da azərbaycanlılar bir olsunlar. Bizim arzumuz, istəyimiz budur. Mən bu duyğularla, bu hisslərlə yaşayıram.Öz prezidentlik vəzifəmi bundan sonra həyata keçirəcəyim dövrdə də bu hissləri əsas tutacağam. Əmin olun ki, Azərbaycanla Türkiyə arasındakı dostluq və qardaşlıq əlaqələrini daha da möhkəmləndirəcək, inkişaf etdirəcəyik.

Mən bir prezident kimi, respublikamızda yaşayan bütün azərbaycanlıları birləşdirib, Ermənistan silahlı quvvələrinə qarşı mübarizəmizi sona çatdırmaq, Azərbaycanın müstəqilliyini qorumaq, ərazilərimizin bütövlüyünü təmin etmək əzmindəyəm. Buna görə də sizdən və bütün dünya azərbaycanlılarından mənəvi yardım gözləyirəm.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İSTANBULDA MƏTBUAT MƏRKƏZİNDƏ JURNALİSTLƏR VƏ KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ NÜMAYƏNDƏLƏRİ ÜÇÜN MƏTBUAT KONFRANSINDA BƏYANAT

11 fevral 1994-cü il

Türkiyəyə səfərimiz sona çatır. Bir-iki saatdan sonra biz Türkiyədən ayrılacağıq. Gördüyünüz işlər haqqında, mənim Türkiyəyə səfərimin məqsədi haqqında sizə məlumat vermək üçün görüşünüzə gəlmişəm.

Bilirsiniz ki, Azərbaycan prezidenti kimi fevralın 8-də mən Türkiyə Cümhuriyyətinin prezidenti hörmətli Süleyman Dəmirəlin dəvəti ilə buraya rəsmi səfərə gəlmişəm. Səfərin məqsədi Türkiyə ilə Azərbaycan arasında əlaqələri daha da genişləndirmək və inkişaf etdirməkdir. Bildiyiniz kimi, son illərlə bu əlaqələr sürətlə inkişaf etmişdir. Türkiyə Azərbaycanın istiqlaliyyətini dünyada tanıyan ilk dövlətdir. Türk xalqı ilə Azərbaycan xalqının tarixində, milli ənənələrində, mədəniyyətində çox oxşarlıq var. Dəfələrlə demişik və bu gün də qeyd edə bilərəm ki, hətta biz bir kökdən gələn xalqlarıq. Ona görə də Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin sıx olması təbii bir haldır. Ancaq biz daim bu əlaqələri daha da inkişaf etdirməyə çalışırıq. Bu məqsədlə də Türkiyə prezidenti hörmətli Süleyman Dəmirəlin dəvətini qəbul edərək Türkiyəyə gəldim. Mənimlə birlikdə Azərbaycandan böyük bir heyət də gəlmişdir.

Burada dörd gün ərzində görülən işlər mətbuatdan sizə məlumdur. Doğrudur, bəzi qəzetlərə baxanda görürük ki, onlar bu barədə çox az və qısa məlumat verirlər. Ola bilər, bu, Türkiyə mətbuatının xüsusiyyətidir. Ancaq mən güman edirəm ki, Türkiyə ictimaiyyəti, Türkiyə xalqı bu dörd gün ərzində Azərbaycan prezidentinin səfərindən lazımınca xəbərdardır, bizim görüşlərimiz, danışıqlarımız ictimaiyyətə məlumdur.

Burada mən Türkiyə prezidenti hörmətli Süleyman Dəmirəllə çox ətraflı, geniş söhbətlər apardım. Türkiyənin baş naziri hörmətli Tansu Çillərlə ətraflı danışıqlarımız oldu. Türkiyə parlamentinin başçısı hörmətli Hüsaməddin Cindoruqla görüşümüz və çox mənalı söhbətlərimiz oldu. Mənim üçün çox mühüm hadisələrdən biri də Türkiyə Böyük Millət Məclisində millət vəkillərinə xitabən Azərbaycan haqqında, Azərbaycan ilə Türkiyənin əlaqələri haqqında və bu əlaqələrin genişlənməsi üçün Azərbaycan tərəfinin düşüncələri haqqında danışmağıma verilən imkan idi. Mən bu hadisəni yüksək qiymətləndirirəm və Türkiyə Böyük Millət Məclisində millət vəkilləri qarşısında çıxış etməyimdən çox məmnunam.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bütün bu danışıqların, görüşlərin çox əhəmiyyətli nəticəsi olmalıdır. Bu nəticə ondan ibarətdir ki, Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında dostluq və əmökdaşlıq müqaviləsi imzalanmışdır. Həmin müqavilədə çox əhəmiyyətli müddəalar var və bu sənəd gələcək əlaqələrimizin inkişafı üçün çox dəyərli və gərəkli əsasdır. Bununla yanaşı, biz Türkiyə Cümhuriyyətinin dövlət rəhbərləri ilə, nazirlərlə 16-dək müqavilə və protokol imzaladıq. Həmin sənədlərdə də ayrı-ayrı sahələrdə əlaqələrimizin genişləndirilməsi və inkişaf etdirilməsi proqramı öz əksini tapmışdır. Bizim əsas məqsədimiz əlaqələrimizi daha da çoxtərəfli etmək, daha da genişləndirmək, dərinləşdirməkdir.

Danışıqlarımızda bir problem də olmuşdur. Həmin problem ondan ibarətdir ki, indi Azərbaycan ağır müharibə şəraitində olduğuna görə, Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində torpaqlarının 20 faizini itirdiyinə görə, işğal olunmuş həmin ərazilərdən bir milyondan artıq vətəndaşımız qaçqın düşdüyünə görə Azərbaycana Türkiyə Cümhuriyyəti tərəfindən daha kəsərli, tutarlı yardım göstərilməsini Türkiyə Cümhuriyyətinin rəhbərlərindən rica etmişdik. Türkiyə hökuməti bundan əvvəl Azərbaycana 250 milyon dollar kredit vermişdir. Həmin kreditin az bir hissəsindən istifadə olunmuşdur, qalanından da indi istifadə edilməkdədir. Bəzi səbəblərə görə həmin kreditdən istifadə olunmasında çətinliklər yaranmışdır. Bunları aradan qaldırmaq üçün də müvafiq danışıqlar apardıq. Eyni zamanda bizim yeni kreditə ehtiyacımız var. Bir də Azərbaycan əhalisini çörəklə təmin etmək üçün ehtiyatlarımız tükəndiyinə görə və müharibə şəraitində başqa imkanlarımız olmadığına və yaxud bu imkanlar məhdud olduğuna görə Türkiyədən Azərbaycana pulsuz-parasız taxıl verilməsini Türkiyə rəhbərlərindən xahiş etdim.

Məmnuniyyət hissi ilə deyə bilərəm ki, bizə 100 min ton taxıl verilməsi barədə xahişimizə müsbət yanaşılmış, Türkiyənin rəhbərləri həmin xahişin yerinə yetirilməsi üçün müəyyən tədbirlər görüldüyü haqqında bizə məlumat vermişlər. Ümidvaram ki, Azərbaycanın bu dar, çox ağır günündə Türkiyə Cümhuriyyəti Azərbaycan xalqına qardaş köməyini əsirgəməyəcəkdir.

Bizim danışıqlarımızda Azərbaycan ilə Türkiyənin xarici siyasət sahəsində də fəaliyyətinin əlaqələndirilməsi məsələsinə toxunulmuşdur. Hər iki tərəf belə fikrə gəlmişdir ki, Türkiyə xarici siyasət sahəsində də Azərbaycana kömək edəcək və biz beynəlxalq təşkilatlarla, böyük dövlətlərlə əlaqələrimizdə Türkiyənin dünyadakı nüfuzundan və təsirindən bundan sonra da istifadə edə biləcəyik.

Azərbaycan müstəqillik yoluna çıxmış gənc dövlətdir, biz xarici siyasətdə ilk addımlarımızı atırıq. Ona görə də bütün sahələrdə məsləhətlərə ehtiyacımız var və danışıqlarda bu barədə də razılığa gəlmişik.

İndi Azərbaycanın ən ağır problemi ölkəni erməni təcavüzündən xilas etməkdir. Bildiyiniz kimi, Ermənistan altıncı ildir ki, Azərbaycana qarşı hərbi təcavüz edir. Bunun nəticəsində

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Azərbaycan torpaqlarının bir hissəsi işğal olunmuş, onun ərazi bütövlüyü pozulmuş, bir milyonadək vətəndaşımız öz yaşayış yerlərindən didərgin düşmüşdür. Onlar Azərbaycanın başqa bölgələrində çox çətin şəraitdə yaşayırlar. Ona görə də Azərbaycanla Ermənistan arasında gedən müharibəyə son qoymaq, respublikamızın ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını təmin etmək məsələsi danışıqlarımızda mühüm yer tutmuşdur. Türkiyə Cümhuriyyətinin rəhbərləri Azərbaycan Respublikasının bu sahədə həm diplomatiya yolu ilə gördüyü işlərə, həm də xalqı səfərbər edib torpaqlarımızı qorumaq üçün gördüyü tədbirlərə müsbət qiymət vermişlər. Bu məsələlər ətrafında geniş fikir mübadiləsi aparmışıq və deyə bilərəm ki, mövqelərimiz eynidir.

Ermənistanın Azərbaycana təcavüzü misli görünməmiş təcavüzdür. Bəlkə də dünya miqyasında buna bənzər təcavüz olmamışdır. Azərbaycanın əvvəlki dövlət orqanları ölkənin ərazi bütövlüyünü qoruyub saxlamaq üçün lazımi tədbirlər görə bilmədiyindən Ermənistan silahlı qüvvələri öz niyyətlərini həyata keçirmiş və qeyd etdiyim kimi, Azərbaycan torpaqlarının bir hissəsini işğal etmişdir. Biz bu məsələ ilə çox çiddi məşğul oluruq. Çünki bu, Azərbaycan üçün ən başlıca problemdir. Şübhəsiz ki, biz bu məsələni sülh yolu ilə, danışıqlar vasitəsilə həll etmək istəyirik. Bu baxımdan biz daim Birləşmiş Millətlər Təşkilatının və başqa beynəlxalq təşkilatların, o cümlədən ATƏM-in, onun Minsk qrupunun, böyük dövlətlərin imkanlarından istifadə etməyə çalışırıq.

Bildiyiniz kimi, bir müddət öncə Amerika Birləşmiş Ştatları, Türkiyə və Rusiya Azərbaycanla Ermənistan arasındakı müharibəyə son qoymaq üçün təşəbbüs göstərmişdilər. Azərbaycan tərəfi bu təşəbbüsü bəyənmiş və qəbul etmişdi. Təəssüf ki, bu təşəbbüs də həyata keçirilmədi. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarını işğal etməsi ilə əlaqədar dörd qətnamə qəbul etmişdir. Bu sənədlərin hamısında erməni silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarından çıxarılması tələb olunur. Ancaq təəssüf ki, Ermənistan Təhlükəsizlik Şurasının bu qətnamələrinə məhəl qoymamışdır və özünün işğalçılıq siyasətini davam etdirir. ATƏM-in Minsk qrupunun rəhbərləri 1993-cü ilin iyulunda Bakıda olmuş və biz çox danışıqlar aparmışdıq. O vaxt erməni silahlı qüvvələrinin işğal olunmuş Kəlbəcər və Laçın rayonlarından çıxması haqqında protokollar hazırlanmışdı. Biz həmin protokolların həyata keçirilməsinə razılıq verdik. Təəssüf ki, erməni tərəfi bununla razılaşmadı. Hətta ATƏM-in, onun Minsk qrupunun fəaliyyətinə hörmətsizlik edərək, Minsk qrupunun sədri cənab Mario Raffaelli Azərbaycanın Yuxarı Qarabağ və Ağdam bölgələrinə səfər edib gedəndən bir neçə gün sonra erməni silahlı qüvvələri respublikamızın Ağdam şəhərini işğal etdilər.

Beləliklə, yəqin ki, sizdən ötrü aydındır: Ermənistan tərəfi məsələni zor ilə, güc ilə həll etmək istəyir. Azərbaycan Respublikasını diz çökdürmək, öz iddialarını həyata keçirmək istəyir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Biz isə beynəlxalq qəşkilatların imkanlarından istifadə etməyə çalışırıq. Diplomatiya yoluna daha çox üstünlük veririk. Bunları görən erməni silahlı qüvvələri onları dəstəkləyən xarici qüvvələrin və ayrı-ayrı qrupların yardımı ilə Azərbaycanın yeni-yeni ərazilərini işğal etməyə çalışırlar.

Belə bir vəziyyətdə Azərbaycan xalqı öz gücünü, qüdrətini toplamalı idi. Yəni bir halda ki, bizim sülhsevər siyasətimiz nəticə vermir, deməli döyüş yolu ilə torpaqların azad edilməsinə nail olmalı idik. Bunu əvvəl də etmək lazım idi. Təəssüflər olsun, tam qətiyyətlə demək olar ki, əvvəlki illərdə Azərbaycanda sağlam, bir mərkəzdən idarə olunan və güclü ordu olmamışdır. Azərbaycanla Ermənistan arasında gedən müharibədə Azərbaycan tərəfi pərakəndəliyə yol vermiş, ayrı-ayrı siyasi qüvvələr, siyasi qruplar dövlət vəzifələrində olarkən yalnız öz siyasətini yeritmiş, bu isə Azərbaycanı zəiflətmiş, yaxud da ona qüvvələrini toplamağa imkan verməmişdir. Erməni silahlı qüvvələri isə bu fürsətdən istifadə edərək Azərbaycan torpaqlarını işğal etməyə başlamışdır. Təsəvvür edin ki, Azərbaycanın bəzi torpaqları işğal olunarkən heç döyüş də getməmişdir. Erməni silahlı qüvvələrinin bir neçə tankının bölgəyə girməsi və daxildə ayrı-ayrı təxribatçı qrupların hay-küy salması nəticəsində adamlar həmin bölgələrdən qaçmışlar.

Məsələn, Kəlbəcər bölgəsində ay yarımdır ki, qanlı döyüşlər gedir. Azərbaycan ordusu işğal olunmuş Kəlbəcər torpaqlarının bir hissəsini geri almışdır. Ancaq bu, asan başa gəlmir, erməni silahlı qüvvələri güclü müqavimot göstərirlər. Azərbaycan ordusunun üstünlüyü nəticəsində erməni qüvvələri böyük itki verərək geri çəkilirlər. Halbuki bir il bundan oncə erməni silahlı qüvvələri heç bir döyüş əməliyyatı aparmadan, asanlıqla Kəlbəcər bölgəsini işğal etmiş və oranın 60 min nəfər əhalisi hay-küyə uyaraq öz yerlərindən qaçıb getmişdi.

Yəni demək istəyirəm ki, Azərbaycan son illərdə ordu yaratmaq üçün lazımi tədbirlər görmədiyinə, öz torpaqlarını etibarlı müdafiə etmək üçün ordusu olmadığına görə erməni silahlı qüvvələri üstünlük əldə etmişlər. Ona görə də biz son aylarla Azərbaycan ordusunun yaradılmasına çox fikir veririk. Şübhəsiz ki, belə böyük iş qısa müddətlə həyata keçirilə bilməz. Ancaq biz müharibə şəraitini nəzərə alaraq gecə-günlüz bu məsələ ilə məşğul oluruq və bu iş ilk nəticələrini verir. Həmin nəticələr isə ondan ibarətdir ki, əvvəlki illərlə müqayisədə Azərbaycan xalqında milli şüur, torpaqları müdafiə etmək əhval-ruhiyyəsi, vətənpərvərlik əhval-ruhiyyəsi, döyüş ruhu, qəhrəmanlıq ruhu yüksəlmişdir. Azərbaycan əsgərləri, zabitləri qorxmadan, çəkinmədən döyüşə girir, erməni silahlı qüvvələrinə ağır zərbələr endirərək çox yerlərlə onları geri oturdur və işğal olunmuş kəndləri, qəsəbələri geri almağa çalışırlar.

Tam həqiqəti sizə çatdırmaq üçün bir daha deyirəm ki, bu, çox ağır və çətin məsələdir. Çünki Azərbaycan ordu quruculuğuna biganə münasibət bəslədiyi vaxtlarda Ermənistan tərəfi ordu yaratmağa çox ciddi fikir verirdi. Onlar çox təcrübəli zabitlər,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

tankçılar, topçular hazırlamışlar. Ona görə də bizim qısa müddətdə hazırladığımız zabitlər və əsgərlər məhz qəhrəmanlığına, cəsarətinə görə, bəzən təcrübələri az olmasına baxmayaraq, mərdliyi, mətanəti sayəsində çox yerdə erməni silahlı qüvvələrinə qalib gəlirlər. Bu iş davam edir, ancaq açıq demək istəyirəm ki, o qədər də asan iş deyildir. Çünki bildiyiniz kimi xaricdən Ermənistana kömək edən qüvvələr çoxdur, ayrı-ayrı dövlətlər, maliyyə cəhətdən böyük imkanları olan qruplar, müxtəlif beynəlxalq siyasi qruplar Ermənistana siyasi, maddi və başqa yardım göstərirlər. Bütün bunlar torpaqlarımızı azad etmək uğrunda apardığımız ədalətli müharibəni, şübhəsiz ki, çətinləşdirir.

Ancaq ən önəmli cəhət, ən mühüm cəhət ondan ibarətdir ki, əsgərlərimizin, zabitlərimizin hazırlığı o qədər çox olmasa da, qeyd etdiyim kimi, artıq onlarda güclü vətənpərvərlik hissi yaranmışdır. Məsələn, beş-altı ay bundan əvvəl Azərbaycanda ordudan fərarilik edənlərin sayı çox idi. Bu, böyük bir problemə çevrilmişdi. Təklif edirdilər ki, fərariləri ciddi cəzalandırmaq, hətta güllələmək lazımdır. Əslində bu haqlı təkliflər idi. Çünki hər bir adam öz vətəndaşlıq borcunu yerinə yetirməlidir. Hər bir vətəndaşın ən ümdə borcu orduda xidmət etməkdən, torpağını qorumaqdan ibarətdir. Əlbəttə, mən hərbi xidmətə yararlı olanları nəzərdə tuturam.

Son aylarla gördüyümüz tədbirlər nəticəsində fərarilərin bir qrupunu həbs edərək cəzalandırdıq. Sonra mən prezident kimi, onları bağışladım. Qalan fərarilərə müraciət etdim, bildirdim ki, fərariliklə özünüzü xalqın gözündən salacaqsınız. Möhlət verdim ki, kim yanvarın 10-dək könüllü şəkildə gəlib hərbi komissarlıqlara, hərbi prokurorluğa müraciət edərsə və orduya qayıdarsa, onların günahları bağışlanılır. Təsəvvür edin ki, onların əksəriyyəti ordu sıralarına qayıtmışdır, bəziləri cəsarətlə vuruşaraq hətta şəhid olmuşdur. Bu da onu göstərir ki, gənclərimiz arasında milli vətənpərvərlik ruhu yüksəlmişdir. Belə vəziyyət bizə imkan verir ki, bütün vasitələrdən həm sülh danışıqlarından, diplomatik vasitələrdən, həm də ordumuzun, xalqımızın gücündən istifadə edərək Azərbaycan torpaqlarını işğalçılardan təmizləyək, Azərbaycan Respublikasının müstəqilliyini, ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını təmin edək.

Mən burada Türkiyə dövlətinin rəhbərləri ilə, rəsmi şəxslərlə danışıqlarla bu sahədə bizim mövqeyimizin, siyasətimizin dəyişməz olduğunu bildirdim. Sizə də bu barədə məlumat verdim.

Son illərlə Azərbaycanın daxilində, ictimai-siyasi həyatında da çox böyük çətinliklər olmuşdur. Həmin çətinliklər də davam edir. Bu, nə ilə bağlıdır? Azərbaycanda bir tərəfdən müharibə getdiyi, onun torpaqlarının bir hissəsi erməni silahlı qüvvələri tərəfindən işğal edildiyi halda, bu vəziyyətdən istifadə edən ayrı-ayrı siyasi qruplar, qüvvələr ölkə daxilində hakimiyyət uğrunda mübarizə aparırdılar, torpaqlarımızın qorunmasını isə yaddan çıxarmışdılar. Son beş-altı ildə Azərbaycanda bir neçə dəfə hakimiyyət dəyişikliyi olmuşdur. Sonuncu belə dəyi-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

şiklik isə, bildiyiniz kimi, 1993-cü ilin yayında baş vermişdir. Şübhəsiz ki, bütün bu hakimiyyət dəyişiklikləri müstəqil Azərbaycan Respublikasının daxilində ictimai-siyasi proseslərin sivilizasiyalı səviyyədən aşağı olmasından irəli gəlmişdir. Yəni, ayrı-ayrı adamlar öz şəxsi mənafelərini, şəxsi məqsədlərini xalqın, ölkənin, dövlətin mənafelərindən üstün tuturlar. Nəticədə isə xalq böyük zərər çəkir.

Ona görə də son vaxtlar biz bu problemlərlə də məşğul oluruq. Bilirsiniz ki, 1993-cü ilin iyununda Azərbaycanda daxili ictimai-siyasi vəziyyət çox kəskinləşmişdi, artıq vətəndaş müharibəsi başlanmışdı. Gəncədə, Bakının ətrafında qardaş qanı tökülmüşdü. Bu fürsətdən istifadə edən ayrı-ayrı siyasi qruplar, xaricdən olan düşmənlərimiz, deyə bilərəm ki, erməni millətçiləri tərəfindən dəstəklənən qüvvələr Azərbaycanı bir neçə bölgəyə parçalamaq niyyətlərini həyata keçirməyə çalışırdılar. Elə vəziyyət yaranmışdı ki, Azərbaycan doğrudan da parçalana bilərdi. Biz bunun qarşısını almağa nail olduq.

İndi Azərbaycanda dövlət rəhbərliyində müəyyən qədər formalaşma gedir. Biz çalışırıq ki, Azərbaycanın daxilində ictimai-siyasi vəziyyət daha da sabitləşsin.

Onu da deyim ki, biz bu işlərin hamısını demokratiya, fikir azadlığı yolu ilə aparırıq və aparacağıq. Azərbaycan müstəqil dövlətdir və bu günlərdə mən dəfələrlə demişəm ki, Azərbaycan xalqı öz müstəqilliyini heç vaxt əldən verməyəcəkdir. Müstəqil respublika kimi. Azərbaycan demokratiya yolu ilə gedir. Dünya demokratiyasının təcrübəsindən bəhrələnən Azərbaycan bu təcrübəni öz milli, tarixi ənənələrinə uyğun olaraq həyatına tətbiq etməklə demokratiya yolu ilə irəliləyəcəkdir.

Daxili siyasətimizin əsas prinsipləri Azərbaycanda hüquqi demokratik dövlət qurmaq, cəmiyyət yaratmaqdır. Biz elan etmişik ki, Azərbaycanda milliyyətindən, dinindən, dilindən və siyasi mənsubiyyətindən asılı olmayaraq hər bir vətəndaş eyni hüquqa malikdir. Azərbaycan dövləti vətəndaşların bu hüququnun qorunmasına təminat verir. Biz Azərbaycanda çoxpartiyalı sistem olmasına şərait yaratmışıq. İndi ölkəmizdə 40-a qədər partiya var, mətbuat azadlığı geniş yayılmışdır. Kiçik bir dövlət olan, 7 milyon əhali yaşayan Azərbaycanda 600-dək qəzet, jurnal çıxır və hər kəs öz fikrini sərbəst ifadə edə bilir.

Ancaq təəssüf ki, Azərbaycanın daxili həyatında demokratik prinsiplər sahəsində lazımi təcrübə olmadığına görə, bəzən ictimai-siyasi qüvvələrin bir-birinə münasibəti respublikanın ümumi mənafeyinin qorunmasına deyil, bir-biri ilə düşmənçilik etməyə yönəldilir. Ola bilsin, bu, təbiidir. Dediyim kimi, Azərbaycan gənc müstəqil dövlətdir. Demokratik prinsiplər, siyasi plüralizm, fikir ayrılığı onun üçün yeni amillərdir. Bilirsiniz ki, Azərbaycan 70 il kommunist ideologiyası ilə yaşamışdır. Ona görə də insanların birdən-birə demokratik prinsiplərlə yaşamağa keçməsi çətindir. Bəzən də son illər ayrı-ayrı qruplar, təəssüf ki, bu demokratik prinsipləri ləkələmiş, təhrif etmişlər. Adamlar demokratiya bayrağı altında hay-küylə cürbəcür mi-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

tinqlər təşkil edərək öz şəxsi məqsədlərini həyata keçirməklə məşğul olmuşlar.

Bunlar hamısı Azərbaycanın daxili həyatının təbii prosesləridir. Mənə belə gəlir ki, biz, dövlətimizin rəhbərləri qətiyyətli yol tutmuşuq və Azərbaycan Respublikası demokratiya yolu ilə insan hüquqlarının qorunması, siyasi plüralizm yolu ilə gedəcəkdir. Həmin çətinliklər yavaş-yavaş aradan götürüləcəkdir.

İqtisadiyyat sahəsinə gəldikdə isə, Azərbaycan yeni iqtisadi sistemə keçir. Əslində bu, təzə kəşf olunmuş sistem deyil, dünya təcrübəsində öz müsbət nəticələrini vermiş sərbəst İqtisadiyyat sistemi, təşəbbüskarlıq, sahibkarlıq prinsipləri əsasınla qurulan iqtisadi sistemdir. Biz bunlar üçün imkan yaratmışıq və gələcəkdə də yaradacağıq. Həm ictimai-siyasi, həm də iqtisadi sahədə islahatlar apararaq Azərbaycanın tam demokratiya yolu ilə getməsinə çalışacağıq. Buna heç kimin şübhəsi olmasın. Azərbaycanın indiki vəziyyəti haqqında ayrı-ayrı qrupların dedikləri, yaxud qəzetlərdə yazdıqları böhtançı fikirlər - Türkiyədə də belə şeylər yazılır - heç kəsi çaşdırmasın.

Türkiyədə də, başqa ölkələrdə də hamı əmin ola bilər ki Azərbaycan müstəqil dövlətdir və günbəgün bu müstəqilliyi möhkəmləndirəcəkdir, nəyin bahasına olursa-olsun öz ərazi bütövlüyünü təmin edəcək, işğal olunmuş torpaqlarını erməni silahlı qüvvələrindən təmizləyəcəkdir. Kimi hansı məsələlər maraqlandırırsa, Azərbaycana gəlib öz gözü ilə görsün. Hansı məsələlər aydın deyildirsə, bizimlə görüşsün. İstəməzdim ki, Azərbaycanın belə ağır vəziyyətində ayrı-ayrı qüvvələr, şəxslər respublikamıza kömək etmək əvəzinə öz hərəkətləri ilə ona zərər vursun. Güman edirəm ki, onların hərəkətləri zərər vura bilməz, siyasətimizə heç bir ləkə gətirə bilməz.

Mən həm buradakı görüşlərimizin əsas məzmunu haqqında, həm də Azərbaycandakı mövcud vəziyyət barədə, elə bilirəm, yetərincə məlumat verdim. Çıxışımın sonunda demək istəyirəm ki, biz dörd gün ərzində Türkiyədə dostluq və mehribanlıq şəraitində olmuşuq, bizə çox böyük qonaqpərvərlik göstərmişlər. Türkiyə Cümhuriyyətinin prezidenti Süleyman Dəmirəl də, ölkənin digər rəhbərləri də, sadə vətəndaşlar da azərbaycanlılara, Azərbaycana dostluq, qardaşlıq münasibəti göstərirlər. Səfər proqramımızın səmərəli şəkildə yerinə yetirilməsi üçün bütün imkanlardan istifadə olunmuşdur. Ona görə də mən Türkiyənin rəhbərlərinə hörmətli prezident Süleyman Dəmirələ, hörmətli baş nazir Tansu Çillərə, parlamentin başçısı, hörmətli Hüsaməddin Cindoruqa, bizi müşayiət edən nazirlərə və başqa şəxslərə minnətdarlığımı bildirirəm.

Əmin ola bilərsiniz ki, hər biriniz Türkiyədən Azərbaycana gəldiyiniz vaxt həmin dostluq və mehribanlıq şəraitində olacaqsınız. Mən sizi Azərbaycana dəvət edirəm. Gəlin, Azərbaycanı öz gözünüzdə görün.

Diqqətinizə görə sağ olun. Sizin suallarınıza cavab verməyə hazıram.

Sual: Hörmətli Heydər Əliyev, ermənilərin Qarabağla əlaqədar elə bir son təklifi var ki, erməni qüvvələri Azərbaycan tor-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

paqlarının bir hissəsindən çıxarıldıqdan sonra Dağlıq Qarabağla sülh qüvvələri yerləşdirilsin. Bu barədə nə deyə bilərsiniz?

C a v a b: Sizə bildirdim və bir də deyirəm ki, biz Ermənistanla Azərbaycan arasındakı müharibəyə son qoymaq istəyirik, bu məsələni sülh danışıqlar yolu ilə həll etməyə çalışırıq. Lakin son vaxtlar erməni silahlı qüvvələri Azərbaycan ordusundan ağır zərbələr aldığına görə ermənilər təklif etmişdilər ki, üç həftəlik atəşkəs haqqında saziş bağlansın və bu müddətdə Rusiyanın vasitəçiliyi ilə Ermənistanla Azərbaycan arasında danışıqlar aparılsın. Biz bu təklifi rədd etmədik, lakin öz şərtlərimizi irəli sürdük. Bu da ondan ibarətdir ki, erməni silahlı qüvvələri işğal olunmuş Azərbaycan torpaqlarını sözsüz tərk etsin. Belə olarsa, biz hər cür sülh danışıqlarına gedə bilərik. Ancaq bizə deyirlər ki, gəlin üç həftəlik atəşkəs elan edək və bu müddətdə danışıqlar aparaq. Lakin bilmirəm ki, nədən danışacağıq? Çünki keçmişdəki danışıqlar zamanı Ermənistan həmişə Azərbaycanın zərərinə olan təkliflər irəli sürmüşdür. Bu təkliflər bizə əl vermədiyinə görə razılaşmamışıq.

S u a l: Ermənistan prezidenti Londona səfəri zamanı təklif etmişdir ki, Qarabağ Birləşmiş Millətlər Təşkilatının mandatlığına verilsin. Buna necə baxırsınız? İkincisi, Azərbaycandakı PKK-nın fəaliyyəti haqqında nə deyə bilərsiniz?

C a v a b: Ermənistan prezidentinin Londondakı bəyanatı mənə məlum deyil. Əgər sizin söylədiyiniz onun dediklərinə müvafiqdirsə, biz bunu qəbul elə bilmərik.

Azərbaycanda PKK-nın fəaliyyəti barədə sualınıza gəldikdə isə, təəssüflər olsun, Azərbaycanın bu ağır vəziyyətində burada, qardaş Türkiyə Cümhuriyyətində də elə qüvvələr var ki, Azərbaycanın daxilində təxribat aparmaq istəyirlər. Həmin qüvvələr bu cür böhtançı şayiələr yayırlar. Mən sizə qətiyyətlə deyirəm ki, Azərbaycanda PKK-nın heç bir fəaliyyəti yoxdur və ola da bilməz.

S u a l: Hörmətli Heydər Əliyev, Sizə iki sualım var. Birincisi, Siz Ankarada hörmətli Həsən Həsənovun bir fikrini təsdiq etdiniz ki, Azərbaycanla neft sahəsində müqavilə bağlamaq istəyən ölkə Qarabağ məsələsində onu dəstəkləməlidir. Məsələn, Amerika desə ki, Qarabağı biz azad edəcəyik, nefti bizə verin, nə edərsiniz? Bunu bir qədər açıqlaya bilərsinizmi? İkincisi, Rusiya bölgəyə - Qafqaza başqa ölkələrin girməsinə razı olarmı?

C a v a b: Yəqin ki, cənab Həsənov belə deməmişdir. Bu barədə bizim fikrimiz eynidir. Yəni neft Azərbaycan xalqının əvəzsiz sərvətidir və biz ondan birinci növbədə xalqımızın ehtiyaclarını ödəmək üçün istifadə etməliyik. Əgər neftin çıxarılmasında xarici ölkələrin şirkətləri ilə əməkdaşlıq edəcəyiksə, bu əməkdaşlıq bizə eyni zamanda gərək siyasi dəstək olsun. Fikrimiz belədir. Biz neftimizdən xarici şirkətlərlə müştərək istifadə edə bilərik. Lakin ilk növbədə Azərbaycan xalqının mənafeyini qorumalıyıq. Amerika da heç vaxt deməz ki, mən Qarabağı xilas edəcəyəm, yaxud torpaqlarınızı azad edəcəyəm, nefti bizə verin. Bu ola bilməz. Yəqin ki, fikirlərimizi düzgün ifadə etm

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

siniz. Biz neft məsələsində çox danışıqlar aparmışıq. Son vaxtlar Azərbaycan Dövlət Neft Şirkəti bu barədə konkret təkliflər vermişdir. Mən fərman imzalamışam. Qərb neft şirkətləri - "Amoko", "Pennzoyl", "Britiş Petroleum-Statoyl", Türkiyənin neft şirkəti və başqaları Azərbaycana dəvət olunmuşlar və onlarla danışıqlar aparılaraq müqavilələr bağlanmalıdır. Ancaq bilin ki, bu müqavilələr hər iki tərəf üçün faydalı olmalıdır. Eyni zamanda, bu sərvətin sahibi olan Azərbaycan tərəfinin mənafeyi ilk növbədə edənilməlidir.

İkinci sualınıza cavab verirəm. Qafqaz elə bir yerdir ki, böyük dövlətlər, o cümlədən Rusiya əsrlər boyu buraya maraq göstərmiş, Qafqazla öz mövqelərini möhkəmlətməyə çalışmışdır. Əlbəttə, Rusiya çalışacaq ki, Qafqazda mövqeyini saxlasın. Bilirsiniz ki, Ermənistanda və Gürcüstanda Rusiyanın hərbi bazaları var. Rusiyanın Qafqazda öz mövqeyini möhkəmləndirməyə çalışması təbii haldır. Bunu başqa cür başa düşmək lazım deyil. Başqa dövlətlər də çalışacaqlar, Türkiyə də çalışmalıdır ki, Qafqazda mövqe tutsun.

S u a l: Burada, Türkiyə mətbuatında müəyyən yanlış xəbərlər verilməsindən narahat olaraq Sizdən bəzi şeyləri soruşmaq istəyirəm. Xahiş edirəm, öz həyat yolunuzu bir qədər açıqlayasınız.

C a v a b: Mən istərdim ki, hamı həqiqəti bilsin. Həqiqət isə, əgər sizi maraqlandırırsa, ondan ibarətdir ki, mətbuat sahəsində Türkiyədə yanlış fikirlər çoxdur. Mən buna təbii baxıram. Çünki bir halda ki, demokratiyadır, fikir ayrılığıdır, siyasi plüralizmdir, kim nə istəyirsə onu da yazır. Türkiyədə də, Fransada da, Amerikada da, Azərbaycanda da belədir. Ancaq eyni zamanda, doğru yazmaq lazımdır. Yanlış, böhtançı yazılar gərək deyil.

Əgər həyatım sizi maraqlandırırsa, mənim həyatım həmişə xalqla bağlı olmuşdur. Gənc yaşlarımdan xalqıma xidmət etmişəm. Sosialist sistemi daxilində xalqım üçün çox dəyərli işlər görmüşəm. Siz bunu başqa cür qəbul etməyin, çünki Azərbaycana, Bakıya gələn hər bir adam sağa da, sola da baxsa Heydər Əliyevin vaxtındakı işlərin nəticələrini öz gözü ilə görəcəkdir. Ancaq sonra mən Moskvaya getmişəm. Mən orada beş il çalışdım. Orada da xalqıma, millətimə kömək etmək istədim.

Yalnız sonra, Azərbaycanda vəziyyət pisləşdiyinə görə və xüsusən 1990-cı ildə 20 Yanvar hadisəsi baş verdikdən sonra, yəni sovet hökumətinin, Sovet İttifaqı Kommunist Partiyasının başçıları Azərbaycan xalqına qarşı hərbi təcavüz etdiyinə görə, qoşun yeridərək azərbaycanlıları qırdığına görə mən daha Moskvada dözə bilmədim, səsimi qaldırdım. Gedib mitinqdə sözümü dedim, mətbuat konfransında fikrimi bildirdim, Kommunist Partiyasının, Sovet İttifaqının, Azərbaycan Kommunist Partiyasının, Azərbaycan hökumətinin rəhbərlərini günahlandırdım. Təbii ki, məndən ötrü bu, asan olmadı. Məni təqib etməyə başladılar. Əslində əvvəllər də təqib edirdilər, məni həbs etmək istəyirdilər. Moskvada ev dustağı idim. Azərbaycana qayıtmaq istəyirdim, qoymadılar. On dörd il Azərbaycana rəhbərlik etdiyim dövrdə yetişdirdiyim adamlar, Azərbaycana başçılıq edən adamdar gəlib. Bakıda yaşamağıma imkan vermədilər. Naxçıvana get0-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

məyə məcbur oldum, çünki orada doğulmuşam. Üç il orada mühacirətdə qaldım. Bilirsiniz ki, Naxçıvan Azərbaycanın əsas hissəsindən Ermənistan ərazisi ilə ayrılmışdır. Biz orada blokada şəraitində yaşayırdıq. Orada da torpağıma, xalqıma xidmət etdim, Naxçıvanı ağır vəziyyətdən çıxarmağa çalışdım. Bu işdə də Türkiyənin və xüsusən hörmətli dostum və qardaşım Süleyman Dəmirəlin köməyindən çox istifadə etdim. Sonra isə xalq lazım bilərək məni Bakıya dəvət etdi.

Mən həyatımdan çox razıyam. Həyatımın bütün mərhələlərini özüm üçün çox önəmli sayıram. Bilirsiniz ki, mən nəinki Azərbaycanda, həm də sovetlər birliyində Kommunist Partiyasının başında duran adamlardan biri olmuşam. Ancaq 1991-ci ildə, hələ Kommunist Partiyası, sovetlər birliyi güclü olan vaxtda mən Moskvada bəyanat verərək Kommunist Partiyasından çıxdım. Bakıda parlamentdə dedim ki, sovetlər birliyi dağılır, onu dağıtmaq lazımdır. Azərbaycan müstəqil olmalıdır. O zaman səsimi boğmağa çalışdılar. Mənim bu çıxışlarım kitabça halında burada yayılmışdır, özünüz tanış ola bilərsiniz. Bir sözlə, mən mövqeyimdən dönmədim. Çünki mənim həyatım xalqa xidmət etməkdən ibarət olmuşdur. Son nəfəsimədək də xalqıma xidmət edəcəyəm. Bəzi adamların burada yanlış məlumatlar yayması isə fil ilə qarışqanın məsələsinə bənzəyir. Əgər qarışqa fili sanca bilərsə, o adamlar da məni sanca bilərlər.

S u a l: İrandakı azərbaycanlıları da birləşdirmək niyyətiniz varmı?

C a v a b: Bilirsinizmi, biz Azərbaycanın müstəqilliyi uğrunda çalışırıq. Azərbaycan torpaqlarının 20 faizi işğal olunmuşdur. Onu azad etmək lazımdır. Bu bizim ən başlıca problemimizdir. Bu problemi başa düşmədiyiniz halda mənə nə üçün başqa suallar verirsiniz?

S u a l: Hörmətli prezident, dörd gündür ki, biz Turkiyədəyik. Azərbaycan Xalq Cəbhəsinin üzvləri İbrahim İbrahimov, Vurğun Əyyubov, Tofiq Qasımov burada prezidentin əleyhinə iş aparırlar. Türkiyə televiziyası da bunu yayır. Sadə türklər deyirlər ki, prezidentin əleyhinə təbliğat aparmaq onun xalqına qarşı təbliğat aparmaq deməkdir. Siz neçə düşünürsünüz, Xalq Cəbhəsinin bu işlərinə nə vaxt son qoyulacaq?

C a v a b: Bilirsiniz, mən bunların heç birisinə əhəmiyyət vermirəm və heç də düşünmürəm ki, bunlar Türkiyədə Azərbaycan prezidentinin əleyhinə aparılan təbliğatdır. Ayrı-ayrı adamlar, gücləri çatırsa, qoy təbliğat aparsınlar. Gücləri çatmayacaq.

S u a l: Türkiyənin Azərbaycan ordusuna yardım göstərməsi nəzərdə tutulurmu?

C a v a b: Biz xaricdən, o cümlədən Türkiyədən heç bir hərbi yardım istəmirik. Biz taxıl verilməsini, kreditlər ayrılmasını istəyirik. Mən dünən iş adamları ilə görüşərək onları dəvət etdim ki, Azərbaycana gəlsinlər, investisiya qoysunlar. Biz belə yardım istəyirik. O ki qaldı müharibə məsələsinə, bunu biz özümüz həll edirik. Ancaq eyni zamanda Türkiyənin hərbi məktəblərində Azərbaycan gənclərinin təhsil alması bizim üçün, ordumu-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

zun qurulması üçün çox lazımdır. Çünki Türkiyə hərbi məktəblərinin çox böyük imkanları var və biz bundan istifadə edərək hərbi kadrlar hazırlayacağıq.

S u a l: Sizdən əvvəlki prezident Elçibəy Türkiyənin ən böyük dostu kimi qəbul edilirdi. Siz iqtidara gələndə hamı qorxurdu ki, görəsən, əlaqələr pozulacaqmı, Elçibəy Türkiyəyə çox arxalanırdı. Sizinlə Elçibəy arasındakı fərq nədir?

C a v a b: Mən Əbülfəz Elçibəy haqqında bir şey demək istəmirəm. Çünki o, bir ilə yaxın Azərbaycanın prezidenti olmuşdur. Amma hər kəsin öz siyasəti var. Yəqin bilirsiniz ki, mən siyasət sahəsində təcrübəli adamam. Bu təcrübəmdən istifadə edərək Azərbaycanın xarici siyasətini dövlətimizin mənafeyi üçün lazımi yollarla aparmağa çalışıram. Əbülfəz Elçibəyin Türkiyənin yaxın dostu olması fikrinə gəldikdə isə, deyə bilərəm ki, Heydər Əliyev də Türkiyənin dostudur. Amma dostluq hay-küylə, populist sözlərlə deyil, qəlbdən gəlməlidir. Azərbaycanın prezidenti kimi, mən türk xalqına, Türkiyə Cümhuriyyətinə, onun tarixi keçmişinə, bugünkü siyasətinə hörmətimi, məhəbbətimi bu dörd gün ərzində bütün çıxışlarımda, o cümlədən Böyük Millət Məclisində, hörmətli prezident Süleyman Dəmirəlin təşkil etdiyi böyük ziyafətdə demişəm.

S u a l: "Britiş Petroleum-Statoyl" alyansı ilə danışıqlar, nəhayət, bir bağlaşma ilə nəticələnəcəkmi?

C a v a b: Mən sizə bildirdim ki, bütün şirkətləri "Amoko", "Britiş Petroleum-Statoyl", "Pennzoyl" şirkətlərini, Türkiyə neft şirkətini müqavilələr bağlamaq üçün danışıqlar aparmağa dəvət etmişik və yəqin ki, yaxın vaxtlarda müqavilələr bağlanacaqdır.

S u a l: Ərəb dünyasına münasibətinizi və keçmiş prezident Əbülfəz Elçibəyin siyasəti barədə fikrinizi açıqlamağı xahiş edirik.

C a v a b: Azərbaycan Ərəb dünyasına çox müsbət münasibət bəsləyir. Bir dinə mənsub olmağımız, ənənələrimizin, mədəniyyətlərimizin oxşarlığı tarixən bizi yaxınlaşdırmışdır. Ona görə də ərəb dünyasına münasibətim müsbətdir və güman edirəm ki, bu, xarici siyasətimizdə önəmli yer tutacaqdır.

Elçibəyin siyasətinə gəldikdə isə, mən, ümumiyyətlə, bu barədə danışmaq istəmirəm.

S u a l: Cənab prezident, birinci sualım belədir: Bildiyiniz kimi bu yaxınlarda Ermənistan prezidenti Levon Ter-Petrosyan İngiltərəyə getmiş və orada Dağlıq Qarabağ haqqında danışıqlar aparmışdır. Sizcə Dağlıq Qarabağ məsələsində İngiltərənin vasitəçiliyi necə ola bilər? İkinci sualım: - Siz Naxçıvanda olarkən Ermənistan prezidenti ilə yaxşı münasibətləriniz olub, həmin münasibətlər də qalırmı?

C a v a b: Birinci sualınıza cavab verirəm. Ermənistan prezidenti Levon Ter-Petrosyanın Londonda nə kimi danışıqlar apardığını bilmirəm. Ancaq onu deyə bilərəm ki, bu yaxınlarda mən Londona gedəcəyəm. Oraya rəsmi dəvət olunmuşam. Yəqin ki, orada İngiltərə hökuməti ilə Azərbaycan - İngiltərə münasibətləri

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

haqqında, o cümlədən Dağlıq Qarabağ barədə danışıqlar aparacağıq. Əgər İngiltərə bu məsələdə bizə hər hansı kömək etmək istəsə, biz bunu məmnuniyyətlə qəbul edəcəyik.

İkinci sualınız barədə. Doğrudan da, Naxçıvanda olarkən Ermənistan prezidenti Levon Ter-Petrosyanla əlaqələrimiz var idi və bunun sayəsində mən Naxçıvanla Ermənistan arasında münaqişəyə yol verilməməsinə nail oldum. Eyni zamanda Ter-Petrosyan da orada müharibə olmaması üçün öz səylərini göstərdi. Azərbaycanın prezidenti kimi, mən yenə də Ter-Petrosyanla əlaqə saxlayıram. Moskvada, Aşqabatda onunla görüşdüm, telefonla danışırıq. Çalışıram ki, bu məsələ sülh yolu ilə həll edilsin. Ancaq necə olacağını gələcək göstərər.

S u a l: Türkiyədə bəzi qəzetlərdə Azərbaycan haqqında yanlış məlumatlar verilir. Bu, müəyyən dərəcədə Azərbaycandan informasiya axınının azlığı ilə bağlı deyilmi? Son vaxtlar belə fikir yayılır ki, Azərbaycanda demokratiya pozulur, demokratiya tərəfdarları həbs edilir. İkinci sualım isə belədir ki, Gürcüstanla Rusiyanın qoşun yerləşdirməsi müstəqil Azərbaycan dövləti üçün daha bir təhlükə törətmirmi? Bu məsələyə Azərbaycan rəhbərliyinin münasibəti necədir?

C a v a b: Doğrudan da, Türkiyədə Azərbaycan haqqında məlumat azdır. Mən belə hiss etdim ki, Türkiyənin bəzi qəzetləri çalışırlar ki, mənfi məsələlərlə məşğul olsunlar. Ona görə də ictimaiyyətə doğru-dürüst məlumat çatdırılmır. Siz haqlısınız. Azərbaycanda informasiya məsələsi lazımi səviyyədə qurulmamışdır. Bununla əlaqədar tədbirlər görürük. Məsələn, son vaxtlar mən Qabil Hüseynlini yeni dövlət müşaviri təyin etmişəm. O, bu işlərlə məşğul olacaqdır. Lakin siz də burada çalışın ki, Azərbaycan haqqında doğru məlumat yayılsın. Hamınıza müraciət edirəm. Mən demirəm ki, qəzetlər Azərbaycan haqqında təriflər yazsın. İstərdik ki, vəziyyət haqqında düzgün məlumat verilsin.

İkincisi, siz deyirsiniz ki, Rusiya Azərbaycanın müstəqilliyinə təhlükə törədə bilər. Azərbaycan belə vəziyyətdədir ki, daim təhlükə altındadır. Çünki bir tərəfdən Azərbaycan müharibə aparır, digər tərəfdən bizim ətrafımızda - Ermənistanda və Gürcüstanda Rusiyanın hərbi bazaları var. Buna görə də, əlbəttə ki, Azərbaycanın vəziyyəti çətindir. Lakin mən demişəm və yenə deyirəm: Azərbaycan öz müstəqilliyini heç vaxt əldən verməyəcək və müstəqillik bizim üçün əbədidir.

S u a l: Sizcə, buradakı danışıqlarınızın başlıca nəticəsi nədir? Türk cümhuriyyətlərinin zirvə toplantısının keçirilməsi nə ilə bağlıdır?

C a v a b: Ən böyük nəticə olur ki Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələrini;: yeni səhifəsi açıldı, yeni mərhələsi başlandı. Bir daha təsdiq olundu ki, Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələri davam edəcək və heç bir qüvvə buna təsir göstərməyəcəkdir. O ki qaldı zirvə toplantısına, bəzi səbəblərə görə onun vaxtı dəyişdirilmişdir.

Təşəkkür edirəm, sağ olun.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

PREZİDENT SARAYINDA GENİŞ OPERATİV MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ

20 fevral 1994-cü il

Son günlər havaların soyuması və respublikamızın ərazisində çoxlu qar yağması ölkənin sosial-iqtisadi həyatındakı çətinlikləri daha da artırmışdır. Təcili görülmüş tədbirlər nəticəsində bu gərginliyi müəyyən qədər aradan qaldırmaq mümkün olsa da, respublikanın bir sıra şəhər və rayonlarında elektrik enerjisi, qaz, su təchizatı sarıdan hələ də xeyli çətinliklər vardır. Bu müşavirə çatışmazlıqların aradan qaldırılması yollarını, habelə respublikada mal və məhsulların idxal-ixracında, ölkənin maliyyə imkanlarını, pul dövriyyəsində mövcud vəziyyəti, kənd təsərrüfatında, sənayedə işlərin gedişini və digər vacib məsələləri araşdırmaq, iqtisadiyyatda böhranın daha da dərinləşməsinə imkan verməmək və onu aradan qaldırmaq yolları barəsində fikir mübadiləsi aparmaq və təcili zəruri tədbirlər görmək məqsədi daşıyır.

YEKUN SÖZÜ

İndi ölkəmizdə müharibə gedir. Bu şəraitdə işlər müharibə dövrünün tələblərinə uyğun qurulmalıdır. Bunu hamı - bakılılar da, Azərbaycanın bütün başqa bölgələrinin sakinləri də bilməlidirlər. Eyni zamanda Azərbaycanın iqtisadi potensialı imkan verir ki, müharibə şəraitində də respublika əhalisinin, birinci növbədə Bakı əhalisinin tələbatı bundan yüksək səviyyədə təmin olunsun. Əgər bu gun burada deyilən nöqsanlar mövcuddursa, bu, heç də o demək deyildir ki, bizim imkanlarımız yoxdur. Səbəb odur ki, imkanlarımızdan istifadə etmək üçün lazımi tədbirlər görülmür. Səhlənkarlıq, hərc-mərclik çox yerdə möhkəm kök salmışdır. Buna görə də belə çətinliklər yaranır.

Bakı şəhərinin təchizatı məsələsi, şübhəsiz ki, birinci yerdə durmalıdır, bütün bölgələrimizdə yaşayan əhali eyni hüquqlara malikdir, ancaq Bakıya həmişə xüsusi münasibət olmuşdur və də var. Lakin bu imkanlardan istifadə edilmir. Son vaxtlar Bakının təchizatı sahəsində yaranmış çatışmazlıqlar ancaq və ancaq işin təşkili ilə bağlıdır. Əgər biz 6 milyard kubmetr qaz çıxarırıqsa, ondan səmərəli istifadə edilsə Bakı da, Sumqayıt da, Gəncə də və başqa yerlər də təmin oluna bilər. Ancaq təəssüf ki, bundan səmərəli istifadə edilmir.

Düzdür, neft və qaz çıxarılması sahəsində müəyyən çətinliklər var, şirkətin prezidenti də bunları dedi. Bu, son vaxtlar sahəyə diqqətin azalmasının və kapital qoyuluşu olmamasının nəticəsidir. Ancaq eyni zamanda mövcud imkanlardan istifadə etməklə daha çox qaz çıxarmaq olar. Lakin buna diqqət yetirilmir,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

məsuliyyətsizliyə yol verilir. Mən belə hesab edirəm ki, neft şirkəti vəsaitin olmadığı, cürbəcür işlərin görülmədiyi şəraitdə də indikindən daha çox qaz çaxara bilər.

Elektrik enerjisindən istifadə barədə. Bizdə elektrik enerjisindən gen-bol istifadə olunur. Ən inkişaf etmiş, zəngin ölkələrdə də elektrik enerjisindən qənaətlə istifadə edirlər. Amma bizdə qənaətcillik yoxdur. Mənim xatirimdədir. 1985-87-ci illərdə bu problem SSRİ miqyasında çox ciddi qoyulmuşdu. Biz Moskvada ölkənin elektrik enerjisi ilə təmin edilməsi məsələləri ilə hər gün məşğul olurduq.

Qərb ölkələrində elektrik enerjisinin də, qazın da qiyməti bahadır. Amma bizdə elektrik enerjisi ucuz olduğuna görə ondan qənaətlə istifadə etmək yada düşmür. Mənzillərdə lazım oldu-olmadı işıq yandırılır. Şəhərin küçələrində lüzumsuz yerə səhərəcən elektrik enerjisi sərf olunur. Çünki şəhər təsərrüfatı ilə məşğul olan adamlar buna fikir vermirlər.

İqtisadiyyatımız böhran içərisində, ağır vəziyyətdədir, amma qənaət haqqında düşünən yoxdur. Elektrik enerjisinə, qaza, suya qənaət - bu məsələlər yox dərəcəsindədir. Bunlardan istifadənin qiymətlərinə baxılmalı və yeni qiymətlər müəyyən olunmalıdır. Görünür, qiymətlər ucuzdur ki, əhali belə çətin bir vaxtda bu qədər elektrik enerjisnidən istifadə edir. Əgər istifadə edirsə, qoy pulunu versin. Bizim şəhər təsərrüfatı da bu işlərlə məşğul olmur.

Mən yenə də deyirəm - 80-ci illərin ortalarında elektrik enerjisinə qənaət məsələsi çox böyük bir problem idi. Biz Almaniyanın, İngiltərənin və başqa Avropa ölkələrinin bu sahədə təcrübəsini öyrənirdik. Həmin ölkələrdə adambaşına bizdən bir neçə dəfə çox elektrik enerjisi işlədilsə də, çatışmazlıq yox idi. Çünki qənaət edirlər, hər şeyin qiyməti var. Bilirlər ki, lazım olmayan bir lampanı yandırmayanda nə qədər qənaət edirlər. Bizdə isə otaqlarda hər birində beş-on lampa olan çilçıraqlar yanır. Mən hələ onun pulunun verilib-verilməməsini demirəm. Eləcə də qazın, suyun pulu, bunların hamısından, demək olar ki, məccani istifadə edilir. Ona görə də kim nə qədər istəyir, o qədər də istifadə edir, birinə çatır, digərinə çatmır və nəticədə gərginlik yaranır. Nazirlər Kabineti, müvafiq nazirliklər, Bakı şəhərinin rəhbərləri bu işlə ciddi məşğul olmalıdırlar.

Əgər qərar qəbul etməyə lüzum varsa, biz gərək ilk növbədə müəyyən edək ki, Bakı şəhərində, Azərbaycanın başqa yerlərində əsaslı vəsaitdən necə istifadə olunur, götürülən gəlir çəkilən xərci ödəyirmi, rentabelliyin səviyyəsi necədir. biz bazar iqtisadiyyatına keçirik. Keçmiş vaxt, sovet quruluşu deyil ki, hər şey - elektrik enerjisi, qaz, su az qala müftə olsun.

Ona görə də mən tələb edirəm: Neft Şirkəti öz işini daha da gücləndirsin, qaz hasilatını artırsın. Dollarla Türkmənistandan qaz almaq çətin bir iş deyil. Azərbaycan özünü qazla təmin etməlidir. Bu, neft Şirkətinin əsas vəzifəsidir və onu yerinə yetirməlidir. Azəriqaz Şirkəti öz işini tamamilə yenidən qurmalıdır, mən onun işindən narazıyam. Qazın paylaşdırılması, qiyməti və başqa məsələlərlə ciddi məşğul olmaq lazımdır. Bu,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

elektrik enerjisinə də aiddir. Baş nazirə Abbas Abbasova, iqtisadiyyat nazirinə tapşırıram ki, müvafiq nazirliklərlə birlikdə hər şeyi götür-qoy etsinlər.

İqtisadiyyatımızda böhran getdikcə dərinləşir. Ona görə də hər şeyə qənaət etmək lazımdır. Bu, birinci növbədə elektrik enerjisindən və qazdan istifadəyə aiddir. Bunlardan səmərəli istifadə etməli və iqtisadi mənfəət götürməliyik.

Bakıda nəqliyyatın vəziyyəti çox bərbaddır. Şəhərin rəhbərliyi bu məsələni qaldırmışdır. Nazirlər Kabineti həmin məsələni müzakirə edərək öz təkliflərini verməlidir. Bu işlə bağlı tezliklə ölçü götürmək lazımdır.

Ərzaq təchizatı barədə də məsələ qaldırıldı. Bu məsələ də narahatlıq doğurur. Xəstəxanalarda ərzaq, xüsusən ət çatışmır. Nazirlər Kabineti qısa müddətdə bu məsələnin həllini təşkil etməlidir. Bu, ümumən respublikaya, birinci növbədə Bakıya aiddir.

Bir daha qeyd edirəm, ola bilər, havalar yenidən soyusun, qar yağsın. Buna hazır olmaq lazımdır. Bakı şəhərinin və onun rayonlarının icra hakimiyyətləri, nazirliklər, şirkətlər, firmalar, iri müəssisələr, bir sözlə, iqtisadiyyatla bağlı olan bütün təşkilatlar respublika paytaxtının bu problemlərinin həllində yaxından iştirak etməlidirlər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BÖYÜK BRİTANİYAYA RƏSMİ SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ

22 fevral 1994-cü il

- Hörmətli prezident, Böyük Britaniyaya səfərinizin gedişində bir sıra sənədlər imzalanması nəzərdə tutulmuşdur. Səfər zamanı Siz bu ölkənin rəsmi şəxsləri, işgüzar dairələrinin nümayəndələri ilə görüşəcəksiniz. Böyük Britaniya ilə qarşılıqlı iqtisadi əlaqələr Azərbaycanın iqtisadiyyatına nə kimi təsir göstərəcəkdir?

- Əvvəla onu deyim ki, Azərbaycan prezidentinin İngiltərəyə səfəri respublikamızla Böyük Britaniya arasında əlaqələrin yaranması və inkişaf etdirilməsi məqsədi daşıyır. Çünki Azərbaycai müstəqillik əldə etdikdən sonra Böyük Britaniya kimi nüfuzlu və böyük bir ölkə ilə dövlətlərarası əlaqələr yarada bilməmişdir. İngiltərənin səfiri Azərbaycana bir neçə ay olar ki, gəlmişdir. Bizim səfirimiz isə Londona yalnız bu yaxın günlərdə getmişdir. Deməli, diplomatik əlaqələr yenicə yaradıdır. O ki qaldı dövlətlər arasında geniş əlaqələrə, ən əvvəl siyasi və iqtisadi əlaqələrə, habelə elmi, mədəni əlaqələrə, gənc bir dövlət kimi Azərbaycan Respublikasının bütün bunlara çox böyük ehtiyacı var.

Bildiyiniz kimi, İngiltərə dünyanın böyük dövlətlərindəndir. BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən, dünyanın ən inkişaf etmiş yeddi ölkəsindən biridir. İngiltərə həm keçmiş tarixinə, həm də bügünkü mövqeyinə görə dünya siyasətinə və iqtisadiyyatına çox güclü təsir göstərən bir ölkədir. Ona görə də Azərbaycan Respublikası ilə İngiltərə arasında sıx əlaqədər yaranması ilk növbədə bizim ölkəmizin milli mənafeyi üçün olduqca əhəmiyyətlidir. Eyni zamanda bizə məlumdur ki, İngiltərə də Azərbaycana çox maraq göstərir, Azərbaycanla iqtisadi əlaqələr yaratmaq istəyir. Ümumiyyətlə, İngiltərənin Qafqaza, o cümlədən Azərbaycana tarixən marağı məlumdur. ki mərhələdə, yəni XX əsrin sonunda, İngiltərə Azərbaycanla yeni bir keyfiyyətdə iqtisadi əlaqələr qurmaq istəyir. Bu sahədə müəyyən işlər, daha doğrusu, hazırlıq işləri görülübdür. bunların hamısını orada tamamlamaq lazımdır.

Bilirsiniz ki, mənim İngiltərəyə səfərim rəsmi xarakter daşıyır, yəni rəsmi dövlət səfəridir və bu barədə dəvət İngiltərənin baş naziri cənab Con Meycordan alınmışdır. Elə bu gün-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lərdə mən cənab Meycordan məktub aldım. Baş nazir yazır ki, o, bizim bu görüşümüzü gözləyir və qarşıdakı səfər zamanı həm İngiltərə, həm də Azərbaycan üçün səmərəli nəticələr .əldə ediləcəyinə ümid bəsləyir. Ona görə də mən bu səfərə çox böyük əhəmiyyət verirəm və güman edirəm ki, İngiltərənin rəhbərləri də bu fikirdədirlər. Orada proqram artıq məlumdur. Con Meycor ilə danışıqlar aparacaq, həm onunla, həm də digər yüksək vəzifəli şəxslərlə bir neçə müqavilə imzalayacağıq. İngiltərə parlamentində, digər dövlət dairələrində görüşlər olacaqdır. Şübhəsiz ki, bunların hamısı gənc respublikamız üçün, onun xarici siyasəti üçün və dünyada öz mövqeyini möhkəmləndirməsi üçün olduqca lüzumlu məsələlərdir və mən də İngiltərəyə bu məsələlərin həll edilməsi üçün gedirəm.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BÖYÜK BRİTANİYA SƏNAYEÇİLƏRİ KONFEDERASİYASINDA ÇIXIŞ

22 fevral 1994-cü il

Hörmətli xanımlar və cənablar, axşamınız xeyir olsun!

Bu gün mən sizinlə görüşməyimə görə çox məmnunam. İlk öncə "Bi-Pi" və "Statoyl" şirkətlərinə bu görüşü təşkil etdiklərinə görə təşəkkürümü bildirmək istəyirəm.

Bildiyiniz kimi, mən Böyük Britaniyanın baş naziri cənab Con Meycorun dəvəti ilə İngiltərəyə rəsmi səfərə gəlmişəm. Təyyarədən Londona endiyim dəqiqədən bu anadək rəsmi dairələr tərəfindən qonaqpərvərlik görmüşəm və görüşlərimiz səmimilik şəraitində keçmişdir. Səfərin gedişində baş nazir, hörmətli Con Meycorla görüşəcəyəm, biz danışıqlar aparacağıq. Lakin İngiltərənin iş adamlarının nümayəndələri ilə görüşmək mənim üçün olduqca əhəmiyyətlidir.

İngiltərəyə səfərimdən əsas məqsəd müstəqil Azərbaycan Respublikası ilə Böyük Britaniya arasında əlaqələri genişləndirmək və inkişaf etdirməkdən ibarətdir. Azərbaycan Respublikası uzun illər ərzində Sovet İttifaqının tərkibində olmuş və 1991-ci ilin axırlarında - 1992-ci ilin əvvəllərində öz müstəqilliyini əldə etmişdir. o, iki ildən çoxdur ki, bir müstəqil dövlət kimi dünya ölkələri tərəfindən tanınmışdır. Azərbaycan bütün dövlətlərlə qarşılıqlı surətdə faydalı əlaqələr yaratmaq yolu ilə gedir. O cümlədən dünyanın qabaqcıl dövlətlərindən biri olan İngiltərə ilə bütün sahələrdə əlaqələr yaratmaq və bu əlaqələri inkişaf etdirmək əzmindədir.

Azərbaycan İngiltərə ilə münasibətlərini genişləndirmək yolu ilə gedərək, ən əvvəl iqtisadi əlaqələr yaradılmasına və inkişaf etdirilməsinə xüsusi fikir verir. Sizə bu barədə məlumat verərək bildirmək istəyirəm ki, Azərbaycan Respublikasının böyük iqtisadi potensialı var, yeraltı və yerüstü sərvətləri zəngindir. Odur ki, Azərbaycan başqa dövlətlərlə, o cümlədən də İngiltərə ilə bütün sahələr üzrə əlaqələrdə şübhəsiz, çox dəyərli tərəfdaş ola bilər.

Bunu da qeyd etmək lazımdır ki, Azərbaycan öz daxili siyasətində, xüsusən İqtisadiyyat sahəsində bazar iqtisadiyyatı yolu ilə gedir. Ölkəmiz iqtisadiyyatda islahatlar apararaq, mövcud iqtisadi sistemi, iqtisadi quruluşu dəyişdirərək sahibkarlığa, təşəbbüskarlığa və iqtisadiyyatda sərbəstliyə geniş meydan açmaq niyyətindədir. Bu sahədə zəruri tədbirlər həyata keçirilir. Ona görə də Azərbaycan Respublikası ilə başqa ölkələr, o cümlədən İngiltərə arasında iqtisadi əlaqələr qurulmasına daha əlverişli əsaslar yaranmışdır.

Azərbaycanın iqtisadi potensialı, yeraltı və yerüstü sərvətləri, elmi, intellektual potensialı ilə yanaşı, onun digər döv-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lətlərlə iqtisadiyyat sahəsində əməkdaşlığı üçün daha əlverişli şərait yaradan cəhətlərdən biri də ölkəmizin coğrafisiyasi mövqeyidir. Azərbaycanın dövlət quruluşu, daxili siyasəti müstəqil dövlətə xas olan quruluş və siyasətdir, yəni Azərbaycan artıq müstəqil bir dövlətdir və öz müstəqilliyini bundan sonra heç vaxt əldən verməyəcəkdir. Dövlət quruluşunda nəinki tarixi və milli ənənələrimiz nəzərə alınır, həm də dünya təcrübəsindən, demokratik prinsiplərdən istifadə edilir, Azərbaycanda hüquqi demokratik dövlət quruculuğu prosesi gedir, hüquqi demokratik cəmiyyət yaradıdır. Daxili həyatımızda demokratik prinsiplərə geniş imkanlar açılmışdır. Azərbaycan siyasi plüralizm, fikir azadlığı, insan azadlığı, vicdan azadlığı, söz azadlığı kimi prinsipləri həm dövlət siyasəti sahəsində, həm də siyasi-ictimai sahədə mühüm prinsiplər kimi həyata keçirmək yolu ilə gedir. Bütün bunlar Azərbaycanda demokratik vəziyyət yaranmasına gətirib çıxarmış və eyni zamanda respublikanın daxilində ictimai və siyasi vəziyyətin tamamilə sabitləşməsinə imkan vermişdir.

Beləliklə, Azərbaycan bütün dünya ölkələri ilə, ən əvvəl, iqtisadi cəhətdən inkişaf etmiş dövlətlərlə öz iqtisadi əlaqələrini genişləndirmək planlarını həyata keçirərək, xarici ölkə şirkətlərinin, firmalarının, iş adamlarının Azərbaycana maraq göstərməsinə xüsusi diqqət yetirir. Buna görə də biz Böyük Britaniya iş adamlarının, məşhur firma və şirkətlərinin ölkəmizə gəlməsini arzulayırıq. Mən sizə bildirmək istəyirəm ki, iş adamları üçün, müştərək iş görmək üçün, sərmayə qoymaq və digər bu kimi tədbirlər həyata keçirmək üçün Azərbaycanda tam şərait yaradıla bilər.

Tarixə nəzər salsaq aydın görərik ki, İngiltərə Azərbaycana daim maraq göstərmişdir. Tarixi faktlar sübut edir ki, İngiltərə tacirləri, səyyahları, iş adamları hələ XV-XVI əsrlərdə Azərbaycanda olmuş, XIX əsrin axırlarında - XX əsrin əvvəllərində isə İngiltərənin iri şirkətləri Azərbaycana axın-axın gəlmiş və orada çox böyük işlər görmüşlər. Bu gün mən "Britiş Petroleum" şirkətinin prezidenti ilə görüşərkən o dedi ki, bir neçə ildir "Bi-Pi" şirkəti "Statoyl" ilə birlikdə Azərbaycanda iş görür. Lakin mən ona xatırlatdım ki, "Britiş Petroleum" bir neçə il yox, hələ əsrimizin əvvəllərində, təxminən 90 il bundan qabaq Azərbaycana gəlmiş və Bakıda neft istehsalında iştirak etmişdir. Çari əsrin əvvəllərində, yəni 1920-ci ilə qədər İngiltərə biznesmenləri Azərbaycanda geniş fəaliyyət göstərmiş, çox işlər görmüşlər. Şübhəsiz ki, onlar Azərbaycan neftinin çıxarıdmasında iştirak etməklə böyük mənfəət də götürmüşlər. Amma həmin proses təxminən 1920-ci ildə kəsilmiş, sonrakı dövrdə əlaqələr olmamışdır. Bu gün isə məmnuniyyət hissi ilə qeyd etmək olar ki, həmin əlaqələr bərpa olunur və onların daha da genişlənməsi üçün addımlar atırıq.

Mən tarixi faktları xatırladaraq, sizi və ümumiyyətlə, Böyük Britaniyanın bütün iş adamlarını Azərbaycana dəvət edirəm və əmin etmək istəyirəm ki, Azərbaycanda kapital qoymaq, iş görmək, müştərək müəssisələr yaratmaq üçün geniş imkanlar var. Ümidva-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ram ki, İngiltərənin iş adamları bu imkanlardan səmərəli istifadə edəcəklər.

Bir məsələyə də toxunmaq istəyirəm. Çünki ola bilər ki, bu məsələ bəzi adamların Azərbaycanda iş görməsinə maneçilik yaratsın. Həmin məsələ bundan ibarətdir ki, bildiyiniz kimi, Azərbaycan ilə Ermənistan arasında altı ildir müharibə gedir, Azərbaycan Respublikası ərazisinin bir qismi erməni silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. Bu müharibə süni şəkildə yaradılmış "Dağlıq Qarabağ problemi"ndən başlanmış, lakin sonralar iki respublika, iki dövlət - Ermənistanla Azərbaycan arasında genişmiqyaslı müharibəyə çevrilmişdir. Biz bu müharibəni aparmaq istəmirik, ona son qoymaq istəyirik, məsələləri sülh yolu ilə həll etməyə çalışırıq, onların beynəlxalq təşkilatlar vasitəsilə həll olunmasına çalışırıq. Odur ki, bu sahədə çox ciddi addımlar atırıq. Lakin bizim əsas şərtimiz bundan ibarətdir ki, erməni silahlı qüvvələri Azərbaycan Respublikasınıi işğal olunmuş torpaqlarını tərk etməlidir və bunun əsasında Ermənistanla Azərbaycan arasında sülh danışıqları aparılmalı və sülh yaradılmalıdır. Biz əminik ki, sülh yaranacaq, müharibə qurtaracaq və Azərbaycan Respublikasının ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı təmin ediləcəkdir. Buna görə də həmin problem biznesmenlərin Azərbaycanla iş aparmasına mane ola bilməz. Mən bunu sizə tam qətiyyətlə bildirirəm və qoy bu, heç kəsi narahat etməsin və heç kəsi Azərbaycanda iş aparmaq niyyətindən çəkrməsin.

Məmnuniyyətlə qeyd etmək istəyirəm ki, bu gün Londonla bir neçə iri şirkətin başçıları ilə, o cümlədən "Bi-Pi", "Kayzer İncinirinq", "Ci-Pi-TI", "Con Braun" şirkətlərinin prezidentləri ilə görüşlərimiz oldu. Güman edirəm ki, bu görüşlər yaxşı və səmərəli işlərin başlanğıcıdır. Sabah bu şirkətlərlə bizim müvafiq şirkətlər arasında protokollar, sazişlər imzalanacaqdır. Biz bu şirkətlərlə konkret işlər aparmaq əzmindəyik və nəzərdə tutulan niyyətlər həyata keçiriləcəkdir. Buna görə də başqa şirkətləri də, iş adamlarını da dəvət edirəm, qoy onlar da təşəbbüs göstərsinlər. Yenə də deyirəm: Azərbaycanın iqtisadi potensialı çox genişdir. İstər neft sahəsində, istər neft kimyası sahəsində, istər maşınqayırma, elektronika, elektrotexnika sahəsində, istərsə də kənd təsərrüfatı, yüngül sənaye sahəsində Azərbaycanın çox böyük müəssisələri var. Sənayenin, demək olar, bütün sahələrində geniş imkanlara malikik, böyük istehsal fondlarımız var. Onlardan müştərək surətdə səmərəli istifadə etmək olar. Mən bütün bu məlumatları İngiltərənin iş adamlarına təqdim edərək, onları müştərək iş aparmağa çağırıram.

Bir daha qeyd edirəm ki, Azərbaycan İngiltərənin iş adamları, biznesmenləri üçün çox faydalı və etibarlı ortaqdır. Güman edirəm ki, siz bu imkanlardan istifadə etmək üçün lazımi addımlar atacaqsınız.

Sizin hamınızı Azərbaycana dəvət edirəm. Diqqətinizə görə sağ olun. Əgər sizi maraqlandıran suallar varsa, mən onlara cavab verməyə hazıram.

S u a l: Sizin xarici siyasətinizdə Rusiyaya, Yaxın Şərqə, xüsu-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sən İrana münasibət necədir? Bakı-Ənzəli (İran) neft kəməri barədə nə deyə bilərsiniz? Bazar iqtisadiyyatınızda xarici ölkələrin, ümumiyyətlə Yaxın Şərqin, o cümlədən də İranın rolunu necə təsəvvür edirsiniz? Xəzər dənizi hövzəsi ölkələrinin lideri kimdir?

C a v a b: Azərbaycanın xarici siyasəti bütün dövlətlərlə hüquq bərabərliyinə əsaslanan və qarşılıqlı surətdə faydalı olan əlaqələr yaratmaqdan ibarətdir. Bəli, məhz bütün dövlətlərlə, o cümlədən qonşu ölkələrlə. Şübhəsiz ki, qonşu dövlətlərlə əlaqədər coğrafi-siyasi vəziyyətə görə daha yaxındır. Lakin İngiltərə ilə Azərbaycan arasında əlaqələrin yaranmasına şəxsən mən, bir prezident kimi çox böyük əhəmiyyət verirəm. Ona görə də bugünkü çıxışımda heç də təsadüfi olaraq deyil, əksinə, düşünülmüş surətdə sizə bildirmək istədim ki, İngiltərə hələ bir neçə əsr bundan əvvəl Azərbaycana maraq göstərmişdir. əsrimizin başlanğıcında Azərbaycanda qoyulmuş xarici kapitalın əksər hissəsi İngiltərənin iş adamlarına məxsus olmuşdur. Buna görə də İngiltərə ilə Azərbaycanın əlaqələri müəyyən qədər tarixi, ənənəvi xarakter daşıyır.

Odur ki, bütün ölkələrlə əlaqələrimiz hüquq bərabərliyinə əsaslanmalı və qarşılıqlı surətdə faydalı olmalıdır. O cümlədən Rusiya ilə də, İranla da. Biz bunların heç birisinə fərq qoymuruq.

Bilmirəm, siz hansı boru kəmərindən danışırsınız. Mən bir şeyə diqqət yetirirəm ki, bu boru kəməri ilə əlaqədar həmişə çoxlu sual verilir. Ancaq hansı boru kəmərindən söhbət getdiyi məlum deyildir. Bir boru kəməri ola bilər. Biz artıq danışıqlar aparırıq. "Bi-Pi", "AMOKO", "Statoyl" iş görəcəklər. Bu konsorsiumun çıxardığı neft, şübhəsiz, boru kəməri ilə nəql ediləcəkdir. Lakin bu kəmərin haradan keçəcəyi, necə çəkiləcəyi hələ məlum deyildir. Bunu müəyyənləşdirəcəyik. Boru kəmərinin Bakıdan Ənzəliyə çəkiləcəyi barədə sualınıza gəldikdə, bundan mənim xəbərim yoxdur.

O ki qaldı Xəzər dənizi hövzəsi ölkələrinin liderinə, belə bir lider yoxdur. Hər ölkənin öz lideri var.

Bir daha bildirmək istəyirəm ki, Azərbaycan iqtisadiyyatı sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı yolu ilə gedəcəkdir və bu, müstəqil Azərbaycan Respublikasının iqtisadi sahədə strateji yoludur. Biz bu yolu seçmişik və onu seçərkən dünya təcrübəsnidən istifadə etmişik, bundan sonra da istifadə edəcəyik. Başqa bir ölkənin, o cümlədən də İranın, yaxud hər hansı bir qonşu dövlətin bizim bazar iqtisadiyyatına heç bir təsiri ola bilməz. Ümumiyyətlə, dünya bazar iqtisadiyyatı yolu ilə gedir. Bildiyiniz kimi, son vaxtlaradək yalnız Sovet İttifaqında iqtisadiyyat sosializm quruluşuna əsaslanırdı, halbuki digər ölkələrdə sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı tətbiq edilirdi. biz də bu yolla gedirik. Odur ki,buna başqa bir ölkənin nə təsiri, nə də etirazı ola bilər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BÖYÜK BRİTANİYA KRAL BEYNƏLXALQ MÜNASİBƏTLƏR İNSTİTUTUNDA ÇIXIŞ

23 fevral 1994-cü il

Xanımlar və cənablar!

Kral Beynəlxalq Münasibətlər İnstitutuna dəvət olunduğuma və belə nüfuzlu auditoriya qarşısında çıxış etmək imkanı verildiyinə görə hədsiz dərəcədə minnətdaram. Mən bunu Azərbaycan haqqında, gənc Azərbaycan dövlətinin necə yaşaması və inkişaf etməsi haqqında geniş informasiya vermək imkanı hesab ediröm. Qeyd etmək istəyirəm ki, Azərbaycan prezidenti kimi, mən Böyük Britaniya Krallığına cənab baş nazir Con Meycor tərəfindən dəvət olunmuşam və dünən rəsmi dövlət səfəri ilə Londona gəlmişəm. Bu müddət ərzində bəzi şirkətlərin prezidentləri ilə görüşlərimiz olmuşdur. Dünən mənə biznesmenlər qarşısında çıxış etmək üçün gözəl imkan yaradılmışdı, bu gün Birləşmiş Krallığın baş naziri cənab Con Meycor ilə rəsmi danışıqlarımız olmuşdur.

Sizə xəbər verə bilərəm ki, danışıqlar çox əlverişli şəraitdə keçmişdir və mənim fikrimcə, uğurla başa çatmışdır. Böyük Britaniya Birləşmiş Krallığı ilə Azərbaycan Respublikası arasında dövlətlərarası münasibətlər haqqında ciddi sənədlərin imzalanması buna sübutdur. 8 sənəd imzalanmışdır, onlardan 6-sını cənab Meycor və mən imzalamışıq. Böyük Britaniya Birləşmiş Krallığı ilə Azərbaycan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında bəyannamə bu sənədlərin arasında mühüm yer tutur.

İmzalanmış digər sənədlərin məzmununu sadalamayacağam. Yalnız onu qeyd etmək istəyirəm ki, biz cənab Con Meycorla energetika sahəsində, o cümlədən neft sənayesi sahəsində əməkdaşlıq haqqında memorandum da imzalamışıq. Apardığımız danışıqlar və imzalanmış sənədlər Böyük Britaniya Birləşmiş Krallığı ilə Azərbaycan Respublikası arasında iqtisadi münasibətlərin coşğun inkişafı üçün olduqca əlverişli imkan yaradır.

Biz Azərbaycanda bu səfərə çox böyük əhəmiyyət veririk. Bu, müstəqil Azərbaycanın prezidentinin Böyük Britaniyaya ilk səfəridir. Bir daha təkrar edirəm, bizdən ötrü, Azərbaycan Respublikasından ötrü bunun böyük əhəmiyyəti var. Çünki Böyük Britaniyanı dünya siyasətində sanballı, siyasi çəkisi olan ölkə, dünya iqtisadi sistemində çox mühüm yer tutan, zəngin tarixi və gözəl ənənələri olan ölkə, hərtərəfli əməkdaşlıq yaratmaqla ondan çox şey öyrənmək mümkün olan ölkə hesab edirik.

Həmçinin qeyd etmək istəyirəm ki, dünəndən bəri görüşdüyümüz Böyük Britaniyanın bütün dövlət xadimləri bizə son dərəcə qonaqpərvərlik göstərmişlər. Bir sözlə, səfərimizin başlanğı-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

cından məmnunuq və ümid etmək istəyirik ki, bu səfər beləcə yaxşı səviyyədə başa çatacaqdır.

Mən başa düşürəm ki, sizi yəqin çox şey maraqlandırır və Azərbaycan barədə sizə istənilən qədər danışmağa hazıram, lakin mənə dedilər ki, vaxt məhduddur, elə mənim də vaxtım çox deyildir. Ona görə də mənə ayrılmış vaxt çərçivəsində sizə daha mühüm informasiyanı çatdırmağa çalışacağam.

İnstitutun prezidenti qeyd etdi ki, Zaqafqaziya və Orta Asiya respublikaları haqqında əvvəllər sizin məlumatınız çox az idi. Bu, həqiqətən belədir, lakin deyə bilmərəm ki, siz bu gün çox şey bilirsiniz. Dünəndən bəri burada, Londonda apardığım söhbətlərdən əmin oldum ki, Böyük Britaniyada, hər halda Azərbaycan haqqında informasiya çox azdır. Əlbəttə, bu bizim günahımızdır, ölkəmiz, xalqımız, həyatımız, vəziyyətimiz haqqında kifayət qədər informasiya verə bilmirik. Ümidvaram ki, bizim səfərimiz və bugünkü görüş bu boşluğu müəyyən qədər aradan qaldıracaqdır.

Azərbaycan Sovet İttifaqının respublikalarından biri idi - bildiyiniz kimi, onun tərkibinə 15 respublika daxil idi, - və İttifaq dağıldıqdan sonra dövlət istiqlaliyyəti qazanmışdır. Mən belə hesab edirəm ki, Sovet İttifaqının dağılması son onilliklərdə həm Sovet İttifaqının özündə, həm də bütün dünyada baş verən ictimai-tarixi proseslərin qanunauyğun nəticəsidir. İttifaq gec-tez dağılmalı idi, artıq dağılmışdır və ona daxil olan bütün respublikalar dövlət istiqlaliyyəti qazanmışdır. Biz Azərbaycanın müstəqil dövlət olmasından son dərəcə məmnunuq. Çünki xalqımız onilliklər, yüzilliklər ərzində bu müstəqilliyi səbirsizliklə gözləmişdir.

Azərbaycan təqribən 200 il Rusiya imperiyasının, bunun son 70 ilini isə Sovet İttifaqının tərkibində olmuşdur. Doğrudur, Azərbaycan öz tarixinin qısa bir dövründə müstəqil demokratik dövlətini yaratmışdı. Bu, 1918-1920-ci illərdə olmuşdur. Lakin iki ildən sonra, həm Azərbaycanda, həm də bütün Zaqafqaziyada sovet hakimiyyətinin qurulması ilə bu dövlət öz fəaliyyətini dayandırmışdır.

Sovet İttifaqına daxil olan başqa xalqlar kimi, Azərbaycan xalqı da bu dövlətin mövcud olduğu 70 il ərzində böyük iqtisadi və sosial inkişaf yolu keçmişdir. Həmin dövrlə xalqın təhsil səviyyəsi yüksəlmiş və respublikada kifayət qədər güclü iqtisadi potensial yaranmışdır. Lakin bununla belə Azərbaycanın istiqlaliyyəti, dövlət müstəqilliyi yox idi. Ona görə də Azərbaycan xalqı istiqlaliyyət qazanmaq imkanını tam razılıqla qarşılamışdır. Azərbaycan müstəqil dövlət kimi mövcuddur və mövcud olacaqdır. Öz müstəqilliyini möhkəmləndirmək və onu bu müstəqillikdən məhrum etmək üçün indən belə heç kimə imkan verməmək - Azərbaycan xalqının iradəsi belədir.

Müstəqil dövlət kimi, Azərbaycan daxili və xarici siyasətini qurarkən öz mənafelərini əsas tutur. Həm də bu zaman, əlbəttə, Azərbaycan xalqının milli xüsusiyyətləri, tarixi keçmişi və milli ənənələri eyni zamanda dövlət quruculuğu sahəsində dünya təcrübəsi, beynəlxalq təcrübə nəzərə alınır. Bu, ona görə xüsusilə mühümdür ki, siz biləsiniz, Azərbaycan hansı yolla gedir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Azərbaycan kommunist ideologiyasından, iqtisadiyatın, dövlət quruculuğunun sosialist sistemindən imtina etmişdir.

Azərbaycanda, eləcə də keçmiş Sovet İttifaqının başqa respublikalarında sosialist sisteminin, kommunist rejiminin bərpasının mümkünlüyü haqqında söz-söhbətin, mülahizələrin, zənnimcə, heç bir əsası yoxdur. Hər halda mən bunu Azərbaycan haqqında deyə bilərəm. Lakin müstəqil Azərbaycan dövlətinin cəmi iki yaşı var və bu iki il çox mürəkkəb şəraitdə keçmişdir.

Sovet İttifaqının dağılması və bir sosial-iqtisadi sistemdən digərinə keçidlə əlaqədar keçmiş İttifaqın bütün respublikaları kimi, Azərbaycanı da bürümüş hərtərəfli, dərin sosial-iqtisadi böhran, şübhəsiz ki, Azərbaycanın həyatını mürəkkəbləşdirir. Keçmiş Sovet İttifaqının bütün və ya əksər respublikalarından fərqli olaraq, Azərbaycanda vəziyyəti mürəkkəbləşdirən daha bir səbəb var. Bu, Ermənistan ilə Azərbaycan arasında gedən müharibə, erməni silahlı qüvvələrinin Azərbaycana qarşı təcavüzüdür. Həmin təcavüz nəticəsində Azərbaycan öz ərazisinin 20 faizə qədərini itirmişdir. Başqa sözlə, erməni silahlı birləşmələri Azərbaycanın bu qədər ərazisini işğal etmişdir. Erməni silahlı birləşmələrinin işğal etdikləri həmin bölgələrdə yaşayan 1 milyondan çox azərbaycanlı ev-eşiklərini tərk etməyə məcbur olmuşdur və onlar qaçqın kimi çox ağır sosial-iqtisadi vəziyyətdə yaşayırlar.

Bütün bunlar müstəqil təşəkkül tapdığı dövrdə Azərbaycanın həyatını mürəkkəbləşdirən amillərdir, lakin bütün bu çətinliklərə baxmayaraq, biz Azərbaycanda demokratik hüquqi dövlət quruculuğu yolu ilə gedirik və dövlət quruculuğu məsələləri ilə fəal məşğul oluruq. Azərbaycan öz dövlətçiliyini demokratiya prinsipləri əsasında quraraq, bir az əvvəl dediyim kimi, öz milli xüsusiyyətlərini, tarixi keçmişini əsas tutur, lakin hər şeydən əvvəl qabaqcıl, inkişaf etmiş, artıq çoxdan demokratiya yolu tutmuş ölkələrin təcrübəsindən bəhrələnməyə çalışır.

Biz ona çalışırıq ki, Azərbaycanda demokratik hüquqi cəmiyyət bərqərar olsun. Elə bir cəmiyyət ki, Azərbaycan vətəndaşlarının hamısına bütün azadlıqları: söz azadlığı, vicdan azadlığı sahibkarlıq azadlığı versin, insan hüquqlarının etibarlı şəkildə müdafiə olunmasını, milli mənsubiyyətnidən və siyasi əqidələrindən asılı olmayaraq bütün Azərbaycan vətəndaşlarının hüquq bərabərliyini, siyasi plüralizmi, çoxpartiyalı sistemi, mətbuat azallığını təmin etsin - Azərbaycanla formalaşmaqda olan demokratik hüquqi cəmiyyətin əsas cəhətləri məhz bunlardır. Azərbaycan Respublikası çoxmillətli dövlətdir, milli mənsubiyyətindən asılı olmayaraq, bütün Azərbaycan vətəndaşları bərabər hüquqlara malikdirlər. Biz Azərbaycanın çoxmillətli olmasını respublikanın həyatının müsbət cəhəti sayırıq.

Dediyim kimi, bizdə çoxpartiyalı sistem elan edilmiş, 40-dan artıq siyasi partiya və ictimai təşkilat qeydə alınmışdır. Bütün bu partiyaların öz mətbuat orqanları var. Bütövlükdə Azərbaycanda, bir neçə milyon əhalisi olan kiçik bir dövlətdə 600-dən yuxarı qəzet və jurnal nəşr edilir.

Deyirlər ki, Azərbaycanda 40 partiya və 600 qəzetin nəşr olun-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ması o qədər də inandırıcı deyildir. Bəlkə də, çünki çoxillik demokratik ənənələri olan İngiltərə kimi demokratik ölkədə cəmi bir neçə əsas partiya var və qəzetlər də Azərbaycandakı qədər çox deyildir. Lakin, görünür, müstəqillik və demokratik inkişaf yoluna qədəm qoyan gənc müstəqil dövlət üçün bu cür vəziyyəti müəyyən dərəcədə başa düşmək olar.

Vacib olan budur ki, Azərbaycanın daxili həyatı, daxili siyasəti demokratiya, çoxpartiyalı sistem, siyasi plüralizm prinsipləri və şəxsiyyətin bütün azadlıqları əsasında qurulur. Ancaq, görünür, biz bu sistemi təkmilləşdirməli, təcrübə toplamalı, Qərbin demokratik ölkələrinin təcrübəsindən daha çox istifadə etməliyik. Buna da vaxt gərəkdir. Belə düşünürəm ki, Azərbaycan cəmiyyəti buna tədricən gəlib çıxacaqdır.

Xarici siyasət sahəsində Azərbaycan dünyanın bütün ölkələri ilə bərabər hüquqlu, qarşılıqlı surətdə faydalı münasibətlər yaratmaq siyasəti elan etmişdir. Azərbaycan Birləşmiş Millətlər Təşkilatının üzvüdür və bir çox beynəlxalq təşkilatların fəaliyyətində iştirak edir və təkrar edirəm, dünyanın bütün ölkələri ilə normal münasibətlər yaratmağa çalışır. Biz bunu əsas götürürük ki, bu münasibətlər, bir tərəfdən, müstəqil Azərbaycan dövlətini dünya birliyində möhkəmlətməli və digər tərəfdən, müvafiq iqtisadi, elmi-texniki, mədəni əlaqələrin inkişafını Azərbaycanın mənafeyi naminə və ortaqlarımızın mənafeyi naminə təmin etməlidir.

Azərbaycan öz coğrafi və coğrafi-siyasi mövqeyinə görə Avropa ilə Asiyanın qovşağındadır, lakin həm Avrona, həm Asiya, həm də Qərb yarımkürəsinin ölkələri ilə, dünyanın bütün ölkələri ilə xoş münasibətlər yaratmağa çalışır. Əlbəttə, biz bu zaman onu əsas götürürük ki, bu münasibətlər hər hansı digər dövlət tərəfindən Azərbaycanın daxili işlərinə qarışmamağı nəzərdə tutmalı və Azərbaycanın dövlət müstəqilliyinə və respublikanın ərazi bütövlüyünə, sərhədlərimizin toxunulmazlığına xələl gətirməməlidir. Əlbəttə, bu zaman Azərbaycan qonşu ölkələrlə daha sıx əlaqələr yaradılmasına böyük əhəmiyyət verir, şimal qonşumuz Rusiya ilə, habelə bizimlə həmsərhəd olan Türkiyə və İranla aramızda normal münasibətlər var. Biz Gürcüstanla normal münasibətlər yaratmışıq, lakin aramızda böyük sərhəd xətti olan Ermənistanla müharibə vəziyyətindəyik.

Avropa ölkələri ilə əlaqələrimiz, zənnimcə, ləng olsa da, inkişaf edir. Dekabrda mən Fransada səfərdə oldum. Biz Fransa prezidenti cənab Fransua Mitteranla, bu ölkənin dövlət xadimləri ilə görüşdük, danışıqlar apardıq, dostluq və əməkdaşlıq haqqında sənəd imzaladıq. Bu isə iqtisadi, elmi-texniki, mədəni münasibətlərimizi inkişaf etdirmək zəruriliyindən irəli gəlir. Bu baxımdan biz Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı ilə daha sıx əlaqələr yaradılmasına olduqca böyük əhəmiyyət veririk. Böyük Britaniya ilə Azərbaycan arasında əlaqələrin qədim, çox zəngin tarixi var. Hələ XV-XV1 əsrlərdə ingilis sahibkarları, tacirləri, səyyahları Azərbaycana gəlmişlər. XIX əsrin axırlarında - XX əsrin əvvəllərində ingilis kapitalı Azərbaycana fəal daxil olmuş və onun İqtisadiyyatında, xüsu-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sən neft sənayesində möhkəm yer tutmuşdur. Odur ki, biz ölkələrimiz arasında iqtisadi əməkdaşlıq sahəsində təcrübəyə və kifayət qədər sanballı tarixə malikik. biz İngiltərə ilə bütün sahələrdə əməkdaşlıq etməyə hazırıq. Dediyim kimi, bu gün imzaladığımız sənədlər belə əməkdaşlıq üçün geniş meydan açır.

Beynəlxalq miqyasda bizim üçün başlıca problem Ermənistanla müharibəni qurtarmaq, hərbi əməliyyatları dayandırmaq və Azərbaycan Respublikasının ərazi bütövlüyünü bərpa etmək, onun sərhədlərinin toxunulmazlığını təmin etməkdir. Bu problem olduqca kəskinləşmişdir.

Biz Azərbaycanda həmin problemin dinc yolla həll olunması mövqelərində möhkəm dayanmışıq. Bu problemin həllində beynəlxalq təşkilatların iştirakına birinci dərəcəli əhəmiyyət veririk. Beynəlxalq təşkilatlar dedikdə, mən Birləşmiş Millətlər Təşkilatını, onun Təhlükəsizlik Şurasını, ATƏM-i, onun Minsk qrupunu nəzərdə tuturam. Əlbəttə, biz Amerika Birləşmiş Ştatları, Böyük Britaniya Krallığı, Rusiya, Türkiyə kimi dünyanın aparıcı ölkələrinin və digər ölkələrin imkanlarına da böyük əhəmiyyət veririk. Biz istəyirik ki, dünya birliyi vəziyyəti aydın və dəqiq təsəvvür etsin. Azərbaycan müharibə istəmir, hərbi əməliyyatların davam etdirilməsini istəmir, biz hərbi əməliyyatların dayandırılmasına tərəfdarıq, amma bir şərtlə: erməni silahlı birləşmələri Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmalıdır. Biz sülh danışıqlarının bu əsasda aparılmasına tərəfdarıq. Məlum olduğu kimi, hərbi əməliyyatlar Azərbaycan ərazisində aparıdır. Qarşınızda Azərbaycanın xəritəsi asılmışdır. Siz burada Azərbaycanı, onun sərhədlərini, Naxçıvan Muxtar Respublikasını aydın görürsünüz. 1923-cü ildən Azərbaycanın tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti mövcud olmuşdur. 1987-ci ilin axırlarında - 1988-ci ilin əvvəllərində Qarabağ münaqişəsi deyilən süni surətdə yaradılmış münaqişə baş vermişdir.

Dağlıq Qarabağ əhalisinin 70 faizi ermənilər və 30 faizi azərbaycanlılar idi. Lakin Dağlıq Qarabağ ərazisində yaşamış bütün azərbaycanlılar, daha doğrusu, 50 min azərbaycanlı bu təcavüzkar hərbi əməliyyatlar nəticəsində həmin ərazidən qovulmuşdur. Bu bir yana, erməni silahlı birləşmələri hərbi əməliyyatlarını genişləndirərək Dağlıq Qarabağ Muxtar Vilayətinin hüdudlarından çox kənarda Azərbaycan ərazisinin xeyli hissəsini də işğal etmişlər. Bunlar Azərbaycanın Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarıdır. Dediyim kimi, bütün bu ərazidə bir milyon nəfərdən çox adam daimi yaşayış yerlərini tərk etməyə məcbur olmuş, qaçqına çevrilmiş və son dərəcə ağır vəziyyətdədir. Bura isə İrandır - Azərbaycan İranla həmsərhəddir. Lakin Azərbaycanın həmin rayonlarının işğal olunması nəticəsində Azərbaycanın İranla sərhədinin xeyli hissəsinə erməni silahlı birləşmələri nəzarət edirlər.

Bu hərbi əməliyyatlar nəticəsində 350 min nəfər əhalisi olan Naxçıvan Muxtar Respublikası tam blokada vəziyyətinə düşmüşdür. Azərbaycanı Naxçıvanla birləşdirən kommunikasiyalar -

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dəmir yolu, avtomagistral, telefon rabitəsi, energetika xətti və digər xətlər Ermənistan ərazisindən keçir və onların hamısı kəsilmişdir. Naxçıvan Muxtar Respublikası Azərbaycanın digər bölgələri ilə yalnız hava yolu ilə əlaqə saxlamaq üçün kiçik imkana malikdir.

Bütün bunlar Ermənistan tərəfindən aparılan təcavüzkar hərbi əməliyyatların nəticəsidir. Buna görə də tələblərimiz, istəyimiz ondan ibarətdir ki, bu təcavüzkar hərbi əməliyyatlar dayandırılsın və silahlı birləşmələr işğal edilmiş ərazilərdən çıxarılsın, həmin rayonların sakinlərinə isə öz daimi yaşayış yerlərinə qayıtmağa imkan verilsin. Hərçənd orada artıq çox şey dağıdılmış, talan edilmiş, adamlar öz ev-eşiyindən, neçə-neçə nəslin zəhməti ilə yığılmış sərvətdən, var-dövlətdən məhrum olmuşlar. Bu, əslində, Azərbaycanın dinc əhalisinə qarşı vəhşilikdir, lakin buna baxmayaraq, bu gün biz heç də təcavüzkarlıq və ya barışmazlıq mövqeyində durmuruq. Biz hesab edirik ki, Azərbaycan və Ermənistan qonşu dövlətlərdir, sülh və barışıq şəraitində yaşamalıdırlar. Biz hesab edirik ki, ömrü boyu bir-biri ilə düşmənçilik, ədavət aparmaq, ömrü boyu müharibə etmək olmaz. Bu yaxın vaxtlaradək mövcud olmuş əlaqələri bərpa etmək lazımdır. Amma Azərbaycanın ərazi bütövlüyü bərpa edilmək şərtilə.

O ki qaldı Dağlıq Qarabağın erməni əhalisinin taleyinə və ya problemlərinə, onlar Azərbaycan vətəndaşlarıdır, buna görə də Azərbaycan dövləti Dağlıq Qarabağın erməni millətindən olan bütün sakinlərinin təhlükəsizliyinə təminat verir. Biz Dağlıq Qarabağın müvafiq statusu məsələsinə baxmağa hazırıq, lakin bir şərtlə, erməni silahlı birləşmələri işğal etdikləri ərazilərdən sözsüz, qeyd-şərtsiz çıxarılsın. Bir daha bildirirəm ki, biz bu məsələlərin həllində ən əvvəl beynəlxalq təşkilatların imkanlarına arxalanırıq, habelə dünya siyasətində sanballı siyasi nüfuzu olan Böyük Britaniya kimi böyük ölkə tərəfindən köməyə və həyanlığa, yəni bu problemin həllinə obyektiv münasibət göstərilməsinə ümid bəsləyirik.

Bildiyiniz kimi, Azərbaycan ötən ilin sentyabrında keçmiş 15 sovet respublikasından 12-nin ki Müstəqil Dövlətlər Birliyinin tərkibinə daxil olmuşdur. Biz Müstəqil Dövlətlər Birliyinin üzvü kimi, əlbəttə, bu problemin həllində birlik ölkələrinin yaxından iştirakına ümid bəsləyirik. Dekabrın 24-də Aşqabatda birliyin dövlət başçılarının görüşü olmuşdur. Orada mən Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü ilə əlaqədar rəsmi bəyanat vermişəm və Müstəqil Dövlətlər Birliyinin üzvləri - Azərbaycanla Ermənistanın öz aralarında müharibə vəziyyətində olmasını əsla yolverilməz və qeyri-normal vəziyyət kimi qiymətləndirmişəm. Bir sözlə, biz bu problemin dincliklə həlli yollarını axtarır və dünya birliyinin yaxından köməyinə ümid edirik.

Müstəqil Azərbaycan dövlətinin hazırda məruz qaldığı bütün çətinliklərə baxmayaraq, Azərbaycanda daxili siyasi vəziyyət sabit, normaldır. Odur ki, böyük iqtisadi potensiala və sənaye potensialına, yeraltı və yerüstü sərvətlərə, zəngin intel-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lektual potensiala malik olan Azərbaycan bütün ölkələrlə, o cümlədən də İngiltərə ilə iqtisadi əməkdaşlıq üçün yaxşı ortaq ola bilər.

Dünən mən İngiltərə biznesmenləri qarşısında çıxış edərkən onları Azərbaycana dəvət etdim. Mən sizə həmin xahişlə, həmin çağırışla bu gün də müraciət edirəm. Nəzərinizə çatdırmaq istərdim ki, Azərbaycan ilə əməkdaşlıq heç də təkcə neft sənayesi sahəsi ilə məhdudlaşmır, hərçənd Azərbaycan deyəndə onu ən əvvəl neft ölkəsi kimi təsəvvür edirlər. Əlbəttə, biz "Bi-Pi" və Qərbin "AMOKO", "Pennzoyl", "Statoyl" kimi neft şirkətləri ilə, Türkiyənin neft şirkəti ilə əməkdaşlığı davam etdirəcəyik. Belə düşünürəm ki, yaxın vaxtlarla kommersiya bağlaşması imzalana bilər.

Bununla bərabər, dediyim kimi, Azərbaycan iqtisadi əməkdaşlıq üçün bir çox digər imkanlara da malikdir. Məsələn, götürək "Kayzer İncinirinq" Şirkətini. Dünən mən onun prezidenti ilə görüşdüm. Bu gün isə birgə alüminium istehsalı haqqında protokol imzalandı. Bizdə çox güclü neft-kimya kompleksi və böyük imkanlar var. Dünən mən "Con Braun" firmasının prezidenti və digər nümayəndələri ilə görüşdüm. Bu gün biz protokol imzaladıq. Ümidvaram ki, bizim fəal əməkdaşlıq üçün imkanımız var. Azərbaycan Rabitə Nazirliyi ilə "Ci-Pi-Ti" Şirkəti arasında yaxşı əməkdaşlıq yaradılmışdır. Azərbaycan böyük maşınqayırma kompleksinə malikdir. Bu kompleks neft maşınqayırması, elektrotexnika və elektronikadan, cihazqayırma və maşınqayırmanın digər sahələrindən ibarətdir. İstehsal qurğularının, onlar müxtəlif səbəblərə görə tam gücü ilə işləmir olması əlverişli şərait yaradır. Sizi əmin edə bilərəm ki, Azərbaycana gəlib yaxşı iqtisadi münasibətlər yarada bilərsiniz. Bu cür əməkdaşlığın etibarlı olmasına dövlət, o cümlədən də prezident təminat verəcəkdir.

Məni çox səbrlə dinlədiyinizə görə sizə təşəkkür edirəm. Bütün suallarınıza cavab verməyə hazıram.

S u a l: Prezident Ter-Petrosyan iki həftə əvvəl burada olarkən bildirmişdi ki, Azərbaycan Dağlıq Qarabağın erməni sakinlərinə, abxazlar barəsində Gürcüstanın etdiyi kimi, təminat verə bilməz. Söhbət abxazlar tərəfindən ərazi reallıqlarının tanınmasından gedir. Siz bu məsələyə necə baxırsınız? Sual olunur, xarici qoşunların, sülh yaradan qoşunların orada olması əminlik hasil edə bilərmi? Ter-Petrosyanı fikrincə, Dağlıq Qarabağ sakinlərinin vəziyyəti üçün belə inamlı təminat yaratmaq çox çətin olacaqdır.

H.Ə l i y e v: Belə düşünürəm ki, cənab Ter-Petrosyan sizə düz məlumat verməyib. Mən demişəm və bildirirəm ki, Azərbaycan Dağlıq Qarabağın erməni əhalisinin təhlükəsizliyinə tam təminat verir. Dediyim kimi, erməni silahlı birləşmələri Azərbaycan ərazisindəlir və ərazimizin təxminən 20 faizini işğal etmişlər. Onlar çıxıb getməlidirlər. Təhlükəsizliyə təminat verilməsi barədə isə bundan sonra danışmaq olar. O ki qaldı təminatlara, onlar tamamilə təmin edilir. Mən sizə dedim ki, biz beynəlxalq təşkilatlara, xüsusən ATƏM-ə və onun Minsk qrupuna böyük ümidlər bəsləyirik. Əlbəttə, biz istərdik ki, Minsk qru-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

pundan da, ATƏM-dən də müşahidəçilər olsun, onlar kimin nə etdiyinə göz qoysunlar. Əgər beynəlxalq təşkilatlar, o cümlədən ATƏM və onun Minsk qrupu Azərbaycan ərazisinə sülhyaratma qüvvələri göndərməyi lazım bilsələr, biz buna qarşı da etiraz etmərik. Axı müharibə Azərbaycan ərazisində gedir. Erməni silahlı birləşmələrinin işğal olunmuş Azərbaycan torpaqlarından çıxıb getməsi üçün biz bütün şərtləri qəbul etməyə, bütün imkanlardan istifadə etməyə hazırıq.

S u a l: Ermənilərlə azərbaycanlılar arasında qanlı münaqişələr IX əsrdən, türk tayfaları bu bölgəyə gəldiyi vaxtdan gedir. Məgər tarixi konsessiyanı irəli sürmək vaxtı gəlib çatmayıbmı? Mən ərazi güzəştlərini nəzərdə tuturam. Məgər ermənilərlə müzakirələr zamanı belə məsələ qaldırılmayıbmı? Yəni Ermənistan onunla Dağlıq Qarabağ arasındakı olan ərazini alar, Naxçıvan ilə Azərbaycan arasındakı olan ərazi isə sizə güzəştə gedilərdi.

H.Ə l i y e v: Əvvəla, bu münaqişənin nə vaxtdan IX əsrdən, yaxud ondan sonrakı dövrlərdən getdiyini heç kəs dəqiq bilmir. Zənnimcə, bizə tarixə xüsusilə dərindən qayıtmağa ehtiyac yoxdur. Əgər tarixi faktları araşdırmalı olsaq, onda xatırlatmalıyam ki, ki Ermənistan ərazisinin bir hissəsi də vaxtilə Azərbaycan torpaqları idi. Mən həmin ərazini sizə göstərə bilərəm. O, Zəngəzur adlanır. Bir vaxtlar bu yerlər Azərbaycana məxsus olmuş, lakin 1918-1920-ci illərdə Ermənistana keçmişdir. Bir sözlə, tarixə müraciət etməli olsaq, onda görərik ki, Ermənistan Azərbaycana çox şey qaytarmalıdır. Amma mən onu deyirəm ki, biz Ermənistan ərazisinə, mövcud sərhədlərə göz dikməmişik, onların iddiasında deyilik. Bununla bərabər, biz öz ərazimizin bir metrini də verməyə razılaşa bilmərik. Sizin ərazi mübadiləsi ideyanıza gəlincə, bu, təzə ideya deyil. Bu, dəfələrlə təklif edilmiş variantlardan biridir. Əgər real surətdə ehtiyac olarsa, bu ideyaya bir də baxmaq olar.

S u a l: Tarixə qalsa, əlbəttə, müxtəlif ölkələr öz iddia və ideyalarını irəli sürə bilərlər. Bununla əlaqədar biz Fələstinin tarixini və başqa məsələləri yada salırıq. Lakin bu münaqişə Qorbaçov Aqanbekyanı Parisə göndərən vaxtdan başlamışdır. O, Parisdə iki nitqlə çıxış etmiş, ermənilərə, erməni mənşəli adamlara üz tutmuş və Dağlıq Qarabağa, bu məsələyə ilk dəfə istinad etmişdir. Tarixi mövqedən yanaşsaq, onda görərik ki, ermənilərlə azərbaycanlılar arasında tarixən heç vaxt münaqişə olmayıb. Biz dinc yanaşı yaşamışıq. Mənə elə gəlir ki, bu işdə ya Moskvanın, ya da Dağlıq Qarabağın yerli sakinlərinin əli var. Əgər doğrudan da belədirsə, demək bu münaqişənin başlanmasına həqiqətən onların qoşunları səbəb olmuşdur.

İkinci sual: Məgər söhbət yalnız Dağlıq Qarabağın hərbi qüvvələrindənmi gedir? Qərb mətbuatında yazıldığı kimi, çox güman ki, söhbət sırf erməni silahlı qüvvələrindən gedir.

H.Ə l i y e v: Əvvəla, Ermənistan və Azərbaycan xalqları, həqiqətən, onilliklərlə dostluq və dinclik şəraitində yaşamışlar. Mən 1969-cu ildən 1983-cü ilədək Azərbaycanın rəhbəri olmuşam.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ermənilərlə azərbaycanlılar arasında normal ünsiyyət vardı, o cümlədən də Dağlıq Qarabağda. Mən orada dəfələrlə olmuşam. Dağlıq Qarabağ münaqişəsini müəyyən düşmən qüvvələr törətmişlər. İkincisi, bu da doğrudur ki, akademik Aqanbekyan 1987-ci ilin noyabrında Parisdə çıxış edərək bəyanat vermişdi ki, Dağlıq Qarabağ Ermənistana birləşdirilməlidir. O, əlavə edərək demişdi ki, həmin məsələ Mixail Qorbaçovla razılaşdırılmışdır. Bu isə qanlı münaqişənin başlanmasına səbəb olmuşdur. Odur ki, bu münaqişəni törədən və istər ermənilərdən, istərsə də azərbaycanlılardan minlərlə insanın qırılmasına bais olan və bu faciədə günahkar olan adamlar tarix qarşısında məsuliyyət daşımalıdırlar.

O ki qaldı ikinci suala, bu, doğrudan da, belədir. Axı Dağlıq Qarabağda təxminən yüz min əhali yaşayır. Hətta qocaları, uşaqları, qadınları da götürsək, məgər bu yüz min adam hərbi əməliyyatlar apara bilərdimi? Dağlıq Qarabağ ətrafındakı bölgələrin bir milyon nəfərdən çox sakinini əzəli yaşayış yerlərindən qovub didərgin sala bilərdimi? Əsla şübhə yoxdur ki, bu, Ermənistan Respublikasının Azərbaycana qarşı təcavüzüdür, bunlar Ermənistanın silahlı birləşmələridir, bu birləşmələr müəyyən mərhələlərdə öz hərbi üstünlüyündən istifadə edərək və kənardan müəyyən kömək alaraq Azərbaycan ərazisinin belə böyük bir hissəsini işğal edə bilmişlər.

S u a l: Siz öz çıxışınızda dediniz ki, Ermənistanla münaqişənizin aradan qaldırılması üçün beynəlxalq vasitəçilik səylərini alqışlayırsınız. Qonşunuz İran Cümhuriyyəti sizə öz vasitəçilik xidmətlərini təklif etdikdə buna necə baxdınız? Mən həmçinin ümidvaram ki, siz İranla Ermənistan və İranla Azərbaycan arasında münasibətlər barəsində bir şey deyə bilərsiniz. Bəs İran barəsində Azərbaycanın siyasətində hər hansı irəliləyiş varmı?

H.Ə l i ye v: Azərbaycanla İran arasında münasibətlər normaldır. Bu yaxın vaxtlaradək münasibətlərimiz keçmiş Azərbaycan rəhbərliyinin təqsiri üzündən qeyri-normal xarakter daşıyırdı. münasibətlərimiz qaydasına düşmüş və bizim heç bir problemimiz yoxdur. Bununla bərabər, İranın Ermənistanla çox yaxşı münasibətləri var. Buna görə də İran tərəfi bildirmişdir ki, o, Azərbaycan ilə Ermənistan arasında vasitəçi rolunu oynaya bilər. Bununla əlaqədar İran Ermənistana müraciət et-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mişdir. Ermənistan da razılaşmışdır. Lakin biz bu fikirdəyik ki, bir dövlət belə mürəkkəb vəziyyətdə vasitəçiliyi təmin edə bilməz, beynəlxalq təşkilatların və bir neçə dövlətin səylərini birləşdirmək lazımdır. Bununla yanaşı, biz hər hansı ölkənin vasitəçilik səylərindən imtina etmirik. Bu vasitəçiliyin şərtlərini və real imkanlarını aydın və dəqiq təsəvvür etmək lazımdır.

Diqqətinizə görə çox sağ olun. Mən sizin hamınızı, Azərbaycanda həqiqi vəziyyəti bilmək istəyənlərin hamısını Azərbaycana dəvət edirəm.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

LONDONUN "HİLTON" OTELİNDƏ BÖYÜK BRİTANİYADA YAŞAYAN AZƏRBAYCANLILARLA GÖRÜŞDƏ ÇIXIŞ

23 fevral 1994-cü il

Hörmətli azərbaycanlılar!
Bacılar və qardaşlar!

Çox məmnunam ki, bu gün İngiltərənin paytaxtında - Londonda bu qədər azərbaycanlı bir yerə toplaşa bilib və mən də bizim qardaşlarımızla, bacılarımızla Böyük Britaniya torpağında görüşmək imkanı əldə etmişəm. Hamınızı Azərbaycan torpağı, respublikamız adından, Azərbaycan xalqı adından səmimi-qəlbdən salamlayıram, hamınıza cansağlığı, xoşbəxtlik arzulayıram.

Mənə elə gəlir ki, buraya toplaşanların indiki müstəqil Azərbaycan Respublikasından və yaxud başqa yerdən gəlməsini aydınlaşdırmağın o qədər də əhəmiyyəti yoxdur. Əsas məna bundan ibarətdir ki, nəhayət, azərbaycanlılar da bir yerə toplaşa bilərmiş, qərib ölkələrdə bir-biri ilə əlaqö saxlayar, bir-birinə dayaq ola bilərmiş və öz vətənləri Azərbaycan torpağı haqqında düşünə bilərmişlər. Bu amil Azərbaycan xalqı üçün demək olar ki, yenidir. Çünki biz sayca çox olsaq da, keçmiş zamanlarda bir-birimizdən daim ayrı olmuşuq. Avropada, başqa ölkələrdə də azərbaycanlıların sayca çox yaşamasına baxmayaraq, onların arasında əlaqələr zəif olmuşdur. Ona görə də harada nə qədər azərbaycanlı olduğunu bilmək keçmiş vaxtlarda çox çətin idi.

Mən buraya, İngiltərəyə yola düşərkən dedilər ki, Londonda azərbaycanlılar - Böyük Britaniyada yaşayan azərbaycanlıların bir qismi mənimlə görüş keçirmək istəyir. Çox sevindim. Birincisi, ona görə ki, başqa ölkədə, Avropada olan azərbaycanlılarla görüşmək mənim üçün çox mühüm hadisədir. İkincisi də, düşündüm ki, azərbaycanlılar bir yerə yığışıb, demək, bir-biri ilə əlaqə saxlayıb görüşə bilərlər.

Xalqımızın çox gözəl xüsusiyyətləri, ənənələri var, qədim tarixi var. Ancaq qüsurlu cəhətləri də var. O da bundan ibarətdir ki, bir-birimizlə möhkəm əlaqə saxlaya bilmirik. İnciməsəniz deyə bilərəm ki, düşdüyünüz mühitdə bəziləri əriyib başqalarına qarışır, öz milli mənliyini saxlaya bilmnr. Bu, bizim nöqsan cəhətimizdir. Hesab edirəm ki, Azərbaycan müstəqil dövlət olandan sonra, digər ölkələrdə yaşayan azərbaycanlılar özlərinin Azərbaycan kimi bir Ana Vətəni olduğunu dərk edəndən sonra bu çatışmazlıq, bu nöqsan da aradan götürülə bilər.

Mən on gün bundan əvvəl Türkiyədə rəsmi səfərdə idim. Şübhəsiz ki, Türkiyədə azərbaycanlılar ta qədimdən yaşayıblar. Türkiyəni və Azərbaycanı, yaxud türkləri və azərbaycanlıları bir-bi-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

rindən ayırmaq çox çətindir. Bizim xalqlarımız əsrlər boyu bir-birinə qaynayıb-qarışmış xalqlardır. Amma buna baxmayaraq, Ankarada da, İstanbulda da Azərbaycan icmaları var idi. Onların oraya toplaşması mənim üçün bir o qədər də qəribə görünmədi. Mən buna adi bir hal kimi baxdım. Ancaq Londonda azərbaycanlıların bir-birini tapması və burada toplaşması çox sevindirici haldır. Mən bugünkü görüş münasibətilə sizi təbrik edirəm və hamınıza bir-birinizlə daha sıx əlaqələr saxlamağı, bir-birinizlə mehriban olmağı, yaxın olmağı, bir-birinizə dayaq olmağı ürəkdən arzulayıram.

İndi xalqımız ağır vəziyyətdədir. Bildiyiniz kimi altı ilə yaxındır ki, Azərbaycan Ermənistanın hərbi təcavüzünə məruz qalmışdır. Soydaşlarımızın, bacı-qardaşlarımızın bir qismi həlak olmuşdur, torpaqlarımızın bir hissəsi erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. Şübhəsiz ki, Azərbaycan xalqı belə vəziyyətə dözə bilməz və dözməməlidir. İşğal olunmuş torpaqlarımızı nəyin bahasına olursa-olsun, geri qaytarmalı, erməni təcavüzkarlarını öz ərazimizdən qovmalı, Azərbaycan Respublikasının ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını təmin etməliyik. Biz bu işləri görürük və əmin ola bilərsiniz ki, bundan sonra daha əzmlə, daha cəsarətlə görəcəyik.

Eyni zamanda Azərbaycan-Ermənistan müharibəsi və süni surətdə yaradılmış "Dağlıq Qarabağ problemi" ermənilər tərəfindən dünyada, xüsusən böyük ölkələrdə o qədər təbliğ olunmuşdur, onların dövlət başçılarında ictimai fikir ermənilərin xeyrinə o dərəcədə formalaşmışdır ki, Azərbaycandan kənarda yaşayan soydaşlarımızın bu sahədə fəaliyyətinə çox mühüm ehtiyac var. Avropada, Amerikada, Rusiyada bu məsələ ilə əlaqədar ictimai fikrin ermənilərin xeyrinə formalaşmasında Ermənistanın təbliğatı çox böyük rol oynamışdır. Ancaq bu təbliğatı aparan təkcə Ermənistanda, yaxud Dağlıq Qarabağda yaşayan ermənilər deyildir. Onların bu sahədə o qədər də böyük imkanları yoxdur. Ermənistandan kənarda - Avropada, Rusiyada, Amerikada və başqa ölkələrdə yaşayan ermənilər (bəlkə də onların əksəriyyəti heç vaxt Ermənistanda olmamışdır, Dağlıq Qarabağın harada yerləşdiyini yalnız xəritədən bilir, o torpağın, necə deyərlər, heç iyini də almamışdır) - onlar öz ermənilliyini saxlamış, "Dağlıq Qarabağ problemi"ni, Ermənistanı müdafiə etməyi özlərinin böyük bir vəzifəsi sayaraq çalışır və təbliğat aparırlar. Ona görə də böyük dövlətlərin rəsmi dairələrində və ictimai fikrində məsələnin ədalətsiz olaraq ermənilərin xeyrinə qəbul edilməsində erməni diasporunun, erməni lobbisinin çox böyük rolu olmuşdur.

Bəzən azərbaycanlılar öz aralarında danışarkən fikirləşirlər ki, bizim də ermənilərinki kimi lobbimiz olsaydı, başqa ölkələrdə bizim də diasporumuz olsaydı, şübhəsiz, onlar da bizdən ötrü çox iş görərdi. Bu həqiqətdir. Ancaq reallıq bundan ibarətdir ki, başqa ölkələrdə erməni lobbisi, erməni diasporu kimi Azərbaycan lobbisi, Azərbaycan diasporu yaratmaq mümkün deyildir. Yəni o maddi imkanlara malik olan, yaxud ayrı-ayrı ölkələrdə dövlət orqanlarında, təbliğat, informasiya vasitələrində

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

möhkəm mövqe tutan ermənilərlə bərabər səviyyəyə nail olmaq azərbaycanlılar üçün çox çətin məsələdir. Ermənilər tarixən Ermənistandan daha çox başqa ölkələrdə yaşamışlar. Rusiyada, Avropa ölkələrində, Amerikada, Yaxın Şərqdə, hətta müsəlman ölkələrində, ərəb ölkələrində də ermənilərin çox güclü diasporları olmuşdur və də var. Onlar həmişə Ermənistanla bağlı olmuşlar, də altıncı ildir ki, hərə öz yerində imkanlarından istifadə edərək "Dağlıq Qarabağ problemi", Ermənistan-Azərbaycan müharibəsi haqqında Ermənistanın xeyrinə təbliğat aparır və ictimai fikri Azərbaycanın əleyhinə yönəldirlər.

İngiltərənin baş naziri cənab Con Meycorun dəvəti ilə mən burada səfərdəyəm. Bu, rəsmi dövlət səfəridir. Dünəndən bəri burada görüşlərimiz, danışıqlarımız olmuşdur. Bu gün baş nazir cənab Con Meycorla çox ətraflı danışıqlarımız oldu, geniş söhbət etdik. Böyük əhəmiyyət kəsb edən, İngiltərə ilə Azərbaycanın münasibətlərində dövlətlərarası əlaqələr sahəsində ilk addımlar olan mühüm müqavilələr, sənədlər imzaladıq. Altı müqaviləni bilavasitə cənab Con Meycor və mən imzalamışıq.

Dünən və bu gün apardığımız danışıqlardan nə nəticə çıxarmaq olar? Belə nəticəyə gəlmək olar ki, burada Azərbaycan haqqında çox az məlumat var. Azərbaycan-Ermənistan müharibəsi haqqında olan məlumat ancaq ermənilərin xeyrinə formalaşmışdır. Azərbaycanın bugünkü real vəziyyəti haqqında ya məlumat yoxdur, varsa da doğru-düzgün məlumat deyildir. Dünən də, bu gün də görüşlər və söhbətlər zamanı İngiltərənin rəhbər xadimləri baş nazirdən tutmuş digər vəzifəli şəxslərə qədər hamısı bizdən eşitdikləri məlumatı bəzən təəccüblə, çox vaxt da məmnuniyyətlə qarşılayır və deyirdilər ki, biz bunları bilmirdik, vəziyyətin belə olmasından xəbərsiz idik, siz bizdən ötrü çox şeyləri aydınlaşdırdınız. Belə çıxır ki, bu səfərin başqa nəticələrini hətta bir kənara qoysaq, yalnız və yalnız bu cəhət İngiltərənin dövlət dairələrinə, dövlət rəhbərlərinə Azərbaycanın indiki vəziyyəti haqqında doğru məlumat çatdıra bilməyimiz həmin səfərin çox böyük əhəmiyyəti olduğunu göstərir.

Vətəndən kənarda yaşayan soydaşlarımızın ürəkləri gərək daim Azərbaycanın nəbzi ilə bir vursun. Harada yaşamasından, vəziyyətinin ağır və çətinliyindən asılı olmayaraq, gərək hər kəs öz Ana Vətəni haqqında düşünsün. Azərbaycanlılar artıq bilirlər və daha da çox bilməlidirlər ki, bizim nəhayət, müstəqil dövlətimiz Azərbaycan Respublikası var, azərbaycanlılar üçün Ana Vətən var. Bu, müqəddəs Azərbaycan torpağıdır. Deməli, harada olursan-ol, hansı ölkədə yaşayırsan yaşa, ancaq Azərbaycan haqqında, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü haqqında, Azərbaycan xalqının bu günü və gələcəyi haqqında düşünməlisən. Bax, buna görə də mən bu gün azərbaycanlıların burada, bu salonda toplaşmasına çox sevinirəm. Düzdür, lazım gələrsə, bəlkə də buraya indikindən beş-altı dəfə çox azərbaycanlı toplaşa bilər. Lakin elə təkcə sizin bu salona toplaşmağınız da başlanğıc üçün çox gözəl bir hadisədir. Güman edirəm ki, belə görüşlər gələcəkdə dünya azərbaycanlılarının həmrəyliyi üçün, onların bir-biri ilə sıx əlaqə saxlaması, bir-biri ilə yaxın olması üçün

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ilk addımlardır. Arzu edərdim ki, bu addımlar uğurlu olsun, kəsərli olsun, azərbaycanlılar dünyada bir-biri ilə birləşsin, bir-birinə yaxınlaşsın, hamı Azərbaycan Respublikasının bu gününü və gələcəyini qorusun, müdafiə etsin.

Azərbaycan haqqında sizin məlumatınız var. Mən qısaca dedim. Şübhəsiz ki, vəziyyət ağırdır. Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü altıncı ildir ki, davam edir. Bu müddətdə Azərbaycan müntəzəm olaraq öz mövqelərini əldən vermişdir. Əgər ilk vaxtlar, 1987-ci ilin sonu 1988-ci ilin əvvəlində süni şəkildə yaradılmış "Dağlıq Qarabağ problemi" ortaya atılırdısa, Dağlıq Qarabağ Vilayətindən söhbət gedirdisə, həmin ərazi artıq çoxdan erməni silahlı qüvvələrinin əlindədir. Keçmiş Dağlıq Qarabağ Vilayətinin hüdudlarından kənarda, Azərbaycanın yeddi rayonu - Laçın, Kəlbəcər rayonları, Ağdam rayonunun böyük bir hissəsi, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonları erməni silahlı qüvvələrinin işğalı altındadır. Bu rayonlardan bir milyondan artıq Azərbaycan vətəndaşı qaçqın düşmüş, ev-eşiyini, var-dövlətini, el-obasını itirmişdir.

Bütün bunlar Azərbaycanın daxili vəziyyətini çox kərginləşdirir. Ancaq bütün bu çətinliklərə dözmək mümkündür. Xalqımız da dözümlü xalqdır. Lakin bir şeyə - torpaqlarımızın ermənilərin işğalı altında olmasına dözmək mümkün deyildir. Təəssüf ki, bu, real vəziyyətdir, Azərbaycanın başına gələn bəladır. Bu isə bir günün, beş günün, bir ayın, beş ayın işi deyil, altı il ərzində Azərbaycan tərəfinin zəifliyinin, öz torpaqlarını qorumağa qadir olmamasının, eyni zamanda Ermənistanın düşünülmüş, işğalçı hərbi əməliyyatlarının və siyasətinin nəticəsidir.

Bu müddətdə Azərbaycanı belə vəziyyətə salan amillərdən biri də onun daxilində hakimiyyət uğrunda gedən mübarizə olmuşdur. Bir tərəfdən Azərbaycan torpaqları işğal olunduğu halda, onun Qarabağ kimi bir bölgəsinin əldən çıxması real vəziyyətə çevrildiyi halda Azərbaycanda ayrı-ayrı siyasi qruplar, qüvvələr, ayrı-ayrı mafioz qruplar hakimiyyətə gəlmək üçün bir-biri ilə çəkişmişlər. Bilirsiniz ki, bunların nəticəsində son illərdə Azərbaycanda bir neçə dəfə hakimiyyət dəyişikliyi olmuş və bu, Azərbaycan xalqına çox baha başa gəlmişdir. Azərbaycan xalqı öz torpaqlarını itirmiş və dediyim kimi, bir milyondan artıq vətəndaşımız didərgin, qaçqın vəziyyətinə düşmüşdür.

İndi biz belə vəziyyətdəyik. Bir tərəfdən, şübhəsiz ki, tarixi hadisənin şahidiyik: Azərbaycan müstəqil dövlət olmuşdur. İki yüz il ərzində Rusiya imperiyasının, sonra isə Sovetlər Birliyinin tərkibində olan Azərbaycan istiqlaliyyət qazanmışdır və müstəqil dövlət kimi Dünya Birliyi, dünya dövlətləri tərəfindən tanınmışdır. Bu, Azərbaycanın gələcəyi üçün işıqlı yol açır. Digər tərəfdən isə, Azərbaycanın başına belə bəlalar gəlmişdir. Dediyim kimi, Azərbaycan ərazisində müharibə gedir və bu, xalqımıza çox baha oturur. Belə bir vəziyyətdə olan Azərbaycan Respublikasının kənarda yaşayan soydaşlarımızın, həmvətənlərimizin, bütün dünya azərbaycanlılarının köməyinə çox böyük ehtiyacı var. Hərə öz imkanı daxilində, nəyi bacarırsa ondan isti-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

fadə edərək, Azərbaycana kömək göstərməlidir. Sizə müraciətimiz bundan ibarətdir.

O ki qaldı bizə, Azərbaycanda yaşayan azərbaycanlılara, bilməlisiniz ki, daxili vəziyyətimiz nə qədər çətin olsa da Azərbaycan sosial-iqtisadi böhran içərisindədir, son illərdə iqtisadiyyat dağılmışdır. Azərbaycanda yaranmış böyük sənaye, kənd təsərrüfatı potensialı bərbad vəziyyətə düşmüşdür, elm, təhsil ocaqlarının çoxu pis gündədir. Sosial sahə çox ağır vəziyyətdədir - lakin Azərbaycan xalqı yaşayır, gələcəyə böyük ümidlə və nikbinliklə baxır. Güman edirəm ki, xalqımız bu vəziyyətdən çıxacaq və Azərbaycan öz torpaqlarının, öz taleyinin sahibi, öz dövlətinin sahibi kimi gələcəkdə də müstəqil dövlət olaraq yaşayacaqdır.

Biz Ermənistanla gedən müharibəni sülh yolu ilə qurtarmaq istəyirik. Bildiyiniz kimi, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası bu barədə qətnamələr qəbul etmişdir, böyük dövlətlərin təşəbbüsləri olmuşdur. Bunların hamısına ümid bəsləmişik, lakin heç birinin nəticəsi olmamışdır. Çünki Ermənistan, onun silahlı qüvvələri xarici qüvvələrin dəstəyinə arxalanaraq bu qətnamələrlə hesablaşmamış, onların heç birini yerinə yetirməmişdir və öz təcavüzkar siyasətini, işğalçılıq əməliyyatlarını davam etdirir. Biz belə bir şəraitlə də məsələnin sülh yolu ilə həll olunmasından, danışıqlar yolundan imtina etmirik. Bu yolu davam etdirəcəyik və həmin vasitələrlə Azərbaycanı yaranmış vəziyyətdən çıxarmağa çalışırıq. Ancaq eyni zamanda xalqımız artıq başa düşmüşdür ki, azərbaycanlılar öz torpaqlarını yalnız özləri qorumalıdırlar. Azərbaycan xalqı o qədər də asiz xalq deyil, onun qəhrəmanlıqla dolu keçmişi var. Bu, onu göstərir ki, əsrlər boyu başına gəlmiş bəlaların hamısından xalqımız öz gücü, cəsarəti, qəhrəmanlığı sayəsində çıxmışdır və də çıxacaqdır.

Təəssüf ki, erməni təcavüzünün başlandığı vaxtdan ötən dövrdə Azərbaycanda torpaqlarımızı müdafiə etmək üçün lazımi səviyyədə ordu yaradılmamışdır. Son illərdə Azərbaycanla əhali arasında, xüsusən gənclər arasında vətənpərvərlik əhval-ruhiyyəsi, döyüş ruhu, Vətəni qorumaq eşqi aşağı səviyyədə olmuşdur. Ona görə də Azərbaycan məğlubiyyətlərə uğramışdır. vəziyyət dəyişmişdir. Son aylarda və xüsusən noyabrın 2-də mənim Azərbaycan xalqına müraciətimdən sonra gənclərimiz, əli silah tutan adamlarımız orduya gəlmişlər. Ordu formalaşmaqda, yaranmaqdadır və artıq öz qüdrətini, cəsarətini göstərir. İşğal olunmuş torpaqlarımızın bir qismi artıq geri qaytarılmışdır. Düzdür, müharibə gedir. Bəzən döyüşlər çox ağır olur, qan tökülür, vətəndaşlarımız, gənclərimiz həlak olur. Ancaq bu, təbiidir: bir halda ki, müharibə gedir, Vətənimizi qoruyuruq, deməli, itkilərimiz, şəhidlərimiz olacaqdır. Ermənilər ərazimizə soxulmuşlar, Qarabağı, başqa rayonlarımızı işğal etmişlər, bunu yenə də davam etdirmək istəyirlər. Onlar da itki verirlər. Ancaq onlar torpaqlarımızı işğal etmək üçün nə qədər itki versələr lə, təcavüzkar əməllərindən əl çəkmirlər. Biz isə ədalətli müharibə aparırıq, torpaqlarımızı, vətənimizi qoruyuruq, işğal olunmuş ərazilə-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

rimizi geri qaytarmaq istəyirik. Ona görə də bizim verdiyimiz itkilərə təəccüblənmək lazım deyil: hər bir vətəndaş öz torpağı uğrunda qurban getməyə hazır olmalıdır. biz Azərbaycanla belə əhval-ruhiyyə yarada bilmişik.

Hazırda Azərbaycan Ordusu erməni silahlı qüvvələrinə kəsərli zərbələr endirir. Erməni hərbi birləşmələri həm canlı qüvvə, həm də texnika sarıdan çox böyük itki verir. Nəhayət, Azərbaycan xalqı dünyaya nümayiş etdirir ki, o, öz torpaqlarını qorumağa qadirdir. Əmin ola bilərsiniz ki, biz bu yolla bütün imkanlarımızdan istifadə edəcəyik. Azərbaycan xalqı bundan sonra öz gücünü daha da toplayacaq və əgər bu müharibəni başqa yolla qurtarmaq mümkün olmasa, işğal edilmiş torpaqlarımız nəyin bahasına olursa-olsun erməni işğalçılarından təmizlənəcək, Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin ediləcəkdir. Biz vəzifəmizi bunda görürük. Arxayın ola bilərsiniz, sizin qarşınızda bunu tam cəsarətlə deyirəm: Prezident kimi mən xalqımızın bütün imkanlarını hərəkətə gətirərək, Azərbaycan Respublikasının müdafiə qüdrətini möhkəmləndirməyə çalışıram və çalışacağam. Azərbaycan öz torpaqlarını uğurla qoruyacaqdır. Hər birimiz Vətən yolunda, dövlətimizin yolunda, müstəqil Azərbaycanın yolunda şəhid olmağa hazırıq və heç kim bizi bu yoldan döndərə bilməyəcəkdir.

Azərbaycandan kənarda yaşayan həmvətənlərimizin, soydaşlarımızın vəzifəsi Azərbaycana kömək etməkdən ibarətdir. Yenə də deyirəm, kimin nə imkanı varsa, kimin əlindən nə gəlirsə, onu da etməlidir. Xüsusən Azərbaycanın indiki vəziyyətini dünya ictimaiyyətinə, Avropa ölkələrinə, dövlət dairələrinə, informasiya orqanlarına doğru-düzgün çatdırmağa çalışmaq lazımdır. Belə hesab edirəm ki, xaricdə Azərbaycan diasporu formalaşır, o, gündən-günə inkişaf edəcək və Azərbaycana, öz vətəninə köməyini heç kəs əsirgəməyəcəkdir. Ümidvar olduğumu bildirmək istəyirəm ki, siz - burada, İngiltərədə yaşayan azərbaycanlılar da, haradan gəlməyindən asılı olmayaraq, daha sıx birləşəcək, bir-birinizlə, Azərbaycanla əlaqə saxlayacaqsınız, ona əlinizdən gələn köməyi edəcəksiniz.

Siz harada yaşamağınızdan asılı olmayaraq, müstəqil Azərbaycan Respublikasının vətəndaşlarısınız. Mən sizə vətəndaşlarımız, soydaşlarımız kimi müraciət edirəm, hamınıza cansağlığı, həyatınızda səadət, xoşbəxtlik, işinizdə, müstəqil Azərbaycanın yaşaması və inkişafı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"AZƏRBAYCAN İLƏ BÖYÜK BRİTANİYA ARASINDA MÜNASİBƏTLƏRİN İNKİŞAFI ÜÇÜN YAXŞI PERSPEKTİVLƏR VAR"

BÖYÜK BRİTANİYAYA RƏSMİ SƏFƏRİN YEKUNLARINA DAİR MƏTBUAT KONFRANSINA BƏYANAT

24 fevral 1994-cü il

Hörmətli xanımlar və cənablar!

Mənim səfərim başa çatır, sabah biz evə qayıdırıq. Əsas iş görülmüşdür, buna görə də bu gün mən mətbuat nümayəndələri ilə görüşməyə və sizə səfərin yekunları barədə qısa məlumat, suallara cavab verməyə razılaşdım.

Bildiyiniz kimi, Birləşmiş Krallığa mənim rəsmi səfərim baş nazir cənab Con Meycorun dəvəti ilə keçirilmişdir. Bu gün üçüncü gündür ki, biz Londondayıq. Bu müddət ərzində səfərimizin proqramı, demək olar, yerinə yetirilmişdir. Ona görə də sizə deyə bilərəm ki, mən səfərin yekunlarından razıyam. Ən əvvəl, baş nazir cənab Con Meycor ilə görüşün və danışıqların böyük əhəmiyyəti var. Ondan əvvəl biz nazirlərlə, bir sıra iri şirkətlərin prezidentləri ilə görüşdük. Baş nazir ilə söhbət zamanı bir çox məsələlər - istər Azərbaycan ilə Birləşmiş Krallıq arasında münasibətlərlə bağlı, istərsə də bizim bölgədə, Zaqafqaziya bölgəsində vəziyyətə aid, habelə müasir beynəlxalq vəziyyətlə əlaqədar məsələlər barəsində fikir mübadiləsi etməyə imkanımız oldu.

Danışıqlarımız qarşılıqlı anlaşma, səmimilik və olduqca əlverişli şəraitdə keçmişdir. Bu şəraiti İngiltərə rəhbərliyi yaratmışdır. Başlıcası budur ki, biz Azərbaycan ilə Birləşmiş Krallıq arasında əlaqələrin daha da intensiv inkişaf etdirilməsi sahəsində görüləcək tədbirlər barədə razılığa gəldik. Söhbət dövlətlərarası münasibətlərdən, iqtisadi əməkdaşlıqdan, elm, texnika, mədəniyyət sahəsində və bəzi digər sahələrdə əməkdaşlıqdan gedir.

Danışıqlarımızda iqtisadi əməkdaşlıq, daha dəqiq desək, Birləşmiş Krallığın ən iri şirkətləri ilə Azərbaycan Respublikası arasında əməkdaşlıq məsələləri mühüm yer tutmuşdur. Bununla əlaqədar olaraq Azərbaycanın neft yataqlarının işlənməsində "Bi-Pi" şirkətinin iştirakı məsələsinə və Qərbin neft şirkətlərinin konsorsiumu ilə imzalanmalı olan bağlaşmaya xüsusi yer verilmişdir. Burada neft şirkətləri ilə bağlaşmaya xüsusən böyük maraq göstərilir. Zənnimcə, görüşlərimiz və söhbətlərimiz zamanı biz bu məsələləri tamamilə aydınlaşdırdıq.

Danışıqlarımızın yekunlarına əsasən ölkələrimiz arasında münasibətlər üçün məncə, çox mühüm sənədlər imzalanmışdır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bunlar, ən əvvəl, Birləşmiş Krallıqla Azərbaycan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında bəyannamə, energetika, o cümlədən neft sənayesi sahəsində ölkələrimiz arasında əməkdaşlıq - "Bi-Pi" nəzərdə tutulur - barədə memorandum və bir sıra digər sənədlərdir. Əməkdaşlığın başlanğıcı üçün mən isə belə hesab edirəm ki, Azərbaycan ilə Birləşmiş Krallıq arasında əməkdaşlığın bünövrəsini məhz bu səfər qoyur bu səfər zamanı kifayət qədər sənəd - 8 sənəd imzalanmışdır. İstər bu sənədlər, istərsə də bizim aramızda əldə edilmiş razılaşmalar belə deməyə əsas verir ki, Azərbaycan ilə Böyük Britaniya arasında münasibətlərin inkişafı üçün yaxşı perspektivlər var.

Bildirməliyəm ki, mənim xarici işlər naziri Duqlas Herd, ticarət naziri Maykl Hezltayn, energetika və kənd təsərrüfatı nazirləri, dənizaşırı ərazilərin inkişafı üzrə nazir baronessa Çolker, dövlət naziri Duqlas Hoqq, habelə bir sıra iri şirkətlərin prezidentləri ilə çox maraqlı görüş və söhbətlərim oldu. Mən ölkənizin işgüzar dairələrinin nümayəndələri ilə görüşdə çıxış etmək imkanı qazandım. Görüşdə İqtisadiyyat sahəsində Azərbaycanla fəal əməkdaşlığın imkanlarından danışdım.

Mən buna böyük əhəmiyyət verirəm ki, Kral Beynəlxalq Münasibətlər İnstitutunda mənə çıxış etməyə imkan yaradıldı. Bu gün mən Avropa Bankında oldum, onun Direktorlar Şurası qarşısında çıxış etdim. Yenə də bu gün mən Birləşmiş Krallığın parlamentinə dəvət olundum və baş nazir cənab Con Meycor parlament üzvlərinin suallarına cavab verərkən parlamentin iclasında iştirak etdim. Sonra parlamentin üzvləri ilə, özü də həm Mühafizəkarlar Partiyasını təmsil edənlərlə, həm Leyboristlər Partiyasının nümayəndələri olan parlament üzvləri ilə, həm də lordlarla, o cümlədən azərbaycanlılara o qədər də rəğbəti olmayan baronessa Koksla məzmunlu söhbətlərimiz oldu. Parlament üzvləri ilə çox maraqlı söhbət etdik, mənə onların qarşısında da çıxış etməyə imkan verdilər.

Böyük məmnunluq hissi ilə qeyd edirəm ki, Birləşmiş Krallığın parlamentində dostluq fraksiyası, yaxud Birləşmiş Krallığın parlamenti ilə Azərbaycan arasında parlamentlərarası qrup yaradılmışdır. Bu qrup Azərbaycan parlamenti ilə, ümumən Azərbaycanla əlaqələr yaradır. Yəni söhbət ölkələrimiz arasında fəal parlamentlərarası əlaqələr yaradılmasından gedir. Mən buna da çox böyük əhəmiyyət verirəm.

Bütün səviyyələrdə görüş və söhbətlər zamanı daxili və xarici siyasət məsələlərində Azərbaycan rəhbərliyinin mövqeyini dəqiq və aydın şərh etməyə imkanım oldu. Bizim daxili siyasətimiz hüquqi demokratik dövlət, demokratik cəmiyyət yaradılmasına, Azərbaycanda demokratiyanın inkişafı üçün hər çür şəraitin təmin olunmasına, demokratik prinsiplərin, siyasi plüralizmin və çoxpartiyalı sistemin bərqərar edilməsinə, insan hüquqlarının müdafiəsinə, şəxsiyyətin azadlığının, söz, mətbuat, vicdan azadlıqlarının, milli mənsubiyyətindən, dini etiqadından və siyasi əqidələrindən asılı olmayaraq bütün Azərbaycan vətəndaşlarının hüquq bərabərliyinin təmin olunmasına yönəldilmişdir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sosial-iqtisadi inkişaf sahəsində Azərbaycan bazar iqtisadiyyatının, azad sahibkarlığın inkişaf etdirilməsi, iqtisadi həyatın sərbəstləşdirilməsi, xarici kapitalın, xarici investisiyaların Azərbaycana cəlb olunması, xarici investorlar üçün əlverişli şərait yaradılması xəttini qəti şəkildə götürmüşdür. Sözün qısası, söhbət azad bazar iqtisadiyyatından gedir. Bununla əlaqədar mən Azərbaycanla iqtisadi əməkdaşlığa maraq göstərənlərin hamısını respublikamıza dəvət etmişəm, onu nəzərdə tuturam ki, Azərbaycan hər cəhətdən bütün dünya üçün açıqdır, xüsusən investisiyalar üçün, iqtisadi münasibətlər üçün Azərbaycan Birləşmiş Krallığın işküzar aləminin üzünə açıqdır. Mən demişəm və sizin qarşınızda bir daha bildirirəm ki, Azərbaycan iqtisadi əməkdaşlıq üçün, investisiyalar üçün əlverişli imkanlara malikdir, respublikanın rəhbərliyi, dövlətimiz investisiyaların müdafiəsinə, Azərbaycanla əməkdaşlığa başlayacaq xarici firmaların mənafelərinin müdafiəsinə təminat verir.

Xarici siyasət sahəsində Azərbaycan dünyanın bütün dövlətləri ilə - həm qonşu ölkələrlə, həm Qərb və Şərq ölkələri ilə, həm də, xüsusən, Avropa dövlətləri ilə normal qarşılıqlı surətdə faydalı münasibətlər saxlamaq xətti yeridir. Dünya ölkələri ilə əlaqələrimiz əvvəllər mövcud olmuş hər cür ideoloji ehkamlardan azaldır. Bir müstəqil dövlət kimi, Azərbaycan öz milli mənafelərini əsas tutaraq, xarici siyasətini, öz beynəlxalq mövqelərini və dövlət istiqlaliyyətini möhkəmləndirmək məqsədilə həyata keçirəcəkdir.

Burada olduğumuz vaxtda mən bir daha yəqin etdim, əslinə qalsa, biz əvvəllər də bu fikirdə idik ki, Azərbaycan beynəlxalq işlərlə əməkdaşlıq üçün Birləşmiş Krallığın timsalında, eləcə də təbii ki, Birləşmiş Krallıq Azərbaycanın timsalında yaxşı tərəf-müqabilə malik ola bilər.

Ermənistanla Azərbaycan arasında gedən müharibə Azərbaycan üçün olduqca ağrılı və ciddi problemdir. Bu müharibə altı ildir davam edir, o, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün nəticəsidir. Bu müharibə süni surətdə törədilmiş, uydurulmuş Dağlıq Qarabağ problemindən başlamış və genişlənərək böyük müharibəyə çevrilmiş, hər iki tərəfdən çoxlu miqdarda insanı həyatdan məhrum etmişdir. İndiyədək davam edən bu müharibənin bizim üçün ən ağır nəticəsi odur ki, Azərbaycan ərazisinin təxminən 20 faizi erməni silahlı birləşmələri tərəfindən işğal olunmuş və respublikanın həmin rayonlarının təqribən bir milyon sakini öz ölkəsində qaçqın vəziyyətinə düşmüş, daimi yaşayış yerlərini, öz ev-eşiklərini tərk etmək məcburiyyətində qalmış, var-yoxlarını tamam itirmişlər. Təbiidir ki, bütün bunlar Azərbaycanın həm iqtisadi, həm də sosial vəziyyətini zəiflədir, başlıcası isə, respublikanın müstəqilliyinə, suverenliyinə və ərazi bütövlüyünə çox ciddi zərər vurur.

Biz, yəni Azərbaycan tərəfi hərbi əməliyyatların dayandırılmasına, müharibənin qurtarmasına, qan tökülməsinə son qoyulmasına və bu məsələnin danışıqlar yolu ilə, sülh yolu ilə həll olunmasına çalışırıq. Lakin erməni tərəfi hərbi əməliyyatlar aparmaqda davam edir, güc metodları ilə, yəni hərbi yolla öz məq-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sədlərinə çatmaq istəyir. Ona görə də, təbii ki, biz buna cavab verməyə məcburuq. Erməni tərəfinin məqsədi Dağlıq Qarabağın müstəqilliyinə nail olmaq və Azərbaycanı parçalamaq, Azərbaycanı öz ərazisinin bir hissəsindən məhrum etməkdir. Biz əlbəttə, bununla razılaşa bilmərik və ona görə də problemi danışıqlar yolu ilə həll etməyə səy göstərməklə yanaşı, torpaqlarımızın, ərazimizin müdafiəsi üçün tədbirlər də görürük. Təbii ki, bütün bunlar hərbi əməliyyatlara gətirib çıxarır və həmin əməliyyatlar, təəssüflər olsun, bu gün də davam edir. Lakin bir daha təkrar edirəm ki, biz hərbi əməliyyatların davam etdirilməsini istəmirik, biz məsələnin sülh yolu ilə həllinə tərəfdarıq.

Münaqişənin sülh yolu ilə aradan qaldırılmasını təklif etməklə yanaşı, biz silahlı qüvvələrimizi də möhkəmləndirmək üçün tədbirlər görürük. Heç kim düşünməməlidir ki, məsələni dinc vasitələrlə həll etmək istəməyimiz bizim hərbi cəhətdən zəifliyimizin əlamətidir. Yox, biz sadəcə olaraq, müharibə istəmirik. Eyni zamanda, mən bəyan edirəm ki, əgər erməni tərəfi münaqişənin sülh yolu ilə aradan qaldırılmasına razı olmasa, təbii ki, bu zaman Azərbaycan erməni silahlı birləşmələrinin işğal etdikləri torpaqları azad etmək və ölkənin ərazi bütövlüyünə, sərhədlərinin toxunulmazlığına, tam suverenliyinə və müstəqilliyinə nail olmaq üçün özünün bütün qüvvə və imkanlarından istifadə edəcəkdir.

Bu problemin sülh yolu ilə həll olunmasını təklif edərkən biz beynəlxalq təşkilatlara BMT-nin Təhlükəsizlik Şurasına, ATƏM-ə və onun Minsk qrupuna, başqa beynəlxalq təşkilatlara böyük ümid bəsləyirik. Onlar çox iş görər və əslində bu məsələni həll edə bilərlər. Bununla əlaqədar biz beynəlxalq təşkilatların sülh prosesində Birləşmiş Krallıq hökuməti nümayəndələrinin fəal iştirakına da ümid bəsləyirik.

Mənim Birləşmiş Krallığa səfərimin mühüm yekunlarından biri də odur ki, ölkələrimiz arasında münasibətlərin inkişafı üçün yaxşı zəmin yarada bilməklə yanaşı, Azərbaycan haqqında və respublikadakı real vəziyyət barədə, xüsusən Ermənistan-Azərbaycan müharibəsi ilə əlaqədar yaranmış vəziyyət haqqında, istədiyimiz qədər olmasa da, hər halda, kifayət qədər tam informasiya verə bildik.

Mən baş nazir Con Meycoru Azərbaycana rəsmi səfərə dəvət etmişəm. Dəvət qəbul olunmuşlur və biz bu səfərin vaxtını və müddətini razılaşdıracağıq. Mən həmçinin bir çox başqa dövlət rəhbərlərini, habelə Böyük Britaniya parlamentinin üzvlərini də respublikamıza dəvət etmişəm. Biz istəyirik ki, ölkənizin mümkün qədər daha çox nümayəndəsi Azərbaycana gılsin, çünki bu, ölkəmizdəki vəziyyəti, ilk növbədə Ermənistanla Azərbaycan arasında gedən müharibə ilə bağlı problemləri obyektiv surətlə təhlil etməyə, obyektiv qiymətləndirməyə imkan verir.

Mən səfərimin yekunlarından son dərəcə razıyam və burada, Birləşmiş Krallıqda bizə göstərilən qonaqpərvərlik üçün minnətdaram. Vətənə yaxşı əhval-ruhiyyə ilə qayıdıram.

Diqqətinizə görə sağ olun. Əgər suallarınız olarsa, cavab verməyə hazıram.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

S u a l: (SÖTA agentliyi): Heydər Əliyeviç, Dağlıq Qarabağ barədə Rusiyanın mövqeyini şərh etməzdinizmi? Onun mövqeyini neçə qiymətləndirirsiniz?

C a v a b: Rusiya məsələnin sülh yolu ilə həllinə nail olmaq üçün səylər göstərir. Rusiya özünün vasitəçilik səylərini təklif edir və bunları reallaşdırmaq üçün bir neçə dəfə cəhdlər olmuşdur. Gərək ki, bir dəfə noyabrın 20-də olmuşdur, o zaman biz hərbi əməliyyatların dayandırılması və erməni silahlı birləşmələrinin işğal edilmiş ərazilərdən çıxarılması haqqında Rusiyanın iştirakı ilə Azərbaycanla Ermənistan arasında sazişin layihəsini almışdıq. Lakin o vaxt bu təşəbbüs reallaşmadı. Xüsusi tapşırıqlar üzrə səfir, Rusiya prezidentinin şəxsi nümayəndəsi Vladimir Kazimirov Azərbaycandan Ermənistana gedərkən Azərbaycan ərazisində erməni silahlı qüvvələri tərəfindən atəşə tutuldu. Xarici işlər nazirinin və hətta Nazirlər Soveti rəhbərliyinin şəxsində Rusiya rəhbərliyi erməni tərəfinin Rusiya prezidentinin xüsusi nümayəndəsinə qarşı, əgər belə demək olarsa, etikadan kənar mövqeyi ilə əlaqədar çox kəskin bəyanatla çıxış etdi və üzr istəməyi tələb etdi. Lakin erməni tərəfi bunu etmədi. Beləliklə, həmin danışıq prosesi yarımçıq qaldı. Bununla belə, Rusiya bu gün də məsələni sülh yolu ilə həll etmək üçün səylər göstərir.

S u a l: ("Ekonomist" qəzeti): Əgər etiraz etmirsinizsə, neft sənayesi sahəsində iqtisadi əməkdaşlıq barədə yenidən bir neçə kəlmə deməyinizi xahiş edirəm. Siz memorandum imzalandığını dediniz, lakin saziş bağlanıb, ya yox? Bundan əlavə, gələcək boru kəmərinin nəzərdə tutulan marşrutu barədə qərar varmı?

C a v a b: Mən belə hesab edirəm ki, əgər iki ölkənin rəhbərləri cənab Con Meycor və mən energetika sahəsində əməkdaşlıq haqqında, o cümlədən də "Bi-Pi" ilə əməkdaşlıq haqqında memorandum imzalamışıqsa, bu, özlüyündə mühüm faktdır. Bunun arxasınca kommersiya sazişi gəlməlidir, bu, Azərbaycan ilə konsorsium arasında imzalanmalıdır. Konsorsiuma "Bi-Pi", "AMOKO", "Statoyl", "Pennzoyl", Türkiyə Neft Şirkəti və bir sıra başqa firmalar daxildir. Zənnimcə, bu, yaxın vaxtlarda reallaşacaqdır.

O ki qaldı neftin daşınması marşrutuna, görünür, bu məsələ kommersiya sazişinin bağlanması ilə bir vaxtda, ola bilsin, payızda həll ediləcəkdir.

S u a l: ("Balkani" agentliyi): İki sualım var. Birincisi, əgər sazişin ilkin layihəsindən imtina olunmuşsa, sıfırdan başlayaraq yeni sazişin hazırlanmasından söhbət gedirmi? İkincisi Qara dəniz ölkələrinin iqtisadi əməkdaşlığının inkişaf perspektivlərini necə qiymətləndirirsiniz?

C a v a b: Əvvəla, biz sazişdən imtina etməmişik, o, sadəcə olaraq yox idi. Danışıqlar gedirdi və mövqelər müəyyən dərəcədə aydınlaşmışdı, bunun əsasında da saziş imzalanmalı idi. Biz bütün məsələləri dərindən araşdırmağı zəruri bildik. Nəzərə almalısınız ki, neft Azərbaycan xalqının, Azərbaycan dövlətinin başlıca sərvətidir və təxminən 30 il müddətinə nəzərdə tutulan sazişi imzalamaqdan əvvəl hər şeyi dəfələrlə götür-qoy etmək lazım idi. Biz bunu etməmişdik. Göründüyü kimi, heç nə də-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yişməmişdir. Biz sadəcə olaraq həmin məsələ ilə daha dərindən məşğul olmaqdayıq. Qara dəniz ölkələrinin əməkdaşlığına gəldikdə isə, biz bu əməkdaşlıqda iştirak edirik və həmin prosesi müsbət qiymətləndiririk.

S u a l: ("Europian" qəzeti): Əgər fikrinizi təhrif etmirəmsə, Siz dünənki çıxışınızda Azərbaycanın Dağlıq Qarabağın erməni sakinlərinin təhlükəsizliyinə təminat verməyə hazır olduğundan danışdınız. Bu təminatlar barədə hansı tutarlı dəlillər gətirə bilərsiniz?

C a v a b: Hansı dəlillər? Əgər mən Azərbaycan prezidenti, dövlət başçısı kimi deyirəmsə ki, dövlət Dağlıq Qarabağın erməni əhalisinin təhlükəsizliyinə təminat verməyi bütün dünya ictimaiyyəti qarşısında öhdəsinə götürürsə, inana bilərsiniz, bu təminatlar veriləcək və yerinə yetiriləcək. Bundan ötrü əlavə dəlillər lazım deyil. Yeri gəlmişkən deyim ki, Dağlıq Qarabağ ermənilər 1988-ci ilədək, yəni münaqişə başlanana qədər Azərbaycanın bu bölgəsində çox gözəl yaşayırdılar.

S u a l: ("Muslim nyus" agentliyi): Böyük Britaniya Ermənistan ilə Azərbaycan arasındakı münaqişənin aradan qaldırılması üçün vasitəçilik səyləri göstərirmi?

C a v a b: Biz istərdik ki, Böyük Britaniya problemlərimizin həllində beynəlxalq təşkilatlarda daha fəal iştirak etsin və Birləşmiş Krallıq hökumətinin vasitəçilik səylərini qəbul etməyə hazırıq.

S u a l: ("Pravda" qəzeti): Cənab prezident, Britaniyanın kütləvi informasiya vasitələrində belə xəbərlər, daha doğrusu, belə gümanlar yayılır ki, guya Azərbaycai rəhbərliyi neft sazişinin tam hazırlanması və imzalanması problemini Qərb birliyinin və o cümlədən Böyük Britaniyanın Qarabağ probleminin aradan qaldırılmasına daha yaxından cəlb edilməsi məsələsi ilə bağlayır. Zəhmət olmasa, deyin, bu iki məsələ arasında həqiqətən birbaşa əlaqə varmı? Eyni zamanda deyə bilərsinizmi, Xəzəryanı ölkə kimi, Rusiyanın Xəzər dənizindəki təbii ehtiyatların işlənib hazırlanmasında potensial imkanları necədir?

C a v a b: Belə birbaşa qarşılıqlı asılılıq yoxdur. Bununla yanaşı, biz belə böyük sazişə gedərkən - axı bu, çox uzun müddətə bağlanan sazişdir - ondan, şübhəsiz, Azərbaycana məxsus neft yataqlarının işlənməsində bizimlə onilliklər ərzində əməkdaşlıq edəcək ölkələrin Azərbaycana həm də siyasi dəstək olmaları üçün istifadə etmək istəyirik. Ona görə yox ki, bu ölkələr respublika üçün nə isə xüsusi bir iş görsünlər, sadəcə olaraq ona görə ki, həmin ölkələr Azərbaycan xalqını və Azərbaycan Respublikasını narahat edən problemin ədalətli həllinə kömək göstərsinlər.

Mətbuat konfransında iştirakınıza görə sağ olun, Azərbaycana gəlin!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

XOCALI SOYQIRIMI QURBANLARININ AİLƏLƏRİNƏ

Əziz xocalılar! Hörmətli həmvətənlər!

İki il öncə, 26 fevral 1992-ci ildə Xocalı şəhərində dünya misli görünməyən dəhşətli bir vəhşiliyin şahidi oldu. Erməni hərbi quldurları aylarla tam mühasirədə saxlanan Xocalı şəhərini yerlə yeksan etdilər. Köməksiz mülki əhali azğın bir amansızlıqla qətlə yetirildi. Südəmər körpələrə, əlsiz-ayaqsız qocalara, qadınlara, uşaqlara belə aman verilmədi. Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində tayı-bərabəri olmayan bir vəhşilik aktıdır. Bu soyqırımı eyni zamanda bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir.

Mənəvi fiziki itkimiz əvəzolunmaz dərəcədə ağırdır. Təəssüf ki, son altı ildə Azərbaycanın siyasi həyatında mövcud olmuş hərcmərcliklər, anarxiya, milli taleyimizə biganə siyasi ambisiyalar, hakimiyyət oyunları və siyasi qruplar arasında münaqişələr də həyatımızda baş vermiş bütün faciələrdə az rol oynamamışdır. Nəticədə tariximizə qara səhifələr yazılmış, xalqımızın qəlbinə sağalmaz yaralar vurulmuşdur. Respublikanın hüquq-mühafizə orqanları günahkarların aşkar edilməsi istiqamətində ardıcıl iş aparır. Əmin ola bilərsiniz ki, törədilmiş cinayətin məsuliyyətindən heç kəs yaxa qurtara bilməyəcəkdir.

Dünyada hər şeyin, dərdin də, əzabların da bir sonu var. O cümlədən, məcburən qatıldığımız müharibənin də. Xalqımızı əmin etmək istəyirəm ki, müqəddəs vətənimizin real müstəqilliyi və torpaqlarımızın düşmən tapdağından tam azad olacağı gün uzaqda deyildir. Hamımızın sıx birliyimizlə biz bu ağır tale sınağından qələbəylə çıxacağıq və hər kəs öz doğma ocağına qayıdacaqdır.

Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə 26 fevral "Xocalı soyqırımı və milli matəm günü" elan olunmuş, bu barədə bütün beynəlxalq təşkilatlara məlumat verilmişdir. Bu gün ölkəmizin hər yerində Xocalının günahsız qurbanlarının əziz xatirəsi ehtiramla yad edilir. Xocalı soyqırımı qurbanlarının müqəddəs ruhu qarşısında bir daha baş əyir, onların qohumlarına və bütün Azərbaycan xalqına başsağlığı verirəm.

Allah bütün şəhidlərimizə rəhmət eləsin.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

1 mart 1994-cü il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AZƏRBAYCAN TELEQRAF AGENTLİYİNİN
Azər-TAC-IN KOLLEKTİVİNƏ

Müstəqil Azərbaycan Respublikasının milli informasiya mərkəzinin - Azər-Tacın kollektivini agentliyin yaradılmasının 75 illiyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Azər-Tac suveren Azərbaycanın daxili və xarici siyasətinin həm ölkəmizdə, həm də dünya miqyasında təbliğində, Ermənistanın torpaqlarımıza təcavüzünün və xalqımıza qarşı törətdiyi vəhşiliklərin ifşasında, məruz qaldığımız informasiya blokadasının yarılmasında, Azərbaycan həqiqətlərinin geniş yayılmasında müəyyən rol oynayır. Respublikamızda demokratik hüquqi dövlət quruculuğu barədə beynəlxalq miqyasda doğru-düzgün təsəvvür yaratmaq, xalqımıza qarşı aparılan düşmənçilik təbliğatını dəf etmək işində də kollektivinizin xidmətləri qeyd olunmalıdır.

Azərbaycan Teleqraf Agentliyinin 75 illiyi mətbuatımız üçün əlamətdar hadisədir. Kollektivinizə, bütün Azərbaycan jurnalistlərinə xalqımızın və dövlətimizin mənafeyini daha əzmlə qorumaqda, haqq işimizi əsl vətəndaş qeyrəti ilə müdafiə etməkdə, həyatımızın reallıqlarını obyektiv və operativliklə işıqlandırmaqda nailiyyətlər arzulayıram. Hamınıza yeni yaradıcılıq uğurları, xoşbəxtlik, cansağlığı diləyirəm.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

3 mart 1994-cü il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

PREZİDENT SARAYINDA KƏND TƏSƏRRÜFATI PROBLEMLƏRİNİN HƏLLİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ NİTQ

4 mart 1994-cü il

Hörmətli müşavirə iştirakçıları!

Bu gün respublikamızın kənd təsərrüfatında yaranmış vəziyyətlə əlaqədar çağırılmış müşavirə çox böyük zərurətdən doğan bir hadisədir. Biz bir neçə aydır ki, kənd təsərrüfatı ilə əlaqədar müəyyən tədbirlər keçirmək fikrindəydik. Bu tədbirlər sırasında belə bir müşavirənin keçirilməsi, ayrı-ayrı regionlarda görüşlər, məsləhətləşmələr aparılması və ümumiyyətlə kənd təsərrüfatının vəziyyətinin təhlil olunması nəzərdə tutulurdu.

Respublikanın belə ağır vəziyyətdə olması və bizim, şəxsən mənim vaxtımın çox hissəsinin müharibə məsələlərinə həsr edilməsi bu müşavirənin vaxtında keçirilməsinə mane olmuşdur. Şübhəsiz ki, belə bir müşavirə iki-üç ay bundan əvvəl keçirilsəydi və müvafiq tədbirlər görülsəydi, biz daha yaxşı nəticələr əldə etmiş olardıq. Ancaq buna imkan olmadı. Sizə deyə bilərəm ki, elə bu gün də müşavirə ekstremal bir şəraitdə keçirilir. Bu gün bizim mühüm tədbirlərimiz var, onlar çox vaxt aparır. Əlbəttə, bunlarla yanaşı, bugünkü görüşümüzün də keçirilməsinə mən çox çalışdım. Üç saatdan çoxdur ki, biz kənd təsərrüfatı ilə əlaqədar müzakirə aparırıq.

Bildiyiniz kimi, respublikamız ağır iqtisadi-sosial böhran içərisindədir. Respublikanın iqtisadiyyatının və sosial həyatının bütün sahələrini bürüyən bu böhran təəssüf ki, ilbəil dərinləşir, ölkənin həyatına onun mənfi təsiri güclənir. Mən respublikanın bu vəziyyətdə olması barədə öz fikirlərimi dəfələrlə demişəm, təkrara ehtiyac yoxdur. Ancaq qısaca bir də qeyd etmək istəyirəm ki, respublikanın böhran vəziyyətində, müharibə şəraitində olması müstəqil Azərbaycanı həddindən ziyadə ağır vəziyyətə salmışdır. Bunlar hamısı əhalinin həyat tərzinə mənfi təsir edir və ümumiyyətlə, respublikanın bu günü və gələcəyi üçün çox böyük çətinliklər yaradır. Ancaq eyni zamanda xalqımız, ictimaiyyət bilməlidir ki, Azərbaycanın daxili imkanları çox böyükdür, böhran vəziyyətindən çıxmaq üçün mümkünatlar da var. Biz bu imkanların hamısını işə salmalı, onlardan səmərəli istifadə etməli və respublikamızı bu ağır vəziyyətdən çıxarmalıyıq.

Məlumdur ki, bu iqtisadi və sosial böhran hələ keçmiş Sovetlər İttifaqı mövcud olduğu dövrdə gedən mənfi proseslərin məntiqi nəticəsi idi. Sovetlər İttifaqı dağılandan sonra, Azərbaycan müstəqillik əldə etdiyi dövrdən indiyə qədər respublikanın iqtisadiyyatında düzgün və doğru yolun təyin edilməməsi və iqtisadiyyatla ciddi məşğul olunmaması da bu sahədə xeyli gerilik ya-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ratmışdır. Bütün bunlar həm də Azərbaycanın son illər müharibə şəraitində olmasının nəticəsidir. Əgər iqtisadi və sosial böhran keçmiş Sovetlər İttifaqının bütün respublikalarına bu və ya digər səviyyədə təsir etmişdirsə, bizim respublikada belə ağır vəziyyət yaranmasının başqa bir səbəbi də müharibə şəraitidir.

Yenə də qeyd edirəm, vəziyyət ağırdır, çətindir. Bu da xalqın həyat səviyyəsinin aşağı düşməsinə gətirib çıxarmışdır, əhalinin kasıblaşmasına səbəb olmuşdur. Ancaq respublikamızın daxili potensialı böyükdür. Bu potensialdan səmərəli istifadə olunsa, vəziyyət tədricən yaxşılaşa bilər və yaxşılaşmalıdır. Azərbaycan bu vəziyyətdən tədricən çıxa bilər və çıxmalıdır.

Bu vəziyyətdən çıxmaq üçün şübhəsiz ki, birinci növbədə müharibəyə son qoyulmalıdır. Bilirsiniz ki, bu sahədə biz ciddi addımlar atmışıq. Ançaq bunlar hələ nəticə verməyib, müharibə davam edir. Biz bundan sonra da lazımi tədbirlər görmək əzmindəyik. Müharibə nə qədər davam etsə, respublikanın İqtisadiyyatında olan bu vəziyyəti normal hala salmaq çox çətin olacaq.

Bir həqiqəti də hamı bilməlidir ki, müharibə aparan ölkə (dünya təcrübəsində də bu belə olub) iqtisadi çətinliklərə məruz qalır və bu çətinliklərə dözməlidir. Müharibə gedən ölkənin əhalisi də dərk etməlidir ki, əgər respublika müharibə aparırsa və bu müharibə ölkənin suverenliyinin, müstəqilliyinin qorunmasına xidmət edirsə, belə halda hamı bir olmalı və hamı bilməlidir ki, müharibə şəraitində yaşayış sülh dövründəki yaşayışdan fərqlidir. Bu, təbii bir haldır, bunu hər kəs dərk etməlidir.

Ancaq bunlar hamısı o demək deyil ki, biz hər şeyi müharibənin üstünə yıxıb, yaxud müharibə ilə bağlayıb iqtisadiyyatda lazımi tədbirlər görməməliyik. Məhz bu mənada kənd təsərrüfatının vəziyyətinin təhlil olunması və yaşadığımız konkret mərhələdə kənd təsərrüfatı sahəsində lazımi tədbirlər görülməsi zərurəti bizi bu müşavirəyə gətirib çıxarmışdır.

İqtisadiyyatdakı böhrandan danışarkən, şübhəsiz ki, kənd təsərrüfatındakı ağır vəziyyəti unutmaq olmaz. Kənd təsərrüfatı Azərbaycan iqtisadiyyatının böyük bir hissəsidir, demək olar ki, yarısından çoxudur. Əhalinin yarısı, ola bilər ki, yarısından bir qədər azı kənddə yaşayır, kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğuldur.

Ona görə də kənd təsərrüfatı Azərbaycan İqtisadiyyatında, bir tərəfdən böyük yer tutur, digər tərəfdən isə, İqtisadiyyatımıza həm mənfi, həm də müsbət təsir göstərə bilir. Sənayenin də bir hissəsi, ola bilsin, böyük bir hissəsi kənd təsərrüfatı məhsulları istehsalı ilə bağlı olduğuna görə kənd təsərrüfatının Azərbaycan İqtisadiyyatı üçün böyük əhəmiyyəti var. Bunu aşkar görürük.

Təəssüf ki, Azərbaycanın böyük kənd təsərrüfatı potensialı son illər ərzində ardı-arası kəsilmədən dağılıbdır. Burada Nikitin 1982-ci ildə kolxoz və sovxozların, kənd təsərrüfatının vəziyyətindən danışdı. Gəlin, tək 82-ci ili götürməyək. Həmin ildən sonra, təxminən 85-ci ildən başlayaraq Sovet İttifaqında gedən proseslərin nəticəsində və xüsusən bu proseslərin Azərbaycan-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

da çox əcaib şəkildə həyata keçirilməsi nəticəsində respublikanın kənd təsərrüfatı potensialı dağılıbdır.

Mənə keçən ilin yekunlarına dair rəqəmlər veriblər. Keçən il əldə edilmiş məhsullar az miqdarda olub. Ötən il respublikamız 1 milyon 143 min ton taxıl, 283 min ton pambıq istehsal edibdir. Üzüm istehsalı 410 min tondur, lakin burada nazir dedi ki, 287 min ton üzüm tədarük olunubdur. Bunlar bizim əsas kənd təsərrüfatı məhsullarımızdır. Tütün 47 min ton, digər məhsullar da əvvəlki illərə nisbətən bir neçə dəfə az istehsal edilib. Mən burada cədvələ baxarkən gördüm ki, yalnız çay məhsulu istehsalı əvvəlkinə nisbətən azalmayıb.

Deyin görək, Azərbaycanda nə vaxt 280 min, yaxud 275 min ton pambıq yığılıb təhvil verilmişdir?! Deyin görək belə şey nə vaxt olub? Yadınızdadırsa, bu, 60-cı illərdə olmuşdur. Ondan sonra Azərbaycanda pambıqçılığın inkişafı üçün çox geniş və səmərəli tədbirlər görülmüş, yeni sahələr istifadəyə verilmiş, təmizlənib əkin üçün yararlı hala salınmış, su qurğuları yaradılmış, suvarılan sahələr genişləndirilmiş, pambıqçılıq sahəsində təcrübə artırılmış və nəticədə o illərdə pambıq istehsalı sabit olaraq təxminən 800 min ton səviyyəsinə çatdırılmışdır.

Həmin illərdə üzüm istehsalı da sabit olaraq 1,5-1,8 milyon ton idi, taxıl istehsalı 1,5-1,6 milyon ton olurdu. Bəs sonralar nə oldu? Yenə də deyirəm, 1985-ci ildən sonra Sovet İttifaqında gedən düşünülməmiş cürbəcür tədbirlərin Azərbaycanda da həyata keçirilməsi, özü də əcaib şəkildə, zərərli şəkildə həyata keçirilməsi kənd təsərrüfatımızı gətirib bu hala salmışdır. kənd təsərrüfatı naziri məlumat verir ki, 150 min hektar üzüm sahəsi məhv edilmişdir. Bir təsəvvür edin, bu, Azərbaycan xalqı üçün necə böyük zərbədir, xəyanət, zərərdir! 150 min hektar üzüm plantasiyalarını dağıdıblar ki, guya onların yerində yem bitkiləri əkəcək, heyvandarlığı inkişaf etdirəcəklər. Bəs haradadır o yem bitkiləri? Nə üçün əkilmədi? Yoxsa, Azərbaycanda yem bitkiləri üçün yer qəhət idi? Üzümçülər ümumiyyətlə, kənd təsərrüfatı sahəsində işləyənlər yaxşı bilirlər ki, bir hektar sahədə üzüm bağı salmaq üçün nə qədər vəsait lazımdır, nə qədər zəhmət çəkmək gərəkdir. 70-ci illərlə Azərbaycanda üzüm sahələrinin hər il 10-15 min hektar artırılması nəticəsində biz ildə 1,5-1,8 milyon ton üzüm istehsal edirdik. Azərbaycan müstəqil bir dövlət kimi yaşaması üçün hansı kənd təsərrüfatı məhsullarını sata bilər? Dünən biz bu məsələni dörd saat müzakirə etmişik. Satılası əsas məhsullar pambıq, şərab məhsulları və bir də tütündür. Başqa heç nə sata bilmərik. Bunlar müstəqil Azərbaycanın kənd təsərrüfatı sahəsində ixrac imkanlarıdır.

Lakin yadınıza salın, o vaxtlar deyinməyə başladılar ki, nə üçün pambıqçılıq belə geniş miqyasda inkişaf etdirilir. Üstəlik, bir şair də dedi ki, pambıq əkilib-becərilməsi Azərbaycana xəyanətdir. Bir jurnalist burdan, bir artist ordan danışmağa başladı ki, nə üçün üzümçülük bu qədər inkişaf etdirilmişdir. Bəli, Azərbaycana paxıllıq, düşmənçilik edən adamların, xüsusən qonşu ermənilərin Azərbaycanda üzüm istehsalının görün-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

məmiş miqdarla artmasına görə ürəkləri partlayırdı. Çünki Ermənistan dövri-qədimdən üzümçülük, şərabçılıq ölkəsi olduğu halda, ildə vur-tut 240-250 min ton üzüm istehsal edirdi, Azərbaycanda isə bir neçə ilin ərzində üzüm istehsalı bir milyon tonu ötüb keçmişdi. Əlbəttə ki, onlar buna həm paxıllıq edir, həm də Azərbaycanın iqtisadiyyatını pozmaq, respublikamıza zərbə, ziyan vurmaq üçün cürbəcür təbliğat işləri aparırdılar. Bu, təbiidir. Çünki onlar bizə düşməndirlər, Azərbaycan iqtisadiyyatının, xüsusən kənd təsərrüfatının böyük yüksəlişdə olması, sürətlə inkişaf etməsi onların ürəyini partladırdı.

Bəs Azərbaycanın ziyalıları, bəzi guya qabaqcıl adamları, bəzi guya alimləri, kənd təsərrüfatı alimləri nə etdilər? Azərbaycanı haraya gətirib çıxartdılar? Biri başladı çıxış etməyə ki, üzümçülük Azərbaycana zərərdir, biri dedi ki, pambıqçılıq Azərbaycana zərərdir. Azərbaycanda da ağıllı bir adam olmadı ki, bunlara desin, ay kişi sən şairsən, get şairliyini elə, jurnalistsən, get jurnalistliyinlə məşğul ol, artistsən, get artistliyini et, müğənnisən, get mahnını oxu. Axı sən nə bilirsən kənd təsərrüfatı nədir?

Sonra da başladılar bir-birinə hay verməyə, küy verməyə, qəzetlər yazdılar, axırda Azərbaycanın kənd təsərrüfatını batırdılar. Həmin şəxslər heç bir zərər çəkməyiblər, onlar yenə də əmək adamlarının, zəhmət adamlarının, necə deyərlər, qanını sormaqla məşğuldurlar, onların yaşayışında elə bir çətinlik olmayıb. Bilirsiniz ki, üzüm bağlarının salınması nəticəsində əməkçilər nə qədər zəhmət haqqı almışdılar, zənginləşmişdilər. Məsələn, Yardımlı, Lerik rayonlarında hər hektardan 45 sentnerdən artıq taxıl almaq mümkün deyildi. Həmin rayonlarda bir neçə min hektar üzüm bağı salmaqla, orada 15-20 min ton üzüm istehsal etməklə, bu rayonların iqtisadiyyatı o illərdə yüksək səviyyəyə qaldırılmışdı. Yaxşı, götürün o bağları kəsin, sonra nə olsun?

150 min hektar üzüm bağı dağılıb. Dağıtmaq asandır, yaratmaq çətr. O vaxt işləyən adamların yəqin ki, yadındadır, biz o üzüm bağlarını salmaq üçün nə qədər böyük əziyyətlər çəkdik. Tənək çubuqlarını Avropadan, Moldovadan, Krımdan, Bolqarıstandan, Rumıniyadan, Macarıstandan gətirirdik. Onları əkmək üçün adamları öyrətmək lazım idi. Tənəkləri qaldırmaq üçün beton dirəklər, məftillər lazım idi. Nə qədər işlər tələb olunurdu. Bunlar hamısı aybaay, günbəgün, ilbəil görüləsi işlər idi. Respublikanın kənd adamlarının zəhməti nəticəsində yaranmış ənənələri, mövcud potensialı bir-iki ilin içərisində dağıtdılar. Qorbaçov guya alkoqolizmə qarşı mübarizə aparırdı. Bunun Azərbaycana dəxli var idimi? Ermənilər Azərbaycana xəyanət edərək deyirdilər ki, nə üçün burada bu qədər şərab istehsal olunub?

Azərbaycanın müstəqilliyi haqqında düşünən adamlar o vaxt bilməli, başa düşməli idilər ki, respublikanın ixrac etdiyi əsas kənd təsərrüfatı məhsulları üzüm, pambıq, tütün və tərəvəz məhsullarıdır. Azərbaycan nə ot, nə süd, nə də yağ istehsal edib ixrac edə bilməz. Çünki bizim iqlimimiz və təbiətimiz buna imkan vermir.

1980-ci illərdə, xüsusilə 80-ci illərin ikinci yarısında və

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

1990-cı ildə aparılan təbliğat Azərbaycanın kənd təsərrüfatını gətirib bu vəziyyətə saldı. Dünən biz oturub fikirləşirdik. Respublikada cəmi 110 min ton mahlıc var. Bu mahlıc hara, nə qədər getsin, necə satılsın ki, bunun bir hissəsi kənd təsərrüfatımızın ehtiyaclarının təmin olunmasına yönəldilsin, qalan hissəsi isə respublikaya valyuta gətirsin? Amma əvvəlki dövr, o vaxtkı istehsal olsaydı mahlıc bundan dörd dəfə artıq olacaqdı, bu mahlıcı da biz rahat satıb həm kənd təsərrüfatının ehtiyaclarını ödəyə bilər, həm də Azərbaycanın valyuta fonduna xeyir verərdik - respublikanın bu ağır vəziyyətində camaatın yaşayışını təmin edə bilərdik.

Yenə də deyirəm, dağıtmaq böyük ağıl tələb etmir. Dağıdanlar həmişə ağılsızlar, xalqa xəyanət edən adamlar olublar. Onlar o illərdə respublikanın kənd təsərrüfatını dağıdıblar. Amma yaratmaq üçün, şübhəsiz ki, səy, iş, xalqa sədaqətlə xidmət etmək lazımdır. Dağılmış şeyləri bərpa etmək daha çətindir. Əgər vaxtilə yeni torpaqlar istifadəyə verib üzüm bağları əkirdiksə, yeni bir şey yaradırdıq. Amma dağılmış bağlarda yeni bir şey yaratmaq asan deyil. Siz təsəvvür edin, üzüm tənəklərini oradan çıxarmaq üçün nə qədər vəsait sərf etmək lazımdır. Bu qədər də cinayət, xalqa xəyanət etmək olardımı?

Bu xəyanəti törədənlər indi də özlərini qəhrəman hesab edirlər, də böyük iddialarla yaşayırlar. Mən üzümçülük, pambıqçılıq haqqında xüsusi danışdım, çünki bunlar Azərbaycanın kənd təsərrüfatının əsas sahələridir. Mən Azərbaycanda uzun müddət işlədiyim dövrdə o zaman kənd təsərrüfatımızı lazımi səviyyədə öyrəndiyimə görə, respublikanın mənafeyini, başqalarından az müdafiə etmədiyimə görə o vaxt da, bu gün də belə fikirdəyəm ki, kənd təsərrüfatımızda bu sahələr inkişaf etməlidir. Bundan sonra gərək xalqımız ayrı-ayrı nadanların sözü ilə imkan verməsin ki, həmin sahələr dağılsın, inkişaf etməsin.

Şübhəsiz ki, bu vəzifələrin hamısını bir gündə, bir ayda, bir ildə yerinə yetirmək mümkün deyil. Ancaq biz bu işə başlamalıyıq, bu işi görməliyik və Azərbaycanın böyük kənd təsərrüfatı potensialını hərəkətə gətirməliyik.

İndi bir tərəfdən müharibə gedirsə və erməni silahlı qüvvələrinin işğal etdiyi rayonlarda ərazilər darmadağın olubsa, bu, müharibənin nəticəsidir. Ancaq kənd təsərrüfatı sahəsini bilməyənlər və bəzən ona qəsdən xəyanət edənlər, bəzən də öz ağılsızlıqları üzündən bu sahəni pis vəziyyətə salanlar - Azərbaycanın o vaxtkı rəhbər adamları kənd təsərrüfatımızı müharibədən çıxmış bir vəziyyətə salmışlar. Biz kənd təsərrüfatını bu vəziyyətdən çıxarmalıyıq.

Respublikamız artıq müstəqil bir ölkədir, dövlətdir. Kənar yerdən bizə nə ət, nə yağ gələcək, nə taxıl məhsulları, nə də başqa şeylər gələcək. Biz öz ərazimizin, təbiətimizin imkanlarından, Allahın respublikamıza, xalqımıza verdiyi bu nemətlərdən səmərəli istifadə edərək xalqımızı yaşatmalıyıq. Sizə qəti deyirəm ki, xalqımızın öz torpağından, iqlimindən, təbiətindən istifadə edərək rahat və yaxşı maddi səviyyədə yaşaması üçün Allah ölkəmizə hər şey verib. Biz bundan, yenə də deyirəm, səmərəli

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

istifadə etməliyik, bu işi planlı, ardıcıl şəkildə aparmalıyıq. Azərbaycanın kənd təsərrüfatı potensialı bərpa edilməlidir. Torpaqlarımız, hava, su, ərazimiz Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalının sürətlə artırılmasına yönəldilməli, istifadə olunmalıdır. Belə hesab edirəm ki, bu işlər qısa bir müddətdə öz nəticəsini verəcək, Azərbaycan Respublikasının əhalisi öz torpağının bəhrəsini götürüb yaşayacaqdır.

Şübhəsiz ki, bu məqsədlə lazımi tədbirlər görmək lazımdır. Biz bu tədbirləri həyata keçirəcəyik. Bugünkü müşavirəmiz həm bu məsələlərin həll olunmasına, həm də Azərbaycanın ictimai fikrinin bu sahəyə cəlb edilməsinə yönəldilmişdir, eyni zamanda ki dövrdə, bu mərhələdə kənd təsərrüfatının cari problemlərinin və həmin sahədə olan vəzifələrin müəyyən olunmasına həsr edilmişdir.

Bu baxımdan nə deyə bilərəm? Şübhəsiz ki, keçən illərə nisbətən, yəni bu illərlə müqayisədə vəziyyət ağırdır, çox şeylər çatmır. Əvvəlki illərdən fərqli olaraq, biz müstəqil bir dövlət kimi çatışmayan texnikanı özümüz tapmalıyıq. Əvvəllər belə idi ki, çatmayan texnika, gübrə, kənd təsərrüfatı işlərini aparmaq üçün ayrı-ayrı ləvazimat ümumittifaq fondundan gəlirdi. bunların heç biri yoxdur. Müstəqil dövlətik. Respublikamız hər şeyi öz vəsaitimiz hesabına ala bilər - haradansa, hansı ölkədənsə almalıyıq, gətirməliyik. Buna görə də şübhəsiz ki, vəziyyət həddindən artıq çətindir, ağırdır. Ancaq bu o demək deyil ki, biz heç bir iş görə bilmərik. Xeyr, biz elə bu şəraitdə, bu dövrdə çox iş görə bilərik.

İndi artıq mart ayıdır. Yaz tarla işləri sürətlə aparılmalı, hər bir təsərrüfat, hər bir rayon öz imkanlarından istifadə etməli, Kənd Təsərrüfatı Nazirliyi, başqa nazirliklər, müvafiq orqanlar, Nazirlər Kabineti bu məqsədlə bütün daxili imkanları səfərbərliyə almalıdırlar. Pambıqçılıq rayonlarında səpinə hazırlaşmaq, taxıl əkini sahələrində becərmə işləri aparmaq, yem bitkiləri sahəsində müvafiq işlər görmək lazımdır. Üzüm, meyvə bağlarında, tərəvəz əkini sahələrində lazımi tədbirlər görülməlidir. Bir sözlə, bitkiçilik sahəsində çox qızğın iş getməlidir.

Dediyim kimi, dünən biz Nazirlər Kabinetinin, Kənd Təsərrüfatı Nazirliyinin rəhbərliyi ilə bir neçə saatlıq müzakirələr apararkən çox tələblər qoyulmuşdur: filan qədər gübrə, pestisid, herbisid, texnika lazımdır və s. Mən dünən dedim və də təkrar edirəm. Keçmiş dövrlərin əhval-ruhiyyəsindən uzaqlaşmaq lazımdır. Əvvəllər belə idi: sifarişlər verilir, ümumittifaq fondundan texnika, gübrələr və s. alınırdı. Təchizat bir qədər gecikəndə hay-küy salırdıq. bunların heç biri yoxdur. Respublikamızda istehsal edilməyən gübrələri, yaxud texnikanı alıb ətirmək üçün gərək valyuta verək. Biz dünən müəyyənləşdirdik, Kənd Təsərrüfatı Nazirliyinə müəyyən qədər valyuta vəsaiti ayrılıb və o, lazım olan şeyləri alıb gətirməlidir. Ancaq belə qərara gəldik ki, bu iki-üç ay müddətində nə tələb olunursa, əsas diqqət ona yönəldilməlidir. Sonra nə tələb olunacaqsa, ona ayrıca baxacağıq.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nikitin burada çıxış edərək dedi ki, ehtiyat hissələrindən başqa, kənardan heç nə gətirmək lazım deyildir. Texnikamız var və həmin ehtiyat hissələrindən istifadə edərək onu işlətmək lazımdır. Mən onu çoxdan tanıyıram, təcrübəli təsərrüfat rəhbəridir, təkcə öz kolxozunun deyil, ümumiyyətlə, Azərbaycan kənd təsərrüfatının vəziyyətini yaxşı bilir. Onun sözlərinə inanıram. Mən dünən kənd təsərrüfatı nazirinə dedim və bu gün də təkrar edirəm: Keçmişdəki qayda ilə hazırlanmış siyahılar heç nəyə yaramır. Hər bir rayonda, təsərrüfatda nəyin olduğunu və bundan necə istifadə etməyin mümkünlüyünü aydınlaşdırmaq lazımdır. Mən ilk növbədə texnikanı nəzərdə tuturam. Onu təmir edib yararlı hala salmaq lazımdır.

Əvvəllər belə idi ki, istənilən qədər texnika, gübrə və s. gətirir, lakin az qala yarısından istifadə etmirdik. Xatirimdədir ki, gübrəni gətirirdik, onu daşıtdırmaq bizdən ötrü böyük problemə çevrilirdi. Birtəhər rayonlara çatdırırdıq, orada isə təsərrüfatlara vermək əvəzinə, çox vaxt yolların kənarına tökürdülər. Çünki onun haradan, hansı qiymətə alınmasının fərqinə varmırdılar. İndi isə vəziyyət başqadır. Ona görə də öz imkanlarımızı ətraflı dəqiqləşdirməli, kənardan isə nə və nə qədər lazımdırsa, onu alıb gətirməliyik. Həm də bunlardan səmərəli istifadə olunmalıdır. Başqa yolumuz yoxdur.

İndi biz müstəqil dövlətik, iqtisadi imkanlarımız məhduddur. Çünki böhran içərisindəyik, müharibə aparırıq. Müharibə isə bildiyiniz kimi, çox böyük xərc tələb edir. İndi hər şeyi ölçüb-biçməliyik. Rayonların, təsərrüfatların rəbhərləri gərək qənaətcil ailə başçısı kimi fikirləşsinlər ki, təsərrüfat işlərini aparmaq üçün nə lazımdır və onu hansı vəsaitlə almaq mümkündür. Yalnız bu yolla, qənaət və iqtisadi səmərəlilik yolu ilə, təsərrüfatçılıq yolu ilə işləmək lazımdır. Mən qəti fikirdəyəm ki, bundan ötrü Azərbaycan Respublikasının hər bir rayonunda, hər bir təsərrüfatında böyük imkanlar var. Bunlardan istifadə olunmalıdır. Kənd təsərrüfatı ilə bağlı bütün sahələrlə çalışan rəhbər işçilərin də əsas vəzifəsi bundan ibarətdir.

Biz bu il gərək kənd təsərrüfatı məhsulları istehsalını ötən ildəkinə nisbətən xeyli artıraq. Başa düşün, əgər bunu etməsək, respublikanın vəziyyəti daha da ağır olacaqdır.

Heyvandarlıqda da vəziyyət bitkiçilikdən yaxşı deyil, ağırdır. Nəticələr çox narahatedicidir və bunlarla heç cür razılaşmaq olmaz. Hər bir təsərrüfat, rayon rəhbəri, təsərrüfat orqanları heyvandarlıqda vəziyyətin yaxşılaşdırılması barədə ciddi düşünməlidirlər. Kənd Təsərrüfatı Nazirliyi, əlaqədar təşkilatlar bu barədə təsirli tədbirlər görməli, sahənin ehtiyaclarının ödənilməsinə diqqəti artırmalıdırlar. Aydındır ki, respublikanın daxili imkanları çox məhduddur. Amma buna baxmayaraq, mövcud imkanlardan maksimum səmərə ilə istifadə edilməlidir. Bu barədə geniş danışmaq istəmirəm, tələb edirəm ki, heyvandarlıq məhsullarının artırılması, mal-qaranın sayının çoxaldılması üçün təsirli tədbirlər görülsün və sahənin inkişafına diqqət artırılsın.

Burada kənd təsərrüfatının mövcud problemlərinin həlli

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ilə əlaqədar bir sıra təkliflər, fikirlər irəli sürüldü. Onlar əsasən kənd təsərrüfatında iqtisadi islahatların keçirilib-keçirilməməsi və yaxud nə vaxt başlanması ilə əlaqədardır. Mən təəccüb edirəm ki, neçə ildir iqtisadiyyat, o cümlədən kənd təsərrüfatı sahəsində islahatların başlanması barədə müzakirələr, mübahisələr gedir, fikirlər söylənilir, qərarlar qəbul edilir, ancaq heç bir nəticə yoxdur.

Bəziləri çıxışlarında deyirlər ki, kolxoz, sovxoz sistemindən imtina etmək lazımdır, bir çoxları isə bunun əleyhinə çıxır. Ancaq bu söhbət nə qədər davam edəcək? Təəccüb edirəm, bir natiqin çıxışında da deyildi ki, Azərbaycanda bir neçə il bundan əvvəl Torpaq Komitəsi yaradılmışdır, onun sədri Türkiyədən dəvət olunmuşdur. Məqsəd bu idi ki, başqa ölkələrin də təcrübəsini öyrənək. Ancaq nə bu Torpaq Komitəsi işlədi, nə də onun Türkiyədən dəvət olunmuş sədri bir iş gördü. Əgər bir iş gördüsə, bunun nəticəsi olmalı idi. Heç bir nəticə yoxdur. Ona görə də mənim əsasım var deyəm ki, o, bir iş görməyib.

İqtisadiyyatla bu qədər ehtiyatsız davranmaq olmaz. Belə münasibət İqtisadiyyatı dağılmış vəziyyətə gətirib çıxarıb. Yaxud kolxoz və sovxozlara münasibətdə, fermer təsərrüfatlarının, icarə prinsiplərinin tətbiq olunması, kiçik müəssisələrin yaradılması sahəsində də lazımi tədbirlər görülməyib.

Biz hansı sistemdə yaşayırıq? Əgər biz müstəqil dövlətiksə, sosialist sistemindən imtina etmişiksə, demək, yeni bir sistem yaratmalıyıq, yoxsa yox? Mən demirəm ki, bu, bir gündə, bir ayda yaransın. Ancaq ötən dövrdə bunu yaratmaq mümkün idi. Bayaq misal çəkdim ki, üzüm bağlarını yaratmaq üçün beş il vaxt lazım oldu. Bir üzüm tənəyinin məhsul verməsinə də bu qədər vaxt sərf edilməlidir. Amma onu dağıtmaq üçün bir neçə saat vaxt tələb olunur. Eləcə də bu sistem 70 il hökm sürüb. Onun müsbət tərəfləri də, mənfi qərəfləri də olub. Ümumi fikir belə olub ki, biz bu sistemdən imtina etməli, bazar iqtisadiyyatına keçməli, iqtisadiyyatın bütün sahələrində, o cümlədən kənd təsərrüfatında islahatlar aparmalıyıq.

Azərbaycan iki ildir ki, müstəqil dövlətdir. O, SSRİ-nin tərkibində olduğu dövrdə də iqtisadi islahatlar prosesi gedib. Bəs kənd təsərrüfatında hansı islahatlar aparılıb? İqtİsadi islahatların bu gün hansı nəticələri haqqında danışmaq mümkündür? Heç biri yoxdur. Ancaq danışıq, yazı-pozu, məqalə, mübahisə seminar, cürbəcür konfranslar və s. Həddindən artıq olub. Alimlər orada-burada yığışıblar, məruzələr ediblər, amma nəticəsi yoxdur. Nə etməli?

Natiqlərin bəziləri deyirlər ki, müharibə gedən ölkədə kolxoz və sovxoza dəymək olmaz və onu inkişaf etdirmək lazımdır. Bir çoxlarının fikrincə isə şəxsi təsərrüfata keçmək lazımdır. Amma onun yollarını da aydın görmürlər. Bilinmir ki, xüsusi təsərrüfata necə keçmək olar. Hesab edirəm ki, biz artıq sözdən işə keçməliyik. Düzgün başa düşün, bu sistemi dağıtmaq fikrində deyiləm, ancaq kənd təsərrüfatı sahəsində iqtisadi islahatlar yeganə yolumuzdur. Bəs bu islahatları necə, hansı müddətdə keçirmək lazımdır? Bu barədə düşünmək, proqram yaratmaq

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lazımdır. İndiki halda biz ortada qalmışıq - nə o yanlıq, nə də bu yanlıq bir iş görülmür. Əgər intizamı möhkəmlətmək üçün inzibati-amirlik üsulu tələb olunursa, o artıq yoxdur. İqtisadi səmərəlilik prinsiplərini deyirsinizsə, o da tətbiq olunmayıb.

Belə qeyri-müəyyən vəziyyətdə yaşamaq mümkün deyil. Mən konkret heç nə demək istəmirəm. Yeganə bir təcrübə var. Burada Naxçıvan MR baş nazirinin birinci müavini Abbasov çıxış edərkən heyvandarlıq sahəsindəki təcrübədən danışdı. Bəli, bu, 1992-ci ilin yazında olub. Çoxlu mübahisələr gedirdi ki, mal-qaranı nə edək. O vaxt biz Naxçıvanda belə qərara gəldik ki, xırda-buynuzlu mal-qaranın hamısı kənd əhalisinə satılsın. Onda da buna etiraz etdilər, dedilər ki, aparıb qonşu dövlətlərdə satacaqlar və s. Belə hallar həqiqətən baş verdi: mal-qaranı Arazdan İrana keçirib satanlar da oldu. Bunlar ola bilər. Amma siz nəticəyə fikir verin. Naxçıvanda mal-qaranın ümumi sayı artıb, demək ət istehsalı da çoxalıb. Biz bir şey itirməmişik. Təcrübə öz bəhrəsini verib. Bu o demək deyil ki, bunu hər yerdə tətbiq etmək lazımdır. Mən respublika baş nazirinin müavini Abbas Abbasovdan soruşuram ki, bu təcrübəni respublikanın hansısa bir rayonunda tətbiq etmək olardımı? Tətbiq edilməyib.

Yerdən səs: Daşkəsən rayonunda tətbiq edilmişdi, lakin hər yerdə ictimai binalar söküldü.

- Harada söküldüyünü deyə bilmərəm. Bəs siz nə üçün buna imkan vermisiniz? Həmin ictimai binaları nə üçün istifadəsiz saxlamışlar? Əgər haradasa bir dəyişiklik, islahat aparılırsa, bunu düşünülmüş şəkildə etmək lazımdır. Yəni konkret halda fikirləşmək lazımdır ki, həmin binalardan necə istifadə edilməlidir. Dəyişiklikləri, islahatları düşünülmədən apardıqda, əlbəttə, nəticəsi belə olacaqdır. Belə məsələlərin mexanizmini işləyib hazırlamaq lazımdır. Mən belə hesab edirəm ki, bu işdə Nazirlər Kabineti günahkardır. O, 1991-ci ildə də və sonrakı illərdə də bu işləri görməli idi, lakin görməmişdir.

Ancaq biz sadəcə tənqidlə məşğul ola bilmərik. Ona görə də mən Abbas Abbasova tapşırıram ki, kənd təsərrüfatı sahəsində iqtisadi islahatların keçirilməsi ilə bağlı təkliflərini versin. Bu islahatların keçirilməsi üçün ilk növbədə komissiya yaradılmalıdır. Həmin komissiyaya təkcə vəzifəli şəxslər deyil, səriştəli adamlar, mütəxəssislər, alimlər, bilavasitə bu sahədə çalışan adamlar daxil olmalıdır. Komissiya kənd təsərrüfatında islahatlar keçirilməsinə dair qısa müddətdə proqram hazırlamalıdır. Həmin proqram bir günlük, bir aylıq olmamalıdır. Biz bilməliyik ki, hər növbəti rübdə nə etməliyik, 1995-ci ilə nə ilə gəlməliyik. Bir sözlə, kənd təsərrfatında iqtisadi islahatlar həyata keçirilməlidir. Şübhəsiz ki, bu işlər görülərkən güclü kolxoz və sovxozlar fəaliyyətini davam etdirməli və bundan ötrü şərait yaradılmalıdır.

Məsələn, Nikitin nə üçün kolxozun tərəfdarıdır? Çünki çox gözəl kolxozu var. Yəqin ki, burada oturanların çoxu onun təsərrüfatı ilə tanışdır. Mən Nikitinə sual verdim ki, İsmayıllı rayonunda yenə də rentabelli kolxoz varmı? Dedi ki, yoxdur! Belə çıxır ki, İvanovka kəndi İsmayıllı rayonunda elə bir adadır ki,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Allah oraya ayrıca sərvətlər bəxş etmişdir, buna görə də onlar yüksək məhsul götürürlər. Bu nə cür olur? Son illərdə respublikada məlum proseslərin getdiyi bir vaxtda, hakimiyyətlərin dəyişdiyi bir vaxtda, kolxozu, sovxozu birinin bəyəndiyi, başqasının bəyənmədiyi, özləri isə heç bir şey etmədiyi illərdə bu kolxozun üzvləri öz işləri ilə məşğul oldular və yaxşı da yaşayırlar. Hətta Nikitin deyir ki, mən təhvil vermək istəyirəm, lakin qəbul etmək istəmirlər: bir belə süd veririk və yenə verəcəyik. Şübhəsiz ki, belə təsərrüfatlar yaşamalıdır. Heç kim də belə təsərrüfatların dağılmasına yol verməz. Mən özüm də qətiyyən buna razı deyiləm. Ancaq eyni zamanda fikirləşməliyik ki, harada nəyimiz var və ondan necə istifadə etməliyik. Yenə də deyirəm: Azərbaycanın təbiəti, iqlim şəraiti, torpağı kənd təsərrüfatı məhsulları istehsalını artırmaq üçün böyük imkanlar verir.

İmişli rayonunun icra hakimi burada çıxış edərək Arazın o tayında, İranda olan vəziyyətdən danışdı. Bəli, həmin torpaq, həmin sudur, amma yüksək məhsul götürürlər. Onların çox məhsuldar mal-qarası, iri təsərrüfatları var. Bir sözlə, yaxşı işləyirlər. Necə deyərlər, bir-iki addımlıq yoldur, gedin öyrənin, görün necə işləyirlər. Heç olmasa, onlar kimi işləyin.

Burada qiymətlər barədə də söhbət getdi. Mən bunu cari məsələlər və gələcək üçün də deyirəm. Şübhəsiz ki, kənd təsərrüfatı məhsullarının qiymətlərinə baxılmalıdır. Biz bu barədə dünən müvafiq göstərişlər vermişik. Nazirlər Kabineti öz təkliflərini hazırlamalıdır. Cari ilin vəzifələrini yerinə yetirmək üçün kənd təsərrüfatı məhsullarının qiymətləri elə olmalıdır ki, həmin sahədə işdən əli soyumuş adamları bir daha buraya cəlb etmək mümkün olsun. Güman edirəm ki, biz bu məsələni həll edəcəyik.

İslahatlardan bir-iki il sonra kənd təsərrüfatının vəziyyətinin necə olacağını gələcək göstərəcəkdir. Ancaq bir şey məlumdur: əsrin əvvəlindən indiyədək, daha doğrusu, 20-30-cu illərdən başlayaraq kənd təsərrüfatında nailiyyətləri nizam-intizam, bütün sahələrə diqqətin artırılması hesabına əldə etmişik.

Demək olar ki, biz kənd təsərrüfatı sahəsində indiyədək mövcud olan iqtisadi sistem şəraitində yaşayırıq. Ona görə də rayonların, təsərrüfatların, kənd təsərrüfatı ilə məşğul olan orqanların rəhbərləri ilk növbədə özlərini nizam-intizama dəvət etməlidirlər. İkincisi isə, bütün kənd təsərrüfatı sahəsində, nizam-intizamı, tələbkarlığı, nəzarəti möhkəmləndirərək işi sürətlə aparmalıyıq.

Son illərdə İqtisadiyyat sahəsindəki bəzi proseslərlə əlaqədar adamların, ola bilər çox bir qismi hər şeydən şəxsi mənfəət götürməyə çalışır. Biz, ümumiyyətlə, təşəbbüskarlığa mühüm yer vermişik. Bazar İqtisadiyyatına keçərək sahibkarlığa geniş meydan açmışıq. Xeyli miqdarda kiçik müəssisələr, kooperativlər yaranmışdır; icarədarlar var. Bunların hamısı təbiidir və hamısının inkişaf etməsinə indən belə də qanun-qayda çərçivəsində imkan verməliyik. Ancaq təəssüf ki, bəziləri qayda-qanunu pozaraq belə bir şəraitdən, nəzarətin olmamasından istifadə edərək

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dövlətin, xalqın malını oğurlamaqla, mənimsəməklə öz şəxsi məqsədlərinə nail olurlar, bəzi adamlar qanunsuz yolla varlanırlar. Bütün bunlar isə iqtisadiyyatımızın, o cümlədən kənd təsərrüfatının geriləməsinə və əhalinin bir hissəsinin həddindən artıq yoxsullaşmasına gətirib çıxarır.

Biz bununla razılaşa bilmərik. Hüquq-mühafizə orqanları, maliyyə orqanları, vergi sistemi və bu sahələrlə məşğul olan bütün başqa orqanlar belə mənfi halların qarşısını almalıdırlar. Çünki bu mənfi hallar bir tərəfdən İqtisadiyyatımızın dağılmasına şərait yaradır, ikinci tərəfdən isə əhali, kütlələr içərisində narazılıq və işə etinasızlıq əmələ gətirir. Ona görə də artmaqda olan belə mənfi hallara qarşı mübarizəni kəskinləşdirmək lazımdır. Rayonların, kənd təsərrüfatı orqanlarının, təsərrüfatların rəhbərləri bu işdə nümunə göstərməli və özləri də belə hərəkətlərə yol verməməlidirlər.

Bizə çox siqnallar gəlir ki, məhz bu işlərə nəzarət etməli olan adamlar özləri cürbəcür əyri yollarla dövlət əmlakını, xalq malını dağıtmağa, mənimsəməyə çalışırlar və bütün bunlar ümumi işimizə zərbə vurur. Bir də təkrar edirəm: indiyədək yaşadığımız dövrün təcrübəsinə əsaslanaraq deyə bilərəm ki, nizam-intizamı möhkəmləndirməklə kənd təsərrüfatında müvəffəqiyyətlərə nail olmaq və mövcud imkanlardan istifadə edərək yaz tarla işlərini, ümumiyyətlə, kənd təsərrüfatı işlərini uğurla aparmaq, yaxşı nəticələr qazanmaq olar. Bunu hamınızdan tələb edirəm.

Burada çıxış edənlərin bəziləri respublikadakı mövcud ictimai-siyasi vəziyyətə toxundular. Mən bu barədə geniş danışmaq fikrində deyiləm. Ancaq həmin çıxışlarla əlaqədar bir neçə kəlmə demək istəyirəm. Qeyd etdiyim kimi, respublikamız ağır sosial-iqtisadi böhran içərisindədir. Azərbaycan müharibə aparır. Son illərdə ordumuz lazımi səviyyədə yaranmadığına, torpaqlarımızın müdafiəsi kifayət dərəcədə təşkil edilmədiyinə görə Azərbaycan ərazisinin bir qismi işğal edilmişdir və biz həmin torpaqların geri qaytarılması, ölkəmizin ərazi bütövlüyünün təmin olunması üçün tədbirlər görürük.

Belə bir şəraitdə Azərbaycanda bütün başqa dövrlərdən fərqli olaraq daxili ictimai-siyasi sabitlik, cəmiyyətin bütün təbəqələrinin həmrəyliyi, birliyi əsas şərtdir. Ancaq təəssüf ki, bəzi qruplar, qüvvələr şəxsi siyasi hikkələrini həyata keçirmək, öz niyyətlərinə nail olmaq üçün, vəzifə, hakimiyyət hərisliyi azarına tutulduqlarına görə cürbəcür çirkin əməllərə yol verir və daxili sabitliyi pozmağa çalışırlar. Biz elan etmişik: respublikamız demokratiya yolu ilə gedir. Bütün vətəndaşların azadlığı təmin olunmuşdur. Keçmiş dövrlərdən fərqli olaraq hər kəs öz sözünü, fikrini açıq demək imkanına malikdir. Siyasi dünyagörüşünə, öz şəxsi fikrinə görə heç kim təqib edilmir, cəzalandırılmır. Bir sözlə, respublikada bütün azadlıqlar elan olunmuşdur.

Ancaq bu şəraitdə, demokratiya, siyasi plüralizm şəraitində həmin azadlıqlardan doğru və düzgün istifadə etmək lazımdır. Təəssüf ki, belə bir şəraitdə bəzi qüvvələr təxribata əl atır,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

daxildə ictimai-siyasi vəziyyəti pozmaq istəyirlər. Hətta son vaxtlar inzibati orqanlarımızın aldıqları bəzi məlumatlar göstərir ki, yenə də dövlət orqanlarına, iqtidara qarşı cürbəcür hərəkətlər etmək, hakimiyyət uğrunda mübarizə aparmaq fikrinə düşürlər. Bütün bunlar isə həm müdafiə qüvvələrimizi zəiflədir, həm də İqtisadiyyatda yaranmış ağır vəziyyətdən çıxmağımıza çox böyük maneə törədir.

Ona görə də demək istəyirəm ki, bizdə bütün partiyalar, mətbuat azaddır, Azərbaycanda adamların bütün azadlıqları təmin olunmuşdur və olunacaqdır. Azərbaycan dövlət quruculuğunda, cəmiyyətdə, iqtisadiyyatda demokratiya, siyasi plüralizm, bazar iqtisadiyyatı yolu ilə gedəcəkdir. Ancaq bu yolla getmək üçün imkan vermək lazımdır ki, həmin tədbirlər həyata keçirilsin. Bundan ötrü bütün siyasi qüvvələr birləşməlidir. Onların hər biri bu yolla irəliləmək üçün öz töhfəsini verməli, səyini, xidmətini göstərməlidir.

Mən bir daha bəyan edirəm ki, biz bu yoldan dönməyəcəyik. Eyni zamanda təxribatçılara, böhtançılara çirkin məqsədlərlə hakimiyyət uğrunda mübarizə ilə məşğul olan qüvvələrə qarşı lazımi tədbirlər görəcəyik. Heç kim güman etməsin ki, onlar hansı yollarla nəyə isə nail ola bilərlər. Heç bir yolla nail ola bilməzlər! Azərbaycan dövlətinin gücü, Konstitusiyasına əsasən özünü qorumaq hüququ var, biz bu hüquqları qoruyacağıq və mən prezident kimi, həm hər bir vətəndaşın azadlığının, həm də cəmiyyətdə ictimai-siyasi sabitliyin və dövlətin möhkəmliyinin təminatçısıyam. Adını çəkdiyim qüvvələr böhtançılıqla heç bir şeyə nail ola bilməzlər.

İki-üç gün bundan əvvəl televiziya ilə xəbər verdilər ki, Xalq Cəbhəsinin binasının zirzəmisində nə qədər hərbi sursat tapılmışdır. Bu, konkret faktdır. Əgər bu sursatı orada gizlətmişlərsə, heç olmasa, etiraf etsinlər, üzr istəsinlər. Lakin bunun əvəzində xarici informasiya vasitələrinə məlumat verməklə ki, guya 100-150 adam tutulmuşdur, bununla nəyə nail olmaq istəyirlər? Hansı xarici agentlik gəlib burada bizim dövlətimizin işinə qarışacaq? Kimin nə ixtiyarı var?

Şübhəsiz ki, cinayətkarlar tutulmalıdır. Ancaq mən yenə də hamını vətəndaş həmrəyliyinə, insani münasibətlərə dəvət edirəm. Bəsdir, bəd hərəkətlərdən əl çəkmək lazımdır. Yenə də bəzi qruplar orada-burada yığışırlar, bir tərəfdən də Mütəllibovun sorağı gəlir. Mütəllibovun Azərbaycan haqqında düşünməyə nə kimi mənəvi hüququ var? O, Azərbaycana xəyanət etmişdir. 20 Yanvar faciəsi məsələsinə Milli Məclisdə baxılacaq və mən güman edirəm ki, Milli Məclis bu barədə öz fikrini deyəcəkdir. Yaxud da başqa qruplar, o qruplar ki, hakimiyyətdə olduqları bir il ərzində Azərbaycanın iqtisadiyyatını dağıtdılar, onlar hansı mənəvi hüquqla danışırlar? Qoy siyasi fəaliyyətlərini davam etdirsinlər, heç kim onlara məhdudiyyət qoymur: qəzet nəşr etsinlər, iclas keçirsinlər - onlara mane olan yoxdur. Lakin təxribatla məşğul olmasınlar və biz buna yol verməyəcəyik. Ona görə də mən bu gün bəyan edirəm: Azərbaycan Respublikasının daxili ictimai-siyasi vəziyyəti sabitdir və sabit olacaq. Heç bir qrup, heç bir

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qüvvə bu sabitliyi poza bilməyəcək və hər hansı bir tərəfdən bunu pozmağa səy göstərilərsə, belə hərəkətlərin qarşısını almağa qadirik və alacağıq.

Respublikamızın ərazi bütövlüyünü qorumaq üçün lazımi tədbirlər görürük. Sizə məlumdur ki, mən son vaxtlar xarici ölkələrdə - Türkiyədə və İngiltərədə olarkən həm mətbuatda, həm də dövlət başçıları ilə görüşlərdə demişəm ki, Azərbaycan müharibənin sülh yolu ilə qurtarmasına tərəfdardır. Bu, bizim səmimi prinsipimizdir və onu müxtəlif dairələrdə, səviyyələrdə bəyan etmişik. Biz beynəlxalq təşkilatların imkanlarından istifadə etməyə çalışırıq. ATƏM-in Minsk qrupunun böyük bir heyəti respublikamıza gəlmişdir. Mən Minsk qrupunun yeni sədri, çox təcrübəli diplomat Yan Eliasson ilə görüşərək danışıqlar aparmışam. Onunla birlikdə gələn qrup Dağlıq Qarabağda da olmuşdur. Ermənistana da gedəcəkdir. Qayıtdıqdan sonra mən onlarla yenə görüşəcəyəm. Biz başqa vasitələrdən də istifadə edirik. Rusiya bu problemin sülh yolu ilə həll edilməsi barədə təkliflərini vermişdir. Biz bunları da rədd etməmişik. Əgər səmərəli olarsa, həmin təkliflərdən də istifadə etmək fikrindəyik. Ancaq mən hər yerdə demişəm və bu gün də deyirəm ki, yalnız bir şərtlə: Azərbaycanın müstəqilliyi toxunulmazdır, onun ərazi bütövlüyü təmin olunmalıdır və erməni silahlı qüvvələri işğal edilmiş torpaqlarımızdan dərhal çıxarılmalıdır. Başqa yol ola bilməz.

Bildiyiniz kimi, müdafiə nazirimiz fevralın 18-də Ermənistanın və Rusiyanın müdafiə nazirləri ilə görüşmüş və atəşin kəsilməsi haqqında razılıq əldə olunmuşdur. Biz bunu təmin etdik. Lakin erməni silahlı qüvvələri dünən Füzuli rayonunun ərazisində güclü hücuma keçdi və qanlı döyüşlər oldu. Ordumuz öz mövqelərini etibarlı müdafiə edərək düşmənə güclü zərbə vurdu. Lakin atəşkəs haqqında sazişi pozan ermənilər həmişəki kimi, tələsik hay-küy qaldıraraq guya Azərbaycan Ordusunun hücuma keçməsi barədə car çəkmişlər. Rusiya televiziyasının "Vesti" proqramı da dərhal bu məlumatı yaymışdır. Şübhəsiz, bu, bizim təbliğatımızın zəifliyidir. Bəla burasındadır ki, Xalq Cəbhəsinin də təbliğatı ermənilərin təbliğatı ilə eynidir. Onlar ermənilərdən yalnız bir şeyi - təbliğat sahəsində çevikliyi əxz etmişlər. Kimə isə bir balaca toxunan olsa, "Vesti" bu barədə də dərhal xəbər verir.

Bir daha təkrar edirəm: dünən "Vesti" proqramında xəbər verilmişdir ki, guya Azərbaycan tərəfi hücuma keçmişdir. Bunu eşidərkən mən məsələni araşdırdım və bəyan edirəm ki, Azərbaycan əsgərləri heç bir istiqamətlə hücuma keçməmişlər. Erməni silahlı qüvvələri atəşkəs müddətindən istifadə edərək hücuma keçmişlər. Azərbaycan Ordusunun hissələri Füzuli istiqamətinlə düşmənə layiqli müqavimət göstərərək onun bir neçə zirehli texnikasını, çoxlu canlı qüvvəsini məhv etmişdir. Şübhəsiz ki, bizim tərəfdən də itki var. Mən bu gün səhər də həmin məsələlərlə məşğul olmuşam və göstəriş vermişəm ki, müdafiə qüvvələrimiz öz mövqelərində sayıq dayansın. Ola bilər ki, ermənilər fitnəkarlıq məqsədilə hücuma keçmiş və öz əməllərini bizim üs-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

tümüzə atmışlar. Ona görə də Minsk qrupunun rəhbəri Dağlıq Qarabağdan qayıdanda bu barədə onunla danışacağam.

Biz belə ağır şəraitdə işləyirik. Bir tərəfdən hər gün Ermənistanın fitnəkarlıqları ilə qarşılaşır, digər tərəfdən isə daxildəki təxribatçıların əməllərinin şahidi oluruq. Ancaq heç kim narahat olmasın. Biz hər bir sahədə - həm müdafiə sahəsində, həm də respublikanın daxili vəziyyəti ilə bağlı dövlət strukturlarını idarə edirik və bundan sonra da idarə edəcəyik. Ordumuz Azərbaycan torpaqlarını qorumağa qadirdir və bundan sonra daha da etibarlı qoruyacaqdır. Əminəm ki, əgər ermənilər bu məsələnin sülh yolu ilə həllinə getməsələr, biz əz ədalətli müharibəmizi davam etdirəcəyik.

Bunların hamısını təmin etmək üçün kənd təsərrüfatı işçilərindən, kənd əhalisindən, bu sahədə çalışan bütün məsul şəxslərdən daha səmərəli işləmək tələb olunur. Müşavirəni yekunlaşdıraraq hamınıza müraciət edir, sizi səmərəli işləməyə, milli həmrəyliyə, milli birliyə dəvət edirəm. İndi bizim bir məqsədimiz var, respublikamızın ərazi bütövlüyünü təmin etmək, qəsbkarları işğal olunmuş torpaqlardan çıxarmaq, respublikamızı iqtisadi-sosial böhrandan qurtarmaq. Bu məqsədlərin həyata keçirilməsi yolunda bir prezident kimi mən bütün qüvvələrlə əməkdaşlıq etməyə hazıram və hamınızı bu əməkdaşlığa, vətənpərvərliyə, vətəndaşlıq borcunu yerinə yetirməyə dəvət edirəm.

Hamınıza cansağlığı arzu edirəm və ümidvaram ki, bu il kənd təsərrüfatı sahəsində dönüş yaranacaqdır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ÇİN XALQ RESPUBLİKASINA RƏSMİ SƏFƏR ZAMANI PEKİNDƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

8 mart 1994-cü il

Hörmətli xanımlar və cənablar! İkinci gündür ki, biz Pekindəyik. Mən buraya dövlət səviyyəsində rəsmi görüşə Çin Xalq Respublikası sədrinin dəvəti ilə gəlmişəm. Mənimlə birlikdə Azərbaycan nümayəndələrinin böyük bir qrupu da gəlmişdir. Çin rəhbərliyi ilə kifayət qədər səmərəli görüşlərimiz olmuşdur. Dünən rəsmi qarşılanma mərasimi oldu və ÇXR sədri cənab Tszyan Tszeminlə danışıqlar aparıldı. Bu danışıqlar bir sıra sənədlərin imzalanması ilə başa çatdı. İkitərəfli münasibətlərə dair məsələlər barəsində biz Çin Xalq Respublikasının sədri ilə ətraflı fikir mübadiləsi etdik. Belə bir yekdil qənaətə gəldik ki, Çin ilə Azərbaycan arasında münasibətlər hərtərəfli şəkildə və daha müvəffəqiyyətlə inkişaf etdirilməlidir. Ticarət, iqtisadiyyat, elm, mədəniyyət, turizm sahəsində əməkdaşlığın inkişaf etdirilməsi imkanları əldə olunmuş razılaşma nəticəsində imzaladığımız sənədlərdə əksini tapmışdır. Biz beynəlxalq vəziyyətin aktual məsələləri barəsində də fikir mübadiləsi etdik. Çin Xalq Respublikasının öz beynəlxalq siyasətində tutduğu mövqeyinin, xüsusən istiqlaliyyət qazanmış və müstəqil inkişaf yoluna qədəm qoymuş ölkələrin müqəddəratı ilə bağlı mövqeyinin bizim üçün çox böyük əhəmiyyəti var.

Biz bu məsələdə və dövlətlərin ərazi bütövlüyü, sərhədlərin pozulmazlığı, suverenlik, istiqlaliyyət məsələlərində mövqe və baxışlarımızın tamamilə uyğun gəldiyini aşkara çıxardıq. Mən Azərbaycanın həyatı və indiki vəziyyəti haqqında ÇXR sədrinə müfəssəl məlumat vermək imkanına malik oldum. Mən təxminən altı ildən bəri Azərbaycanla Ermənistan arasında gedən müharibə barəsində, uydurma Qarabağ münaqişəsi barəsində və hərbi əməliyyatları dayandırmaq, müharibəyə son qoymaq və məsələni danışıqlar yolu ilə, sülh və razılıq əldə olunması yolu ilə həll etmək cəhdlərimiz barədə ətraflı məlumat verdim.

Bu gün Dövlət Şurasının baş naziri cənab Li Penlə görüşdük. ÇXR sədri ilə fikir mübadiləsi etdiyimiz bütün məsələlər cənab Li Penlə söhbətimizin mövzusuna çevrildi. Biz bir daha yəqin etdik ki, beynəlxalq və ümumən daxili siyasətdə Çin Xalq Respublikası rəhbərliyinin mövqeyi yekdil, sabitdir. Söhbətlərimizdə biz Çin Xalq Respublikasında uzun illər ərzində həyata keçirilmiş iqtisadi islahatlara maraq göstərdik, bu gün bizdə buna maraq var. İstər Çin Xalq Respublikasının sədri ilə, istərsə də ÇXR-in baş naziri ilə söhbətlərimizdə həmin məsələlərə böyük diqqət yetirildi. Bu gün isə islahatlar üzrə nazirlə görüşdük.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Biz onunla iqtisadi islahatların həyata keçirilməsi məsələləri barəsində ətraflı fikir mübadiləsi apardıq.

Bildiyiniz kimi, səfərimiz davam edir. Hələ sabah Pekində görüşlər olacaq, sonra isə biz Şanxaya gedəcəyik. Yeri gəlmişkən deyim ki, Şanxay şəhərinə getmək təklifini dünən bizimlə görüş zamanı ÇXR sədri irəli sürmüşdür.

Səfərimizin ilkin yekunları haqqında demək olar ki, biz razıyıq. Qeyd etdiyim kimi, çox faydalı, maraqlı söhbət və danışıqlarımız oldu. Biz - Çin Xalq Respublikasının sədri və mən ölkələrimiz arasında əməkdaşlığın prinsipləri haqqında bəyannamə imzaladıq. Dövlətlərarası əlaqələrə dair daha yeddi sənəd imzalandı. Bu sənədlər Çin ilə Azərbaycan arasında münasibətlərin gələcək inkişafını müəyyənləşdirir. Bu da əhəmiyyətlidir ki, biz ölkəmizdə, bütövlükdə bölgəmizdə vəziyyət barəsində respublikamıza qarşı erməni təcavüzü nəticəsində Ermənistanla Azərbaycan arasında gedən müharibə barəsində və bölgəmizə aid bir çox digər məsələlər barəsində Çin Xalq Respublikasının rəhbərliyinə məlumat verə bildik.

Bu, mühüm yekundur ki, müstəqil Azərbaycan Respublikası prezidentinin Çin Xalq Respublikasına ilk səfəri baş tutmuş, iki ölkənin ali rəhbərliyi səviyyəsində səmimi münasibətlər bərpa edilmiş və bölgədə vəziyyət barədə Çin rəhbərliyinə məlumat vermək mümkün olmuşdur. Nəzərə almaq lazımdır ki, ÇXR-in bölgəmizdən çox uzaqda yerləşməsi informasiyanın dolğun və hərtərəfli olmasını tələb edir.

Azərbaycan gənc müstəqil dövlətdir, öz tarixinin çətin mərhələsini yaşayır. Buna görə də çox vacibdir ki, Azərbaycanla Çin kimi böyük dövlət arasında yüksək səviyyədə əlaqələr yaradılmış və münasibətlərimizin daha da müvəffəqiyyətlə inkişaf etməsi üçün perspektiv açılmışdır. Biz buna böyük əhəmiyyət veririk, çünki Çin Xalq Respublikası dünya iqtisadi sistemində mühüm yer tutur, beynəlxalq həyatda və dünya siyasətində böyük nüfuza malikdir, BMT Təhlükəsizlik Şurasının daimi üzvüdür.

Sizə Azərbaycanda vəziyyət barəsində, ölkəmizdə görülən tədbirlər, respublikanın qarşısında duran problemlərin həlli barəsində, o cümlədən Ermənistanın Azərbaycana qarşı təcavüzü və uydurma Qarabağ problemi barəsində qısaca məlumat vermək istərdim.

Azərbaycan öz istiqlaliyyətini Sovet İttifaqı dağıldıqdan sonra əldə etmişdir. Müstəqil dövlət olmaq arzusu təxminən 200 il çar Rusiyası imperiyası tərkibində, sonra da Sovet İttifaqının tərkibində olmuş, xalqımızda həmişə yaşamışdır. Hər hansı bir xalq kimi, Azərbaycan xalqı da həmişə azadlığa və istiqlaliyyətə can atmışdır. Odur ki, istiqlaliyyətin əldə edilməsi onun üçün çox mühüm tarixi hadisəyə çevrilmişdir. Bununla bərabər, müstəqil Azərbaycanın qarşısına, təbii olaraq, sosial-iqtisadi inkişafla, tam suverenliyin, müstəqilliyin, dövlətçiliyin bərqərar edilməsi ilə, dünya birliyində bərqərar olmaqla bağlı çox mürəkkəb problemlər çıxmışdır. Bütün bu məsələlər ötən iki il ərzində Azərbaycanda mürəkkəb daxili siyasi vəziyyətdə və

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ermənistan tərəfindən hərbi təcavüzlə əlaqədar, təbii olaraq, mürəkkəb şəraitdə həll edilmişdir.

Azərbaycan iqtisadiyyatı dərin böhran keçirir. Əlbəttə, bu böhran xalqın həyat səviyyəsinə, rifahına çox mənfi təsir göstərir. Böhran keçmiş Sovet İttifaqında son illər ərzində getmiş proseslərdən yaranmış və təbii olaraq, təkcə Azərbaycan üçün deyil, keçmiş Sovet İttifaqının müstəqil dövlətlərə çevrilən, demək olar, bütün respublikaları üçün səciyyəvidir. Dediyim kimi, bu böhran Azərbaycanda bir də ona görə dərinləşir ki, Azərbaycan Ermənistan Respublikası tərəfindən təcavüz nəticəsində müharibə vəziyyətindədir. Uydurma Dağlıq Qarabağ problemi ilə əlaqədar təxminən altı il bundan əvvəl yaranmış hərbi münaqişə çox geniş miqyas almış və ona gətirib çıxarmışdır ki, erməni silahlı birləşmələri hazırda Azərbaycan ərazisinin, demək olar, 20 faizini işğal etmişdir. İşğal edilmiş rayonların bir milyon nəfərdən çox sakini qaçqına çevrilmiş, öz ev-eşiyindən, var-dövlətindən məhrum olmuş, Azərbaycanın digər bölgələrində yerləşdirilmişdir. Onlar ağır vəziyyətdədirlər.

Təəssüf ki, son illər Azərbaycanda daxili siyasi vəziyyət də sabit olmamışdır. Ermənistanla müharibə və müxtəlif siyasi qrupların hakimiyyət uğrunda mübarizəsi respublikada hakimiyyətin dəyişməsinə gətirib çıxarmışdır. Belə mürəkkəb vəziyyət axırıncı dəfə ötən ilin yayında yaranmış və onda Azərbaycan vətəndaş müharibəsi həddində olmuşdur. Lakin bu prosesləri, zənnimizcə, dəf etmək mümkündür. İndi ölkədə daxili siyasi və ictimai-siyasi vəziyyət sabit, normaldır. Lakin bütün bunlar Azərbaycanın sosial-iqtisadi vəziyyətinə öz mənfi təsirini göstərməyə bilməzdi və əlavə çətinliklər yaratmaya bilməzdi.

Azərbaycanda daxili siyasət sahəsində hazırda demokratik hüquqi dövlət quruculuğu prosesi gedir. Azərbaycanda bütövlükdə demokratiyanın, siyasi plüralizmin, çoxpartiyalı sistemin inkişafı üçün, insan hüquqlarının müdafiəsi, şəxsiyyətin azadlıqlarının, vicdan, dini etiqad azadlığının, sahibkarlıq, təşəbbüskarlıq azadlığının təmin edilməsi üçün əlverişli şərait yaranmışdır. Müstəqil Azərbaycan dövləti sözün tam mənasında azadlıq və demokratiya prinsipləri əsasında demokratik cəmiyyət qurur.

Hazırda respublikada 40-dək siyasi partiya, - onlar sərbəst fəaliyyət göstərirlər, - 600-dən çox qəzet qeydə alınmışdır. Yeddi milyon nəfər əhalisi olan Azərbaycan kimi kiçik bir ölkə üçün bu, kifayət qədər böyük rəqəmdir. Əlbəttə, partiyalar da, mətbuat da öz fikirlərini azad ifadə etmək hüquğuna malikdirlər. Bəzi partiyalar və mətbu orqanları müxalifətdədir və bu mövqelərdən çıxış edirlər. Bütün bunlar respublikamızın demokratik inkişafı üçün tam sərbəstlik və azadlıq olduğuna dəlalətdir.

Azərbaycan çoxmillətli dövlətdir. Onun bütün vətəndaşları milli mənsubiyyətindən, dini etiqadından və siyasi əqidələrindən asılı olmayaraq, bərabər hüquqlara malikdirlər. Hər bir Azərbaycan vətəndaşının özünü azad və bərabərhüquqlu hiss etməsi üçün ən əlverişli şərait yaradılır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Öz xarici siyasətində Azərbaycan dünyanın bütün ölkələri ilə bərabərhüquqlu münasibətlərin inkişaf etdirilməsi prinsiplərini əsas tutur. Biz artıq bir sıra dövlətlərlə diplomatik münasibətlərə malikik. Respublika Birləşmiş Millətlər Təşkilatının üzvüdür, bir çox beynəlxalq təşkilatlara daxildir, beynəlxalq həyatda yaxından iştirak etmək və dünya birliyində layiqli yer tutmaq niyyətindədir. Bizim buraya, Çinə gəlməyimiz, ölkələrimiz arasında imzalanmış sənədlər Azərbaycanın bütün dünya ölkələri ilə əlaqələr yaratmağa çalışdığına konkret sübutdur; bu prinsip ÇXR ilə Azərbaycan arasında münasibətlərin gələcək inkişafının əsasını təşkil etmişdir.

Ermənistanın respublikamıza hərbi təcavüzü ilə bağlı müharibə Azərbaycan üçün ağır problemdir. Ermənistan bu müharibəyə Azərbaycan ərazisinin bir hissəsini - Dağlıq Qarabağı qoparmaq və onu Ermənistana birləşdirmək məqsədilə başlamışdır. Müharibə bütövlükdə bölgəmizdə vəziyyəti mürəkkəbləşdirmiş, Azərbaycan və Ermənistan xalqlarını böyük müsibətlərə düçar etmişdir. Təəssüf ki, hərbi əməliyyatlar də davam edir, adamlar həlak olur, qan tökülür. Bu, təkrar edirəm, Azərbaycan Respublikası üçün ən ağır amildir.

Azərbaycan müharibə istəmir və hərbi əməliyyatların dayandırılmasına, məsələnin ancaq sülh yolu ilə həll edilməsinə çalışır. Azərbaycanın işğal edilmiş ərazilərindən erməni silahlı birləşmələrinin qeyd-şərtsiz çıxarılması, respublikamızın ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının təmin olunması ən mühüm, daha doğrusu, labüd şərtdir.

Təəssüflər olsun ki, bəzi dairələrdə, dünyanın bəzi ölkələrində bu münaqişəni Dağlıq Qarabağda yaşayan erməni əhalisinin guya muxtariyyət almaq cəhdi ilə bağlayırlar. Bu, həqiqətə uyğun deyildir və belə fikir, görünür, bəzi yerlərdə fəal erməni təbliğatı və dünya ictimaiyyətinə yalan məlumat verilməsi nəticəsində yaranmışdır. Erməni əhalisi Dağlıq Qarabağda muxtariyyətə malik idi, yəni bu bölgə Azərbaycanın tərkibində təxminən 70 il muxtar vilayət kimi mövcud olmuşdur. Orada əhalinin təqribən 70 faizini ermənilərin, 30 faizini isə azərbaycanlıların təşkil etdiklərini nəzərə alaraq, Dağlıq Qarabağa muxtar vilayət statusu verilmişdir. Bu münaqişə ona görə yaranmamışdır ki, muxtariyyət yox idi, əksinə, ona görə yaranmışdır ki, Ermənistan Respublikasında və Dağlıq Qarabağda müəyyən dairələr Dağlıq Qarabağı Ermənistana birləşdirməyə can atırdılar. Təbii ki, Azərbaycan əz ərazisinin bir hissəsinin qoparılıb digər respublikaya birləşdirilməsi ilə razılaşa bilməzdi. Münaqişənin yaranmasına səbəb də məhz bu olmuşdur.

Biz onu əsas tuturuq ki, Azərbaycan Respublikasının ərazi bütövlüyü tamamilə təmin edilməlidir. Özgə ərazisi barəsində iddiamız yoxdur, hərçənd tarixən bunun üçün əsas var. Lakin öz torpağımızı heç vaxt heç kəsə verməyəcəyik. Biz hərbi əməliyyatların dayandırılmasına və Ermənistanla Azərbaycan arasında qarşılıqlı münasibətlərin dinc yolla, danışıqlar yolu ilə nizama salınmasına çalışırıq və əlbəttə, əmin edirik ki, Dağlıq

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qarabağın erməni əhalisinin təhlükəsizliyinə və hüquqlarına Azərbaycan Konstitusiyası ilə və respublikanın dövlət orqanları tərəfindən təminat verilir. İşğal edilmiş ərazilərdən erməni silahlı birləşmələrinin qeyd-şərtsiz çıxarılması təklifi qəbul olunarsa, Azərbaycan tərəfi Dağlıq Qarabağın statusu məsələsinə də baxa bilər.

Biz bütün məsələləri beynəlxalq təşkilatların - Birləşmiş Millətlər Təşkilatının, BMT Təhlükəsizlik Şurasının, ATƏM-in, bu problemin həlli üçün ATƏM-in tərkibində xüsusi olaraq yaradılmış Minsk qrupunun köməyi ilə həll etməyə çalışırıq. Məlumdur ki, BMT-nin Təhlükəsizlik Şurası bu məsələyə dəfələrlə baxmış və Azərbaycanın işğal olunmuş rayonlarından erməni silahlı birləşmələrinin qeyd-şərtsiz çıxarılması haqqında dörd qətnamə qəbul etmişdir. Lakin erməni tərəfi bu qətnamələrə tam etinasızlıq göstərir.

ATƏM-in və xüsusən onun Minsk qrupunun bu istiqamətdə fəaliyyəti də indiyədək heç bir nəticə verməmişdir. Halbuki istər ATƏM, istərsə də Minsk qrupu dəfələrlə qərarlar qəbul etmiş, Azərbaycanın işğal olunmuş rayonlarından erməni qoşunlarının çıxarılmasına dair hətta xüsusi cədvəllər tərtib etmişdir. Lakin onlar da nəticəsiz qalmışdır. Beləliklə, Ermənistanın Azərbaycana qarşı təcavüzkar hərəkətləri və beynəlxalq təşkilatların qərarlarını yerinə yetirmək istəməməsi aşkar şəkildə sübut edir ki, erməni tərəfi öz məqsədinə nail olmağa, yəni Azərbaycanın ərazi bütövlüyünü pozmağa, respublikamızın sərhədlərini dəyişdirməyə can atmaqdadır. Biz bununla, əlbəttə, heç vaxt razılaşa bilmərik. Qeyd etmək lazımdır ki, Ermənistanın bu cür mövqeyi əsasən bununla bağlıdır ki, o, bəzi xarici dairələrin, bəzi ölkələrin köməyindən istifadə edir və buna görə də BMT Təhlükəsizlik Şurasının, ATƏM-in və digər beynəlxalq təşkilatların qərarlarını qulaqardına vurur.

Bax, bu xəritə Ermənistanın təcavüzünün miqyasını çox aydın göstərir. Bu, Azərbaycandır, bu, həmçinin Azərbaycanın tərkibinə daxil olan Naxçıvan Muxtar Respublikasıdır, bu isə Ermənistandır. Qırmızı rənglə qeyd edilmiş bu ərazi keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətidir. O, tamamilə erməni silahlı birləşmələrinin nəzarəti altındadır. Dediyim kimi, burada əhalinin 30 faizi azərbaycanlılardır və onlar oradan çoxdan qovulmuşlar. Onlar təxminən 50 min nəfərdir. Hazırda Dağlıq Qarabağın ərazisində bir nəfər də azərbaycanlı yoxdur, erməni əhalisi isə burada qalmaqdadır.

Erməni silahlı qüvvələri təcavüzün miqyasını genişləndirərək, Azərbaycanın Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarını işğal etmişlər. Bu isə, dediyim kimi, respublikanın ərazisinin təxminən 20 faizinə bərabərdir. Həmin zonanın bir milyon nəfərdən çox azərbaycanlı sakini qaçqına çevrilmişdir. Onlar respublikanın digər rayonlarında, xeyli hissəsi isə Bakıda yerləşdirilmişdir. Təhlükəsizlik Şurasının xatırlatdığım dörd qətnaməsi məhz Kəlbəcər, Ağdam, Füzuli, Zəngilan, Qubadlı rayonlarına aiddir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu rayonları işğal etməklə erməni silahlı birləşmələri, bir tərəfdən, birbaşa əlaqəni, həmin ərazinin Ermənistana birləşdirilməsini əslində təmin etmiş, digər tərəfdən isə, Azərbaycanın İranla təqribən 140 kilometr uzunluğunda dövlət sərhədini nəzarət altına almışlar. Baxın, bura İrandır. Zənnimcə, ayrıca sübut etməyə lüzum yoxdur ki, bu, hərbi təcavüzdür, bir ölkə tərəfindən digər ölkə ərazisi zor gücünə qəsb olunmuşdur. Görünür, dünya birliyinə sübut etməyə lüzum yoxdur ki, bu hərbi təcavüzə son qoymaq gərəkdir.

Təkrar edirəm: biz bu problemin dinc yolla həll edilməsinə çalışırıq, öz sülhsevər təşəbbüslərimizi və tədbirlərimizi davam etdirəcəyik. Amma yaranmış vəziyyətlə razılaşa bilmərik. Dinc vasitələr bir nəticə vermədiyinə görə, hazırda Azərbaycan ordusunun hissələri ərazilərimizi hərbi yolla azad etmək üçün kifayət qədər uğurlu əməliyyatlar aparırlar.

Bu yaxınlarda Rusiya Federasiyası Müdafiə Nazirliyinin vasitəçiliyi ilə martın 1-dən atəşi dayandırmaq və qəsb edilmiş ərazilərdən Ermənistanın işğalçı qoşunlarının çıxarılmasına dair sülh danışıqları aparmaq haqqında razılaşma əldə olunmuşdur. Biz sazişin prinsiplərinə ciddi əməl edirdik, lakin martın 3 və 5-də erməni silahlı birləşmələri Azərbaycan hərbi hissələrinin mövqeləri üzərinə güclü hücuma keçmişlər. Hərbi hissələrimiz onları layiqincə dəf etmişlər. Bütün bunlar istər erməni tərəfindən, istərsə də biz tərəfdən yeni itkilərə, qan tökülməsinə gətirib çıxarmışdır.

Hər bir ölkənin ərazi bütövlüyü, sərhədlərinin pozulmazlığı Birləşmiş Millətlər Təşkilatının sənədlərində təsbit edilmiş beynəlxalq hüququn sarsılmaz prinsipidir. Çin rəhbərləri ÇXR sədri, Dövlət Şurasının baş naziri ilə danışıqlarımız zamanı Çin tərəfi belə bir mövqeyi bir daha təsdiqləmişdir ki, sərhədlərin zor gücünə dəyişdirilməsinə və hər hansı ölkənin ərazi bütövlüyünə qəsd edilməsinə yol vermək olmaz. Biz BMT-nin sənədlərində, beynəlxalq hüquqla təsbit olunmuş və dünyanın bütün ölkələri tərəfindən təsdiqlənmiş bu prinsiplərə əsaslanaraq, respublikamızın ərazi bütövlüyünə və sərhədlərinin pozulmazlığına nail olacağıq. Əlbəttə, burada biz dünya birliyinin, beynəlxalq təşkilatların, dünya ölkələrinin, o cümlədən də Çin Xalq Respublikasının köməyinə möhtacıq. Deməliyəm ki, ÇXR-in BMT-dəki, xüsusən, onun daimi üzv olduğu Təhlükəsizlik Şurasındakı nümayəndə heyəti Ermənistanın Azərbaycana qarşı hərbi təavüzü ilə bağlı məsələlərə baxılarkən həmişə ədalətli mövqe tutur. Odur ki, mən burada olmağımdan istifadə edərək, bu ədalətli mövqeyə görə Çin rəhbərliyinə minnətdarlığımızı bildirdim.

Mən bu salona toplaşan jurnalistlərə Azərbaycanın daxili vəziyyəti barədə, respublikanın həll etdiyi problemlər barədə, Azərbaycanın xarici siyasəti barədə, burada, Pekində keçirdiyimiz görüşlərin yekunları barədə kifayət qədər məlumat vermişəm. Buna görə də daha vaxtınızı almayacağam. Əgər suallar varsa, mən onlara cavab verməyə hazıram.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

S u a l: Münaqişənin nizama salınmasında Rusiyanın rolu, Rusiya - Azərbaycan münasibətlərinin inkişaf etdirilməsi perspektivləri necədir?

C a v a b: Mən sualınızın ikinci hissəsindən başlayacağam. Hazırda Azərbaycan - Rusiya münasibətləri normaldır, yaxşıdır. Bu yaxın vaxtlaradək çətinliklər olmuşdur. O da Azərbaycanın keçmiş rəhbərliyinin mövqeyi üzündən idi. Ötən ilin ikinci yarısından bəri bu münasibətlər qaydaya salınmağa başlanmışdır. Mən Moskvaya getmiş, Rusiya prezidenti Boris Nikolayeviç Yeltsinlə, baş nazir Viktor Stepanoviç Çernomırdinlə, ölkənin digər rəhbərləri ilə görüşmüşəm. Biz həmin vaxtadək Azərbaycanla Rusiya arasında qarşılıqlı münasibətlərlə mövcud olmuş maneələri aradan qaldırmaq tədbirləri barədə razılığa gəlmişik. Təkrar edirəm, bu münasibətlər normal xarakter, dostluq xarakteri daşıyır.

O ki qaldı münaqişənin nizama salınmasında Rusiyanın roluna, Rusiya bu prosesdə daim iştirak edir. Bildiyiniz kimi, bu münaqişə 1988-ci ilin əvvəlində yaranmışdır və onu aradan qaldırmaq üçün Sovet İttifaqı çərçivəsində cəhdlər edilirdi. Lakin münaqişəni aradan qaldıra bilmədilər. Daha doğrusu, mənə elə gəlir ki, aradan qaldırmaq istəmədilər, halbuki bunu Sovet İttifaqı çərçivəsində etmək mümkün idi. Bundan ötrü real imkanlar vardı. Bir sözlə, Rusiyanın keçmiş Sovet İttifaqının hüquqi varisi olduğunu nəzərə alsaq, Rusiya həmin vaxtdan bu prosesə qoşulmuşdur.

Rusiya həm ATƏM-in, həm də Minsk qrupunun üzvüdür. Minsk qrupu isə, dediyim kimi, bu problemlə xüsusi məşğul olur. Bundan əlavə, Rusiya öz təşəbbüsü ilə də çıxış edir. Məsələn, fevralın 18-də Moskvada Azərbaycan, Ermənistan və Rusiyanın müdafiə nazirləri protokol imzalamışlar. Protokolda Azərbaycanın işğal edilmiş ərazilərindən erməni qoşunlarının çıxarılması nəzərdə tutulur. Martın 1-dən atəşin dayandırılması haqqında razılaşma əldə edilmiş, həm də nəzərdə tutulmuşdur ki, üç gündən sonra isə qoşunların çıxarılmasına başlanacaqdır. Lakin belə şey olmadı. Nə deyə bilərəm? Rusiya bu prosesdə iştirak edir, amma nəticə hələlik yoxdur.

S u a l: Cənab prezident, iki sualım var. Son vaxtlar Çin dəfələrlə bildirmişdir ki, o, Dağlıq Qarabağ ətrafında münaqişənin həllində çox fəal iştirak etməyə hazırdır. Ola bilsin, hətta güman ki, sizin bu məsələ barəsində danışıqlarınız olmuşdur. Soruşmaq istərdim, bu hazırlıq nəinki Təhlükəsizlik Şurasında və digər təşkilatlarda fəal mövqe, həm də hər hansı digər formalar - bilavasitə münaqişə zonasında sulhyaratma, vasitəçilik formaları deməkdirmi? Bu, mənim birinci sualımdır. İkinci sual: danışıqlarınız zamanı Çin tərəfindən Azərbaycan üçün iqtisadi yardımdan, konkret kreditlərdən söhbət getmişdirmi? Sağ olun.

C a v a b: Birinci sual barəsində bayaq dedim ki, Çin BMT Təhlukəsizlik Şurası çərçivəsində çox prinsipial və ədalətli mövqe tutur. Bu münaqişənin nizama salınması üçün ATƏM çər-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

çivəsində xüsusi proseslər həyata keçirilir. Çin isə Avropa birliyinə daxil deyildir. Burada hər hansı konkret vasitəçilik barədə məsələ qaldırılmadı. O ki qaldı Çinin Azərbaycana yardımına, inkişaf etdirdiyimiz əməkdaşlıq, şübhəsiz, qarşılıqlı fayda xarakteri daşıyacaqdır. Bununla bərabər, Çin Azərbaycana kredit formasında da yardım göstərmək imkanına malikdir.

S u a l: Çindən hər hansı silah, hərbi yardım alınması barədə söhbət getmişdirmi? İkinci sual: bizə indicə "Erməni nasizmi" adlı kitabça payladılar. Siz burada dediniz ki, regionunuzdakı hadisələr haqqında dünya ictimaiyyyətinə dolğun, hərtərəfli informasiya çatdırmaq yaxşı olardı. Belə nəşrləri siz informasiya hesab edirsiniz, yoxsa, bu, daha çox təbliğatdır?

C a v a b: Birinci sualınızla əlaqədar bildirirəm ki, Çin tərəfindən hərbi yardım göstərilməsi barədə heç bir söhbət olmamışdır. Buna zərurət də yoxdur. Nə qədər çətin olsa da, Azərbaycan bu məsələnin öhdəsindən gəlir və zənnimcə, gələcəkdir.

O ki qaldı kitabça barədə dediyinizə, əgər siz erməni tərəfinin, demək olar, bütün ölkələrdə, beynəlxalq təşkilatlarla apardığı təbliğatla yaxşı tanış olsaydınız, yəqin ki, həmin kitabçanı belə qarşılamazdınız. Erməni tərəfi beynəlxalq təşkilatlarda, dünyanın bütün ölkələrində belə kitabçaları, materialları yüz qat artıq yayır. İndiki münaqişədə Azərbaycanın və Ermənistanın qeyri-bərabər vəziyyətdə olması da məhz ondan irəli gəlir ki, erməni tərəfinin başqa ölkələrlə ictimai rəyə təsir göstərmək üçün çox böyük imkanları var. Azərbaycanın isə belə imkanları əslində yoxdur. Siz Avropada, ABŞ-da, Rusiyada, o cümlədən Moskvada necə güclü erməni diasporu olduğunu yaxşı bilirsiniz. Onun hətta Rusiya mətbuat orqanları vasitəsilə ictimai rəyi çaşdırmaq üçün necə səy göstərdiyi də sizə məlumdur. Ona görə də qoy bu kitabça sizi o qədər də karıxdırmasın. O, həqiqətən çox obyektiv yazılmışlır, təbliğat xarakteri deyil, məhz informasiya xarakteri daşıyır.

Diqqətinizə görə sağ olun, görüşənədək.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

PEKİNDƏ BEYNƏLXALQ TİCARƏTİN İNKİŞAFINA YARDIM KOMİTƏSİNDƏ ÇIXIŞ

9 mart 1994-cü il

Hörmətli cənab prezident, Çin Beynəlxalq Ticarətin İnkişafına Yardım Komitəsinin hörmətli yüksək vəzifəli şəxsləri, xanımlar və cənablar! Sizinlə görüş üçün dəvətə və bu gün sizinlə ünsiyyətdə olmaq imkanına görə sizə hədsiz minnətdaram. Mən buna Çin Xalq Respublikası ilə Azərbaycan Respublikası arasında ticarət-iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsinin çox mühüm vasitəsi kimi baxıram.

Mən və məni müşayiət edən şəxslər buraya Çin Xalq Respublikasının sədri Tszyan Tszeminin dəvəti ilə gəlmişik. Üçüncü gündür ki, ölkənizdə, onun paytaxtı - gözəl şəhər olan Pekindəyik və bu üç gündə bir çox məsələlər barəsində fikir mübadiləsi etməyə və hətta bir sıra mühüm sənədlər imzalamağa macal tapmışıq. Bu sənədlər Çin Xalq Respublikası ilə Azərbaycan Respublikası arasında dövlətlərarası münasibətlərin, ən əvvəl ticarət sahəsində və İqtisadiyyatın digər sahələrində əlaqələrin daha da inkişaf etdirilməsinə yönəldilmişdir. Ölkənizə gəldiyimiz andan həm ali dövlət rəhbərliyi tərəfindən, həm də işlə əlaqədar bizimlə ünsiyyətdə olanların hamısı tərəfindən əhatə edildiyimiz səmimi dostluq mühitini ilk növbədə qeyd etmək istərdim. Açığını deyirəm, biz özümüzü evimizdəki kimi hiss edirik. Bu, olduqca vacibdir, çünki biz Çin Xalq Respublikası ilə dostluq münasibətləri yaratmağa çalışırıq. Odur ki, bu səfər, Azərbaycan prezidentinin Çinə ilk səfəri məhz belə münasibətlər yaradılmasının və bu münasibətlərin inkişaf etdirilməsinin zəruriliyindən irəli gəlir.

Bununla əlaqədar olaraq ticarət-iqtisadi münasibətlər birinci dərəcəli əhəmiyyətə malikdir. Belə düşünürəm ki, ölkələrimizin ali rəhbərləri arasında əldə edilmiş razılaşmaları istər Azərbaycanda, istərsə də ÇXR-də müvafiq strukturlar həyata keçirməlidirlər. Bu işdə sizin, Çin sahibkarlarının və beynəlxalq ticarətin inkişafına yardım komitəsinin rolu böyükdür.

Yəqin, siz məlumat kitabçalarından, ədəbiyyat və mətbuatdan bilirsiniz ki, Azərbaycan gənc, müstəqil dövlətdir, keçmişdə Sovet İttifaqının tərkibində olmuş, SSRİ-nin parçalanması ilə əlaqədar istiqlaliyyət əldə etmiş və bütün dünya birliyi tərəfindən tanınmışdır. Biz qarşımıza istiqlaliyyəti möhkəmlətməyi və dünyanın bütün ölkələri ilə bərabərhüquqlu dostluq münasibətləri yaratmağı təmin etmək məqsədi və vəzifəsi qoymuşuq.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ölkələrimizi bir-birindən olduqca böyük məsafə ayırsa da, bizi belə bir cəhət birləşdirir ki, Çin də, Azərbaycan da Asiyada yerləşir. Digər tərəfdən, Çin dünyanın ən iri dövlətidir, olduqca böyük miqdarda əhalisi, geniş ərazisi, çox güclü iqtisadi potensialı var, Azərbaycan isə Qafqazda yerləşən gənc müstəqil dövlətdir, onun 7 milyon nəfər əhalisi, 86 min kvadrat kilometr ərazisi var, buna baxmayaraq, kifayət qədər sanballı potensiala malikdir. Dediyim kimi, biz də Asiya qitəsindəyik, lakin bununla bərabər, Avropa ilə Asiyanın qovuşuğunda yerləşirik, necə deyərlər, həm Avropaya, həm də Asiyaya mənsubuq. Bu, Azərbaycan iqtisadiyyatının inkişafı baxımından da böyük əhəmiyyətə malikdir.

Azərbaycan bütün Asiya ölkələri ilə, o cümlədən də Çinlə çoxdan əlaqələrə malikdir. Asiya ilə Avropanı birləşdirən bir növ körpü, o cümlədən ticarət körpüsü olmuşdur. Biz burada olduğumuz günlərdə ipək yolunu da, hələ XII-XIII əsrlərdən başlayaraq Azərbaycanla Çin arasında mövcud olmuş digər ticarət-iqtisadi əlaqələri də təsadüfi yada salmadıq. Bir sözlə, tarix və coğrafiya Azərbaycanla Çin Xalq Respublikası arasında əlaqələrin daha da inkişaf etdirilməsi üçün çox əlverişli şərait yaratmışdır.

Mən artıq qeyd etdim ki, Azərbaycan kifayət qədər sanballı iqtisadi potensiala malikdir. Bu potensial respublikanın ən Əvvəl yeraltı və yerüstü sərvətlərindən ibarətdir. Mən zəngin neft, dəmir filizi, alüminium yataqlarını, digər ehtiyatları nəzərdə tuturam. Azərbaycan həm də kifayət qədər güclü sənaye potensialına malikdir. Bu, neft, neft kimyası, kimya, maşınqayırma sənayesidir, maşınqayırma, demək olar, bütün sahələri - neft maşınqayırmasını, elektrotexnikanı, elektronikanı, cihazqayırmanı, radiotexnikanı əhatə edir. Bizdə metallurgiya sənayesi də inkişaf etmişdir. Dediyim kimi, bizdə dəmir filizi və alüminium xammalı var, buna görə də sənayemizdə həm metal prokatı, həm də alüminium istehsalı mühüm yer tutur. Bütün bunlarla yanaşı, bizdə toxuçuluq, emal sənayesi, yüngül sənaye də inkişaf etmişdir, həm də özümüzün kənd təsərrüfatı xammalı əsasında.

Respublikanın kənd təsərrüfatı da müxtəlifdir. Ərazimiz böyük olmasa da, təbii torpaq-iqlim şəraiti Azərbaycanda, məsələn, pambıq və subtropik bitkiləri - çay, tütün və tərəvəzi, taxıl və üzümü eyni zamanda əkib-becərməyə imkan verir. Bizdə şərabçılıq çox inkişaf etmişdir. Bir daha deyirəm, bütün bunlar bütövlükdə həm sənaye, həm də kənd təsərrüfatı potensialımızı təşkil edir və Azərbaycanın gələcək inkişafı üçün və təbii olaraq, digər ölkələrlə, o cümlədən də Çinlə ticarət-iqtisadi əlaqələrin inkişafı üçün yaxşı bazadır.

Azərbaycan kifayət qədər sanballı iqtisadi potensiala malik olsa da, hazırda dərin sosial-iqtisadi böhran keçirir. Əlbəttə, bu böhran keçmiş Sovet İttifaqında getmiş proseslərlə bağlıdır. Lakin o, respublikamızda bir də onunla bağlıdır ki, Azərbaycan, qonşu Ermənistan Respublikası tərəfindən hərbi təcavüzə məruz qalmışdır. Bununla bərabər biz iqtisadiyyatı daha səmərəli şəkildə idarə etmək yolları axtarır, azad sahibkarlı-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ğa, bazar münasibətlərinə üstünlük veririk. Hazırda bizdə bir sistemdən - sosial-iqtisadi sistemdən digərinə - azad iqtisadiyyata keçid prosesi gedir. Bu, təkcə dövlətlər səviyyəsində deyil, həm də müxtəlif şirkət və müəssisələr səviyyəsində birbaşa ticarət-iqtisadi əlaqələr yaradılması üçün olduqca böyük perspektivlər açır. Yeri gəlmişkən, deməliyəm ki, müştərək müəssisələr açılması üçün Azərbaycanla Çin arasında əlaqələr yaradılması sahəsində müəyyən addımlar atılmışdır.

Azərbaycan iqtisadiyyatının inkişaf yollarını müəyyənləşdirərkən biz qabaqcıl, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin təcrübəsindən, Yer kürəsinin müxtəlif regionlarında toplanmış təcrübədən bəhrələnməyə, lakin, şübhəsiz ki, ölkəmizin və xalqımızın milli xüsusiyyətlərini əsas götürməklə bəhrələnməyə çalışırıq. Bununla əlaqədar biz burada olduğumuz günlərdə son illər Çin Xalq Respublikasının həyata keçirdiyi və kifayət qədər müsbət nəticələr vermiş iqtisadi islahatların prinsipləri, xüsusən onların praktiki səmərəsi ilə tanış oluruq və daha ətraflı tanış olmaq fikrindəyik.

Dediyim kimi, Azərbaycan qonşu Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalır. Bu təcavüz nəticəsində erməni silahlı birləşmələri respublikamızın ərazisinin 20 faizə qədərini işğal etmişdir. Azərbaycan müharibə vəziyyətindədir, lakin bununla belə, iqtisadiyyatı müvəffəqiyyətlə inkişaf etdirmək üçün imkanlarımız var. Onu da qeyd etmək istəyirəm ki, bütün bu şəraitdə də ölkənin daxilində ictimai-siyasi vəziyyət sabit, normaldır ki, bu da İqtisadiyyatı inkişaf etdirmək üçün və təbii ki, başqa ölkələrlə, firmalarla, şirkətlərlə, assosiasiyalarla birbaşa ticarət-iqtisadi əlaqələr saxlamaq üçün yaxşı zəmin yaradır. Biz Çinlə belə əlaqələrin yaradılmasına böyük əhəmiyyət veririk.

Mən ölkəmiz, Azərbaycan haqqında, onun sosial-iqtisadi vəziyyəti, başqa ölkələrlə, o cümlədən Çinlə iqtisadi-ticarət əlaqələrini inkişaf etdirmək sahəsində respublikamızın imkanları barədə verdiyim bu qısa informasiya ilə kifayətlənirəm, çünki nəzərə alıram ki, yəqin fikir mübadiləsi olacaqdır.

Bu bizim ilk görüşümüz, ilk tanışlığımızdır. Hiss edirəm ki, Azərbaycanla əməkdaşlıq etmək arzusu böyükdür. Şübhəsiz ki, hər kəs öz imkanlarını götür-qoy edir, bu da təbiidir, çünki əməkdaşlıq qarşılıqlı surətdə faydalı olmalıdır. Zənnimcə, biz bu gün belə bir əməkdaşlıq üçün yaxşı bünövrə qoyuruq.

Bir daha qeyd etmək istəyirəm ki, ölkəmizlə bazar İqtisadiyyatına keçid prosesi gedir. Sizdə sosialist bazar İqtisadiyyatı, yaxud bazar sosializmi mövcuddur. Bunlar demək olar ki, eyni şeydir. Ona görə də biz bunu əsas tutacağıq ki, Çin Beynəlxalq Ticarətin İnkişafına Yardım Komitəsi ilə birbaşa əlaqə yaradılmış-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dır, müvafiq şirkətlərin, firmaların rəhbərləri ilə ünsiyyətlər yaradıdır. Mən sizin hamınızı Azərbaycana dəvət edirəm ki, gəlib özünüz bizim imkanlarımızla tanış ola biləsiniz. Təbii ki bu, qarşılıqlı surətdə faydalı əməkdaşlıq məsələlərini konkret surətdə həll etməyə imkan verəcəkdir.

Bugünkü görüş üçün, diqqətiniz üçün sizə təşəkkürümü bildirmək istəyirəm. Çin İqtisadiyyatının inkişafında, islahatların həyata keçirilməsində hamınıza uğurlar arzulayıram. İnanıram ki, Çin Xalq Respublikasının gələcəyi gözəldir. Həm İqtisadiyyat, həm də sosial sahə yüksək sürətlə inkişaf edir, bu isə gələcəkdə Çinin hər bir vətəndaşı üçün daha yaxşı yaşayış şəraiti yaratmağa imkan verəcəkdir. Sizə xoşbəxtlik, firavanlıq, uğurlar diləyirəm.

Dəvətinizə və xoş sözlərinizə görə sizə dərin minnətdarlığımı bildirirəm.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

PEKİN İCTİMAİ ELMLƏR AKADEMİYASINDA ÇIXIŞ

9 mart 1994-cü il

Hörmətli xanımlar və cənablar, hörmətli dostlar! Hədsiz xoşbəxtəm ki, Pekində mənə sizinlə - İctimai Elmlər Akademiyasının alimləri, mütəxəssisləri, əməkdaşları ilə görüşmək imkanı verilmişdir. Həm də şadam ki, mən belə nüfuzlu və yüksək səviyyəli auditoriya qarşısında çıxış edirəm. Mənə yaxşı məlumdur, bunu ölkəmizdə, Azərbaycanda da bilirlər ki, 1949-cu ildə Çin İnqilabı həyata keçirildikdən sonrakı dövrdə Çində böyük sosial-iqtisadi dəyişikliklər baş vermiş, həmin dövrdə ictimai elmlər güclü inkişaf etmişdir. Həm də akademiya ÇXR-də ictimai elmlər mərkəzidir. Bu gün bizə buraya gəlmək xoşbəxtliyi nəsib olmuşdur.

Siz Çində nəinki ictimai elmlərin inkişafına ciddi töhfə vermisiniz, həm də bəşəriyyətin inkişaf prosesləri haqqında elmi və cəmiyyəti yeni tədqiqatlarla, yeni müddəalarla zənginləşdirmisiniz. Çin alimlərinin ictimai elmlər sahəsində tədqiqatlarını, sizin ölkənizin inkişafının da və şübhəsiz, bütün dünyanın ictimai-siyasi inkişafının da müxtəlif mərhələlərində çıxarılan çox maraqlı müddəaları bu yaxınlaradək tərkibində olduğumuz keçmiş Soveq İttifaqında da həmişə böyük maraq və diqqətlə izləyirdilər. Mən sizə və ictimai elmlər sahəsində çalışan bütün mütəxəssislərə, dünya elminə olduqca böyük töhfə verən və təbii ki, ÇXR-in mövcudluğunun 45 ili ərzində edilmiş dəyişikliklərlə mühüm rol oynayan bütün Çin alimlərinə öz ehtiramımı bildirirəm.

Çin xalqı böyük xalqdır, Çin böyük ölkədir. Biz də böyük məmnunluq hissi ilə qeyd edirik ki, İnqilabdan sonra ÇXR-in mövcud olduğu illər ərzində Çin xalqı dünya birliyində layiqli yer tutmuş, Çin Xalq Respublikası bütün dünyala böyük beynəlxalq nüfuz qazanmışlır və dünya miqyasında ictimai-siyasi inkişaf proseslərinə olduqca böyük təsir göstərir.

Çin ilə Azərbaycan arasında münasibətlər bu yaxınlarda yaradılmışdır. Belə ki, bildiyiniz kimi, Azərbaycan Sovet İttifaqının tərkibinə daxil idi və öz dövlət müstəqilliyini iki il bundan əvvəl, Sovet İttifaqı dağıldıqdan sonra əldə etmişdir. Bu müddət ərzində ölkələrimiz arasında diplomatik münasibətlər yaradılmışdır, ticarət-iqtisadi əlaqələr inkişaf edir. Buna görə də biz tam əsasla deyə bilərik ki, Çin Xalq Respublikası ilə müstəqil Azərbaycan Respublikası arasında dostluq münasibətləri yaranmışdır. Əslinə qalsa, mənim ÇXR-ə rəsmi səfərim

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

və bizim burada keçirdiyimiz görüşlər və apardığımız danışıqlar da həmin münasibətlərdən irəli gəlir.

Biz Çin Xalq Respublikasının sədri cənab Tszyan Tszemin, dövlət Şurasının baş naziri cənab Li Pen ilə görüşlər və danışıqlar zamanı dövlətlərarası münasibətlərimizlə bağlı bir çox məsələləri müzakirə etmişik. Biz Çin ilə Azərbaycan arasında münasibətlərin gələcək inkişafının perspektivlərini müəyyənləşdirən mühüm sənədlər imzalamışıq. Çin Xalq Respublikasının sədri və mən ölkələrimiz arasında əməkdaşlığın prinsipləri haqqında bəyannamə imzalamışıq. Bu sənəd dostluq əlaqələrimizin gələcək inkişafının proqramıdır. İqtİsadi, elmi-texniki, mədəni əməkdaşlığın müxtəlif məsələlərinə dair daha yeddi sənəd imzalanmışdır. Bütün bunlar Çin Xalq Respublikası ilə Azərbaycan arasında münasibətlərin yeni mərhələsi deməkdir.

Səfərimiz başa çatır. Bu gün biz Şanxaya yola düşürük, sabah isə Vətənə qayıdacağıq. Demək istəyirəm ki, səfərimizin nəticələrindən, burada olmağımızdan son dərəcə məmnun qalmışıq. Biz Vətənə xoş əhval-ruhiyyə ilə qayıdırıq. Pekində, ümumən Çin Xalq Respublikasında olduğumuz zaman qarşılaşdığımız səmimiyyəti və qonaqpərvərliyi xüsusilə qeyd etmək istəyirəm.

Zənnimcə, ictimai elmlər sahəsində çalışan mütəxəssislər kimi, siz keçmiş Sovet İttifaqında baş vermiş, həmin İttifaqın dağılmasına və onun ərazisində müstəqil dövlətlərin yaranmasına gətirib çıxarmış prosesləri, habelə, təbii ki, Azərbaycanda, Zaqafqaziyada, Qafqaz regionunda baş vermiş və də davam edən prosesləri yaxşı təsəvvür edirsiniz. Bununla belə, sizə qısaca olaraq öz ölkəmiz haqqında - Azərbaycan Respublikası barədə danışmaq istərdim.

Yenidənqurma deyilən dövrdə keçmiş Sovet İttifaqında gedən proseslər, sizə məlum olduğu kimi, çox mürəkkəb, ziddiyyətli proseslər idi və o zaman gözlənilən nəticələri vermədi. Sovet İttifaqının dağılması və yeni müstəqil dövlətlərin yaranması son onilliklər ərzində keçmiş SSRİ-də və bütün dünyada baş verən ictimai-tarixi proseslərin qanunauyğun nəticəsidir.

Bunun nəticəsində Azərbaycan xalqı bir çox onilliklər ərzində can atdığı dövlət istiqlaliyyətinə nail olmuşdur. Azərbaycan dünya birliyi tərəfindən tanınmış müstəqil dövlət, Birləşmiş Millətlər Təşkilatının, başqa beynəlxalq təşkilatların üzvüdür. Dövlət istiqlaliyyətinin əldə edilməsi Azərbaycan xalqı üçün tarixi hadisədir və bizim vəzifəmiz, məqsədimiz istiqlaliyyətimizi, beynəlxalq mövqelərimizi hər vasitə ilə möhkəmləndirməkdən ibarətdir. Biz çalışırıq və gələcəkdə də çalışacağıq ki, Azərbaycan indən belə heç vaxt hər hansı başqa ölkənin vassalı və ya bir hissəsi olmasın. Bundan ötrü hər cür şərait və imkan var, baxmayaraq ki, yolumuz üzərində çətinliklər və maneələr də az deyildir. Sizi əmin etmək istəyirəm ki, Azərbaycan xalqı öz istiqlaliyyətinin əldən getməsinə heç vaxt yol verməyəcəkdir.

Azərbaycan kifayət qədər iqtisadi potensiala, zəngin yeraltı

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

və yerüstü sərvətlərə, güclü intellektual, elmi-texniki potensiala malikdir. Respublikamızın çox əlverişli coğrafisiyasi mövqeyi var, bildiyiniz kimi, Azərbaycan Avropa və Asiyanın qovuşuğunda yerləşir, Rusiya, İran, Türkiyə və hazırda müstəqil dövlət olan Gürcüstanla və müharibə vəziyyətində olduğumuz - bu barədə sonra danışacağam - Ermənistanla həmsərhəddir. Bütün bunlar Azərbaycanın müstəqil dövlət kimi yaşaması üçün şərait yaradır. Onu da nəzərə almaq lazımdır ki, Azərbaycan çox zəngin tarixi olan qədim ölkədir, Azərbaycan xalqı dünya sivilizasiyasına xeyli töhfə vermişdir. Azərbaycanın ədəbiyyatı, incəsənəti, mədəniyyəti qədim dövrlərdən başlayaraq Şərqdə, həm də təkcə Şərqdə deyil, habelə Qərbdə, Avropada da məlumdur. Bütün bunlar bizim bugünümüz və gələcəyimiz üçün etibarlı bünövrə yaradır.

Keçmişdə, orta əsrlərdə və sonralar Azərbaycan dünyanın bir çox ölkəsi ilə sıx ticarət-iqtisadi və mədəni əlaqələr saxlamışdır. Hələ XII-XIII əsrlərdən başlayaraq Çinlə də belə əlaqədar olmuşdur. Böyük ipək yolu Azərbaycandan keçirdi, buraya Çin tacirləri də gəlirdi. Bir sözlə, Avropa ilə Asiyanı birləşdirən yolların qovuşuğunda yerləşən Azərbaycan ta qədimdən həm Şərqlə, həm də Qərblə bağlı olmuşdur. Bir daha deyirəm ki, bütün bunlar bizim zəngin keçmişimizdən, ənənələrimizdən, imkanlarımızdan xəbər verir, göstərir ki, Azərbaycan də müstəqil dövlət kimi yaşaya bilər.

Bu gün daxili siyasətdə fəaliyyətimizin əsas istiqaməti şəxsiyyət azadlığını, sərbəst sahibkarlığı, təşəbbüskarlığı təmin etmək əsasında, insan hüquqlarının qorunmasına möhkəm zəmanət verilməsi, siyasi plüralizmi, çoxpartiyalı sistemi təmin etmək zəminində demokratik hüquqi dövlət, demokratik cəmiyyət qurmaqdır. İqtisadiyyat sahəsində biz bazar İqtisadiyyatı yolunu tutmuşuq. Aydındır ki, bütün bunlar heç də sadə proseslər olmayıb, çoxlu çətinliklərlə qarşılaşır. Lakin biz əminik ki, Azərbaycan özünün daxili həyatını həmin prinsiplər üzərində quracaqdır.

Xarici siyasət sahəsində Azərbaycan dünyanın bütün ölkələri ilə, lakin ilk növbədə qonşu dövlətlərlə və əməkdaşlığın konkret praktiki nəticələr verə biləcəyi ölkələrlə dostluq, bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı münasibətlər yaratmaq prinsiplərini həyata keçirir. Bununla əlaqədar Azərbaycan Çin Xalq Respublikası ilə mehriban münasibətlər və ticarət-iqtisadi, elmi-texniki, mədəni əlaqələr yaratmağa, daha doğrusu, bunları inkişaf etdirməyə böyük əhəmiyyət verir. Məhz bu məqsədlə biz dəvəti qəbul edərək Çinə gəlmişik. Bizim buraya gəlməyimiz, keçirdiyimiz görüşlər və apardığımız danışıqlar bizi əmin edir ki, həm Çin, həm də Azərbaycan milli mənafeləri və təbii ki, dünya birliyini möhkəmləndirmək mənafelərini əsas tutaraq qarşılıqlı addım atır.

Cəmi iki il bundan əvvəl istiqlaliyyət qazanmış Azərbaycan dünyanın bir çox ölkəsi ilə diplomatik münasibətlər yaratmışdır, müxtəlif beynəlxalq təşkilatların fəaliyyətində iştirak edir. Lakin bu, yalnız başlanğıcdır. Əlbəttə, biz beynəl-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

xalq fəaliyyətimizi genişləndirməyə, başqa ölkələrlə əlaqələri inkişaf etdirməyə səy göstəririk və bundan sonra da səy göstərəcəyik.

İctimai elmlər sahəsində çalışan mütəxəssislər kimi, siz qədim tarixə malik, son dərəcə çoxmillətli, özünəməxsusluğu və çoxsaylı mürəkkəb ziddiyyətləri olan Qafqazın, o cümlədən Zaqafqaziyanın nə demək olduğunu yaxşı bilirsiniz.

Zaqafqaziyada keçmiş Sovet İttifaqının üç respublikası, müstəqil dövlətlər olan Gürcüstan, Azərbaycan və Ermənistan yerləşir. Gürcüstanla bizim normal dostluq münasibətlərimiz var. Ermənistanla isə, təəssüf ki, müharibə vəziyyətindəyik. Altıncı ildir ki, Ermənistan Azərbaycana qarşı hərbi təcavüz edir. Bu hərbi münaqişə barədə hər yerdə, o cümlədən də Çində doğru-düzgün, həqiqi təsəvvürün olması mühümdür. Həqiqət isə bundan ibarətdir ki, qonşu Ermənistan Azərbaycanın bir hissəsini - təkcə ermənilərin deyil, həm də azərbaycanlıların yaşadıqları Dağlıq Qarabağı özünə birləşdirməyə cəhd göstərir.

Altı ilə yaxındır ki, Ermənistan müharibəyə başlamışdır, bundan da məqsəd məhz Dağlıq Qarabağı Azərbaycandan qoparmaq və Ermənistana birləşdirməkdir, Azərbaycan xalqı isə, şübhəsiz, bununla heç cür razılaşa bilməz. Dağlıq Qarabağ Azərbaycan ərazisinin bir hissəsidir. Lakin oranın əhalisinin bir hissəsini ermənilər təşkil etməsi ilə əlaqədar 1923-cü ildə Azərbaycanın tərkibində muxtar vilayət yaradılmışdı. Həmin vilayət ötən illərdə Azərbaycan Respublikasının və əlbəttə ki, bütün Sovet İttifaqının tərkibində müvəffəqiyyətlə inkişaf edirdi. Dağlıq Qarabağda əhalinin 70 faizə qədəri ermənilər, 30 faizi isə azərbaycanlılar idi. Onun ərazisi çox da böyük deyildi, təxminən 4 min kvadrat-kilometr idi. Ermənistanın millətçi dairələri, sonra isə Ermənistan Respublikasının rəhbərliyi də Dağlıq Qarabağda müəyyən sayda ermənilərin yaşamasını əsas tutaraq Azərbaycan ərazisinin bu hissəsini ondan qopararaq Ermənistana birləşdirməyi qarşılarına məqsəd qoymuşlar.

Həmin münaqişə bu cür başladı. Əlbəttə, münaqişə hələ o zaman, vahid dövlət olan Sovet İttifaqının çərçivəsində aradan qaldırıla bilərdi. Doğrudur, hansısa qüvvələr buna mane oldular. İndi, Ermənistan və Azərbaycan müstəqillik qazandıqdan sonra həmin məsələni dövlətlərarası zəmində, beynəlxalq hüquq prinsipləri əsasında, beynəlxalq təşkilatların iştirakı ilə həll etmək lazımdır. Biz buna çalışırıq. Lakin Ermənistan tərəfi müvəqqəti hərbi üstünlüyündən istifadə edərək öz niyyətlərini zorakılıq yolu ilə, silah gücünə həyata keçirməyə cəhd göstərir və son illər ərzində Ermənistan tərəfi Azərbaycan ərazisinin 20 faizə qədərini işğal etmişdir.

Azərbaycan bu məsələni sülh yolu ilə, danışıqlar vasitəsilə həll etməyə çalışır. Biz BMT Təhlükəsizlik Şurasının, ATƏM-in, onun Minsk qrupunun və başqa beynəlxalq təşkilatların imkanlarından, münaqişənin sülh yolu ilə aradan qaldırılmasında rol oynaya biləcək böyük dövlətlərin imkanlarından istifadə edirik və bundan sonra da istifadə edəcəyik, lakin bir şərt-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lə - işğalçı erməni qoşunları Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxmalı, Azərbaycanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı təmin olunmalıdır. Əgər həmin tədbirlər bir nəticə verməsə, Azərbaycan özünün hərbi imkanlarından istifadə edərək ölkənin ərazi bütövlüyünü, dövlətin müstəqilliyini və suverenliyini, sərhədlərinin toxunulmazlığını müdafiə edə biləcəkdir.

Çin rəhbərləri ilə görüşlər və söhbətlər zamanı biz bu məsələyə münasibətdə Çin Xalq Respublikasının və onun rəhbərliyinin prinsipial, ədalətli mövqeyi ilə bir daha məmnuniyyətlə tanış olduq. Bu mövqe onu əsas tutur ki, hər hansı dövlötin, o cümlədən də Azərbaycanın ərazi bütövlüyü toxunulmazdır, bu beynəlxalq hüququn sarsılmaz prinsipidir, bir dövlətin başqa dövlətin ərazi bütövlüyünə qəsd etməsinə yol vermək olmaz. Sərhədlərin toxunulmazlığı da sarsılmaz prinsipdir və sərhədləri silah gücünə dəyişdirmək cəhdi yolverilməzdir. Bu mövqe BMT Təhlükəsizlik Şurasının iclaslarında da bildirilmiş və burada, Pekində Çin rəhbərləri ilə görüşlər və söhbətlər zamanı bir daha təsdiq edilmişdir.

Heç də az əhəmiyyəti olmayan daha bir cəhəti qeyd etmək istəyirəm. Azərbaycan çoxmillətli dövlətdir, milli mənsubiyyətindən asılı olmayaraq onun bütün vətəndaşları bərabər hüquqlara malikdirlər. Dağlıq Qarabağın erməni əhalisi barədə də mövqeyimiz eynidir, biz onların təhlükəsizliyinə və bütün vətəndaş hüquqlarından istifadə etmələrinə tam təminat veririk. Dediyim kimi, vaxtilə Dağlıq Qarabağ Muxtar Vilayət idi və biz də orada erməni milli azlığı üçün muxtariyyət verilməsinin mümkünlüyü prinsipini inkar etmirik. Azərbaycan rəhbərliyi bu məsələlərdə məlum beynəlxalq prinsipləri əsas tutur.

Belə hesab edirəm ki, Azərbaycan haqqında, onun bugünkü vəziyyəti, gənc müstəqil Azərbaycan dövlətinin qarşısında duran problemlər barədə verdiyim bu informasiya sizin üçün maraqlıdır. Əgər suallarınız olarsa, məmnuniyyətlə cavab verə bilərəm.

S u a l: Cənab prezident, maraqlı söhbətinizə görə sağ olun. Mən İctimai Elmlər Akademiyasının Orta Asiya və Şərqi Avropa Elmi Tədqiqat İnstitutunun əməkdaşıyam. Sualım Rusiyanın Zaqafqaziyadakı rolu ilə bağlıdır. Hamıya məlumdur ki, Rusiya Zaqafqaziyada gedən proseslərdə fəal iştirak edir. Siz bu proseslərdə Rusiyanın rolunu necə şərh edərdiniz? İkinci sual. Rusiyadakı ekstremist, millətçi meyllərin inkişafını bütün dünya böyük diqqətlə izləyir, çünki belə hesab edirlər ki, Rusiya keçmiş Sovet İttifaqı respublnkalarının müstəqilliyini tanımağa hazır deyildir. Millətçilər və ekstremistlər Rusiyanın roluna nə dərəcədə təsir göstərirlər və bu təsir narahatlıq doğururmu?

H.Ə l i y e v: Bilirsiniz ki, Zaqafqaziya, mən Azərbaycan, Gürcüstan və Ermənistanı nəzərdə tuturam, təqribən 200 il ərzində əvvəlcə çar Rusiyasının, sonra isə Sovet İttifaqının tərkibində olmuşdur. Təbii ki, ənənə üzrə Rusiyanın Zaqafqaziya regionunda öz marağı, öz təsiri var. Sizə yəqin məlumdur, Ermənistanın ərazisində Rusiyanın qoşunları və hərbi bazaları

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yerləşir. Gürcüstan ərazisində də Rusiya qoşunları var, Abxaziya ilə Gürcüstan arasında münaqişənin kəskinləşməsi ilə əlaqədar oraya Rusiya qoşunlarının əlavə kontingenti gətirilmişdir. Bu yaxınlarda Rusiya prezidenti Yeltsin Tbilisidə olarkən hərbi əməkdaşlıq haqqında Gürcüstan ilə Rusiya arasında saziş də imzalanmışdır.

Azərbaycanda xarici dövlətlərin, o cümlədən də Rusiyanın qoşunları yoxdur. Mən qeyd etdim ki, Azərbaycan İran, Türkiyə, Rusiya ilə həmsərhəddir, Zaqafqaziyadakı qonşularımız isə Gürcüstan və Ermənistandır. Lakin Ermənistan Respublikası tərəfindən təcavüzə məruz qaldığına görə, Azərbaycan çətin vəziyyətdədir. Ermənistan bu təcavüzü məhz ona görə uğurla həyata keçirə bilir ki, o, ölkənin hüdudlarından kənardakı müxtəlif dairələrdən kömək alır.

Rusiya Zaqafqaziyadakı - Gürcüstandakı, Ermənistan ilə Azərbaycan arasındakı münaqişələrin aradan qaldırılmasında fəal iştirak etməyə səy göstərir. Biz istərdik ki, Rusiyanın səyləri, xüsusən Ermənistan ilə Azərbaycan arasındakı müharibəni başa çatdırmaq və respublikamıza qarşı Ermənistanın təcavüzünü dayandırmaq üçün göstərdiyi səylər daha səmərəli, uğurlu olsun.

Rusiyadakı millətçilik meyllərinə və ya əhval-ruhiyyəsinə, sizin dediyiniz kimi, keçmiş Sovet İttifaqının sərhədlərinə nəzarət etmək istəyən ekstremist qüvvələrə gəldikdə isə, belə meyllər var və bunlar keçmiş sovet respublikalarının əsasında yaranmış müstəqil dövlətlər üçün təhlükəlidir. Ümid etmək istərdik ki, hər halda Rusiyada sağlam qüvvələr üstün gələcək və bu meyllər yayılmayacaq, Rusiya keçmiş Sovet İttifaqının bütün respublikaları ilə ağıllı münasibətlər yaratmaq yolu ilə gedəcəkdir.

Diqqətinizə görə, dostcasına səmimi görüş üçün hamınıza təşəkkür edirəm.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ÇİN XALQ RESPUBLİKASINDAN BAKIYA QAYIDARKƏN ALMATIDA SƏFƏRİN YEKUNLARI BARƏDƏ JURNALİSTLƏR QARŞISINDA ÇIXIŞ

10 mart 1994-cü il

Çin dünyanın ən böyük dövlətlərnidən biridir. Müstəqil dövlət olan Azərbaycan dünyanın bütün ölkələri ilə qarşılıqlı surətdə faydalı əməkdaşlıq yaratmaq prinsiplərini rəhbər tutaraq Çinlə də bütün istiqamətlərdə sıx əlaqələrə malik olmalıdır. Mənim bu səfərim də həmin zərurətdən irəli gəlmişdir. Çinin özü də Azərbaycanla münasibətlərə böyük maraq göstərir. Çin Xalq Respublikası sədrinin məni rəsmi səfərə dəvət etməsi buna sübutdur.

Bilirsiniz ki, Azərbaycanda xarici ölkələrin səfirlikləri o qədər də çox deyildir. Lakin Çin Azərbaycanda öz səfirliyini açmışdır. Deməli, Çinin Azərbaycana marağı böyükdür. Bu, bizim üçün faydalıdır. Çünki dünyanın siyasi və iqtisadi həyatında çox mühüm rol oynayan belə bir böyük dövlətlə mehriban münasibətlərimizin olmasının əhəmiyyəti var. Həm də ona görə ki, Çin BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən biridir.

Çində, xüsusən onun iqtisadiyyatında çox maraqlı proseslər gedir. Bir tərəfdən bu proseslərin, islahatların ölkəmizdən ötrü nə dərəcədə məqbul olduğunu bilməyimiz, digər tərəfdən isə müəssisələr, konsernlər, assosiasiyalar və sair arasında birbaşa əlaqələr yaratmağımız vacibdir. Bu mənada da Çinə səfərimizin böyük əhəmiyyəti var. Mən səfərdən ümumən tamamilə razı qayıdıram. Nəzərdə tutulmuş proqram bütünlüklə yerinə yetirilmişdir. Çində bizi yüksək səviyyədə, son dərəcə mehribanlıqla qarşıladılar. Biz hər yerdə Azərbaycana, Azərbaycan xalqına səmimi münasibət gördük. O cümlədən bizi narahat edən problemin - Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü probleminin başa düşüldüyünün şahidi olduq. Səfərimiz qısa olsa da, zənnimcə, ondan istifadə edərək bütün sahələrdə konkret, praktiki fayda əldə edə bildik.

Çin Xalq Respublikası sədrinin təklifi ilə Şanxayda olmağımız da bizdən ötrü çox maraqlı keçdi. Sərbəst iqtisadi zona bizdə böyük maraq doğurur. Bütünlükdə Çinin özü, həm də onun Şanxay kimi böyük bir şəhəri dünyanın bütün ölkələri ilə fəal əməkdaşlıq edir. Çinə böyük investisiyalar qoyulur, çoxlu birgə müəssisə var. Bizə bildirdilər ki, təkcə bu ilin iki ayı ərzində Şanxayda 200 birgə müəssisə yaradılmışdır. Bütün bunlar onu göstərir ki, Çin öz iqtisadiyyatında, xüsusən də qarşılıqlı iqtisadi əlaqələri genişləndirmək sahəsində müvəffəqiyyətlə iş

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

aparır və bundan kifayət qədər sanballı nəticələr əldə edir. Bu təcrübə ilə tanışlıq bizdən ötrü də əhəmiyyətlidir. Belə hesab edirəm ki, həmin təcrübə ilə daha yaxından tanış olmaq üçün Çinə öz nümayəndələrimizi göndərəcəyik. Özümüzlə materiallar da götürmüşük və bizdən ötrü məqbul olan şeylərdən istifadə edəcəyik..

Ümumən isə belə hesab edirəm ki, Çin Xalq Respublikasına səfərimiz böyük tarixi hadisədir. Çünki Çin ilə Azərbaycan arasında heç vaxt bu səviyyədə əlaqələr olmamışdır. Doğrudur, tarixən müəyyən əlaqələr, "Böyük ipək yolu" və s. olduğunu xatırlayırıq. İndi isə, təkrar edirəm, dövlətlərarası sıx münasibətlərin yaranması böyük siyasi hadisədir. İlk növbədə Azərbaycan Respublikası üçün böyük hadisədir.

Azərbaycanda da sərbəst iqtisadi zona barədə çox söhbətlər gedir. Lakin mən əmin oldum ki, bunu həyata keçirməyin prinsiplərini əslində bilən yoxdur. Çində isö iqtisadi sahədə belə bir siyasəti həyata keçirirlər. Çində, başqa ölkələrdə həyata keçirilən və praktiki nəticələr verən müxtəlif iqtisadi tədbirləri ölkəmizdə tətbiq etmək üçün geniş imkanlarımız və ehtiyatlarımız var.

Çinin iqtisadi modelindən Azərbaycanın nə götürə biləcəyinə gəldikdə, hələlik qəti bir söz deyə bilmərəm. Çünki onu təhlil etmək lazımdır. Hər halda dünyanın harasında bizdən ötrü faydalı bir şey varsa, ondan istifadə etməliyik. O ki qaldı Çinə səfərimizin siyasi nəticələrinə, Çin Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını müdafiə edir. Bunlar həm imzaladığımız bəyannamələ, həm də Çin Xalq Respublikası rəhbərlərinin bəyanatlarında öz əksini tapmışdır. Deməli, Çinin nümayəndələri beynəlxalq təşkilatlarda da öz fəaliyyətlərində bunu əsas tutacaqlar. Bunun özü beynəlxalq aləmdə bizim nailiyyətimiz deməkdir.

ALMATIDA N.NAZARBAYEVLƏ GÖRÜŞDƏ ÇIXIŞ

10 mart 1994-cü il

Əvvəlcə qeyd etmək istəyirəm ki, mən özüm Almatıda dayanmağı xüsusi olaraq planlaşdırdım ki, məhz Nursultan Abişoviçlə görüşə bilim. Başqa sözlə, söhbət təkcə texniki ehtiyacdan deyil, həm də mənim Nursultan Abişoviçlə görüşmək, danışmaq arzumdan gedir.

Biz onunla çoxdan dostuq. İndi, üzərimizə böyük məsuliyyət götürdüyümüz bir vaxtda, əsrlərlə dostluq etmiş xalqlarımızın taleyi üçün böyük məsuliyyət daşıdığımız bir vaxtda şübhəsiz ki, görüşməyimiz, fikir mübadiləsi aparmağımız tələb olunur. Buna görə də mən bu gün Nursultan Abişoviçlə məmnuniyyətlə görüşdüm. Biz dövlətlərarası münasibətlərimizin bir çox məsələləri-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

nə dair fikir mübadiləsi etdik. Nursultan Abişoviçin dediyi kimi, həqiqətən də onun Azərbaycana rəsmi səfəri gözlənilir. Həm Qazaxıstan, həm də Azərbaycan tərəfdən sənədlərin layihələri hazırlanmışdır. Zənnimcə, bu səfər təkcə iqtisadi sahədə deyil, bütün istiqamətlərdə ölkələrimiz arasında münasibətlərin daha müvəffəqiyyətlə inkişafı üçün yaxşı zəmin yaradacaqdır. Ona görə də ki görüşümüz zəruri idi. Görüşmək və bir çox məsələlər barədə danışmaq üçün imkan yarandığına görə Nursultan Abişoviçə minnətdaram.

Əlaqələrimizin perspektivinə gəldikdə isə, Qazaxıstan ilə Azərbaycan arasında daha müvəffəqiyyətlə əməkdaşlıq üçün çox böyük perspektivlər var. Nursultan Abişoviç bu sahələri qeyd etdiyinə görə mən bir daha sadalamaq istəmirəm. Çox böyük ehtiyatlar, imkanlar var. Belə hesab edirəm ki, biz bunları hərəkətə gətirə biləcəyik və bu, həm Qazaxıstan, həm də Azərbaycan üçün qarşılıqlı surətdə faydalı olacaqdır.

O ki qaldı MDB-də əməkdaşlığımıza, bildiyiniz kimi Azərbaycan bu birliyə yaxın vaxtlarda daxil olmuşdur, Qazaxıstan isə lap əvvəldən onun üzvüdür və bu sahədə təcrübəsi böyükdür. Biz hamımız çalışmalıyıq ki, MDB daha təsirli İttifaq olsun və həm öz məsələlərini, həm də respublikalarımız arasındakı məsələləri daha fəal surətdə həll etsin. Nursultan Abişoviç Ermənistanla Azərbaycan arasındakı münaqişə probleminə toxundu. Daha dəqiq desək, bu, Ermənistanın Azərbaycana qarşı təcavüzüdür. Bu, tamamilə qeyri-normal haldır ki, Müstəqil Dövlətlər Birliyinə daxil olan iki dövlət bir-biri ilə müharibə vəziyyətindədir.

Azərbaycan hərbi əməliyyatlara, münaqişəyə son qoyulmasına dair öz mövqeyində möhkəm dayanır. Lakin bir şərtlə: BMT Təhlükəsizlik Şurasının qətnamələri, ATƏM-in qərarları, beynəlxalq hüququn tələbləri əsasında Azərbaycanın ərazi bütövlüyü, onun sərhədlərinin toxunulmazlığı təmin edilməlidir. Zənnimcə, hərbi əməliyyatlara, müharibəyə son qoymaq üçün və regionumuzda həm Azərbaycanda, həm də Ermənistanda normal həyat üçün şərait yaratmaqdan ötrü hələ MDB-nin imkanları var.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ORUCLUQ BAYRAMI MÜNASİBƏTİLƏ XALQA TƏBRİK

Rəhmli, mərhəmətli Allahın adı ilə!

Müqəddəs kitabımız Qurani-Kərimin nazil edildiyi mübarək Ramazan ayını ləyaqətlə başa vurmuş bütün müsəlman qardaş və bacılarımızı Orucluq bayramı münasibətilə ürəkdən təbrik edirəm.

Respublikamızın müsəlmanları Ramazan ayı günlərində Allaha, Vətənə və xalqa sədaqət, sıx həmrəylik və möhkəm iradə nümayiş etdirmiş, imanlarının saflığını təkcə sözlə deyil, həm də əməllə sübut etmişlər. İndi bu bayram günündə hər bir müsəlmanın öz müqəddəs borcunu şərəflə yerinə yetirməkdən doğan rahatlıq, sevinc və fərəh hisslərini bildirməyə tam haqqı vardır.

Mən əminəm ki, bu müqəddəs Orucluq günlərindəki ibadətlərdə edilən dua və niyyətlərin böyük əksəriyyəti müstəqil Azərbaycanımızın çiçəklənməsi, torpaqlarımızda əminamanlığın bərqərar olması, xalqımızın xoşbəxt və firavan yaşaması arzuları ilə bağlı olmuşdur. Allahın köməyi ilə, xalqımın hikməti ilə həmin arzuların həyata keçəcəyinə tam inanıram.

Bu əziz bayram günündə müqəddəs şəhid ruhlarının narahat-narahat dolaşdığı Azərbaycanın hər bir övladına - dözümlü və mətanətli xalqıma cansağlığı, Orucluq bayramından doğan xoş əhval-ruhiyyə, əmin-amanlıq və xoşbəxtlik arzulayıram.

HEYDƏR ƏLİYEV

12 mart 1994-cü il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ORUCLUQ BAYRAMI GÜNÜ MÜQƏDDƏS YERLƏRƏ ZİYARƏT

14 mart 1994-cü il

İndi hər bir azərbaycanlının qəlbində bir niyyət var və bu amalla da müqəddəslərimizə üz tuturuq. Torpaqlarımızı erməni qəsbkarlarından azad etmək, ərazi bütövlüyümüzü və sərhədlərimizin toxunulmazlığını təmin etmək, respublikamızın tam müstəqilliyinə nail olmaq hamımızın ən ülvi istəyidir. Bu niyyətlə də müqəddəs Orucluq bayramında inanc yerlərimizi ziyarət edirik. Haqq işimizdə Allah köməyimiz olsun!

ŞÜVƏLANDA MİRMÖHSÜN AĞANIN QƏBRİNİ ZİYARƏT EDƏRKƏN JURNALİSTİN "BU BAYRAM GÜNÜNDƏ SİZ ÜRƏYİNİZDƏ HANSI NİYYƏTİ YAŞADIRSINIZ?" SUALINA CAVAB:

Bir vaxtlar niyyətim o olub ki, Azərbaycan Respublikası müstəqil dövlət olsun, xalqımız azadlığa çıxsın, istiqlal əldə edilsin. Allaha şükürlər olsun ki, biz artıq bu günlərə gəlib çıxmışıq. Respublikamız müstəqil dövlətdir, dünya tərəfindən tanınır. Xalqımız azaddır, özü öz taleyinin sahibidir, bundan sonra da azad olacaqdır. Mənə elə gəlir ki, bütün bunlar Vətənini, xalqını sevən hər bir vətənpərvər azərbaycanlının niyyəti olub. Uzun illər dövlət işləri ilə və siyasi fəaliyyətlə məşğul olduğum üçün bu fikirlər bəlkə də mənə daha doğma, daha əziz olub. Niyyətimizə çatmışıq.

ZİYARƏTGAHA TOPLAŞANLAR QARŞISINDA ÇIXIŞ

Əziz həmvətənlər, bu gün müsəlmanlar üçün xoşbəxt bir gündür, bayram günüdür. Ramazan ayı başa çatıb. Müsəlmanlar Allahın, Məhəmməd peyğəmbərin yolu ilə gedərək oruc tutublar. Bu bir ay müddətində dini ənənələrə görə hər bir müsəlman mənəviyyatca daha da paklaşır, təmizləşir, eyni zamanda öz torpağına, öz Vətəninə, öz xalqına, dininə daha da sədaqətlə xidmət edir, saf niyyətlə yaşayaraq ibadət edir, oruc saxlayır. Bir ay başa çatıb. İndi bunu bayram edirik. Bu bayram hər bir müsəlmanın, adət-ənənələrimizə riayət edən hər bir şəxsin qəlbində olan bayramdır. Güman edirəm ki, bu bayram gələcək günlərdə xalqımıza xoşbəxtlik gətirəcəkdir. Hər halda, niyyətimiz həmişə saf olub. Biz xalqımızı həmişə saflığa, paklığa dəvət etmişik, ona görə Al-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lah da bizə yar olacaq. Cənab Məhəmməd peyğəmbərin qoyduğu yol həmişə bizim üçün işıqlı olacaq və biz bütün bu qaranlıqlardan, çətinliklərdən çıxacağıq.

Burada çox arzular eşitdim ki, müharibə qurtarsın, əmin-amanlıq olsun. Bizim ən böyük arzumuz bundan ibarətdir. Müharibəni biz başlamamışıq. Torpağımıza yağılar tərəfindən təcavüz olub. Bu müharibə torpaqlarımız azad olunanadək gedəcək. Çünki hər bir insan üçün torpaq, Vətən ülvidir, hər bir şeydən ucadır, üstündür. Yaşayırıq ona görə ki, torpağımıza, dinimizə, milli ənənələrimizə sadiq olaq. Bu yolda hamımız bir olmalıyıq, hamımız da bir olacağıq. Şəhidlər vermişik, Allahın əmri ilə onların hamısı cənnətdədir. O şəhidlərin hamısı xalqımızın qəlbindədir. Onları heç vaxt unutmayacağıq. Bugünkü arzumuz müharibəni qurtarmaq, xalqımızı əminamanlığa çıxarmaq, xoşbəxt gələcəyə aparmaqdır. Əmin ola bilərsiniz ki, bir prezident kimi mən bu yolla gedirəm və bu yolla gedəcəyəm. Bu müqəddəs bayramı sizinlə bir yerdə keçirməyimdən çox məmnunam. Bu müqəddəs amallar bizim hamımızı xoşbəxt gələcəyə aparacaqdır. (Yerdən səslər: Allahtəala sizi bizə çox görməsin. Bu müqəddəs gün sizi hifz eyləsin".)

NARDARAN PİRİNİ ZİYARƏT ETDİKDƏN SONRA ZİYARƏTGAHA TOPLAŞANLAR QARŞISINDA ÇIXIŞ

Bir prezident kimi arzu edirəm ki, xalqımız daim firavan, azad yaşasın. Lakin təəssüf edirəm ki, azadlığa keçid dövründə respublikamızda cürbəcür əcaib hallar da meydana çıxır. Bəziləri azadlığı hərc-mərclik kimi başa düşür. Bu isə çox vaxt qanunların pozulmasına, cinayətkarlığın artmasına, insanların əxlaqının pozulmasına, gənclərin pis yola düşməsinə gətirib çıxarır ki, bu da bizi ciddi narahat edir. Bunlar hamısı qanunlara, milli-dini ənənələrə zidd olan hallardır. Ona görə də hərə öz məsuliyyətini dərk etməlidir. Xalqımız milli azadlığa çıxıb, dövlətimiz artıq müstəqildir, heç kəsdən asılı deyil. Deməli, biz öz evimizi necə istəsək, elə də quracağıq. "Ev" deyəndə, mən Azərbaycanı nəzərdə tuturam. Yaxşı çalışsaq, bu evi işıqlı quracağıq. Əgər biganə qalsaq, bəzi hallarda pozğunluğa yol versək bu binanı yaxşı tikə bilməyəcəyik. Gəlin hamımız əl-ələ verərək müstəqil Azərbaycanın, böyük Azərbaycan xalqının binasını, möhtəşəm binanı birlikdə gözəl tikək.

Əziz gənclər, biz müstəqil dövlət kimi torpaqlarımızın hər bir qarışına sahib olmalı, işğal olunmuş ərazilərimizi geri qaytarmalıyıq. Hər bir gənc, hər bir vətəndaş bu yolda fədakarlıq göstərməlidir. Mən sizi - gəncləri bu yola dəvət edirəm. Sizi Azərbaycanın müstəqilliyini qorumağa, torpaqlarımızın azad edilməsi uğrunda mübarizəyə hazır olmağa çağırıram. Arzu edirəm ki, gələn Ramazan bayramını qələbədən sonra qeyd edək ("Amin inşallah").

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ XALQA MÜRAÇİƏT

20 mart 1994-cü il

Hörmətli həmvətənlər, bacılar və qardaşlar!

Bu əziz bayram axşamı sizi, bütün Azərbaycan xalqını, respublikamızın bütün vətəndaşlarını milli bayramımız - Novruz bayramı münasibətilə təbrik edirəm! Novruz bayramı həm də təbiətin bayramı, Bahar bayramıdır. Bir neçə saatdan sonra il təhvil olacaq, yeni il başlanacaq, gecə ilə gündüz bərabərləşəcək, təbiətdə, dünya həyatında əlamətdar hadisələrin şahidi olacağıq.

Azərbaycan xalqı milli azadlığa nail olmuşdur. Azərbaycan müstəqil dövlətdir, dünya birliyi tərəfindən tanınmış və bu birlikdə layiqli yerini tutmuşdur. Qədimdən bəri qeyd etdiyimiz Novruz bayramı Azərbaycan Respublikasının dövlət bayramıdır. Lakin biz bu il də Novruz bayramını ağır və çətin şəraitdə keçiririk. Respublikamız erməni silahlı qüvvələrinin təcavüzünə məruz qalmış, təcavüz nəticəsində ərazimizin bir qismi işğal olunmuş və bir milyondan artıq vətəndaş isə elindən, obasından didərgin düşmüşdür, qaçqın vəziyyətindədir.

Xalqımız öz Vətənini, torpağını qorumaq üçün hazırda qanlı döyüşlər aparır. Müharibə davam edir. Neçə-neçə qəhrəman döyüşçülərimiz, qeyrətli oğullarımız bu döyüşlərdə torpağımızı, Vətənimizi müdafiə edərək şəhid olmuşlar. Bu bayram axşamında mən şəhid olmuş övladlarımızı yad edir və onların ruhu qarşısında baş əyirəm. Mən xalqımızı əmin edirəm ki, şəhidlərin xatirəsi qəlbimizdə daim yaşayacaqdır. Vətən bu fədakarlığı heç vaxt unutmayacaqdır!

Dünən Bakıda faciəli hadisə baş vermişdir. Bakı Metropoliteninin "20 yanvar" stansiyasında partlayış nəticəsində bir vaqon sıradan çıxmış, sərnişinlərin bir qismi həlak olmuş və yaralanmışdır. Bu, əlbəttə, böyük faciədir. İndi mən həlak olanların ailələrinə başsağlığı verirəm, onlara xalqımızın ümumi kədərini bildirirəm.

Bəli, biz bu əziz bayramı ağır şəraitdə keçiririk. Vətənimizin müdafiəsi uğrunda döyüşlər davam edir. Qəhrəman Azərbaycan Ordusunun hissələri erməni silahlı qüvvələrinin hücumlarına layiqli cavab verir, elimizin, yurdumuzun müdafiəsində etibarlı dayanır və yüksək rəşadət göstərirlər. Bu müharibə Vətən müharibəsidir! Xalqımız Vətənini, torpağını müdafiə etmək üçün ayağa qalxmışdır! İlk addımlarını atan gənc Azərbaycan Ordusu odlu cəbhələrdə döyüş qabiliyyətini gündən-günə artırır. Mən Novruz bayramı münasibətilə Azərbaycan Ordusunun bütün əsgər və zabitlərini təbrik edirəm. Onlar cəbhədə, səngərlərdə öz sinəsini, qeyrətini, cəsarətini düşmənlərimizə qarşı sipər etmişlər. Mən qəhrəman Azərbaycan övladlarını təbrik edirəm! Ordumuza, cəbhə-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

də vuruşan bütün döyüşçülərimizə Vətənimizin, torpaqlarımızın müdafiəsində yeni-yeni zəfərlər diləyirəm.

Bu müharibə altı ildir ki, davam edir. Azərbaycan xalqı şəhidlər vermişdir, itkilərimiz olmuşdur. Bütün şəhid ailələri, bütün Azərbaycan xalqı Novruz bayramını eyni zamanda qara bayram kimi qeyd edirlər. Mən şəhidlərimizin ailələrinə öz dərin hörmət və ehtiramımı bildirirəm. Lakin nə qədər kədərli olsaq da, bu əziz bayram bizi nikbinliyə dəvət edir. Mən bütün şəhid ailələrinə bayram təbrikimi çatdırır və onları əmin edirəm ki, Azərbaycan dövlətinin onlara olan qayğısı və diqqəti heç vaxt tükənməyəcəkdir!

Bu müharibə Azərbaycan xalqına böyük bəlalar gətirmişdir. Bir milyondan artıq vətəndaşımız qaçqın düşərək ağır şəraitdə yaşayır. Onların vəziyyəti bizim hamımızı incidir, narahat edir. Ancaq xalqımız dözümlü xalqdır, o, tarixən belə əzab-əziyyətlərə çox dözmüş, tab gətirmiş, amma gələcəyə həmişə böyük ümidlə baxmışdır. Mən el-obasından, ev-eşiyindən didərgin düşərək qaçqın vəziyyətində yaşayan vətəndaşlarımızın hamısına öz bayram təbrikimi yetirirəm!

Əziz bacı və qardaşlar! Sizi ürəkdən təbrik edirəm, hamınıza daha da dözümlü, dəyanətli olmağı arzulayıram! Əmin olun ki, yaman günün ömrü az olur. Biz bu ağır günlərdən çıxacağıq və siz öz evinizə, doğma torpağınıza qayıdacaqsınız!

Müharibədə vuruşan qəhrəman, cəsur Azərbaycan övladlarını boya-başa çatdıran bütün analar, qadınlar cəmiyyətimizdə xüsusi yer tuturlar. Təsadüfi deyil ki, biz Vətənə də Ana Vətən deyirik, torpağa da. Ana hər bir insan üçün müqəddəsdir. Azərbaycan xalqının ən böyük sərvəti ondan ibarətdir ki, o, əsrlər boyu qəhrəman, cəfakeş, dözümlü analar yetirmişdir. Bu qəhrəman analar cəbhələrə cəsur oğullar göndərmiş, şəhidlər vermiş, əzab-əziyyət çəkmiş və cəmiyyətimizin ağırlığının çox hissəsini həmişə öz üzərinə götürmüşlər. Mən qadınları Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm. Əziz analar! Qadınlar! Sizə bayram əhval-ruhiyyəsi və xoşbəxt günlər arzulayıram.

Azərbaycan müstəqil dövlətdir. Dünyanın başqa ölkələrində çoxlu soydaşımız yaşayır. Ölkəmizin hüdudlarından kənarda yaşayan bütün azərbaycanlıları Novruz bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, onlara Azərbaycan torpağından hərarətli salamlar göndərir və səadət, xoşbəxtlik arzulayıram. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bütün dünya azərbaycanlıları mənəvi baxımdan daim Azərbaycan Respublikasının bugünkü həyatı ilə yaşayırlar. Onlar da Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi, bu ağır vəziyyətdən çıxmağımız üçün əllərindən gələni əsirgəməyəcəklər.

Müstəqil Azərbaycanımız ilk addımlarını atır. Xalqımız milli azadlığa qovuşmuşdur. Ancaq müstəqillik, milli azadlıq yolu uzun bir yoldur. Qarşıda hələ çox çətinliklər var. Həm daxildən, həm də xaricdən müstəqilliyimizin dönməzliyinə, əbədiliyinə mane olmaq istəyənlər var. Ancaq mən bu gün, bayram axşamında xalqımızı bir daha əmin etmək istəyirəm ki, biz müstəqil-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lik yolu ilə gedəcəyik və bu yoldan dönməyəcəyik! Xalqımız bir daha heç vaxt öz milli azadlığından məhrum olmayacaqdır!

İndi həyatımızda böyük problemlər var. Bu problemlərdən ən böyüyü müharibə vəziyyətindən çıxmaq, Azərbaycan Respublikasının ərazi bütövlüyünü təmin etmək, xalqımız üçün sülh, əmin-amanlıq şəraiti yaratmaq, müstəqilliyimizi, milli azadlığımızın bəhrələrindən hər bir vətəndaşın istifadə etməsinə imkan yaratmaqdır. Biz bunları ali məqsədlərimiz sayır və həmin məqsəd naminə çalışırıq. Bundan sonra da öz səyimizi, əzmimizi əsirgəməyəcəyik. Bu məsələlərdə siyasətimiz məlumdur. Biz müharibənin sona çatmasına, sülh yaranmasına çalışırıq. Biz Azərbaycanın başına gəlmiş bu bəlaya sülh yolu ilə son qoymağa çalışırıq. Bu sahədəki təşəbbüslərimiz artıq bütün dünyaya məlumdur. Biz bu xətti davam etdirəcəyik. Lakin şərtimiz də məlumdur: Ermənistanla Azərbaycan arasında müharibəni sona çatdırmaq üçün erməni silahlı qüvvələri işğal etdikləri ərazilərdən çəkilməli, Azərbaycan Respublikasının torpaqları erməni silahlı qüvvələrindən təmizlənməli, Azərbaycanın ərazi bütövlüyü təmin olunmalıdır!

Biz yalnız bu prinsiplər əsasında sülh danışıqları aparırıq və onları davam etdirəcəyik. Həmin danışıqlar Azərbaycan Respublikasının müstəqilliyinin qorunması və ərazi bütövlüyünün toxunulmazlığı prinsipləri əsasında aparılacaqdır. Güman edirəm ki, bu səylərimiz öz nəticəsini verməlidir. Beynəlxalq təşkilatların, vasitəçilik etmək istəyən böyük dövlətlərin fəaliyyəti bizdən ötrü çox əhəmiyyətlidir. Biz bütün bu vasitələrdən problemi həll etmək, sülh yolu ilə müharibəyə son qoymaq üçün istifadə etməyə çalışırıq və çalışacağıq. Eyni zamanda Azərbaycan Respublikasının silahlı qüvvələri torpaqlarımızın keşiyində daha etibarlı dayanmışlar. Xalqımız əmin ola bilər ki, biz bundan soira da Azərbaycan Ordusunu möhkəmləndirmək üçün səylərimizi artıracağıq. Qəhrəman ordumuz Azərbaycan Respublikasının müstəqilliyinin təminatçısı olmuşdur və gələcəkdə də olacaqdır!

Müharibə böyük faciələrə gətirib çıxarmışdır. Biz müharibə istəmirik, onu biz başlamamışıq. Müharibəni bizim torpaqlarımızı ələ keçirmək istəyən qəsbkarlar başlamışlar. Ancaq biz ədalətli müharibə aparırıq! Torpaqlarımızı müdafiə edirik! Haqq-ədalət bizim tərəfimizdədir! Ona görə də mən bu gün bir daha bəyan edirəm: əgər bizim sülhsevər təşəbbüslərimiz, addımlarımız, təkliflərimiz öz nəticəsini verməsə, Azərbaycan xalqı, Azərbaycan Ordusu öz torpaqlarını qorumağa, respublikamızın ərazi bütövlüyünü təmin etməyə qadirdir! Biz istədiyimizə nail olacağıq!

Xalqımız əmin olmalıdır ki, Azərbaycan Respublikası bu ağır şəraitdən çıxacaq, torpaqlarımız geri qaytarılacaq, müstəqil Azərbaycan Resiublikası dünya birliyində bundan sonra da layiqli yerini tutacaq və öz taleyinin sahibi olacaqdır. Buna heç kəs mane ola bilməz, əgər kimsə mane olmaq istəyərsə, biz onun qarşısını almağa qadirik!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bütün bu məqsədlərin naminə respublikamızın həm iqtisadi, həm hərbi, həm də mənəvi potensialından daha səmərəli istifadə olunmalıdır. Biz bu sahədə çalışırıq, Azərbaycanın bütün vətəndaşlarını bu yolda birgə olmağa çağırırıq. Biz Vətən müharibəsi aparırıq! Vətən müharibəsinə isə hamı qoşulmalıdır. Vətən müharibəsi bütün xalqın, hər bir vətəndaşın öz şərəf və namusunu qorumaq üçün aparılan müharibədir! Ona görə də bu bayram axşamı vətəndaşlarımızın hamısını birliyə, həmrəyliyə dəvət edirəm. Bu, müstəqil Azərbaycanımız üçün çox lazımlı şərtdir.

Cinayətkarlar daha məkrli əməllərə əl atmaqdadırlar. Dediyim kimi, dünən Bakı metropolitenində partlayış baş vermişdir. Bu məsələ araşdırılır. Şübhəsiz ki, cinayəti törədənlər tapılacaq, cəzalandırılacaqlar. Ancaq cinayət törədilmiş, adamlar həlak olmuş, zərər çəkmişlər. Partlayış nəticəsində həlak olanlardan biri də Azərbaycan xalqının dəyərli oğlu, böyük sənətkar, musiqiçi, bəstəkar, xalq artisti Rafiq Babayevdir. Görəsən, partlayıcı qurğunu vaqona qoyanlar, bu cinayəti təşkil edənlər düşünürlərmi ki, bununla insanlara, cəmiyyətimizə nə qədər ağır zərbə vururlar?! Daxili sabitliyimizi pozmağa çalışanlar, cinayət yoluna düşən ayrı-ayrı adamlar, qanunsuz silah saxlayaraq bunlardan cinayətkarlıq məqsədi ilə istifadə edənlər xalqımızın ağır günündə ona, cəmiyyətə necə ağır zərbə vurduqlarını düşünürlərmi? Bu məsələlər barədə düşünmək lazımdır.

Mən öz şəxsi mənafələri, məqsədləri naminə insanları yoldan çıxaran ayrı-ayrı qruplara, qüvvələrə bir daha bildirmək istəyirəm ki, bu cəhdlərin heç biri Azərbaycanda uğur qazana bilməz! Doğrudur, onlar müəyyən zərbə vura, çətinliklər törədə bilərlər. Ancaq Azərbaycan Respublikasının bugünkü dövlət quruculuğuna toxuna bilməzlər. Bunu başa düşməlidirlər. Ona görə də bir daha qeyd edirəm, əziz bayram axşamında bu sözlər, ola bilər, daha təsirli olsun. Mən xalqımıza, cəmiyyətimizin bütün təbəqələrinə müraciət edirəm: Bu ağır dövrdə respublikamızı, Azərbaycan xalqını əzab-əziyyətdən, bəlalardan xilas etmək üçün birləşmək, bir yolla - haqq, ədalət yolu ilə getmək lazımdır! Əsas məqsədlərə, xalqımız üçün ali məqsədlərə nail olmaqdan ötrü hamı əl-ələ verməlidir!

Mən güman edirəm ki, əziz Novruz bayramı, onun gözəl əhval-ruhiyyəsi adamlarımızla dostluq, mehribanlıq, vətənpərvərlik hisslərini daha da artıracaq, gücləndirəcəkdir! Doğma respublikamızın ki ağır vəziyyətdən çıxması üçün hər bir vətəndaş öz səyini əsirgəməməlidir.

Azərbaycan Respublikasının bütün vətəndaşlarını Novruz bayramı münasibətilə bir daha təbrik edirəm. Əziz bacı və qardaşlar! Sizin hər birinizə xoşbəxtlik, səadət arzulayır, həyatınızda, işinizdə uğurlar diləyirəm! Bayramınız mübarək! Xoşbəxt olun, gələcəyiniz daha da işıqlı olsun!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

PREZİDENT SARAYINDA PAMBIQÇILIQLA MÖVCUD VƏZİYYƏT VƏ SƏPİN KAMPANİYASINA HAZIRLIQLA ƏLAQƏDAR PROBLEMLƏRİN HƏLLİ YOLLARINA HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ YEKUN ÇIXIŞI

30 mart 1994-cü il

Bugünkü müşavirənin çağırılması respublika kənd təsərrüfatının əsas sahələrindən biri olan pambıqçılıqda bu il görüləcək işlərin araşdırılması və eyni zamanda lazımi tədbirlərin həyata keçirilməsi ilə əlaqədardır. Bu ayın əvvəlində biz kənd təsərrüfatına aid geniş müşavirə keçirmişik. Güman edirəm ki, həmin müşavirə bir tərəfdən iqtisadiyyatımızın mühüm sahəsi olan kənd təsərrüfatına böyük qayğı və diqqət yetirildiyini nümayiş etdirdi, ikinci tərəfdən isə həm respublika səviyyəsində, həm də yerlərdə kənd təsərrüfatı ilə məşğul olan rəhbər orqanların, vəzifəli şəxslərin məsuliyyətini artırdı. Zənnimcə, həmin müşavirədə nəzərdə tutulan tədbirlər həyata keçirilir və keçirilməlidir. Kənd təsərrüfatı daimi diqqət tələb edir və biz bu sahə ilə bağlı olan problemlərin müzakirəsi üçün gələcəkdə də vaxtaşırı görüşəcəyik.

Qeyd etdiyim kimi, pambıqçılıq kənd təsərrüfatının mühüm sahəsi olduğuna, edəcə də respublikamızın İqtisadiyyatında böyük rol oynadığına görə belə bir müşavirənin keçirilməsini lazım bildim. İndi iqtisadiyyat ağır vəziyyətdədir, uzun müddətdir ki, dərin böhran içərisindəyik və hələlik ondan çıxmaq imkanları çox azdır. Kənd təsərrüfatında, ümumiyyətlə, iqtisadiyyatımızda bu böhranın səbəbləri çoxdur. Biri də olur ki, biz əvvəlki iqtisadi sistemdən, iqtisadiyyatın təşkili və idarə edilməsi ilə bağlı köhnə prinsiplərdən yenisinə keçirik. Bu keçid dövrü uzanmış, həmin mərhələdə lazımi tədbirlərin görülməsi ləngimiş və köhnə sistem üzrə aparılan işlərin səviyyəsi də aşağı düşmüşdür. Səmərə verə biləcək yeni sistem isə hələ yaranmamışdır. Bu, kənd təsərrüfatında da özünü göstərir.

Uzun illər kənd təsərrüfatı istehsalının bazası kolxoz və sovxozlar olmuşdur. İstehsalın təşkilinin bu formalarının səmərəsizliyi barədə son illər çox danışıqlar, müzakirələr getmişdir. Bazar iqtisadiyyatına, sərbəst iqtisadiyyata keçilməsi ilə kənddə, kənd təsərrüfatı istehsalı formalarında da dəyişikliklər meydana gəlmişdir. Ancaq təəssüf ki, bu sahədə də məsələlər çox uzanmış, tədbirlər çox ləng görülmüşdür. Bütün bunlar isə kənd təsərrüfatı istehsalının azalmasına gətirib çıxarmışdır. Lakin səbəb təkcə bu deyildir. Nizam-intizamın pozulması, dağıdıcı proseslərin çox geniş yayılması, İqtisadiyyata münasibətin zəifləməsi, cürbəcür mənfi meyllərin ortaya çıxmasına xüsusən müharibə şəraiti iqtisadiyyatın son dərəcə tənəz-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

zülə uğramasına səbəb olmuşdur və bu, kənd təsərrüfatında da öz əksini tapmışdır.

Lakin bütün bunlar o demək deyildir ki, iqtisadi potensialımız azalmışdır, vəziyyətlə razılaşmalı və işləri başlı-başına buraxmalıyıq. Xeyr. Dəfələrlə demişik və bir daha təkrar edirəm ki, Azərbaycan bazar İqtisadiyyatı yolu ilə gedəcək, təşəbbüskarlığa yol veriləcəkdir. Bununla əlaqədar iqtisadi islahatlar keçirilməkdədir və mütləq keçiriləcəkdir.

Bütün bunlar kənd təsərrüfatına da aiddir. Təəssüf ki, dediklərimiz hələlik çox ləng həyata keçirilir. İqtisadiyyatla məşğul olan müvafiq nazirliklər, orqanlar, təşkilatlar bu sahədə konkret təkliflər irəli sürmür, yaxud da onların hazırlanmasını ləngidirlər.

Bazar iqtisadiyyatı bizim strateji yolumuzdur, biz həmin yolla gedəcəyik. Ancaq bu o demək deyildir ki, mövcud iqtisadiyyat dağıdılmalı və yenisi qurulmalıdır. Xeyr. Keçid dövrünün vəzifəsi mövcud olan iqtisadiyyatı əldə saxlamaq və sərbəst iqtisadiyyat prinsipləri əsasında yeni iqtisadi sistem qurmaqdır ki, həmin sistem bizə daha artıq səmərə versin. Bu, sənayedə də, kənd təsərrüfatında da, bir sözlə, iqtisadiyyatın bütün sahələrində olmalıdır.

İndi biz bütün çatışmazlıqları, nöqsanları və kənd təsərrüfatı istehsalının bu dərəcədə aşağı düşməsini gördüyümüz bir halda, deyin görək, yeni sistemə necə keçəcəyik? Axı bütün bunlarla yeni sistemə keçmək çətindir. Odur ki, bu çətinliklərə, ağır problemlərə baxmayaraq, biz bütün İqtisadiyyatda olduğu kimi, kənd təsərrüfatının da mövcud imkanlarından, potensial imkanlarından səmərəli istifadə etməliyik və başlanmış cari kənd təsərrüfatı ilində bol məhsul yetişdirməliyik. Bunun üçün var qüvvə ilə çalışmalıyıq. Eyni zamanda İqtisadiyyatla islahatları həyata keçirməliyik. Azərbaycanda kənd təsərrüfatı elə böyük potensiala malikdir ki, biz ki çətin şəraitdə ondan bacarıqla və səmərəli şəkildə istifadə etsək, şübhəsiz, yüksək nəticələrə nail olarıq.

Elə pambıqçılıq sahəsində də imkanlarımız böyükdür. Son illərdə pambıq istehsalının azalması bütün bu səbəblərlə yanaşı, həm də sahəyə münasibətin pisləşməsi ilə bağlıdır. Sahəyə münasibət heç də son bir-iki ildə deyil, bir neçə il bundan qabaq pisləşibdir. Bəziləri, o cümlədən də ictimaiyyətin bəzi nümayəndələri illərlə sübut etməyə çalışdılar ki, guya pambıqçılıq Azərbaycan üçün faydalı deyildir. Digərləri isə pambıqçılığın zərərli olmasından dəm vururdular.

Xatırlatmaq yerinə düşər ki, Azərbaycanda 70-ci illərdə, 80-ci illərin sonuna qədər ildə orta hesabla 800 min ton pambıq istehsal edilirdi, Sahmanlanmış, yoluna qoyulmuş sahəni dağıdasan, bərbad hala salasan, sonra da gətirib 280 min ton səviyyəsinə endirəsən və axırda da başa düşəsən ki, necə böyük səhv buraxılmışdır buna nə ad vermək olar? Bu, şübhəsiz, xalqa xəyanətdir.

İndi görürəm hamı, xüsusən də Azərbaycan iqtisadiyyatının, kənd təsərrüfatının mühüm sahəsi olan pambıqçılıq haqqında müəyyən konyunktur məqsədlərlə bəd fikirlər söyləyən, pambıqçı-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lığın əleyhinə çıxan, bu sahəyə qərəzli münasibət bəsləyən dairələr artıq başa düşüblər ki, pambıqçılıq Azərbaycan Respublikası üçün faydalı sahədir və bu sahə yaşamalı, inkişaf etməlidir. Məhz pambıqçılıq sayəsində biz həm kənddə yaşayan əhalimizin vəziyyətini yaxşılaşdırar, həm də ümumən iqtisadiyyatımızın yüksəlişini təmin edə bilərik.

Yadımdadır, o vaxtlar, xüsusən yenidənqurma dövründə hərə ağlına gələn və mahiyyətinə varmadığı bir fikir söyləyərək ictimai rəy yaratmağa çalışırdı. Deyirdilər ki, Azərbaycanda bir belə pambıq nəyə gərəkdir, bu qədər pambıq nə üçün istehsal edilirdi. İndi özünüz təsəvvür edin, müstəqilliyə çıxdığımız hazırkı dövrdə, xarici bazarda pambıq çox yüksək qiymətə getdiyi bir vaxtda əgər biz keçən il 800 min ton demirəm, heç olmasa təxminən 600 min ton pambıq istehsal etsəydik, bu, iqtisadiyyatımıza nə qədər böyük mənfəət gətirərdi! Odur ki, nə iqtisadiyyatdan, nə kənd təsərrüfatından, nə də pambıqçılıqdan başı çıxan, lakin bu sahələr barəsində ortaya cürbəcür fikirlər atıb, ictimaiyyəti çaşdıran, ayrı-ayrı adamlarda yanlış fikir yaratmağa can atan həmin adamlar qoy bir oturub fikirləşsinlər.

O vaxtlar hədə belə bir fikir də vardı ki, "Ağ qızıl" adlandırılan pambıq guya İttifaq üçün, mərkəz, sovet hökuməti üçün lazımdır. Yox, bilmək lazımdır ki, pambıq ən əvvəl Azərbaycan üçün gərəkdir. Özü də təkcə bu gün yox, gələcəkdə də, həmişə lazım olacaqdır. Azərbaycan kəndlisi pambıqçılıqla bir il, on il, bir əsr yox, əsrlər boyu, hədə qədimlərdən məşğul olubdur. Mənim yadımdadır, 1974-cü ildə Azərbaycanda pambıqçıların qurultayının keçirilməsinə hazırlıq görülərkən bir çox arxiv materialları ilə tanış oldum. O vaxtlar arxivdə tapılan materiallar göstərdi ki, hələ XIX əsrin əvvəllərinlə Azərbaycanda pambıq əkilib-becərilirdi. Başqa bir rəsmi sənəddə isə 30-cu illərdə Azərbaycanın hansı bölgələrində pambıqçılığın inkişaf etdirildiyindən danışılırdı. Yəqin, bəzi adamların yadında olar, həmin qurultayda mən dedim ki, Qafqaz pambıqçılarının ilk qurultayı 1905-ci ildə Azərbaycanın Ağdaş şəhərində keçirilmişdir. Demək istəyirəm ki, bu, heç də quruluşdan asılı deyildir. İstər sosialist, istər kommunist, istərsə də kapitalist quruluşu olsun, fərqi yoxdur. Pambıq çox mənfəətli bitkidir və o, hər yerdə bitmir. Onun əkilib-becərilməsi üçün xüsusi iqlim, torpaq şəraiti lazımdır. Azərbaycan isə pambıq istehsalı üçün həm iqlim, həm də torpaq şəraiti baxımından əlverişli bir məkandır. Buna görə də ulu babalarımız da pambıqçılıqla məşğul olublar.

Zənnimcə, bu söz-söhbətlər artıq arxada qalmışdır və hamı başa düşür ki, pambıq istehsalı Azərbaycan üçün lazımdır. Mən bir məsələni də qeyd etmək istəyirəm. Azərbaycanda istehsal olunan kənd təsərrüfatı məhsulları arasında pambıq xarici bazarda, yəni valyuta əldə etmək imkanı verən dünya bazarında ən yüksək qiymətə gedən məhsuldur. Ona bərabər tutulası heç bir kənd təsərrüfatı məhsulumuz yoxdur. Keçən il istehsal edilmiş pambığın satışından gözlədiyimiz valyuta Azərbaycan iqtisadiyyatı üçün böyük əhəmiyyətə malikdir. Bunların hamısını ona görə deyirəm ki, pambıq hər bir kəndli üçün, hər bir kənd, rayon üçün, bü-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

tövlükdə respublikanın iqtisadiyyatı üçün gərəkli və mənfəətlidir. Buna görə də pambıqçılığa xüsusi fikir verməliyik, onunla ciddi məşğul olmalıyıq. Çünki pambıqçılıq müstəqil Azərbaycan üçün çox böyük gəlir mənbəyidir, istər iqtisadiyyatı qaldırmaq, istərsə də xalqın rifahını yüksəltmək üçün olduqca geniş imkanlar açır.

Bütün bunları nəzərə alaraq cari ildə pambığın əkilib-becərilməsi, məhsulun yığılıb təhvil verilməsi barədə rəy və təkliflərinizi dinləməyi lazım bildim. Məncə, burada edilən məruzə və çıxışlar onu göstərir ki, ötən illərdə kənd təsərrüfatına, xüsusən pambıqçılıq sahəsinə böyük zərbələr vurulmasına baxmayaraq, bu il bizim yenə də yüksək məhsul istehsal etmək imkanımız vardır.

Natiqlər qeyd etdilər ki, 220 min hektar sahədə pambıq əkmək nəzərdə tutulmuşdur. Əlbəttə ki, bu, əvvəlki illərə nisbətən azdır. Vaxtilə 260-270, hətta il vardı, 290 min hektar sahədə pambıq əkilirdi. Dediyim kimi, 220 min hektar əvvəlki illərə nisbətən azdır. Lakin bu qədər sahəyə yaxşı çiyid səpilsə, xeyli məhsul götürülə bilər. Burada çıxış edənlər dedilər ki, Aqcabədidə məhsuldarlıq hər hektarda 7 sentner olub. Mən çox təəccüblənirəm. Bir deyin görək heç elə bir vaxt olubmu ki, Ağcabədidə hər hektardan vur-tut 7 sentner məhsul götürülsün, yaxud Bərdədə hektardan cəmi 10 sentner məhsul yığılsın? Bu, biabırçılıqdır, hətta dəhşətdir. İndi görün, bir vaxtlar hər hektardan 20-25, hətta 30 sentner məhsul verən torpaqlarımız nə vəziyyətə salınıb ki, vur-tut 7-10 sentner məhsul verir. Halbuki torpaq da həmin torpaqdır, hava da həmin havadır, su da həmin sudur. Bəs nə olmuşdur? Hektarın məhsuldarlığının 7-10 sentner səviyyəsinə düşməsi, ən əvvəl kəndlinin, təsərrüfatın, rayonun cibnidən gedibdir. Deməli, birinci növbədə, torpaqda işləyən adama ziyan dəyibdir. Bütün bunlar artıq olub-bitmiş işlərlir. Nə isə, keçənə güzəşt deyərlər. Lakin 220 min hektar da az sahə deyildir. Bir şərtlə ki, əkin sahələri yaxşı hazırlansın, səpin yüksək səviyyədə keçirilsin. Bunların böyük əhəmiyyəti var.

Təsadüfi deyildir ki, kənd təsərrüfatı naziri çıxış edərkən mən soruşdum ki, hansı reproduksiyalarla hansı növlərdən pambıq əkiləcəkdir. Bunu bilmək lazımdır. Yəqin ki, pambıqçılıqla məşğul olan hər bir kəs bunu bilir. Odur ki, nazir də bilməlidir, onun müavinləri lə. Çünki məhsulun əsası, bünövrəsi məhz burada qoyulur. Yenə də deyirəm, əgər torpaq yaxşı hazırlanıbsa, yəni vaxtında şumlanıbsa, lazımi aqrotexniki tədbirlər görülübsə, suvarılmalı olan yerlər suvarılıbsa, bol məhsul gözləmək olar. Əlbəttə, çiyidin keyfiyyəti və onun vaxtında səpilməsi də vacib şərtlərdəndir. Bu aqrotexniki proseslər pambıqçılıqla məşğul olan adamlara məlumdur. Demək, yaxşı pambıq əldə etmək üçün çiyidin keyfiyyətini bilmək lazımdır.

Bərdə rayon icra hakimiyyətinin başçısı burada çıxış edərkən dedi ki, biz gedib oradan-buradan çiyid tapıb çıxarır, öyrənmək istəyirik ki, görək toxumluq üçün hansı yaxşıdır. Əlbəttə ki, bu yaramaz. Çünki toxum əvvəldən seçilir, əvvəldən hazırlanır. Pambıqçılıqla məşğul olanlar bilirlər, mənim də yadım-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dan çıxmayıb ki, toxumçuluq ayrı bir sahədir, toxumluq üçün pambıqçılıq ayrı sahədir. Elə mən də nazirdən reproduksiya məsələsini təsadüfən soruşmadım. Pambıqçılıq sahəsindən götürülən çiyid xüsusi olaraq hazırlanır, lazımi texnoloji prosesdən keçir və sonra növləri, reproduksiyaları müəyyənləşdirilir. Mısal üçün, biz vaxtilə məsələ qoymuşduq ki, üçüncü reproduksiya çiyid səpilməsin, yalnız birinci, o çatışmadıqda ikinci reproduksiya olsun. Özü də istər birinci, istərsə də ikinci reproduksiya pambıq tədarük edildikdən sonra, toxumun hazırlanması prosesində gedən texnoloji tədbirlər nəticəsində olmalıdır. Həmin proseslərə nəzarət edilməyibsə, bunlarla Kənd Təsərrüfatı Nazirliyi, əlaqədar idarələr, mütəxəssislər, rayon, təsərrüfat rəhbərləri məşğul olmayıblarsa, bu o deməkdirmi ki, gedib harada əlinə keçdi, oradan çiyid gətirəsən? Bu, yaramaz, çəkilən zəhmət hədər gedər, heç bir nəticə əldə edilməz.

Odur ki, indiyədək nə etmisinizsə, artıq edibsiniz. Lakin mən sizdən, rayon, təsərrüfat başçılarından, Kənd Təsərrüfatı Nazirliyinin rəhbərliyindən və onun müvafiq idarələrindən tələb edirəm ki, bu məsələlərlə daha ciddi məşğul olsunlar. Toxumların keyfiyyətini yoxlayın, daha keyfiyyətli və bol məhsul verə bilən toxumlar tapıb gətirməyə çalışın. Ona da çalışın ki, sahələrə maksimum miqdarda toxum çatdırılsın və ancaq keyfiyyətli çiyid səpilsin. Bundan çox şey asılıdır.

Daha bir mühüm məsələ - səpinin vaxtında keçirilməsidir. Bundan da çox şey asılıdır. Aprel ayı Azərbaycanda adətən mürəkkəb ay olur, havalar bəzən də pis keçir. Düzü, mən dəqiq bilmirəm, burada çıxış edənlər də dedilər - yaz rayonlara, xüsusən pambıqçılıq rayonlarına tezmi, gecmi gəlib (yerdən səs: gec gəlib). Gecikirsə, deməli pambıq səpini də gecikəcəkdir. Əkin-biçinlə məşğul olanlar bilirlər ki, səpinə yaz gecikəndə nə vaxt başlamaq olar, tez gələndə nə vaxt. Onu da bilirlər ki, səpin elə eyni bir rayonun ərazisində də eyni vaxtda keçirilmir. Ola bilsin ki, səpinə rayonun bir təsərrüfatında tez başlasınlar, o birisində gec. Bunu özünüz müəyyənləşdirməlisiniz. Bu, sizin öz işinizdir.

Ancaq mənim sizə tövsiyəm ondan ibarətdir ki, səpin vaxtını düzgün müəyyən edəsiniz. O mənada ki, çiyidi nə vaxtından qabaq səpmək olar, nə də sonra. Səpin vaxtını düzgün müəyyən etdikdə, səpini qısa müddətdə və keyfiyyətlə aparanda gələcək yüksək məhsulun əsası qoyulmuş olur. Unutmayın ki, səpin texnologiyasının da böyük əhəmiyyəti var. Ona görə də xahiş etdim ki, müşavirəni bu gün çağırsınlar. Əlbəttə, vaxtımız olsaydı, onu bir neçə gün bundan əvvəl keçirsəydik, daha da yaxşı olardı. Amma vaxt olmadı. İndidə vəziyyət gərgindir. Proqramım çox gərgindir. Amma buna baxmayaraq, bayaq dediyim kimi, xahiş etdim ki, müşavirə məhz bu gün keçirilsin. Çünki əvvəlki təcrübəmdən bilirəm ki, aprelin elə ilk günlərindən pambıq səpininə başlamaq lazımdır. Heç olmasa, qoy bundan sonra qalan günlər ərzində həm camaat daha da səfərbər olsun, həm də indiyədək görülməmiş işlər başa çatdırılsın, səpin vaxtında, keyfiyyətlə aparılsın ki, yaxşı məhsulun bünövrəsini qoymağa macal tapaq.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gələcək aqrotexniki tədbirlər, proseslər sizə məlumdur. Odur ki bu barədə tövsiyələr vermək fikrində deyiləm, çünki bu, sizin öz işinizdir, mütəxəssislərin işidir. Amma keçmiş təcrübədən onu da bilirəm ki, çiyid səpmək, pambıq becərmək, payızda yüksək məhsul almaq çox gərgin iş, əmək tələb edir. Böyük səliqə, işə ciddi münasibət tələb edir. Çox ciddi münasibət. Yenə də öz keçmiş təcrübəm sayəsində bu bitkiyə yaxşı bələdəm. Bilirəm ki, bir mərhələdə vaxt ötürülsə, səhv buraxılsa, yaxud hər hansı bir aqrotexniki tədbir düzgün həyata keçirilməsə, onda əvvəlki bütün işlər bada gedəsidir. Bunları da bilirəm, neçə illərin təcrübəsindən görmüşəm.

İqtisadiyyatımız ağır vəziyyətdədir. Bilirəm ki, kənd əhalisinin gün-güzəranı ağırdır. İyirmi rayonun iqtisadiyyatının əsas hissəsi pambıq istehsalından asılıdır və asılı olacaqdır. Ümumiyyətlə, gələcək nambıq məhsulu iqtisadiyyatımıza böyük təsir göstərəcəkdir. Bunları nəzərə alaraq, pambıq səpini başlandığına görə, hamınızdan xahiş edirəm ki, bu işlərə çox ciddi yanaşın, hər bir aqrotexniki tədbirin vaxtını yerli şəraitə uyğun olaraq düzgün müəyyənləşdirin, səpini ləngitməyin, keyfiyyətlə aparın. Çalışın ki, bu il yüksək məhsul götürülməsinə nail olasınız.

Burada çıxış edənlərdən bir neçəsi məsələlər, problemlər qaldırdı. Bunlar əsaslı məsələlər və problemlərdir. Sizə düzünü deyim ki, müstəqil bir dövlət kimi yaşamağımızın, şübhəsiz, ən müsbət cəhəti ondan ibarətdir ki, biz azadıq, öz taleyimizin sahibiyik. Amma bununla bərabər, 70 il müddətində iqtisadiyyatda yaranan əlaqələr qırılıbdır. Məsələn, burada ayrı-ayrı ləvazimatdan, texnikadan, onların təmirindən söhbət getdi, digər məsələlərə toxunuldu. Bunların əksəriyyəti bizim respublikada istehsal edilmir. Vaxtilə heç kəs bilmirdi ki, bunları haradan alır, haradan gətirirlər. Ümumittifaq dövləti vardı, vaxtında tələbnamələr göndərildikdə hər şey alırdıq. Heç haqq-hesabını da bilmirdik. Çünki qiymətlər müəyyən edilmişdi, lazımi texnika və texniki vasitələr gətirilir, rayonlara və təsərrüfatlara verilirdi. İndi bütün bunlar daha yoxdur.

Odur ki, bu problemləri qaldırarkən hər biriniz bilməlisiniz ki, texnika və texniki vasitələrlə təchizat üçün əvvəlki imkanlar yoxdur. Ona görə də yerlərdə olan imkanlardan, o cümlədən nazirliyin öz imkanlarından maksimum dərəcədə səmərəli istifadə etmək gərəkdir ki, ümumən kənd təsərrüfatı və xüsusən pambıq istehsalı lazımi səviyyələ getsin.

Bununla yanaşı, demək istəyirəm ki, bu problemlərin bir neçəsi həll edilə bilər və həll edilməlidir. Ona görə də həm Kənd Təsərrüfatı Nazirliyinə, həm iqtisadiyyat Nazirliyinə, həm Maliyyə Nazirliyinə, banklara, həm də digər əlaqədar nazirliklərə və baş idarələrə, ən əvvəl Nazirlər Kabinetinə tapşırıram ki, onlar bu problemlərin həll edilməsi üçün lazımi tədbirlər görsünlər. Həmin tədbirləri də görə bilərlər. Mən sadəcə olaraq dedim biləsiniz ki, keçmiş dövrdəki imkanlar daha yoxdur. Lakin nə lazımdırsa, onu başqa bölgələrdən, yəni başqa ölkələrdən alıb gətirməklə bu məsələlərin çoxunu həll etmək olar. Güman edirəm ki,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nazirlər Kabineti, nazirliklər bu işlə ciddi məşğul olacaq və qaldırılmış məsələləri imkan daxilində həll edəcəklər.

Burada elektrik enerjisi məsələsi, su təchizatı, nasosların işləməsi məsələləri qaldırıldı. Bunlar mühüm məsələlərdir. Həm İmanov, həm də Əhmədzadə öz sahələrindəki vəziyyət barədə məlumat verməklə yanaşı, bilməlidirlər ki, bu çətinliklər bütün sahələrdə var. Ona görə də onlar mövcud imkanlardan səmərəli istifadə edərək məsələləri həll etməlidirlər. Maliyyə məsələlərinə gəldikdə isə, güman edirəm ki, Nazirlər Kabineti bunu nəzərdən keçirər və həllinə yol tapa bilər. Bütünlükdə kənd təsərrüfatında, o cümlədən pambıqçılıqda səpin zamanı və sonra aqrotexniki tədbirlər həyata keçirilərkən həm Meliorasiya və Su Təsərrüfatı Komitəsi, həm də Azərenerji Dövlət Şirkəti lazımi tədbirlər görməli və bundan ötrü yerlərdə müvafiq şərait yaratmalıdırlar. Ancaq bununla yanaşı, bir daha təkrar edirəm, hər bir təsərrüfat öz daxili imkanlarından istifadə etməlidir.

Çıxış edənlər nizam-intizam məsələsindən də danışdılar. Doğrudur, son illərdə istehsalın azalması və ümumiyyətlə, cəmiyyətimizdə bəzi mənfi halların meydana çıxması nizam-intizamın pozulması ilə, qanuna zidd cürbəcür proseslərlə əlaqədardır. Aydındır ki, biz başqa sosial-siyasi mühitdə yaşayırıq. Artıq keçmiş siyasi sistem yoxdur, ona qayıtmağa ehtiyac da yoxdur. Heç kim hesab etməsin ki, biz bəzi tədbirlər görərkən keçmiş siyasi sistemə qayıtmaq fikrindəyik. Bu, belə deyil. Azərbaycan müstəqil dövlətdir və dediyim kimi, biz öz həyatımızı və işimizi milli ənənələrimiz, mənəviyyatımız əsasında qurmalıyıq. İdeologiyamız buna əsaslanmalıdır. Dövlətimiz demokratik hüquqi dövlət olmalıdır. Azərbaycanda demokratiya bundan sonra da inkişaf etməlidir.

Bunlar bizim əsas prinsiplərimizdir və ondan geriyə çəkilməyəcəyik. Ancaq bununla yanaşı, son illərdə respublikamızın həyatında baş vermiş həddindən artıq mənfi hallara qarşı, nizam-intizamı, qayda-qanunu pozanlara qarşı amansız mübarizə aparmalı, həm İqtisadiyyatda, həm də sosial-ictimai sahədə, bir sözlə, hər yerdə hamının qayda-qanuna əməl etməsini tələb etməliyik.

Bu baxımdan əgər istehsalda nizam-intizam, tələbkarlıq olsa, hər kəs öz işinə görə cavabdeh olsa, məsuliyyət daşİsa, şübhəsiz ki, belə ağır vəziyyətə düşmərik. Ona görə də burada nizam-intizamla bağlı qaldırılan təkliflər tamamilə düzgündür. Biz bütün sahələrdə qayda-qanunun möhkəmlənməsinə nail olmalıyıq. Nizam-intizamı, qayda-qanunu pozan şəxslərə qarşı ciddi tədbirlər görülməlidir. Hamımız bilməliyik ki, demokratik hüquqi dövlət, cəmiyyət eyni zamanda intizam, hörmət və ehtiram, dövlətin qanunlarına lazımınca əməl olunmasını tələb edir. Ona görə də kənd təsərrüfatında işimizi lazımınca qurmaq üçün rayonların icra başçıları, digər vəzifəli şəxslər bu istiqamətdə fəaliyyət göstərməlidirlər.

Nizam-intizamdan, qayda-qanundan danışarkən son illərdə respublikamızda xüsusilə geniş yayılmış halın - dövlət, xalq malını dağıtmaq meyllərinin, rüşvətxorluğun qarşısını almaq lazımdır. Rüşvətxorluqdan danışanlar çoxdur. Ancaq bəzən on-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ların özləri də rüşvət almaqla məşğul olurlar. Bu, cəmiyyətimiz üçün, yeni yaranan müstəqil Azərbaycan dövləti üçün çox böyük bəladır. Bazar İqtisadiyyatı, sərbəst İqtisadiyyat şübhəsiz ki, insanlara təşəbbüskarlıq göstərmək imkanı verir, hər bir kəsin var-dövlətə malik olmasına təminat yaradır. Lakin bütün bunlar oğurluq, əyrilik, fırıldaq, başqasının, dövlətin, xalqın malını oğurlamaq yolu ilə deyil, qanun çərçivəsində, doğru-düzgün yolla, ədalət yolu ilə olmalıdır. Təəssüf ki, ki mürəkkəb dövrdə bəzi adamlar, qruplar fürsətdən istifadə edərək dövlətin də, xalqın da malını oğurlamış, cürbəcür qanunsuz hərəkətlərlə sərvət toplamışlar və özlərini xalqın, cəmiyyətin yeni bir təbəqəsi sayırlar. Mən yenə də deyirəm: Biz sərbəst İqtisadiyyat yolu ilə gedərkən onun nəticələrini bilirik və bu da təbiidir. Ancaq gərək heç kəsə imkan yaranmasın ki, o, rüşvətxorluq, əli-əyrilik, fırıldaq, dövlətin, xalqın malını oğurlamaq, mənimsəmək yolu ilə özünə sərvət toplasın. Bunların qarşısı alınmalıdır.

Respublika əhalisinin əksəriyyəti kasıb vəziyyətdə yaşayır. Ölkəmizdə bir milyondan artıq qaçqın var. Onların hamısını təmin etmək dövlət üçün çox çətindir, çünki İqtisadiyyatımız ağır vəziyyətdədir. Belə bir vəziyyətdə bəziləri dövlətin, xalqın malını oğurlayanda gərək bilsinlər ki, qaçqının, kasıbın, şəhid ailəsinin boğazından kəsirlər. Onların oğurladıqları sümük kimi öz boğazlarında qalmalıdır.

Bunları ona görə böyük həyəcan hissi ilə deyirəm ki, əhalimizin əksəriyyətinin vəziyyətini bilirəm. Respublikamızın belə ağır vəziyyətində bəzi adamların vəzifəsindən sui-istifadə etməsi, cürbəcür çirkin yollarla özlərinə sərvət toplaması cəmiyyət tərəfindən, xalq tərəfindən qəbul olunmaz və belələri, şübhəsiz ki, gec-tez cəzalandırılacaqlar.

Mən sizin hamınızı bu problemlərin həll olunmasına dəvət edirəm. Gərək hamımız dərk edək ki, müstəqillik qazanmışıq, xalqımız azaddır, öz taleyini həll etmək imkanı var, Azərbaycan müstəqil dövlət kimi yaşamalı və inkişaf etməlidir. Bunun üçün hər bir kəsdə vətəndaşlıq hissi, Vətənin taleyi ilə yaşamaq hissi yüksək səviyyədə olmalıdır.

Fürsətdən istifadə edərək bir məsələyə də toxunmaq istəyirəm. Respublikamız müharibə şəraitindədir. Dəfələrlə demişəm və bu gün də qeyd etmək istəyirəm ki, biz çox sülhsevər addımlar atırıq, təşəbbüslər etmişik, təkliflər vermişik. Ancaq Ermənistan silahlı qüvvələri zorla öz məqsədlərinə nail olmaq istəyir. Biz də öz tədbirlərimizi görürük. Bu gün müşavirəyə də ona görə bir qədər gecikdim ki, zabitlərlə, hərbi işə rəhbərlik edən adamlarla bəzi mühüm məsələləri müzakirə edirdim. Biz hər gün bununla məşğul oluruq. Ona görə yox ki, müharibə istəyirik. Ona görə ki, Vətənimizi, torpağımızı müdafiə etmək istəyirik, sülh, danışıqlar yolu ilə ölkəmizi bu bəlalardan xilas etmək istəyirik. Bundan ötrü həm beynəlxalq təşkilatların, həm də ayrı-ayrı dövlətlərin imkanlarından istifadə edirik, Ermənistan Respublikaeının rəhbərləri ilə danışıqlar aparırıq. Lakin hələlik məsələnin sülh yolu ilə həllinə nail olmamışıq. Ermənistan tərəfi, görünür, öz iddialarını həyata keçirmək üçün cürbəcür yollara

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

əl atır. Ona görə də müharibə davam edir. Torpaqlarımızın etibarlı müdafiəsi bir nömrəli problem olaraq qalır. Biz bununla məşğul oluruq, siz də məşğul olmalısınız. Hərə öz yerində, öz rayonunda, öz evində özünü müharibə vəziyyətində hiss etməlidir, müharibə şəraitində yaşamalıdır. Hər kəs hər gün düşünməlidir ki, qələbə üçün, torpaqlarımızın azad edilməsi, Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunması üçün nə edir. Bu sualı hər gün özümüzə verməliyik. Əgər belə olmasa, qələbə qazana bilməyəcəyik. Lakin güman edirəm ki, belə olacaq və qalib gələcəyik.

Bu sahədə rayonların imkanları böyükdür. Mən istərdim ki, hərbi hissələrə daha yaxından yardım edəsiniz. Cəbhə bölgələrində olan rayonların rəhbərlərindən bir daha tələb edirəm ki, bu məsələlərlə ciddi məşğul olsunlar. Silahlı Qüvvələrimizə, orduda xidmət edən əsgər və zabitlərimizə xüsusi diqqət və qayğı ilə yanaşmalıyıq. Bütün ölkələrdə belədir. Ordu xalqın xüsusi qayğısı ilə yaşamalıdır. Torpaqlarımızı müdafiə edən Azərbaycan Milli Ordusunun buna xüsusi ehtiyacı var. Xahiş edirəm, əməli fəaliyyətinizdə bunu daim yadda saxlayasınız.

Hər bir rayonda, şəhərdə gənclər orduya çağırılır. Bu da təbiidir. Hələ keçmişdə, sülh dövründə ildə iki dəfə orduya çağırış keçirilirdi. Xatirimdədir, həmin dövrdə sovet ordusuna Azərbaycandan hər il təxminən 60 min gənc hərbi xidmətə çağırılırdı. isə respublikanın bəzi rayonlarında orduya çağırış işi çox zəif gedir. Rayon və şəhərlərin icra başçılarından bu məsələ ilə ciddi məşğul olmağı tələb edirəm. Siz bundan ötrü şəxsən məsuliyyət daşıyırsınız. Çünki ordumuz döyüşür, həlak olanlar, yaralananlar var. Onları əvəz etmək, ehtiyat yaratmaq lazımdır. Bunlar bu günün və gələcəyin ən ümdə məsələsidir. Ancaq mənə məlumat veriblər ki, hərbi xidmətə çağırış elan olunmasına baxmayaraq, bəzi rayon və şəhərlərdə bu iş lazımi səviyyədə getmir. Ayrı-ayrı adamlar rüşvət verərək orduda xidmət etməkdən boyun qaçırırlar. Belə gənclərə və onların valideynlərinə ar olsun. Əgər bu torpaqda yaşayan adam öz Vətəninin müdafiəsindən boyun qaçırırsa, onun burada yaşamağa haqqı yoxdur. Ona görə də sizdən bir daha tələb edirəm ki, bu işlərlə ciddi məşğul olun.

Keçən ilin noyabrında mənim xalqa müraciətimdən sonra vaxtilə fərarilik edənlərin əksəriyyəti orduya qayıtdı. Onların bir çoxu döyüşlərdə iştirak etdi, bəziləri şəhid oldu. Allah onlara rəhmət etsin. Fərarilərin yenidən cəbhəyə getməsi çox müsbət proses idi. Lakin son vaxtlar yenə də fərarilərin sayının artması barədə məlumatlar gəlir. Buna necə dözmək olar? Bunun üçün sizin də hər biriniz məsuliyyət daşıyır. Fərari hərbi hissəni tərk edib gedirsə, əlbəttə, onun komandiri günahkardır. Lakin axı həmin fərari haradasa bir kənddə, rayonda, şəhərdə yaşayır. Siz belələrini görürsünüz. Fərariliklə mübarizə aparılmalı, onun qarşısı alınmalıdır. Bunu sizə bir vəzifə kimi tapşırıram.

Fürsətdən istifadə edərək bildirirəm ki, fərarilər başa düşsünlər - onlar öz mənliklərini alçaldırlar, Vətən qarşı-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sında şərəfli borclarını yerinə yetirməkdən boyun qaçırırlar. Belələrini Vətən də, xalq da heç vaxt bağışlamaz. Dövlət də bağışlamayacaqdır. Ona görə də mən bu yolu tutan şəxslərə, onların valideynlərinə müraciət edirəm: bu əməldən çəkinsinlər, öz vətəndaşlıq məsuliyyətini dərk etsinlər. Ordumuzun qüdrətinin artması, düşmənin qarşısında layiqincə dayana bilməsi üçün hərə öz köməyini göstərsin.

Bununla yanaşı, qeyd etmək istəyirəm ki, Azərbaycan Ordusunun hərbi hissələri cəbhə bölgələrində torpaqlarımızı müdafiə edirlər. Onlar mənə müntəzəm raport verirlər ki, torpaqlarımızı etibarlı şəkildə qoruyacaqlar və düşmənin hücumlarını dəf etməyə qadirdirlər.

Mən qeyd etdim ki, iqtisadiyyatdakı ağır vəziyyət əhalinin yaşayış səviyyəsini aşağı salmışdır. Biz bunları bilirik. Vəziyyəti yaxşılaşdırmaq üçün lazımi tədbirlər görülür və bundan sonra da görüləcəkdir. Ancaq bir şey də məlumdur ki, xalqımız dözümlüdür, respublikamızın müharibə şəraitində olduğunu başa düşür. Bilir ki, hamımızın ən böyük məqsədi müharibə şəraitindən çıxmaq, işğal olunmuş torpaqlarımızı geri qaytarmaqdır. Ona görə də xalq hər bir əzab-əziyyətə dözür. Azərbaycan xalqı dözümlü olduğunu əsrlər boyu nümayiş etdirmişdir və biz də bunun şahidiyik. Mən xalqın dözümünə ehtiramımı bu gün bir daha bildirirəm və onu əmin etmək istəyirəm ki, ağır vəziyyətdən, müharibə şəraitindən çıxmaq, iqtisadiyyatı qaldırmaq, adamların yaşayışını müəyyən qədər yaxşılaşdırmaq üçün lazımi tədbirlər görülür və görüləcəkdir.

Şübhəsiz ki, belə bir şəraitdə ictimaiyyət arasında, daxili həyatda sabitlik çox böyük əhəmiyyət kəsb edir. Güman edirəm ki, vətəndaşlarımızın hamısı bir fikirdədir. Həyatımızdakı bütün çətinliklərin qarşısını almaq üçün milli həmrəylik, vətəndaş həmrəyliyi lazımdır, ictimai-siyasi sabitliyi qoruyub saxlamaq lazımdır. Buna mane olmaq üçün bəzi yerlərdə müəyyən cəhdlər göstərməyə çalışırlar. Lakin onları xəbərdar etmək istəyirəm ki, buna heç vaxt nail ola bilməyəcəklər. Xalq ağı qaradan seçməyi, Yaxşını pisdən ayırmağı öyrənmişdir. Onu cürbəcür təxribatçı hərəkətlərlə yoldan çıxarmağa heç kəs cəhd göstərməsin. Çünki bunlar heç vaxt bir nəticə verə bilməz.

Yenə də deyirəm, biz cəmiyyətimizdə demokratik prinsiplərin bərqərar olmasını təmin edirik və edəcəyik, eyni zamanda dövlətin qanunlarının qorunması keşiyində durmuşuq və duracağıq. Demokratiya hərc-mərclik, özbaşınalıq deyil, əksinə, qayda-qanunun daha etibarlı qorunması, ona hamının əməl etməsi deməkdir. "Üman edirəm ki, rayonların, nazirliklərin, təsərrüfatların buraya toplaşmış rəhbərləri bu sahədə də fəaliyyətlərini gücləndirəcəklər. Çıxış edənlər də bu məsələlərə toxundular. Zənnim-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

cə, hamı öz vəzifəsini bilir və layiqincə yerinə yetirəcəkdir. Bir sözlə, qarşımızda böyük və çətin problemlər var. Bunların həll olunması üçün hər kəs öz sahəsində məsuliyyətlə çalışmalı və əlindən gələni etməlidir.

Güman edirəm ki, bugünkü müşavirəmiz bu sahədə görüləcək işlər barədə sizə lazımi yol göstərir və hamımız bu yolla gedəcəyik. Arzu edərdim ki, bugünkü söhbətlərimiz həm pambıqçılıqda, həm də kənd təsərrüfatının başqa sahələrində, ümumiyyətlə, iqtisadiyyatda ciddi dönüş yaratmaq üçün müəyyən əsas olsun. Bu vəzifələrin yerinə yetirilməsində hamınıza müvəffəqiyyətlər arzulayır və əmin olduğumu bildirmək istəyirəm ki, Azərbaycan xalqı bundan sonra daha da birləşəcək, öz qüdrətini göstərəcək və xalqımızın bütün təbəqələrinin birgə fəaliyyəti nəticəsində ölkəmiz bu ağır vəziyyətdən çıxacaqdır.

Sağ olun, sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

RESPUBLİKANIN CƏNUB-QƏRB BÖLGƏSİNƏ SƏFƏR ZAMANI GÖRÜŞLƏR

9 aprel 1994-cü il

FÜZULİ RAYONUNDA DÖYÜŞÇÜLƏR QARŞISINDA ÇIXIŞ

Əziz əsgərlər, zabitlər. Mən bu gün sizin vəziyyətinizlə tanış olmağa, səngərlərə baxmağa, döyüş imkanlarınızın səviyyəsini yoxlamağa gəlmişəm. Hamımızın borcu olur ki, torpaqlarımızı etibarlı qoruyaq. Təxminən son 4-5 ayda ordu hissələrimizin xeyli müvəffəqiyyətləri olub. Mən noyabr ayında Azərbaycan xalqına müraciət etdim. O vaxt erməni silahlı qüvvələrinin hücum əməliyyatları günü-gündən genişlənirdi, ərazilərimiz işğal olunurdu və düşmənin qarşısını almaq lazım idi. Azərbaycan vətəndaşları, gənclər bu çağırışa səs verdilər, Vətənin müdafiəsinə qalxdılar. mən burada həmin adamların bir neçəsi ilə də görüşdüm. Bütün bunlar onu göstərir ki, gənclərimiz öz torpaqlarını qorumağa qadirdilər. Bunu sübut edən bir də olur ki, mənim keçən səfərimdən sonra torpaqlarımızın bir qismi azad edilib, düşmən təxminən 40 kilometr geri oturdulub.

Mən dəfələrlə demişəm. Azərbaycan müharibə etmək istəmir, bu müharibəni Azərbaycan başlamayıb. Biz müharibənin sülhlə başa çatmasına tərəfdarıq. Lakin Ermənistan tərəfi bizim bu sülh təşəbbüslərimizə məhəl qoymur, hətta özü verdiyi vədə əməl etmir. Bu da onu göstərir ki, biz gərək heç kimə arxayın olmayaq, öz torpaqlarımızı özümüz müdafiə edək, ərazilərimizi işğalçılardan təmizləyək. Mən inanıram ki, biz ordumuzun gücü ilə torpaqlarımızı azad edəcəyik...

Siz özünüz də görürsünüz ki, orada müəyyən sənəd imzalandıqdan sonra Ermənistan silahlı qüvvələri öz çirkin əməllərindən əl çəkməyərək martın əvvəllərində yenidən hücuma keçmiş, lakin bu həmlələrin qarşısı alınmışdır. Həmin hücumların dəf olunmasında siz də iştirak etmisiniz, onların hərbi texnikasını, silahını, sursatını, həm də xeyli canlı qüvvəsini məhv etmisiniz.

Siz burada şərəflə, namusla xidmət edirsiniz. Qoy fərarilik edənlər eşitsinlər ki, torpağımızı qorumaq hər bir azərbaycanlının şərəfli borcudur. Əgər bəziləri bunu anlamırlarsa, qorxurlarsa, hərbi xidmətə tab gətirə bilmirlərsə, onlar öz vicdanları, ata-anaları, Vətən qarşısında xəyanət edirlər. Onların hər biri ciddi cəza alacaqdır. Heç kim fikirləşməsin ki, fərarilik edib kənarda yaşaya bilər...

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xalqın bir hissəsi olan ordunun qayğılarının həllinə hər cür kömək göstəriləcəkdir.

Əziz döyüşçülər, bizim yeganə yolumuz odur ki, səngərlərdə möhkəm dayanaraq torpaqlarımızı müdafiə edək, düşmənin hər bir hücumuna layiqli cavab verək.

Əziz əsgərlər və zabitlər, siz bir neçə ay bundan qabaq düşməndən azad olunmuş Azərbaycan torpağında dayanmısınız. Ordumuzun rəşadəti nəticəsində Füzuli rayonu ərazisinin bir hissəsi düşməndən azad olunmuşdur və bu işdə sizin də böyük xidmətiniz var. Keçən ilin noyabr ayından sonra Azərbaycan Ordusu öz gücünü toplaya bildi. Son vaxtlar ordu quruculuğu sahəsində böyük işlər görülmüşdür, bunları yüksək qiymətləndirirəm və əmin olduğumu bildirirəm ki, döyüşçülərimiz Vətən torpağının müdafiəsində bundan sonra da uğurlar qazanacaqlar.

Mən torpaqlarımızın azad edilməsi uğrunda döyüşlərdə həlak olmuş şəhidlərin ruhu qarşısında baş əyirəm və əmin edirəm ki, şəhidlərin qəhrəmanlığı və rəşadəti heç vaxt unudulmayacaq, onların xidmətləri xalqın qəlbində daim yaşayacaqdır. Allah onlara rəhmət eləsin! Onlar sizin döyüş yoldaşlarınızdır və torpaqlarımız uğrunda şəhid olublar. Onların qanı yerdə qalmayacaq. O döyüşlərdə yaralananlar da olub, müalicədədirlər. Arzu edirəm ki, onlar tezliklə sağalıb ordu sıralarına dönsünlər, yenə də qəhrəmanlıq göstərsinlər. Ümidvaram ki, bu belə də olacaq.

Siz öz ata-analarınızın, yurdunuzun, torpağınızın namusunu, şərəfini qorumaq üçün müdafiədə durmusunuz. Güman edirəm ki, bizim bu ədalətli mübarizəmiz nəticə verəcək, gün o gün olacaq ki, Azərbaycan torpaqlarının hamısı azad olacaq, hər bir vətəndaşımız öz evinə, obasına qayıdacaqdır. burada, sizin qarşınızda çıxış etdiyim bu yerdən bir kilometr o tərəfdə erməni silahlı qüvvələri dayanıblar. Sizə deyirəm, qoy erməni işğalçıları da eşitsinlər - biz sülh tərəfdarıyıq, müharibəyə son qoymaq istəyirik. Bütün vasitələrdən istifadə edib, danışıqlar apararaq atəşi kəsib müharibənin qurtarmasını istəyirik. Ancaq bunun bir şərti var: erməni işğalçı qüvvələri Azərbaycan torpaqlarını tərk etməli və Azərbaycanın ərazi bütövlüyü təmin olunmalıdır. Biz danışıqları da bu şərt əsasında aparırıq.

Qoy Ermənistan silahlı qüvvələri də bilsinlər ki, daha əvvəlki vaxt deyil. Onlar gəlib bizim ərazilərimizi asanlıqla işğal edə bilməzlər. Ancaq bu o demək deyil ki, biz hər şeyə nail olmuşuq. Xeyr. Qarşımızda çox böyük vəzifələr var. Yenə də deyirəm, vəzifə odur ki, işğal olunmuş torpaqlarımız azad edilsin, qaçqın düşmüş Azərbaycan vətəndaşları elinə-obasına qayıtsınlar...

Mən sizin iradənizə inanıram və əmin olduğumu bildirirəm ki, bu səngərlərdə möhkəm dayanacaq, düşmənin qarşısını alacaqsınız. Bunun üçün ordu quruculuğu məsələlərinə xüsusi diqqət yetirməli, zabitlərimiz öz hərbi bilik səviyyəsini artırmalı, əsgərlərimiz döyüş təliminin incəliklərini dərindən mənimsəməlidirlər. Hamı hər bir əsgər, zabit öz yerində, öz sahəsində vəzifəsini şərəflə, namusla yerinə yetirməyə hazır olmalıdır...

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ordumuzun son aylardakı nailiyyətləri göstərir ki, bizim böyük imkanlarımız var. Eyni zamanda ordunun bəzi hissələrində fərarilərin sayı artıb. Bu, dözülməz haldır. Hər bir fərari ictimaiyyətdə, cəmiyyətdə nifrətlə qarşılanmalıdır, bilməlidir ki, əgər fərarilik edirsə, xalqına, millətinə, ölkəsinə, öz doğma atasına-anasına xəyanət edir. Biz lazımi tədbirlər görəcəyik. Fərarilik edən gəncləri bir də düşünməyə dəvət edirəm. Onlara ordu sıralarına qayıtmağı təklif edirəm. Eyni zamanda müvafiq orqanlara əmr vermişəm ki, bu barədə lazımi ölçülər götürsünlər. Sizin burada erməni işğalçıları ilə qısa məsafədə üzbəüz durmağınız hər bir azərbaycanlı gənc üçün nümunə olmalıdır və siz nümunəsiniz. Siz ağır şəraitdə yaşasanız da, mərdsiniz, qoçaqsınız, mətanətlisiniz. Bütün Azərbaycan gəncləri məhz belə olmalıdırlar. Bizim xalqımız əsrlər boyu belə mərd, cəngavər övladlar yetirib, onlar da Azərbaycanı əsrlərdən bəri qoruyub saxlayıb, gətirib müstəqil dövlətə çeviriblər. Sizin mətanətiniz və rəşadətinizlə torpaqlarımızı azad edib, müstəqil Azərbaycanın ərazi bütövlüyünə nail olacağıq.

Hər bir əsgər ailəsinə xüsusi qayğı göstərilməlidir. Amma müharibə apardığımız Ermənistanla müqayisə etsək, bizdə onlara nisbətən vəziyyət xeyli yaxşıdır. Onlar o ağır vəziyyətdə yaşaya-yaşaya gəlib bizim torpaqlarda müharibə aparırlar, ərazilərimizi işğal edirlər. Siz də fikirləşin, görək, bu fərariliyin qarşısını necə alaq?

Mənə məlumat veriblər ki, siz burada möhkəm dayanmısınız, xeyli ərazini düşməndən azad etmisiniz. Ancaq bizim torpaqlarımızın xeyli hissəsi hələ işğal altındadır. Bax, elə lap yaxınlıqdakı kəndlər də düşmənin əlindədir. Bunları geri almaq lazımdır. Belə hesab edirəm ki, yerinizdə möhkəm durmaqla yanaşı, Gücünüzü toplayıb düşmənə layiqli cavab verməlisiniz.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BEYLƏQAN RAYONUNDA İCTİMAİYYƏTİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ VƏ HƏRBÇİLƏRİN MÜŞAVİRƏSİNDƏ ÇIXIŞLAR

Əziz həmvətənlər, siz buraya mənim gəlişim münasibətilə toplaşmısınız. Yəqin mənimlə görüşmək, öz sözlərinizi demək istəyirsiniz. Eyni zamanda bunu belə başa düşürəm ki, mənə öz münasibətinizi bildirmək niyyətindəsiniz. Sizi ürəkdən salamlayıram, buraya toplaşdığınıza görə hamınıza təşəkkür edir, hər birinizə cansağlığı, xoşbəxtlik arzulayıram. Bu gəlişimdən əsas, birinci məqsəd bölgədə vəziyyəti öyrənmək, burada yaşayan qaçqınlarla görüşmək, onların şəraiti ilə yaxından tanış olmaqdır. Azərbaycan torpaqlarını müdafiə edən ordumuzun dayandığı yerlərdə işlərlə də tanış olmaq və ordunun qayğıları ilə məşğul olmaq fikrindəyəm. Respublikamız öz tarixinin çox ağır bir dövrünü yaşayır. Bir tərəfdən iqtisadi böhran, iqtisadi çətinliklər, digər tərəfdən isə bizim üçün ən ağır cəhət respublikamızın müharibə şəraitində olması, torpaqlarımızın bir qisminin işğal edilməsidir. Ona görə də orduya qayğı, hörmət, onun bütün problemlərini vaxtında həll etmək, eyni zamanda, ordunun daxilində quruculuq işini, nizam-intizamı möhkəmləndirmək hamımızın və xüsusən dövlətin, o cümlədən bir prezident kimi mənim əsas borcum və əsas vəzifəmdir. Mən bu gün səhər bölgədəki hərbi hissələrə getmişəm, səngərlərdə əsgər və zabitlərimizlə görüşmüşəm, vəziyyətlə tanış olmuşam.

İndi sizin Beyləqan rayonu, demək olar ön cəbhədədir. Yadınıza salın, vaxtında lazımi tədbirlər görməsəydik, yəqin ki, camaat Beyləqan rayonundan da köçmüş olardı. Əgər köçənlər varsa, onlar səhv edirlər. Torpağı unutmaq, atmaq olmaz. Torpağı qorumaq, torpaq uğrunda həlak olmaq insan üçün böyük şərəfdir. Torpağını, elini-obanı, yurdunu-yuvanı qoyub qaçmaq isə yaramaz haldır! Yadımdadır, bir dəfə, buraya mərmi düşmüşdü. Bizə xəbər gəldi ki, beyləqanlılar da yerindən qopub köçmək istəyirlər. Mən dərhal orduya əmr verdim ki, lazımi tədbirlər görsünlər. Eyni zamanda rayon rəhbərlərinə xəbərdarlıq etdim ki, bu fitnəkarlığın, təxribatın qarşısı alınmalıdır.

Yaxşı ki, o vaxtlar bu halların qarşısı alındı, siz öz yerinizdə qalıb yaşadınız. Sizi əmin edirəm ki, arxayın yaşaya bilərsiniz. Qoy heç kəs narahat olmasın, heç kəs!

Bu gün mən Füzuli rayonuna gedib, ön cəbhədə, ermənilərin bir kilometrliyindəki səngərlərdə oldum. Hərbi hissələrə getdim, hər şeyə baxdım, yoxladım. Bildiyiniz kimi, mən buraya bir dəfə də gəlmişdim. Onda da Füzuli rayonuna getdim, səngərlərdə oldum. Amma ordumuz həmin kəndlərdən, həmin səngərlərdən Horadizə doğru 40 kilometr irəliləmişdir. Bəli, 40 kilometr!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Oradan ermənilər qovublar, kəndlər boşalıbdır. İrəliləyiş tək orada olmayıb, başqa istiqamətlərdə də irəliləmişik. Bəzi yerlərdə 40 kilometr, digər yerlərdə 30 kilometr. Ümumiyyətlə, götürsək, görərik ki, ordumuz cəbhə xəttinin 120 kilometri boyunca irəliləmişdir.

Bu gün mən əsgərlərlə də, zabitlərlə də danışdım. Ordumuz orada möhkəm, etibarlı dayanmışdır. Narahat olmayın. Beyləqan, edəcə də Azərbaycanın bütün bu ərazisi etibarlı müdafiə edilir və ediləcəkdir. Bilirsinizmi, ortadakı təxribatçılar, araqarışdıranlar Azərbaycanın bəlasıdır. Belələri dünən də olublar, bu gün də var, həmişə olublar. Lakin siz onların dediklərinə, əməllərinə uymayın, onlara fikir verməyin. Yenə də deyirəm, torpağını qoruyub, öz yurdunda həlak olmaq, torpağını qoyub qaçmaqdan qat-qat şərəflidir.

Məsələn, Füzuli rayonunun bir çox kəndləri azad edilibdir. Amma bu kəndlər boşdur. Üzüm bağlarına baxıram, hamısı başlı-başına qalıb. Biz vaxtilə o üzüm bağlarını böyük əzab-əziyyətlə saldırmışdıq. İndi oradan, ön cəbhədən, səngərlərdən gələndə baxıram, - bu bağlar necə də kimsəsiz qalıb. Bəs gedib o bağlara qulluq etmək, becərmək, oradan məhsul götürmək lazım deyilmi? Torpağı da belə unutmaqmı olar? Belə yaramaz axı! Bəs necə olur ki, ermənilər Leninakandan, Yerevandan, Kirovakandan gəlib burada vuruşur, həlak olurlar? Bu gün Füzuli rayonunda olarkən əsgərlərimiz, zabitlərimiz mənə dedilər ki, əsir tutulmuş ermənilərdən haradan olduqlarını soruşublar. Biri deyib ki, Leninakandanam, biri deyib ki, Kirovakandanam... Onlar burada yaralanır da, əsir də düşür. Amma biz burada öz yerimizi, kəndimizi qorumayaq. Buna nə ad vermək olar?! Yaxud da ki, kəndlər azad edilibdir, amma evlər boşdur. Gedib orada yaşamaq, təsərrüfatları bərpa etmək lazımdır. Nəyi gözləyirsiniz?

Buna görə də mən sizə bildirmək istəyirəm ki, birincisi, - beyləqanlılar rahat yaşaya bilərlər. Öz işlərinizlə, təsərrüfatla məşğul olun, səmərəli iş görün və heç nədən nigarançılıq keçirməyin. İkincisi isə, bu gün mən Füzuli rayonunun rəhbərləri ilə danışacağam. Rayonun kəndlərinin çoxusu azad edilibdir, amma boş qalır. Təsərrüfatlar viran olublur. Gedib bağlara, əkinlərə, təsərrüfatlara baxmaq lazımdır.

Dediyim kimi, buraya gəlişimdən əsas məqsəd cəbhədəki əsgər və zabitlərimizlə görüşməkdir. Biz onlarla bu gün də görüşdük, sabah da görüşəcəyik. Gərək hamımız orduya kömək edək. Hamımız! Hər bir kəs gərək orduya kömək etsin! Orduya qayğı göstərmək lazımdır. Hər bir əsgərə, hər bir zabitə hörmət etmək görəkdir. Ordu xalqımızın bir hissəsidir. Döyüşçülərimiz bizi müdafiə edən, özünü şəhid edən, özünü güllə qabağına verən adamlardır. Şübhəsiz ki, onlara xüsusi hörmət, xüsusi ehtiram, xüsusi qayğı lazımdır.

Məsələn, dekabr ayından bu vaxtadək bir briqadada 160 adam həlak olub, bir neçə yüz nəfər yaralanıb və müalicədədir. Axı bu insanların qanı tökülüb, onlar sizi, bizi, bu vətəni, bu torpağı qoruyarkən həlak olublar. Bəziləri şikəst olub, bəzilərinin isə yarası yüngüldür. Onlar müalicədən sonra ya orduya qayıdacaq,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ya da başqa sahələrdə çalışacaqlar. Amma gedən gedibdir. Dediyim kimi, bir hissədən 160 nəfər həlak olubdur. Düzdür, o tərəfdə erməni quldurlardan, erməni silahlı qüvvələrindən 3-4 dəfə çox qırılıb. Lakin bizim üçün hər bir şəhidimiz, vətən yolunda çan qoyan hər bir adam əzizdir.

Əgər adamlarımız səngərdə ağır şəraitdə vuruşursa, özünü şəhid edirsə, qanını tökürsə, həlak olursa, demək bu, bizim Azərbaycan xalqının başucalığıdır. Odur ki, belə adamlara, bütövlükdə ordumuza hamı qayğı göstərməlidir, hamı kömək etməlidir. Hər birvətəndaş, xüsusən rayon rəhbərləri, vəzifəli şəxslər. Bu gün mənə dedilər ki, oradakı batalyonların döyüşçülərinin əksəriyyəti Beyləqan və İmişli rayonlarının nümayəndələridir. Amma fərarilər də çoxdur. Əksəriyyəti də yenə Beyləqan və İmişli rayonlarındandır.

Bu gün mən cəbhədəki döyüşçüləri - Azərbaycan oğullarını gördükdə ürəyim dağa döndü. Onların arasında sizin Beyləqandan da, İmişlidən də, habelə Astaradan, Xaçmazdan, Bakıdan, başqa yerlərdən də olanlar var. Onlar gəlib vuruşurlar. Halbuki onların da öz ev-eşiyi, ailəsi var, hərəsi 30-35 yaşındadır. Onlar mənim ötən il noyabr ayındakı çağırışıma qoşulub gəliblər, burada qulluq edirlər.

Amma belə oğullarla yanaşı, qaçanlar da var. Silahı götürüb qaçanlar da az deyildir. Fərarilik edənlər var. Fürsətdən istifadə edib demək istəyirəm ki, Beyləqan rayonundan, eləcə də İmişli rayonundan olan fərarilər də var. Siz özünüz səngərlərə çox yaxın olduğunuz halda, övladlarınızı oraya - Vətəni, eli-obanı qorumağa göndərməyəcəksinizsə, bəs sizi kim qoruyacaqdır? Yoxsa, buradan çıxıb qaçmaq istəyirsiniz? Belə şeylər yaramaz.

Buna görə də sizə müracəət edirəm, o fərarilərə müraciət edirəm. Onlar çox səhv yoldadırlar. Xalqın bu ağır günündə qaçıb gizlənmək olmaz. Belə yaşamaq heç də yaşamaq deyildir. O fərarilərin validenylərinə üz tuturam: Ayılın, başa düşün, bilin - xalqımız, Vətənimiz böyük təhlükə qarşısındadır. Biz ya erməni silahlı qüvvələrini vurub torpaqlarımızdan çıxarmalıyıq, ya da əgər belə olmasa və hərə bir tərəfə qaçsa, fərarilik etsə - onda, şübhəsiz, torpaqlarımız əldən gedəcək, onda nə Azərbaycan olacaq, nə siz olacaqsınız, nə də mən.

Azərbaycan xalqı tarix boyu, əsrlər boyu həmişə mərdlik, cəsarət, qəhrəmanlıq göstərmişdir, öz yurdunu, öz torpağını müdafiə etmişdir, öz mənliyini qoruyub saxlamışdır. necə ola bilər ki, belə bir həlledici mərhələdə, Azərbaycanın müstəqil dövlət olduğu, xalqın azadlığa çıxdığı bir dövrdə öz torpaqlarımızı müdafiə etməyə qadir olmayaq? Bizim öz torpaqlarımızı qorumaq imkanlarımız var! Buna Azərbaycan xalqının qüdrəti, rəşadəti tamamilə imkan verir. Ordumuz da qurulur, möhkəmlənir. Bu ordu daha keçən ilin yayındakı, yazındakı ordu deyildir. Daha heç kəs erməni tankı görən kimi pərən-pərən düşüb qaçmır. Biz erməni silahlı qüvvələrinin hücumunu dayandırdıq, bundan sonra ordumuz düşmənə sarsıdıcı zərbələr vurdu, onu geri oturtdu. Füzuli rayonunda torpaqlarımızın bir qismi geri alınıbdır, er-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

məni işğalçıları oradan qovulubdur. Lakin bu, işin yalnız başlanğıcıdır Qarşıda Füzuli rayonunun digər hissələri var, Cəbrayıl var, Zəngilan, Qubadlı var, o yandan Ağdam, digər rayonlar var. Bunların hamısını ancaq biz azad etməliyik.

Kənardan heç kəs gəlib bu işləri bizim yerimizə görməyəcəkdir.

Ona görə də mən sizə müraciət edirəm. Orduya daim diqqət, qayğı göstərilməlidir, hərbi xidmət etməli olan adamlar orduda olmalıdır. Sizin hər biriniz fərariləri üzə çıxarmalı, onları utandırmalı, başa salmalı, lazım gələrsə, cəzalandırmalısınız. Elə siz özünüz, valideynlər, qohum-qonşu belələrini gərək utandırasınız, deyəsiniz ki, sənin yerin səngərdədir, ön cəbhədədir. Sən oraya getməlisən ki, torpağın erməni tapdağına çevrilməsin, işğalçıların əlinə keçməsin. Sən getməlisən ki, erməni işğalçıları torpaqlarımızdan rədd olub çıxsınlar. Qarabağ azad edilsin, Şuşa, Füzuli, Ağdam azad olsun. Bunu biz etməliyik.

Mən bilirdim ki, burada fərarilər var, amma onların bu qədər olduğunu bilmirdim. Bu məni çox incitdi, çox narahat etdi. Sizə üz tuturam, bir daha deyirəm ki, Beyləqan, İmişli rayonlarından fərarilərin həddindən çox olması məni təəccübləndirir və belə hesab edirəm ki, bu hal sizə də hörmət qazandırmır, sizin üçün başucalığı deyildir.

Yəqin ki, respublikada gedən proseslər barədə mətbuatdan, radio və televiziyadan xəbərdarsınız. İqtisadiyyatda çətinliklər var. Lakin bütün bunlarla yanaşı, xalqımız yaşayır, dövlətimiz müstəqil dövlətdir və Azərbaycan xalqı öz taleyinin sahibidir. Gərək bu ağır dövrdə hərə öz sahəsində var qüvvə ilə işləsin. Sizin Beyləqan rayonu böyük kənd təsərrüfatı rayonudur, pambıqçılıq rayonudur. Bu yaxınlarda biz kənd təsərrüfatı işçilərinin müşavirəsini keçirdik. Daha sonra pambıqçılıq rayonları rəhbərlərinin müşavirəsini çağırdıq. Çiyid səpini artıq başlanmışdır. Səpini də, digər kənd təsərrüfatı işlərini də yaxşı, səmərəli aparmalısınız ki, bol məhsul götürək. Əks halda iqtisadiyyatda vəziyyət bu il daha da pisləşəcəkdir. Belə olan halda isə əhalinin yaşayışı, dolanacağı da ağır olacaqdır. Mən sizin hamınızı yaxşı işləməyə çağırıram, hamınızı respublikanın möhkəmlənməsi naminə gərgin fəaliyyətə dəvət edirəm. Qoy xalqımız, cəmiyyətimiz yekdil olsun, həmrəy olsun. İçimizdə olan təxribatçıları, araqarışdıranları ifşa etmək lazımdır, onları sıralarımızdan çıxarmaq lazımdır.

Azərbaycanda sağlam siyasi-ictimai şərait yaranmışdır. Lakin bu şəraiti möhkəmləndirmək görəkdir. Bütün bunlar sizli-bizli hamımızın, bütün Azərbaycan vətəndaşlarının əl-ələ verib birgə çalışmasından asılıdır, vətəndaş həmrəyliyindən, milli həmrəylikdən asılıdır. Mən sizi buna dəvət edirəm. Bir daha hamınıza cansağlığı, xoşbəxtlik arzu edirəm və ümidvar olduğumu bildirmək istəyirəm ki, siz mənim bu sözlərimi düzgün başa düşəcək və çalışacaqsınız ki, həm ordunu möhkəmləndirək, həm orduya qayğını artıraq, həm də təsərrüfat işlərini yaxşı aparaq.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

* * *

Müharibədə kim güclüdürsə, o da qalib gəlir. Güclü olmaq üçün Azərbaycanın da imkanları çoxdur. Bu imkanlardan indiyədək lazımınca istifadə olunmayıb. Son vaxtlar ordu quruculuğu işi müvəffəqiyyətlə davam edir, ordumuz formalaşır. Bu işdə zabitlərimizin də, əsgərlərimizin də üzərinə mühüm vəzifələr düşür.

Sərəncamınızda olan texnikanın bütün gücündən istifadə etmək sizin borcunuzdur. Ancaq texnika onu idarə edən adamlarsız elə bir şey deyil. Mənə verilən məlumata görə siz bu texnikadan istifadə etməyi bacarırsınız. Buna görə çox sağ olun.

Torpaqlarımızı, Vətənimizi, müstəqil Azərbaycanımızı qorumaq sizin şərəfli borcunuzdur. Siz bu borcunuzu düşmənlə üzbəüz olan bir nöqtədə yerinə yetirirsiniz. Vəzifəmiz Azərbaycanın ərazi bütövlüyünü qorumaqdır. Dövlət səviyyəsində bunun üçün müxtəlif tədbirlər görülür. Biz çalışırıq ki, siyasi vasitələrdən istifadə edək. Ordunun borcu isə ondan ibarətdir ki, dövlətin siyasətini səmərəli etmək üçün öz gücünü artırsın. Bu gücün artması siyasi tədbirlərin, danışıqların müsbət nəticə verməsinə mühüm kömək edər. Azərbaycanın gənc övladları, torpağımızın keşiyində duran Azərbaycan balaları, mən sizi gördükcə ürəyim fərəhlə döyünür. Burada erməni işğalçılarına qarşı möhkəm durduğunuzu gördükcə həm mən, həm də bütün Azərbaycan vətəndaşları sevinir. Əminəm ki, siz həm ata-ananızın, doğma torpağınızın, həm də Azərbaycan xalqının ümidlərini doğruldacaqsınız.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AĞCABƏDİ RAYONUNDA JURNALİSTİN SUALINA CAVAB VƏ DÖYÜŞÇÜLƏR QARŞISINDA ÇIXIŞ

Sual : - Hörmətli prezident, cəbhə bölgələrinə səfərinizin məqsədi nədir?

Cavab : - Məqsəd odur ki, yerlərdəki vəziyyəti özüm şəxsən görüb öyrənmək istəyirəm. Ali Baş Komandan kimi Müdafiə Nazirliyindən məlumat alıram, briqada komandirləri ilə bilavasitə əlaqə saxlayıram. Eyni zamanda vəziyyəti özüm şəxsən görüb, tanış olub, aydınlaşdırmaq istəyirəm. Əsgərlərlə, zabitlərlə görüşərək onların əhval-ruhiyyəsini öyrənirəm. Çalışıram öyrənim ki, onların döyüş ruhu nə səviyyədədir. Bunların hamısı, mənim üçün həm orduya rəhbərlik etmək, müdafiəni etibarlı təşkil etmək, həm də torpaqlarımızın azad olunması planlarını hazırlamaq üçün çox lazımdır. Ona görə də buradayam və bundan sonra da gələcəyəm.

Əvvəlki səfərimdən sonrakı dəyişikliklərə gəldikdə isə, mən əsgərlərlə, zabitlərlə görüşüb danışdığım zaman görürəm ki, onların əhval-ruhiyyəsi daha yüksəkdir, səriştələri də artıb. Bunların hamısı göstərir ki, addımlarımız xırda olsa da, biz irəliyə gedirik və gedəcəyik. Siz burada, ön mövqedə torpaqlarımızın müdafiəsində dayanmısınız. Azərbaycan Respublikasının indiki vaxtında orduda xidmət etməkdən, Vətənin müdafiəsində durmaqdan şərəfli peşə yoxdur. Siz bu sənətin sahibisiniz, bu yolu tutmusunuz. Bütün Azərbaycan xalqı bu yolu tutan övladlarına minnətdar olacaqdır.

* * *

Torpaqlarımız altı ildir ki, Ermənistai silahlı qüvvələrinin təcavüzünə məruz qalıb, xeyli insan öz evindən-eşiyindən didərgin düşüb. Elə burada, Ağcabədi rayonunda 60 minə qədər qaçqın var. Başqa rayonlarda da vəziyyət belədir. Burada biz erməni işğalçıları ilə qarşı-qarşıya durmuşuq. Görünən o kəndlər, habelə Azərbaycan ərazisinin böyük bir qismi erməni silahlı qüvvələrinin əlindədir. Onlar kəndləri dağıdırlar, yandırırlar, qalmış əmlakı qarət edirlər. Bunlar hamısı Azərbaycan xalqının başına gəlmiş bəlalardır. Ancaq biz təkcə kədərimizi bildirməklə kifayətlənməməliyik. Bütün Azərbaycan xalqının borcu ondan ibarətdir ki, belə ağır vəziyyətdə dönüş yaradaq və həm ərazilərimiz bundan sonra etibarlı müdafiə olunsun, həm də qüvvəmizi toplayıb işğal olunmuş torpaqlarımızı geri alaq.

Biz düşmənlərə sübut etməliyik ki, əgər onlar ərazimizdən çəkilib getməsələr ordumuz, xalqımız öz torpaqlarını öz gücü ilə azad etməyə qadirdir. Əsgər və zabitlərimizin işini yüksək qiymətləndirirəm və əmin olduğumu bildirirəm ki, düşmənin hər bir hücumunun qarşısı alınacaq və işğalçılara zərbələr vurmaq üçün ordumuzun lazımi imkanları vardır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Biz ordunun qurulması, təşkil olunması, hərbi hissələrin yerləşdirilməsi, əsgərlərimizin, zabitlərimizin hərbi işin incəliklərinə dərindən yiyələnməsi üçün yaxşı əsas yaratmalıyıq.

Azərbaycan xalqı öz ordusuna böyük hörmət və ehtiramla yanaşır. Mən də Ali Baş Komandan kimi orduya daim qayğı və diqqət göstərmək tələbini irəli sürürəm. Bundan sonra da belə edəcəyəm. Ancaq siz, orduda xidmət edən əsgər və zabitlər xalqımızın diqqətinə, qayğısına layiq olmalısınız. Bu o deməkdir ki, siz gərək sədaqətlə xidmət edəsiniz, hərbi peşənin bütün sirlərini mənimsəyəsiniz, hər bir döyüşdə qalib gələ biləsiniz cəsarətiniz, iradənizlə, həm də hərbi biliyinizlə. Bunun üçün sizə tapşırılan yerlərin müdafiəsində möhkəm dayanmalı, həm də vaxtı itirmədən təlim, hazırlıq işləri aparmalı, silahı öyrənməli, peşənizin bütün incəliklərinə yiyələnməlisiniz ki, döyüşlərlə qalib gələsiniz.

İndi, siz buraya yaxınlaşarkən gözəl bir mahnı oxuyurdunuz. Qoy o mahnı da sizi ruhlandırsın. Xalqımızın zəngin adət-ənənələri, qədim tarixi, mədəniyyəti, böyük keçmişi və ondan da gözəl gələcəyi sizi ruhlandırsın, vətənpərvərliyinizi, döyüş ruhunuzu daha da artırsın. Siz böyük məsuliyyət daşıyırsınız. Mən istərdim ki, həmişə bu məsuliyyətin yüksək zirvəsində olasınız. Bir daha sizə cansağlığı arzu edirəm, döyüşlərdə qəhrəmanlıq, uğurlar diləyirəm və hər birinizi Azərbaycanın Milli Qəhrəmanı kimi görmək istəyirəm.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BƏRDƏ RAYONUNDA İCTİMAİYYƏTİN NÜMAYƏNDƏLƏRİ QARŞISINDA ÇIXIŞ

Əziz bacılar və qardaşlar, əziz həmvətənlər! Sizi burada, Bərdə şəhərinin mərkəzi meydanında görməkdən çox məmnunam. Hiss etmişəm ki, siz mənimlə görüşmək istəmisiniz. Mən də həmişə arzu etmişəm ki, hər bir Azərbaycan vətəndaşı ilə, o cümlədən bərdəlilərlə, Qarabağ torpağının sakinləri ilə görüşüm. Ona görə də buraya toplaşdığınız üçün sizə təşəkkür edirəm. Sizi ürəkdən salamlayır, hamınıza xoş arzularımı və səmimi duyğularımı çatdırıram.

Səfərimin məqsədi sizə məlumdur. Dünən də, bu gün də bölgədə Azərbaycan Ordusunun hissələrində olmuşam. Əsgərlər və zabitlərlə görüşmüş, onların vəziyyəti ilə tanış olmuşam. Bir sözlə, ordu quruculuğu sahəsində gördüyümüz tədbirlərin həyata keçirilməsinə nəzarət etməyə çalışıram. Bununla əlaqədar bəzi başqa hərbi hissələrə də getmək fikrindəyəm. Eyni zamanda burada olduğum müddətdə yerli camaatla da görüşmək mənim üçün çox xoşdur və bundan çox məmnunam.

Mən buraya gələn kimi bacı-qardaşlarımızdan bir neçəsi müraciət edərək dərd-sərlərini bildirdi. Başa düşürəm ki, hər kəsin dərdi var. Dərdimiz böyükdür, çünki respublikamız altı ildir ki, müharibə vəziyyətindədir, Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzünə məruz qalmışdır. Torpaqlarımızın bir qismi işğal olunmuş, bir milyondan artıq vətəndaşımız qaçqın və köçgün vəziyyətinə düşmüşdür, ağır şəraitdə yaşayır. O cümlədən minlərlə adam burada, Bərdə rayonunun ərazisində sığınacaq taparaq sizin himayəniz altındadır. Şəhidlər vermişik. Mən cəbhə bölgələrində də, Ağcabədidə də, burada da şəhid ailələri ilə rastlaşdım. Əziyyətimiz, dərdimiz çoxdur. Siz məni böyük hörmətlə, çox hərarətlə qarşılayırsınız. Bu, onu göstərir ki, xalqımızın vəziyyəti nə qədər ağır olsa da, həmişə nikbin əhval-ruhiyyə ilə yaşayır, gələcəyə ümidlə baxır. Sizin məni belə gülərüzlə qarşılamağınız da bunu sübut edir. Sağ olun, hamınıza təşəkkür edirəm.

Son illərdə Azərbaycan xalqının verdiyi şəhidləri bir daha yad edərək onların qəhrəmanlığı, ruhu qarşısında baş əyir və sizi, bütün Azərbaycan xalqını əmin edirəm ki, mən də, hər bir Azərbaycan vətəndaşı da şəhidlərin xatirəsini daim qəlbimizdə yaşadacağıq. Allah şəhidlərə rəhmət eləsin, qəbirləri nurla dolsun. Onların qanı yerdə qalmayacaqdır. Onların və respublikamızın müdafiəsində dayanmış əsgər və zabitlərimizin qəhrəmanlığı sayəsində torpaqlarımız qorunur. İşğal olunmuş orpaqlarımız da geri qaytarılacaq, Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin ediləcəkdir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sizə deyə bilərəm ki, döyüşçülərimizlə, əsgər və zabitlərimizlə görüşlərim mənə yaxşı təəssürat bağışlayır. Onlarda döyüş ruhu, vətənpərvərlik, torpağı qorumaq əhval-ruhiyyəsi yüksəkdir. Çoxları da hərbi peşənin sirlərinə yiyələnmişdir. Gördüklərimə və komandirlərin mənə dediklərinə əsasən güman edirəm ki, son aylarda olduğu kimi, torpaqlarımız bundan sonra da etibarlı şəkildə müdafiə ediləcək, Azərbaycan Respublikasının bir qarış da olsun ərazisi əldən getməyəcəkdir.

Lakin biz bununla kifayətlənə bilmərik. Nə qədər ki, torpaqlarımızın bir hissəsi ermənilərin işğalı altındadır, bacı-qardaşlarımızın böyük bir qismi ev-eşiklərindən, obalarından didərkin düşərək qaçqın vəziyyətində yaşayır, biz rahat ola bilmərik. Hamımızın, bütün Azərbaycan xalqının yeganə vəzifəsi, borcu zəbt edilmiş torpaqlarımızı geri qaytarmaq, işğalçıları ərazimizdən çıxarmaq, qaçqınları ev-eşiklərinə qaytarmaq, Azərbaycan Respublikasının ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını təmin etməkdir.

Başqa vəzifələr də çoxdur. Respublikamız sosial-iqtisadi böhran içərisindədir. Vətəndaşlarımızın əksəriyyəti ağır maddi şəraitdə yaşayır. Son illərdə sənayedə və kənd təsərrüfatında istehsal aşağı düşmüşdür. Bunlar da bizi narahat edir. Ancaq ən əsas vəzifə bütün çətinliklərə, məşəqqətlərə dözərək torpaqlarımızı müdafiə etmək, işğal olunmuş torpaqları geri qaytarmaqla ərazi bütövlüyümüzü təmin etməkdir. Bunun üçün ordumuza qayğı və diqqət göstərməli, kömək və yardım etməliyik. Orduda xidmət edən övladlarımızın borcu isə həmin əsas vəzifənin yerinə yetirilməsi üçün mərdliklə döyüşməkdir.

Hamımız çalışmalıyıq ki, torpaqlarımızın müdafiəsinin möhkəmləndirilməsinə, ordu quruculuğuna kömək edək, ordunun döyüş qabiliyyətini artıraq, fərariliyin qarşısını alaq. Bu, sizin də, bizim də birgə vəzifəmizdir. Son vaxtlar orduda fərarilik artmışdır. Bu, dözülməz haldır. Fərarilik edənlər xalq qarşısında, Vətən qarşısında xəyanət edirlər. Onlar bilməlidirlər ki, bu, milli mənafeyimizə zərər vuran yoldur. Bizim bir yolumuz var: birləşərək ordumuzu gücləndirək və hamımız əl-ələ verərək torpaqlarımızı azad etməyə nail olaq.

Bu gün sizin qarşınızda çıxış edərkən bir məsədəyə də toxunmaq istəyirəm. Müharibəni biz başlamamışıq. Bu müharibə Azərbaycan xalqına qarşı təcavüz nəticəsində başlanmışdır. Biz onu sona çatdırmaq istəyirik. Çalışırıq ki, buna sülh yolu ilə nail olaq, işğalçılar torpaqlarımızı tərk etsin və beləliklə də xalqımız müharibə şəraitiidən çıxsın. Biz bu istiqamətdə siyasi, diplomatik tədbirlər görmüşük və bundan sonra da görəcəyik. Bunu daha münasib yol sayırıq və bu yolla getməyə çalışırıq. Ancaq erməni təcavüzkarları bu yoldan çəkinirlər. Onlar zahirən sülh tərəfdarı olduqlarını bildirir, eyni zamanda hücumları davam etdirirlər.

Sizə məlumdur ki, son vaxtlar aparılmış danışıqlar nəticəsində fevral ayında Rusiya müdafiə nazirinin iştirakı ilə Azərbaycanın və Ermənistanın müdafiə nazirləri atəşin dayan-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dırılması və sülh danışıqlarına başlanması haqqında saziş imzalamışlar. Ancaq Ermənistan tərəfi bu sazişi pozdu. Martın əvvəlində ermənilər xüsusən Füzuli rayonu ərazisində güclü hücuma keçdilər. Lakin onlar bir şeyə nail ola bilmədilər. Azərbaycan Ordusunun qəhrəman əsgər və zabitləri düşmənin hücumunu mərdliklə dəf etdilər. Buna baxmayaraq, ermənilər yenə də öz çirkin əməllərindən əl çəkmirlər. Mən hərbi hissələrdən birində olarkən ön xətdəki səngərə getmək istəyirdim. Lakin zabitlərimiz məni ora buraxmayaraq dedilər ki, orada atışma gedir. Bu bir daha onu sübut edir ki, biz atəşin dayandırılmasını, məsələnin sülh yolu ilə başa çatdırılmasını istəsək də, Ermənistan tərəfi buna getmir.

Bununla belə, biz yenə sülhsevər siyasətimizi aparacaq və bütün imkanlardan istifadə etməyə çalışacağıq. Bu bizim siyasi-diplomatik vəzifəmizdir. Ancaq bununla yanaşı ordumuzun möhkəmləndirilməsi, onun gücünün artırılması, xalqımızın bu işə kömək göstərməsi əsas vəzifədir. Bu bizim nicatımızdır və gələcəyimiz də bundan asılıdır. Ona görə də bir daha sizin hamınızı orduya daha çox diqqət və qayğı göstərməyə, fərariliklə, ordunun daxilində təxribatçılıqla mübarizə aparmağa çağırıram.

Biz öz taleyimizin sahibiyik. Azərbaycan müstəqil dövlətdir. Bu, tarixi hadisədir. Azərbaycan xalqı öz müstəqilliyini, milli azadlığını qoruyub saxlamalıdır. Bunun üçün də Azərbaycanın güclü ordusu olmalıdır. Bu, həm işğal olunmuş torpaqlarımızı düşməndən təmizləmək, həm də gələcəkdə müstəqil Azərbaycanın etibarlı müdafiəsini təmin etmək üçün gərəkdir. Ona görə də orduya diqqət və qayğı göstərmək hər bir vətəndaşın şərəfli borcu olmalıdır. Mən sizi bu borcu yerinə yetirməyə dəvət edirəm.

Kənd təsərrüfatı işləri ilə də məşğul olmağımız sizə məlumdur. Martın əvvəlində və sonunda Bakıda kənd təsərrüfatı ilə əlaqədar müşavirələr keçirilmişdir. Bərdə rayonu Azərbaycanın kənd təsərrüfatında çox mühüm yer tutur. Sizin rayonun münbit torpağı, böyük potensialı var. Bunlardan səmərəli istifadə etmək lazımdır. Yaz tarla işlərinin aparılması, çiyid səpini, ümumiyyətlə, kənd təsərrüfatı bitkilərinin becərilməsi həm bu günün, həm də gələcəyin vəzifələridir. Dediyim kimi, böhran içərisindəyik. Sənaye və kənd təsərrüfatı istehsalı xeyli aşağı düşmüşdür. Ancaq xalqımız yaşamalıdır. Bundan ötrü isə istehsal, ilk növbədə kənd təsərrüfatı istehsalı artmalıdır. Əhalini yedirdib içirdən, ərzaqla təmin edən kənd təsərrüfatı, kənd əhalisidir. Ona görə də siz öz yaşayışınızı yaxşılaşdırmağa, rayonun, Azərbaycanın iqtisadiyyatını qaldırmağa, respublikanı ərzaqla təmin etməyə çalışmalısınız. Mən sizi buna dəvət edirəm və əminəm ki, bərdəlilər, Azərbaycanın bütün kənd təsərrüfatı zəhmətkeşləri bu il öz sözlərini deyəcək, keçmişdəki ənənələri bərpa edəcəklər və bundan sonra Azərbaycanda kənd təsərrüfatı istehsalı daim artacaq, yüksələcəkdir.

Ölkəmizin bu ağır dövründə xalqımız üçün milli həmrəylik, vətəndaş həmrəyliyi lazımdır. Son beş-altı ildə Azərbaycan

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

xalqı bir çox sınaqlardan çıxmış, əzab-əziyyətlərdən keçmişdir. Bir tərəfdən müharibə, sosial-iqtisadi böhran, digər tərəfdən isə respublikadakı ayrı-ayrı siyasi qüvvələrin hakimiyyət uğrunda bir-biri ilə çəkişməsi son illərdə Azərbaycanın daxilində ictimai-siyasi vəziyyəti gərginləşdirmişdir. İndi biz sabitliyə doğru gedirik. Respublikada ümumən sabitlik bərqərar olmuşdur. Sabitlik hər bir vətəndaşa lazımdır. Cinayətkarlığa, cürbəcür təxribatçılıq hallarına son qoyulmalıdır. Bu ağır dövrdə xalqımız daha sıx birləşməli, əl-ələ verməli, daxili sabitliyi möhkəmləndirərək xarici düşmənlərlə mübarizəni gücləndirməlidir.

Bildiyiniz kimi, son vaxtlar bu istiqamətdə xeyli iş görülür və bu, öz nəticəsini verir. Bu iş gələcəkdə də davam etdiriləcəkdir. Güman edirəm ki, bərdəlilər də, Qarabağ əhalisi də və bütünlükdə Azərbaycan xalqı da bu yolla getməyi düzgün sayır. Sizin hamınızı milli həmrəyliyə, vətəndaş həmrəyliyinə kömək etməyə çağırıram. Güman edirəm ki, biz belə həmrəyliyə nail olacağıq. Sizin hamınıza daha da dözümlü olmağı məsləhət görürəm. Xalqımız əsrlər boyu çox imtahandan, çox sınaqdan çıxmışdır. Bu, xalqımızın dözümlülüyü, çətinliklərdən səriştə ilə çıxa bilməsi sayəsində mümkün olmuşdur. Xalqımızı böyük gələcək gözləyir. Güman edirəm ki, biz sizinlə birlikdə həmin gələcəyi, gözəl həyatı da, tərəqqi edən müstəqil Azərbaycan dövlətini də görəcəyik. Ona görə də sizi bir daha dözümlü, dəyanətli olmağa çağırıram. Şübhə etmirəm ki, biz birləşərək bütün çətinlikləri aradan qaldıracaq və gələcəyə doğru inamla gedəcəyik. Sağ olun, xoşbəxt olun!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BƏRDƏ RAYONUNDA BİR SIRA ŞƏHƏR VƏ RAYONLARIN İCRA HAKİMİYYƏTİ BAŞÇILARININ VƏ ƏLAQƏDAR TƏŞKİLATLARIN RƏHBƏRLƏRİNİN İŞTİRAKI İLƏ KEÇİRİLMİŞ MÜŞAVİRƏDƏ ÇIXIŞ

Burada icra başçıları məlumat verdilər. Lakin mən bunlardan mənfi nəticə çıxarıram. Hərə keçmiş qayda ilə hesabat verərək rəqəmlər sadaladı. Amma ortada nəticə yoxdur. Mən qeyd etdim ki, hərbi xidmətə çağırış respublika üzrə nəzərdə tutulmuş planın yarısı qədər yerinə yetirilmişdir. Bütün rayonlarda kəsir var. Ona görə də mən sizə bu məsələ ilə çox ciddi məşğul olmağı tapşırıram. Sizdən tələb edirəm, əgər bir neçə günədək bu sahədə dönüş yaranmasa, icra başçıları, rayonların hərbi komissarları məsuliyyətə cəlb olunacaqlar. Ordumuzu qurmaq, möhkəmləndirmək üçün gənclərimiz hərbi xidmətə çağırılmalıdır. Bunsuz ordu ola bilməz. Çıxış edənlərə bir daha bildirirəm ki, onların məlumatlarını qənaətbəxş saymıram. Bu, çıxış etməyənlərə də aiddir, çünki, yəqin, onlar da bu səpkidə danışacaqlar. Güman edirəm ki, yaxın günlərdə sizin işlərinizin nəticəsi bəlli olacaq və mən bu barədə məlumat alacağam.

Fərariliklə mübarizəyə gəldikdə isə, ola bilər, Müdafiə Nazirliyi məlumatları dəqiq vermir. Hər bir icra başçısının, hərbi komissarın, hər bir polis rəisinin və başqa hüquq-mühafizə orqanları rəhbərlərinin borcu odur ki, onların rayonundan hərbi xidmətə çağırılmış gənclər orduda qulluq etsin və fərarilik edənlər hərbi hissəyə qaytarılsın, yaxud cəzalandırılsın. Sizin konkret vəzifəniz bundan ibarətdir. Prezidentin səlahiyyətli nümayəndəsi kimi hər bir rayon icra başçısı öz rayonunun bu mühüm məsələləri üçün cavabdehdir. Elə hesab etməyin ki, ordunu təşkil etmək kiminsə işidir, siz isə kənardan buna kömək göstərməlisiniz. Bu əhval-ruhiyyəni bir kənara atın. Əgər biz düşmən təcavüzünün qarşısını almaq, torpaqlarımızı layiqincə qorumaq və erməni silahlı qüvvələrinin ərazimizin qalan hissəsinə soxulmasına bir daha yol verməmək istəyiriksə, eyni zamanda düşməni geri oturtmaq, işğal olunmuş torpaqlarımızı azad etmək istəyiriksə, bu məsələ ilə ciddi məşğul olmaq lazımdır. Mən sizi rayonlara təyin etmişəm və sizdən də borcunuzu yerinə yetirməyi tələb edirəm. Əgər bacarmırsınızsa, istefa verin. Bir daha təkrar edirəm, ordunun qurulması, möhkəmləndirilməsi hər bir vətəndaşın, hər bir vəzifəli şəxsin borcudur. Bu, rayon rəhbərlərinin bir nömrəli vəzifəsidir və bunu sizdən tələb edirəm.

Şübhəsiz ki, fərariliklə mübarizənin cürbəcür yolları var. Biz keçən ilin noyabr-dekabr aylarında da tədbirlər gördük və fə-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

rarilik edənlərin çoxu hərbi hissələrə qayıtdı. Bu hal bizdə ümumən böyük razılıq hissi doğurdu. Lakin son vaxtlar fərarilik yenidən artmışdır. Tələb edirsiniz ki, cəza tədbirləri gücləndirilsin. Bu, düzgün tələbdir. Bizim özümüzdə də belə təkliflər var və bunlar həyata keçiriləcəkdir. Ancaq biz bütün imkanlardan, təsir vasitələrindən istifadə etməliyik ki, fərarilik edən olmasın, gənclər başa düşsünlər ki, fərarilik artarsa, bəs orduda kim qalmalıdır, torpaqlarımızı kim qorumalıdır? Necə olur ki, əhalisi bizdən iki dəfə az olan Ermənistan ordu yaratmışdır və o gəlib bizim torpaqlarımızı işğal etmişdir? Yerevandan, Leninakandan gəlib Füzuli, Ağdam, Tərtər bölgələrində vuruşur, halak olur, erməni millətçilərinin iddialarını həyata keçirirlər. Biz isə öz torpağımızı qorumaqda asizlik çəkirik...

Fərarilik olmamalıdır. Rayonun vahid rəhbəri kimi sizin də borcunuzdur ki, tabeliyinizdəki hüquq-mühafizə orqanları ilə birlikdə, ictimaiyyətlə, ziyalılarla, rayonun hörmətli adamları, ağsaqqalları ilə birlikdə respublikanın indiki ağır vəziyyətində fərariliyin qarşısını alasınız.

Rayonlarda nə qədər qaçqın var. Qaçqınlar Komitəsinin sədri çıxışında bu barədə dedi: bir rayonda 20 min, o birisində 30 min, digərində 40 min qaçqın məskunlaşıb. Axı onların arasında gənclər də var. Əgər onlar erməni təcavüzü nəticəsində qaçıb gəlmişlərsə, orduya gedərək öz torpaqlarını azad etməlidirlər. Orduya ilk növbədə, işğal olunmuş rayonlardan qaçqın düşmüş gənclər getməlidirlər. Onlar respublikamızın digər vətəndaşlarına nisbətən bu işdə daha fəal olmalıdırlar.

Dünən mən hərbi hissələrdə olarkən gördüm ki, orada respublikanın bütün şəhərlərindən, rayonlarından gələn adamlar xidmət edirlər. Xaçmazdan da, Astaradan da, Qusardan da, Şəkidən də, eyni zamanda Ağdamdan da, Füzulidən də, Laçından da, Kəlbəcərdən də xidmət edənlər var. Bu, çox sevindirici haldır. Ancaq işğal olunmuş rayonlardan olan gənclər bilməlidirlər ki, onlar bütün işlərini bir kənara qoyaraq, orduya getməli, torpaqlarımızın geri qaytarılması üçün vuruşmalıdırlar. Belə rayonların, həmçinin qaçqınların müvəqqəti məskunlaşdığı rayonların icra başçıları bu məsələyə xüsusi diqqət yetirməlidirlər. Burada verilən izahatların heç biri qəbul edilə bilməz. Yalnız bir cavab ola bilər: Bu iş təşkil edilməlidir. Başqa yol yoxdur.

Dünən Beyləqanda keçirilən müşavirədə hərbi komissarlar barədə danışdım, bu gün də təkrar edirəm: onların günahı çoxdur, rüşvətxorluqları barədə çox söz-söhbət gedir və bu, əsassız deyildir. Bunlara son qoyulmalıdır. Müdafiə Nazirliyinin rəhbərləri bununla ciddi məşğul olmurlar. Mən onlara bu barədə dəfələrlə demişəm. Ancaq rayon icra başçıları da hərbi komissarların işinə nəzarət etməlidirlər. Bundan ötrü isə özünüzün mənəvi hüququ olmalıdır ki, onlardan tələb edə biləsiniz. Yəni özünüz qayda-qanunu gözləməli, bu işləri lazımi səviyyədə həll etməlisiniz ki, tabeçiliyinizdəki başqa dövlət strukturlarından da eyni şeyi tələb edəsiniz. Görüşümüzdən istifadə edərək bunları sizə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

deməyi vacib bildim və bu tələbləri qarşınızda kəskin şəkildə qoyuram.

Kənd təsərrüfatı sahəsindəki işlər barədə burada məlumat verdilər. Bərdə rayonunun icra başçısı, başqa şəxslər də çıxış etdilər. Son illərdə kənd təsərrüfatına münasibət çox pis olmuşdur. Mən Ağcabədiyə getmişdim. Qarabağ zonasında bizim nə qədər münbit torpaqlarımız var. Başqa yerlərdə də belədir. Lakin həmin torpaqlar istifadəsiz qalmışdır. Biz isə hansı dövlətdənsə kredit valyuta alırıq ki, taxıl yaxud başqa ərzaq məhsulları alıb gətirək. Nə vaxtadək belə yaşayacağıq? Öz imkanlarımızdan istifadə edilmir, onun-bunun ümidinə qalmışıq. Belə yaramaz. Keçirdiyimiz müşavirələrdə bu məsələləri kəskin şəkildə qoymuşuq və sizdən tələb edirəm ki, həmin vəzifələri layiqincə yerinə yetirəsiniz.

Bununla da görüşümüzü yekunlaşdıraq. Güman edirəm ki, belə görüşlərə, müşavirələrə dəvət olunanlar deyilənlərdən özləri üçün nəticə çıxaracaqlar. Həmin nəticələr əməli işdə öz əksini tapmalıdır. Əminəm ki, siz konkret işinizlə bizim bu çağırışlarımıza, tələblərimizə cavab verəcəksiniz.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ERMƏNİSTANIN AZƏRBAYCANA QARŞI TƏCAVÜZÜNÜN GÜCLƏNMƏSİ İLƏ ƏLAQƏDAR RESPUBLİKA MİLLİ TELEVİZİYA VƏ RADİOSU İLƏ XALQA MÜRACİƏT

12 aprel 1994-cü il

Əziz həmvətənlər, bacılar, qardaşlar, Azərbaycan Respublikasının vətəndaşları! Son günlər Ermənistanın Azərbaycana qarşı təcavüzünün güclənməsi, erməni silahlı qüvvələrinin Azərbaycan ərazisinə hücumlarının şiddətlənməsi ilə əlaqədar yaranmış vəziyyət məni bu gün axşam Azərbaycan televiziya studiyasına gəlməyə məcbur edibdir. Məqsədim yaranmış vəziyyət haqqında məlumat vermək və bu barədə bəzi fikirlərimi bəyan etməkdən ibarətdir.

Bildiyiniz kimi, Azərbaycan dövləti, onun rəhbərliyi Ermənistan ilə Azərbaycan arasında gedən müharibəyə son qoymağa və bunun üçün sülh danışıqları apararaq müəyyən saziş əldə etməyə çalışır. Bu sahədə biz böyük dövlətlərin təşəbbüslərini qəbul edir, beynəlxalq təşkilatların imkanlarından daim istifadə etməyə çalışırıq. Biz Ermənistan Respublikası ilə bilavasitə əlaqədər yaradıb, danışıqlar aparırıq. Son vaxtlarda Rusiya dövlətinin vasitəçilik təşəbbüsünü qəbul edib, Rusiya xarici işlər və müdafiə nazirliklərinin vasitəsilə Ermənistanla Azərbaycan arasında müəyyən saziş əldə olunmasına razılıq vermişik.

Mən son aylarda gedən proseslərin hamısını sizin yadınıza salıb, onları təhlil etmək fikrində deyiləm. Ancaq bəzi məqamları qeyd etmək istəyirəm. Məlumdur ki, hələ keçən il dekabr ayının 24-də Aşqabatda Müstəqil Dövlətlər Birliyinin toplantısında mən Ermənistan prezidenti Levon Ter-Petrosyanla görüşüb ətraflı söhbət apardım və Azərbaycanla Ermənistan arasında gedən müharibəyə son qoyulması haqqında təkliflər irəli sürdüm. Bizim aramızda geniş fikir mübadiləsi oldu. O vaxt, yəni Müstəqil Dövlətlər Birliyinin toplantısında mən son illər Ermənistanın Azərbaycana qarşı təcavüzü haqqında geniş bəyanat verdim, müstəqil dövlətlərin başçılarını bu məsələyə müdaxilə etməyə çağırdım və bəyan etdim ki, Müstəqil Dövlətlər Birliyinə daxil olan dövlətlər arasında müharibə qeyri-normal bir haldır. Ona görə də hər bir dövlət, onun başçısı bu məsədəyə öz münasibətini bildirməlidir.

Sonra Rusiyanın Xarici İşlər Nazirliyi bu istiqamətdə fəaliyyətə başladı. Biz onların nümayəndəsini bir neçə dəfə qəbul etdik, ayrı-ayrı saziş layihələrinə baxdıq, öz ilk təkliflərimizi verdik və bəzi kompromislərə gedərək saziş əldə olunmasına çalışdıq. Ancaq bunlar da nəticə vermədi. Nəhayət, fevralın 18-də Moskvada Azərbaycanın, Ermənistanın və Rusiyanın müdafiə nazirləri görüşdülər, atəşin dayandırılması barədə, Ermənis-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

tanla Azərbaycan arasında sülh danışıqları aparılması haqqında protokol imzalandı. Bu addımı biz ona görə etdik ki, məsələnin məhz sülh yolu ilə həll olunmasına çalışmışıq və bu gün də çalışırıq. Həmin protokol əsasında martın 1-dən Qarabağ bölgəsində, bütün cəbhə bölgələrində Azərbaycanla Ermənistan arasında atəş dayandırılmalı, bundan sonra danışıqlar getməli Ermənistanın silahlı qüvvələri Azərbaycanın işğal olunmuş torpaqlarını tərk etməli idi. Danışıqlar nəticəsində biz sonra yeni böyük müqaviləyə yaxınlaşmalı idik.

Lakin Ermənistan tərəfi bu sazişi də pozdu, martın 2-dən başlayaraq bizim mövqelərə müntəzəm hücumlar etdi. Beləliklə, bu saziş də heç bir nəticə vermədi.

Martın 12-də Qazaxda Azərbaycan və Ermənistan respublikaları parlamentlərinin sədrləri görüşərək danışıqlar apardılar. Biz ümid edirdik ki, bu danışıqlar nəticə verəcəkdir. Ancaq Ermənistan tərəfi sonra bu danışıqlara riayət etmədi, Azərbaycanın ərazisinə, ordumuzun mövqelərinə hücumları yenə də davam etdirdi. Ermənistan silahlı qüvvələrinin bu hücumları demək olar ki, mart ayının axırınadək davam etmişdir.

Ancaq mən böyük bir məmnuniyyətlə, qürur hissi ilə deyə bilərəm ki, Azərbaycan ordusunun hissələri, bizim hərbi bölmələrimiz, döyüşçülərimiz bütün bu hücumların qarşısını almışlar. Ermənistan silahlı qüvvələri böyük itkilər vermiş və xüsusən ən çox hücum etdikləri Füzuli rayonunun ərazisində heç nəyə nail olmadan geri çəkilməyə məcbur olmuşlar.

Bütün bunlara baxmayaraq, biz yenə də sülh danışıqları aparılmasının tərəfdarı olmuşuq. Təxminən bir həftə bundan öncə Rusiya Xarici İşlər Nazirliyinin nümayəndəsi, səlahiyyətli səfir, Rusiya prezidentinin nümayəndəsi Vladimir Kazimirov Bakıda olmuş, bizimlə danışıqlar aparmış, bizə yeni bir saziş layihəsi təqdim etmişdir. Biz bu layihəyə baxıb birgə müzakirə edəndən sonra ona müəyyən təkliflərimizi verib, prinsip etibarilə belə bir sazişə imza atmağa meylli olduğumuzu bildirmişik - şübhəsiz ki, bizim təkliflərimiz, şərtlərimiz qəbul olunmaqla. Bundan sonra Vladimir Kazimirov Yerevanda olmalı, orada danışıqlar aparmalı idi. Biz də bunun nəticələrini gözləyirdik.

Ancaq bunların hamısına baxmayaraq, son günlər Ermənistan silahlı qüvvələri yenidən, bizim mövqelərə, Azərbaycanın ərazisinə hücumlara başlamışlar. Aprelin 10-da səhər tezdən Ermənistan silahlı birləşmələri böyük qüvvə ilə Goranboy və Tərtər rayonlarının ərazilərində güclü hücumlar etmiş, orada Gülüstan və Talış məntəqələrini ədə keçirməyə cəhd göstərmişlər. Qanlı döyüşlər getmiş, Azərbaycan ordusunun hissələri onlara layiqli cavab vermişlər.

Hər iki tərəfdən itkilər olmuşdur. Erməni silahlı qüvvələri orada bir-iki yüksəkliyi ələ keçirsələr də, öz məqsədlərinə nail ola bilməmişlər. Dünən də, bu gün də həmin bölgədə döyüşlər gedir.

Dünən səhər tezdən Ermənistan hərbi hissələri Ağdərə və Ağdam istiqamətlərində güclü hücuma keçmişlər. Onlar Ağdərə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bölgəsində Madagiz, Akop Kamari məntəqələrini ələ keçirməyə çalışmışlar. Dünən ermənilər Ağdam rayonunun ərazisində üç dəfə güclü hücum etmişlər. Hərbi hissələrimiz həmin istiqamətdə də erməni silahlı qüvvələrinə layiqli cavab vermişlər. Gözlədiyimiz kimi, döyüşlər bu gün də davam etmiş, ermənilər yeni qüvvə ilə həmin istiqamətlərdə, həmçinin Goranboy rayonu istiqamətində hücumları davam etdirmişlər.

Beləliklə, Ermənistanın təcavüzü yeni mərhələyə keçmişdir. Görünür, erməni silahlı qüvvələri atəşin dayandırılmasından istifadə edərək öz güclərini toplamış, Ermənistanın hər tərəfindən (mən bunu qətiyyətlə deyə bilərəm) bu bölgəyə qüvvələr gətirmişlər. Bu, bir daha göstərir ki, Ermənistan öz təcavüzkar siyasətindən əl çəkmir, qəsbkarlıq niyyətlərini həyata keçirməyə, Azərbaycanın yeni ərazilərini zəbt etməyə çalışır.

Azərbaycan vətəndaşlarına bildirmək istəyirəm ki, Milli Ordumuzun hissələri bütün bu bölgələrdə qanlı döyüşlər apararaq düşmənə güclü müqavimət göstərir, ona ağır zərbələr vurur, öz mövqelərini etibarlı müdafiə edirlər. Məsələn, dünən Ağdam istiqamətində güclü hücumların qarşısı alınmışdır. Orada 21 döyüşçümüz şəhid olmuş, 46 nəfər yaralanmışdır. Şəhid olanların 12 nəfəri Sumqayıt batalyonunun şəxsi heyətindəndir. Batalyon komandiri, iki il cəbhədə vuruşan, Ağdam rayonunun sakini Elmar Edilov dünən qəhrəmanlıqla həlak olmuşdur. Batalyon komandirinin müavini ağır yaralanmışdır. Lakin bütün bunlar ordu hissələrimizin iradəsini qırmamışdır və onlar bu gün də səhər tezdən Ermənistan silahlı qüvvələrinin hücumlarına cavab verirlər. Ağdərə bölgəsində təxminən 23-24 nəfər həlak olmuşdur. Goranboy bölgəsində də həlak olanlar, yaralananlar var. Mən bu gün Azərbaycan vətəndaşları qarşısında çıxış edərkən son günlərdə Vətəni qoruyaraq, torpaqlarımızın keşiyində dayanaraq, düşmənə layiqli cavab verərək qəhrəmanlıqla həlak olmuş övladlarımızın igidliyi önündə baş əyir, onların Vətən yolunda şəhid olmuş Azərbaycan övladlarının hamısının ailələrinə başsağlığı verirəm. Allah onlara rəhmət eləsin!

Son üç gün ərzində ordumuzun hərbi hissələri, qəhrəman döyüşçüləri torpaqlarımıza qarşı yenidən hücuma başlamış, Ermənistan silahlı qüvvələrinə böyük zərbələr vurmuşlar. Azərbaycan vətəndaşları bilməlidirlər ki, həmin bölgələrdə Ermənistan silahlı qüvvələrinin itkiləri bizimkindən bir neçə dəfə artıq olmuşdur. Bu, həm canlı qüvvəyə, həm də texnikaya aiddir. Məsələn, dünən Ağdam istiqamətində gedən döyüşlərdə ermənilərin 4 tankı, bir neçə piyada maşını, çoxlu canlı qüvvəsi məhv edilmişdir. Düşmən başqa bölgələrdə də çoxlu itkilərə məruz qalmışdır. Düşmənin canlı qüvvə sarıdan verdiyi itkilər arasında yüksək rütbəli zabitlər də vardır. Bu, bir daha göstərir ki, əsgər və zabitlərimiz Vətən yolunda şəhid olsalar da, düşmənə güclü zərbələr vurmuşlar.

Televiziya studiyasına gedərkən cəbhə bölgələri ilə yenə də əlaqə saxlamışam. Əsgərlərimiz, komandirlərimiz məni əmin et-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mişlər ki, mövqelərimizin müdafiəsində möhkəm dayanmışlar, düşməni geri oturdurlar və torpaqlarımızı əldən verməyəcəklər. Lakin görünür, bütün Ermənistan ərazisindən toplanmış və ciddi hazırlıq keçmiş erməni silahlı birləşmələri ilə döyüşlər hələ davam edəcəkdir.

Biz belə ağır günlər keçiririk. Bu, indiki şəraitimiz üçün artıq təbii hal olmuşdur. Altı ildir ki, Azərbaycan Respublikası, torpaqlarımız Ermənistan tərəfindən silahlı təcavüzə məruz qalmışdır. Mən çıxışımın əvvəlində də dedim ki, bizim əsas məqsədimiz müharibəyə son qoymaq və müharibədən sülh yolu ilə çıxmaqdır. Ancaq erməni silahlı qüvvələri, Ermənistanda olan təcavüzkar dairələr təəssüf ki, yola gəlmək istəmirlər. Onlar guya sülh danışıqlarının tərəfdarı olduqlarını bildirirlər. Ancaq əməli işə gələndə isə bu son üç gündə öz iç üzlərini bir daha açıb göstərdilər.

Mən torpaqlarımızı müdafiə edən döyüşçülərimizə, bütün cəbhə bölgələrində olan vətəndaşlarımızın hamısına səmimi salamlarımı göndərirəm. Torpaqlarımızın müdafiəsində möhkəm durduqlarına görə onlara minnətdarlığımı yetirirəm. Əmin olduğumu bildirirəm ki, onlar bundan sonra da torpaqlarımızı etibarlı müdafiə edəcək, erməni silahlı qüvvələrinə layiqli cavab verəcək, zərbələr endirəcək, düşmənin irəliləməsinə yol verməyəcəklər.

Eyni zamanda bu günlərin hadisələrinin təhlili bir daha göstərir ki, biz erməni təcavüzünə qarşı gücümüzü daha da möhkəmləndirməliyik. Ordu hissələri daha yaxşı təşkil olunmalıdır. Bildiyiniz kimi, aprel ayının 9-u və 10-da mən cəbhə bölgələrində, hərbi hissələrimizdə oldum, əsgərlərimiz, zabitlərimiz, komandirlərimizlə görüşdüm. Onların hamısı yaxşı əhval-ruhiyyə ilə torpaqlarımızın müdafiəsində durubdur. Ançaq eyni zamanda hiss etdim ki, ordumuzun çatışmayan cəhətləri də var. Ordumuz daha da möhkəmləndirilməli, daha yaxşı təşkil olunmalıdır. İndi gərək bütün əhali, Azərbaycanın bütün vətəndaşları, hər bir kəs ordunun möhkəmləndirilməsinə, onun daha da qüdrətli olmasına çalışsın. Son üç gündə baş vermiş hadisələr bir daha göstərir ki, bizim başqa yolumuz yoxdur.

Bu gün mən bütün Azərbaycan xalqına müraciət edirəm. Hamıya bildirmək istəyirəm ki, ölkəmizin təhlükə altında olduğunu gərək hamı dərk etsin. Gərək hər kəs ordumuzun, müdafiəmizin möhkəmlənməsi üçün öz payını versin. Bu baxımdan son vaxtlar orduya səfərbərliyin zəif getməsi məni çox narahat edir. Güman edirəm ki, bu, Hər bir Azərbaycan vətəndaşını da narahat etməlidir. Son vaxtlar orduda fərarilərin sayı artmışdır. Fərarilik etmək, səfərbərlikdən yayınmaq xalqa, Vətənə xəyanət etmək deməkdir. Ona görə də fərarilik yoluna düşənlərə, səfərbərlikdən yayınanlara xəbərdarlıq edirəm, onları bir daha düz yola dəvət edirəm. Fərarilik edən, səfərbərlikdən yayınan gənclərin valideynlərinə, qohum-əqrəbasına müraciət edirəm. Bildirmək istəyirəm ki, onlar da öz övladlarının, qohum-əqrəbalarının fərariliyinə görə, səfərbərlikdən boyun qaçırdıqlarına görə məsuliyyət daşıyırlar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Azərbaycan hər birimizin Vətənidir. Hər kəs, hər bir vətəndaş öz Vətəninin keşiyində durmalıdır. Əgər əsgər, zabit Vətənin keşiyində durursa, döyüşdə həlak olursa, cəbhə bölgəsinə gedə bilməyən vətəndaş öz iş yerində çalışmalı və döyüşməyə qadir olan övladını, qohum-qardaşını mütləq cəbhə bölgəsinə, orduda xidmətə göndərməlidir. Başqa yol yoxdur! Başqa yol ola bilməz! Mən bir daha Azərbaycan vətəndaşlarına, xalqımıza müraciət edərək deyirəm ki, gəlin hamımız əl-ələ verib Vətənin, ana torpağın müdafiəsinə qalxaq. Heç kəs güman etməsin ki, əgər erməni silahlı qüvvələri yenə də bir bəlkədə irəliləyəcəksə, bu, kiməsə xeyir gətirəcək. Bu, heç kəsə xeyir gətirməyəcək! Bu, Azərbaycan xalqına, respublikamıza, onun müstəqilliyinə bir zərbə olacaqdır. Heç kəs güman etməsin ki, o, bu məsuliyyətdən kənarda qalacaq, yaxud da ki, belə bir məğlubiyyətin sayəsində öz şəxsi məqsədlərinə nail olacaqdır. Yox, Allah onlara qənim olacaqdır.

Mən xalqımızın müdrikliyinə inanıram. Güman edirəm ki, haqq işimizin yolunda hər bir azərbaycanlı, hər bir vətəndaş ayağa qalxacaq, xalqa xəyanət edənlər isə bu yoldan çəkinəcəklər. Azərbaycan xalqı Vətənin müdafiəsinə qalxıb və ümidvaram ki, bundan sonra da bu müqəddəs işə xidmət edəcəkdir. Xalqımızı əmin edirəm ki, ordumuz, cəbhədə döyüşən əsgərlərimiz, zabitlərimiz torpaqlarımızı etibarlı müdafiə edir, erməni silahlı qüvvələrinin bu hücumları da dəf olunacaqdır.

Bununla əlaqədar olaraq mən son günlər yayılmış bəzi şayiələr haqqında da danışmaq istəyirəm. Bilirsiniz, bunlar şayiə olduğu üçün bəlkə də heç diqqətə layiq deyildir. Ancaq bəzən səfeh bir adam tərəfindən uydurulan şayiə təəssüf ki, cəmiyyətdə çaşqınlıq yaradır, adamları azdırır, ümumi işimizə zərər gətirir. Bu şayiələrin hamısı düşmənçilik məqsədi daşıyır və bunları yayanlar xalqımıza xəyanət edənlərdir. Qoy onlar bilsinlər ki, bu şayiələr heç bir nəticə verməyəcəkdir. Təəssüf ki, belə şayiələri yayanların arasında vəzifəli şəxslər də var. Mən onlara öz nifrətimi bildirirəm və güman edirəm ki, cəmiyyətimizin, xalqımızın əksəriyyəti də onlara nifrət edəcəkdir. Vətəndaşlarımızın hamısına çatdırmaq istəyirəm ki, heç kəs narahat olmasın. Torpaqlarımız etibarlı müdafiə edilir. Erməni silahlı qüvvələrinin hücumları dəf olunur və dəf olunacaqdır.

Son günlərdə baş vermiş hadisələrlə əlaqədar mən Dağlıq Qarabağda yaşayan, erməni millətindən olan Azərbaycan vətəndaşlarına da müraciət edirəm. Onlar Azərbaycan ərazisində yaşayırlar. Azərbaycan Respublikasının vətəndaşlarıdırlar. Belə hesab edirəm ki, onların əksəriyyəti çox əziyyət çəkir. Son günlər, eləcə də bundan qabaqkı döyüşlərlə əsir götürülmüş erməni hərbçiləri ifadələr verirlər ki, onları cəbhə bölgələrinə zorla gətirirlər, məcbur edirlər ki, döyüşə girsinlər. Bizə dəqiq məlumdur ki, hətta onlar döyüşlərdə məğlub olaraq geri çəkilərkən onları arxadan atəşə tutur, silah gücünə döyüş meydanında saxlamağa çalışırlar. Əsirlərin verdikləri məlumatlardan görünür ki, həm

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dağlıq Qarabağın əhalisindən olan, həm də Ermənistanın bölgələrindən gələn əsgərlərin əksəriyyətini buraya məcburi gətirirlər. Məsələn, bu günlərdə Goranboy rayonunda əsir düşmüş erməni döyüşçü ifadə vermişdir ki, orada əsgərlərin əksəriyyəti həbsxanadan, azad olunmuş adamlardır. Bu məhbuslara orada deyiblər ki, gedin, əgər qarşınızda duran vəzifələri yerinə yetirsəniz, sizin cinayətləriniz bağışlanacaqdır.

Yerevandan, Leninakandan, Eçmiədzindən, Ermənistanın başqa bölgələrindən gələn şəxslər də onların buraya məcburi olaraq göndərildiklərini bildirirlər.

Ancaq indi mən Dağlıq Qarabağla yaşayan ermənilərə - Azərbaycan vətəndaşlarına xüsusi olaraq müraciət edirəm. Altı ildir ki, siz də bəla içərisindəsiniz, əzab-əziyyətdəsiniz, nə qədər itkilər vermisiniz. Sizin də evləriniz, kəndləriniz dağılıb, yaşayışınız həddindən artıq çətinləşibdir. Sizə nə lazımdır? Bu döyüşlərdə siz də tələf olursunuz, itkilər verirsiniz. Nəyə nail olmusunuz? Altı ildir ki, təcavüzkar, millətçi dairələr sizi - Azərbaycan vətəndaşlarını, Dağlıq Qarabağ sakinlərini mənasız müharibəyə cəlb ediblər. Siz də, Dağlıq Qarabağda yaşamış azərbaycanlılar da, ətraf rayonlarla yaşamış və bu gün də yaşayan azərbaycanlılar da on illərlə dostluq, mehribanlıq şəraitində yaşamısınız. Siz, Dağlıq Qarabağda məskunlaşmış ermənilər 160 ildən artıqdır ki, orada yaşayırsınız. Bu müddətdə baş vermiş bəzi iğtişaşları kənara qoysaq, siz azərbaycanlılarla daim dostluq, mehribanlıq şəraitində yaşamısınız. nə üçün belə yaşayış sizin üçün münasib olmadı? Siz nə üçün bu müharibəyə, qan tökülməsinə, bu tələfatlara, dağıntılara üstünlük verldiniz? Nə üçün? Ayılın, bilin ki, bu müharibənin mənası yoxdur. Təcavüzkar dairələr öz niyyətlərinə, məqsədlərinə nail ola bilməyəcəklər. Azərbaycan Respublikası öz torpaqlarını heç vəchlə əldən verməyəcəkdir. Hələ ki, kec deyil, ziyanın yarısından da qayıtmaq xeyirdir. Bu müharibədən əl çəkin. Bilin ki, biz sizi Azərbaycan vətəndaşları kimi gələcəkdə də qoruyacağıq. Sizin hüquqlarınız qorunacaqdır. Sizə əminamanlıq vəziyyətində yaşamaq üçün lazımi şəraiti yaradacağıq.

Mən eyni zamanda Ermənistai Respublikasının vətəndaşlarına, erməni xalqına, Ermənistanın rəhbərlərinə, prezident Levon Ter-Petrosyana, Ermənistanda fəaliyyət göstərən siyasi partiyalara, onların başçılarına müraciət edirəm və bildirmək istəyirəm ki, bu təcavüzkar siyasətin mənası yoxdur! Siz bundan əl çəkin! Sübut etməyə ehtiyac yoxdur ki, bu müharibə Ermənistanın təcavüzkar, millətçi dairələri tərəfindən başlanıblır və Ermənistan xalqına heç bir xeyir gətirməyibdir. Ermənistan xalqı da, Ermənistan Resiublikasının vətəndaşları da altı ildir ki, əzab-əziyyət içərisindədirlər. Bunlar nəyə lazımdır? mən Ermənistan Respublikasının prezidenti Levon Ter-Petrosyanla dünən də, bu gün də telefonla danışmağa cəhd göstərdim. Ancaq danışmaq mümkün olmadı. Ona görə də televiziya vasitəsilə müraciət edirəm. Mən onu və Ermənistanın bütün rəhbərlərini öz xalqları qarşısında məsuliyyətə dəvət edirəm. Elə son döyüşlərlə Ermənistan silahlı qüvvələrinin bir neçə yüz əsgəri həlak olub, yara-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lanıb. Ermənistanın təcavüzkar dairələri, bu müharibəni davam etdirən dairələr həlak olmuş vətəndaşları qarşısında cavabdehdirlər. Onlar bu qanı tökürlər, ancaq bunun sonu yoxdur.

Mən tam səmimiyyətlə deyirəm ki, biz müharibəyə son qoymaq, bütün imkanlardan istifadə edib danışıqlar aparmaq istəyirik. Ancaq bir şərtlə - erməni təcavüzkarları, silahlı qüvvələri Azərbaycan torpaqlarını tərk etməlidirlər, respublikamızın ərazi bütövlüyü, sərhədlərimizin toxunulmazlığı təmin olunmalıdır. Mən bu son üç günün nəticələrini təhlil edərək bir daha bəyan edirəm ki, biz sülh mövqeyində dururuq. Ona görə yox ki, bu təcavüzlər, bu hücumlar bizi qorxudur, yox. Ona görə ki, biz qan tökülməsinin tərəfdarı deyilik.

Dünyaya məlumdur ki, Azərbaycan Respublikası Ermənistan tərəfindən təcavüzə məruz qalmışdır. Dünyaya məlumdur ki, torpaqlarımızın yüzdə iyirmi faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Ona görə də biz ədalətli döyüşlər aparırıq, öz torpaqlarımızı, öz vətəndaşlarımızı, öz Vətənimizi qoruyuruq. Mən dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, Birləşmiş Millətlər Təşkilatına, BMT Təhlükəsizlik Şurasına müraciət edirəm. Təhlükəsizlik Şurasının daimi üzvləri - Amerika Birləşmiş Ştatlarının, İngiltərənin, Fransanın, Rusiyanın, Çinin rəhbərlərinə müraciət edirəm və bəyan edirəm ki, onlar Ermənistan Respublikasının təcavüzkarlığının qarşısını almaq üçün təsirli tədbirlər görməlidirlər. Biz Rusiyanın vasitəçilik təşəbbüsünü qəbul etmişik, bu təşəbbüsdən faydalanmağa çalışmışıq. Ancaq neçə aydır danışıqlar getsə də, təəssüf ki, bir nəticə əldə olunmayıb.

Güman edirəm ki, Rusiya kimi böyük bir dövlət - həm Azərbaycanla, həm də Ermənistanla yaxın dostluq əlaqələri olan, dünya miqyasında böyük təsirə malik, Təhlükəsizlik Şurasının daimi üzvü olan bir dövlət bu bölgədə öz rolunu oynamalıdır.

Mən ATƏM təşkilatına, Minsk qrupunun üzvlərinə müraciət edirəm, onları daha çox fəallıq göstərməyə dəvət edirəm. Azərbaycanla qonşu olan dövlətlərə - Türkiyə Cümhuriyyətinə, İran İslam Cümhuriyyətinə, Gürcüstan Respublikasına müraciət edirəm. Hesab edirəm ki, onlar həm Azərbaycan ilə, həm də Ermənistan ilə qonşu olduqlarına görə bu münaqişədən kənarda qalmamalıdırlar, bu müharibəyə son qoymaq üçün öz imkanlarından daha yaxşı istifadə etməlidirlər.

Bir məsələni də nəzərə çatdırmaq istəyirəm ki, erməni silahlı qüvvələrinin son üç gündə Azərbaycan torpağına, hərbi hissələrimizin mövqelərinə hücumları heç də təsadüfi baş verməmişdir. Təxminən bir ay bundan öncə ATƏM-in Minsk qrupunun yeni başçısı Yan Eliasson böyük bir heyətlə Azərbaycanda, Ermənistanda olmuş, danışıqlar aparmış, Minsk qrupunun fəaliyyətinin daha da güclənməsi haqqında bizə məlumatlar vermişdir.

Aprelin 11-də, yəni dünən Praqa şəhərində Minsk qrupunun Dağlıq Qarabağ problemi ilə əlaqədar iclası başlanmışdır. Məhz bu günlərdə, həmin iclasda Azərbaycan və Ermənistan nüma-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yəndələrinin iştirak etdiyi bir vaxtda Ermənistan silahlı qüvvələri belə güclü hücumlara keçmişlər. Bildiyiniz kimi, aprelin 14-15-də Moskva şəhərində Müstəqil Dövlətlər Birliyi dövlət başçılarının görüşü keçiriləcək, mühüm məsələlər müzakirə olunacaqdır. Bu ərəfədə Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı hücumları da yəqin ki, bir məqsəd daşıyır: ola bilər ki, bu hücumlarla Azərbaycana və onun rəhbərliyinə təsir göstərmək istəyirlər. Ancaq böyük səhv edirlər. Heç kəs bizə təsir edə bilməz! Biz Azərbaycan Respublikasının müstəqilliyini qorumuşuq və bundan sonra da qoruyacağıq. Biz müstəqilliyimizin keşiyində nəyin bahasına olursa-olsun durmuşuq.

Mən eyni zamanda MDB-nin üzvü olan dövlətin rəhbəri kimi, həmin birliyə daxil olan müstəqil dövlətlərin başçılarına müraciət edirəm. Bir daha bəyan edirəm ki, Müstəqil Dövlətlər Birliyinin tərkibində olan dövlətlər arasında müharibənin getməsi qeyri-normal bir haldır. Müstəqil Dövlətlər Birliyində böyük xüsusi çəkisi olan Rusiya dövlətinə, onun başçılarına müraciət edirəm: Bu hadisələrə son qoymaq lazımdır. Rusiyanın bu məsələləri sülh yolu ilə həll etmək imkanları vardır. Zənn edirəm ki, onlar bu imkanlardan istifadə edəcəklər və etməlidirlər.

Güman edirəm ki, mənim bu müraciətlərim diqqətsiz qalmayacaq, dünya ictimaiyyəti tərəfindən düzgün qarşılanacaq, qəbul olunacaqdır. Dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, beynəlxalq normalara güvənərək bu gün televiziya və radio vasitəsilə öz fikirlərimi onlara çatdırıram.

Eyni zamanda respublikamızın daxili həyatına nəzər salaraq bir daha bütün Azərbaycan vətəndaşlarına, respublikamızda olan siyasi qüvvələrə müraciət edirəm. Bəyan etmək istəyirəm ki, respublikamızın bu ağır dövründə, çətin günündə hamı bir məqsədə qulluq etməlidir. Bu məqsəd Azərbaycan Respublikasının təhlükəsizliyini təmin etmək, onu ağır müharibə şəraitnidən çıxarmaq və ölkəmizin ərazi bütövlüyünü təmin etməkdən ibarətdir. Bu yolda hamı birləşməli, hamı bu yolla getməlidir. Əgər kimlərsə belə ağır şəraitdə fürsətdən istifadə edib öz mənfur niyyətlərinə çatmaq istəyirsə, qoy bilsinlər ki, buna nail ola bilməyəcəklər.

Mən Azərbaycan xalqının dəyanətinə, dözümünə, qəhrəmanlığına güvənirəm və əminəm ki, biz bütün bu sınaqlardan müvəffəqiyyətlə çıxacaq, torpaqlarımızı müdafiə edəcək və təcavüzkar qüvvələrin hamısına layiqli cavab verəcəyik. Döyüş bölgələrində olan əsgərlərimizə, zabitlərimizə bir daha müraciət edib deyirəm: Bilin ki, siz ana Vətəninizi, torpağınızı müdafiə edirsiniz, müqəddəs amallara xidmət göstərirsiniz. Sizin xidmətiniz xalq, cəmiyyət və dövlət tərəfindən daim qiymətləndiriləcəkdir.

Bu bəyanatlarımın bir hissəsi başqa dövlətlərə yönəldiyinə görə müraciətimin məzmununu qısaca rus dilində təkrar etmək istəyirəm, İstəyirəm ki, müraciət etdiyim dövlət nümayəndələri, Dövlət başçıları mənim fikirlərimi öz dilimdən eşitsinlər...

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əziz və hörmətli həmvətənlər! Bu gün həm böyük həyəcanla, həm də böyük ümidlə sizə müraciət edirəm. Ümidvaram ki, Azərbaycan xalqı bu ağır sınaqlardan çıxacaq, öz gücünü toplayacaqdır. Azərbaycan Respublikasının vətəndaşları milli həmrəylik, vətəndaş həmrəyliyi əsasında bütün bu çətinlikləri dəf edəcəklər. Əminəm ki, respublikamızın müdafiəsində, keşiyində dayanan Azərbaycan ordusu, qəhrəman əsgərlərimiz verdikləri sözə əməl edəcək, torpaqlarımızı etibarlı qoruyacaqlar. Sizə bugünkü müraciətim yalnız və yalnız Azərbaycan xalqını, respublikamızın vətəndaşlarını bir daha ayağa qaldırmaq məqsədi daşıyır. Başqa məqsəd yoxdur və heç bir narahatlıq üçün də əsas yoxdur. Mən Azərbaycan vətəndaşlarına güvənirəm və əminəm ki, hamımız birlikdə bu çətinliklərdən çıxacağıq.

Diqqətinizə görə sağ olun. Hamınıza yaxşı gələcək, xoş günlər diləyirəm.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

MDB DÖVLƏT BAŞÇILARI ŞURASININ İCLASINDA ERMƏNİSTAN SİLAHLI QÜVVƏLƏRİNİN AZƏRBAYCAN ƏRAZİSİNDƏ GENİŞMİQYASLI HÜÇUMLARI İLƏ ƏLAQƏDAR BƏYANAT

Fövqəladə vəziyyət məni bu bəyanatla sizə müraciət etməyə vadar edir.

Bu il aprelin 10-dan başlayaraq Ermənistan Respublikasının silahlı qüvvələri Azərbaycan Respublikasının Goranboy və Tərtər rayonları istiqamətində, aprelin 11-dən isə Ağdərə və Ağdam rayonları istiqamətində yeni genişmiqyaslı hücuma keçmişlər. Bu günlər Azərbaycan bölmələri Ermənistan Respublikası silahlı qüvvələrinin sayca üstün olan hissələrinin fasiləsiz hücumlarını dəf edərək, qanlı müdafiə döyüşləri aparırlar. Ermənistan ərazisindən münaqişə zonasına 3000 nəfərədək canlı qüvvə, onlarca zirehli texnika və ağır top, o cümlədən "Qrad" qurğuları gətirilmişdir. Azərbaycanın adları çəkilən rayonlarının yaşayış məntəqələri bu qurğulardan atəşə tutulur. Həmin kəndlərdə böyük dağıntılar, mülki əhali arasında çoxlu tələfat var.

Beləliklə, Ermənistan Respublikası Azərbaycan ərazisində öz işğalçılıq müharibəsini davam etdirərək, Azərbaycan Respublikasının müstəqilliyinə, suverenliyinə və ərazi bütövlüyünə qəsd edir, Azərbaycan dövlətçiliyini də təhlükə altına qoyur.

Ermənistan təcavüzü davam etdirərək, problemin sülh yolu ilə aradan qaldırılması prosesinə mane olur, halbuki Azərbaycan bu proseslə ən fəal surətdə iştirak edir. Hər dəfə böyük vasitəçilik təşəbbüsləri irəli sürülərkən və ya onların irəli sürülməsi ərəfəsində növbəti hücuma başlayan təcavüzkar, qanlı münaqişəyə son qoymaq üçün təəssüf ki, hələlik uğursuz cəhdlər göstərən dünya birliyinə həyasızcasına meydan oxuyur.

Mən ermənilərin son hücumunu Azərbaycanın yeni ərazilərini işğal etmək məqsədilə Ermənistan Respublikasının təcavüzünün yeni mərhələsi kimi qiymətləndirirəm, Ermənistan Respublikası münaqişənin sülh yolu ilə aradan qaldırılmasına səy göstərməsi barədə dəfələrlə bəyanat verməsinə baxmayaraq, MDB üzvü olan suveren dövlətin ərazisinin içərilərinə doğru son hücumu ilə özüçün əsl niyyətlərini - Azərbaycana və onun rəhbərliyinə təzyiq göstərmək və sülh prosesinə mane olmaq niyyətlərini nümayiş etdirir.

Diqqətinizi belə bir cəhətə xüsusilə cəlb etmək istəyirəm ki, erməni silahlı qüvvələrinin yeni hücumu bu il aprelin 11-də Praqada ATƏM-in Minsk qrupunun iclasının açılışından bir gün əvvəl başlanmışdır. Həmin iclasda Azərbaycan və Ermənistan nümayəndələri də iştirak edirlər.

Azərbaycana qarşı Ermənistan Respublikasının təcavüzünün genişlənməsi Rusiyanın vasitəçilik təşəbbüsü çərçivəsində gərgin danışıqlar getdiyi dövrdə və Müstəqil Dövlətlər Birliyi ölkələri başçılarının indiki görüşü zamanı baş verir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qeyd etmək lazım gəlir ki, 1993-cü ilin dekabrında MDB dövlət başçılarının Aşqabatda keçirilən iclasından sonra, o zaman mən Ermənistan prezidenti L.Ter-Petrosyanla görüşmüşdüm, - Azərbaycan Respublikası barəsində Ermənistan Respublikasının siyasətində müsbət dəyişikliklər olmamışdır. Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisinin 20 faizindən çoxunun işğalını və etnik təmizləməni davam etdirməkdədirlər. Adamlar həlak olur, çadır şəhərciklərinə sığınmış bir milyondan çox azərbaycanlı qaçqın hədsiz məhrumiyyətlərə və məşəqqətlərə məruz qalır.

Qeyd etmək istəyirəm ki, Azərbaycan dünya birliyinin, o cümlədən beynəlxalq təşkilatların və böyük dövlətlərin bütün vasitəçilik səylərində ən fəal iştirak etmişdir. Buna misal olaraq, mənim Ermənistan prezidenti ilə apardığım danışıqlardan əlavə, 1994-cü il fevralın 18-də Azərbaycan, Ermənistan və Rusiya Federasiyası müdafiə nazirlərinin görüşünü, 1994-cü ilin martında ATƏM-in Minsk qrupunun sədri Yan Eliassonun Azərbaycana və Ermənistana gəlməsini, bu il martın 12-də Azərbaycan və Ermənistan parlamentləri başçılarının görüşünü, Rusiya Federasiyası prezidentinin xüsusi nümayəndəsi V.N.Kazimirovla Bakıda və Moskvada aparılmış danışıqları, bu ilin martında MDB Parlamentlərarası Məclisinin sülh məramlı qrupunun səfərini göstərmək olar. Lakin qarşılıqlı surətdə məqbul güzəştli qərara gəlmək üçün Azərbaycanın göstərdiyi bütün cəhdlər Ermənistanın zorakılıq mövqeyi ilə qarşılaşır.

Ermənistan Respublikası qəbul edilməsi əvvəlcədən mümkün olmayan şərtlər irəli sürməklə hər cür əməli təklifə əngəl törədir. Onun irəli sürdüyü şərtlər Azərbaycan ərazisində hərbi əməliyyat meydanı yaratmış Ermənistan Respublikasının işğal etdiyi əraziləri Dağlıq Qarabağ üçün müstəqil dövlət statusuna dəyişmək, yəni əslində Azərbaycan Respublikasını parçalamaq məqsədi daşıyır.

Azərbaycan Respublikasının ədalətli mövqeyi işğal olunmuş bütün ərazilərin azad edilməsinə və öz suverenliyinin bərpasına, qaçqınların və köçgünlərin daimi yaşayış yerlərinə qaytarılmasına və Ermənistan Respublikasının təcavüzü nəticələrinin aradan qaldırılmasına nail olmaq səyindən ibarətdir. Azərbaycan müharibə istəmir və Ermənistanı suveren dövlətlərin qarşılıqlı münasibətlərinin hamı tərəfindən qəbul edilmiş prinsipləri əsasında sülhə çağırır. Vətəndaş sülhünə və həmrəyliyinə çalışan Azərbaycan hekuməti Dağlıq Qarabağ bölgəsinin erməni sakinlərinin təhlükəsizliyinə və vətəndaş hüquqlarına təminat verməyə hazırdır, bir şərtlə ki, onlar Azərbaycan Konstitusiyasına tabe olsunlar.

Bildiyiniz kimi, Aşqabatda Azərbaycan təklif etmişdi ki, birlik dövlətlərində siyasi vəziyyəti sabitləşdirməyə və MDB üzvü olan dövlətlərdən hər birinin suverenliyinin, ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının qarşılıqlı surətdə tanınmasını və bunlara hörmət olunmasını təmin etməyə yönəldilmiş ikitərəfli və çoxtərəfli sazişlər sistemi işlə-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

nib hazırlansın. Mən bu barədə bir daha ona görə danışıram ki, həyat təsdiq edir: Müstəqil Dövlətlər Birliyinin üzvlərindən birinin - Ermənistan Respublikasının MDB-nin başqa bir üzvünə - Azərbaycan Respublikasına qarşı açıq təcavüz etməsi kimi biabırçı fakta laqeydliklə yanaşılması yaşamaq qabiliyyətinə malik beynəlxalq təşkilatın formalaşması, - biz hamımız birliyi belə görmək istərdik, - perspektivlərinin əslində qarşısını alır.

Azərbaycan Respublikasına qarşı təcavüzü və onun nəticələrini aradan qaldıran konkret qərarlar qəbul etmək məqsədilə sizi indiki görüşdə Ermənistan - Azərbaycan münaqişəsi haqqında məsələni müzakirə etməyə çağırmaq istərdim.

Biz, dövlət başçılarına müraciət edərək bir daha təkidlə çağırırıq:

- Azərbaycan Respublikasına qarşı Ermənistan Respublikasının təcavüzünə siyasi qiymət verilsin;
- Ermənistan Respublikasından tələb edilsin ki, Azərbaycan Respublikasına qarşı hərbi əməliyyatları dayandırsın və öz silahlı qüvvələrini suveren Azərbaycanın ərazisindən dərhal, qeyd-şərtsiz və danışıqsız çıxartsın;
- Ermənistan Respublikasından yenidən hərbi əməliyyatlara başlamamaq barədə qəti siyasi təminat tələb edilsin;
- MDB-nin digər üzvünə qarşı silahlı təcavüz edən MDB üzvü Ermənistan Respublikası barəsində sanksiyalar tətbiq olunsun.

Bundan sonra da ləngik və fəaliyyətsizlik göstərilməsi birliyin bütün dövlətlərinə daha böyük bəlalar gətirə bilər.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının prezidenti
Moskva,

15 aprel 1994-cü il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

PREZİDENT SARAYINDA AZƏRBAYCAN ƏRAZİSİNƏ ERMƏNİSTAN SİLAHLI QÜVVƏLƏRİNİN YENİ HÜCUMLARI İLƏ ƏLAQƏDAR GÜCLÜ ORDU YARATMAQ ÜÇÜN BÜTÜN QÜVVƏLƏRİN SƏFƏRBƏRLİYƏ ALINMASI VƏZİFƏLƏRİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ

17 aprel 1994-cü il

Bu müşavirə fövqəladə xarakter daşıyır, respublikanın cəbhə bölgələrində gedən döyüşlərlə əlaqədar lazımi tədbirlər görülməsi ilə bağlıdır. Bildiyiniz kimi, son günlər, yəni aprelin 9-10-dan Ermənistan silahlı qüvvələri Azərbaycan Respublikasının ərazisinə cəbhə bölgələrindəki mövqelərimizə təcavüzü, hərbi hücumları gücləndirmişlər və bu həmlələr indiyə qədəm davam edir. Bu hücumların dayandırılması və danışıqlar aparılması haqqında biz təkliflər irəli sürmüşdük.

Sizə məlumdur ki, aprelin 12-də mən televiziya və radio ilə Azərbaycan xalqına, eyni zamanda Ermənistanın rəhbərlərinə, erməni xalqına, Dağlıq Qarabağda yaşayan, erməni millətindən olan Azərbaycan vətəndaşlarına, dünya ictimaiyyətinə, Müstəqil Dövlətlər Birliyi ölkələrinin başçılarına, beynəlxalq təşkilatlara müraciət etdim, yaranmış vəziyyət haqqında məlumat verdim. Bəyan etdim ki, Azərbaycan Respublikası bu hücumların qarşısının alınmasını, sülh danışıqları aparılmasını və lazımi saziş əldə olunmasını tələb edir.

Mənim bu bəyanatım, çağırışlarım ictimaiyyət tərəfindən ümumən müsbət qəbul olundu və dünya ölkələri tərəfindən də müsbət qarşılandı, yaxşı əks-səda doğurdu. Təəssüf ki, bütün bunlarla yanaşı, Ermənistan tərəfi, Ermənistan silahlı qüvvələri öz iddialarını davam etdirirlər və vəziyyəti təhrif etməyə çalışırlar. Onlar bu hücumların guya Azərbaycan tərəfindən olduğunu sübut etməyə cəhd göstərirlər.

Nəhayət, bilirsiniz ki, aprelin 14-də və 15-də Moskvada Müstəqil Dövlətlər Birliyi dövlət başçılarının görüşü olmuşdur. Mən Rusiya prezidenti Boris Yeltsinlə görüşüb söhbət etdim, Rusiyanın baş naziri Viktor Çernomırdinlə, xarici işlər naziri Andrey Kozırevlə söhbət etdim. Müstəqil dövlətlərin başçıları ilə də söhbətlərimiz oldu. Ermənistan prezidenti Levon Ter-Petrosyanla da danışıqlarımız oldu. Bunlarla yanaşı, aprelin 15-də mən Müstəqil Dövlətlər Birliyinin iclasında rəsmi bəyanatla çıxış etdim. Bu bəyanat mətbuatda dərc olunmuş, televiziya ilə yayılmışdır.

Mən bəyanatımda bildirdim ki, Müstəqil Dövlətlər Birliyi Azərbaycanla Ermənistan arasında gedən müharibəyə biganə qala

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bilməz, xüsusən son günlərdə Ermənistan silahlı qüvvələrinin hücumlarının qarşısını almaq üçün konkret tədbirlər görməlidir. Həmin təkliflərin əsasında müzakirə getdi və nəhayət, Müstəqil Dövlətlər Birliyi dövlət başçılarının bəyanatı qəbul olundu. Bu bəyanat da mətbuatda verilib.

Bəyanatda qeyd olunur ki, Müstəqil Dövlətlər Birliyinin başçıları nəzərə alırlar ki, Azərbaycan və Ermənistan respublikalarının rəhbərləri atəşin dayandırılmasını bəyan etdilər. Doğrudan da mən bunu bəyan etdim. Siz bilirsiniz ki, burada başqa müddəalar da var. Lakin aprelin 15-də Müstəqil Dövlətlər Birliyinin belə bir bəyanatından sonra, elə həmin gün, bundan sonra yenə ayın 16-da da Ermənistan silahlı qüvvələrinin hissələri Azərbaycan mövqelərini bir neçə istiqamətdən güclü atəşə tutublar, hücum ediblər. Dünən və bu gecə, elə indi də çox ciddi və qanlı döyüşlər gedir.

Bunlar onu göstərir ki, bizim bütün sülhsevər təşəbbüslərimiz, addımlarımız Ermənistan Respublikasının rəhbərləri tərəfindən rədd olunmuş, onlar sözdə bununla razılaşsalar da, ancaq öz əməllərini əvvəlki kimi davam etdirir, yenə də zorla, güclə Azərbaycan Respublikasını onlar üçün sərfəli olan sazişə getməyə məcbur edirlər. Siz yəqin ki, televiziyada gördünüz - mən Müstəqil Dövlətlər Birliyinin toplantısında da, MDB ölkələri başçılarının qapalı görüşündə də Ermənistan silahlı qüvvələrinin son hücum əməliyyatları barədə öz fikirlərimi ciddi şəkildə bildirdim. Orada müəyyən müzakirə də getdi. Mətbuat konfransında həm mənə, həm də Ermənistan prezidentinə sual veriləndə mən o suala qısa cavab verdim. Lakin Ermənistan prezidenti belə bəyanat verdi ki, guya Ermənistan bu müharibədə iştirak etmir və müharibə yalnız Azərbaycanla Dağlıq Qarabağ arasında gedir. O, eyni zamanda qeyd etdi ki, Ermənistan Rusiyanın təqdim etdiyi plana elə buradaca, bu stol arxasınla, buraya toplaşanlarla birlikdə imza atmağa hazırdır. Sual olunur, əgər Ermənistan müharibədə iştirak etmirsə, müharibə edən tərəf deyilsə, onda Ermənistan hansı hüquqla və nəyə görə belə bir planı, belə bir sazişi imzalamaq istəyir? Yəni özləri öz əməllərini artıq büruzə verdilər və ictimaiyyətə göstərdilər.

Bütün bunlar şübhəsiz ki, ictimaiyyət üçün maraqlıdır. Ancaq bizim üçün o qədər də maraqlı deyil. Bizim üçün maraqlı və əsas odur ki, indiki mövqelərimiz qorunmalı, respublikanın ərazisi müdafiə olunmalıdır. Təəssüf ki, Ermənistan silahlı qüvvələrinin hücumları bizə çox ağır başa gəlir. İtkilər var və dünən də bir neçə yaşayış məntəqəsində qanlı döyüşlər olmuş, onların bəziləri əldən getmiş, yenə də geri qaytarılmışdır. Vəziyyət bir gün, bir sutka müddətində elə dəyişir ki, qəti söz demək mümkün deyil. Ancaq bir fakt məlumdur ki, Ermənistan silahlı qüvvələri həddindən artıq güclü hücuma keçiblər. Etiraf etmək lazımdır ki, bu hücumlar çox səriştəli, peşəkar səviyyədə aparılır. Müşahidələr, cəbhə bölgələrindən bizə verilən məluatlar göstərir ki, bu, yalnız Ermənistan silahlı qüvvələrinin dərinin apardığı hücumlar deyil. Müşahidələr göstərir ki,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

kənar qüvvələr o hücumların təşkil olunmasında fəal iştirak edirlər. Bunlar da cəbhədə vəziyyəti həddindən artıq gərginləşdirir.

Eyni zamanda onu da qeyd etməliyəm ki, Azərbaycan Ordusunun hissələri belə ağır, dəhşətli hücumlara mən bunu aldığım məlumatlara görə deyirəm - çox güclü hücumlara layiqli cavablar verirlər. Döyüşçülərimiz Vətən yolunda həlak olurlar, şəhid olurlar, ancaq torpaqlarımızı müdafiə edirlər. Düzdür, çətinlikləri də var, bəzi yerlərdə geri çəkilməyə məcbur olublar, amma torpaqlarımızı ləyaqətlə qoruyurlar. Elə bu gün səhər mənə məlumat verdilər ki, gecə Ağdam rayonunun Suma kəndinin müdafiəsində qəhrəmancasına vuruşan, vaxtilə Şuşada döyüşərək Milli Qəhrəman adı almış Fərhad Əsgərov da bu gecə şəhid olmuşdur.

Qəhrəmancasına həlak olan təkcə Fərhad Əsgərov deyil. Onun adını ona görə çəkirəm ki, o, məşhur adamdır, Milli Qəhrəmandır. Həlak olanlar, şəhid olanlar çoxdur. Bələləri Vətən, torpaq yolunda döyüşür, canlarını qurban verirlər. Bu təbiidir. Bu, xalqımızın, ordumuzun qəhrəmanlığından, cəsarətindən xəbər verir, onu göstərir ki, ordumuz, xalqımız bundan sonra da öz gücü, məharəti ilə Ermənistan silahlı qüvvələrinin hücumlarının qarşısını ala bilər.

Xahiş edirəm, bu son döyüşlərdə şəhid olmuş həmvətənlərimizin, Azərbaycan övladlarının xatirəsini bir dəqiqəlik sükutla yad edək.

Allah rəhmət eləsin!

Bütün şəhidlərin ailələrinə başsağlığı verirəm. Onları və bütün Azərbaycan xalqını əmin etmək istəyirəm ki, heç kəs unudulmayacaq, qəhrəmanlıq nümunələri xalqın qəlbində həmişəlik yaşayacaq. Məhz belə qəhrəmanlıq nümunələri, şəhidlərin qoyduqları iz Azərbaycan xalqını günü-gündən gücləndirəcək, yüksəldəcək və torpaqlarımızı qorumağa, ərazi bütövlüyümüzü təmin etməyə əsas yaradacaqdır.

Ancaq bununla yanaşı, böyük təəssüf hissi, ürək ağrısı ilə qeyd etmək istəyirəm ki, bəzi cəbhə bölgələrimizdə qorxaqlıq göstərənlər, qaçanlar, cəbhəni qoyub canını qurtaranlar da olubdur. Belə hallar təəssüf ki, davam edir və bu da müdafiə mövqelərimizi zəiflədir, çox yerdə Ermənistan silahlı qüvvələrinin hücumlarına cavab verməyimizə maneələr törədir. Şübhəsiz ki, belə qorxaqlara, fərarilərə, cəbhə bölgəsini qoyub qaçanlara - nə onların özlərinə, nə də valideynlərinə, qohum-əqrəbalarına heç kəs heç vaxt hörmət etməyəcəkdir. Onlar həmişə cəmiyyətin nifrətini qazanacaqlar. Güman edirəm ki, mövcud qanunlar əsasında belə adamlar məsuliyyətə cəlb olunacaq və cəlb olunmalıdırlar.

Mən aprelin 12-də televiziya və radio ilə çıxış edərkən bunu qeyd etmişdim və bu gün, üstündən bir neçə gün keçdikdən sonra bu mövzuya qayıtmağa məcburam ki, ordumuzun formalaşmasında, ordu hissələrimizin əsgərlərlə, zabitlərlə tam təmin olunmasında çox böyük çətinliklərimiz vardır. Bunlar bir tərəfdən səfərbərliyin zəif getməsi, ikinci tərəfdən isə həm ordu hissələrini,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

həm də döyüş bölgələrini qoyub qaçanların fərarilik hallarının artması ilə bağlıdır.

Biz dəfələrlə demişik, aprelin 9-10-da Beyləqanda, Bərdədə keçirilən müşavirələrlə də - oraya icra başçıları, hüquq mühafizə orqanlarının rəhbərləri, rayon hərbi komissarları dəvət olunmuşdular - ciddi söhbətlərimiz oldu, ciddi tapşırıqlar verdik ki, bu hallarla mübarizəni gücləndirmək lazımdır. İndi hərbi hissələrin əsgərlərlə, zabitlərlə təmin edilməsi, ordumuzda nizam-intizamın tam bərqərar olması, fərariliyin qarşısının alınması hamımız üçün, hər bir kəs üçün, xüsusən vəzifəli şəxslər üçün əsas vəzifə, həlledici vəzifədir. İndi bundan əsas vəzifə yoxdur. Çünki biz bunları həyata keçirə bilməsək, torpaqlarımızı müdafiə edə bilməsək, qalan digər iqtisadi, siyasi tədbirlər, ayrı-ayrı adamların arzuları, niyyətləri, cürbəcür iddiaları - bunların hamısı boşa çıxacaqdır. Çünki biz məğlub olsaq, gəlib torpaqlarımızın qalan hissələrini də zəbt etsələr, ondan sonra kim harada yaşayacaq - məlum deyil. Ona görə də dəfələrlə demişəm, təəssüf ki, bu gün təkrar etməyə məcburam ki, ordumuzda intizamın gücləndirilməsi indi bizim üçün əsas vəzifədir və əsas məsələdir.

Son günlər gedən proseslər, yəni cəbhədəki vəziyyət - aprelin 15-16-da, bu gün səhərdən olan vəziyyət onu göstərir ki, bu sahədə biz hələ ki, dönüş yarada bilməmişik. İndi biz ikinci bir mərhələdəyik. Bütün sülhsevər addımları atmalıyıq, bütün vasitələrdən istifadə etməliyik. Müstəqil Dövlətlər Birliyinin vasitəsindən istifadə etdik. Mən sizə deyirəm, əgər Müstəqil Dövlətlər Birliyi aprelin 15-də bəyanat qəbul edibsə və bu bəyanatda göstərilirsə ki, Ermənistanın və Azərbaycanın rəhbərləri atəşin dərhal dayandırılması barədə bəyanat qəbul ediblər və atəş dərhal dayandırılacaq, - həmin o gecə, onun səhəri Ermənistanın silahlı qüvvələri güclü atəşlə bizə hücum ediblərsə, demək bunlar da nəticə vermir.

Rusiya prezidenti Boris Yeltsinlə mənim təkbətək söhbətimdə də, sonra ümumi danışıqlarımızda da o, atəşin dayandırılmasına çox meyl göstərdi. O həm Ermənistan prezidentinə, həm də mənə çox təkidlə dedi ki, atəşi dayandırın.

Boris Yeltsin dedi ki, əgər etiraz olmasa bəlkə o bizim regiona gələr - Azərbaycanda da, Ermənistanda da olar və bu işin həllinə kömək edər. Belə danışıqlardan sonra Ermənistan tərəfindən aprelin 15-16-da, elə bu gün də güclü hücumların başlanması onu göstərir ki, erməni tərəfi üçün heç bir danışığın, heç bir bəyanatın əhəmiyyəti yoxdur. Onlar öz təcavüzkar niyyətlərini, təcavüzkar siyasətlərini davam etdirirlər.

Biz beynəlxalq təşkilatlara da müraciət etmişik. Mənim aprelin 12-dəki müraciətim bizim kanallarla bütün beynəlxalq təşkilatlara - Birləşmiş Millətlər Təşkilatına, BMT-nin Təhlükəsizlik Şurasına, ATƏM təşkilatına, bütün dövlət başçılarının hamısına çatdırılıb. Lakin Ermənistan təcavüzkarları onların heç birindən nəticə çıxarmırlar. Onlar öz təcavüzar qəsbkar siyasətlərini və bu siyasətə əsaslanan əməllərini da-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

vam etdirirlər. Belə bir şəraitdə, yenə də deyirəm, bizim üçün bir nömrəli, ümdə vəzifə ancaq və ançaq ordumuzu qurmaq, bütün hərbi hissələrimizi canlı qüvvə ilə təmin etmək, orduya kömək etmək, fərariliyin qarşısını almaqdır.

Müşavirəyə dəvət olunanların, burada iştirak edənlərin hamısı bu işə məsul adamlardır. Ancaq burada oturanlardan kim əlini ürəyinin başına qoyub deyə bilər ki, o, bu vəzifəsini layiqincə yerinə yetirir? Mən beləsini bu salonda tapa bilmərəm, yoxdur. Hər kəs elə hesab edir ki, bu işi başqası etməlidir, ancaq o, etsə də, etməsə də olar. Onda mən soruşuram: Bəs, biz Vətənimizi necə qoruyub saxlayacağıq? Azərbaycan necə yaşayacaq? Ermənistanın təcavüzündən biz necə xilas olacaq, xalqımızın müdafiəsini necə təmin edəcəyik?

Baxmayaraq ki, son vaxtlar bu barədə görüşlərimiz, danışıqlarımız çox olub, ancaq onlar lazımi nəticələr vermədiyinə görə mən sizi buraya fövqəladə bir vəziyyətdə dəvət etmişəm. Çox vaxt aparmağa da ehtiyac yoxdur. Bilmirəm kim üçün necədir, amma bizim üçün hər bir dəqiqənin böyük əhəmiyyəti var. Ona görə də burada konkret danışıqlar aparmalıyıq. Bu gün, sabah, bir neçə gün ərzində nə etməliyik ki, tezliklə səfərbərlik artıtlaması ilə başa çatsın. Biz ehtiyatdan əlavə qüvvələr toplayıb yeni hərbi hissələr yaratmalıyıq. Orduya başqa köməklikləri etməliyik, cəbhə bölgələrində lazımi tədbirlər görməliyik.

Dünən gecə cəbhə bölgəsi ilə danışarkən mənə məlumat verdilər ki, Tərtərdə Bərdə batalyonunun adamları qaçıb. Mən Bərdə rayon icra hakimiyyətinin başçısını axtarıb tapmışam, soruşuram ki, sizin adamlar niyə qaçırlar? Axı Bərdə ilə Tərtərin arası elə bir qısa məsafədir ki, sıçrayıb oraya düşmək olar. İcra başçısı cavab verir ki, mən gedərəm, vəziyyəti düzəldərəm. Bir-iki saatdan sonra, gecə xəbər verib ki, getdim, hər şeyi yerinə qoydum. Axı bu necə ola bilər, niyə gərək bu adamlar qaçıb dağılsın ki, gecə o kəndə, bu kəndə düşüb qaçanları qaytarasan? Həm də bu yeganə fakt deyil.

Görürsünüz, qəhrəmancasına döyüşənlər, şəhid olanlar haqqında, xüsusən Şuşada Milli Qəhrəman adı almış Ağdamlı Fərhad Əsgərov haqqında dedim. Azərbaycanın belə gözəl vətəndaşları olduğu kimi, xalqımızın adını ləkələyən, onu hörmətdən salan, bugünkü vəziyyətimizi ağırlaşdıranlar da var.

Hesab edirəm ki, bu gün biz konkret tədbirlər haqqında danışmalıyıq. Ondan sonra hər kəs tapşırıq alacaq və bu tapşırıq əsasında lazımi tədbirlər görülməlidir.

YEKUN SÖZÜ

Məsələ aydındır, ancaq vəzifələri bir daha dəqiqləşdirmək istərdim. Birincisi - hərbi xidmətə çağırışla bağlı birinci rübün tapşırığı üç gün ərzində yerinə yetirilməlidir. Bu vəzifə icra başçılarının üzərinə qoyulur. Onlarla yanaşı, hər rayonda, hər şəhərdə hərbi komissar, polis rəisi, prokuror, Milli Təhlükəsizlik İdarəsinin rəisi bütün məsələlərə, o cümlədən bu

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

tapşırığı yerinə yetirilməsinə şəxsən cavabdehdirlər. Görülən işlər barədə hər gün Prezident Aparatına məlumat verilməlidir. Üç gündən sonra isə bu tapşırığın yerinə yetirilməsi barədə qəti raport verilməlidir. Respublika hərbi Komissarlığının müəyyən etdiyi tapşırıq məlumdur, mən bunu təkrar etmək istəmirəm. Lakin kəsir təxminən 30 faizdən artıqdır. Həmin kəsir gərək üç gün ərzində aradan qaldırılsın. Həm də bu o demək deyil ki, siz çağırışçıları hərbi komissarlığa təhvil verən kimi məsələ bununla bitdi. Xeyr, hər bir çağırışçınızın çağırış məntəqəsinə getməsini, hərbi xidmətə başlamasını və bir müddət necə xidmət etməsini izləməlisiniz.

Gərək bundan sonra belə olmasın ki, mən telefonla zəng edib deyəm ki, Bərdə batalyonu, Göyçay batalyonu, Mingəçevir batalyonu, başqa bir batalyon qaçmışdır, oraya gedib, sonra isə iki-üç gün vəziyyəti öyrənib məlumat verəsiniz ki, nə lazımdırsa etmişik. Necə yəni, nə lazımdır etmişik? Bu, sizin borcunuzdur, hər gün bu barədə düşünməlisiniz ki, sizin rayonunuzdan gedən adamlar orduda necə xidmət edirlər.

Mən Moskvaya getməzdən əvvəl telefonla xəbər verdilər ki, Ağdam bölgəsində Xaçmaz batalyonu qaçıb dağılmışdır. Sumqayıt batalyonundan da qaçmışdılar. Düzdür, ondan əvvəl mənə məlumat vermişdilər ki, Sumqayıt batalyonundan bir gündə 12 nəfər şəhid olmuşdur. Mən bunu batalyonun qəhrəmanlıq nümunəsi kimi televiziyada elan etdim. Sabahısı isə mənə dedilər ki, qalanları qaçmışlar. Gecə saat 1-də Sumqayıtın, Ağdamın icra başçılarını taparaq, məcbur etmişəm ki, Ağdama gedib həmin qaçan əsgərləri yığın. Məgər bu, mənim işimdir, mən bunu etməliyəm? Nə üçün icra başçısı bunu mənim tapşırığımdan, göstərişimdən sonra edir? Bir daha təkrar edirəm ki, siz təkcə hərbi xidmətə çağırışın təmin olunmasına yox, çağırışçıların hamısının hərbi hissələrlə qulluq etməsinə cavabdehsiniz və bunu axıradək izləməlisiniz.

İkincisi - yaranmış vəziyyətlə əlaqədar beş gün ərzində ehtiyatdan adamlar toplanmalıdır. Haradan, nə qədər, hansı ixtİsasdan olmalıdırsa, hərbi komissarlıq, Müdafiə Nazirliyi Prezident Aparatında isə Nurəddin Sadıqov bu gün bildirəcəklər. Bu tapşırıq da əvvəlki kimidir. Həmin adamlar Müdafiə Nazirliyinin müəyyən etdiyi hərbi hissələrə gedərək orada xidmətə başlamalıdırlar, siz isə onlara nəzarət etməlisiniz.

Bundan əlavə, ayrı-ayrı rayonlar batalyonlar yaratmışdır. Bu işlə də məşğul olmaq lazımdır. Rəqəmləri deyəndə elə hesab etməsinlər ki, çox böyük rəqəmlərdir. Xeyr, Azərbaycan Respublikasının imkanları bundan 10-15 qat artıqdır. Şübhəsiz ki, hər rayona tapşırıq veriləcək. Ancaq mən ilk növbədə, işğal olunmuş rayonların icra başçılarına, rəhbərlərinə, hörmətli adamlarına, ağsaqqallarına müraciət edirəm: sizin rayonlardan əhali köçüb, qaçqın vəziyyətində ayrı-ayrı yerlərlə məskunlaşmışdır. Bir çoxları işsizdir. Ən yaxşı yol ondan ibarətdir ki, bu rayonlara daha çox tapşırıq verilsin, onların gəncləri hərbi hissələrdə xidmət edərək torpaqların azad olunmasına çalışsınlar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bunu deyərkən mən başqa rayonları çağırışdan azad etmək fikrində deyiləm. Hansı kənddən, hansı şəhərdən, hansı rayondan olmasına baxmayaraq, Azərbaycanın hər bir vətəndaşı torpaqlarımızı qorumaq üçün eyni məsuliyyət daşıyır, ondan vətəndaşlıq borcunu eyni səviyyədə yerinə yetirmək tələb olunur. Heç kəsə förq qoyulmamalıdır. İşğal olunmuş rayonları ona görə xüsusi qeyd edirəm ki, onların gənclərinin çoxu məskunlaşdıqları yerlərdə işsizdir. Mənə belə gəlir ki, onların orduya gedərək Azərbaycan torpaqlarının azad edilməsinə çalışması daha şərəfli vəzifə olar, nəinki işsiz gəzmək.

Hüquq-mühafizə orqanları çağırışdan yayınan adamlarla ciddi məşğul olmalıdırlar. Burada hərbi komissar təklif verdi ki, hərbi çağırışdan yayınanları tutmaq üçün ayrı-ayrı yerlərdə müəyyən məntəqələr yaradılsın. Əvvəllər bu üsuldan istifadə edilmiş, lakin yaxşı nəticə verməmişdir, bəzən isə hətta mənfi hallara gətirib çıxarmışdır. Ona görə də mənə belə gəlir ki, bu, o qədər də münasib yol deyildir. Ancaq polis rəisləri, sahə müvəkkilləri öz ərazilərində kimin nə işlə məşğul olduğunu, kimin hərbi xidmətə gedəcəyini yaxşı bilirlər. Ona görə də polis, prokurorluq bu işlə xüsusi məşğul olmalıdır. Hərbi çağırışdan yayınan adamlar haqqında ciddi, təcili tədbirlər görülməli və dərhal ictimaiyyətə çatdırılmalıdır ki, başqalarına da dərs olsun.

Hərbi mükəlləfiyyətli şəxslərin respublikadan kənara getmələri üçün rayon hərbi komissarlıqları arayış verir. Yoxlama nəticəsində məlum olmuşdur ki, bu arayışların 90 faizi əsassız verilmişdir. Hava limanında və dəmir yolunda kassirlərin bəziləri rüşvət alaraq müvafiq sənədlər olmadan bilet satmışlar. Hava limanının və dəmir yolunun komendantları, bəzi polis işçiləri öz vəzifələrindən sui-istifadə edərək qanunsuzluğa yol vermiş, beləliklə də hərbi mükəlləfiyyətli şəxslərin respublikadan getmələrinə şərait yaratmışlar. Bəzi icra başçıları da hərbi mükəlləfiyyətli şəxslərin respublikadan kənara getmələrinə nəzarət etmirlər.

Fərarilərin sayı artmışdır. Bunu dəfələrlə demişik və indi də təkrar edirəm: icra başçıları, rayon və şəhərlərin müvafiq orqanlarının rəhbərləri fərariləri axtarıb tapmalı və orduya qaytarmalıdırlar. Bu sahədə ciddi iş görülməlidir. Bundan ötrü on gün vaxt verilir. Həmin müddətdə bütün fərarilər öz hərbi hissələrinə qaytarılmalıdır. Mən yenə bəyan edirəm ki, hərbi hissələrə qayıdan fərarilər məsuliyyətə cəlb olunmayacaqlar. On gün ərzində qayıtmayanlar barədə çox ciddi tədbirlər görmək lazımdır. Televiziya və radio ilə xalqa müraciətimin ertəsi günü - aprelin 13-də polkovnik Elbrus Orucovla danışırdım. O mənə dedi ki, sizin çıxışınızdan sonra 100 nəfər hissələrə gələrək xidmətə başladı və döyüşə getdi. Bununla demək istəyirəm ki, həyatımız təkcə mənfi hallardan ibarət deyil, müsbət hallar da çoxdur. Mən bu xəbərdən çox sevindim. Doğrudur, bu qədər fərari olan yerdə 100 nəfər çox deyil. Deməli, həmin gənclər səhv etdiklərini başa düşmüşlər və cəbhəyə qayıdaraq döyüşə girmişlər. Bu, diq-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qətəlayiq haldır və belə hallar az deyildir. Ancaq biz bu barədə az danışırıq, çünki ümumən vəziyyətimiz mənfi xarakter daşıyır. Prokurorluq, istintaq orqanları göstərilən müddətdə hərbi hissələrə qayıtmayan fərariləri ciddi məsuliyyətə cəlb etməlidirlər

Məsuliyyətə gəldikdə isə, bu barədə əvvəllər də söhbət getmişdir. Bəzən belə olur: bir-iki ay istintaq gedir, sonra da bir ay icbari iş verirlər. Fərariyə də elə bu lazımdır ki, aradan çıxsın. Bu, yolverilməzdir. Güman edirəm ki, həm prokurorluq, həm də məhkəmə orqanları cinayət məcəlləsinin maddələrini dəqiq və düzgün tətbiq edəcəklər və bu, ümumi vəziyyətimizin dəyişməsinə şərait yaradacaqdır.

Hərbi komissarların işindən xüsusi danışmaq istəyirəm. Görürsünüz ki, mən sadaladığım vəzifələri icra başçılarının, polis, prokurorluq, milli təhlükəsizlik orqanlarının, eyni zamanda hərbi komissarlıqların üzərinə qoyuram. Əslində isə bu, hərbi komissarların işidir, bununla onlar məşğul olmalıdırlar. Ancaq dəfələrlə demişik ki, onlar bir tərəfdən müəyyən obyektiv səbəblərə görə bu işin öhdəsindən gələ bilmirlər, digər tərəfdən isə gəlmək də istəmirlər, çünki cürbəcür mənfi yollara düşürlər. Ona görə də bu gün bir daha bildirirəm ki, prezident kimi, mən hərbi komissarların işindən narazıyam.

Respublikanın hərbi komissarı burada elan etdi ki, bir neçə hərbi komissar barədə cinayət işi qaldırılmışdır. Xahiş edərdim ki, bu işlər tezliklə başa çatdırılsın və ictimaiyyət onların günahının nədən ibarət olduğunu bilsin. Bu sahədə gələcəkdə də nizam-intizam, qayda-qanun yaratmaq üçün bu gündən etibarən belə bir qayda qoyuram: hərbi komissarlar Prezident Aparatının razılığı ilə vəzifəyə təyin edilməli və azad olunmalıdırlar. İndiyədək bu iş Müdafiə Nazirliyinə tapşırılmışdı. Lakin təəssüf ki, Müdafiə Nazirliyi bu məsələlərdə böyük səhvlərə yol verir. Ona görə də həmin səhvləri aradan qaldırmaq və tələbkarlığı, nəzarəti artırmaq üçün Prezident Aparatına göstəriş verirəm: Birincisi, hazırda işləyən hərbi komissarların hamısı 10 gün müddətində attestasiyadan keçirilsin və kimin işləyə bilib-bilməyəcəyi barədə mənə məlumat verilsin. Bunun əsasında mən özüm qərar qəbul edəcəyəm. Ona görə də müdafiə nazirinə əmr edirəm ki, bu gündən etibarən Prezident Aparatının icazəsi olmadan heç bir hərbi komissar təyin edilməsin və vəzifədən azad olunmasın. Attestasiya Müdafiə Nazirliyi ilə birlikdə aparılmalıdır. Lakin mən bu işi dövlət müşavirinə tapşırıram.

Məlumat alınmışdır ki, Cəlilabad rayonunun hərbi komissarı polkovnik Hüseyn Əmirov, Quba rayonunun hərbi komissarı mayor Vadim Rəhimov, Masallı rayonunun hərbi komissarı polkovnik-leytenant Oruc Pirverdiyev çox pis işləyir, vəzifələrinin öhdəsindən gələ bilmirlər. Mən bu andan etibarən onları vəzifədən kənar edirəm. Müdafiə naziri Məmmədova tapşırıram ki, mənim bu əmrim əsasında onların işdən kənar edilmələri barədə iki saat

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ərzində əmr versin və hər üçünü cəbhə bölgəsinə, aşağı vəzifəyə göndərsin. Qoy onlar orada özlərini göstərsinlər.

Polis orqanlarının işindən çox narazılıqlar var. Rayonların bəzilərindən cürbəcür məlumatlar daxil olur ki, polis orqanları icra başçılarına tabe olmur, icra başçıları onlarla yola gedə bilmirlər, prokurorluq və polis orqanları arasında münaqişələr baş verir və icra başçıları bunların öhdəsindən gələ bilmirlər. Bütün bunlar yerlərdə nizam-intizamı pozur, vəziyyətin gərginləşməsinə səbəb olur. Biz belə hallarla razılaşa bilmərik. Ona görə də mən məlum məsələni bir daha nəzərinizə çatdırmaq istəyirəm: icra başçıları prezidentin nümayəndələridir və öz ərazilərində hər bir işə cavabdehdirlər. Bütün başqa orqanlar icra başçısının tabeliyindədir və onunla birgə işləməlidirlər. Əlbəttə, bu o demək deyil ki, icra başçıları istədiklərini edə bilərlər. Xeyr. Mən istəyirəm ki, işgüzar münasibət olsun.

Bu ağır şəraitdə yerlərlə hamıdan bir-birinə kömək göstərməyi tələb edirəm. Şəxsi münasibətlər əsasında çəkişmələri bir kənara qoysunlar. İcra başçıları öz səlahiyyətlərindən istifadə etməlidirlər. Ancaq bu səlahiyyətin məsuliyyəti də çox böyükdür. Məsuliyyət isə ondan ibarətdir ki, hər bir icra başçısı işgüzarlığı, mənəvi saflığı, vəzifəsinə sədaqəti ilə başqa orqanlara nümunə olmalıdır. Əgər belə deyildirsə o, şübhəsiz ki, bu tələbləri yerinə yetirə bilməz. Ayrı-ayrı yerlərdə, - mən bunu xırdalamaq istəmirəm, - inzibati orqanlar arasındakı ixtilaflara son qoymaq, əl-ələ verib işləmək lazımdır. Bunu icra başçılarından tələb edirəm.

Burada məsələ qaldırdılar ki, vəziyyətimiz ağır, gərgin olduğu üçün əlavə tədbirlər görək. Bəli, əvvəllər də belə təkliflər olmuşdu və indi də bunlar əsaslıdır ki, belə bir şəraitdə respublikada hərbi vəziyyət elan edilsin, hər şey bütün fəaliyyətimiz, bütün həyatımız hərbi vəziyyətin tələblərinə uyğun olaraq qurulsun. Bu fikirdə həqiqət var və onun haqqında düşünmək lazımdır. Ancaq bunu tətbiq edənə qədər gərək hər kəs bilsin ki, belə ağır şəraitdə hamı Vətənin müdafiəsi üçün çalışmalıdır.

İndi cəmiyyətimizdə əhalinin bir hissəsi ağır vəziyyətdə, cəbhə bölgəsində yaşayır, daim atəşə məruz qalır, düşmənə qarşı vuruşur. Ordudakı sədaqətli əsgər və zabitlərimiz hər gün düşmənlə vuruşur, şəhid olur, yaralanırlar. Qaçqınların bir çoxu ağır vəziyyətdə yaşayır. Amma eyni zamanda əhalinin müəyyən təbəqəsi, xüsusən Bakıda, kef içindədir. Belələri hesab edirlər ki, müharibənin onlara dəxli yoxdur. Ağır vəziyyətdə yaşayan adamlar, millətin dərdi onları maraqlandırmır. Hər şeyləri - həddnidən artıq pulları, yemək-içməķləri var. Qoy özlərinə qismət olsun. Ancaq bunu nümayiş etdirmək, restoranlarda eyş-işrətlə məşğul olmaq, kef çəkmək bizim bugünkü şəraitimizə yaraşan hərəkətlər deyil.

Dəfələrlə demişəm və yenə təkrar edirəm: tarixin təcrübəsindən güclü misal ola bilməz. 1941-1945-ci illər müharibəsində əha-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

linin hamısı eyni vəziyyətdə yaşayırdı. Gündə adambaşına 400-500 qram çörək verilirdisə, hamı onunla dolanırdı. Heç kəs bundan iki dəfə artıq çörək alıb yemirdi. Əlbəttə o zaman da əliəyri adamlar var idi, lakin belələri çox az idi. İndi isə restoranlarda yeyib-içib sağlıqlar deyirlər, fikirləşmirlər ki, ətrafda aclıq çəkənlər var, cəbhədə adamlar həlak olurlar. Üstəlik, orada-burada hay-küy qaldırırlar ki, belə olmalıdır, elə olmalıdır və sair.

Ona görə də mən belə hesab edirəm ki, nizam-intizamın möhkəmləndirilməsi hərbi vəziyyət elan olunması barədə təkliflər mümkündür. Biz bu barədə düşünməli, lazımi tədbirlər görməliyik. Ancaq eyni zamanda adamlarımıza müraciət edirəm: mənəviyyat baxımından başa düşsünlər ki, bu gün hamı bir cür yaşamalıdır, torpaqlarımızın müdafiəsi fikri ilə yaşamalıdır. Başqa cür yox.

Respublikanın hərbi komissarı bəzi fərmanların uyğunsuzluğundan danışdı. Bu məsələ əvvəllər də qaldırılmışdı. Bəs nə üçün müvafiq dəyişikliklər edilməmişdir? Bunu kim etməlidir? Həmin dəyişikliklər barədə təklifləri hərbi işlərə, yaxud hüquq məsələlərinə baxan müşavir verməlidirsə, qoy versinlər. Əgər prezidentin fərmanı kimi olmalıdırsa, - təqdim edilsin, hansısa qanunla əlaqədardısa, - Milli Məclisə verilsin. Bu məsələ 3-4 günün ərzində həll olunmalıdır. Mən bunu hərbi məsələlər üzrə dövlət müşavirinə, Prezident Aparatının hüquq işləri ilə məşğul olan şöbəsinə tapşırıram.

Özəl institutlarda təhsil alan gənclər nə üçün hərbi xidmətə çağırılmır? General Sadıqov mənə bildirdi ki, bu institutlardan cəmi ikisinin sertifikatı var. Respublikanın hərbi komissarına əmr edirəm ki, həmin iki institutdan başqa, bütün özəl institutlarda təhsil alan gənclərin hərbi xidmətə çağırılmasını təmin etsin. Qəribə vəziyyət yaranmışdır: indi respublikada 60 özəl institut fəaliyyət göstərir. Burada hansı təhsildən söhbət gedə bilər? Axı, intellekti gətirib kommersiyaya bağlamaq cinayətdir.

Burada məsələ qaldırdılar ki, əvvəlcə hamı hərbi xidmət keçməli, sonra isə ali təhsil almalıdır. Mən bu barədə qəti söz demək istəmirəm. Ancaq güman edirəm ki, qoy müvafiq təşkilatlarımız, Prezident Aparatının şöbələri, baş nazirin müavini Elçin Əfəndiyev bu məsələləri müzakirə edərək təkliflərini versinlər. Qaldırılan bu məsələlərin müəyyən əsası var.

Belə bir fikrimiz var ki, burada haqqında danışılan tədbirləri həyata keçirmək üçün rəhbər vəzifəli şəxslər bu gün yerlərə getsinlər, rayon, şəhər rəhbərlərinin həmin vəzifələri həyata keçirmələrini təşkil etsinlər, həm də bu işə kömək göstərsinlər. Afiyəddin Cəlilov və Milli Məclisin üzvü Mürvət Əliyev Salyan, Dəvəçi, Quba, Qusar, Xaçmaz rayonlarına, Abbas Abbasov və Tapdıq Kamalov bir qrup rayona, Əli Təhməzov bir qrup rayona, Əsgər Məmmədov bir qrup rayona, Elçin Əfəndiyev və Yaşar Əliyev bir qrup rayona, Səməd Sadıqov, Əli Ömərov, Nəriman İmranov, Şahəddin Əliyev, Arif Rəhimzadə, İrşad Əliyev, Vaqif Qasımov, Zahid

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dünyamalıyev, Şirin Hacıkərimov, Rövşən Cavadov başqa rayonlara getməlidirlər. Onlar yerlərdə bu işləri təşkil edəcək və hər gün bizə məlumat verəcəklər. Yaxın keçmişdə belə bir təcrübə olmuş və öz müsbət nəticəsini vermişdi. İndi də bu təcrübədən istifadə etməliyik.

Müşavirəmizi yekunlaşdıraraq hamınıza bir daha müraciət etmək istəyirəm. Uzaq-yaxın rayonlardan, şəhərlərdən vəzifəli adamları bu gün buraya dəvət etməyimiz yaranmış fövqəladə vəziyyətlə əlaqədardır. Əmin olmaq istərdim ki, bugünkü görüşümüz, ciddi söhbətimiz öz nəticəsini verəcək və yaxın günlərdə bu işlərdə dönüş yaradacağıq. Ümidvaram ki, Azərbaycan xalqı, respublikanın bütün vətəndaşları, xalqın etimad göstərdiyi vəzifəli şəxslər ölkəmizin necə ağır vəziyyətdə olduğunu dərk edirlər və bundan özləri üçün nəticə çıxaracaq, lazımi tədbirlər görəcəklər. Sağ olun, bu işdə hamınıza müvəffəqiyyətlər arzulayıram.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

PREZİDENT SARAYINDA DAXİLİ İŞLƏR NAZİRLİYİ RƏHBƏR İŞÇİLƏRİNİN GENİŞ MÜŞAVİRƏSİNDƏ GİRİŞ SÖZÜ

29 aprel 1994-cü il

Daxili İşlər Nazirliyi dövlət strukturunda çox mühüm yer tutur və onun qarşısında böyük vəzifələr durur. İndi, Azərbaycan Respublikası öz dövlət müstəqilliyini möhkəmləndirdiyi, ölkəmiz müharibə şəraitində olduğu bir dövrdə bu nazirliyin qarşısında duran vəzifələrin nə qədər məsuliyyətli olduğunu sübut etməyə ehtiyac yoxdur.

Daxili İşlər Nazirliyi hərbiləşdirilmiş təşkilatdır, zabitlərdən və başqa rütbəli şəxslərdən ibarətdir. DIN-ə dövlət tərəfindən daim qayğı və diqqət göstərilmişdir və indi də göstərilir. DIN-in əməkdaşları xüsusi təminata və əhalinin başqa təbəqələrinə nisbətən xeyli imtiyazlara malikdirlər. Bununla yanaşı, bütün xalq bilir ki, Daxili İşlər Nazirliyində çalışan hər bir əməkdaşın üzərinə çox böyük və şərəfli vəzifə düşür. Bir daha qeyd edirəm ki, Daxili İşlər Nazirliyi əməkdaşlarının işi ağırdır, çətindir, məsuliyyətlidir və hətta çox vaxt onların həyatının təhlükə qarşısında qalması ilə bağlıdır. DİN-də işləmək, onun əməkdaşı, zabiti olmaq bir tərəfdən şərəflidir, ikinci tərəfdən də çox məsuliyyətli, əzab-əziyyətlidir.

Bütün bunları bilirik, dövlət bunu məhz belə qiymətləndirir və xalqımızın əksəriyyəti də Daxili İşlər Nazirliyinin cəmiyyətimizdə, dövlətimizdə tutduğu görkəmli mövqeni qiymətləndirir, bu orqana və onun əməkdaşlarına hörmət, ehtiram bəsləyir.

Respublikamız altı ildir ki, müharibə şəraitindədir. Xalqımız öz torpaqlarını düşməndən qorumaq üçün vuruşur. Son aylarda ordumuz böyük cəsarətlə döyüşlər apararaq torpaqlarımızı müdafiə edir. Ermənistan tərəfindən altı il bundan əvvəl başlanan təcavüz indi də davam edir. Biz müharibə şəraitində yaşayırıq. Ötən dövrdə bu müharibədə, bu döyüşlərdə, torpağın müdafiəsində DİN-in əməkdaşları - zabitlər, polis işçiləri də cəsarətlə vuruşmuş, böyük qəhrəmanlıq nümunələri göstərmişlər. Onların bir çoxu şəhid olmuş, həyatıı xalqımızın, Vətənimizin səadəti uğrunda qurban vermişdir.

Bunları cəmiyyətimiz, dövlətimiz, bütün xalq bilir və qiymətləndirir. Bu gün mən DIN-in, polis orqanlarının torpaqlarımızın müdafiəsi uğrunda fəaliyyətinə bir daha yüksək qiymət verirəm.

Cəbhələrdə bu gün də qanlı döyüşlər gedir. Əgər son mərhələni götürsək, erməni silahlı dəstələrinin aprelin 10-dan respublikamıza qarşı başladığı hücumlar davam edir. Ancaq silahlı qüvvələrimiz, o cümlədən polis orqanlarının işçiləri,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

əməkdaşları bu hücumların qarşısını alır və torpaqlarımızı müdafiə edirlər.

Biz bu gün buraya işgüzar söhbət aparmaq üçün toplaşmışıq. Hazırda həyatımızın əsas, xarakterik cəhəti müharibə ilə, cəbhə ilə, döyüşlərlə bağlıdır. Ona görə də mən söhbətimi məhz bu mövzu ilə başladım. Mən Vətən naminə şəhid olanların xatirəsini bir daha yad edirəm. Vətən yolunda canını qurban verənlər arasında olan DİN əməkdaşlarının, polis işçilərinin də qəhrəmanlığını qeyd edirəm və onların xatirəsini yad etmək üçün bir dəqiqə ayağa qalxmağı rica edirəm.

Allah bütün şəhidlərə rəhmət eləsin!

Daxili İşlər Nazirliyinin işində çox böyük problemlər də vardır. DİN və onun orqanları bu problemlərin həll olunması üçün daha böyük fəallıq göstərməli, işlərini düzgün qurmalıdırlar.

Dediyim səbəblərə görə cəmiyyətimizdə gərginlik var. Respublikamız bir tərəfdən müharibə aparır, digər tərəfdən ağır sosial-iqtisadi böhran içərisindədir, Respublikamızda bir milyondan artıq qaçqın var. Belə bir dövrdə dövlət orqanlarının hamısı gərək öz işlərini daha yararlı qursun, günün tələblərinə uyğun aparsın.

Dövlət orqanları içorisində Daxili İşlər Nazirliyi xüsusi yer tutur. DİN cəmiyyətimizin bütün özəkləri və təbəqələri ilə əlaqədardır, bağlıdır. Onun qarşısında duran vəzifələri siz yaxşı bilirsiniz. Ancaq qısaca bunu bir daha yadınıza salmaq istəyirəm ki, respublikamızın hazırkı ağır vəziyyətinlə qarşımızda duran vəzifələrin yerinə yetirilməsi DİN-in, onun orqanlarının fəaliyyətnidən çox asılıdır.

Həm nazirlik, həm də onun orqanları qarşısında duran bu vəzifələr təəssüf ki, günün tələblərinə uyğun səviyyədə yerinə yetirilmir və onlar cəmiyyətdəki mövcud problemlərin həll olunmasında öncül mövqe tuta bilmirlər. Bilirsiniz ki, dövlətin işində dövlət orqanlarının hər birinin öz yeri vardır, ancaq Daxili İşlər Nazirliyinin, polis orqanlarının xüsusi yeri var və onlardan çox şey asılıdır. Mən sözümə başlayanda dedim ki, həm vəzifələr böyükdür, həm də DİN-in əməkdaşları üçün geniş imkanlar, imtiyazlar yaradılmışdır. Ona görə də bizim haqqımız var ki, DİN-in bütün işçilərindən, əməkdaşlarından daha yaxşı işləməyi tələb edək. Onların fəaliyyətinin bugünkü səviyyəsi isə bizi qane etmir. Bu, mənim ümumi fikrimdir, cəmiyyəti də qane etmir.

Cəmiyyətimizdə Daxili İşlər Nazirliyinin, polis orqanlarının işindən çoxlu narazılıq vardır. Bəllidir ki, bu narazılıqlar DIN-in imkanlarından kənar olan məsələlərin həlli ilə əlaqədardır. Ancaq çox vaxt, əksər hallarda narazılıq əsaslıdır. Əgər DİN-də və onun bölmələrində, polis orqanlarınla çalışan hər kəs öz sahəsində qarşıya qoyulan vəzifəni layiqincə yerinə yetirə bilsə, bu narazılıq da az olar. Həm də söhbət

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

təkcə narazılıqdan getmir - cəmiyyətimizdə olan bu çətinliklər xeyli azala bilər.

İndi nazirliyin ətrafında cürbəcür, qəribə söhbətlər gedir - nazirliyin rəhbərliyi haqqında, onun rəhbər orqanları başçılarının bir-biri ilə əlaqələri barədə qəzetlər yazırlar, ümumi ictimai rəy daha çox mənfi tərəfə yönəlib. Doğrudur, mən daim ictimai rəylə hesablaşmışam, hesablaşıram. Çünki ictimai rəy ümumən obyektiv xarakter daşıyır. Ancaq məni narahat edən nə bu qəzet yazıları, nə də ictimai rəydir. Məni şəxsən bir prezident kimi narahat edən odur ki, DİN böyük qüvvəyə malik olsa da, qarşısında duran vəzifəni yerinə yetirə bilmir. Cinayətkarlıq həddindən çox artıb. Cinayətkarlıqla mübarizə zəif gedir. İnsanların hüquqları taplalanır. Bizim polis orqanları insanların hüquqlarının qorunmasına çox vaxt təminat verə bilmirlər. Respublikamızda nizam-intizam aşağı səviyyədədir. Müəssisələrdə, təşkilatlarda, respublikamızın cürbəcür özəklərində cinayətkarlıq, rüşvətxorluq, bir çox mənfi hallar geniş yayılmışdır. Bunların aradan götürülməsi, belə hallara qarşı mübarizə aparılması üçün hüquq-mühafizə orqanları hamısı birlikdə, bərabər, ahəngdar fəaliyyət göstərməlidirlər. Bu orqanlar arasında da DİN-in xüsusi yeri var. Təəssüf ki, mən hüquq-mühafizə orqanlarının nə mütəşəkkil fəaliyyətini (belə bir mütəşəkkillik yoxdur), nə də DİN-in günün tələblərinə uyğun olan fəaliyyətini görə bilirəm.

Daxili İşlər Nazirliyinin içərisində, yəni kollektivin daxilində, nazirliyin yerli orqanlarının da içərisində qeyri-sağlam mühit yaranmışdır. Nazirliyin, polis orqanlarının ətrafında da qeyri-sağlam mühit vardır. İnsanlar açıqdan-açığa deyirlər ki, DİN-də bəzi ləyaqətsiz adamlar işləyir, bu nazirliyin içərisində rüşvətxorluq geniş yayılmışdır. Mən belə hesab edirəm ki, çox hallarda bütün bunlar əsaslıdır. Ancaq mən belə nəticəyə gəlirəm ki, DİN-də və onun bir çox təbəqələrində bu sözlərə danışılanlara, tənqidlərə, iradlara qarşı immunitet yaranıb. Bir çoxları belə hesab edirlər ki, siz nə danışırsınızsa danışın, nə deyirsinizsə deyin, biz indiyədək necə yaşamışıq, necə işləmişiksə, bundan sonra da elə işləyəcəyik.

Şübhəsiz ki, mən bu sözləri Daxili İşlər Nazirliyinin bütün işçilərinə aid etmirəm. Daxili İşlər Nazirliyində ölkəsinə, xalqına vicdanla, namusla xidmət edən adamların sayı çoxdur. Bəlkə də onlar əksəriyyət təşkil edir. Ancaq bununla yanaşı, bu şərəfli orqanın adını ləkələyən, vəzifəsindən sui-istifadə edən və cəmiyyət, dövlət üçün çox mühüm olan bu orqanın hörmətini get-gedə aşağı salan adamların sayı da az deyildir.

Dediyim kimi, Daxili İşlər Nazirliyi böyük qüvvədir. O, dövlətin güvəndiyi, arxalandığı böyük bir təşkilatdır - silahlı, hərbiləşdirilmiş təşkilatdır. Əgər belə bir təşkilatda, nazirlikdə, orqanda qeyri-sağlam əhval-ruhiyyə mövcuddursa, mən bir prezident kimi buna dözə bilmərəm. Ona görə də bu gün sizi, məhz rəhbər işçiləri bura dəvət etmişəm. Başqa hüquq-mühafizə orqanlarından heç kəs dəvət olunmayıb, burada siz və Prezident Apartının məsul işçiləri iştirak edirlər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mən sizdən soruşuram: nə üçün belə vəziyyət yaranmışdır? Daxili İşlər Nazirliyi niyə öz qarşısında duran vəzifələri layiqincə yerinə yetirə bilmir? Bu nazirliyin ətrafında nə üçün belə qeyri-sağlam mühit mövcuddur? Nə üçün siz ələ verib birlikdə işləyə bilmirsiniz? Bu orqanın bəzi idarələri nazirliyin rəhbərliyi tərəfindən nə üçün idarə oluna bilmir? Mən bunları bilmək istəyirəm.

Bu nazirliyin işçilərinin böyük əksəriyyətinin sədaqətli xidmət etdiyini qeyd etdim. DİN-in tərkibində olan daxili qoşunların, əsasən cəbhə bölgəsində olan hissənin xidmətini xüsusi qeyd etmək istəyirəm. Bu gün onlara hörmət və ehtiramımı bildirmək istəyirəm. Daxili qoşunların komandanı general Məmmədovun və onun rəhbərliyi altında cəbhədə vuruşanların xidmətini xüsusi qeyd edirəm. Onlar orada böyük işlər görürlər, Azərbaycanın torpaqlarını qəhrəmancasına müdafiə edirlər. Belə döyüşçülərin, polis işçilərinin - general Məmmədovun rəhbərlik etdiyi bütün döyüşçülərin işi hər birimizi sevindirir və böyük hörmət hissi doğurur. General Məmmədovdan rica edirəm ki, bu sözlərimin hamısını bütün şəxsi heyətə çatdırsın.

Ancaq eyni zamanda, bu cür mənəviyyatca yüksək amallara xidmət edən vətəndaşlarımızla yanaşı, onlara zidd mövqedə duran adamlar bu orqanın - polis orqanlarının hörmətini aşağı salır, ləkələyir və polis orqanlarında işin lazımi səviyyədə olmasına maneçilik törədirlər. Mən konkret heç nə demirəm. Güman edirəm ki, dediyim bu sözlər sizin üçün müəyyən məna verir. Ona görə də sizdən tələb edirəm ki, bu gün mənə açıq deyəsiniz - nə üçün belə vəziyyət yaranıb? Daxili İşlər Nazirliyinin hörməti niyə aşağı düşüb? Siz öz vəzifələrinizi nə üçün yerinə yetirə bilmirsiniz?

YEKUN SÖZÜ

Bugünkü söhbətin nəticəsi barədə onu deyə bilərəm ki, müşavirəyə gedərkən məndə olan qənaətlər təsdiq edilir. Yəni Daxili İşlər Nazirliyində və onun ətrafında qeyri-sağlam mühit yaranmışdır. Bu səbəbdən də Daxili İşlər Nazirliyi kimi böyük bir orqanın imkanlarından ümumi işimizin naminə istifadə edilə bilmir.

Daxili İşlər Nazirliyinin dövlət strukturundakı yeri və onun üzərinə düşən məsuliyyət, vəzifələr haqqında müşavirənin əvvəlində öz fikrimi dedim. Bir daha qeyd etmək istəyirəm ki, müstəqil Azərbaycan Respublikasının həyatının indiki dövründə bu nazirlik, onun bütün strukturları çox mühüm əhəmiyyət kəsb edir və respublikanın hazırkı ağır vəziyyətdən çıxması üçün bu orqanın yüksək səviyyədə fəaliyyət göstərməsi vacibdir. Təəssüf ki, bu, əslində belə deyil. Belə hesab edirəm ki, bu da son vaxtların nəticəsi deyildir. Keçmişə nəzər salın. Burada kim isə dedi ki, on iki-on üç nazir dəyişmişdir. Məsələ təkcə nazirlərin dəyişdirilməsində deyil. Söhbət ondan gedir ki, Azərbaycan Respublikasının uzun illər ərzində yaranmış professional milis, indiki adla desək, polis kadrları son illərdə ölkəmizdə gedən cürbəcür dəyişikliklər nəticəsində müəyyən mənada korlanmış, müəyyən mənada dağıdılmış, müəyyən mənada isə mənfi ünsürlərin təsiri altına düşmüşdür.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əgər son üç-dörd ili götürsək, Daxili İşlər Nazirliyinin başına nələr gəlməmişdir. Xatırınızdadır ki, Azərbaycan SSRİ-nin tərkibində olarkən, respublikanı dağıtmaq üçün bir müddət Daxili İşlər Nazirliyində, Prokurorluqda böyük briqadalar gətirib qoymuşdular. Bununla guya Azərbaycan Respublikasında baş vermiş böyük cinayətləri açmaq istəyirdilər. Ancaq bunların heç bir nəticəsi olmadı, xalqımıza isə nə qədər böyük mənəvi zərbələr dəydi. Sonrakı dövrdə Daxili İşlər Nazirliyinin orqanları təəssüf ki, siyasi proseslərə, siyasi qruplaşmalara qoşuldular. Nəticədə yüksək peşəkarlığa malik təcrübəli kadrlar, bəlkə də özlərinin günahı olmadan, itirildi, yaxud da bəzi adamların iddiaları ilə işdən kənar edildi. Bu isə polis orqanlarına zərbə oldu.

Son dövrü götürsək, əgər polis orqanlarında "Boz qurd" kimi bir təşkilat yaranmışdİsa, yaxud həmin orqanlara polis işini bilməyən, bu işdən tamamilə uzaq olan və aşağı səviyyələrdə işləmiş adamları gətirib yüksək vəzifələrə qoydularsa, Azərbaycan üçün böyük əhəmiyyət kəsb edən orqan ayrı-ayrı adamların əlində oyuncağa döndüsə, hərc-mərclik, özbaşınalıq, dərəbəylik geniş yayıldİsa, əlbəttə ki, bütün bunlar daxili işlər orqanlarının fəaliyyətinə mənfi təsir göstərməyə bilməzdi.

Məhz bunları nəzərə alaraq biz keçən ilin iyul-avqust aylarında Daxili İşlər Nazirliyinin rəhbərliyini dəyişdik. Vaqif Novruzov nazir təyin olundu. Sonra onun birinci müavini təyin edildi. İki müavin isə əvvəldən də işləyirdilər. Onların borcu idi və şərait yaradıldı ki, böyük imkanlara malik olan orqanı düşdüyü bəlalardan qurtarsınlar, bu orqanda baş verən çirkin proseslərə son qoysunlar və onu dövlətə xidmət edən həqiqi orqana çevirsinlər.

Daxili İşlər Nazirliyi, polis heç bir siyasətə qarışa bilməz. O, dövlət orqanıdır, dövləti müdafiə etməli, onun göstərişlərini, siyasətini həyata keçirməlidir. Bu, bütün ölkələrdə belə olmuşdur və bizdə də belə olmalıdır. Ancaq yenə də deyirəm, son illər Daxili İşlər Nazirliyi, polis orqanları ayrı-ayrı siyasi qrupların, bəzi hallarda isə mafioz qrupların əllərində oyuncaq olmuşdur və kiminsə hakimiyyətə gəlməsinə, kiminsə hakimiyyətdən getməsinə, kiminsə nəyəsə nail olmasına xidmət etmişdir. Bütün bunlar isə polis orqanlarında vəziyyəti gərginləşdirmişdir. Bir də qeyd edirəm, bunları nəzərə alaraq biz Vaqif Novruzovu nazir təyin etdik.

O zaman prezidentin səlahiyyətini həyata keçirən şəxs kimi, mən Vaqif Novruzovu həmin vəzifəyə təyin edərkən, şübhəsiz ki, bu qərarı tam inamla, etibarla qəbul etmişdim. Çox böyük ümid bəsləyirdim ki, Vaqif Novruzov nazirliyin kollegiyası ilə birlikdə, müavinləri ilə, rəhbər şəxslərlə birlikdə nazirliyin işini sağlamlaşdıracaq, onun fəaliyyətindəki mənfi halları aradan qaldıracaq və Daxili İşlər Nazirliyinin öz vəzifələrini layiqincə yerinə yetirməsi üçün şərait yaradacaqdır.

Şübhəsiz ki, bu müddətdə müəyyən iş görülmüşdür, Vaqif Novruzov da çalışmışdır. Ancaq, təkrar edirəm, məni bu gün sizi buraya dəvət etməyə məcbur edən səbəb ondan ibarətdir ki, görülən

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

işlər, həyata keçirilən tədbirlər istənilən nəticəni verməmişdir. Böyük tərkibi, kadr ehtiyatı olan Daxili İşlər Nazirliyi indi onun qarşısında qoyulmuş vəzifəni həyata keçirə bilmir.

Burada mən rüşvətxorluqla əlaqədar bir neçə sual verdimsə, heç kim güman etməsin ki, Daxili İşlər Nazirliyinin vəzifəsi ancaq rüşvətxorluqla mübarizə aparmaqdan ibarətdir. Xeyr. Daxili İşlər Nazirliyinin fəaliyyət dairəsi çox genişdir, böyükdür, onun üzərinə düşən vəzifələr müxtəlifdir. Bunların arasında belə bir cinayətlə - rüşvətxorluqla mübarizə aparmaq vəzifəsi də var. Mən bu məsələni ona görə kəskin qoyuram ki, hüquq-mühafizə orqanlarının -Daxili İşlər Nazirliyinin, Prokurorluğun, Məhkəmə orqanlarının başqa vəzifələrlə yanaşı, daha bir əsas vəzifəsi cəmiyyətimiz üçün çox ağır olan cinayətin - rüşvətxorluğun qarşısını almaqdır. Çünki bu, cəmiyyəti çox narahat edən, onda böyük narazılıq doğuran haldır. Bu məsələni qoyaraq və burada çıxış edənlərin hamısını dinləyərək demək istəyirəm ki, Daxili İşlər Nazirliyinin bu sahədəki işi qənaətbəxş sayıla bilməz. Çünki heç biriniz - nə nazir, nə müavinləri, nə də başqaları konkret fakt gətirə bilmədiniz ki, bu sahədə hansı cinayətin üstünü açmısınız, hansı rüşvətxoru tutmusunuz.

Ona görə də mənim tələblərim haqlıdır. Ancaq bu, yeganə tələb deyil. Daxili İşlər Nazirliyinin vəzifələri çox geniş və böyükdür.

Buradakı çıxışlar bir də onu göstərdi ki, sizin kollektivdə qeyri-sağlam mühit dərin kök salmışdır. Əgər belə olmasaydı, siz burada səmimi şəkildə, bir-birinizə hörmətlə vəziyyəti açıq deyərdiniz. Ancaq bu, belə olmadı. Mən burada işgüzar əhval-ruhiyyə görmədim. Şübhəsiz ki, belə şəraitdə nazirlik öz vəzifəsini həyata keçirə bilməz və mən də nazirliyi bu vəziyyətdə qoya bilmərəm.

Başqa məsələlərə də toxunmaq istəyirəm. Məsələn, belə hesab edirəm ki, biz Daxili İşlər Nazirliyinin hər bir əməkdaşının sosial müdafiəsini təmin etməliyik. Bu əməkdaşlar ilk növbədə öz vəzifə borclarını şərəflə yerinə yetirməlidirlər, ikinci növbədə isə onların mənafeləri müdafiə olunmalıdır.

Burada dedilər ki, Daxili İşlər Nazirliyi ilə prokurorluq arasında münasibətlər pisdir və bu, işə mane olur. nə üçün belədir, bu münasibətləri də mənmi qaydaya salmalıyam? Əgər Azərbaycan Respublikasının bu iki ən mühüm orqanı cinayətkarlığa qarşı mübarizəni doğrudan da gücləndirmək istəyirsə, onların rəhbərləri bu münasibətləri nə üçün qaydaya salmırlar? Nə üçün bunu etmirlər? Bəzi rayonlarda polis rəisi ilə prokuror arasında mənfi münasibətlər olmasını çox qeyri-normal hal sayıram. Məsələn, çox böyük narazılıq hissi ilə eşitdim ki, Ağdaş rayonunda prokuror polis rəisini həbs etmişdir. Bu, necə ola bilər? Əgər polis rəisi cinayət etmişdirsə, bu məsələ Daxili İşlər Nazirliyinin rəhbərliyi qarşısında qoyulmalıdır. Polis rəisi adi işçi deyil, böyük səlahiyyəti olan vəzifəli şəxsdir. Bəs nazir nə üçün buna imkan verdi? Nə üçün rayon prokuroru vəzifə həddini aşaraq polis rəisini həbs edir? Masallı rayonunda da belə hal olmuşdur. Nə üçün?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mən bununla əlaqədar rayon prokurorlarının və ümumiyyətlə, Respublika Prokurorluğunun belə hərəkətini pisləyir və bütün bunları ümumi işimizə zərər gətirən hal kimi qiymətləndirirəm. Nə üçün bu işlərin hamısına mən qarışmalıyam? Məgər respublikanın dərdi azdır?

Əgər Daxili İşlər Nazirliyinin rəhbərliyi öz işçilərinin sosial müdafiəsi ilə məşğul ola bilsəydi, əlbəttə ki, Ağdaş rayonunda prokurorun polis rəisini həbs etməsinə yol verməzdi. Mən işlədiyim bütün dövrlərdə belə bir hadisəyə rast gəlməmişəm.

Bütün bunlar ondan irəli gəlir ki, bir tərəfdən Daxili İşlər Nazirliyinin özündə, onun ətrafında qeyri-sağlam şərait yaranmışdır, ikinci tərəfdən isə, təəssüf ki, Daxili İşlər Nazirliyi ilə başqa hüquq-mühafizə orqanları arasında, xüsusən də prokurorluq orqanları arasında lazımi işgüzar münasibətlər yaranmamışdır. Söz yox ki, belə vəziyyətdə cinayətkarlıqla ciddi mübarizə aparmaqdan söhbət gedə bilməz. Bundan ötrü bütün hüquq-mühafizə orqanları bir-biri ilə çəkişməməli, hərə öz üstünlüyünü iddia etməməli, əksinə, işgüzar, sağlam prinsiplər, qanun prinsipləri əsasında əməkdaşlıq etməli, birgə işləməlidirlər. Onların indiki münasibətləri ümumiyyətlə, mədəniyyətdənkənar haldır və cəmiyyətimizə zərər vurur.

Bunların hamısını nəzərinizə çatdırmaqla bir daha demək istəyirəm: Daxili İşlər Nazirliyi respublika üçün, onun dövləti üçün elə mühüm orqandır ki, gərək məhz burada sağlam mühit, sağlam münasibətlər olsun, nazir və onun müavinləri, kollegiya üzvləri, baş idarələrin rəisləri bir-biri ilə gərək sağlam, işgüzar münasibətdə olsunlar, bir-birinə hörmət etsinlər, kömək göstərsinlər. Bir sözlə, gərək əl-ələ verərək ümumi işi irəli aparsınlar. Ancaq belə bir şərait yaranmamışdır. Şübhəsiz ki, bunda hamının günahı var - nazir də, onun müavinləri də, kollegiya üzvləri də və başqa vəzifəli şəxslər də günahkardırlar.

Ona görə də mən vəziyyətin belə davam etməsinə yol verə bilmərəm. Bunu nəzərə alaraq bu andan etibarən Vaqif Novruzovu vəzifəsinidən azad edirəm. Daxili işlər naziri vəzifəsinə Ramil Usubovu təyin edirəm. Siz Ramil Usubovu tanıyırsınız və mənə belə gəlir ki, onu xarakterizə etməyə ehtiyac yoxdur. Baş nazirin birinci müavini Fuad Quliyevə, dövlət müşaviri Arif Rəhimzadəyə və ümumi şöbənin müdiri Ramiz Mehdiyevə tapşırıram ki, müşavirə qurtarandan sonra gedib nazirlikdə təhvil-təslim işlərini həll etsinlər və Ramil Usubov nazir kimi fəaliyyətə başlasın.

Eyni zamanda, bir də təkrar edirəm, hamınız günahkarsınız, hamınız cavabdehsiniz və sizi nazirlikdə sağlam əhval-ruhiyyə yaratmağa dəvət edirəm. Hamınızdan tələb edirəm ki, yeni toyin olunmuş nazirə kömək göstərəsiniz.

Vaxtilə Vaqif Novruzovu nazir təyin edərkən ona demişdim ki, sənə etibar edirəm və gərək bunu doruldasan. Təəssüf ki, belə olmadı və bu gün onu işdən azad etdim. Ramil Usubova tam inanır, prezident kimi ona etimal göstərirəm və bir daha hamınızdan tələb edirəm ki, ona kömək göstərəsiniz.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Daxili İşlər Nazirliyi xüsusi bir orqan, bilavasitə prezidentin tabeliyində olan orqandır. Heç bir kənar vəzifəli şəxslərin bu nazirliyin işinə qarışmağa ixtiyarı yoxdur. Bu başdan xəbərdarlıq edirəm ki, yeni təyin edilmiş nazirin işinə heç kəs mane olmasın, heç kəs öz şəxsi məqsədlərinə çatmaq üçün orada cürbəcür işlərlə məşğul olmasın və hər kəs yeni nazirə kömək etməyə çalışsın. Mən naziri daim müdafiə edəcək, nazirliyin bütün məsələlərinə baxaraq onları şəxsən özüm həll edəcəyəm. Nazirə səlahiyyət verirəm ki, orada vəziyyəti dəyişdirmək üçün lazımi tədbirlər görsün. Mən də onun təkliflərini müdafiə edəcəyəm. Ancaq xəbərdarlıq edirəm kim buna mane olarsa, bu işləri pozmağa cəhd göstərərsə, onlara qarşı çox ciddi tədbirlər görüləcək və mən heç kəsi bağışlamayacağam.

Güman edirəm ki, yeni nazir prokurorluq orqanları, başqa hüquq-mühafizə orqanları ilə işgüzar əlaqələr yaradacaqdır. Prokurorluq orqanlarına da xəbərdarlıq edirəm ki, özbaşınalığa yol verməsinlər.

Nazir, bütünlükdə nazirliyin rəhbərliyi daxili işlər orqanları əməkdaşlarının sosial müdafiəsində möhkəm dayanmalıdır. Onların huquqlarını tapdalamağa heç kəsə ixtiyar verilmir. Şübhəsiz ki, cinayət etmiş hər bir şəxs məsuliyyət daşımalıdır. Lakin bütün bunlar qanun çərçivəsində olmalıdır. Daxili İşlər Nazirliyi xüsusi, hərbiləşdirilmiş təşkilat olduğuna görə burada qanunların tətbiqi, şübhəsiz ki, nazirliyin rəhbərliyinin razılığı ilə və onunla birlikdə həyata keçirilməlidir. Bunu burada açıq deyirəm ki, hər kəs öz yerini bilsin. Hərə öz yerində oturub öz işini görsə, ümumi işimiz yaxşı gedəcək.

Müşavirəni yekunlaşdıraraq bir daha deyirəm ki, prezident kimi, Daxili İşlər Nazirliyinin şəxsi heyətinə tam inanıram. Etibar edirəm, güvənirəm. Hesab edirəm ki, Daxili İşlər Nazirliyində çalışan əməkdaşların tam əksəriyyəti xalqına, torpağına, vətəninə, müstəqil Azərbaycan dövlətinə sadiq adamlar, peşəkar, təcrübəli işçilərdir. Onların hamısı nazirliyin qarşısında duran vəzifələrin yerinə yetirilməsinə çalışmalıdır. Mən Daxili İşlər Nazirliyinin bütün əməkdaşlarına müraciət edərək onları qrupbazlıqdan, siyasi oyunlardan əl çəkməyə, öz işlərini ancaq və ancaq dövlətin mövqeyinə, onun prinsiplərinə əsasən qurmağa çağırıram, Daxili İşlər Nazirliyi orqanlarında həyata keçirilməsi üçün öz tərəfimdən lazımi tədbirləri görəcəyəm.

Burada irəli sürülən vəzifələrin yerinə yetirilməsində hamınıza uğurlar arzulayıram. Sağ olun!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

PASXA BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCANIN XRİSTİAN VƏTƏNDAŞLARINA TƏBRİK

Hörmətli həmvətənlərim!

Sizi xristianlığın ən müqəddəs və əziz bayramı - Pasxa münasibətilə səmimi-qəlbdən təbrik edir, bu bayram günlərində sizə xoş əhval-ruhiyyə, əmin-amanlıq və səadət arzulayıram.

Azərbaycan torpağı əsrlər boyu müxtəlif etiqadlara tapınan insanlar üçün doğma vətən olmuşdur. Onlar da həmişə bu vətənin qeyrətini çəkmiş, onun uğrunda canlarını belə əsirgəməmişlər. İndiki ağır və məşəqqətli günlərimizdə də xristian həmvətənlərimiz Azərbaycanın digər övladları ilə birlikdə çətinliklərə sinə gərir, müqəddəs torpaqlarımızı rəşadətlə qoruyurlar.

Pasxa şadlıq və mərhəmət, haqq və ədalət bayramıdır.

İnanıram ki, bu Pasxa günlərində Ulu Tanrıdan ən ümdə diləklərinizyurdumuzla sülhün və əmin-amanlığın bərqərar olmasıdır. Qoy bütün arzu və niyyətləriniz Tanrının köməyi və xalqımızın iradəsi ilə həyata keçsin.

HEYDƏR ƏLİYEV

29 aprel 1994-cü il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BRÜSSELƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ BƏYANAT

3 may 1994-cü il

Brüssellə dövlət başçıları ilə görüşlərim olacaqdır. Eyni zamanda həmin ölkənin işgüzar dairələrinin nümayəndələri mənimlə görüşmək istədiklərini bildiriblər. İş adamları ilə görüşlərimiz olacaqdır. Bilirsiniz ki, Avropa iqtisadi Birliyinin iqamətgahı Belçikadadır. Orada bu birliyin Azərbaycana yardım göstərməsi barədə məsələləri müzakirə eləcəyik. Səfərimin əsas məqsədi bundan ibarətdir. Şübhəsiz ki, orada Azərbaycandakı indiki vəziyyət, Azərbaycanla Ermənistan arasında gedən müharibə, Ermənistanın Azərbaycana qarşı təcavüzünün bu gün də davam etməsi məsələləri də müzakirə olunacaqdır. Həm NATO-nun qərargahında, həm də başqa görüşlərimdə bu barədə söhbətlər aparacağam və Azərbaycanın mövqeyini bildirəcəyəm.

Erməni silahlı qüvvələri aprelin 10-dan indiyə qədər Azərbaycan torpaqlarına müntəzəm olaraq hücum edirlər. Onlar Azərbaycanın silahlı qüvvələri tərəfindən zərbələr alırlar, ancaq hücumları davam etdirirlər. Bu hücumlarla da onlar tək deyillər, təcavüzkarlara kömək edən qüvvələr vardır. Biz atəşin dayandırılmasının tərəfdarıyıq, bu barədə bəyanatlar vermişik.

Aprelin 28-də Rusiyanın Xarici İşlər Nazirliyinin və Müdafiə Nazirliyinin vasitəçiliyi ilə, onların təklifi ilə biz atəşin dayandırılması barədə saziş imzalanmasına razılıq vermişik, ancaq Ermənistan tərəfi buna razılıq verməyib. Bu müddətdə cənab Mosberqin başçılığı ilə ATƏM-in Minsk qrupunun böyük bir heyəti Azərbaycana gəlmişdi. Bu heyətin tərkibində Amerika generalları da olmuşlur, Rusiyanın, İtaliyanın və Minsk qrupuna daxil olan dövlətlərin nümayəndələri də var idi. Bu heyət, cənab Mosberq mənimlə çox geniş söhbətlər apardı. Sonra onlar Xankəndidə və Yerevanda oldu və yenə də Bakıya qayıdaraq mənimlə görüşdülər, atəşin dayandırılması barədə bizə bir saziş layihəsi təqdim etdilər. Mən bu layihə ilə də razı oldum. Onlar buradan Yerevana getdilər, Ermənistan prezidenti Levon Ter-Petrosyanla görüşdülər. Ermənistan tərəfi bu sazişin imzalanmasına razılıq vermədi, bəyan etdi ki, onlar atəşin dayandırılmasına hazır deyillər. Guya atəşin dayandırılması üçün xüsusi mexanizm hazırlanmalıdır. Biz də bilirik ki, atəşin dayanlırılmasına, ona nəzarət edilməsinə xüsusi mexanizm lazımdır. Ancaq atəş dayandırıldıqdan sonra bu mexanizm hazırlana bilər. Əgər indi biz oturub mexanizm üzərində işləsək və eyni zamanda hər gün atəş davam etsə, o tərəfdən də, bu tərəfdən də insanlar qırılsalar bu, şübhəsiz ki, nə Ermənistan tərəfi üçün, nə də bizim üçün faydalı olmayacaqdır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Cənab Mosberq Yerevandan bizə zəng etdi ki, Ermənistan tərəfi bu sazişə razı olmadı. Onlar Vyanaya getdilər. İndi vəziyyət belədir. Ermənilər hücumlarını davam etdirirlər, Azərbaycanın Silahlı Qüvvələri onlara cavab verirlər. Bir neçə mövqedə ermənilərin hücumları dəf olunmuşdur, onlar geriyə çəkilirlər, tələfat verirlər. Ancaq müharibə davam edir. Biz müharibənin tərəfdarı deyilik. Bu gün yenə də bəyan edirəm ki, biz atəşin dayandırılmasının tərəfdarıyıq. Ancaq Ermənistan tərəfi bununla razı deyil. Biz öz sülhsevər siyasətimizi davam etdirəcəyik.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BRÜSSELDƏ NATO ŞURASININ İCLASINDA ÇIXIŞ

4 may 1994-cü il

Hörmətli cənab baş katibin müavini, hörmətli NATO şurası üzvləri, hörmətli səfirlər, xanımlar və cənablar!

Məni və Azərbaycanın nümayəndə heyətini səmimi qəbul etdiyinizə görə minnətdarlığımı bildirirəm. Bu gün sizin aranızda olmaq imkanından şadam və bunu Azərbaycan Respublikası üçün mühüm hadisə sayıram. Azərbaycan Respublikası barədə dediyiniz səmimi təbrik sözlərinə və xoş arzularınıza görə çox sağ olun. Öz inkişafında böyük tarixi yol keçmiş, çoxlu çətinliklərə və maneələrə rast gəlmiş Azərbaycan xalqı 1991-ci ildə milli istiqlaliyyət qazanmışdır. Müstəqil Azərbaycan dövləti yaranmışdır və indi o, Birləşmiş Millətlər Təşkilatına, ATƏM-ə, bir çox beynəlxalq təşkilata daxildir. Bu gün Azərbaycan nümayəndə heyətinin Şimali Atlantika İttifaqının iqamətgahında olmasından böyük fərəh hissi keçirirəm.

Azərbaycan Respublikası öz müstəqilliyini möhkəmləndirmək yolu ilə gedir. O, daxili siyasətdə demokratik hüquqi dövlət quruculuğu yolu tutur, bəşəriyyətin nail olduğu demokratik dəyərlərdən istifadə etməklə şəxsiyyət azadlığı və insan hüquqlarının müdafiəsi, çoxpartiyalı sistem, siyasi plüralizm üçün şərait yaradır. İqtisadiyyat sahəsində respublika iqtisadi islahatların həyata keçirilməsi və bazar iqtisadiyyatının, azad sahibkarlığın, azad təşəbbüskarlığın bərqərar olması yolunu tutmuşdur. Biz belə hesab edirik ki, bütün bunlar Azərbaycanın dünya birliyinə sıx inteqrasiyası üçün yaxşı zəmindir.

Azərbaycan Respublikası özünün xarici siyasətində dünyanın qarşılıqlı əlaqələri, qarşılıqlı asılılığı prinsipini əsas tutur, sülhsevər siyasət yeridir və suverenliyə hörmət etmək, bir-birinin daxili işlərinə qarışmamaq, ərazi bütövlüyünə və sərhədlərin toxunulmazlığına əməl etmək prinsipləri zəminində bütün ölkələrlə mehriban münasibətlər saxlamağa çalışır.

İndi Azərbaycan Respublikası ağır iqtisadi böhran keçirir. Bu böhran bir tərəfdən 70 il ərzində Azərbaycanın da daxil olduğu Sovet İttifaqının dağılması, Sovet İttifaqının bütün başqa respublikaları arasındakı sıx inteqrasiya əlaqələrinin pozulması, bir iqtisadi sistemdən başqasına keçidlə əlaqədardır. Digər tərəfdən, Azərbaycanın qonşu Ermənistan Respublikası ilə müharibə vəziyyətində olması, hərbi təcavüzə məruz qalması bu iqtisadi böhranı dərinləşdirir. Lakin, biz belə hesab edirik ki, Azərbaycanın müstəqil inkişaf yolu ilə qəti şəkildə irəliləməsini nəzərə alsaq, bütün bu çətinliklər aradan qaldırıla bilər. Azərbaycan dövlətinin müstəqilliyi dönməz amildir və biz əminik ki, həm dövlət quruculuğu, həm iqtisadi dəyişiklik-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lər, həm də demokratik islahatların həyata keçirilməsi sahəsində tutduğumuz yol bu çətinlikləri aradan qaldırmağa və böyük imkanları, zəngin iqtisadi və intellektual potensialı olan Azərbaycanı dünya iqtisadiyyatına, dünya birliyinə qovuşdurmağa imkan verəcəkdir.

Bayaq dediyim kimi, qonşu Ermənistanın respublikamıza qarşı altıncı il davam edən hərbi təcavüzü Azərbaycanın vəziyyətini mürəkkəbləşdirir. Ermənistanın millətçi dairələrinin törətdikləri bu təcavüz həm Azərbaycan xalqına, həm də erməni xalqına saysız-hesabsız bəlalar gətirmişdir və bu gün bizdən ötrü çox çətin problemə çevrilmişdir.

Sizə yaxşı məlumdur ki, Azərbaycan ərazisinin bir hissəsini ilhaq etmək, Dağlıq Qarabağı Ermənistana birləşdirmək məqsədi güdən Ermənistanın hərbi təcavüzü nəticəsində erməni silahlı birləşmələri Azərbaycan ərazisinin xeyli hissəsini işğal etmişlər. Altıncı ildən bəri davam edən müharibə nəticəsində 20 mindən çox adam həlak olmuş, təqribən 4 min nəfər əsir düşmüş və ya girov götürülmüş, Azərbaycan ərazisində minlərlə yaşayış evi, xəstəxana, məktəb, sosial obyekt, sənaye və kənd təsərrüfatı müəssisəsi məhv edilmişdir. Ölkəmizə milyardlarla dollar zərər dəymişdir.

Lakin ən dəhşətlisi odur ki, Azərbaycan ərazisinin 20 faizə qədəri erməni silahlı birləşmələri tərəfindən işğal olunmuşdur və bu rayonların sakinləri - bir milyondan çox adam yaşayış yerlərini itirmişdir, çox ağır sosial-iqtisadi vəziyyətdədir və öz ölkəsində qaçqına çevrilmişdir. Dağlıq Qarabağın ərazisində yaşayan azərbaycanlıların hamısı oradan qovulmuşdur. Dağlıq Qarabağ və onun ətrafınla Azərbaycanın daha yeddi rayonu, bayaq dediyim kimi, erməni silahlı birləşmələrinin işğalı altındadır.

Biz həmişə münaqişənin sülh yolu ilə aradan qaldırılmasına tərəfdar olmuşuq və indi də bu mövqedəyik. Beynəlxalq təşkilatların - BMT-nin, ATƏM-in və onun Minsk qrupunun imkanlarından fəal surətdə istifadə etməyə çalışırıq. 1993-cü ildə BMT-nin Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etmişdir. Həmin qətnamələrdə erməni işğalçı qoşunlarının Azərbaycan ərazisindən çıxarılması qəti şəkildə tələb olunur, lakin Ermənistan bu sənədlərin heç birini yerinə yetirməmişdir. ATƏM-in Minsk qrupunun səyləri də hələlik müsbət nəticə verməmişdir. Hərbi əməliyyatlar bu gün də davam edir, Azərbaycan ərazisinin xeyli hissəsini işğal etmiş erməni silahlı birləşmələri respublikamızın müdafiə mövqelərinə hücum edirlər. Hər gün qan tökülür, adamlar həlak olur.

Artıq bütün bunlara dözmək mümkün deyildir. Ona görə də mən bu gün burada, NATO-nun iqamətgahında olmağımdan isqifadə edərək, Azərbaycanın mövqeyini bir daha bəyan edirəm. Biz bu məsələnin sülh yolu ilə həllinə, atəşin və bütün hərbi əməliyyatların dərhal dayandırılmasına, işğalçı qoşunların Azərbaycan ərazisindən dzrhal çıxarılmasının və bu zaman onun ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını təmin edəcək danı-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

şıqlara tərəfdarıq. Biz bu şərtlərlə Dağlıq Qarabağın muxtariyyət statusu haqqında məsələni nəzərdən keçirməyə hazırıq.

Aprelin 12-də Azərbaycan televiziyası və radiosu ilə çıxış edərkən mən erməni xalqına, Ermənistanın rəhbərliyinə, Dağlıq Qarabağın Azərbaycan vətəndaşı olan erməni sakinlərinə müraciət edərək qan tökülməsini dayandırmağa çağırdım. Taleyin hökmü ilə Azərbaycan və erməni xalqları yanaşı yaşamalıdırlar və əsrlərlə yanaşı yaşamışlar. Biz belə hesab edirik ki, problemin hərbi yolla həllinin perspektivi yoxdur. Bu müharibə perspektivsiz müharibədir və qan tökülməsinə mümkün qədər tezliklə son qoymaq, regionumuzda sülhü bərqərar etmək lazımdır.

Bu gün bir daha əmin olduğumuzu bildiririk ki, bizim sülh məramlı təşəbbüslərimizin həyata keçirilməsi üçün beynəlxalq təşkilatlar, ilk növbədə ATƏM və onun Minsk qrupu əlavə tədbirlər görəcəklər. Bu gün NATO-nun iqamətgahında olarkən yarandığı dövrdən bəri Avropada və bütün dünyada sabitlik yaradılmasına, sülh və əməkdaşlığın möhkəmləndirilməsinə çox böyük töhfə vermiş Şimali Atlantika İttifaqına dərin hörmətimi bildirmək istəyirəm. Biz NATO-ya yüksək ehtiramla yanaşır və onun müasir mərhələdəki fəaliyyətinə böyük əhəmiyyət veririk. Şimali Atlantika Əməkdaşlığı Şurasının yaradılması NATO-nun fəaliyyətində mühüm mərhədə olmuşdur və başqa dövlətləri NATO-nun orbitinə cəlb etməyə imkan verəcəkdir.

Biz NATO-nun bu il yanvarın 10-da "Sülh naminə tərəfdaşlıq" sənədini qəbul etməsi barədə qərarını razılıqla qarşılayır və bunu həm də ölkələr arasında əməkdaşlığı daha da inkişaf etdirmək üçün NATO-nun fəaliyyətində mühüm addım sayırıq. NATO-nun 10 yanvar tarixli qərarında Cənubi Qafqazda yaranmış vəziyyətdən xüsusi narahatlıq ifadə olunmasına, regionumuzda, o cümlədən Azərbaycanda, Ermənistanda və Gürcüstanda münaqişənin aradan qaldırılmasının zəruriliyinə əminliyin əksini tapmasına böyük əhəmiyyət veririk.

Bütün bunlar bizi cəlb edir və böyük maraq doğurur. Bunları əsas tutaraq, biz NATO-nun Şərqi Avropa ölkələrini və keçmiş Sovet İttifaqına daxil olan yeni müstəqil dövlətləri "Sülh naminə tərəfdaşlıq" sənədinə qoşulmağa çağıran dəvətini böyük razılıqla qarşılamışıq. Biz həmin sənədi imzalamağı qərara almışıq və NATO ilə əməkdaşlığa böyük ümid bəsləyirik. Bu əməkdaşlıq həm Azərbaycanın Qərb demokratiyasına qovuşması, həm də NATO ilə əməkdaşlıq edərək, regionda vəziyyəti sabitləşdirməyə, müharibəni dayandırmağa, Azərbaycan ilə Ermənistan arasında sülh və mehriban qonşuluq yaratmağa yonəldilmiş əlavə yollar axtarmaq baxımından bizdən ötrü çox mühümdür.

Biz buraya bu fikirlər və ümidlərlə gəlmişik və bu gün "Sülh naminə tərəfdaşlıq" proqramını imzalamağa hazırıq. Bir daha ümil etdiyimi bildirmək istəyirəm ki, Azərbaycan Respublikasının bu addımı NATO tərəfindən layiqincə qiymətləndiriləcək, qarşılıqlı surətdə faydalı olacaq və başlıcası isə, regionumuzda vəziyyətin sabitləşməsinə kömək edəcəkdir. Sizin, təşkilatınıza gələcək uğurlar arzulayıram. Diqqətinizə görə minnətdaram və "Sülh naminə tərəfdaşlıq" çərçivə sənədini imzalamağa hazıram.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BRÜSSELDƏ BEYNƏLXALQ MƏTBUAT MƏRKƏZİNDƏ MƏTBUAT KONFRANSINDA ÇIXIŞ

4 may 1994-cü il

Hörmətli xanımlar və cənablar! Bu gün səhər mən Belçikanın baş naziri ilə görüşdüm. Biz Azərbaycanla Belçika arasında əməkdaşlığın daha da inkişaf etdirilməsinə dair problemlər haqqında danışıqlar apardıq. Bir müddət bundan öncə biz Belçika hökumətinə bir sıra sazişlərin layihələrini təqdim etmişdik. İndi Belçika tərəfi həmin layihələri öyrənir. Belçikanın baş naziri bildirdi ki, onlar bu ölkənin müvafiq bölgələri ilə razılaşdırıldıqdan sonra hökumət ölkələrimiz arasında əməkdaşlıq haqqında memorandumu, ticarət-iqtisadi əməkdaşlıq haqqında, turizm sahəsində əməkdaşlıq haqqında və bəzi digər sazişlər imzalamağa hazır olacaqdır.

Bu gün işimin əsas hissəsi NATO-nun iqamətgahına getməklə bağlı olmuşdur. Sizə məlumdur ki, hələ 1992-ci ildə NATO Şimali Atlantika Əməkdaşlığı Şurası yaradılması haqqında qərar qəbul etmişdir. Digər ölkələrlə yanaşı, keçmiş Sovet İttifaqının respublikaları, o cümlədən Azərbaycan da bu şuraya daxil olmuşlar.

Cari ilin yanvarında NATO-nun üzvü olan dövlətlərin başçıları "Sülh naminə tərəfdaşlıq" proqramı haqqında qərar çıxarmış və onu slan edərək, Şərqi Avropa ölkələrini və keçmiş Sovet İttifaqının ərazisində yaranmış yeni müstəqil dövlətləri bu proqrama qoşulmağa çağırmışlar. Biz Azərbaycanda bu sənədi ətraflı öyrəndik, orada Azərbaycan Respublikası üçün maraqlı, cəlbslici müddəalar tapdıq. Odur ki, on iri beynəlxalq təşkilatlardan biri kimi NATO-ya prinsipial münasibətimizi, öz mövculluğu ərzində Avropada və bütün dünyada vəziyyətin sabitləşməsi üçün çox iş görmüş olar NATO-ya hörmətimizi əsas tutaraq, biz "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulmağı mümkün və vacib bildik.

Bu gün mən NATO baş katibinin müavini ilə görüşdüm. Baş katibin özü cənab Manfred Verner iş başında deyildi. Aramızda çox maraqlı söhbət oldu. Sonra mən NATO Şurasının iclasında iştirak etdim və "Sülh naminə tərəfdaşlıq" proqramının çərçivə sənədini imzaladım. Biz bu sənədi imzalayarkən onu əsas tuturuq ki, gənc müstəqil Azərbaycan dövləti öz istiqlaliyyətini möhkəmlətmək yolu ilə, demokratiya, bazar İqtisadiyyatı yolu ilə, dünya birliyi, xüsusən Avropa, Qərb ilə inteqrasiyanı daha da genişləndirmək yolu ilə gedərək, "Sülh naminə tərəfdaşlıq" sənədi əsasında NATO ilə əməkdaşlıq şəraitində öz qarşısında duran vəzifələri yerinə yetirmək üçün daha geniş imkanlara malik olacaqdır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bildiyiniz kimi, Azərbaycan Ermənistanla müharibə vəziyyətindədir, demək olar, altı ildir Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalır. Bu müharibə Azərbaycanın iqtisadiyyatına da, ərazi bütövlüyünə də çox böyük ziyan vurmuş, çoxlu insan qırılmışdır. 20 min nəfərdən artıq adam həlak olmuş, hazırda Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı birləşmələrinin işğalı altındadır. Sülhsevər təşəbbüslərimizə baxmayaraq, bu münaqişənin aradan qaldırılmasında beynəlxalq təşkilatların, o cümlədən BMT Təhlükəsizlik Şurasının, ATƏM-in və onun Minsk qrupunun iştirakına baxmayaraq, müharibə dayanmaq bilmir, buna görə də biz NATO ilə əməkdaşlığa başlayarkən, "Sülh naminə tərəfdaşlıq" sənədini imzalayarkən bunu əsas tuturuq ki, öz məqsədlərimizi həyata keçirmək üçün yeni imkanlarımız yaranacaqdır. Məqsədlərimiz isə münaqişənin dincliklə aradan qaldırılmasından, atəşin və bütün hərbi əməliyyatların dayandırılmasından, işğal olunmuş Azərbaycan ərazilərindən Ermənistan silahlı birləşmələrinin çıxarılmasından, Azərbaycanın ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının təmin edilməsindən ibarətdir. Əlbəttə, bu prosesdə Dağlıq Qarabağın azlıq təşkil edən erməni əhalisinin müdafiəsi və təhlükəsizliyinə təminat və Dağlıq Qarabağ üçün muxtariyyət statusuna baxılmasının mümkünlüyü də nəzərdə tutulur.

Biz bütün bu mülahizələri əsas tutaraq, qərar qəbul etdik və bu gün Azərbaycan Respublikası adından "Sülh naminə tərəfdaşlıq" sənədini imzaladıq. Mən NATO-nun iqamətgahında aparılmış danışıqlar və söhbətlərdən, burada əhatə olunduğumuz dostluq şəraitindən, görüş və söhbətlərimiz zamanı aşkara çıxardığımız qarşılıqlı anlaşmadan məmnunam. Mən ondan məmnunam ki, Azərbaycan bu sənədi imzalamışdır. Baş katibin müavini bildirmişdir ki, Azərbaycan bu proqrama qoşulan 15-ci ölkə olmuşdur, Sovet İttifaqının keçmiş respublikaları arasında isə sənədi imzalayan 4-cü ölkədir.

Biz NATO ilə əməkdaşlığa böyük ümidlər bəsləyirik. Mən də əminəm ki, ümidlərimiz özünü doğruldacaqdır.

İndi isə suallarınıza cavab verməyə hazıram.

S u a l: Canab prezident, Sizə iki sualım var. Birincisi, mən o qədər də təsəvvür elə bilmir və başa düşmürəm ki, Dağlıq Qarabağla münaqişənin həlli üçün NATO tərəfindən hansı xüsusi təşəbbüslər gözləmək olar. Bununla əlaqədar Sizdən soruşmaq istərdim: NATO-da görüşlərinizdə bu problemin nizama salınması üçün NATO-nun göstərə biləcəyi diplomatik və ya hər hansı digər səylər müzakirə edildimi?

İkinci sual. Bir neçə ay bundan əvvəl mətbuatda xəbər verildi ki, Rusiya Federasiyası Sizə təzyiq göstərmək üçün, Sizin ölkənizi bəzi məsələlərlə, xüsusən neftlə bağlı məsələlərlə Rusiya Federasiyası ilə ittifaqı bərpa etmək məcburiyyətində qoymaq üçün Ermənistan Respublikasının Sizin ölkənizlə münaqişəsində ona qeyri-rəsmi yardım göstərir və arxa durur. Bu informasiya nə dərəcədə **doğrudur?**

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

C a v a b: Əvvəla, Ermənistanla Azərbaycan arasında münaqişənin həllində NATO ilə əməkdaşlığımızın nə kimi imkanlar açdığını sizin təsəvvürünüzdə canlandırmağınız üçün mən sizdən xahiş edərdim ki, NATO blokuna daxil olan dövlətlərin başçıları tərəfindən yanvarın 10-da qəbul edilmiş sənədin özü ilə tanış olasınız. Orada çox dəqiq müddəalar var və onlar ümid etməyə imkan verir ki, "Sülh naminə tərəfdaşlıq" proqramında bizim iştirakımız Ermənistanla Azərbaycan arasında münaqişə ilə bağlı məsələlərin müzakirəsində NATO-nun iştirakına şərait yaradır. Mən bu mövzuda uzun-uzadı danışmaq istəməzdim. Sizdən sadəcə olaraq xahişim budur ki, bu sənədi oxuyun, bütün bunlar orada çox dəqiq şərh edilmişdir.

Yeri gəlmişkən, təxminən yarım saat bundan əvvəl, NATO baş katibinin müavini ilə mən NATO iqamətgahında müxbirlərin suallarına cavab verərkən baş katibin müavini həmin suala aydın cavab verərək dedi ki, Ermənistan ilə Azərbaycan arasında Dağlıq Qarabağ üstündə münaqişə ilə əlaqədar Azərbaycanla məsləhətləşmələrə NATO elə indinin özündə də başlaya bilər.

O ki qaldı Ermənistanın Azərbaycakla münaqişəsində Rusiyanın Ermənistana köməyi, Azərbaycana təzyiq göstərmək, o cümlədən də neftlə bağlı problemlərə görə təzyiq göstərmək istəməsi barədə ikinci suala, bir şey deyə bilərəm: Ermənistan ərazisində Rusiyanın qoşunları, hərbi bazaları var. Azərbaycan ərazisində Rusiya qoşunları yoxdur. Ermənistan ilə Azərbaycan arasında müharibə gedir. Döyüşlər bir gün belə ara vermir. Ermənistan ərazisi isə hər halda çox da geniş deyil, Azərbaycan ərazisindən üç dəfə kiçikdir. Odur ki, özünüz nəticə çıxarın.

S u a l: Cənab prezident, Siz öz çıxışınızda qeyd etdiniz ki, müharibə ölkənizə, o cümlədən də onun iqtisadiyyatına olduqça böyük ziyan vurmuşdur. Bununla əlaqədar maraqlanmaq istərdim, bu müharibə Sizin neft məhsullarının ixraçına necə və nə dərəcədə təsir göstərmişdir? Bu sahədə vəziyyəti əks etdirən hər hansı rəqəmlər misal gətirsəniz, minnətdar olaram. Bir də, müharibə Qərbin neft şirkətləri ilə hər hansı bağlaşmalar imzalanmasına nə dərəcədə təsir göstərmişdir?

C a v a b : Həqiqətən, müharibə Azərbaycan iqtisadiyyatına böyük ziyan vurmuşdur və ziyan vurmaqladır. Bir təsəvvür edin ki, ölkə ərazisinin 20 faizi işğal altındalır, bu torpaqlar isə bərəkətli torpaqlardır. Azərbaycanın həmin bölgələrinin ərazisində iri sənaye və kənd təsərrüfatı müəssisələri yaradılmışdı. Həmin rayonlardan olan bir milyon qaçqın respublikanın digər bölgələrində yerləşdirilmiş və olduqca ağır sosial-iqtisadi vəziyyətdədir. Siz bu ziyanın miqyasını təsəvvürünüzdə canlandıra bilərsiniz - milyardlarla dollar məbləğində ziyan vurulmuşdur. O ki qaldı müharibənin neft sənayesinə ziyan vurması barədə sualınıza, deməliyəm ki, bizim neft sənayesinin müəssisələri döyüş əməliyyatları zonasında deyildir, buna baxmayaraq, əgər ölkə müharibə vəziyyətindədirsə, müharibə, Azərbaycanda olduğu kimi, iqtisadiyyatın bütün sahələrinə, əlbəttə, təsir göstərir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qərbin neft şirkətləri ilə imzalamağa hazırlaşdığımız bağlaşmalara gəldikdə, bu mövzu ətrafında olduqca çoxlu söz-söhbət gedir, mühakimələr yürüdülür. Təbiidir ki, Azərbaycanın neft sərvətləri dünyanın bir çox ölkələrinin, habelə Qərbin iri neft şirkətlərinin marağını cəlb edir. Ümumiyyətlə, Azərbaycan öz coğrafisiyasi, coğrafi mövqeyinə görə, bir çox Qərb ölkələrinin böyük iqtisadi marağını cəlb edir. Neft şirkətləri ilə bağlaşmalar imzalanması haqqında danışıqlar aparılır. Danışıqların yeni dövrəsi mayın 2-də İstanbulda başlanmışdır. Qərb firmalarının və Azərbaycan Dövlət Neft Şirkətinin nümayəndələri hazırda orada danışıqlar aparırlar. Mən belə düşünürəm ki, biz yavaş-yavaş bağlaşmaların imzalanmasına yaxınlaşırıq. Görünür, neft bağlaşmalarının imzalanmasına başlaya biləcəyimiz gün uzaqda deyildir.

S u a l: Cənab prezident, Siz istər Azərbaycanın, istərsə də SSRİ-nin dövlət strukturlarında zəngin iş təcrübəsinə maliksiniz, bir vaxtlar Azərbaycan Kommunist Partiyasının, ondan əvvəl isə Azərbaycan Dövlət Təhlükəsizliyi Komitəsinin rəhbəri, sonralar isə keçmiş SSRİ-də Sov.İKP MK Siyasi Bürosunun üzvü olmuşsunuz. Siz Azərbaycanda dövlət quruculuğunun indiki səviyyəsini neçə səçiyyələndirərdiniz?

İkinci sual. Bu yaxınlarda mətbuatda xəbər verilmişdir ki, Rusiya Federasiyasının prezidenti çənab Yeltsinin dediyinə görə, Rusiya öz hüdullarından kənarda, MDB-yə daxil olan ölkələrin ərazisində təxminən 30 hərbi baza yerləşdirmək niyyətindədir. Bununla əlaqədar olaraq fikrinizi öyrənmək istərdim, hadisələrin Azərbaycanla bağlı bu çür inkişafı Sizin ücün məqbuldurmu?

C a v a b: Keçmiş işimdən məni xatırlalığınıza və unutmadığınıza görə minnətdaram. Mən həqiqətən Azərbaycan Kommunist Partiyasının rəhbəri, həm də Siyasi Büronun üzvü və keçmiş Sovet İttifaqı baş nazirinin birinci müavini kimi SSRİ-nin rəhbərlərindən biri olmuşam.

Lakin sizin sualınız Azərbaycanda indiki dövlət quruluşu ilə bağlıdır. Azərbaycan dövlət inkişafının müstəqil yoluna qədəm qoymuşdur. Ölkənin prezidenti kimi, bəyan edirəm ki, Azərbaycanın müstəqilliyi dönməz prosesdir. Respublika bundan sonra da özünün dövlət müstəqilliyini möhkəmləndirəcəkdir. Müstəqil dövlət olan Azərbaycan demokratik cəmiyyətin bütün atributları nəzərə alınmaqla hüquqi demokratik dövlət quruculuğu yolu ilə gedir və gedəcəkdir. Həmin atributları deyərkən mən şəxsiyyət azadlığını, vicdan azadlığını, insan hüquqlarının qorunmasını, çoxpartiyalı sistemi, siyasi plüralizmi, bazar İqtisadiyyatını, azad sahibkarlığı, ümumbəşəri dünya dəyərlərinə qovuşmağı nəzərdə tuturam. Əminəm ki, Azərbaycan bu yolla gedəcəkdir. Hər halda Azərbaycan prezidenti kimi, mən buna çalışacağam. Ümidvaram ki, bütün Azərbaycan xalqı da bu fikirdədir.

İndi müstəqil dövlətlər olan keçmiş Sovet İttifaqı respublikalarının ərazisində Rusiyanın 30 hərbi baza yerləşlirməyə hazırlaşması barədə xəbərlərə gəldikdə, deyə bilərəm ki, bu bazalar respublikaların bir çoxunla yerləşdirilmişdir. Əgər bizim

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

regiondan, Zaqafqaziyadan, Gürcüstan, Ermənistan və Azərbaycanın daxil olduğu və sizlərlə deyildiyi kimi, Cənubi Qafqazdan söhbət salsaq, deməliyəm ki, həm Gürcüstanda, həm də Ermənistanda Rusiyanın hərbi bazaları və qoşunu var. Gürcüstanın Türkiyə ilə sərhədini, Ermənistanın Türkiyə və İranla sərhədini Rusiyanın sərhəd qoşunları mühafizə edirlər. Azərbaycanda Rusiyanın qoşunu yoxdur. Mən Rusiyanın planlarından xəbərdar deyiləm. Əlbəttə, hər bir dövlətin öz planları ola bilər. Lakin Azərbaycan da müstəqil dövlətdir və onun da öz planları var.

S u a l : Cənab prezident, Azərbaycan OPEK-də müşahidəçi statusu almağa hazırlaşırmı? Bu barələ sizin fikrinizi bilmək istərdim. Siz bu beynəlxalq təşkilatın tam hüquqlu üzvü statusu almağınızı mümkün sayırsınızmı?

C a v a b: Biz bu məsələni öyrənirik. Bayaq dediyim kimi, Qərbin neft şirkətləri konsorsiumu ilə böyük saziş bağlamaq haqqında danışıqlar aparılır. Bu danışıqların nəticələri, şübhəsiz ki, Azərbaycanda neft sənayesinin gələcək inkişaf yolunu müəyyənləşdirəcək. Nəticələrdən asılı olaraq biz gələcək addımlarımızı müəyyən edəcəyik.

S u a l : Çənab prezident, Ermənistanın "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulmağa hazırlaşması indi ATƏM-in, onun Minsk qrupunun, Təhlükəsizlik haqqında müqavilənin, Ermənistan - Azərbaycan münaqişəsinin aradan qaldırılmasına dair vasitəçilik səylərinin düşdüyü aciz vəziyyətə gətirib çıxarmayacaqmı? İkinci sual: "Sülh naminə tərəfdaşlıq" proqramı məsləhətləşmələrdən, o cümlədən siyasi məsləhətləşmələrdən əlavə, daha bir neçə bənd, yəni birgə təlimlər keçirilməsinin, hərbi planlaşdırma və hərbi quruculuğu da nəzərdə tutur. Azərbaycan bu bəndlərdən istifadə edəçəkmi? Başqa sual: Əgər MDB-nin Kollektiv Təhlükəsizliyi haqqında müqaviləni imzalamış ölkələrin və Azərbaycanın da qoşulduğu "Sülh naminə tərəfdaşlıq" proqramını imzalamış dövlətlərin mənafelərinin uyğun gəlmədiyi vəziyyət yaranarsa, bu halda Azərbaycan prezidenti neçə hərəkət edəcək?

C a v a b : Ermənistanın "Sülh naminə tərəfdaşlıq" proqramını imzalamağa hazırlaşması barədə bizdə məlumat yoxdur. Əgər imzalasa belə, zənnimcə, NATO ilə əməkdaşlığımıza bundan xələl gəlməyəcək. Bundan əlavə, mənə belə gəlir ki, NATO-nu MDB ilə eyniləşdirmək lazım deyil, bu birincisi. İkincisi isə, mən hesab etmirəm ki, Ermənistan ilə Azərbaycan arasında münaqişəni Təhlükəsizlik haqqında müqavilə çərçivəsində aradan qaldırmaq üçün MDB-nin imkanları tükənmişdir. Azərbaycan ilə NATO arasında konkret əməkdaşlığa gəldikdə isə, bu əməkdaşlığın prinsipləri və istiqamətləri "Sülh naminə tərəfdaşlıq" proqramının imzalanmasından sonra bizim imzalayacağımız sənəddə müəyyən ediləcəkdir. Həmin sənəddə hər şey nəzərdə tutulacaqdır. Məsələn, bizim NATO ilə əməkdaşlığımızın hansısa mənfi nəticələrinin ola biləcəyinin mümkünlüyü məni narahat etmir. Əksinə, əminəm ki, bu əməkdaşlıq çox müsbət olacaqdır.

S u a l : "Sülh naminə tərəfdaşlıq" proqramında sazişi imza-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lamış ölkənin ərazi bütövlüyünə təhlükə yaranarsa, həmin ölkəyə NATO çərçivəsində siyasi məsləhətləşmələr keçirilməsini tələb etmək hüququ verən bənd nəzərdə tutulmuşdur. Siz yaxın vaxtlarda bu hüquqdan istifadə etmək niyyətindəsinizmi? İcazənizlə, ikinci sual: İqtisadi baxımdan Rusiya - Azərbaycan münasibətlərinin gələcəyini neçə görürsünüz?

C a v a b: Birinci sualınızın cavabında deyim ki, "Sülh naminə tərəfdaşlıq" çərçivə sənədini imzalamaqla biz yarı yolda dayanmaq fikrində deyilik. Əksinə, bu əməkdaşlığın imkanlarından, o cümlədən, təbii ki, məsləhətləşmələrdən də maksimum istifadə etmək əzmindəyik.

O ki qaldı Azərbaycan ilə Rusiya arasındakı münasibətlərə, deməliyəm ki, mehriban qonşuluq münasibətlərini yaxşılaşdırmaq üçün son vaxtlar çox fəal addımlar atılmışdır, yaxın keçmişlə müqayisədə münasibətlərimiz indi həqiqətən xeyli yaxşılaşmışdır. Rusiyanın rəhbərləri prezident - Boris Yeltsinlə, baş nazir Viktor Çernomırdinlə, xarici işlər, mudafiə nazirləri ilə, başqa vəzifəli şəxslərlə görüşlərimiz aydın surətdə göstərir ki, biz Rusiya ilə iqtisadi, mədəni, texniki və başqa əlaqələri daha da inkişaf etdirmək yolu ilə gedirik. Bundan əlavə, bildiyiniz kimi, keçən ilin sentyabrında biz MDB-yə daxil olmuşuq və Birlik çərçivəsində Rusiya ilə əməkdaşlıq edirik. Əməkdaşlığımızın perspektivləri olduqca əlverişlidir.

S u a l : Məlum olduğu kimi, Azərbaycan Mərkəzi Asiya respublikaları barəsində lider rolunu oynayır. Sizin indiki səfəriniz, NATO-nun iqamətgahında sənədlərin imzalanması həmin regiondakı respublikaların bu sənədlərə qoşulmasına hazırlıqdırmı? Mərkəzi Asiya respublikalarının rəhbərləri ilə məsləhətləşmələriniz olubmu?

C a v a b : Mən heç vaxt hansısa regionla liderlik roluna iddia etməmişəm və bu gün də belə bir iddiala deyiləm. Orta Asiya respublikaları ilə, Qazaxıstanla bizim çox yaxşı, mehriban, dostcasına münasibətlərimiz var. Lakin "Sülh naminə tərəfdaşlıq" proqramını imzalamaq qərarına gedərkən, biz heç kimdə, o cümlədən də bu ölkələrlə məsləhətləşməmişik. Biz bu qərarı tamamilə müstəqil şəkildə qəbul etmişik və kiminləsə məsləhətləşməyi lazım bilməmişik. Bu ölkələrin "Sülh naminə tərəfdaşlıq" proqramı barəsindəki mövqeyi mənə məlum deyil.

S u a l : İş belə gətirmişdir ki, Azərbaycanın üç böyük qonşusu var - Rusiya, Türkiyə və İran. Azərbaycan Rusiya ilə birlikdə Kollektiv Təhlükəsizlik haqqında müqaviləyə daxildir. Bu gündən etibarən, "Sülh naminə tərəfdaşlıq" çərçivə sənədinin imzaladıqdan sonra Türkiyə ilə müəyyən dərəcədə ümumi ittifaqa daxil olur. Yerdə qalır İran. Bilirik ki, İran Azərbaycana kömək göstərir, qaçqınlara yardım edir. Qarşılıqlı təhlükəsizlik haqqında hansısa müqavilənin imzalanması nəzərdə tutulurmu? Çünki bu baxımdan İran kənarda qalmışdır.

C a v a b : Azərbaycan üçün İran böyük qonşu ölkədir. Bizim çox mehriban, dostcasına münasibətlərimiz var. Keçən ilin oktyabrında İran prezidenti cənab Haşimi-Rəfsəncani Azərbaycan-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

da rəsmi səfərdə olmuşdur. O zaman biz dövlətlərarası münasibətlərin inkişafı üçün perspektivlər açan bir sıra sənəd imzalamışıq. Azərbaycanın İranla İqtisadiyyat sahəsində, bütün başqa sahələrdə əməkdaşlığının böyük perspektivi var. Əgər hansısa yeni sənədlər imzalamaq tələb olunarsa, o zaman, görünür, bu məsələ hər bir ayrıca halda nəzərdən keçiriləcək. İran həqiqətən Azərbaycan qaçqınlarına böyük humanitar yardım göstərir. Bu yardıma görə biz İran hökumətinə minnətdarıq və əminik ki, Azərbaycan ilə İran arasında dostluq və əməkdaşlığın inkişaf perspektivləri əlverişli olacaqdır.

S u a l : Sizin Ankaraya qarşıdakı səfəriniz Azərbaycanla Türkiyə arasında əməkdaşlığın hansısa yeni istiqamətləri ilə bağlıdırmı? Bununla əlaqədar ikinci bir sual: Siz Türkiyədə kiminlə görüşmək fikrindəsiniz?

C a v a b : Mən səhər tezdən Brüsseldən yola düşürəm. Təyyarəmiz texniki mülahizələrə görə Ankarada yerə enməlidir. Mən bu imkandan istifadə etmək və Türkiyə rəhbərlərinin arzusu olarsa, onlarla görüşmək və fikir mübadiləsi etmək niyyətindəyəm. Bu görüş əvvəlcədən planlaşdırılmadığına görə, indidən bir şey demək çətindir. Məlum olduğu kimi, Türkiyə ilə Azərbaycanı çox yaxın, dostcasına münasibətlər birləşdirir və ölkələrimizin rəhbərlərinin hər bir görüşü, o cümlədən də sabah ola biləcək görüş, şübhəsiz, bu münasibətlərin möhkəmlənməsinə xidmət edir. Sabah nə olacağını sabah bilərik. İndi bu barədə heç nə deməyəcəyəm.

Təşəkkür edirəm. Diqqətinizə görə sağ olun.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"SÜLH NAMİNƏ TƏRƏFDAŞLIQ" ÇƏRÇİVƏ SƏNƏDİNİN İMZALANMA MƏRASİMİNDƏ BƏYANAT

4 may 1994-cü il

Brüssel, NATO-nun iqamətgahı

Zəngin və çoxəsrlik tarixi olan, böyük inkişaf yolu keçən Azərbaycan Respublikası üç il bundan əvvəl sovet totalitarizminin süqutu nəticəsində öz milli istiqlaliyyətini bərpa etmiş və BMT-də, ATƏM-də və digər beynəlxalq təşkilatlarda təmsil olunduğuna görə bu gün NATO üçün dünya birliyinin tamhüquqlu üzvüdür.

Dünya inkişafının bugünkü qanunauyğunluqlarını nəzərə alaraq, indiki mərhələdə Azərbaycan dünya birliyində öz layiqli yerini tutmağa çalışır və demokratik cəmiyyət yaratmaq əzmindədir. Elə bir cəmiyyət ki, bəşər sivilizasiyasının öz inkişafının bütün mərhələlərində yaratdığı funlamental prinsiplərə və dəyərlərə sadiqdir.

Azərbaycanın dövlət siyasətinin əsasını sülhsevərlik, siyasi plüralizm, şəxsiyyətin azadlığının və insan hüquqlarının tanınması və təmin olunması prinsipləri təşkil edir. Bizdə siyasi partiyalar, dini etiqad azadlığı, milli azlıqların hüquqlarının müdafiəsi və s. Haqqında normativ sənədlər qəbul edilmişdir və işləyir.

Azərbaycan öz xarici siyasətini bizim hamımızın qarşısında duran ümumi qlobal məqsədləri rəhbər tutaraq, dünyanın qarşılıqlı surətdə asılı və qarşılıqlı surətdə bağlı olmasını dərindən dərk etmək əsasında qurur. Biz möhkəm əminik ki, dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərinin toxunulmazlığına qarşılıqlı hörmət indiki həyəcanlı və hədə-qorxulu dövrdə təhlükəsizliyin əsasıdır.

Azərbaycan xarici dünya üçün açıq olan və ölkənin çox zəngin potensialından istifadə etməyə imkan verən bazar iqtisadiyyatı yaratmaq məqsədilə iqtisadi islahatlar həyata keçirməyə başlamışdır. Bu məqsədlə biz xarici investisiyaları iqtisadiyyatımıza cəlb etmək və dünyanın ən iri şirkətləri ilə əməkdaşlıq yaratmaq üçün tədbirlər görürük. İslahatların qanunvericilik yolu ilə təmin edilməsi prosesi gedir.

İndi Azərbaycan dərin böhran keçirir Sovet quruluşunun iflasa uğrumasının nəticəsi olan bu böhran keçmiş SSRİ-nin bütün ərazisini əhatə etmişdir. Buna baxmayaraq, biz yaşadığımız dövrün çətinliklərini dəf etmək və islahatların planlı surətdə həyata keçirilməsi yolu ilə çiçəklənən suveren dövlət yaradılmasına nail olmaq əzmindəyik.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Azərbaycan 1993-cü ilin sentyabrında Müstəqil Dövlətlər Birliyinin üzvü olmuş və bunu SSRİ parçalandıqdan sonra meydana gəlmiş ölkələrlə siyasi və iqtisadi əməkdaşlığın zəruri amili hesab etmiş və Kollektiv Təhlükəsizlik haqqında müqavilə imzalamışdır.

Mənim ölkəmin vəziyyətini ağırlaşdıran budur ki, o, Azərbaycana qarşı ərazi iddiaları olan qonşu Ermənistan Respublikası tərəfindən təcavüzə məruz qalmışdır.

Təcavüzkar dövlət olan Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsi ərazisində yaşayan ermənilərin etnik qrupundan ərazimizin ilhaqı üçün separatçılıq vasitəsi kimi istifadə edir. Ermənistan öz ərazisindən və silahlı qüvvələrindən Azərbaycan ərazisində müharibə aparmaq üçün istifadə edir və bu faktları gizlətməyə daha müvəffəq olmur.

Azərbaycana qarşı həyata keçirilən təcavüzün gedişində Ermənistan Respublikası Azərbaycan ərazilərinin 20 faizindən çoxunu işğal etmişdir. Ermənistan silahlı qüvvələrinin apardıqları etnik təmizləmə əməliyyatları nəticəsində 20 mindən çox adam öldürülmüş, təxminən 60 min nəfər yaralanmış və ya əlil olmuş, 4 min adam əsir düşmüş və ya girov götürülmüş, təqribən 1 milyon azərbaycanlı öz ölkəsində qaçqına çevrilmişdir.

İşğal olunmuş ərazilərdə qırılıb-çatılmaq təhlükəsinə məruz qalan azərbaycanlıların tamam hamısı həmin ərazilərdən qovulmuşdur. İşğalçılar "viran qoyulmuş torpaq" taktikasına əl atırlar. Təxminən 90 min yaşayış tikilisi, 1 mindən çox iqtisadi obyekt, 250 məktəb və təhsil ocağı, 250 tibb müəssisəsi yandırılmış, qarət edilmiş və dağıdılmışdır. Azərbaycana vurulmuş zərər milyardlarla ABŞ dollarına bərabərdir.

Erməni millətçiləri müharibə məşəlini yandırmış və tarixin hökmü ilə sülh və mehriban qonşuluq şəraitində yaşamalı olan iki xalqı toqquşdurmuşlar. Mən qəti əminəm ki, Azərbaycanla Ermənistan arasında münaqişə hərbi yolla həll edilə bilməz. Hərbi əməliyyatların davam etməsi hər iki xalqı ağlasığmaz müsibətlərə düçar edir. Münaqişə onlara ayağa durmağa, öz müstəqilliyini bərqərar etməyə, iqtisadi islahatları tam həcmdə həyata keçirməyə, demokratik dövlət qurmağa mane olur.

Azərbaycan münaqişənin aradan qaldırılması məsələlərində həmişə əməli mövqe tutmuşdur. Dövlətimizin ərazi bütövlüyü və sərhədlərinin pozulmazlığı bizim üçün ən başlıca prinsipdir. Biz işğal olunmuş bütün Azərbaycan ərazilərinin azad edilməsinə, qaçqınların hamısının, o cümlədən də 50000 qarabağlı azərbaycanlının öz torpaqlarına qayıtmasına çalışacağıq. Eyni zamanda biz Qarabağ ermənilərinin təhlükəsizliyini və bütün vətəndaş hüquqlarını təmin etməyi, onlara Azərbaycan dövləti çərçivəsində müvafiq səviyyədə muxtariyyət verməyi öhdəyə götürürük.

Cari il aprelin 12-də mən Ermənistan vətəndaşlarına, Dağlıq Qarabağın erməni millətindən olan sakinlərinə Azərbaycan vətəndaşlarına müraciət edib, onları əl saxlamağa, hərbi əməliyyatları dayandırmağa çağırdım. Azərbaycan rəhbərliyi mü-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

naqişə zonasında hərbi əməliyyatlara cəlb olunmuş bütün sakinlərin şəxsi təhlükəsizliyinə, doğma torpaqda dinc, azad yaşamaq imkanına təminat vermişdir. Biz həmin prinsipial mövqeyimizi bu gün bir daha təsdiq edirik.

Azərbaycana qarşı təxminən altı ildən bəri davam edən hərbi təcavüz zamanı münaqişənin dincliklə aradan qaldırılması üçün çoxlu addım atılmışdır. Təəssüflər olsun ki, bu addımlar Ermənistan Respublikasının sərt təcavüzkar mövqeyi üzündən istənilən nəticələri verməmişdir.

Azərbaycan ərazilərinin işğalı faktı, bu ərazilərdən işğalçı Ermənistan silahlı qüvvələrinin dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması tələbi BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsində - 822-ci, 853-cü, 874-cü və 884-cü qətnamələrində öz əksini tapmışdır. Lakin indiyədək müxtəlif bəhanələrlə Ermənistan həmin qətnamələri yerinə yetirməkdən imtina edir. Ermənistan öz davranışı ilə dünya birliyinə açıq-aşkar meydan oxuyaraq, münaqişənin dincliklə, siyasi yollarla aradan qaldırılması üçün göstərilən bütün cəhdləri kökündən pozur. Azərbaycanın ərazi bütövlüyünü tanımır, işğal olunmuş Azərbaycan ərazilərini tərk etməkdən boyun qaçırır.

Azərbaycan Respublikası Minsk qrupunun fəaliyyətini dəstəkləmək üçün öz tərəfindən hər şey edir, bu qrup üçün mümkün olan bütün şəraiti yaradır. Lakin nəzərə çarpdırmaq istəyirəm ki, hər dəfə Minsk qrupu toplaşdıqda dünya Ermənistan tərəfindən hərbi əməliyyatların daha da gücləndirilməsinin, yeni-yeni Azərbaycan ərazilərinin işğal edilməsinin şahidi olur. ATƏM-in indiki sədrinin 1993-cü ilin oktyabrında bölgəyə səfəri zamanı və ya Minsk qrupunun bu ilin aprelində Praqada müşavirəsi keçirilən zaman və başqa vaxtlarda məhz belə olmuşdur. Minsk qrupunun nümayəndə heyəti aprelin 26 - dan mayın 2-dək bölgədə idi. Biz ona hər cür kömək göstərdik. Əgər Minsk qrupunda təmsil olunmuş ölkələrin hamısı qanlı müharibəyə bacardıqca tez bir vaxtda son qoymaq və sülhün bərpasına başlamaq üçün möhkəm iradə ilə çıxış edərsə, mən əminəm ki, müvəffəqiyyət təmin olunar. Buna görə də Brüsseldə NATO-nun iqamətgahında olmaq fürsətindən istifadə edərək, ATƏM-in Minsk qrupunun bütün aparıcı ölkələrinin daxil olduqları Şimali Atlantika İttifaqına üz tutaraq, onu qan tökülən bölgəmizdə sülhün və sabitliyin təmin edilməsi üçün lazımi tədbirlər görməyə çağırıram.

Azərbaycan Respublikası Şimali Atlantika İttifaqına dərin hörmətlə yanaşır, onun son onilliklər ərzində Avropada sülhü, sabitliyi və ardıcıl inkişafı təmin etmiş olan fəaliyyətini yüksək qiymətləndirir. Hazırda dünyada kollektiv təhlükəsizliyin real surətdə mövcud olan, strukturu kimi NATO demokratik dəyərlərin müdafiəsini və bu dəyərlərin Şərqi Avropada və keçmiş SSRİ ərazisində yaranmış yeni müstəqil dövlətlərdə yayılmasını təmin edir.

Biz NATO-ya gənc Azərbaycan dövlətinə Qərb dünyası ilə sıx və çoxtərəfli qarşılıqlı münasibətlər yaratmaqda və Qərb dün-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yasının çox zəngin təcrübəsindən bəhrələnməkdə kömək etməyə qadir olan bir təşkilat kimi baxırıq. Azərbaycanın, eləcə də digər yeni Avropa dövlətlərinin müstəqilliyinin möhkəmlənməsi NATO-nun bütün fəaliyyətinin əsaslandığı prinsiplərin sarsılmazlığının real təsdiqi olacaqdır.

Biz Zaqafqaziyada vəziyyətdən narahatlığın ifadə edilməsinə və həmin regiondakı dövlətlərin, o cümlədən də Azərbaycanın ərazi bütövlüyünə, müstəqilliyinə və suverenliyinə hörmətin təsdiq olunmasına görə NATO-ya minnətdarıq. Bu narahatlıq və hörmət NATO şurasının 1994-cü ilin yanvarında qəbul edilmiş bəyannaməsində öz əksini tapmışdır.

NATO-nun prinsipləri - onun iştirakçılarının öz münasibətlərini tənzimləyərkən, öz aralarında ortaya çıxan bütün mübahisələri dinc vasitələrlə həll edərkən, bu təşkilatın bir və ya bir neçə üzvünə qarşı təcavüzün dəf olunması üçün öz fərdi və kollektiv imkanlarını genişləndirərkon əsas tutduqları prinsiplər öz həyat qabiliyyətini uzun illər boyu sübut edir və qarşıdurmadan sonrakı dövrdə Avropada təhlükəsizliyin yeni sistemini qurmağın bünövrəsi ola bilərdi.

Bazar iqtisadiyyatı olan müstəqil demokratik dövlət qurmaq yolu seçən gənc Azərbaycan Respublikası bu yolda böyük müvəffəqiyyətlər qazanmış dövlətlərə böyük ümidlə baxır və onlardan kömək və yardım gözləyir. Buna görə də, bir çox digər ölkələr kimi, biz də NATO-nun "Sülh naminə tərəfdaşlıq" təşəbbüsünü böyük ruh yüksəkliyi ilə qarşıladıq. Şimali Atlantika İttifaqı özlüyündə bizim üçün elə bir təhlükəsizliyə istiqamətdir ki, bu təhlükəsizliyi o, NATO-nun üzvü olan ölkələrin dövlət və hökumət başçılarının bu il yanvarın 10-da keçirilmiş görüşündə NATO-nun baş katibi Manfred Vernerin dediyi kimi, öz üzvləri üçün təmin edir, çünki bu, kollektiv təhlükəsizlik sahəsində daha səmərəli fəaliyyət göstərən təşkilatdır.

Biz müharibə vəziyyətində olan, qonşu ölkə - Ermənistan tərəfindən təcavüzə məruz qalan bir dövlət kimi, ümidvarıq ki, NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramında iştirak etmək Ermənistan - Azərbaycan münaqişəsinin ədalətlə, dincliklə dayandırılmasına, işğal olunmuş Azərbaycan ərazilərinin azad edilməsinə, müharibənin bütün nəticələrinin aradan qaldırılmasına tezliklə nail olmağa imkan verəcəkdir. NATO-nun yüksək nüfuzu bu qanlı müharibənin dayandırılması işində sanballı amil ola bilər.

Biz ümidvarıq ki, Azərbaycan Respublikasının "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulması bizə Avropada kollektiv təhlükəsizliyin etibarlı sisteminin yaradılmasında iştirakımızı fəallaşdırmağa imkan verəcəkdir.

Belə düşünürəm ki, Şimali Atlantika İttifaqının əsasını təşkil edən demokratik prinsiplər müvəffəqiyyətlə əməkdaşlıq etməyimizə, Zaqafqaziyada və digər bölgələrlə sülh və sabitlik yolunda duran əngəllərin əməli surətdə aradan qaldırılmasına, bütün xalqların tərəqqi və inkişafına kömək edəcəkdir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

1941-1945-ci İLLƏR MÜHARİBƏSİNİN QƏLƏBƏ İLƏ BAŞA ÇATMASININ 49-cu İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ GÖRÜŞLƏR

9 may 1994-cü il

ŞƏHİDLƏR XİYABANINDA MÜHARİBƏ VETERANLARI İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

9 May Qələbə günü ümumxalq bayramıdır. Azərbaycan xalqı, ölkəmizin vətəndaşları da bu qələbənin əldə olunmasında fəal iştirak edib, şəhidlər verib, canlarını qurban veriblər. Bu müharibənin başa çatmasından 49 il keçir. İndi də müharibə içərisindəyik. Bugünkü müharibəni görəndə gərək, o müharibəni də yada salasan, biləsən ki, o, bütün dünya xalqlarına nə qədər bədbəxtlik, əzab-əziyyət gətirib. O müharibənin vurduğu yaralar indi də sağalmayıb. Bəlkə də o yaralar sizin hər birinizdə qalır, izləri var. Ona görə də ötən müharibəni, onun iştirakçılarını, o qələbənin mahiyyətini uputmaq tarix qarşısınla cinayətdir.

600 mindən çox azərbaycanlının iştirak etdiyi, 300 mindən çox həmyerlimizin həlak olduğu bu müharibəni unutmaq mümkündürmü? İndi Azərbaycanda elə bir ailə tapmazsan ki, o müharibə ilə əlaqədar olmasın, itkisi olmasın. Məgər bunu unutmaq olarmı? Kim unudursa, böyük səhv edir. İllər, on illər, yüz illər keçəcək, amma bu müharibə unudulmayacaqdır. Çünki bu müharibə bütün dünyaya böyük dəhşətlər gətirib. O vaxt təkcə Sovetlər İttifaqında 27 milyon insan həlak olubsa, bütün dünyada bundan iki dəfə çox adam qırılıb...

Dünən gecə biz də, Ermənistan tərəfi də atəşin dayandırılması barədə əmr vermişik. Lakin bu səhər cəbhədən mənə məlumat verdilər ki, Ermənistan tərəfi yenə də atəşi kəsmir. Müharibə dəhşətli hadisədir. İndiki müharibəni qurtarmaq üçün gərək keçmiş müharibənin dəhşətlərnidən ibrət götürəsən.

ƏFSANƏVİ QƏHRƏMAN MEHDİ HÜSEYNZADƏNİN ABİDƏSİ ÖNÜNƏ TOPLAŞANLAR QARŞISINDA ÇIXIŞ

Tarixdən heç bir şeyi silmək olmaz, onun hər bir mərhələsi xalqın salnaməsi, həyat yoludur. 1941-45-ci illər müharibəsi dünya müharibəsidir. Həmin müharibədə azərbaycanlılar da iştirak ediblər, qurbanlar veriblər və bunu heç vaxt unutmaq olmaz. Bu, XX əsrin, bütövlükdə dünyanın ən dəhşətli müharibəsidir. Doğrudur, indi bizim ölkədə də müharibə gedir. Amma bu müharibə regional müharibədir. Bütövlüklə dünya sülh şəraitində yaşayır, bu isə ötən müharibədə iştirak etmiş, həlak olmuş, qanı tökülmüş adamların, bu günədək yaşayan veteranların xidmətidir. Bu xidməti xalq heç vaxt unutmayacaq

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mən sizi - müharibə veteranlarını Qələbə günü münasibətilə bir daha təbrik edirəm, sizə cansaqlığı arzulayıram, respublikanın ictimai-siyasi həyatında fəal iştirak etdiyinizə görə minnətdarlığımı bildirirəm. Respublikamızın ərazisində 6 ildir ki, erməni təcavüzkarları ilə müharibə gedir, torpaqlarımızın 20 faizi işğal olunub, bir milyondan artıq qaçqın evsiz-eşiksiz qalmışdır. Mən torpaqlarımızın düşməndən təmizlənməsi uğrunda qəhrəmanlıq göstərənlərin xatirəsi qarşısında baş əyirəm, inanıram ki, onların xatirəsi xalqın qəlbində əbədi yaşayacaqdır...

Yeddi milyonluq Azərbaycan xalqı öz şərəfini, namusunu, müstəqilliyini, ərazisinin toxunulmazlığını, öz tarixini, keçmişini və gələcəyini müdafiə etmək üçün vuruşmalıdır. Biz hücum etmirik. Bir halda ki, torpaqlarımıza hücum edirlər, biz müdafiə olunmalıyıq, düşmənə layiqli cavab verməliyik. Mən bu gün sizin qarşınızda çıxış edərkən son illərdə Azərbaycan torpaqlarının müdafiəsi uğrunda vuruşan və özünü şəhid verən övladlarımızın xatirəsi önündə baş əyirəm. Allah onlara rəhmət eləsin. Onların igidlikləri Azərbaycanın şanlı salnaməsində layiqli yer tutur və xalqımız üçün örnəkdir. Biz onları unutmamışıq və heç vaxt unutmayacağıq. Onlar əbədiyyətə qovuşmuşlar.

Öz torpaqlarımızı biz özümüz qorumalıyıq. Heç kəs gəlib torpaqlarımızı bizim əvəzimizə qorumayacaq, bizim əvəzimizə şəhid olmayacaq. Hər kəs öz evini, öz obasını qorumalıdır.

Sizin qəhrəmanlıq nümunələriniz heç vaxt unudulmayacaq. Siz də gənclərimizin vətənpərvərlik tərbiyəsi, onların döyüş ruhunun qaldırılması, vətənə sədaqət, xalqa xidmət ruhunun yüksəldilməsi üçün fəal çalışmalısınız.

İKİ DƏFƏ SOVET İTTİFAQI QƏHRƏMANI, GÖRKƏMLİ SƏRKƏRDƏ HƏZİ ASLANOV ADINA BAKI ÜMUMQOŞUN KOMANDİRLƏRİ MƏKTƏBİNDƏ KEÇİRİLƏN TƏNTƏNƏLİ MİTİNQDƏ ÇIXIŞ

Azərbaycan Ordusunun hörmətli əsgərləri və zabitləri, möhtərəm veteranlar, həmvətənlər! Bu gün əlamətdar bir gündür. 9 May bütün dünya tarixinə mütərəqqi qüvvələrin 1941-1945-ci il müharibəsində qalibiyyəti günü kimi yazılmışdır. Bu, dünya xalqlarının böyük bəlalardan xilas olması günüdür. 49 ildir ki, dünya ümumən sülh və əmin-amanlıq şəraitində yaşayır. İkinci dünya müharibəsində bütün Avropa ölkələri, Amerika Birləşmiş Ştatları, bir çox başqa ölkələr, o cümlədən keçmiş Sovetlər İttifaqı iştirak etmişdir. Azərbaycan Respublikası da, Azərbaycan xalqı da bu müharibənin sona çatmasında, Qələbənin əldə olunmasında böyük xilmətlər göstərmişdir. İkinci dünya müharibəsinin bir tərəfdən dəhşətli dağıntılar, insanların həlak olması, digər tərəfdən dünyanın yenidən dəyişilməsi baxımından bəşər tarixində öz yeri var. Bu müharibədə çox xalqlar iştirak edib. Azərbaycan xalqı da o vaxt mənsub olduğu ölkəni, Vətəni müdafiə etmək, dünya mədəniyyətini mürtəce qüvvələrdən xilas etmək üçün bu müharibədə iştirak etmişdir.

İkinci dünya müharibəsinin qələbə ilə başa çatması Sovet-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lər İttifaqının, eyni zamanda onunla müttəfiq olan Amerika Birləşmiş Ştatlarının, İngiltərənin, Fransanın və bu böyük dövlətlərin ətrafında toplaşmış başqa mütərəqqi qüvvələrin ümumi həmrəyliyi və birgə döyüşməsi nəticəsində mümkün olmuşdur.

Biz bu gün qələbəni unuda bilmərik. İkinci dünya müharibəsində yaralanmış, əlil olmuş, ötən 49 ildə bu müharibənin əzab-əziyyətini çəkən həmvətənlərimiz, vətəndaşlarımız Azərbaycanda bu gün də var. Ötən müharibəyə 600 min Azərbaycan vətəndaşı səfərbər olunmuşdu. Onların 300 mini geri qayıtmayıb, həlak olub, itkin düşüb. Qələbənin əldə olunmasında o vaxtkı Sovet İttifaqının digər xalqları kimi, Azərbaycan xalqının da böyük xidmətləri vardır.

Çox səciyyəvidir ki, bizim bu mərasimimizdə müstəqil Azərbaycan dövlətində ABŞ-ın, Fransanın, İngiltərənin səfirləri də iştirak edirlər. Bu gün burada Rusiya səfirinin də iştirak etməsi böyük əhəmiyyətə malikdir. Sovetlər İttifaqının varisi olan Rusiya, habelə Amerika Birləşmiş Ştatları, Fransa və İngiltərə bəşəriyyəti, bütün dünyanı o böyük bəladan birlikdə xilas etmişlər. Biz bu gün o böyük müharibədə şəhid olanların ruhu qarşısında baş əyir və onların hamısına "Allah rəhmət eləsin" deyirik.

İkinci dünya müharibəsinin bu gün sıralarımızda olan veteranlarına hörmət və ehtiramımızı bildirir və onlara cansağlığı, xoşbəxtlik, gələcək işlərində müvəffəqiyyətlər diləyirik.

Bu gün biz Həzi Aslanovun adını daşıyan hərbi məktəbdəyik. Bir neçə dəqiqə bundan əvvəl xalqımızın qəhrəman oğlu, İkinci dünya müharibəsində Vətəni qoruyaraq həlak olmuş general Həzi Aslanovun böyük, əzəmətli xatirə abidəsini açdıq. Həzi Aslanov öz qəhrəmanlıq, cəsurluq nümunələri ilə Azərbaycan xalqını dünyada tanıtmış bir şəxsiyyətdir. Həm döyüşçü, həm sərkərlə, general, həm də vətənpərvər bir insan, Vətəninə sədaqətlə son nəfəsinə qədər döyüşmüş, həlak olmuş həmvətənimiz Həzi Aslanov bizim üçün daim əziz olub və gələcək nəsillər üçün də əziz olacaqdır. Onun adı Azərbaycanda çox yerlərlə əbədiləşibdir. Bu məktəbin də Həzi Aslanovun adını daşıması tam ədalətlidir.

Həzi Aslanovun böyük heykəlini yaratmaq üzərində heykəltəraşlarımız hələ 70-ci illərdə işləyirdilər. O vaxt heykəl hazır idi, onun açılışı da olmalı idi. Bu gün mən bir tərəfdən təəssüf edirəm ki, hələ on il bundan öncə açılmalı olan heykəl indiyədək qoyulmamışdır, digər tərəfdən çox məmnunam ki, bu heykəlin yaranması üçün çalışmış bir adam kimi mən bu gün onun açılışında iştirak edirəm və bu heykəlin açılması da mənə etibar olunub. Mən bunu böyük iftixar hissi ilə qeyd edirəm.

Həzi Aslanovun həyat yolu, qəhrəmanlığı, İkinci dünya müharibəsində xidmətləri bütün Azərbaycan gəncləri üçün örnəkdir. Xüsusən müstəqil Azərbaycanın indiki vaxtında. Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın təcavüzə məruz qaldığı bir vaxtda Həzi Aslanov Azərbaycan xalqı üçün, ordumuz üçün, gənçlərimiz üçün böyük örnəkdir, nümunədir. Mən bu gün Həzi As-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lanov adına məktəbin kursantları qarşısında çıxış edərkən ilk növbədə hamınızın Həzi Aslanova bənzəməyinizi arzu edərdim. Hər biriniz xalqımızı, Vətənimizi Həzi Aslanov kimi sevməlisiniz. Hər biriniz hərbi peşəni Həzi Aslanov kimi mənimsəməlisiniz.

Bilin ki, o dövrdə sovet ordusunda azərbaycanlı zabitlərin sayı çox az idi. Azərbaycandan general olanlar da çox az idi. Həzi Aslanov həm vətənpərvərliyinə, həm öz zəkasına, biliyinə görə, həm də hərbi peşəyə böyük hörmət və məhəbbətinə görə bu yolu seçmiş, zabit olmuş, İkinci dünya müharibəsində vuruşmuş, böyük yol keçmiş, Qafqaz dağlarından Pribaltikaya qədər döyüşə-döyüşə getmiş, həlak olmuşdur.

Mən vaxtilə Stalinqradda müharibəyə həsr olunmuş abidəni ziyarət edərkən orada adları qızıl hərflərlə yazılmış Sovet İttifaqı qəhrəmanları arasında Həzi Aslanovun da adını iftixarla oxumuşdum.

Hələ o vaxt ürəyim dağa döndü, fəxr etdim, ətrafımda olan adamlara sevinclə bildirdim ki, baxın, bu abidədə Azərbaycan oğlunun da adı var. Bunlar hamısı Azərbaycan tarixinin parlaq səhifəsidir...

Mən siz kursantlara tövsiyə edirəm, bu yolla gedin. Hərbi peşə, zabitlik peşəsi, Vətəni müdafiə işi müqəddəsdir. İnsan həyatla çox peşələrlə məşğul ola bilər. Amma hər bir adam özünü hərbi işə, əsgəri işə, Vətəni müdafiə etmək işinə həsr elə bilməz. Bunu yalnız Vətənini həddindən artıq sevən, xalqına sadiq olan insanlar edə bilərlər. Mən sizi məhz bu cür görmək istəyirəm. Güman edirəm ki, siz elə də olacaqsınız. Qarşınızla böyük bir yol durur. Bu yolda ilk addımlar atırsınız. Arzu edərdim ki, yaxşı təhsil, təlim alasınız, yaxşı hazırlaşasınız, Azərbaycan Ordusunun möhkəmlənməsində, inkişaf etməsində böyük xidmətlər göstərəsiniz. Çünki bu gün Azərbaycan torpaqları Ermənistan silahlı qüvvələri tərəfindən təcavüzə məruz qalıb. Biz torpaqlarımızı müdafiə etməli, Azərbaycanın ərazi bütövlüyünü təmin etməli, Vətənimizin keşiyində durmalıyıq. Bu vəzifə sizin üzərinizə düşür. Azərbaycan Ordusu gələcəkdə də bizə lazımdır. Çünki Azərbaycan müstəqil dövlətdir. Hər bir müstəqil dövlətin güclü ordusu olmalıdır. Bu ordunun özəyini siz təşkil edirsiniz. Gələcəkdə sizin böyük xidmətləriniz olacaq. Güman edirəm ki, siz bu xidmətləri şərəflə həyata keçirəcəksiniz.

Ermənistanın respublikamıza təcavüzü nəticəsində cəlb olunduğumuz müharibənin sülh yolu ilə başa çatdırılması sahəsində son vaxtlar bir çox mühüm tədbirlər həyata keçirmişik. Mən bir daha bəyan edirəm ki, biz müharibə istəmirik.

Sizin qarşınızda çıxış edərkən Azərbaycan torpaqlarının müdafiəsi yolunda şəhid olmuş həmvətənlərimizin ruhu önündə baş əyərək bir də deyirəm ki, Vətən yolunda həlak olanların, müstəqil Azərbaycanın torpaqlarını qorumaq uğrunda şəhid olanların xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır. Allah onlara rəhmət eləsin, qəbirləri nurla dolsun. Onların qəhrəmanlıq nümunələri sizi daha mübariz olmağa dəvət etsin. Mən inanıram ki, siz şəhidlərin qanını yerdə qoymayacaq, Azərbaycanın torpaqlarını şərəflə müdafiə edəcək, respublikamızın ərazi bütövlüyünü təmin etmək üçün əlinizdən gələni əsirgəməyəcə'

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

GENERAL C.NAXÇIVANSKİ ADINA İXTİSASLAŞDIRILMIŞ HƏRBİ MƏKTƏBDƏ TƏNTƏNƏLİ MİTİNQDƏ ÇIXIŞ

49 il bundan qabaq dünyanın bütün mütərəqqi qüvvələri, sülhsevər dövlətləri bəşəriyyəti böyük bəladan xilas etmiş, İkinci dünya müharibəsini sona çatdırmış və dünyada sülh, əmin-amanlıq yaranmasının əsasını qoymuşlar. Bu müharibədə, böyük qələbənin əldə olunmasında Azərbaycan xalqı da fəal iştirak etmişdir...

22 il əvvəl bu məktəbin əsasının qoyulması Azərbaycan xalqı üçün böyük hadisə olmuş və ötən müddət ərzində məktəb respublikamızın hərbi qüdrətinin möhkəmləndirilməsində çox işlər görmüşdür...

Məni sevindirən budur ki, cəbhə bölgələrində olarkən, zabitlərlə görüşərkən onların bir çoxunun bu məktəbdə təhsil aldığını hiss edirəm, görürəm. Onlar mənə deyəndə ki, biz məktəbimizdə vaxtilə sizinlə görüşmüşük, tövsiyələrinizi eşitmişik, - onda mən özümü daha xoşbəxt hiss edirəm.

Məktəbin 22 illik tarixi Azərbaycan Respublikasının həyatında şübhəsiz ki, öz görkəmli yerini tutub. Ancaq bu məktəbi yaradarkən də, sonra onun genişlənməsinə, maddi-texniki bazasının möhkəmlənməsinə, zabit və müəllim kollektivinin yaranmasına çalışarkən də biz məhz respublikamızın gələcəyini düşünürdük. Mən Azərbaycanın gələcəyinə qayğı göstərirdim. Məmnunam ki, bu qayğılarımız, düşüncələrimiz yerinə düşüb. İndi, Azərbaycan müstəqillik qazanandan sonra, respublikamız müharibə vəziyyətinə düşəndən sonra bu məktəb bizim üçün daha çox əhəmiyyət kəsb edir.

Siz Azərbaycan Ordusunun gələcək zabitləri, təşkilatçılarısınız. Ona görə də məktəbdə vaxtdan səmərəli istifadə etməli, yaxşı təhsil almalı, hazırlaşmalısınız. Həm elmdə, bilikdə, həm fiziki hazırlıqda özünüzü elə göstərməlisiniz ki, ali məktəbdə yaxşı oxuyasınız, yaxşı zabit olasınız. Azərbaycan Ordusunda xidmət etməyə layiq olasınız. Bu gün hərbi peşəni mükəmməl öyrənməyin xalqımız, respublikamız üçün əhəmiyyəti xüsusilə böyükdür. Ona görə də siz gənclərə hərbi biliklərin sirlərinə dərindən bədəl olmağı, təhsildə, təlimdə uğurlar qazanmağı arzulayıram.

Məktəbin yaranmasında, fəaliyyətində bir neçə nəsil gənclərə təhsil verib ali məktəblərə, orduya göndərilməsində xidmətləri olan müəllim və zabit kollektivinə öz təşəkkürümü bildirirəm. 9 May Qələbə bayramı münasibətilə məktəbin bütün kollektivini təbrik edirəm, sizə təhsildə, təlimdə, şəxsi həyatınızda müvəffəqiyyətlər arzulayıram və əmin olduğumu bildirirəm ki, Azərbaycan Ordusunun gözəl gələcəyi var, bu ordu daha da möhkəmlənəcək, yüksələcək, müstəqil Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü qoruyacaq, respublikanın hərbi qüdrətini yüksəklərə qaldıracaqdır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AZƏRBAYCANIN XALQ ARTİSTİ
HACIBABA AĞARZA OĞLU BAĞIROVA

Hörmətli Hacıbaba Bağırov!

Sizi - xalqımızın sevimli sənətkar oğlunu, görkəmli gülüş ustasını - ömrünüzün 60-cı ildönümü münasibətilə ürəkdən təbrik edir və sizə səmimi arzularımı bildirirəm.

Azərbaycan səhnəsində və kinosunda yaratdığınız zəngin komik obrazlar qalereyası sizə şöhrət gətirməklə yanaşı, milli mədəniyyətimizin inkişafında da müəyyən rol oynamışdır. Yaratdığınız, bədii rəhbəri və direktoru olduğunuz "Tənqid-təbliq" teatrı Azərbaycanımızın bu ağır günlərində xalqın mənəvi həyatında özünəməxsus yer tutmuşdur.

Əziz sənətkarımız! İnanıram ki, bundan sonra da ecazkar sənətiniz düşmənlə üz-üzə vuruşan igidlərimizin, fədakar əməkçilərimizin ümid və inam istinadgahına çevriləcək, bütün Azərbaycan xalqına nikbinlik aşılayacaq, dövlətimizin işıqlı sabahına sədaqətlə xidmət edəcəkdir. Bu yolla sizə möhkəm cansağlığı, yeni yaradıcılıq axtarışları və sənət uğurları diləyirəm.

HEYDƏR ƏLİYEV

13 may 1994-cü il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

PREZİDENT SARAYINDA ƏHALİNİN SOSİAL MÜDAFİƏSİNİ GÜCLƏNDİRMƏK VƏ İQTİSADİYYATIN MALİYYƏ VƏZİYYƏTİNİN SABİTLƏŞMƏSİNİ TƏMİN ETMƏK TƏDBİRLƏRİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ

20 may 1994-cü il

Biz respublikanın sosial-iqtisadi məsələləri ilə daim məşğul oluruq. Doğrudur, vaxtımızın çox hissəsi müharibə ilə əlaqədar məsələlərə həsr olunur. Buna görə də sosial-iqtisadi məsələlərin həlli bəzən ləngiyir. Bəzən də bu o səbəbdən irəli gəlir ki, verilən tapşırıqlar vaxtlı-vaxtında yerinə yetirilmir. Bütün bunlara baxmayaraq, həmin məsələlərə mütəmadi diqqət yetirdiyimiz məlumdur. Bu, respublikanın indiki vəziyyətində əsas məsələ kimi daim diqqət mərkəzindədir. Həmin işlərlə bundan sonra da ciddi məşğul olacağıq. Hesab edirik ki, bu, respublikamızın müstəqilliyini möhkəmləndirmək və əhalinin rifah halını get-gedə yaxşılaşdırmaq üçün strateji xətdir, yoldur. Bu yol sərbəst bazar iqtisadiyyatı, sərbəstləşdirmə proseslərinin davam etdirilməsi, sahibkarlığa, təşəbbüskarlığa geniş imkanlar yaradılması yoludur. Həmin tədbirlərin hamısı ilk növbədə əhalinin, xalqın mənafeyinə xidmət edir. Ona görə də bazar iqtisadiyyatı prinsiplərini tətbiq edərək, sərbəst iqtisadiyyata geniş yol verərək və onu əsas yol hesab edərək, bunların hamısını əhalinin bütün təbəqələrinin rifah halının, sosial vəziyyətinin yaxşılaşdırılmasına yonəltməliyik.

Bu baxımdan son vaxtlar bir neçə tədbir hazırlanıbdır. Onları qəbul etməmişdən öncə bu gün mən istədim ki, buraya toplaşan vəzifəli şəxslərin, maliyyə, bank sahəsində çalışan adamların, iqtisadiyyat üzrə alimlərin iştirakı ilə həmin tədbirləri qabaqcadan müzakirə edək.

YEKUN SÖZÜ

Bu tərkibdə müşavirəni keçirməkdə məqsədim bütün sahələrin nümayəndələrinin fikrini öyrənmək və təqdim edilmiş layihənin nə qədər əsaslı və bu gün üçün nə qədər yararlı olduğunu müəyyənləşdirmək, yoxlamaqdır. Burada geniş fikir mübadiləsi aparıldı, hərə öz rəyini sərbəst söylədi. Sözün düzü, bu ağır şəraitimizdən çıxmaq üçün, inflyasiyanı cilovlamaq üçün, ölkənin maliyyə vəziyyətini düzəltmək üçün, istehsalın səviyyəsinin aşağı düşməsini heç olmasa dayandırmaq üçün və bütün bunların nəticəsi olaraq əhalinin güzəranının pisləşməsinin qarşısını almaq üçün burada, təəssüf ki, konkret təkliflər ala bilmədim.

Respublikada sosial-iqtisadi vəziyyət həqiqətən ağırdır, çə-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

tindir. Əhalinin çox hissəsi kasıblıq şəraitində yaşayır. Ərzaq, istehlak mallarının qıtlığı və kommersiya yolu ilə gətirilən məhsulların da çox baha olması vəziyyəti olduqca ağırlaşdırır. Nəzərə almaq lazımdır ki, respublikamızda bir milyondan artıq qaçqın var, onların əksəriyyəti işsizdir, ev-eşikləri yoxdur, bir çoxları isə çadırlarda yaşayır. Onların əmək fəaliyyətindən uzaqlaşması, məskunlaşdıqları şəhər və qəsəbələrdə, kənd və obalarla həm sənaye, həm də kənd təsərrüfatı məhsulları istehsalından məhrum edilməsi və eyni zamanda, bayaq dediyim kimi, əksəriyyətinin də işsiz qalması respublikanın iqtisadi, maliyyə vəziyyətini daha da ağırlaşdırır.

Nəzərə alsaq ki, ərazilərimizin 20 faizi işğal altındadır və buna görə də həmin yerlərdən, xüsusən də kənd təsərrüfatı üçün yararlı və məhsuldar torpaqlardan istifadə edə bilmirik, onda görərik ki, bütün bunlar maddi və maliyyə vəziyyətimizə necə ağır təsir göstərir. Lakin bununla yanaşı, İqtisadiyyatın tənəzzülü, əhalinin güzəranının pisləşməsi son illərdə gedən proseslərin təbii nəticəsidir. Bu proseslər iqtisadiyyatımızın dağılmasına, respublikamızın iqtisadiyyatında təşəkkül tapmış ahəngdar, sahmanlı vəziyyətin pozulmasına, istehsal sahələrimizin çoxunla fəaliyyətin dayanmasına gətirib çıxarmışdır. Bir tərəfdən bu proseslər, digər tərəfdən isə müharibə şəraitində olmağımız, müharibəyə çox böyük vəsait yönəldilməsi, habelə əhalinin bir qisminin orduya cəlb edilməsi iqtisadiyyata güclü zərər vurur, şübhəsiz ki, insanların dolanacağının aşağı səviyyəyə düşməsinə səbəb olur.

Ancaq bütün bunlar o demək deyildir ki, çıxılmaz vəziyyətə düşmüşük, vəziyyət dözülməzdir. Yox. Elə düşünməyin ki, mən özümüzə təsəlli vermək istəyirəm. Gəlin unutmayaq ki, keçmiş Sovet İttifaqının digər respublikalarında, heç müharibə getməyən, yaxud daxili münaqişələr olmayan respublikalarda da vəziyyət bizdəkindən əsla yaxşı deyildir. Bir daha qeyd edirəm: bu, bizə təsəlli üçün heç də əsas vermir. Bunu deməkdə məqsədim odur ki, hər şey aydın olsun. Bu, keçmiş SSRİ ərazisində gedən ümumi bir prosesdir. Bəzi bölgələrlə vəziyyət digər yerlərdə olduğuna nisbətən yaxşıdır, bəzilərində pisdir. Azərbaycan Respublikasının müharibə şəraitində olması, iqtisadiyyatımızın pozulması, bərbad hala düşməsi ilə bağlı digər proseslər öz təsirini göstərir və bizi bu vəziyyətə gətirib çıxarmışdır.

Bildiyiniz kimi, biz bu məsələlərlə ciddi məşğul oluruq, bir neçə tədbir həyata keçirmişik. Mən bir neçə fərman vermişəm. Lakin bunlar vəziyyəti hələ ki, yüngülləşdirmir. Belə bir vəziyyətdən çıxmaq üçün, şübhəsiz, birinci növbədə Azərbaycan iqtisadiyyatının bütün imkanlarından, iqtisadi potensialımızdan tamamilə istifadə etməliyik. Təxminən 10 il bundan öncə Azərbaycanın çox böyük iqtisadi potensialı vardı. Sənaye, kənd təsərrüfatı, sosial, inşaat sahəsində geniş potensiallara malik idik. Təəssüflər olsun ki, o potensial son illər günbəgün, aybaay dağıdılmışdır. Yeni bir şey isə yaradılmır. Məsələn, deyə bilərikmi ki, son bir neçə ildə yeni bir istehsal sahəsi yaradılmışdır,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yeni bir zavod və ya fabrik tikilmişdir, yeni bir istehsal mənbəyi açılmışlır? Yaxud kənd təsərrüfatı sahəsində əlavə məhsul götürmək üçün yeni torpaq sahələri yararlı hala salınmış və istifadayə verilmişdir? Yox, bütün bunlar olmayıb. Əksinə, olanlar da batıb getmişdir. Bu həqiqətdir və bizi ağır vəziyyətə salmışdır.

Ona görə də biz bu vəziyyətdən çıxmaq üçün ayrı-ayrı tədbirlər görməklə, ayrı-ayrı addımlar atmaqla yanaşı, - şübhəsiz ki, bunlar zərurətdən irəli gələn işlərlir, - gərək çalışaq ki, bütün sahələrdə məhsul buraxılsın, bütün iqtisadi potensialımızdan lazımınca istifadə edilsin. Bu məsələlərə xüsusi fikir verməli, bundan ötrü təsirli tədbirlər görməliyik.

İqtisadi potensialımız elə dağılmış vəziyyətlə də güclüdür. Odur ki, bundan səmərəli istifadə etmək lazımdır. Doğrulur, iqtisadi əlaqələr qırıldığına, iqtisadi inteqrasiya pozulduğuna görə indi bir çox müəssisələrin, istehsal sahələrinin əvvəlki tək işləməsi mümkün deyildir. Lakin bu o demək deyil ki, əl-qolumuzu yanımıza salaq, oturub fikirləşək ki, haradansa nəsə gətiriləcək, hansısa bir forman verməklə nə isə bir iş görüləcək və bununla da hər şey düzələcək. Yox, belə ola bilməz.

Məsələn, götürək sənaye sahəsini. Açığını deyim, bizdə sənaye istehsalı ilə məşğul olmurlar. Mən bilmirəm, bəzi nazirliklərimiz nə ilə məşğuldur. Sözlərim eləcə də birliklərə, Dövlət Neft Şirkətinə aiddir. Onların nümayənlələri də buradadır. Bizim böyük kimya kompleksimiz, nəhəng maşınqayırma kompleksimiz, başqa sənaye sahələrimiz var. Zənnimçə, bu sahələrlə ciddi məşğul olsaydıq, indi çox məsələləri həll etmiş olardıq. İstehsalı artırmaq bir yana, heç olmasa onun aşağı düşməsi sürətini azaldaq, bu prosesin qarşısını alaq. Amma burada dedilər ki, birinci rübdə istehsalın səviyyəsi təxminən 25 faiz aşağı düşmüşlür. Keçən ili götürsək, görərik ki, onda da istehsal bu qədər geriləmişdir. İndi daha 25 faiz aşağı düşmək, görün, nə deməkdir.

Buna görə də hesab edirəm ki, Nazirlər Kabineti bu işlərlə ciddi məşğul olmalıdır. Amma mən əməli, konkret bir iş həyata keçirildiyini görmürəm.

Yaxud, götürək kənd təsərrüfatı sahəsini. Düzdür, ərazimizin bir hissəsi işğal olunub, torpaqlar əldən gedib. Lakin ərazimizin çox hissəsində torpaq da həmin torpaqdır, şükürlər olsun ki, su da var, iqlim də dəyişməyib, - həmin iqlimdir. Ola bilsin ki, kənd təsərrüfatında yüksək məhsullarlıq üçün bəzi texnika çatışmır. Ancaq biz bu sahədə də tədbirlər gördük, texnika, mineral kübrələr alınması üçün təqribən 10-12 min ton pambıq ayırdıq. Gərək ki, bu əməliyyat nəticəsində 17 milyard rubl məbləğində vəsait əldə etdik. Deməli, çatışmayan nə vardısa, hamısını alıb gətirmək olardı.

Şübhəsiz, bunlar kənd təsərrüfatımızın tələbatını əvvəlki səviyyədə ödəyə bilməyəcək. Buna baxmayaraq, vəziyyəti az-çox yaxşılaşdırmaq üçün şərait yaratdıq. Odur ki, kənd təsərrüfatının bütün sahələrində - pambıqçılıqla da, taxılçılıqla da, tərə-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

vəzçilikdə də, çayçılıqda da, üzümçülükdə də, tütünçülükdə də dönüş yaradılmalı idi. Üstəlik, biz kənd təsərrüfatına dair geniş bir müşavirə keçirdik, mühüm məsələləri müzakirə etdik. Bundan sonra çiyid səpini ərəfəsində yenə də geniş bir müşavirə keçirdik, pambığın lazımi səviyyədə əkilib-becərilməsi məsələlərini müzakirə etdik.

Bütün bunlarla daim məşğul olmaq lazımdır. Bu işlərlə Kənd Təsərrüfatı Nazirliyi, Nazirlər Kabinetinin kənd təsərrüfatı strukturları ciddi məşğul olmalıdırlar. Təəssüf ki, Prezident Aparatında kənd təsərrüfatı ilə məşğul olan struktur yoxdur. Bəlkə buna ehtiyac da yoxdur. Çünki Nazirlər Kabineti Prezident Aparatının, daha doğrusu, prezident strukturunun bir hissəsidir. Nazirlər Kabineti prezidentin icra orqanının bir hissəsi olduğuna görə məsələlərin Nazirlər Kabinetində həll edilməsi nəzərdə tutulur. Bunu izah etməyə ehtiyac yoxdur. Amma bu gün mən bunu bir daha tələb etməli oluram.

Bizim həm sənaye, həm də kənd təsərrüfatı sahəsində imkanlarımız böyükdür. Lakin Nazirlər Kabineti bu məsələlərlə layiqincə, hər gün məşğul olmur. Bunu ona görə tam əsasla deyirəm ki, bildiyiniz kimi, keçmişdə bu məsələlərə illərlə vaxt sərf etmişəm. O dövrü, o quruluşu indi pisləmək də olar, tənqid etmək də. Amma o dövrlərdə ciddi tələbkarlıq vardı, hansı sənaye müəssisəsinin nə iş gördüyü, həftə ərzində nə qədər məhsul buraxdığı, nə qədər gəlir gətirdiyi, sürətin necə olduğu barədə hesabat verilirdi. Kənd təsərrüfatında əkinin, səpinin, suvarmanın, becərmənin necə getdiyi, məhsulun necə yığıldığı barədə məlumat gəlirdi. Lakin indi bu məsələlərlə heç kəs məşğul olmur, işlər başlıbaşına buraxılmışdır.

Burada kimsə dedi ki, dövlət aparatı çox şişirdilib. Doğrudan da belədir. Nəhəng bir dövlət aparatı var. Nazirliklərin hər birində o qədər adam var ki, onların sayı-hesabı yoxdur. Hamısının avtomaşını da, sürücüsü də var, bir sözlə, hər şeyləri var. Yadımdadır, hələ o vaxtlar, sosializm quruluşu illərində, mənim dövrümdə, yəni 15 il ərzində dövlət aparatında strukturların və işçilərin ixtisarı, minik maşınlarının sayının azaldılması, ümumiyyətlə, dövlət aparatının saxlanmasına ayrılan vəsaitə qənaət olunması haqqında neçə dəfə xüsusi qərarlar qəbul edilmişdir.

Baxmayaraq ki, o vaxtlar indiki kimi nə aclıq, nə də kasadlıq yox idi, hər şey çatırdı, camaat korluq çəkmirdi, yaxşı yaşayırdı, amma iqtisadiyyat hər bir işlə ciddi məşğul olmağı tələb edirdi, İqtisadiyyatda qənaətcilliyin təmin olunması üçün qərarlar çıxarılırdı. Ancaq indi hər şeyi başlı-başına buraxmışıq. Hansı nazirlik özünə nə qədər istəyirsə, ştat düzəllir, kiçicik bir müəssisə özünə ştatlar açır. Halbuki bütün bunlara dövlət büdcəsindən vəsait ayrılır. Hələ onların bir çoxuna avtomaşın, sürücülər də ayrılır. O vaxtlar, sosializm dövründə isə təkcə nazirin fərdi maşını və sürücüsü olurdu.

Doğrudur, indi zaman o zaman deyildir, biz o quruluşdan imtina etmişik, yeni quruluşda yaşayırıq. Amma bu quruluşda da ola bilməz ki, hamının avtomobili olsun, sürücüsü olsun, hamı qapı-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sında qulluqçu saxlasın. Bəziləri hətta özlərinə şəxsi mühafizəçilər saxlayırlar. Mən bilmirəm, bunlar hansı vəsaitə, kimin hesabınadır. Hətta bəziləri yanlarında silahlı adamlar gəzdirirlər. Bəs bunu hansı pulla, hansı vəsaitlə saxlayırlar? Bunu bir adam yoxlamır, bununla bir adam məşğul olmur.

İndi biz sərbəstlik vermişik, demokratiya yaratmışıq. Bütün bunlar göz qabağındadır, lazımi tədbirlərdir və biz onları bundan sonra da həyata keçirəcəyik. Amma bu o demək deyil ki, kim nə istəyirsə, onu da edə bilər. Bunların heç birinə yol verilməməlidir, indən sonra da yol verilməyəcəkdir! Bunu bilmək lazımdır.

Lakin İqtisadiyyatımızı nizamlamaq, maliyyə vəziyyətimizi düzəltmək üçün həm sənayedə, həm də kənd təsərrüfatında istehsalla, eləcə də bütün sosial sahələrdə ciddi məşğul olmaq lazımdır. Məsələn, akademik Nadirov çıxış edərək dedi ki, müalicə ocaqlarına girəndən çıxanadək pul vermək lazımdır. Bu nə deməkdir? Səhiyyədə heç belə şey olar? İndi yadıma gəlir ki, biz belə hallara qarşı o vaxtlar - 10 il 15 il bundan qabaq da mübarizə aparırdıq. Çalışırdıq ki, bu mənfi halların kökü kəsilsin. Hərçənd onda vəziyyət indiki kimi deyildi. Xatirimdədir, rüşvətxorluq üstündə bir neçə tibb işçisi cəzalandırılmışdı. Amma indi rüşvətxorluq dəhşətli hal almışdır. Bina dövlətin, aparatlar dövlətin, dava-dərman dövlətindir, müalicənin xərclərini dövlət çəkir. Amma di gəl ki, camaatı soyurlar, pul kimlərinsə cibinə gedir. Bunlar yaramaz hallardır. Buna nəzarət etmək lazımdır. Deməli, Səhiyyə Nazirliyi bu məsələ ilə ciddi məşğul olmalıdır. Başqa nazirliklər də kənarda qalmamalıdır.

Odur ki, Nazirlər Kabinetinin bütün strukturları bu işlərlə ciddi məşğul olmalıdır və bizim Prezident Aparatında da müvafiq strukturlar belə məsələlərə lazımınca nəzarət etməlidirlər.

Bir daha fikrimi bildirmək istəyirəm. Baxmayaraq ki, son illərdə Azərbaycanın iqtisadiyyatına zərbələr vurulub, iqtisadi potensial xeyli dağıdılıb, ancaq mövcud istehsal fondlarından, sənaye və kənd təsərrüfatı, məişət xidməti, ticarət sahəsində və başqa sahələrdəki əsas fondlardan səmərəli istifadə etmək lazımdır. Axı onların hamısını dövlət xalqın vəsaiti hesabına yaratmışdır. Bu, əsas yoldur və hesab edirəm ki, biz burada denüş yarada bilsək, iqtisadiyyatı indiki vəziyyətdən çıxarmaq üçün müəyyən qədər şərait təmin etmiş olarıq.

Eyni zamanda biz nəyin bahasına olursa-olsun iqtisadi islahatları həyata keçirməliyik. İqtisadi islahatlarımız ləngiyir. Düzdür, burada belə bir fikir söylədilər ki, biz gərək bu məsələləri əvvəlcə inzibati amirlik yolu ilə həll edəydik, sonra isə iqtisadi islahatlara keçəydik. Bilirsinizmi, bu proses təxminən 1985-ci ildən gedir: bir tərəfdən, iqtisadiyyata sərbəstlik vermək, islahatlar aparmaq, ikinci tərəfdən isə inzibatiamirlik prinsiplərini saxlamaq prosesi həmin ildən başlanmışdır. İndi artıq 1994-cü ildir və bir ildən sonra həmin prosesin on ili tamam olacaqdır. Lakin o öz nəticəsini vermədi. Yəni bir tərəfdən iqtisadiyyata sərbəstlik vermək, islahatlar keçirmək və eyni zamanda

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mövcud iqtisadi strukturları, inzibatiamirlik metodlarını saxlamaq bir nəticə vermədi.

Buna görə də məsələni aydınlaşdırmaq lazımdır: Nizam-intizamı möhkəmlətmək, özü də hər yerdə, birinci növbədə isə dövlət orqanlarında möhkəmlətmək gərəkdir, hər bir dövlət orqanı işçisinin məsuliyyətini artırmaq lazımdır. Yoxsa ki, indi dövlət orqanında işləyən adam bu orqandan çox, öz şəxsi məsələləri ilə məşğuldur, özəl bölmə ilə əlaqə yaradır. İndi mən burada soruşdum ki, o banklar haradan yaradılır. Rəsul Quliyev dedi ki, bəzi dövlət adamları gedib dövlətnn hesabına belə banklar yaradırlar. Bu, doğrudan da belədir.

Təəssüf ki, son illərdə nəzarətsizlik nəticəsində, dövlət orqanlarında yüksək vəzifələr tutan şəxslərin bir çoxunun dövlət malından, dövlət vəsaitindən istifadə edərək özlərinə şəxsi strukturlar yaratmağa can atması nəticəsində bu cür vəziyyət əmələ gəlmişdir. Lakin biz ayırd etməliyik. Özəl bölməyə inkişaf etmək üçün imkan vermişik və bundan sonra da imkan verəcəyik. Bunun qarşısını heç kəs almamalıdır. Mən bunu qəti şəkildə demişəm və bir da deyirəm. Amma bu adamlar da bilməlidirlər ki, əgər onlar dövlət orqanlarının əməkdaşlarıdırsa, bu orqanlarda da işləməlidirlər. Yox, əgər kimsə dövlət orqanı hesabına gedib bank yaradırsa, yaxud dövlətin vəsaiti hesabına özünə firma açırsa, başqa bir şey yaradırsa, belə hallar yaramaz, biz buna yol verə bilmərik. İndiyədək belə hallar çox olubdur. Elə iqtisadiyyatımız da buna görə dağılıbdır. Vəzifəli şəxslərin əksəriyyəti öz vəzifəsnidən pərdə kimi istifadə edərək, onun vasitəsilə cürbəcür çirkin yollara gedir. Nəticədə isə dövlət qarşısında, xalq qarşısında məsuliyyət yaddan çıxır və hərə öz cibini doldurmaqla məşğul olur. Şübhəsiz ki, biz belə adamlarla, belə hallarla mübarizə aparmalıyıq.

Mən burada bir neçə göstəriş verdim və tələb edirəm ki, bu göstərişlər həyata keçirilsin. Əlbəttə, nizam-intizam da möhkəmləndirilməlidir. Nizam-intizam bazar iqtisadiyyatında da olmalıdır. Bazar iqtisadiyyatının, sərbəst iqtisadiyyatın ən böyük üstülüyü ondan ibarətdir ki, burada, əvvəla, yüksək səviyyəli mədəniyyət var (mən həqiqi bazar iqtisadiyyatını nəzərdə tuturam), ikincisi isə nizam-intizam, qanunları var: Qanunsuz olaraq heç kəs heç nə edə bilmir. Əgər kimsə qanundan kənar bir iş görürsə, dərhal onun biləyindən tuturlar. Buna görə də mən nizam-intizamın möhkəmlənməsini əsas şərt hesab edirəm.

Amma bu, inzibati-amirlik metodlarının yenidən tətbiq olunması demək deyildir. Nizami-itizamın möhkəmləndirilməsi eyni zamanda iqtisadi islahatların həyata keçirilməsi deməkdir. Burada dedilər ki, iqtisadi islahatları nə qədər tez keçirsək, iqtisadiyyatımızda bir o qədər tez müəyyən sabitlik yarada biləcəyik. Başqa yol yoxdur. Əgər kimsə fikirləşir ki, yenidən sosializm quruluşu olacaq, onlar yanılırlar. Bu quruluş bir daha olmayacaqdır. Amma orta bir quruluş da olmayacaq. Bəli, o vaxtlar bəzi adamlar orta bir şey axtarırdılar, yəni nə o tərəf olsun, nə də bu tərəf. Amma bu, baş tutmadı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bazar iqtisadiyyatı nədir? Məsələn, indi deyirlər ki, Azərbaycanda firmalar, assosiasiyalar, banklar, daha nə bilim nələr var. Bəli, var. Amma bunların əksəriyyəti, təkrar edirəm, əksəriyyəti Azərbaycanın iqtisadiyyatına heç bir xeyir verməyibdir. Mən bunu tam cəsarətlə deyirəm. Bunların əksəriyyəti ayrı-ayrı adamların varlanmasına gətirib çıxarmışdır. Əgər onların iqtisadiyyata xeyri dəysəydi, bu müddətdə yeni-yeni müəssisələr tikilərdi. Bəlkə də bir neçəsi olub. Amma bazar iqtisadiyyatı yolu ilə son illərdə Azərbaycanda kapital qoyuluşu olmayıb, olubsa da təəssüf ki, çox az miqdarda olub. Mən banklar haqqında da dedim. Güman edirəm ki, bu məsələ ilə də məşğul olacaqlar.

Yenə də deyirəm, biz kommersiyanın, kommersiya strukturlarının inkişafına yol açmışıq, bundan sonra da açacağıq. Ancaq gəlin görək, bundan xalqımız, əhalimiz, dövlətimiz nə xeyir götürüb. Mən vergi inspeksiyasından soruşdum ki, birinci rübdə vergi nə qədər olub? Dedi ki, dörd ayda 38 milyard manat. Guya plan yerinə yetirilib. Əvvəllər plan ödənilmirdi. İndi, şükür olsun ki, dörd aylıq plan yerinə yetirilib. Amma, gəlin fikirləşək: Əgər biz sərbəst iqtisadiyyata keçmişiksə, dörd ayda 38 milyard manaq vergi bugünkü tələblərimizə uyğunmu rəqəmdir? Mən hesab edirəm ki, uyğun deyil. Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik. Verginin həm həcmi ilə, həm də hamı tərəfdən ödənilməsi yolu ilə. Bu barədə geniş danışmaq istəmirəm. Bunların hamısı məlum məsələlərdir. Ancaq onu demək istəyirəm ki, biz bazar iqtisadiyyatını tətbiq edərkən özəl bölməsi olan hər bir strukturun dovlətin qanunlarına, prinsinlərinə müvafiq surətdə fəaliyyət göstərməsinə nəzarət etməliyik. Bu nəzarət təmin olunmalıdır.

Bir sözlə, bizim yolumuz belədir və biz tutduğumuz bu yolla da getməliyik. Tələb edirəm ki, islahatlara dair sənədlər tezliklə hazırlanıb təqdim olunsun və onlara Milli Məclisdə baxılsın. Düzlür, burada çətinliklər olacaq. Ola bilsin ki, daha ağır maliyyə vəziyyətinə və iqtisadi vəziyyətə düşəcəyik. Lakin biz bu mərhələni keçməliyik.

Hazırlanmış fərmanın layihəsi barədə burada müxtəlif fikirlər soylədilər. Mən hesab edirəm ki, fərmandakı müddəaların əksəriyyəti qəbul oluna bilər. Əlbəttə, bugünkü müzakirə ilə əlaqədar mən onu bir daha nəzərdən keçirəcəyəm. Bəlkə də mütəxəssislərlə yenidən kiçik bir müzakirə aparacağam. Lakin bəziləri istəyrlər ki, mən fərmanı bu gün imzalayım. Yox bu gün, şübhəsiz imzalaya bilməyəcəm. Ancaq hesab edirəm ki, fərman tezliklə imzalanacaq və elan olunacaqdır. Fərmanda nə kimi dəyişikliklər ediləcəyi barədə düşünürəm. Mən indi bunu açıb söyləmək istəmirəm.

Qiymətlərin artırılması ilə əlaqədar olaraq bəzi fikirlər söylənildi. Söz yox ki, mən onları nəzərə alacağam. Lakin qiymətlərin qaldırılması lazımdır, bununla bağlı əhalinin bəzi təbəqələrinə kompensasiya verilməsi, onların təmin edilməsi labüdlür. Sonra, Vahid Axundov burada məruzə edərkən dedi ki, cürbəcür güzəştlər var, hansı bir təbəqəsə ictimai nəqliyyatdan

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

pulsuz istifadə edir. Düzdür, bu məsələyə fərmanda toxunulmur. İndi burada təklif verirlər ki, ictimai nəqliyyatdan pulsuz istifadə olunması ləğv edilsin. Odur ki, bu məsələni dəqiqləşdirmək, qısa müddətdə həyata keçirmək lazımdır. Yəni hamı bir olmalıdır, kimə hansı güzəştlər nəzərdə tutularsa, bu güzəştlər kompensasiya yolu ilə verilməlidir.

Müşavirənin axırında bir fikri də hamınıza çatdırmaq istəyirəm. Gəlin, sözdən işə keçək, hərə öz sahəsində ciddi işlə məşğul olsun. Bilmək lazımdır ki, indi respublikamız müstəqil dövlətdir və bütün problemlərimizi ancaq özümüz həll etməliyik. Bu günümüzlə və gələcəyimizlə bağlı bütün problemlərin həlli hər bir vəzifəli şəxsin həm yüksək səviyyədə fəaliyyətindən, həm təşəbbüskarlığından, həm işgüzarlığından, həm də işə sədaqətindən asılıdır. Buna görə də sizin hamınızdan tələb edirəm ki, hər kəs öz vəzifəsində işinə məsuliyyətlə yanaşsın və üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməyə çalışsın. Sağ olun!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ XALQA TƏBRİK

Rəhmli, mərhəmətli Allahın alı ilə!

Allah-təalanın dinimizi tamamlayıb mükəmməl etdiyi, İslamı bir din kimi bizim üçün bəyənib seçdiyi bu əziz gündə bütün müsəlman baçı və qardaşlarımızı ürəkdən təbrik edir, onlara cansağlığı və xoşbəxt həyat arzulayıram.

Hamımız üçün müqəddəs olan Qurban bayramı günlərində ən ümdə arzu və diləklərimiz doğma Azərbaycanın ərazi bütövlüyünə qarşı edilən sui-qəsdlərin dəf olunması, ölkəmizdə sülhün, əminamanlığın bərqərar olması, xalqın sosial-iqtisadi sıxıntılar məngənəsindən xilas olaraq asudə və firavan həyata qovuşmasıdır. Mən əminəm ki, bu arzular Allahın mərhəməti və köməyi, xalqımızın qeyrəti və zəhməti sayəsində yaxın gələcəkdə həyata keçəcəkdir. Azərbaycan xalqının böyük qəhrəmanlıq salnaməsi, əzmkarlıq və müdrikliklə zəngin ulu tarixi bu inam üçün möhkəm zəmindir.

Mübarək Qurban bayramı adətən insanlar arasında umu-küsülərin, kin-küdurətin aradan qaldırılması, yaxınların yad olunması, çəmiyyətdə mehribanlıq və qardaşlıq tellərinin möhkəmləndirilməsi üçün ən gözəl münasibət olmuşdur. Qoy bu ilki mübarək Qurban bayramı da müstəqil Azərbaycanımızın tərəqqisi naminə milli həmrəyliyin daha da möhkəmləndirilməsi işinə xidmət etsin!

HEYDƏR ƏLİYEV

20 may 1994-cü il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ BAKI ZƏHMƏTKEŞLƏRİ İLƏ GÖRÜŞLƏR

BİBİHEYBƏT ZİYARƏTGAHINA TOPLAŞANLAR QARŞISINDA ÇIXIŞ

21 may 1994-cü il

Əziz qardaşlar, bacılar, hörmətli həmvətənlər. Bu gün burada - Azərbaycan xalqının, müsəlman aləminin müqəddəs yerində, Bibiheybət pirində sizi bütün müsəlmanların əziz bayramı olan Qurban bayramı münasibətilə təbrik edir, hamınıza cansaqlığı, xoşbəxtlik arzu edirəm. Bu bayramı Azərbaycan xalqı ağır vəziyyətdə keçirir. Xalqımız təcavüzkarlar tərəfindən müharibəyə cəlb olunmuşdur. Qəhrəman oğullarımız torpaqlarımızı qorumaq uğrunda şəhid olurlar. Biz doğma torpaqlarımızı müdafiə edəcək, Azərbaycanın ərazi bütövlüyünü təmin edəcək, milli, dini ənənələrimizin hamısını bərpa edəcəyik. Xalqımız bundan sonra ulu babalarının yolu ilə, həzrəti Məhəmməd peyğəmbərin qoyduğu yol ilə gedəcək və xoşbəxt gələcəyə çatacaqdır.

Azərbaycan xalqı bu çətinliklərin hamısına dözür və güman edirəm ki, bundan sonra da dözəcəkdir. İndi biz burada 700 il öncə yaranmış müqəddəs ocağın önündəyik. Xalqımız bu yeri unutmayıb, çünki bu yer müqəddəsdir. Azərbaycan xalqı öz tarixinə, milli ənənələrinə, ulu babalarının qoyduğu yola sadiq qalıb. Tam əmin ola bilərsiniz ki, bundan sonrakı yolumuz daha uğurlu, işıqlı, qələbəli olacaqdır.

Burada Bibiheybət məscidinin, müqəddəs yerin bərpa olunması haqqında təkliflər irəli sürülür. Bunlar çox düzgün və doğru təkliflərdir. Mən bunları qəbul edirəm və sizi əmin edirəm ki, bu təkliflərin həyata keçirilməsi üçün lazımi tədbirlər görüləcəkdir.

700 il bundan qabaqkı tarixi abidənin, müqəddəs ocağın dağıdılması bu gün bizim qarşımıza onun bərpası məsələsini qoyur. Lakin bərpa üçün vaxt lazımdır. Ancaq əmin ola bilərsiniz ki, bütün imkanlardan istifadə ediləcək, nəinki bu müqəddəs yeri, həm də Azərbaycan xalqının tarixini, milli, dini ənənələrini əks etdirən bütün abidələr, ocaqlar, müqəddəs yerlər bərpa olunacaqdır. Bunu biz sizinlə birgə edəcəyik. Bizim görə bilmədiyimiz işləri gələcək nəsillər, davamçılarımız yerinə yetirəcəklər. Buna heç şübhəniz olmasın. Əmin olun ki, biz birləşib müstəqilliyimizi, torpaqlarımızı qoruyacaq, həm də xalqımızın yaratdığı tarixi abidələri, ənənələri yaşadacağıq. Sizi bu bayram münasibətilə bir daha təbrik edir, hamınıza cansağlığı, xoşbəxtlik, səadət arzulayıram. Sağ olun!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ZUĞULBADAKI PANSİONATDA MÜVƏQQƏTİ MƏSKUNLAŞAN QAÇQINLARLA GÖRÜŞDƏ ÇIXIŞ

Əziz baçılar və qardaşlar! Əziz həmvətənlərimiz! Əziz şuşalılar, xocalılar, laçınlılar, Azərbaycanın gözəl diyarı Qarabağ torpağının sakinləri, o torpaqda yaşamış, böyümüş soydaşlarımız! Hamınızı və sizin simanızda bu gün, bu müqəddəs gündə bütün Azərbaycan xalqını, Azərbaycan vətəndaşlarını xalqımızın böyük bayramı - Qurban bayramı münasibətilə təbrik edirəm, hamınıza səadət və xoşbəxtlik arzulayıram.

Qurban bayramı islam aləminin bizə yadigar qoyduğu müqəddəs bayramdır. Bu bayramı dünyada bütün müsəlmanlar qeyd edirlər. İndi biz milli ənənələrimizi, adətlərimizi, dinimizi, mədəniyyətimizi bərpa etmişik. Azərbaycan xalqı milli azadlığa nail olub, özü öz taleyinin sahibidir. Ulu babalardan, həzrəti Məhəmməd peyğəmbərdən qalmış müqəddəs kitabımız Qurani-Kərim tərəfindən tövsiyə olunmuş Qurban bayramını bu gün azad və sərbəst şəraitdə qeyd edirik və beləliklə Azərbaycan xalqının həm müstəqilliyini, həm milli azadlığını, həm də öz tarixi ənənələrinə sadiq olduğunu bütün dünyaya bir daha nümayiş etdiririk.

Bayram insanlara həmişə şadlıq, xoş əhval-ruhiyyə gətirir. Ançaq indi xalqımız böyük dərd içərisindədir. Azərbaycan altı ildir ki, Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalaraq, torpaqlarını müdafiə edərək müharibə vəziyyətində və ağır şəraitdə yaşayır. Bu dövrdə Azərbaycan xalqının bir çox övladları, qəhrəman, cəsur oğulları torpağımızı müdafiə edərək şəhid olmuşlar.

Burada Şuşadan, Laçından, Xocalıdan qaçqın düşmüş soydaşlarımız - bacılarımız, qardaşlarımız, övladlarımız məskunlaşıblar. Bu, xalqımızın ağır şəraitdə yaşadığını göstərir. Ancaq xalqımız nikbindir, başını heç vaxt aşağı tutmayıb, sınmayıb, əyilməyib, heç vaxt diz çökməyib. Ona görə də bu ağır gündə, bəlalı gündə də biz adət-ənənələrimizi unutmuruq, Qurban bayramını qeyd edirik. Şübhəsiz ki, bayramı istədiyimiz kimi, bolluq, əmin-amanlıq şəraitində keçirməyə imkanımız yoxdur. Bunu hamı başa düşür. Ançaq hər birimizin qəlbində dərdlə, qəmlə yanaşı, bayram əhval-ruhiyyəsi, bayram sevinci, nikbinliyi də vardır. Ona görə də mən Qurban bayramı günündə məhz buraya, sizin yanınıza gəlmişəm. Sizinlə, bəlkə də Azərbaycanda ən çox dərd-qəm içində olan insanlarla görüşə gəlmişəm.

Yenə də deyirəm, siz çox əzab-əziyyət çəkmisiniz. İki ildir ki, doğma el-obanızdan, yerinizdən-yuvanızdan didərgin düşmüsünüz. Ata-babalarınızdan qalmış ev-eşiyinizi, var-yoxunuzu itirmisiniz. Mən bilirəm, içərinizdə elə ailə tapılmaz ki, şəhidi, itkisi olmasın. Hamı dərd içindədir. Vətənini, xalqını sevən hər

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bir azərbaycanlı sizin kimi dərd içərisindədir. O cümlədən mən də sizin qarşınızda durmuşam, sizi təbrik edirəm, ancaq qəlbim dərdlə doludur. Sizin dərdiniz, xalqımızın başına gələn bəlalar mənim də dərdimdir. Bir halda ki, mən xalqın iradəsi ilə Azərbaycan Respublikasının prezidenti seçilmişəm, deməli, mən hamıdan çox dərd çəkməliyəm və çəkirəm (**Yerdən səs:** Bizim ümidimiz Sizədir). Bacım, mənim də ümidim sizədir, Azərbaycan xalqınadır. Ancaq bilin, əlimdən gələni əsirgəməyəcəyəm ki, sizin ümidinizi, xalqımızın ümidini layiqincə doğruldum. Buna tam əmin ola bilərsiniz.

Bayram günündə hər şeydən əvvəl, torpaqlarımızın, ərazi bütövlüyümüzün, müstəqilliyimizin müdafiəsi yolunda çanını qurban vermiş övladlarımızı, bacı və qardaşlarımızı minnətdarlıqla yad edirəm. Bir daha bəyan edirəm ki, onların qəhrəmanlığı heç vaxt unudulmayacaqdır. Onların əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaqdır. Onlar öz qəhrəmanlığı, şəhidliyi ilə özlərinə əbədi abidə qoyublar. Vətənin müdafiəsində şəhid olanların xatirəsini bir dəqiqəlik sükutla yad etməyi rica edirəm.

Allah onlara rəhmət eləsin. Onların valideynlərinə, bacı-qardaşlarına, övladlarına Allah səbir versin. Allah sizə səbir versin. Allah sizi hifz etsin. Bir daha deyirəm, əminəm ki, o şəhidlərin qanı yerdə qalmayacaq, Azərbaycan xalqı onların apardığı mübarizəni davam etdirəcək, respublikamızın ərazi bütövlüyünə nail olacaqdır.

Mən şəxsən bilirəm ki, vəziyyətiniz ağırdır. İki ildir ki, didərgin həyatı keçirirsiniz. Burada özünüzə yer tapmısınız. (**Yerdən səs:** Darısqaldır). Bilirəm darısqaldır, bacı, əlbəttə çox darısqaldır. Mən də bilirəm, siz də bilirsiniz ki, son vaxtlar didərgin düşmüş adamların əksəriyyəti indi İmişlidə, Sabirabadda, Ağcabədidə və başqa yerlərdə çadırlarda yaşayır. Bəziləri isə bundan da pis şəraitdədirlər.

Sizə məlumdur ki, altı il davam edən müharibə nəticəsində torpaqlarımızın iyirmi faizi erməni silahlı qüvvələrinin işğalı altındadır. Bu müddətdə Şuşadan, Xocalıdan, Dağlıq Qarabağın azərbaycanlılar yaşamış başqa kəndlərindən, qəsəbələrindən, ətrafdakı rayonlardan, Laçından, Kəlbəcərdən bir milyondan artıq Azərbaycan vətəndaşı didərgin düşüb, yer-yurdunu itirmişdir. İndi böyük çətinliklə onların məskunlaşması üçün müəyyən şərait yaratmağa çalışırıq.

Mən vəziyyətinizin ağırlığını bilirəm, dözümünüzə, səbirliliyinizə böyük hörmət edirəm. Sağ olun ki, dözürsünüz, sağ olun ki, xalqın bu ümumi faciəsinə, bəlalarına səbrlə davam gətirirsiniz. Bu, xalqımıza xas olan xüsusiyyətdir. Xalqımız əsrlər boyu öz torpaqlarını, müstəqilliyini müdafiə edərək vuruşub, döyüşüb, şəhidlər veribdir. Bəzən əsarətə də düşüb, ancaq dözüb. Dözümlülük bizim xalqın xüsusiyyətidir, böyük mənəvi sərvətidir. Güman edirəm ki, bu fikri siz də qəbul edərsiniz yaman günün ömrü az olar. Həmişə belə olmayacaq. Tarixə nəzər salsaq görərik ki, xalqımız beş il, on il yox, bəzən əsrlərlə əsarətə, əziyyətə, məhrumiyyətə dözüb, ancaq mənliyini, inamını, milli qururunu

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

itirməyib. Siz də itirməyəcəksiniz, biz də itirməyəcəyik. Gün gələcək ki, bu əzab-əziyyətli günlər tarixdə qalacaq, xalqımız öz müstəqil dövlətində şən, xoşbəxt, firavan yaşayacaqdır. Mən buna əminəm və sizi də əmin edirəm ki, Azərbaycanın dövlət hakimiyyəti və prezident kimi mən qələbəyə nail olmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm.

Bugünkü görüşümüzdə fürsətdən istifadə edərək son vaxtlar respublikamızda gedən proseslər, ölkəmizdəki vəziyyət barədə bəzi fikirlərimi sizə çatdırmaq istəyirəm. Bilirsiniz ki, Ermənistanın Azərbaycana təcavüzü son illər ardıcıl davam edir. Nəticədə biz ərazimizin bir hissəsini itirmişik. Son vaxtlar, xüsusən mən Azərbaycanın rəhbərliyinə qayıdandan sonra ordu qurulması, müdafiə imkanlarımızın artırılması, eyni zamanda respublikamızın müstəqil dövlət kimi xalqın mənafeyinə uyğun siyasət yeritməsi istiqamətində bir sıra mühüm işlər görülmüşlür. Biz müharibə ilə əlaqədar, həm də beynəlxalq aləmlə münasibətləri möhkəmləndirmək sahəsində müəyyən iş aparmışıq. Bütün bunlar sizə məlumdur.

Sizə məlumdur ki, Azərbaycanın böyük iqtisadi, intellektual, mədəni, sosial potensialı son illər bir tərəfdən müharibə, digər tərəfdən isə respublikamızın daxilində gedən siyasi proseslər nəticəsində, ayrı-ayrı qrupların hakimiyyət uğrunda mübarizəsi, bir çox adamların xalqın mənafeyinə zidd hərəkətləri nəticəsində dağılmışdır.

Bu gün elə burada yadıma salırlar ki, Şuşada görüşmüşdük (**Yerdən səs**: Vaqifin məqbərəsinin açılışına gəlmişdiniz). Bəli, düz deyirsiniz, Vaqifin məqbərəsinin açılışına gəlmişdim. Bir bacım dedi ki, Siz mənə "Şərəf Nişanı " ordeni vermişdiniz. Axı o görüşlər elə-belə görüşlər deyildi. O vaxt xalqımız rahat, firavan yaşayırdı. Xatirinizə salın, Şuşanın abadlaşması, gözəlləşməsi üçün 70-ci illərdə biz nə qədər işlər gördük! (**Yerdən səs**: Şuşada çoxmərtəbəli binaları Siz tikdirmisiniz, Qarabağa dəmir yolunu Siz çəkdirmisiniz). Bəli, çoxmərtəbəli yaşayış binaları, mehmanxana, şəhərin abadlaşması, tarixi abilələrin bərpası, məscidlərin bərpası, dahi şairimiz Molla Pənah Vaqifin məqbərəsi, xan qızı Natəvanın evinin bərpası, Bülbülün, Üzeyir Hacıbəyəvun ev-muzeylərinin yaradılması... Görülən işlər çoxdur. Şuşalılar bunların hamısını yaxşı bilir. Bütün bu işlər o illərdə sizlə bizim birgə fəaliyyətimizin nəticəsidir. Bir Şuşala bu qədər iş görülmüşlü, indi görün Azərbaycanın başqa regionlarında nə qədər işlər görülmüşdü, böyük potensial yaranmışdı. Sənaye və kənd təsərrüfatı müəssisələri, elektrik stansiyaları tikilmiş, kanallar, su hövzələri, şose və dəmir yolları çəkilmişdi. Bəli, həmin Ağdama, Xankəndiyə, ondan sonra Balakənə, Şəkiyə dəmir yolları çəkildi. Nə qədər işlər görüldü.

Bunların hamısı xalqın əməyinin nəticəsi idi. İndi bu potensial dağılıb, bərbad hala düşüb. Müharibə dövründə bəzi adamlar bu potensialı əldə saxlamaq, qorumaq əvəzinə öz şəxsi mənafeləri naminə bunların hamısını dağıdıblar. Ona görə də son

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

vaxtlar biz Azərbaycanın müharibədən çıxması, eyni zamanda ordumuzun qurulması, möhkəmlənməsi, müdafiə imkanlarımızın yaranması ilə əlaqədar bir çox tədbirlər görürük.

Bununla yanaşı müharibədən çıxmaq məsələsini sülh yolu ilə həll etmək üçün siyasi tədbirlər görür, böyük dövlətlərlə danışıqlar aparır, beynəlxalq təşkilatların imkanlarından istifadə edirik. Bunların hamısını bir yerdə cəmləyərək həm hərbi qüdrətimizi, həm iqtisadi potensialımızı müəyyən qədər hərəkətə gətirir, həm xarici siyasətimizi gücləndirir, həm də müharibə ilə əlaqədar siyasi tədbirlər həyata keçirməyə çalışaraq xalqı bu bəlalardan qurtarmağa cəhd edirik. Sizə deyə bilərəm ki, bizim bu tədbirlərimiz, gördüyümüz işlər öz nəticələrini verib və verir.

Sizə məlumdur ki, ordumuz əvvəllər, demək olar ki, dağınıq şəkildə idi, yox idi. Hərə özünə bir dəstə düzəltmişdi. Siz şuşalılar, xocalılar, Dağlıq Qarabağın adamları bunu yaxşı bilirsiniz. Biz birinci növbədə nizami ordu yaranmasına səy göstərdik. Bu sahədə böyük nailiyyətlər əldə etdik. Artıq ordumuz qurulub, nizami ordumuz var. Bilirsiniz ki, son aylarda, xüsusən keçən ilin oktyabr, noyabr aylarından sonra ordumuz Ermənistanın işğalçı silahlı qüvvələrinə qarşı hücum əməliyyatları apardı. Həmin hücumlar nəticəsində əvvəllər əldən getmiş torpaqlarımızın bir hissəsi geri qaytarıldı. Bu hücumlarla, döyüşlərdə ordumuzun bugünkü səviyyəsi bütün dünyaya nümayiş etdirildi. Ermənilər də, onların ordusu da bunu hiss etdilər, geri çəkildilər. Bu, gördüyümüz işlərin bir istiqamətilir.

Ancaq biz yaxşı bilirik ki, müharibə bundan sonra da davam etsə, yeni böyük faciələrə gətirib çıxaracaqdır. Ona görə də müharibəyə son qoymaq istəyirik. Biz istəyirik ki, məsələni sülh yolu ilə həll edək. Sülh yolu - danışıq yoludur. (**Yerdən səs:** Düz edirsiniz). Məsələni danışıqlar yolu ilə həll etmək olar. Ona görə də mən danışıqlar aparıram.

Onu da bilirsiniz ki, Dağlıq Qarabağ məsələsi bütün dünya dövlətlərinin siyasətində çox böyük yer tutur. Dünyanın elə bir dövləti yoxdur ki, Dağlıq Qarabağ probleminə öz münasibətini bildirməsin. Çox təəssüf hissi ilə deyə bilərəm ki, son illərlə Azərbaycanın xarici siyasətinin zəif olması nəticəsində ölkəmiz dünya miqyasında özünü göstərə bilməmiş və respublika siyasətçilərinin bacarıqsızlığı üzündən dünyada, böyük dövlətlərlə, Avropada, Amerikada belə fikir yaranıb ki, guya günahkar Azərbaycandır. Dağlıq Qarabağ ermənilər guya hüquqlarından məhrum ediliblər. Ümumi beynəlxalq ictimai fikir çox vaxt Ermənistanın tərəfindədir, bu həqiqətlir. Bəlkə siz bunu bilmirsiniz, başqaları bilmir, amma biz bunu bilirik. Siyasətlə məşğul olan adamlar, indi meydana çıxmış bəzi siyasətbazlar da bunu yaxşı bilirlər.

Biz bu son aylarla çalışmışıq ki, müharibəni dayandıraq, məsələni sülh yolu ilə həll edək. Ancaq bir şərtlə ki, işğal olunmuş torpaqlar geri qaytarılsın. Azərbaycan Respublikasının ərazi bütövlüyü, sərhədlərimizin toxunulmazlığı təmin olunsun.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Amma siz bilməlisiniz ki, bu, asan iş deyil. Bir tərəfdən beynəlxalq ictimai fikir, əsasən, Azərbaycanın xeyrinə deyildir, ikinci tərəfdən erməni silahlı qüvvələri Azərbaycan tərəfinin zəifliyi nəticəsində - xalqın yox, xalqımız qəhrəman xalqdır, - respublikamızın müqəddəratını həll edən şəxslərin səriştəsizliyi, bəzən də xalqa xəyanəti nəticəsində torpaqlarımızı işğal etmişlər. Şübhəsiz ki, bu da məsələnin sülh yolu ilə həll olunmasında bizim üçün çətinliklər yaradır. Çünki bir tərəfdən Ermənistanı dəstəkləyən, müdafiə edən qüvvələr beynəlxalq aləmdə çoxdur, ikinci tərəfdən də Ermənistan silahlı qüvvələri torpaqlarımızı işğal edib və biz onları oradan silah gücünə çıxara bilmiriksə, danışıqlara gedəndə öz şərtlərini qoyurlar. Bilirsiniz, bu nə qədər ağır və çətin məsələdir! Bu məsələləri həll etmək üçün gərək çox ağıllı, tarazlı, düşünülmüş siyasət aparılsın və biz də belə bir siyasət aparmağa çalışırıq.

Son illərdə Azərbaycanın Rusiya ilə əlaqələri çox pisləşmişdi. Azərbaycanda bir ilə yaxın hakimiyyətdə olan, adını Xalq Cəbhəsi qoyub, xalqa bir gün ağlamayan təşkilat Azərbaycanla Rusiyanın münasibətlərində çox pis vəziyyət yaratmışdı. Təsəvvür edin, axı dünya siyasəti çox mürəkkəb prosesdir. Dünyada heç bir dövlət, o cümlədən kiçik dövlət siyasətdə naşılıq göstərməməlidir, reallıqdan uzaq hərəkət etməməlidir. Yenicə müstəqilliyini əldə etmiş, müstəqil dövlət kimi hələ mövqelərini tam möhkəmlədə bilməyən Azərbaycan Respublikasının Rusiya kimi böyük bir dövlətlə ədavət aparması mümkündürmü? (**Yerdən səslər:** Yox, yox). Axı buna əsas da yoxdur. Axı Azərbaycan 200 il Rusiyanın tərkibində olmuşdur. Biz istəsək də, istəməsək də bu, tarixi reallıqdır. Bu 200 il ərzində Azərbaycanla Rusiya arasında hərtərəfli münasibətlər: insani, elmi, texniki, iqtisadi münasibətlər yaranıb. Bunların hamısını qıraq, dağıdaq, Rusiyada yaşayan bir milyon azərbaycanlıdan imtina edək və böyük bir dövləti özümüzə düşmən edək? Bu yaramaz.

Ona görə də biz ilk növbədə Rusiya ilə münasibətləri normal vəziyyətə salmağa çalışdıq. (**Yerdən səslər:** Siz düz edirsiniz, biz buna tərəfdarıq). İndi Azərbaycanın Rusiya ilə münasibətləri çox yaxşı səviyyədədir. Dostluq əlaqələri yaratmışıq, bundan sonra da belə olmalıdır. Hər bir müstəqil dövlətin dünya miqyasında gərək dostları olsun. Yaxın qonşusu isə gərək ona dost olsun, düşmən olmasın. Biz Rusiya ilə münasibətdə buna nail olmuşuq.

Bildiyiniz kimi, bundan sonra biz Müstəqil Dövlətlər Birliyinə daxil olduq. Bu da çox lazımlı bir işdir. Bütün bunlar Ermənistan ilə Azərbaycan arasında gedən müharibənin sülh yolu ilə dayandırılması üçün mühüm əsas yaradır. Bununla yanaşı, biz başqa dövlətlərlə də yaxın əlaqələr yaratmağa çalışırıq. Məsələn, Türkiyə ilə əlaqələrimiz dostluq və qardaşlıq xarakteri, tarixi xarakter daşıyır və bu əlaqələri davam etdiririk. Bildiyiniz kimi, mənim Türkiyəyə səfərim oldu, mühüm müqavilələr imzaladıq. Türkiyənin rəhbərləri ilə bizim aramızda çox səmimi münasibətlər var.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İran bizim yaxın qonşumuzdur. Orada milyonlarla azərbaycanlı yaşayır. Tarixən, əsrlər boyu bizim çox yaxın əlaqələrimiz olmuşdur. Ançaq son dövrdə elə siyasət aparırdılar ki, guya İran bizim düşmənimizdir. Bunun nəticəsində də İranla münasibətlərimiz pozulmuşdu. Biz bu münasibətləri də qaydaya saldıq. İran prezidenti ağayi Haşimi-Rəfsəncani Azərbaycana rəsmi səfər etdi, bir neçə müqavilə imzaladıq. İndi İranla həm iqtisadi, həm mədəni, həm də insani əlaqələrimiz çox yaxşı səviyyədə inkişaf edir.

Eyni zamanda biz dünyanın böyük dövlətləri ilə əlaqələrimizi inkişaf etdirməyə çalışmışıq. Amerika Birləşmiş Ştatları böyük dövlətdir və dünya siyasətinə onun güclü təsiri var. ABŞ-la Azərbaycan arasında münasibətlər də çox soyuq idi. Biz bunu aradan qaldırırıq və zənnimcə, bu, yaxşı səmərə verir. Təsəvvür edin, 1992-ci ilin sentyabrında ABŞ konqresi Azərbaycan haqqında ədalətsiz bir qərar qəbul etmişdi. Bu, Azərbaycan Respublikasının o vaxtkı rəhbərlərinin ağılsız siyasətinin, bəlkə də fəaliyyətsizliyinin nəticəsi idi. Həmin qərar ondan ibarətdir ki, guya Azərbaycan Ermənistanı blokada vəziyyətində saxladığına görə Azadlığı dəstəkləmək haqqında akt"ın 907-ci bəndinə əsasən Azərbaycana humanitar yardım göstərilməsi qadağan olunmuşdur. Konqresin həmin qərarı Azərbaycan ilə ABŞ arasında böyük bir uçurum yaratmışdı. Əgər Azərbaycanı idarə edən və indi də oradaburada özlərini böyük siyasətçi kimi qələmə verən adamların ağılları var idisə, Rusiya ilə, İranla, Amerika Birləşmiş Ştatları ilə münasibətlər nə üçün pisləşdi, ABŞ konqresi nə üçün belə bir qərar qəbul etdi?

Biz ABŞ-la münasibətləri qaydaya salmaq üçün də fəaliyyət göstəririk. Amerika Birləşmiş Ştatlarının nümayəndələri bir neçə dəfə Azərbaycana gəlmişlər, mənim onlarla görüşlərim olmuşdur. Biz başqa vasitələrlə də onlarla əlaqə saxlayırıq. Sizə deyə bilərəm ki, bir ay əvvəl Amerika prezidenti cənab Bill Klinton mənə məktub göndərmişdi. Həmin məktubda Amerikanın Azərbaycana münasibətində müsbətə doqru donüş olduğu hiss edilir. ABŞ prezidenti ilk dəfə olaraq məktubunda yazır ki, o, Azərbaycana humanitar yardım göstərilməsinə qadağa qoyulmasını ədalətsiz sayır və bildirir ki, Konqresin həmin qərarının ləğv olunmasına çalışacaqdır. Belə hesab edirəm ki, bu, Azərbaycanın indiki vəziyyətində ABŞ prezidenti tərəfindən atılmış çox təqdirəlayiq addımdır.

Nəhayət, mayın 17-də cənab Bill Klinton Qurban bayramı münasibətilə mənə təbrik göndərmişdir. Bunun böyük mənası var. Birincisi, göründüyü kimi, müsəlman bayramı, bizim dini bayramımız Amerika Birləşmiş Ştatlarında da qiymətləndirilir. ABŞ prezidenti mənim şəxsimdə Azərbaycan xalqını bu bayram münasibətilə təbrik edir. İkincisi isə, cənab Bill Klinton Dağlıq Qarabağ probleminin sülh yolu ilə, xüsusən beynəlxalq təşkilat olan ATƏM xətti ilə həll edilməsinə səy göstərilməsini bəyənir və bildirir ki, onun ölkəsi də bu sahədə fəaliyyət göstərəcəkdir. Bu iki faktla bildirmək istəyirəm ki, deməli, ABŞ ilə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

apardığımız danışıqlar da öz müsbət nəticəsini verir. Mayın 15-də Amerikanın mötəbər bir nümayəndə heyəti Azərbaycana gəlmişdi. Biz onlarla çox səmərəli danışıqlar apardıq.

Sizə məlum olduğu kimi, Fransa prezidenti cənab Fransua Mitteranın dəvəti ilə mən bu ölkəyə rəsmi səfərə getmişdim. Böyük Britaniyanın baş naziri cənab Con Meycorun dəvəti ilə İngiltərədə oldum. Çin Xalq Respublikasının sədri Szyan Szeminin rəsmi dəvəti ilə bu ölkəyə səfərə getdim. Həmin səfərlər zamanı çox faydalı işlər görüldü.

Bildiyiniz kimi, BMT Təhlükəsizlik Şurasının beş daimi üzvü var: ABŞ, Rusiya, İngiltərə, Fransa və Çin. Mən Rusiya prezidenti cənab Boris Yeltsinlə dəfələrlə görüşmüşəm. Digər dörd dövlətin başçıları ilə görüşlərimizin böyük əhəmiyyəti var. Müstəqil Azərbaycan dövləti həmin ölkələrlə mühüm müqavilələr bağlamışdır. Təsəvvür edin, yeni müstəqil dövlət olan Azərbaycan Respublikası dünya siyasətində aparıcı rol oynayan dövlətlərlə yaxın münasibətlər yaratmışdır. Bütün bunlar bir tərəfdən Azərbaycanı beynəlxalq aləmdə tanıdır, - təəssüf ki, bu sahədə hələ çatışmazlıqlarımız var, - digər tərəfdən beynəlxalq miqyasda Azərbaycanın mövqeyini möhkəmləndirir, beləliklə, ölkəmizin bu ağır vəziyyətdən çıxması üçün şərait yaradır.

Ancaq bizim xarici siyasətimiz təkcə bu dediklərimdən ibarət deyil və bu gün mən həmin məsələdən ətraflı danışmaq istəmirəm. Bunları deməklə niyyətim odur ki, xarici siyasətimizin əsas məqsədi Ermənistanla gedən müharibəyə sülh yolu ilə son qoymaqdır. Bunun üçün biz bir tərəfdən müdafiə qüvvələrimizi möhkəmləndirir, digər tərəfdən bütün başqa kanallardan istifadə edirik. Ayrı-ayrı dövlətlərlə, məsələn, Rusiya, ABŞ, Türkiyə ilə danışıqlar aparırıq. Eyni zamanda BMT-nin Təhlükəsizlik Şurası, ATƏM ilə çox sıx əlaqə saxlayırıq. Azərbaycan Respublikasına rəhbərlik etdiyim vaxtdan bəri Ermənistan - Azərbaycan müharibəsinə sülh yolu ilə son qoyulması üçün ATƏM-in fəaliyyətinə çox yüksək qiymət verirəm. Ona görə də biz bu təşkilatla daim əməkdaşlıq edirik.

Bildiyiniz kimi, ATƏM-in Dağlıq Qarabağa dair Minsk qrupu var və ona doqquz dövlət daxildir. mən Minsk qrupunun rəhbərləri əvvəlcə Mario Raffaelli, indi isə cənab Yan Eliasson ilə həmişə əlaqə saxlamışam. Son vaxtlar cənab Yan Eliassonla və onunla birlikdə Azərbaycana gəlmiş nümayəndə heyəti ilə dəfələrlə görüşmüşəm. Azərbaycanın mövqeyini izah etmək üçün saatlarla, bəlkə də günlərlə vaxt sərf etmişəm. Münaqişənin aradan qaldırılmasında ATƏM-in əsas rol oynamasına daim çalışmışam və indi də çalışıram. Cənab Yan Eliassonun Azərbaycana sonuncu səfəri zamanı apardığımız danışıqlarda belə nəticəyə gəlmişdik ki, atəşin dayandırılması üçün ATƏM təşəbbüs göstərsin, sonra isə müharibəyə son qoyulmasından ötrü yenə də ATƏM çərçivəsində tədbirlər görülsün.

Şübhəsiz ki, Yan Eliasson eyni zamanda Ermənistanla da əməkdaşlıq edir, onun mövqeyini öyrənir. Rusiya ilə də danışıqlar aparır. Son danışıqlarımız zamanı Yan Eliasson bildirmiş-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dir ki, münaqişə ATƏM çərçivəsində aradan qaldırılmalıdır, lakin Rusiya bu işdə xüsusi rol oynamalıdır. Açığını deyim ki, Rusiya bu məsələnin həllində vasitəçilik rolu oynamağa cəhd göstərir. Biz buna nəinki etiraz etmir, əksinə, bundan istifadə etməyə çalışırıq. Çünki bu yolda bütün vasitələrdən istifadə etmək istəyirik. Ona görə də biz ATƏM-in Rusiya ilə müştərək fəaliyyət göstərməsinə razılıq vermişik. Çünki bu, ATƏM-in, onun Minsk qrupunun başçısı cənab Yan Eliassonun təklifidir.

Eyni zamanda biz beynəlxalq aləmdə fəaliyyətimizi genişləndirmək üçün daha bir addım atmışıq. Bildiyiniz kimi, vaxtilə, Sovetlər İttifaqı ilə Qərb ölkələri arasında rəqabət gedən zaman, "soyuq müharibə" dövründə iki böyük hərbi-siyasi blok var idi: Varşava Müqaviləsi Təşkilatı və NATO. Sovet İttifaqı dağıldıqdan sonra Varşava Müqaviləsi Təşkilatı süqut etdi, NATO bloku isə öz fəaliyyətini davam etdirir. NATO-ya daxil olan 16 dövlətin başçıları bu ilin yanvarında Brüsseldə toplaşaraq "Sülh naminə tərəfdaşlıq" proqramı hazırlamış və elan etmişlər ki, Şərqi Avropa dövlətləri həmin proqrama qoşula bilərlər.

Biz belə qərara gəldik ki, Azərbaycanın bu proqrama qoşulması onun beynəlxalq mövqeyinin möhkəmlənməsinə kömək edəcəkdir. Ona görə də "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulmağı qərara aldıq və mən bu məqsədlə Brüsselə getdim. Orada NATO-nun baş qərargahında çıxış edərək Azərbaycanın həmin proqrama qoşulduğunu bəyan etdim və proqramı imzaladım. Onu da qeyd edim ki, keçmiş Sovet İttifaqı respublikalarından indi Müstəqil Dövlətlər Birliyinə daxil olan 12 dövlətdən yalnız üçü həmin proqrama qoşulmuşdu. Azərbaycan bu proqramı imzalayan dördüncü dövlətdir. Belə hesab edirəm ki, bu, bizim atdığımız doğru, düzgün və eyni zamanda cəsarətli addımdır.

Mən Brüsseldə olarkən ATƏM-in Minsk qrupu sədrinin müavini cənab Matias Mosberq oraya gəldi və mənə qəti dedi ki, Ermənistan Azərbaycan müharibəsinin sülh yolu ilə aradan qaldırılması üçün hökmən Rusiyanın, Müstəqil Dövlətlər Birliyinin iştirakı lazımdır. Ona görə də, ATƏM belə bir fikirdədir ki, onlar Rusiya ilə, MDB ilə birgə fəaliyyət göstərməlidirlər. Mən ona bildirdim ki, əgər siz bu fikirdəsinizsə, biz də həmin fikri müdafiə edirik, çünki müharibəyə son qoymaq istəyirik. Əgər biz müharibəni ATƏM çərçivəsində dayandırırıqsa, ATƏM təşkilatı bu işə hansı dövləti cəlb etmək istəsə, etiraz etməyəcəyik. Beləliklə də yeni bir formula yarandı.

Mayın 13-də Minsk qrupunun başçısı Yan Eliasson yenidən Bakıya gələrək bizə bir layihə təqdim etdi. Həmin layihədə atəşin dayandırılması və atəşkəsin möhkəmləndirilməsi rejimi nəzərdə tutulmuşdur. Biz atəşin kəsilməsi üçün bir neçə təşəbbüs göstərmişdik. Məsələn, aprelin 28-də təklif etdik ki, Rusiyanın vasitəçiliyi ilə atəş dayandırılsın. Lakin Ermənistan tərəfi atəşin kəsilməsinə razı olmadı.

Bildiyiniz kimi, mayın 5-də Bişkekdə MDB Parlamentlərarası Məclisinin görüşü olmuş, Dağlıq Qarabağ haqqında məsələ müzakirə edilmişdir. Həmin görüşə Afiyəddin Cəlilovun baş-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

çılığı ilə Azərbaycan nümayəndə heyəti də getmişdi. Biz ona müəyyən təlimat verərək bildirmişdik ki, görüşün məzmunu hələlik bizə məlum deyil. Görüşdə iştirak etmək, danışıqlar aparmaq lazımdır. Əgər bir sənəd imzalanmalı olarsa, prezidentin razılığı olmadan onu imzalamasın. Afiyəddin Cəlilov da bu göstəriş əsasında hərəkət etmişdir. Orada hazırlanan sənədi imzalamağa Azərbaycan dövlətinin başçısı tərəfindən səlahiyyəti olmadığına görə o, sənədə qol çəkməmişdi. Lakin sonra biz sənədi müzakirə etdik. Orada yalnız atəşin kəsilməsi haqqında bir müddəa var idi. Atəşin kəsilməsi naminə həmin sənədi Azərbaycanın imzalanmasını lazım bildik. Bizim razılığımızla mayın 8-də Azərbaycan Ali Sovetinin sədri Rəsul Quliyev həmin sənədi imzaladı. Bundan sonra, mayın 10-dan etibarən atəş dayandırılmışdır. Bişkek protokolunu imzalamaqda Azərbaycanın əsas məqsədi atəşin dayandırılması idi və biz buna nail olmuşuq.

Minsk qrupunun rəhbəri Yan Eliassonla danışıqlar zamanı onun gətirdiyi müqavilə layihəsi ilə razılaşdıq və öz düzəlişlərimizi edərək xahiş etdik ki, həmin sənədi Ermənistanla da razılaşdırsın. Bundan sonra Yan Eliasson Ermənistana getdi. Ermənistan tərəfi həmin layihəni özünə sərfəli şəkildə bir qədər dəyişdirdi. Mayın 16-na Yan Eliasson yenidən Bakıya qayıtdı.

Bu zaman Moskvada Rusiya, Azərbaycan və Ermənistan müdafiə nazirlərinin görüşü keçirilirdi. Biz həmin görüşə də razılıq vermişdik. Mən bir daha deyirəm, müharibənin dayandırılması üçün biz bütün vasitələrdən istifadə etməyə çalışırıq. Ancaq mayın 16-da Rusiyanın müdafiə naziri mətbuat nümayəndələri ilə böyük görüş keçirmiş və Azərbaycan tərəfinin razılığı olmadan elan etmişdir ki, Rusiyanın sülh məramlı qüvvələri Azərbaycanla Ermənistan arasındakı bölgələrə göndəriləcək, bundan ötrü iki batalyon - 1.800 nəfər ayrılacaq və s. Azərbaycandan xahiş edilirdi ki, belə bir protokolu imzalasın. Həmin protokolu indiki halda bizdən ötrü münasib saymadığıma görə Azərbaycanın müdafiə nazirinə göstəriş verdim ki, onu imzalamasın və dərhal Bakıya qayıtsın. Eyni zamanda Bakıda bu məsələ barədə Minsk qrupunun başçısı Yan Eliassona məlumat verdik. Dediyim kimi, biz Yan Eliassonun təklif etdiyi layihəyə razı olduğumuzu bildirmişdik. Lakin Ermənistan tərəfi onu imzalamaqdan imtina etdi.

Beləliklə, biz bir daha göstərdik ki, Azərbaycan sülh tərəfdarıdır, müharibəni beynəlxalq təşkilatlar xətti ilə, o cümlədən Rusiyanın vasitəçiliyi ilə qurtarmaq istəyir. Ermənistan isə bir daha gəstərdi ki, müharibənin dayandırılmasına tərəfdar deyildir. Bundan sonra cənab Yan Eliasson Vyanaya qayıtdı. Sizə məlumat verə bilərəm ki, ATƏM, onun Minsk qrupu və cənab Yan Eliasson Rusiya ilə sıx əlaqə saxlayırlar.

Bir daha qeyd edim ki, mayın 10-dan etibarən atəş dayandırılmışdır. Mənə belə gəlir ki, bu, bizim üçün müsbət haldır. Son aylarda ordumuz qəhrəmanlıqla vuruşmuş, böyük cəsarət göstərmişdir. Ancaq itkilərimiz də çox olmuşdur. Açıq deyirəm, elə gün olmuşdur ki, bir bölgədə əlli nəfər şəhid vermişik.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Azərbaycan Ordusunun əsgər və zabitləri torpağımız uğrunda canlarından keçmişlər. Ermənilər mayın 1-də Tərtəri tutmaq, sonra Bərdəyə hücum etmək niyyətində idilər. Onların başqa planları da vardı. Lakin ordumuzun döyüş mövqelərində möhkəm dayanması düşmənin planlarını boşa çıxardı.

Yaxşı bilirsiniz ki, Ermənistan müharibəni tək aparmır. Ona kömək edən dövlətlər və qüvvələr sizə məlumdur. Müharibəni Ermənistan təkçə özü aparsaydı, Azərbaycanın hələ yenicə yaradılan ordusu düşməni torpaqlarımızdan çoxdan çıxarmışdı. Dünyada elə qüvvələr, elə ölkələr var ki, biz onların siyasətinə təsir göstərə bilmirik, onlar öz mənafeləri istiqamətində hərəkət edirlər. Böyük siyasət aparmaq üçün bilik, təcrübə lazımdır. Gərək dünya siyasətini dərk etməyi, təhlil etməyi, ondan nəticə çıxarmağı bacarasan. Güman edirəm, siz inanırsınız ki, biz buna qadirik. Prezident kimi mən də gecə-gündüz bu məsələlərlə məşğul oluram.

Ancaq respublikamızın belə çətin dövründə, müxtəlif istiqamətlərdə fəaliyyət göstərdiyimiz bir vaxtda daxildəki bəzi qüvvələr yenə də aranı qarışdırmaq istəyirlər. (**Yerdən səslər:** Onlarla heç kimin əlaqəsi yoxdur. Biz yalnız sizi tanıyırıq). Mən bilirəm ki, onlara heç kim inanmır. Bəli, millət mənə inanır, bunu bilirəm. Azərbaycan xalqı səs verərək məni prezident seçmişdir. Yeddi milyonluq Azərbaycan xalqı mənə etimal göstərmişdir. Bunu bilirəm, buna da güvənirəm, sizə, Azərbaycan xalqına arxalanıram.

Bunları nə üçün deyirəm? Bəlkə də belə şeylərə fikir verməzdim. Ancaq son günlər bu proseslərdə Azərbaycan rəhbərliyinin guya düz addım atmadığını bildirməklə ayrı-ayrı qüvvələr yenə aranı qarışdırmağa çalışırlar. Burada Bişkek protokolundan söhbət gedir. Mayın 18-də Milli Məclisin növbəti iclasında bir qrup deputat - Etibar Məmmədov, Xalq Cəbhəsindən olan deputatlar və onlara qoşulmuş bir neçə məsləksiz adam Bişkek protokolu ilə əlaqədar hay-küy qaldırdılar. (**Yerdən səslər:** Onlara zərbə dəyməyib, dəysəydi müharibənin ağrı-acısını bilərdilər. Aranı qarışdıran Etibar Məmmədovdur, onu rədd eləməsən işlər düzələn deyil). Düz deyirsiniz, onlara çarpanaq dəyməyib, dəysəydi, hər şeyi bilərdilər.

Gəlin, belə danışaq. Görürəm, ürəyiniz doludur. Mən sizi günün altında saxlamışam, özüm də durmuşam. İstəyirəm fikirlərimi sizə çatdırım. Ondan sonra bu mikrofon, bu da siz, çıxıb sözünüzü deyə bilərsiniz.

Bəli, bunlar Milli Məclisdə tələb edirlər ki, Bişkek protokolu məsələsi gündəliyə salınsın. Axı bu protokolda, əvvəla, elə bir şey yoxdur, - o mənada ki, müzakirə olunası bir məsələ yoxdur. İkincisi, protokoldan əsas məqsəd atəşin kəsilməsidir. Ona görə də bu məsələ müzakirə edildi. Mən də Milli Məclisdə idim. Səsə qoyuldu, - parlamentin qaydası var. Onlar lazımi qədər səs toplamadılar. Yəni məsələ müzakirə üçün gündəliyə salınmadı. Tənəffüsdən sonra onlar, Milli Məclisin təxminən 15 nəfər üzvü bir yerə toplaşıb bəyanat, ultimatum vermiş və məclisdən çıxıb get-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mişlər. Bundan sonra məclisin salonda qalan əksər üzvləri onların haqqında bəyanat vermişlər.

Əvvəla, məçlis üzvlərinin iclası tərk etməsi parlament etikasına, parlament təcrübəsinə zidd olan bir hərəkətdir. Görünür ki, onların parlament mədəniyyəti çatmır. Odur ki, mən bir prezident kimi, onların bu hərəkətini pisləyirəm və hesab edirəm ki, xalq mənimlə həmrəy olacaqdır. Buna görə də onlara deyirəm ki, qeyri-qanuni hərəkətlərindən əl çəksinlər. Lakin iş bununla bitmir. Ola bilərdi ki, mən bu məsələlərə burada da toxunmayım, amma məcburam.

Sonra Etibar Məmmədov öz partiyasının binasında Xalq Cəbhəsinin, müxtəlif partiyaların, Qarabağ Azadlıq hərəkatı deyilən təşkilatın nümayəndələrini başına yığmışdır. Siz heç belə hərəkat tanıyırsınız? (**Yerdən səslər:** Belə hərəkat yoxdur). Hanı o hərəkat, gəlsin ortaya çıxsın. Əgər o, doğrudan da Qarabağ azadlıq hərəkatıdırsa, qoy getsin Qarabağda vuruşsun. (**Yerdən səslər:** onların hansı birinin uşağı Qarabağda vuruşur?). "Boz qurd" adında guya ki, bir partiya var, bu, İsgəndər Həmidovdur. Nə isə, bütün bunlar və başqaları yığışıb bir bəyanat vermişlər. Bu, çox çirkin, ədalətsiz, bizim bugünkü həyatımıza, milli mənafeyimizə zidd olan bəyanatdır. Əvvəldən axıradək yalan, iftira və böhtandır. Guya ki, buraya rus qoşunları gəlir və bəyanatı imzalayanlar da Azərbaycanı rus qoşunlarından müdafiə etmək istəyirlər.

Əvvəla, buraya rus qoşunu gəlmir. Xalqı aldatmaq lazım deyil. Mən son vaxtlar həyata keçirdiyimiz tədbirlər barəsində sizə məlumat verdim və bunu xalqımız bu gün televiziya vasitəsilə eşidəcək. İkincisi, əgər onların dövlət tərəfindən görülən tədbirlərə hər hansı etirazı, iradı varsa, qoy gəlib dövlətlə danışıqlar aparsınlar. Azərbaycan müstəqil dövlətdir. Azərbaycan xalqı tərəfindən seçilmiş prezident var. Orada-burada toplaşıb, köhnə ab-hava ilə yaşayaraq dəstə yığmaq, mitinq çağırmaq, daha nə bilim, cürbəcür əməllərə əl atmaq - bütün bunlar artıq xalqda nifrət hissi doğurur. Heç kəs belə əməlləri bəyənə bilməz. Çünki bütün bunlar qanuna zidd hərəkətlərdir.

Nə isə, mən buna da əhəmiyyət vermədim. Lakin dünən yenə də yığışıb milli müqavimət hərəkatı yaradıb və elan ediblər ki, bu gün mitinq keçirəcəklər. Nə mitinq? Kimlərdir bunu edən? Etibar Məmmodov, İsgəndər Həmidov, sonra Tofiq Qasımov, İsa Qəmbərov, İbrahim İbrahimov. Bir neçə belə adam. Bəli, dünən belə bir hərəkat yaradıblar ki, camaatı mitinqə çağırsınlar. Şübhəsiz ki, onların heç bir mitinqinə heç kəs icazə verməyəcəkdir. Əgər onlar qanunsuz hərəkət etsələr, dövlət qanunları tətbiq olunacaq və bu işdə əli olan hər kəs öz cəzasını alacaqdır. Bunu mən elan edirəm.

İkincisi, bu adamların hərəkəti barədə. Mən bunu Azərbaycanın milli mənafeyinə zidd olan hərəkət kimi qiymətləndirirəm. (**Yerdən səslər:** xəyanətdir, xəyanətdir). Bəli, doğru deyirsiniz, xəyanət kimi qiymətləndirirəm. Azərbaycan dövləti, Azərbaycanın dövlət başçısı, dövlət strukturları qalıb bir kənarda, hakimiyyət iddiasında olan üç-dörd nəfər guya Azərbaycan xalqını müda-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

fiə etmək istəyir. Azərbaycan xalqı özünü müdafiə etmək üçün prezident seçmişdir, prezident də xalqın təhlükəsizliyinin təminatçısıdır, onun hüquqlarının qorunmasının təminatçısıdır. Azərbaycan torpaqlarının toxunulmazlığının təminatçısıdır. Bəs onlara kim belə səlahiyyət veribdir? Hansı əsasla? Axı əslində kimdir onlar?

Bilirsinizmi, mən onların haqqında heç nə demək istəmirəm, çünki onların səviyyəsinə enmək fikrində deyiləm (**Yerdən səslər:** millət bilir). Düz deyirsən qardaş, millət bilir. Mən onların səviyyəsinə enmək istəmirəm. Çünki onlar lazımi səviyyəyə qalxmaq üçün, əgər düz yolla getsələr, hələ 10-15 il fəaliyyət göstərməlidirlər. Onlar heç bir təcrübəsi olmayan adamlardır. İndi hərəsi özünə bir partiya düzəldib. Biz demokratiyaya yol açmışıq, partiyalar var. Etirazımız yoxdur, qoy fəaliyyət göstərsinlər. Azərbaycanda 40-dan artıq partiya qeydə alınıb, bəzi qəzetlər ağızlarına gələni yazır, xalq bunlara fikir vermir, çünki inanmır, böhtan atırlar. Bütün bunlara dözmək olar. Demokratiya, siyasi plüralizm nöqteyi-nəzərindən mən bunlara etiraz etmirəm və gələcəkdə də etməyəcəyəm. Amma böhtançılığa, xalqı aldatmağa, cinayətə sövq etməyə yol verməyəcəyəm və bu barədə hamıya xəbərdarlıq edirəm.

Mən Etibar Məmmədova həmişə hörmət etmişəm. Amma görürəm ki, burada sizin onun haqqında fikriniz pisdir (**Yerdən səslər:** O, bizi çollərdə qoyub). Bilirəm, siz bunu onun özünə deyərsiniz. Bir gənc kimi, müəyyən qədər siyasi fəaliyyət göstərdiyinə görə mən ona həmişə hörmətlə yanaşmışam. Lakin qoy Etibar Məmmədov eşitsin və anlasın ki, o, mənim hörmətimi qiymətləndirməlidir. Çünki onun iddialarla yaşamağa hələ heç bir mənəvi haqqı yoxdur. O, son üç-dörd ildə qarşısına bir məqsəd qoymuşdur: Nəyin bahasına olursa-olsun hakimiyyətə gəlmək. Yaxşı, hakimiyyətə gəlmək istəyirdinsə, vaxtilə prezident seçkiləri keçirildi. Əbülfəz Elçibəy, Nizami Süleymanov, təxminən yeddi nəfər, o cümlədən də Etibar Məmmədov namizədliyini irəli sürmüşdü. Seçilərdi, gəlib olardı prezident. Əbülfəz Elçibəyi guya seçdilər. Bəli, guya, nə isə, seçdilər, o da oldu prezident. Bu da başladı onun əleyhinə işləməyə. Məqsədi də gəlib prezident olmaq idi.

Əbülfəz Elçibəy öz-özünə yıxıldı, aradan çıxıb qaçdı. (**Yerdən səslər:** Bizi qoydu qaçdı). Bəli, qoyub qaçdı. O qaçandan sonra mən Etibar Məmmədovu işə cəlb etmək istədim. Siz bunu bilirsiniz. Mən onu yanıma çağırıb təklif etdim ki, gəl, xariçi işlər naziri işlə. Dedi yox, bu vəzifə mənim üçün azdır. Dedim onda dövlət katibi ol. Dedi yox, bu vəzifə də mənim üçün azdır. Yaxşı, onda gəl səni baş nazirin birinci müavini qoyaq. Dedi yox, bu da mənim üçün azdır. Bəlkə Ali Sovetin sədrinin birinci müavini qoyaq? Yox, bu da mənim üçün azdır. Dedim, bəs sən nə istəyirsən? Deyir, siz gərək məni baş nazir vəzifəsinə qoyaydınız, amma bu vəzifəyə Surət Hüseynovu təyin etdiniz. Dedim, bu mənim işimdir. Bir halda ki, xalq mənə inanıb, mən onu baş nazir qoymuşam. Baş nazir vəzifəsi artıq tutulub, amma ondan bir pillə aşağı olan bir neçə vəzifə təklif edirəm. (**Yerdən səslər:** Ona ancaq və-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

zifə lazımdır). Bir görün, mənə sonra nə deyir: Siz gəlin, xarici işlər naziri, iqtisadi əlaqələr naziri, dövlət katibi vəzifələrini birləşdirin, Dövlət Neft Şirkətini də buraya əlavə edin və bir vəzifə yaradın, onu da mənə verin. Bilirsiniz, mən ona baxdım və dedim ki, axı sən hələ bir yerdə bir ağac da əkməmisən, bir arxa su gətirməmisən, bir daşı bir daşın üstünə qoymamısan, bəs səndə bu qədər iddia haradandır? Ona dedim ki, mən belə şeyi edə bilmərəm. Amma bu vəzifələrdən hansını istəyirsənsə, gəl seç, götür. Məqsədim də sağlam məqsəd idi. Düşündüm ki, cavan adamdır, siyasətə qoşulub, gəlib bu vəzifələrdən birində işləsin, təcrübə toplasın. Bəlkə gələcəkdə bundan bir xadim çıxdı. Amma gördüm ki, yox, bu, allahlıq iddiasındadır. Çıxıb getdi. Bütün bunlara baxmayaraq, mən onunla normal münasibət saxlayırdım.

Bu yaxınlarda mənə zəng vurdu ki, sizinlə görüşmək istəyirəm. Dedim vaxtım yoxdur. Təkid etdi, dedi ki, Türkiyəyə gedirəm. İki gündən bir Türkiyəyə gedir, heç bilmirsən oraya nəyə gedib-gəlir. Müxtəsəri, dedim, yaxşı, gəl. Nə isə, gəldi. Bəzi məsələlərdən danışdıq. Sonra gedib qəzetində yazır ki, Heydər Əliyevə mən bunu dedim, onu dedim. Yazır ki, o vaxtlar Heydər Əliyev mənə vəzifə təklif etdi, amma mən getmədim. Yalan deyir. O, mən təklif etdiyim vəzifədən artıq vəzifə istəyirdi. Baş nazir olmaq, ya da xüsusi bir vəzifə istəyirdi. İndi mən bələləri ilə əməkdaşlıq etmək istəyirəm. Amma bələləri ilə necə əməkdaşlıq edəsən.

İndi bu adam onları başına yığıb. Halbuki onlar bir-biri ilə vuruşurdular. Məsələn, vaxtilə İsgəndər Həmidovla bu Etibar Məmmədov vuruşurdu. Yadımdadır, Əbülfəz Elçibəy prezident idi və o vaxt mən Naxçıvanda yaşayırdım. Bir dəfə, yadımda deyil, ya dövlət katibi, ya da baş nazir olan Pənah Hüseynov Etibar Məmmədovun partiyasının nümayəndələri ilə televiziya ilə dialoq aparırdı. Bu zaman İsgəndər Həmidov gəlib telestudiyada dialoq gedən salona daxil oldu, xuliqanlıq etdi, bunları soydü, hamını qovub dağıtdı. Amma o vaxtlar Azərbaycanda bir rəhbərlik yox idi ki, İsgəndər Həmidovu bu xuliqanlığına görə cəzalandırsın. Olan olub, keçən keçib. Nə etmək olar. O vaxt düşmən idilər. Amma indi Etibar Məmmədov gedib İsgəndər Həmidovla birləşib ki, gəlin, bu iqtidara qarşı mübarizə aparaq.

Bəs bu İsgəndər Həmidov kimdir? Onu siz yaxşı tanıyırsınız. Özü də heç bir əsası olmadan, heç bir xidməti olmadan gəlib ortaya düşüb, özünə də bir "Boz qurd" partiyası yaradıb. Birincisi, bu "Boz qurd" partiyası nə partiyadır? İkincisi, bu partiya vəsaiti haradan alır? Qəzet çıxarır, yalan-yalan şeylər yazır. Bu İsgəndər Həmidov indi də gəlib ki, mən mitinq keçirəcəyəm.

Yaxud götürək İsa Qəmbərovu. O əyri yolla, düz yolla, Allah bilir, hansı yolla Ali Sovetin sədri oldu. Yaxşı, işləyə bilmədin, qardaş, çıxıb qaçdın. Keçən il iyun ayının 11-də özü istefa verdi ki, mən işləyə bilmirəm. Nə üçün? Çünki Azərbaycanı gətirib vətəndaş müharibəsi vəziyyətinə çıxartdılar. Düz bir il bundan qabaq, keçən ilin may ayında iyunun əvvəllərində Azərbaycanda artıq vətəndaş müharibəsi başlanmışdı, qardaş qırğını ge-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dirdi. Azərbaycan od tutub yanırdı, parçalanırdı. Bir tərəfdən Gəncədə bir dəstə, digər tərəfdən Lənkəranda bir dəstə, başqa tərəfdən, ayrı bölgələrdə dəstələr peyda olmuşdu. Azərbaycan dağılıb gedirdi. Azərbaycanı bu şəraitə gətirib salanlardan biri olan İsa Qəmbərov üç saat mənim özümdən xahiş edib ki, gəlin, respublikanı bu vəziyyətdən çıxarın. Mən dedim ki, gələ bilmərəm, çünki siz Azərbaycanı çox pis vəziyyətə salmısınız. Əbülfəz Elçibəy üç-dörd gün mənimlə danışıqlar apardı. Onlar bir həftə çalışdılar ki, məni Naxçıvandan buraya gətirsinlər. Mən də gəlib onların düz üzünə dedim ki, siz Azərbaycanı dağıtmısınız. Özləri istefa verdilər. İsa Qəmbərov da, Pənah Hüseynov da istefa verdi.

Pənah Hüseynov qaçıb aradan çıxdı, on bir aydır gizlənir, bilən yoxdur, haradadır. Biri deyir xaricdədir, biri deyir filan yerdədir. Əgər düz adamdırsa, niyə qaçıb aradan çıxır? Əbülfəz Elçibəy də buradan qaçdı, on bir aydır ki, Kələki kəndində oturub, orada hərdənbir danışıqlar aparır, camaatı çaşdırır. Yaxşı, əgər hakimiyyət sizdə idisə və siz də onu saxlaya bilmədinizsə, Azərbaycanı vətəndaş müharibəsi vəziyyətinə gətirib çıxardınızsa, ölkəni dağıtdınızsa, bəs indi nə istəyirsiniz?! Bu xalqdan nə istəyirsiniz? Niyə camaatı çaşdırmağa can atırsınız? Gedin yerinizdə sakitcə oturun, bəlkə cəzadan xilas oldunuz.

Tofiq Qasımov. Bunu gətirib xarici işlər naziri qoymuşdular. İndi orada-burada elə hey danışır. Başqa bir söz deyə bilmərəm. Onun bir dəfə belə normal danışdığını görmək olmaz. İndi gəlib atılıb meydana. Yaxşı, son bir il xarici işlər naziri oldun, bu bir ildə Azərbaycanın xarici siyasətini qura bilmədin. Məhz sən xarici işlər naziri olan dövrdə ABŞ konqresi Azərbaycan üçün humanitar yardıma embarqo qoydu. Sən heç nəyə nail ola bilmədin. Azərbaycanın bir sıra dövlətlərlə münasibətləri korlandı. İndi de görək, nə iş görmüsən? Heç bir iş görməmisən! Belə bir halda sən nə istəyirsən?

Mən daha başqalarının adlarını çəkmək istəmirəm. Bunlar guya bu gün, ya da sabah mitinq keçirmək istəyirlər. Bəli, İsa Qəmbərov məktub yazır ki, mən mayın 28-də Azadlıq meydanında mitinq keçirmək istəyirəm. Nə münasibətlə? İstiqlal günü münasibətilə! Bu İstiqlal günü məgər sənə məxsusdur?! 28 May Azərbaycan xalqının İstiqlal bayramıdır. Bu, xalqımızın bayramıdır. Azərbaycan dövlətinin bayramıdır. Ona görə də dövlət bu bayrama lazımi hazırlıq görür və onu layiqincə qeyd edəcəkdir. Lakin hansısa bir təşkilatın gəlib bu bayramı xüsusi keçirməsi, yaxud da özünü dövlətdən ayırması hansı qanun-qaydaya uyğundur? Bunların heç birisi yaramaz. Bütün bunlar xalqın indiki ağır şəraitdə yaşadığı dövrdə, bu vəziyyətdən çıxmaq üçün yollar axtardığımız vaxtda, müharibəyə son qoymaq əzmində olduğumuz halda aranı vurmaq, sabitliyi pozmaq, müharibəni davam etdirmək deməkdir, çünki nə qədər ki, müharibə var, o vaxta qədər də onlar var. Nə qədər ki, müharibə var, onlar bundan istifadə edərək öz şəxsi məqsədlərinə çatmağa can atırlar. Müharibə qurtarandan sonra bunlar olmayacaqlar. Amma onlar bu gün də xalq üçün yoxdurlar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu fikirləri sizə çatdırmaqla yanaşı, onlara xəbərdarlıq edirəm: Mən bir prezident kimi bütün Azərbaycan xalqını, əhalinin bütün təbəqələrini, bütün siyasi qüvvələri, bütün partiyaları, bütün təşkilatları milli həmrəyliyə, vətəndaş həmrəyliyinə dəvət etmişəm və dəvət edirəm. Milli həmrəylik, vətəndaş həmrəyliyi ancaq Azərbaycanın xalq tərəfindən seçilmiş qanuni prezidenti ətrafında ola bilər. Bu həmrəylik başqa bir şəkildə ola bilməz! Kim milli həmrəyliyə həqiqətən qoşulmaq istəyirsə gəlsin bizimlə əməkdaşlıq etsin. Mən hər bir kəslə əməkdaşlıq etməyə hazıram. Xalqın milli mənafeyi naminə, xalqı bu vəziyyətdən çıxarmaq naminə! Kim bu yolda kiçik bir müsbət addım atarsa, mən onu bəyənməyə, təqdir etməyə hazıram. Amma ayrı-ayrı dəstələrin qruplaşıb özlərinə bir mərkəz yaratmasına, yaxud Azərbaycan dövlətinə qarşı sui-qəsd etməsinə və ya təxribat törətməsinə, habelə özləri demişkən, kütləvi aksiyalar təşkil etməsinə yol verməyəcəyəm, Azərbaycan dövlətinin qanunları çərçivəsində mən bunlara qarşı lazımi tədbirlər görəcəyəm və ümidvaram ki, Azərbaycan xalqı daim məni müdafiə edəcəkdir.

Mən bu məsələləri sizə geniş çatdırmaq istədim. Güman edirəm ki, fikirlərim bu axşam televiziya vasitəsilə Azərbaycan xalqına çatdırılacaqdır. Ona görə ki, bizim indi apardığımız siyasət, necə deyərlər, çox mürəkkəb yolla gedir. Onu bilin. Demək olar ki, biz nazik bir sapın üstü ilə gedirik. Odur ki, biz gərək bu siyasəti o qədər ağılla, o qədər məharətlə aparaq ki, Azərbaycanın milli mənafeləri müdafiə olunsun, ərazi bütövlüyümüz təmin edilsin və Azərbaycan müharibə şəraitindən çıxsın. Bəziləri deyir ki, müharibə aparaq, 5-6 il də vuruşaq. Amma belələrinin özləri burada oturub, müharibəyə getmir.

Mən sizə deyə bilərəm ki, bu son iki gündə, xüsusən mayın 18-də Milli Məclisdə onlar özlərini ədəbsiz apardıqlarına görə, mənə minlərlə teleqram gəlir. Bu teleqramların əksəriyyəti Qarabağ bölgəsindən Ağdamdan, Bərdədən, Ağcabədidən, Goranboydan, bütün cəbhə bölgələrindən göndərilir. Hamı da məndən tələb edirlər ki, icazə verin, biz gəlib Bakıda bəzi siyasətbazlarla özümüz haqq-hesab çəkək. Orada xalqın yüzlərlə nümayəndəsi icra hakimiyyətlərinin binaları qarşısına toplaşıb deyir ki, bizə şərait yaradın, gedək Bakıya, prezidentə münasibətimizi bildirək və o adamlara öz sözümüzü deyək.

Mən hamıya deyirəm ki, heç bir qarışıqlıq salmaq lazım deyil; o adamların cavabını biz özümüz veririk. O ki qaldı sizin bu həmrəyliyinizə, teleqramlarınıza, mən onlara görə sizə minnətdaram. Azərbaycanın ictimai rəyi mənə məlumdur. Azərbaycan xalqı bu adamların çirkin hərəkətinə nifrət edir. Lakin onlar əvvəllər bəzən belə zorakı, ağılsız hərəkət edərək bəzi məsələlərə nail olduqlarına görə güman edirlər ki, bu, indi də ola bilər. İndi bu mümkün deyil. Mən bu sözləri ona görə deyirəm ki, onları tutduqları yoldan çəkindirim, başa düşsünlər ki, düz yolla getməlidirlər. Düz yolla gedərlərsə,Cəmiyyətdə öz yerlərini tutacaqlar. Yox, əgər belə hərəkət edəcəklərsə, Azərbaycanın dövləti var və dövlətçiliyimiz qorunacaq, Azərbaycan qanunları tətbiq

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ediləcək və kimliyindən asılı olmayaraq, hər kəs öz cəzasını alacaqdır. Güman edirəm ki, siz də bu fikirdəsiniz.

Mən bu fikirləri sizə çatdıraraq bir daha hamınıza, sizin simanızda bütün Qarabağ mahalının əhalisinə, şuşalılara, laçınlılara, kəlbəcərlilərə, ağdamlılara, füzulilərə, cəbrayıllılara, qubadlılara, zəngilanlılara, sakinləri didərgin düşən digər bölgələrin bütün əhalisinə öz hörmət və ehtiramımı bildirirəm. Əmin olun ki, sizin həyat şəraitinizlə maraqlanırıq və bundan sonra da maraqlanacağıq. Qaçqınların məskunlaşdığı yerlərdə dəfələrlə olmuşam. Oraya çox yardım göndərilir xaricdən də, bizdən də. Buraya da göndərilir. Çalışacağıq ki, bu məsələlər bundan sonra daha yaxşı həll edilsin. Amma siz də, bir halda ki, dözürsünüz, yenə də dözün. Biz çalışacağıq ki, müharibə şəraitindən tezliklə qurtaraq, torpaqlarımızı geri qaytaraq, hər biriniz öz ev-eşiyinizə dönəsiniz. sağ olun!

Bir daha bayramınızı təbrik slirəm, sizə cansaqlığı, xoşbəxtlik arzulayıram.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BAKIDA XƏZƏR DƏNİZİNDƏ NEFT-QAZ HASİLATINA DAİR I BEYNƏLXALQ SƏRGİNİN AÇILIŞINDA ÇIXIŞ

24 may 1994-cü il

Hörmətli xanımlar və cənablar! Sizi səmimi-qəlbdən salamlayır, mühüm hadisə Azərbaycanda, Xəzər hövzəsində neft və qaz hasilatına həsr olunmuş sərginin açılışı münasibətilə təbrik.edirəm. Ölkəmizin neft sənayesinin qədim və zəngin tarixi var. Təqribən 150 il bundan əvvəl Azərbaycanda sənaye üsulu ilə neft çıxarılmasına başlanması məlumdur. O vaxtdan ötən dövrdə Azərbaycan xalqının səyləri, xarici şirkətlərin köməyi ilə böyük yol keçilmişdir. Respublikanın yataqlarından 1 milyard 300 milyon tondan çox neft və külli miqdarda qaz çıxarılmışdır. Lakin ötən tarixi dövr və mütəxəssislərimizin tədqiqatları göstərir ki, Azərbaycanda indi də çox böyük neft və qaz ehtiyatı var. Deməli, Azərbaycan Respublikasının bu qiymətli sərvətlərindən istifadə sahəsində qarşıda bizi daha böyük perspektiv gözləyir. Ötən tarixi dövrdə nə edilmişsə, şübhəsiz ki, bizim çox böyük nailiyyətimiz, zəngin təcrübə, gələcək işlər üçün yaxşı bünövrədir. Cəsarət edib bir cəhəti də qeyd etmək istəyirəm ki, dünya təcrübəsində dənizdən neft çıxarılmasına ilk dəfə Azərbaycanda başlanmışdır. Bütün bu deyilənlər Azərbaycana və Bakıya neft şöhrəti gətirmiş və ölkəmizi dünyada tanıtmışdır. Lakin indi biz neft və qaz yataqlarından istifadə olunmasının yeni mərhələsindəyik.

Bu, hər şeydən əvvəl onunla bağlıdır ki, Azərbaycan özünün çoxəsrlik tarixi ərzində ilk dəfə olaraq dövlət müstəqilliyi əldə etmişdir. Azərbaycan xalqı yeraltı sərvətlərinin və öz taleyinin tam hüquqlu sahibi olmuşdur. Bu, ona özünün yeraltı sərvətlərindən müstəqil şəkildə, Azərbaycanın mənafeyinə uyğun istifadə etməyə imkan verəcəkdir.

Digər tərəfdən, son onilliklərdə xüsusən, dəniz yataqlarında neft və qaz hasilatı texnikası və texnologiyasında dünya praktikasında çox böyük nailiyyətlər əldə olunmuşdur. Etiraf etməliyəm ki, əslində dünyada ilk dəfə olaraq dəniz yataqlarının işlənməsinə başlayan Azərbaycan indi bu sahədə dünya səviyyəsindən müəyyən dərəcədə geri qalır. Bununla belə, dünyanın, xüsusən Qərb ölkələrinin iri neft şirkətlərinin Azərbaycan neftinə böyük maraq göstərməsi əməkdaşlığımızın zəruriliyini şərtləndirir. Biz milli mənafeyimizi tam dərk edərək və əməkdaşlığın Azərbaycanla nefq sənayesinin daha müvəffəqiyyətlə inkişafını təmin edəcəyini əsas tutaraq həmin şirkətlərlə fəal əməkdaşlığa getmişik. Bundan əlavə, belə əməkdaşlıq təkcə neft şirkətləri ilə deyil, həm də Qərb ölkələri ilə sıx qarşılıqlı fəaliyyətə gətirib çıxaracaqdır. Qərbin neft şirkətləri ilə əmək-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

daşlıq istiqamətində atdığımız addımların həm iqtisadi, həm də siyasi mənası var. Biz əminik ki, Azərbaycanın, onun Dövlət Neft Şirkətinin Qərb tərəfdaşları ilə gələcək əməkdaşlığı məhz bu prinsiplər zəminində həyata keçiriləcəkdir.

Sizə məlumdur ki, xarici neft şirkətləri Azərbaycanın neft və qaz yataqlarına təqribən üç il bundan əvvəl maraq göstərmişlər. Bütün bu müddətdə müvafiq danışıqlar aparılır. Bu danışıqların yolu isə, əlbəttə, hamar olmamışdır. Enişlər də, yoxuşlar da olmuşdur. Lakin hər halda, bu danışıqlar davam etmişdir və bizim fikrimizcə, son vaxtlar daha uğurla gedir. Xariçi neft şirkətlərinin rəhbərləri ilə görüşərkən mən bunu demişəm. Lakin bu gün bir daha qeyd etməyi lazım bilirəm ki, biz ölkəmiz üçün çox mühüm və məsuliyyətli olan bu addımı atarkən başlıca prinsipi Azərbaycan Respublikasının milli mənafelərini, həm bizim dövlətimiz üçün, həm də İqtisadiyyatımıza investisiya qoymağı qərara almış neft şirkətləri üçün qarşılıqlı faydanı təmin edən prinsipi əsas götürürük.

Məmnuniyyətlə qeyd edirəm ki, bu prosesdə Qərbin təkcə neft şirkətləri deyil, həm də bu ölkələrin rəhbərləri, məsələn, Böyük Britaniyanın baş naziri, danışıqlara maraq göstərən cənab Con Meycor iştirak edir. Cənab Con Meycor mənə göndərdiyi məktubunda həmin məsələ barədə öz fikirlərini ifadə etmişdir və bu, ölkələrimiz arasında energetika sahəsində əməkdaşlıq haqqında müvafiq sazişdə əksini tapmışdır. Bugünkü mərasimdə iştirak etmək üçün xüsusi olaraq Bakıya gələn Birləşmiş Krallığın energetika naziri cənab Tim Eqqarın sərginin açılışında olmasını böyük məmnuniyyətlə qeyd edirəm.

Azərbaycan ilə Qərbin neft şirkətləri arasında danışıqların son vaxtlar daha uğurla getməsindən məmnun qaldığımı bildirmək istəyirəm. Danışıqların mayın 2-dən 19-dək İstanbulda keçirilən sonuncu mərhələsi, zənnimcə, yaxşı nəticələrlə başa çatmışdır. Ötən vaxt ərzində danışıqlarla, neft sənayesi sahəsində Qərb ölkələri ilə əməkdaşlıqla bağlı çoxlu müxtəlif mülahizələr, şayiələr olmuşdur. Əslində bunların əsası yoxdur. Bildirmək istəyirəm ki, Azərbaycan Respublikası, prezident kimi mən mövqeyimizi qəti müəyyənləşdirmişik. Mövqeyimiz isə ondan ibarətdir ki, biz danışıqları davam etdirəcəyik və bunların müvəffəqiyyətlə başa çatmasına, böyük kommersiya sazişlərinin bağlanmasına ümid bəsləyirik.

Bununla əlaqədar indiki sərkiyə və onun gedişində keçirilməsi nəzərdə tutulan konfransa çox böyük əhəmiyyət veririk. Sərgidə 20 ölkənin 180-dək firmasının iştirak etməsi onun belə əhəmiyyət kəsb etdiyini göstərir. Burada Azərbaycanın neft sənayesi də kifayət qədər dolğun təmsil olunmuşdur. Ümidvaram ki, sərkinin iştirakçıları, tamaşaçılar neft hasilatı, bu prosesin texnika və texnologiyası sahəsində dünyanın iri neft şirkətlərinin əldə etdikləri bütün nailiyyətlərle tanış olacaq, eyni zamanda Azarbaycan neft sənayesinin tarixi, onun nailiyyətləri ilə də tanış ola biləcəklər.

Bayaq qeyd etdim ki, son onilliklərdə dünyanın neft şirkətlə-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ri dənizdən neft çıxarılması texnikası və texnologiyasını inkişaf etdirməkdə çox böyük təcrübə toplamışlar. Bu nailiyyətlərlə əyani tanışlıq bizdən, Azərbaycanın nümayəndələrindən ötrü son dərəcə maraqlı olacaqdır. Eyni zamanda əminəm ki, sərginin məqsədi təkcə təcrübəni nümayiş etdirmək deyil, həm də bu təcrübədən istifadə üçün səyləri birləşdirməkdir.

Azərbaycan neft ölkəsidir. Keçmişdə isə Odlar diyarı adlanırdı və Azərbaycan bu gün də həmin adı fəxrlə daşıyır. Bu adın özü də neft və qaz ilə əlaqədardır. Qədim zamanlarda adamlar yerin altından çıxan yanar qazı sadəcə olaraq od sayırdılar. Azərbaycanda neft yataqlarının istismar edildiyi bir çox onilliklər ərzində xalqımızın fəxri sayılan neçə-neçə neftçilər nəsli yetişmişdir. Neftçi olmaq Azərbaycanda ən şərəfli peşə sayıdır. Qeyd etməyi lazım bilirəm ki, keçmiş Sovet İttifaqında əslində bütün yataqların kəşfi və işlənməsi Azərbaycan alimləri və neftçilərinin əməyi, səyləri ilə bağlıdır. Keçmiş Sovet İttifaqında, indi Rusiyada ikinci, üçüncü, dördüncü Bakı var. Bunlar Tatarıstan, Başqırdıstan, Orenburq, Sibirdir. Həmin rayonları məhz ona görə ikinci, üçüncü, dördüncü Bakı adlandırmışlar ki, o yerlərdə hər dəfə yataqların kəşfi, işlənməsi Azərbaycanda hazırlanmış alimlər, geoloqlar, mütəxəssislər tərəfindən həyata keçirilmişdir.

Bu tarixdən böyük fəxrlə danışmaqla, Azərbaycan neftçilərinin bir çox nəsillərinin əməyini yüksək qiymətləndirməklə yanaşı, bu gün eyni zamanda qeyd edirəm ki, indi ölkəmizin neft sənayesinin inkişafında yeni mərhələ açılır. Bu mərhələ Xəzər dənizində neft və qaz yataqlarının işlənməsində Qərbin iri neft şirkətlərinin fəal iştirakı ilə bağlıdır. Əmin edirəm ki, Azərbaycan neftçiləri sizin layiqli tərəfdaşınız olacaq. Ümidvaram ki, Azərbaycana gələn Qərbin neft şirkətləri ölkəmizin neft və qaz sənayesinin bütün tarixi ərzində əldə olunmuş nailiyyətləri həmişə yüksək qiymətləndirəcəklər. Böyük məhəbbət və səylə hazırlanmış indiki sərki də buna geniş imkan yaradır. Sərkinin hazırlanmasına böyük əmək sərf etdiklərinə görə "Sperhed eksibişnz LTD" firmasına və Azərbaycanın Ticarət-Sənaye Palatasına minnətdarlığımı bildirir, dünyanın bütün neft şirkətlərinin imkanlarını dolğunluğu ilə təqdim etmək, respublikanın ictimaiyyətini onlarla tanış etmək üçün şirkətlərin hamısının bir-birini tanıya bilməsi üçün sərginin işlədiyi günlərdə burada çalışacaq şəxslərin hamısına uğurlar arzulayıram. Ümidvaram ki, bütün bunlar hamımız üçün çox faydalı olacaqdır.

Nəhayət, bir cəhəti qeyd etməyə bilmərəm. Bəlkə də bunun neft sənayesinə bilavasitə aidiyyəti yoxdur, lakin indiki sərki ilə bağlıdır. 15 il bundan əvvəl mənim təşəbbüsümlə həmin bu idman

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

kompleksinin tikintisinə başlanmışdır. O zaman binanın bünövrəsinə ilk daşı mən qoymuşdum və indi hədsiz dərəcədə xoşbəxtəm ki, kompleksin tikintisi hələ başa çatmasa da, idman oyunlarından əlavə, belə gözəl sərgi kimi xeyirxah işə də xidmət edir. Hamınızı bir daha salamlayır və təbrik edir, möhkəm cansağlığı və xoşbəxtlik arzulayır, bu beynəlxalq sərgiyə, burada təmsil olunan bütün şirkətlərə böyük uğurlar diləyirəm. Ümidvaram ki, Azərbaycan ilə Qərbin neft şirkətləri arasında əməkdaşlıq daha müvəffəqiyyətlə inkişaf edəcəkdir. Hamınıza böyük uğurlar arzulayıram.

XALQ YAZIÇİSI İLYAS ƏFƏNDİYEVƏ

Əziz və hörmətli sənətkarımız!

Sizi - Azərbaycanın görkəmli dramaturq və nasirini 80 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm. Dünya mədəniyyətinə ölməz dühalar bəxş etmiş qədim Odlar diyarında xalqın məhəbbətini qazanmaq, sənət zirvəsinə ucalmaq olduqca çətin və şərəflidir. Siz fədakar əməyiniz sayəsində bu şərəfə nail olmuşsunuz.

Oxucuların sevə-sevə mütaliə etdiyi nəsr əsərləriniz, milli teatrımızın səhnəsində tamaşaya qoyulan pyesləriniz bunu parlaq şəkildə sübut edir.

Hörmətli İlyas müəllim! Sizin yaratdığınız obrazlar xalqımızın övladlarına mənəvi saflıq və vətənpərvərlik aşılanması işinə xidmət etmişdir. Əminəm ki, müstəqil Azərbaycanımızın hələ neçə-neçə nəsli bu zəngin mənbədən faydalanacaqdır. Sizə möhkəm cansağlığı, çətin və şərəfli yaradıcılıq yolunda uğurlar arzulayıram.

HEYDƏR ƏLİYEV

25 may 1994-cü il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

KİTABIN İÇİNDƏKİLƏR

NƏŞRİYYATDAN.....5

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN İCLASINDA ÇIXIŞ

15 iyun 1993-cü il.....9

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏLAHİY-
YƏTLƏRİNİ HƏYATA KEÇİRƏN AZƏRBAYCAN RESPUBLİKASI
ALİ SOVETİNİN SƏDRİ HEYDƏR ƏLİYEVİN BƏYANATI

2 iyul 1993-cü il.....… 15

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ƏLAHƏZRƏT
BİLL KLİNTON CƏNABLARINA

2 iyul 1993-cü il..... 17

İSTANBULDA İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ
2-ci GÖRÜŞÜNÜN İŞTİRAKÇILARINA

5 iyul 1993-cü il.....18

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏLA-
HİYYƏTLƏRİNİ HƏYATA KEÇİRƏN AZƏRBAYCAN
RESPUBLİKASI ALİ SOVETİNİN SƏDRİ HEYDƏR
ƏLİYEVİN BƏYANATI

5 iyul 1993-cü il.....19

"OSTANKİNO" DÖVLƏTLƏRARASI TELEVİZİYA
ŞİRKƏTİNƏ MÜSAHİBƏ

6 iyul 1993-cü il.....22

FRANSA RESPUBLİKASININ PREZİDENTİ ƏLAHƏZRƏT
FRANSUA MİTTERAN CƏNABLARINA

13 iyul 1993-cü il..... 31

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
SƏLAHİYYƏTLƏRİNİ HƏYATA KEÇİRƏN
AZƏRBAYCAN RESPUBLİKASI ALİ SOVETİNİN SƏDRİ
HEYDƏR ƏLİYEVİN VƏ ATƏM-in DAĞLIQ QARABAĞA DAİR
MİNSK KONFRANSININ SƏDRİ MARİO RAFFAELLİNİN
BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATI

14 iyul 1993-cü il.....32

MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ
ƏLAHƏZRƏT MƏHƏMMƏD HÜSNÜ MÜBARƏK CƏNABLARINA

21 iyul 1993-cü il.....43

BMT TƏHLÜKƏSİZLİK ŞURASININ SƏDRİNƏ
SURƏTİ: BMT-nin BAŞ KATİBİNƏ

26 iyul 1993-cü il..... 44

MƏN XALQA MİNNƏTDARAM
"*ROSSİYSKİ FERMER" QƏZETİNİN MÜXBİRİ İLƏ SÖHBƏT*

3 avqust 1993-cü il.....46

"MƏN SİZƏ HEÇ NƏ VƏD ETMİRƏM"
"SOBESEDNİKİN MÜXBİRİNƏ MÜSAHİBƏ

10 avqust 1993-cü il.....50

BOLİVİYANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB XAYME
PAS SAMORAYA

10 avqust 1993-cü il.....56

SİNQAPUR RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB Vİ KİM VİYƏ

10 avqust 1993-cü il.....56

EKVADORUN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RODRİQO
BORXA SEVALOSA

10 avqust 1993-cü il.....57

KONQO RESPUBLİKASININ PREZİDENTİ ƏLAHƏZRƏT

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

GENERAL DANİEL SASSU NQESSO CƏNABLARINA

12 avqust 1993-cü il.....57

YAZIÇI ALEKSANDR PROXANOVLA MÜSAHİBƏ

12 avqust 1993-cü il.....58

BİLƏSUVAR, CƏLİLABAD, MASALLI, LƏNKƏRAN, ASTARA, YARDIMLI VƏ LERİK RAYONLARINDAN SEÇİLMİŞ XALQ DEPUTATLARI VƏ HƏMİN RAYONLARDAN OLAN RƏHBƏR İŞÇİLƏR VƏ ZİYALILARLA GÖRÜŞDƏ GİRİŞ SÖZÜ

13 avqust 1993-cü il.....63

YEKUN SÖZÜ…….....76

"ENERGİYA, EKOLOGİYA, İQTİSADİYYAT" İKİNCİ BEYNƏLXALQ SİMPOZİUMUN İŞTİRAKÇILARINA

17 avqust 1993-cü il.....81

APARICI NEFT ŞİRKƏTLƏRİNİN VƏ KORPORASİYALARININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

17 avqust 1993-cü il.....82

QABON RESPUBLİKASININ PREZİDENTİ ZATI-ALİLƏRİ ƏL-HƏCİ ÖMƏR BONQO CƏNABLARINA

17 avqust 1993-cü il.....88

İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ƏLAHƏZRƏT GENERAL SUXARTO CƏNABLARINA

17 avqust 1993-cü il..... 88

BMT TƏHLÜKƏSİZLİK ŞURASININ SƏDRİNƏ SURƏTİ: BMT-nin BAŞ KATİBİNƏ

18 avqust 1993-cü il..... 89

AZƏRBAYCAN MİLLİ TELEVİZİYASI İLƏ XALQA MÜRACİƏT

23 avqust 1993-cü il.....

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"MÜSTƏQİL AZƏRBAYCANIN DÖVLƏTÇİLİYİNİ VƏ ƏRAZİ BÜTÖVLÜYÜNÜ QORUMAQ HƏR BİRİMİZİN BORCUDUR"

Bakıda Ümumrespublika müşavirəsində çıxış 24 avqust 1993-cü il..... 101

"NEZAVİSİMAYA QAZETA"nın MÜXBİRİNƏ MÜSAHİBƏ

30 avqust 1993-cü il.....117

MÜHARİBƏ QURBANLARININ MÜDAFİƏSİ ÜZRƏ BEYNƏLXALQ KONFRANS (CENEVRƏ, 30 AVQUST – 1 SENTYABR 1993-cü il) İŞTİRAKÇILARINA MÜRACİƏT

31 avqust 1993-cü il.....124

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ BİLL KLİNTON CƏNABLARINA, AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ VİTSE-PREZİDENTİ ALBERT QOR CƏNABLARINA, AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI KONQRESİNİN SPİKERİ TOMAS FOLİ CƏNABLARINA

2 sentyabr 1993-cü il.....125

TACİKİSTAN RESPUBLİKASI ALİ SOVETİNİN SƏDRİ İMAMƏLİ RƏHMANOV CƏNABLARINA

9 sentyabr 1993-cü il..... 127

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏLAHİYYƏTLƏRİNİ HƏYATA KEÇİRƏN RESPUBLİKA ALİ SOVETİNİN SƏDRİ HEYDƏR ƏLİYEVİN MƏTBUAT KONFRANSINDA BƏYANATI

10 sentyabr 1993-cü il..... 128

BƏSTƏKAR ARİF MƏLİKOVA

14 sentyabr 1993-cü il.....138

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNDƏ KECİRİLMİŞ MÜŞAVİRƏDƏ ÇIXIŞ

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

20 sentyabr 1993-cü il.....139

AZƏRBAYCAN RESPUBLİKASI ELMLƏR AKADEMİYASINDA ZİYALILARLA GÖRÜŞDƏ ÇIXIŞ

21 sentyabr 1993-cü il.....148

RESPUBLİKA ALİ SOVETİNDƏ GƏNCLƏRİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

22 sentyabr 1993-cü il.....164

AKADEMİK AZAD MİRZƏCANZADƏYƏ

28 sentyabr 1993-cü il.....183

BAKI KONDİSİONER ZAVODUNDA PAYTAXTIN SƏNAYE MÜƏSSİSƏLƏRİ ƏMƏK KOLLEKTİVLƏRİ NÜMAYƏNDƏLƏRİNİN MİTİNQİNDƏ ÇIXIŞ

28 sentyabr 1993-cü il.....184

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN İCLASINDA RESPUBLİKADA QANUNSUZ HƏBSLƏR OLUB-OLMAMASI HAQQINDA MƏSƏLƏNİN MÜZAKİRƏSİ İLƏ BAĞLI ÇIXIŞ

29 sentyabr 1993-cü il.....190

BEYNƏLXALQ "AHILLAR GÜNÜ" MÜNASİBƏTİLƏ MÜRACİƏT

1 oktyabr 1993-cü il..... 198

ÜMUMÇIN XALQ NÜMAYƏNDƏLƏRİ MƏCLİSI DAİMİ KOMİTƏSİNİN SƏDRİ TSYAO Şİ CƏNABLARINA

1 oktyabr 1993-cü il.....199

XALQ ŞAİRİ MƏMMƏD ARAZA

6 oktyabr 1993-cü il.....200

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN ANDİÇMƏ MƏRASİMİNDƏ NİTQ

10 oktyabr 1993-cü il.....201

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AZƏRBAYCANIN MÜSTƏQİLLİK GÜNÜ MÜNASİBƏTİLƏ XALQA TƏBRİK

18 oktyabr 1993-cü il.....209

ATƏM-in SƏDRİ İSVEÇİN XARİCİ İŞLƏR NAZİRİ MARQARETA AF UQLAS İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

26 oktyabr 1993-cü il.....210

MARQARETA AF UQLAS İLƏ DANIŞIQLAR BAŞA ÇATDIQDAN SONRA BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

26 oktyabr 1993-cü il.....216

"TÜRKİYƏ CÜMHURİYYƏTİ - 70" ELMİ-PRAKTİK KONFRANSININ İŞTİRAKÇILARINA

26 oktyabr 1993-cü il.....220

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ƏLAHƏZRƏT SÜLEYMAN DƏMİRƏL CƏNABLARINA

28 oktyabr 1993-cü il..... 220

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ƏLAHƏZRƏT XANIM TANSU ÇİLLƏRƏ

28 oktyabr 1993-cü il.....221

TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ ƏLAHƏZRƏT HÜSAMƏDDİN CİNDORUQ CƏNABLARINA

28 oktyabr 1993-cü il.....221

AZƏRBAYCAN VƏ İRAN PREZİDENTLƏRİ ARASINDA DANIŞIQLARIN YEKUNLARINA HƏSR OLUNMUŞ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

28 oktyabr 1993-cü il..... 222

ERMƏNİSTAN SİLAHLI QÜVVƏLƏRİNİN AZƏRBAYCAN RESPUBLİKASININ ƏRAZİSİNƏ YENİ HÜCUMLARI VƏ TƏCAVÜZÜ İLƏ BAĞLI MİLLİ TELEVİZİYA VƏ RADİO İLƏ XALQA MÜRACİƏT

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

2 noyabr 1993-cü il..... 227

KEÇMİŞ BEYNƏLMİLƏLÇİ DÖYÜŞÇÜLƏRLƏ GÖRÜŞDƏ ÇIXIŞ

4 noyabr 1993-cü il..... 243

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN İCLASINDA ÇIXIŞ

5 noyabr 1993-cü il.....246

AZƏRBAYCANIN SİYASİ PARTİYALARININ VƏ İCTİMAİ HƏRƏKATLARININ RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

17 noyabr 1993-cü il..... 248

PREZİDENT SARAYINDA BANK-MALİYYƏ, TƏDİYƏ SİSTEMLƏRİNİN VƏ İDXAL-İXRAC ƏMƏLİYYATLARININ VƏZİYYƏTİNƏ VƏ ONU YAXŞILAŞDIRMAQ SAHƏSİNDƏ VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ ÜMUMRESPUBLİKA MÜŞAVİRƏSİNDƏ ÇIXIŞ

19 noyabr 1993-cü il.....257

PREZİDENT SARAYINDA RESPUBLİKANIN SOSİAL-İQTİSADİ PROBLEMLƏRİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ ÇIXIŞ

24 noyabr 1993-cü il.....266

PREZİDENT SARAYINDA MALİYYƏ SİSTEMİNDƏ VƏ ƏHALİNİN TAXIL MƏHSULLARI İLƏ TƏCHİZATINDA OLAN CİDDİ NÖQSANLARIN ARADAN QALDIRILMASINA HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ ÇIXIŞ

8 dekabr 1993-cü il..... 273

CƏBHƏYANI BÖLGƏDƏ - İMİŞLİ, FÜZULİ, BEYLƏQAN, ŞƏMKİR, AĞCABƏDİ RAYONLARINDA VƏ GƏNCƏ ŞƏHƏRİNDƏ GÖRÜŞLƏR ZAMANI ÇIXIŞLAR

11-12 dekabr 1993-cü il..... 277

XALQ RƏSSAMI TAHİR SALAHOVA

15 dekabr 1993-cü il.....290

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AZƏRBAYCAN RESPUBLİKASI ELMLƏR AKADEMİYASININ VİTSE-PREZİDENTİ, AKADEMİK ZİYA BÜNYADOVA

20 dekabr 1993-cü il.....291

FRANSAYA RƏSMİ SƏFƏR ZAMANI PARİSDƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

21 dekabr 1993-cü il.....292

MDB DÖVLƏT BAŞÇILARI ŞURASININ İCLASINDA BƏYANAT

24 dekabr 1993-cü il..... 297

AKADEMİK ELDAR SALAYEVƏ

24 dekabr 1993-cü il..... 300

AZƏRBAYCANIN MİLLİ QƏHRƏMANLARI VƏ VƏTƏNİMİZİN AZADLIĞI UĞRUNDA ŞƏHİDLƏRİN AİLƏ ÜZVLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

27 dekabr 1993-cü il..... 301

XALQA YENİ İL MÜRACİƏTİ

31 dekabr 1993-cü il..... 306

HƏRBİ HİSSƏLƏRİ ÖZBAŞINA TƏRK ETMİŞ VƏ YA ÇAĞIRIŞDAN YAYINMIŞ GƏNCLƏRİN BİR QRUPU, ONLARIN VALİDEYNLƏRİ VƏ YAXIN QOHUMLARI İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

2 yanvar 1994-cü il..... 310

YEKUN ÇIXIŞI.....312

BÖYÜK BRİTANİYANIN BAŞ NAZİRİ, ZATİ-ALİLƏRİ CON MEYCOR CƏNABLARINA

3 yanvar 1994-cü il.....314

ZAQAFQAZİYADAKI RUSİYA QOŞUNLARININ KOMANDANI GENERAL-POLKOVNİK FYODOR REUTLA GÖRÜŞDƏ ÇIXIŞ

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

6 yanvar 1994-cü il.....315

İSA PEYĞƏMBƏRİN MÖVLUD BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCANDAKI PRAVOSLAV İCMASINA TƏBRİK

7 yanvar 1994-cü il.....319

AZƏRBAYCAN DÜNYANIN BÜTÜN ÖLKƏLƏRİNDƏ YAŞAYAN AZƏRBAYCANLILARIN VƏTƏNİDİR. XARİCDƏ YAŞAYAN SOYDAŞLARIMIZIN BİR QRUPU İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

9 yanvar 1994-cü il..... 320

20 YANVAR FACİƏSİNƏ TAM SİYASİ-HÜQUQİ QİYMƏT VERİLMƏLİDİR.

20 YANVAR FACİƏSİNİN DÖRDÜNCÜ İLDÖNÜMÜ İLƏ BAĞLI TƏDBİRLƏRİN HAZIRLANMASI VƏ KEÇİRİLMƏSİ ÜZRƏ DÖVLƏT KOMİSSİYASİNIN İCLASINDA ÇIXIŞ

12 yanvar 1994-cü il..... 326

SİZİN BİLİYİNİZƏ VƏ TƏCRÜBƏNİZƏ VƏTƏNİN EHTİYACI VAR PREZİDENT APARATINDA ZABİTLƏRİN BİR QRUPU İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

13 yanvar 1994-cü il.....334

20 YANVAR FACİƏSİNİN DÖRDÜNCÜ İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ XALQA MÜRACİƏT

19 yanvar 1994-cü il.....337

BAŞ VERMİŞ FACİƏLƏR XALQIMIZIN İRADƏSİNİ QIRA BİLMƏZ

BAKIDA 1990-cı İLİN FACİƏLİ YANVAR HADİSƏLƏRİ ZAMANI ŞƏHİD OLANLARIN AİLƏ ÜZVLƏRİLƏ HƏMİN GÜNLƏRDƏ YARALANIB ƏLİL OLANLARIN BİR QRUPU İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

19 yanvar 1994-cü il..... 338

VƏTƏN TORPAQLARINI İŞĞALÇILARDAN AZAD EDƏCƏYİK

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"N" hərbi hissəsinin əsgər və zabitləri ilə görüşdə çıxış 24 yanvar 1994-cü il 344

ÖLKƏMİZİN SUVERENLİYİNİ VƏ ƏRAZİ BÜTÖVLÜYÜNÜ QORUMAQ ÜÇÜN BİZİM KİFAYƏT QƏDƏR QÜVVƏ VƏ İMKANLARIMIZ VARDIR

Rusiya Federasiyası Xariçi İşlər Nazirliyin əlahiddə tapşırıqlar üzrə səfiri V.Kazimirovla görüşdə çıxış 31 yanvar 1994-cü il 347

BÖYÜK BRİTANİYA XARİCİ İNKİŞAF NAZİRLİYİNİN DÖVLƏT NAZİRİ ZATİ-ALİLƏRİ BARONESSA ÇALMER OF VOLESİYƏ

4 fevral 1994-cü il 351

AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİNİN RƏHBƏRLƏRİ, NEFTÇI ALİM VƏ MÜTƏXƏSSİSLƏR İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

5 fevral 1994-cü il 352

XALQ ARTİSTİ, KINOREJİSSOR TOFİQ MEHDİ OĞLU TAĞIZADƏYƏ

7 fevral 1994-cü il 353

İSTƏRDİK Kİ, YAXŞI MÜTƏXƏSSİS OLUB VƏTƏNİMİZƏ, XALQIMIZA, MİLLƏTİMİZƏ GƏLƏCƏKDƏ SƏDAQƏTLƏ XİDMƏT EDƏSİNİZ TÜRKİYƏNİN ALİ MƏKTƏBLƏRİNDƏ TƏHSİL ALMAĞA YOLA DÜŞƏN AZƏRBAYCANLI TƏLƏBƏLƏRLƏ GÖRÜŞDƏ ÇIXIŞ

7 fevral 1994-cü il 354

İSTANBUL BEYNƏLXALQ "SÜLH VƏ SƏBR" KONFRANSININ İŞTİRAKÇILARINA

7 fevral 1994-cü il 357

TÜRKİYƏ CÜMHURİYYƏTİNƏ RƏSMİ SƏFƏRƏ YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ

8 fevral 1994-cü il 358

TÜRKİYƏ CÜMHURİYYƏTİ PREZİDENTİNİN İQAMƏTGAHI "ÇANKAYA" KÖŞKÜNDƏ RƏSMİ QARŞILANMA MƏRASİMİNDƏ NİTQ

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

8 fevral 1994-cü il.....359

ANKARADAKI "ANITKABIR" MƏQBƏRƏSİNDƏ
TÜRKİYƏ CÜMHURİYYƏTİNİN BANİSI, GÖRKƏMLİ SİYASİ
VƏ İCTİMAİ XADİM MUSTAFA KAMAL ATATÜRKÜN
MƏZARINI ZİYARƏT ETDİKDƏN SONRA XATİRƏ KİTABINA
YAZDIĞI ÜRƏK SÖZLƏRİ

8 fevral 1994-cü il.....361

ANKARADA "ÇANKAYA" KÖŞKÜNDƏ
AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ ZİYAFƏTDƏ NİTQ

8 fevral 1994-cü il.....362

TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏÇLİSİNDƏ ÇIXIŞ

9 fevral 1994-cü il.....365

TÜRKİYƏ - AZƏRBAYCAN SƏNƏDLƏRİNİN İMZALANMASI
MƏRASİMİNDƏ NİTQ

9 fevral 1994-cü il.....374

ANKARA HÖÇƏTTƏPƏ UNİVERSİTETİNİN FƏXRİ
DOKTORU DİPLOMUNUN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ ÇIXIŞ

9 fevral 1994-cü il.....376

BİLKƏND UNİVERSİTETİ İDARƏ HEYƏTİNİN SƏDRİ
İHSAN DOĞRAMAÇI İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

9 fevral 1994-cü il.....380

ANKARADA DÜNYA ÖLKƏLƏRİNİN TÜRKİYƏDƏKİ SƏFİRLƏRİ
VƏ DİPLOMATİK HEYƏTLƏRİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

9 fevral 1994-cü il.....383

İSTANBULDA "SÜLH VƏ SƏBR" BEYNƏLXALQ DİNİ
KONFRANS NÜMAYƏNDƏLƏRİ QARŞISINDA ÇIXIŞ

10 fevral 1994-cü il.....386

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

TÜRKİYƏNİN İŞ ADAMLARININ BÖYÜK BİR QRUPU İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

10 fevral 1994-cü il..... 390

TÜRKİYƏDƏ RƏSMİ SƏFƏRDƏ OLARKƏN ORADA YAŞAYAN AZƏRBAYCANLILARLA GÖRÜŞDƏ ÇIXIŞ

10 fevral 1994-cü il.....393

İSTANBULDA MƏTBUAT MƏRKƏZİNDƏ JURNALİSTLƏR VƏ KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ NÜMAYƏNDƏLƏRİ ÜÇÜN MƏTBUAT KONFRANSINDA BƏYANAT

11 fevral 1994-cü il.....399

PREZİDENT SARAYINDA GENİŞ OPERATİV MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ

20 fevral 1994-cü il.....411

YEKUN SÖZÜ……...……411

BÖYÜK BRİTANİYAYA RƏSMİ SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ

22 fevral 1994-cü il.....414

BÖYÜK BRİTANİYA SƏNAYEÇİLƏRİ KONFEDERASİYASINDA ÇIXIŞ

22 fevral 1994-cü il.....416

BÖYÜK BRİTANİYA KRAL BEYNƏLXALQ MÜNASİBƏTLƏR İNSTİTUTUNDA ÇIXIŞ

23 fevral 1994-cü il.....420

LONDONUN "HİLTON" OTELİNDƏ BÖYÜK BRİTANİYADA YAŞAYAN AZƏRBAYCANLILARLA GÖRÜŞDƏ ÇIXIŞ

23 fevral 1994-cü il.....430

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"AZƏRBAYCAN İLƏ BÖYÜK BRİTANİYA ARASINDA MÜNASİBƏTLƏRİN İNKİŞAFI ÜÇÜN YAXŞI PERSPEKTİVLƏR VAR"

Böyük Britaniyaya rəsmi səfərin yekunlarına dair mətbuat konfransında bəyanat

24 fevral 1994-cü il.....436

XOCALI SOYQIRIMI QURBANLARININ AİLƏLƏRİNƏ

1 mart 1994-cü il.....442

AZƏRBAYCAN TELEQRAF AGENTLİYİNİN - AzərTAC-IN KOLLEKTİVİNƏ

3 mart 1994-cü il..... 443

PREZİDENT SARAYINDA KƏND TƏSƏRRÜFATI PROBLEMLƏRİNİN HƏLLİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ NİTQ

4 mart 1994-cü il.....……..……444

ÇIN XALQ RESPUBLİKASINA RƏSMİ SƏFƏR ZAMANI PEKİNDƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

8 mart 1994-cü il.....458

PEKİNDƏ BEYNƏLXALQ TİCARƏTİN İNKİŞAFINA YARDIM KOMİTƏSİNDƏ ÇIXIŞ

9 mart 1994-cü il..... 466

PEKİN İCTİMAİ ELMLƏR AKADEMİYASINDA ÇIXIŞ

9 mart 1994-cü il.....470

ÇİN XALQ RESPUBLİKASINDAN BAKIYA QAYIDARKƏN ALMATIDA SƏFƏRİN YEKUNLARI BARƏDƏ JURNALİSTLƏR QARŞISINDA ÇIXIŞ

10 mart 1994-cü il.....476

ALMATIDA N.NAZARBAYEVLƏ GÖRÜŞDƏ ÇIXIŞ

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

10 mart 1994-cü il.....477

ORUCLUQ BAYRAMI MÜNASİBƏTİLƏ XALQA TƏBRİK

12 mart 1994-cü il.....479

ORUCLUQ BAYRAMI GÜNÜ MÜQƏDDƏS YERLƏRƏ ZİYARƏT

1 mart 1994-cü il..... 480

NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ XALQA MÜRACİƏT

20 mart 1994-cü il..... 482

PREZİDENT SARAYINDA PAMBIQÇILIQLA MÖVCUD VƏZİYYƏT VƏ SƏPİN KAMPANİYASINA HAZIRLIQLA ƏLAQƏDAR PROBLEMLƏRİN HƏLLİ YOLLARINA HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ YEKUN ÇIXIŞI

30 mart 1994-cü il..... 486

RESPUBLİKANIN CƏNUB-QƏRB BÖLMƏSİNƏ SƏFƏR ZAMANI GÖRÜŞLƏR

9-10 aprel 1994-cü il..... 497

ERMƏNİSTANIN AZƏRBAYCANA QARŞI TƏCAVÜZÜNÜN GÜCLƏNMƏSİ İLƏ ƏLAQƏDAR RESPUBLİKA MİLLİ TELEVİZİYA VƏ RADİOSU İLƏ XALQA MÜRACİƏT

12 aprel 1994-cü il..... 514

MDB DÖVLƏT BAŞÇILARI ŞURASININ İCLASINDA ERMƏNİSTAN SİLAHLI QÜVVƏLƏRİNİN AZƏRBAYCAN ƏRAZİSİNDƏ GENİŞMİQYASLI HÜCUMLARI İLƏ ƏLAQƏDAR BƏYANAT

15 aprel 1994-cü il.....523

PREZİDENT SARAYINDA AZƏRBAYCAN ƏRAZİSİNƏ ERMƏNİSTAN SİLAHLI QÜVVƏLƏRİNİN YENİ HÜCUMLARI İLƏ ƏLAQƏDAR GÜCLÜ ORDU YARATMAQ ÜÇÜN BÜTÜN QÜVVƏLƏRİN SƏFƏRBƏRLİYƏ ALINMASI VƏZİFƏLƏRİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

17 aprel 1994-cü il.....526

YEKUN SÖZÜ.....530

PREZİDENT SARAYINDA DAXİLİ İŞLƏR NAZİRLİYİ
RƏHBƏR İŞÇİLƏRİNİN GENİŞ MÜŞAVİRƏSİNDƏ GİRİŞ SÖZÜ

29 aprel 1994-cü il.....537

YEKUN SÖZÜ.....540

PASXA BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCANIN
XRİSTİAN VƏTƏNDAŞLARINA TƏBRİK

29 aprel 1994-cü il..... 545

BRÜSSELƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA
LİMANINDA JURNALİSTLƏRƏ BƏYANAT

3 may 1994-cü il.....546

BRÜSSELDƏ NATO ŞURASININ İCLASINDA ÇIXIŞ

4 may 1994-cü il..... 548

BRÜSSELDƏ BEYNƏLXALQ MƏTBUAT MƏRKƏZİNDƏ
MƏTBUAT KONFRANSINDA ÇIXIŞ

4 may 1994-cü il.....551

"SÜLH NAMİNƏ TƏRƏFDAŞLIQ" ÇƏRÇİVƏ SƏNƏDİNİN
İMZALANMA MƏRASİMİNDƏ BƏYANAT

4 may 1994-cü il.....558

1941-1945-ci İLLƏR MÜHARİBƏSİNİN QƏLƏBƏ İLƏ BAŞA ÇATMASININ
49-CU İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ GÖRÜŞLƏR

9 may 1994-cü il.....562

AZƏRBAYCANIN XALQ ARTİSTİ HACIBABA AĞARZA
OĞLU BAĞIROVA

13 may 1994-cü il..... 567

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

PREZİDENT SARAYINDA ƏHALİNİN SOSİAL MÜDAFİƏSİNİ GÜCLƏNDİRMƏK VƏ İQTİSADİYYATIN MALİYYƏ VƏZİYYƏTİNİN SABİTLƏŞMƏSİNİ TƏMİN ETMƏK TƏDBİRLƏRİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ

20 may 1994-cü il.....568

YEKUN SÖZÜ.....568

QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ XALQA TƏBRİK

20 may 1994-cü il.....576

QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ BAKI ZƏHMƏTKEŞLƏRİ İLƏ GÖRÜŞLƏR

21 may 1994-cü il..... 577

BAKIDA XƏZƏR DƏNİZİNDƏ NEFT-QAZ HASİLATINA DAİR I BEYNƏLXALQ SƏRGİNİN AÇILIŞINDA ÇIXIŞ

24 may 1994-cü il.....594

XALQ YAZIÇİSI İLYAS ƏFƏNDİYEVƏ

25 may 1994-cü il.....597

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

HEYDƏR ƏLİRZA OĞLU ƏLİYEV

MÜSTƏQİLLİYİMİZ ƏBƏDİDİR

B a k ı - Azərnəşr - 1997

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kitabın hazırlanmasında iştirak edənlər:

Tofiq Babayev, Azər Bağırov, Qəzənfər Zalıyev, Arif Məmmədov, Müzəffər Maşayev, Kamil Muxtarov, Azər Fərzəliyev, Eyvaz Həsənov

Rəssamı Fuad Fərəcov

Redaktorları Tofiq Babayev, Kamil Muxtarov

Bədii redaktoru Rəfail Əzizov
Texniki redaktoru Zoya Nəçəfova
Korrektorları Validə Musayeva, Afaq Bağırova

"Tayms" qarnitur. Formatı 60x90 $^{1}/_{16}$. Mətbəə kağızı № 1. Şərti çap vərəqi 39,96. Uçot nəşr vərəqi 40. Sifariş 156. Muqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyi;
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı, - 370005, Hüsü Haçıyev küç. 4.
Yığılmışdır "Şərq-Qərb" mətbəəsində. Bakı, Aşıq Ələsgər küç. 17.

"Qismət" Nəşriyyat, Poliqrafiya və Ticarət LTD tərəfindən çap olunmuşdur.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional